# AZƏRBAYCAN

## QƏZETİ

*1918-1920-ci illərdə nəşr olunmuş*
*"Azərbaycan" qəzetinin tam külliyyatı*

***20 clddə***

## V CİLD

(Fevral 1919)



ADA
UNİVERSİTET UNIVERSITY

# AZƏRBAYCAN

QƏZETİ

1918-1920

V CİLD

(Fevral 1919)

## TRANSLİTERASİYA EDƏNLƏR

**Mehdi Gəncəli**
Filologiya üzrə fəlsəfə doktoru

**Azad Ağaoğlu**
Filoloq, tərcüməçi

## ELMİ REDAKTOR

**Teymur Kərimli**
Akademik

**ADA Universitetinin**
**təşəbbüsü və dəstəyi ilə nəşr edilir.**

# MÜNDƏRİCAT

**Ön söz**

**Oxucuların diqqətinə**

**Nömrə 103** (2 fevral 1919) ........ **1**
**Nömrə 104** (3 fevral 1919) ........ **21**
**Nömrə 105** (4 fevral 1919) ........ **41**
**Nömrə 106** (5 fevral 1919) ........ **61**
**Nömrə 107** (6 fevral 1919) ........ **81**
**Nömrə 108** (7 fevral 1919) ........ **99**
**Nömrə 109** (9 fevral 1919) ........ **117**
**Nömrə 110** (10 fevral 1919) ........ **137**
**Nömrə 111** (11 fevral 1919) ........ **153**
**Nömrə 112** (12 fevral 1919) ........ **169**
**Nömrə 113** (13 fevral 1919) ........ **187**
**Nömrə 114** (14 fevral 1919) ........ **205**
**Nömrə 115** (17 fevral 1919) ........ **223**
**Nömrə 116** (18 fevral 1919) ........ **243**
**Nömrə 117** (19 fevral 1919) ........ **263**
**Nömrə 118** (20 fevral 1919) ........ **281**
**Nömrə 119** (21 fevral 1919) ........ **301**
**Nömrə 120** (23 fevral 1919) ........ **319**
**Nömrə 121** (24 fevral 1919) ........ **339**
**Nömrə 122** (25 fevral 1919) ........ **357**
**Nömrə 123** (26 fevral 1919) ........ **377**
**Nömrə 124** (27 fevral 1919) ........ **397**
**Nömrə 125** (28 fevral 1919) ........ **417**
**Adlar göstəricisi** ........ **437**

# ÖN SÖZ

ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı olan "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatı ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülərək, lüğət, izahlar, şərhlər və adlar göstəricisi əlavə edilməklə nəşrə hazırlanmaqdadır. Təəssüflə qeyd etmək lazımdır ki, bu istiqamətdə ayrı-ayrı təşəbbüslər olsa da (mərhum professor Şirməmməd Hüseynovun çalışmaları xüsusilə yada salınmalıdır), "Azərbaycan" qəzeti kimi mühüm bir nəşrin müasir oxucu üçün əlçatan olmasını təmin edəcək bu səviyyədə bir iş, 30 illik müstəqillik dövründə həyata keçirilməmişdir.

"Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də, Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 – 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və

Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir.

"Azərbaycan" qəzetinin nüsxələri Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində, Azərbaycan Respublikasının Dövlət Arxivində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Kitabxanasında pərakəndə halda saxlanmaqdadır.

Qəzetin müasir oxucu üçün əlçatan olması tariximizin Cümhuriyyət dövrü kimi zəngin səhifəsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə töhfə verməkdən ADA Universiteti qürur duyur.

**Hafiz PAŞAYEV,**
**ADA Universitetinin Rektoru**



## OXUCULARIN DİQQƏTİNƏ

"Azərbaycan" qəzetini transliterasiya edərkən, mətnin orijinallığını qorumaqla birgə, materialların müasir oxucu üçün mümkün qədər anlaşılan olmasına çalışdıq. Bu səbəbdən, bəzi sözlərin imlasını müasirləşdirmək lazım gəldi. Məsələn, "çox" yerinə qəzetdəki kimi "çoq", "yox" yerinə "yoq", "etməyi" yerinə "etməgi", "kimi" yerinə "kibi", "nömrə" yerinə "numero" və s. yazmaq, oxucunun işini çətinləşdirməkdən başqa bir şeyə yaramayacaqdı. Üstəlik, bu sözlərin fərqli yazılışları qəzetdə bəzən eyni səhifədə yanaşı istifadə edilmiş, yəni imla birliyi prinsipi nəzərə alınmamışdı. Bu qəbildən olan sözlərin müasir yazılışına üstünlük verməyin, daha doğru bir addım olacağına inandıq.

Eyni zamanda, "teatro", "qəzetə", "böylə" kimi bəzi sözlərə toxunmadıq. Çünki əvvəla, bu sözlər qəzetdə həmişə eyni cür yazılmışdır; ikincisi də, mütaliəni çətinləşdirmədən dövrün ab-havasını saxlamağa xidmət edir.

Osmanlı türkcəsində və müasir Türkiyə türkcəsində indiki zaman şəkilçisi olan "-yor" qəzetdə qaydasız və pərakəndə bir şəkildə işləndiyi üçün (eyni cümlədə həm "-yor", həm "-ır, -ir, -ur, -ür" şəkilçisindən istifadə edildiyini görmək mümkündür) mətndən çıxarılmışdır. Şeir parçalarında vəznin pozulmasına yol verməmək üçün "-yor" şəkilçisinin saxlandığı istisnalar da var.

Yer adlarını, fərqli versiyaların işlənməsi baxımından (Bolqarıstan – Bolqariya, Lehistan – Polşa, Macarıstan – Venqriya və s.) qəzetdəki kimi saxladıq, fəqət yazılış baxımından müasirləşdirdik ("Bulqarıstan" yerinə "Bolqarıstan", "Kiyef" yerinə "Kiyev" və s.). Eləcə də, "Bakü" yerinə bugünkü kimi "Bakı" yazdıq. Soyadı sonluqlarını da ("-of", "-yef" və s.) müasirləşdirməyi ("-ov", "-yev" və s.) məqsədəuyğun hesab etdik.

Çətin anlaşılan söz və ifadələr üçün cildin sonuna lüğət əlavə etməyi münasib görmədik. Əvvəla, hər dəfə mütaliəni kəsərək lüğətə baxmaq oxucu üçün çətindir, ikincisi, bəzi sözlərin bir çox mənası içindən məhz hansının nəzərdə tutulduğunu təyin etmək barəsində oxucu tərəddüddə qala bilər. Çətin anlaşılan söz və ifadələrin necə başa düşülməli olduğunu mətnin içində kvadrat mötərizədə göstərdik. Bu halda, kvadrat mötərizədəki sözlər normal mətndən daha kiçik şriftlə verilmişdir. Məsələn: "...xəstəliklərin bittamam rəf'inə [tamamilə aradan qaldırılmasına] qədər..." Qəzetdəki mətndə səhvən buraxılan sözləri də kvadrat mötərizə içində əlavə etdik. Bu halda, kvadrat mötərizədəki sözlərlə normal mətnin şrifti eynidir. Məsələn: "...Xarici [İşlər] nazirinin..."

Hər nömrədən sonra əlavə edilən "Qeyd və şərhlər"də, oxucular üçün faydalı məlumatlar yer alır. Qəzetdəki mürəttib xətalarından bəziləri (xüsusilə əhəmiyyətli olanları) də burada göstərilmişdir. Əlbəttə, bütün xətaları göstərmək lazım və mümkün deyildi. Xüsusilə Birinci Dünya müharibəsində Qərb cəbhəsi xəbərlərində keçən toponimlər qəzetdə demək olar ki, həmişə səhv yazılmışdır. Bu toponimlər mümkün qədər bərpa edilmiş, eləcə də "Adlar göstəricisi"nə əlavə edilərkən, toponimin aid olduğu dildəki yazılışı da verilmişdir.

Şeir parçalarında rastlanan çətin anlaşılan söz və ifadələrin lüğəti də "Qeyd və şərhlər" bölməsində verilmişdir.

Cildin sonunda "Adlar göstəricisi" verilmişdir. Mətndəki bütün şəxs, yer, dövlət, xalq, qurum, idarə, təşkilat, şirkət və s. adları, hətta bəzi xüsusi terminlər "Adlar göstəricisi"nə daxil edilmişdir.

**Mehdi Gəncəli** **Azad Ağaoğlu**


آذربایجان

اعلان

آذربایجان حکومتنك قرارلرندن

حکومت امرلری

گنجه

Bazar, 2 fevral 1919-cu il, nömrə 103

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 1 cəmadiyələvvəl sənə 1337. 2 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## İKİ KONFRANS

Mənən olmasa da, maddətən bu günün hakimi olduqları kimsə tərəfindən inkar olunmayan qalib dövlətlərin mərifətilə [sayəsində] Parisdə, "Versal"da dövlətlərin nümayəndələrindən ibarət bir konfrans açılmaqdadır.

Bu konfransla bərabər maddətən olmasa da, mənən bu günün hakim əfkarı [fikri] olan demokratiya naminə ümumdünya sosialistləri tərəfindən İsveçrədə, Bern şəhərində digər bir konfrans, Sosialistlər Konfransı toplanmaqdadır.

Dünyanın cahangirləri qarşı-qarşıya gəldilər. Dünya alt-üst oldu, qiyamət qopdu! Cahangirlərdən bir zümrəsi qalib, digəri məğlub oldu. Toplar dayandı. Hesab günü gəldi. Divani-mühasibat quruldu. Bu divana yalnız qaliblərlə məğlublar deyil, bütün dünya gəlir, bütün millətlər ərzi-hesab edirlər.

Təbiətdə itlaq [mütləqlik] yoxdur. Hər şey nisbidir.

Bu divana ərz olunan hesablar bir ədaləti-möhsinə üzərinə [gözəl və xeyirli bir ədalətlə] görüləcəkmidir? Görülə biləcəkmidir?

Bu bir məsələdir.

Biz Parisdə toplanacaq Sülh Konfransından bahis [bəhs edən] "Hesab günü" ünvanı ilə yazdığımız məqalədə bu divandan çıxacaq hökmlərin kimidən ötrü "cənnət", kimidən ötrü "cəhənnəm", kimidən ötrü "bərzəx" qərarını verəcəyini təsəvvür etmişdik.

Fəqət bunu təsəvvür edərkən oxuyucular bilərlər ki, "Versal" divanının adili-mütləq [mütləq ədalət sahibi] olacağına çox da iman etməmişdik. Müsəlman sosialistlərinin naşiri-əfkarı [mətbuat orqanı] bulunan "Al bayraq"ın isnad eylədiyi kimi bu konfransı biz "günah"ları, "savab"ları **adilanə** ölçə bilər qiyaməti-ilahi deyə tələqqi etmədik [qiymətləndirmədik]. Böylə tələqqi etmiş olsaydıq, o məqalədə bu sətirləri yazmazdıq:

*"Məhkəmənin bu üç hökmdən birisini verməsinə oradakı nümayəndələrimizin, təbiri-digərlə [başqa sözlə] dava vəkillərimizin məharəti, ciddiyyəti, səy və çalışqanlığı təsirsiz olmayacaq. Fəqət bu kifayət etməz! Lazımdır ki, biz də burada çalışaq, kəndimizi idarə edək. Behiştlik dərəcədə idarəyə istehqaq [haqq] qazanmış olduğumuzu isbat edək.*

*Bu vasitə ilə işin yarısı görülmüş olsa da, məhkəmə hökmünün xırda millətlər*

*haqqında tamamilə müvafiq çıxarılması üçün Avropa və Amerika demokratiyasının bu hökmlər üzərinə həqiqi bir nüfuz icra eyləməsini arzu etməliyiz. Bu nüfuz vaqe olarsa, o zaman bütün cahana qarşı elan olunan prinsiplər az-çox safiyyətini saxlar. Onların saflıqlarının məhfuz qalması [qorunması] isə bizim kimi xırda millətləri qurtarar. Dirilik yarlığını əllərimizə tapşırar."*

"Müsavat" başçılığından əvvəl bir mühərrir olan Rəsulzadənin "yanıldığını" isbat edən "sosialist" qəzetə görünür ki, münaqişə həvəsilə pürşur kəsilərək [həyəcanlanaraq] tənqid etdigi məqaləni diqqətlə oxumağa, aradan bir çox zaman keçmişsə də, vaxt bulammamışdır.

"Al bayraq" Berndəki sosialist konqresinin toplanmaq üzrə bulunduğu xəbəri çıxdıqdan sonra beynəlmiləl demokratiyanın Azərbaycan müqəddəratına təsirbəxş olacağından bəhs edirsə, biz daha böylə bir xəbər yox ikən, Yevropa və Amerika demokratiyasının Versal Konfransı üzərinə icrayi-təsir etməsini arzu eyləmişdik. Və "bu nüfuz vaqe olarsa, xırda millətlər qurtarar" demişdik. Bu məqsədlə dəxi "Paris Konfransını təbrik" deyil, Parisə qibtə edərkən kəndisinə xitab etmiş, demişdik ki:

*"Saqın; möhtəşəm salonlarından birisində, ehtimal ki, Versalın tarixi binasında, iniqad edəcək [yığışacaq] bəşəriyyət qarşısındakı məsul ricala [adamlara] təlqin et ki, məğrur olmasın, mövqe və iqtidarlarını sui-istemal [sui-istifadə] etməsin, yalnız bəşəriyyəti və yalnız istiqbali-bəşəri [bəşəriyyətin gələcəyini] düşünsünlər. Hökmlərini verərkən bütün demokratiyanın tələbini nəzərə alsınlar; məzarlarından qalxmış və diriliyə təşnə olmuş millətləri təkrar məzarlarına gömməsinlər!!"*

Arzu etdigimiz "demokratiya nüfuzu" deyəsən ki, təşəkkül etmək istəyir. Beynəlmiləl Sosialist Konqresi toplanır.

Berndən sədası gələn bu konqrenin Versal divanı üzərinə az-çox nüfuzu olacağını inkar edənlərdən deyiliz; əvvəla millətimizin kəndi ciddü cəhdindən və saniyən [ikincisi] dəxi bu "nüfuz və təsir" dən istifadə edəcəyini zatən "Hesab günü"ndə söyləmişdik.

Əvvəlcə dəxi yazmışdıq:

*"Bu hesab gününün nəticəsində dəxi bütün dünya millətlərinin 'behiştlik' olacaqlarına hökm verə bilmək üçün həddindən artıq nikbin olmaq lazımdır."*

Diqqət olunarsa, daima hesab divanından deyil, hesab günündən bəhs olunur. Bu günün divani-mühasibatı biri Versal, digəri Berndə olmaq üzrə iki məclisli ola bilər. Birincisi adili-mütləq olammazsa, ikinci məclis hakimi-mütləq ola biləcəkmidir? Zənn etməm. Bir kərə oraya toplaşacaq sosialistlər Versaldakı diplomatlar cinsindən olmasalar da, onlarla birlikdə Hərbi-ümumiyə [Dünya müharibəsinə] iştirak eyləmiş partiyalara mənsub adamlardır. Binaənileyh [ona görə], onların kamilən [tamamilə] bitərəf və "Al bayraq"ın istədiyi adili-mütləq adamlar olduğunu düşünmək üçün dəxi fəzlə nikbin olmaq gərək.

Bernin Versala müqabiləsini [qarşı durmasını] Rusiya inqilabındakı Əmələ Şurası [Fəhlə Soveti] ilə Müvəqqəti Hökumətə qiyas edənlər vardır. Rusiya mühitində Əmələ Şurası icrayi-nüfuz dərəcəsini keçib hökmdarlıq mərtəbəsinə çıxdı. Maddi və mənəvi bütün qüvvəti əlinə aldı.





Fəqət nəticədə Milyukovun almaq istədiyi İstanbul üzərində "israr" etmədisə də, kadetlərin "Moskvadan ziyadə mühafizə edəcəkləri" Bakıdan dəxi qolaylıqla əl çəkmədi. Qafqaziya, imperatorların gövhəri-tacı [tacının gövhəri] idi; demokratların tacı yox, fəqət mədələri var, iştəhaları kəsirdi. Qafqaziyanı bir gövhər kimi deyilsə də, bir malikanə kimi saxlamaq istədilər.

Nə məlum ki, Berndəki sosialistlər Rusiyadakı insanlardan deyil, başqa bir növ mələklərdən olacaqlar.

Məmafih [bununla belə], bununla biz Bern Konfransının Versal üzərində xırda millətlər nöqteyi-nəzərindən pək faydalı bir təsir icra edəcəyini inkar etmək istəməyiriz. Yalnız istəriz ki, həqiqəti olduğu kimi görərək pək də xəyalata qapılmayalım. Biləlim ki, bügünkü amil qüvvətlərin tənasübü son qərarın Versala aid olduğunu göstərməkdədir.

Məgər ki, yarınkı gün başqa bir hökm, başqa bir hikmətlə zühur edə!..

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**"İttihad" rəisinin sorğusu**

Bundan sonra "İttihad" firqəsi rəisi tərəfindən hökumətə xitabən verilmiş olan bu sorğunu katib oxuyur:

*1. Qara və ağ neft alış-verişinin ümum Qafqaziya əhalisi üçün müzirr [zərərli] bir şəkil aldığı, məmləkətin bu mühüm sərvətinin möhtəkirlər və avantüristlər əlində əhalini soymaq üçün alət olub, dövlətə möhtəkirlərin qazanclarına nisbətən cüzi bir mənfəət verdiyi hökumətə məlumdurmu? Məlum isə, bu yolda hökumətin fikri nə mərkəzdədir?*

*2. Əsgər naminə ucuz fiatla [qiymətlərlə] yaxud parasız əhalidən toplanmış olan zəxirə [ərzaq] haqqında məmurların icra etdikləri sui-istemal [sui-istifadə] hökumətə məlumdurmu? Məlum isə, bu xüsusda hökumət nə kimi tədbirlər ittixaz etmişdir [tədbirlər görmüşdür] və müqəssirlər haqqında nə kimi iqdamatda bulunulmaqdadır [hansı addımlar atılmaqdadır]?*

*3. Hacı Zeynalabdin Tağıyevin fabrikasından hökumətin icazəsi ilə əhali namına [adına] buraxılan malların möhtəkirlər tərəfindən yüksək qiymətə satıldığı, bu münasibətlə ehtikara [möhtəkirliyə] və sui-istemala geniş meydan açıldığı, bez və ağın arşınının füqəraya 15-17 manata mal olduğu [başa gəldiyi], bir çox hökumət ətrafında dolaşan adamların bu sui-istemala iştirak etdikləri hökumətə məlumdurmu? Məlum isə, bu yolda nə kimi tədbirlər ittixaz edilmiş və müqəssirlər haqqında nə kimi təşəbbüsatda bulunulmuşdur?*

*"İttihad" firqəsi rəisi:*
*doktor Qara bəy Qarabəyli.*

**Qarabəyli Qara bəy** - uzun bir nitqlə sorğunu müdafiə edərək deyir ki:

Bizim nöqsanımız yalnız bu deyil, çox nöqsanlarımız var. Fəqət bu üç məsələ həyatımızda qayət mühüm məsələlərdir. Azərbaycan ən zəngin məmləkətlərdən birisidir. Sərvətimizin də mühümü neftdir ki, bütün cahan ona möhtacdır. Fəqət bu sərvətlə bərabər qonşumuz olan məm-

ləkətlər Azərbaycandan çox ucuzluqdur. Neft ticarət və ixracının mən'i [qadağan edilməsi] haqqında çox qanunlar var. Fəqət bəzi xoşbəxtlər bilmirəm nüfuzlarınamı, qövmlüyəmi [qohumluğamı] ya xüsusi himayəyə görə lazım olan icazənaməni alır və alış-verişlərini edirlər. Bizim ayrı-ayrı şəxslərlə işimiz yoxdur, ancaq qaydanın pis götürüldüyünü göstərmək istəyiriz. Neft icazənaməsi ələni [açıq] surətdə bazarda satılır. *(Mərkəzdən və soldan: Doğrudur, doğrudur)*. Ona görədir ki, neftin putu 10 manat olduğu halda, Bakının özündə 20, Gəncədə isə 120 manata satılır. Həm də bu qədər qazanclar bir neçə möhtəkirin cibinə girərək, barı hökumət və millət xəzinəsinə bir mənfəət dolmur. Bu gün hər kəs istəyir gedək birjadan mən ona neçə vaqon neft icazəsi istəsə alım.

İkinci mühüm məsələ, Tağıyev fabrikasından buraxılan bez məsələsidir. Məmləkətimizdə özümüzə məxsus fabrikamız mövcuddur və bezin arşınını 5 manata buraxmaqda ikən, fəqir əhali aylarla fabrikanın və Nəzarətin [Nazirliyin] qapısında dayanaraq əliboş qayıdır. Amma bəzi məsudlar burada da işlərini düzəldə bilirlər. Bəzi adamlar fabrikadan bez buraxılması üçün tezcə icazənamə alır və bez əlinə çatan kimi fabrikanın qapısındaca arşını 12 manatdan satır, onu alan da aparıb yəqin ki, 15-17 manata satır. Bu surətlə heç ehtiyacı olmayan bez alır, mənfəətinə satır, amma möhtac olan fəqir əhali icazənamə ala bilməyib, bazardan 15-17 manata almağa məcbur olur. Ona görədir ki, fəqir camaat ac, çılpaq qalıb, içlərində yatalaq xəstəliyindən qırılır. Bu gün biz bunun qabağını almazsaq, bu hərəkətlərə sədd çəkməzsək, vətənin böyük xaini və xəstəlikdən qırılanların qanına məsul olacağız. Bu məsələni tezliklə bir qaydaya salmalıdır. Hərçənd biz böylə məsələlərdə mütəxəssis deyiliz, amma yenə bəzi çarələr göstərməyi lazım biliriz. Məsələn, hökumət bütün neft alış-verişini öz əlinə alıb, hasil olan nefti tamamilə alaraq, sonra müntəzəm mübadileyi-əmval [mal mübadiləsi] təyin edə bilər ki, bu da şübhəsiz ümum malların ucuzlaşmasına səbəb olar. Yaxud hökumət neft alış-verişini azad elan edərək hamıya izin versin və bu surətlə rəqabət çıxarsın. Bu dəxi əlbəttə malların ucuzlaşmasına bais olar. Biz bunu mütəxəssis kimi demiriz və təklif ediriz ki, hökumət Parlamanın iştirakı ilə və mütəxəssislər dəvət edərək bu işləri bir yaxşı nizama salsın.

Sorğumuzun üçüncü maddəsi buğda məsələsidir. Hamınıza məlumdur ki, türklər burada olan zaman qoşun ehtiyacı üçün fəqir kəndlilərdən xüms, zəkat və üşr adı ilə külli miqdarda buğda yığılmışdı. Aldığımız məlumata görə, buğda işlərində də böyük sui-istemallar olur. Hökumət məmurları da sui-istemalda iştirak edirlər. Məsələn, Quba uyezdində camaatdan külli miqdarda buğda yığılıb, hələ pulu da verilməmişdir. Həman buğda tələf edilmişdir. Hökumət məmurlarının iştirakı ilə bir neçə adam Qazax uyezdində daha da betərdir. Orada öylə böyük həngamələr olur ki, heç inanmazsınız. Eşitdiyimizə görə, orada hökumət məmurlarından ibarət dəstələr əmələ gəlmişdir ki, Azərbaycandan özgə məmləkətlərə neft və sair qadağan edilmiş şeylər aparırlar. Gəncə polismeysteri özü yazır ki, onun məmurlarının əksəri sui-istemal edirlər. Hökumət və Parlaman, camaat nəzərində nüfuzlarını saxlamaq və yüksəltmək üçün tədbirlər görməlidirlər. Hökumət məmurları özləri qanunu pozduqda və sui-istemala yer verdikdə, dəxi camaatdan nə tələb etmək olar? Burası hərc-mərc başlanğıcıdır və hökumət buna bir sədd çəkməlidir.

**Sədr** - sorğunu səsə qoyur, sorğu təcili olaraq qəbul edilir.

**İctimaiyyuni-inqilabiyyun komitəsi təklifi**

Bundan sonra katib, Bakı İctimaiyyuni-inqilabiyyun [Sosialist-inqilabçılar] komitəsi tərəfindən göndərilmiş olan bu məktubu oxuyur:

*Azərbaycan Məclisi-Məbusanı Rəisinə*

*Parlaman təşəkkülü qanununa görə məbuslar milliyyət əsası ilə seçilirlər. Bizim firqəmiz beynəlmiləl olduğuna görə milliyyət əsası ilə məbus keçirmək imkanımız yoxdur, ancaq firqə tərəfindən nümayəndə verə bilərik. Bütün millətlərin zəhmətkeş siniflərini təmsil edən İctimaiyyuni-inqilabiyyun firqəsi kəndli və fəhlələrin hüququnu hətta təşəkkül əsası bütün düzgün olmayan müəssisələrdə də müdafiə etməyi özünə borc bilir. Bakı və Gəncə quberniyalarında bizim firqəmizin Məclisi-Müəssisan seçkilərində aldığı səsləri Azərbaycan Məclisi-Məbusanında bizə beş yer haqqı verir. Bununla bəyan edirik ki, İctimaiyyuni-inqlabiyyun firqəsi Azərbaycan Parlamanına iştirak etməyi təhti-qərara almış və qanuni haqqı olan beş yerin firqəyə verilməsini təkid edir. Bizim bu bəyannaməmizi, cənab Sədr, təvəqqe edirik Parlamanın iclasına təklif edəsiniz.*

*Zaqafqaziya İctimaiyyuni-İnqilabiyyun komitəsinin Bakı mürəxəssləri [nümayəndələri]: Dmitr Serxalyev, Sako Saakyan.*

*İctimaiyyuni-inqlabiyyun firqəsi Bakı komitəsi sədri: Xristofor Yevanqulov.*

*Əvəzi-katib: L. Umanski.*

**Rüstəmbəyli Şəfi bəy** (Müsavat) - Həmişə Parlamanda birgə işləmək üçün bütün millətlərin Parlamanda bulunmaları tərəfdarı olduqlarını qeydlə təklif edir ki, İctimaiyyuni-inqlabiyyun firqəsi təklif[i] əsas etibarilə qəbul edilməklə, milli komitələr hesabına onlara yer verilməsinə razı olaraq, yerlərin miqdarını təyin etmək üçün məsələnin etibarnamə komisyonuna verilməsini təklif edir.

**Qardaşov** – "Əhrar" fraksiyası tərəfindən məzkur [deyilən] firqənin müraciətini təbriklə bərabər deyir ki, bu təklif qəbul ediləmməz. Çünki azlıqda qalan millətlərin yerləri milli şuralara verilmişdir. Bu gün o yerlər firqələrə verilərsə, yarın yer sahibi gəldikdə ixtilaf çıxar.

**Əhməd Cövdət** (Sosialistlər ittifaqından) - Həmişə siyasi firqələr və azlıqda qalan millətlərin Parlamanda bulunmalarını arzu etdiklərini və öz firqələrinin daima sosialist firqələrini Parlamanda iştiraka tərğib [rəğbətləndirməyə] və təşviqə çalışdıqlarını qeydlə təklif edir ki, İctimaiyyuni-inqlabiyyun firqəsinə Rusiya Məclisi-Müəssisanı seçkisində almış olduğu səslərə nisbətən malik olduğu haqqa görə yer verilsin.

**Ağa Aşurov** - Təklif edirəm ki, bu müraciətə rədd cavabı verilsin. Çünki gəlmək istəyənlər özlərini başqa bir höku-

mət üzvü hesab edirlər. *(Məhəmməd Əmin yerindən: Şimdi o hökuməti ləğv etmişlərdir.)* Bir də, əgər onlar beynəlmiləl bir sosialist firqəsi kimi gəlmək istəyirlərsə, Parlamanda sosialist fraksiyonu var. Bir millət kimi gəlirsələr, milli şuralar vasitəsilə gəlsinlər. Lakin milli şuraların yerlərini onlara verməyi mən qeyri-mümkün ədd [hesab] edirəm.

**Qarayev [Əliheydər]** (Hümmət) - Ağa Aşurov cənablarının sosialistlərin Parlamana gəlməsinə razı olmaması təbiidir. Yoldaşımız Əhməd bəy [Pepinov] dediyi kimi, sosialistlər milli şuralara daxil deyildirlər. Hətta mən deyirəm ki, Rus Milli Komitəsi "Yedinaya Rossiya" qəzetəsinin müdir və mühərrirlərindən ibarət olub da, həmişə yatıb yuxusunda böyük Rusiya görənlərdir. Onlar Azərbaycan Parlamanına gəlməzlər. Ona görədir ki, biz var qüvvəmizlə İctimaiyyuni-inqlabiyyun firqəsinin Parlamana daxil olmaq hüququnu müdafiə edəcəyiz.

**Rəsulzadə Məhəmməd Əmin** - Məlum ki, biz [istəyirik] ümum cərəyanlar, millətlər və firqələr Parlamanda iştirak etsinlər. Lakin biz o nikbinlərdən deyilik ki, deyək hamı bir dərəcədə bizimlə bərabər Azərbaycan istiqlalını və Azərbaycan əməlini [arzusunu] müdafiə edəcəkdir. Yenə də biz nikbinlik istəmiriz. Fəqət istərdik ki, fəaliyyətimizi tənqid, hərəkətlərimizə etiraz edənlər Parlaman xaricində olmayıb, Parlaman kürsüsündən tənqid etsinlər və buradaca cavablarını alsınlar. İctimaiyyuni-inqlabiyyun firqəsinin Parlamana daxil olması barəsində burada bəzi mülahizələr bəyan edirlər. Biz milli şuralara yer verdikdə həman şuraların siyasi firqələrdən mütəşəkkil olduğunu təsəvvür edirdik. Biz milli şuraların əhəmiyyətini təşəkkül etdikləri siyasi firqələr və Rusiya Məclisi-Müəssisanı seçkisində onların almış olduqları səsin miqdarı ilə ölçə biləriz. Burada Əhməd bəy və Qarayev İctimaiyyun firqəsinin Parlamana gəlmək istəməsini öz təşəbbüslərinin nəticəsi kimi istinad verdilər. Fəqət, bizcə bu işə anlı [ağıllı, düşüncəli], idraklı türk demokratiyasının təsiri daha böyük olmuşdur. Türk demokratiyası öz hüququnu, öz istiqlalını var qüvvəsi ilə müdafiə edəcəyini aydın-aşkar elam etdi [bildirdi] və bu gün bu müvəffəqiyyət demokratiyanın böylə qəti hərəkəti nəticəsidir. *(Alqış)* İdraklı türk demokratiyasının səsi sair firqələri də Parlamana gəlib bizimlə müttəhidən [birgə] çalışmağa vadar edəcəkdir. *(Alqış)* Mən yenə təkrar edirəm, əqəliyyət [azlıq] təşkil edən millətlərin milli şuralarına yer verildikdə seçki vaxtı siyahı çıxarmış və səs almış olan firqələrə yer verilirdi. O cümlədən İctimaiyyuni-inqlabiyyun, İctimaiyyuni-amiyyun [Sosial-demokrat], kadet və Daşnaksutyun firqələri də siyahı çıxarmışlardır. İctimaiyyuni-inqlabiyyun firqəsi siyahı çıxarmış, müəyyən miqdarda səs almış və bu surətlə bir qisim əhalini təmsil edir. Madam ki, bu firqə milli şuralar vasitəsilə gəlmək istəməyir, biz borcluyuz onların haqqı olan yerləri özlərinə verək; hətta gələcəkdə sair firqələr də Parlamana daxil olmaq istəsələr, onlara yer verək.

**S. M. Qənizadə** - Qarayev deyir ki, Rus Milli Şurası "vahid Rusiya" xəyalındadır və bizim yanımıza gəlməzlər. Görünür ki, sosialistlər bizim istiqlalımızı qəbul edirlər. Sosialistlərin Cümhuriyyət tərəfdarı olduqlarına biz inanırız. Bəlkə gələcəkdə sair firqələr də bu nöqteyi-nəzəri qəbulla Parlamana gəlmək istəyəcəklərdir. Əlbəttə, böylə isə biz onların həpsinə yer verməliyiz.

**Əhməd Cövdət** - Əsl məram məsələsində fəhlə və əkinçi, yəni ümum zəhmətkeşlər məsələsində onların bizimlə bir olacaqlarına mən Sultanməcid [Qənizadə] əfəndiyə söz verə bilərəm. Taktika məsələsində isə əlbəttə, onlar bizdən ayrı da gedə bilərlər.

**"Müsavat"ın təklifi**

**Hacıbababəyov** - "Müsavat" tərəfindən böylə bir təklif təqdim edir:

Sosialist-revolyusioner [Sosialist-inqilabçılar] partiyasının Bakı komitəsi tərəfindən Azərbaycan Məclisi-Məbusanına daxil olmaq haqqındakı istidanı [xahişi] müzakirə edərək və:

1. Azərbaycan Şurayi-Millisi əqəliyyət [azlıq] milli komitələrinə nümayəndəlik haqqı verərkən bütün firqələrin bu komitələrə daxil olduğunu dəxi təsəvvür eylədiyini;
2. İctimaiyyuni-inqlabiyyun milli komitələr zimnində [daxilində] malik olduqları haqdan istifadə etmək istəməyib və bunlar vasitəsilə Məclisi-Məbusana vəkil göndərməkdən imtina eylədiklərini;
3. Məclisi-Müəssisan intixablarından [seçkilərindən] görüldüyü vəchlə [göründüyü kimi] bu firqə az da olsa əhalidən bir qisminin və ələlümdə [başlıca olaraq] müsəlman olmayan qisminin rəyini almış olduğunu nəzərə alaraq, Məclisi-Məbusan yuxarıdakı istidadan çıxan xüsusiyyətlərə ələlümum [ümumiyyətlə] riayət edərək qərar verir ki, Məclisi-Müəssisan seçkilərində siyahısı olub da Azərbaycan daxilində rəy [səs] almış olan və milli komitələr vasitəsilə nümayəndə göndərmək istəməyən firqələrə, aldıqları rəylər nisbətində yer verilib, bu yerlər dəxi – müsəlman siyahılarından [Məclisi]-Məbusana girməmiş bir firqə siyahısı olmadığından – yalnız əqəliyyət milli komitələrinə verilən yerlərin hesabına çıxılsın.

İstənilən yerin miqdarı haqqında isə Məclisi-Məbusan Etibarnamə komisyonunun tədqiqi və bu xüsusda gələn məclisi-ümumiyə [ümumi iclasa] verəcəyi məruzəsi üzərinə qərar veriləcəkdir.

**Sosialistlər fraksiyonunun sorğuları**

Axırda Sosialistlər fraksiyonu Tağıyev fabrikasında çalışan 10 müsəlman fəhləsinin qovulması haqqında Məsai [Əmək] nazirinə xitabən və Ermənistan Cümhuriyyəti ilə bu vaxtadək siyasi əlaqə peyda və diplomasi nümayəndələr təyin edilməməsi haqqında Xariciyyə nazirinə xitabən birər sorğu verir. Fəqət, məclisdə kvorum olmadığından iclas qapanır.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

Zürixdən yazılır: Parisdə ümumən tərk-silah məsələsi müzakirə edildiyi bir vaxtda, Berlində Yeni Almaniya Hökuməti təzə alman ordusu təşkili məsələsini müzakirə edir. İndi anlaşılır ki, Almaniya Hökuməti yeni qoşun təşəkkülü barəsində Almaniya Məclisi-Müəssisanına bir layihə təqdim edəcək, bu layihə ilə bütün Almaniya üçün bir imperiya ordusu təş-

kil ediləcək və bu ordu Berlin Hökuməti komandanına müti olacaqdır.

**Bolşeviklərin məğlubiyyəti**

Soçi - General Denikin ərkani-hərbi [qərargahı] xəbər verir:

Yanvarın 17-də Svyatoy Krest cəbhəsində başlanan müharibə bu hərbi nöqtənin işğalı ilə nəticələndi. Bizim süvarilərimiz külli qənimət almışlar, o cümlədən avtomobil, aeroplan və sair ləvazimi-hərbi [hərbi ləvazimat] almışlardır. Yanvarın 19-da Proxladnı cəbhəsində biz Georgiyevsk şəhərini almışıq. Mineralnı Vod[ı] cəbhəsində bizim qitəatımız Kislovodsk ilə Həsəntukini [Yessentukini] almışlardır. Həman gün Pyatiqorsk yanındakı Beştau dağları al[ın]mışdır. Orada bolşeviklərdən 600 nəfər əsir götürülmüşdür.

## SÜLH ƏTRAFINDA

* Sülh Konfransında Əqsayi-Şərqdə [Uzaq Şərqdə] və Bəhri-Mühitdə [Sakit Okeanda] olan Almaniya müstəmləkələri məsələsi, hakəza [eləcə də] "Cəmiyyəti-əqvam"ın [Millətlər Cəmiyyətinin] əsaslı məsələləri müzakirə edilmişdir.

* Tiflis - (Fransız mətbuatı) Konfransın səhərki iclasında Avstraliya, Yeni Zelanda, Yaponiya və Çin nümayəndələri danışmışlardır. Axşam general Simson və Fransa müstəmləkə vəziri müstəmləkə məsələsində olan rəylərini bildirmişlərdir. Bundan əlavə, Cəmiyyəti-əqvam əsasları və onu vücuda gətirmək məsələsi müzakirə edilmişdir.

"Pati jurnal" Sülh Konfransında Simsonun Afrikada Toqo və Kamerun müstəmləkələrinin Fransaya müti olması haqqındakı bəyanatından bəhs açaraq deyir ki, hərgah bu yerlər Fransaya verilərsə, Fransa qayət liberal üsul yeridərək məhəlli [yerli] əhalini mühafizə edəcəkdir.

## QƏZETƏLƏRDƏN

**Tersk oblastında**

Tiflisdə alınan ən mövsuq [etibarlı] xəbərlərə görə, bolşevik hökuməti Vladiqafqazdan qaçmışdır. Şəhər bolşeviklərlə dost olmağa məcbur olan inquşlar tərəfindən zəbt edilmişdir. Sunca xəttində böyük qarışıqlıq vardır. Bolşeviklər işi uduzmuş görüb, bir çoxları özlərinin bu firqəyə mənsub olduqlarını gizləməyə çalışırlar. Gürcüstanla möhkəm münasibat [əlaqələr] bərpa etməkdən ötrü bu günlərdə Vladiqafqazdan Tiflisə inquş nümayəndələri gələcəklərdir.

**İnquşlar və bolşeviklər**

Vladiqafqazda nəşr edilən "Narodnaya vlast" qəzetəsi yazır kı, inquş xalqı ictimai qərar qoymuşdur kı, aşkara surətdə xəbər versin ki, Şura Hökuməti başlanan zamandan inquş camaatı Şura Hökuməti platformasında durub öz müqəddəratını Şura Hökuməti ilə birləşdirmişdi. Hərçənd hal-hazırda Şura Hökumətinin cəbhəyə müsəlləh [silahlı] dəstələr göndərməsi dəvəti inquş xalqı adına şəhərdə buraxılan müfəttinliyin [fitnəkarlığın] artması münasibətilə inquş xalqının ağır bir halında isə, yenə də təzədən silah əlimizdə bütün cümhuriyyət vətəndaşları ilə bir yerdə Şura Hökumətini mühafizə etməyə hazır olduğumuzu izhar edirik [bildiririk].

**Polşa Hökumətinin həbsi**

Varşavada çıxan "Paranna" qəzetəsi xəbər verir:

Yanvarın 5-də gecə milli demokratlar, Kabinə rəisi Pilsudskini iş başından düşürmək istəmişlərdir. Paderevski Pilsudskidən tələb eyləmişdir ki, Polşanın üç hissəsindən milli hökumət dəvət eyləsin. Pilsudski bu tələbi rədd eyləmişdir. Şuradan qayıtmış olan vəzirlər, Baş vəzir və sair kabinə üzvləri həbs edilib, sui-qəsdçilərin ərkanına [qərargahına] aparılmışlardır. Sübh vaxtı Yanuşaytisin qoşunları tərəfindən hökumət imarəti işğal edilmişdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

"Tsaturin" cəmiyyəti qulluqçularından bir dəstə müsəlman fəhlələri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən rica etmişlər onlar barəsində cəmiyyət indində [nəzdində] təşəbbüsatda bulunsun. Zira cəmiyyət onların zəhmət haqqları barəsində kəmetinalıq edərək, layiqli surətdə məvaciblərini verməyir. Binaənileyh [ona görə] Məsai Nəzarəti tərəfindən Baş Fabriçnı inspektora [Baş Fabrik müfəttişinə] məzkur [deyilən] fəhlələrin ərizələri göndərilib, lazımi tədabir ittixazı [tədbirlərin görülməsi] tapşırılmışdır.

- Bu gündən etibarən Məsai Nəzarətinə qulluq istəmək üçün veriləcək ərizələr qəbulu qət edilmişdir [kəsilmişdir].

**Ticarət və Sənaye Nəzarətində**

Maliyyə Nəzarəti Ticarət və Sənaye Nəzarətinə məlum etmişdir ki, hökumətin 21 oktyabr 1918-ci sənə qərardadı mövcibincə [əsasında] neftdən 3-7 rublə vergi alınmalıdır. Binaənileyh Ticarət və Sənaye Nəzarəti, Neftçilər İttifaqı ilə işbu məsələyə dair əlaqə peyda edib, qərardadın qövldən feilə gəlməsi [həyata keçirilməsi] barəsində lazımi tədabiri ittixaz etməlidir.

## AZƏRBAYCAN VƏ ERMƏNİSTAN

Azərbaycan Hökumətinin Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını xüsusi bir general-qubernatorluğa ayırması münasibəti ilə Ermənistan Hökumətinin protesto etdiyi xəbər verilmişdi. Şimdi Ermənistan Hökumətinin prostestosuna cavab olaraq Azərbaycan Hökuməti Ermənistan Xariciyyə nazirinə böylə bir teleqraf göndərmişdir:

*"İrəvan. Ermənistan Hökumətinin Xariciyyə nazirinə.*

*Azərbaycan Cümhuriyyətinin Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur uyezdlərini müvəqqət general-qubernatorluğa ayırması qərarına görə sizin hökumətinizin protestosu əsassızdır. Çünki məzkur [adı çəkilən] qəzalar Azərbaycanın ayrılmaz parçalarıdır. Azərbaycan Hökuməti ali idarə qanununca öz torpağında olan əhalisinin bilafərqi-millətü məzhəb [millət və din fərqi olmadan] həyatını, namusunu və malını məsuliyyətsiz adamların keyfəmayeşəsından [özbaşınalığından] mühafizə etməsi bir tək hüquqi deyil, hətta mənəvi vəzifəsidir. Buna görə, bizim hö-*

*kumətimizin məzkur qəzalara general-qubernator təyin etməsi Ermənistan Hökumətinin hüquqi-mülkiyyəsinə təcavüz deyildir. Biləks [əksinə] sizin hökumətinizin bu münasibətlə protesto etməsi bizim daxili işlərimizə müdaxilə etmək təşəbbüsü olmaq üzrə haqqi-hakimiyyətimizə təcavüz deməkdir.*

*Nömrə 176, 31 yanvar.*
*Xariciyyə naziri əvəzinə Ədil xan Ziyadxanov."*

## MİLLİLƏŞMƏK ƏLAMƏTLƏRİNDƏN BİRİ

"Azərbaycanın" 98-ci nömrəsində Bakı müəllimlərinin gözəl bir təşəbbüsatını oxuduq: Milliləşdiriləcək məktəblərimizə layiq müəllimlərin arada olmadığı cəhətinə, buna bir çarə aramaq üçün Bakı müəllimləri yığılıb müvəqqəti bir ehtiyat [hazırlıq] kursu açmaq niyyətinə düşmüşlər. Bunu əncama gətirmək üçün və buna dair daha ətraflıca məlumat cəm etmək məqsədi ilə məsələni xüsusi bir komisyona həvalə edirlər. Zatən bu təşəbbüsat müəllimlərin deyil, şəhər Məkatib [Məktəblər] komisyonu müdiri Əlicabbar Orucəlizadə cənabınınkıdır. Şəhər məktəblərinin halı və ələlxüsus gələcək halı bu cənabı düşündürür, həyəcana salır: milliləşəcək, daha doğrusu türkləşəcək məktəblər üçün müəllimləri haradan almaq? Bunun üçün seminariya və institut kimi darülmüəllimlərimiz [pedaqoji məktəblərimiz] açılmamışdır. Meydanda bulunan müəllimlərimiz də türkcə kəmsavad olduqları cəhətə bu işə yaramayacaqlar.

Bəs buna çarə nədir?

İştə buna hələlik ehtiyat kursundan başqa bir çarə yoxdur. Orucəlizadə cənabı məsələni böylə kəşf və həll etmişdir. Bizim də rəyimiz budur. Lakin burada bizi təşvişə salan iki şeydir: Əvvəla, vəsət [orta] məktəblərdəki elmlərin türkcə təlimini edə biləcək mütəxəssislər Qafqaz dairəsində tapılacaqlarmı yoxsa bildirki kimi türk tarixini axund təlim edərsə, beyhudə məsarifdən başqa aralığa da bir şey çıxmaz. İkincisi, müəllimlərin bu kurs barəsində irad etdikləri [söylədikləri] nitqlərindən böylə görünür ki, bunların məişəti təmin olunmayınca, açılacaq kursa da hüsn-rəğbət göstərilməyəcəkdir. Zənn olunur ki, bildirki bəla bu ilki kursun da başına gəlmiş ola. Yəni, kurs açıldığı halda, müəllimlərin etinasızlığı cəhətə burada mütəxəssisləri dinləməyə adam da tapılmasın. Öylə olarsa, Əlicabbar əfəndi zəhmət çəkməsin. Əbəs yerə şəhərin bu ağır günlərində aqçaya [pula] özünün möhtac olduğu zamanında həm pulları tələf olub gedər, həm də bununla kəmində yatmış [pusquda gözləyən] düşmənlərimizə özümüzün milliyyət fəqərəsində [məsələsində] acizliyimizi isbat edəriz!

Məişət bəlasına, güzəran ağırlığına giriftar olanlar, bir müəllimlər həzəratı deyil. Bunun zərbəsindən bu gün tamam bəni-növ'i-bəşər [bütün bəşəriyyət] təngə gəlmişdir. Bahalığın şiddətindən, məvacibin azlığından hangi əsnaf qismi şikayət etməyir? Bugünkü məvaciblər, müştərək müqavilənamələr kimi razı sala bilmişdir? Müəllimlərin məişəti təmin olunsun deyə buna birinci və ciddi tərəfdar olmağımı keçmiş məqalələrdə isbat etmişdim. Lakin məvaciblərin müzayidəsi [artırılması] ilə məsələ həll olunmayır. Zira bugünkü məişət atlı, məvacib isə piyada mənzələsində [məqamında, dərəcəsində] olaraq biri-birinin ardınca çatıb bərabərləşə bilməyirlər. Dəfəatala [dəfələrlə] fəhlələrin məvacibləri artırıldı. Artırıldıqca da məişət çətinləşdi. Bəs [deməli], məvacibin artması bahalıq bəlasını rədd etməyir. Buna ayrı bir çarə lazımdır ki, tamam kürreyi-ərzin ərbabi-fününunu [bütün yer kürəsinin elm adamlarını] bu məsələ düşündürür; həyəcanlara, əndişələrə salır...

Zənnimcə müəllim əfəndilər güzəranı asanlaşdırmaq üçün sair müəssisələrə müraciət etməlidirlər. Açılacaq kursla güzəranın nə bir əlaqə və rabitələri vardır ki, bunları bir aralığa toplayaraq "bizim halımız xoşlanmazsa, böylə kursların da qapıları, guya, bağlı qalar" mülahizəsində bulunmuşlardır. "Müəllimlərin halı fənalıqda davam edərsə, yüz kurs açılsın, bir şey də hasil olmaz" demişlər.

Əfəndilər! Vaxtın təqazası [tələbi] sizi düşündürsün. Kursun qapılarını bağlı qoymaqla sizin qarnınız doymaz, amma övlad və vətən hüzurunda məsul və məhkum qalarsınız! Sairlər kimi siz də şəhər idarəsindən, yaxud hökumətdən tələb ediniz ki, halınıza qalsınlar, maddi ehtiyacınızı rəf etsinlər [aradan qaldırsınlar]. Bəlkə bəzi ağır ailəli müəllimlərin kursa getmək imkanı yoxdur, bu başqa məsələdir. Lakin işə ümumiyyət donu geydirib maraqlıları, həvəsliləri həvəsdən salmağın mənasını anlamayıram. Zənnimcə, bir çox cavan müəllimlərimiz böylə kursların talibi və düşkünləridir. Qoy bu cavanlar işləsinlər, çalışsınlar. Milliləşəcək məktəblərimizə də sahib dursunlar. Yoxsa istirahətə xələl qatılmazsa, yenə məhkum millətlərin cərgəsində qalarız!

Əlavə, kurs açılarsa, bir çox istedadlı müəllimlərimiz kursda hazırlanıb ibtidai məktəblərdən vəsət məktəblərə köçə biləcəklər. Müəllimlər üçün həm maddi və həm də mənəvi bu bir xoşbəxtlikdir ki, bunu əldən məbada buraxalar!

İştə, məsələnin bu cəhəti nəzərə alınarsa, bir müəllim deyil, tamam ziyalılarımız bu işə müavinət [kömək] göstərməlidirlər. Hər şeyi hökumətin öhdəsinə tullamaq olmaz. Gərək camaat da bir qımıldansın, hərəkətə gəlsin! Müəllimlər İttifaqına və ələlxüsus bəzi əhli-nüfuz [nüfuzlu] müəllimlərə lazımdır ki, fürsəti fövt etməsinlər. Kursa yoldaşların meylini cəlb edib, maraqlıların siyahısını tutsunlar. 30-40 nəfərin siyahısı tutularsa, kursun açılmasına var qüvvələri ilə çalışsınlar. Təlim müddətinin axırınadək adları yazılmış əşxasın [şəxslərin] davamına səy etsinlər. Böylə olarsa, açılacaq kursun fayda və nəticələri də böyük olar. Ey kaş arzumuz baş tutaydı!

Kursun məsarifinə [xərcinə] gəldikdə, Əlicabbar əfəndinin təqdimatından böylə məlum olur ki, bu cənabın vəsatəti [vasitəçiliyi] ilə Şəhər İdarəsi 30 min rublə, yarısı müsəlmanlara və yarısı da ermənilərə olmaq şərti ilə bir məbləğ buraxacaqdır. İştə məsələnin bu cəhətini biz bir dürlü anlamadıq. Əlicabbar əfəndidən bu xüsusda qəzetə vasitəsi ilə izahat istəməyə məcburuq. Sonra biz də öz mülahizəmizi deyərik.

*Fərhad Ağazadə*

## HƏSB-HAL
## [DƏRDLƏŞMƏ]

Mən daima qəzetə oxuyanlardan deyiləm. Heç oxumayıram zənn etməyiniz. Ara-sıra qəzetə oxusam da hərb-zərbə, vəhşət və cinayətə dair xəbərlərdən xoşlanmam, məyusanə baxıb keçərəm.

Məslək etibarı ilə sosialist-demokrat olduğumdan, beş ildən bəri bəşəriyyətin keçirdiyi alam [ələmlər] və iztirabdan öz hissəmi almışam və almaqdayam. Bu rəqsi-mərg-a-mərg [qırğın rəqsinin] nə vaxt xitama ərəcəyini bilməm.

Barışıq olmuş, olacaqmış kimi rəvayətlər eşitdiyim halda, yenə keçənlərdə əlimə keçən bir qəzetədə gürcü-erməni toqquşmasını, İrəvanda və sair yerlərdə Erməni Cümhuriyyəti demokrasi şərəfinə irəvanlı və digər kəndli müsəlmanların qurban kəsilmələri və qurban olmaq şərəfinə nail olduqlarından oxuyub, omuzumu silkib dedim ki:

Millətim növ'i-bəşərdir, vətənim ruyizəmin.

Qardaşım ölmüş, anam, atam, qövməqrəbam... məscidi və minbəri, hətta axundilə bərabər hindlilərin ölüsü kimi yanmış! Bu ayini-ruhanini [dini ayini] əlbəttə erməni qardaşlarım icra etmiş. Zira bu qədər illərdən bəri yıxılan evlər, yanıb xakistər [kül] olan xanimanlar, nəhirlər kimi fışqırıb axan qanlar, paymal olan [ayaq altında tapdalanan] şərəflər, namuslar; inləyən, ağlayan sansız yetimlər, aclar, fələkzədələr və bədbəxtlər, sürü-sürü səfillər kimdir, kimlər? İnsan! Bu şənayeni [rəzillikləri, biyabırçılıqları] icra edənlər mədənilərin bir üzvi-mühümmü [mühüm bir üzvü] deyil mi? Bəli, insanlar, insanlar... "Xələqallahu bəşər əla-surəti..." [Allah insanı ... surətində yaratmışdır] deyə öz-özümə həsb-hal edərək qəzetəni bir kənara atdım. Birdən-birə yadıma möhtərəm bir axundun verdiyi nəsihət gəldi. Deyirdi ki:

Oğlum məşhədi! Sən daha gəncsən, dünyanın yaxşı-yamanını bilməzsən, dostunu-düşmənini fərq edəmməzsən. Mən sənə söyləyəyim, sən qızıl küpə* et, qulağına tax: şeytanlar iki cürdür: biri cinlər, digəri insanlar ki, Qurani-kərimdə deyir:

"Yuvəsvisu fi sudurin-nasi min-əl cinnəti vən-nas"

Sən gözə görünməyən şeytanlardan qorxma, insan şəklində şeytanlardan həzər et, qorx! Bu bir.

Hər cür qəzetə və risalələrə inanma. Oxuma deməm, oxu. Öz ağlın[ın] tərəzisinə çək, mühakimə et, yaxşı-yamanını ayır; yaxşısına əməl et, yamanını bayıra at. Çünki qəzetə yazanların çoxu adəm surətində olan şeytanlardır. Hamı yazıları yalan, öz kisələrini doldurmaq üçün cürbəcür [v]uruşmalar, toqquşmalar, cinayətlər, cürəbəcür səfsətə yazırlar, səni aldadırlar. Bu iki.

Üçüncü olaraq kəşfi-istiqbal və hal [gələcəyi və indiki zamanı bilmək], müşkül şübhələrin həqiqətini anlamaq üçün bir fal öyrətmişdi.

O zaman axund babamın nəsayehini [nəsihətlərini] xatırlayaraq ruhumu sıxan qəzetə həvadislərini [xəbərlərini] günlüyümdən silib atdımsa da, yenə şübhələrim getdikcə böyüyürdü. Bu şübhələrin

* Küpə - yəni güşvarə [sırğa]. İdarə.





izaləsi [aradan qaldırılması] üçün fal açmağa məcbur oldum. Hesabi-rəml, hesabicəml ilə bir az ulduzlarla uğraşdım. Qəməri Əqrəb bürcündə, Zöhrəni Əsəd bürcündə gördüm. Fal açmaq yaxşı deyil. Nə çarə, səbr edəmmədim. Aradım, əski bir əl yazısı kitab buldum. Şərt-şəraitini yerinə gətirdikdən sonra – tə'viz [dua] və bəsmələ [bismillah oxumaq]... kitabı açdım. Yeddi vərəq sağdan açdıqdan sonra yeddinci sətirə baxdım. Bilirmisiniz nə yazılmış?

*Bəni-adəm əz qorgü səg bədtərənd*
*Həmə təşneyi-xuni-yek-digərənd...*
*Yekira dəhəd laşeyi ruzqar*
*Digər qorghara nəmanəd qərar*

Bu fal heç xoşuma getmədi. Soldan yeddi vərəq çevirdim, yeddinci sətirə baxdım. Bir cür sözlər yazılıb amma silinmiş, zorən oxudum:

*Ey irəvanlı yarım, unutmam səni,*
*Aylar, günlər deyil, keçsə də illər.*
*Nə xoş-kam eylədi itabın bizi,*
*Çıxar mı yadımdan o qanlı günlər.*

Oxudum amma "amənna və səddəqna" [inandıq və doğruluğunu təsdiq etdik] deyəmmədim. Kitabı qapadım. Bir az mülahizədən sonra təkrar irəvanlıların halına baxmaq üçün əvvəlcə zikr etdiyim vəchlə [dediyim kimi] fala başladım. Yeddinci vərəqin yeddinci xəttində böylə yazır:

*İrəvanlı cavanın coşğunluğu var,*
*Bir tərsa düxtərin mübtəlasıdır.*
*Qudurmuş gəziyor, bilməm nə arar,*
*İrəvanlının əski bir sevdasıdır.*
*Öylə bir canidir, heç yoxdur eşi,*
*Kim görsə can verər o ifritvəşi,*
*Əməl yavrusu, əzrayıl yoldaşı,*
*Cəhənnəm odunun bu ziyasıdır.*
*Qurulmuş tüfəngi, hazır patronu,*
*Titrədir qəhr ilə hər müsəlmanı,*
*Ona halaldır hər insan qanı,*
*Bu da xilqətinin müqtəzasıdır.*
*Mərhəməti yoxdur, dinləməz ahı.*
*Min insan öldür[ər], hər bir nigahı,*
*Əcəl dedikləri əmri-ilahi,*
*Qəmzəsinin qədim aşinasıdır.*
*Pək yaxşıdır onun böyük xülyası,*
*Hər sözü, röyəti, tövrü ədası.*
*Vəfadan dəm urur, yoxdur vəfası,*
*Dəm ursa da quru iddiasıdır.*
*Rəvadır qan yutmaq dərdli kəndliyə,*
*Haqqıdır ağlamaq yaşlı gözünə.*
*Bir nəzər eylə bəs soluq üzünə,*
*Kəndli insanların biriyasıdır.*
*Bağışlar qılıncı İrəvana qüvvət,*
*Əmrilə fəth olar neçə məmləkət.*
*Yer edir səy ilə böyük bir millət,*
*Ərmən millətinin "İndira"sıdır.*

İştə yuxarıdakı sətirləri güc hal ilə hesabi-rəml və cəfrin yardımı ilə oxudum. Amma bilməm cinlərmi, mələklərmi yazmış, silmiş. Təəccüb ediləcək şeylər! Həman [dərhal] kitabı qapadım. Bir az düşündüm. Öz-özümə: haydi, şu Azərbaycanın falına bax, deyə kitabı təkrar əlimə aldım. Niyyət etdim, kitabı açdım. Yeddinci vərəqin yeddinci sətirində böylə yazılmış:

*Millətə vermək əgər istər isən feyz[ü] fəlah,*
*Fəhlənin halını sor, haqqını ver, mahbəmah.*
*Demə bir gün oluruz bəxtəvər inşəallah,*
*"Hazır ol cəngə, əgər istər isən sülh[ü] səlah."*

İştə bundan qabaq açdığım falları və indiki falların mənasını bir cür anlayammadığımdan falları eynən olduğu kimi nücum və cəfrdən anlayan mütəxəssislər varsa, lütfən səhv və xətamı ixtar etsələr, əşrəf saatda [saatın xoş vaxtında, duaların qəbul olan vaxtında] haqlarında duayi-xeyr [xeyir-dua] edib, sənaxan olaram [onları tərifləyərəm, mədh edərəm].

*Xoşxəvərov Hurəndişan*

**İdarədən:** Açdığınız "fallar" o qədər aşkardır ki, mütəxəssislər təfsirinə ehtiyac yoxdur, zənn edirik.

**MƏTBUAT**

Axır günlər mətbuatımız Azərbaycan sosialistlərinin mürəvvici-əfkarı [orqanı] olan gündəlik "Zarya" (Tülu) və Azərbaycan İctimaiyyuni-inqilabiyun [Sosialist-inqilabçılar] firqəsi orqanı olub da, həftədə iki dəfə çıxan "Zemlya i volya" (Torpaq və ixtiyar) nam [adlı] iki yeni qəzetələrlə zənginləşmişdir.

"Zarya" birinci nömrəsində Zaqafqaziya millətlərinin yüz illərdən bəri bəylər, xanlar, məliklər, şahlar və knyazların və daha sonra yüz ildən ziyadə Rusiya istibdadı altında əzildiklərini və sonra Rusiya inqilabı nəticəsində Zaqafqaziyada dörd cümhuriyyət elan etdiklərini qeydlə, burasını demokratiyanın böyük qələbəsi kimi göstərir və axırda türk demokratiyasının vəzifəsinə keçərək deyir ki:

*"Biz səy edəcəyiz zəhmətkeş kütləmizə bəşəriyyət və sosializm ideayası verək. Biz ümum hürriyyət bədxahları ilə mübarizə edəcək, ümumiyyətlə xırda millətlərin, xüsusən Azərbaycanın istiqlalı düşmənləri ilə vuruşacağız. Bundan əlavə, demokratiyanın daxili düşmənlərilə onun hürriyyətini boğan, zəhmətindən sui-istifadə edənlərlə də rəhmsiz bir surətdə mübarizə edəcəyiz və bu işdə qonşu demokratiya ilə əlbir işləyəcəyiz."*

İkinci nömrəsində yenə həman qəzetə Zaqafqaziya və əzcümlə [o cümlədən] Azərbaycan demokratiyasının əvvəlcə çarizm və sonra bolşevizmin sövqü ilə ümum demokratiyadan ayrılaraq istiqlal elan etdiklərini və Azərbaycan müsəlman sosialistləri öz demokratiyasının nicatını yalnız burada görərək həmin nöqteyi-nəzəri qəbul etdiklərini qeydlə yazır ki:

*"Əlbəttə bu işi 'Yedinaya Rossiya'lı ağalar və milyukovlar kimilərə xoş gəlməzdi. Onlar sair millətlərə hakim olmaq, onların dərisini soymaq kimi əski adətlərindən ayrılmayırlar. Dünkü 'tatar'ı bu gün kəndi hökumətinə, parlamanına və ana dilinə malik, azad bir millət gördükdə ürəkləri ağrıyır."*

Böyük rusiyaçıların sair millətləri istiqlala layiq bilmədikləri və hökuməti öz əllərinə almağa çalışdıqlarını bəyanla qəzetə, sosialistlərin bu məsələdə tutduqları tərzi-hərəkətə nəqli-kəlam edərək [sözü gətirərək] deyir ki:

*"Stolıpin qəhrəmanlarının böylə hərəkəti bizcə aydın və anlaşılan bir şeydir. Fəqət məmləkətdə asayiş, nizam və hüquq paydar [bərqərar] etməkdə bizə maneələr çıxaran sosialist yoldaşlarımızın aldıqları vəziyyəti bir dürlü anlamayırız. Axır bu yoldaşlarımız Zaqafqaziya demokratiyasının iki illik müddətində nə kimi şərait altında və nə surətlə istiqlal yoluna düşdüklərini görmüşlərdir. Məmləkətdə demokratik üsuli-idarə quruluşunda bizə kömək etmək əvəzinə, neçə ay boş danışıqlarla keçirmişlərdir. Hətta əsasən qəbul etdikləri təyini-müqəddərat məsələsində də bizim haqqımızı tanımaq istəməyirlər. 'Z. truda' mühərrirlərindən birisi bizim Parlamana layiq olmaq haqqımızı danaraq deyir ki, bunu bizə ancaq ya əcnəbilərin təsdiqi, ya Rusiya Məclisi-Müəssisanı verə (?) bilər. Bu surətlə sosialist bir mühərririn zənnincə Azərbaycan demokratiyasının arzusunun qiyməti yoxmuş. Bəlkə burjua-imperialist hökumətlər yaxud Rusiya Məclisi-Müəssisanının arzusu qiymətli imiş. Ona görə məntiq böylə çıxır ki, ya sosialistlər özlərinin təbliğ etdikləri əsasa inanmayaraq əsasən qəbul etdiklərinin feilən icrasından qaçırlar, yaxud ümum sosialistlər prinsipini[n] Kerenski [kimi] bunlar da bizim haqqımızda tətbiq edilməsinə razı olmayırlar."*

Əlbəttə, bu gün bizi uzaq bir Məclisi-Müəssisana göndərənlərin bugünkü xətti-hərəkətləri o məclisdə də nə vəziyyət alacaqlarını isbat edir. Zatən buna bizim heç şübhəmiz də yox idi. Fəqət Azərbaycan türk sosialistlərinin tərzi-hərəkətləri, gərək Parlamanımızda və gərəksə mətbuatımızda aldıqları vəziyyət, bizi şad etdiyi qədər türk demokratiyasının nailiməram olacağına [arzularına çatacağına] ümid verərək bir daha artıq ruhlandırır. Rəfiqimizə müvəffəqiyyətlər diləriz.

"Zemlya i volya"nın birinci nömrəsi çıxmışdır. Fəqət görünür ki, "Kəndçi və fəhlə" kimi bu qəzetə dəxi Ziya paşanın "Ayinəsi işdir kişinin..." şeiri məfhumunca [mənasına uyğun olaraq] Azərbaycan istiqlalı haqqında fikrini əsəri ilə isbat edəcəkdir. Əgər həman nömrəsində sair firqələrin rəyini açıq-aşkar bilmək istəməsəydi səbrlə gözlərdik. Lakin madam ki, özü sair sosialistlərin fikrini açmağı tələb edir, biz dəxi deyərdik ki, bismillah, başqaları üçün bir misal ol.

**BAKI XƏBƏRLƏRİ**

**Pul tapılıbdır**

Yanvarın 31-də Tarqovı küçədən 500 manat pul tapmışam. Bu pul hər kəsindirsə üç günə qədər gəlib nişanələrini söyləyib, pulunu ala bilər. Adres Verxni-Təzəpir küçəsində, 134 nömrəli evdə, Ələsgər Əbdülbaqi oğlu.

**Fəhlələrin nəzəri-diqqətinə**

Bakı və ətraf mədənlərdə işləyən müsəlman əmələlərinə elan olunur ki, beynəlmiləl müsəlman fəhlə konfransı bu bazar günü fevralın 9-na təyin edilmişdir.

*"Müsavat" firqəsinin*
*məlumat şöbəsi.*

**Bələdiyyə İdarəsində**

Bu gün saat 1-də Bələdiyyə İdarəsi salonunda müsəlman qlasnılarının müşavirəsi dəvət edilir. Müşavirə Bələdiyyə Məclisinin baqi [öz yerində] qalmasına münhəsir [həsr] ediləcəkdir.

* Mərkəzi Ev Komitəsi, Bələdiyyə İdarəsinə bir kağız göndərib məlum etmişdir ki, alınan məlumata nəzərən şəhər elektrik işığı qiymətlərini artırmaq üçün Bələdiyyə İdarəsi cənbində [nəzdində] bir komisyon təşkil edilmişdir ki, işbu məsə-

lə ilə iştiğal edəcəkdir [məşğul olacaqdır]. Mərkəzi Ev Komitəsi rica etmişdir ki, məsələ əhali və ev təşkilatlarına aid olduğu üçün bir nəfər Mərkəzi Ev Komitəsinin nümayəndəsi o komisyonda iştirak etməsi mütəmənnadır [arzu olunur].

* Bakı Dərmanxana Xidmətçiləri İttifaqı Bələdiyyə İdarəsinə məlum etmişdir ki, kanuni-saninin [yanvarın] 26-sında dərmanxana sahibləri ilə bərabər in'iqad edən [baş tutan] iclasda tətili qət etmək [kəsmək] istənilmişsə də, müvəffəq olunmamışdır. Zira dərmanxana sahibləri xidmətçilərlə razı olmaq istə[mə]mişlərdir. Şimdi bunlar bacardıqları qədər tətili qət etmək üçün tədabirdə bulunurlar [tədbirlər görürlər]. Məsələn onlar razıdırlar ki, yeni məvaciblər yanvarın 15-dən hesab olunsun. Dərmanxanaların daxili işləri ilə xidmətçilərin əzl [işdən azad edilməsi] və qəbulu məsələsində dərmanxana sahibləri ilə razı ola bilməyəcəklərdir. "Ermans" dərmanxanasında tətilin qət edilməsinə səbəb oranın bir nəfərə məxsus olmasıdır.

**Bakı şamaxılılarına**

Bakıda sakin olan cəmi Şamaxı qaçqınlarına elan olunur ki, bu çağa kimi onlara Ümuri-Xeyriyyədən [Sosial Təminat Nazirliyindən] müavinət olunurdu. Bundan sonra isə bu müavinət Şamaxı Həmtorpaqlılar Cəmiyyəti vəsatəti [vasitəçiliyi] ilə olasıdır. Bundan dolayı, ianəyə ehtiyacı olanlar gərək fevralın 3-dən, düşənbə [bazar ertəsi] günündən etibarən hər gün saat 12-dən 3-ə kimi Bələdiyyə imarətinin 3-cü mərtəbəsində Həbib bəy Mahmudbəyov cənabları dəftərxanasına müraciət etsin və məzkur [adı çəkilən] cəmiyyətdən kitabçası olsun. Bu kitabçasız heç kimə kömək olunmayacaqdır. Qabaqda verilən ərizələr də bisərəncam qalasıdır.

*Şamaxı Həmtorpaqlılar Cəmiyyəti*

* Ərzaq Nəzarəti Bələdiyyə İdarəsinə məlum etmişdir ki, bu vaxtadək Ərzaq Nəzarəti müsri [yoluxucu] xəstələr xəstəxanası üçün nisyə ərzaq və mühimmat buraxırdı. Bundan sonra isə 4 milyon rublə hökumət tərəfindən xəstəxana güşadına [açılışına] təxsis olunmasını [ayrılmasını] nəzəri-etibara alaraq, nisyə mal buraxılmayacaqdır. Bələdiyyə İdarəsi Ərzaq Nəzarətinə məlum etmişdir ki, təxsis edilmiş 4 milyondan hələlik 1 milyon alınmışdır ki, fəqət [yalnız] xəstəxananın məxaricatına [xərclərinə] kifayət edə biləcəkdir.

## YENƏ BEZ MƏSƏLƏSİ

**Ərzaq Nəzarətinin təhqiqat və təqibatı**

Həmin yanvar ayının əvvəllərində Gəncə uyezdinə tabe Dəllər camaatı vəkili namı ilə Məşhədi Məhəmməd Vəli oğlu nam birisi məzkur [adı çəkilən] kənd əhalisinə paylanmaq üçün bez almaqdan ötrü Ərzaq Nəzarətinə müraciət etmiş idi. Ərzaq Nəzarəti yanvar ayının 5-də 98 nömrəli təhqiqat vərəqəsi ilə Gəncə qaimməqamına (uyezdni naçalnikinə) müraciətlə Məşhədi Məhəmmədin məzkur kənd əhalisi tərəfindən vəkil olub-olmadığı haqqında təhqiqat icra olunmasını əmr etmiş.





Nəticədə qaimməqam cənablarından 18 yanvar tarixli və 89 nömrəli alınmış olan təhqiqat vərəqəsi bundan ibarətdir. Qaimməqam yazır:

*"Bununla Ərzaq Nəzarəti idarəsinə ərz edirəm ki, məzkur Məşədi Məhəmməd Vəli oğlu adi bir tacirdir və Nəzarəticəlilənizdən [ulu Nazirliyinizdən] tələb eylədiyi manufakturanı öz mənfəəti üçün istəmişdir. Burada manufaktura qəhətliyi vardır. Əgər hökumət camaatın bu xüsusdakı zəruri ehtiyacatını rəf etmək [aradan qaldırmaq] istəyəcək olarsa, lazım olan manufakturanı ya kooperativlər vasitəsi ilə və yaxud Ərzaq Nəzarətinin öz məmurları təhti-nəzarətində [nəzarəti altında] əhali arasında təqsim etməlidir [paylamalıdır]."*

## İDARƏDƏN CAVABLAR

**N. S. əfəndiyə:** İmzanızı açıq yazmalısınız.

**"Demokrat olmaq asan deyil" məqaləsini göndərmiş əfəndilərə:** Məqalənizi "Al bayraq" rəfiqimizin özünə göndərməniz məsləhətdir.

**"Ufaq müəllim" əfəndiyə:** Əvvəla əsgərlik işimizdə əvvəllərdə müşahidə edilən nöqsanlara Hərbiyyə Nəzarəti tərəfindən lazımi diqqət yetirilib islah edilməkdədir və saniyən [ikincisi] məqalə yazarkən kağızın ancaq bir üzündə yazmağı unutmayasınız.

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Petroqraddan gəlmiş diş həkimi**
**M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi**
**Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Elan**

Azərbaycan Cümhuriyyəti Ərzaq Nəzarəti İdarəsi Azərbaycan daxilində yaşayan əhalinin və ətrafdan gələn bisavad adamların icazə və başqa işlər üçün Nəzarətə verəcəkləri ərizələri yazdırmaq üzündən çəkdikləri çətinliyi nəzərə alaraq, nazir həzrətlərinin əmri ilə idarənin aşağı qatında pilləkanlardan çıxan yerdə ərizə yazdırmağa xüsusi bir oda təxsis edilmişdir [ayrılmışdır]. Buna görə, bundan sonra nazir həzrətləri naminə və Ərzaq İdarəsinə ərizə verəcək kimsə həman odada ərizələrini pulsuz olaraq yazdıra bilərlər.

*Ərzaq Nəzarəti İdarəsi*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***





## QEYD VƏ ŞƏRHLƏR

**İki konfrans**

səh. 1. "Versal": bu ad qəzetdə hər yerdə "Versay" kimi verilmişdir.

"Hesab günü": "Azərbaycan" qəzetinin 21 yanvar 1919-cu il tarixli 93-cü nömrəsində gedən yazı nəzərdə tutulur.

"bərzəx": dini təsəvvürə görə cənnət ilə cəhənnəm arasında, yaxud dünya ilə axirət arasında olan və ölənlərin ruhlarının gözlədiyi yer.

"...adilanə ölçə bilər...": "adilanə" sözü qəzetdə tünd və nisbətən böyük şriftlərlə verilmişdir.

səh. 3. "kadetlər": XX əsrin əvvəllərində Rusiyada fəaliyyət göstərən Konstitusion-Demokratik Partiyaya mənsub olanlar.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 4. "...xüms, zəkat və üşr...": İslamiyyətdə nəzərdə tutulan vergilər. Xüms: qazancın beşdə biri miqdarında verilən vergi. Zəkat: sahib olunan mal və pulun qırxda birinin kasıblara paylanması şərti. Üşr: torpaqda yetişən məhsulun onda birinin vergi kimi verilməsi.

"Hökumət məmurlarının iştirakı ilə Qazax uyezdində bir neçə adam daha da betərdir.": bu cümlə qüsurludur; güman ki, cümlənin bir hissəsi düşmüşdür.

**Teleqraf xəbərləri**

səh. 7. "...Almaniya Hökuməti yeni qoşun təşəkkülü barəsində Almaniya Məclisi-Müəssisanına bir layihə təqdim edəcək...": qəzetdə "edəcək" yerinə "edəcəyini" getmişdir.

**Sülh Konfransında**

səh. 8. "general Simson": Ceffri Spayser-Simson nəzərdə tutulur.

"Pati jurnal" [Le Petit Journal]: 1863-1944-cü illərdə Parisdə nəşr edilən gündəlik qəzet.

**Qəzetələrdən**

səh. 9. "Paranna": Varşavada 1912-1929-cu illərdə çap edilən "Qazeta Poranna dva qroşe" nəzərdə tutulur.

**Həsb-hal**

səh. 12. "Millətim növ'i-bəşərdir, vətənim ruyi-zəmin": "Millətim bəşər (bütün insanlıq), vətənim isə bütün yer üzüdür." Misra türk şairi Tofiq Fikrətindir.

"Yuvəsvisu fi sudurin-nasi min-əl cinnəti vən-nas": "Quran"ın "Nas" surəsinin 5-ci ayəsinin bir qismi və 6-cı ayəsi. Mənası: "İnsanların ürəklərinə vəsvəsə salır. Cinlərdən də olur, insanlardan da."

səh. 13. "Hesabi-rəml, hesabi-cəml": nöqtə və çizgilərlə, eləcə də yazıda nöqtəli və nöqtəsiz hərflərlə baxılan fal.

"Qəməri Əqrəb bürcündə, Zöhrəni Əsəd bürcündə gördüm.": "Zöhrə" Venera planetinin, "Əsəd bürcü" Şir bürcünün ərəb dilində adı.

"Bəni-adəm əz qorqü səg bədtərənd / Həmə təşneyi-xuni-yek-digərənd...": Farsca; mənası: "İnsan qurddan və itdən betərdir / Hamısı bir-birinin qanına susamışdır. / Birinə rüzgar bir leş verir / Başqa qurdların qərarı qalmır.

"Nə xoş-kam eylədi itabın bizi": "Sənin məzəmmətin bizi necə də məmnun etdi."

"İrəvanlı cavanın coşğunluğu var..." misrası ilə başlayan şeir (səh. 13) üçün lüğət

tərsa: xristian

düxtər: qız

ifritvəş: ifrit kimi olan

əməl: arzu

xilqətinin müqtəzasıdır: yaradılışının ehtiyacıdır

nigah: baxış

əmri-ilahi: ilahi əmr

qəmzə: (klassik ədəbiyyatda) sevgilinin süzgün baxışı

aşina: dost, yoldaş

röyət: görüş, baxış

biriya: riyasız, səmimi

“Ərmən millətinin ‘İndira’sıdır”: güman ki, hind mifologiyasında gözəllik, bəzi hallarda isə müharibə ilahəsi olan “İndira” nəzərdə tutulmuşdur.

“cəfr”: hərflər, rəqəmlər və müxtəlif simvollarla gələcəkdən xəbər bilmək.

“feyzü fəlah”: bolluq, bərəkət və xoşbəxtlik.

“mahbəmah”: aybaay.

“Hazır ol cəngə əgər istər isən sülhü səlah”: “Sülh və əmin-amanlıq istəyirsənsə, müharibəyə hazır ol.” Bu misra türk şairi Abdülhaq Mollanındır. Belə başa düşülür ki, məqalədə istifadə edilmiş misralar, müxtəlif şairlərə məxsus şeirlərin (yaxud bəzi misralarının) dəyişdirilməsi ilə əmələ gətirilmişdir.

səh. 14. “nücum”: (ulduzlar) ulduzlara baxaraq gələcəkdən xəbər vermək.

**Mətbuat**

səh. 15. “Z. truda”: Rusiyada sosialist-inqilabçılara məxsus “Znamya truda” qəzeti nəzərdə tutulur.

“Ayinəsi işdir kişinin...”: Türk şairi Ziya paşanın məşhur misraları belədir:

Ayinəsi işdir kişinin, lafa baxılmaz,
Şəxsin görünür rütbeyi-əqli əsərində.

(Adamın aynası onun işidir, sözünə yox, işinə baxmaq lazımdır; hər kəsin ağlının ölçüsü onun öz əsərində, işində görünər.)

**Bakı xəbərləri**

səh. 15. “Tarqovı”: Bakıda, indiki Nizami küçəsi.

“Verxni-Təzəpir”: Bakıda, indiki Nabat xanım Aşurbəyova küçəsi.

“qlasnı”: yerli özünüidarə orqanının səsvermə hüququna sahib üzvü.

səh. 16. “Dərmanxanaların daxili işləri ilə...”: qəzetdə “ilə” yerinə “isə” getmişdir.





**Bazar ertəsi, 3 fevral 1919-cu il, nömrə 104**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 2 cəmadiyələvvəl sənə 1337. 3 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## ELAN

Səşənbə [çərşənbə axşamı] günü 1919 sənəsi fevral ayının 4-ündə gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

## ÜMUM MÜSƏLMAN TƏLƏBƏLƏRİNƏ

Məlum olduğu üzrə, müsəlman tələbələrinin əsgərliyə dəvət olunmaları məsələsində yenə tələbələrdən ötrü bir neçə qaranlıq və anlaşılmamış yerlər vardır. Ona binaən [ona görə] zeyldəki [aşağıdakı] izahatın verilməsinə lüzum görürəm:

1) Bütün darülfünun və sair məkatibi-aliyyədə [ali məktəblərdə] təhsil edənlər və edadi məktəb məzunları neçə il əvvəl edadi məktəbi bitirmiş olsalar da, əxzi-əsgər [hərbi qulluğa çağırış] qanunu qarşısında müsavidirlər [bərabərdirlər].

2) Məktəbi-hərbiyyəyə daxil olub oranı bitirən tələbələr həmişəlik (kadrovı) zabit olub qalmayacaqlar. Vətənimizin yeganə ümidi olan bu tələbələrin ehtiyac rəf olduqdan [aradan qaldırıldıqdan] sonra məkatibi-aliyyədə təhsil üçün göndərilmələrindən ötrü Məclisi-Məbüsan xüsusi məbləğ təxsis edəcəyinə [ayıracağına] ümid ediriz. İndilik ordumuza münəvvər fikirli [ziyalı] əfradın [əsgərlərin] nə qədər zəruri olduğunu hər kəs etiraf edir.

3) Fəqir tələbələrin əsgərə alınanlarının ailəsi təmin edilməsi və onlardan xidmətdə bulunanlarının maaşı kəsilməyərək ailəsinə verilməsi məsələsinə gəldikdə, bu məsələ ümum xidmətdə bulunub da əsgərliyə alınan vətəndaşlar üçün birlikdə həll ediləcəkdir. Hər halda bu məsələ Maarif Nəzarətinə deyil, Daxiliyyə Nəzarətinə aiddir.

*1 şubat 1335*
*Maarif Naziri: Nəsib Yusifbəyli*
*Kargüzar: Əli Yusif*

## MƏCLİSİ-MƏBUSAN VƏ MÜXALİFLƏR

Azərbaycanın siyasi vəziyyəti nə qədər ki, müəyyən deyildi, türklərdən olmayan bütün siyasi firqələr, bolşevik ruhlu menşevikindən tutub monarxist ruhlu kadetinə qədər, Azərbaycan istiqlalı ilə Azərbaycan Parlamanına qarşı barışmaz bir vəziyyət almışlardı. Onlar bu vəziy-

yətləri ilə Azərbaycan türklərini bir növ mühasirəyə almış, təslimə məcbur etmək istəmişlərdi.

Zənn edirlərdi ki, xaricdən gəlmə Müttəfiqlər qüvvəti də onlara kömək olacaq, ağıllarınca türklər tərəfindən qurulmuş olan Azərbaycan Hökumətini bir deyəndə atacaqlardır.

Azərbaycan türkü ilə bərabər, bu türkün ruhundan doğan idealları tərvic edən [ideallara rəvac verən], onun yolu ilə gedən Azərbaycan xadimləri isə qəflətən üzərlərinə atılan qüvvətlərə qarşı mətanət göstərdilər, durdular. Azərbaycan fikrinin "İstanbuldan" deyil, Bakıdan doğmuş olduğunu isbat etdilər. Bu sübutla hər kəsdən əvvəl bitərəf bir qüvvət olması həsəbilə [səbəbindən] ilk əvvəl ingilis komandanlığı qane oldu. Onun bu qənaəti Azərbaycanın daxili müxaliflərini düşündürdü.

Türk olmayan müxaliflər düşündülər, daşındılar; xətti-hərəkətlərini dəyişmək, nöqteyi-nəzərlərini əvəz etmək məcburiyyətində qaldılar.

Eserlər [sosialist-inqilabçılar] əslən milliyyət əsasına əhəmiyyət verən idealist və ind[ivid]ualist [fərdiyyətçi] bir firqə olduqlarını xatırladılar. Azərbaycan Parlamanı bir "əmri-vaqe"dir [faktdır], olmuş bir işdir – dedilər.

Menşeviklər dəxi "qalu bəla"dan [əzəldən] millətlərin kəndi müqəddəratlarını kəndiləri təyinə haqlı olduqlarını qəbul edənlərdən olduqlarını etiraf etdilər.

Həmkarlar İttifaqı dəxi Azərbaycan Parlamanına getmək haqqındakı qərarına təzədən baxmaq məcburiyyətində qaldı.

Erməni Milli Komitəsi dəxi daşı ətəyindən tökməyə başladı. Yalnız Parlamana deyil, hökumətə də girmək meylini izhar eylədi [göstərdi].

Yerdə yalnız bir Rus Komitəsi qaldı.

Rus Komitəsi yalnız tüfəng təsirilə olmalıdır ki, o da əvvəlcə mövcud olan qərarını təzədən bir "götür-qoy" eylədi. Anladı ki, "Rusiya millətlərinin, son şəkli Rusiyanın iradəsilə biletilaf [uzlaşmayla] təyin edilmək üzrə kəndi başlarına idarə qurmaq haqları vardır və bu haqla parlaman da qura bilərlər və bu parlamana yalnız siyasi bir minbər [kürsü] qazanmaq üçün deyil, vilayətə əmnü asayiş [əmin-amanlıq] vermək işində şərakət etmək [iştirak etmək] üçün dəxi getmək lazımdır."

Bunu anlamaqla bərabər, Rus Komitəsi özünün Parlamana girməsini yalnız bir mətləblə əlaqədar görür. Əvvəlcə bəzi mühüm məsələlər aşkar olmalıdır. Bu məsələlər aşkar olmayınca Parlamana girmək, onlarca faydasızdır. Çünki burada Rusiyanın mənafeyi-aliyyəsinə mərbut [ali mənafeyinə bağlı] olan nöqtələr var ki, onları örtülü olaraq keçmək bərabər işləməyi qeyri-mümkün edər.

Məsələ Azərbaycanın Rusiyaya əlaqəsini təyin etməkdədir.

Zatən yalnız Rus Komitəsindəki kadetlər deyil, digər firqələrdə olan ruslar-rusiyaçılarla bizim aramızda və digər türk partiyalarının arasında olan ixtilafi-nəzər [görüş ayrılığı] dəxi bu nöqtə üzərində idi.

Biz Azərbaycanı müstəqil bir dövlət tələqqi [qəbul] ediriz. Bu tələqqisini Azərbaycan demokratiyası əksəriyyəti-əzimə [böyük əksəriyyət] təşkil edən türk xalqının idarəyi-aliyyəsi [ali hakimiyyəti] ilə bütün dünyaya elan eyləmişdir. Bu bir əmri-vaqedir [faktdır].





Azərbaycan Hökuməti, Azərbaycan Parlamanı, Azərbaycan siyasi firqələrinin bəyannaməsi, Azərbaycan xalqının bu əsasları qəbul və tərvic eyləməsi bu əmri-vaqenin xarici əlamətləridir.

Azərbaycan Hökuməti bütün firqələrinin müməssilliyi [ilə] [nümayəndəlikləri ilə] beynəlmiləl münasibata [münasibətlərə] girişmiş, feilən Müttəfiqlər tərəfindən tanınmışdır. Ondan başqa bu topraq üstündə, bu əhali üzərində başqa nafiz [nüfuz sahibi] və tanınmış bir hökumət yoxdur.

Bizimlə bərabər çalışmaq, türklərlə birlikdə "əmniyyət və asayişin təmini" və yaxud "fevral hürriyyətlərinin bəqası" üçün işləmək istəyən firqələr hər şeydən əvvəl bu cəhəti nəzəri-diqqətə almalıdırlar: Azərbaycan bir əmri-vaqedir – bunu səmimi bir surətdə qəbul etməlidirlər.

Azərbaycanın Rusiya ilə iləridəki əlaqəsinə gəlincə, bu əlaqəni iləridə azərbaycanlıların rusiyalılarla dostluqla, azadlıqla, tərəfeynin [hər iki tərəfin] rizası ilə həll olunacaq bir məsələ kimi görməlidirlər.

Parlamana gələcək müxalif, "Siz Rusiyadan ayrılmışsınız, bu ayrılışınızla faydalı bir iş görməmişsiniz, yaxşı olar ki, onunla birləşəsiniz" dersə, onu dinləriz. Fəqət "Siz Rusiyanın bir parçasısınız, nə haqla ondan ayrılmışsınız" dersə, ona təhəmmül etməz [dözüm nümayiş etdirməz], kürsüdən salarız.

Azərbaycan Parlamanına, Azərbaycan istiqlalı bayrağını yüksək qaldırmış olan bu müəssisəyə hər kəs gələrsə, bu Parlamanın feilən təəssüs etmiş, olmuş-bitmiş bir hökumətin Məclisi-Məbusanına gəlmiş və bununla o, Azərbaycan istiqlalını fikirdə deyilsə də, işdə tanımış deməkdir.

Rusiya ilə əlaqəyə gəlincə, bunu müxaliflər bilməlidirlər ki, müvafiqlər heç bir zaman fikirdə Rusiyanın düşməni olmayıb, Rusiya demokratiyası ilə ədavət bəsləməmişlərdir.

Azərbaycan Parlamanının bütün firqələri kəndi bəyannamələrində bu fikri zikr eyləmişlərdir. Müxaliflər nöqteyi-nəzərindən ən müdhiş bir milliyyətçi və iftiraqçı [ayrılıqçı, ayrılma tərəfdarı] təsəvvür olunan "Müsavat" firqəsi belə kəndi bəyannaməsində fikrən təbii və mötədil bir hala gələcək Rusiya ilə əqdi-ittifaq etmək [ittifaq bağlamaq] fikrinə yabançı olmadığını bildirmişdi. Fəqət buna biz öz meylimiz, öz xahişimizlə gedəcəyiz. Bu məsələni Rusiya Məclisi-Müəssisanı deyil, Azərbaycan Məclisi-Müəssisanı həll edə bilər. Bu səlahiyyət başqalarının deyil, bizimdir. Çünki milliyyət haqqı yalnız bu surətlə müdafiə oluna bilər.

Yoxsa bir "menşevik" çıxar da "biz sizə Rusiyadan ayrılmaq haqqını verməyiriz" dersə və bu məqsədinə yetişmək üçün müsəlman sosialistləri ilə birlikdə bizə qarşı mübarizə edə biləcəyinə güvənərsə, biz öylələrinə güləriz, zira öylə düşünən bir türk Parlaman firqəsi təsəvvür edəmməyiz!

Rusiyadan ayrılmaq, Rusiyaya qoşulmaq və yaxud başqa bir şəkil ilə kəndi müqəddəratını təyin eyləmək haqqı Azərbaycan xalqının müqəddəs bir haqqıdır. Bu haqqı ona təbiət bəxş eyləmiş. Bu haqqı o nə kadetlərin ala gözlərinə, nə də sosialistlərin yağlı dillərinə fəda edəmməz!

Müxaliflər bunu bilsinlər, qulaqlarına sırğa etsinlər və böyləcə Azərbaycan istiqlaliyyəti əmri-vaqesinin qulami-halqa-

bəguşu [qulağı sırğalı qulu] olaraq Parlamana buyursunlar.

Başqa məsələlərdə keyifləri istədiyi müxalifəti etsin, tənqidatda bulunsun, təbliğatda olsunlar. O, onların haqqı və vəzifələridir.

Biz heç bir zaman onların Parlaman firqələrinin müvafiqləri [müxalif olmayanları, hökumətdən yana olanları] cərgəsində oturacaqlarını zatən təsəvvür eyləməmişdik.

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN KABİNƏSİ RƏİSİ CANİBİ-ALİLƏRİNƏ "ƏHRAR" FRAKSİYASI TƏRƏFİNDƏN BU MƏZMUNDA BİR MÜXTİRƏ [XƏBƏRDARLIQ] VERİLMİŞDİR:

Zaqatala vilayətindən peydərpey [bir-birinin ardınca] hər növ almaqda olduğumuz xəbərlərdən oranın əhvalı qayət məğşuş [qarışıq] olduğu anlaşılır. Vilayət daxilində oğurluq, soyğun və cana suiqəsd kimi cinayətlər hər gün vaqe olmaqdadır. Vilayətin Gürcüstanla həmhüdud olan Əliabad və Balakənd nahiyələri əhalisi gürcü təzyiqatı, gürcü təhəkkümatı altında inləyir. Kəndi məralarına [otlaqlarına] heyvanlarını çıxarmaq, tarlalarına sərbəst yürümək, kəndi ormanlarından odun kəsmək bu iki nahiyə əhalisi, bilxassə Qovaqçöl camaatı üçün imkan xaricindədir.

Binaənileyh [ona görə], fraksiyamız bu haqda Gürcüstan Hökumətinə müraciətdə bulunulmasını arzu etməklə bərabər, Zaqatala vilayətində fövqdə məruz hadisatın [yuxarıda deyilən hadisələrin] baş göstərməsini ancaq məhəlli [yerli] məmurların fəaliyyətsizliyində görərək, təcili surətdə vilayətin administrasiya məmurlarının qismən təbdil [dəyişdirilməsi], qismən də ixrac və əzl edilməsini [qovulmasını] lazım və labüd ədd [hesab] edir. Əks təqdirdə Zaqatala vilayətində məqsudumuzun xilafı olan [arzuolunmaz] hadisatın zühur edəcəyini məəttəəssüf [təəssüflə] görmək məcburiyyətində bulunacağız.

**Qeyd:** Zaqatala övzasına [vəziyyətinə] dair aldığımız məlumat çox olmaqla bərabər 371 kəlmədən ibarət olan teleqrafı hüzura təqdim etməklə kifayət ediriz.

*"Əhrar" fraksiyası*

## TELEQRAF XƏBƏRLƏRİ

* Yeni mütarikə şəraitinə [atəşkəs şərtlərinə] görə, fransız qoşunları Strasburqun üç fərsəxliyində vaqe Kel (Almanya) şəhərini işğal və rəsmi surətdə Fransaya ilhaqını elan etmişlərdir.

* Almanya Bankının məşhur müdiri fon-Qvinner rəvayətə görə Almanyanın birinci rəisi-cümhuru [prezidenti] olacaqdır.

* Məşhur maliyyundan [maliyyəçilərdən] Qoldenin hesabına görə, müharibəyə İngiltərə 6 418, Almanya 8 300, Amerika 2 600 milyon pul sərf etmişlərdir.

* Smets Sülh Konfransında Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] proqramını havi [əhatə edən] bir risalə nəşr etmişdir. Cəmiyyəti-Əqvam vücuda gəlsə, dövlətlərin həyati-ictimaiyyəsində zəruri bir şey olub, mədəni-siyasi fəaliyyətin siyasi bir orqanı olmalıdır. "Avropa" ləğv olunur və Cəmiyyəti-Əqvam onun varisi olur. Cəmiyyəti-Əqvamı biz əski əsas və mənada təsis etməməliyiz. Cəmiyyət bütün cahan əfkari-amməsinin müzahirətinə məzhər [bütün dünyanın ictimai fikrinin dəstəyinə nail] olmadıqca, müvəfəqiyyətlə yaşamaz. Cəmiyyəti-Əqvam mövcüd olmaq istəməsə, hüdudi-miləl [millətlərin sərhədləri] xaricindəki yeni məsələləri həll etmək üçün ayrı bir müəssisə əmələ gətirməli olacaqdır.

* "Havas" acentəliyinin məlumatına görə, De-Korseydə Mütəffiqlər nazirləri ilə əsgəri [hərbi] mütəxəssislərin müşavirəsi vaqe olmuşdur. Müşavirə əvvəlcə Cəmiyyəti-Əqvam məsələsini müzakirə edərək, onun əsas və layihəsini tərtib verəcəkdir.

* "Havas" acentəliyi xəbər verir: Fransız mətbuatı Sülh Konfransının üstüörtülü hərəkatına istehzakaranə bir surətdə baxır. Vilson rəsmi surətdə fransız hökumətinə bildirir ki, o, konfransda Amerikanın hökümət başçısı sifəti ilə deyil, Baş vəzir sifəti ilə qalmaq istəyir.

* London - Berqandan buraya göndərilən teleqrafda denilir: Rusiyada həbs edilmiş olan və sonra oradan qaçmış olan bir ingilis taciri rəvayət edir ki, 1917-ci sənədə Rusiyaya qayıtmış olan general Kuropatkin bolşeviklər tərəfindən qətl edilmişdir.

* Paris - "Le-jurnal" yazır: Bolqarya ilə mütarikə əqd edildikdən [atəşkəs imzalandıqdan] sonra Makenzen var qüvvəsi ilə çalışırmış ki, Mütəffiqlərin qələbəsinə əngəl törətsin və məğlub edilmiş Romaniyanı dəmir məngənə içində saxlasın. Mütarikə əqd ediləndən 20 gün sonra Makenzen Macaristan təriqi [yolu] ilə Almanyaya qayıtmalı ikən yenə Balkanda qalıb işində davam eyləmişdir.

* Lion (28 yanvar) - Leon Burjuanın təhti-sədarətində [sədrliyi altında] Cəmiyyəti-Əqvam məsələsini müzakirə üçün birinci iclas əqd edildi [baş tutdu]. Bu məsələ ətrafında olan bir qədər danışıqdan sonra iclas böylə qərar qoymuşdur: Bununla iclas bütün qonşu dövlətlərə müraciət edərək, Cəmiyyəti-Əqvamın təlqin etdiyi amallara nail olmaq üçün bir yerə toplanmağı arzu edir. Sülh əqd edilməyincə, həyatın adi halına düşməyəcəyini iclas qeyd və etiraf edir.

## QƏZETƏLƏRDƏN

* Gürcüstan Hökuməti İngiltərədən mal almaq üçün xüsusi vəkil göndərir.

* Sibiryada 80 min yapon əsgəri vardır.

* Şayiata [şayiələrə] görə Tsaritsın əhalisi İdil [Volqa] nəhrinin sol kənarına nəql edilir.

* Kiyevdə olan Finlanda konsulu Finlanda əsgərlərinin Petroqrada daxil olmalarını simsiz teleqrafla xəbər almışdır.

**Könüllü ordu**

Ukraynadan ötrü ordu dəstələri təşkil etmək üçün Könüllü ordu zabitləri Yekaterinodardadırlar. Denikin Yekaterinodarda və Pokrovski Tsaritsın cəbhəsində. Kazaklar müharibə etməkdən təngə gəlmişlərdir. Şəhər əhalisi fəna müamilədən [rəftardan] narazıdır. Zabitlərin, kazakların axtarış, qarət və arvadlara təcavüz etmələri ziyalıları təngə gətirmişdir. Zabitlər özləri qabaqlarına gələn malları həcz [müsadirə] edib, bəzən oğurlayırlar.

Fəhlələr bimuzd olaraq süngü gücü ilə zavodlarda işləməyə məcbur edilirlər.

Şura Hökuməti tərəfindən buraxılan pullar qəbul edilməyir. Könüllü ordu, məcburi bir surətdə təşkil edilir. Hamını bilatəfavüt [fərq qoymadan] orduya daxil edirlər. Ordu arasında fransız və Romaniya zabitləri vardır. Bunlardan əlavə Könüllü orduya güclə 4 min Avstriya və almaniyalı daxil edilmişdir ki, bunlar kadetlər əlinə düşmələrinə təəssüf edirlər. Stavropol və Armavir müharibələrindən sonra Kornilov alayından 9 nəfər, mühəndis alayından 21 nəfər qalmışdır. Qalanları isə Kuban çayında və Armavir altında vaqe olan müharibələrdə tələf olmuşlardır. Şəhərdə 18 yaşından 40 yaşına, kəndlərdə isə 18-indən 58 yaşınadək istehzari-əsgəriyyə [hərbi çağırış] dəvət edilmişdir. Qocalar isə təhlükəli vaxtlarda dırmıq və yabalarla cəbhəyə getməlidirlər.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Şəki şəhəri nümayəndəsi Hacıbaba bəy Nağıbəyov Rəisi-vükəla [Baş nazir] həzrətləri tərəfindən hüzura qəbul edilərək Şəki əhvalı barəsində mühasibatda bulunmuşdur [hesabat vermişdir]. Şəki nümayəndəsi Yevlax-Şəki yolunun fəna bir halda olduğu barəsində Rəisi-vükəla həzrətlərinə məlumat verərək bildirmişdir ki, həman yolun fənalığından naşi [ötrü] Şəki bir çox nöqtələrlə əlaqədə buluna bilməyir.

Sonra nümayəndə Şəki prixod mollalarına məvacib təyin etmək barəsində istidada [xahişdə] bulunmuşdur. Nümayəndə Şəkidəki müsri [yoluxucu] xəstəliklərin hökmfərma olmaqlarını [hökm sürmələrini] təsvirlə, oraya xəstəliklərlə mübarizə etmək üçün sihhiyyə dəstəsi göndərilməsinin mütəmənna [arzuedilən] olduğunu bəyan etmişdir.

Rəisi-vükəla Hökumətin müavinətini vəd etmişdir.

* Mövsuq [mötəbər] mənbələrdən aldığımız məlumata görə, Hüseyn xan Təkinski Erməni Hökuməti indində [nəzdində] Azərbaycanın siyasi nümayəndəliyinə təyin edilir. Müşarünileyh [adı çəkilən şəxs] bugünlərdə məhəlli-məmuriyyətinə [təyin edildiyi yerə] azim olacaqdır [yola düşəcəkdir].

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Ticarət və Sənaye Nəzarətində**

* Ticarət və Sənaye naziri həzrətləri Rəisi-vükəla həzrətlərinə müraciətən məlum etmişdir ki, Bakıdakı mərmi zavodu həcz [müsadirə] edilmişdir. Oradakı mühəndisə məlum edilmişdir ki, fəhlələr oradan çıxmalıdırlar. Nazir məktubunun axırında mərmi zavodunun Cümhuriyyətimiz üçün havi olduğu [daşıdığı] əhəmiyyətini bəyanla, geri verilməsi haqqında lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica və təmənna [arzu] etmişdir.

* Ticarət və Sənaye Nəzarəti Gürcüstan Hökuməti nəzdindəki siyasi nümayəndə Məhəmməd Yusif Cəfərova müraciətən rica etmişdir ki, Tiflisdə Mədən Departamenti xidmətçiləri və əmvalının [mallarının] Bakıya göndərilməsi barəsində lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunulsun. Zira Azərbaycan Mədən İdarəsi müdiri kanuni-əvvəlin [dekabrın] 16-dan etibarən Nəzarətə müraciətən məmurin [məmurlar] üçün ərzaq və mühimmat istəmişdir.

**Məsai Nəzarətində**

* Şubatın [fevralın] 2-də Məsai Nəzarətinə [Əmək Nazirliyinə] Tağıyev fabrikası müdiriyyəti bir kağız göndərib məlum etmişdir ki, qulluqdan ixrac edilən xidmətçilər yenidən qulluğa qəbul edilmişlərdir.

* Bakıda Neft quyuları qazıyan müəssisələr İttifaqı Məsai Nəzarətinə müraciətən rica etmişdir ki, Nəzarət cənbində [nəzdində] təşkil tapan xüsusi müşavirədə onların nümayəndəsinə bir yer verilsin.

* Müttəfiq Zəhmət Cəmiyyətinin mərkəzi komitəsi Məsai Nəzarətinə müraciətən rica etmişdir ki, körpülərdə çalışan fəhlələr Cəmiyyətin izni ilə qəbul edilib, əzl edilmələri [işdən çıxarılmaları] cəmiyyət izni ilə olması barəsində lazımi tədabirdə bulunulsun. Zira işbu məsələdən naşi [ötrü] bir çox qeyri-məmul hadisat [arzuedilməz hadisələr] törəməkdədir.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Müdafiə Nazirliyi] Rəisi-vükəlaya müraciətən müsri [yoluxucu] xəstəliklər və başqa bu kimi məsələlər üçün Nəzarətə 200 000 manat para buraxılması barəsində təşəbbüsatda bulunmuşdur.

* Məşixət Sədarəti [Şeyxülislamlıq İdarəsi] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən füqəra sinfindən vəfat edənləri dəfn və kəfn etmək üçün para təxsis edilməsi [pul ayrılması] barəsində təşəbbüsatda bulunmuşdur. Nəzarət 5000 rublə təxsis etmişdir. Fəqət sədarətdən rica etmişdir ki, fəqirlik barəsində məhəllə mollalarından şəhadətnamə tələb edilsin.

## MƏQSƏDLƏRİ NƏDİR?

Bugünlərdə Ermənistan Hökuməti namından [adından] Ermənistan Xariciyyə naziri Tiqranyanın Hökumətimizə çəkdiyi protesto teleqramı zənnimcə hamını təəccübləndirsə gərəkdir. Ələlxüsus teleqramın son cümləsindəki "Ermənistanın ərazi hüququna təcavüz" ibarəsi təəccüb deyil, heyrətimizi mövcib [heyrətimizə səbəb] olur. Məsələ yenə qara bəxtli Qarabağın məsələsidir. Nüfusca [əhalinin sayına görə] müsəlman əhalisi erməni əhalisindən bir neçə kərə artıq olduğunu erməni statistikçiləri də etiraf etdiyi bir halda, mövqeyi-coğrafisi ilə Azərbaycanın təbii bir sərhədi olduğu göz qabağında ikən və indiki Azərbaycanı təşkil edən xanlıqların içində Qarabağ xanlığı tarixdə ən məşhurlarından ədd [hesab] olunarkən, bu gün erməni milləti və onun min dürlü bəla və məşəqqətlə həqqi-istiqlal qazanmış hökuməti yenə də gözlərini Qarabağdan çəkmək istəməyir və oranı idarə etmək üçün olunan təşəbbüslərə qarşı protesto edir. Bu cəsarətə artıq siyasi protesto deyil, başqa dövlətin daxili idarəsinə qarışmaq namı verilməlidir ki, buna da heç bir müstəqil hökumət təhəmmül edəmməz [dözüm nümayiş etdirə bilməz]. Ələlxüsus Ermənistan kimi yeni törəmiş, gələcək mövcudiyyəti əsaslı şübhələri mövcib olaraq, ərazi hüdudu

bir işareyi-sualdan (?) ibarət olan bir dövlət, qonşusunun daxili hərəkatını xaricdən tənqidə qalxışması qətiyyən lüzumsuzdur. Ermənistan böylə bir təşəbbüsdə bulunarsa, açıqdan-açığa "Nə mən yaşayacağam, nə də səni yaşamağa qoyacağam" demiş olur. Ermənistanın Qarabağa ümid etməsi, deyil "samoopreledeniye" [öz müqəddəratını təyin etmək] əsasına, hətta ən ibtidai məntiqə belə sığmaz bir röyadır ki, bu röya təbir edilərsə, nəticədə yenə dəhşətli mənzərələr, yenə mədəniyyət və ülfət yerinə xarabazarlar görünər.

Hal-hazırda Ermənistanın cüz'ü [bir hissəsi] olan bir çox yerlər, gərək əhalinin milliyyəti etibarı ilə, gərək tarixi vəsiqələrin şəhadəti ilə Azərbaycanın ən şər'i [halal], qanuni hissələri olduğu halda, Azərbaycan Hökuməti məhz dostluq və asayişin xələldar olmaması niyyəti ilə və hər üç cümhuriyyətin qazandığı haqqi-istiqlalın möhkəmləşməsi xatirəsi üçün o yerlər barəsində bir kəlmə olsun danışmayır. Çünki əgər qonşu cümhuriyyətlərin arası pozularsa, bundan şübhəsiz bir yabançı qüvvə müstəfid olacağı bədihidir [faydalanacağı aşkardır].

Bu gün Azərbaycan Hökuməti əgər Şuşa və Cavanşir qəzalarını bir general-qubernator təhti-idarəsində [idarəsi altında] dolandırmaq istəyirsə, bundan yeganə məqsəd yalnız oralarda asayiş və intizam bərpa edib, neçə vaxtdan bəri asudəlik üzü görməyən əhalini yenidən rahat və mədəni yaşamağa dəvət etməkdir. Böylə bir təşəbbüsün önünə çıxmaq asayis və intizam tərəfdarı olan bir cümhuriyyətdən deyil, pərişanlıqdan istifadə edib, qara fikirlərini yürütmək xülyasında olan macərapərəstlərdən gözlənməlidir.

Bir dəfə diqqət olunsun, Azərbaycan kəndi daxilində olan iki mahalı idarə etmək üçün general-qubernator təyin edirmiş, bu isə başqa bir qonşu dövlətin "ərazi hüququna təcavüz" imiş. Məncə burada məntiq aramaq belə lazım deyil. Yalnız bunu düşünməlidir ki, qurdun qarnı doymaq üçün quzuya hər nə nəhv [tərz, yol] ilə olursa, bir günah, bir təqsir ixtira etməlidir. Lakin Azərbaycan millətinin də öylədə sadədil quzulardan olduğunu kimsə sübut edəmməz.

Heç olmazsa bunu düşünməli idi ki, Qarabağa general-qubernator təyin etmək, oranı Paris Konfransının qoyacağı qanunların təhtindən [altından] çıxarmaq deyildir. Həpimiz ədalətinə inandığımız o məhkəmənin mübahisəli ərazi haqqında çıxaracağı qərardadlara qədər hər hökumət sərhədi daxilində kəndi başına idarə etməlidir. Bu idarəyə qarışmaq, qonşu dövlətin beynəlmiləl hüququna riayətdən imtina etməkdir. Məsələyə bitərəfanə baxan olarsa, bizim "Ermənistanın ərazi huququna təcavüzümüzü" deyil, onların Azərbaycan beynəlmiləl hüququna təcavüzünü görər.

*Əli Yusif*

## İRƏVAN: ERMƏNİ-MÜSƏLMAN MƏSƏLƏSİ

**Yeni vicdansız təcavüzlər**

İrəvan quberniyasında Göyçə gölünün cənubi-şərqi tərəfində və Novo-Bayəzid mahalı daxilində olaraq 34-35-ə qədər müsəlman kəndləri mövcuddur.

Türklər İrəvan quberniyasına gəlməzdən qabaq ermənilər 1918 sənəsi may aylarında məzkur [deyilən] müsəlman kəndlərinin üstünə hücum etmişlərdi. Fəqət o zaman bura müsəlmanları tüfəngləri və badironları [patronları] çox olduğu üçün erməni hücumlarının qabağında dayana bilmişlərdi. Hətta ermənilərə beş-altı yüzə qədər tələfat vermişlərdi.

Sonra hücum edən ermənilər İrəvandan, Erməni Hökumətindən kömək istəmişlər. Binaənileyh [ona görə] Erməni Cümhuriyyəti 1918 sənəsi iyul və avqust aylarında top və pulemyotlarla müsəlləh [silahlanmış] 20-30 min miqdarında bunların üstünə erməni əsgərləri göndərmiş.

Lihəzə [bu səbədən] yerli müsəlman kəndliləri daha bunlara müqavimət edəmməyib təslim olmuşlardı. O zaman ermənilər yalnız Böyük Məzrə kəndinə 109 top gülləsi buraxmışlardı. İndi Göyçə göl müsəlmanları içindən yanvarın 17-sində çıxıb gəlmiş məlumat sahibi bir cavan orada gözü ilə gördüyü əhvalatı bizim üçün böylə səhih surətdə danışdı:

*"Mən Qazaxlıyam. Göyçə gölü ətrafı müsəlman kəndlərindən Daşkəndinə qonaq getmişdim. Məndən beş-altı gün qabaq çox hissəsi "qaxtaqan" [qaçqın] ermənilərdən və yarısı atlı, yarısı da piyada olaraq 750 nəfərdən ibarət erməni əsgərləri 3 pulemyot və 2 ədəd topla bərabər Novo-Bayəzid müsəlman kəndlərindən rəsmi surətdə xərc yığmaq adı ilə bu kəndlərin üstünə gəlmişlər. Bu erməni əsgərlərinin müsəlman kəndlərindəki rəftar və müamilələri [davranışları] böylə idi: Erməni əsgərləri hər müsəlman kəndinə yetişirdilərsə, qabaqca o kənd camaatının qalan silahlarını alırdılar. Sonra kəndlilərin öhdəsindən gələmməyəcəkləri surətdə cəbrən [zorla] ağır-ağır xərclər alırdılar. Belə ki, məzkur əsgərlər mən özüm mövcud olduğum Böyük Məzrə kəndi müsəlmanlarını 34 min manat xərc verməyə məcbur etdilər. Bundan əlavə, həmin kənddən 50 arabaya qədər ot, 5 xarvar taxıl, 10 xarvar arpa, 20-30-a qədər at apardıqları kimi, evlərdən arvad ziynətləri qəbilindən daha bir çox cəvahirat, arvad və kişi təzə paltarları[nı] talayıb apardılar. Sonra "Daşkənd" denilən kənddən otlu, taxıllı, neftli və talan olaraq 280 min manatlıq qarət və zəbt etdilər. Bundan savayı həmin kəndin sakini Məşhədi Qasımın 120 baş qoyununu, 24 baş qaramalını, 50 araba otunu və 10 min manatlıq miqdarında ev müxəlləfatını [ev əşyasını] aldılar.*

*Hakəza [eləcə də] Canəhmədli kəndindən 15 at, 30 araba ot, nəğd və taxıl olmaqla 15 min manatlıq əşya və neft aldıqları kimi arvad, kişi, hər kəsin əynində təzə paltar görürdülərsə, "bunlar kazyonnıdır" [xəzinəyə məxsusdur] deyib, libasını əynindən çıxarırdılar.*

*İnəkdağı kəndindən dəxi taxıl, ot, at və qeyri bu kimi camaatın mayehtacını [lazımlı şeylərini, avadanlığını], 50-60 min manatlığa qədər alıb apardılar. Bunun kimi Qaraimanlı, Sucalı, Bala Məzrə və daha qalan o ətrafdakı müsəlman kəndlərini bu növlə cəbrən xərcləyib, taladılar.*

*Erməni əsgərləri hər kəndin üstünə getdikləri vaxt ümumən yəni 750 nəfəri də topları, pulemyotları ilə bərabər o*

*kəndin üstünə gəlib müsəlmanları xərcləyirdilər, talayırdılar. Sonra genə birlikdə o hal ilə o biri müsəlman kəndinin üstünə gedirdilər.*

*Böyləliklə, İrəvan quberniyasının Novo-Bayəzid mahalında ermənilər içində qalıb, erməni hökumətinə təslim olmuş olan 35 para müsəlman kəndlərinin camaatı fəcianə [faciəvi] bir hal keçirməkdədirlər. Yolları qalın qar təbəqələri basdığı üçün bir tərəfə qaçammayırlar. Binəvaların səsləri və harayları da bir yana çatmayır. Sizi inandırıram, əgər mən çıxıb bu tərəfə gəlməsəydim və sizinlə görüşməsəydim, nə bilim onların halından kim xəbər tuta biləcəkdi."*

Müxatibimiz [həmsöhbətimiz, söz danışan şəxs] burada dərin suzişli [yanıqlı] bir ah çəkəndən sonra məhzun [hüznlü] bir hal ilə sözünə davam etdi:

*"Daşkənd sakinlərindən bir kişi namusunu saxlamaq üçün arvadını özgə bir kəndə qaçırmaqla, erməni əsgərlərinin təcavüzündən qurtara bilmişdi. Çünki nizami erməni əsgərləri camaatdan xərc yığdıqları əsnada, müsəlman qızlarına və arvadlarına da təcavüz etməkdədirlər."*

İştə, Azərbaycanımızda rahat və azadə yaşamaqda olan erməni təbəələrimizin rifahətinə [firavanlığına] qarşı erməni insaniyyətkarlığı!

Azərbaycan Parlamanımızda və Azərbaycan Kabinəsində ermənilərə məbusluq və vəzirlik mənsəbləri ayırdığımıza qarşı, Erməni Cümhuriyyətinin mükafatı!

*M[ir] A[bbas] Mirbağırov*

## ÖMƏR FAİQİN BAŞINA GƏLƏNLƏR

Daha 1918 kanuni-əvvəlində [dekabrında] Batuma getmək üzrə Tiflisdə bulunduğum vaxt möhtərəm qələm arxadaşım Ömər Faiqin Tiflis komandanlığı dairəsində məhbus olduğunu eşitdim və həman gün ziyarətlərinə getdim. Nə üçün həbs edildiklərini anladım. Məlum olduğu üzrə Batum-Qars sancağındakı müsəlmanlar cilovu gürcülərin əlinə vermək istəməyirlər. Ömər Faiq də əhalinin hissiyyatına bir tərcüman vəzifəsi gördüyündən, gürcülüyə "zərərli" görülmüş və həbs edilmişdir. Fəqət əhvaldan öylə anladım ki, Gürcüstan Hökuməti Ömər Faiqi tezlikdə sərbəst buraxacağını vəd etmişdir. Bütün safdil millətimlə bərabər mən də gürcüləri dost olaraq tanıdığımdan, Azərbaycan mətbuatına bu xüsusda bir şey yazmadım. O dostluğun xatirəsi üçün bu məsələyə o qədər də əhəmiyyət verməyib Batuma getdim. Bir də möhtərəm yoldaşım özü araya pozğunluq düşməsinə bizzat [şəxsən] razı olmadı. Batumdan döndükdən sonra Gəncədə Ömər Faiqin Tiflisdən çıxmamaq qeydi ilə sərbəst buraxıldıqlarını eşitdim və sevindim.

Bu dəfə kanuni-saninin [yanvarın] 22-də bir daha Tiflisə getdim. Ömər Faiqin təkrar həbs edildiyini təəssüflərlə anladan yoldaşlara rast gəldim. Bu dəfəki həbsin əvvəlkinə bənzəmədiyini də əlavə etdikləri vaxt, pək ziyadə maraqlandım. İcab edən vəsiqəni əldə etdikdən sonra görüşə bildim. Mən Ömər Faiqi yenə əvvəlki üç arxadaşı ilə bərabər komandanlıq həbsxanasında buldum. Yarım saat sürən mülaqatımız [görüşümüz, söhbətimiz] anlatdı ki, Ömər Faiqi bu dəfə həbs etdikləri kimi arxadaşları ilə bərabər Tiflisin mərkəzi həbsxanasında qapatmışlar. Bu həbsxana qatillərin, canilərin yatağıdır. Bu həbsxananın daxili, Allah göstərməsin, nə qədər murdar hərəkətlərin yuvası imiş. Buraya Gürcüstan Hökuməti caniləri bıçaqları, ilanları dişləri ilə bərabər olaraq toplamışdır. Bu həbsxananın içərisində Gürcüstan Hökumətindən başqa bir hökumət var imiş. Buraya yeni daxil olan bir məhbus təbəəlik vergisi verməli imiş. Bu yeni hökumətin buyurduğuna əməl etməyənlərin vay halına! Pekin və Tehran həbsxanalarında olmayan işgəncələr altında can verənlərin həddü hesabı yoxdur. Əski əsrarəngiz bu qalanın hər qaranlıq guşəsi bir çox qurbanların məqtəli [qətl yeri] imiş. Bir sözlə, o qalada adam öldürmə dərsi yenidən böyük bir məharətlə öyrədilməkdə imiş.

İştə bu dəfə Qafqaz türklərinin sevgili yazıçısı böylə bir məhbəsdə müsafir olaraq günlərcə qalmışdır. Vergi istənildiyi vaxt verməkdən aciz qalan mühərririmiz dəhşətli bir yumruq və təkmə tufanı altında qalmışdır. Dışarıdan dostların göndərdiyi yeməklər verilmədiyi kimi, içəridəki "qanlı lokanta" [yeməkxana] hökuməti də dustaqxananın yeməyini verməmişdir. Onu müşayiət edən qaraqol əsgərlərin anlatmış olması ilə "vətən xaini" (?) Ömər Faiq sabahdan axşama qədər ölümə müntəzir olmuşdur [ölümü gözləmişdir].

Bir qaç gün bu cəhənnəm əzabından sonra Ömər Faiqin Tiflisdəki dostları işi anlayıb, hökumətə söyləmişlər. Həbsxanasından xəbəri olmayan hökumət də Ömər Faiqi təkrar Şəhər komandanlığı həbsxanasına nəql etmişdir. Məsələ bununla bitməmiş, onun yoldaşlarından biri yenə orada qalmışdır. O da Axısxanın mötəbər əşxasından [şəxslərindən] birisidir. Kəskin dişli bıçaqlar Ömər Faiqin hesabını bir gün bir gecə o zavallıdan sormuşdur. İkinci günü o zat da oradan ötəki həbsxanaya nəql edilmişdir.

Zamanə yazıçıları vüquatı [hadisələri] kəndi duyğularına uydurub meydana çıxarırlar. Fəqət mən bunu, bu məlumatı Ömər Faiqdən və digər üç arxadaşından eşitdiyim kimi yazdım. Burada göstərdiyim, olunan həqarətin bir cüzisidir. Mən bu həqarəti Ömər Faiqə deyil, millətimə edilmiş hesab etdiyim üçün gürcü millətinin dostluğunu ürəyimdə saxlamaqla bərabər, gürcü hökumətinə qələm arxadaşlarım naminə etiraz edirəm. Ömər Faiq Axısxanın deyildir, bütün millətin malıdır. Bununla izzəti-nəfsi təhqir edilən millətim, dostluğunun sui-istemal [sui-istifadə] edildiyini hiss etməz deyildir.

*Cavad*

## "QAFQAZ CİBALİYYUN İTTİHADI" CÜMHURİYYƏTİNİN İLK PARLAMENTOSU

*(Xüsusi müxbirimizdən)*

Hökuməti-cümhuriyyənin ilk Parlamentosunun rəsmi-güşadı [açılış mərasimi] kanuni-saninin [yanvarın] 20-də icra ediləcəyi əvvəlcə elan edilmiş və Şimali Qafqazda yaşayan hər bir millətdən vəkillər dəvət edilmişdi.

Əhali bu günü böyük bir səbirsizliklə bəkləyirdi. Müstəqil və hürr Şimal Qafqaz Hökumətini vücuda gətirmək üçün yüzlərcə sənədən bəri həyatlarını fəda etmiş olan müəzzəm [böyük] Şamilin övladları artıq bu günü görmək səadətinə nail oldular. Bu gün Şimali Qafqaz millətləri üçün böyük və tarixi bir gün, tarixi bir bayramdır. Bu gün şəhərdə büsbütün başqa bir həyat, əhalidə büsbütün başqa bir ruh!

Bu gün hər kəsin üzündə istiqlal qüruru, böyük bir məsudiyyət hiss edilirdi. Bu gün Cənabi-haqq Cibaliyyun İttihadı millətlərinə əsrlərcə bəslədikləri müqəddəs əməlləri [arzuları] gözü ilə görmək nemətini bəxş etmişdir. Bu gün bütün hökumət dairələrində rus imperializm bayrağı deyil, yeddi ulduzlu Şimali Qafqaz bayrağı böyük bir əzəmət, böyük bir heybətlə təməvvüc edirdi [dalğalanırdı].

Ey müəzzəm Şamil! Kim bilir bu gün ruhun nə qədər şaddır! İslamın ülviyyəti üçün ixtiyar etdiyin o xariqüladə qəhrəmanlıqlarına mükafat olmaq üzrə Qadiri-mütləq həzrətləri bu gün övladlarına istiqlal lütf buyurmuşdur!

Parlamentonun rəsmi-güşadı saat 1-də icra ediləcəyindən, saat 12-yə doğru əhali güruh-güruh [dəstə-dəstə] olaraq Parlamento binasının ətrafına toplanmaqda idilər. Parlamentonun önündə bir müfrəzə [qrup, dəstə] əsgər və musiqiçilər səfbəstə olaraq [sıraya düzülərək] Məclisin rəsmi-iftitahını [açılışını] bəkləyirlərdi. Nəhayət saat 1 radələrində heyəti-hökumət binadan dişarıya çıxdı. Musiqi bunları milli marş oynayaraq istiqbal etdi [qarşıladı]. Parlamentonun müvəqqət rəisi sifətilə mühəndis Zübeyr Teymurxanov əhalini Parlamentonun açılması münasibətilə təbrik etdikdən sonra, əlini binaya uzadaraq: *"İştə əfəndilər, bizim həyatımız bu binaya mərbutdur [bağlıdır]. Bizim bütün müqəddəratımız bu binada həll ediləcəkdir. Cənabi-haqqdan tövfiq [kömək] diləriz."* dedi.

Sonra şeyxülislam Nəcməddin əfəndi həzrətləri kamali-xüşu və xüzu [təvazö] ilə Parlamentonun müvəffəqiyyati-həsənəsi [gözəl müvəffəqiyyətlər qazanması] üçün bir dua oxudu. Bütün əhali böyük bir sükut içində "amin" avazı ilə əldə etdikləri istiqlalın bəqası [əbədiliyi] üçün Cənabi-xaliqi-kainatın [kainatın yaradıcısı olan Allahın] hüzuri-əzəmətində [uca hüzurunda] təzərrö və niyazda bulunurlardı [yalvararaq dua edirdilər].

İftitah [açılış] duasından sonra məclis salonu açıldı. Salonun divarları cümhuriyyət bayraqları ilə donadılmış [örtülmüş], döşəməsi xalılarla təzyin edilmişdi [bəzədilmişdi]. Məbuslar mövqelərini işğal etdilər [Millətvəkilləri öz yerlərini tutdular]. Hökumət lojasında Baş vəkil ilə bərabər bütün heyəti-hökumət və diplomasi lojasında ingilis əsgəri vəkilləri [hərbi nümayəndələri] bulunurlardı. Seyirçilərə təxsis edilən [ayrılan] mövqe də xıncaxınc [ağzına qədər] dolmuş idi.

Saat bir buçuq radələrində Zübeyr Teymurxanov həzrətləri müxtəsər bir nitq ilə Məclisi rəsmən açdı. Zübeyr həzrətləri hürriyyətin və Rusiya inqilabi-kəbirinin [Böyük Rusiya inqilabının] bizə bəxş etmiş olduğu nemətlərin ən böyüyü bu Məclis olduğunu, Şimali Qafqaz millətlərinin səadət və istiqbalları[nın] [gələcəklərinin] buna mərbut [bağlı] olub bütün müqəddəratları burada həll ediləcəyini





bəyan etdikdən sonra, bunun əsası "Hər bir millət müstəqillən yaşamaq haqqına malikdir!" prinsipi olduğunu söyləyir.

Sonra rəis, Şimali Qafqaz millətləri[nin] heç bir vaxt ayrılmamaq üzrə ittifaq etdiyini və bu ittifaqda ufaq-böyük hər bir millət müsavi [bərabər] olub, heç bir millət digər bir millət üzərində təhəkküm etmək caiz olammayacağını, əks təqdirdə bu ittifaq və istiqlalın bəqa və davamını təmin etmək pək müşkül olacağını anladır.

Sonra rəis Rusiyaya nəqli-kəlam edərək [sözü gətirərək]: *"Rusiya ilə olacaq münasibətimiz bu gün məchuldur. Bu məsələ Parisdə iniqad edilməkdə [yığışmaqda] olan Sülhi-Ümumi Konfransında həll ediləcəkdir. Fəqət bu yeni cümhuriyyətimizin Avropa və sair düvəli-müəzzəməsincə etiraf edilməsi [böyük dövlətləri tərəfindən tanınması] bizim kəndi-kəndimizi və daxili asayişimizi mühafizə edə bilməmizə mütəvəqqifdir [bağlıdır]. Əgər biz buna qadir və müstəqillən yaşamağa layiq olduğumuzu göstərə bilsək, bizim cümhuriyyətimizə heç bir qorxu mütəsəvvir [təsəvvür olunan, mümkün olan] deyildir."* deyir.

Rəis: *"Ufaq millətlərin təxlisi [xilası] üçün bu cahanşümul [bütün dünyanı əhatə edən] müharibəyə girişmiş olan İttifaq heyəti-düvəliyyəsi [İttifaq dövlətləri, Antanta dövlətləri] də heç şübhəsiz bizim bu haqqımızı etiraf edəcəkdir"* deyir və diplomasi lojasına əlini uzadaraq: *"İştə, yeni cümhuriyyətimizin ilk Parlamentosunda böyük İngiltərənin əsgəri vəkillərini də görürsünüz"* deyir. Parlamento əzaları [üzvləri] ingilis mürəxxəslərini [nümayəndələrini] sürəkli alqışlayır.

Sonra rəis Parlamentonun böyüklüyünü, millətin istiqbalı pək sıxı bir surətdə buna mərbut olduğunu bəyan etdikdən sonra Parlamentonun əzalarını yeni cümhuriyyətin səadəti naminə müttəhidən [birgə] və əldən gəldiyi qədər çalışmağa dəvət edir və *"Yaşasın yeni Cümhuriyyətimiz! Yaşasın ilk Parlamentomuz!"* deyə nitqini bitirdikdən sonra sözü Baş vəkilə [Baş nazirə] verir.

Baş vəkil Kotsev həzrətləri mütəmadi alqışlar arasında kürsiyi-xitabətə çıxır və yeni cümhuriyyətin birinci parlamento[sun]a xitabən nitq irad etmək [nitq söyləmək] şərəfinə nail olduğu üçün kəndisini çox bəxtiyarədd [hesab] etdiyini bəyan edir. Baş vəkil həzrətləri zamanın fövqəladə əhəmiyyətini böylə təsvir edir:

*"Ətrafımızda müdhiş alovlar davam edir. Bütün cahan böyük bir fırtınaya tutulmuşdur. Biz bu fırtınadan sahili-səlamətə çıxa bilmək üçün mindiyimiz gəmini müttəhidən və fövqəladə bir tədbirimahərat ilə komanda etmək lazımdır. Biz bu gəmini son nəfəsimizə qədər mühafizə etməliyiz."* deyir.

Sonra Baş vəkil, hökumət[in] qətiyyən Parlamentonun göstərdikləri yollardan çıxmayacağını bəyan etdikdən sonra Parlamento əzalarını ufaq cidalların [xırda dava-dalaşın] tərki ilə müttəhidən çalışmağa dəvət edir və şəxsi qərəzlər üçün hökumətin fəaliyyətinə müşkülat çıxarmamalarını hökumət naminə rica edir. Böylə müttəhidən çalışıldığı təqdirdə yeni əldə edilən istiqlalın mütləqa əlimizdən çıxmayacağına Baş vəkil qətiyyən əmin olur və *"Yaşasın gənc Cümhuriyyətimiz! Yaşasın Parlamentomuz!"* sözləri ilə nitqinə xatimə [son] verir. *(Sürəkli alqışlar!)*

Sonra təbrik nitqləri başlanır. Təbrik nitqlərindən sonra rəis bəy qonşu hökumətlərdən gəlmiş olan təbrik teleqraflarını oxuyur. Əzaların əzalıq vəsiqələrin[in] təhqiq və təftişi üçün üç kişidən mürəkkəb [ibarət] bir Təhqiq komisyonu intixab edildikdən [seçildikdən] sonra, saat 4 radələrində məclis qapandı. İkinci məclis ertəsi gün axşam saat 6-da iniqad ediləcəkdir.

*H. Bürhanəddin*

## BAKI XƏBƏRLƏRİ

**Yeni qəzetə**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən nəşr olunan həftəlik "İstiqlal" qəzetəsinin birinci nömrəsi bu gün düşənbə [bazar ertəsi] çıxır. Qəzetə ancaq firqə və fəhlə həyatına münhəsirdir [həsr edilmişdir].

**Balaxanıda fəhlə klubu**

Şubatın 1-ində Sabunçu ambulatoriyasında fəhlələrin xüsusi bir iclası vaqe olaraq, fəhlə təşkilatı qurmaq və fəhlə klubu layihəsi tərtib vermək üçün bir komissiya seçilmişdir.

**Gəncədə Kəsbkarlar İttifaqı**

Bakı Kəsbkarlar İttifaqları Şurası [Həmkarlar İttifaqları Şurası] Gəncədə Kəsbkarlar İttifaqı təsis etmək üçün oraya vəkillər göndərir.

**Aptek xidmətçilərinin tətili ətrafında**

Aptek əmələlərinin [işçilərinin] tətili hənuz davam etməkdədir. Ermansdan sonra indi də Rayqorodetski tətil komisyonuna məktub yazaraq, xidmətçilərin tələblərini tamamilə qəbul etdiyini bildirmişdir.

**General Biçeraxov**

"Qafqazya-Kaspi Hökuməti" deyilən təşkilat tərəfindən iki etibarnamə alaraq general [Lazar] Biçeraxov iki konfransa gedir. Birincisi Mərmərə dənizində Rusiya firqə və cərəyanları nümayəndəsi konfransı, ikincisi Versal Ümumi Sülh Konfransına. General Biçeraxova tapşırılmışdır ki, ümum Rusiyanın qoşma [federativ] xalq cümhuriyyəti əsası ilə birləşdirilməsi və Rusiya tərzi-idarəsi və xırda millətlərin müqəddəratı məsələsinin həlli üçün ümum Rusiya Məclisi-Müəssisanı çağrılmasını müdafiə etsin.

## AZƏRBAYCANDA

**Lənkəran**

Xüsusi müxbirimizdən:

Kanuni-saninin [yanvarın] 23-də məşhur Lənkəran tacirləri və sərvətdarlarından [varlılarından] Hacı İbad Əkbərovun vəfatı günü erməni saldatlarının sərkərdə və rəisi olan Makarov və Samborus ilə məa [birgə] oraya gəlib evin təxliyəsini cəbrən təhəkküm etmiş, qışın zamanı yağmağına baxmayıb onları həyətə qovub özləri evində müsamirə [yığıncaq; əyləncə] etmişlər. Onlar həyətində yağışın altında gecə sabah edib, sübh zamanı Hacı İbad vəfat etmişdir.

## GÜRCÜSTANDA

* Gürcüstan Xariciyyə naziri Ermənistan Parlamanı sədri [Avetik] Saakyanın





bilamümaniət [maneəsiz] Tiflisə buraxılması üçün binagüzarlıqda bulunmuşdur [təşəbbüs göstərmişdir].

**Müsəlman Milli Şurasında**

Gürcüstanda olan Müsəlman Milli Şurasının 26-sı yanvarda vaqe olan fövqəladə iclasında heyəti-rəyasət intixab edilmişdir [rəyasət heyəti seçilmişdir]:

Sədr - Əbdürəhim bəy Haqverdiyev, sədr müavinləri - Əlimirzə bəy Nərimanov və Abbasqulu xan Əhmədov, xəzinədarlığa [müsahibliyə] - İsmayıl Xəlilov.

Məzkur [adı çəkilən] Şura bu yaxınlarda Tiflisdə bütün Gürcüstan müsəlmanları ictiması [yığıncağı] dəvət etmək niyyətindədir.

**Müsəlman qlasnı siyahıları**

Tiflis Bələdiyyə İdarəsi qlasnı namizədləri siyahısını elan etmişdir. Gürcüstanda olan Müsəlman Milli Şurasının altı nömrəli siyahısında yeddi nəfər namizəd göstərilmişdir. Namizədlər: Əli Bayramov, Mirzə Hüseyn Həsənzadə, Fətəli Axundov və qeyriləri.

**Protesto mitinqi**

Soçidə yanvarın 25-də Rus Milli Şurası təşkilinə qarşı protesto eyləmək üçün böyük bir mitinq təşkil edilmiş imiş. Mitinq müttəhidülqövl [yekdilliklə] zeyldəki [aşağıdakı] qərarı qəbul eyləmişdir:

1) Soçi demokratiyası Könüllü dəstələrin təcavüzündən xilas edən Demokratik Gürcü Cümhuriyyəti himayəsində yaşayaraq demokratik üsulu ilə özünün ictimai və siyasi vəziyyətini müdafiə edir və milli əsasla təşkil edilmiş heç bir müəssisəyə ehtiyacı yoxdur.

2) Soçi demokratiyası nəinki bu işdə iştirak etmiyəcəkdir, biləks [əksinə] hər milli şuraya ciddi surətdə protesto edir.

3) Məhəlli [yerli] sağ ünsürlərin fitvası ilə təşkil edilmiş Rus Milli Şurası bizim Gürcüstan demokratiyasına qarşı fitnədir. Bu şura, Kubanda olan mürtəcelər ilə əlaqədə bulunub bütün demokratiyaya zərbə endirir.

**Qəzetə qapanması**

Batumda general-qubernator binagüzarlığı [göstərişi] ilə qapanmış olan "Musulmanskaya Qruziya" (İslam Gürcüstanı) nam [adlı] qəzetə hələ çıxarılmayır.

## TEATRO VƏ MUSİQİ

Bu gün (düşənbə) [bazar ertəsi] "Mikado" teatrında Üzeyir bəy Hacıbəyli cənablarının neçə illərdən bəri Bakı səhnəsində oynanmamış olan "Ər və arvad" operettası mövqeyi-tamaşaya qonulacaqdır. Bu tamaşanın təntənəli bir surətdə oynanması üçün müdiriyyət lazımi hazırlıqlar görmüşdür.

## İDARƏYƏ MƏKTUB

**- 1 -**

Möhtərəm müdir!

Qəzetənizin 100-cü nömrəsində "Batum oblastı və gürcülər" ünvanında Əhməd Həmdi Qaraağazadə tərəfindən yazılan əhvalatı oxuyub rəf'i-iştibah [yanlışı düzəltmək] üçün bu məktubumun dərcini rica edirəm.

Əhməd Həmdi Qaraağazadə cənab-

ları Batum oblastında gürcü propaqandası artmasından bəhslə, Abaşidze Hafiz Məhəmməd Tağı bəy cənablarını töhmət etmişdir. Burasını deyə bilərəm ki, bir çoxlarınca məşhur olan Məhəmməd bəy Abaşidze cənabları həməvəqt [daim] öz dini və milləti uğrunda canü dildən çalışan qəyur [qeyrətli; çalışqan] bir zatdır. Abaşidze cənabları türklük haqqında bilümum [ümumiyyətlə], Azərbaycan haqqında bilxüsus [xüsusilə] heç vaxt düşmənçilik bəsləməyib, bəlkə həmişə hüsntəvəccöh göstərib və göstərməkdədir. Və əlavə, Abaşidze nəslindən bugünə qədər xəfiyyəlik və başqa rəzalətlərə mürtəkib olan [bulaşan] bir zat olmadığı həm türklərə və həm də gürcülərə məlumdur. İştə bu qədərlə Abaşidze haqqında yazılan əsassız fəqərəni [hadisəni] təkzib etməyi kəndi vəzifəm ədd [hesab] etdim əfəndim.

*Yəhya Hacıyev*

**- 2 -**

Möhtərəm müdir əfəndi!

Xahiş edirəm bu neçə sətiri möhtərəm "Azərbaycan" ceridəsinin [qəzetinin] sütunlarında səbt [dərc] edəsiniz:

Rus "Azərbaycan" qəzetəsinin 16-cı nömrəsində bu tövr yazılmışdı: Yusif Qəribova Ərzaq naziri tərəfindən Lənkəran camaatı üçün 6000 arşın ağ və çit verilibdir. Yenə də hal-hazırdakı Azərbaycan Parlamanında Lənkəran nümayəndəsi hesab olunur. Rəbiüləvvəlin 5-də Hacı Zeynalabidin fabrikasının kantoruna gedib, axtarışdan sonra həman qayırılma vəkalətnaməni tapdım. Vəkalətnamə noyabrın 7-si 1918-ci tarixdə üç nəfərin adı ilə yazılıbdır. Yəni Lənkəran camaatı tərəfindən guya həmin bu üç nəfər arşın malı almağa vəkil olmuşlarmış: 1) Yusif Qəribov; 2) Teymur bəy Bayraməlibəyov; 3) Böyükağa bəy Mirəlibəy oğlu.

Vəkalətnamə imza edənlər: Seyfulla Cabbar oğlu, Yunis Axundov, Mirhüseyn Talışxanov, Əhməd Axundov, Hacıəli Məhəmmədov və Abbasqulu Murtuza oğlu.

Mən bu xüsusda Ərzaq Nəzarətindən sual edib əlan [hələ] iki həftədir cavab almamışam. Xahiş edirəm Ərzaq İdarəsi cavab versinlər. Əvvəla, 6 nəfərin imzası ilə 3 nəfərin iki yüz min cana baliğ [çatan] camaat tərəfindən vəkil olması dürüst və həqiqət olarmı?

2) Bərfərz [fərz edək ki], 6 nəfərin imzası ilə vəkalətnamə dürüst oldu. Aya [bəs], lazımdırmı yazılan qolların xətti tamamən ayrı-ayrı olsun, yainki hamısı bir xətdə, iki xətdə olsa da kifayət edər?

3) Bu 6 min arşın əşya Lənkəranın hansı hissəsi üçün təyin olunubdur?

Və bir də möhtərəm müdir! "Azərbaycan"ın keçmiş nömrəsində Yunis əhvalatı yazılmışdı ki, guya, Lənkəran dairəsində zülmlər edibdir və edir. Bu da səhvdir. Gələn nömrədə Yunis əhvalatından filcümlə [qısaca] xidmətinizə ittila [xəbər] verərəm.

*Lənkəran məbusu:*
*Hacı Mirzə Səlim Axundzadə*

**- 3 -**

Müdiri-möhtərəm! Bu qaç kəlməyə rica edirəm möhtərəm qəzetənizdə yer verəsiniz.

"Azərbaycan" qəzetəsində Ərzaq naziri vəkili Yusifəli [Əliyev] cənabları tərəfindən məzkur [adı çəkilən] qəzetədə Tağıyevin kantorundan yazılmış ki, Abbasqulu Kazımzadəyə verilib 1 top bez, 1 top kətan, 1 top bomazı, 1 top madepulam, 1 top qətifə. Mən məlum edirəm ki, doğrudur Ticarət nazirindən mənə məzkur əşyanı almaqda müsaidə verilmiş idi. Amma mənim məzkur kantordan aldığım əşya 1 top bez, 1 top kətan, 6 ədəd qətifə olmuşdur. Bunlardan başqa mənə bir şey vüsul olmamışdır [çatmamışdır].

*Kazımzadə Abbasqulu*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**İslamiyyə mehmanxanası (lokantası)**

Bir çox sənələrdən bəri davam edən və Mart hadiseyi-əliməsində [kədərli Mart hadisələrində] yanan "İslamiyyə" mehmanxanası yenidən təmir edilib bu gündən etibarən mehmanxanada gözəl lokanta [yeməkxana] açılmışdır. Mahir aşbazların təhti-idarəsində [idarəsi altında] hər növ Avropa və Asiya xörəkləri hazır edilir. Nahar və şam vaxtı Avropa və Asiya musiqi dəstəsi çalacaqdır. On beş ədəd nömrə hazırdır. Adres: Bazarnı və Qubernski küçələrin küncündə, telefon nömrə 12-51.

Kamali-ehtiramla: İsmayıl Mahmudzadə.

*2670*

**Elan**

Mexaniçeski və tökmə zavod "Amiz şirkəti" hər növ gəmi, mədən sifarişləri qəbul edir. Bayılovda Lbovun 3 nömrəli evində.

Burada ustadlar, şagirdlər yaxşı məvaciblə qəbul edilir. Şəraitini Armyanski küçədə 13 nömrəli evdə səhər saat 9-a kimi və axşam 3-dən 5-ə kimi "Amiz şirkəti"nin nümayəndəsi Süleyman Abdullayevdən bilmək olar.

*2671*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır.

Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Operetta**
**Axşam tamaşası**
Mikado teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşlarının müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü
cəmadiyələvvəl ayının 2-sində
(fevralın 3-ündə) 1337 – 1919-cu ildə
Mikado teatrosunda müdiriyyətin
aktyorları tərəfindən təntənəli bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
neçə illərdən bəri Bakı səhnəsində
oynanılmayan Üzeyir bəy Hacıbəylinin
yazmış olduğu məşhur "Ər və arvad"
operettası 3 pərdədə.
Kəblə Qubadın rolunu
Mirzəağa Əliyev ifa edəcəkdir.
Qeyri iştirak edən əşxas müfəssələn
məramnamədə məlum olacaqdır.
Biletlər indidən teatrın kassasında
satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Dirijor: Müslüm bəy Maqomayev.
Müdir: Üzeyir bəy Hacıbəyli.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Ümum müsəlman tələbələrinə**

səh. 21. "1 şubat 1335": burada il, rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1 fevral 1919-cu il tarixinə uyğundur.

**Məclisi-Məbusan və müxaliflər**

səh. 22. "...türk xalqının idareyi-aliyyəsi...": ehtimal ki, "...türk xalqının iradeyi-aliyyəsi..." [uca iradəsi] olmalıdır; qəzetdə "idareyi-aliyyə" şəklindədir.

səh. 23. "fevral hürriyyətlərinin bəqası": Rusiyada 1917-ci ilin fevral ayında baş verən Burjua-demokratik inqilabı (yaxud Fevral inqilabı) və bu inqilabın nəticələri nəzərdə tutulur. Fevral hadisələri köhnə təqvimlə 23 fevral – 6 mart (yeni təqvimlə 8-16 mart) tarixləri arasında cərəyan etmişdir.

"qulami-halqa-bəguş": "qulağı sırğalı qul". Keçmişdə qulların qulağına sırğa taxılırdı, sırğa qulluq rəmzi idi.

**Teleqraf xəbərləri**

səh. 24. "...fərsəx..." yaxud "fərsəng", "ağac": Keçmişdə işlədilmiş məsafə ölçüsü. İşlədildiyi coğrafiyaya və dövrə görə dəyişiklik göstərməklə birgə, təxminən 5 kilometrə bərabər idi. Atın adi yerişlə bir saatda qət etdiyi məsafə, fərsəxin ölçüsü kimi qəbul edilirdi.

"Almaniya Bankı": Almaniyanın ən böyük bankı olan Döyçe Bank [Deutsche Bank] nəzərdə tutulur.

**Vükəla Şurasında**

səh. 26. "prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.

**Nəzarətlərdə**

səh. 27. "Mədən İdarəsi": qəzetdə "Müavin İdarəsi" getmişdir.





**İrəvan: Erməni-müsəlman məsələsi**

səh. 29. "xarvar": çəki vahidi; 1 xarvar 25 puda, 1 pud 16,4 kiloqrama bərabər idi.

**Ömər Faiqin başına gələnlər**

səh. 30. "sancaq": "il" (vilayət) ilə "ilçə" (rayon) arasında inzibati-ərazi vahidi.

səh. 31. "Əski əsrarəngiz bu qalanın...": söhbət Tiflisdəki Metex qalasından gedir; Metex qalası XIX əsrin əvvəllərindən etibarən həbsxanaya çevrilmişdir.

"Cavad": bu imza Əhməd Cavada məxsusdur.

**"Qafqaz Cibaliyyun İttihadı"**
**Cümhuriyyətinin ilk Parlamentosu**

səh. 32. "Qadiri-mütləq həzrətləri": Hər şeyə qadir olan, mütləq qüdrət sahibi olan Allah.

**Bakı xəbərləri**

səh. 34. "General Biçeraxova tapşırılmışdır ki...": bu cümlə qəzetdə müəyyən səhvlərlə getmişdir.

**İdarəyə məktub**

səh. 36. "Rəbiüləvvəlin 5-də": burada tarix hicri təqvimlə verilmişdir; miladi tarixlə 9 dekabr 1918-ci ilə uyğundur.

"Yunis əhvalatı": Cümhuriyyət dövründə Azərbaycanın cənub bölgələrində fəaliyyət göstərmiş Qaçaq Yunis nəzərdə tutulur.

səh. 37. "bomazı": xovlu, isti pambıq parça növü.

"madepulam" (yaxud madepolam): sıx toxunmuş ağ pambıq parça; əsasən alt paltarı tikməyə yarayır.

"qətifə" (yaxud qətfə): böyük ölçülü bədən dəsmalı.



*"Azərbaycan" qəzetinin 105-ci nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə axşamı, 4 fevral 1919-cu il, nömrə 105**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 3 cəmadiyələvvəl sənə 1337. 4 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşları müdiriyyəti öz artistləri ilə bərabər kamali-yə's və təhəssürlə [böyük bir hüzün və kədərlə] müdiriyyətin pərvərdəsi [yetişdirməsi] olan cavan artist Surxay Allahverdiyevin Mixaylovski xəstəxanasında tif mərəzindən vəfat etdiyini xəbər verir. Cənazə bu gün səhər saat 11-də Təzəpir məscidinə aparılacaqdır.

*T/26*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

### Azərbaycan Məclisi-Məbusanının məbusluqla məmurluq ictiması haqqında layiheyi-qanuniyyəsi

Qüvveyi-qanuniyyə ilə qüvveyi-icraiyyə və ədliyyənin [qanunverici, icraedici və məhkəmə gücünün] biri-birindən kamilən [tamamilə] ayrı və müstəqil olması Cümhuriyyət idarə əsaslarından olmaq həsəbi ilə [səbəbindən] məbusluq vəzifəsi ilə məmuriyyət vəzifələrinin bir şəxsdə ictiması [toplanması] qabil olmadığından, Azərbaycan Məclisi-Məbusanı aşağıdakı məvaddı [maddələri] qəbul eyləmişdir:

1 - Məclisi-Məbusan əzalığı [üzvlüyü] ilə hökumət məmurluğu bir zat öhdəsində ictima edəmməz, fəqət nazirlərdən intixab olunanların [seçilənlərin] əzalığı caizdir. Sair məmurlardan biri məbusluğa intixab olunarsa, qəbul edib-etməmək öz ixtiyarındadır. Qəbul etdiyi halda məmurluqdan ayrılır.

Qeyd:

A) İdarə xidmətini ifa etməyən məktəb müəllimləri ilə professorlar, öylə də ixtisas iqtiza [tələb] edən məsələlərdə əhli-xibrəlik sifəti ilə [mütəxəssis kimi] dövlət müəssisələri nəzdində bulunan şəxslər yuxarıdakı məmnuiyyətdən [qadağadan] istisna təşkil edirlər.

B) Bu istisna yalnız Məclisi-Məbusanın bulunduğu məhəldə [yerdə] ifayi-vəzifə edən şəxslərə aiddir.

2 - Məclisi-Məbusan əzası nazir mövqeyində bulunduqları müddətcə maaşlarını yalnız nazirlər heyəti təxsisatından [nazirlər heyətinə ayrılan puldan] alırlar.

3 - Bu qanun nəşr edilən gündən etibarən məriül-icradır [qüvvədədir].

4 - Bu qanunun nəşrindən etibarən dövlət xidmətində bulunan məbuslar Bakıda 3 gün, xaricdə isə 10 gündən son-

ra, bulunduqları xidmətdən istefaları haqqında Məclisi-Məbusan divani-rəyasətinə ərzi-bəyanda bulunmasalar, məmuriyyəti tərcih eyləmiş kimi tələqqi [qəbul] və məbusluqdan ayrılmışədd [hesab] olunurlar.

*Məclisi-Məbusan rəisi naminə:*
*doktor Həsən bəy [Ağayev]*
*İdarə müdiri: Rza Ağasıbəyov*
*Mətninə mütabiqdir [uyğundur].*
*Kargüzar C. Paşazadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklər Kiyevdə**

Moskvadan xəbər verirlər ki, qaliç[y]alılar Kiyev mövqifindən [stansiyasından] çıxarılmışlardır.

Mövqif yanında Bolboçanın ərkanihərbi [qərargahı] dayanmışdır. Mövqif tərəfdə hücum edən alayın geri çəkilməsi yolu qapanmışdır. Kəndlilərdən ibarət külli miqdarda əsgərlər şura əsgərləri tərəfinə keçmişlərdir. Səhər saat 10-da əsgərlər "Marselyeza" nəğməsi ilə şəhərə daxil olmuşlardır.

**Petlyuralıların halı**

Petlyuralıların Ukraynadakı təhlükəli halı gəldikcə ciddiləşməkdədir. Siyasiyyata girişmək müzakirələri nəticə verməmişdir. Ukrayna şura əsgərlərinin hərəkəti gəldikcə artmaqdadır. Kiyev qoberniyası mühasireyi-əsgəriyyə altında elan edilmişdir. Kiyevdə qarətgərlik şiddət etməkdədir. Hökumət fəaliyyətsizdir.

**Belçikaya avans**

Belçikanın tezliklə yenidən təmiri məqsədi ilə Müttəfiqlər Belçikaya 400 milyon lirə verməyə razı olmuşlardır. Almaniya tərəfindən Belçikaya veriləcək təzminatihərbiyyə [müharibə təzminatı] hesabına bu məbləğ Belçikaya verilir.

* Berlindən çəkilən teleqrafdan anlaşılır ki, Şərqi Prussiyanın halı çox ağırdır. Səkkizinci alman ordusu qarşısına bir neçə bolşevik firqələri, Onuncu ordu qarşısına isə 70 min nəfərlik bir ordu iş görür. Bunlara qarşı iş görməyə hökumət qüvvəsi irsal edilir [göndərilir].

* Havas ajansı xəbər verir: Gələn həftə Sülh Konfransında Rusiyada bolşeviklərlə mübarizə və Almaniya ablukasının [mühasirəsinin] yüngülləşməsi məsələləri müzakirə ediləcəkdir. Axırıncı fəqərədən [məsələdən] Müttəfiqlərin məqsədi odur ki, Şərqi Prussiya əhalisinə ərzaq daşımağa müsaidə verilsin. Müttəfiqlərin Rusiyada yeganə məqsədləri almanlarla mübarizə etməkdir. İndi Rusiyada Müttəfiq qoşunların miqdarını artırmaq istəməyirlər. Amma bununla bərabər Rusiyada o yerlər ki Müttəfiqlər tərəfindən tutulmuşdur, ora əhalisi qarşısında Müttəfiqlərin müəyyən bir borcları vardır.

## SÜLH ƏTRAFINDA

Paris - Havas ajansı xəbər verir ki, yanvarın 12-də Versalda Müttəfiq dövlətlər vəzirlərinin [nazirlərinin] mühüm şuraları vaqe olmuşdur. Məclisdə 50 nəfər nümayəndələr öz katibləri ilə hazır imişlər. Fransız Hökumətinin binagüzarlığı [təşəbbüsü] ilə rəsmi olaraq Cəmiyyəti-əqvam [Millətlər Cəmiyyəti] məsələsi müzakirə edilməliymiş. Klemanso Leon Burjuaya məlum etmişdir ki, Millətlər İttifaqı planı tərtibi üçün bir hazırlıq komitəsi təsis etmək fikrindədir və o komitədə Fransa tərəfindən Leon Burjua nümayəndə olacaqdır. Məlum olduğu üzrə, Fransa siyasiyyunundan [siyasətçilərindən] Pişon bolşeviklərlə danışığa girişməməyi təklif eyləmişdi. Pişon əlavə eyləmişdir ki, bolşeviklər bir hökumət olmayıb, biləks [əksinə] hərc-mərcliyin baisləridir. Pişonun bu təklifindən ən sol qəzetələrdən başqa digər Fransa qəzetələri məmnundurlar. Qəzetələr deyirlər ki, bolşeviklər Müttəfiqlərin, ələlümum [ümumiyyətlə] hökumətlərin düşmənidirlər. Nəhayət Pişon demiş ki, rus əhalisinə silah və ləvazimihərbiyyə [hərbi ləvazimat] buraxmaq lazımdır. Təbii, Rusiya əhalisi bolşeviklərlə mübarizə etməlidirlər.

## QƏZETƏLƏRDƏN

**Müxtəlif xəbərlər**

* Feodosiya – "Yujnıye vedomosti" qəzetəsi xəbər verir: Enno "Sentrosoyuz"un nümayəndəsi ilə söhbət edərkən demişdir: İngilis komandanlığı öz agentliyi vasitəsilə İrandan 1 milyard 200 milyon manat Rusiya pulunu manatı yeddi qəpikdən almışdır. Bu məbləğin nəf'ini [qazancını] ingilis komandanlığı eyni qiymətlə Könüllü orduya vermişdir.

* Moskvada olan Çin əmələləri [fəhlələri] tərəfindən Çin səfarətxanası imarəti işğal edilmişdir.

* Admiral Kolçak hökumətinin Xariciyyə nazirliyi sabiq Rusiya Xariciyyə naziri Sazonova vagüzar edilmişdir [tapşırılmışdır]. Məlum olduğu üzrə Kolçak hökumətinə Yaponiya müavinət [kömək] edir.

* Buenos-Ayresdən xəbər verilir ki, general Dellepiani hərbi diktatorluğa təyin edilmişdir. Buna da tətil etmiş əmələlərin polisi işğal etmək istəmələri səbəb olmuşdur. Şəhərin hər bir hissəsində polislə əmələlər arasında qanlı müsadimələr [toqquşmalar] vaqe olur. Bütün Argentinaya tətil sirayət eyləmişdir. Məllahlar [matroslar] şəhərdə qaraqol xidmətini ifa edirlər. Hökumətə müavinət məqsədilə 10 min nəfərdən ibarət "Belı qvardiya" ["Ağ qvardiya"] dəstəsi təşkil edilmişdir.

* Nyu-York - Əmələlərin tətili ancaq şəhərdə vaqe olmuşdur. Kömürə böyük ehtiyac vardır və ehtiyat edilir ki, bu kömür qıtlığından beynəlmiləl müxabirə [nəqliyyat] kəsilsin. Şəhərin ərzaq məsələsi son dərəcə fəna bir haldadır. Hökumət çalışır ki, şəhərdə tətili dayandırsın. Ona görə də əmələlərin tələbini və onların ehtiyacını rəf etmək [aradan qaldırmaq] istəyir.

**Moskvada nələr olur?**

Bu günlərdə Moskvadan Tiflisə varid olmuş [gəlmiş] bir nəfər Moskvada qayət maraqlı şeylər vüqu bulduğunu zikr edir. Moskvaya gələnlər Moskvanı tanımazlar. Hətta zahirən də Moskva əvvəlkisinə bənzəməyir. Bütün mağaza, dükan və sair fabrika, zavodlar, xırda dükanlar belə ümumiləşdirilmişdir. Aylarla şəhər qaranlıq içində qalır. Bu axır günlərdə şura mağazaları açılmağa başlamışdır. Şəhərin ziyalı taqımı [qrupu; təbəqəsi] yox kimidir. Professorlar əlində kisə, kartof almaq üçün növbəyə dururlar. Nəhayət şəhər

küçələri qaydaya salınmışdır. Şəhər küçələrində balıq və xırda mallar, çayçılar yoxdur. Tverski küçəyə arabaları buraxmayırlar. Qətl-qarət əksilmişdir. Bolşeviklər[in] ümumən pulları məhv etmək la-yihəsi qəbul edilmişdir. Bəzi yerlərdə bolşeviklər məmurlarına pul əvəzə cürbəcür ərzaq, manufaktura, ayaqqabı və sair kartoçkalar verirlər. Aclıq artır, ölünün həddi-hesabı yoxdur. Uşaqlar çox tə-ləf olurlar. Kiyev qəzetələri deyirlər ki, Moskvada meyitləri tabutda deyil, kisədə dəfn edirlər. Bu doğrudur, nə taxta və nə tabut tapılmayır. Fövqəladə Komitənin üzvləri hamı şura müəsissələrində işləyirlər. Moskvada öylə bir həməfkarlar ittiqafı yoxdur ki, bolşeviklərin gizli agentələri olmasın. Ona görə də hər bir əmələ ehtiyatla davranır. Bolşevik müəssisələrində at oğurluğu və rüşvətxorluğun hədd-hesabı yoxdur. Bir gün olmayır ki, bir-iki komissar və başqa bolşevik məmurları atılmaqla edam edilməsinlər. Amma bununla bərabər xəyanətin önünü ala bilməyirlər.

**Ukrayna ilə Şura Hökuməti**

Kiyevdən xəbər verirlər ki, Ukrayna Hökumətinin sifarişinə görə, Mazurenko xətti-müstəqimlə [birbaşa xətlə] Şura Hökumətinin Xariciyyə İşləri komissarı Çiçerin ilə danışıb, Şura Hökumətinin Ukrayna ilə hal-hazırda müharibə edib-etməməsini soruşmuşdur. Şura Hökuməti cavab vermişdir ki: *"Ukrayna torpağında heç bir Şura əsgəri yoxdur. Ukraynada Ukrayna Hökuməti əsgərlərii ilə Pyatakovski əsgərləri arasında müharibələr vaqe olur. Ukrayna ilə Rusiya Şura Hökuməti arasında heç bir müharibə hərəkatı yoxdur. Ukrayna Hökuməti yadından çıxarmamalıdır ki, Şura Hökuməti heç vaxt Ukrayna istiqlalına əl uzatmaz. Hətta bahar fəslində təzə təşkil olunan Ukrayna Xalq Cümhuriyyətini teleqrafla biz təbrik etmişdik. Sülh müzakirəsinə gəldikdə, bunu deyə biləriz ki, Ukrayna ilə sülh müzakirəsi başlamaqdan ötrü biz kamali-məmnuniyyətlə Ukrayna tərəfindən gələcək nümayəndəni Moskvada qəbul edəriz. Ukrayna nümayəndələrinin bilamümaniət [maneəsiz] Moskvaya gəlmələri üçün binagüzarlıq ediləcəkdir [sərəncam veriləcəkdir]."*

Şura Hökumətindən böylə bir cavab alınması münasibətilə yanvarın 7-də Ukrayna Hökumətinin iclası olmuşdur. Bu iclasda Ukrayna Xariciyyə naziri Çexovski Şura Hökuməti ilə olan müzakirə nəticələri haqqında müfəssəl məruzədə bulunmuşdur. İclas tezliklə Moskvaya sülh heyəti göndərilməsini təkid etmişdir.

* Novoçerkasskdan teleqraf edirlər ki, Krımdan alınan məlumata görə bir çox ruslar Fransaya getməkdən ötrü Fransa pasport bürosuna müraciət etməkdədirlər. İngiltərəyə getmək qadağan edilmişdir.

* Feodosiyadan xəbər verirlər ki, Sazonov və Ryabuşinski İstanbula azim olmuşlar [yola düşmüşlər].

* Odessaya kömür aparan gəmilər Mariupoldan keçmişlərdir. Gəmilərin Odessadan hərəkət etməyə başlayacaqları gözlənir.

* Bolşeviklər Avropada və Amerikada xüsusi acentəlik təsis etmək istəyirlər və böyləliklə fövqəlzikr [yuxarıda deyilən] yerlərdə Şura Hökuməti nəf'inə [lehinə] təbliğatda bulunacaqlarmış.

* Bolşeviklər Petroqradın bu günlərdə düşəcəyinə heç bir əhəmiyyət verməyirlər.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

* Baş Fabriçni inspektor [Baş Fabrik müfəttişi] Məsai Nəzarətinə [Əmək Nazirliyinə] məlum etmişdir ki, Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] tərəfindən Nəzarət cənbindəki [nəzdindəki] xüsusi müşavirəyə Roxlin, Əbilov, Usnitsev, Frolov intixab edilmişlər [seçilmişlər]. Onlara namizəd Eysiroviç intixab edilmişdir. Beşinci yer su nəqliyyatı xidmətçiləri nümayəndəsi üçün verilmişdir.

* Baş Fabriçni inspektor Məsai Nəzarətinə bir kağız göndərib məlum etmişdir ki, Nəzarət təşkil edildikdən sonra Müfəttişliyə bir çox fəhlələr müraciət etməkdədirlər. Müfəttişlik isə lazımi qədər xidmətçilərə malik olmadığından bir çox məsələlərə baxa bilməyir. Binaənileyh [ona görə], inspektor rica etmişdir ki, 1919-cu sənə üçün 2 nəfər müavini-müfəttiş, bir nəfər mühəndis Şibayev Müfəttişliyə təyin edilsinlər.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Teatro və başqa ictimai yerlərdən xüsusi vergi almaq haqqındakı qanun layihəsi Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Müdafiə Nazirliyi] tərəfindən Rəisivükəlaya [Baş nazirə] təqdim edilmişdir.

## FELYETON
## NƏŞRİYYATIMIZIN ƏSBABİ-TƏRƏQQİ VƏ TƏDƏNNİSİ [İNKİŞAF VƏ GERİ QALMA SƏBƏBLƏRİ]

**- 2 -**

Ülumi-ədəbiyyə üləmasından [ədəbiyyat alimlərindən] Üsamə bin Məqəl deyir ki: "Xüləfayi-Abbasiyyənin [Abbasi xəlifələrinin] birincisi Abdullah Səffah xütbələr və risalələrə fövqəladə rəğbət etdiyindən, ərbabını himayə altına alır, onlara çoxlu mükafat və ehsanlar verirdi. Bu səbəblə onun təvəccöhünü qazanmaq üçün min risalə və min xütbə hifz eyləyib arzuma nail oldum. Müşarünileyhdən [adı çəkilən şəxsdən] sonra hicrətin 136-sında məqami-xilafətə gələn Mənsur müsamirata [söhbətlərə], əxbar və əyyami-ərəbə [ərəblər və onların keçmişi haqqında xəbərlərə] əhəmiyyət verirdi və bu elmlərin ərbabını məzhəri-iltifat və mükafat [mərhəmət və mükafatına nail] edirdi. Bu xəlifənin də hüsn-təvəccöhünə nail olmaq üçün müsamirat və əxbardan hifz etməmiş bir şey buraxmadım. Hicrətin 169-unda Musa əl-Hadiyə gəlincə, bu xəlifə şeiri sevərdi, çox şeir bilənlərə meyl edərdi. Bunun dəxi təvəccöhünü qazanmaq üçün nə qədər nadir bir beyt, faxir [gözəl, qiymətli] bir şeir, dildəndilə düşmüş bir qəzəl var idisə, həpsini hafizəmə topladım. Bir insan ülumi-ədəbiyyədə yədi-tulani [ətraflı bilik] sahibi olmaq üçün hökmdarın o elmlərə meyl və ərbabını məzhəri-himayə və mükafat eyləmələri [o elmə malik olanları himayə etməsi və mükafatlandırması] qədər də bir amili-müşəvviq [həvəsləndirici amil] yoxdur."*

* Həmədaninin "Kitabül-buldan"ı, C. 1.

Təbii, bir məmləkətin hökmdarı və ya ricali-hökuməti [hökumət adamları] tərəfindən maddi və mənəvi müsaidə verilməzsə, o məmləkətdə tərəqqiyyati-elmiyyədən [elmi inkişafdan] bir əsər görülməz. Hökmən hökmdar cahil, qaniçən deyil, elm və maarif sahibi olmalıdır ki, zamanında ülum [elmlər] və maarif feyz, etila bulsun [çoxalsın, tərəqqi etsin]. Buna görə islamiyyətdə xüləfa və üməranın [xəlifələrin və əmirlərin] ümuri-şər'iyyə və siyasiyyəyə [şəriətə, qanunlara aid işlərə və siyasət işlərinə] kamalınca vaqif olmaları xilafət şərtlərindəndir.

Əvət, yuxarıdan bəri sərd edə gəldiyimiz [meydana qoyduğumuz] mətbuat və nəşriyyatımızın tədənnisinə [geri qalmasına] olan səbəblərdən hökumətin müsaidəsizliyi və ufaq-təfək nəşriyyatımızın dəxi başında əhli olmadıqlarını göstərdik. Hər kəs diqqət və etina nəzəri ilə baxarsa, dop-doğru görər.

Bunlardan əlavə, nəşriyyatımızın tədənnisi səbəblərindən biri də ehtiyac məcburiyyətidir ki, bunu da biz qətiyyən hiss etməmişiz, anlamamışız və anlamaq istəməmişiz. Zira təbabət, sənaət, ticarət, siyasət, ülum və maarif, tarix, ədəbiyyat və sair xüsusata aid kitablara ehtiyacımız olduqda, əcnəbi əsərlərinə müraciət etməklə ehtiyacatımızı dəf edəriz. Daha o kitabları kəndi lisanımızda yox isə, tərcümə etdirmək təşəbbüsündə bulunmarız, əcnəbi lisanında yazılmış və yaldızlı [bəzəkli; qızıl yaxud gümüş suyu ilə bəzədilmiş] cildlər içinə qoyulmuş kitabları alıb kamali-iftixarla taxçalarımıza düzəriz. Halbuki balada zikri keçən [yuxarıda deyilən] elmlərdə islam üləma və hükəmasının xariqüladə tətəbbüat və icadatı [araşdırma və kəşfləri] olmuşdur ki, əcnəbi lisanlarında qətiyyən cəm və tədvin edilməmişdir [toplanmamış, bir yerə yığılmamışdır]. Hələ tarixcə qüruni-vüsta [orta əsrlər] mədəniyyətini ehdas edib [yaradıb], avropalılara deyil, bütün cahana heyrət verən "mədəniyyəti-islamiyyə" dən belə sərf-nəzər etmişlər. Ümumi tarixlərdə də qüruni-vüsta mədəniyyətini qeyd etməmişlərdir. Konde, Lope de Veqa, Vilyeqas, Servanteslər kimi islam tarixindən bəzi parça yazanlar, Corci Zeydan kimi müfəssəl yazan olmuşsa da pək nadirdir. Lakin bunların da təhriratı [yazıları] başqa bir nöqteyi-nəzərlə qələmə alınmışdır ki, baxıldıqda həpsindən əcnəbilik qoxusu duyulur. Onları mütailə edən hər bir islam kəndi örf və adatı [adətləri], ənənatı [ənənələri], tarix, lisan və fütuhatı [nailiyyətləri] haqqında yazılan istehzaları apaşkara oxuyur, bu sayədə get-gedə əcnəbilik ehtirasat və e'tisafatına qapılır [əcnəbilik ehtiraslarına qapılaraq öz yolundan çıxır], kəndi dili ilə kəndi lisanı, kəndi tarixini xorlamağa başlayır. Bu isə millətin milliyyətini bərbad, dəyanətini qeyb; örf, adat və asarını [əsərlərini, nişanələrini] məhv edəcək qüvvələrin ən qüvvətlisidir. Biz dəxi böylə bir qüvvə saiqəsi ilə [belə bir qüvvə tərəfindən] əzildiyimizdəndir ki, hər ayağa qalxanın paymalı olub gediriz [ayaqları altında tapdalanırıq].

Böylə mənəvi ehtiyacat yalnız türk-islam üçün vüqu bulmamışdır. Dünya üzərində yaşayan millətlərin həpsi ehtiyac şiddətinə mübtəla olmuş, fəqət çarəsinə girişilmiş, dəf'inə çalışılmışdır. Assurilər, babillilər, finikiyalılar, misirlilər, hindlilər, əski iranlılar, əski yunanlılar ciddiyyəti-tammə ilə [tam ciddiyyətlə] mənəvi ehtiyacatın dəf'i [mənəvi ehtiyacların aradan qaldırılması] çarələrinə girişmişlər, ədəbiyyatca mümtaz bir mövqe ehrazına da kəsbi-ləyaqət etmişlərdir [seçkin bir mövqe əldə etməyə layiq olmuşlar]. Yunanlılar dəxi ibtidada [başlanğıcda] elmsiz, maarifsiz və biliksiz bir millət olmuşlar. Fəqət rüəsa və üməraları [başçıları və əmirləri] babalarının qəhrəmanlarına, qəhrəmanlığa, ilaha və məbudata [məbudlara, ilahlara] mütəəlliq [aid] hekayat və mənaqibi [hekayələr və qəhrəmanlıq dastanları] eşitməyi sevdiklərindən, qərihə və zakəvətliləri [istedadlıları və ağıllıları] o kimi müəssir [təsirli] hekayələri nəzm və tədvin etməyə [nəzmə çəkməyə və nizama salmağa] təşviq etmişlər. Nəticədə əsərləri dəfəatla təb' [çap] və nəşr, ümumun təqdirinə məzhər [nail] olan Omeros (Homer) kimi layəmut [ölməz] əsər sahibi, şair və səyyah Simonides, Pindar kimi şeir, musiqi şüərası; "əbül-müvərrixin" [tarixçilərin atası] ünvanı ilə məşhur olan Herodot, Tusedid [Fukidid], Ksenofon kimi müvərrixlər; Demosten [Demosfen], Eşen [Esxin] və Hiperid kimi məşhur xətiblər [natiqlər], Solon kimi qəvanini-nizamat vəz'i [islahat qanunları qoyan] və lisan qəvaidi [dil qaydaları] ilə iştiğal edən [məşğul olan] bir çox "yunan məşahiri" [məşhurları] yetişdirmişlərdir ki, hər birinin millətlərinə etdiyi xidəmatı və sənətlərindəki məharət və zatlarındakı zəkaları müvərrixlər kamali-təqdir ilə yazırlar.

Atinalılar [afinalılar] dəxi ülum və fünuna ərzi-ehtiyac etmişlər. Çarə yollarını aramaqda da fövqəladə ciddü cəhd etmişlərdir. Lakin bunların mənəvi ehtiyacat dəf'i haqqındakı təşəbbüslərinin yunanlılar tərəfindən edilən təşəbbüsatla fərqi çox-çoxdur. Zira yunanlılar millətihakimə sifətilə sərbəst olaraq kəndi ülum və ədəbiyyatlarının çoxalmasına böyük müsaidə, təhrik və təşviq sayəsində filosoflar, həkimlər, alimlər, ədiblərin yetişdirilməsinə çalışmışlardır. Atinalılar isə qəbləl-milad [miladdan əvvəl] 431-404-ə qədər imtidad edən [uzanan] Mora müharibəsində məğlub və məhkum olaraq lakedemonilərin hövzeyi-təhəkkümünə [təhəkküm dairəsinə], izzü iqbal [hörmət-izzət; uğur] mövqeyindən zillət və məhkumiyyətin dərin uçurumuna düşüncə düçar olduqları ibrət sövqü ilə mövcudatın əsbab və həqayiqini [varlıqların səbəblərini və həqiqətlərini] tədqiqə meyl edərək 28 sənəlik müharibə nəticəsində hakimiyyətlərinin məhv edilməsi səbəblərini aramaqla, millətlərini əsarət zillətindən xilas etməyə girişmişlər və çarələrini ülum və ədəbiyyatlarının təzayüdündə [inkişaf etdirilməsində] bulduqlarından sarsılmaz bir əzmlə məqsədləri uğrunda fəaliyyət göstərərək, yenidən daha bir "intibah dövrü" açmağa müvəffəq olmuşlardır.

*Ə. Müznib*

**BİZ VƏ İSTİQLALİYYƏT**

Cahan müharibəsinin ibtidasından [başlanğıcından] bu ana qədər Cənubi Qafqazda ermənilərin Qafqaz türkləri haqqında etdikləri vəhşət və zülmlərin nə dərəcədə olduğu mətbuatla mütəvəğğil olanların [mətbuatdan xəbərdar olanların] məlumlarıdır.

İyirminci əsrə yaxışmayan bu mənfur vəhşətlərin də ən dəhşətlisi qəhrəman Türk Ordusu[nun] Qafqazdan siyasət iqtizası [tələbi] olaraq vətənlərinə övdətlərini mütəaqib [vətənlərinə qayıtdıqdan sonra] vəhşi, qəddar, qaniçici hürriyyət düşməni olan quldur Andranik həmfikirləri ilə birlikdə İrəvan və Qarabağda türk-islam qanını tökməyə, kənd-kəsəklərini yandırıb-yaxmağa, mallarını talan və qarət etməyə başladılar.

Ta əvvəllərdən bütün təni, canı xəbasətdən [xəbislikdən, alçaqlıqdan] ibarət olan və Qars, Ərdahan, Ərzurum, Van və Trabzon hadisati-əliməsi [kədərli hadisələri] kimi cinayətlər vücuda gətirib də, saf qəlbli yevropalıların qapılarını “dəqqülbab” edərək [qapılarını döyərək] kəndilərini məzlum, sahibsiz, biçiz [yoxsul], himayəsiz və türklərin zülmləri altında inləyirmiş kimi göstərməyə adətkərdə olan daşnaklar, az bir vaxt zərfində Azərbaycan təbəəsi olan türkləri qətlü qarətlə kifayət etməyərək “Qarabağ müsəlmanları ermənilərə cəbr və zülm edir, erməniləri qırır” kimi şikayətlərlə Müttəfiqlər komandanı Tomson cənablarına müraciətdə bulunaraq, şeytənət [fitnəkarlıq] və hiyləkarlıqdan ibarət olan siyasətləri ilə Cümhuriyyətimizə zərbə endirmək və istiqlaliyyətimizə mane olmaq istəyirlər. Tomson cənablarını inandırmaq üçün Salman bəy Əlibəyov kimi din və millət xaini olan müsəlmanları da işə qatışdırırlar.

Hər nə qədər Şamaxı, İrəvan, Qarabağ türkləri qətliam edilib yurdları xak ilə yeksan [yerlə yeksan, yerlə bir] edilsə də, əvvəlləri daşnaklar ağzından eşitməklə mühakimə edən mədəni avropalılar, bu gün türklərin ermənilərə deyil, biləks [əksinə] ermənilərin Qafqaz türklərinə etdikləri vəhşətləri qulaqları ilə eşitdilər, gözləri ilə gördülər. Bu qədər xariqüladə kəşfiyyat və ixtiraatda bulunan [kəşflər və ixtiralar edən] avropalılar[ın] ermənilərin bu hiylələrini, bu xənnaslıqlarını [iblisliklərini] çoxdan kəşf etmələrinə imanımız bərkamaldır [tamamilə inanırıq].

Qafqaz türklərinin daima sülh və müsalimət [əmin-amanlıq] üzrə yaşamaq istədiklərini Müttəfiqlər komandanı fəriq [general] Tomson cənabları Bakıya varid olar-olmaz anlamış və bilmiş olduğuna və bunların bu gunə taqəti-bəşəriyyədən üstün təhəmmülkar olmalarını [bu dərəcədə, insanın taqəti çatandan artıq dözümlü olmalarını], komandası olduğu Müttəfiqlərə ərz və ixtar edəcəyinə [bildirəcəyinə, məlumat verəcəyinə] əmin idik. İştə bu günlərdə paytaxtımıza təşrif gətirən Müttəfiqlərin Şərq ordusu komandanı və Böyük Britaniya kralının xas vəkili general Miln Rəisi-vükəla [Baş nazir] Fətəli xan həzrətlərilə olan mülaqatlarında [söhbətlərində] verdiyi vədləri sözümüzü təyid [təsdiq] edir.

Miln cənabları[nın] Cümhuriyyətimizi hər bir xarici təərrüzdən [hücumdan] mühafizə edəcəkləri və daxili işlərimizə əsla müdaxilə etməyəcəkləri kimi verdiyi vədləri yalnız kəndi sözü olmayıb, vəkili olduğu İngiltərə Hökumətinin vədləri olduğuna da əminiz.

Onu demək istəyiriz ki, Müttəfiqlər komandanlarına azərbaycanlıları pis göstərməklə Azərbaycanın kökünə balta vurmaq, istiqlaliyyətimizə mane olmaq istəyən düşmənlərimiz bihəmdülillah [Allaha şükür olsun ki] müvəffəq olammadılar





və olammayacaqlar da. Yəni Azərbaycan istiqlaliyyətinin təsdiq ediləcəyinə ümidimiz yövmən-fə-yövmən [gündən günə] ziyadələşir, qüvvətlənir. Fəqət bununla belə, ümid etdiyimiz istiqlaliyyət və hakimiyyətimizi əbədi möhkəm saxlamaq üçün bütün mənası ilə əsrə hazırlaşmalıyız. Gənc Azərbaycan Cümhuriyyətini təşkil edən hər bir fərd öhdəsinə düşən vəzifəni bilməli və o vəzifəni kamalınca ifa etməlidir. Ümumiyyətlə biz islamlarda hər bir şeyi hökumətdən gözləmək, hər bir nəvaqisatı [nöqsanları] hökumətdən görmək kimi qayət fəna [pis, mənfi] bir hal vardır. Azərbaycanı təşkil edən islamlar bu fəna adəti tərk etməzlərsə, istiqlaliyyətimiz təsdiq edilsə belə qayəmizə vasil olammayacağımıza şübhə yoxdur.

Rus çarlığına bağlı olduğumuz o mənhus vaxtlar olmayıb, “hökumət – biz, biz – hökumət” olduğumuzu bir kərə düşünməliyiz. Doğrudur, hökumətdən gözlədiyimiz, ümid etdiyimiz işlər çox-çox dur. Əhalinin öhdəsinə düşən vəzifələr isə bundan daha çoxdur. Məsələn “dəmiryollar şirkəti”, “nəşriyyat şirkəti”, “mədənlər şirkəti”, “ticarət şirkətləri”, “ziraət şirkəti” və başqa şirkətlər əmələ gətirmək ancaq əhalinin, bilxassə sərvətlilərimizin borcudur.

İfayi-vəzaif [vəzifələri yerinə yetirmək] haqqında yəhudilərin gördükləri işlər, bizim üçün böyük bir dərsi-ibrət olsa gərəkdir. Türklərdən alınıb kəndilərinə veriləcək “ərzi-Fələstin”də [Fələstin torpağında] dəmiryollar inşa etmək üçün Kiyev şəhərindəki yəhudilər başda olmaq üzrə 50 milyonluq bir şirkət təsis etmişlərdir. Bu şirkət eyni zamanda həm Fələstinə, həm Amerikaya mühəndislər də göndərmişlərdir. Fələstinə yollanan mühəndislər, inşa olunacaq yolların planını çəkəcəklər; Amerikaya gedən mühəndislər isə Fələstində inşa olunacaq dəmiryolları[na] lazım olan bütün alat və ədəvatı [alətləri və avadanlıqları] alıb gətirəcəklərdir.

Yəhudilər bu 50 milyonluq şirkətdən əlavə 10 milyonluq “nəşriyyat şirkəti” də təsis edib lazimi yerlərə müraciət etmişlərdir.

Əvət, Fələstində hənuz heç bir hökumət idarələri olmayan və əqəliyyəti [azlığı] təşkil edən, dünyanın hər bir məntəqəsinə yayılmış yəhudilər ərzi-mövudlarına [vəd olunmuş torpaqlarına] toplaşmazdan müəssisələrini hazırlayırlar. Biz isə hökumətimiz var, istiqlaliyyətimizin təsdiq ediləcəyinə əlaimi-qəviyyə [güclü əlamətlər] görülməkdə ikən daha tez, daha həvəsli işə şüru etməli [başlamalı] deyilmiyiz?!

*Bayram Niyazi [Kiçikxanov]*

## MƏTBUAT

İctimaiyyuni-inbilabiyyun [Sosialist-inqilabçılar] firqəsi Bakı komitəsi, Parlaman divani-rəyasətinə məktub yazaraq Parlamana iştirak etmək istədiklərini bildirmişdir. İctimaiyyuni-amiyyunun [sosial-demokratların] da gələcəyi gözlənilməkdədir. Fəqət bunlar Azərbaycan Məclisi-Müəssisanına necə gəlirlər və nə yolla işləyəcəklərdir?

Rusca “Azərbaycan”ın bu yollu mütaliələrinə cavabən İctimaiyyuni-inqilabiyyun naşiri-əfkarı [fikirlərini yayan orqanı]

olan "Znamya truda" deyir ki:

*"Biz kərratla [dəfələrlə] qəzetəmiz səhifələrində bəyan etmişik ki, biz 'İctimaiyyuni-inqilabiyyun' firqəsi Azərbaycan Hökumətinin Fevral inqilabı fütuhatını [nailiyyətlərini] möhkəmləşdirmək uğrundakı ümum tədabirinə müzahirət [bütün tədbirlərinə köməklik] edəcəyiz."*

Ancaq Nikolay vaxtı Qosudarstvenni Duma kürsüsünü özləri üçün müxalifətgirlər tənqidi üçün bir tribuna qərar vermiş olduqlarını təzkarla [yada salaraq]:

*"Nə üçün indi Azərbaycan Məclisi-Məbusanında da tənasübi-qüvaya [güclər nisbətinə] görə Parlaman kürsüsünü də öz firqəmizin ideyasını Azərbaycan və ümum Zaqafqaziya demokratiyasına təbliğ üçün istifadə etməyəlim"* deyə parlamanda necə çalışacaqlarını daha aydınlaşdırmaq qəsdi ilə göstərir ki:

*"Biz müsəlman sosialistləri ilə bir yerdə zəhmətkeş türk millətinin mənafeyi və onu Rusiya demokratiyası ilə mərbut qılmaq [bağlamaq] uğrunda mübarizə edəcəyiz. Zira etiqadımızca müttəhid [birləşmiş] demokratiya cəbhəsidir ki, hər iki demokratiyanı gərək rusların böyüklük məqsədlərindən və gərəksə Azərbaycan Krasnovlarının böyüklük xülyasından müdafiə edir."*

"Hümmət" komitəsi əzasından [üzvlərindən] birisi öz firqəsindən hangi cərəyana mülhəq olacaqlarını [birləşəcəklərini] sorub "bolşeviklərə" cavabı aldıqda demişdir:

"Yox, mən sizdən daha leviyə [daha sola]!"

Baş üstə "Znamya" rəfiqimiz!

Ancaq sizin "Znamya"nın həqiqətən "truda" olmasını ["bayrağın" həqiqətən "əmək bayrağı" olmasını] biz çoxdan gözləyiriz.

---

Eyni məsələ haqqında "İskra" qəzetəsi öz fikir və xətti-hərəkətini böylə bəyan edir:

*"Bəli, doğru deyir ki, biz sizin Rusiyadan ayrılmağa haqqınız olduğunu qəbul və etiraf etməyiriz. Zira:*

*1 - Rusiya inqilabı təyini-müqəddərat [öz müqəddəratını təyin etmə] haqqı prinsipini elan etmişdir, nəinki düşmən süngüsü köməyi ilə ayrılmaq.*

*2 - Təyini-müqəddərat haqqı sözünü sizin kimi təbir etsək [yozsaq] belə, hər halda göstərməliyiz ki, Azərbaycan böyüklərindən bir dəstə Azərbaycan xalqının özünün də təyini-müqəddərat haqqını qəsb etmişdir və bunların həpsinə baxmayaraq, müəyyən şərait üzərinə Parlamana daxil olmaq istəyirsək, ancaq bu məqsədlə oluruz ki, orada 'Hümmət', Sosialistlər İttifaqı və İctimaiyyuni-inbilabiyyun ilə birlikdə müstəqil Azərbaycan adlı süni bir təşkilat daxilində Nuri paşanın köməyi ilə hökuməti öz əlinə almış olan Gəncə mülkədar və Bakı sərvətdarları müqabilinə mübarizə edək."*

Əvət "İskra"lı yoldaşlar, fəsahət və bəlağətinizi [səlis və gözəl danışmaq qabiliyyətinizi] göstərmək üçün yeni bir kürsü də qazanırsınız. Sevinə bilərsiniz. Amma "Hümmət" və Sosialistlər İttifaqı ilə birlikdə mübarizə edə bilmək üçün Azərbaycan istiqlalı məsələsində onların nöqteyi-nəzərini qəbul etmək lazım gələcəkdir. Kəndli və fəhlə məsələsində isə Parlamanın rəyi və mülahizəsi aydındır. Sizin çığır-bağırınıza ehtiyac yoxdur.





## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

* Dün Bələdiyyə rəisi bütün Bələdiyyə İdarəsi şöbələrinə birər kağız göndərib məlum etmişdir ki, dəfələrlə edilən binagüzarlığa [sərəncama] baxmayaraq əski qayda üzrə xidmətçilər vaxtlı-vaxtında xidmətə gəlməyib, vaxtında işdən çıxmayırlar. Axırıncı dəfə olaraq Bələdiyyə rəisi məlum etmişdir ki, bir də gec [gələn] və yaxud vaxtından əvvəl işdən çıxıb gedəcək xidmətçilər xidmətdən əzl [kənar] ediləcəklər.

* Daxiliyyə naziri Bələdiyyə İdarəsinə və Bakı qubernatoruna bir kağız göndərib, məlum etmişdir ki, Bələdiyyə İdarəsinin şəhər və kəndlərdə ziraət və fəllahət [əkinçilik və kənd təsərrüfatı sənayesi] siyahı işlərini qət etmək [kəsmək] fikri ilə şərikdir. Bu vaxtadək əldə edilən məlumat arxivə göndərilməlidir.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Müdafiə Nazirliyi] Bələdiyyə İdarəsinə müraciətən xahiş etmişdir ki, Bakı Bələdiyyəsi İdarəsi cənbindəki [nəzdindəki] sabiq saldat ailələrinə müavinət edən şöbənin işlərini təsviyə [ləğv] etmək üçün işbu suallara cavab verilsin:

1) 1918-ci sənənin 1 avqustunadək nə qədər məbləğ qalmışdır?

2) Hər xəzinədar nə qədər işbu işdən ötrü pul almışdır?

**Bakı şamaxılılarına**

Bakıda sakin olan [yaşayan] cəmi Şamaxı qaçqınlarına elan olunur ki, bu çağa kimi onlara Ümuri-Xeyriyyədən [Sosial Müdafiə Nazirliyindən] müavinət olunurdu. Bundan sonra isə bu müavinət "Şamaxı Həmtorpaqlılar Cəmiyyəti" vəsatəti [vasitəçiliyi] ilə olasıdır. Bundan dolayı ianəyə ehtiyacı olanlar gərək fevralın 3-dən düşənbə [bazar ertəsi] günündən etibarən hər gün saat 12-dən 3-ə qədər Bələdiyyə imarətinin 3-cü mərtəbəsində Həbib bəy Mahmudbəyov cənabları dəftərxanasına müraciət etsin və məzkur [adı çəkilən] cəmiyyətdən kitabçası olsun. Bu kitabçasız heç kimə kömək olunmayacaqdır. Qabaqda verilən ərizələr də bisərəncam [etibarsız] qalasıdır.

*Şamaxı [Həm]torpaqlılar Cəmiyyəti*

**Müsəlman Mühərrirləri İttifaqında**

Çaharşənbə [çərşənbə] günü fevralın 5-də axşam saat 6-da Hacı İbrahim Qasımzadənin evində (Verxni-Təzəpir küçəsində nömrə 38) Bakıda olan Müsəlman Mühərrirləri [Jurnalistləri] İttifaqı idarəsinin növbəti iclası olacaqdır. İdarə üzvlərinin gəlməsi rica olunur.

**Mütəallimlər**

Səşənbə [çərşənbə axşamı] günü şubat [fevral] ayının 4-də saat 6-da Qafqaziya Müsəlman Mütəallimlərinin [Tələbələrinin] Mərkəzi Komitə və fondunun təcili iclası vaqe olacağından bütün üzv, namizəd və müfəttiş əfəndilərin təşrif gətirmələri rica olunur.

Məsələ: Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən Qafqaziya müsəlman mütəallimlərinin mənfəəti üçün şubatın 15-də "Mikado" teatrosunda mövqeyitamaşaya qoyulacaq müsamirə [konsert] barəsində olacaqdır.

Ünvan: Persidski caddədə Əli Yusifin 121 nömrəli evinin 2-ci mərtəbəsində.

**Sənət kursları haqqında**

Bakıda açılacaq sənət kursları haqqında müxbirimiz kurslar heyəti-mütəşəbbisəsi əzasından [təşəbbüs heyəti üzlərindən] mühəndis Əliheydər Babazadə cənabları ilə müsahibədə bulunmuşdur. Əliheydər Babazadə cənabları güşadı [açılması] ehtimal edilən kurslar haqqında demişdir ki, əvvəlcə bu kurslar müsəlman fəhlələrinə məxsus olaraq açılmağı xəyalında idik. Fəqət sonra Maarif naziri həzrətlərinin tövsiyəsinə görə sabiqdəki kimi cümləyə [hər kəsə] məxsus edərək rus lisanı bilməyən müsəlmanlar üçün türk dilində mühazirə oxumaq qət edildi [qərara alındı].

Böylə kursların əhəmiyyətinə gəldikdə, Əliheydər cənabları Avropada böyük rollar oynadığını qeydlə, xüsusən bizdən ötrü ən lüzumlu bir məktəb olacaqdır, zira fəhlələr, zavodlarda çalışanlar təcrübə ilə öyrəndiklərini bir də elmlə təkmil edəcəklər. Bunun isə böyük əhəmiyyəti havi olacağı [əhəmiyyət daşıyacağı] məlumdur.

Müşarünileyh [adı çəkilən] mühəndis cənablarının dediyinə görə, müsəlman fəhlələri bu işə layiqincə baxarlarsa, Bakı Sənaye Politexnik məktəbi kurslardan ötrü alınacaqdır. Oradakı laboratoriyalar və emalatxanalardan istifadə etmək mümkün olacaqdır. Əlavə, mümkün olarsa – bu iş fəqət sameindən [dinləyicilərdən] asılı olacaq – kursları daimi edərək dövləti bir məktəb halına gətirmək asan olacaqdır.

Müsahibənin axırında Əliheydər cənabları demişdir ki: "Müsəlmanların hümməti, yenə hümməti lazımdır. Onlardan heç şey istənilməyir, fəqət gəlib qulaq assınlar, istifadə etsinlər. Bu işə müsəlman mühəndisləri cəlb ediləcəkdirlər. Lazım gələrsə, ən yaxşı qüvvələrimizi də buraya çağıracağız."

**Çənbərəkənd məhəlləsinin fəryadı**

Biz Çənbərəkənd camaatı yüz ildən ziyadədir şəhərin qərb tərəfində yaşayırıq. Sənətimiz əkinçilik və fəhləlikdir. Bir nəfər də olsun aramızda əğniya [varlı] və ya oxumuş adamlarımız yoxdur. Cəhəti-fəhləlikdən və əkinçilikdən başqa ayrı bir işə baş aparmamışıq. Buna binaən [buna görə] hamımız fəhlə və əkinçi olmuşuq. Buna kifayətlənib hərə öz ailəsi üçün bir ev bina edib və orada məaş [dolanacaq] edirdik. 1912-ci ildə Bələdiyyə İdarəsinin paveskası [çağırışı] çıxıb, camaata paylanıb ki, əgər paveska alan əşxas [şəxslər] gəlib Bələdiyyə İdarəsində öz əmlakını icarəyə götürməsə, evi başına yıxılacaq. Həqiqətdə də böylə oldu.

Çənbərəkənd Kərpicbasan məhəlləsində neçə-neçə evləri fəqir camaatın başına yıxdılar. Dul arvadlar və qoca kişilər Bələdiyyə İdarəsində hər gün ağlayıb fəryad etməyini gözümlə görmüşəm. O cümlədən bir nəfər Çənbərəkəndində Məşhədi Vahab Hacı Nəcəf oğlu [adlı] fəqir kişinin evini başına uçurub, küçədə qoyublar. Altı-yeddi baş ailəsi ilə avara düşdülər və ondan sonra bir nəfər seyid, öz gözümlə gördüm, əmmaməsini götürüb çlen [Bələdiyyə İdarəsi üzvü] cənablarına yalvardı; olmadı. Axır biçarə seyidin də evi başına töküldü. Bir gün camaat tətil edib, beş-altı min kişi və arvad hamımız gəlib Bələdiyyə İdarəsinin içində və qarşısında cəm olub, Bələdiyyə İdarəsinin xidmət edənlərini qovmaq, Bələdiyyəyə daxil olmağa və camaat hamı bir səslə: "Biz Bələdiyyə İdarəsini istəməyirik" dedilər.

Bir saat keçəndən sonra qalabəyi və Martınov və polis idarəsi, saldat və kazak və pajarnı komandir [yanğınsöndürmə rəisi] adamları, hamısı gəlib Bələdiyyə İdarəsinin imarətinin qarşısında dayandılar. Martınov camaata dedi: "Camaat siz gedin, öz aranızdan neçə nəfər nümayəndə intixab edin [seçin], göndərin, görək siz nə deyirsiniz, biz nə deyirik. Mən də Duma qlasnılarını çağırıb iclas edərik."

1913-cü ildə yanvar və fevral ayında bir iclas olub, camaatın nümayəndələrini və Duma qlasnılarını yığıb bir şura, məclis tərtib verdilər. Camaat nümayəndələri rus dili başa düşməyib, qanun bilməyib, qlasnılar müsəlman adamlarından az olmaq cəhətinə xarici qlasnıları çox olmağa binaən böylə qət etdilər [qərara gəldilər] ki, 1903-cü ilədək yanvar ya fevral ayınadək hər kəsin evi varmış, o gəlsin arent doqovoru [icarə müqaviləsi] bağlasın. Hələ indi köhnə borcu yazarıq qalar doqovorda, təzəni də gərək versin. Daha biz başa düşmədik ki, 1903-cü ildən sonrakı evlər necə olacaq və ya bu köhnə borclar yenə biz fəqir camaatdan alınacaq mı? O qədər bizim ağa qlasnılar və çlen uprava Kulikovski şuranı ta saat 1-dək uzadıb, axır fəqir camaat təngə gəlib, yarımçılıq qoyub, düşdülər yola.

Sonra başımıza nə gəldi daha yaz[m]ıram və neçə il keçib Bələdiyyə İdarəsi bolşevik əlinə keçdi. Biz öylə fikir eylədik ki, bolşeviklər kasıb camaat xeyrini istəyənlərdir, bəlkə bizim üçün bir iş görərlər. Gördük ki, xeyr, bunlardan bizə imdad olmadı. Axır iş neçə dəfə əldənələ keçib şükürlər olsun ki, Azərbaycan Hökuməti bərqərar oldu. Məclisi-Məbusan açıldı və nümayəndələr hər şəhərdən gəlib fəqir, kasıb cammatın xeyrinə qalacaqdırlar.

Bələdiyyə İdarəsi də şükürlər olsun müsəlman oxumuşlarının əllərindədir. Görək bunlar biz fəqir camaat üçün bir binagüzarlıq edəcəklərmi və ya yenə əkin yerimizi Bələdiyyədən icarə edib, sonra ziraət etməyə ixtiyarımız olacaq və ya yüz ildən qalan evlərimizi yenə əlimizdən alacaqlar? Şimdi biz Çənbərəkənd kasıb camaatı və füqərayi-kasibəsi Məclisi-Məbusanımızın istimdadını və hökümətimizin binagüzarlığını, firqələrimizin yardımını çar çeşmlə [dörd gözlə] gözləyirik. Nə istəyirik?

1) Qasib (zaxvatçik) [qəsbkar] adını bizdən götürsünlər.

2) Hər kəsin evi özündə olsun, Bələdiyyə İdarəsinin ixtiyarı olmasın ki, fəqir camaatın mülkünü başına uçursun və əlindən alsın və ziraət [əkin] yerləri camaatın ixtiyarında olsun. Bələdiyyə İdarəsi də bəy və xanlar kimi əkin yerlərini yüz desyatinlərlə özünə mal eyləməsin. Qoysun fəqir camaat ziraət etsin, bəlkə aclıqdan xilas olsunlar və camaat da gərək Bələdiyyə İdarəsinə deyək naloq, zibil pulu və hər nə xərc olmuş olsa, camaat gərək Bələdiyyə İdarəsinə kömək etsin.

Hər halda millət atalarından istirham [xahiş] edirəm. Qələmlə və ya dil ilə biz fəqir camaata yardım edəsiniz. Təvəqqeyi-acizanə edirik, laməhalə [heç olmasa] biz kasıb, fəqir camaatın qeydinə qalıb, bizim bu fəryadımızı Məclisi-Məbusanda müzakirəyə qoysunlar, bəlkə biz camaat

və on min evli fəqir, kasıb bu zülmətdən xilas olaq.

Zalım Nikolayın zəmanəsindən qalan cəmi qanunlar və divan [məhkəmə] işləri dəyişibdir. Əcəba Bələdiyyə İdarəsinin işləri yenə təğyir, təbdil olmadı [dəyişmədi]? Yenə həman köhnə Bələdiyyənin işi köhnə qayda üzrə gedir?

Yenə biz kasıb fəhlə camaatı üzümüzü tutub hökumət ağalarına ərz edirik bizim fəryadımıza imdat edəsiniz. Hər kəs biz fəqir camaatın qeydinə qalsa və fəryadına səs versə, əlbət Xudavəndi-aləm həzrətləri ondan razı olar və millət də xoşbəxt yaşar.

*Bir Çənbərəkəndli*

## RUS TİCARƏTİNİN TARİXİ

### I

Yeni Azərbaycan dövlətinin gələcəkdə qəvi [güclü] və möhkəm bir dövlət olmaq amillərindən biri, şəksiz ki, ticarət olacaqdır.

Bu ticarəti mükəmməl bir surətdə aparmaq üçün sair millətlərin ticarət tarixlərinə dara olmaq [tarixlərini bilmək] lazımdır, ta ki onların səhv və xətaları bizim üçün ibrət olsun. Bir çox cəhətdən rus milləti ilə əlaqədar olduğu[muz] üçün qabaqca bu millətin ticarəti tarixini öyrənmək bizim üçün fərzdir. Bu öyrənişdən böyük-böyük ibrət dərsləri hasil olar. Ələlxüsus [xüsusilə] mövqeyi-coğrafiyamız [coğrafi mövqeyimiz] öylə düşübdür ki, ən qədim vaxtdan bəri ruslarla həmişə ticarət əlaqəmiz olubdur və şəkk yoxdur ki, bundan daha artıq olacaqdır.

Pəs [elə isə], bu əlaqəni sazlaşdırmaq üçün tarixə müraciət edəlim.

Rus ticarəti tərəqqisinə bir çox təbii və süni səbəblər maneə olmuşdur. Yeri gəldikcə bu səbəblərdən bəhs olunacaqdır. Lakin müruri-əyyam ilə [vaxt keçdikcə] rus tayfası bu mümaniətləri [maneələri] rədd edib, axırda mükəmməl bir ticarət sahibi oldular.

İndiki rusların babaları slavyanlar Karpat dağlarından enib, Rusiyanın bugünkü ovalarını işğal etmişlər. Burada köçəri halı ilə yaşayan tərəkəmə tayfalarından slavyanlara əziyyət və cəfa dəydiyi üçün bunlar şimal meşələrinə və bataqlıqlarına çəkilməyə məcbur olmuşlar. Axırda öylə qalın meşəliklərdə və nohurlu (озеро) yerlərdə bərqərar olmuşlar ki, oralara səhranişin [səhrada yaşayan] köçərilərin təraddüdatı [gediş-gəlişi] çox az düşürdü.

Bu meşəliklərdə slavyanlar düşmənlərin təcavüzatından azad yaşayırdılarsa da amma güzəranı çox ağır keçirdi. Böylə ki, şimal soyuqluğu, bataqlıq və meşəliklər bunların əmri-məaşını [dolanacaq işini] çox çətinə salmışdı. Ziraətlə [əkinçiliklə] məşğul olmaq heç mümkün deyildi, çünki hazır tarla olmadığı üçün qalın bir meşəni qırıb-çatıb, kötüklərini də çıxarmağa məcbur idilər ki, ta ki bir qədər əkin yeri açılsın. Bir bu qədər cəfa və əziyyətlərlə hasil olan taxıl, özgədən satın alma taxıldan baha tamam olduğu üçün slavyanlar müddəti-mütəmadi [uzun müddət] kənardan gəlmə taxıl ilə dolanmışlar. Özgə taxılına möhtac olan bu tayfanın halı nə qədər məşəqqətlə keçirdi, bunu anlamaq üçün bu gün “çörək qıtlığı” çəkənlərin halından qiyas [müqayisə]





etməlidir.

Binaənileyh [ona görə] slavyanlar ancaq meşə və nohur [göl] məhsulatı ilə dolanmağa məcbur idilər. Bu məhsulat ibarət idi meşə heyvanlarının əti və dərisindən, nohurların balığından və meşə arılarının bal və mumundan. İştə ən qədim slavyanların ticarətə layiq mətaları [malları] həmin beş şeydən ibarət idi.

Söz yoxdur ki, bu az şeylər slavyanların ehtiyacını rəf edə [aradan qaldıra] bilməzdi. Ona görə ovçuluqdan asudə olan vaxtlar bəzi sənətkarlıqla məşğul olmağa başladılar. Bu sənətlərdən ümdəsi nəccarlıq [dülgərlik], dəmirçilik, dabbağlıq [dəriçilik] və xəzəfiyyə (гончарное дѣло) [saxsı qab hazırlamaq] idi. Ovçuluqdan və sənətlərdən hər nə hasil olurdu, hamısı əvvəla öz ehtiyaclarına və saniyən [ikinci olaraq] knyazlar və mülkədarların vergi və xəracına sərf olunurdu. Yerdə hər nə qalsaydı, bazarlarda satışa qoyulurdu. Malların satışı pul ilə olmayıb, “mübadilə” üsulu ilə həll olunurdu. Hətta avropalıların aqçaları slavyanlar arasında pul kimi işləməyib müddətlərcə qadınların ziynətinə sərf olunurdu. Sonralardan heyvan dəriləri pul əvəzinə getməyə başladı. Həftədə bir dəfə, o da cümə günləri açıq bir yerə yığışıb mallarını mübadilə təriqi [üsulu] ilə aralarında dəyişirdilər.

Xristianlığı qəbul edəndən sonra cümə günü əvəzinə yekşənbə [bazar] günləri yığışmağa qərar qoydular və hər bir böyləcə bazarlarda birər kilsə tikib, tərəzi və ölçülərini və ticarət kitablarını oradaca saxladırdılar. Hətta mal yığıb saxlamaq üçün kilsələrin altında böyük-böyük anbarlar tikdirmişdilər.

İştə rus ticarətinin birinci hamisi və gözətçisi kilsə və keşişlər olmuşlardır. Bazarlarda ticarətlə məşğul olanların başçıları knyazlar və mülkədarlar olurdu. Bunlar rəiyyətdən və dəhat [kənd] əhlindən vergi və xərac təriqi [yolu] ilə yığdıqları əmtəəni bazarlara gətirib sair şeylərlə mübadilə etdirirdilər. Böylə ki, rus ticarətinin hamisi ruhani sinfi olduğu kimi müəssisləri [təsisçiləri] və birinci tacirləri də əsilzadə siniflərindən olmuşdu. Odur ki tacirlərin, camaat və hökumət arasında can və malları riayə [qorunur] və mühafizə olunurdu (taciri qətl edən şəxsə iki dəfə artıq cərimə və cəza verilirdi).

Bu minval ilə rus ticarəti müddətlərcə öz camaatı arasında sadə bir halda bulunub, əcnəbi məmləkətlərinə sirayət etməmişdi. Zira nadinc köçərilər əlindən yollarda əmin-amanlıq olmadığı üçün kənar vilayətlərə mal aparmaq mümkün deyildi. Bu hal bir müddət davam etdi. Sonra slavyan yerləri knyazlar arasında bölündüyü halda millət arasında təfriqə [ayrı-seçkilik] düşüb, kənardan gələn düşmənlərin təcavüzatından aciz qaldılar. Odur ki, tatarlar gəlib əsrlərcə slavyanlar arasında hökmdarlıq və ağalıq etməyə başladılar.

Tatarların hökmranlığı rus camaatına sair cəhətdən zərər verdisə də, amma ticarətinə böyük xidmətlər göstərdi. Bunlardan birincisi knyazları pul kəsmək məsələsinə vadar etmək idi. Böylə ki rus camaatından tatarlara çatası mal vergisi əvəzinə altun və gümüş vergisi tələb olunurdu. Odur ki, rus knyazları pul kəsməyə şüru etdilər [başladılar]. 14-cü əsrdə kəsilmiş rus pullarında ərəbcə və tatarca yazılar həkk olunmuşdu. Bu vaxtdan sonra mübadilə üsulu fəsx [ləğv] olunub, aq-

ça vasitəsi ilə ticarət başlandı. Zatən pul, ticarətin rəvacına bais bir alətdir.

Rus knyazları və bəyləri tatar xanlarının yanına gedib gələrkən Hacı-Tərxan [Həştərxan] və Kazan şəhərlərindəki ticarət işlərinə dara [bələd] olurdular və məta [mal] göndərib, əvəzində şərq malları gətirdirdilər. Bu minval ilə rus tacirləri xaric məmləkətlərlə ticarət əlaqəsi yaparaq, get-gedə Şərqin uzaq məmləkətlərinə mal aparıb, mal gətirirlər.

Ərəb müvərrixləri [tarixçiləri] yazırlar ki, rus tacirləri uzaq yerdən mal daşıyıb Qara dəniz vasitəsilə yunan məmləkətinə aparırdılar. İdil [Volqa] çayı ilə Xəzər paytaxtına gəlib, Kaspi dənizini keçərək, dəvələr belində hətta Bağdad şəhərinə qədər ticarət məqsədi ilə gedib-gəlirdilər.

İştə tatarlar vasitəsi ilə rus tacirləri Bəni-Abbasilərin paytaxtına qədər gedib, şərq aləminin bir çox mərkəzləri ilə aşina olaraq ticarət əlaqə və rabitələrini yapırlar.

*Fərhad Ağazadə*

## AZƏRBAYCANDA

### Gəncədən bizə yazırlar

Bakını, Tiflisi, Rusiyanın Moskvasını, Petroqradını, şimdi lehlərin [polyakların] Varşavasını kəndi meyvələri ilə dolduran Bağban, Gəncə şəhərinin üçüncü polis hissəsini təşkil edir. İşbu Bağbanın evləri və küçələri ulu babalarımızdan qalma evlər və küçələrdir.

Bağbanın küçələri günəşdə toz, yağmurda bataq ocağı olur. Bataqda faytonçu şəhərdən iki verst yarım məsafədə bulunan Bağbanın başına 50-60 rublə də verilsə getmir, getmə[mə]yə də haqqı var. Bataqda oraya gedən faytonun rezini təzələnib atları bir gün istirahətə buraxılmalıdır.

Bağbandan şəhərə işə və oxumağa gələnlər üçün bu küçələrin yayda tozu, qışda batdağı cəhənnəm əzabı verir. Mən bilmirəm bu cəhənnəm küçələrinin dərdinə nə vaxt dərman ediləcək.

Bağban camaatı və Bələdiyyə dairəsi Bağban üçün hava qədər lazım olan soqaqları yapmadığı halda, onların alt tərəfindəki malakanlar, üst tərəfindəki nemeslər az bir zamanda Bağbanın alt tərəfini, üst tərəfini abad etdilər, Bağbanın içəri[si] isə yenə əski halı ilə qaldı. Onların küçələri müntəzəm, təmiz, iki yanlarında ağaclar əkilmiş, evlərinin aynalarında ürəyi sevindirici, gözlərə zövq verici çiçəklər var isə, bizimkiləri arxası küçəyə tikilmiş; müzlim [qaranlıq] pəyələrin bacasından atılan heyvan peyini dolduraraq qışda batağa, yayda toza qarışaraq havanı pozğunlaşdırır.

İndiyə kimi sevimli Azərbaycan torpağı ana vətənimiz olduğu halda bizlər ona yabançı gözlərlə baxırdıq. Sevimli yurdumuzun xarabaları və şenlikləri [abad yerləri] bir o qədər gözlərimizə çarpmayırdı. Çünki biz bu vətəndə ağa ola-ola nökər sayılırdıq. Onun döşündə böyüyüb doğru oğlu olduğumuz halda, bizi ögey oğul sayaraq bizə xor gözlərlə baxırdılar. Lakin Azərbaycan istiqlal bayrağını qaldırdıqda onun həqiqi oğulları Azərbaycan türkləri ayrı cürə düşünməyə başladılar. Şimdi hər bir azərbaycanlı ümumi vətəni Azərbaycan üçün çalışmağı kəndinə müqəddəs vəzifə sanır. Onun xarabaları hər bir azərbaycanlını düşündürür. Onun əskiklikləri hər bir Azərbaycan fərdinin əskikliyidir deməy...

Nə isə... Bağban dörd böyük məhəllədən ibarətdir. Hər məhəllənin kəndinə məxsus birər məscidi var. 1911-cidə, ya qabaqmı, sonramı Bağbanın hər məhəllə məscidinin qabağında birər elektrik fənəri tikəltildi. Bu vaxtlarda küçələri də bir plan üzrə yapmaq niyyəti var imiş. Hətta Bələdiyyə dairəsi işə şüru edərək [başlayaraq] Bala Bağban denilən məhəllənin Qızılqayalı küçəsinə kimi düz soqaq açdırdı. Yeni evlər tikilməyə başlamışdı ki, iş birdən-birə yatdı. Bağbanın, daha doğrusu Bağban camaatının sarsılmaz cəhaləti mənfəəti-ümumiyyələri üçün başlanılan təşəbbüsə qarşı qoyuldu. Bələdiyyə dairəsi isə Bağbandan alınan vergini özlərinə xərcləməkdən uzaq duraraq öküzü öldürdü, bıçağı quluncunda sındırdı. Azərbaycanın ikinci paytaxtı yerini tutan Gəncə şəhərinin iki verst məsafəliyindəki, 5 mindən ziyadə nüfusa [əhaliyə] malik Bağbanın görənək küçələri – mənim zənnimcə – milli və dövlət heysiyyətini qıran keyfiyyətlərdən sayılmalıdır.

Bələdiyyə dairəsi gözünü Gəncənin qərb tərəfinə döndərib Bağbanın küçələrini bir nizama salaraq tramvayın bir qolunu da erməni tərəfə olduğu kimi buraya çəkdirsə, şəhərimiz həm nüfusca artar, həm məsafəcə böyüyüb gözəlləşər, həmi də Gəncənin üçdən bir xalqı yaşamaq nə olduğunu bir azacıq da olsa düşünər. Bələdiyyə dairəsi Bağbanın küçələrini nizama salarsa, Gəncənin tarixi-təkəmmülündə [inkişaf tarixində] böyük rollar oynamış olar və xalq da Bələdiyyə dairəsinin təşəbbüskarlarına lazımi borclarını əda edər. Bələdiyyə dairəsi rəisinin nəzər-diqqətini Bağban küçələrinə cəlb edirəm.

*Qaf. Əlif. Qaf.*

### Ağdaşdan

Ağdaş şəhərinin böyük bir ticarət mərkəzi olduğu məlumdur. Həftədə ən azı bu şəhərin bazarında 50 min put hər cür mal mövqeyi-füruşa [satışa] qoyulur. Ağdaş ilə Ləki mövqifi [stansiyası] arasında 8-9 verst məsafəsində bir şose yolu vardır. Dörd-beş sənə əqdəm [qabaq] bu yol düzgün və gözəl bir halda idi. İndi isə bu yol xarab olduğundan fayton və araba ilə getmək müşkül olmuşdur.

Ağdaş bazarında satılan mallardan Bələdiyyə İdarəsi hər malın özünə görə vergi alır. Bundan əlavə, Ləki mövqifində də bu mallara vergi alınır. Ağdaşdan alınan vergilərə qəbz verilirsə də, Ləkidə alınan vergilərə qəbz verilməyir və bu pulların nerəyə sərf olunduğu məlum deyildir. Bu sətirləri yazanın özündən belə Ləki mövqifində 20 put qoz ləpəsi üçün putuna 3 manat vergi aldılar. Böylə intizamsızlıqların qabağı alınması lazımdır. Cavan Cümhuriyyətimiz daxilində bu cür başsızlıqlara yol verməməlidir.

*Yəhya Hacıyev*

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm! Bu qaç kəlməyə rica edirəm möhtərəm qəzetənizdə yer verəsiniz.

"Azərbaycan" qəzetəsində Ərzaq naziri vəkili Yusifəli Əliyev cənabları tərəfindən məzkur [adı keçən] qəzetədə Tağıyev kantorundan yazılmış ki, Ərzaq Nəzarəti üçün 2 tay bez, 25 put madepulam və 25 top bomazı. Bunlar dürüstdür, amma 72 dənə qətifənin verilməsi dürüst deyildir. Verilməyibdir və bu vaxtadək də

almamışam. Çünki hər vaxt kantora gəldikdə "yoxdur" cavabını almışam.

*Ərzaq Nəzarəti məmurlarından*
*Mirzəağa Əliyev*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi**
**Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Petroqraddan gəlmiş diş həkimi**
**M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağ-





rısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**İslamiyyə mehmanxanası (lokantası)**

Bir çox sənələrdən bəri davam edən və Mart hadiseyi-əliməsində [kədərli Mart hadisələrində] yanan "İslamiyyə" mehmanxanası yenidən təmir edilib bu gündən etibarən mehmanxanada gözəl lokanta [yeməkxana] açılmışdır. Mahir aşbazların təhti-idarəsində [idarəsi altında] hər növ Avropa və Asiya xörəkləri hazır edilir. Nahar və şam vaxtı Avropa və Asiya musiqi dəstəsi çalacaqdır. On beş ədəd nömrə hazırdır. Adres: Bazarnı və Qubernski küçələrin küncündə, telefon nömrə 12-51.

Kamali-ehtiramla: İsmayıl Mahmudzadə.

*2670*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 42. "Rza Ağasıbəyov": qəzetdə "Rza Ağabəyov" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 42. "Bolboçan": qəzetdə "Dalbaçan" getmişdir.

"Petlyuralılar": Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olan Simon Petlyuranın tərəfdarları nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 43. "Yujnıye vedomosti": XX əsrin əvvəllərində Simferopolda nəşr edilən qəzet.

Sentrosoyuz: İstehlak Cəmiyyətləri Mərkəzi İttifaqı. Rusiyada istehlak cəmiyyətlərinin ali koordinasiya orqanı olan qeyri-ticarət qurumu.

"Bu məbləğin nəf'ini [qazancını]...": ehtimal ki, "bu məbləğin nisfini [yarısını]..." olmalıdır.

səh. 44. "Ryabuşinski": XX əsrin əvvəllərində Rusiyanın ictimai-siyasi həyatında müəyyən rol oynamış Ryabuşinski soyadlı bir neçə nəfər olmuşdur. Burada böyük ehtimalla Vladimir Pavloviç Ryabuşinskidən danışılır.

**Felyeton**

səh. 45. "...hicrətin 136-sında...": miladi təqvimlə 754-cü ildə.

"...hicrətin 169-unda...": miladi təqvimlə 785-ci ildə.

"Həmədani": IX əsrin sonu – X əsrin əvvəllərində yaşamış coğrafiyaşünas İbn əl-Fəqih Həmədani nəzərdə tutulur.

səh. 47. "Mora müharibəsi": Qədim Yunanıstanda Delos İttifaqı (rəhbəri Afina idi) ilə Peloponnes İttifaqı (rəhbəri Sparta idi)

arasında e. ə. 431-404-cü illərdə cərəyan edən Peloponnes müharibəsi nəzərdə tutulur. Bu müharibənin adı Yunanıstandakı Peloponnes yarımadasından götürülmüşdür. Bu yarımada türk mənbələrində Mora yarımadası adlanır.

"lakedemonilər": Yunanıstanda e. ə. XI-II əsrlərdə mövcud olmuş Lakedemon (Sparta) dövlətinin əhalisi.

**Biz və istiqlaliyyət**

səh. 48. "Salman bəy Əlibəyov": Salman bəy Əlibəyov haqqında ətraflı məlumat "Azərbaycan" qəzetinin 24 yanvar 1919-cu il tarixli 96-cı və 27 yanvar 1919-cu il tarixli 97-ci nömrəsində verilmişdir. Bu nömrələrin transliterasiyası "Azərbaycan" külliyyatının IV cildində yer almışdır.

**Mətbuat**

səh. 50. "Fevral inqilabı": Rusiyada 23 fevral – 6 mart (yeni təqvimlə 8-16 mart) 1917-ci ildə baş vermiş burjua-demokratik inqilabı nəzərdə tutulur.

"Krasnovlarının": Don kazaklarının atamanı olan general Pyotr Nikolayeviç Krasnov nəzərdə tutulur.

**Bakı xəbərləri**

səh. 51. "Verxni-Təzəpir": Bakıda, indiki Nabat xanım Aşurbəyova küçəsi.

"Mikado": Bakıda teatr, indiki S. Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı

"Persidski caddə": Bakıda, indiki Murtuza Muxtarov küçəsi.

**Bakı xəbərləri:**
**Çənbərəkənd məhəlləsinin fəryadı**

səh. 52. "Bir gün camaat tətil edib...": bu cümlə qüsurludur.

səh. 53. "qlasnı": yerli özünüidarə orqanının səsvermə hüququna malik olan üzvü.

"Kulikovski": 1910-cu illərdə Bakı Bələdiyyə İdarəsinin üzvü, Bələdiyyənin Torpaq şöbəsinin rəisi olan Dmitri Lvoviç Ovsyaniko-Kulikovski nəzərdə tutulur.

**Rus ticarətinin tarixi**

səh. 55. "...həmin beş şeydən...": qəzetdə "beş" yerinə "boş" getmişdir.

səh. 56. "Bəni-Abbasilər": Ərəb xilafətini VII-XIII əsrlərdə idarə etmiş Abbasilər sülaləsi nəzərdə tutulur.

**Azərbaycanda**

səh. 56. "Bağban": Gəncənin məhəlləsi nəzərdə tutulur.

**İdarəyə məktub**

səh. 57. "madepulam": pambıq parça növü.

"bomazı": isti pambıq parça növü.





**Çərşənbə, 5 fevral 1919-cu il, nömrə 106**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 4 cəmadiyələvvəl sənə 1337. 5 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məlikməhəmməd, Paşa və Kərbəlayi Hüseyn kamali-yə's və təhəssürlə [böyük bir matəm və kədərlə] əvvəlincinin qardaşı, ikincinin dayısı və üçüncünün yeznəsi Yusif Əhmədovun vəfat etdiyini öz qövməqrəba və dost-aşnalarına xəbər verirlər. Cənazə bu gün fevralın 5-ində saat 10-da Spasski küçədə 118 nömrəli məxsusi evindən məhəllə məscidinə aparılacaqdır.

*2673*

## ELAN

Azərbaycan Məclisi-Məbusanının 4-ündə olan iclasının bəqiyyəsi [ardı] bu gün şubatın [fevralın] 5-ində saat 1 tamamda olacağı elan edilir.

## HÖKUMƏT HƏR ŞEYİ ETMƏZ!

Azərbaycan Hökuməti təsisi ilə məəttəəssüf [təəssüf ki] bizdə bir zehniyyətin də təəssüs eylədiyi müşahidə olunur.

Hər şeyi hökumətdən gözləmək, hökumət əli ilə gördürmək.

Cümhuriyyət və məşrutiyyətlərlə [konstitusiyalı monarxiya quruluşu ilə] idarə olunan hökumətlərdə əsl idarə edən xalq özüdür. Xalqı mütəşəbbis [təşəbbüskar] olan millətlər, xalqı camaat işi ilə məşğul və müxtəlif cəmiyyətlərə ayrılaraq əsərifəaliyyət göstərən cəmiyyətlərdir ki, hakimiyyəti-milliyyəni [milli hakimiyyəti] təsis edə bilirlər.

Hər şeyi hökumətdən gözləyib duran bir camaat, nəhayəti hökumətindən məyus olar. Çünki heç bir zaman hökumət, nə cür hökumət olursa-olsun, cəmiyyətin gunagun [növbənöv, müxtəlif] ehtiyaclarını rəf edə bilmək [aradan qaldıra bilmək], hər şeyə vaxtında və zamanında yetişmək imkanında olammaz. Bu hal, bilxassə [xüsusilə] yeni təşəkkül etməkdə olan və inqilab məşiməsindən [bətnindən] doğan yeni hökumətlərdə iki-üç qat bir əhəmiyyət alır.

Türkiyə kimi böyük və möhtəşəm bir tarixə malik olan qədim bir dövlətdə belə hər şeyi hökumətdən gözləmək zehniyyəti məmləkəti nə kimi müşkül hallara saldı. Bizim kimi hər şeyi yenidən, yoxdan var etmək məcburiyyətində bulunan bir hökuməti bu zehniyyət nə kimi xarab bir hala qoya bilər, bir kərə düşünülsün.

Şübhəsiz ki, hökumət məmləkətdəki

hərəkati-ictimaiyyə [ictimai hərəkətlərin] və təşkilati-idarənin [idari təşkilatın] nazimi [tənzimləyicisi], naziri [nəzarətçisi] və ruhu olmalıdır. Onun nəşr eylədiyi müvafiq qanunları, qoyduğu tədbirli nizamları, təşkil eylədiyi ədalətli idarələri ilə dövlət makinasını yoluna qoymalıdır.

Fəqət bu kafimidir?

Dövlətə məmurlar lazımdır. Bu əski məmur kadrolarına malik bir hökumət deyildir. Yeni adamlar bulmalı, namuslarına güvənməli, onları birər xidmətə təyin etməlidir. Bu yeni məmurları hökumət nərədən alacaq, bunun üçün kimə müraciət eyləyəcək, bu bir məsələdir. Bu məsələnin həlli üçün mövcud olan firqələr [partiyalar] az da olsa müavinət [kömək] edə bilərlər. Hökumət məmuriyyətini ifa edə biləcək əzalarını [üzvlərini] və yaxud əzaları olmasa da, etimad edə bildikləri əşxasın [şəxslərin] bir siyahısını tutar, bu siyahını nəzarətlərə [nazirliklərə] verə bilərlər. Bundan daha faydalı olaraq əhli-ürfan [ziyalılar] öz arasından bir cəmiyyət təşkil edə bilər. Tamamilə bitərəf bir cəmiyyət, zəhmətkeş ürəfa [ziyalı] cəmiyyəti. Bu cəmiyyət hər yanda, hangi bir dövlət xidmətinə istedadı olan mütəxəssisləri, mütəfənninləri [elm adamlarını] və ələlümum [ümumiyyətlə] zəhmətkeş ürəfanı toplar, onları qeyd edər və hökumət idarələrinə məmur verməklə milli işə müavinət edə bilər.

Hökumətimiz olmadan əvvəl füqəramıza, qaçqınlarımıza, fələkzədələrimizə [fələyin silləsini yeyənlərimizə] müavinət edən cəmiyyətlərimiz, nəşri-maariflə [maarifi yaymaqla] məşğul olan ürfan müəssisələrimiz var idi. Hökumət təşkil etdiyimizdən sonra bu xüsusdakı ehtiyaclarımız azaldı deyil, artdı. Halbuki bu cəmiyyətlərdən, bunların fəaliyyətindən bir əsər yox. Görünür ki, hər kəs, artıq Ümuri-Xeyriyyə [Sosial Təminat] və Səhiyyə Nəzarəti var, Maarif Nəzarəti təsis edilmişdir deyə, cəmiyyətə bir vəzifə qalmadığını düşünür. Fəqət həqiqəti-hal böyləmidir?

Əskidən kooperativlər, köy cəmiyyətləri vardı. Bu cəmiyyətlərdə camaatın etimadını qazanmış adamlar çalışırdı. Bu vasitə ilə xalqa ucuz ərzaq paylamaq imkanı hasil olurdu. İmdi Ərzaq Nəzarəti var. Fəqət əhaliyə lazım gələn ərzağı paylayacaq aparatlar yox. İş bəzi şəxslərin, kəndi məsuliyyəti üzərinə hərəkət edən fərdlərin öhdəsinə buraxılmışdır. Buna görə də bir çox sui-istemallara [sui-istifadələrə] meydan verilmişdir.

Hökumətimiz məcburi əsgərlik elan eyləmişdir. Əsgər toplamaq öylə asan işlərdən deyildir. Başqa sənaye və texnikaca iləriləmiş olan millətlərdən əsgərliyə alınan nəfərlərin içində hər sənət ərbabı olur. Komandanlıq sənət sahibi olan nəfərləri bir tərəfə ayırıb onları əsgərə lazım olan işlərdə işlədir. Məsələn, dərzilər tikiş işini, dülgərlər qışla (kazarma) yapısını, dəmirçilər dəmir işini, sairlər də kəndi xüsusiyyətlərinə aid olan cəhətləri ifa edirlər. Bu surətlə ordu kəndisinə lazım olan işlərin heç olmasa bir qismini öz ustaları vasitəsilə görmüş olur.

Halbuki bizdə öylə deyildir. Əksərən orduya gələn nəfər yer əkmək və yaxud qoyun otarmaqdan başqa bir şey bilmir. Bunun üçün də komandanlıq, ordunun hər bir ehtiyacını xaricdən görmək məcburiyyətində qalır. Bu xüsusda cəmiyyət orduya böyük bir xidmət edə bilər. Bilxassə qadınlarımız təşəbbüs edərlərsə, orduya camaşır [alt paltarı] hazırlaya bilərlər. Bu nə qədər böyük bir xidmət, vətəni bir xidmət olar!

Oxuyucular bilirlər ki, müharibənin şiddətli zamanlarında ləvazimə möhtac qalan rus ordusuna rus camaatı nə qədər böyük xidmətlər etmişdi. Şəhərlər və zemstvolar [yerli özünüidarə orqanları] tərəfindən təşkil olunan cəmiyyətlər, sənaye və ticarət ərbabı tərəfindən vücuda gətirilən müəssisələr ordunu nə dərəcədə qüvvətləndirmişlərdi.

Orduya alınanların ailələri var. Onların dərdləri var. Görüləcək işləri var. Onlar daha [hələ] əsgər övladı, əsgər ailəsi olmağa adət etməmişlərdir. Bu "müqəddəs adət"ə öyrənmək nəsibi ilk dəfə onlara aid olmuşdur. Şübhəsiz ki, vətən müdafieyi-ülvisi [ülvi vətən müdafiəsi] nə olduğunu dərk edən bir vətəndaş üçün böylə bir fədakarlıq nəsibi ilə hissəmənd olmaq [pay almaq] böyük bir səadətdir. Fəqət bununla bərabər, o ailənin maddi və mənəvi ailə ələmlərini dəxi digər vətəndaşlar anlamalıdırlar. Öz qardaş əlaqələri [qayğıları] ilə göstərməlidirlər ki, xidmətə alınmış əsgər və onun ailəsi cəmiyyət tərəfindən unudulmamışdır. Böylə bir məhəbbətli əlaqəni qışlasında xəbər alan yeni əsgər rahətlə vəzifəsini ifa eylər, bundan da məmləkət, vətən böyük faydalar görər.

Əsgər ailələrinin bir çox dərdləri var; onlara yetişmək – bəzən haqsız olaraq qanunun kəndilərinə bəxş etmiş olduğu müsaidələrə [hüquqlara] təcavüz edilmişdir – onları rəf etdirə [aradan qaldıra] bilmək üçün, kəndilərinə yol göstərmək üçün bir cəmiyyət olarsa azmı fayda verər?

Diqqət olunsun Gürcüstana, Ermənistana; orada hər şeyi hökumətmi edir? Qətiyyən. Orada camaat, camaat müəssisələri, firqələr, cəmiyyətlər hökumətdən az iş görməyirlər. Çünki bilirlər, görüləcək vətən işi, millət işi, bir sözlə, dövlət işi o qədər çox, o qədər gunagundur [müxtəlifdir] ki, onları görmək üçün hər kəsə, hər cür cəmiyyətə iş vardır. Ta ki, işləyən olsun.

Gəncədə Azərbaycan Hökuməti təəssüs edərkən [qurularkən] böyük bir xəta irtikab edildi [səhvə yol verildi]. Xalq içindən doğma nə qədər milli müəssisələr varsa külliyyən ortadan qaldırıldı. Hər şeyi hökumət görəcək deyə bir fikir verildi. O gündən etibarən firqə həyatı, firqə təşkilatına zərərli bir iş kimi baxıldı, Bakıda "Türk Ocağı" cəmiyyəti müsaidə alıncaya qədər min müşkülata məruz qalmışdı. Bu xəta Parlaman təsis edildikdən, Gəncədə faydasız görülən Şurayi-Millinin haqqı və hakimiyyəti iadə edildikdən [özünə qaytarıldıqdan] sonra anlaşıldı. Fəqət bu xətanı hökumət və siyasi məhfillər [dairələr] anlamış olduqları halda, görürəm, camaatımızın kütləsi daha bunu anlamamışdır. Hələ hər kəs hər şeyi hökumətdən gözləyib durur.

Əlbəttə, hökumətə malik bir millətin haqqı vardır ki, hər şeydən həyati-ictimaiyyə və siyasiyyəsinin müdiri və nazimi olan [ictimai və siyasi həyatını idarə edən və qaydaya salan] hökumətin rəftar və göftarına [hərəkətlərinə və sözlərinə], təşəbbüs və qərarlarına müntəzir olsun. Bu təbiidir. Fəqət təbii olmayan bir şey vardır ki, o da hər şeyi hökumətdən intizar edib də kəndisinin tamamilə atil və batil [tənbəl, fəaliyyətsiz] oturmasıdır.

Millətin fəal və zində [canlı, diri] qüv-

vətləri, haydi iş başına! Şimdi işləmək, yaratmaq və hökumətə kömək etmək zamanıdır. Hökuməti yalnız sözlə olan irşadatınızla [yol göstərməklə] deyil, işlə göstərdiyiniz təşəbbüsatınızla da təyid etməlisiniz [dəstəkləməlisiniz]!

*M. Ə. Rəsulzadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**İngiltərədə səkkiz saat iş vaxtı**

Dəmiryol İcra Komitələri və Dəmiryol İttifaqı nümayəndələri səkkiz saat iş vaxtı müqavilənaməsini imza etmişlərdir.

**Mərakeş əhvalı**

Parisdən "Deyli xronikl" qəzetəsinə xəbər verirlər ki, Mərakeşdə olan beynəlmiləl kontrolun məmnuniyyətbəxş olmayan əhvalı fransızların istila edilmiş yerlərdəki Amerika və İngiltərə nümayəndələrinin hərəkatından dilgir [narazı] olmalarına səbəb olmuşdu. Amma hal-hazırda əhval bir qədər dəyişmişdir. Fransa idarə etdiyi yerlərdə məhəlli [yerli] əhalinin hüququnu təmin edib, beynəlmiləl ticarət üçün yüngül şərait [qaydalar] qoymaq üçün çalışır.

* Almaniya Hökuməti Etilaf dövlətləri [Antanta] nümayəndələri namına [adına] göndərdiyi nota ilə Bəhri-səfid [Ağ dəniz, Aralıq dənizi] vasitəsi ilə alman qoşunlarının buraxılmadığını bəyan edir. Məlum olduğu üzrə alman qoşunları hal-hazırda Heydərpaşada cəmləşmişlərdir. Notada bu da əlavə edilir ki, bu vaxtadək Qara dənizdə olan alman qoşunlarının miqdaratı [miqdarı] barəsində Müttəfiqlər heç bir cavab verməmişlərdir.

* Serbiya qoşunları italyanların təxliyə etdikləri Fiumeyə daxil olmuşlardır.

* Vilhelmshafendə spartakların üsyanı dayandırılmışdır.

**Almaniya müstəmləkələri**

Parisdən "Deyli meyl" qəzetəsinə xəbər verirlər ki, muxtariyyətli müstəmləkələr nümayəndələrinin protestosuna baxmayaraq Ümumi İmperiya Hərbiyyə Kabinəsi Almaniya müstəmləkələrinin beynəlmiləlləşdiril-məsini təsvib [təsdiq] eyləmişdir. Cənubi Afrika nümayəndələri zənn edirlər ki, bu siyasət Cənubi Afrikada üsyan qalxıza bilər. Avstraliyalılar qorxurlar ki, Avstraliya əhalisi bu təklifi qənaətbəxş və aydın hesab etməyəcəklər. Muxtariyyətli qitələrin vəkilləri çox ehtiyatla davranırlarsa da, onların qeyri-məmnun olduğu hiss edilir. Vilson inandırır ki, bu məsələnin ilhaqcuyanə [ilhaqçı] həlli, işi müşkülə salacaqdır. Vilsonun planına görə, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] bu müstəmləkə əhalisinə öz iqtidarlarına münasib azadlıq haqqı verməlidir.

* Belçikaya ən zəruri şeylər daşımaq üçün İngiltərə tərəfindən aeroplanlar verildikdən sonra birinci müntəzəm hava müxabiratı [əlaqəsi] başlanacaqdır. Hər gün Folkston Kentə aeroplan teyri [uçuşu] başlanacaqdır.

## QƏZETƏLƏRDƏN

**Amiral Kolçakın teleqrafı**

Cənubi Rusiyada müsəlləh [silahlı] qüvvə baş komandanı general Denikin amiral Kolçakdan böylə bir teleqraf almışdır:

*"Yanvarın 1-də hökumət təşkil edilmişdir. Mən bu hökumətin başındayam. Bundan əlavə mən Sibirya, Ural və Orenburq kazak oblastlarının və bütün Ural dairəsində olan qoşunların baş komandanıyam. Mənim sağ cinahımda əməliyyati-hərbiyyə [hərbi əməliyyat] Perm şəhərinin alınmasıyla qurtarmışdır. Burada neçə min əsir və bir çox qənaimi-hərbiyyə [hərbi qənimətlər] almışıq. Əsgərlər Vyatkaya tərəf hücum etməkdədirlər. Bolşeviklər Ufa şəhərini zəbt etmişlərdir. Bu tərəfdə müharibə davam edir. Eşitmişəm ki, siz Cənubi Rusiyadan ötrü Rusiya cənubunda mübarizə edirsiniz. Mən istərdim ki, əsgəri və dövləti işlərdə sizinlə əlaqədar olam. Çünki hərəkətlərimizi müvafiq etməyi lazım görürəm. Buna görə daimi münasibat bərpa etməliyiz. Bizim ümumi işimizə səmimi bir surətdə inanıram. Bizim dostluğumuza heç bir şey icrayi-təsir edəmməz. Mümkün qədəri tezliklə mən sizinlə birləşməyi və görüşməyi arzu edirəm. Allah sizə kömək olsun! Kolçak."*

**Şura Hökumətində ixtilaf**

"D. V." qəzetəsinin yazdığına görə, Moskvadan xəbər verirlər ki, Xalq Komissarları Şurasında ciddi mübahisə və münaqişə başlanmışdır. Birtərəfli siyasət aparmağa görə Xalq Komissarları arasında ixtilaflar çıxmaqdadır. Xalq Komissarları Şurasının (lazımi təqdirdə) Moskvadan qaçması üçün tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Lenini mühafizə edən Latış dəstəsi çinlilərə əvəz edilmişdir. Fəhlələrin Şura Hökuməti əleyhinə çıxmaları üçün tədbirlər görülməkdədir. Xalq komissarlarını mühafizə etməkdən ötrü geniş bir dairədə təşviqat aparılmaqdadır. Lenin mitinqlərdə çıxıb danışırsa da, qeyri-dostanə bir surətdə qarşılayırlar.

**Müttəfiq dövlət əsgərləri Rusiyaya gəlməyəcəklər**

Berlindən teleqraf edirlər: "Forverts" qəzetəsinin verdiyi xəbərə görə, Fransa Xariciyyə naziri izhar etmişdir [bildirmişdir] ki, Müttəfiqlərin Rusiyaya əsgər yürütmələri planı dəyişilmişdir. Bundan belə Rusiyaya təzə əsgər göndərilməyəcəkdir. Buna da səbəb Parlamanda olan sosialist firqələrinin hökumət siyasəti əleyhinə olmalarıdır.

**Müttəfiqlərin Rusiyanı abluka etmələri**

"Forverts" qəzetəsi yazır: Belə görünür ki, Müttəfiqlər silah əldə olaraq özlərinin bolşeviklərə yetişmələri niyyətini dəyişmişlərdir. Bununla belə Müttəfiqlər Şura Hökumətini amansız bir surətdə ablukaya (mühasirəyə) salıb ac qoymaqla bolşevizmi gücdən salmaq imkanına malikdirlər. Şimalda, şərqdə və cənubda bu mühasirə başlanmışdır. Rusiya hər tərəfdən qət'i-əlaqədədir [Rusiyanın hər tərəfdən əlaqəsi kəsilmişdir]. Bolşevizmin qərbə tərəf təzyiqi bunu isbat edir. Bolşeviklər axırıncı çarə olaraq özlərini təmin etməkdən ötrü axırıncı qəpiklərinə heyifsilənməyib Almaniyanı Müttəfiqlərlə təzə müharibəyə sövq etmək üçün Almaniyada şiddətli təşviqatdadırlar. Bolşevik heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] başçısı, Polşa və alman Sosial-Demokrat firqəsinin sabiq üzvü, Almaniya-

ya varid olmuşdur [gəlmişdir] ki, Rusiyanı məhv edən hərc-mərclik toxumunu Almaniyaya da səpsin.

**Novorossiyskdə Müttəfiqlər donanması**

Müttəfiqlərin böyük donanması Novorossiyskdə gözlənir. Müttəfiq qoşunlarının zabitləri üçün mənzillər həcz [müsa-dirə] edilmişdir.

**Simsiz teleqraf istasyonu**

Omskda olan fransız əsgərləri güclü bir simsiz teleqraf istasyonu [stansiyası] düzəltmişlərdir.

* Moskvada müntəşir [nəşr olunan] "Qırmızı saldat" qəzetəsinin məlumatına görə, bu günlərdə Hindistan tərəfindən bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] Moskvaya varid olmuşdur [gəlmişdir]. Heyəti Lenin vağzalda istiqbal eyləmişdir [qarşılamışdır]. Hindistan nümayəndələri Rusiyanı inqilabın qələbəsi ilə təbrik və rica etmişlər ki, Hindistanın müstəqil olması tələbi də Şura əmirnaməsinə daxil edilsin. Zira Hindistanın azadlığı, İngiltərə cahangirliyinin [imperializminin] fəlakəti deməkdir.

* Bolşevik Hökuməti Rusiyada 17 yaşından 50 yaşınadək hamı kişiləri səfərbərliyə, həman sinndə [yaşda] olan arvadları isə vətənin müdafiəsindən ötrü işləməyə dəvət eyləmişlərdir.

* Yekaterinodardan alınan məlumata nəzərən fransız bəhriyyəsi [donanması] Baltik dənizinə daxil olmuşdur. Sevastopolda olan rus gəmilərinin bir hissəsini Müttəfiqlər İstanbula aparmışlardır.

* Verilən son məlumata görə, admiral Kolçak qoşunları tərəfindən Kazan, Ural kazakları tərəfindən Samara işğal edilmişdir.

**Məhəlli konfrans**

Sülh Konfransında işlər çox olduğuna görə məhəlli [yerli, lokal] məsələləri həll etməkdən ötrü məhəllində xüsusi konfranslar vücuda gətirilməsi layihəsi təqdim edilmişdir. O cümlədən, Cənubi Amerika məsələləri üçün, Türkiyə, Qafqaziya və qeyri məsələlər üçün İstanbulda xüsusi konfrans vücuda gətirilməsi təsəvvür olunur. İstanbul Konfransı fevral ayında çağırılacaqdır.

**Dağıstan Cümhuriyyəti**

Dağıstan Hökumətinin Müttəfiq şurasında müzakirə edilən məsələlər cümləsindən biri də Azərbaycan ilə ittifaq məsələsi olmuşdur. Hökumət əzasından [üzvlərindən] Qaplanov Tersk oblast kazakları ilə ittifaqa girişməkdən bəhs edib deyir ki: *"Bu ittifaq bizi yenə təzədən Cənub-Şərq İttifaqına, hətta ola bilər ki, gələcəyi heç məlum olmayan Rusiya İttifaqına cəlb edər. Hər halda bu ittifaq rus orientasiyasına qədəm qoymaqdan ibarətdir. Bunu ilə bərabər, cümhuriyyət əhalisinin əhvali-ruhiyyəsi hökumətin siyasəti əleyhinə olaraq bilaşübhə [şübhəsiz] Azərbaycanla ittifaqa maildir."*

Kotsev demişdir ki: *"Ola bilər hökumət hətta Azərbaycanla birləşməyi dəxi arzu edərdi, lakin bu fikri coğrafi şəraitlə, xüsusən Müttəfiqlərin müəyyən tələbatı münasibəti ilə şəraiti-siyasiyyə üzrə vücuda gətirmək mümkün deyildir."*

Sonra 16 səslə Pşemaxo Kotsev hökumət sədri intixab edilmişdir [seçilmişdir].

**FELYETON**
**İzçilik**

**1**

Transvaal davası əsnasında ingilis ordusunda böyük işlər görən general Baden-Pauel cavan ingilis əsgərlərinin bir çox nöqsanlarını görmüş və ingilis cavanlarını icabında [yeri gəldikdə] hər cür təhlükədən qorxmaz bir halda tərbiyə edə bilmək üçün çarələr araşdırmış və səkkiz il bununla məşğul olduqdan sonra 1908-ci ildə fikrini meydana qoymuşdur.

Qoca general bu ilk ibtidasında [başlanğıcında] "Uşaqlar üçün izçilik" namında [adında] bir jurnal çıxarmağa başladı. Bu jurnalda general şu fikirləri ortaya atdı:

*"Mədəniyyətin indiki halda tərəqqisi, insanlarda mövcud səciyyələri, qüdrətləri yox edir. Gözəl paltarlar, hər növ tualetlər [bəzək-düzək], tramvaylar, avtomobillər, şəhərlərin rahat yolları bizi arvadlar kimi nazik, həssas, ə'sabı [əsəbləri] zəif yapır. Məktəblərdə mütəəllimlərin [şagirdlərin] dimağları [beyinləri] cürbəcür elmlərlə doldurulur. Başları nə mərtəbə dolu isə, əzələləri o mərtəbə işlədilmir. Onlardakı fitri səciyyələr (məsələn, bir təhlükə qarşısında şaşırmamaq, kəndini qeyb etməmək, vəziyyətə hakim qalıb eyi düşünə bilmək, cəsur olmaq kimi) qeyb olub gedir. İbtidai yaxud edadi və ya ali dərəcədə təhsil görsün, həyat davası meydanına atılan bir cavan pak dırnaqları, nərmin [yumuşaq] əlləri, nazan [nazlı] rəftarı ilə bəlkə arvadlar məclisində bir qəhrəman, bir qalib ola bilər. Fəqət əsl həyat davasında o məğlubdur, çünki qorxaqdır, çünki mənəvi vücudu dərəcəsində maddi bədəni qüvvətli deyildir. Böylə cavanlarla biz İngiltərəni, İngiltərənin böyük imperiyasını mühafizə edəməyiz."*

General bu sözlərini ingilislər haqqında söyləyirdi. O ingilislər ki, futbol oyunları ilə, hər cür velosiped, at, avtomobil yarışları ilə bütün dünyada şöhrət qazanmışlardı. Halbuki general bu kimi oyunların, yarışların düşünülən faydanı verməndiklərini və insanlardakı səciyyələri meydana çıxarmadığını iddia edir və eynən şu sözləri söyləyir: "Futbol oyunları, hər növ yarışlar, onlara məşğul olanları yaxın zamanda ağılsız bir hala gətirəcək."

General mədəniyyətin zəiflətdiyi gəncliyi diriltmək, ona əsl qüvvətini və onun ruhunda qapalı qalmış səciyyələri meydana vermək üçün izçilik deyilən tərbiyə üsulunu tövsiyə edirdi. Baden-Pauel vasi [geniş] ingilis müstəmləkələrində çox gəzmişdi. Orada vəhşi heyvanlar ovçularını, böyük meşələrdə yaşayan yerliləri, işlənməmiş torpaqları ziraət ediləcək [əkilib-biçiləcək] bir hala gətirən və bütün həyatları daimi bir məşəqqət içində keçən insanların həyatını görmüş və onları tədqiq etmişdi. Həzrəti-Adəmdən bəri insan ayağı basmamış nəhayətsiz meşələrin arasında yaşayan qəbilələrin həyat davasında nasıl müvəffəq olduqlarını, təbiətin mərhəmətsiz qüvvətləri ilə nasıl mübarizə etdiklərini, əxlaqlarının çəkdikləri məşəqqətlə mütənasibən nasıl yük-

səldiyini misal göstərib ingilis gəncliyini də bu üsulda tərbiyə etmək lazım olduğuna inanırdı.

Vücudun istədiyi idmanı vasi ovalarda, çətin dağlarda gəzərək, əylənərək və heç bir qeydə bağlanmayaraq təlim etmək, şəhər uşaqlarının da xoşuna gedəcək bir şey idi. Onun üçün generalın fikri dərhal ətrafa yayıldı. Bir il içində ingilis uşaqlarından 100 min kişilik [nəfərlik] bir “izçi ordusu” vücud buldu. Beş-altı il sonra da bu ordu 500 min oldu. Bu hərəkət yalnız İngiltərədə qalmadı. Amerikada, Fransada, Germaniyada, İtaliyada, Yaponiya və hətta Çində belə izçilik təşkilatına böyük əhəmiyyət verildi. Hökumətlər bu üsulun milli müdafiə üçün olan əhəmiyyətini layiqi ilə anladıqlarından, təşkilata səmimi və ciddi surətdə qatışdılar və təşviq etdilər.

İzçiliyin Cahan davasında [Dünya müharibəsində] nə dərəcə faydalı olduğunu indi tamamən bilməyiriz. Bunu yaxında öyrənəcəyiz. Şu qədər deyəlim ki, ingilislərin bu davada təşkil etdikləri ingilis cavanlarından mürəkkəb [ibarət] orduları əsgərlik nöqtəsindən böyük bir təlim görməmişlərdi. Onlardakı izçilik tərbiyəsi üç-dörd ay içində ən mükəmməl bir əsgər olaraq yetişməyə kifayət etmişdi və bu ingilis cavanları Germaniya qoşunlarının müdhiş hücumlarına bütün Müttəfiq qoşunlarından artıq dayanmışlardı. Fransızlar, italyanlar ricət [geri çəkilmə] yolları kəsilincə təslim olub əsir düşdükləri halda, ən yekəsi 19-20 yaşından ibarət ingilis qoşunları son nəfərlərinə kimi mübarizə və mücadilə etmişlərdir. Təyyarə, zirehli avtomobil hücumlarında dəxi ən çox cəsarət göstərən yenə ingilislər olmuşdur. İştə bu cavanların digər millətlərdən ziyadə ölümdən qorxmazlıqları general Baden-Pauel sayəsindədir.

Cavan Azərbaycan Cümhuriyyətinin cavan övladları üçün də izçilik təşkilatından istifadə etmək vacibdir. Bir neçə məqalə ilə bu təşkilatın əsaslarından bəhs edərək müəllimləri, mürəbbiləri [tərbiyəçiləri] tənvir etmək [məlumatlandırmaq] istəyirəm. Yazda dəxi Gəncə türk uşaqları arasında izçilik təşkilatına xüsusi surətdə çalışacağam və əminəm ki, bu fikrimə yoldaş olacaq müəllim və mürəbbi arxadaş da bula biləcəyəm.

*Tofiq Nurəddin Ağayev*

## İSLAM MƏŞİXƏTİ

“Azərbaycan” cəridəsində [qəzetində] “Məşixət məsələsi” ünvanlı məqaləni oxudum. Məlum olduğu üzrə şəriəti-islamiyyə mühafizə və icrasına etina olunmaq zamanı təqərrüb etmişdir [gəlib çatmışdır]. Lihəzə [buna görə] mən dəxi bir nəfər müslüm [müsəlman] adı daşıyanlardan olduğum üçün, naqis də olsa təsəvvür ərz etməyə [fikrimi deməyə] haqlıyam zənn edirəm.

İslam məşixəti denildikdə əvvəla diyanətin ədəmi-diyanətə [dindarlığın dindar olmamağa], ya maddiyyat və təbiiyyatın ruhaniyyata [maddi və fiziki şeylərin mənəviyyata] müqayisə və tərcihi və diyanət tərəfinin iltizamı [tərəfinin tutulması] və saniyən [ikincisi] ədyan [dinlər] arasında islamiyyətin ən ali və muxtar [seçilmiş] və əsləh [ən yaxşı] bir din olmaq fəlsəfəsi xatirə gəlir. Fəqət şu fəlsəfələrin təfsil [izah] zamanı daha sonralarda gələsidir. Feilən islam məşixəti doğru və səhih bir əsasla təşkil olunarsa, ərz etdiyimiz mətalib [mətləblər, məsələlər] dəxi əhsən vəchlə [ən gözəl şəkildə] həll olunar. Yenə də müqəddimə [giriş] olaraq bir qaç [bir neçə] söz söyləməliyiz:

Demək olar ki, dühati-fəlasifə və “sayisin” [fəlsəfə və siyasət dahiləri] şu rəydə əqləbiyyəti [çoxluğu] təşkil edir ki, hər bir təsis olunmuş dövlətin əsası diyanətlə olsa, onda bir istiqrar [sabitlik], bir mətanət, bir davam ümidində olmaq olar. Lakin imansız bir dövlət sərab nümayişindən başqa bir şey olammaz. Bizim cavan və cavanbəxt [bəxti açıq] dövlətimiz Azərbaycanın dəxi ibtidayi-təşkili [təşkil olunmasının başlanğıcı] dini-mübini-islamın [yaxşını pisdən ayıran islam dininin] rayəti-hidayətü irşad [doğru yolu göstərən bayrağı] və zıllü pənahi-imdadı [xilas edən və kömək edən kölgəsi] ilə olarsa, onun davam və imtidadına [uzunluğuna] ricayi-vasiqdə bulunmaq [etimadlı bir şəkildə ümid etmək] olar. Azərbaycan dövləti-müəbbədəsində diyanəti-islamiyyə rayətini islam məşixəti vasitəsilə mürtəfe etmək gərəkdir. [Əbədi Azərbaycan dövlətində islam dininin bayrağını şeyxülislamlıq vasitəsi ilə ucaltmaq lazımdır.] Böylə isə islam məşixəti hər vəch və səbk [yol, üsul] ilə olsa, həm də etinaya və müstəhkəm [möhkəm] bir ehtiyata mənutdur [bağlıdır]. Mən sənələrdən bəri təşkilati-milliyyələrimizə diqqətlə baxıb düşünməkdəyəm – əhali və mütəfəkkirlərimizin rəyləri qaliba bu nöqtəyə mütəvəccihdir [yönəlmişdir] ki, hər vəchlə olur-olsun, bir cəmiyyət, bir təşkilatımız olsun, sonra islah edəriz, ya [islah] olunar! Məmafih [ancaq] qalibən [əksər hallarda] sonra fasid [pis] nəticələr verərək büsbütün təşkilat və cəmiyyat namından [adından] nifrət etməyə məcbur oluruz! İslam məşixəti dəxi sair cəmiyyətlər kimi sonralar islah olunar xülyası ilə etinasızcasına təşkil olunarsa, məazallah [Allah eləməsin], əsli-islamiyyətdən birəğbət olmağa qalibi-nas üçün haqq vermək imkanidir! [əhalinin əksəriyyətinin islamiyyətin əslindən üz çevirməsinə haqq vermək mümkün ola bilər!]

Şimdi əsl mətləbə rücu edəlim [qayıdalım]:

İslam məşixətindən bizim ümid etdiyimiz məsail [məsələlər]: əvvəla aləmi-islamı tərəqqi və təaliyə [ucalmağa] sövq edən və Qurani-şərifimizin icab və əmr buyurduğu ülum [elmlərə] və maarifə kamalınca tərvic [rəvac vermək] və təşviq və əhalini məhkum [məcbur] etmək; saniyən [ikincisi] əsrar və dəqayiqi-şər’iyyə [şəriətin sirləri və incəlikləri], siyasəti-ilahiyyə və üxuvvəti-islamiyyənə [ilahi siyasət və islam qardaşlığını] layiqincə müraat [riayət] edərək təlqin etmək; salisən [üçüncüsü] müraфəati-şər’iyyədə [şəriət hökmlərində] büsbütün tərəfi-ədaləti mülahizə buyurmaq [ədalətin tərəfini tutmaq]; rabiən [dördüncüsü] mehma-əmkən [mümkün mərtəbədə] ədilleyi-nəzəriyyə müqtəzasınca [nəzəri dəlillər əsasında] beynəlmüslimin vaqe olmuş fər’iyyati-müxtəlif-fihaya [müsəlmanlar arasında əmələ gələn ikinci dərəcəli ixtilaflarda] nöqteyi-tövhid və vifaq [birlik və uzlaşma nöqtəsi] arayıb bulmaq; xamisən [beşincisi] əhkami-zahirə təlqinindən [zahiri hökmləri təlqin etməkdən] daha ziyadə müsəlmanlara əxlaqi-həsənə [yaxşı əxlaq] və ittihadi-islam [islam birliyi] və qeyrəti-namus [namusu qorumaq]

və mücahideyi-fi-səbilallah [Allah yolunda cəhd etmək] müəllimləri yetirib təyin etmək.

Madam ki, məşixətdən bu dərəcə, bəlkə daha böyük məsuliyyətli təmənna və ümidlərdəyiz, məşixət nasıl təşkil olunması varesteyi-bəyandır [söyləməyə ehtiyac yoxdur]!

Əski üsul tərtibat və təyinata alışmış dünya tamahkarları, mənasibi-ruhaniyyəni də dükandarlıq nəzəri-şəamət-əsərilə vəsayət və əsbab vasitəsilə dərdəst etməyə çalışacaqlardır [mənəvi mənsəbləri də uğursuz dükançılıq nəzəri ilə qiymətləndirib, müxtəlif vasitələr və bəhanələrlə ələ keçirməyə çalışacaqlar]. Şübhə yox yaxşı-yamanı, doğru-yalanı, şər'i və şeytani əhliyyəti [şəriətə uyğun yaxud şeytana məxsus xasiyyətləri] zahir simada görüb seçmək səhih deyildirsə də, nasıl olursa yenə təzvir, məkr və xədyə [saxtakarlıq, yalan və fırıldaq] sahiblərindən qurtulmaq da qolay və səhl [asan] olmayacaqdır. Məazalik [bununla birgə], keçmiş idarati-şər'iyyə və amali-qüzzatı [şəriət idarələrini və qazilərin əməllərini] mizan edərək [tərəziyə vuraraq] hökuməti-cəliləmiz [uca hökumətimiz] ehtiyatkaranə hərəkətdə bulunarsa, bəzi şüruri-nəfslərdən [nəfslərin şərlərindən] təxlisi-giriban etməsək də [yaxamızı qurtarmasaq da], bütün-bütünə əşrar məl'əbəsi də [şərlərin oyuncağı da] olmarız! Zənnimcə hökuməti-cəliləmiz islam məşixəti təşkilində əcələ etməzsə daha münasibdir. Hər bir mütəfəkkir – islam mühibbi [islam dostu, islamı sevən] təriqeyi-ehtiyati [ehtiyat yolunu] düşündüyü kimi hökumət[in] nəzəri-alisinə [ali diqqətinə] ərz edər, hökumət ricalı [adamları] da düşüncələrdən birər düsturi-əməli-səhih [düzgün bir nizamnamə] cəm edib [yığıb, tərtib edib] onun tibqincə [onun nümunəsində] məşixət təşkilinə iqdam və sərfi-ehtimam edər [girişər və çalışar]! Böyləlikdə biqövli-füqəha [fiqh alimlərinin sözü ilə] tətili-əhkami-şər'iyyə [şəriət hökmlərinə ara vermək] lazım gəlməz; zira səhih tərtib hüsula gəlincəyə qədər sabiqi vəz'-lə [əvvəlki qanunları tətbiq etməklə] hər qazı öz vəzifəsini kəma-fissabiq [əvvəlki kimi] icra edər! Fəqət səhih düturüləməl təhsilində [düzgün nizamnamənin əmələ gəlməsində] mümkün olduqca təcil etməlidir [tələsmək lazımdır], müsamihə və müsahilə edərək [yumuşaqlıq və laqeydlik göstərərək] ilələbəd [əbədiyyətə qədər] əhaliyi-islamiyyəni [müsəlman xalqı] əşrar [şərlər, pisliklər] əlində və şəriəti-mütəhhərə əhkamını [pak şəriətin hökmlərini] füccar [əxlaqsızlar] idarəsində buraxmamalıdır. Azərbaycan hökuməti-cəliləsi bir islam müəssisəsi olmalıdır ki, davam və istimrar ilə [uzun ömür sürərək] yaşasın!

Düsturüləməl düşüncələrindən bir nümunə olaraq mən kəndi düşüncələrimdən bəzi cümlələr söyləyib, ətraflıca düşünüb ərz etməyi də üləmayi-ə'lam və ürəfayi-kiram [alimlərin qabaqcılları və ariflərin böyükləri] həzəratından [həzrətlərindən] təmənna edirəm. Mənim zənnimcə məşixət ya qəzavət ya məhkəmeyi-şər'iyyə [şeyxülislamlıq yaxud qazılıq yaxud şəriət məhkəməsi] təsisinə islam hökumətinin əşəddi-ehtiyacı [şiddətli ehtiyacı] olduğu bədihi [açıq-aşkar] bir məsələdir. Lakin bu əsaslar nasıl olsun ki, həm şəriəti-müqəddəsə, həm hökuməti cəlileyi-islamiyyəmizə müvafiq, camaat və əhaliyi-müslimini məmnun edə bilsin. Oxuduğumuz cəridə [qəzet] məqaləsinin intixab





[seçki] məsələsi həm də dörd üzvdən mürəkkəb [ibarət] bir idareyi-məşixət [şeyxülislamlıq idarəsi] təsisinə işar olunur [işarə vurulur]. Əvvəla mən intixab məsələsini pək səmimi təsdiq edənlərdənəm. Əlbəttə bir əmrdə [işdə] ki, üqul və ara ittifaq edə [ağıllar və rəylər birləşə], o əmr eyni-həqiqət [tam bir həqiqət] olmasa da, qəribi-bə-həqq [həqiqətə yaxın] olar. Həkəza [eləcə də] dörd nəfər ya beş nəfər əzayi-müntəxəbədən [seçilmiş üzvdən] təşkil olunmuş bir məşixəti-islamiyyə, kəzalik [həmçinin] bir qəzaxanə ya bir məhkəmeyi-şər'iyyə əhkam və füruati-diniyyəyə came olar [dinin hökmlərini və incəliklərini özündə cəm edər]. Fəqət əsl mətləb intixab məsələsinin nə surətlə icrasındadır!

Məlumdur ki, əvvəla Azərbaycan əhalisi maarifcə sadə, xüsusən məalimi-islamiyyədən [islam elmlərindən] əksəriyyət etibarilə ittilasız [xəbərsiz, məlumatsız] və savadsızdırlar. Məşixət və qəzaya [qazılığa] isə islam alimi gərəkdir. Saniyən [ikincisi], hər bir şəhər və qəryədə [kənddə] bir Cümə sureyi-şərifəsi oxuyub, əngəhtü zevcət demək bilən bir dükandar, əhali arasında nüfuz sahibi və ə'ləm-əl-müctəhidin [müctəhidlərin ən biliklisi] deyə məqbul [qəbul] olunmuşdur. Hansı yerin əhalisindən namizəd sorulduqda öz "molla rəhmanqulusunu" nəzərə verəsidir. Hər bir hilə və dəsisə [fırıldaq] ilə rus dövləti-mənhusəsinin [nəhs, alçaq rus dövlətinin] amalından istifadə edib ocaq və ziyarətgah olmuş savadsız və diyanətsizlər yenə də camaatımız tərəfindən intixab olunasıdırlar! Demək intixab haqqı verilmək ən güzidə [seçilmiş, üstün] bir hürriyyət və sieyi-ixtiyar [geniş ixtiyar] yolu olsa da, intixabçılarımız qərəzdən xali [uzaq] olmadıqlarından, doğru çıxmayır. Xüsusən alim intixabı. Əlbəttə cühəlanın alim intixabına haqqları yoxdur. Hələ müntəxəb əşxasın [seçilən şəxslərin] nə gunə fəzihətkar [nə qədər biyabırçı] olduqlarından və nasıl əhalini iğfal edərək [aldadaraq] özlərini intixab etdirdiklərindən [seçdirdiklərindən] və bilaxirə [daha sonra] nə kimi məfsədlərə [fəsadlara] bais olduqlarından bəhs olunsa, böyük bir divan və tarix yazmağa hacət görünər! Xülasə, bir kəlmə deyib durmaq ki, bizim intixaba haqqımız var, daha ümuri-idarələrimizi [idarələrimizin işlərini] islah edə biləriz, məncə yanlış bir qəziyyədir. Bəlkə intixab üsuluyla olduqdan maəda [başqa], bir daha müntəxəb şəxsin istedadını yoxlamaq və mizan etmək gərəkdir. Yoxlamaqsa hər halda və hər sahibi-hünərdə olarsa mümkün bir əmrdir [işdir]. Bir alimi, bir müctəhidi-fazili [fəzilət sahibi müctəhidi] mütəvəssit [orta səviyyəli] əhli-elm və fəzl sahiblərinin ictimasında [yığıncağında] bəhəqq [layiqli surətdə] mizan edib yoxlamaq mümkündür. Beşərt ki [bu şərtlə ki], heyəti-müməyyizə [seçən, qiymətləndirən heyət] bitərəf şəxslərdən tərəkküb etmiş [əmələ gəlmiş, ibarət] olsun!..

Məncə məşixət ya qəza ya məhkəmeyi-şər'iyyə əzası [üzvləri] hər bəldə və qəryədən intixab olunub namizəd göstərilən əşxasdan təşəkkül etməlidir; fəqət şu namizədlər Ədyan Nəzarətində [Din İşləri Nazirliyində] tərtib olunmuş səhih və məqbul məramnamə və proqramma mövcibincə [əsasında] və kənardan dəvət olunmuş iyirmidən əskik olmayan ərbabi-irfan hüzuruyla [irfan sahiblərinin iştirakı ilə] imtahan olunub, sonra vəzifə tapşırıl-

malıdır. İntixab isə, doğru üsul ilə olduqda şəxsi-müntəxəbin [seçilmiş şəxsin] əhali arasında etibar və əmniyyətini [güvənilirliyini] ifadə; və imtahan isə vaqedə [həqiqətdə, gerçəkdə] ləyaqət və istedadını məlum edər. Əgər müntəxəb imtahan verə bilərsə, əhali arasında qazandığı nüfuz və etibarın həqiqi olduğunu, verə bilməzsə dəsisə və hiləkar olduğunu meydana çıxarar.

Məlumdur ki, müstəqbəldə [gələcəkdə] ruhani məktəblərimiz sayəsində həqiqi alimlər və şəriət xadimlərimiz yetişəsidir, vəli [amma] feilən təzvir [yalan, fırıldaq] əhalisindən istixlas [qurtulmaq] üçün gərəkdir şiddətlə ehtiyatkar davranmaq.

İntixab üsulu isə demokrat intixab şəraitinə müvafiq olmaqla bir də intixab əmrinə mübaşir olan əşxasın [seçki işinə girişən şəxslərin] bitərəf və kənardan gəlmə olub, əhaliyə iman və diyanət naminə doğru və dürüst intixab etmələrini tövsiyə edərək bəlkə də yəmini-müəkkəd [möhkəm and] ilə hazırlanıb sonra intixab etməlidir. Bir az müddətdə mütəəddid [çox sayda] intixablardan əqləbi-əhli-bəsirətə [bəsirətlilərin çoxuna] ləyüəd [saysız-hesabsız] təcrübələr hasil olmuşdur. Məzlum və avam əhaliyi-məsuməni [günahsız camaatı] hər dəsisəkar [hiləkar] öz məramına alət etdiyi göz önündədir.

İdarələrin əzasına [üzvlərinə] gəldikdə: məlumdur ki, sədri-islamdan, yəni xüləfayi-raşidin həzrətlərindən bir neçə müddət sonradan şimdiyə kimi islam arasında məzahibi-xəmsə [beş məzhəb] denilən beş məsləki-şər’i [şəriət məsləki, cərəyanı] mövcuddur. Bizcə bunlar gec və tez əsasi-dinə ricətən [dinin əsasına qayıdaraq] məzhəbi-vahid [vahid məzhəb] olacağı günlər çox da uzun müddət çəkməz! Feilən beş məzhəbin üləmasından təşkil olunmalıdır. Fəqət məhəl [yer] və əhalinin şan və halını müraat etmək [gözləmək, ona riayət etmək] dəxi əlzəmdir [vacibdir]. Hər bir məhəldə ki əhali bir məzhəbin müqəllidləridir [arxasınca gedir], üç nəfərdən mütəşəkkil bir məhkəmeyi-şər’iyyə idarəsi orada təşkil olunmalıdır. Hər məhəldə ki iki, üç, beş məzahibin müqəllidləri vardırlar, orada hər məzhəbdən bir nəfər bəsirətli alim şəxs intixab və imtahan olunaraq idarəyə əza salınmalıdır.

Məşixət isə əlbəttə gərəkdir məzahibi-xəmsə üləmasından bir nəfər ittihad [birlik] və islam tərəfdarı alimin sədarəti ilə təşkil olunsun.

*Cəlal*

## MƏTBUAT

Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin türkcə (ruscası da olacaqdır) naşiri-əfkarı [mətbuat orqanı] olan “İstiqlal” qəzetəsinin birinci nömrəsi çıxmışdır. Baş məqaləsi tarixi-hürriyyətə [azadlıq tarixinə] bir nəzər salaraq, hər inqilabın bir hürriyyət, cahan inqilabından ibarət aləmşümul müharibənin də istiqlal və millətlərə hüquq şüarı doğurduğunu və Azərbaycanın da bu yola süluk etdiyini [bu yola addım atdığını] qeydlə, bu uğurda firqənin çəkdiyi müşkülatı böylə təsvir edir:

*“Ah, Azərbaycan, biz sənin haqqını tələb etmək deyil, yalnız adını söyləmək üçün nə qədər müarizlərə [etirazçılara, müqavimətçilərə] rast gəldik, nə töhmətlərə məruz qaldıq! Azərbaycan muxtariyyəti deyirdik, soldan-sağdan hər növ hücuma məruz qalırdıq. Biz «Azərbaycanın torpaqlarını qızdıran atəşi-müqəddəsi» köksləimizdə bəsləmək istəyirdik, bizə Moskvada yanacaq «məşəli» nişan verirlərdi. Biz aləmi-mədəniyyətə kəndi dilimizin, kəndi mədəniyyətimizin ruh və rəngi ilə pərvərdə [tərbiyə] edilmiş bir millət çıxarmaq istəyirdik, bizə Ərəbistanı göstərirlərdi. Biz muxtariyyət diləyirdik, bizə xarabazar vəd edirlərdi.”*

Fəqət bu gün Azərbaycan istiqlalı həqiqət olaraq meydana çıxmışdır. Əvvəlcə “Müsavat”a məxsus olan bir fikir bu gün millətin şərik olduğu bir məqsəddir.

Ona görə firqə qəzetəsincə:

*“Bu bizim mənəvi zəfərimiz, ruhani qələbəmizdir. Bu qələbəyə biz binnisbə [nisbətən] az bir zaman içərisində gəldik. Fəqət bu az zaman içərisində çox böhranlar keçirdik. Vaxt oldu firqə tamamilə yalnız qaldı. Vaxt çox çəkmədi firqəni yalnız buraxanlar nə qəbahət işlədiklərini anladılar.*

*Azərbaycan məfkurəsi, firqə türk demokratiyasının idraklı qisminə istinad edərək irəliləmişdi. Bu, düşmənlərimizin dediyi kimi xan, bəy və ağa fikri deyil, türk demokratiyasının böyük idealı idi!*

*Bakı Azərbaycan atəşgədəsinin ocağı olduğu kimi, Azərbaycan fikrinin də mənbəyi idi.*

*Lakin Azəri türklərinin istiqlalını bəzi millət düşmənləri çəkəmməyirdilər. O idi ki, bolşeviklərlə daşnaklar bu ocağı söndürmək, bu mənbəni qurutmaq istədilər.*

*Mart hadisəsi meydana gəldi. Fəqət Azərbaycan atəşi kimi fikri də söndürülənməz idi.*

*Çünki:*

*Xuni-ərbabi-həmiyyət qərq edər zalimləri,*

*Məşəli-əfkari-əhrarənə sönməz xun ilə.”*

“İstiqlal” qəzetəsinin nəşrindən məqsəd nədir? Bu suala yenə həman məqalə bərvəchi-ati [aşağıdakı kimi] cavab verir:

*“İştə bu xunlarla [qanlarla] söndürüləmməyən və bu gün hər kəsi kəndisini tanımağa vadar edən, yolunda dönməz bir əzmlə cihad etdiyimiz Azərbaycan istiqlalını müdafiə üçün “İstiqlal” nəşrə başlayır.”*

Bu uğurda qəzetənin xətti-hərəkəti necə olacaqdır? Yenə həman məqalədən cavab alalım:

*“«İstiqlal» firqənin əvvəlcə nəşr etmiş olduğu mətbuatın getdiyi yolu təqib edərək hökumətimizi xalqın ehtiyacını anlamağa, xalqımızı da hökumətin müşkülatını dərk etməyə çağırmaqla, istiqlalımızın beynəlmiləl bir təsdiqə nail olmasını hazırlayacaqdır.*

*Bu xüsusda tutacağımız yol isə bittəb’ [təbii olaraq] Türk Ədəmi-Mərkəziyyət «Müsavat» yoludur ki, lisani-Tofiqdə:*

*«Millət yoludur, haqq yoludur tutduğumuz yol,*

*Ey haq yaşa, ey sevgili millət yaşa var ol!»*

*deyə tərif edilmişdir.”*

Rəsulzadə Məhəmməd Əmin cənabları imzası ilə yazılmış bu baş məqalədən əlavə, Seyid Hüseyn [Sadiq] cənablarının “İsmailiyyə”si ilə Əli Yusif əfəndinin “Bu günün vəzifəsi”, şair [Abdulla] Şaiqin “Vətənin yanıq səsi” qəzetəyə başqa bir ruh verməkdədir. Bunlardan əlavə qəzetədə bir çox firqə həyat və bəyanatına aid materiallar vardır.

Yeni rəfiqimizi təbrik, məqsədinə nail və fəaliyyətində müvəffəq olmasını arzu ediriz. Əmin ol rəfiqimiz:

"Bir şəm' ki haqdan yana heç bad [külək, yel] ilə sönməz!"

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

* Bələdiyyə İdarəsi Bakı polismeysterinə İskələ [Liman] dairəsi müfəttişinin 31 yanvar 1919-cu sənədə göndərdiyi məktubunu göndərərək məlum etmişdir ki, Bələdiyyə İdarəsi hökumət indində [nəzdində] şəhəri polis məxaricatından azad etmək barəsində təşəbbüsatda bulunur. Binaənileyh [ona görə] İskələ dairəsi müfəttişinin vəsiqədə göstərdiyi məxaricatı verə bilməyəcəkdir.

* Bələdiyyə İdarəsi Bakı polismeysterinə məlum etmişdir ki, Dövlət Teatrosu icarədarı Amiraqo şəhər vergisini verməkdən imtina edir. Halbuki həman vergilər bu vaxtadək biletlərdən alınmışdır. Bələdiyyə İdarəsi qət etmişdir [qərara almışdır] ki, təcili surətdə vergilər alınsın və işbu iqdamatda [təşəbbüsdə, işdə] polis məmurunun Bələdiyyə İdarəsi nümayəndələrinə müavinətdə bulunmalarını rica və təmənna etmişdir.

* Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, keçən sənələr vergilərini əhalidən almağa izin verilsin. Keçən sənənin 3 fevralında Bələdiyyə İdarəsinə izin verilmişdi, işbu vergilər alınsın. Fəqət şəhərdəki əhval, məsələn Mart hadisatı və qeyrə işbu vergiləri almaqdan məhrum etmişdir. Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətindən rica etmişdir ki, işbu məsələ nəzəri-etibara alınmalıdır. Zira şəhər kassasının fəna əhvalı Bələdiyyə İdarəsini fəaliyyətdən məhrum edir. Bir də vergilər şimdiki hesab deyil, 1918-ci sənə hesabı ilə alınacaqdır.

**Bakı əhalisinə**

Vətəndaşlar!

Səpmə yatalaq naxoşluğundan kəndinizi mühafizə etmənin ümdə şəraiti [şərtləri] libasınızın, paltarınızın və bədəninizin təmizliyidir. Mərkəzi Ev Komitəsi əhalinin bu barədə ehtiyacını nəzərə alıb şəhərin çox nöqtələrində füqəra sinfi [kasıblar] üçün **pulsuz hamamlar** açdırır. Hamamda yuyunanların paltarları hamamda dezinfeksiya təriqi [yolu] ilə təmizlənib, onlarda olan bit və qeyri həşəratlar yandırılacaqdır. Hal-hazırda Maqazinni və Nijni Priyut küçələrinin küncündə, Mironovun 213 nömrəli hamamı fəaliyyətə başlamışdır. (Hamam erkəklər üçün səşənbə [çərşənbə axşamı], pəncşənbə [cümə axşamı] və şənbə günləri və qadınlar üçün düşənbə [bazar ertəsi], çaharşənbə [çərşənbə] və cümə günləri açıq olacaqdır.) Bundan əlavə, bu yavuqda Bayılda dəxi hamam açılmağına iqdam olunmuşdur [addım atılmışdır]. Yeni hamamlar açıldığı zaman əhaliyə elam ediləcəkdir [bildiriləcəkdir].

Mərkəzi Ev Komitəsinin Səhiyyə şöbəsi əhalini bu hamamlardan istifadə verməklə kəndilərini və yavuq adamlarını həmin müsri [yoluxucu] naxoşluqdan nicat tapmağa dəvət edir.

**Kəsbkarlar İttifaqı nümayəndələri general Tomson hüzurunda**

Srağagün Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] nümayəndələri İngiltərə qoşunları komandanı general Tomson tərəfindən hüzura qəbul edilərək bir neçə məsələ barəsində müzakiratda bulunulmuşdur. Nümayəndələr general cənabları indində [nəzdində] işbu məsələlər üçün təşəbbüsatda bulunmuşlar:

1) Həbs edilən Babayev qardaşlarının azad edilməsi barəsində lazımi tədabirin ittixazı [tədbirlərin görülməsi] məsələsinə general demişdir ki, onların işlərinə ən yaxın zamanda baxılacaqdır.

2) Nümayəndələr generala məlum etmişlər ki, Bakı müharibəsi zamanında general Denstervill (sabiq İngiltərə qoşunları komandanı) Şuraya məxsus 5 milyon manat pulu götürmüşdü. Kəsbkarlar İttifaqı rica edirlər ki, həman məbləğ nəşri-maarif [maarifi yaymaq] və başqa yerlərə xərc edilmək üçün ittifaqa qaytarılsın. General cənabları demişdir ki, bu barədə o heç şey bilməyir, fəqət məsələni ən yaxın zamanda təhqiq etməyi dəröhdə etmişdir [öhdəsinə götürmüşdür].

3) Nümayəndələr ərzaq məsələsinin günü-gündən fəna halını bəyanla rica etmişlər ki, ehtikarın [möhtəkirliyin] önü alınsın. General iqdamatda bulunmağı vəd etmişdir.

4) Tazəşəhərdə cinayət namı ilə bir çox siyasi həbslər edilməkdədir. Fəhlə təşkilatlarına mənsub yoldaşlar tövqif [həbs] edilmişlərdir. General bəyan etmişdir ki, teleqrafən məlumat alacaqdır.

5) Bir də nümayəndələr rica etmişlər ki, yerli mətbuatda məlum olduğu üzrə Bakının özündə bu hal hökmfərma olmaqdadır [hökm sürməkdədir]. General demişdir ki, bu barədə lazımi binagüzarlıqda bulunacaqdır [sərəncam verəcəkdir].

## BEZ FƏQƏRƏSİ
## [BEZ MƏSƏLƏSİ]

Ay yarım bundan əqdəm [qabaq] bir çox kənd və şəhərləri böyük və fəna bir xəstəlik əhatə etmişdi. O cümlədən bu mənhus mərəz Balaxanı kəndinə dəxi sirayət edib [yoluxub] bir çox xanimanları viran və bir çox qapıları da bağlı qoydurdu. Bu, hər kəscə məlum, təkrara heç bir lüzumu yox. Lakin söyləməkdən mənim məqsədim bir nəfər Balaxanı "vicdanlılarından" – ki hələ söyləmək istəməyirəm – kəndi vətəndaşları haqqında ibraz buyurduğu "fədakarlıqdan" bir qədər bəhs edib bu alicənabın nə dürlü "vicdanlı mütəəssib" [təəssübkeş] olduğuna qareini [oxucuları] aşina etmək istəyirəm. Bu cənab Balaxanı kəndxudası Məşhədi Əli Xasdan bir vəsiqə alaraq Tağıyevin fabrikasına müraciət eylər və iki min arşın ağ, xalq meyitlərini kəfənə tutub dəfn etməklik üçün alar. Sonra yenə dörd min arşın bez Balaxanı camaatı tərəfindən verilən priqavor [qərar] gücü ilə alar ki, bu da xalqın tuman-köynəksiz qalmamasına xidmət etsin. Məqsəd əlbəttə gözəldir! Ancaq şu nöqtədən ötəyə keçdikdə, cənabın yapdığı rəzalət şayani-nifrətdir [nifrətə layiqdir]. Çünki cənab füqəra meyiti adı ilə alan ağdan və xalqın ehtiyacına lüzumu olan bezdən bir arşın da olsun verməmişdir. Qabaqlarda eşidirdik ki, bu əfəndi aldığı ağ və bezlərin pulunu füqəranın ehtiyacına sərf edəcəkdir. Bu da ki, heç görülmədi. Fabrikadan aldığı ağ, bez və qaryola [yataq] üzlərini satıb, pullarını öz ciblərinə qoymaq istədikdə, üç-dörd nəfərin bundan xəbərləri olur. Cənab bunların hərəsinə 5-10 min manat verərək, onları bu tövrlə susdurmuş-

dur. Bu susdurmaq ancaq dörd nəfərə səmərə bəxş etdisə də, lakin füqəranı və camaatı susdurmadı. Camaat bundan bez, ağ və qaryola üzlərini istədikdə, uzun və kəşidə [iri, şapalaqlı] əllərini açaraq "çe besaxom", yəni nə yapayım; kimsə bu qəbahəti düşünməz və dörd-beş nəfər arasında təqsim etdiyimiz [böldüyümüz] para yenə neft işləri açılanadək yetərdi zənn edirəm; şimdi nə yoldaşlarımı söyləyə bilirəm, nə də ki məndə aldığım camaatın parası qalmışdır, deyə cavab verir. Şimdi mən üzümü dostanə bu cənaba tutub deyirəm ki, əfəndim, nə üçün füqəra sədəqəsi ilə varlanmaq istəyirdin? Səni kim bu işə vadar etdi? Səni qeyrilər bu işə vadar etdikdə, əcəba heç vicdanına müraciət etmədinmi? Əcəba bu dürlü işlər, bu gunə [bu cür] qəbahət və rəzalətlər nə üçün şimdiki zamanda meydana çıxır?

Bu gün hər bir şəxs hökumətinə sadiq qalmaq, onun rütbəsini ucaltmaq arzusunda olduğu üçün bu kimi cinayətlərin önünü almağa qalxışır. Məəttəəssüf [təəssüf ki], bir para vicdansızlar bu kimi mənhus hərəkətlərlə hökumətin rütbəsini azaltmaq və onu cahaniyyan [dünya xalqları] nəzərində mühəqqər [xar] və zəif göstərməyə çalışırlar. Haşa, əfəndim, zənn etdiyin kimi deyildir. Bu gunə xəyanətlərə və xainlərə cəza verməkdə hökumətimiz pək iqtidarlı və pək güclüdür. Dəxi sözümə tul verməyib [sözümü uzatmayıb], bu kimi xəyanətlərə və bunlar kimi xainlərin yapdıqlarına möhtərəm Azərbaycan Hökumətimizin nəzərini cəlb edib və bu kimi xəyanətliklərin önünü almağı rica və istirham ediriz.

*Ayn.*

## AZƏRBAYCANDA

**Bərdədən (Cavanşir qəzası)**

Bir az əqdəm [qabaq] ağır ispanyol xəstəliyini keçirtmiş camaat şimdi də səpmə yatalaq xəstəliyinə mübtəla olur. Sabiq dövlət tərəfindən açılmış xəstəxanamız və məccani [pulsuz] əczaxanamız varsa da, keçirdiyimiz hərc-mərc nəticəsi olaraq bunlardan bir əsər belə qalmamışdır. Xəstəsini təbibə götürən camaat dərman almaq üçün xüsusi əczaçıya (aptekçiyə) müraciət edir. Bu isə 50 rubləyə tamam olacaq bir reçetəyə 250 rublə və daha fəzlə alaraq camaatı sıxındırır. Bunun üçün bir çarə edilməsini artıq dərəcədə rica edərdik. Zira bir tərəfdən xəstəlik, digər tərəfdən də böylə bimürvət əczaçı əlindən artıq sıxıntı çəkiriz.

* Nuxu (Şəki) - Zaqatala şose yolları haqqında Parlaman iclasına idxal edilmiş sorğunu qəzetələrdən oxuduq. Bilməm nədənsə Yevlax-Şuşa şosesi haqqında bir söz belə söylənməmişdir. Burası denilməyəcək bir surətdə dağılıb bərbad olmuşdur. Bu yollardan übürat [keçmək] qayət də müşküldür, xüsusən yağmurlu havada. Şose üzərində öylə yerlər var ki, müsafirlər piyada getmək məcburiyyətində qalırlar. Bu səbəbdəndir ki, nəqliyyat işləri çətinləşib, kirayə [yük və sərnişin daşıması] qiymətləri çox yüksəlmişdir.

* Poçta-teleqraf işlərinin çox fəna olduğundan mərkəzdən bixəbər qalırız. Hökumət tərəfindən poçtanı həml [daşımaq] və nəql etmək üçün müahidə [müqavilə] bağlanmışsa da, həman zat poçtanı daşımağa heç də etina etməyir. Öylə olur ki, aylarla poçta alınmayır. Məsələn, Parlaman dəvət edilməzdən əvvəl Şurayi-Milli tərəfindən Azərbaycan əhalisinə xitabən nəşr edilmiş müraciətnamələr burada, fəqət iki gündür ki, alınıb elan edilmişdir.

Teleqraf işləri də böylə, məsələn: sabiqdə Bakıdan iki gün fasiləsi ilə adi məktublar alınırdı. Şimdi isə teleqramı üç gün müddətində almaq belə olmayır. Bunun səbəbi (məhəlli poçta-teleqraf idarəsi müdirindən aldığım məlumata nəzərən) bütün vilayətin bircə xətlə işləməsidir. Halbuki Yevlax istasyonu yavuqluğunda azacıq bir məsafənin təmir edilməməsindən dolayı iki xətti-müntəzəm asudə qalmışdır. Bundan maəda [başqa] teleqraf ağaclarının tamamı çürüyüb davamsız olduqlarından xətt də tez-tez təxrib [xarab] olur.

*Mirməcid*

## ERMƏNİSTANDA

**Ermənistanda aclıq**

Ermənistan acından ölür. Hər gün minlərcə erməni acından həlak olur. Ermənistanı adamsızlıq təhdid edir. Aclığa giriftar olmuş Ermənistanın halını islaha çalışmaq qəsdi ilə başda Ermənistan Baş naziri olmaq üzrə Parisə xüsusi bir [heyəti-]mürəxxəsə [nümayəndə heyəti] göndərilir.

**Aramın vəfatı**

Ermənistan Daxiliyyə naziri Aram Manukyan İrəvanda yatalaqdan vəfat eyləmişdir. Yenə yatalaqdan Aleksandropolun sabiq şəhər rəisi Kamsarakan vəfat eyləmişdir.

**Qarsda**

Bugünlərdə Fransa nümayəndəsi kapitan Pua-de-Bar İrəvandan Qarsa hərəkət eyləmişdir. Müşarünileyh [adı çəkilən şəxs] orada Müsəlman Milli Şurası ilə Qarsın ermənilərə təslim edilməsi barəsində və ümumən müsəlmanları sakit etmək üçün danışığa girişəcəkmiş. Ermənilər tərəfindən Qarsa göndərilmiş olan məmurları müsəlmanlar Qarsa buraxmadıqlarından, geri qayıtmışlardır. Məhəlli [yerli] müsəlmanların ermənilərə olan ələqələri təhdidamizdir. Türklər məhəlli müsəlmanları son dərəcə gözəl təslih etdirmişlərdir [silahlandırmışlar] və onlarda kifayət edəcək qədər silah vardır. Şəhərin müxtəlif hissələrində olan ingilis əsakiri [əsgərləri] müxtəlif iskladları [anbarları] mühafizə edirlər.

**İrəvanda tif**

İrəvanda dəhşətli surətdə yatalaq xəstəliyi (tif) hökmfərma olduğundan [hökm sürdüyündən] bütün məktəblər qapadılmışdır.

## TEATRO VƏ MUSİQİ

**Allah rəhmət eyləsin**

Bir çox gənc həyatları vaxtsız torpaqlara gömən tif xəstəliyi aqibət istəkli yoldaşımız, cavan artistimiz Surxay Allahverdiyevi də apardı. Surxayın müəssir [təsirli] və cazibədar səsinə alışmış qulağımız artıq onun səsini eşitməz oldu. Gənc Cümhuriyyətimizin gənc səhnəsi gələcəyə böyük ümidlər verən musiqi is-

tedadını yavaş-yavaş ibraz etməkdə [göstərməkdə] olan xidmətçisini qeyb etdi. Surxay, əslən İran təbəəsi ailədən isə də, Qarabağda təvəllüd tapıb [anadan olub] təlim almış və hələ pək gənc ikən istedadını göstərməyə başlamışdı. Böylə ki, möhtərəm Hacıbəyli Qardaşları Müdiriyyəti onun gizlin istedadını anlamış və ona tərəqqi vermək üçün kəndi heyətlərinə qəbul etmişlərdi. Gözəl səsi, musiqi istedadı olduğu kimi, qayət həssas vətənpərəst bir qəlbə malik idi. Milli səhnəmizə böyük xidmətlər vəd edirdi, fəqət heyhat! Bir neçə nəfər qarabağlı arxadaşlarımla bərabər mərhuma rəhmət oxur, səhnə arxadaşlarına Cənabi-haqqdan təsəlli və tofiq [kömək] niyaz eylərəm.

*Əli Yusif*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Təcrübəli buxqalter**

Üç ayın müddətində ən yeni italyan sistemasında türk və rus dillərində mükəmməl surətdə buxqalteriya öyrədirəm. Hakəza firmalarda buxqalteriya işlərini tənzim etməyi qəbul edirəm. Ünvan: Krasnovodski caddə "Dvortsovı" mehmanxanasında nömrə 19.

*2674*

**Yer axtarıram**

Nazirə ya müdirəlik yeri axtarıram. Xarici dillərə malikəm. Ünvan: Suraxanski və Tatarski 176 nömrəli evdə Rəcəbovun mənzili.

*2675*

**İslamiyyə mehmanxanası (lokantası)**

Bir çox sənələrdən bəri davam edən və Mart hadiseyi-əliməsində [kədərli Mart hadisələrində] yanan "İslamiyyə" mehmanxanası yenidən təmir edilib bu gündən etibarən mehmanxanada gözəl lokanta [yeməkxana] açılmışdır. Mahir aşbazların təhti-idarəsində [idarəsi altında] hər növ Avropa və Asiya xörəkləri hazır edilir. Nahar və şam vaxtı Avropa və Asiya musiqi dəstəsi çalacaqdır. On beş ədəd nömrə hazırdır. Adres: Bazarnı və Qubernski küçələrin küncündə, telefon nömrə 12-51.

Kamali-ehtiramla: İsmayıl Mahmudzadə.

*2670*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Bakı Bələdiyyə İdarəsi**

Bununla ümum faytonçulara elam edir [bildirir] ki, 1919 sənəsinin birinci yarısı üçün fayton nömrələri bu fevral ayının 8, 9, 10, 11 və 12-sində səhər saat 9-dan 2-yədək Bələdiyyə İdarəsi Ləvazim şöbəsi dəftərxanasında verilir. Göstərilən müddətdə hər kəs nömrə almasa, nömrə pulunun yarısı qədər də cərimə alınacaqdır.

*T/27*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və inna ileyhi raciun**

səh. 61. "Spasski": Bakıda, indiki Zərgərpalan küçəsi.

**Teleqraf xəbərləri**

səh. 64. "Deyli xronikl" [Daily Cronicle]: 1872-1930-cu illərdə nəşr edilən ingilis qəzeti.

"Deyli meyl" [Daili Mail]: Londonda 1896-cı ildən etibarən nəşr edilən gündəlik qəzet.

"Avstraliyalılar qorxurlar ki...": qəzetdə səhvən belə getmişdir: "Avstryalılar qorxurlar ki, Avstraliya əhalisi..."

"...onların qeyri-məmnun olduğu hiss edilir.": qəzetdə "olduğu" yerinə səhvən "olmadığı" getmişdir.

"Folkston Kent": İngiltərənin cənub-şərqində yerləşən Kent qraflığında liman şəhəri olan Folkston nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 66. "...Hindistanın müstəqil olması tələbi də Şura əmirnaməsinə daxil edilsin.": qəzetdə "Şura" yerinə "şu" getmişdir.

**Felyeton**

səh. 67. "...bu ilk ibtidasında...": güman ki, "bu işin ibtidasında" olmalıdır.

**İslam məşixəti**

səh. 71. "Cümə sureyi-şərifəsi": Quranın "Cümə" surəsi, 11 ayədən ibarətdir.

"əngəhtü zevcət" (ərəbcə)

səh. 72. "Xüləfayi-raşidin": Məhəmməd peyğəmbərdən sonrakı ilk dörd xəlifə (Əbubəkr, Ömər, Osman, Əli) nəzərdə tutulur. Onların hakimiyyəti 632-661-ci illəri əhatə edir.

**Mətbuat**

səh. 72. "İstiqlal": Azərbaycan Cümhuriyyəti dövründə Bakıda nəşr olunmuş qəzet. "Müsavat" partiyasının orqanı idi.

səh. 73. "«İstiqlal» qəzetəsinin nəşrindən məqsəd nədir?": qəzetdə "İstiqlal" yerinə "İstiqbal" getmişdir.

"İştə bu xunlarla söndürüləmməyən...": qəzetdə "xunlarla" yerinə "qanunlarla" getmişdir.

"...lisani-Tofiqdə...": Türk şairi Tofiq Fikrət nəzərdə tutulur.

**Bakı xəbərləri**

səh. 74. "Maqazinni": Bakıda, indiki Süleyman Rüstəm küçəsi.

"Nijni Priyut": Bakıda, indiki Süleyman Rəhimov küçəsi.

səh. 75. "Tazəşəhər": Krasnovodsk, indiki Türkmənbaşı şəhəri.

**Bez fəqərəsi**

səh. 76. "çe besaxom" (tatca): nə edim?

**Təcrübəli buxqalter**

səh. 78. "Krasnovodski caddə": Bakıda, indiki Səməd Vurğun küçəsi.

**Yer axtarıram**

səh. 78. "Suraxanski": Bakıda, indiki Dilarə Əliyeva küçəsi.

"Tatarski": Bakıda, indiki Əlimərdan bəy Topçubaşov küçəsi.





**Cümə axşamı, 6 fevral 1919-cu il, nömrə 107**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 5 cəmadiyələvvəl sənə 1337. 6 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**ELAN**

Azərbaycan Məclisi-Məbusanının 5-ində olan iclasının bəqiyyəsi [davamı] bu gün şubatın 6-sında saat 12 tamamda olacağı elan edilir.

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**10-uncu iclas**

Səşənbə günü [çərşənbə axşamı] şubatın [fevralın] 4-ündə Azərbaycan Məclisi-Məbusanının 10-uncu iclası təyin edilmişdi. Saat bir tamamda doktor Ağayev iclası açaraq ruznameyi-müzakiratı [müzakirə gündəliyini] bu qərarla təzkar edir [yada salır]:

1. Daxil olan kağızlar
2. Məsai [Əmək] nazirinə sorğu
3. Xariciyyə nazirinə sorğu
4. Torpaq və sorğu komisyonları intixabı [seçkisi]
5. Dəmiryol qulluqçularının halını yaxşılaşdırmaq üçün qanun layihəsi
6. Ticarət nazirinə bez, neft və buğda barəsində sorğu.

Ruznameyi-müzakirat qəbul olunur.

**Dağıstan Parlamanının cavabı**

**Sədr** - Azərbaycan Məclisi-Məbusanı tərəfindən Dağıstan Parlamanına göndərmiş olduğumuz teleqrafa böylə bir cavabi teleqraf alınmışdır:

"Qafqaziya Cibaliyyun İttihadı" [Dağlılar İttifaqı] Cümhuriyyətinin Müttəhid [Birləşmiş] Şurası, qardaşımız azərbaycanlılar Parlamanının təbrikini gurultulu alqışla qarşılayaraq, mənə tapşırmışdır dağıstanlıların tarixi bir günü, yaxın zamanda xülya kimi görülüb də şimdi arzularının həqiqət olaraq meydana gəlməsinə nail olmaları münasibətilə təbrikinizə qarşı dərin və ən-səmimül-qəlb [səmimi qəlbdən] təşəkkür edəyim. Dağıstanlılar inanırlar ki, ruh, din, mədəniyyət və tarixi-sabiqələri [keçmiş tarixləri] mərbut [əlaqədar] olan bu iki millət ən yaxın bir zamanda, ən gözəl və xeyirxahanə əsaslar üzərinə birləşər və ümumi qüvvə ilə kəndi həyatlarını inqilab fütuhatı [nailiyyətləri] olan hürriyyət və Azərbaycan və Dağıstanlılar cəmiyyəti istiqlallarının möhkəmləşməsi yoluna sövq edərlər. Allah bu işdə bizə kömək eyləsin.

*Qafqaziya Cibaliyyun İttihadı*
*Şurası sədri*
*Teymurxanov*

**Xırda kağızlar**

Sonra sədr deyir: Ukrayna Radası tərəfindən Vasili Mixayloviç [Kujim] məbus seçilmişdir. Etiraz yoxsa, Etibarnamə komisyonuna verək.

Bundan əlavə, seminariya müdiri Firidun bəy Köçərli və Ədliyyə naziri müavini Teymur bəy Makinski öz xidmətlərində baqi [dəyişməz] qalaraq məbusluqdan istefa verirlər. Rus-Slav Cəmiyyəti məbusu polkovnik Olleqren, Abdulla Qəbulzadə, Bəhram bəy Vəzirov, Bayram Niyazi Kiçikxanov, Əli bəy Zizikski, Hacı Hüseyn Əfəndizadə və Rəşid bəy Axundzadə hökumət qulluğundan istefa verərək, məbusluğu qəbul edirlər. Bir neçələri də var ki, hələ xəbər verməmişlərdir. O cümlədən Gəncə qubernatoru İbrahim ağa Vəkilov, Bakı qubernatoru Müseyib Axıcanov, doktor Cəmil bəy Ləmbəranski, Əliağa Həsənov, Sadıq bəy Ağabəyov, Məmməd Yusif Cəfərov, Həmid bəy Şahtaxtinski. Bunlar ədəmi-ictima [eyni anda bir neçə vəzifə daşımamaq] qanununa görə Parlamandan xaric ədd [hesab] olunurlar.

Əhməd Cövdət bəy və Camo bəy Hacınski təklif edirlər ki, Məmməd Yusif Cəfərov ilə İbrahim ağa Vəkilovun möhlətləri qurtarmamış olduğundan onlar xaric hesab edilməsinlər, yerdə qalanları xaric olsunlar.

Təklif qəbula keçir.

**Sədr** - Bundan maəda [başqa] Ağazeynal Tağıyev bir ay və Qara bəy Əliverdiyev üç həftə məzuniyyət istəyirlər.

**Əhməd Cövdət** - Əgər bunların getməsi Parlamanın fəaliyyətinə xələl verməyəcəyinə sədr cənabları söz versələr, ərizələri qəbul olunar. İsbati-vücud [iştirak] etməyənlər Parlamana qayıdanadək məzuniyyət verilməsin.

**Şəfi bəy** - Qabaqca məzuniyyət alanlar hələ qayıtmamışlardır. Fraksiyamızın zənnincə onlar qayıdanadək heç kəsə məzuniyyət verilməməlidir. Bir də bəzi məbusların etibarnaməsi düz olmadığından islahı üçün üç həftə möhlət verilmişdi. Şimdi möhlət bitmək üzrədir, amma etibarnamələr islah edilməmişlərdir. Binaənileyh [ona görə], bu dəxi nəzərə alınarsa, qorxuram məzuniyyət qəbul edilsə kvorum olmasın. Ona görə təklif edirəm məzuniyyət verilməsin.

Səsə qoyulduqda ərizələr qəbul edilmir.

**Sorğular**

Katib, Tağıyev fabrikasından qovulmuş müsəlman fəhlələri haqqında Sosialistlər fraksiyonu tərəfindən Məsai nazirinə xitabən verilmiş sorğunu oxuyur.

**Əhməd Cövdət** - Bu sorğu keçən iclasda oxunmuşdu, müdafiə də edilmişdi. Şimdi isə sorğu gücdən düşmüşdür, çünki qovulan əmələlər [işçilər] geri qəbul edilmişlərdir.

Bundan sonra Azərbaycan ilə Ermənistan arasında siyasi əlaqə peydası və siyasi nümayəndə təyini haqqında yenə sosialistlər tərəfindən Xariciyyə nazirinə xitabən verilmiş sorğu elam [elan] edilir.

**Əhməd Cövdət** - Bu sorğu da gücdən düşmüşdür, çünki artıq Ermənistana siyasi nümayəndə təyin edilmişdir.

**Adil xan Ziyadxanov** (Xariciyyə naziri müavini) - Türkcə yaxşı danışa bilmədiyindən üzr istəyərək deyir ki:

Xariciyyə Nəzarəti həmişə Ermənistan ilə siyasi münasibət peyda etmək fikrində olmuşdur. Müsəlmanlarla ermənilər miyanındakı [arasındakı] bunca nalayiq işlər və keşməkeşlər bizi vadar edirdi hamıdan əvvəl Ermənistanla münasibati-siyasiyyə [siyasi əlaqələr] peydasına çalışaq. Hökumət bu əmrə [işə] böyük əhəmiyyət verir, çünki burada Ermənistanın və Ermənistanda Azərbaycanın siyasi nümayəndəsi olsa, böylə fənalıqlar rəf' edilər [aradan qaldırılar]. Bir də Ermənistanla bizim aramızda ixtilaflı ərazi məsələsi var. Əlaqə peydası ərazi məsələsinin də hüsn-həllinə bais olar. Buna görədir ki, əlaqeyi-siyasiyyə məsələsində hökumət bir an qafil olmamışdır. Fəqət, bəzi məsələlər var ki, sizə məlum deyildir. Bu barədə mən sizə məlumat vermək istəyirəm.

1918 sənəsi oktyabrın 9-da 84 nömrəli teleqrafla Xariciyyə Nəzarəti Gürcüstan Hökuməti nəzdindəki siyasi nümayəndəmiz Cəfərova təklif etmişdi ki, Ermənistan Hökuməti nəzdində siyasi nümayəndəlik vəzifəsini qəbul etmək haqqında Məhəmmədrza ağa Vəkilov cənabları ilə müzakiratda bulunsun. İkinci dəfə oktyabrın 22-də Cəfərova teleqraf çəkilmişdir ki, bu xüsusda Vəkilovla təkrar müzakirata girişsin. Cəfərov cavab vermişdir ki, Məhəmmədrza ağa Tiflisdə olmadığından, razılığını ala bilməmişdir. Noyabrın 5-də 243 nömrəli məktubla yenə Cəfərova təklif edilmişdi Ermənistan Hökumətinə müraciətlə Məhəmməd xan Təkinskinin Azərbaycan siyasi nümayəndəliyinə erməni hökumətinin razı olub-olmadığını sual etsin. Yanvarın 29-da 178 nömrəli məktubla cavab aldıq ki, Təkinski cənablarının təyin edilməsinə erməni hökumətinin tərəfindən heç bir mümaniət [maneə] görülmür. Həman gün Hökumət, Məhəmməd xanı təyin etmiş, lazım olan vəsiqələri hazırlamış və orada dəstgahını qurmaq üçün 30 min manat pul təxsis etmişdir [ayırmışdır]. Münasibat peydasının təxirə düşməsinin bir səbəbi də bu olubdur ki, Ermənistan Hökuməti Azərbaycan nümayəndəliyinə bəzi namizədlər göstərmiş, amma biz qəbul etməmişik.

**Qarabəyli Qara bəy** - Xariciyyə Nəzarətinin bəyanatından qənaət hasil olmur. Hamıya məlumdur ki, hökumətlə bizim aramızda bir çox müşkül məsələlər var, iki teleqrafla həll edilməzlər. Ona görə böylə böyük məsələdə iki teleqrafa qənaət edib oturmaq olmaz, böyük məsələlərdə böylə təşəbbüslər azdır. Aramızda olan fəna halların önü bununla alınmaz. Ermənistanla siyasi münasibatı çoxdan təmin etməli idi. Fəqət şimdiyədək edilməmişdir. Nazir əfəndinin bəyanatından da burası aşkara görülür. Mən Nəzarətin bu bəyanatını kafi ədd [hesab] etmirəm.

**Fətəli xan Xoyski** - Hər sozü höccələsən bimənə olar. Hərçəndi biz türkcə yaxşı bilmirik, amma burada türkcə denildi ki, biz Ermənistana nümayəndə təyin etmək istəmişik, amma o hökumət cavab verməmişdir. Təkrar noyabr ayında müraciət edilmiş, yenə cavab çıxmamışdır. Bir də, həzərat, bunu bilməlisiniz ki, əcnəbi məmləkətlərə nümayəndə təyin etmək məmləkət daxilində bir məmur təyini deyil ki, bir adam göndərəsən qurtara gedə. Hökumətlər arasında qayda belədir ki, bir məmləkətə siyasi nümayəndə təyin etmək istədikdə həman məmləkətin hökuməti o şəxsə razı olma-

sı lazımdır. Ona görədir ki, bir zatı [şəxsi] Ermənistana siyasi nümayəndə təyin qıldıqda erməni hökumətinin rizasını hasil etməli idi. Dəfəatla [dəfələrlə] müraciət etdik. Daha gedib onların başının üstündə bir adam da qoya bilməzdik ki, tez olun, bizə cavab verin. Əlavə, bir sözün üstündə durub yüz dəfə təkrar edilə bilməz. Bu hökumətə layiq bir iş deyildir.

Bu barədə hökumət heç bir nöqsan buraxmamışdır. Böylə də olmaz ki, biz müqəssirlər kimi əyləşək, siz də mümkün olan-olmayan hər məsələ barəsində bizə niyə böylə oldu, nə üçün öylə olmadı, deyə bizi töhmətləndirəsiniz. Hər işdə qüsur mümkündür; amma bu barədə hökumət əsla nöqsan qoymamışdır. Yenə təkrar edirəm, lazımi təşəbbüslər olunmuş, nəhayət yanvarın 29-da müsbət cavab alınaraq hər dürlü tədbirlər görülmüşdür. Bu barədə iki söz ola bilməz.

**Dəmiryol qulluqçuları haqqında**

Dəmiryol xidmətçi və əmələlərinin [işçilərinin] maaşlarının artırılması haqqında Hökumət tərəfindən idxal və Parlaman komisyonları tərəfindən islah edilmiş layihə oxunur. Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri Xudadad bəy Məlikaslanov layihəni müdafiə edərək yollar haqqında şu surətlə bəyanat verir:

**Məlikaslanov Xudadad bəy** (Türüq və Məabir naziri) - Möhtərəm məbuslar! Siz eşitdiniz o qanun layihəsini ki, Hökumət Parlamana idxal və Parlaman komissiyaları islah etmişlərdir. Hökumət tərəfindən mən bəyan edirəm ki, qanunu komissiyanın dəyişdirdiyi kimi qəbula razıyız. Hökumət böylə baxırdı ki, o fəhlələrin istədikləri çox deyildir. Hökumət bahalığı nəzərə alaraq fəhlələrin maaşının artırılmasını lazım görürdü; fəqət, paramız az olduğundan mümkün olmurdu. Şimdi təvəqqe edirəm komissiyanın qətnaməsini qəbul edəsiniz. Dəmiryolu məsələsinə gəlincə, bu barədə bir qədər məlumat vermək istərdim. Dəmiryol barəsində çox söz denilmiş və denilməkdədir. Dəmiryolu ilə gedib-gələnlərə bu işlər hamıdan artıq məlumdur. Ancaq təvəqqe edirəm siz bu məsələyə el (обыватель) nəzəri ilə deyil, dövlət nöqteyi-nəzərindən baxasınız. Çünki bir qədər dərindən baxılarsa, dəmiryol məsələsi çox müşkül məsələdir. Burada texnika var, ticarət var, sənaət [sənaye] var, xozyaystva [təsərrüfat] var... Bunların həpsini birdən düzəltmək çətindir. Sizə məlumdur, dəmiryolu bizim əlimizə nə halda düşmüşdür. Yollar dağılmış, mövqiflər [stansiyalar] darmadağın edilmiş, qulluqçular qaçmış, vaqonlar, paravozlar xarab olmuş, su kəməri və neft paravozu qırılmış... Çox çətinliklə çalışıb, bir qədər vaqon yola salmışıq ki, sərnişin və yük hərəkəti açılsın, gediş-gəliş olsun və əsgəri ehtiyaclar ödənilsin. Yol işlərində çox çalışıb mümkün olan islahatı icra etmişik. Bunu nəzərə almalısınız ki, stansiyalar dağılıb. Su, neft, qulluqçu və sairə olmayan yerdə işlərin həpsini birdənbirə görüb, bu binaları təmir etmək olmaz. Bilirsiniz ki, dəmiryolu neçə illərdə inşa edilir. İxtiyarımıza alınmış 230 paravozun ancaq 90-ı yarayan olub, yerdə qalanı xarab idi. Deməli, paravozun 60 faizi yaramaz idi. Qabaq vaxtlar paravozun 10 faizi xarab olduqda çox hesab edilirdi, amma bizimki 60 faiz idi. Biz çalışıb 50 faizədək paravoz təmir etdik





və bu surətlə 90 yararlı parovozun miqdarı 140-a varmışdır. Faizi də 60-dan 40-a düşmüşdür. Texnikanı bilən olsa bilər ki, bu çox işdir. O vaxt biz 3500 vaqon təhvil almışıq ki, bunun da 60 faizi azarlı. Adətən vaqonun 3-4 faizi xarab olarsa, çox hesab edilirdi, halbuki bizdə 60 faizi xarab idi. Çox şeylər tapılmır. Vaqon ləvazimatı adətən Rusiyadan alınırdı, indi Rusiya ilə əlaqə olmadığından onları da çox çətinliklə tapmaq mümkün olmuşdur. Bununla bərabər biz çalışıb 60 faizə çatan vaqonların miqdarını 10-15 faizə yetirmişik. Bundan əlavə Bakı ilə Gəncə arasında 280 ədəd sərnişin vaqonu əlimizə keçmiş idi, bunun da ancaq 5-6-sı sağ olub, 50 faizi azarlı idi. Bunları da çalışıb bir növ islah etmişik ki, 20 faizə çatdırmışıq. Hələ bunlar layiqincə təmir etdirilməmişlər. Vaqonlara məxmər çəkilməmiş, bir çox şeyləri əskikdir. Bununla belə bir növ düzəltmişik ki, gediş-gəliş mümkün olmuşdur. Dəmiryol Nəzarəti yolları bu halda təhvil almışdı.

Dəmiryolları birinci olaraq əsgəri ehtiyacata [ehtiyaclara] xidmət etməli idi. Türklər burada olanda dəmiryol ələlümdə [başlıca olaraq] əsgər üçün işləyirdi. Bunu da deməliyiz ki, əsgəri işlər bir dəqiqə belə ləngə düşməyib. Dəmiryol əsgəri ehtiyaca münhəsir olduğuna [həsr edildiyinə] görə sərnişin və yük qatarı üçün çox az vaqon və paravoz qalmış idi. Əhali ehtiyacı üçün ancaq bir neçə vaqon və parovoz işləyirdi. Biz ümidvar idik ki, türklər buradan gedəndə apardıqları vaqonları azad edərlər, hərəkət də bir qaydaya düşər, amma ümidimiz doğru çıxmadı. Vaqon və paravozlarımızın çox hissəsi Poyluya getdi, azı qaldı. Gedənlərin də az bir qismi qaytarılmışdır, qalanı Batumda və Gürcüstanda qalmışdır. Qayıdan vaqonların da bir qismi yenə xarabdır, digər qismi də ingilislərin əlindədir, onların əsgəri işlərinə sərf olunur. Biz ingilislərlə dost olduğumuz üçün onların əsgəri ehtiyaclarını ödəməliyik. Bir də şikayətlər vardı ki, stansiyalarda bir çox mallar yığılıb qalmışdır. Doğrudur, stansiyalarda əhval o qədər fəna idi ki, hər mövqifdə 300 vaqon yük var ikən, ancaq bir vaqon qəbul edilə bilərdi. Amma indi belə deyildir. Vaqon, paravoz çoxalır, işlər düzəlməkdədir. Yük vaqonu artmışdır, həştad-doxsan yük vaqonu işləyir.

Sərnişin hərəkatı məsələsi daha betərdir. Bizə ən azı Tiflis ilə Bakı arasında işləmək üçün üç qatar lazımdır. Bir qatar bu işi görüb qurtara bilməz. Biz çox istərdik ki, sərnişin qatarlarını da artıraq. Amma nə qədər vaqon cəm edirsək, gah əsgər ehtiyacına, gah ingilislərə lazım olur. Ümid edirik ki, bu yaxınlarda Tiflislə Bakı arasında üç qatar buraxa bilək. Bu günlərdə Tiflisə bir sürət qatarı buraxılacaqdır. Bundan əlavə, həftədə bir və ya iki dəfə də sərnişin qatarı əlavə buraxılacaqdır. Sərnişin hərəkatını asanlaşdırmaq lazımdır, köhnə qaydalar ola bilməz.

Əvvəl Zaqafqaziya dəmiryollarında 600 parovoz və 15 min vaqon işləyirdi. Bunların bir çoxunu eşelonlar Rusiyaya aparmış. Bunların da qaytarılacağına ümid yoxdur. Fəqət, hər halda ümid ediriz ki, işlər düzəlsin. Bu bəyanatı ondan ötəri verirəm ki, məlumunuz olsun.

Komissiya yolumuzun mədaxilinin artmasına çalışır. Yolumuz onsuz da çox mədaxillidir, mal çoxdur, sərnişin hərəkəti yaxşıdır, ancaq vəsaili-nəqliyyə [nəqliyyat

vasitələri] azdır, əgər vaqonumuz, paravozumuz və sairə ləvazimatımız lazımi miqdarda olsa, mədaxilimiz çox olar. Hərçənd bu işlərin həpsini düzəltmək müşküldür, amma düzəlməsinə çalışırıq. Düzələcəkdir də.

İkinci məsələ, tarifə məsələsidir. Hökumətin nəzəri budur ki, fəhləyə artıq məvacib vermək, əlbəttə lazımdır. Fəqət, yolun mədaxili bir təhərə salınmadıqca, şübhəsizdir ki, məvacibləri də artırmaq qeyri-mümkündür. Deyirlər ki, tarifə artsa, hər şey bahalaşacaqdır. Amma söz burasındadır ki, tarifənin artması öylə bir şey deyil ki, bazar məzənnəsinə təsir eyləsin. Ona görədir ki, tarifə mütləq artmalıdır. Hər bir şey bu vaxtacan 50-100 faiz bahalanıb, amma tarifə ancaq 10 faiz artırılıbdır. Odur ki, tarifənin artmağının o qədər ağırlığı yoxdur. Bu barədə hökumətin layihəsi vardır, yaxında Parlamana idxal ediləcəkdir. Ancaq bir məsələ var ki, Gürcüstan ilə Azərbaycan arasında bağlanmış olan tranzit əhdnaməsinə görə tarifə məsələsini bu iki hökumət bir-birinin rizası ilə həll etməlidir. Ona görə də bu məsələdə Gürcüstanla müzakiratda bulunmalıdır.

Üçüncü məsələ, dəmiryolunda olan xəyanət məsələsidir. Orasını da deyim ki, dəmiryollarında xəyanət var idi və yenə də var. Bunu kökündən dəmiryolundan rəf etmək [aradan qaldırmaq] lazımdır. Türüq və Məabir Nəzarəti bu xüsusda tədbirlər görmüşdür. Əlbəttə, çox adam qovulmuş, çox adam tutulmuş və məhkəməyə verilmişdir. Ancaq bu çarələrlə xəyanət azalar, amma kökündən kəsilməz. Vaqonlar da indi artmışdır. Əlbəttə, bu da xəyanətin əskilməsinə bais olacaqdır. Lakin mən həmişə demişəm ki, camaatın özü bu barədə çalışmalıdır, camaat hümmət etməzsə, hökumətin tədbiri ilə xəyanət qurtarmaz, azalar, amma kəsilməz. Yol camaat malıdır, əhali yola öz yolu kimi baxmalıdır. Dəmiryoluna xəyanət edənlər, dövlətə və camaata xəyanət edirlər, çünki dəmiryolunda nə xeyir varsa, camaatın, nə zərər varsa, o da camaatındır. Biz camaata yazıb elam eyləmişik [bildirmişik] də ki, camaat dəmiryolunda gördükləri əziyyət və xəyanəti yazıb kağızla sənədli-sübutlu bildirsinlər. Əlbəttə, xain qulluqçu heç vaxt qulluqda qala bilməz.

Dəmiryol əmələ [işçi] və xidmətçilərinin fəaliyyətinə gəlincə ki, bunlar yaxşı işləsinlər, mən deyirəm ki, yollarımız Poyludan Bakıyacan qızdırmalı yerlərdən keçirlər. Stansiyaların bir çoxu dağılmışdır. Ona görə qulluqçuların halı xeyli fənadır. Ola bilər ki, bəzi qulluqçular xəstəlikdən yaxşı işləyə bilmirlər. Bu işləri düzəltmək çətindir də, amma yenə tədbirlər görülür. Bu barədə çalışırıq, ehtimal ki, bu yaxınlarda düzələr.

Bir iş də var ki, onu da nəzərə almalıyız, o da məmurlar barəsindədir. Məlumdur ki, müsəlman camaatı bu vaxtadək dəmiryolunda işləməmişlərdir. İndi dəmiryolunda işləyənlərin çoxu və bəlkə hamısı dostumuz ruslardır. Bunlar da azdırlar, tapmaq olmur. İndi məktəblər açılmışdır. Dəmiryol məmurları hazırlaşır ki, öz əhalimiz də təlim alıb məmurluğa girsinlər. Tainki gələcəkdə dostlarımız ruslar getsələr, özümüzünkülər işləsinlər. Əlbəttə, bu da çox asan işlərdən deyil. Dəmiryol məmurluğunu bir gündə öyrənmək olmaz. Maşinist olmaq üçün üçdörd il paravozda gəzmək lazımdır. Mövqif [stansiya] naçalniki olmaq üçün bir neçə ay oxumaq və iki il də təcrübə lazımdır.

Xülasə, mən dübarə təvəqqe edirəm ki, komisyonun qətnaməsini Parlaman qəbul etsin.





## YENƏ BATUM HAQQINDA

Keçənki məqaləmizdə Batum və ümumiyyətlə cənub-qərbi Zaqafqaziyadan bəhs edərkən müxtəlif iki cərəyanın birbiri ilə mübarizə etdiklərini söyləmiş və bu iki cərəyandan birinə gürcülərin təsir etdiklərini yazmış idik. Əsasən siyasi bir surətdə çıxan cərəyanlar, məlum ki, müxalifət və mübarizə sahəsi ilə hesablaşması icab edir. Buna binaən [əsasən] də gürcülərlə tövhidi-siyasət və müqəddərat edən [öz siyasətini və müqəddəratını gürcülərlə birləşdirən] cərəyanın başında bulunan zəvatın da [şəxslərin də] məkus [uğursuz] cərəyana qarşı fikrən və məslək etibarı ilə boş durmaması təbiidir. Bu nöqteyi-nəzərlə də kəndi şəxsiyyəti-məneviyyə və əxlaqiyyələrinə əsla təcavüz və yaxud təmas etmək kiçikliyində bulunmayaraq, yolda başımıza gələn bir rəfaqət [yol yoldaşlığı] – vaqeə olan vəq'ələrdən [baş vermiş hadisələrdən] bəhs etdik.

Abaşidzeləri tanıyanlar, həm də hüsnhal və şöhrətlə [yaxşı, müsbət hal və adsanla] bilənlər pək çoxdur. Fəqət bilməli ki, zamanımız xüsusi fərdlərin, əqəliyyətlərin [azlıqların] xatirlərinə görə deyil, əksəriyyətin, böyük bir camaatın arzu və əməlinə görə tədviri-siyasət və ümur edir [siyasət və işlər cərəyan edir]. Binaənileyh [ona görə], Abaşidzelərin siyasi əməl və fikirlərinə müxalif bulunanlar böyük bir cərəyan təşkil edərsə, bunda gücənəcək bir şey təsəvvür etmək lazım gəlir.

Mən Abaşidze Məhəmməd bəyi pək əla tanıram və şəxsiyyəti-əxlaqiyyə və mənəviyyəsinə [əxlaqi və mənəvi şəxsiyyətinə] qarşı heç bir deyəcək sözüm yoxdur. Eynən səmimiyyətimi o da çox eyi bilmiş və məsləkdəki mətanətimi pək gözəl təsvir etmiş olmaq etibarı ilə və kəndi üstadının oğlu bulunmaqlığım münasibətilə mənə qarşı təvəccöhü vardır.

Şu halda, Yəhya Hacıyev cənablarının dediyi kimi mən, onu – Məhəmməd bəyi – töhmətlətmək fikrini güdsəydim, böylə siyasi bir məsələni vasitə etməzdim.

Batum haqqında yazılıb cızılan yazılar çoxaldı. Tiflis mətbuatı, bilxassə “Borba” qəzetəsi son nömrəsində Acarada məşhur bir zatdan bəhs edir və bu zatı kəndi nöqteyi-nəzərinə, yaxud da öz istəyinə görə tənqid edərək “mürtəce Camal bəy”, “xain Xamişaşvili Camal paşa” deyə fəryadlar qoparır. Camal paşa qaragüruhun başında, macəracuların [avantüristlərin] önündə duraraq məhəlli [yerli] rus çinovniklərinin başçısı və idareyimülkiyyədə [mülki idarədə] rəisi bulunan Maslovlarla bərabər hərəkət edirmiş. Camal paşa bir türk agenti imiş. Camal bəy min-heysül-məcmu [ümumiyyətlə, cəmisi] beş dəfə həm öz millətinə, həm də Rusiya və Zaqafqaziyaya xəyanət etmiş. Camal bəy...

Hasili, bu qəzetə böyük bir iştaha və qeyrətlə yazdığı bir baş məqaləsi ilə bu söyüşlərini yaparaq guya Batum və oblastının eyiliyi və ya fənalığı bir adamdan asılı olduğunu aləmə bildirmək istəyir. Fə-

qət uşaq zehniyyətində olmaq icab edir ki, bu yazılan şeylərə inanmaq mümkün olsun.

Camal bəy kəndi milləti arasında millətinin hissiyyatına tərcüman olaraq çalışması etibarilə bir mövqeyi olmasaydı heç də bəhs açmaq istəməyəcəkdim. Fəqət keyfiyyət böylə deyildir. "Borba"-nın yazdığı kimi, heç də o adam xaini-millət olmaq töhmətinə məruz qalmamışdır. Acarada gürcülərlə acaralıların arası pozulmasına bizzat bəzi gürcülər səbəb olmuşdur. Camal bəy sabiq Rusiyanın Batumdakı general-qubernatoru bulunan Romanko-Romanovski zamanında Acarada naçalnik bulunurdu. Romanovski Acarada papaz Çxikvadze vasitəsilə xristiyanlıq propaqandası yaparkən, o zamanın müstəbid şəraiti-siyasiyyəsi altında Camal bəy missionerə qarşı mübarizə edirdi. Nəhayət, o dərəcəyə gəldi ki, qubernator Camal bəyi əzl [vəzifədən kənar] edərək kəndisinə qarşı çıxan bir maneəni yox etmişdi. Bu bir. Sonra Zaqafqaziya hökuməti zamanında gürcülər tərəfindən böyük bir məmuriyyətə təklif edildiyi və bu surətlə də guya ağzı qapadılmaq istənildiyi halda bu adam bunu rədd etdi. Bu iki. Gürcüstan Şurayi-Millisinə seçilərək yenə bir həqqi-sükut və şərəf vermək istəyən gürcülərə qarşı bu zat heç izzəti-nəfsini pozmayaraq icabət etmədi [qəbul etmədi]. Bundan sonra bir çox təşəbbüslərlə gürcülər bunu əldə etmək istədikləri halda bizzat camaatın təhdidi və kəndinin məslək və fikri dolayısıyla bunların həpsinə ruyi-müvafiqət göstərmədi [razılıq vermədi].

Şübhəsiz ki, bir-iki şəxsiyyətin ümuma və camaatın mənafeyinə aid məsələlərə təsir və ya nüfuzu olacağını mütləq bir surətdə iddia etmək doğru deyildir. Şəxsiyyətlərin camaat həyatında fədakarlığı, məsləyi, qəhrəmanlıqları etibarilə bir mövqeyi ola bilər.

Acarada anarşi və ixtilal və bizzat Batumda ənva qətlü-qital [müxtəlif qırğınlar] davam etdiyi və bütün Batum əfkari-ümumiyyəsi bundan bizar qaldığı zaman türklərin buraları istila etmələri təbii və sakin bir həyatın iadəsi [qayıtması] nöqteyi-nəzərilə bütün acaralılarca arzu edilirdi. 130 min kişilik bir camaat faciə və təhlükəli anlar keçirərkən, o faciəni yə's [matəm] və ələmlə hiss edən kimsələrin camaat amalına önayaq [öncü, qabağa düşən] olmaları bir xəyanətmidir, yoxsa o camaatın əxlaqi, siyasi mövcudiyyəti etibarilə bir qəhrəmanlıq və fədailikmidir?

Brest-Litovsk müahidəsi [sazişi] ilə və təyini-müqəddərat əsas və şəraiti [şərtləri] ilə Türkiyəyə tərk edilən Batum, Qars və Ərdahan islamları gürcülər qədər bir həqqi-həyat və siyasiyyəyə malik deyilmidirlər ki, bu gün bəlkə gürcülərin arzu etmədikləri bir surətdə elani-hüquq və mövcudiyyət etmələrinə zidd gedilir?

Xayır, bu bir haqdır, həm də siyasi olduğu qədər mənəvi və vicdani bir haqq!

Bu haqqı tanımayanlar heç də münasibət olmadan şu və ya bu adamın eyilik və fənalığından bəhs etmək surətilə siyasi bir manevraya lüzum görürlər ki, o da "Borba"nın bir şəxsiyyət üzərinə açdığı borba - mübarizə şəklində nəzərimizə çarpır.

Fəqət, artıq gürcülərcə bir təcrübə olmuşdur ki, Batum haqqında böylə silahlara müraciət silahları istemal edəmmədən bir haqsızlıq etmək nəticəsi çıxır!

*Qaraağazadə Əhməd Həmdi*

**TELEQRAF XƏBƏRLƏRİ**

**Müharibənin bahası**

Tiflis – (1 fevral, İngiltərə mətbuatı)

Məşhur ingilis maliyyunundan [maliyyəçilərindən] ser Edvard Qolden dünən müharibənin bahası barəsində məlumat vermişdir. Qolden tərəfindən göstərilən hesabdan görünür ki, müharibənin ibtidasından [başlanğıcından] İngiltərənin milli borcu 7 milyard 400 milyona varmışdır. Bundan sonra olacaq xərcləri, yəni qoşun tərxisi və sair məsarifini ödəmək üçün əlavə 8 milyarddan artıq pul lazımdır. Almaniyanın müharibə məsarifi [xərcləri] isə bundan artıqdır. Qolden bu əqidədədir ki, müharibədən əvvəl Almaniyanın milli borcu 240 milyon olduğu halda bütün müharibə məsarifi və qoşunlarının tərxisi məsarifi 8 milyarda varacaqdır. O ki qaldı Amerikaya, Amerika hamıdan gec müharibəyə şüru eyləmiş [başlamış] və hamıdan az müharibəyə pul sərf eyləmişdir. Müttəfiqlər Amerikadan aldıqları pulları qaytardıqdan sonra 2 milyardadək məsarifi olmuş olur. Deməli, ümumən məsarif böylədir: İngiltərənin müharibədən əvvəl 650 milyon lirə borcu olduğu halda müharibədən sonra 6 milyard 400 milyon lirəyə yetmişdir. Almaniyanın borcu isə müharibədən əvvəl 240 milyon lirə olduğu halda, müharibədən sonra 8 milyard 300 milyon lirəyə varmışdır. Amerikanın müharibədən əvvəl 204 milyon lirə milli borcu olduğu halda şimdi bu borc 2 milyard 600 milyon lirəyə varmışdır.

**Almaniyada**

Berlin, (26 yanvar) - Braunşveyqdə protesto izharı münasibətilə davam edən üç günlük tətil qurtarmışdır. Tətilçilər indiki Almaniya Hökumətinin istefasını və onun yerinə inqilabçı bir hökumət təsisini tələb edirmişlər. Reyn oblastı [vilayəti] və Vestfaliya nümayəndələri bu tətilçilərlə həmrəydirlər. Hərgah, Berlin Hökuməti istefa verməzsə, o zaman Braunşveyq Berlin ilə əlaqəsini kəsəcək və yuxarıda zikr edilən iki vilayətlə bərabər yeni cümhuriyyət təsis edəcəkdirlər.

**Sosialistlər konfransı**

Paris - Brükseldən bildirildiyinə görə, Belçika Sosialist Firqəsi və Kəsbkarlar İttifaqı Berndə təşkil edilmiş Beynəlmiləl Sosialist Konfransına nümayəndə göndərməyə zidd olmuşlardır. Belçika sosialistləri sədri Vandevelde bəyan etmişdir ki, Bernə sosialist firqəsi tərəfindən nümayəndə göndərilməzsə, o zaman sədrlikdən istefa verəcəkdir.

* Brükseldən verilən teleqraflardan anlaşılır ki, ləvazimi-hərbiyyə [hərbi sursat] daşıyan bir qatar Moböj ilə Lonqvi arasında patlamışdır. Buna da bir saldatın ehtiyatsızlığı səbəb olmuşdur. Bu patlayışdan 60 nəfər nemes saldatı həlak olmuşdur.

* İtaliya paraxod şərakəti [şirkəti] İstanbul və Qara dəniz iskələləri [limanları] arasında müntəzəm paraxod hərəkatı başlayır.

* Yunan ordularının böyük hissəsi qeyri-müəyyən vaxtadək məzuniyyətlə evə buraxılırlar. Bu tərxis iki ay davam edəcək, sonra 195 min nəfərlik ordu təşkil ediləcəkdir.

* [Əhməd] Tofiq paşa tərəfindən Hədidə şəhərinə göndərilən bir məktubdan anlaşılır ki, Yəməndə olan türk ordusu Müttəfiqlərə təslim olmuşdur.

* Son məlumata nəzərən yanvarın 22-də bolşeviklər tərəfindən Orenburq şəhəri işğal edilmişdir.

**SÜLH ƏTRAFINDA**

"Deyli nyus" qəzetəsinin Paris müxabiri [müxbiri] yazır ki, Almaniyanın Sülh Konfransına olan əlaqəsi barəsində onda mükəmməl məlumatlı sənədlər vardır. İndiki Alman Hökumət başçısı bu etiqaddadır ki, Müttəfiqlər tərəfindən göstərilən sülh şəraitini [şərtlərini] əmələ gətirmək imkan xaricindədir. Almaniya bilatərəddüd [tərəddüd etmədən] həmin sülh şərtnaməsini imza edəcəkdir və dərhal o şərtlərin əmələ gəlməsinə Avropanın şərqi və mərkəzi hissələrində mane olacaq və bütün Almaniya əhalisinin bu şərtlərdən həyəcana düşdüklərini Müttəfiqlərə göstərəcəkdir. Hər yerdən əvvəl Almaniyada qayda və asayiş bərpa ediləcəkdir. Almaniya Hökuməti ümid edir ki, özünün xüsusi mənafeyi üçün Almaniyanın yeni sərhədlərinin yaxınlığında olan işlərə qarışa biləcəkdir. Nemes Avstriyasının qədim əlaqəsi başlanmışdır. Şeydeman inanır ki, yeni Almaniyada ittifaq əmələ gələcəkdir.

**QƏZETƏLƏRDƏN**

**Rusiyanın dirilməsi (?) ətrafında**

Odessa və Xarkov şəhər idarəsi sədrlərindən ibarət Zemstvo Şəhərlər İttifaqı bürosu tərəfindən bu günlərdə Parisə gedəcək heyəti-mürəxxəsə [nümayəndə heyəti] xüsusi vəkalətə malik olan Fransa konsulu Ennonu ziyarət etmişdir. Heyəti-mürəxxəsənin konsulu ziyarət etməkdən qəsdi Rusiya ilə Ukraynanın halhazırdakı əhvalatı/əhvalını Parisdə hökumət dairələrinə təqdim etməklə əlaqədar olan bir para məsələləri aşkar etməkdən ibarət imiş.

Bu münasibətlə konsul demişdir ki, heyəti-mürəxxəsənin Parisə qayıtması o vaxt məna verərdi və heyəti-mürəxxəsə qəti nəticələrə nail olardı, hərgah heyət bütün Rusiya nümayəndəliyinə malik olaydı. Çünki əhalinin ancaq müəyyən dairələri tərəfindən gələn ayrı-ayrı mürəxxəslərin səsi Parisdə eşidilməyəcəkdir.

Parisə getmiş olan bu tövr heyəti-mürəxxəsələrin heç birisi heç bir yerə buraxılmayıb və onlardan heç birisi qəbul edilməyəcəkdir. Müttəfiqlər, o cümlədən Fransa Rusiyanın daxili işlərinə qarışmayacaqlardır. Onların ancaq arzusu Rusiyanı müstəqil bir hökumət şəklinə salmaqda müavinət [kömək] göstərməkdir. Buna görə hərgah rus ictimai dairəsi bütün Rusiyanın həqiqi nümayəndəliyini təşkil etməyə nail olarsa, o zaman bu tövr nümayəndəliyin səsi və göstərdikləri bilaşübhə [şübhəsiz] nəzəri-diqqətə alınacaqdır. Rusiya əfkari-ümumiyyəsinin [ictimai fikrinin] cürbəcür təşkilatlara və dairələrə ayrılması rus camaatının gözlədiyi mənfəəti ona verməz.





**Təzə Cümhuriyyət**

Tiflisdə dəvəran edən şayiata [gəzən şayiələrə] görə, Batum, Qars və Ərdahan oblastlarından ibarət təzə bir cümhuriyyət təşkil edilmişdir.

* Donetsk hövzəsindən verilən xəbərlərə nəzərən, bütün Don mahalına bolşevizm sirayət eyləmişdir.

**Dağıstan Cümhuriyyətində**

Dağıstan Cümhuriyyəti Maarif nazirinin binagüzarlığına [sərəncamına] görə, Teymurxanşura realnı məktəbi nəzdində yanvarın 25-dən etibarən qulluqçuların qumuq dili öyrənməsi üçün gecə kursları açılmışdır. Yenə də həman Maarif nazirinin binagüzarlığı ilə Teymurxanşura darülmüəllimini [seminariyası] nəzdində müəllimlər hazırlamaqdan ötrü 40 nəfərlik kurslar açılmışdır. Kursda olanların hər birinə ayda 300 manat para buraxılır.

**Petrovsk şəhərinə təzə ad**

Dağıstan Hökuməti Şamil namına olaraq Petrovsk şəhərinin adını dəyişib Şamilqala qoymuşdur.

**BAKI XƏBƏRLƏRİ**

**Faiq əfəndinin həbsi ətrafında**

3 şubat [fevral] tarixində düşənbə [bazar ertəsi] günü "Müsavat"ın Zabrat şöbə əzası [üzvləri] şöbə idarəsində saat 10 radələrində iclas edərək Ömər Faiq əfəndinin həbs və təhqir edilməsi məsələsi müzakirə edildi. Nəticədə "Azərbaycan" ruznaməsi [qəzeti] vasitəsilə Gürcü Hökumətinə bu məzmunda etiraz etmək qərara alındı:

Hüquqi-beynəlmiləli etiraf ediciliklə kəndini tanıtdıran Gürcü Hökumətinə qarşı kəndi məramnaməsi xilafına olaraq möhtərəm Ömər Faiq əfəndinin hürriyyəti-şəxsiyyəsinə təcavüz etdiyindən dolayı etirazla bilatəxir [dərhal] müşarünileyhin [adı keçən şəxsin] buraxılmasını tələb edərik.

*Sədr: Hüseynzadə Məzahir*
*Katib: Atamalı Mehdizadə*

**"Müsavat"ın Sabunçu şöbəsindən**

Bununla belə, Sabunçu mədən ətrafında olan cəmi vətəndaşlarımızdan xahiş olunur ki, bizim cümə günü, fevral ayının 7-ci günündə [olacaq iclasımıza] zəhmət çəkib təşrif gətirsinlər. Sabunçuda Türk Ədəmi-Mərkəziyyət "Müsavat" şöbəsin[d]ə bir neçə mühüm məsələ müzakirəyə qoyulacaqdır. Xahiş olunur ki, təyin olunan gündə bir neçə saat vaxt sərf edib təşrif gətirsinlər ki, məsələlərimiz həll olunsun. Baxılacaq məsələlər bu qərar ilədir:

1. Şöbə açmaqdan ötrü seçki;
2. Heyəti-idarə [idarə heyəti] seçkisi.

İclas açılacaq gündüz saat 10-da Türk Ədəmi-Mərkəziyyət "Müsavat" şöbəsində.

**Müsəlman Mütəəllimlər İttifaqının Təftiş Komissiyası tərəfindən**

Cümə günü fevralın 7-də, gündüz saat 4-də Birinci Realnı məktəbində Müsəlman Mütəəllimlər [Tələbələr] İttifaqı idarəsinin iclası vaqe olacaqdır. Hər bir məktəbdən bir nümayəndə bu iclasa gəlməsi lazımdır. Nümayəndələrdən xahiş olunur mandatla gəlsinlər.

*Təftiş Komissiyası*

* Sosial-Demokrat Fəhlə firqəsinin divani-rəyasəti Bakıda olan müsəlman sosial-demokratlarını cümə günü, fevral ayının 7-də, gündüz saat 11-in yarısına təyin olunan ümum[i] iclasa dəvət edir.

Günün məramnaməsi:

1. Övzayi-zəmanə [zəmanənin halı] və bizim məqsədlərimiz;

2. Firqənin təzədən təşkilatı;

3. Kənarlarda [ucqarlarda] işləmək.

Məsələlər mühüm olmağa görə cəmi yoldaşlardan rica olunur vaxtında iclasa gəlsinlər.

## ƏRZAQ İŞLƏRİ

* Bakıda olan İran konsulu Vükəla Şurası sədrinə məktub yazaraq İran tacirlərinin Bakıdakı hökumətlər tərəfindən həcz [müsadirə] olunan mallarının məzkur [adı çəkilən] tacirlərə qaytarılmasını istida [xahiş] etmişdir. Ərzaq Nəzarəti İran konsuluna bu barədə məktub yazaraq malların kimlər tərəfindən və nə zaman nə miqdarda həcz olunması haqqında müfəssəl siyahı verilməsini xahiş etmişdir.

* Ərzaq Nəzarəti Filyurin nama [adlı şəxsə] vəsiqə vermişdir ki, Ərzaq Nəzarətinə mütəəlliq [məxsus] 30 min put qənd, 30 min put un və 10 min put sodanı Odessadan Batuma gətirsin.

* Ərzaq Nəzarəti hökumət işlərini idarə edən dəftərxanaya müraciət edib Azərbaycan Hökumətinin Azərbaycan daxilində azad qənd satışının qadağan olub-olmaması haqqında verdiyi icbari qərardadını göndərməyi xahiş etmişdir.

* Dərbənd Ərzaq İdarəsinin sədri Ərzaq Nəzarətinə teleqraf göndərib Dərbənd əhalisi ehtiyacatı üçün ağ göndərilməsini xahiş etmişdir.

* Ərzaq Nəzarəti Ticarət və Sənaət [Sənaye] Nəzarətinə yazıb xahiş etmişdir ki, Dərbənd əhalisi üçün təcili olaraq Tağıyev fabrikasından 5 min arşın ağ və 5 min arşın lankort göndərilsin.

* Ərzaq Nəzarəti Ticarət və Sənaət Nəzarətinə xəbər verir ki, Ağaməhəmməd Dadaşovdan min put səbzə [tərəvəz] təhvil alınmışdır.

* Ərzaq Nəzarəti Bakı nahiyə məhkəməsinin müddəiyi-ümumisinə [prokuroruna] yazıb xahiş edir ki, Ərzaq Nəzarəti anbarından çay oğurlayıb satan Zaxaroviçin məsuliyyətə cəlb olunub-olunmaması haqqında məlumat verilsin. Zaxaroviç tərəfindən Ərzaq Nəzarətinə təq- dim edilən sçotların [hesabların] pulunu verməkdən ötrü bu məlumat lazım ol-muşdur.

* Ərzaq Nəzarətinin mal alıcı şöbəsi ərzaq təqsim edən [paylayan] şöbəyə yazıb xahiş etmişdir ki, mal alıcı şöbənin çörəkçi dükanından ötrü Skobelev dəyirmanından 20 kisə un buraxılması üçün order yazsın. Yenə mal alıcı şöbə mal təqsim edən şöbəyə yazıb xahiş etmişdir ki, mərkəzi anbardan 600 put küncüt buraxılması üçün order yazılsın.

## GÜRCÜSTANDA

**Gürcüstanın cənub-qərb tərəfində müsadimə [toqquşma]**

Yanvarın 23-də Gürcüstan Baş naziri namına [adına] bu məzmunda teleqraf çəkilmişdir:





Yanvarın 20-də 1919-cu sənədə Gürcüstan Cümhuriyyəti türklərin Qars oblastından çəkilməsindən istifadə edərək Cənub-Qərbi Qafqaziya Müvəqqəti Hökuməti-Millisinə nagəhani olaraq [gözlənilmədən] hücum etmişlərdir. Gürcü qitəatı [birlikləri] 8 saatlıq müharibədən sonra qaçmağa məcbur olub 10 meyitlə 4 pulemyot buraxmışlardır. Bizim hissələr düşmənləri təqib edərək bir neçə kəndləri işğal etmişlərdir. Cənub-Qərbi Qafqaziya Müvəqqəti Hökuməti vəkaləti ilə gürcü qoşunlarının bu təcavüzünə protesto edirəm və təklif edirəm ki, bu müsadiməni təhqiq üçün ingilislərin iştirakı ilə bir komissiya təşkil edilsin və Gürcüstan Hökuməti başçısı olmaq həsəbilə sizə bəyan edirəm ki, gürcü qoşunlarının bu kimi təcavüzü təkrar edərsə, arzu olunmayan işlər meydana çıxa bilər ki, onun da cavabdehəndəsi [cavabdehi] ancaq Gürcü Hökuməti ola bilər.

*Cənub-Qərbi Qafqaziya Hökuməti*
*nümayəndəsi*
*B. Atabəyov*

**Zəbt edilmiş bir sənəd**

Axıskadan Abaşidze, Ruxadze və Sinadze tərəfindən göndərilən teleqraf.

Qətiyyən gizlindir.

Gürcüstanın Daxiliyyə və Xariciyyə nazirlərinə.

Axısxa mahalında əhval çox xətrəlidir [təhlükəlidir]. Bizim əlimizdə olan mükəmməl sənədlərdən anlaşılır ki, Axısxa mahalında üsyan əmələ gələcəkdir. Axısxa komitəsi tərəfindən Ömər əfəndi namına [adına] Batumdan göndərilmiş olan bu məzmundakı sənəd əlimizə keçmişdir ki, bu komitənin planını göstərir. Tamamilə məxfidir. Əfəndinin qardaşı xəbər verir ki, Qarsda Qərbi Zaqafqaziya qoşunları dururlar. Onlara müavinət [yardım] ediniz və əlinizə alınız. İngilislər Qars Müsəlman Hökumətinə müavinət edirlər və onlara məhəbbət bəsləyirlər. Siz yoldaşlarınızla bərabər Potsxova gəlməlisiniz. Qars nümayəndələri də orada olacaqdırlar. Bu cür məktub sizdən başqa Molla Səidə, Molla Nuriyə və Şaban Qurban oğluna göndərilmişdir. Danışıqdan ötrü Qəhrəman əfəndini də dəvət ediniz.

**Gürcüstan Xariciyyə naziri general Miln hüzurunda**

Yanvarın 30-da Gürcüstan Cümhuriyyəti Xariciyyə naziri Müttəfiqlərin Şərqdəki əsakirinin [əsgərlərinin] Baş komandanı general ser Corc Milni ziyarət eyləmişdir.

General Miln Gürcüstan Cümhuriyyəti tərəfindən özünə edilən ehtirama qarşı təşəkkürünü izhar edib Xariciyyə nazirinin dediyi sözləri və verdiyi sualları qayət diqqətlə istema eyləmişdir [dinləmişdir].

Xariciyyə nazirinin başlıca müsahibəsi cümhuriyyətin cənub sərhədində vaqe olan son hadisələrə aid idi. Axalsıx mahalında vaqe olan hallardan bəhs edən Xariciyyə naziri əlavə eyləmişdir ki, bu hadisələri Türkiyə agentləri və komissarları törədirlər. Bunlar çoxdan bəri yerli əhali arasında təbliğatda bulunub, son vaxtlarda isə müsəlləh [silahlı] dəstələr təşkil edib, Türkiyə Qafqaziyaya hücum etdiyi zaman yürütdüyü planı vücuda gətirmək istəyir. Türkiyənin bu planına müvafiq onun agentələri Qars oblastı, Ərdahan nahiyəsi, Axalxələk uyezdi və Ba-

tum oblastından ibarət təzə bir hökumət təşkil etmək qəsdindədirlər. Bu hökumət şərqdə Azərbaycana, qərbdə isə Qara dənizə yapışacaqdır. Bu planı icraya qoymaq istəyənlər Cənub-Qərb[i] Qafqaziya Hökuməti bayrağı altında işləyirlər.

Xariciyyə naziri Gürcüstan Hökumətinin millətlərin müstəqil yaşamaları tərəfdarları olduğunu qeydlə demişdir ki, bu halda bu əsasın icraya qoyulması ilə Gürcüstanın ayrılmaz bir parçasını ayırmaq planını tətbiq edirlər. Gürcüstan Hökuməti bu parçasız yaşaya bilməz. Türkiyə agentələri millətlərin istiqlaliyyəti amalı altında gizlənib, Gürcüstan Hökumətini dar bir halqa arasına almaq istəyirlər.

Sonra Xariciyyə naziri demişdir ki, Gürcüstana və Zaqafqaziyaya sülh istirahətinə düşmən olan macəracuların [avantüristlərin] kim olduqlarını sənədlərlə isbat edə bilər. Bu adamlar məhəlli [yerli] əhali mənafeyi ilə əlaqədar olmadan, əhalinin müdafei [müdafiəçisi] surətində çıxırlar. Bunlar öz şəxsi mənfəətləri üçün məmləkətdə hərc-mərclik atəşi yaxıb, əhalini təhlükəli bir macəraya sövq etmək istəyirlər.

## ERMƏNİSTANDA

**Daşnaksaqan demokratlığı**

“Daşnaksaqan” firqəsi Ermənistan Parlamanının buraxılması tərəfdarıdır. Parlamanın buraxılmasına səbəb, qanunverici işlər olmadığı və Parlaman üzvlərinin işləməkdən yorğun olmaları göstərilir. Erməni Sosial-Demokrat və Sosial-Revolyusioner firqələri “Daşnaksaqan” firqəsinin bu tövr tələbatı əleyhinə protesto etmişlərdir.

**Erməni Teleqraf Acentəliyi**

İrəvanda Erməni Teleqraf Acentəliyi təşkil edilmişdir.

**Kürdlər**

Maku xanlığı tərəfindən Ermənistan sərhədinə kürd hərəkatı müşahidə edilməkdədir. Kürdlər Sürməli və Şərur mahallarını təhdid etməkdədirlər.

**Şərur və Naxçıvan barəsində**

İngilislərin qərarı böylə olmuşdur:

Hər iki tərəfin, ermənilərin və müsəlmanların hərbi qüvvələri indilikdə işğal etdikləri yerlərdə hərəkatlarını dayandırmışlardır.

Teleqraf müxabiratı [əlaqəsi] və dəmiryol hərəkatı başlanmalıdır. Aramazdamanadək xətt ermənilərin əlində qalır, oradan Naxçıvanadək isə ingilislərin əlində qalacaqdır. Hərəkat və ticarət azad surətdə başlanmalıdır. Müsəlmanlar Ermənistan əhalisinə Amerika nümayəndəsi vasitəsilə putu 50 manatdan 10 min put buğda verməlidirlər. Zaqafqaziya cümhuriyyətləri sərhəd məsələsi Sülh Konfransında həll edilənədək bu əhval bu minval ilə qalmalıdır.

**Ermənistanda aclıq**

İrəvandan verilən son məlumata nəzərən, Ermənistan Cümhuriyyətində olan ermənilərin halı çox ağırdır. Hal-hazırda Ermənistanda 120 min nəfər Türkiyədən, 80 min Qars oblastından, 10 min nəfər Naxçıvandan gələn erməni fərariləri [qaçqınları] vardır. Bu fərarilərin həpsi aclığa mübtəla olmuşlardır. Bütün Ermənistan Cümhuriyyətində hər gün tifdən və aclıqdan 2500 nəfər erməni qırılır. Yerli əhali isə aclığa mübtəla olmuşdur. Ona da səbəb yolların bağlı olduğu, dərman yoxluğu, çörəyin qıtlığı, paltar və sairənin yoxluğudur. Həkimə, təthirat [təmizlik] şeylərinə böyük ehtiyac vardır. İki aydır ki, yollar bağlı olduğundan Ermənistana heç bir şey gətirilməyir. Ermənistan Hökuməti bunlara müavinət [yardım] üçün Fransa nümayəndəsi Pua-de-Bara, Fransa konsuluna müraciət etmişlər. Bunlar Fransadan buğda və libas göndərmək üçün təşəbbüsatda bulunmuşlardır.

**Qarsda**

Erməni qəzetələrinin məlumatına görə, birinci erməni fərari dəstəsi Qars oblastına əzimət etmişdir [yola düşmüşdür]. İkinci dəstə isə bu günlərdə əzimət edəcəkdir.

**Andranik**

Andranik Ermənistan Hökumətinə təklif edir ki, Zəngəzurda erməni idarəsi təsis etsinlər. General yorğun olduğuna görə Zəngəzurdan gedəcəyini bildirir.

* Karvansara namı [adı] ilə yad edilən [tanınan] kənd, şimdi ermənilər tərəfindən İcevan deyə təsmiyyə edilmişdir [adlandırılmışdır].

* Erməni generalı Qaraxanov Ermənistan Hökuməti tərəfindən Sülh Konfransına nümayəndə təyin edilib Parisdə əvvəlcə gedən erməni nümayəndələrinə qoşulacaqdır.

* “Mşak” qəzetəsi xəbər verir: Yanvarın 29-da Aleksandropoldan gələn ermənilər rəvayət edirlər ki, Aleksandropoldan xaricə bir dəstə ingilis və erməni saldatları əzimət etmişlər ki, oranı işğal etsinlər.

## İDARƏYƏ MƏKTUB

**- 1 -**

Vaxtilə “Azərbaycan” qəzetəsində 12-ci xəstəxanada yatan xəstə türk əsgərləri nəfinə [xeyrinə] cəm edilib bəndələrinə [mənə] təhvil verilmiş ianənin nə miqdarda və nerəyə sərf olunması haqqında məlumat vermək arzusu ilə bu yazdığım məktubumun dərcini rica edirəm.

İndiyə qədər “Azərbaycan” qəzetəsinə yazıldığı qərar üzrə bəndəyə iki min altı yüz həştad altı rublə (2686 rublə) vüsul olmuşdur [çatmışdır]. Bu məbləğdən həmin aşağıda yazılan qərar üzrə tarixi ilə bərabər xəstə əsgərlərin ehtiyacatı üçün böylə sərf edilmişdir:

1918 sənəsi 10 dekabrda 75 m[anat]
1918 sənəsi 15 dekabrda 127 m[anat] 50 q[əpik]
1918 sənəsi 19 dekabrda 171 m[anat] 50 q[əpik]
1918 sənəsi 20 dekabrda 148 m[anat]
1919 sənəsi 4 yanvarda 82 m[anat] 50 q[əpik]
1919 sənəsi 15 yanvarda 118 m[anat]
1919 sənəsi 16 yanvarda 189 m[anat]
1919 sənəsi 18 yanvarda 222 m[anat]
1919 sənəsi 19 yanvarda 146 m[anat]
1919 sənəsi 20 yanvarda 120 m[anat]

1919 sənəsi 21 yanvarda (yola gedən bir türk nəfərinə [əsgərinə]) 150 m[anat]
1919 sənəsi 24 yanvarda 311 m[anat]
1919 sənəsi 25 yanvarda 165 m[anat]
1919 sənəsi 26 yanvarda 244 m[anat]
1919 sənəsi 26 yanvarda 100 m[anat]
1919 sənəsi 27 yanvarda 149 m[anat]
1919 sənəsi 27 yanvarda 80 m[anat]
Yekun 2588 m[anat] 50 q[əpik]

Həmin iki min beş yüz həştad səkkiz manat əlli qəpik məzkur [adı keçən] xəstəxanada tədavidə bulunan [müalicə olunan] xəstə türk əsgərlərinə göstərilən tarixlərdə sərf edilmişdir. Hal-hazırda indiyə qədər cəm edilən ianədən sərf olunan miqdar çıxıldıqda, doxsan yeddi manat əlli qəpik (97 m. 50 q.) qalmış olur. Burasını da əlavə edirəm ki, ianəyə böyük ehtiyac vardır.

*Ağaməhəmməd İbrahimzadə*

**-2-**

Möhtərəm müdir əfəndim!

1918-ci ilin mart ayında qatillərlə milissiya arasında vaqe olan atışmada 4-cü çast [bölmə] milis əhli İmamqulu Quliyev və İbrahim Məhəmmədrəhim oğlu yaralanmışdılar. Bu milis əhli mənim "Müsavat" firqəsi komissarı olduğum zaman məzkur [deyilən] çasta müərriflik etdiyimdən [tanışlıq verdiyim, tanıtdığım üçün] qulluğa götürülmüşdülər. 16 martda 1918-ci ildə mən ianə vərəqələri ilə əvvəlincisinin nəfinə [xeyrinə] 73 manat və ikincisinin nəfinə 68 manat cəm etmişdim. Mart hadiseyi-əliməsi [faciəli hadisəsi] vaqe olduğundan, vaxtında bu pulu sahiblərinə yetirmək və ianə edənlərə izhari-təşəkkür etmək mənim üçün mümkün olmadı. Bu günlərdə kağızlarımı axtaranda məzkur ianə vərəqələrini həman kağızlar içindən tapıb əhvalatı yadıma gətirdim. Bununla 141 manat və ianə vərəqələrini pişnihad [təqdim] edib ianə edən zəvata [şəxslərə] izhari-təşəkkür etməklə bərabər, həman pulların lazım olan yerinə verməyi təvəqqe edirəm.

*Süleyman Abdullayev*

141 manat idarəmizə vüsul olmuşdur [gəlib çatmışdır].

## İDARƏDƏN CAVABLAR

**B. M. əfəndiyə**: Şeirlərinizdən xoşumuza gələn bir bu misra oldu:

"Mərd, əlindən haqqını verməz, qiyamət qopsa da."

**M. Əfəndizadə əfəndiyə**: Bir para səbəblərə görə öylə şeyləri yazmaq hələ məsləhət deyildir.

**Hüseyn Şahvələdov əfəndiyə**: "Amma onu demək olmaz ki, bu yoldaş sənətkardır və ya o birinin elmi azdır. Onları məclisə qoymaq və ya cəmiyyətə qəbul etmək olmaz." Doğru deyirsiniz, əlbəttə onu demək olmaz. Ancaq bir də məqalə yazmağa həvəs etsəniz kağızın bir üzündə yazıb o biri üzünü ağ buraxarsınız.

**Qəmbər oğlu Qasım əfəndiyə**: İmla haqqındakı məqalənizi saxladıq. Vaxtında çap edərik. Hələlik məqalələrinizi qəzətəmizin imlasına tətbiqən yazmanız rica olunur.





**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Doktor**
**İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Təcrübəli buxqalter**

Üç ayın müddətində ən yeni italyan sistemasında türk və rus dillərində mükəmməl surətdə buxqalteriya öyrədirəm. Həkəza [habelə] firmalarda buxqalteriya işlərini tənzim etməyi qəbul edirəm. Unvan: Krasnovodski caddə "Dvartsovı" mehmanxanasında nömrə 19.

*2674*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi**
**Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Petroqraddan gəlmiş**
**diş həkimi**
**M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**İSLAMİYYƏ MEHMANXANASI (LOKANTASI)**

Bir çox sənələrdən bəri davam edən və Mart hadiseyi-əliməsində yanan "İslamiyyə" mehmanxanası yenidən təmir edilib bu gündən etibarən mehmanxanada gözəl lokanta açılmışdır. Mahir aşbazların təhti-idarəsində hər növ Avropa və Asiya xörəkləri hazır edilir. Nahar və şam vaxtı Avropa və Asiya musiqi dəstəsi çalacaqdır. On beş ədəd nömrə hazırdır. (Adres: Bazarnı və Qubernski küçələrin küncündə, telefon nömrə 12-51. Kamali-ehtiramla: İsmayıl Mahmudzadə)

*2670*

**Elan**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi həmin fevral ayının 7-də cümə günü gündüz saat 12-də Bakı Şəhər İdarəsi (Dumasının) zalında Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin ümumi iclası təyin olunmuşdur. Müsəlmanlardan rica olunur ki, vəqti-müəyyəndə [təyin edilmiş vaxtda] iclasa təşrif gətirib üzv yazılsınlar və intixabda [seçkidə] iştirak eyləsinlər.

İclas ikinci dəfə olduğuna görə, hər [nə] qədər üzv gəlsə qanuni hesab olunacaqdır.

*Sədr: Mirzə Əsədullayev*

*T-28*

***Müvəqqəti müdür: Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri: Müharibənin bahası**

səh. 89. "...yəni qoşun tərxisi və sair məsarifini...": "tərxisi" yerinə qəzetdə "tərfii" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 89. "...Moböj ilə Lonqvi...": Mobej [Maubeuge] və Lonqvi [Longwy] Fransanın kommunalarıdır. Bu adlar qəzetdə təhrif edilmişdir.

**Qəzetələrdən**

səh. 90. "Rusiyanın dirilməsi (?) ətrafında": sual işarəsi qəzetdə getmişdir.

**Ərzaq işləri**

səh. 92. "lankort": pambıq parça növü.

**Ermənistanda**

səh. 94. "Kürdlər Sürməli və Şərur mahallarını təhdid etməkdədirlər.": "Sürməli" yerinə qəzetdə səhvən "Sürüsü" getmişdir.





**Cümə, 7 fevral 1919-cu il, nömrə 108**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 6 cəmadiyələvvəl sənə 1337. 7 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA (Keçən nömrənin mabədi)**

Hökumət tərəfindən Daxiliyyə naziri Xəlil bəy Xasməhəmmədov cənabları dəxi izahat verir.

**Xəlil bəy** - Möhtərəm məbuslar! Sorğuya cavab vermədən əvvəl bir neçə kəlmə söz söyləmək istərəm. Əvvəla bunu nəzərə almalısınız ki, sorğu Parlaman əlində böyük bir ixtiyardır. Sorğu ixtiyarı Parlaman üçün bir kontrol, təftişdir. Sorğu elə bir şeydir ki, onun vasitəsilə hökumətin cəmi işlərini bilə bilərsiniz. Böylə də olmalıdır, xüsusən o yerlərdə ki, parlamentarizm üsulu ilə idarə olunurlar. Hər nazir özünü borclu bilir, varid olan [verilən] sorğuya cavab versin. Mən Daxiliyyə naziri və bütün hökumət o fikirdəyik ki, hökumət düz, doğru və qanuni olsun gərək və hər sorğu barəsində doğru cavab versin və sizin fikrinizi bilsin. Bunların həpsi məmləkətin səlaməti və xeyri üçündür.

Siz görürsünüz ki, sorğu nə qədər böyük işdir, həm Parlaman, həm Hökumət buna əhəmiyyət verir. Siz bilirsiniz ki, sorğunun qaydası nədir, nə cür verilə bilər. Əvvəla, sorğu o vaxt verilir ki, qanunsuzluq ola, xəyanət ola. Saniyən [ikincisi] daxili və siyasi işlərdə, nazirlərin fəaliyyətindən məmləkətə zərər yetişə. Üçüncü, sorğu o vaxtı olar ki, məmurlar xəyanət işləyələr, Nəzarət [Nazirlik] onun müqabilinə çarə görməyə, işlər basdırılıb gedə. Bu nöqteyi-nəzərdən baxılsa, sorğunun da böyük xeyri olar. Bu ümumi bir qaydadır. Ancaq bizim Parlamanımızın nizamnaməsi olmadığından, hər sorğu qanuni hesab edilərək cavab veririz. Halbuki, adətən öylə sorğular olur ki, sorğu dairəsindən çıxır. Böylələrinə hökumət ələladə cavab vermir. Siz soru[şu]rsunuz ki, Azərbaycan daxilində buğda yığılıb dağıldığı və hökumət məmurlarının da iştirak etdikləri məlumdurmu? Azərbaycan Hökuməti heç öylə bir qanun verməmişdir ki, əhalidən bir "dən" də yığılsın. Siz bilirsiniz ki, buğda yığılıb Türk Komandanlığı dövründə əsgər ehtiyacı üçün və bu işdə hökumətin əli olmamışdır. Ola bilər ki, bu işdə Daxiliyyə Nəzarəti məmurları Komandanlığa kömək etmiş olalar, amma təkrar edirəm, Azərbaycan Hökuməti əhalidən üşr yığmamışdır. Bu işlər türklər gedənədək davam etmiş və bu xüsus tamamilə onların öz əllərində olmuşdur.

Sonra Türk Ordusu gedəndə hökumət o şeylərin mövcud olduğunu bildikdən Komandanlığa müraciətlə şeylərin bizim məmləkətdən yığılmış və binaənileyh [o səbəbdən] bizə məxsus olduğunu bəyanla təvəqqe eylədi ki, hər nə varsa kağız və siyahı ilə bizə təhvil versinlər. Fəqət, rəsmi cavab gəldi ki, Türk Ordusu getməyəcəkdir, ona görə də heç bir şey verilməyəcəkdir. İş bu mərkəzdə qaldı. Biz də məcburən almağı özümüzə rəva görmədik. Bir vaxt eşitdik ki, ordu gedir. Əsgərlər hər şeyi atıb gedirlər. Şeylər idarəsiz, başına qalıb. Azuqədən əlavə, ləvazimi-əsgəriyyəni [hərbi sursatı] də buraxıb gedirlərdi. Bunu eşidərək Daxiliyyə Nəzarəti qubernatorlara əmr etdi ki, o şeyləri mühafizə etsinlər ki, talan olmasın. Ancaq hökumət heç bilmirdi ki, harada, nə qədər, nə şey var. Bununla bərabər mühafizəsi üçün tədbir görüldü. Deyə bilərəm ki, türklər buraxdıqları əşyanın çoxu əlimizə çatdı. Bir qismi Hərbiyyə, digər qismi Ərzaq Nəzarətinə verilmiş, bəzi yerlərdə də bir qədər qalmışdır. Onu Daxiliyyə Nəzarəti saxlayır. Bu, arpa və buğdadır ki, mühafizəsi üçün tədbir görülür.

Mənim sözümdən bu çıxmır ki, buğdanı, arpanı yığanda xırsızlıq [oğurluq] ya sui-istemal [sui-istifadə] olmamışdır, amma hökumət lazımi tədbir görmüşdür. Hangi yerdə nə olduğunu biz bilmirdik. Ancaq ən əvvəl bizə xəbər gəldi ki, Quba mahalında yığılan buğdadan bir qismi bizə çatmamışdır. Oraya məmur göndərdik, hal-hazırda təhqiqat icra olunur. Əgər məmurların əli olduğu kəşf edilərsə, o halda əlbəttə ki, müqəssirlər məhkəməyə veriləcək və qanuna görə cəzalandırılacaqlardır. İkinci dəfə Göyçaydan xəbər gəldi ki, orada da böylə bir iş olmuşdur. Nəzarət böyük bir komissiya göndərmişdir ki, orada işi təhqiq etsin, görək müqəssir kimdir. Kəşfi-həqiqətdən sonra əlbəttə orada da müqəssirlər məhkəmə və məsuliyyətə cəlb edilib cəzalandırılacaqlardır. Yenə bir xəbər varid oldu ki, Gəncə mövqifində [stansiyasında] olan malları dağıdırlar. O barədə də binagüzarlıq edildi [sərəncam verildi] ki, Gəncədəki mallar məhəlli [yerli] ərzaq idarəsinə təhvil verilsin; verilmişdir. Türklər getdikdən sonra heç kəsdən pulsuz-parasız buğda ya sair mal alınmamışdır. Daxiliyyə Nəzarəti bir məmurun sui-istemalını kəşf etsə, dərhal onu cəzalandıracaqdır. Buğda məsələsi bununla qurtarır.

Sorğuda çox hekayətlər göstərirlər. Əzcümlə [o cümlədən] natiqlər dedilər ki, neft məsələsində də məmurların əli var. Doğrudan da neft məsələsi böyük bir məsələdir. Burada derlər ki, Qazağa külli miqdarda neft aparılmışdır. Həm Gürcüstanda və həm Ermənistanda neft qəhətliyi var. Onlar da çalışırlar Azərbaycandan neft aparsınlar. Qazaxda bir vaxt çox neft vardı. Bu miqdardan məmurların əli ilə qanundan xaric olaraq Gürcüstana çox neft aparılmışdır. Bu işdə bir neçə məmurun əli olduğu anlaşılmışdı. Şimdi bu iş təhqiq edilmiş, müstəntiqə verilmişdir və istintaqdan sonra məhkəmədə baxılacaqdır. Dəmiryolundan başqa Qazağın özündə də noyabrın əvvəllərində bəzi şeylər olmuşdur. Söz burasındadır ki, Qazax mahalına çox neft getmişdir. Neft alanların da həpsi nefti Ağstafaya aparır və orada böyük pula satırlar. Oradan da çalışıb nefti araba, dəvə ilə, yainki dallarında Gürcüstana və Ermənistana aparırlar. Orada bu iş ətrafında böyük ehtikar [möhtəkirlik] dəxi olmuşdur. Böylə ki, Daxiliyyə və bəzi sair Nəzarətlər məmurları və Türk Komandanlığı iştirakı ilə böyük bir komissiya əmələ gətirərək neft aparanlardan puta 20 manat naloq kimi pul almışlardır. Məzkur [deyilən] pulların nerəyə getdiyini sual etdikdə cavab vermişlər ki, Qazaxdakı qışlalara [kazarmalara] xərc edilmişdir. Daxiliyyə Nəzarəti bu əhvalatı bilər-bilməz dərhal binagüzarlıq etdi [sərəncam verdi] ki, heç kəsdən pul alınmasın və şimdi artıq alınmır. Müqəssirlərlə də əlbəttə məmləkətin qanununa müvafiq rəftar ediləcəkdir.

Sorğuda daha başqa bir şey yoxdur.

Bir neçə söz də deyəyim. Mən sizin hüzurunuzda deyirəm, qüsurlarımız var, Nəzarətin hər bir işi düzdür demirəm, ancaq işlərin həpsini bu üç-dörd ayda düzəltmək mümkün olmamışdır. Böyük müşkülat vardır. Nəzarət ixtiyarında olan bütün vəsilə və qüvvə ilə bunları düzəltməyə çalışmağa borcludur. Nəzarət çalışır ki, o qüsurlar rəf oluna [aradan qaldırıla] və idarəni öylə yola qoyaq ki, camaat razı, məmləkət salamətdə qalsın.

## TELEQRAF XƏBƏRLƏRİ

### İngiltərənin məlumati-rəsmiyyəsi

İstanbuldan Osmanlı Hökuməti tərəfindən göndərilən əmrnamə mövcibincə [əmrnaməyə əsasən] Qars mahalını təxliyə edən 12-ci Türk firqəsi [diviziyası] komandanı Əli Rüfət bəy fevralın 2-sində Tiflisə ingilis komandanı general-mayor ser Forester-Volker yanına gəlmişdir. Əli Rüfət hal-hazırda həbsdədir və kəndisi də divani-hərb [hərbi məhkəmə] tərəfindən mühakimə edilməsini gözləyir. Mumaileyh [adı çəkilən şəxs] Türkiyə ilə Müttəfiqlər arasındakı mütarikə [atəşkəs] şərtnaməsini pozmaqda ittiham edilir.

### Almaniyada

Veymarda milli iclasın rəsmi-güşadı [açılışı] günü Almaniya bolşeviklərinin (Spartak) çıxışı gözlənir. Şuralar rəsmi-güşad günü heç bir nüfuzları olmayacağından ehtiyat edirlər. Hökumət Veymara külli qoşun cəm etmək istəyir. Zira spartakların yenidən hökuməti əllərinə alacağı Berlində fevralın 3-də şaye olmaqda [yayılmaqda] imiş. Ona görə də hökumət qoşunları bütün böyük imarətləri pulemyotla işğal etmişlərdir. O cümlədən "Forverts" qəzetəsi idarəsini qoşunlar tutmuşlardır.

## SÜLH ƏTRAFINDA

Parisdən rəsmi surətdə məlum edilir ki, Rəisi-cümhur [Prezident] Vilson, Müttəfiq dövlətlərin Baş nazirləri, Xariciyyə nazirləri və Yaponiya nümayəndələri fevralın 3-də Venizelosun Yunanıstan barəsində olan tələbnaməsini dinləmişlərdir.

### Yunanıstanın iştahası

Parisdən göndərilən teleqramdan anlaşılır ki, Yunanıstan tələbnaməsinə fevralın 3-də baxılacaqdır. Görünür ki, bu tələbat mübahisəyə bais olacaqdır. Yunanıstan Kiçik Asiyada olan vüsətli xülyasından başqa Dodekanes, İmros, Kipr və Qara dənizədək olan bütün Türkiyə və Bolqariya Trakyasını istəyir. Yunanıstan

istəyir ki, sərhədi Çatalca xəttindən keçsin. Yunanıstan, paytaxtı İstanbul olacaq (?) yeni beynəlmiləl bir dövlətlə qonşu olmaq istəyir.

**Cəmiyyəti-Əqvam**

Parisdən verilən teleqramdan anlaşılır ki, beş böyük dövlətlər arasında Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsində saziş əmələ gəlmişdir. Necə ki, əvvəldən hiss edilirdi, Cəmiyyəti-Əqvam əsası Amerika təklifindən ibarət olmuşdur. Hərçənd, bəzi mühüm maddələri İngiltərə planı üzərinə keçir. Vilson; lord Robert Sesil və general [Yan Xristian] Smets ilə bərabər işləyir. Lloyd Corcun London səfərinədək bu məsələdə mükəmməl saziş əmələ gələcəyi gözlənir.

## QƏZETƏLƏRDƏN

**Rusiyada**

Yekaterinodarda alınan xəbərlərə görə Perm şəhəri amiral Kolçak əsgərləri tərəfindən işğal edildikdən sonra, Vyatka və Samara üzərinə hərəkət başlanmışdır.

Arxangelsk tərəfdə hərəkət edən Sibirya dəstələrinin rus və əcnəbi əsgərləri ilə birləşəcəyi müşahidə edilir. Bununla da bolşeviklər əleyhinə vahid cəbhə vücuda gətirmək mümkün olar.

**Daşnaksaqan firqəsi üzvlərinin həbsi**

İstanbuldan alınan teleqrafa görə, Daşnaksaqan firqəsinin mərkəzi komitə üzvlərindən Zavriyev və Nazaryans Petroqradda bolşeviklər tərəfindən həbs edilmişlərdir. Bunların həbs edilməsi Bakıda qalan bolşeviklərin ingilislər tərəfindən həbs olunmaları əvəzidir.

**Varşavada**

Varşavadan xəbər verirlər ki, iğtişaşda iştirak edən zabitlər tutulub xüsusi qatarla Novogeorgiyevsk şəhərinə göndərilmişlərdir. Hökumət tərəfindən əhaliyə xitabən nəşr edilən müraciətnamədə deyilir ki, hökumət öz ixtiyarını ancaq Seymə verə bilər. Varşavada mühasireyi-əsgəriyyə elan edilmişdir.

**Ukraynanın boşeviklərə müharibə elanı**

Kiyevdən xəbər verirlər ki, Ukrayna Hökuməti Rusiya Bolşevik Hökumətinə böylə bir nota göndərmişdir:

Rusiya Cümhuriyyətinin Xalq Komissarları Şurasına

Xariciyyə İşləri komissarının göndərdiyi cavab teleqrafında doğru cavab verməkdən imtina edilməsi təkrar olunur. Rusiya Şura Hökuməti əsgərlərinin Ukrayna tərəfə edilən hərəkətdə iştirak etmələri həqiqəti rədd edilir. Eyni zamanda yenə də sülh müzakiratına [danışıqlarına] başlanması təklif olunur. Bu da Ukrayna ilə Rusiya arasında müharibə halı olduğunu təsdiq edir. Ukrayna Hökuməti beləədd [hesab] edir ki, Rusiya Şura Hökuməti bu cavabla Ukrayna Hökumətinə rəsmi müharibə elan edir. Rusiya Şura Hökuməti Getman ilə mübarizəyə başlayandan Ukrayna xalqı əleyhinə müharibə etməkdədir. Rusiya Hökuməti bu mübarizədən istifadə edib Ukrayna iğtişaşının birinci günlərində Ukrayna torpağını zəbt etməyə və Getman əsgərləri ilə müharibə edən Ukrayna Cümhuriyyəti əsgərlərinin əhdşikənanə [xaincə] bir surətdə arxalarına durmağa başlamışdır. Ukrayna Hökuməti izhar edir ki, Xariciyyə İşləri komissarının cavabında açıq bir surətdə göstərilən müharibə elanını Ukrayna Hökuməti etiraf [qəbul] edir. Bu müharibə nəticəsinin də hər bir günahı hücum edən tərəfin öhdəsinə düşür.

*Hökumət rəisi: Vinniçenko*
*Üzvlər: [Simon Vasilyeviç] Petlyura, [Fyodor Petroviç] Şvets, [Afanasi Mixayloviç] Andriyevski və [Andriy Qavriloviç] Makarenko.*

**Biçeraxov nə üçün getmiş?**

"K. S." qəzetəsi xəbər verir ki, general Biçeraxovun istefası məsələsi qəti surətdə həll edilmişdir. İndi anlaşılır ki, Biçeraxovun istefasına zeyldəki [aşağıdakı] fəqərə [hadisə] səbəb olmuşdur. Teymurxanşurada olan Dağıstan Hökumətinin üzvlərinin rəvayətinə görə, Biçeraxovun adı Dağıstanda və Çeçenistanda çox yaman tanınmışdır. Biçeraxovu dağıstanlılar yanında bədnam edən onun Bakıda gördüyü hərəkəti, Dağıstanda və Çeçenistanda çıxartdığı oyunları, Dərbənd, Petrovsk və Teymurxanşurada türklərlə dava etdiyidir. Amma indi bolşeviklər əleyhinə dağıstanlılarla bir yerdə iqdamatda [təşəbbüsdə] bulunmaq vaxtı yetişmişdir. Hərgah bu qüvvənin başında general Biçeraxov durarsa, bunu dağıstanlılar özləri üçün böyük həqarət hesab edəcəkdirlər. İştə bu münasibətlə Biçeraxov mövqeyindən istefaya məcbur olmuşdur. Yəni, onun istefası dağıstanlıların tələbi üzərinə olmuşdur. General Biçeraxov istefa verərkən demiş:

*"Mən bu məsələ ətrafında mübahisata [mübahisələrə] yol verməmək üçün iş başından çəkilirəm və bilirəm ki, məndən sonra gələn general Prjevalski Rusiya mənafeyinin layiqli müdafeyidir [müdafiəçisidir]."*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Səhhəti-Ümumiyyə [Səhiyyə] naziri həzrətlərinin qanun layihəsini dinlədikdən sonra qət edilmişdir ki, Səhhəti-Ümumiyyə Nəzarətinin əhalinin hifzüssihhəsi [sağlamlığının qorunması] üçün istədiyi 4 525 000 təsvib [bəyənilmə] və təsdiqdən ötrü Məclisi-Məbusana pişnihad [təqdim] edilsin.

* Səhhəti-Ümumiyyə naziri həzrətlərinin müsri [yoluxucu] xəstəliklərlə mübarizə etmək barəsindəki məruzəsindən sonra qət edilmişdir: Səhhəti-Ümumiyyə Nəzarəti tərəfindən müsri xəstəliklərlə mübarizə etmək layihəsi və həman layihə üçün istənilən 7 835 000 rublə təxsisi [ayrılması] təsvib edilməklə nazirə tapşırılsın ki, işbu məsələyə dair qanun layihəsini tərtib verib Məclisi-Məbusana idxal etsin.

* Maarif naziri həzrətləri Şurayi-Vükəlaya bir izahat pişnihad edərək məlum etmişdir ki, Orucovların Mart hadisatından sonra milliləşdirilmiş və şimdiki Hökumət mətbəəsinə köçürülmüş olan mətbəəsi əmlakını xüsusi bir komisyon qiymət etmişdir. Oruczadələrin verdikləri ərizəyə məbni [əsasən] onların zərərləri verilməlidir. Komisyon zərəri 468 380 rublə təxmin etmişdir. Nazir həzrətləri işbu paranın Maarif Nəzarətinə buraxılmasını rica və təmənna etmişdir.

**NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]**

**Məsai Nəzarətində**

Bu vaxtadək bütün işlər Məsai [Əmək] Nəzarətində təsdiq edildiyindən, qövldən felə [sözdən işə] gətirilmək üçün Baş Fabriçni inspektora göndərilirdi. Bundan sonra bütün Nəzarətə aid məsələlər Nəzarətin özündə qövldən felə gətiriləcəkdir.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Rəisi-vükəla [Baş nazir] həzrətlərinə müraciətən Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] rica etmişdir ki, Gəncədəki fərarilər [qaçqınlar] xəstəxanası üçün dərman buraxılsın.

* Məsai Nəzarəti Maliyyə Nəzarətinin maliyyə şöbəsinə müraciətən rica etmişdir ki, dəftərxana katibi Kazımova dəftərxana təşkili üçün 10 000 manat buraxılsın.

* Məsai naziri Baş Fabriçni inspektora müraciətən rica etmişdir ki, Məsai Nəzarəti layiqli surətdə təşkil edilənədək 5 nəfər Müəssisədarlar, 5 nəfər də Kəsbkarlar İttifaqından mürrəkəb [ibarət] xüsusi bir müşavirə dəvət etsin. İşbu müşavirə, müvəqqəti fəhlə işlərinə baxacaqdır. Birinci müşavirədə nazir özü iştirak etməklə işbu məsələlər müzakirə ediləcəkdir:

1) Məvacib;

2) Fabrika-zavod komitələri.

Komitə fəaliyyəti nəticələri Məsai Nəzarətinə veriləcəkdir ki, təsdiq edilsin.

* Bu gündən etibarən Məsai Nəzarəti Mirbabayevin mülkündə, ikinci sırada, üçüncü mərtəbədə yerləşdirilmişdir. Nəzarətə həyətdən daxil olmalıdır.

* Məsai Nəzarəti Ərzaq Nəzarətinə müraciətən bəyan etmişdir ki, fəhlələrin məvaciblərinin artırılmasına baxmayaraq, mədən dairələrindəki ərzaq işləri günü-gündən fəna hal kəsb etməkdədir. Nəzarət rica etmişdir ki, mədən dairələrinə ərzaq vermək barəsində Nəzarət hangi bir vəsaitə müraciət edəcəyini məlum qılsın.

**AZƏRBAYCAN PAYTAXTI**

**VII**

Övliya Çələbi mərhumun hekayəsindən də anladıq ki, ruslar Bakının neftinə pək əski zamandan bəri göz dikmişlər və uzaq zamanlardan bəri burasına bir taqım hücumlar və təcavüzlərdə bulunmuşlardır.

1000 sənə əvvəl 914 səneyi-miladisində knyaz İqor zamanında ruslar Bakıya doğru bir səfər eyləmişlərdir.

942-ci sənədə Bakı və Şirvan vilayətinin zənginliyi təkrar rus kazaklarının tamahını cəlb edərək buralara axın eləmiş və Kür nəhri ilə ta Bərdə şəhərinə qədər enmişlərdir.

1553-cü sənədə Hacı-Tərxan ruslar tərəfindən alınmışdır. Hacı-Tərxanın alındığını mütəaqib [alındıqdan sonra] ruslar İran ilə münasibati-ticariyyəyə [ticarət əlaqələrinə] girmək istəmişlər. Bu səbəblə də Bakı bəndərinə [limanına] hücumları artmışdır.

17-ci əsrdə Bakı ilə Şirvan məşhur Stepan Razin komandasındakı kazak axınçılarının təərrüzlərinə [hücumlarına] düçar olmuşdur. Razin dəstəsi işlupkalarla Bakı sahilinə enir, Kür nəhrinə gəlir, sahilləri yəğma və tarac edərək müvəqqəti qələbələr ehrazından [əldə etdikdən] sonra qoyub çəkilirlərdi.

Böyük Petro siyasi geniş planlarının cüzündə Xəzər dənizinə çox əhəmiyyət verirdi. Burası Şərq məmləkətlərilə bir ticarət yolu idi. Hacı-Tərxan voyevodası Musin-Puşkinə 1700-cü ildə əmr edilmişdi ki, Tarki şamxalı ilə münasibati-ticariyyədə bulunsun. Bu andan etibarən Orta Asiya məmaliki [məmləkətləri] ilə münasibati-ticariyyəni artırmaq çarın daimi düşüncəsini təşkil eyləmişdir. Bu məqsədlə 1715-ci ildə knyaz Bekoviç-Çerkasskiyə əmr edildi ki, Orta Asiyaya doğru səfərə hazırlansın. Kəndisinə eyni zamanda bu da tapşırıldı ki, Ceyhun nəhrini əski məcrasına salaraq Xəzər dənizinə axıdılması üçün tədbirlər görsün. 1718-ci sənədə yenə böylə bir məqsədlə Volınski səfirlik sifətilə İrana göndərildi.

Volınski İran ilə təfsilən tanış oldu. Eyni zamanda Petronu [I Pyotru] Xəzərin sahillərini tutmağa təşviq eylədi. Yoxsa buralarını əfqanlılar tutacaqlar – deyə çarı əndişəyə buraxdı.

Çar Volınskinin tövsiyələrinə qulaq asdı. Bilxassə ki, şamxal Adil Giray bütün Dağıstan camaatları namına [adına] elçi göndərib ərzi-təbəiyyət eyləmişdi [tabe olduğunu bildirmişdi]. Bunun üzərinə Petro Volınskiyə İran səfərinə hazırlanmağı əmr eyləmişdi. Səfərə hazırlanmış, fəqət sonra İrana hərb elan etmək niyyətindən vaz keçilərək Dağıstana gəlməklə iktifa [kifayət] edilmişdi. Böyük Petro 1722-ci ildə Tarki şamxal[ı] Adil Girayın dəvəti üzərinə Dağıstana gəldi. Sulakda istiqbal edildi [qarşılandı].

Sonra çarın məhfili [heyəti] Dərbəndə doğru getdi. Yolda Qaytaq xanı Sultan Mahmud müqavimət göstərdiyindən dəf edildi. Böyük Petro Dərbəndi alıb oradaca qışlamışdı.

Petro Bakıya çox əhəmiyyət verirdi. Çar general Matyuşkinə əmr eyləmişdi ki: “Təcilən Bakıya get, məzkur [adı çəkilən] şəhəri al, Allah yardımçın olar, şəhərin açarlarını alar, göndərərsən.”

1723-cü ildə Matyuşkin Bakını almışdır. O sənədə İran ilə əqd olunan bir müqavilə mövcibincə [imzalanan bir müqaviləyə əsasən] Bakı ilə Dərbənd Rusiyaya tərk edilmişdir. 1732 və 1735-ci sənələrdə çariça Anna İvanovna zamanında əqd olunan Rəşt müahidənaməsinə [sazişinə] görə Bakı, Quba və Dərbənd təkrar İrana qaytarılmışlardır. Bu surətlə Şimali Azərbaycandan çəkilmiş olan Rusiya Böyük Katerina [Yekaterina] zamanında təkrar övdət eləməyə [qayıtmağa] başlamışdır. 1796-cı sənədə general Zubov Dərbəndi almışdır.

1801-ci ildə Gürcüstan Rusiyaya iltihaq etmişdi [birləşmişdi]. Bu hal üzərinə bugünkü Azərbaycan Cümhuriyyətini təşkil edən Azərbaycan qitəsi, bilxassə hər növ hücumlara məruz qalan Bakı-Şirvan vilayəti artıq iki ataş içində qalmışdı. Şu sırada rusların Qafqaziyadakı ordularının komandanlığına məşhur Sisianov təyin olundu. Sisianov bir kərə Rusiya əlinə keçmiş olduğu halda tərk olunan bəhri-Xəzər sahillərini təkrar zəbt etmək fikrinə düşdü. 1805 sənəsi yaz zamanı general-mayor Zavalişin komandasında 500-dən ibarət bir qüvvə toplayaraq gəmilər

vasitəsilə Bakı üzərinə göndərdi. O zaman Bakının xanı Hüseynqulu xan idi. Zavalişin Bakıya yaxınlaşınca Qubadan Bakıya kömək gəldiyini xəbər aldı. Bu xəbəri alınca təərrüz etmək cəsarətini göstərməyərək şəhəri qoyub çəkildi. Zavalişinin bu surətlə çəkildiyini xəbər alan general Sisianov bərk acığı tutmuşdu. Xəstəliyinə baxmayaraq Zavalişinə şiddətli itablarda [məzəmmətlərdə] bulundu. Qış düşdüyünü aldırmayaraq 1500 qədər piyada, 200 atlı kazak və ona qədər top ilə özü bizzat Bakı üzərinə gəldi. Dekabr ayı idi. Sisianov bilirdi ki, şiddətli hərəkət etməzsə Zavalişinin ricəti yeni ram edilmiş bəhri-Xəzər sahilindəki xanlara suitəsir hasil edər, hərəkətə gələrlər. Bunun üçün o, rus silahının nüfuz və etibarını qüvvətləndirmək istəyirdi.

Sisianov Hüseynqulu xan ilə sabiqən də tanış idi. Xana xəbər göndərdi ki:

*"Bakıya gəlirəm, ya Bakını alacağam, ya da ki orada öləcəyəm"*.

Yol üzərində Sisianov Şamaxı xanı Mustafa xanın beyətini [itaətini] aldı. Şamaxı dağlarını enərək Bakı xanlığına daxil oldu.

1806-cı sənəsi yanvarının axırlarına tərəf Sisianov Bakı surları [qala divarları] yanında idi. Hüseynqulu xan xəbər göndərdi ki, şəhəri təslim edir, kəndisi də tabe olur. Fevralın 8-nə şəhərin təslimi üçün gün təyin olunmuşdu. Təyin olunmuş gündə rus tarixlərinin yazdığına görə Sisianov yavərlərindən yalnız Eristov ilə birlikdə, bir də bir kazak nəfəri ilə bərabər Bakının qapısına doğru getdi.

Ordunu kəndisindən uzaq bir məsafədə buraxdı. Hüseynqulu xan da kəza [habelə] kiçik bir məiyyətlə [müşaiyət edənlərlə] bərabər olduğu halda knyazı istiqbal eylədi [qarşıladı].

Tərəfeyn [iki tərəf] yaxınlaşınca xanın nökərlərindən birisi tapança ilə vurub generalı haman oradaca öldürdü. Onun ardınca Eristov da öldürüldü. Kazak qaçdı. Generaldan sonra rus ordusunun komandanlığı vəzifəsində olan Zavalişin özünü o dərəcədə itirdi ki, bütün əsgərlərini toplayıb tələsik gəmilərə oturdaraq qaçdı, Tarki şamxallığı vasitəsilə rus cəbheyi-əsliyyəsinə [əsas cəbhəsinə] çəkildi.

Sisianovun sözü doğru çıxdı: "Bakıda öldü". Bu vəq'ə haqqında tarixdə bir "lejen" [legenda] (mənqəbə) dəxi rəvayət olunmaqdadır. Sisianovun başı kəsilərək Hüseynqulu xan tərəfindən şaha göndərilmişdi. Fətəli şah, rəvayət edirlər ki, qış gecələrindən birisində qarşısında manqal, Qafqaziyadan alınan nagüvar [ağır, xoşagəlməz] xəbərlər üzərinə uyumayıb sabaha qədər əlində maşa odu, külü qurdalayaraq mükəddər [kədərli] və dalğın bir vəziyyətdə oturmuş, nagah sabah xoruzlarının banladığını görüncə maşanı manqala vuraraq:

– Ey Xuda, ya məra bekoş, ya ura!... – deyə təğəyyür eyləmişdir [təbdən çıxmışdır].

Günəş doğunca general Sisianovun kəsilmiş başı paytaxta gəlir – deyə xəbər alınmışdır.

General Sisianovun bu macərasını və Zavalişinin o surətlə qayıtmasını xəbər alan general Qlazenap bu vəq'ədən Rusiya etibarı üçün hasil olacaq sui-təsiri idrakla bir qüvvə toplayıb Bakı üzərinə hərəkət eylədi isə də, Tarki şamxalının tədbiri və dostluğu sayəsində yalnız Dərbəndin açarlarını bilahərb və müqavimət [müharibəsiz və müqavimətsiz] təsliminə aldı. Quba ilə Bakıya doğru isə hərəkət edə bilmədi.

Sisianov əvəzinə Gürcüstan komandanlığına general Qudoviç təyin olundu. Qudoviç üçüncü dəfə idi Qafqaziyaya gəlirdi. Qudoviç Qlazenapı çıxarıb yerinə Bulqakovu təyin elədi. Bulqakov Bakı üzərinə gəldi. Şəhər müqavimət göstərməyib təslim oldu. Anlaşıldı ki, general Sisianovun qətli Hüseynqulu xanın rizası və xəbəri olmadan qardaşının Əmir Həmzə adında bir nökəri tərəfindən xudsərana [özbaşına] bir surətdə icra edilmişdir.

Bakı 1806-cı sənəsi sentyabrın 3-də təslim olunmuşdur. (Bakıdan sonra Quba xanlığı dəxi bilahərb təslim olmuşdur.) General Sisianovun başsız bədəni əvvəlcə gömülmüş olduğu məzarından çıxarılaraq erməni kəlisasına [kilsəsinə] dəfn olunmuş, sonra da 1811-ci ildə Tiflisə nəql ilə Sion kəlisası dairəsində dəfn olunmuşdur. Bildiyimiz Sisianov fontanı haman məqtul generalın naminə olaraq yapılmışdır.

1812-ci ildə Gülüstan müahidənaməsi mövcibincə [müqaviləsinə əsasən] Dərbənd, Quba, Gəncə, Şəki, Şirvan xanlıqları ilə bərabər Bakı dəxi qəti surətdə Rusiyaya tərk edilmişdir.

*M. Ə. Rəsulzadə*

## ƏCZAXANALARIN MİLLİLƏŞMƏK TƏDBİRİ

Neçə vaxtdır ki, tamamən xaricilər əlində bulunan əczaxanaların [apteklərin] şagirdləri, bizim təbircə nüsxəbəndləri tətil yapıb əhalini vaxtlı-vaxtında dərman əxz və təhsilində [tədarükündə] aciz buraxmışlardır.

Yatalaq naxoşluğunun hər qismi kəsbi-şiddət etdiyi [şiddətləndiyi] bir zamanda, əhalinin indi hər vaxtdan artıq dərmana möhtac qaldığı günlərdə və saatlarda tətilçilər və əczaxana sahibləri kamali-asayişlə tətil meydanında uğraşaraq əhalinin göz yaşlarına heç bir məna verməyirlər. Nə bu tərəf tələbatından bir qədər azaldır, nə o tərəf tələbatın qəbuluna razı qalır. Xülasə, mübarizlərin meydanı getdikcə qızır, amma dərmansız tələf olanların halı heç kəsin ürəyini də yumşaltmayır və nə üçün də yumşaltsın. Qoy əhalinin gündə yüzü ölsün. Onlara nə borcdur. Özlərinə mənsub adamları naxoş olarlarsa, hər iki tərəf dərman əxz etməkdə bir an məəttəl olmayacaqlar. Odur ki, mübarizə davam edir və hərgah hökumət bu işə müdaxilə etməzsə, yəqin ki, tətil müddəti daha artıq sürəcəkdir.

Tətilin əsası, məvaciblərin artırılması ilə bərabər, müştərək [kollektiv] müqavilənamənin əczaxana sahibləri tərəfindən təsdiq və qəbul olunmasıdır. Yəni tətilçilərin ümdə məqsədi təmini-maaşdır. Lakin bunu hangi bir əqli-səlim qəbul edə bilər ki, iki yüz minlik bir camaatın əhvali-səhiyyəsi üç cift bir tək nüsxəbəndlərin tətil vasitəsi ilə qazanıla biləcək mənfəəti-şəxsiyyələrinə qurban kəsilsin.

Doğrudur, mədəni ölkələrin əsnafı arasında tətil yapmaq, təmini-məişət üçün sahibkarlarla mübarizəyə qurşanmaq qadağan deyil. Lakin əhalinin güzəranına, asayişinə toxunma[ma]q tətilin ən böyük şərtlərindən biridir. Çörəkçilər, suçular, işıq verənlər sahibkarlardan haqq

tələbi ilə tətilə qalxarlarsa, bununla bərabər çalışarlar ki, hər nə vəsilə ilə olursa-olsun əhalinin gündəlik çörəyi, suyu və işığı özünə çatsın. Bu gün Bakı əhlinə dərman əxz etmək çörək və su mənzələsində [dərəcəsində] bulunan mühüm ehtiyaclardan biridir.

Doğrudur, tətilçilər ədviyə istehzarı [dərman hazırlamaq] üçün bəzi əczaxanalara növbəçi nüsxəbəndlər göndərmişlərdir. Lakin bunların bu binagüzarlıqları [tədbirləri] yevropalıları təqlidçilikdən başqa bir şey deyildir. Çünki müsri [yoluxucu] naxoşluqların şiddətli bir dövründə iki-üç aptek əhalinin ehtiyacını rəf edə [aradan qaldıra] bilməz. Saatlarla dərmanın istehzarını bəkləyən naxoş sahibi evə qayıdarkən naxoşunun dərman intizarı ilə dərmansız vəfat etməyini müşahidə edir. Bumu əhaliyə imdad? Hələ tətilçilərin qəzetələrə yazdıqları şikayətlərdən böylə məlum olur ki, tətil əsnasında bəzi aptekçilər dərmanları dəyişik buraxırlar, qiymətlərini artırırlar, əczanın müvazinəsi düz tutulmayır, mütəxəssislər əvəzinə əczaçılıqdan başı çıxmayan adamlar dəvət olunur.

İştə əhalini düşündürən, iztirablı qorxulara düçar edən bu şikayətlərin əsaslı, yaxud əsassız olduğunu təyin etmək məhaldır [çətindir]; bəlkə bizimkilərə heç mümkün də deyil. Zira əczanın məvaddi-müxtəlifəsini [dərmanın müxtəlif maddələrini] və hər maddənin ayrıca mizanını [öl-çüsünü] bilmək üçün bunu "laboratoriya" denilən emalatxanalarda təhlil vasitəsilə bilmək olar. Bu da nə əhaliyə və nə də təbiblərə müyəssər bir iş deyildir.

Bəs ədviyəyə [dərmana] möhtac qalmış əhalinin çarəsi nədir? Məgər camaatın ömrü-günü bunların əlində oyun-oyuncaqdırmı? Zənnimcə, madam ki, əczaxanalar bu işə ticarət nəzəri ilə baxanların əlində qalır, əhalinin ehtiyacı, naxoşların halı tacirlərin ayaqları altında tapdalanıb gedəcəkdir. Varsa buna bir çarə, o da əczaxanaların hökumət əlinə keçməyidir. Yəni əczaxanalar gərək milliləşsin. Əczaxanaların milliləşməsi ondan ibarət deyil ki, burada xidmət edənlər türklər olsun yaxud bunların istemal [istifadə] etdiyi lisan türk lisanı olsun. Xeyr. Bəlkə əczaxanaların təqib etdiyi maddi və mənəvi faydalar xüsusi tacirlər üçün olmayıb tamam məmləkətin, tamam bir millətin gərək olsun.

İştə əczaxanaları milliləşdirmək üçün bugünkü tətillər hökumətə böyük bir bəhanə ola bilərdi. Lakin əczaxanaları milliləşdirmək üçün hökumətin əlində hazır vəsilələr [vasitələr] mövcuddurmu ki, məsələni sürətlə bitirib öhdəsindən gələ bilsin?

Əhvalatın bu cəhəti məsələnin baş tutmasına bu dəfə mane olacaqdır. Çünki, məəttəəssüf [təəssüf ki], hökumətin əlində hazırda durmuş ehtiyat nüsxəbəndləri yoxdur ki, əczaxanaları zəbt edərək yeni nüsxəbəndlər vasitəsi ilə sabahdan işə girişilsin. Bu dəfədəki fürsət fövt olunarsa, sonralardan yenə bu məsələ başlı-başına buraxılmamalıdır. Dəmiryollar millətin mali-məxsusu [xüsusi malı] olduğu kimi, əhalinin hifzüssihhəsinə yarayan əczaxanalar da millətin gərək olsun. Gürcülər bələdiyyə və natariusxanalar kimi müəssisələrin milliləşməsi üçün ciddü cəhd edirlər, çabalayırlar. Gürcü lisanında teleqraflar çəkirlər. Ermənilər univərsitə kimi ali məktəb açırlar. Nə eybi var? Qoy bizim hakimiyyətimiz xırdaca işlərdən başlasın. Bu gün öhdəsindən gələ bilmədiyimiz işləri başına buraxmayıb sabahkı gün üçün hazırlaşmalıyız. Qoy hökumət bir danə nüsxəbəndlər məktəbi ilə bərabər bir hökumət əczaxanası açsın. Söz yoxdur ki, hökumət əczaxanası əhaliyə xəyanət etmədiyi üçün camaatın da etibar və etimadını qazanacaqdır. Məktəbdə bir çox nüsxəbəndlər hazır edəcəkdir ki, bunların vasitəsi ilə Azərbaycanın tamam əczaxanaları müruri-zamanla [zaman keçdikçə] milliləşə bilsin. Naxoşların ədviyəsi düzgüncə buraxılsın. Tamahkar aptekçilərin tamahına bir hədd çəkilsin. İnanılsın ki, əhaliyə saxta ədviyə buraxılmayacaqdır. İman gətirilsin ki, füqaranın dərisi soyulmayacaqdır.

Xülasə, əczaxanaların milliləşmək fəqərəsi [hadisəsi] ən mühüm məsələlərdən biri olduğu cəhətə həm hökuməti və həm də camaatı düşündürməlidir!

*Fərhad Ağazadə*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

* Bələdiyyə İdarəsi Xidmətçiləri İttifaqı, Bələdiyyə İdarəsinə məlum etmişdir ki, şəhər arabaçılarına xəbər verilmişdir ki, müştərək müqavilənamə ləğv edildikdən sonra həftədə bir gün bayram etmək məsələsi də ləğv edilmişdir. Arabaçılar məsələni müzakirə etdikdən sonra qət etmişlər ki, bir gün bayram etmək məsələsi təcdid [bərpa] edilməlidir.

* Maliyyə Nəzarəti Xəzinə şöbəsi, Bələdiyyə İdarəsinə məlum etmişdir ki, hökumət qərardadına görə Bələdiyyə İdarəsinə faizsiz olaraq bir milyon rubləlik bir istiqraz açılmışdır.

**Binəqədidə leksiya**

Şənbə günü fevralın 8-i saat 4-də Binəqədi "Narodnı dom"da Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə cənabları əhvali-hazirəyə [hazırkı vəziyyətə] dair mühazirə (leksiya) oxuyub və Azərbaycan Məclisi-Məbusanı haqqında məlumat verəcəkdir. Ümum fəhlə və kəndli yoldaşların mühazirəyə gəlmələri rica olunur.

**"Müsavat"da**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin şöbələri. Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin zeyldəki [aşağıdakı] yerlərdə şöbələri açılmışdır:

1. Əmirhacıyanda şöbə açılıb sədrliyə Süleyman Rzazadə, katibliyə Əbdülhüseyn Heybətzadə seçilmişlər.
2. Hacı Zeynalabdin Tağıyevin fabrikasında şöbə açılıb sədrliyə Səfər Qurbanzadə, katibliyə Mahmud Salman oğlu seçilmişlər.
3. Bülbülə kəndində şöbə açılıb sədrliyə İzzətulla Şərifzadə, katibliyə Şeys bəy Bakıxanzadə seçilmişlər.
4. Quba qəsəbəsində şöbə açılıb sədrliyə Əbülqasım Rüstəmzadə seçilmişlər.
5. Quba qəsəbəsi, Rustov mahalı, Afurca qəryəsində [kəndində] şöbə açılıb sədrliyə Mahmud Məhəmməd oğlu, katibliyə İsfəndiyar Məhəmmədşah oğlu seçilmişdir.

*Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi Təbliğat-təşkilat şöbəsi*

**Azərbaycan Teleqraf Acentəsi**

Eşitdiyimizə görə, bu yaxınlarda Azərbaycan Hökuməti tərəfindən Gürcüstan və Ermənistan Cümhuriyyətlərində olduğu kimi bir Azərbaycan Teleqraf Acentəliyi təşkil ediləcəkdir.

**Bir fəqərə [məsələ]**

Hal-hazırda şəhərdə davam etməkdə olan müsri [yoluxucu] tif (səpmə yatalaq) xəstəliyi ilə mübarizə etmək üçün Səhiyyə Nəzarəti cənbində [nəzdində] xüsusi bir heyət dəxi təşkil edilmişdir. Həmin heyətin binagüzarlığına [təşəbbüsünə] görə hökumət tərəfindən 7 milyon 83 min manat para təxsis edilmişdir [ayrılmışdır] ki, xəstəliklə ciddi surətdə mübarizə edib önünü almaq üçün lazımi planlar və tədbirlər ittixaz edilsin [görülsün]. Əlbəttə hökumətin böylə təşəbbüsünü alqışlayıb və məzkur [deyilən] heyətin müvəffəqiyyətini diləriz. Fəqət bir şey diqqətimizi cəlb edir ki, o da heyət tərəfindən xəstəliyə dair təb və intişar edilməkdə [çap edilib yayılmaqda] olan intibahnamələr [vərəqələr], ixtar [xəbərdarlıq] və qeyri məlumat vərəqələrinin "Prikaspiyski İttifaqı"na mütəəlliq [məxsus] "Trujenik" mətbəəsində çap edilməsidir.

İştə bu münasibətlə bir şey bizim heyrətimizə səbəb olur. Əcəba hökumətə mütəəlliq olan üç dənə böyük mətbəəni buraxıb da heyət vərəqələri, sənədləri, kitabları, dəftərləri və qeyrilərini "Trujenik" mətbəəsində çap etdirir və minlərlə manat məbləği də yabançı bir ittifaqınmı cibinə doldurur? Halbuki hökumət mətbəələri böylə lazımi işləri məccani [pulsuz] olaraq görüb və para almaq lazım olarsa hökumət nəfinə [xeyrinə] alar. Buna binaən [buna görə] Maarif Nəzarətinin diqqətini bu fəqərəyə cəlb etməyi lazım bildik.

## LƏNKƏRAN MÜSƏLMANLARI GENERAL TOMSON YANINDA

General Tomson hüzurlarına Lənkəran müsəlmanlarının nümayəndələri gedib Lənkəran haqqında bir ərizə veribdirlər. Ərizədə Muğan Hökumətinin müsəlmanlar haqqında etdikləri zülüm və sitəm bir-bir nəql edildikdən sonra axırda bu sözlər yazılıbdır:

*"Ümumən biz müsəlmanlar sülh və insaniyyət tərəfdarı cənab Tomsondan acizanə xahiş edirik Allahın rizasını mənzur tutub [nəzərdə tutub, niyyət edib] biz bipənah müsəlmanları bu xunxar [qaniçən] və vəhşi Muğanski Upravanın [Muğan Hökumətinin] zülmündən xilas buyursunlar. Lənkəran uyezdi Bakı əyalətinin bir qitəsidir. Müsəlman camaatı Azərbaycan Hökumətini təsdiq edib və təbrik edirik və arzusundayıq ki, Azərbaycan Hökumətinə mülhəq olaq [birləşək] və ümidvarıq biz Allahın məxluqunun ahnaləsi mürüvvət sahiblərinin qəlbinə təsir edib, əlacında çarələr buyururlar və bu söz məşhurdur, general Tomson vədə verib ki, Azərbaycan Hökumətinə müavinət edib və edəcək və biz Azərbaycan təbəələrini zülmdən azad edib, hürr və azad millətlər cərgəsinə daxil buyuracaqlar və bizdən ötrü nəhayət qəmginlikdir ki, bir neçə nəfər xudnüma [özünü göstərən] adlarını Muğan Hökuməti qoyub, öz mənfəətlərindən ötrü müsəlmanları qılınc altında saxlayıb, zorən istəyirlər müsəlman torpağında özləri üçün cümhuriyyət düzəltsinlər və əlavə cənab general Tomsona ərz edirəm ki, bu Muğanski hökumətin əmri ilə yüz parça kənddən artıq yanıb fəna olubdur və əhalisi didərgin olublar. Əz-ancümlə [o cümlədən] bu aşağıda zikr olunan kəndlərdən əkin yerlərini əllərindən alıb veriblər xaxollara: Qədirli, Xallıcalı, Qarğalıq, Şəhriyar, Dəlləkli, Əminli, Məhəmmədxanlı, Köcəkli, Ərəbli, Həsənli, Mollahəsənli, Ağatəpəli, Xırmandalı, Toxulçaq, Kərbəlayi Abdulla təkləsi, Ləngan.*

*Bu kəndlərin əhalisi yersiz, yurdsuz, qapılarda avara, sərgərdan qalıblar.*

*Lənkəran və uyezdinin müsəlmanlarının halı günbəgün fənalaşır. Xaxolların etdiyi zülüm və sitəm müsəlman kəndlərində şiddətlənir. Hər gecə quldur dəstəsi kimi müsəlman kəndlərinə dağılıb qarət etməyə iktifa [kifayət] etməyib, biçarə kənd qadınlarının ismətinə təcavüz edirlər. Yolları kəsib gəlib-gedən şəxslərdən pulunu, atını əllərindən alırlar. Müsəlmanların qoyun və qaramallarını ilxı sürüsü kimi özlərinin məxsusi malları hesab edib evlərinə aparırlar."*

## ƏRZAQ İŞLƏRİ

Qobu kəndi əhalisi Ərzaq nazirinə verdikləri ərizələrində deyirlər ki, kəndin oğrularından Balaş Baxşəli oğlu və Məhəmməd Molladadaş oğlu saxta möhürlər qayıtdırıb, özlərini komissar adlandırmışlar. Bunlardan Balaş Baxşəli oğlu komissar, Məhəmmədyar Xəlil oğlu müavin və Məhəmməd Molladadaş oğlu katib olub Məhəmmədin camaat tərəfindən vəkil olması üçün saxta priqovor [hökm, qərar] da düzəltmişlər. Bu qərarla bunlar oğurluğa başlamışlardır. Dekabr ayında çay və qənd paylamaqdan ötrü bu quldurlar saxta priqovor düzəltmişlərdir. Qəndi və çayı kəndə gətirəndən sonra yarım girvənkə çay əvəzinə adam başına yarım çetvert çay vermişlər. Bir paralarına hətta heç verməmişlərdir. Qənd və çay almaq üçün hazırladıqları siyahıda 2100 adam göstərmişlərdir vəhalonki [halbuki] Qobu kəndində 1900 nəfərə yaxın adam vardır ki, bunlardan da 100 nəfəri şəhərdə və qeyri yerlərdə olurlar. Bu qərar üzrə 300-dən ziyadə adamın qənd və çayını bu oğrular özləri üçün götürmüşlərdir. Bunlardan əlavə, məzkur [adı çəkilən] oğrular bir para adamların qənd və çayını verməməkdən savayı özlərini də qorxudub demişlər ki, bizim bolşevik proqrammamız vardır. Hər kəsə keyfimiz istər, o adama da qənd və çay verərik.

Ərizənin axırında Qobu əhalisi xahiş edir ki, kənddə nə qədər adam olduğunu təhqiq etməkdən ötrü kontrol göndərilsin və təzə vəkil intixab edilənə [seçilənə] qədər məzkur oğrulara heç bir şey buraxılmasın.

Ərzaq Nəzarəti Qobu əhalisinin bu ərizəsini Bakı nahiyə məhkəməsinin müddəiyi-ümumisinə [prokuroruna] göndərib, bu işin təhqiq olunmasını xahiş etmişdir.

* Göyçay uyezdi Qaraməryəm kəndi əhli Mirmöhsün Mirqədir oğlu Ərzaq nazirinə verdiyi ərizəsində deyir ki, Göyçay uyezdində olan ərzaq vəkil müavini Əlibala Əliyev mənə məxsus buğda anbarını möhürləmişdir. Anbarda min put buğda vardır. Ərzaq vəkil müavininin bu işi, buğdası olanları həyəcana salmışdır. Bu-

na görə xahiş edirəm mənim anbarımın möhürdən azad edilməsi üçün binagüzarlıqda bulunasınız [sərəncam verəsiniz]. Bundan əlavə, bu buğdaları aldığım haqqında sənədlər dəxi təqdim edə bilərəm.

Ərzaq Nəzarəti məzkur [adı çəkilən] Mirmöhsünün ərizəsini Gəncə vəkilinə göndərib Ərzaq Nəzarətinin xüsusi işlər məmuru Rəcəbovun həmin iş haqqında verdiyi bəyanatla bərabər bu işin təhqiq olunmasını təklif etmişdir.

## AZƏRBAYCANDA

**Quba mahalında**

Rəisi-vükəla [Baş nazir] Qubadan bu məzmunda bir teleqram almışdır:

Biz Quba mahalının Qusar uçastoku [sahəsi] əhalisi bu gün bir yerə cəm olub bizim uçastokun Dağıstana mülhəq olması [birləşdirilməsi] barəsində göndərilən yalan teleqrafı müzakirə edərək təkrar qət edirik ki, cavan vətənimiz olan Azərbaycana sədaqətimizi izhar edərək və var qüvvəmizlə Azərbaycan istiqlaliyyəti yolunda fədakarlıq edərək yalançı "müdafelərimizin" [müdafiəçilərimizin] bu hərəkətlərinə, bizim adımızdan Dağıstan Hökumətinə saxta teleqraf göndərənlərə artıq dərəcə nifrətlə protesto ediriz. Qoyunuz bu ağalar anlasınlar ki, bizim keçirdiyimiz fəlakətlərdən sonra dost və düşmənimizi tanıyırız.

Vəkillər: Əbdülcəlil Sadiqzadə, Azay Hacı Mürsəl oğlu, Molla Sibqətulla Şeyx Kərim oğlu, Əbil Hüseynzadə, Əsgər Hacı Dəmir oğlu.

**Qərardad**

1919-cu sənə yanvarın 27-də Xəzri kəndində:

Biz aşağıda imza edən Həzrə, Cibir, Piral, Mucuq, Ukur, Düztahir, Gican, Əcəxur, Gilah, Xuluq, Nəcəfkənd, Zuxul və Tahircal kəndləri Xəzri dairəsi Qusar uçastoku əhalisinin vəkilləri bu gün Xəzri kəndinə yığışıb Qusar uçastoku əhalisi namından [adından] Şimali Qafqaziya Hökumətinə bu yerlərin Dağıstana mülhəq olması [birləşdirilməsi] barəsində göndərilən saxta teleqraflarını müzakirə edib və bizim tərəfimizdən heç bir vaxtda böylə bir teleqraf göndərilmədiyini və bunun fitnəçilər işi olduğunu nəzərə alaraq izhar edirik ki, bizi vəkil edən xalq kimi biz də öz vətənimiz olan Azərbaycana sadiq təbəə olub vətənimizi canü dildən [candan və könüldən] seviriz və həmişə hazırıq ki, əziz vətənimizin səlahı üçün axırıncı damla qanımızı fəda edək. Onun üçün də zeyldəki [aşağıdakı] şəxsləri intixab eylədik [seçdik], bir dəfə də onlar bizim Azərbaycana sadiq təbəə olduğumuzu Qubada mahal naçalnikinə şifahən, Parlamana və Rəisi-vükəlaya [Baş nazirə] teleqrafən məlum eyləsinlər.

Yaşasın cavan Azərbaycan, onun Parlamanı və millətlər qardaşlığı!

Əslində yuxarıdakı kəndlərin vəkilləri imza edib və Həzrə dairəsinin pristav müavini F. Qaşiyev öz imzası ilə onların imzasını təhkim eyləmişdir.

**Priqovor [qərar, hökm]**

1919 sənəsi yanvarın 27-də biz aşağıda imza edən Avaran, Köhnə Xudat, İmamqulukənd, Aşağı Ləgər, Kuzun, Yuxarı Zeyxur və Həsənqala kənd camaatının vəkilləri Qusar uçastoku [sahəsi] pristavının dəvətinə görə bu tarixdə Qusar kəndinə cəm olduq, pristav bizə elan etdi ki, guya bizim adımızdan kim isə Teymurxanşuraya, oblast [vilayət] şurasına teleqraf vurub Qusar uçastokunun Azərbaycandan ayırlıb Şimali Qafqaziya Cümhuriyyətinə yapışmaq arzusunda olduğumuzu bildirmişdir. Biz müttəhidülqövl [yekdilliklə] söz veririk ki, heç vaxt heç bir kəsi bu barədə vəkil etməmişik. Hərgah, bizim adımızdan birisi böylə bir hərəkətdə bulunmuşsa, saxtakarlıq etmişdir. Buna görə imza ediriz: Balaqədeş Cəfər oğlu, Hacıqulu Əhməd oğlu, Kərim Teymur oğlu, Rəsul Baba oğlu, Polad Əlimurad oğlu, Xanbaba Ağası oğlu, Zeynal Xaspolad oğlu, Güləli Seyidəhməd oğlu, Ağakişi Kərimxan oğlu, Qayıb Xanşərif oğlu, Əmirxan Bədirxan oğlu, Lütfəli Fətəli oğlu, Arzuman Şahbaz oğlu, Xanəli Nurəli oğlu, Baxış Molla Ağakişi oğlu, Osman Qədir oğlu, Həsənbəy Qəmbər oğlu, Həsənəli Mansur oğlu, Xanbaba Vəlixan oğlu, Abdulla Molla Xanməhəmməd oğlu, İsgəndər Döndər oğlu, Muradxan Əhmədxan oğlu, Əlimurad Əziz oğlu, Rəhimxan Kərimxan oğlu, Vəzirxan Duraxan oğlu, Hacı Osman Mustafa oğlu, Eyvaz oğlu, Məhəmməd Əmin Hacı Mənaf oğlu və Məhəmmədrəsul Hacıqurban oğlu.

Savadları olmadığına görə bunların əvəzindən xahişlərinə görə qol çəkdi Abdulla Molla Məhəmməd oğlu.

Kuzun, Həsənqala, Yuxarı Zixur, Avaran, Kivnəxudad və Aşağı Ləgər kəndlərinin kəndçiləri (imza və möhürlər)

Həmin priqovor Quba uyezdi upravleniyasına [qəza idarəsinə] təqdim edilir.

*Əslində imza etdi:*
*Qusar uçastokunun pristavı*
*poruçik Zanqiyev.*
*27 yanvar, Qusar.*





**Müxtəlif xəbərlər**

* Üç gün əqdəm [qabaq] Gəncə valisi həzrətləri buraya vürud edərək [gələrək] camaatı dəvətlə lazımeyi-nəsayihdə bulundular [lazımlı nəsihətlər verdilər]. Camaat padvod (biyar) çoxluğundan şikayət etdilər. Vali həzrətləri heç bir işin əcirsiz [muzdsuz] olmadığını anladaraq məhəlli [yerli] məmurlara bu xüsusa diqqət yetirmələrini əmr etmiş. Təəssüf ki, vali həzrətləri həman əzimət edincə [gedən kimi] məmurlar zülümkarlığa başlamışlardır.

* Son həftələrdən bəri müttəsil [ara vermədən] yağmur və soyuq olduğundan və padvod (biyar) çoxluğundan ticarət kəsilmişdir.

## GÜRCÜSTANDA

**Parlamanın bağlanması**

Doqquz ay fəaliyyətdə bulunandan sonra Gürcüstan Parlamanı yanvarın 31-dən etibarən Məclisi-Müəssisan dəvətinə qədər müvəqqəti surətdə qapanır. Bu doqquz ayda Parlamana idxal [daxil] edilmiş olan 243 ədəd qanun layihəsindən bu vaxtadək ancaq 162-nə baxılıb qəbul edilmişdir.

* Oblastnoy komitə [Vilayət komitəsi] tədricən fəaliyyətini artırır. Neçə vaxt keçdikdən sonra Batum ərzaq upravasının [idarəsinin] heyəti dəyişir, Maslovun mərifəti [vasitəçiliyi] ilə Tabaxadze, Dyakonov və doktor Radokini ərzaq upravasına təyin olunurlar.

* Paraxodlar işləməyə başlamışdır. Külli mal gətirilir. Mahal şurası zemstvo

idarəsi [yerli özünüidarə] təşkil etmək üçün hazırlıqlar görülür. Bu məqsədlə də şura bir komissiya təşkil eyləmişdir.

**Rusiya Milli Şurası və gürcülər**

Məlum olduğu üzrə bəzi yerlərdə baş qalxızdıqları kimi Soçidə dəxi bir dəstə ruslar yığışıb bir Rusiya Milli Şurası təşkil etmək istəmişlərdir. Bu xüsusda baş tutmamış olan şura nümayəndələri Gürcü Parlamanı, Gürcü Hökuməti və Tiflisdə mövcud Rus Milli Şurasına bu məzmunda birər teleqraf göndərmişlərdir:

Soçidəki rusların 26 yanvara təyin edilən Milli Şura təşkili xüsusundakı yığıncaqları əqd edilmədi [baş tutmadı]. Zira bir dəstə gürcülər "yaşasın beynəlmiləliyyət" yazılı bayraqlarla gələrək şura nümayəndələrinin bir neçəsini döyüb və rus arvadları naminə olmazın həqarətamiz sözləri deyib məclisi dağıtmışlardır. Rusiya əhalisi bu təcavüzdən xeyli həyəcana düşmüşdür. Bu əhvalları sizə məlum ediriz.

*Müvəqqəti Soçi Şurası*

**Gürcüstan və Denikin**

Gürcüstan Hökuməti ilə Denikin arasında siyasi münasibat və sülhcuyanə [sülhpərvər] əlaqə bərpa edilir. Gürcüstan nümayəndəsi Mdivani qəti surətdə sülh münasibatı bərpa etməkdən ötrü Yekaterinodara əzimət edəcəkdir [gedəcəkdir].

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir!

İşbu məktubumun qəzetənizdə dərc olunmasını xahiş edirəm.

Birinci Zükur [oğlanlar] gimnaziyasının türk lisanı və şəriət müəllimi Mirzə Məsihinin əsgəri imamlığa təyin edilməsi əmrini ləğv edən Şeyxülislam cənablarına məzkur [adı çəkilən] gimnaziya müsəlman mütəallimləri [tələbələri] tərəfindən təşəkkürətımızı izhar edirəm. Bununla bərabər Mirzə Ələkbərlə Mirzə Məsihi cənablarının Birinci Zükur gimnaziyası kitabxanasına hər biri 100 manat ianə etdiklərinə dəxi izhari-təşəkkür eylərəm.

*Gimnaziya müsəlman mütəallimləri namından [adından]: Həmid Məhəmmədzadə*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.



**Təcrübəli buxqalter**

Üç ayın müddətində ən yeni italyan sistemasında türk və rus dillərində mükəmməl surətdə buxqalteriya öyrədirəm. Həkəza [habelə] firmalarda buxqalteriya işlərini tənzim etməyi qəbul edirəm. Unvan: Krasnovodski caddə "Dvartsovı" mehmanxanasında nömrə 19.

*2674*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Papiros, tütün fabrikası**

Açılır bu tez zamanda papiros, tütün fabrikası Voronsovski küçədə 26 nömrəli evdə. Kamali-ehtiramla Ağazeynal Zeynalov.

*2676*

**Yer axtarıram**

Nazirə ya müdirəlik yeri axtarıram. Xarici dillərə malikəm. Ünvan: Suraxanski və Tatarski 176 nömrəli evdə Rəcəbovun mənzili.

*2675*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəallimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Gəmiçilər Şurasının İttifaqı**

Bütün gəmi sahiblərini yekşənbə [bazar] günü fevralın 9-unda gündüz saat 12-də "Qafqaz-Merkuri" cəmiyyətinin kantorasında vaqe olacaq ümumi iclasa dəvət edir. İclasda şuranın məruzəsinə baxılacaqdır.

*2678*

**Opera**

Axşam tamaşası
Azərbaycan Hökumətinin teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşlarının müdiriyyəti
Cümə günü cəmadiyələvvəl ayının 6-sında
1337 sənəsi (fevralın 7-sində 1919 sənədə)
Hökumət teatrosunda müdiriyyətin
aktyorları tərəfindən bu mövsümdə ikinci
dəfə olaraq təntənəli bir surətdə mövqeyi-
tamaşaya qoyulacaqdır
Üzeyir bəy Hacıbəylinin yazmış olduğu
məşhur
**"Şah Abbas və Xurşidbanu"**
operettası 6 pərdədə.
Bu tamaşa təzə artistlərin iştirakı ilə başa
gəlib, qızlar və oğlanlar xoru və həm qoşun
əhli olacaqdır.
Böyük musiqi orkestri Müslüm bəyin təhti-
idarəsində [idarəsi altında].
Biletlər imdidən teatrın kassasında
satılmaqdadır. Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Müdir: Üzeyir bəy Hacıbəyli.

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Sülh ətrafında:**
**Yunanıstanın iştahası**

səh. 102. "Yunanıstan, paytaxtı İstanbul olacaq (?) yeni beynəlmiləl bir dövlətlə qonşu olmaq istəyir.": sual işarəsi qəzetdə getmişdir.

**Qəzetələrdən:**
**Ukraynanın bolşeviklərə müharibə elanı**

səh. 102. "…müharibə halı olduğunu təsdiq edir.": qəzetdə "halı" yerinə "malı" getmişdir.

**Azərbaycan paytaxtı VII**

səh. 105. "işlupka" (rusca: шлюпка): göyərtəsiz gəmi.

"…Hacıtərxan voyevodası Musin-Puşkinə…": burada bir qarışıqlıq olmuşdur; güman ki, söhbət Matvey Stepanoviç Puşkindən gedir.

Puşkin, Matvey Stepanoviç (1630-1706): dvoryan; müxtəlif yerlərdə namestnik və voyevoda olmuşdur.

"Şamxal": Dağıstan hakimlərinin titulu idi. İndiki Dağıstan ərazisində feodal dövləti olan Tarki Şamxallığı 1867-ci ildə ləğv edilmişdir.

"Qaytaq xanı": Qaytaq xanlığı indiki Dağıstan ərazisində feodal dövləti olmuşdur. 1820-ci ildə ləğv edilmişdir.

"Sisianov": qəzetdə "Çiçyanof" kimi getmişdir.

səh. 106. "Ey Xuda, ya məra bekoş, ya ura!": (farsca) "Ey Tanrı, ya məni öldür, ya onu!"

səh. 107. Sion kilsəsi: Tiflisdə qədim kilsə.

"Bildiyimiz Sisianov fontanı…": Sisianovun öldürüldüyü yerdə, şəhərin erməni sakinlərindən birinin təşəbbüsü ilə 1846-cı ildə xatirə abidəsi ucaldılmış, daha sonra abidənin ətrafında fontan düzəldilmişdir. Sovet hakimiyyəti illərində bu abidə sökülmüşdür.

**Əczaxanaların milliləşmək tədbiri**

səh. 107. "nüsxəbənd": əczaçı, dərman hazırlayan.

**Ərzaq işləri**

səh. 111. "…yarım girvənkə çay əvəzinə adam başına yarım çetvert…": girvənkə 400 qrama, çetvert (yaxud çətvər) isə 100 qrama bərabər ağırlıq ölçüsüdür.

**Azərbaycanda:**
**Müxtəlif xəbərlər**

səh. 113. "biyar": məcburi və müftə gördürülən iş, mükəlləfiyyət.





**Bazar, 9 fevral 1919-cu il, nömrə 109**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 8 cəmadiyələvvəl sənə 1337. 9 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## SÜNİ BÖHRAN

"İttihad" firqəsinin bezdən başlayaraq mütləqa hökuməti düşürmək qəsdilə ortaya atdığı "sorğu" Parlaman firqələrinin əhvali-hazirə haqqındakı nöqteyi-nəzərlərini, dövlət məsələsində kimlərin hissiyyat və nəzəriyyat ilə, kimlərin əməliyyat və mühakimə ilə hərəkət eylədiyini göstərdi.

Qara bəyin firqəsi: "Gediniz, siz məmləkəti idarə edəmməzsiniz" - deyirdi. Buradan təbii olaraq bir nəticə çıxarırdı: "Siz gediniz, biz gələlim".

Buna qarşı sosialistlər: "Əvət, söylənən sözlər həpsi doğrudur" – deyirdilər. Fəqət hökumət getməsin, yerində qalsın. Çünki Qara bəyin hökuməti Fətəli xanınkından yaxşı olacağı onlarca bəlli deyildir. Çünki "keçəl Həsən, Həsən keçəl ikisi də birdir".

Buradan nəticə – "Parlaman özü demokratik deyildir." Sözü sosialist mənası ilə anlasaq deməliyiz ki, "sosialist deyildir". Bunun üçün də gözləməlidir ki, Məclisi-Müəssisan gəlsin. O vaxta qədər bu Parlaman bir Təhqiqat Komisyonu seçsin, bu komisyondan əlavə bir də "Ali Tribunal" təşkil eyləsin.

Bu təklifi edən əfəndilərə sormalıdır:

– Nasıl olur ki, demokratik olmayan bir Parlamanın hökuməti işə yaramır da, həman Parlamanın seçdiyi komisyon "mələk" çıxır?

Burada bir məntiqsizlik vardır. Bu məntiqsizliyi sosialist əfəndilər bütün firqələrə qəbul etdirmək istəyirlərdi.

Həqiqətbin [doğruluq görən] bir firqə isə heç bir zaman göydə uçmağa öyrənəmməz. Bütün siyasətində zaman və məkan daxilində, görülə biləcək işlər daxilində fikir eylər və bu fikirlər üzərinə hərəkətdə bulunmağı məsləhət görər. Bu nöqteyi-nəzərdən olaraq "Müsavat" firqəsi hökuməti nə düşürəmməz, nə də gevşətməz [laxlatmaz] idi. Madam ki, digər bir hökuməti və yaxud komisyonu yenə bu Parlaman seçəcək, o halda ya etimad və yaxud ədəmi-etimaddan [etimadsızlıqdan] bəhs etmək olar. "İttihad" birincini, "Müsavat" da ikincini ixtiyar eylədi [seçdi]. Sosialistlər isə üçüncü, qəribə bir şəkil təklif etdilər.

Təbii idi ki, məmləkətin mənafeyini bir taqım basmaqəlib kəlmələrdən deyil, həqiqi qüvvətlərin tənasübündən və bu nisbətlərin ülfətindən hasil olma təbii bir nəzəriyyədən bəkləmək lazım idi.

"Al bayraq" "İttihad" firqəsinin "hökuməti bacarıqsız olduğuna görə iş başından kənar etdirmək istədiyinə" inandığını bildirdikdən sonra "Müsavat"a hücumla deyir ki:

"Qoy hökumət özü yaxşı bilər, qoy özü düzəltsin" deməklə "Müsavat" firqəsi və yoldaşları boyunlarına "böyük bir məsuliyyət" götürdülər.

Əvət, "Müsavat" boynuna məsuliyyət götürdü və bununla hasil ola biləcək hökumətsizlik məsuliyyətindən "məsuliyyət" nə olduğunu vazeh [açıq] bir surətdə görməyib də demaqoqların basmaqəlib sözlərindən qorxan zəif bünyəli sosialist mötəliflərini [uzlaşmacılarını] mənən olmasa da, maddətən qurtarmış oldu. Bunu indi deyilsə də, sonradan, əlbəttə ki, anlarlar. Fəqət "Al bayraq", öylə də "Zarya" qəzetələri "Müsavat" formulundan bəhs edərkən, formulun ikinci qismini qəsdən unudurlar. "Müsavat" ticarət və sənaye hasilatının yaxşı bir üsul ilə idarəsi və məkulat [qida] ilə ərzaq məsələsinin müvafiq bir surətdə yoluna qoyulması üçün lazım gələn tədbirləri görmək qəsdilə məxsusi bir Parlaman komisyonunun təşkilini dəxi təklif eylədi və bu təklifini qəbul etdirdi.

Demək ki, sorğu vasitəsilə əfkari-ümumiyyəni [ictimai fikri] işğal edən məsələlərin yanından keçib də yalnız "hökumət özü bilsin" demədi. Bu cəhəti örtüb də qarelərinə [oxucularına] qərəzkaranə bir məlumat verən qəzetələr səmimi bir üsuli-mübarizədən çox uzaqlaşmış olurlar. Böylələri qoy bizdən deyil, yoldaş saydıqları "İskra"dan heç olmasa öyrənsinlər ki, "etilaf ya namuskaranə (çestni) olmalı və yaxud heç olmamalıdır".

Hər halda arada bir böhran vardı. Bu böhran keçdi. Fəqət Fətəli xanın hökumətini deyil, ələləmum [ümumiyyətlə] bu məmləkətdə bir hökumət saxlamaq lazım isə süni böhranlar yaratmaqdan çəkinəlim.

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### Onuncu iclas

*(Keçən nömrələrin mabə'di)*

**Qarabəyov** — Xariciyyə nazirinin bəyanatından kafi olmadığını zikr etdikdə bir qədər infialı mövcib oldu [həyəcana səbəb oldu] və buyurdular ki, bunlar xırda işlərdir, onu qurdalamaq olmaz. Mən mənafeyi-ümumiyyə naminə deyirəm ki, yüz minlərlə müsəlman qırılması həman böylə məsələlərin xırda denilməsindən irəli gəlmişdir. Bunlar söz qurdalamaq deyildir. Biz hökumətə sorğu verdikdə məqsədimiz əhvali-hazirə haqqında izahat almaq idi. Nazirlərdən biri deyir, yol yox idi, digəri deyir, bilməm fabrika nə oldu. Mən bu işi başa düşə bilmirəm, ancaq onu bilirəm ki, Azərbaycanın yeganə sərvəti olan neft məmləkətə xeyir əvəzinə, zərər verir və camaatın acından qırılmasına səbəb olur. Böylə sərvətə malik ikən məmləkətdə ənvai [müxtəlif] xəstəlik hökmfərma olub [hökm sürüb], camaat qırılır, çox ev bağlı qalır; bunlara kömək edə bilmiriz. Aya pulumuz yoxdur, doktorlarımız çatmır ki, bunlara bir kömək





edilsin? Çörək baha, ət tapılmır, keçi ətinin kirvənkəsi 15 manata qalxmışdır. Bizim borcumuzdur, böylə şeyləri gördükdə sorğu verək, məlumat alaq. Hökumətin də borcudur izahat versin, böylə şeylərə qarşı nə kimi tədbirlər gördüyünü bildirsin. Doğrudur, ola bilər ki, Ticarət və Sənaye naziri böylə şeylərə yer vermir, amma bu işin ətrafında böyük suiistemallar [sui-istifadələr] olur. Əlbəttə burada müqəssir nazir deyil, ancaq sistem elə qurulmuşdur ki, özü-özündən cinayət törədir. Öylə məmurlar var ki, neçə min manat almamış bir kağız vermir. Məmur acdır, aldığı maaş çatmayır, əlbəttə, verilən paranı alacaqdır. Öylə qanun qoymalıdır ki, rüşvət verməyə məhəl [yer] qalmasın. Bu barədə tədbir görmək vəzirlərin [nazirlərin] işidir. Lakin bu uğurda heç bir tədbir ittixaz edildiyi [tədbir görüldüyü] görülmür, əhval əsla dəyişmir, getdikcə daha da fənalaşır. Bez kasıblar üçün tutiyaya [az tapılan şeyə] dönmüşdür. Nazirlər çalışmalıdır ki, kasıblar bezi fabrika qiyməti ilə 5 manata ala bilsinlər. Amma biləks [əksinə], biz dövlətlilər bezi 5 manata ala bilir, hətta bir az da mənfəət ediriz. Kasıblar isə 17 manata alırlar. *(Alqış)* Təkrar deyirəm, tədbirlər görmək lazımdır. Amma hökumət bu barədə heç bir iş görmür.

Sorğunun ikinci qismi buğda məsələsinə aiddir. Fəqət mən deyirəm ki, bu yalnız buğda məsələsi olmayıb, bütün Azərbaycanda gordüyünüz ümumi işlərə aiddir. Nazirlər deyirlər, öylə bir irs almışlar ki, az bir zamanda islahı qeyri-mümkün idi. Ona görə də işləri tamamilə düzəldə bilməmişlərdir.

Sui-istemallar haqqında bəzi məlumat verdilər. Bu xüsusda bizim özümüzün də məlumatımız var. Ancaq bunlar bir-birinə müvafiq gəlmirlər. Nazir deyir ki, buğdanı türklər yığmışlardır. Doğrudur, türklər buğda yığmışlar, yığmağa da haqları vardı. Çox da yaxşı etmişlərdir, ancaq onlar buradan tələsik getmişlər və gedərkən buğdanı hökumət məmurlarına təhvil vermişlərdir. Onu da deməliyəm ki, buğdanı əşqiya [quldurlar] dağıtmayıb, heç bir yerdən xəbər yoxdur ki, buğdanı əhali dağıtmışdır. Mən deyirəm ki, əşqiya da, oğru da Daxiliyyə Nəzarətinin öz məmurlarıdır. *(Şiddətli alqış)* Qubadan alınan məlumata görə oradan 15 vaqon buğda gətirilmişdir, ancaq nerəyə getmiş, pulları nerəyə sərf olunmuşdur, məlum deyildir. Fəqət burası məlumdur ki, bu buğda məmurlar vasitəsilə gətirilərək satılıb, pulları da cibə qonulmuşdur.

Quba mahalında bir çox kəndlərdə buğda var idi. Türklərdən sonra yenə yığılmışdır. Məsələn, Rustov mahalında Qursal kəndindən mahal naçalnikinin əmri ilə bir vaqon buğda, bir vaqon arpa yığılmışdır. Bundan əlavə oralarda anbarlar var ki, hökumət əmri ilə türklərdən qalan buğda oraya cəm edilmişdi, fəqət məzkur [deyilən] buğdanın necə olduğu məlum deyildir. Bir də Qızılburun mövqifində [stansiyasında] türklərdən qalma 40 vaqon odun qalmışdı. Mahal naçalniki məzkur odunu İsmayıl bəy İskəndərbəyova satmışdır. Bu xüsusda Ərzaq Nəzarəti vəkili Yusifəli [Əliyev] tərəfindən üç teleqraf çəkilmişdir. *(Teleqrafları oxuyur)* Amma heç birinə cavab verilməmişdir. Buğdaların nerədə olduğu göstərilməmişdir, lakin bütün Quba əhalisi göstərə bilər.

Orada olan sui-istemalların açılmasından qorxaraq hökumət məmurları camaat arasında min cür intriqalar çıxarırlar. Məsələn, sünni-şiə məsələsi salırlar; qoçulardan, quldurlardan dəstə düzəldib əhalini bir-birinin üzərinə salışdırırlar, milissiya naçalniki əhali arasında dəstəbazlıq salırlar. İş bir məqama çatmışdır ki, qırğınsız yatmayacaqdır. Nəticədə hər tərəfdən qanlar töküləcəkdir.

Məbusların gətirdikləri məlumata görə, Qazax mahalında başqa həngamələr olur. Yenə təkrar edirəm ki, orada olan məmurlar bir kompaniya qurub gedən-gələn mallardan naloq alırlar. Soruşanda da ki, bu pulları nə eyləyirsiniz, deyirlər əsgərlərə sərf ediriz. Halbuki orada olan əsgərləri görənlər onların ac, çılpaq, corabsız olduqlarını isbat edirlər.

Məsələn, Tislenko nam [adlı] bir şəxsə neçə vaxt bundan müqəddəm [qabaq] Tiflisə kürü (ikra) aparmaq üçün bir icazə vermişlərdir. Şimdi iki aydır ki, həman icazənamə ilə Tislenko Poyludan Tiflisə hər növ şeylər daşıyır. Bu vaxtadək bu iş açılmamışdır. Orada isə milyonlar qazana bilir.

Qazax mahalında da əhali arasında fitnə-fəsad vardır. Əhali dəstə-dəstə olmuşdur. Bunları da dəstəyə ayıran yenə hökumət məmurlarıdır. Əlbəttə, bu adamlar dəstə düzəltməlidirlər, çünki bilirlər ki, bir vaxt bu işlərin üstü açılacaqdır. Onda dəstə lazımdır ki, onları müdafiə eyləsin, nümayəndələr göndərsinlər ki, filankəs yaxşı adamdır, biz onu istəyiriz. Bu işlər ola-ola hökumət bu məmurları yenə öz yerində saxlayır.

Gəncə polisinə gəldikdə, bunlar hakəza [eləcə; onun kimi] qaçaq quldurlara istinad edirlər. Məsələn məmurlar Qaçaq Qəmbər, Qaçaq Ələkbər və sairələrlə əlbir olmuşlardır. Görünür ki, Gəncə polis məmurları quldur-qaçaqsız yaşayammırlar. Öz polisimiz göz qabağındadır. Gecələr parta-part, soyğuntu və oğurluq kəsilməyir. Polismeysteri yerində görmək olmayır. Bütün bu əhvalatı görür, eşidərkən nazir əfəndilərin məsələni ehtimal ilə keçməklərini qəbul edə bilməriz. Biz əhali tərəfindən vəkiliz, görürüz ki, hökumət işləmir. Ona görə, necə ki, qabaqda da hökumətə etimad etməmişdik, şimdi iki ay təcrübədən sonra yenə etimadımızı vermiriz.

**Aslan bəy Qardaşov** (Əhrar) - Bizim varidatımız qonşu hökumətlərdən neçə qat artıqdır, hətta bizdə olan neft, bez qonşularımızda heç yoxdur. Halbuki bizdə olan şeylərdən qonşularımız bizdən daha çox fayda görürlər. Bunun da səbəbi hökumətin bu xüsusda əsaslı bir sistem, doğru bir yol tutmamasıdır. "Azərbaycan" qəzetəsinin 16[-cı] nömrəsindən anlaşılır ki, noyabr ayının ibtidasından Tağıyevin manufaktura fabrikası Hökumət nəzarəti altına alınmışdır və bu tarixdən dekabr ayının 10-una kimi 469730 arşın manufaktura buraxılmışdır. "Azərbaycan" qəzetəsinin 16-ncı nömrəsinə diqqət edilərsə, fövqdə məzkur [yuxarıda deyilən] miqdardan 130480 arşını yalnız Bakı daxilinə buraxıldığını görəriz. Bundan əlavə, Bakının üç məscidinə 5 min, İran konsuluna 3 min, bir naməlum türk zabitinə 5 min, Türk Ordusuna 65 min, Şuşa, Quba, Zaqatala, Şəki və Lənkəran şəhərlərinə 110 min, Azərbaycanın kənd əhalisi naminə 113250 arşın və Dağıstana 38 min arşın buraxılmışdır. Bakı daxilində buraxılmış 130480 arşın bezin [Bakı] əhlinə verilməməkdən əlavə, Bakı milyonçularından birinə 10 min arşın bezin verildiyini görürsünüz. Bakı məscidlərinə 5 min arşın bezin kimə və nədən ötrü verilməsinin səbəbi göstərilməmişdir. Bakıya manufakturanın çoxu İrandan gəldiyi halda İran konsulunun Tağıyev bezinə ehtiyacı yoxdur. 5 min arşın bez türk zabitinə verilmişdir. Əcəba kimdir o türk zabiti? 65 min arşın bezin Türk Ordusuna deyil, Vəlibəyov adında bir möhtəkirə verildiyini məndən əvvəlki natiq bəyan etdi.

Azərbaycan ilə Lənkəranın heç bir münasibatı olmadığı halda Lənkəran camaatı namına [adına] bir neçə möhtəkirə bez buraxılmışdır. Zaqatala kooperativlərinə verilən 50 min arşın bezdən Zaqatalaya ancaq 23 min arşın çatmışdır. Şəki hesabına verilən 6 min arşın bez Şəkiyə aparılmayıb, ancaq Salahov familiyasına mənsub bir şəxs tərəfindən kəndi cibi mənfəətinə Bakıda satılmışdır. Əcəba, hökumət nə üçün bundan göz yumur?

Azərbaycan[ın] kənd əhalisi namına buraxılan 113 min [arşın] bez ancaq Bakı ətrafında olan kəndlilərə verilmişdir. Bunun da doğru və dürüst yazıq kəndlilərə verildiyinə şübhə ediriz. Başqa yerlərdə bulunan kəndlilər isə tamamilə bundan məhrum olmuşlar.

Dağıstana 38 min arşın bezin verilməsinə zidd deyiliz. Fəqət, bizimkilər çılpaq qalıb da Dağıstana verilməsi tühəf [qəribə] bir şeydir. Mahəza [eləcə də] bu bezin Dağıstan fəqirlərinə, möhtaclarına verilməsinə də şübhə etmək istəyiriz.

Ərzaq nazirinin bəyanatından anlaşıldı ki, Şuşa və Gəncə şəhərlərinə 330 min arşın bezə izin verilmişdir. Bizə məlumdur ki, bu 330 min arşının 300 mini yalnız Gəncə şəhərinə təxsis edilib [ayrılıb], 100 mini Gəncə şəhərinə aparılmışdır da. Halbuki Şəki şəhəri Gəncə ilə nüfusca müsavi [əhalisinin sayısına görə bərabər] və ehtiyacca Gəncədən dərəcələrcə artıq olduğu halda, Şəki şəhəri ilə uyezdinə ancaq 60 min arşına izin verilib hələ bir arşın da olsun Şəkiyə və uyezdinə bez verilməmişdir.

Mərkəzdən uzaq və 110 min nüfusa malik Zaqatala əhalisinə 30 min arşın bezə izin verilib hələ bir arşın da olsun buraxılmamışdır.

İltifat edilsin, hökumətin bu bez fəqərəsində [məsələsində] heç ədalət qoxusu varmı? Diqqət edilsin, Tağıyevin fabrikasını noyabr ibtidasından [əvvəlindən] kontrol altına aldıqdan dekabrın 10-una kimi ancaq 469720 arşın bezin siyahısını göstərir. Halbuki bu qırx gün içində Tağıyev fabrikasından iki milyondan ziyadə manufaktura emal olunmuşdur. Əcəba, bir milyon yarım manufaktura nerəyə və kimlərə verildi? Bundan bu nəticəni çıxara biləriz ki, hökumətin bu fabrikanı kontrol almasından əhali deyil və bəzi bəxtiyarlar nəfbərdar olmuşdur [faydalanmışdır]. Bundan başqa, hansı adamlar ki, əhali tərəfindən həqiqi vəkil olaraq bez almağa gəlmişdisə də, bez böylələrinə deyil, qurma vəkil olanlara verilmişdir. Bunun isbatı qəzetə oxuyanlara məlumdur.

Ərzaq Nəzarəti 24 gündə 22 şəhadətnamə, Ticarət Nəzarəti 40 gündə yalnız 50 şəhadətnamə vermişdir. Bundan bu xatirinizə gəlməsin ki, bez istəyənlər ancaq bu 72 adam olmuşdur. Xeyr, Ticarət Nəzarəti dəftərxanasında, bez haqqında

çuvallarla etina olunmayan ərz-hallar vardır.

Ticarət Nəzarəti neft haqqında Gürcüstan və Ukrayna hökumətləri ilə mal ilə neft mübadiləsi haqqında bəyanat verdi. Lakin müqavilənin nə şərtlərlə əqd edildiyini [bağlandığını] və nə kimi mallarla mübadilə ediləcəyini bizə açıq söyləmədi. Hətta Nəzarət tərəfindən verilən bəyanata belə oxşamadı.

Zəkat, üşr haqqında Daxiliyyə naziri deyir ki, üşr Azərbaycan Hökuməti əmri ilə deyil, Türk Komandası əmri ilə yığılmışdır. Bir vaxt eşitdik ki, ordu gedir, əsgərlər hər şeyi atıb gedirlər, şeylər idarəsiz qalır. Üşrün yığılması Azərbaycan Hökuməti əmri ilə olmayıb Türk Komandası tədbiri ilə olması doğrudur. Fəqət, əsgərlər hər şeyi atıb gedirlər, şeylər idarəsiz qalır, cümlələri bir o qədər doğru olmasa gərək. Çünki, toplanan üşr, Türk Komandanlığı təhti-idarəsinə tövdi edilmiş [idarəsi altına verilmiş] Azərbaycan ərzaq şöbələrinə yığılırdı. Vəqta ki, türklər getdi, toplanan üşrlər yenə həman ərzaq şöbələrinin əlində qaldı. Daxiliyyə nazirinin sözündən, türklər getdikdən sonra guya üşr yığılmır. Halbuki türklər gedəndən sonra Osmanlı hökumətində üşr alınmayan şeylərdən indi Azərbaycan məmurları üşr yığır. Sözlərimi isbat üçün firqəmizin bir əzası namına [üzvü adına] gələn məktubu oxumaq məcburiyyətində bulunuram. Baxın məktubda nə yazılmışdır.

Məktubu oxuyur, bədəhu [sonra] nitqinə davamla deyir ki:

Daxiliyyə naziri deyir ki, Bakıdan aparılan neft, bez malları qarabağlı, gəncəli, göyçaylı və başqa tacirlər hamısı Ağstafaya aparmışlardır və Ağstafaya aparılan neftin, bezin Gürcüstana keçirilməsini açıq-açığına bəyan edir. Mən təəccüb edirəm ki, tacirlərin bezi, nefti Ağstafaya aparmalarına Ticarət naziri nə üçün izin vermişdir və böylə bir xəyanətin qabağını hökumət nə üçün almamışdır? Ağstafa Azərbaycanın mərkəzi bir istasyon[u] deyil ki, oraya bu qədər mal buraxılsın.

Yeni Kabinə təşkil edildikdə "Əhrar" fraksiyası bu ümidə gəldi ki, əski Kabinə tutduğu yollar, etdiyi səhv və xətalar bir daha təkrar edilməyəcəkdir, lakin məəttəəssüf [təəssüf ki], yeni Kabinənin tutduğu yol əskinin eyni olduğunu görürüz. Hökumətin bu gün verdiyi izahatdan halların islah ediləcəyini də eşitmədik. Ona görə "Əhrar" fraksiyası, bez, neft və ərzaq haqqında hökumətin verdiyi izahatı kafi görmür.

**Azərbaycan Məclisi-Məbusanı və sosial-demokratlar**

Sosial-Demokrat firqəsinin fevralın 3-ündə vaqe olan iclasında 10 səs əleyhinə, 14 əksəriyyət səslə Azərbaycan Parlamanına daxil olması qərara alınmışdır. Həmkarlar İttifaqının Parlamanda nümayəndəsi olmaq məsələsinə gəldikdə qərara alınmışdır ki, həmkarlar ittifaqları siyasətcə bitərəf olduqlarından Parlamana daxil olmamalıdırlar.

* "Bund" yəhudi təşkilatının fevralın 2-sində vaqe olan ümumi iclasında Azərbaycan Parlamanına daxil olmaq məsələsi haqqında Bilyuşteynin məruzəsinə görə böylə bir qətnamə qəbul edilmişdir:

1) Azərbaycana münasibəti olan hamı məsələlərin həllində iştirak edib fəhlə sinfinin mənafeyini müdafiə etmək qəsdilə sosial-demokratların Azərbaycan Parlamanında iştirak etmələri lazım görülür.

2) Yəhudi füqərayi-kasibəsininin [proletariatının] və yəhudi demokratiyasının mənafeyini müdafiə etmək naminə "Bund" nümayəndəsinin Azərbaycan Parlamanında iştirak etməsi arzu olunur.

3) "Bund" təşkilatı sosial-demokrat firqəsinin muxtar bir hissəsi olduğundan vahid bir firqə bayrağı altında Parlamanda iştirak etməlidir. Bundan ötrü də sosial-demokrat firqəsinə təklif etməlidir ki, haman firqənin muxtar bir hissəsi olmaq sifətilə "Bund" üçün Parlamanda əlavə yer tələb etsin.

**SÜLH ƏTRAFINDA**

İstanbulda müntəşir [nəşr olunan] "Ati" qəzetəsi yazır:

Rusiya nümayəndələri Sülh Konfransında Rusiya mənafeyini müdafiə etmək üçün bir mərkəzi komitə təşkil etmişlərdir. Bu komitənin sədri olan knyaz [Georgi Yevgenyeviç] Lvov Paris, London, Roma, Madrid və Vaşinqtonda olan Rusiya səfirlərinin bu komitəyə müavinət [kömək] edəcəklərinə zamin olmuşdur. Bu komitə müəssisləri [təsisçiləri] daxili və xarici siyasətdə bütün firqələrdən mürəkkəb [ibarət] nümayəndələrin iştirakı ilə məramnamə tərtibinə qərar vermişlərdir. O məramnamə Sülh Konfransında Müttəfiqlərə təqdim ediləcəkdir. Məramnamənin əsası hər bir firqənin bolşevizmə olan nöqteyi-nəzərindən asılı olacaqdır.

**TELEQRAF XƏBƏRLƏRİ**

**İrlanda hadisəsinə dair**

Luqano - İrlandada vaqe olan hadisələrin təfsilatını İtaliya qəzetələri böylə təsvir edirlər:

Dublində İrlanda Məclisi-Müəssisanı dəvət edilmiş. İclas Baş vəzir [Baş nazir] intixab edərək [seçərək] ona böyük ixtiyarat vermişdir. Xariciyyə, Maliyyə, Daxiliyyə və Milli Müdafiə nazirləri intixab edilmişlərdir. İrlanda Məclisi-Müəssisan üzvləri böylə yəmin etmişlərdir:

*"Mən bütün vicdanımla yəmin edirəm ki, İrlanda Cümhuriyyətinin istiqlalı yolunda çalışacağam və bəyan edirəm ki, İrlanda[nın] büsbütün İngiltərədən ayrılmasına var qüvvəm ilə səy edəcəyəm və minbəd [bundan sonra] İngiltərə Parlamanında qətiyyən iştirak etməyəcəyəm."*

Lion - 2 fevral. İstanbuldan rəsmi surətdə camaata bildirilir ki, Müttəfiqlər komandanlığı Almaniya və Avstriya banklarının və bütün Türkiyə dəmiryollarının kontrolluğunu öz öhdəsinə almışdır.

**Balkan ittifaqı**

Paris - (Simsiz teleqrafla xəbər verilir)

Balkan dövlətləri ilə hal-hazırda Balkanda olan bütün dövlətlərin bir möhkəm ittifaq yapmaları üçün danışıq davam edir və böyləliklə istəyir ki, bir daha Balkan ixtilafına yol verilməsin.

Peştə - Macarıstan Məclisi-Müəssisan dəvəti 1919-cu sənə fevralın əvvəlinə təyin edilmişdir.

Paris - "Havas" acentəliyi xəbər verir:

Rusiyada yaşayan Çin əmələ [fəhlə] və saldatları nümayəndələri Moskvada bol-

şeviklərlə bir yerdə iclas qurub qərar qoymuşlar ki, Hindistana və Çin məmləkətinə bolşevik dəstələri göndərməklə bolşevizmi oralarda təbliğ etsinlər.

**Bolşeviklər əleyhinə tədbir**

İsveçrə şəhərlərinin bir çox bələdiyyə idarəsi, o cümlədən Cenevə [Cenevrə] bələdiyyə idarəsi bolşevizmlə mübarizə məqsədi ilə İsveçrədə yaşayan bütün rus və nemeslərin siyahısını tutmaq istəyirlər.

**Bolşeviklərin təb'idi [qovulması]**

İsveç Hökuməti bütün bolşevik nümayəndələrini və onların agentlərini xəbərdar eyləmişdir ki, onlar bilatəxir [dərhal] İsveçdən çıxmalıdır.

Odessa - Qafqaziyada Kuma çayı boyunda olan iki günlük müharibədən sonra Könüllü qoşunlar bolşevikləri pərişan və Aleksandrovsk-Qoşevsk qəsəbələrini işğal edərək minlərlə əsir və bir çox ləvazimi-hərbiyyə [hərbi ləvazimat] qənimət almışlardır.

* Petroqraddan simsiz teleqrafla verilən xəbərlərə nəzərən bolşeviklərin Qırmızı qoşunları Almaniyaya mütəvəccihən [üz tutaraq] hərəkət edəcəkdirlər.

**Fransız komandanının əmrnaməsi**

Sevastopol - 175-ci Fransa piyada alayının komandanı polkovnik Eşrus Sevastopolda bu məzmunda bir əmrnamə nəşr eyləmişdir:

"Fransız qoşunlarının Sevastopola gəlməkdən məqsədləri əhalini hər bir xətrədən [təhlükədən] mühafizət və şəhərdə asudəlik bərpa etməkdən ötrüdür. Bu qoşunların naçalniki heç bir iqdamatda [təşəbbüsdə] bulunmaq istəməmişdi və ümid edirdi ki, şəhərdə olan qətl, qarət və atışma dayanar. Yəni, şəhər əhalisi bu işlərin qabağını alar. Fəqət, indi şəhərin keçirməkdə olduğu dəhşətli vaxtları bizi işbu qərarları verməyə məcbur edir:

1) Saat 12-dən sonra şəhər küçələrində gəzmək qadağandır.

2) Şəhərdə silah gəzdirmək məmnudur [qadağandır]. Hər kəs üç gün müddətlə silahını təslim etməzsə, qanunun bütün şiddəti ilə cəzalanacaqdır.

## DAĞISTAN CÜMHURİYYƏTİNDƏ

**Tersk oblastında bolşeviklərin məğlubiyyəti**

Dünən Fətəli xan Xoyski cənabları Teymurxanşuradan bu məzmunda bir teleqram almışdır:

*"Bu saat qabaq səf naçalnikindən rəsmi surətdə xəbər alınmışdır ki, Qroznı şəhəri Şimali Qafqaz Cümhuriyyəti qoşunları tərəfindən işğal edilmişdir. Vladiqafqaz şəhəri inquşlar tərəfindən alınmışdır. Orada qayda və intizam saxlanır. Bolşeviklər qaçırlar. Təvəqqe edirəm bu xəbəri əcalətən [təcili] Tiflisə məlum edəsiniz.*

*Rəisi-vükəla [Baş nazir] Kotsev"*

- Xan Xoyski cənablarının binagüzarlığı [sərəncamı] ilə bu teleqraf Gürcüstandakı Azərbaycan nümayəndəsi Cəfərova göndərilmişdir.

- İngiltərə-Amerika Cəmiyyəti-Xeyriyyəsi Azərbaycanda olan müsəlman fərariləri nəfinə [qaçqınları xeyrinə] taxıl vermək arzusunda olduqlarını bəyan etmişlərdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Şubatın 6-sından Rəisi-vükəla namına [Baş nazir adına] Gəncədən böylə bir teleqram alınmışdır:

*"Ətraf kəndlərin erməniləri bir neçə gün bundan əqdəm [qabaq] bir neçə nəfərimizi dəhşətli bir surətdə qətl etdikdən sonra Qızılvəng kəndini talan etmişlər. Rica ediriz ki, bizi və işbu Hüseynqulu, Ağalı, Daşkənd, Sarıyaqub və başqa Novo-Bayəzid qəzası kəndləri əhalisini dəhşətlərdən qurtarasınız. Rica edirlər ki, mühafizədən ötrü bizə min nəfərdən ibarət bir qoşun qitəsi [dəstəsi] verəsiniz. Bütün məxaricatı [xərcləri] öz öhdəmizə götürürüz. Gəncədə əmrinizi bəkləyiriz.*

*Daşkənd camaatı müvəkkili:*
*Hacıbala Rəsul oğlu"*

**Ümuri-Xeyriyə və Nafiə Nəzarətində**

Mərkəzi Ev Komitəsi, Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən rica etmişdi ki, müsəlmanlara məxsus təqsim [bölgü] məntəqələri qapanıb iaşə məntəqələrinə əvəz olunması barəsində lazımi binagüzarlıq edilsin [sərəncam verilsin]. Nəzarət cavab vermişdir ki, iaşə məntəqələri açılanadək təqsim məntəqələrini qapamaq mümkün deyildir.

## ÖMƏR FAİQ ƏFƏNDİNİN RUXADZENİN TELEQRAFINA CAVABI

Bu axır vaxt möhtərəm gürcü camaatı məni öz milli və Gürcüstan istiqlaliyyətinin düşməniədd [hesab] etməklə bərabər, Axıskada guya mənim tərəfimdən hazırlanan üsyanı mənə istinad verirlər. Gürcü camaatı, Ruxadzenin hökumət namına [adına] göndərdiyi teleqrafı oxuduqdan sonra bu fikrə gəlmişdir. Buna cavab olaraq deyirəm ki, hərgah Axıska uyezdində narahatlıqdır və əhali arasında həyəcan və qələyan [narahatlıq] davam edirsə, ən əvvəlcə bunun səbəbi Ruxadze cənablarının özüdür. Ruxadze asayişə nəzarət etmək sifətilə gəlib öz vəzifəsini unutmaqla bərabər, uyezddə anlaşılmaz işlər törətməyə və hökumət namından [adından] hökumət siyasətinə yaxışmaz hətta demokratik cümhuriyyətin heysiyyət və ləyaqətini ləkələyən "öz siyasətini" aparmağa başladı. Ruxadze həmin siyasətini vücuda gətirmək məqsədilə onun amalına zidd olanları oradan sıxıb çıxarmağa başladı.

Məsuniyyəti-şəxsiyyə [şəxsi toxunulmazlıq] haqqında general Makayevin rəsmi məktubuna baxmayaraq, Ruxadze məni üç nəfər yoldaşımla həbs edib Tiflisə göndərdi. Bir çoxlarını da azadəlikdən məhrum etdi. Ruxadzenin və onun əli altında olan qulluqçularının xudsəranə [özbaşına] hərəkəti camaatı həyəcana saldı. Camaat səbr edə bilməyib Ruxadzenin bu hərəkətinə laqeyd qalammadığından, bizim həbsdən azad edilməyimizi tələb etməyə başladı.

Mən hal-hazırda onu fikir edirəm ki, Gürcüstan Hökuməti Ruxadzenin xəyala-

tı səmərəsi [xəyallarının məhsulu] olan danoslarını nəzəri-diqqətə alıb heç vaxt Axıska hadisələrinin əsl səbəbini təftiş etməyir. Məəttəəssüf [təəssüf ki], bu hadisələr münasibətilə hökumət indiyə qədər xəbərsizdir. Ruxadze öz axırıncı məktubunda yazır ki, bizim əlimizə böylə gizlin sənəd keçmişdir. Sənəd budur: "Əfəndi qardaşım! Sizə xəbər veririk ki, Qərbi Zaqafqaziya mühariblərí [savaşçıları] Qarsdadırlar. Onlara mehmannəvazlıq [qonaqpərvərlik] göstərin, onları öz ixtiyarınıza alın və qeyrə..."

Möhtərəm qareləri [oxucuları] inandırıram ki "gizlin sənəd" adlandırılan bu məktub saxtadır. Bu kağız mənim xüsusi düşmənlərim Qobilyan bəyləri tərəfindən yazılmışdır. Həmin bəylər inqilabın birinci günlərindən mən kəndlilərin hüququnu müdafiə edib, torpaq reformasını təsdiq etdiyim zaman da dişlərini mənə itələmişlərdir.

Təəssüf ediləcək burasıdır ki, Ruxadze uyezd əhvalını öylə bir hala salmışdır ki, hal-hazırda ətrafında nələr vaqe olduğunu özü bilməyir. Ruxadze başa düşmür ki, camaatın nifrətini qazanan və öz keçmiş fəaliyyətləri ilə özlərini ləkələmiş olan adamlar ona yaltaqlıq edib mərhəmətdən məhrum olmamaqdan ötrü qara maska altında təzə hökumətə özlərini sadiq göstərmək istəyirlər.

Məəttəəssüf, Gürcüstan Hökuməti öz nümayəndəsinin yazdıqlarına inanıb Axıskada bir para adamların intriqasını və əhali arasında olan həyəcanın əsl səbəbini vaxtında təftiş etməmişdir. Bundan əlavə, bu cür işlərin kökündən rəf olması [aradan qaldırılması] üçün vaxtlı-vaxtında tədbirlər görməmişdir. İşi məhəllində [yerində] təftiş etməkdən ötrü heçdənsə gec olsa da biz bitərəf adamlardan ibarət bir komissiya göndərilməsini xahiş edirik. Axıska məmurları yanan odu söndürməkdənsə, öz əlləri ilə yanan oda neft tökürlər.

Möhtərəm gürcü camaatına müraciət edib inandırmaq istəyirəm ki, "Axıska hadisələri" məhəlli [yerli] inzibat idarəsinin təxrib edici üsulunun nəticəsidir. Bu üsul nəinki əhalini cəlb, biləks [əksinə] özündən uzaqlaşdırır. Hökumət, uyezdi idarə edən təcavüzkaranə bir üsula nəhayət verməlidir.

Bizzat [şəxsən] özümün Gürcüstan Demokrat Cümhuriyyətində Axıska və Axalkələk uyezdləri üçün milli muxtariyyət almaqdan başqa özgə bir qəsdim olmayıbdır. Başqa qəzetələrdən də bu yazdığımın dərcini rica edirəm.

*Ömər Faiq*

## ŞUŞA-ZƏNGƏZUR-CƏBRAYIL-CAVANŞİR GENERAL-QUBERNATORLUĞU

Azərbaycan Cümhuriyyət Hökumətinin qərardadı ilə Şuşa-Zəngəzur-Cəbrayıl-Cavanşir qəzaları xüsusi bir general-qubernatorluğa ayrılaraq doktor Xosrov Paşa bəy [oğlu] Sultanov həzrətləri geniş vəkalət ilə oraya general-qubernator təyin edilmişlərdir.

Sultanov cənabları təşkilat yapmaqda mahir, yorulmaq bilməyən bir camaat xadimi, xalqın ruhunu, ehtiyacını bilən bir ictimai təbib olub neçə ildən bəri türk-islam xalqının məhəbbətini qazanmış çalışqan bir zat [şəxs] olaraq tanınmışdır.

Qars fəlakəti, Ərdahan dəhşətləri, Trabzon vəhşətləri əsnasında hər tərəfdən düşmənlərlə mühat [əhatə] olduğu, hər dəqiqə hər cəhətdən min maneələr çıxarıldığı bir zaman Xosrov bəy həzrətlərinin ibraz etmiş [göstərmiş] olduqları ciddiyyət və fəaliyyət bizi əmin edir ki, bu dəfə də öhdələrinə düşən ağır vəzifəni hüsn-ifa edəcəkdir.

Yeni general-qubernator həzrətləri şənbə günü gecə saat 12-də məhəlli-məmurlarına əzimət etmişlərdir [təyin edildikləri yerə getmişdir]. Onunla bərabər İngiltərə komandanlığından mayor Monq Meyson, kapitan Derbişir və 4 zabit, 4 xidmətçi əsgərlə gedirlər.

Bunlarla bərabər Bakıda bulunan ingilis qoşunları .............. əsgəri dəxi gedir; fəqət onlar Şuşayadək getməyib Yevlax mövqifində [stansiyasında] qalacaqlardır.

Sultanov həzrətləri bu vəzifəni hökumətin təkrar təklifindən ziyadə Parlaman məbusları və bütün mahal əhalisi nümayəndələrinin tələb dərəcəsinə varmış israrı nəticəsində öhdələrinə almışlardır və bu gün oraya məhz işləmək və yenə işləmək üçün gedirlər.

General-qubernator həzrətləri gələcək vəzifələrinin hüsn-ifası uğrunda fəaliyyət və tədbirləri haqqında görüş əsnasında lütfən bizə böylə məlumat verdilər:

*"Mən adətən danışmaqdan ziyadə işləməyi sevirəm. Ona görə vətəndaşlarımın ricasını qəbulla oraya çalışmağa, işləməyə gedirəm. Orada praktik iş çoxdur, fəaliyyətə geniş meydan açılır. Bu da mənim üçün çox xoşdur."*

Üsuli-idarəni Sultanov həzrətləri böylə təsəvvür edirlər: Məhəlli-iqamət [idarənin yerləşdiyi yer] əlbəttə Şuşa şəhəri olur. Buradan Şuşaya gedərkən general-qubernator həzrətləri mümkün olan qədər Şuşayadək yollarda əhali ilə görüşüb dəlil, dəlail [sübutlar], nəsihətlərlə camaatı işə aşina edəcəklərdir. Şuşaya getdikdən sonra bir-iki gün orada qalaraq sonra Cəbrayıl, Zəngəzur qəzalarını gəzəcəklərdir. Səfərdən qayıtdıqdan sonra Daxiliyə naziri həzrətlərinin rizası ilə Şuşada bir şura təsis edəcəklərdir. Məzkur [deyilən] şura hər qəzadan 5 nəfər olmaq üzərə 20 adamdan ibarət olacaqdır. Hər qəzadan 5 nümayəndənin üçü kəndli, biri tacir, biri bəy olacaqdır. General-qubernator həzrətləri təkrar edirlər ki, kəndli nümayəndələri xalqı zorlayan qolu çomaq, camaat içində dövlət və sairlə nüfuz tapmış adamlardan olmayıb, biləks, rəhm, mürvət, insaf, ədalət və mehribanlıqla tanınmış kənd nümayəndələrindən olacaqlardır. Məzkur şura hər iki həftədə bir dəfə yığışıb bir həftə müşavirədə bulunacaqdır. Burada milliyət, din fərqi qonulmayacaqdır. Mahalda istər müsəlman, istər erməni, istər sair millət olsun – hər kəs camaat mənfəətini kəndi şəxsi mənafeyindən uca tutub ciddən çalışmaq arzusunda olsa, füqərayi-kasibənin xeyrinə çalışmaq istəsə, general-qubernator həzrətləri özü məəlməmnuniyyə [məmnuniyyətlə] işə cəlb edəcəklərdir. General-qubernatorluq dairəsində bilafərqi-millət, məzhəb və din [din, məzhəb və millət fərqi qoyulmadan] hamını qənaətləndirəcək, razı buraxacaq demokratik bir idarə paydar [bərqərar] ediləcəkdir.

Şuşada türk dilində "Cümhuriyyət" adlı bir qəzetə çıxarılacaqdır. Hətta qəzetəyə belə hangi millət həvəslə iştirak etmək istəsə, qapı açıq olacaqdır.

General-qubernator həzrətləri mahalda füqəraya satdırmaq üçün külli miqdarda qənd, çay, sabun və sair zəruri şeylər aparırlar. Məzkur şeylər mahalın ən fəqir əhalisinə mənfəətsiz (mayasına) satılacaqdır.

Bundan əlavə, mahalda xəstəlik olduğundan, general-qubernator həzrətləri üç təbib, bir neçə feldşer, lazım olan miqdarda dərman (dava) və yüz dənə çarpayı aparırlar. Şuşada füqəra üçün 100 yataqlıq bir müsri [yoluxucu] xəstəxana açılacaqdır.

Məmləkətin ən ağır, millətin ən fəlakətli bir dövr keçirməkdə olduğu son 4 il zərfində özlərini ciddi fəaliyyətlərlə tanıtmış olan Sultanov həzrətlərinin bu dəfə yenə camaatın ağır günlərində fəryada çatacaq, vəzifəsini hüsn-ifa edəcəyinə ümidvarız.

*Xəlil*

## BAKI XƏBƏRLƏRİ

### Fəhlə konfransı

"Müsavat" firqəsinin məlumat şöbəsi xəbər verir ki, bu gün fevralın 9-unda səhər saat 10-da "Raboçi klub"da [Fəhlə klubunda] Beynəlmiləl Fəhlə Konfransı vaqe olacaqdır. Müsəlman fəhlələrindən xahiş olunur ki, səhlənkarlıq etməyib etibarnamələri ilə bərabər konfransa gəlsinlər. Konfransda mühüm məsələlər müzakirə ediləcəkdir.

### Müsəlman Mütəəllimlər [Tələbələr] İttifaqının təftiş komissiyası tərəfindən

İttifaq idarəsinin iclası bazar günü fevralın 9-unda saat 4-də Birinci Realnı məktəbində təyin edilir. Seçki olmayan məktəblərdən xahiş olunur ki, nümayəndə seçsinlər. İclas saat 5-də hər nə qədər üzv gəlmiş olsa da qanuni hesab ediləcəkdir.

### Zabratda "Müsavat" firqəsinin iclası

"Müsavat" firqəsinin məlumat şöbəsi xəbər verir ki, bazar ertəsi fevralın 10-da axşam saat 7-də Zabratda "Müsavat" firqəsinin iclası firqənin əvvəlki mənzilində vaqe olacaqdır. Üzvlərdən vaxtlı-vaxtında gəlməsi rica olunur. Müzakirə ediləcək məsələ idarə intixabıdır [seçkisidir].

### Aktyorlar İttifaqının ümumi iclası

Bu gün bazar günü fevralın 9-unda axşam saat 4-də keçən il Bakıda davam edib mart hadisatında Cəmiyyəti-Xeyriyyə binasında sair təşkilarlarla bərabər daşnaklar qurbanı olan "Aktyorlar İttifaqı"nın ümumi iclası "Azərbaycan" qəzetəsi idarəsi mənzilində vaqe olacaqdır [baş tutacaqdır]. İttifaq üzvlərinin hamısının gəlməsi rica olunur. Bu iclasda ittifaqın hesabına baxılacaqdır.

### Bələdiyyə İdarəsində

* Bələdiyyə İdarəsi Xidmətçiləri İttifaqı Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, itfaiyyə alayı nəfəratı [yanğınsöndürmə dəstəsi üzvləri] ikinci sənədir ki, əlbisə almayırlar. Böylə davam edərsə, itfaiyyə nəfəratı fəna əhvaldan naşi [pis vəziyyətə görə] başqa tədabir ittixazına [tədbirlər görməyə] məruz qalacaqdır. İttifaq Bələdiyyə İdarəsindən rica etmişdir ki, onların əhvalı nəzərə alınsın.

* Necə ki məlumdur ki, Ümuri-Xeyriyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] İngiltərə komandanlığına müraciət edib vapor [gəmi] sərnişin biletlərinə vergi təyini barəsində məlumat vermişdi. Şimdi İngiltərə komandanlığı Nəzarət məktubunu Bələdiyyə İdarəsinə göndərib işbu məsələyə cavab sormuşdur. Bələdiyyə İdarəsi məlum etmişdir Maliyyə şöbəsi şəhər mənfəətinə olaraq biletlərdən vergi alacaqdır. Fəqət hələ məlum deyildir ki, layihə qəbul ediləcək ya yox.

* Bələdiyyə İdarəsi məhəlli [yerli] qəzetə kantorlarına müraciətən məlum etmişdi ki, qəzetələrdəki elanlardan 10 faiz vergi alınacaqdır. Qəzetə kantorları Bələdiyyə İdarəsindən hangi elanlardan vergi alınacağı barəsində isticvabda bulunmuşdur [izahat istəmişdir].

* Bələdiyyə İdarəsi, Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin 1 fevral tarixli məktubuna cavab olaraq Nəzarət dəftərxanasından sual etmişdir ki, Nəzarət sabiq Şura Hökuməti müəssisələrini öz öhdəsinə qəbul etmişmi [ya] yox? Zira Bələdiyyə İdarəsi səfərbərliyə alınmış Qırmızı ordu nəfəratı [əsgərləri] ailələrinə maaş verdikdə imtahan edirdi ki, şəhər pullarını ləğv edici komisyondan və yaxud İngiltərə komandanlığından geri alacaqdır. Nəzarət həman məxarici öhdəsinə götürəcək olarsa, Bələdiyyə İdarəsi hesab hazırlayıb pişnihad [təqdim] edəcəkdir. Əks surətdə Bələdiyyə İdarəsi rica etmişdir ki, Bakı işğal edildikdə şəhər xəzinəsindən götürülən pullar Bələdiyyə İdarəsinə qaytarılsın.

* Bələdiyyə İdarəsinin Məkatib [Məktəblər] şöbəsi bütün müsəlman məktəblərinə bir məktub göndərib məlum etmişdir ki, təhsil sənəsi əvaxirində [axırlarında] şəhər məktəblərində tədrisatda bulunan müəllimlər türk lisanından imtahan verməlidirlər. İmtahan verməyənlər məktəblərə buraxılmayacaqlardır.

## MÜƏLLİMLƏR İCLASI

Fevralın 6-sı axşam saat 6 radələrində 9-uncu ibtidai məktəbdə kurslar təşkili komisyonu təşəbbüsatı ilə müəllimlərin ikinci iclası vaqe olmuşdur. Məclis kurslar təşkili komisyonu sədri Səməd bəy Hacıalizadə cənabları tərəfindən açılaraq:

1) Kursların müddəti-davamı;

2) Saatları və günləri;

3) Siniflərə təqsimi [bölünməsi] məsələləri müzakirə olunur.

Məsələlər müzakiratından əvvəl Səməd bəy əfəndi kurslar haqqında komisyonun fəaliyyətini və nəzəriyyatını bəyanla nə tərzdə və nə növlə tədris olunacağına dair məlumat verir. Dərslər "terminoloji — is[ti]lahati-elmiyyə [elmi terminologiya]" qaydası ilə aparılacaqdır. Müəllimlər[in] əlbəttə ki, məktəblərə lazım olacaq elmlərdən məlumatları vardır, fəqət milliləşəcək məktəblərdə tədrisat türk lisanında aparılacağı ehtimal edildiyinə görə, hər müəllimdə elmə lazım olacaq istilahati-xüsusədən [xüsusi terminologiyadan] məlumat almaq icab edəcəyi də aşkar bir məsələdir.

Bələdiyə İdarəsi Məkatib şöbəsi müdiri [Orucəliyev] Əlicabbar əfəndi, lisanımızın gələcək məktəblərimizdə lüzumu-

nu, milli tariximizin xüsusi bir yer tutacağını qeyd edir. Sonra türk-islam müəllimlərinin işbu məsələyə barmaqarası baxmasından dilgir [narazı] olaraq: Seminariya məzunları nə bilir əcəba ki, böylə kəmetinalıqla məsələyə əlaqədə bulunmağa yer qalsın. Şimdi bütün aləmdə, bütün başqa-başqa cəhətlərdə inqilab müşahidə edildiyi kimi, məkatib işlərində də xüsusi bir inqilab olmuşdur. Əski məktəblər bir daha meydandan çıxarılmalıdır. Yeni nəzəriyyat yaradıcı, yeni məlumat verici məkatib lazımdır. Bundan ötrü də müəllim və müəllimələr lüzumunu heç kəs danmaz. Onlar üçün Bələdiyyə Məclisi tərəfindən milli lisan kursları üçün 15 min rublə təxsis edilmişdir [ayrılmışdır]. Dəfələrlə iclaslar yapmışlar. Şimdi məni də oraya çağırmışlar ki, bərabər bir müşavirə qursunlar. Müsəlman müəllim, xüsusən, müəllimələri böylə bir işdən qaçan kimi gözükürlər.

Mahmudbəyov əfəndi: Əvvəllərdə müəllim və müəllimələr məkatibə qəbul edildikdə imtahan edildiklərini göstərərək müəllim və müəllimələrimizin bir özlərini imtahan etmələrini rica edir. Böylə olarsa, əlbəttə ki, müəllim və müəllimələr özlərini kurslara gəlməyə məcbur edəcəklər, deyir; zira özlərinin zəif olduqlarını hiss edəcəklərdir.

Əliməhəmməd əfəndi məktəblərdəki müəllimlərin də azalmasını bəyan edir. [Orucəliyev] Əlicabbar əfəndi məlum edir ki, məkatibdə tədrisatda bulunan müəllimlərin hesabı azalmışdır. Fəqət nədənsə məsələyə əhəmiyyət vermək istəməyirlər. Təfavüt etməz, kurslarda bir nəfər də olsa tədrisat aparılacaqdır. Fəqət zərərdidə [zərər görən] yenə müəllimlər özləri olacaqdırlar.

Baba bəy əfəndi keçən sənədəki kursların müntəzəm olmamasının müəllimlərin ruhlarını öldürməsini qeyd edərək, öylə olarsa şimdi də heç kəs gəlməyəcəkdir – deyir. Komisyon əzası [üzvləri] bu ilki kursların müntəzəm olacağına dair məlumat verirlər.

Səməd bəy [Hacıəlizadə]: Burada üç maddə vardır ki, bir-birlərinə müavinətdə bulunarlarsa, kurslar həm müntəzəm həm də xeyirli olacaqdır: Birincisi para məsələsidir ki, Əlicabbar əfəndinin buyurduqlarına görə Bələdiyyə Məclisində ümumiyyətlə qəbula keçmişdir. Kursların maddi cəhəti təmin edilmişdir. İkincisi nizam məsələsidir ki, bu xüsusda da intixab edilmiş [seçilmiş] komisyon kursların mənəvi cəhətlərini tərtib və nizama salacağını dəröhdə edir [öhdəsinə götürür]. Üçüncüsü və ən əhəmiyyətli maddə müəllimlərə aiddir ki, o da həvəslə kurslara gəlməkdir. İşbu üç maddədən ikisi göz önündədir. Fəqət üçüncüsü sizdən asılıdır. Ümidvaram ki müəllimlər bu barədə layiqincə düşünəcəkdirlər.

Mahmud bəy əfəndi kurslardan buraxılacaq məzuninə [məzunlara] şəhadətnamə verilsə yaxşı olduğunu bəyan edir. Əlicabbar əfəndi bu məsələnin o qədər də müşkül olmamasını qeydlə deyir ki, komisyon Maarif Nəzarəti indində [nəzdində] iqdamat və təşəbbüsatda bulunarsa [addım atar və təşəbbüs göstərərsə], müvəffəq olacağı ehtimal daxilindədir. Keçən zamanlarda belə xüsusi kurslar şəhadətnamə verməyə izin hasil edirdilər. Şimdiki müəllim və müəllimələrin bir parası da həman kursları təkmil edib [bitirib] şəhadətnamə almışlar, məktəblərdə tədrisatda bulunurlar.

Bundan sonra Səməd bəy əfəndi ruznameyi-müzakirata [müzakirə gündəliyinə] keçərək komisyonun öz rəyini bəyan edir. Müzakiratdan sonra məsələlər işbu qərar üzrə həll edilmişdir:

1) Kurslarda dərslər fevralın 8-indən başlayaraq, mayısın əvaxirinədək [axırlarınadək] davam edəcəkdir.

2) Dərslər fevral ayında axşam saat 5 yarımdan 7 yarımadək, martdan etibarən 6-dan 8-ədək davam edəcəkdir.

3) Kurslarda həftədə 3 gün şənbə, düşənbə [bazar ertəsi] və çaharşənbə [çərşənbə] günü sinif dərsləri olacaq. Yekşənbə [bazar] və pəncşənbə [cümə axşamı] günləri də ümumi olaraq tarixi-milli, üsuli-tədris və tərbiyəyə dair mühazirələr oxunacaqdır.

4) Siniflərə müəllimlər öz səlahdidləri [razılıqları] ilə daxil olacaqlar.

Kurslar üç başqa-başqa sinifdən ibarətdir. Birinci sinif türkcə bilməyənlərə məxsus olub türkcə və hesab tədris ediləcəkdir. İkinci sinif bir qədər məlumatı olan müəlliminə [müəllimlərə] məxsusdur. Burada türkcə və hesabdan başqa bir də həndəsə tədris ediləcəkdir. Üçüncü sinifdə bunlardan əlavə tarix, ədəbiyyat və elmi-təbii [təbiət elmi] də tədris ediləcəkdir. Kurslarda məşhur Haşım əfəndi milli tarix və üsuli-tədris [və] tərbiyədən mühazirələr oxuyacaqdır.

İclas saat 8-də qapanır.

*Tələbə*

## GÜRCÜSTANDA

**İngiltərə Hökuməti nəzdində Gürcüstanın siyasi nümayəndəsi**

Zaqafqaziyada olan İngiltərə komandanlığı vasitəsilə Londondan fevralın 2-sində Gürcüstan Hökuməti sədri Jordaniya namına [adına] böylə bir teleqraf gəlmişdir:

*"David Qambaşidzeni Gürcüstan Hökuməti tərəfindən Londonda İngiltərə Hökuməti nəzdində siyasi nümayəndə təyin etmək lazımdır. Qambaşidze namına teleqraf göndərməklə bunun təyinini tezliklə təsdiq ediniz. Batum və ya Bakıda olan İngiltərə məmurları vasitəsilə bizə hər bir məlumat göndərə bilərsiniz.*

*Qvardjaladze"*

Bu teleqrafa cavab olaraq Gürcüstan Hökuməti fevralın 3-ündə İngiltərə komandanlığı vasitəsilə böylə bir teleqraf göndərmişdir:

*"London. Gürcüstan Cümhuriyyəti nümayəndəsi David Qambaşidzeyə.*

*Gürcüstan Hökuməti sizi İngiltərə Hökuməti nəzdində öz nümayəndəsi təyin edir. Təyininizi təsdiq edib sizə xəbər verirəm ki, etibarnaməniz bu tezlikdə göndəriləcəkdir.*

*Hökumət sədri əvəzinə Xariciyyə naziri Gegeçkori"*

## ERMƏNİSTANDA

Azərbaycan Cümhuriyyəti Baş nazirinin xüsusi işlər məmuru nazir cənablarına böylə ərzi-halda bulunmuşdur:

"Allahverdi Oruc oğlu, Rüstəm Məş-

hədi Hüseyn oğlu (İrəvan quberniyası, Göyçə mahalı, Qaraiman kəndlisindəndir) Qaraiman kəndi tərəfindən Gəncəyə qubernator yanına gəlib Göyçə mahalında ermənilərin zülmündən məlumat vermişlərdir.

Bu əhvalat Ermənistan torpağında vaqe olduğundan və bu işdə bizzat [şəxsən] özü bir binagüzarlıq [sərəncam] verə bilməyəcəyindən, Gəncə qubernatoru onları Bakıya göndərmişdir.

Allahverdi Oruc oğlu və Rüstəm Məşhədi Hüseyn oğlu burada mənə böylə məlumat vermişdirlər:

Yeddi gün bundan əvvəl bizim Qaraiman kəndinə Qulu namında [adında] bir kəndli gəlib demişdir ki, erməni dəstələri Filmov və Yenşanov nam [adlı] afserlərin təhti-idarəsində [idarəsi altında] gecə Qızılvəng, Sabatan və Zağas kəndlərini əhatə eyləmişdirlər. Bütün kişiləri “sizi pristav çağırır” bəhanəsi ilə bir yerə cəm edib sonra özləri bu kəndləri qarətə başlamışlardır. Kəndlilər yalvarıb-yaxarıb bütün tələblərinə əməl edəcəklərini bəyanla buraxmalarını rica edirlərsə də, ermənilər cavabında “İki-üç müsəlman kəndini məhv etməklə sizdən intiqam ala bilməriz, hərgah sizin 30 kəndiniz belə yerləyeksan edilərsə, yenə sentyabr hadisəsində Bakıda bir gecədə tökülən ermənilərin qan bahası deyildir” – deyə cavab verirlər. Dörd gün bu kəndləri qarət etdikdən sonra Çamurlu kəndində vəhşiyanə bir surətdə dörd müsəlman kişisi, altı nəfər arvadı bu xunxarlar [qaniçənlər] tərəfindən qətl edilir. Kişilərin başlarını, arvadların isə döşlərini kəsirlər. Nəhayət, biz özümüz onları dəfn eyləmişik.

Şərab kəndində bir arvad xəbər verir ki, Şərab kəndində bütün müsəlmanları ermənilər kəsib, uşaqları təndirdə yandırmışlardır. Kənddən səkkiz nəfər müsəlman arvadlarını aparıb 20 gün saxlayıb onların ismətinə toxunduqdan sonra buraxmışlardır.

## TEATRO VƏ MUSİQİ

**Yeni məcmuə**

Bu yaxınlarda Zülfüqar bəy Hacıbəyli cənablarının müdiriyyəti altında “Övraqi-nəfisə” nam [adlı] yeni bir məcmuə [jurnal] nəşrə başlayacaqdır. İşbu məcmuə iki həftədə bir dəfə, nəfis surətdə çıxıb sənayeyi-nəfisədən [incəsənətdən] bəhs edəcəkdir. Ələlümdə [əsasən] teatro və musiqi işlərindən və hamı [bütün] türk aləminin ədibləri haqqında geniş bir surətdə məlumatlar verəcəkdir. Milli səhnəmiz və aktyorlarımız haqqında yazılacaqdır. Sənayeyi-nəfisə həvəskarları öz yazıları ilə həmin məcmuədə iştirak edəcəklərdir.

## İDARƏYƏ MƏKTUB

Azərbaycan Məclisi-Məbusan əzasından [üzvlərindən] Hacı Kərim Sanıyev cənablarına.

“Azərbaycan” qəzetəsinin 97-nci sayında səhv olaraq “Qazıqumuq camaatı üçün D. Amintayova manufaktura 8000 arşın” ibarəsi məəttəəssüf [təəssüf ki], “Qazax camaatı üçün D. Amintayova manufaktura 8000 arşın” deyə yazılmışdır. Qazax məbusu Hacı Kərim əfəndinin bu kimi əhvalı nəzəri-diqqətə almalarıciddən [şayani-]təqdir və təhsindir [təqdirə və tərifə layiqdir] və başqa məbuslarımızın da ümuma cəhəti-təəllüqü [aidiyyəti] olan bu kimi məsələlərdə ayıq olmalarını dərgahi-ilahidən təmənna edərəm.

*Ərzaq naziri vəkili Yusifəli [Əliyev]*

**-2-**

Möhtərəm müdir əfəndim!

Xahiş edirəm bu neçə kəlmə sətiri möhtərəm “Azərbaycan” qəzetəsinin sütunlarında dərc edəsiniz.

Rus “Azərbaycan” qəzetəsinin 25-inci nömrəsində yazılmışdır ki, Ərzaq naziri tərəfindən Lənkəran camaatı üçün altı min arşın “bez” vəkalətnamə üzərinə 3 nəfərə verilibdir.

1) Yusif Qəribov;
2) Teymur bəy Bayraməlibəyov;
3) Böyükağa bəy Mirəlibəy oğlu.

Bunu oxuyub rəf’i-iştibah [yanlışı aradan qaldırmaq] üçün məlum edirəm ki, mənim bez barəsində bir xəbərim yoxdur və almamışam. Buna binaən [buna görə] öz tərəfimdən Ticarət nazirinə ərizə vermişəm ki, bu işi təhqiq eyləsin və o kəs ki, mənim adımdan xırsızlıq [oğurluq] etmişdir, öz cəzasına yetirilsin.

*Teymur bəy Bayraməlibəyzadə*

**Arvad diş həkimi Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Papiros, tütün fabrikası**

Açılır bu tez zamanda papiros, tütün fabrikası Voronsovski küçədə 26 nömrəli evdə. Kamali-ehtiramla Ağazeynal Zeynalov.

*2676*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**İSLAMİYYƏ MEHMANXANASI**
**(LOKANTASI)**

Bir çox sənələrdən bəri davam edən və Mart hadiseyi-əliməsində yanan "İslamiyyə" mehmanxanası yenidən təmir edilib bu gündən etibarən mehmanxanada gözəl lokanta açılmışdır. Mahir aşbazların təhtiidarəsində hər növ Avropa və Asiya xörəkləri hazır edilir. Nahar və şam vaxtı Avropa və Asiya musiqi dəstəsi çalacaqdır. On beş ədəd nömrə hazırdır. (Adres: Bazarnı və Qubernski küçələrin küncündə, telefon nömrə 12-51. Kamali-ehtiramla: İsmayıl Mahmudzadə)

*2670*

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Süni böhran**

səh. 118. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 122. "üşr": məhsulun onda biri miqdarında alınan vergi.

**Azərbaycan Məclisi-Məbusanı**
**və sosial-demokratlar**

səh. 122. "Bund": qəzetdə "Bunda" kimi getmişdir. XIX əsrin 90-cı illəri ilə XX əsrin 40-cı illəri arasında Şərqi Avropada (Litva, Polşa və Rusiya ərazisində) fəaliyyət göstərən yəhudi sosialist partiyası idi.

**Ömər Faiq əfəndinin Ruxadzenin**
**teleqrafına cavabı**

səh. 126. "Qobilyan bəyləri": güman ki, "Kobuleti bəyləri" olmalıdır; qəzetdə belə getmişdir.

**Şuşa-Zəngəzur-Cəbrayıl-Cavanşir**
**general-qubernatorluğu**

səh. 127. "Bunlarla bərabər Bakıda bulunan ingilis qoşunları …………… əsgəri dəxi gedir; fəqət onlar Şuşayadək getməyib Yevlax mövqifində qalacaqlardır.": bu cümlənin bəzi yerləri qəzetdə ağ çıxmışdır.

"Mahalda istər müsəlman, istər erməni, istər sair millət olsun – hər kəs camaatın mənfəətini kəndi şəxsi mənafeyindən uca tutub ciddən çalışmaq arzusunda olsa, füqərayi-kasibənin xeyrinə çalışmaq istəsə, general-qubernator həzrətləri özü məəlməmnuniyyə işə cəlb edəcəklərdir.": Qəzetdə bu cümlənin bəzi ünsürləri bir-birinə qarışmışdır.

səh. 128. "Xəlil": bu imza Xəlil İbrahimə (İbrahimov Xəlilə) məxsusdur.





**Müəllimlər ilcası**

səh. 130. "Mahmud bəy əfəndi kurslardan buraxılacaq məzuninə…": güman ki, "Mahmud bəy" yerinə "Mahmudbəyov" olmalıdır.

səh. 131. "…məşhur Haşım əfəndi…": güman ki, Haşım bəy Nərimanbəyov nəzərdə tutulur.

**Ermənistanda**

səh. 132. "Qaraiman": qəzetdə "Qara İmran" kimi getmişdir; Göyçə mahalının Qaraiman kəndi nəzərdə tutulur.

"…Göyçə mahalında…": qəzetdə "Göyçay mahalında" getmişdir.

**Teatro və musiqi**

səh. 132. "Övraqi-nəfisə": 1919-cu ilin mart-avqust aylarında Bakıda nəşr edilmiş mədəniyyət və incəsənət jurnalı.

**İdarəyə məktub**

səh. 132. "Hacı Kərim Sanıyev": qəzetdə "Sanıyev" yerinə səhvən "Sabitov" getmişdir.



دوشنبه ۹ جماذی‌الاول سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیه‌سی — ۱۰ شباط ۱۹۱۹ سنه نومرو ۱۱۰

# آذربایجان

گوندەلک سیاسی، اجتماعی، ادبی، اقتصادی تورک غزته‌سیدر.

تورک و اسلاملغه مفید مقاله‌لره صحیفه لرمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالاتك مكافاتنی اداره تعیین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله تکرارله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:
باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ « ۳۲ «
۳ « ۴۵ «
غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ « ۳۵ «
۳ « ۵۰ «

محل اداره:
باکو، وورونسوفسکی وغوبرنسکی کوچەلرك کنجنده ۴ نومرولی ایوده «آذربایجان» اداره‌سی، تلفون نومرو ۶۰-۳۹
تك نسخه‌سی ۷۰ قپك

انا لله و انا الیه راجعون

آقا داداش و علی اکبر محمد اوفلر اوزلرینك ایسته‌گلی قرداشی

نجف قلی محمد اوفك

شباطك ۹ نجی گیجه‌سنده فجیعانه بر صورتده قتل ایدیلدیگنی اوز دوست و قوم اقرابالرینه کمال حزنله خبر ویریورلر.

دفن گونی علیحده اعلان ایدیله‌جگدر.

انا لله و انا الیه راجعون

مینا خانم اوشاقلری ایله اوز مهربان و ایسته‌گلی شوهری

نجف قلی محمد اوفك

شباطك ۹ نجی گیجه‌سنده ظالم قاتللر طرفندن اوز ایونده فجیعانه بر صورتده قتل ایدیلدیگنی یاس و المله اوز دوست آشنا وقوم اقربالرینه خبر ویریور.

دفن گونی علیحده اعلان ایدیله‌جگدر.

انا لله و انا الیه راجعون

شرق ـ قافقاس نفت تجارتی و سهمداران شرکتنك باش قانطوری خدمتکارلری اوزلرینك اونودیلماز و مهربان مدیرلری

نجف قلی محمد اوفك

شباطك ۹ نجی گیجه‌سنده اوز [illegible] ظالم قاتللر طرفندن فجیعانه بر صورتده قتل ایدیلدیگنی کمال حزن وتاثر ایله خبر ویریورلر.

انا لله و انا الیه راجعون

علی‌بك و صونا خانم اوشاقلری اوز عزیز یولداشلری

نجف قلی محمد اوفك

شباطك ۹ نجی گیجه‌سی اوز ایونده جبار و ظالم قاتللر ایله فجیعانه قتل ایدیلدیگنی یاس‌والمله اوز دوست آشنالرینه حزن الم ایله خبر ویریورلر.

انا لله و انا الیه راجعون

شرق ـ قافقاس نفت تجارتی وسهمداران شرکتی‌اداره‌سی اوز مدیری (دیریکتوری)

نجف قلی محمد اوفك

ظالم قاتللر الیله شباطك ۹ نجی گیجه‌سی اوز ایونده فجیعانه قتل ایدیلدیگنی حزن و تاثر ایله عمومه اعلان ایدیور.

انا لله و انا الیه راجعون

شرق ـ قافقاس نفت تجارتی و سهمداران شرکتی‌نك نفت ویاغ زاوودلرینك و نفت اسقلادینك مدیری، خدمتکار و عمله‌لری اوزلرینك عزیز و مهربان باش مدیرلری اولان

نجف قلی محمد اوفك

شباطك ۹نجی گیجه‌سنده اوز ایونده فجیعانه بر صورتده قتل‌ایدیلدیگنی کمال حزن ایله عمومه اعلان ایدیورلر.

*“Azərbaycan” qəzetinin 110-cu nömrəsinin 1-ci səhifəsi*





**Bazar ertəsi, 10 fevral 1919-cu il, nömrə 110**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 9 cəmadiyələvvəl sənə 1337. 10 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Ağadadaş və Ələkbər Məhəmmədovlar özlərinin istəkli qardaşı **Nəcəfqulu Məhəmmədovun** şubatın [fevralın] 9-uncu gecəsində fəcianə [faciəvi] bir surətdə qətl edildiyini öz dost və qövm-əqrəbalarına kamali-hüznlə [böyük hüznlə] xəbər verirlər.

Dəfn günü əlahiddə elan ediləcəkdir.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Mina xanım uşaqları ilə öz mehriban və istəkli şövhəri [əri] **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsində zalım qatillər tərəfindən öz evində fəcianə bir surətdə qətl edildiyini yəs [kədər] və ələmlə öz dost-aşna və qövm-əqrəbalarına xəbər verir.

Dəfn günü əlahiddə elan ediləcəkdir.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Şərq-Qafqaz Neft Ticarəti və Səhmdaran [Səhmdarlar] şirkətinin baş kantoru xidmətkarları özlərinin unudulmaz və mehriban müdirləri **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsində öz evində zalım qatillər tərəfindən fəcianə bir surətdə qətl edildiyini kamali-hüzn və təəssürlə [böyük hüzn və kədərlə] xəbər verirlər.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Əli bəy və Sona xanım uşaqları öz əziz yoldaşları **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsi öz evində cəbbar [zülümkar] və zalım qatillər əli ilə fəcianə qətl edildiyini yəs və ələmlə öz dost-aşnalarına hüzn-ələmlə xəbər verirlər.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Şərq-Qafqaz Neft Ticarəti və Səhmdaran şirkəti idarəsi öz müdiri (direktoru) **Nəcəfqulu Məhəmmədovun** zalım qatillər əli ilə şubatın 9-uncu gecəsi öz evində fəcianə qətl edildiyini hüzn və təəssürlə ümuma elan edir.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Şərq-Qafqaz Neft Ticarəti və Səhmdaran şirkətinin neft və yağ zavodlarının və neft skladının müdiri, xidmətkar və əmələləri [işçiləri] özlərinin əziz və mehri-

ban baş müdirləri olan **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsində öz evində fəcianə bir surətdə qətl edildiyini kamali-hüznlə ümuma elan edirlər.

**YANLIŞ BİR AVAZ**

İstihalə zamanlarında, yəni bir haldan digər bir hala keçmək zamanlarında hökumət başında durmaqdan daha məsul, camaat işi görməkdən daha müşkül bir iş təsəvvür olunmasın.

Hər şey yerindən tərpənmiş, hər hal digərgun olmuş [dəyişmiş]. Yalnız hökumət müəssisələri, məmurları, idarələri deyil, hər bir şey dəyişmiş; yalnız maddiyyat deyil, mənəviyyat da alt-üst olmuşdur. Əxlaq başqa, nəzəriyyə başqa, hətta namus və eşq məfhumları, məhəbbət və nifrət mənaları da başqalaşmışdır. Böylə bir zamanda cəmiyyəti razı salmaq, məmnun edə bilmək qədər təhlükəli və müşkül bir iş təsəvvür olunmasın.

İştə böylə müşkül bir vəziyyətdə, böylə məsuliyyətli zamanda Azərbaycan Məclisi-Məbusanı müqəddərati-milləti [millətin taleyini] əlinə almış, Cümhuriyyət gəmisini bu qaynar və daşar bir vəziyyətdə olan tarix dəryasında üzdürərək Məclisi-Məbusan kənarına gətirmək yükünü yüklənmişdir.

Fətəli xan Xoyskinin hökuməti təşkil olunduğu zaman, zaman və məkanın iqtizasını [tələbini, ehtiyacını] ölçərək "Müsavat", bitərəflər, sosialistlər və "Əhrar" fraksiyonları, milli əqəliyyət [azlıq] nümayəndələri hökumətə etimadla tərzi-hərəkətlərini bəyan etdilər. Firqə məqsədi deyil, millət və dövlət nəzəriyyəsi xatirinə bir çox nöqsanlara göz örtməyi müvafiq gördülər. Yalnız "İttihad" firqəsi başqa bir rəydə qaldı. Fətəli xanın təbirincə "daşını cibində" saxladı.

O zamanlar mərkəz firqələri, bilxassə [xüsusilə] "Müsavat"la bərabər sosialistlər də cəhd edir, Parlamana girmək istəməyən qeyri-müslüm sosialistlərə qandırmaq istəyirlərdi ki, Azərbaycan Parlamanı xaricində bir idarə, bir çarə yoxdur. Bu nöqteyi-nəzər üstündə duran türk sosialistləri həqiqətən də bir dövlət nəzəriyyəsi və iş zehniyyəti göstərirlərdi. Firqə propaqandasından, firqə məqsədi güdməkdən ziyadə iş və məmləkət xatiri güdülürdü.

Azərbaycan istiqlalı nöqteyi-nəzərində duran demokratik firqələr böylə sabit bir nöqteyi-nəzər təqibi ilə nəhayət bütün müariz [müxalif] firqələrin də Azərbaycan Parlamanını tanımasına səbəb oldular.

Əvvəlcə türk sosialistlərinə "müsavatçı" sosialist namı [adı] taxan "yoldaşlar" artıq türk sosialistləri ilə birləşmək və anlaşmaqdan bəhs edən məqalələr yazmağa başladılar. Bunun təsiri ilə bizim sosialistlər də məəttəəssüf [təəssüf ki], yanlış bir avaz (ton) götürməyə, əyri bir yola sapmağa başladılar.

"Parlaman demokratik görünmək istəyirsə də, deyildir" – deyə başqalarının nəqəratını təkrarlamaqla zənn etdilər ki, məqsədəmüvafiq bir iş görürlər. Firqə məqsədi, propaqanda həvəsi, məmləkət mənafeyi, iş ciddiyyətinə faiq [üstün] gəlməyə başladı.

Zatən – dedilər – biz bu cür Məclisi-Məbusan düzəltmənin tərəfdarı deyildik. Bunu "hakim firqələr" yaratdılar – deyə şikayətləndilər. Halbuki Məclisi-Məbusan qanunnaməsini Azərbaycan Şurayi-Millisi onların iştirakı ilə yazmış və onların dəxi təsdiqi ilə nəşr eyləmişdir.

Tutalım ki, Parlaman onların istədiyi kimi qurulaydı. Nəticə nə ola bilərdi? Vilayətlərdən, komitələrdən, şəhərlərdən adam çağırılmayacaq, 44 adamlıq firqə siyahıları bir fərz iki bərabər artırılacaqdı. O zaman 20 "Müsavat" əvəzinə 40, 10 bitərəf əvəzinə 20, 4 "İttihad" əvəzinə 8, 11 sosialist əvəzinə 22 sosialist olacaqdı. Əcəba 22 sosialist, bu "həqiqi demokratlar" 120 kişilik [nəfərlik] bir məclisdə əksəriyyət təşkil edə biləcəklərmiydi? Yaxud 40 nəfərlik bir "Müsavat" sosialistlər və yaxud bitərəflərlə əqdi-ittifaq etmədən [ittifaqa girmədən] bir mərkəz vücuda gətirə biləcəkmiydi? Təbii ki, etməyəcəkdi. O halda sosialistlər bittəb' [təbii olaraq] kəndilərindən daha mötədil olanlarla bir ittifaq bağlamalı idilər. Bu nöqteyi-nəzərdən ilk ittifaq bağlaya biləcəkləri firqə "Müsavat" olacaqdı.

Halbuki "Müsavat"ı baltalamağa başlamışlardır. Bu baltalamaq bəlkə də sosialist propaqandası yapmaq üçün işə yarar, fəqət məmləkət işi üçün zənn etməyiz ki, faydası olsun.

Əcəba, sosialistlərimiz ümumi intixaba [seçkiyə] bu qədər ümidvar ikən zənn edirlərmi ki, sosialist bir əksəriyyət toplaya bilsinlər? Zənn etməm. Madam ki, bu zənn yoxdur, o halda bugünkü, yarınkı və ehtimal ki, daha o biri günkü ittifaqdaşlarını nahaq yerə tanımamazlığa gəlməyirlərmi?

Yoxsa bu günün "menşeviki" yarının "bolşeviki" deyə mövcud olan nəzəriyyə bizim sosialistlərimiz haqqında damı doğrudur?

Biz buna inanmaq istəməyiz.

Biz qətiyyən arzu etməriz ki, [Pepinov] Əhməd bəyin idarə eylədiyi "Hümmət", [Nərimanov] Nəriman bəyin idarə eylədiyi "Hümmət" kimi tənqidat və mübarizələrində feodal və klerikal [dini, dinin təsirini gücləndirməyə çalışan] bir cərəyan mümessilləri [təmsilçiləri] olan sağları unudub, demokratik mərkəzlə eylədiyi mübarizəni zamanın təhəmmül edəmməyəcəyi əndazə xaricinə çıxarsın.

O halda ümid edəlim ki, Parlamanımızın sol cinahını təşkil edən sosialistlərimizdə son günlərdə görülən yanlış avaz həman fürsət var ikən təshih olunar.

*M. Ə.*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**10-uncu iclas. İkinci gün.**

**Sədr** - İclası açaraq, Məhəmməd ağa Vəkilovun qubernatorluqda qalaraq məbusluqdan istefa verdiyini və Seyidov [Mirhidayət] ilə Tağıyev Əşrəfin iki aydan bəri gəlmədiklərindən məbusluqdan xaric hesab edildiklərini bəyanla fraksiyalardan xahiş edir ki, çıxan məbusların əvəzinə sairlərini göndərsinlər.

**Ağamalov** (Hümmət) - Dünən nazirlərdən birisi dedi ki, hər şeydən ötrü sorğu vermək olmaz. Nazirin sözündən böylə çıxdı ki, sorğu vermək üçün bəzi şərait [şərtlər] mövcud olmalıdır. Əzcümlə [o cümlədən], məsələn, o vaxt sorğu verərlər ki, hökumətin ümumi siyasəti xalqa zərər

ola, daha məsələn, bir naçalnik rüşvət alıb bu barədə sorğu verməzlər.

Bəli, Nəzarətin [Nazirliyin] siyasəti öylə olmalıdır ki, xalqa ondan zərər dəyməsin. Amma bizim Nəzarətlərimizin siyasəti böylə deyildir, zərəri var və nə qədər bu siyasət dəyişməyib, böylə də olacaqdır. Bu siyasət nə siyasətdir? Buna böyük diqqət vermək lazımdır. Bu siyasət indi deyil, türklər buraya qədəm qoyandan başlayıb davam edir və bir müddət də edəcəkdir. Bu siyasət xalqı qorxuda saxlamaq siyasətidir. Şimdiki siyasət, sabiq hökumətin siyasəti, türklərin gəlməsi və onların hərəkətləri həp biri-birinə bağlıdır. Biz burada yoxduq, amma eşidirdik ki, türklər ağır yumruqlarını fəhlə və kəndlilər üzərinə qoyub, onları sıxmışlar. Tərəfi-müqabil dirilmiş, suvarılmış yanmış ot kimi yenidən göyərmişdir. O vaxt Hökumət tikildi, fəqət Parlaman çağırılmadı, çünki Parlaman xalq səsi idi. Əgər Hökuməti Parlaman tiksəydi, böylə olmazdı, amma Parlaman tikmədi. Nuri paşanın qanadı altında tikildi, adını da qoydular... Nə bilim Azərbaycan Cümhuriyyəti. Bu siyasətin ibtidasını [təməlini] o ağalar qoydular ki, indi də gedir. Bu hökumət də o hökumətin tayıdır. Bir məsəl var deyərlər erməninin yaxşısı olmaz, amma bu erməni o ermənidən yaxşı olar. *(Abbasqulu Kazımzadə yerindən: Siz də yaxşı sosialistsiniz!)* Bəli! Bu hökumət o hökumətin tayıdır. Bunun siyasəti onunku kimidir. Bu siyasət də ibarətdir camaatı əzməkdən. Türklərin zamanında qoyulan siyasət bizim hürriyyət və istiqlalımıza ziddir. *(M. Əmin yerindən: Sağ ol!)* Çünki bu siyasət fəhlə və əkinçini əzir, ölüm verir. O yerdə ki, camaatın əksəri zillətdə oldu, o millətin gücü olmaz. Odur ki, biz deyiriz: Həqiqi istiqlal şəraitində yaşamaq istəyənlər həmişə camaatın asayişini təmin etməyə çalışmalıdırlar, nəinki əqəliyyəti [azlığı]. Mən yenə deyirəm, bu hökumət böylə gəlib bir müddət böylə də davam edəcəkdir. Şimdi məndən soruşa bilərsiniz ki, hökumət pis isə nə üçün sosialistlər onu qəbul etmişlərdir? Bunun cavabında deyirəm ki, baxdıq gördük hər tərəfdə işlər fənadır, hər tərəf düşməndir. *(Mərkəzdən və sağdan: Bravo!)* Siyasət barəsində yoldaşım müfəssəl danışacaqdır. Ancaq indi mən bunu demək istəyirəm ki, məmurlar böylə zənn edirlər ki, qüvvəni quldurlarda, qaçaqlarda, adam öldürənlərdə tapmaq olar. *(Məhəmməd Əmin yerindən: Hamı məmurlarmı böylədirlər?)* Bəli! *(Ümumi gülüş)* Amma camaat qulduru hökumət yanında görəndə hökumətin zəifliyinə isnad verir. Avropada adətdir, bir adamı qulluğa qəbul etdikdə ondan attestat istəyirlər. Bizim də attestatımız oğurluq, quldurluq, adam öldürməkdir. Gəncə tərəfdə polislər və strajniklər böylə adamlardandır.

Bizdə bəzi yerlərdə şimdi bir adət var. Hər kəs şikayət etsə, onu döyürlər, xüsusən qulluqçudan heç vaxt şikayət etmək olmaz. Yüzbaşıdan pristava, pristavdan naçalnikə, xülasə, bir qulluqçudan böyüyünə şikayət etmək qadağandır.

Bir də Nikolay vaxtında, heç hürriyyət olmayan zaman yenə bir kəndxuda seçkisi var idi. Şimdi bu da götürülmüşdür. Mən Qazaxda olanda camaat məscid qabağına yığılmışdı. Yüzbaşı məsələsi vardı. Dedim yüzbaşınız pis isə yenisini seçin. Dedilər necə seçək ki, neçə min manat alıb Mahmudu təyin etmişlərdir.

Şimdi gələk sud [məhkəmə] məsələsinə: məhkəmə işlərinin həpsi polis əlindədir. Sudyalar [hakimlər] bekarçılıqdan alış-verişə qurşanmışlardır. Sud yoxdur.

Keçirəm dünkü sorğu məsələsinə. Sorğuda deyilir ki, məmurlar rüşvət alırlar. Biz də təsdiq ediriz ki, böylədir.

Sonra polis məmurlarının fəna hərəkətindən iki misal gətirərək deyir ki: Rüşvətxorluq yalnız Qazaxda deyil, hər yerdə var. Nazirlər bunu bizdən yaxşı bilirlər. Bunun qabağını almaq, çarə qılmaq lazımdır. Lakin çarə bu deyil ki, hökuməti çıxarasan. Bu hökuməti dəyişsən də iş dəyişməz, çünki Həsən keçəl, ya keçəl Həsən. Hökuməti dəyişmək lazım deyil, siyasətin ruhunu dəyişmək lazımdır. Biz burada hökumətə etimad məsələsindən bəhs etmiriz, çünki ümidimiz yoxdur ki, sonra gələn hökumət bundan yaxşı olsun. Bəs nə etməli? Mən deyirəm xəyanətdə tutulan məmurların həpsinə cəza lazım deyil, var-yoxunu əlindən alıb 8 ay bundan qabaqkı halına salmaq lazımdır. Bunun üçün Parlamanda iki komisyon təşkil edilsin. Biri istintaq, digəri qanun verən komisyon ki, cinayət açıldıqda xainlər milyonçu da olsa milyonları əllərindən alınıb 6 ay əvvəlki hallarına salınsınlar. Yoxsa nə hökumət yaşaya bilər, nə biz.

**Sultanməcid Qənizadə** - Nazirlərdən birisinin dediyindən böylə çıxdı ki, bu işlər həp türklər gələndən bəri başlanmışdır. Deməli türklərdən əvvəl heç kəs hinə soxulmayırmış, biz istədiyimizi bu uca kürsüdən danışa bilirmişik. Natiq öz insafı ilə desin, doğurdan da böyləmiydi?

Mən bu barədə çox danışmayacağam, öz insaflarına buraxıram. Qoy onların cavabını da öz vicdanları versin. Amma mən deyirəm ki, həmin bu istiqlal və hürriyyət biz azərbaycanlılara türklərin əli ilə əta edilmişdir. Azərbaycan, Gürcüstan və Ermənistan hökumətlərinin öz rəsmi kağızları ilə isbat edirəm ki, nəinki Azərbaycan, hətta Gürcüstan və Ermənistana da istiqlaliyyəti türklər vermişlərdir. *(Sağdan: Sağ ol!)* Burada deyirlər ki, rüşvətxorluq və sui-istemal talçokunu (hərəkətini) türklər vermişlərdir və elmitəbii [fizika] qanununa görə həman təhrik sövqü ilə indi də davam edir. Fəqət, məlumunuzdur ki, o qanuna görə hər talçokun hərəkətini bir əks-talçok saxlar. Şimdi əgər o talçok türklərdəndisə və türkdən böyük bir qüvvə varsa, buyursun bir əks-talçok çıxarsın və birincini dayandırsın. Mən bu danışıqlara Krılovun məşhur sözü ilə cavab verərəm ki, bu adamlar o şeyə oxşayırlar ki, bir meyvədən yağlanır, fəqət o meyvənin haradan düşdüyünü bilmək istəməyir. Biləks [əksinə] bu gün məmləkətdə xəyanət və cinayət varsa, ondandır ki, həman qüvvə getmişdir. Şimdi biz gərək çalışaq qara qüvvələri rəf və dəf edək [aradan qaldıraq və uzaqlaşdıraq]. Ancaq o halda millətpərəstlik dili ilə bu minbərdə dediyiniz kimi bayrağımız ucalar, Cümhuriyyətimiz yaşar.

*Yenə var*

**TƏƏSSÜRAT**

Üç günlük bir "müharibə"nin şahidi olduq.

Müharibə Parlaman zalında vaqe olub sağ tərəfdən "İttihad" və sol tərəfdən "İttifaq" fraksiyalarının hökumətə qarşı hücumu ilə başlandı.

Hücum nagəhani [qəfil, gözlənilməz] idi.

Bu səbəbdən idi ki, bixəbər hökumət, həngamənin əvvəllərində özünü “müharibə” vəziyyətinə sala bilməyib, “dalbadal” vurulan zərbələri rəddü bədəl edə bilməyirdi [zərbəni dəf edərək özü zərbə endirə bilməyirdi].

Halbuki müxaliflərin bez “kəməndləri” hökuməti dolaşdırdığı halda, neft “atəşləri” də yandırıb, buğda “gülləri” də yağış kimi yağırdı.

Sənaye və Ticarət vəziri [naziri] müavini – ki hücumların əvvəlki hədəf və nişanəsi bu idi – müxaliflər qarşısında müqavimət edə bilməyib ricətə [qaçmağa] məcbur oldu. Müxaliflər onu təqib edib qova-qova Daxiliyyə Vəzarətinə [Nazirliyinə] yaxınlaşdılar. Daxiliyyə vəziri öz Vəzarətini düşmən hücumları qarşısında görüb, tez müdafiəyə qalxdı və mümkün olduğu qədər cansipəranə bir surətdə müharibəyə girişdi. Lakin amansız Qarabəylinin “İttihad” tərəfindən vurduğu şiddətli zərbələri o qədər müəssir [təsirli] idi ki, müdafiəyə macal vermədi. O idi ki, Daxiliyyə Vəzarəti darmadağın olub nə qubernator qaldı, nə naçalnik, nə pristav, nə qaradavoy... Bu meydani-müharibədə [müharibə meydanında] “küştə”lərdən püştələr [cəsədlərdən təpəciklər] əmələ gəldi.

Hökumətin mühüm səngərləri olan Daxiliyyə Vəzarəti əldən gedəndən sonra sair vəzarətlər dəxi müdafiəsiz qalıb, bir-bir müxalif hücumlarının qurbanı olurdular.

Əhval fəna oldu. Ümum hökumət təhlükə içində idi. Ona görə hökumət bir növ özünü düzəldənə qədər kənardan bir kömək lazım idi ki, müxaliflərin başını qatışdırıb hökumətə fürsət versin.

O idi ki, “Müsavat” firqəsi Məhəmməd Əmin Rəsulzadənin təhti-komandasında [komandası altında] olaraq böyük bir kömək göndərdi ki, tez gedib hökumətin canını qurtarsın, vəilla [yoxsa] “böhran” qorxusu hamını əndişəyə salmaqda idi.

Məhəmməd Əmin vaqedə [həqiqətdə] böyük qoçaqlıq göstərdi. Yetişən kimi müxalifləri çevirmə üsulu ilə əhatə edib, qaçıb qurtarmaq yollarını kəsdi. Ondan sonra müxalifləri bir-bir döyməyə başladı. Əvvəlki zərbələr sol “İttifaq”ın başına vuruldu. Bunların sərkərdələri olan Ağamalızadə yoldaş “ya Əli!” çağırmağa məcbur oldu.

Lakin köməksiz müsəlmanları sosial[ist]-daşnak hökuməti-zaliməsinin pənceyi-qəddaranəsindən xilas edən türklərdən narazılıq büruzə verən bir şəxsə Əli kömək durardımı?!

“İttifaq” basıldıqdan sönra növbət “İttihad”ınkı idi. Bunların baş komandanları olan Qarabəyli cənabları ehtiyatsız olaraq özünə aid bir taqım “qara xəbərləri” yada salmaqla öz-özünü tutub Məhəmməd Əminin əlinə verdi...

Müxaliflər basıldıqlarını sezib və qaçmaq yollarını bağlı görüb, Sədiyi-əleyhirrəhmənin:

“Vəqte-zərurət çu nəmanəd qoriz
Dəst begir əz səre şəmşire-tiz”

kəlamını yada salıb hökumətdən əl çəkdilər və “Müsavat”a qarşı “şəmşiri-tiz” [iti qılınc] çəkdilər. Lakin müsavatçılar qorxmadılar. Çünki Məhəmməd Əminin şücaətinə əmin idilər. Filhəqiqə [həqiqətən də] Məhəmməd Əmin Rəsulzadə bir nəreyi-yarəsulallah [Ya Rəsulallah nərəsi] çəkib: “Əgər türkləri Qafqaza gətirdən və Azərbaycanı türk qəhrəmanlarının əli ilə sosial[ist]-daşnak “samasud”larından [linçlərindən, zülümlərindən] xilas edən – siz deyən kimi – yalnız “Müsavat” oldusa, o halda müsavatçılar bununla ancaq fəxr edə bilərlər!” – deyib, bir həmlədə məğlub və məqhur [qəhr olmuş] etdi.

Bu tərəfdən dəxi hökumət fürsətdən istifadə ilə özünü düzəldib və müharib [savaşçı] bir hala salıb, müxaliflərə qarşı əks-hücumlara başladı. İş böylə olduqda “İttifaq” və “İttihad”ın əhvalı, hökumətin əvvəlki halından da betər oldu. Doktor Qarabəyli çox “əlac”lar axtardı ki, zərbələrdən hasil olan yaralarını sağaltsın. Lakin əlacpəzir olmadı [əlac tapmadı]. Bu cürə yaraları sağaltmaq üçün “cərrah” lazım idi. Ağamalızadənin, camaatı qəhqəhə ilə güldürmələri də gülmədən başqa bir mənfəət vermədi.

Bilaxirə [axırda] hökumət “Müsavat” köməyi ilə qalib gəlib, “böhran” zail [yox] oldu və məmləkətimiz böyük bir bəladan qurtuldu.

Doğrudan, bu nə iş idi?

İçimiz və çölümüz pusquda duran gizli və aşkara düşmənlərlə dolu olduğu bir halda “İttihad” firqəsinin bu nazik zamanda hökuməti yıxmaqdan məqsədi nə idi?

Hərçi bada bad deyib xüsusi intiqam almaq, yoxsa məmləkətə mənfəət yetirmək niyyətilə “bacarıqsız” hökuməti düşürüb “bacarıqlı”sını qoymaq?

Əgər intiqam qəsdi imişsə, vay olsun bizim halımıza ki, müqəddəratımızı “hərçi bada bad”a qurban etmək məqsədli fikir sahiblərimiz varmış!...

Əgər “bacarıqsız” və “bacarıqlı” söhbəti isə, bu halda ki, istiqlaliyyətimiz hələ rəsmən tamam deyildir, hökumətin bacarığını – Fətəli xan Xoyski demişkən – Tağıyev fabrikasının bez arşını ilə ölçmək olmaz, bəs nə ilə ölçmək olar?

Zənnimcə tomsonların və milnlərin: “Azərbaycanda ancaq Azərbaycan Hökuməti tanınacaqdır” məzmunlu sözlərinin, kimin səy və çalışması və aqilanə və müdəbbiranə [ağıllı və uzaqgörən] politikası nəticəsi olduğu keyfiyyətinin əhəmiyyəti-fövqəladəsi ilə ölçmək gərəkdir.

Ola bilsin ki, “İttihad” fraks[iy]asının “bezi düz ölçə biləcək” kandidatları var; fəqət bu kandidatlar, bugünkü siyasət və vəziyyətin nə qədər nazik və rəqiqliyini də [incəliyin və həssaslığını da] layiqi ilə ölçə bilərlərmi? Və hərgah bu gün Azərbaycan məmləkətinin halı “İttihad”çıların sözlərinə görə “cəhənnəm”dirsə, əcəba bu “cəhənnəmi” döndərib də “cənnət” halına sala biləcək adamları varmı ki, bunları düşürüb də onları qoyaq?

Və bir də vaqedə “bez” oğurlayanlar, rüşvətxorlar və sair cinayət sahibləri varsa və şikayət bunun üstündə isə, o halda o cürə xainləri hökumət əli ilə tutdurub məhkəməyə vermək lazımdır, daha hökuməti itələyib yıxmağın mənası nədir?!

*Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

### İngiltərənin məlumati-rəsmiyyəsi

Birinci Könüllü Süvari Qolordusu komandanı general Pokrovskinin məktubuna nəzərən general, Mozdok şəhərini işğal ilə bolşeviklərdən 10 min əsir tutmuşdur. Fevralın 3-də Çerdonnının da işğalı gözlənir. Buradan qoşunların bir hissəsi Qudermesə, 2-nci hissəsi isə Kizlyara get-

məli idi.

Fevralın 6-da general Kolesnikov iki top, bir neçə pulemyotla bir dəstə qoşunu Staro-Klavdovskiyə götürmüşdür. Onun yerdə qalan qüvvəsi fevralın 7-8-ində Qroznıya göndəriləcəkdir.

- Dağıstan Hökumətinin məlumati-rəsmiyyəsinə görə, dağıstanlıların dəstəsi Aksayın altında hərbə hazırdırlar.

**İngilis təyyarələri**

Fevralın 3-də Şamilqalada (Petrovsk) olan ingilis təyyarəçiləri yarım diviziya miqdarında olan bolşevik qoşunları üzərinə bomba tökmüşlərdir. Fevralın 5-ində isə Qroznıda olan qışlaların [kazarmaların] üzərinə bomba tökülmüş və orada yanğın başlamışdır. Qroznının qərbi cəhətində dəmiryola və Naurskinin yaxınlığına bomba atmışlardır.

**Türkiyədə böhrani-vüzəra**

Odessa - İstanbuldan verilən xəbərlərə nəzərən, [Əhməd] Tofiq paşa kabinəsi istefa vermişdir.

**Spartakların qaçması**

Son spartak çıxışında iştirak etmiş Berlinin sabiq qalabəyisi Exkordn İsveçə qaçmışdır. Hökumət tərəfindən bu vaxta qədər həbs edilməmiş olan sair spartak başçıları da qaçmaq fikrindədirlər.

* Riqa - Libavadan xəbər verildiyinə nəzərən, ingilis gəmiləri Libava iskələsindən [limanından] getmişlərdir. Litvanın burjuaz hökuməti Libavadadır. Rusiya ordusunun sabiq afserləri silah altına dəvət edilmişlərdir.

* Orenburq – (3 fevral) Beş günlük fasilədən sonra, dünən bolşeviklərin izdihamlı iclasları vaqe oldu. İclasda intixab edilmiş [seçilmiş] komissiyaya şura intixabı [seçilməsi] mühəvvəl [həvalə] edilmişdir.

* Paris - Şimali Rusiya Hökuməti başçısı Çaykovski, Berqen təriqi [yolu] ilə Parisə Sülh Konfransına əzimət eyləmişdir [yola düşmüşdür]. Çaykovski Rusiyada bolşeviklərlə mübarizə barəsində Vilsonla müşavirədə bulunacaqdır.

* General Dot ilə Peter Kolber Transvaal və Oranj cümhuriyyətləri namından [adından] burlara istiqlaliyyət verilməsi barəsində Vilsona bəyannamə təqdim etməli olduqlarından, Cənubi Afrika hökumətləri bu generalların Avropaya getmələrini qadağan eyləmişdir.

## SÜLH ƏTRAFINDA

İstanbul – Nyu-Yorkdan xəbər verilir ki, Amerika Parlamanı Cümhuriyyətçi firqəsinin nümayəndəsi senator Lodj xarici işlərə baxan komissiyaya öz firqəsi namından zeyldəki [aşağıdakı] sülh şərtnaməsini təqdim eyləmişdir:

1) Mərkəzi Avropa dövlətləri bütün hərbi xərcləri ödəməlidirlər.

2) Ümumi və xüsusi müəssisələrə sualtı müharibəsindən verilən zərərlər hakəza [habelə] həman dövlətlər tərəfindən verilməlidir.

3) Müharibə zamanında dinc əhaliyə yetişən zərərlər hakəza verilməlidir.

4) Mərkəzi Avropa dövlətləri tərəfindən Müttəfiqlərin bütün məsarifati-hərbiyyələri [hərbi xərcləri] və birinci növbətdə Belçika, Fransa və Serbiyanın dava xərcləri verilməlidir. Bu məbləği verənədək Mərkəzi dövlətlərin maliyyatı [maliyyəsi] Müttəfiqlərin kontrolu altında olmalıdır.

5) Elzas-Loren Fransaya qaytarılmalıdır.

6) İtaliyanın iddia etdiyi yerləri qaytarılmalıdır.

7) Bir neçə türk əyalətləri türklərdən alınıb Müttəfiqlərin təhti-himayəsində [himayəsi altında] olmalıdır.

8) Dardanel Müttəfiqlərin kontrolu altında olmalıdır.

9) Serbiya, Albaniya, Romaniya və Yunanistan özlərinin milli ittihadını [birliyini] vücuda gətirməlidirlər.

10) Lehistan [Polşa], cənubi slavlar və çex-slovaklar müstəqil olmalıdırlar.

11) Rusiyada asayiş bərpa edilməli, Almaniyanın Rusiya işlərinə müdaxilə etməməsi üçün təminat alınmalıdır.

12) Almaniya müstəmləkələri Almaniyaya qaytarılmamalıdırlar.

13) Kill və Helqoland kanalları Müttəfiqlərin kontrolu altında olmalıdır.

14) Brest-Litovsk və Bükreş əhdnamələri [müqavilələri] ləğv edilməlidir.

15) Mərkəzi dövlətlərin hərbi gəmiləri Müttəfiqlərə verilməlidir.

16) Mərkəzi dövlətlər tərk-silah edilməlidir.

17) Sülh şəraitinə [şərtlərinə] əməl edilənədək Mərkəzi dövlətlər qitələrindən [hissələrindən] bəziləri Müttəfiqlər tərəfindən istila edilməlidir.

18) Yalnız Kayzeri deyil, Lahey Konfransının qətnaməsinə xələl yetirənlərin hamısı məhkəməyə verilməlidir.

19) Beynəlmiləl hakəm [arbitr] və Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] təsis edilməlidir. Mərkəzi dövlətlər sülh şərtnaməsini əmələ gətirməyincə və öz qitələrinə azadlıq verməyincə bu müəssisələrə buraxılmayacaqlardır.

## BAKI XƏBƏRLƏRİ

**Əsgərliyə dair**

Balaxanı-Sabunçu polis müdiri tərəfindən təhti-idarəsində [idarəsi altında] bulunan cəmi kəndlərin kəndxudalarına 5 şubat tarixi ilə aşağıda surəti yazılan təmimnamə [yazılı göstəriş] göndərilmişdir:

Bu axırıncı günlərdə görürəm ki, kəndxudalar əsgərlik işlərində çox səhlənkarlıq edirlər. Məsələn əsgərləri istənilən gündə gətirməyib və çoxusunu heç də gətirmirlər və gətirmədiklərinin səbəbini yazıb bildirmirlər. Əsgərlərlə bərabər özləri də gəlməyirlər. Halbuki Hökumətimizin əvvəlinci və mühüm işi əsgərlik məsələsidir. Kəndxudalar bu böyük işi səhl [asan, bəsit] sayırlar. Ona görə cəmi kəndxudalara əmr edirəm ki, əsgərlik işləri hər bir qulluqdan əvvəl və mühüm olan o[n]ların vəzifəsidir. Kamali-diqqətlə əmələ gətirib, heç bir vəchlə təxəllüf eyləməsinlər [zidd getməsinlər; işdən yayınmasınlar] və onları xəbərdar eyləyirəm ki, hərgah, bu barədə cüzi bir xilafi-qanun hərəkət və səhlənkarlıq olunarsa, Hökumətin və cənab Hərbiyyə nazirinin mənə verdiyi ixtiyara görə onları ən şiddətli cəza və tənbehə düçar edəcəyəm və həmçinin müqərrər eyləyirəm [qərara alıram] ki, nə surətlə olubsa hərbi komitələrin yazıb göstərmədikləri əsgərlik sinnindəki [yaşındakı] cavanların siyahısını 5 günə qədər yazıb mənə pişnihad [təqdim] eyləyəsiniz və bu

müddət keçəndən sonra, hərgah bir nəfər gizlədilmiş cavan məlum olarsa, komitəylə bərabər kəndxudalar da qanunun ən şiddətli cəzasına giriftar olacaqlar.

*Balaxanı-Sabunçu polis müdiri:*
*Lütfəli bəy Əmircanov*

* 8 şubat 1919, şənbə günü saat 2 bədəzzəval [günortadan sonra] Sabunçu-Ramanı-Zabrat-Balaxanı məntəqələri mədənlərində çalışan müsəlman fəhlələri tərəfindən bavəsiqə intixab edilmiş [vəsiqə ilə seçilmiş] nümayəndələr Balaxanı mədənlər mərkəzi "Müsavat" şöbəsi idarəsində heyəti-idarə əzası məiyyəti ilə [idarə heyəti üzvlərinin iştirakı ilə] mitinq quraraq:

1) Parlamanla münasibətimiz;

2) Fəhlə Vəkilləri Şurası [Fəhlə Deputatları Soveti] və bələdiyyə seçkilərinə nəzərimiz məsələləri müzakirə edildi.

Nəticədə:

1) Ümum müsəlman işçiləri tərəfindən Parlamana etimad və etimadnamə təqdim edilməsi təhti-qərara alındıqdan sonra;

2) Seçkilər xüsusunda zirdə [aşağıda] yazılmış qərar qəbul edildi:

Biz Azərbaycan müsəlman işçiləri, milli Parlamanımız və Parlaman müqabilində məsul Hökumətimiz və Hökumət Şurasında Məsai Nəzarətimiz [Əmək Nazirliyimiz] mövcud olduğundan, Fəhlə Vəkilləri Şurasına ehtiyacımız yoxdur. Bələdiyyə seçkisi isə Hökumət tərəfindən demokratik üsulla bələdiyyə seçkisi xüsusunda təşəbbüsatda bulunmaq üçün vəqti-lüzumunda [lazım olan vaxtda] Parlaman vasitəsilə tədbirlər görülməyi mümkündür. Əqəliyyət [azlıq] təşkil edən vətəndaşlarımızın məzkur [deyilən] seçkilərdən məqsədləri iqtisad nöqteyi-nəzərindənsə, Fəhlələr İttifaqı kifayətdir. Bir daha şura intixabına [seçkisinə] lüzum yoxdur. Əgər yenə siyasi intriqalar çevirməksə, o vaxt bilmiş olmalıdırlar ki, biz müsəlman işçiləri, Azərbaycan istiqlalına müzirr [zərərli] olan bütün maddələri dəf etməkdə tam heysiyyətimizlə mücahidə edəcəyiz [cəhd edəcəyik, mübarizə aparacağıq].

*Mitinq sədri: Rəhim bəy*
*Cahangirzadə*
*Katib: Yusifzadə Əbdürrəhim*

## CƏMİYYƏTİ-XEYRİYYƏ

Cümə günü, şubatın 7-si, gündüz saat 2 radələrində Şəhər Dumasının zalında Cəmiyyəti-Xeyriyyənin ümumi iclası oldu. Hazirun [iştirak edənlər] 50 nəfərdən ziyadə idilər.

İclas ikinci dəfə çağırıldığından müftü, şeyxülislam, qazı və sair üləma [din alimləri] və sair əşxas [şəxslər] hazır idilər.

Əliağa Həsənovun sədarəti ilə məclis açılır. Həsənzadə cənabları halımıza dair müxtəsər bir nitq söyləyib ümumi iclasa bir sədr seçilməsini təklif edir. Əksəriyyətlə Qasım Qasımzadə intixab olunur. Qasım Qasımzadə cənabları müfəssəl gözəl bir nitq ilə füqəranın indiki halını təsvir və Cəmiyyəti-Xeyriyyənin dağılmış, yanmış binasının yenidən təmir olunmasının tövsiyəsi və zəkatın verilməsi barəsində təkidatda bulunub, nədənsə bu barədə danışan yoxdur deyir. Bir vaxtda ki, cəmi işlər yatıb, məxluqun bir qədəri varlanıb, bir çoxu acından həlak olmaq dərəcəsinə gəliblər, yaxşı olardı ki, yeni intixab olunacaq möhtərəm idarə üzvləri cidd-cəhd edib bir çox milyonlar qazanmış ağalardan ianə cəm edib Cəmiyyəti-Xeyriyyənin binasını yenidən təmir etməklə bərabər dülgərlər, bənnalar və qeyri fəhlələr orada işləyib aclıq bəlasından bir növ xilas olsunlar və bədəhu [sonra], sədr bir katibi-ümumi [ümumi katib] iclasa dəvət edir. Əksəriyyətlə İbad Əlizadə intixab olunur.

Sədrdən sonra bir neçə nəfər nitq söyləyib idarə intixabına şüru edilir [başlanır]. Əksəriyyətlə cənab Hacı Zeynalabdin Tağıyev fəxri sədr və üləmalardan isə müftü Mustafa əfəndi [Əfəndizadə], Axund Molla Ağa [Ağaəlizadə], Ağa Mirməhəmmədkərim [Mircəfərzadə] və Axund Əbdürrəhim [Hadizadə] idarəyə fəxri üzv intixab olunurlar. Sonra örtülü seçki ilə 12 nəfərdən ibarət zeyldəki [aşağıdakı] şəxslər idarə üzvü intixab olunurlar:

Əsədulla Əhmədzadə, İsmayıl bəy Səfərəlizadə, Qasım Qasımzadə, Əbdüləli bəy Əmircanzadə, Qəni Məhəmmədzadə, Musa bəy Əmircanzadə, Hacı Qasımzadə, Mirzə Əsədullazadə, Məhəmmədəli Salehzadə, Yusif Mehdizadə, Abbas Eyvazzadə, Mehdi bəy Hacınski və Ağa Qədirzadə.

İdarəyə kandidat intixab olunur. Təftiş komitəsinə isə açıq seçki ilə əksəriyyətlə 4 nəfər – Abbasəli Kərimzadə, Yusif Hüseynzadə, Yusif Əhmədzadə və Mahmud bəy Axundzadə intixab olunurlar.

Üləmalar ilə əğniyaların [varlıların] yekdigərinə [bir-birlərinə] söz verdiyindən, əléxüsus Ağa Mirməhəmmədkərim ağanın "Olmasın ki, yenə tənbəllik edib hər kəs öz evində rahat oturaq, zaman işləmək və hümmət zamanıdır və qeyrə" söyləməyindən ümidvaram bir an qəflət etməyib iclasda söylənən gözəl nitqlər və fikirlər qövldən feilə [sözdən işə] gələ və füqəranın halı nəzərə alınıb bir növ yaxşılaşdırıla və zalımlar əli ilə yanmış "İsmailiyyə" binası tez bir zamanda təmir olunub dağdar olmuş [dağlanmış] ürəklərə təsəlli ola. Hümmətül-rical təqləül-cibal.

*M. Ə. Qasımzadə*

## DAĞLI MƏHƏLLƏSİ

Bakının bir guşəsində "Dağlı məhəlləsi" namı [adı] ilə məruf [bilinən] bir camaat yaşayır ki, nədənsə unudulmuş və bəlkə siyahıdan cızılmış və bir guşeyi-nisyana [unudulma guşəsinə] atılıb qalmışlardır. Sanki bu zavallı dağlılar o qədər mənfur, o qədər vəhşi imişlər ki, bunları islah etmək bir yana dursun, hətta hallarına yanmaq, dərdlərinə bir çarə aramaq da böyük bir qəbahətədd [hesab] olunurmuş ki, nə Şəhər İdarəsi, nə Mərkəzi Ev Komitəsi və nə də demokrat deyə fəryad edən ictimaiyyunlar [sosialistlər] bunların adlarını belə eşitmək istəməyirlər.

Müstəbid hökumət zamanında "padişahımız urusdur" deyə tən qəzaya verib bir növlə günlərimizi keçirirdik. İnqilabdan sonra da "hökumət bolşevikdir, divan yox, divanxana yox" deyə hərə başına çarə aramaq fikrində oldu.

Təşəkkürlər olsun ki, bu gün Azərbaycan ismində bir türk, bir islam hökumətimiz vardır və lazım görülərsə, qanımızla onun istiqlaliyyətini müdafiə edəcəyiz.

Bu gün Azərbaycan qeydkeşləri də fəlakət və cəhalət içində boğulub qalan bir Dağlı camaatı dəxi olduğunu bilməlidirlər. Dərdimizi söyləyəcək, halımızı dinlə-

yəcək bir fəryadrəsimiz [fəryadımıza çatan] olar ümidi ilə qəzetə ilə də olsa ələmlərimizi bildirəlim. Fəqət, bu barədə müfəssəl məlumatı sonraya qoyub da hələlik bir qaç mühüm məsələlərlə iktifa [kifayət] edirəm.

1) Neyçün Dağlı məhəlləsində polis tərəfindən bir qaç nəzarətçi bulunmayır ki, qəbristanlığın ağac xaçlarını qarət edib putu 10 manata satanlara cəzası verilməyir?

2) Neyçün tamam şəhəri qorxuya, təşvişə salan müsri [yoluxucu] xəstəliklərin dəfinə çalışanlar zəhmət qəbul edib bir dəfə də olsa Dağlı məhəlləsinə nəzarət yetirməyirlər? Biləks [əksinə], şəhərdən zibili daşıyıb Dağlı məhəlləsinin yanındakı qar ambarlarına tökürlər.

3) Hər yeri işıqlandırmaq istəyirlər. Bu barədə Bələdiyyə ilə Sentrodomun da [Mərkəzi Ev Komitəsinin də] çalışmaları bəllidir. Lakin dağlılar işıqdan da məhrum. Onlar ki, xərcləri də özlərindən, bir il bundan əqdəm [qabaq] Dumaya ərizəylə müraciət edərək işıq istəmişlərdi. Səbəb nə isə onlara işıq verilməyir!

4) Hər yerə baxırsan ev komitələri nizam və qayda üzrə, fəqət Dağlı məhəlləsinə gələndə hərə özü üçün bir siyahı düzəldərək komitə sədri olmuşdur.

Əgər Mərkəzi Ev Komitəsi bunlardan bir şey gözləyirsə, onda bunları nizam və qaydaya salmalıyız. Yoxsa, qadın və çocuqlardan ibarət komitə sədrlərindən bir fayda bəkləməklə çarə olammaz.

Dağlı məhəlləsindəki ev komitələri təzədən təşkil olunmalı, iş bilən bacarıqlı adamları aralarından seçməli və onlardan lazımi vaxtında məlumat tələb olunmalı, vəilla [yoxsa] hər kəs özü üçün komitə olub keyfi istədiyini yaparsa, nə bu gün əsgərlikdən qaçıb gələn vətən və millət xainlərini bulmaq olar və nə də əyri-oğruların qədəri azalar və nə də camaat adına ərzaq alıb-satanların tamahı əksilər.

Müxtəsər, dağlı məhəlləsinin halına bir canı yanan, islahına çalışan bulunarsa, bugünkü cahil dağlılardan gələcəkdə Azərbaycan üçün mənfəət verən sağlam vücud əmələ gələcəyinə ümid etmək olar.

*Dağlı*

**AZƏRBAYCANDA**

**Böyük və Kiçik Dəhnə qəryələri [kəndləri]**

(Şəki uyezdi)

Bizim bu iki yekdigərinə [bir-birinə] mərbut [bağlı] 2 min xanəni havi [evdən ibarət] Böyük və Kiçik Dəhnə nam köylərimiz elm və maarifcə pək geridədirlər. Hal-hazırda nə bir ibtidai (qız və erkək) məktəb və mədrəsələrimiz və nə də adi bir məhkəmə (sud) xanələrimiz vardır. Əvvəlləri hökumət tərəfindən məcburiyyətlə təmin edilmiş məhkəmələrimiz (sudlarımız) və məktəblərimiz (şkolalarımız) vardı. Qız və erkək çocuqlarımız türkcə və rusca hər gün təlimlər alırdılar. Şimdi isə məsum çocuqlarımız səfil və sərgərdan tozlu və çamırlı küçələrdə oynamaqla, atılıb və düşməklə gün keçirirlər.

Və bir dəxi biri digərinin haqq və muzdunu verməkdən imtina edərsə, bir idarə və məhkəmə yoxdur ki, ona şikayətdə bulunub bu zavallı məzlumun haqq və muzdu alınıb kəndinə iadə olunsun [qaytarılsın].





Hal-hazırda 6 nəfər böyük ruhani alimlərimiz vardır və bir nəfər də Türkiyədə təhsil etmiş gənc müəllimimiz vardır ki, bihümmət camaat bunları daima avaralıqda qoyub əsla vəz və nəsihətlərinə etina etməyirlər.

Keçən sənələrdə zavallı alimlərimiz üz suyu tökərək camaatımızın taxıl xırmanlarını dolanıb zəkat (üşr) toplayırdılar. Ta sənəvi [illik] ailə azuqələrini kifayətcə hüsula gətirirdilər. Bu sənə isə camaatımızın hökumət tərəfindən üşrləri tamam toplanıb Şəki şəhərinə göndərildi. Bu bəhanə edilərək alim şəxslərimizə maaş verilməyir.

Ali-şan Azərbaycan Parlaman üzvləri hüzuri-səadətlərinə bu məruzəni təqdimə cəsarətlə, ziyadəsiylə təmənnada bulunuruz ki, Şəki uyezdinin ümum köylüləri əsrarına [sirlərinə] vaqif, yəni hər dəftərxana camaatından ən mötəbər bir şəxs sənəvi [illik] maaşla müdir intixab edilib [seçilib], Şəki şəhərində "köylülər müdirləri" namı ilə bir idarəxana təşkilinə müsaidə verilsin. Bu şəxslər daima köylülərin dini, milli və sair mühüm ehtiyaclarını nəzəri-etinaya alıb sərfi-hümmətlərini məcburiyyətlə camaatlarına icra edib lazımi binagüzarlığında bulunsunlar [lazımi addımları atsınlar]. Zira, Şəki məmurları köylülərin lazımi binagüzarlığında daima qüsur göstərirlər.

*Nəsrəddin Məsumzadə*

**Cavanşir qəzasında**

Fevralın 7-sində Tərtərdən Daxiliyyə nazirinə böylə bir teleqraf göndərilmişdir:

Fevralın 3-də 30 nəfər müsəlləh [silahlı] Ağdərə ermənisi Dursun və Xaçaturun başçılığı ilə Qatallıların malqarasını aparmışlardır. Ermənilərlə müsəlmanlar arasında atışmalar başlanıb, Qurban Allahverdi oğlu yaralanmışdır. Bir inək ölmüşdür. Nəticədə mal sürüsü ermənilərdən alınmışdır. Bu əhval Şuşadakı ingilis komandanlığına məlum edilmişdir. Nə qədər ki, dinc əhali arasından Zaxarbəyovlar rədd edilməmişlər bu işlərin intəhası [sonu] olmayacaqdır.

*Mahal naçalniki:*
*Məlikabbasov [Bəhram bəy]*

**TEATRO VƏ MUSİQİ**

Mərhum cavan artistimiz Surxay Allahverdiyevin cənazəsi Mixaylovski xəstəxanadan götürülüb Hacıbəyli Qardaşları Müdiriyyəti və artist və artistkaları müşayiəti ilə qəbristana aparılıb dəfn edildi.

Mərhumun qəbri üstündə artist və artistkalar cərgə ilə durub "Uyma dünyaya sən çox da ey dili-qafil" nəğməsini tərənnüm etdikdən sonra müdiriyyət tərəfindən Zülfüqar bəy dəxi bir nitq söyləyib fatihəxan oldular [Fatihə oxudular, dua etdilər]. Səhnə yoldaşları mərhumun vəfatı münasibətilə 600 manata qədər öz aralarında para toplayıb onun dəfninə xərc etdilər.

Artistlərimizdən Sarabski ilə Ağdamski cənabları bir müddət idi ki, naxoş idilər. İndi Sarabski sağalıb ayağa durubdur. Ağdamski isə sağalmaq üzrədir.

Üzeyir bəy Hacıbəyli cənabları tərəfindən "Dağıstan" namında bir balet rəqsi təsnif edilmişdir. Rəqs Hacıbəyli müdiriyyəti artistləri tərəfindən hazırlanıb bu günlərdə mövqeyi-tamaşaya vəz ediləcəkdir [qoyulacaqdır].

## İDARƏYƏ MƏKTUB

### Cəmiyyəti-Xeyriyyəyə dair

Keçən gün şubatın 8-də axşam saat 6-da müsəlman Cəmiyyəti-Xeyriyyəsinin birinci iclası vaqe oldu. Neçə mühüm məsələlər qət və həll olandan sonra, Cəmiyyəti-Xeyriyyənin sədri Qasım Qasımov cənabları mərhumə validəsi və mərhumə qayınanası üçün ehsan babından Cəmiyyəti-Xeyriyyənin nəfinə [xeyrinə] 5 min manat ianə mərhəmət edib cəmiyyət idarəsinin savabdidi [razılığı] ilə füqəraya təqsim olunmağını [paylanmasını] rica etdi və həman halda İsmayıl bəy Səfərəliyev cənabları 2 min manat məclisə təqdim edib ittila [xəbər] verdi ki, şirni məclisində min manat Əliabbas Sultanov və min manat Həsən Ağayev cənabları füqəraya təqsim olunmaq üçün Cəmiyyəti-Xeyriyyə nəfinə ianə veriblər.

Bu qisim ianələri camaatıma ittila verib xahiş ediriz ki, ehsanatda və ya toy məclislərində Cəmiyyəti-Xeyriyyənin nəfini dəxi nəzərə alıb imkan qədərində ianə verməklə bəzli-hümmət etsinlər [hümmət sərf etsinlər] ki, Cəmiyyəti-Xeyriyyə füqəranın güzəran və məişətlərinin təmin və təxfifinə [yüngülləşdirilməsinə] sərf etsin.

*Şeyxülislam Axund Ağa Ağaəlizadə*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*





**Elan**

Mart hadisatından bu anadək qapalı qalan Ramanı Müstəhliklər Cəmiyyəti "Camaat" dükanı bununla hamı üzvlərinə xəbər verir ki, həmin fevral ayının 4-ündə, saat 2-də, cümə günü Ramanı kənd divanxanası olan binada vaqe olacaq iclasa təşrif gətirsinlər.

Müzakirə olunacaq məsələlər məlum olacaq. İclas 4-üncü dəfə çağrıldığına görə hər nə üzv gəlsə qanuni hesab olacaq.

*2678*

**OPERA**
**AXŞAM TAMAŞASI**

"Mikado" teatrosunda Malakan bağının
yanında Zülfüqar bəy və Üzeyir bəy
Hacıbəyli müdiriyyəti düşənbə [bazar ertəsi]
günü cəmadiyələvvəl ayının 9-unda 1337
sənəsi (fevralın 10-unda 1919 sənədə)
"Mikado" teatrosunda
müdiriyyətin aktyorları tərəfindən
bu mövsümdə üçüncü dəfə olaraq
təntənəli bir surətdə mövqeyitamaşaya
qoyulacaqdır Üzeyir bəy Hacıbəylinin
yazmış olduğu məşhur
**O OLMASIN BU OLSUN**
operettası 4 pərdədə.
Məşhədi İbadın rolunu bu mövsümdə
birinci dəfə olaraq məşhur artist
Ələkbər Hüseynzadə, hammalın rolunu
Rza Darablı ifa edəcəkdir.
Xor, oyunçu qızlar və qeyriləri.
Böyük musiqi orkestri Müslüm bəyin
təhti-idarəsində [idarəsi altında].
Biletlər indidən teatrın kassasında
satılmaqdadır. Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Dirijor: Müslüm bəy Maqomayev.
Müdir: Üzeyir bəy Hacıbəyli.

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və inna ileyhi raciun**

səh. 137. "İnna lillahi və inna ileyhi raciun": "Həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq". Bu ifadə, "Quran"ın Bəqərə surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: "O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq, deyərlər."

**Yanlış bir avaz**

səh. 138. "...məmləkət xatiri güdülürdü": qəzetdə "güdülürdü" yerinə "görülürdü" getmişdir.

səh. 139. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Təəssürat**

səh.142. "Halbuki müxaliflərin bez «kəməndləri» hökuməti dolaşdırdığı halda, neft «atəşləri» də yandırıb, buğda «gülləri» də yağış kimi yağırdı.": bez (parça) paylanmasında qanunsuzluq iddiaları, qanunsuz neft ticarəti və Türk Komandanlığının tədarük etdiyi buğda ehtiyatının dağıdılması haqqında sorğular nəzərdə tutulur.

"Ağamalızadə": qəzetdə "Ağaəlizadə" getmişdir.

"Sədiyi-əleyhir-rəhmənin": "Sədinin – ona rəhmət olsun". XIII əsrdə yaşamış fars şairi Şirazlı Sədi nəzərdə tutulur.

"Vəqte-zərurət çu nəmanəd qoriz / Dəst begir əz sere şəmşire-tiz": (farsca) "Qaçmaq yolu bağlanıbsa, zəruri olanda / İti qılıncın qəbzəsindən yapış."

səh. 143. "...məmləkətimiz böyük bir bəladan qurtuldu.": qəzetdə "bir" yerinə "bu" getmişdir.

"Hərçi bada bad": necə qurtaracağı bəlli olmayan bir işə girişdikdə işlədilən ifadə; "nə olar, olar".

“Üzeyir”: bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

**Teleqraf xəbərləri**

səh. 144. “General Dot”: güman ki, general Luis Bota olmalıdır.

“Transvaal və Orajn cümhuriyyətləri”: XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Afrikanın cənubunda mövcud olmuş müstəqil dövlətlər olan Transvaal (yaxud Cənubi Afrika Respublikası) ilə Oranj Dövləti (yaxud Azad Oranj Dövləti) nəzərdə tutulur.

“Burlar” [Boere]: Cənubi Afrika afrikanerlərinin subetnik qrupu.

“senator Lodj”: Amerikanın siyasi xadimi Henri Kebot Lodj nəzərdə tutulur. Qəzetdə “Lodj” yerinə “Dojd” getmişdir.

“Mərkəzi Avropa dövlətləri”: Birinci Dünya müharibəsinin tərəflərindən biri olan İttifaq Dövlətləri (Almaniya, Avstriya-Macarıstan, Osmanlı İmperiyası, Bolqarıstan) nəzərdə tutulur.

“Müttəfiqlər”: I Dünya müharibəsinin tərəflərindən biri olan Antanta bloku (Böyük Britaniya, Fransa, Rusiya) nəzərdə tutulur.

səh. 145. “Kayzer”: Alman imperatoru II Vilhelm nəzərdə tutulur.

**Cəmiyyəti-Xeyriyyə**

səh. 147. “Hümmətül-rical təqləül-cibal”: “Kişilərin hümməti dağları yerindən oynadar” (ərəbcə)

**Azərbaycanda**

səh. 149. “Qatallıların”: güman ki, “Qapanlıların” olmalıdır və Tərtərin Qapanlı kəndinin sakinləri nəzərdə tutulmuşdur.

**Elan**

səh. 151. “İclas 4-cü dəfə çağrıldığına görə...”: güman ki, “2-ci dəfə” olmalıdır.





**Çərşənbə axşamı, 11 fevral 1919-cu il, nömrə 111**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 10 cəmadiyələvvəl sənə 1337. 11 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Ağadadaş və Ələkbər Məhəmmədovlar özlərinin istəkli qardaşı **Nəcəfqulu Məhəmmədovun** şubatın [fevralın] 9-uncu gecəsində fəcianə [faciəvi] bir surətdə qətl edildiyini öz dost və qövm-əqrəbalarına kamali-hüznlə xəbər verirlər.

Mərhumun cənazəsi özünün Vrangelski küçədəki 6 nömrəli evindən qaldırılıb bu gün, şubatın 11-ində “Şah məscidi”nə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Mina xanım uşaqları ilə öz mehriban və istəkli şövhəri [əri] **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsində zalım qatillər tərəfindən öz evində fəcianə bir surətdə qətl edildiyini yəs [matəm] və ələmlə öz dost-aşna və qövm-əqrəbalarına xəbər verirlər.

Mərhumun cənazəsi özünün Vrangelski küçədəki 6 nömrəli evindən qaldırılıb bu gün, şubatın 11-ində “Şah məscidi”nə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Şərq-Qafqaz Neft Ticarəti və Səhmdaran [Səhmdarlar] şirkətinin baş kantoru xidmətkarları özlərinin unudulmaz və mehriban müdirləri **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsində öz evində zalım qatillər tərəfindən fəcianə bir surətdə qətl edildiyini kamali-hüzn və təəssürlə xəbər verirlər.

Mərhumun cənazəsi özünün Vrangelski küçədəki 6 nömrəli evindən qaldırılıb bu gün, şubatın 11-ində “Şah məscidi”nə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Əli bəy və Sona xanım uşaqları öz əziz yoldaşları **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsi öz evində cəbbar və zalım qatillər əli ilə fəcianə qətl edildiyini yəs və ələmlə öz dost-aşnalarına hüznələmlə xəbər verirlər.

Mərhumun cənazəsi özünün Vrangelski küçədəki 6 nömrəli evindən qaldırılıb bu gün, şubatın 11-ində “Şah məscidi”nə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Şərq-Qafqaz Neft Ticarəti və Səhmdaran şirkəti idarəsi öz müdiri (direktoru) **Nəcəfqulu Məhəmmədovun** zalım qatillər əli ilə şubatın 9-uncu gecəsi öz evində fəcianə qətl edildiyini hüzn və

təəssürlə ümuma elan edir.

Mərhumun cənazəsi özünün Vrangelski küçədəki 6 nömrəli evindən qaldırılıb bu gün, şubatın 11-ində "Şah məscidi"nə aparılacaqdır.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Şərq-Qafqaz Neft Ticarəti və Səhmdaran şirkətinin neft və yağ zavodlarının və neft skladının müdiri, xidmətkar və əmələləri [işçiləri] özlərinin əziz və mehriban baş müdirləri olan **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsində öz evində fəcianə bir surətdə qətl edildiyini kamali-hüznlə ümuma elan edirlər.

Mərhumun cənazəsi özünün Vrangelski küçədəki 6 nömrəli evindən qaldırılıb bu gün, şubatın 11-ində "Şah məscidi"nə aparılacaqdır.

**TELEQRAF XƏBƏRLƏRİ**

**Sualtı qayıqları**

London

Yeni inşa edilməkdə olan ingilis sualtı qayıqlarının inşası barəsində bəzi məlumat verilir. Bunlar adətən bir sualtı kruvazerləridir [kreyserləridir] ki, adi sualtı qayıqlarından gərək cəsamətdə [böyüklükdə] və gərək sürətdə artıqdırlar. Suyun üzündə bunlar buxarla, su altında isə elektriklə hərəkət edirlər. Bunlar 10 ədəd mina makinası və bir neçə dörd düymə toplarla təchiz edilmişlərdir. Bəzilərinə isə ağır toplar qoyulmuşdur. Bu sualtıların gücü drednot və zirehli kruvazer gücündədir. Hər bir qayığın əmələcatı [heyəti] 85 nəfərdir.

London - Xariciyyə Nəzarəti xəbər verir ki, Sülh Konfransından gələn xəbərlərə bundan sonra sansür [senzura] baxmayacaqdır.

London - Royter agentəliyinə xəbər verilir. Şimdi zənn etmək olar ki, 300 min Almaniya saldatları müsəlləh [silahlı] olaraq qərbi cəbhədə dayanmaqdadır və Almaniya hərbi ləvazimatının təslim işini təxirə salır. Hələlik biz Zaqafqaziyadan qoşunlarımızı çəkə bilmərik. Zira İranı və Xorasanı bolşeviklərin hücumundan müdafiə etmək lazımdır. Yetişən xəbərlərdən anlaşılır ki, Sibirya qoşunları Permdə 30 min bolşevik əsir almışdır. Bundan əlavə, min pulemyot və külli ləvazimi-hərbiyyə qənimət alınmışdır. Sibirya qoşunları Kama çayına yetişmişlərdir. Amma bolşeviklər cənub tərəfinə hücumda davam edirlər. Xətti-hərbdə [cəbhədə] beş bolşevik ordusu iş görür. Onların arasında Almaniya zabitləri də vardır.

**İngiltərədə tətil**

Berlin – (2 fevral) Amsterdamdan xəbər verildiyinə görə, Tamis nəhri boyunda min nəfər gəmi inşa edən əmələ tətil etmişlərdir. 4 min nəfər Mançester zavodu əmələsi hakəza [habelə] tətil elan etmişdir.

Berlin - Berndən xəbər verilir. Fransa Hökuməti Berndə olan Sosialist Konfransına İspaniya nümayəndələrini buraxmadan imtina eyləmişdir. Heyət Fransa sərhədində tövqif edilmişdir [saxlanılmışdır].

Memel - Breslauda Məclisi-Müəssisan intixabatı [seçkisi] günündə böyük iğtişaş əmələ gəlmişdir. Saldatlarla matroslar demokratik firqələr bürolarını dağıtmışlardır.





**SÜLH ƏTRAFINDA**

Bolşevik Rusiyanın Xarici İşlər komissarı Çiçerin Müttəfiq hökumətlərə simsiz teleqrafla xəbər verir ki, Şura Hökuməti Prinsev cəzirəsinə [Prins adasına] sülh nümayəndələrini göndərməyə və Müttəfiqlərlə sülh əqd etməyə [bağlamağa] razıdır. Şura Hökuməti təvəqqe edir ki, nümayəndələrinin hangi yolla getməsini bildirsinlər. Şura Hökuməti hazırdır ki, Rusiyanın Müttəfiqlərə olan borcunu və borcun faizlərini əda eyləsin [ödəsin]. Hakəza [habelə] Rusiyada Müttəfiqlər təbəələrinə müxtəlif imtiyazlar da verəcəkdir.

**Müttəfiqlər və Almaniya**

2-nci mütarikə şəraiti [atəşkəs rejimi] yanvarın 17-sində bitmişdir. Fəqət Almaniya bu vaxtadək sülh əhdnaməsinə [sazişinə] əməl etməmişdir.

Məsələn, Almaniya 4800 parovoz, 130000 vaqon, 5000 yük avtomobili, 1000 xəndək topu, 7000 pulemyot, 600 aeroplanı Müttəfiqlərə təslim eyləməmişdir.

"Deyli xronikl" bu münasibətlə Müttəfiq dövlətlərə məsləhət görür ki, Almaniyanı bu şeyləri təslimə vadar etmək üçün qəti tədbirlər ittixaz edilsin [tədbirlər görülsün] və bunun üçün də sövqülceyş nöqteyi-nəzərindən [strateji baxımdan] əhəmiyyətli olan Almaniya qitəsindən bir parçasını işğal etsinlər və yeni mütarikə əqd edildikdə fövqəlzikr [yuxarıda deyilən] şeylərin təslim edilməsi qeyd olunsun. Qəzetə axırda əlavə eyləyir, nə qədər ki, bu işlər düzəlməmişdir, Müttəfiqlər külli qüvvələr saxlamalıdırlar.

**QƏZETƏLƏRDƏN**

**Türküstanda hökumət təşkili**

Türküstanda hökumət təşkil edilməsi haqqında Mühafizeyi-Ümumiyyə Komitəsinin qərarına görə böylə bir qanun təsdiq edilmişdir. Mühafizeyi-Ümumiyyə Komitəsi baş orqan hesab edilib, qanun vermək və icra etmək ixtiyarı ona mütəalliq [bağlı] idilər. Komitənin hər bir əmrini bilavasitə həyata tətbiq edən nazirlər olarlar ki, bunlar da ancaq Mühafizeyi-Ümumiyyə qarşısında öz binagüzarlıqları [sərəncamları] haqqında məsuldurlar. Hər nazir öz idarəsinə dəxli olan hamı məsələləri Mühafizeyi-Ümumiyyə Komitəsi tərəfindən verilən ümumi qanunlara mütabiq [uyğun] özü müstəqilən həll etməlidir. Nəzarətlər [Nazirliklər] bu qərar üzrə təşkil edilirlər:

1 - Daxiliyyə Nəzarəti, ona tabe olan şöbələrlə:

A) Rus işlərinə baxan inzibat idarəsi;
B) Türkman işlərinə baxan inzibat idarəsi;
C) Hifzüssihhə [Səhiyyə];
D) Ərazi;
E) Xalq maarifi;
F) Poçta və teleqraf.

2 - Ticarət, Sənaət [Sənaye] və Maliyyə Nəzarəti, ona tabe olan:

A) Ticarət və Sənaət;
B) Maliyyə;
C) Məsai [Əmək] və
D) Ərzaq kollegiyası şöbələri ilə.

3 - Hərbiyyə Nəzarəti;
4 - Ədliyyə Nəzarəti;
5 - Dəmiryol Nəzarəti;
6 - Xariciyyə Nəzarəti;
7 - Hökumət Kontrolu [Müfəttişi].

Təyin edilən nazirlər bunlardır:

Daxiliyyə Naziri: podpolkovnik Qrodzinski;

Maliyyə: Umanski;

Hərbiyyə: general-mayor Kruten;

Ədliyyə: Dorrez;

Dəmiryol: Stepanov;

Xariciyyə: Zimin;

Dövlət Kontrolu: Lopatinski.

Mühafizeyi-Ümumiyyə Komitəsi Türküstanda olan İngiltərə əsgəri heyətinin razılığı və təsvibi [təsdiqi] ilə xalq bankını və oblast xəzinəsini təmin etmək qəsdi ilə Ticarət, Sənaət və Maliyyə nazirinə təklif etmişdir ki, az bir müddət zərfində 5-10-25-50-100 və 250 manat qiymətində olan pullar buraxmağa başlasın.

**Biçeraxov əsgərləri**

Fevralın 2-sində Biçeraxov Könüllü ordu əsgərlərindən bir eşalon silahsız olaraq Bakıdan çıxıb Tiflis təriqi [yolu] ilə Batuma getmişdir. Yenə fevralın 3-ündə Bakıdan 2 eşalon Potiyə azim olmuşdur [yola düşmüşdür]. 3-üncü nömrə poçta qatarı ilə Biçeraxov ailəsi 2 vaqon əşya ilə Batuma getmişdir.

**İngilis əsgərləri**

İngilis əsgərlərinin Batumdan Tiflisə gəlmələri üçün dəmiryol idarəsi tərəfindən hər gün 80 vaqondan 100 vaqona qədər İngiltərə heyəti ixtiyarına vagüzar edilmişdir [tapşırılmışdır]. Tiflisdən cənuba tərəf həftədə iki qatar verilmişdir ki, bunların biri Qarsa, digəri İrəvana gedəcəklərdir.

**Təbriz dəmiryolu**

İran ilə doğru dəmiryol münasibatı [əlaqəsi] başlamaqdan ötrü Gürcüstan Dəmiryol Nəzarətində Uluxanlı mövqifi [stansiyası] yanında xarab olan yolun təzliklə təmir edilməsi məsələsi qaldırılmışdır. Həmin dəmiryol xəttində tranzitlə mal daşımaq işini bərpa etmək təsəvvüratı vardır. Bu da İran təriqi ilə əcnəbi mallarının çox gətirilməsinə səbəb olacaqdır.

**Maklakov və Klemanso**

Parisdə olan Rusiya səfiri [Vasili Alekseyeviç] Maklakov, Fransa Xariciyyə naziri Klemanso tərəfindən hüzura qəbul edilmişdir. Klemanso Maklakovla Rusiyanın Sülh Konfransında nümayəndə məsələsi haqqında danışmışdır. Mətbuat Maklakovu Sülh Konfransında görmək arzusundadır.

**Türk bolşevikləri**

İngiltərə ordusu komandanı general Forester-Volker Gürcüstan Xariciyyə naziri Gegeçkoriyə xəbər vermişdir ki, bu günlərdə Tersk oblastından 30 nəfər türk əsiri Tiflisə varid olmuşlardır [gəlmişdir]. Bunlar bolşevik ruhu ilə ruhlanmışlar. Bunların Tiflisdə olması nəinki Türkiyə ilə əqd edilən mütarikə şəratinə [imzalanan atəşkəs şərtlərinə] ziddir, bəlkə Gürcüstan Cümhuriyyətinə zərər də gətirə bilər. Buna görə İngiltərə generalı nəinki bir bunları, bəlkə hamı türk əsirlərini Batuma göndərib türklərə təslim edənə qədər İngiltərə mühafizəsi altına almağı qərara almışdır.

**Ermənistan dəmiryolları**

Tiflisdən Qarsa və İrəvana sürət qatarı ilə 3 nəfər İngiltərə mühəndisləri iştirakı ilə bir komissiya göndərilmişdir ki, Ermənistan dəmiryollarının təxrib [xarab] edilən yerlərini təmir etmək işlərini həll edib tədbirlər görsün, tainki İrəvana və Qarsa qatar hərəkatı başlansın.

**Ermənistana ianə**

Ermənistan aclarının nəfinə [xeyrinə] olaraq Paris şəhərinin bir para hissəsindən cəm edilən 200 min frank ianə Tiflisdə Fransa heyəti-mürəxxəsəsi namına [nümayəndə heyəti adına] göndərilmişdir.

**Vladiqafqaz əhvalı**

Axırıncı alınan xəbərlərə görə, Vladiqafqaz əhvalı böylədir:

Kazak və osetin dəstələri şəhəri cənub tərəfdən mühasirə etmişlərdir. Şəhərin digər hissəsi, Terek nəhrinin sol kənarı Könüllü ordu əsgərləri tərəfindən zəbt edilmişdir. Nəhrin sağ kənarı bolşeviklər və inquşlar əlindədir. Müharibə davam edir. Top atışması vardır.

Tersk Cümhuriyyətini müdafiə edən bolşevik şurası İnquşistandadır. Məzkur [adı çəkilən] şura, Könüllü ordu əleyhinə əməliyyatda bulunmaqdadır.

**Krımda**

Yaltadan xəbər verirlər ki, Müttəfiqlər Krım ordusu təşkil etmək niyyətindədirlər. Krımda olan Könüllü ordu komandanı ərkani-hərbi [qərargahı] müsəlman əhalisinin arzusuna müvafiq xüsusi əsaslar üzrə müsəlman əsgəri dəstələri təşkil edilməsinə icazə verilməsi istidasındadır [xahişindədir].

**Rusiya eserləri arasında ixtilaf**

Bolşevik qəzetələrinin verdiyi məlumata görə, Məclisi-Müəssisan dəvəti münasibətilə Eser [Sosialist İnqilabçılar] firqəsi arasında ixtilaf çıxmışdır. Eser firqəsindən ayrılanlar "Narodovolns" adında təzə bir firqə düzəltmişlər. Bolşeviklərlə sazişə girməyi qeyri-mümkün hesab edirlər.

* Moskva sosial-demokratları (menşevik), bütün Şura hökuməti təşkilatında iştirak etməyi qərara almışlardır.

* Moskva sol eserləri axırıncı qətrə qanlarına qədər bolşeviklərlə mübarizə etməyi qərara almışlar.

**Dombrov Cümhuriyyəti**

Könüllü ordu ərkani-hərbində alınan xəbərə görə, Sarnı mövqifi [stansiyası] və ətrafı Dombrov Kommunist Cümhuriyyəti elan edilmişdir. Təzə cümhuriyyətin qüvvəsi bir neçə yüz mükəmməl silahlı kəndlilərdən ibarətdir. Təzə hökumət əleyhinə qalxan Ukrayna atamanının tutulmuş olan teleqraflarından görünür ki, Ukrayna Direktoriyası onlarla mübarizə etmək qüvvəsində deyildir. Ukrayna atamanı o cümlədən Hərbiyyə nazirinə teleqraf edir ki, mənim dəstələrim bolşeviklərlə təmas etdiklərindən yavaş-yavaş azalır. Dəstələrimin başqa əsgərlərlə əvəz edilməsini xahiş edirəm. Əks surətdə iki gündən sonra özüm Kiyevə gəlməyə məcbur olacağam.

**Rusiya dəmiryolları**

Yanacaq olmadığından dəmiryollarında hərəkat yoxdur. Sərnişinlər çox vaxt yığılıb öz pulları ilə paravozlara yanacaq alırlar. Qatarlar məmlu [dolu] olur. Bir çox mövqiflərdə [stansiyalarda] külli miqdar-

da sərnişinlər cəm olub qatar gözləməkdədirlər.

**MƏTBUAT**

Aşqabadda nəşr olunan "Dan yıldızı" qəzetəsi 3 yanvar tarixli 34-üncü nömrəsində müstəqil Azərbaycana "Mübarək təbrik" sərlövhəli bir baş məqalə təxsis edir [ayırır]. Məqalənin qismi-əhəmmi [önəmli hissəsi] Molla Durdı Möhtaci oğlunun bu münasibətlə yazmış olduğu milli ruh, bəradəranə hiss [qardaşlıq hissi] və səmimi bir sevinclə dolu əşardan [şeirdən] ibarətdir. Şeirə müqəddimə olaraq məzkur [adı çəkilən] baş məqalə böylə başlanır:

*"Təzə və cavan Azərbaycan Cümhuriyyəti[ni] qutlayan və mübarəkləyən bir qəzəl aşağıda dərc olunur. Xüdayi-təbarək və təaladan bu təzə Azərbaycan Cümhuriyyətini mübarək etməsini diləriz ki, şu Azərbaycanın Cümhuriyyəti və şu hökumətin üstündə durub iş dolandıran yaxşı zatları pərvərdigari-aləm afəti-zahirələrdən və batinələrdən məsun edib [görünən və görünməyən bəlalardan qoruyub], qiyami-qiyamətədək gündən-günə rəvac edib payidar və bərqərar qılsın və Azərbaycan məmləkətinin bütün əhalisini Cənabi-haqq hökumətin ədalət[i] sayəsində asudəhal və məsrur [şad] eyləsin və xüləfayi-raşidin zəmanəsi kimi ruyi-zəmin[i] [yer üzünü] ta qiyami-qiyamətədək ədalət nuru ilə münəvvər eyləsin. Baqi vəssəlam əyyami-bəkam dövləti-müstədam ilə-yövmül-qiyam xələd-Allahu-təala mülkəhüm və səltənəhüm bad. Amin, ya Rəbbəl-aləmin."*

Rəfiqimizin bunca səmimanə yazılmış təbrikinə qarşı eyni səmimiyyətlə təşəkkürümüzü izhar və türkistanlı dindaş, millətdaş və qardaşlarımızın da hüquqi-milliyyə və istiqlali-siyasiyyəyə nail olmalarını haqq-təaladan istida və istirham [xahiş və arzu] edəriz.

* * *

Azərbaycan İctimaiyyuni-İnqilabiyyun [Sosialist İnqilabçılar] firqəsi mürəvvici-əfkarı [fikirlərini yayan, orqanı] olan "Zemlya i volya" qəzetəsi Bakı İctimayyuni-İnqilabiyyun firqələrinin sosializm əsasını qeyb edərək, milli və dini əlamətlərlə təşəkkül etmiş siyasi dəstələrə meydan olduğunu və beynəlmiləl bir siyasi təşkilat olan sosializm əleyhinə olaraq daima xətti-hərəkətləri burada hökmfərma [hökm sürən] olan millətçi ünsürlərin keyfinə bağlı qaldığını, buna görə də sosialist firqəliklərini qeyb etmiş olduğunu qeydlə, onların dün "siyasi və iqtisadi mülahizələrlə" uzaq qaçdıqları Parlamana gəldiklərinin səbəbini soraraq deyir ki:

*"Nahaq yerə İctimaiyyuni-İnqilabiyyun və Amiyyun [Sosialist-İnqlabçılar və Demokrat] firqəsindəki ağalar bizim şübhəmizi rəf etmək [aradan qaldırmaq] və öz hərəkətlərini Pepinov və Qarayevlə birgə Azərbaycanda ümuri-idarəni [idarə işlərini] "Müsavat"ın əlindən almaq bəhanəsi ilə Bakı fəhlələri hüzurunda kəndilərini haqlı göstərməyə çalışırlar."*

Məzkur firqələrin böylə ikiüzlü hərəkətlərindən Bakı fəhlələrinin nifrətlənəcəyini və həman bu ağaların bu vaxtadək Bakı fəhlələrini Azərbaycan Məclisi-Müəssisanı əleyhinə saldırdıqlarını qeydlə deyir ki:

*"Bakı sosialistlərinin sosializm və inqilabçılıqla heç bir əlaqəsi olmayan ikiüzlü siyasətləri müsəlman sosialistlərini zəhmətkeş müsəlmanların nəzərindən salmışdır."*

Allaha şükür ki, nəhayət, Azərbaycan İctimaiyyuni-İnqilabiyyun firqəsi yoldaşlarının sosialistdən ziyadə maskalı millətçi olduqlarını və sosialistlərin etimada məzhər [nail] olmadıqlarının səbəbini dərk etmişlərdir.

Fəqət, Ağamalıoğlu dediyi kimi, hər adamın bir attestatı olmalıdır. Azərbaycan sosialistlərinin attestatı "Müsavat" firqəsini söyməkdir. Odur ki, attestatını nəzərə vermək qəsdilə "Müsavat"ı yadından çıxarmayaraq yazır ki:

*"Buna görədir ki, zəhmətkeş müsəlmanlar müsavatçılara uydular və məzkur firqə bundan bilistifadə [istifadə edərək] Azərbaycanda ümuri-idarəni öz əllərinə aldılar. Əgər Bakı sosialistləri Parlaman kürsüsündən mübahisə etməklə hökuməti "Müsavat"ın əlindən almaq məqsədini səmimiyyətlə təqib edirsə, bu xam xəyalı başlarından çıxarsınlar. Amma bizim zənnimizcə, Bakı sosialistləri Azərbaycan Parlamanına öz adi komediyalarını oynamağa gəlirlər. Fəqət o komediya Azərbaycan zəhmətkeşləri üçün böyük faciə ilə qurtara bilər."*

Rəfiqimizin mütaliatına [fikirlərinə] ümumiyyətlə iştirak etməklə bərabər, İctimaiyyuni-İnqilabiyyun firqəsinə mənsub tovarişlərimizə göstərməliyiz ki:

"Müsavat" camaatı öz tərəfinə çəkməyə çalışmışsa, bu ümum firqələr üçün təbii bir şeydir. Fəqət bilirsinizmi camaat nə üçün "Müsavat"ın tərəfinə keçdi?

Çünki sizin kimlə yoldaş olduğunuzu sizdən yaxşı dərk edib, özgələrin quyruğunda getdiyinizi və Azərbaycan türk füqərasının mənafeyini müdafiə edən bir firqə varsa, o da ancaq "Müsavat" olduğunu anlamışlardır.

**BAKI XƏBƏRLƏRİ**

* Yeni təyin edilmiş qubernator Rəşid bəy Axundzadə cənabları fevralın 8-indən etibarən öz vəzifəsinə başlamışdır. Qubernator dəftərxana və idarəsi qulluqçuları yeni qubernatora təqdim olunmuşlardır. Qubernator cənabları hamı xidmətçilərə böylə izharatda bulunmuşdur [bildirmişdir]:

*"Həzərat! Hökumətin əmrinə görə mən Bakı qubernatoru mənsəbinə təyin edilmişəm. Nə tövr bir çətin və məsuliyyətli vəzifənin mənim öhdəmə düşdüyü əlbəttə sizin məlumunuzdur və bunu da sizdən gizləməyirəm ki, mən bunu hiss edərək, qorxu və həyəcanla öz vəzifəmi ifaya başlayıram. Lakin mən ümidvaram ki, sizin köməkliyiniz mənim bu müşkül vəzifəmi yüngülləşdirər. Ələlümdə mən sizdən işə sədaqətlə baxmağınızı arzu edirəm. Mən ümidvar oluram ki, siz mənim ümidimi həqiqətə çıxarıb qanun və asayiş bərpası üçün ittixaz ediləcək [görüləcək] tədbirlərin vücuda gəlməsi üçün mənə kömək edərsiniz."*

* Yeni qubernator Rəşid bəy Axundzadə cənabları fevralın 9-da hamı pristav və okolodoçniləri [polis sahə rəislərini] nəzdinə [yanına] dəvət edib böylə bəyanatda bulunmuşdur:

*"Mən sizi dəvət edib nə tövr bir halda Bakı qubernatorluğu vəzifəsinə daxil olmağım və mənim sizə və sizin xidmətini-*

*zə nə cür münasibətdə bulunacağım barəsində bir neçə söz söyləmək istəyirəm. Mən səmimiyyətlə hər yerdə ciddi qanun qoymaq və davam edən başsızlıq və təcavüzatı kökündən rəf etmək [aradan qaldırmaq] arzusunda varam. Bu məqsədə nail olmaqdan ötrü ən əvvəl doğru və təmiz adamlar lazımdır. Buna görə, mənim tərəfimdən qulluqçuların əxlaqına ciddi surətdə diqqət ediləcəkdir. Burasını bilib və yadınızda saxlayınız ki, rüşvətxorluqda tutulan polisə qulluqçuları ilə mən şiddətli və amansız rəftar edəcəyəm. Mənim rəyimcə rüşvətxorluq ən dəhşətli fəna bir işdir. Çünki bunun sayəsində oğurluq doğruluğa üstün gəlir. Qanun və qaydası olan bir məmləkətdə əksinə olmalıdır. Hər yerdə doğruluq oğurluğa qalib gəlməlidir. Bundan əlavə, Daxiliyyə naziri həzrətləri namından [adından] sizə deməliyəm ki, cinayət və qanunsuzluq edən polisə qulluqçuları əleyhinə nazir həzrətləri tərəfindən inzibat qanununca məhkəməyə verilənə qədər şiddətli cəzalar tətbiq ediləcəkdir.*

*Siz öz xidmətinizə məhəbbət və sədaqətlə baxıb ciddi nizam gözləməlisiniz. Siz öz böyüklərinizə hörmət və diqqət etməlisiniz. Sizin bir-birinizdən seçilməkliyiniz üçün polisə qulluqçularından ötrü müəyyən formalar olmasını mən lazım görürəm. Sabah həmin bu qəsdlə mənim tərəfimdən xüsusi bir komissiya dəvət ediləcəkdir ki, bu barədə öz təsəvvüratını təqdim etsin.*

*Hökumət sizin maddi əhvalınızın yaxşılaşmasına çalışmaqdadır. Sizi təbrik edə bilərəm ki, Daxiliyyə naziri tərəfindən təqdim olunan layihə Vükəla Şurası [Nazirlər Kabineti] tərəfindən təsdiq olunub bu günlərdə icraya qoyulacaqdır. Qaradovoyların məvacibləri iki qat, başqa qulluqçuların da məvacibləri buna münasib artırılmışdır. İndi, hər kəs öz uçastokuna gedib bu dediklərimi bilatəammül [dönmədən; eynən] əmələ gətirməyə başlasın."*

## FƏHLƏ KONQRESİ

Bazar günü, 9 şubat 1919-cu sənə saat 10-da təyin edilmiş Fəhlə Konqresi saat 1 radələrində sədr Çurayev tərəfindən güşad edilir [açılır]. Konqredə 259 nəfər mandatla gəlmiş əza [üzv] vardır. Ruznameyi-müzakirat [müzakirə gündəliyi] heyəti-rüəsa [rəyasət heyəti] tərəfindən işbu şəkildə elam edilir [bildirilir]:

1) Petrovskdan gəlmiş yoldaşların məruzəsi;
2) Fəhlə şurası haqqında;
3) Bələdiyyə məclisi haqqında;
4) Dərmanxana xidmətçiləri tətili haqqında;
5) Ərzaq məsələsi;
6) Fəhlələrin mümtaz [seçilmiş] çıxışları;
7) Vaxtdan artıq zəhmət haqqında;
8) Etilaf [Uzlaşma] komisyonu məruzəsi;
9) Dairələrdəki səhiyyə işləri haqqında.

Ruznameyi-müzakirat elamından sonra Nobelin 3-cü nömrə mədəni rus əmələləri namından [adından] bir nəfər bəyan edir ki, orada işləyən müsəlmanlar onlarla bərabər intixabatda [seçkidə] iştirak etməyib özləri mümtaz olaraq [ayrıca] nümayəndə seçib göndərmişlərdir. Müsəlmanlar deyirlər ki, ruslar özləri iş-





bu məsələdə müsəlmanlarla bərabər olmayıb ayrılmışlardır. Konfrans təklif edir ki, bundan sonra müsəlmanlar da ruslarla bərabər çalışmalıdırlar.

Petrovsk haqqında oradan Bakıya varid olmuş [gəlmiş] Petrovsk Kəsbkarlar [Həmkarlar] İttifaqı sədri məlumat verərək bəyan edir ki, sabiq Petrovsk, şimdi Şamilqala adlanan şəhərdə Kəsbkarlar İttifaqının fəaliyyəti məhəlli [yerli] hökumət tərəfindən qəti surətdə saxlanılmışdır. Kəsbkarlar İttifaqı təşkilatı məhəlli qubernator və Bələdiyyə İdarəsi tərəfindən ləğv edilmiş kimi görülməkdədir.

Dağıstanlılar Hökumətinin sərahətən [açıq-aşkar] fəhlə tərəfdarı olduğunu öz deklarasiyasında söylədiyinə baxmayaraq, məhəlli hökumət fəhlələri və onların təşkilatını təqib etməkdədir.

Kəsbkarlar İttifaqı Teymurxanşuraya nümayəndə göndərib əhvalın nə şəkildə olduğunu söyləmişlər. Məsai Nəzarəti [Əmək Nazirliyi] müavinətini [köməyini] vəd etmişsə də, heç bir şey çıxmamışdır. Nümayəndə nitqinin axırında təklif edir ki, buradan öz səsləri ilə Şamilqala yoldaşlarına müavinətdə bulunsunlar.

(Nitq türkcəyə tərcümə edilir.) Məruzəçiyə suallar verilir. Bundan sonra qət edilir ki, işbu məsələ gələn iclasda müzakirə edilsin.

Sırada Fəhlə Şurası məsələsi durur. Roxlin məruzəçi sifəti ilə məlumat verir, filcümlə [bütün, ümumiyyətlə] şuraların tarixini qeydlə 1905-ci sənə şuraları və 1917-ci il şuralarının fəaliyyətini tənqid edir.

Roxlin Tiflis Şurası haqqında məlumat verir. Nitqində Roxlin şuranın hal-hazırda heç bir iş görə bilməyəcəyini müdafiə edərək axırda təklif edir ki, şura məsələsi bilmərrə [tamamilə] buraxılsın.

Nitq tərcümə edildikdə salonda səs-küy qalxır. Müsəlmanlar dilgir [narazı] olaraq təklif edirlər ki, salonda sakitlik olmazsa, onlar da rusca danışdıqda qışqırıq salacaqlardır.

Şuranı müdafiə nöqteyi-nəzəri ilə Anaşkin məruzədə bulunur. Natiq Rusiya inqilabını Avropada olmuş inqilablarla müqayisə edərək Rusiya həyati-iqtisadiyyəsində [iqtisadi həyatında] şuraların lüzumunu göstərir. Sonra şura əleyhinə gedən Roxlini tənqidə başlayır. Salonda yenə səs-küy qopur. Sədr məclisi sakit edir. Anaşkin nitqinə davam edərək müsəlman fəhlələrinin də Azərbaycan Parlamanına getməməsini bəyan etdikdə müsəlmanlar yerlərindən "Yalandır, rədd ol!" - deyə qışqırırlar.

Sədr məclisi güclə sakit etməyə müvəffəq olur. Anaşkin ingilisləri Bakıya çağırmaqda özlərinin müqəssir olduğunu etirafla təklif edir ki, yenidən şura təcdid [bərpa] edilsin. Buna görə də, təşkilat komisyonu intixab edilsin [seçilsin] və şura təşkilinə şüru edilsin [başlanılsın]. Müsəlmanlar təklif edirlər ki, onlardan da şura lehi və əleyhinə türk dilində olaraq danışılsın. Təklif qəbul edilir. Şura əleyhinə Zülfüqar Məhəmmədzadə nam [adlı] bir nəfər cavan fəhlə qızğın və dəfələrlə alqışa nail olaraq nitq söyləyir. İşbu cavan yanıqlı lisan ilə Mart hadisatındakı şura hökumətindən müsəlmanların başına gələn bəlaları təsvir edir:

- Şimdi o yanan xanimanların tüstüsü göyə uçur. Şimdi də Kaspiyski neft quyularına tökülən burjuy deyil, müsəlman fəhlələrinin qanları coşur, deyir.

Natiq Bakıdan Quba təriqi [yolu] və Tiflis təriqi ilə bolşeviklərin törətdikləri dəhşətləri təsvir edir.

– Bu gün şura, yarın hökumət, o biri gün Parlaman da olmasın deyəcəklər. Zira oralarda xainlər, bəylər oturmuşlardır, deyəcəklər. Orada oturan bəylər hansıdır əcəba? Mən deyirəm şura olammaz. Bizim yeganə məqsudumuz istiqlalımızdır, – deyə nitqini tamam edir. – Müsəlmanlar! Yaşasın istiqlalımız! – deyir.

Gurultulu alqışla qarşılayırlar. Natiq öz nitqini ruscaya tərcümə etmək istədikdə səs-küy qopur. "Bəsdir, az danış, lazım deyil" kimi səslər eşidilməyə başlayır. Sonra bəyan edir ki, natiq nitqini məruzəçi kimi tərcümə edəcəkdir. Heç səs-küy onu işbu ixtiyardan məhrum etməyəcəkdir.

Natiq tərcüməyə başlayır. Bir nəfər rus fəhləsi deyir ki, burada müsəlman fəhləsi məruzə əvəzinə müfəttinlik [fitnəkarlıq] yapır. Bərk gurultu qopur. Müsəlmanlar deyirlər ki, burada müfəttin yoxdur, mandatla intixab edilmiş müsəlman fəhləsi vardır.

Sədr Çurayev, müfəttin deyənə müraciətən dilini bir qədər qısqa etməyi təklif edir. Zira burada müfəttin yoxdur, ancaq fəhlə vardır, deyir.

Bir nəfər müsəlman, şuralar lehinə nitq söyləyərək sabiq şuranın fəna olduğunu da bəyanla, gələcək şuranın yaxşı olacağını ümid edir.

Bundan sonra natiqlər şuranın əleyhinə və lehinə danışırlar. Müsəlmanlardan Qəniyev türkcə və rusca qızğın bir nitq irad edərək fəhlə və əsgər şurası denildikdə hangi əsgərlərin şuraya çağırılacağını sor[uş]ur.

– Azərbaycan əsgərlərinimi? Əlbəttə xeyr. Zira Azərbaycan əsgəri əsla və qət'a [qətiyyən] buna razı olmayacaqdır.

Sonrakı natiqlərin nitqi öylə gurultu, fit, qışqırıqla davam edir ki, heç şey başa düşmək olmayır. Təklif edilir ki, müzakirat qət edilsin [müzakirələr kəsilsin]. Müsəlmanlar buna razı olmayırlar. Təklif səsə qoyulur. Natiqlərə səs verilmək qəbul edilir.

Roxlin yenidən məruzəçi kimi nitqə başlayır. Salonda gurultu qalxır. Bolşeviklərdən Mirzayans ilə Roxlin miyanında [arasında] mübahisə başlanır. Qışqırıqdan heç bir şey eşidilməyir. Müsəlmanlar salonu buraxıb getmək istədikdə Qəniyevin böylə ciddi zamanda getmənin fayda verə bilməyəcəyini bəyan[ın]dan sonra yenə salonda qalırlar.

Roxlin nitqinin axırında işbu sözləri əlavə edir:

– Biz, Zaqafqaziyanın silah zoru ilə işğal edilməsi əleyhinəyiz. Qırmızı alaylar tərəfindən olarsa da, Denikin tərəfindən olarsa da, təfavütü yoxdur. Biz fəqət işlə Ermənistan, Gürcüstan, Azərbaycan demokratiyasını böyük Rusiya demokratiyası ilə birləşdirəcəyiz.

Bundan sonra Anaşkin danışır. Məlik-Yeqanov Anaşkinə böylə bir sual verir:

"Mart hadisatından əvvəl Bakıya hangi qoşunlar yürüş edirlərdi, əcəba?"

Anaşkin gah Lənkəran, gah Bakı sözlərini qarışdıraraq cavab verə bilməyir. Müsəlmanlar gülüşürlər. Yenə səs-küy qalxır.

Axırda iki təklif edilir:

1) Konqredə şura təşkili məsələsi həll edilsin;

2) Fəhlə, saldat və matros şurası təşkili mədənlərdə həll edilsin və konqreyə pişnihad [təqdim] edilsin.

İkinci təklif əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edilir.

Bundan sonra dərmanxana xidmətçiləri tətili haqqında Anaşkin məlumat verir. Axırda təklif edir ki, sabah saat 4-ədək qəti cavab alınmazsa, komisyon intixab etdiyi tədabiri qövldən feilə gətirəcəkdir [seçdiyi tədbirləri həyata keçirəcəkdir]. Təklif qəbul edilir.

Sonra Port [Liman] dairəsi fəhlələri haqqında məlumat verilir.

Konqre saat 7-də qapanır.

## GÜRCÜSTANDA

### Gürcüstan Hökuməti və Könüllü Ordu

Qafqaziyada olan İngiltərə qüvvələri komandanı general Forester-Volker Gürcüstan Xariciyyə nazirinə xəbər vermişdir ki, Gürcüstan Hökuməti ilə Könüllü ordu arasında olan ixtilafları bərtərəf etmək [aradan qaldırmaq] üçün İngiltərə zabiti Uayt Soçiyə göndərilir.

### Bitərəf məntəqədə iğtişaş

Quberniya komissarı Gürcüstan Daxiliyyə nazirinə xəbər verir ki, Borçalı uyezdinin bitərəf məntəqəsində hökumət olmadığından böyük hərc-mərclik hökmfərmadır [hökm sürür]. Quberniya komissarı asayiş bərpası üçün tədbirlər görülməsini xahiş edir. Polkovnik Stuart xəbər almışdır ki, 120 nəfərdən ibarət müsəlləh [silahlı] erməni dəstəsi sərhəd qaraqolxanalarını dağıtmaqdan ötrü Şarşabaq kəndi dairəsindən çıxıb Candar, Allahverdi, Xudcar kəndlərinə hücum etmişlər. Gürcü polkovniki xəbər verir ki, bu hərəkəti yatırmaq üçün bitərəf məntəqəyə keçməyə məcbur olacaqdır. Polkovnik Stuart işin nə yerdə olduğunu aşkar etmək, mümkün qədəri bu ixtilafı qan tökülmədən rədd etməkdən ötrü bir zabitlə bir qədər əsgər göndərir.

### Bakı Erməni Məlumat Bürosunun xəbərləri

Gürcüstan Hökuməti Könüllü orduya olan düşmənanə münasibatına baxmayaraq, onunla siyasi münasibata başlamışdır. Tiflisə gələn Sokolova həvalə olunmuşdur ki, Könüllü ordu namından [adından] Gürcüstan Hökuməti ilə müzakirata [müzakirələrə] başlasın. Hal-hazırda Gürcüstan Hökuməti Kuban Hökuməti ilə Denikin nəzdində siyasi nümayəndə olmaq sifətilə Ermənistanda olan sabiq siyasi nümayəndə Mdivanini Kubana göndərir. Eyni zamanda Gürcüstan Hökuməti Gürcüstan muxtariyyət və hətta istiqlaliyyətinin bolşeviklər tərəfindən təsdiq ediləcəyinə Şura Hökumətinin rizasını hasil etmişdir. Bolşeviklərlə əqd edilən [imzalanan] əhdnamənin [sazişin] məzmunu hələ gizli tutulur.

* Ermənistan Hökumətinin Gürcüstanda olacaq siyasi nümayəndə məsələsi kəskin bir surət almışdır. Gürcüstan Hökuməti nümayəndəliyi rədd ilə izhar edir ki, Sülh Konfransı mübahisəli məsələləri həll edənə qədər, Gürcüstan Hökuməti Ermənistanla müharibə halında hesab ediləcəkdir. Bu məsələ haqqında general [Forester]Volker deyir ki, nümayəndə olmalıdır. Hərgah, Gürcüstan Hökuməti nümayəndə qəbul etməsə, bilavasitə Müttəfiqlər tərəfindən qəbul ediləcəkdir.

* Hal-hazırda Erməni-Gürcü Konfransı bir çox məsələlərlə məşğuldur. O cümlədən siyasi nümayəndəlik məsələsi, bon təqsimi [paylanması], Rusiya əmvalı [mal-

ları], tranzit dəmiryol və poçta tarifəsi, ticarət münasibatı və Gürcüstanda qalmaq istəməyənlərin şeylərinin Gürcüstandan çıxarılması. Gürcüstan Hökuməti tərəfindən banklarda müsadirə edilmiş pulların qaytarılması məsələsi açıq buraxılmışdır. Gürcüstan Hökumətinin bəyanatına görə, bu məsələ ancaq müqəssir tərəf aşkar edilib və müharibə zərəri verildikdən sonra həll ediləcəkdir. Bon təqsimi məsələsində saziş hüsula gəlmişdir. Bu saziş üzrə Ermənistan Hökuməti keçmişdə buraxılan bonlardan 80 milyon öz payını alıb təzə bon buraxılmasında da iştirak edir.

**İngiltərə malları**

Bu yaxınlarda Qafqaziyaya, xüsusən Gürcüstana İngiltərədən bir çox ərzaq və birinci zəruri şeylər gətiriləcəkdir. Buna görə bir çox şeylərin ucuzlanması gözlənir.

**Soçinin Könüllü ordu tərəfindən işğalı**

"B. S." qəzetəsi yazır ki, keçən gün alınan xəbərlərə görə, Soçi Könüllü ordu əsgərləri tərəfindən işğal edilmişdir. Soçinin alınmasına cavab olaraq Gürcüstan dairəsində olan Könüllü ordu zabitlərinin hamısı məhbus elan edilmişlərdir. Xalq qvardiyasının cəm edilməsi elanı verilmişdir.

## ERMƏNİSTANDA

**İrəvan quberniyası müsəlmanlarının halı**

Srağagün İrəvan quberniyası müsəlmanları tərəfindən Göyçə ətrafındakı Qəhrəmanlı kəndi sakinləri Allahverdi Oruc oğlu, Rüstəm Məşədi Hüseyn oğlu nam zəvat [adlı şəxslər] nümayəndə olaraq Bakıya gəlmişlərdir. Nümayəndələr əvvəlcə Gəncə qubernatoru hüzuruna gəlib əlac istəmişlər. Qubernator cənabları da bir nəfər məmurla onları Bakıya göndərmişdir. Müxbirimiz hökumət dəftərxanasında bunlarla görüşüb ora əhvalından böylə məlumat almışdır:

Müntəzəm erməni qoşunları müsəlmanlar təslim olduqdan sonra onları tərksilah etmişlərdir. Silahsız müsəlmanlar bundan sonra erməni qoşunları tapdağı olmağa başlamışlardır. Nümayəndələrin dediyinə görə, "pristavlı, naçalnikli" olaraq gəlib Qızılvəng kəndinə dolurlar. Sonra kişiləri və oğlan uşaqlarını bir evə cəm edirlər. Ondan sonra Zağalı kəndi, Subatan kəndi kişilərini də cəm edib Qızılvəng kəndinə gətirirlər. İşbu üç kəndi qarət və yəğma edib bir çox qadın-çocuqları da kəsmişlərdir.

Böyük Məzrə kəndi ilə Kiçik Məzrə kəndi müsəlmanları bütün ev müxəlləfatlarını [əşyalarını] Qəhrəmanlı kəndinə daşıyıb özləri də oraya gəlmişlər. Ermənilər işbu iki kəndi də xarabazara döndərmişlərdir.

Erməni qoşunları silahlarını aldıqdan sonra kəndlilərin bütün ərzaq, mühümmat və qiymətli əşyalarını da almışlardır. Şimdi müsəlman köylüləri aclıqdan da tələf olmaqdadırlar. Zira bir şey qoymamışlar.

Nümayəndələrin dediyinə görə, erməni qoşunlarının qismi-əzəmi [çox hissəsi] Türkiyə ermənilərindəndir.

Bunlar deyirlər ki, biz ermənilərə müraciətən məlum etdik ki, təslim olduqdan sonra bir daha o işlər nədir?





Ermənilər daima böylə cavab verirlər: "Nə qədər sizdən öldürsək, yenə Bakının bir küçəsində ölən ermənilərin əvəzi deyildir."

Erməni dəhşətlərini kəndlilər öylə təsvir edirlər ki, insana həqiqətən vahimə qalib gəlir. Şahab nam kənddən erməni nizami qoşunları 8 nəfər islam qadınlarını aparmışlar. 20 gündən sonra fəqət bircə nəfərini buraxmışlardır. Bu arvad nəql etmişdir ki, bütün kişiləri və oğlan uşaqlarını bir evə töküb, od vurub diri-diri yandırmışlar.

Çamırlı kəndi üzərinə tökülüb 4 kişi 6 qadın öldürdükdən sonra kəndi qarət etmişlər. Qadınların əmcəklərini də kəsmişlərdir.

Övzayi-hazirəni [indiki vəziyyəti] təsvirlə nümayəndələr:

– Bu gün sağ-salamatıq, fəqət bilməyirik sabah başımıza nə gələcək. Kənddən kənara çıxa bilməyirik. Yeməyə də bir şeyimiz yoxdur. Siz özünüz fikir ediniz ki, bizim halımız nə qədər müşküldür. – deyə ağlayırdılar. – İndi gəlmişik bizim əlimiz sizin ətəyiniz, bizə bir çarə ediniz. Özümüz ac, ərzağımız alınıb, qiymətli əşyamız qarət edilib. Sağ qalmağa da ümidimiz yox. Zira bu gün bu kənd, sabah o biri kənd yandırılıb yerlə yeksan edilməkdədir. Bu gün 10 nəfər, sabah 5 nəfər müsəlman daima qətl edilməkdədir.

Nümayəndələr öz libaslarını göstərərək "Olan-olmazımız budur" deyirlər. Həqiqətən üstlərində bir cındır arxalıqdan başqa bir şey yox idi:

– Qarət edildik, kişilərimiz, qadınlarımız öldürülüb, öldürüldükdən sonra da meyitləri təhqir edilməkdədir. Biz nə edək? Başımıza nə çarə qılaq? Kəndlilər bir yerə cəm olub bizi buraya göndərmişlər ki, dərdimizi deyək, bir çarə arayaq. Biz də qaçaq yollarla buraya gəlmişik. Yerdə siz, göydə Allah bizə bir çarə ediniz.

Bunların dediyinə görə, bir az da böylə davam edərsə, İrəvan quberniyasında nə bir müsəlman kəndi, nə də bir nəfər müsəlman qalacaqdır. Zira ermənilər müntəzəmən gündə bir neçə kəndi yandırıb dağıdırlar.

**Ermənistanda aclıq və xəstəlik**

Bakıda olan Erməni Məlumat Bürosu xəbər verir ki, hal-hazırda Ermənistanda ərzaq və müsri [yoluxucu] xəstəliklərlə mübarizə məsələsi ciddi bir məsələ olmuşdur. Aclıqdan səpmə yatalaq xəstəliyi şiddət etməkdədir. Sürməli uyezdində minlərcə adam qırılır. Ermənistan Parlamanı sədri [Avetik] Saakyan ilə Tiflisə gələn Parlaman heyəti əzalarından [üzvlərindən] Şərifyanın dediyinə görə, hərgah bu iki həftə müddətində ərzaq köməkliyi olmasa, əhalinin yarısı tələf olacaqdır. Ermənistan Parlamanı Şərifyana həvalə etmişdir ki, Qarsdan taxıl buraxılması üçün Müttəfiqlərdən müavinət [kömək] istəsin. Eyni zamanda Ermənistan Hökuməti ilə Parlamanının qərarına görə, hökumət rəisi Kaçaznuni Amerikaya gedib ərzaq köməkliyi xahiş etməlidir. Ətrafla münasibat yoxdur. Hərdənbir qəzetələr gəlir. Ancaq bu axır vaxt ətrafla müxabirədə bulunmaqdan [xəbərləşməkdən] ötrü simsiz teleqraf istasyonu düzəltmək imkanı vardır. Qərbi Zaqafqaziyada olan Müttəfiq dövlət əsgərləri komandanı general [Forester-]Volker demişdir ki, Qarsdan

taxıl vermək mümkün deyildir. Çünki yerli müsəlman əhalisini çörəkdən məhrum etmək olmaz. Şimali Qafqaziyadan da taxıl gətirmək mümkün olmaz. Çünkü orada da Könüllü ordu üçün kifayət etməz. İdareyi-mülkiyyə müdiri general Biç demişdir ki, Müttəfiqlər Ermənistana ərzaqla müavinət göstərməyi qərara almışlardır. Bu qəsdlə də Yekaterinodara bir nəfər adam göndərmişlərdir. Bundan əlavə general Tomsondan da xahiş edilmişdir ki, Bakıdan düyü ilə müavinət göstərsin. Qarsdan da taxıl buraxılması üçün istida [xahiş] edilir.

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimi Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*





**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**İSLAMİYYƏ MEHMANXANASI**
**(LOKANTASI)**

Bir çox sənələrdən bəri davam edən və Mart hadiseyi-əliməsində yanan "İslamiyyə" mehmanxanası yenidən təmir edilib bu gündən etibarən mehmanxanada gözəl lokanta açılmışdır. Mahir aşbazların təhti-idarəsində hər növ Avropa və Asiya xörəkləri hazır edilir. Nahar və şam vaxtı Avropa və Asiya musiqi dəstəsi çalacaqdır. On beş ədəd nömrə hazırdır. (Adres: Bazarnı və Qubernski küçələrin küncündə, telefon nömrə 12-51. Kamali-ehtiramla: İsmayıl Mahmudzadə)

*2670*

**Gəmiçilər Şurasının İttifaqı**

Bütün gəmi sahiblərini fevralın 12-sində çaharşənbə [çərşənbə] günü gündüz saat 12-də Qafqaz Merkuri Cəmiyyətinin kantorunda olacaq ümumi iclasa dəvət edir. Bu iclas, irəliki iclasın mabədidir [ardıdır].

*2680*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Xırda Neftçilər İttifaqı idarəsi**

İngiltərə ərkani-hərbinə [baş qərargahına] pul almaq üçün veriləcək tabellər (məvacib siyahıları) təsdiq edilməsinin həmin şubatın 15-inə qədər İttifaqın Şaxski caddəsində 35 nömrəli evdə olan kantorasında axşam saat 4-dən 8-ədək qəbul edildiyini elan edir.

**Контора Агентуры и Комиссии "И. Фани и Ко."** Баку, Церковная 70. Телеф. N 22-28. Почт. ящ. N 13.

**Agentura və komisyon kantoru İ. Fani və kompaniyası.** Bakı, Serkovnı küçədə 70 nömrəli evdə. Telefon nömrəsi 22-28. Poçta yeşiki 13.

Kimdə nə mal varsa və kimə nə mal lazımsa bizim kantora müraciət etmələri təvəqqe olunur. Hər cür malların satışını qəbul və qəbul edilən mallar üçün qabaqca pul (ssdua) buraxırız. Sair şəhərlərdəki komisyon və agenturalardan öz mənfəətləri xatirlərinə ünvanlarını göndərmələri mətlubdur [tələb edilir]. Kantorumuz hər gün səhər saat 8-dən 2-yədək, axşam 4-dən 7-yədək açıqdır.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və inna ileyhi raciun**

səh. 153. Vrangelski: Bakıda, indiki Əhməd Cavad küçəsi.

**Teleqraf xəbərləri**

səh. 154. "...dörd düymə toplarla...": kalibri 4 düym olan toplar nəzərdə tutulur.

"Drednot": hərbi dəniz donanmalarında XX əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanan, güclü artilleriya silahlarına malik zirehli gəmi (drednout).

**Qəzetələrdən:**
**Türküstanda hökumət təşkili**

səh.155. "Nəzarətlər bu qərar üzrə təşkil edilirlər...": burada və bundan sonra hərflərlə göstərilən maddələr qəzetdə ərəb əlifbasının hərf sırasında uyğun olaraq (əlif, bə, tə və sair) verilmişdir.

"E) Xalq maarifi": qəzetdə "maarifi" yerinə "müarizi" getmişdir.

**Mətbuat**

səh. 158. "Xüləfayi-raşidin": Məhəmməd peyğəmbərdən sonrakı ilk dörd xəlifə (Əbubəkr, Ömər, Osman, Əli) nəzərdə tutulur. Onların hakimiyyəti 632-661-ci illəri əhatə edir.

"Baqi vəssəlam əyyami-bəkam dövləti müstədam ilə-yövmül-qiyam xələd-Allahutəala mülkəhüm və səltənətəhüm bad.": (ərəbcə) "Sonrası salamatlıq və xoşbəxtlik; dövlətimiz qiyamətə qədər sürüb getsin, Allahtaala ölkəmizi və səltənətimizi daim eyləsin."

**Ermənistanda**

səh. 164. "Qəhrəmanlı": bu kəndin adı bəzən "Qəhrəman", bəzən "Qəhrəmanlı" kimi getmişdir. Ola bilsin ki, "Qaraiman" kəndi nəzərdə tutulur.

"...bunlarla görüşüb ora əhvalından...": qəzetdə belə getmişdir: "...bunlarla görüşür. Ora əhvalından..."





**Çərşənbə, 12 fevral 1919-cu il, nömrə 112**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 11 cəmadiyələvvəl sənə 1337. 12 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Hacı Nağı, Abdulla, Yusif, Mehdi Mehdiyevlər əvvəlincinin oğlu, axırıncıların qardaşı Kəlbəlinin vəfatını öz qövm-əqrəbalarına və dost-aşnalarına xəbər verirlər. Cənazə bu gün saat 10-da İçəri şəhərdə Tverskoy küçədə 59/10 nömrəli evindən "Şah məscidi"nə aparılacaqdır.

## BAKI QUBERNATORUNUN ƏMRİ

Fevralın 7-dən etibarən Bakı valisi tərəfindən zeyldəki [aşağıdakı] əmrnamə sadir olmuşdur [yayılmışdır]:

Mən vilayəti idarə etmək vəzifəsinə şüru etdikdə [başladıqda] əhalinin həyat və əmlakını təmin edib, bir çox qanunsuzluqdan sonra təhti-idarəmdə [idarəm altında] olan vilayətdə əmnü asayiş [əmin-amanlıq və asayiş] bərpa etməyə ciddi surətdə etinamı cəlb etdim. Bundan ötrü mənim təhti-idarəmdə olan polis nəfəratının [nəfərlərinin] öz vəzifələrini lazımi surətdə ifa etmələri üçün ciddi tədbirlər ittixaz edildi [tədbirlər görüldü] ki, bununla gənc Azərbaycan Cümhuriyyəti və onun əhalisi hər bir təhlükədən və axır vaxtlarda çox şiddət etmiş olan cinayət və sui-istemallardan [sui-istifadələrdən] təmin edilsin. Lakin buna baxmayaraq sui-istemal istənilən dərəcəyə qədər əksilmədi və biləks [əksinə] Bakı, Balaxanı qalabəyləri və uyezd naçalnikinin bəratülqövllərinə [protokollarına] baxılarsa, daha da artmışdır. Buna da səbəb polis nəfəratının öz vəzifələrini layiqi surətdə ifa etməmələri və digər tərəfdən isə ali-mənsəb [yüksək rütbəli] məmurlarının ədəmi-nəzarəti [nəzarətsizliyi] və bəlkə heç olmamasıdır. Böylə ki, mən fevralın 6-da axşam gəzərkən bəzi polis idarələrinə getdim. Çox yerlərdə qaradavoylar yox idi. Polis idarələrində isə böyük qaydasızlıq və rüşvətxorluq davam etməkdədir. Qərardadsız olaraq adamlar həbs edilirlər. Buna mən 4-cü polis idarəsində təyin hasil etdim [müəyyənləşdirdim]. Müqəssirləri təhti-mühakiməyə [mühakimə altına] almaqdan ötrü tədbirlər ittixaz edilmişdir.

Xəfiyyə idarəsi dəxi öz vəzifəsini lazımi dərəcə ifa etməməkdədir. Böylə ki, cinayətlərin qabağı alınıb və canilərin tövqif [həbs] edilməsi istənilən dərəcədə deyildir. Buna dəxi səbəb həman yuxarıda göstərilən nizamsızlıqdır.

Cinayətlərlə mübarizə etməkdən ötrü

lazım olan tədbirlər isə aşağıda göstərilən maddələrdən ibarət olmalıdır:

1) Bakı və Balaxanı qalabəyləri təhti-idarəsində olan polis dairələrindəki qaradavoylar savadlı və idraklı şəxslər olmalıdırlar. Yerli müsəlman əhalisindən olan şu qaradavoyların əsgərlikdən xilas olmaları üçün mən lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunacağam.

2) Postda (qaravulda) dayanmaq üç vaxta təqsim edilib [bölünüb] 8 saat olmalıdır. Bunun lazımi surətdə ifa edilməsində pristavlar məsuldur. Gecədə bir dəfə təhqiq edilib qaradavoyların dəftərçələrinə qeyd edilməlidir.

3) Cinayət, qətl, qarət çox olan yerlərə xüsusi mühafizə dəstələri göndərməlidir. Bu dəstə qaradavoylardan ibarət olub bir nəfərin komandasında olmalı. Okolodoçnılar mümkün olan qədər tez öz dairələrini gəzib qaradavoylara nəzarət və onların dəftərçələrinə qeyd etməlidirlər. Böylə gəzişlər ələlxüsus gecələr olmalıdır.

4) Pristavlar özləri və ya müavinləri vasitələri ilə okolodoçnıların [polis sahə rəislərinin] dəftərçələrini təhqiq edib, qaydasızlıq kəşf etdikdə müqəssirləri təhti-məsuliyyətə almaqdan ötrü lazımi məhəllərinə [yerlərinə] bildirsinlər. Ondan əlavə, öz növbələrində qəflətən olaraq uçaskaları [sahələri] özləri gəzməli və qaradavoyların, okolodoçnıların post xidmətlərini təhqiq etməlidirlər. Böylə gəzişlər ələlxüsus gecələr olmalıdır, bu dəxi qaradavoyların dəftərçələrinə qeyd ediləcəkdir.

5) Bakı və Balaxanı qalabəylərinə əmr olunur ki, indidən qaradavoylar üçün dəftərçələr hazırlayıb və yuxarıda göstərdiklərimə əməl etsinlər. Bununla onlar şəhərin mühafizəsini öhdələrinə alıb təhti-idarələrində olan məmurlara binagüzarlıq [göstəriş] verərək gecələr qaradavoyların postlarını gəzsinlər, bununla ancaq cinayətin önü alına bilər.

6) Polis idarələrinin vəzifələri ciddidir. Mən ümid edirəm ki, Bakı və Balaxanı qalabəyləri mənə kömək edib cinayətin önünü alarlar və əhalinin asayişini təmin edərlər.

7) Məmləkətin ali idarələri cinayətin artmasına diqqətini cəlb edib və öz tərəfindən polis məmurlarının məişətini dəxi nəzərə almışlardır. Bu barədə lazımi binagüzarlıqlar edilmişdir.

8) Həmin əmrnaməni bütün polis idarələrində oxuyub və bu barədə qaradavoylara izahat verməlidir.

*Əslində imza etdi*
*Bakı valisinin vəzifəsini ifa edən:*
*Axıcanov*

## ÜZƏRİMİZDƏKİ QARA BULUDLAR

Rus Könüllü qoşunu ilə gürcülərin Soçi yanındakı toqquşması Qafqazda əmələ gələn yeni cümhuriyyətlərin hamısını əndişə və təşvişə salacaq böyük bir məsələdir. Gürcü Hökuməti "Dobrovolçeski armiya" deyilən bir rus könüllü qoşununun Soçi yanlarında yığılmalarına çoxdan bəridir ki, şübhə və ehtiyatla baxmaqda idi. Lakin ingilislər gürcüləri sakit edib bu qoşunun Gürcüstan istiqlaliyyəti əleyhinə qarşı heç bir fikri olmadığını təmin ilə Gürcü Hökumətini ümidvar etdi. Halbuki qəzetələrdə oxuduğumuz üzrə Könüllü qoşunu bu günlərdə Gürcüstan əleyhinə düşmənanə hərəkətlər başlayır, komandanlarını həbs etmək, qüvvətini qırmaq və ultimatumlar verməkdədir.

Digər tərəfdən Şimali Qafqazda Dağıstan Hökuməti qoşununun dəxi bu Könüllü ordu hissələrilə müsadimələri [toqquşmaları] olmuşdur.

Rus Könüllü ordusu Rusiyanı bolşeviklərdən təmizləmək, hökuməti ələ almaq, bununla köhnə Rusiyanı təcdid [bərpa] etmək fikrində olan monarxik bir təşkilatdır ki, əsl məqsədi Rusiya tac və taxtını genə öz yerində bərqərar etməkdir.

Bu təşkilatın, məqsədlərinə yetişmək üçün yürütmək istədikləri fikrindən biri də budur ki, Qafqazı üssülhərəkə [baza] edib, burada bərkiyib, möhkəmləşib üzüyuxarı bolşeviklərə qarşı müharibə hərəkatı açsınlar. Bunların bu fikri Qafqaz cümhuriyyətlərinin istiqlalını təhdid edən qorxulu bir qüvvətdir. Bu qüvvətə qarşı təklikdə deyil, birliklə qalxıb ümumi bəlanı ümumi qüvvətlə rədd etmək lazım gələcəkdir.

Lakin bizi böyük əndişəyə salan işin burasıdır ki, gürcülər və dağıstanlıların bu qara qüvvətlə olan təması məmləkətlərinin kənarı olan hüdudlarında olduğu halda, biz azərbaycanlılar bunları öz içimizdə, öz paytaxtımızda görürük. Bakı, Dobrovolçeski armiyanın təhşid [toplaşma] yeri olmuşdur. Burada, paytaxtımızda asudə və aşkar olaraq kamali-gərmi ilə [qızğın bir surətdə] qoşun təşkilatı əmələ gəlir. O qoşun ki, ehtimal bir az keçməz ki, bizə qarşı əməliyyatını, gürcülər kimi kənari-hüduddan deyil, bəlkə başımızdan başlayacaqdırlar. Biz bu təhlükəyə qarşı heç bir tədbirə təvəssül [müraciət] etməyib də paytaxtımız küçələrində özgə qoşununun gəliş-gedişinə, manevralarına, paradlarına öylə bir adi nəzərlə baxırıq ki, guya bu görünüşlərdə, bu nümayişlərdə bizim üçün bir təhdid və bir təhlükə olduğunu xəyalımıza belə gətirmirik.

Halbuki paytaxtları küçələrində öz qoşunları əvəzinə özgə qoşunu görən və o qoşun əhlindən əksəriyyətinin Mart hadisatı "qəhrəman"ları olduğunu görüb tanıyan və politika "hikmətlərindən" bir o qədər də xəbərdar olmayan əhali təşviş və həyəcana gəlib, bu sirrin faş edilməsini arzu edirlər.

Məsələ hər bir barədə böyük məsələdir. Bunun müzakirəsi də, həlli də xüsusi bir şərait üzərilə keçmək məcburiyyətini iqtiza edir. Zira bu işdə, yəni Dobrovolçeski armiya təşkili işində ingilislər dəxi bir dərəcəyə qədər əlaqədardırlar. Dobrovolçeski armiya təşkilatı fikri başında duranların ingilislərdən və bilümum [ümumiyyətlə] Müttəfiqlərdən müavinət və kömək və hər halda rəğbət və hüsn-təvəccöh ümidində olduqları bizə məlumdur. Özləri də bir dərəcəyə qədər bu ümidlərində əsaslıdırlar. Zira Rusiyanı diriltmək fikri Müttəfiqlər tərəfindən dəxi dəfələrlə bəyan edildiyi kimi, bolşevikləri süqut et[dir]mək qəsdi dəxi onların proqramlarına daxil olan bir əmrdir.

Qafqazda olan Müttəfiqlər nümayəndələri, Qafqaz millətlərinin müqəddəratı Paris Sülh Konfransında həll olunana qədər, Dağıstanda dağıstanlıların, Azərbaycanda Azərbaycan türklərinin, Gürcüstanda gürcülərin, Emənistanda ermənilərin müstəqil bir cümhuriyyət surət[in]-də yaşamalarına razı oldular və bunu rəsmən və feilən isbat etdilər. Bu gün bizi

son dərəcə maraqlandıran odur ki, görək Dobrovolçeski armiya təşkilatının qafqazlılara qarşı düşmənanə olduğu Soçi hadisəsilə isbat edilən məqsədlərinə ingilislər və bilümum Müttəfiqlər nə nəzərlə baxırlar. Bu nəzəri bilmək işində Parlamanımız və Hökumətimiz təşəbbüsata girişməlidirlər.

Paytaxtımızda asudəliklə təhəşşüd edən [yığılan, cəm olan] özgə qoşununun görünüş və nümayişləri qeyri-təbii bir əmr [iş] olmaqla gözlərimizi heyrətləndirməkdən daha artıq qəlbimizi təşviş və əndişələr ilə doldurur. Bunun üçündür ki, bu işə tezliklə diqqət yetirilib, həyəcanımızı sakit edəcək və ya başımıza çarə qılmaq əmri qarşında olduğumuzu aşkar edəcək məlumat almağa əşəddi-ehtiyac [şiddətli ehtiyac] hiss edirik.

*Hacıbəyli Üzeyir*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

10-uncu iclas, ikinci gün

*(keçən nömrələrdən mabə’d)*

**Məhəmməd Əmin Rəsulzadə** - Hökumətə verilmiş olan sorğu müzakirəsi öylə bir şəkil aldı ki, adətən Məclisi-Məbusanda büdcə müzakirəsi surətinə düşdü. Qaydadır, ümumi siyasət və Nəzarətlərin [Nazirliklərin] fəaliyyətindən büdcə təsdiqi müzakirəsi əsnasında böylə ətraflı bəhs olunar. Fəqət sorğular üçün məhdud bir dairə var: Müəyyən sorğu verilir. Hökumət bəyanat verər, Parlaman qane olar və qərar çıxarar. Madam ki, şimdi Parlaman qaydası pozulmuş, iş cığırından çıxmışdır, onda ümum siyasət haqqında mütaliatımı [fikirlərimi] bəyan üçün mənə də müsaidə verərsiniz zənnindəyəm.

Əfəndilər! Burada Hökumətdən bəhs edilərkən Parlamandan əvvəlki halı da nəzərə almalıdır, sonrakını da. Məclisi-Məbusan dəvətindən əvvəlki hökumət dövründə olan halların sorğu-sualını sonrakı hökumətə isnad vermək müvafiq olmaz və ədalətə uymaz. Əgər Parlamandan əvvəlki hökumətin siyasətindən xalqa zərər dəymişsə və şimdi lazım görülürsə, sabiq nazirləri təhti-məsuliyyətə alalım, məhkəməyə cəlb edəlim. Fəqət, onların günahı üçün yeni Kabinəyə etimad, ya ədəmi-etimad [etimadsızlıq] məsələsi qaldırmaq heç də münasib şeylərdən deyildir.

Keçən natiqlər hökumət siyasətindən çox bəhs etdilər. Ona görə bu xüsusda bir qədər bəyanat verilməzsə, zənnimcə, məsələ birtərəfli tənvir edilmiş [işıqlandırılmış] olar ki, o da mətlub [arzuedilən] deyildir. Ağamalıoğlu Parlamandan əvvəlki halı və o halın qeyri-təbii olduğunu türklərin buraya gəlmələri ilə əlaqədar tutur. Zopadan və qatı tədbirlərdən şikayətlə Ağamalıoğlu türklərin buraya gəlmələrinin səbəbini “Müsavat”ın siyasətində görür və deyir ki, türklər gəldilər, bu fəna bünövrəni qoydular və şimdi həman hal davam edir və bir müddət edəcəkdir də. Digər tərəfdən Ağa Aşurov cənabları deyirlər ki, məmləkətimizdə düz adam yoxdur. Bu iki mətləb bir-biri ilə sıxı surətdə mərbut [əlaqədar] və hər ikisi yanlışdır. Zira bunların nitqlərinin ruhundan böylə anlaşılır ki, biz özümüzü idarə etməyə, müstəqil olmağa layiq deyilmişik. Mən bütün vicdanımla buna protesto edirəm. Bizim şimdi giriftar olduğumuz hal yalnız Azərbaycan deyil, yalnız Ermənistan və Gürcüstanda deyil, hətta sabiq Rusiya ərazisində təşəkkül etmiş bütün dövlətlərdə deyil; əskidən bəri müstəqil yaşayıb özlərini idarə etməyə adət eyləmiş olan böyük cahan dövlətləri belə aləmşümul müharibə nəticəsi olaraq təbii halını qeyb etmişdir.

Sənələrdən bəri kəndisini idarə etmək nə olduğunu bilmədiyimiz, əsarətdə yaşayıb milliyyət hissindən məhrum olduğumuz halda hökuməti əlimizə alırız. Ona görə biz özümüzü idarə etməyə layiq deyiliz fikri yanlışdır.

Türklərin buraya gəlməsində bir günah təsəvvür olunur. Guya türklər buraya gəlib zopa işlətmişlər. Onları qeyri yolsuzluqlarla da töhmətləndirirlər və bu işdə hər nədənsə natiq əfəndi “Müsavat” firqəsini əlaqədar tutur və buyurur ki, türkləri Azərbaycana “Müsavat” gətirmişdir. Qəribədir ki, digər tərəfdən də “Müsavat” türkləri istəmir deyə bizi itham edirlər. Əvət, biz həm türkləri gətirdik, həm də gətirmədik. Bunların ikisi də doğrudur.

“Müsavat” türkləri çağırdı, çünki burada Azərbaycan türklərinin həyatı təhlükədə idi. Bu məsələdə o zamankı Azərbaycan Şurayi-Millisi müttəfiq idi. Bu nöqteyi-nəzərdə sosialistlər bu gün peşiman olsalar da, o gün bizimlə bərabər idilər. Ağamalıyev də türkləri çağırmışdı, fəqət, onlar bundan nükul [imtina] etsələr də, biz etməyiz. Biz kamali-cəsarətlə deriz: türkləri çağırdıq və bununla da iftixar edəriz. *(Alqışlar)*

Çünki türklər gəlməsəydi Bakıda vüqu bulan Mart hadisəsinin təsiri yalnız Bakıda qalmayıb bütün Azərbaycanı istila edəcəkdi; millət də ümumi bir qitala [qırğına] məruz qalacaqdı. *(Mərkəzdən alqış)* İştə, bu ali məqsəd üçün türklər buraya dəvət olunmuşlardı və burada əgər bəziləri tərəfindən bir taqım üsulsuz hərəkət vaqe olmuşsa, o kimi münfəridən [fərdi qaydada] icra olunan ədəbsizlikləri bizi xilasa qoşmaqdan başqa günahları olmayan fədakar Türk Ordusuna, Anadolu Məhmədciklərinə təhmil etmək [yükləmək] olammaz. Böylə bir nəməkbəharamlığı [nankorluğu] millət irtikab eyləməz [bu pis işi işləməz]! *(Mərkəzdən alqış)* Əcəba, türk əsgərləri tərəfindən görülən bəzi şiddətləri görərkən rus inqilabçı ordusunun cəbhədən qayıdarkən bütün dəmiryol boyu ilə müsəlman füqərayi-kasibəsi üzərinə yapdıqları hədsiz-hesabsız və haqsız samosudlarını unutduqmu əcəba? *(Mərkəzdən səslər: Doğrudur! Soldan: Öylə deyildir!)*

Əfəndilər! Bununla bərabər “Müsavat” türklərin əleyhinə idi də. Bu da bir nöqteyi-nəzərdən doğrudur. “Müsavat” firqəsi birinci firqədir ki, Qafqaziyada türklüyün bayrağını yüksək qaldırıb, türklük hissiyyatını oyatmışdır. *(Mərkəzdən alqış)* Fəqət, bununla bərabər “Müsavat” hər zaman türklərin ittihadını [birliyini] bir konfederasyon şəklində təsəvvür eyləmişdir. Biz bilirdik ki, şimal istibdadından yeni yaxasını qurtarmış Azərbaycan türkünün yüz sənədən bəri adət eyləmiş xüsusi əhvalları vardır. Biz bilirdik ki, İstanbul doğrudan-doğruya Bakını idarə etmək istərsə, xalq bu idarəyə təhəmmül

eyləməz [dözməz]. Bakı İstanbula qarşı üsyan edər. Bunu biz hər zaman bilirdik, onun üçün də Azərbaycanın kəndi başına idarə olunmasını istəyirdik. Biz istəmirdik ki, Azərbaycanın da ağırlığı zavallı Anadolu türkləri boynuna atılsın və Azərbaycanda bulunacaq Türk Ordusu əfradından [əsgərlərindən] bəzilərinin yolsuzluqları [qanunsuzluqları] Azərbaycan türkləri nəzərində Osmanlı türklərini ləkələndirsin.

İştə bu nöqteyi-nəzərdən biz məsələyə idrakla baxaraq türklərin bizləri xilas üçün buraya gəlmələrinə tərəfdar olduğumuz kimi, bizim və onların nəfinə [xeyrinə] olaraq buranı qanunən idarə etmələrinə dəxi tərəfdar idik. Buna görə dəxi bu iki məsələ ancaq söylədiyim bu tərzdə doğrudur.

Əfəndilər! Bilirsiniz ki, Parlamandan əvvəlki üsul və əhval nə qədər fövqəladə idi. O zamanda siyasi firqə və müxtəlif cəmiyyətlərin nə dərəcə və nə qədər idarəyə nüfuz etdiklərini bilirsiniz. O zaman hökumət ayrı cür idi. Fəqət hal-hazırda Parlaman təşkil olunandan sonrakı hökumət qarşısında məsul olduğu üçün əhval hər dürlü haqqı-təshihə daha müsaiddir. Bu səbəblə bizim düşünəcəyimiz bir məsələ var ki, qarşımızda məsul olacaq [Fətəli] Xan [Xoyski] və hökumətə biz idarəni nə vaxt və nə kimi halda tapşırmış idik. Əvvəl bunu düşünməli, ondan sonra hökuməti təbdil [dəyişdirmək] üçün deyil, ancaq hökumətə doğru bir yol göstərmək və bu yolda bir fayda bəkləmək qəsdi ilə bu kürsüyə çıxıb tənqidat yolunda bulunmaq lazımdır.

Bir az müddət zərfində imkan daxilində nə ola bildi, olmuş. Mümkün olan işlər əcəba olmuşmudur və yaxud olacaqsa nə dərəcə, nə qədər olasıdır? Bunları əvvəla salim bir fikrə sahib olaraq tənqid etmək lazımdır.

Türklər bir anda, bir dəqiqədə buradan getməli oldular. Siz bir kərə türklərin buradan çıxdıqları vaxtı təsəvvür ediniz, o zamandakı hissiyyatınıza əlinizi vicdanınıza qoyaraq müraciət ediniz və sonra da xaricdən gələn bir qüvvəni və o qüvvə dolayısı ilə doğulan və qorxulu fikirləri düşününüz, tərəziyə qoyaraq çəkiniz. Həyatınız həp böhranlı və nə kimi xof ilə rəca [qorxu ilə ümid] arasında idiniz. Sizi xarici qüvvələrə qarşı müdafiə edən bir qüvvə, dolayısı ilə haminiz olan Türk Ordusu bilməcburiyyə [məcburi qaydada] gedir; əvəzində digər bir qüvvət gəlir ki, sizinlə olan əlaqəsini qətiyyən bilmirsiniz, sizə qarşı nə cür hərəkət edəcək və sizi müdafiə edəcək, yoxsa başqa bir cürə hərəkət edəcək, onun vəziyyəti-siyasiyyəsi nə olacaq, Azərbaycan taxtı salamat olacaqmı, yoxsa yox? İştə öylə təhlükəli bir zamanda Azərbaycan Şurayi-Millisi Parlamanı dəvət etdi.

Parlaman üzvləri iclas günündə nə kimi xof ilə rəca arasında toplandılar, bunu da siz özünüz pək əla bilirsiniz. O zaman təsadüfi olaraq ingilislərdən maəda [başqa] bir çox xarici qüvvətlər gəlmiş idilər, paytaxtımızda nələr törətdiklərini də unutmamısınız. Bunların hərəkətləri nə tövr idi. Hər saat, hər dəqiqə Parlamanımız hücuma məruz olacağını düşünməkdə idik. Paytaxtımız böylə, başqa şəhərlərimizdə, vilayətlərimizdə nələr vaqe olduğunu bilməyirdiniz. Bir ümidimiz var idi ki, türk qardaşlarımız gedəndən sonra onların yerində bir Azərbaycan qüvvəsi





oturacaq və bizləri müdafiə edəcək. Fəqət, o fikrin həqiqətə müvafiq olmadığı görüldü. Təəssüf ki, Azərbaycanda bir qüvvə də qalmamışdı. Bunu siz də bilirsiniz ki, bu xüsuslarda daha fəzlə danışmağa zaman və məkan müsaid deyildir. Bilirsiniz ki, türklər burada ikən nümayəndəlik müəssisəsi olmadığından hökumət nə surətlə idarə edilirdi və nə dərəcəyə qədər idarənin namüsaid olduğunu da bilirsiniz. O zaman işlərin bəzi türk zabitləri ilə nə qədər əlaqəsi var idi.

Nəzarətlərin [Nazirliklərin] təşkilatları nə surətlə idi. Sabiq nazirlərdən Ağa Aşurov cənabları bu gün buyurmuş xitabında buyurdular ki, nazirlər xırda işlərlə məşğul olurlar. Neft, bez və sairə şeylərlə, ərizələrə baxaraq imza edirlər. Sabahdan axşama qədər məşğuliyyətləri ərizəyə baxmaqdır və böyük işlərlə uğraşmağa vaxtları olmur. Fəqət, Ağa Aşurov cənabları kəndiləri nazir ikən nəinki bez, neft və sair vəsiqələrə baxmaq, bəlkə də pomidor icazənaməsini də kəndi imza edirdi. İştə, ümumi nöqteyi-nəzərdən məsələyə ətraflıca baxılaraq vəziyyəti-siyasiyyəmiz göz önünə gətirilərək bitərəfanə mühakimə etməli və məsələyə öyləcə yanaşmalıdır.

Şimdi meydandakı əsl mətləbə gələlim. Meydanda olan yalnız sorğu məsələsidir. Bu sorğu əvvəlcə müəyyən maddələrdən ibarət idi. O maddənin ən əhəmiyyətli məsələsi məmləkətimizin yeganə sərvəti və bütün dünyada məmləkətimizi mümtaz edən [tanıdan] neftin müvafiq üsul ilə satılmaması və bezin xalqa yaxşıca paylanmaması idi. Bu sorğu əsas etibarı ilə Ticarət və Sənaye Nəzarətinə aid idi. Fəqət, sorğunu verən əfəndilər əvvəlcə söylədikləri bu oldu ki, onlar heç bir şəxsi müttəhim etmək deyil, sistemi əsasən [kökündən] dəyişdirmək istəyirlər və bunun üçün də bir komisyon təşkilini təklif edirdilər. Fəqət sorğu veriləndən sonra gördük natiqlər nəzarətləri büsbütün ayrı tərəfə çəkdilər. Ticarət Nəzarətinin üsulsuzluğunu düzəltmək qəsdi ilə neftdən başladıqları halda əsl mətləbin özünü xəfifcə basdıraraq qaradavoylar üzərində dayandılar. *(Alqış)* Doğrudur, qaradovoylara əhəmiyyət vermək lazımdır, çünki onlar camaata daha yaxındırlar. Fəqət bunu bilmək lazımdır ki, hamı məsələlər haqqında birdən danışmaq bir nəticə verməz. Bir məsələ meydanda ikən və həll olunmamışkən, digər bir məsələyə keçmək – necə ki neft xüsusunda danışan natiq əsl məqsəddən ayrılıb şiddətlə qaradovoy üzərində durur – doğru deyildir. *(Alqış)*

Tənqid, Parlaman əzasının [üzvlərinin] və hər bir vətəndaşın haqqıdır. Sorğunu öylə verməli və o məqsədlə sormalıdır ki, hökumətin qüsurunu düzəltmək və hökumətə kömək etmək olsun nəinki hökuməti yıxmaq qəsdi ilə hücum edilsin. Bu surətlə hökumətə verilən sorğu bir nəticə verəmmədiyi kimi, yaxşı bir üsuli-tənqid də deyildir. Bu hallarla irəli gedib, bir yana çıxa bilmərik. Paytaxtımızda bir neçə qəzetə çıxır və hərəsi bir surətlə hökuməti tənqid edir. Fəqət, bu tənqidlər arasında böyük fərq var. Məsələn, bizim sosialistlərimizin mürəvvici-əfkarı [mətbuat orqanı] olan “Zarya” qəzetəsinin də tənqidi var, “Yedinaya Rossiya” qəzetəsinin də. Bunların arasında olan təfavütü anlatmaq üçün “Y. R.”-dən bir fəqərəni [məsələni, bəhsi] ərz edəyim.

Məsələn, Quba qəzasından hangi bir kənddə isə birisi demiş ki, bizə rus məmuru göndərin. Bunu eşidən "Y. R." qəzetəsi həman "Azərbaycan camaatı rus hakimiyyəti istəyir" deyə nəşriyyatda bulunur. Əgər bizim də tənqidatımız böylə olarsa, vay bizim halımıza, hangi qüvvətlə və kimlə olursa-olsun, hökuməti düşürəcəyəm deyə düşünmək və bu nöqteyi-nəzərdən tənqidatda bulunmaq vətən və millət mənafeyi ilə uymaz. *(Alqışlar)*

Siz yenə diqqət etməlisiniz ki, Parlaman dəvətindən sonra bütün əhval müşkilat içində olmaqla bərabər, məmləkət bu hökumətə tapşırılmasından ancaq beş həftəlik bir vaxt keçmişdir. Bu müddət öylə uzun bir vaxt deyil ki, hökumət əski qüsurları islah edib öylə bir vəziyyət vücuda gətirsin ki, qurd quzu ilə otlasın və Ağamalıoğlunun göstərdiyi şeylər olmasın. Bu dərəcə nikbin olsaq özümüzü aldatmış olarız. Zira insan imkan xaricində şeylər tələb edərsə, şübhəsiz təbiət onu verməz və nəticədə insan məyus olar. Bu gün bir hökumətdən beş həftə müddətində bütün işlərin dəyişməsini və yenidən bir çox işlər görməsini tələb etsək və bunu nikbinliklə gözləsək, şübhəsizdir ki, gözlədiyimiz su səhrada görünən sərab olub bizi aldadar. Ağamalıoğlu bu hökuməti keçən hökumətin misalı hesab edərək "ya keçəl Həsən, ya Həsən keçəl, nə təfavütü var, o hökumətin vaxtında nə vardısa heç dəyişməmişdir", deyir. Məsələn deyir ki, Qazaxda şikayət edənləri döyürlər, filankəsi tuturlar, sudyalar [hakimlər] yerində tapılmırlar. Bunların düzəldilməsi həp bu hökumətdən gözlənir. Köhnə qüsurlar da tamamilə buna tövcih olunur. Hər bir şeyin islahı tələb edilir və az bir müddətdə işlər düzəlməyəndə deyilir ki, hökumət iş görmür.

Ağa Aşurov dəxi hökuməti tənqid edir. Yalnız hökuməti deyil, milləti də tənqid edərək deyir ki, məmurlarımızın əksəri rüşvətxordur. Lakin yaxşı ki, fikrini islah edərkən deyir ki, məmurların məvacibi azdır, müəllimlər aldıqları məvacib kifayət etmədiyindən başqa işlər aramağa məcbur olurlar. Hökumət onların məvacibini artırmalı, həyatlarını təmin etməlidir. Ağa Aşurovun bu rəyinə mən də şərikəm, bu sözləri mən dörd əl ilə imza edərəm. Fəqət, bu işlərin həpsini yalnız hökumətmi görməlidir? Biz bu xüsusda təşəbbüs edə bilməzmiyiz?

Məvaciblərin artması haqqında Parlaman bir qanun vəz edə bilməzmi? Ağa Aşurovu və sair məbusları qanun vəz etmək hüququndan kim məhrum qıldı? Parlaman edə bilərdi ki, ümum məmurların təmini üçün bir qanun versin. Odur ki, qüsur yalnız hökumətdə deyil, bizim özümüzdə də böyük qüsurlar var. Siyasi firqələr hər yerdə gördüyü, eşitdiyi nizamsızlıq və haqsızlığı hökumətə həml [yükləyir] və onu tənqid edirlər. Fəqət, mən sual edirəm ki, hökuməti fəaliyyətsiz adlandıran siyasi firqələr əllərini döşlərinə qoyub vicdan rahatlığı ilə deyə bilərlərmi ki, onlar xalq mənfəətinə lazım olan qədər işləmişlərdir? Hanı bu firqələrin xalqa doğru getdikləri, hanı xalq içinə təşkil etdikləri şöbələr? Bu firqələr camaat üçün nə yapmışlardır? ... Hansı yolda işləmişlərdir? Tiflisdə oturaraq qəzetə çıxarmaq asandır, kənardan tənqid etmək mümkündür. Odur ki, bunu edirsiniz. Amma xalq içinə getmək, xalq arasında işləmək çətindir. Odur ki, heç kəs onun dalınca getmir. Deyirsiniz ki, uyezdni naçalnik quldurlara, adam öldürənlərə istinad edir; əgər öylə isə yenə təqsir siyasi firqələrdədir. Çünki həman uyezdni naçalniklərin ya sair məmurların yanı başında firqə şöbəsi olsaydı, şübhəsiz ki, o məmur çalışardı siyasi firqəyə istinad etsin. Əgər firqələr o köylərə, xalq içinə getmiş oralarda çalışmış və xalqa anlatmış olsaydılar yəqin ki, xalq quldurları, qatilləri gəlib hökumət qulluqçusu olmağa qoymazdı. Şimdi bu şeylərin heç biri yox ikən, ümumən pərişanlıq vaqe ikən hökumətdən tələb etmək ki, bir ay zərfində hər işi düzəltsin, hər şeyi islah etsin, bu ona bənzər ki, hökumətdən tələb edəsən kimya ilə, əliksir ilə hər işi düzəltsin, kün desin fəyəkün olsun. Amma bunu gözləmək, quru səhrada su axtarmaq kimi puç bir ümiddir.

Sonra bir şeyə daha nəzərinizi cəlb edirəm. Əfkarımıza daha artıq icrayi-təsir etmək üçün burada bizə deyirlər ki, Azərbaycanın halı hamı məmləkətlərdən fənadır. Qonşularımız bizdən rahat və ucuz yaşayırlar. Fəqət, bu iddialar əsassızdır. Hamınıza məlumdur ki, Ermənistan acından və ənvai [müxtəlif] xəstəlikdən qırılır. Gürcüstan buradan daha bahalıqdır, orada ağ çörək 7 manata, qara çörək 4 manat yarımdır. Sui-istemal [sui-istifadə] hər yerdə var, hətta Gürcüstanda bir dərəcəyə varmışdır ki, hökumət xüsusi bir məhkəmə qurmağa məcbur olmuşdur. Sui-istemallar ittifaqında [sui-istifadə hallarında] məmurlardan bu məhkəməyə şikayət verilir. Görürsünüz ki, qonşularımız da mələk deyildirlər. Biz Azərbaycanı qonşularımızla müqayisə edərkən görürüz ki, Azərbaycanın halı onlardan yaxşıdır.

Əlbəttə, mən bu iddiada deyiləm ki, bizim hər işimiz mükəmməldir. Amma bunu deyirəm ki, o dərəcə kamalda deyilsə təqsir yalnız hökumətdə deyil, bizdə də var. Gürcüstan ilə özümüzü müqayisə edərkən biz bunu nəzərdə tutmalıyıq ki, əvvəla Gürcüstan Hökuməti və Parlamanı yeddi aydır işləməkdədir. Bizimki isə bir ay, ay yarımdır. Bundan əlavə, onların vəziyyəti-siyasiyyəsi daha yaxşı, daha əlverişli idi. Onların vəziyyətini yaxşılaşdıran böyük bir amil də var ki, o da siyasi firqələri və müntəzəm əsgərləri mövcud olmasıdır. Onlar altmış-yetmiş il siyasi həyat keçirmiş firqələrə malikdirlər. Biz onlarla bərabər olmaq istəsək, onlar kimi uzun müddət bir siyasi həyat keçirməliyiz.

Hökumətə etimad, ya ədəmi-etimad [etimadsızlıq] məsələsini müzakirəyə qoymaqdan ötrü bezdən, qaradavoydan başlayıb, bu ikisini bir-birinə mərbut [bağlı] qoymaq əsla dövlət nəzəri deyildir. Həmçinin hökuməti nə olur-olsun düşürəcək və sonra nə olacaqsa təvəkkül Allaha demək, doğru bir nəzər deyildir. Bir məbus heç vaxt bunu böylə düşünməz ki, hökuməti hərçi bada bad yıxsın. Bir məbus xarici və daxili düşmənləri görməli, hökuməti bu halda düşürməyi[n] bütün vətənə və millətə nə kimi nəticələr verə biləcəyini düşünməlidir. Hökumətə etimad məsələsini araya çıxarırkən bunu bir ətraflı ölçməli, biçməli, ətrafa nəzər yetirməli və fikir etməlidir ki, məmləkət böylə təbəddülata təhəmmül edə bilərmi [dəyişikliyə dözə bilərmi]? Xaricdəki düşmənlər, daxildəki təşkilatlar, hö-

kumət sürənlər nəzərə alınsın da sonra böylə məsələlər araya atılsın. Bu mülahizələrlə də ki, mən deyirəm etimad məsələsi bilmərrə qaldırılsın, çün məmləkətin vəziyyətinə müvafiq deyildir. Doğrudur, Ticarət və Sənaye Nəzarətində, neft satışında, bez təqsimində [paylanmasında], malların mübadiləsində üsulsuzluq vardır. Fəqət, tədqiq etsəniz görərsiniz ki, bu üsulsuzluqlar yalnız hökumətin təqsiri deyil, fabrikanın özündə də, fabrika məmurlarında da bir çox nöqsan vardır. Tağıyev fabrikasının özünə məxsus bir politikası var ki, xalqı müşkülata salan da odur. Fabrikaya yaxın olan adamları sorsaydınız onlar daha ətraflı məlumat (исчерпывающе объясненіе) verərdilər. Hökumətin qüsuru budur ki, fabrika politikasına göz qoymayıb laqeyd baxmış və bu işlərin qabağını almaq təşəbbüsündə bulunmamışdır. Əgər hökumət vaxtlı-vaxtında fabrika politikasına diqqət verib, onu kökündən kəsmiş olsaydı, bu gün böylə şiddətli hücum və tənqidlərə məruz qalmazdı. Fəqət hökumət bunu etməmişdir, əgər etmişsə də, bəlkə lazım bilsələr məlumat da verərlər. Fəqət bu gün mən təklif edərdim ki, hökumət bu işə baxmaq üçün xüsusi bir komisyon təşkil etməlidir ki, ümumiyyətlə mal mübadiləsinə və fabrikanın müamilatına [əməliyyatlarına] diqqət yetirsin ki, daha böylə üsulsuzluqlar olmasın. Məsələn, Bakıda olan neft Bakının içində satılıb qurtaran bir şey deyildir. Allah bərəkət vermiş bir xəzinə ki, yalnız Bakıda deyil, hətta bütün Azərbaycanda satılmaqla qurtarmaz. Nefti xaricə çıxarmalı, xarici məmləkətlərə satmalıdır. Nefti də dəmiryolu ilə çıxara bilərik. Yolumuz nə qədər neft çıxarmağa imkan verirsə, hökumət çalışıb o qədər neft buraxmalıdır. Ancaq neft ixracına müsaidə verilərkən Nəzarətdə heç baxılmır ki, görək izin istəyən adam həmişə bunun alış-verişini edənmidir ya yox. Çünki, hal-hazırda neft alış-verişi tif xəstəliyi kimi bir xəstəlik olub Azərbaycanı tutmuşdur. Tacir, doktor, müəllim xülasə hər kəs bu alış-verişlə məşğul olub və müsaidə istəyir. Ticarət Nəzarəti də hər istəyənə bilatəhqiq və tədqiq [təhqiq və tədqiq etmədən] izin verir. Böylə tədqiqsizlik nəticəsidir ki, müşahidə etdiyimiz üsulsuzluq çıxır. *(Alqış)*

## QƏZETƏLƏRDƏN

Rusiyadan gələn qəzetələrin son nömrələrində Moskva barəsində zeyldəki [aşağıdakı] məlumat verilir:

Şura Hökuməti iki milyard manat Moskvanı cərimə eyləmişdir və bu məbləği şəhərin mərkəzində olan böyük evlərin üzərinə qoymuşdur. Bəzi böyük evlərdən bir milyon, hətta dörd milyon manat cərimə alınmışdır. Bir çox sərvətli ailələr 100 min manat cərimə vermişlərdir. Kəndlərdə isə hər komadan 2-3 min manat cərimə alırlar. Moskvada hər gün yüzlərlə adamlar səpmə yatalaq xəstəliyinə mübtəla olur. Yatalağa məxsus 10 ədəd xəstəxana açılmışdır. Xəstəxana qarşısında yüzlərlə xəstələr növbə gözləyirlər. Bir çox xəstəxanaların bütün qulluqçuları, həkimləri xəstələnmişlərdir.

**Bolşeviklərin məlumatı**

Bolşeviklərin məlumatına nəzərən Yevpatoriyada böyük üsyan əmələ gəlmişdir. Könüllü qoşunlarla camaat arasında dəhşətli və qanlı müharibə olmuşdur. Mahal naçalniki qətl edilmişdir. Sevastopoldan teleqrafla qüvveyi-hərbiyyə istənilir. Könüllü ordu komandanlığı isə teleqrafla Fransa komandanlığından minanos [torpedo gəmisi] tələb edir. Müharibələrin nəticəsində Yevpatoriya üsyançıların əlinə keçmişdir. Göndərilmiş olan ərəb qoşunları qətiyyən müharibədə iştirak etməyəcəklərini bildirmişlərdir.

Krım Hökuməti bu əhvaldan son dərəcə xofa düşmüşdür. Üsyanın bütün Krıma sirayət edəcəyindən ehtiyat edirlər.

**Sazonov Sülh Konfransında**

Sabiq Rusiya vəziri Sazonov Rusiyanın şimal-şərqindən Sülh Konfransında nümayəndə olmaq üçün Kolçak tərəfindən müvəkkil edilmişdir.

**Vladiqafqazda**

Bu günlərdə Vladiqafqaz əhvalı haqqında təzə bir məlumat yoxdur. Tersk kazakları, osetin və Könüllü ordu əsgərləri ilə inquşlar arasında müharibə davam edir. Müharibələrin hansı cəbhədə vaqe olduğu dürüst məlum olmamışdır.

* İstanbul qəzetələri yazırlar ki, Mərkəzi hökumət nümayəndələrinin Sülh Konfransına buraxılmayacaqları barəsində olan şayiat doğru deyildir. Babi-Ali Sülh Konfransına getmək üçün heyət intixab eyləmiş [seçmiş], namizədlərdən birisi də Prins Səbahəddindir. Səbahəddinin xüsusi katibi Lütfü bəy bu günlərdə Parisə əzimətlə [getməklə], Səbahəddin bəyin Sülh Konfransına nümayəndə təyin edilməsindən ötrü etibarnamə aparacaqdır.

* Çoxdan bəri Fransada və sonra Səlanikdə olan Rusiya qoşun dəstəsi Feodosiyaya övdət etmişdir [qayıtmışdır].

**Ərəbistanda**

Yeni Ərəbistan padşahlığı və qırmızı, qara, ağ və yaşıl rənglərdən ibarət yeni bayraq tərtib ver[il]mişdir.

**Gürcüstan ilə Könüllü ordu müharibəsi**

Tiflisdən teleqraf edirlər ki, Zaqafqaziyada olan İngiltərə komandanı [Forester-]Volker Gürcüstan Xariciyyə nazirinə xəbər vermişdir ki, Gürcüstanla Könüllü ordu əsgərləri arasında vaqe olan ixtilafı bərtərəf etmək üçün İngiltərə zabiti Uayt göndərilir. Gürcüstan Hərbiyyə naziri, general Mazniyevdən böylə bir məlumat almışdır: Bu gün fevralın 5-ində ümumi hücum başlanmışdır. Çxakoura, Çiro, Mikelsminda, Çurquni, Partsxaçiçeli kəndlərini candalardan [quldur dəstələrindən] azad etmişəm. Sabah hərəkat davam edəcəkdir.

**Şatilovun həbsi**

Bakıya verilən xəbərlərə nəzərən Gürcüstan Hökuməti Könüllü qoşunların nümayəndəsi olan general Şatilovu həbs etdirmişdir.

**Kolçak ordusunun hərəkəti**

Amiral Kolçak əsgərləri Perm şəhərini işğal etdikdən sonra Samara və Vyatka üzərinə hücum etməyə başlamışlardır.

**Petlyura əsgərlərinə ultimatum**

Petlyura əsgərlərinə (Ukrayna istiqlalçıları) əmr verilmişdir ki, Odessadan

Vapnyarka mövqifinə [stansiyasına] qədər 286 verst kənara çəkilsinlər.

**Petlyuranın Almaniyaya getməsi**

Petlyura baş ərkani-hərb [qərargah] naçalniki Osetski ilə bərabər Kiyevdən çıxıb Almaniyaya əzimət etmişdir [yola düşmüşdür].

## VÜKƏLA ŞURASINDA

* Rəisi-vükəla [Baş nazir] fövqəladə istintaq komitəsi təşkili barəsində Şurayi-Vüzərada [Nazirlər Kabinetində] dakladda bulunmuş [məruzə etmiş] və qərar qoyulmuşdur ki, Ədliyyə vəziri [naziri] qısa bir müddətdə böylə bir komissiya tərtibi layihəsini Şuraya təqdim eyləsin. Bu fövqəladə komissiya hökumət məmurlarının xəyanətini kəşf və istintaq edəcəkdir.

* Yenə Rəisi-vükəlanın dakladına görə Ticarət vəzirinə mühəvvəl edilmişdir [tapşırılmışdır] ki, Tağıyev fabrikasından çıxan mallar üzərinə kontrol qoyulsun.

* Rəisi-vükəlanın bahalıqla mübarizə barəsindəki məruzəsinə görə, Ərzaq nazirinə mühəvvəl edilmişdir ki, beş gün müddətində Şürayi-Vükəlaya Azərbaycanda bahalıqla mübarizə haqqında nə kimi tədbirlər görülməsi təsəvvürünü söyləsin.

* Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri [Xudadad bəy] Məlikaslanov cənabları fevralın 9-da Xaçmaz yoluna nəzarət üçün Dərbənd tərəfinə əzimət eyləmişdir [getmişdir].

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Bu günlərdə Məsai Nəzarəti [Əmək Nazirliyi] Gədəkənddə cəm olmuş Zəngəzur qaçqınlarının əhvalını yoxlamaq qəsdi ilə bir nəfər öz nümayəndəsini göndərmişdi. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] də Mirbağırov cənablarını oraya göndərmişdir. Bununla bərabər Nəzarət Gəncədəki nahiyə müfəttişinə teleqrafən xəbər vermişdir ki, Mirbağırova para və başqa vəsaitlə müavinətdə bulunsun [kömək etsin].

Bu günlərdə həman oraya Səhiyyeyi-Ümumiyyə Nəzarəti [Xalq Səhiyyəsi Nazirliyi] tərəfindən bir sair müavinət dəstəsi göndəriləcəkdir.

**Məsai Nəzarətində**

* Məsai Nəzarəti tərəfindən Gəncə quberniyası Gədəbəy qəzasındakı mis mədənləri fəhlələrinin əhvalını təhqiq etmək qəsdi ilə Rəhim Hüseynov cənabları oraya göndərilir.

* Novo-Bayəzid müsəlman qaçqınları Gədəbəy tərəfə cəm olmuşlar. Məsai Nəzarəti əhvaldan müxbir [xəbərdar] olaraq Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən onlara təcili surətdə müavinətdə bulunmağı rica etmişdir.

**Post və Teleqraf Nəzarətində**

* Post və Teleqraf Nəzarətinə Ağdamdan bir teleqram gəlmişdir. Teleqramda denilir ki, Zəngəzur müsəlman qaçqınları Ağdama dolub aclıq və soyuqdan tələf olmaqdadırlar. Onları yerləşdirmək üçün yer olmadığından Post və Teleqraf idarələrində yerləşmişlərdir.





* Post və Teleqraf Nəzarəti Şurayi-Vükəlaya müraciətən məlum etmişdir ki, Post və Teleqraf xidmətçilərinə məxsus bir ambulatoriya təmir edilməlidir.

* Məlum olduğu üzrə bu vaxtadək gəlir vergisi hər min rubldən alınırdı. Şimdi Maliyyə naziri həzrətləri Şurayi-Vükəlaya bir layihə təqdim etmişdir. İşbu layihəyə görə gəlir vergisi hər 5000 rubldən alınmalıdır. Zira pulun fiyatı düşdüyünə görə vergi də azalmalıdır.

## DAĞISTAN CÜMHURİYYƏTİ NÜMAYƏNDƏLƏRİ GENERAL TOMSON HÜZURUNDA

Dağıstan Cümhuriyyətinin Ticarət və Sənaye naziri Mallaçı-xan ilə inquş camaatı nümayəndəsi Əbubəkir Pliyev fevralın 10-da general Tomson tərəfindən hüzura qəbul edilmişlərdir. İnquş nümayəndəsi İnquşistan əhvalını müfəssəl surətdə nəql edib demişdir ki, bu axır günlərdə Dağıstan Cümhuriyyəti zabitləri başda olmaq üzrə göndərilən başıpozuq dəstələri müharibə ilə Vladiqafqazı işğal edib, Qırmızı ordu əsgərlərinin silahını almaqla bərabər bolşevik komissarlarını həbs etmişlərdir. Sonra da Vladiqafqaz rayonuna gələn Denikin ordusunun könüllü əsgərləri inquşlar əleyhinə müharibə açmışlardır.

Dağıstan Hökumətinin Ticarət və Sənaye naziri Mallaçı-xan Qroznı ilə Vladiqafqazın Dağıstan əsgərləri tərəfindən işğal edilməsini öz hökumətinin sifarişinə görə generala məlum edib, Könüllü ordu dəstələrinin inquşlar əleyhinə hücumda və həmçinin Dağıstan Hökumətinə və Qroznı ilə Vladiqafqaz şəhərlərinə düşmənanə münasibatda bulunmaqlarının qət edilməsi [kəsilməsi] üçün müavinət göstərilməsini xahiş etmişdir. General Tomson dağıstanlıların bolşeviklərlə mübarizədə müvəffəqiyyətə nail olmalarından məmnun olduğunu izharla demişdir ki, həmin məqsədi təqib edən Denikin ordusu Dağıstan Hökumətinə düşmənanə münasibatda bulunmaz. Dağıstan Hökuməti bolşeviklərdən təmizlənmiş olan yerlərdə tezliklə asayiş və qanun bərpa etməlidir. General Tomson inquş nümayəndəsi Əbubəkir Pliyevə verdiyi məktubunda inquşların Vladiqafqazda olan İngiltərə heyəti işlərində iştirak etməsindən öz razılığını izhar edib, eyni zamanda ümidvar olur ki, ümumi düşmən olan bolşeviklərin pərakəndə edilməsi ilə inquşlardan ötrü asayiş və rahatlıq günləri başlayıb, onları xoşbəxtlik və nəşvü nüma [tərəqqi] yoluna çıxaracaqdır.

## BAKI XƏBƏRLƏRİ

**Qəzavətdən [Qazılıq İdarəsindən]**

Müdiri-möhtərəm! İşbu neçə kəlmə sözlərimi[n] "Azərbaycan" qəzetəsinin bir guşəsində dərcini rica edirəm.

Dün Ümuri-Xeyriyyə [Sosial Müdafiə] naziri həzrətləri tərəfindən Məşixət İdarəsi təvəssütü [Şeyxülislamlıq İdarəsi vasitəçiliyi] ilə Bakı qazısı cənabına 5 min manat para, Bakıda fəqir əşxaslar [şəxslər] vəfat etdikdə dəfn-kəfninə [kəfənlənərək dəfn edilməsinə] sərf etməyə vasil oldu.

Buna binaən [buna əsasən] Bakı qazısı şəhərdə olan müsəddəq [yoxlanmış, inanılmış] ruhanilərə əlahiddə məşruhə [izahat] ilə bəyan etmişdir ki, hər bir fəqir və ya qəribə vəfat edə, varislərinin təşyiyə [cənazəni yola salmağa] qüvvəsi olmaya, o vaxt ruhani mollalar bir qəbz verib Bakı qazısı qəbz sahibinə mütəvəffanı [vəfat edən şəxsi] dəfn və kəfn etmək üçün para verir. Ümuri-Xeyriyyə naziri həzrətlərinə təşəkkürümü bəyan edərək bir neçə kəlmə Bakı qəbristanına olunan təcavüzlərdən ərz etmək istəyirəm.

Şeyxülislam ilə Bakı qazısına əfvahən [ağızdan-ağıza, şifahi olaraq] xəbər çatmışdır ki, Bakı qəbristanında əsirlər üçün bina olunmuş budkanı söküb aparırlar və bir para şəxslər qəbir qazmaqdan ötrü vicdansızlıqla fövqəladə məbləğlər alırlar. Bundan əlavə, bir para islama yaraşmayan təcavüzlər olur. Onu yazmaq istəməyib fəqət ərz edirəm ki, dər xanə kəs əst yek hərf bəs əst. Bu barədə də Bakı qazısı hər məhəllədən bir neçə nəfər zəvat [şəxs] həmin cümə günü fevralın 14-də bu barədə bir heyət təşkil etmək üçün dəvət etmişdir. Lakin mən yenə qəzetə vasitəsilə xəbər verirəm ki, bu barədə savaba çatmaq istəyən fəal adamlar dəxi təşrif gətirib böylə işlərə sərəncam çəkilərsə eyi olar, əfəndilərim.

*Məhəlli-idarə [idarə yeri]:*
*Verxni-Priyutski küçə*
*nömrə 18*
*Bakı qazısı katibi:*
*Həsənağa Yusifxanlı*

**Telefon xəttində tətil**

* Keçənlərdə telefon xidmətçiləri məvacib artırılmasından ötrü Telefon Xətti Cəmiyyətinə bir məruzə pişnihad [təqdim] etmişdilər. Fəhlə konqresi də qət etmişdi ki, şubatın [fevralın] 11-dək onların tələbatına [tələblərinə] əməl edilməzsə tətil elan edilsin. Dün tətil elan edilmişdir. Lakin xidmətçilərin tələbləri Telefon İdarəsi tərəfindən qəbul edildiyinə görə, günortadan sonra telefonlar işləməyə başlamışdır.

* Axır vaxtlar şəhərin müsəlman hissələrində hər gecə tüfəng atılmağa başlamışdır. Xüsusən dördüncü dairədə hər gecə saat 7-dən sonra tək-tük silah atılır. Əhali axşamdan evlərinə girib bayıra çıxmamağa məruz qalmışlardır. Müsəlman hissələrinə gecələr milissiya nəfəratı [nəfərləri] göndərməklə böylə işlərin önü alınmalıdır.

**Qızlar üçün hünər məktəbi**

1917-ci sənəsi oktyabr ayında Bakı Ünas Cəmiyyəti-Xeyriyyəsi [Qadın Xeyriyyə Cəmiyyəti] tərəfindən kasıb müsəlman qızlarına məxsus bir hünər [sənət, peşə] məktəbi açılmışdı. Bu məktəb Mart hadiseyi-əliməsi [faciəli Mart hadisələri] münasibətilə qapanmağa məcbur olmuşdu. Şimdi Cəmiyyəti-Xeyriyyə həman məktəbin yenidən açılması barəsində təşəbbüsdə bulunur. Cəmiyyəti-Xeyriyyə bu təşəbbüsdə müsəlman qızları üçün həman məktəbin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Məktəbin açılmasından birinci məqsəd odur ki, camaat hünər vasitəsi ilə öz ehtiyacatını rəf etməyə [ehtiyaclarını aradan qaldırmağa] qadir olsun.

Bizə yetişən mövsuq [etibarlı] xəbərlərə nəzərən, hökumət bu cür hünər





məktəbinə artıq əhəmiyyət verir və bu xüsusda cəmiyyətlərə kömək edəcək, özü də ayrıca məktəblər açacaqdır. Maarif naziri həzrətləri Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] vermək üçün bu barədə bir məruzə dəxi hazırlamışdır.

**Məhəmmədovun qətlinə dair**

Fevralın 9-unda gecə, məşhur Bakı neftçilərindən Nəcəfqulu Məhəmmədov öz evində qətl edilmişdir. Mərhum Vrangelski küçədə öz evində yaşayırmış, həman [evin] digər bölmələrində isə ailəsi olurmuş. Mərhum şənbə günü axşam öz kantorunda bəyan eyləmişdir ki, sentyabr hadisəsində qətl edilmiş olan dostu Teymur bəy Qulubəyovun təbidi-namı [adını əbədiləşdirmək] üçün məscid və darüləcəzə [qocalar evi] inşasına yarım milyon pul buraxacağını bildirmişdir. Bu sözü dedikdən sonra mərhum evinə qayıtmış.

Gecə saat 12-də evdən qonşular səs eşidirlər. Sübh vaxtı isə Məhəmmədovu evində başı kəsilmiş halında tapmışlardır. İstintaqdan anlaşılır ki, Məhəmmədovu qarət qəsdi ilə deyil, başqa qəsdlə qətl etmişlərdir. Hökumət bu işi ciddi təqibə başlamışdır.

**Salarüddövlənin həbsi**

İran inqilabından sonra şahi-məxlu [taxtdan salınmış şah] Məhəmmədəlinin bəradəri [qardaşı] Salarüddövlə üsyan bayrağı qaldıraraq İran taxtına sahib olmaq xəyalında idi. Salarüddövlə talış və şahsevənlərdən mürəkkəb [ibarət] bir çetə dəstəsi ilə Gilan və İranın başqa cəhətlərində qətl və qarətə məşğul idi. Sonraları Salarüddövlə məğlub olaraq Yevropaya fərar etmişdi. İşbu günlərdə müşarileyh [adı çəkilən şəxs] Bakıya gəlmiş imiş. Mövsuq [etibarlı] mənbədən aldığımız məlumata görə Salarüddövlə burada həbs edilmişdir.

**Bələdiyyə İdarəsində**

* Müsri [yoluxucu] xəstəliklərlə mübarizə edici komisyon Bələdiyyə İdarəsinə bir kağız göndərib məlum etmişdir ki, şəhər təthirat [təmizlik] şöbəsi təvilələrinin [tövlələrinin] təmiri başlanmışdısa da yenə qət edilmişdir [dayandırılmışdır]. Şimdiki əhvalı nəzərə alaraq təvilələr təmiratını Bələdiyyə İdarəsi təcdid [bərpa] etməlidir. Zira təmirat yapılmazsa, atlar qırılacaqdırlar.

* 9-uncu məntəqə sakinləri 76 imza ilə Bələdiyyə İdarəsinə bir ərizə verib rca etmişlər ki, orada yerləşmiş ümumi xanələr [fahişəxanalar] həman dairədən çıxarılsın.

## TEATRO VƏ MUSİQİ

Möhtərəm camaatı drama tamaşasından məhrum etməmək üçün Hacıbəyli Qardaşları Müdiriyyəti böylə qərar veribdir ki, Azərbaycan Hökuməti Teatrosunda ayda bir dəfə olaraq məşhur dramalardan oynasın. Böylə ki, bu cümə üçün məşhur tarixi “Ağaməhəmməd şah Qacar” faciəsi mövqeyi-tamaşaya qoyulmaq üçün hazırlanır.

## İDARƏDƏN CAVABLAR

Gəncədə **Osman Nuri** əfəndiyə: Məqaləniz qeyri-məmul [arzuedilməz] hadi-

sələrə səbəb ola bilər.

**Əlihəsən Cabbar oğlu** əfəndiyə: Bu xüsusda əvvəlcə Bələdiyyə İdarəsinin məkatib [məktəblər] şöbəsi ilə məsləhətləşməlisiniz.

Gəncədə **İlyas Turqud** əfəndiyə: Açıq məktubunuzu örtülü olaraq Məhəmməd Əmin Rəsulzadə cənablarına verdik ki, yazdıqlarınız xüsusunda təhqiqatda bulunsun.

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Gəmiçilər Şurasının İttifaqı**

Bütün gəmi sahiblərini fevralın 12-sində çaharşənbə [çərşənbə] günü gündüz saat 12-də Qafqaz Merkuri Cəmiyyətinin kantorunda olacaq ümumi iclasa dəvət edir. Bu iclas, irəliki iclasın mabədidir [ardıdır].

*2680*

**Elan**

Ərzaq Nəzarətinə 40-50 otaqdan ibarət mənzil lazımdır.

Telefon nömrə: 36-70.

*35*

**Ziraət və Əmlak naziri tərəfindən**

Bununla ümuma elan edilir ki, Bakı quberniyası, Cavad qəzası, Muğan düzündə, Orta Muğan kanalı və Aşağı Muğan kanalının cənub-şərqi dairəsindəki suvarılan yerlər müzayidə (torq) ilə icarəyə verilir. Hər kəs orada 1919-uncu il yazlıq, 1919 və 1920-nci il payızlıq, 1920-nci il yazlıq əkin əkmək istəsə, həman yerlərdən icarəyə götürə bilər. Bunu da bilməlidir ki, icarənin vaxtı son məhsul yığıldıqdan iki həftə sonra bitir.

Məzkur [adı keçən] yerlər Cavad qəzası, Qalaqayın (Petropavlovka) kəndində xəzinə





yerləri mübəssiri [nəzarətçisi] Yuryevin təhtisədarətində [sədrliyi altında] bulunan xüsusi komisyon tərəfindən yeni qayda mart ayının 1-indən 7-sinədək bir həftə zərfində [ərzində] icarəyə veriləcəkdir. İcarə şəraiti [şərtləri] konditsiyalarda [müqavilənamələrdə] müfəssələn [ətraflı] yazılmışlardır. Şəraiti bilmək olar: Ziraət Nəzarətinin Torpaq şöbəsində (Vodovoznı küçə, nömrə 8). Yenə həman Nəzarətin Su şöbəsi və Əkin və fəllahət [kənd təsərrüfatı] şöbəsində (Telefonnı küçə, nömrə 6), Gəncə Ziraət şöbəsində (Gəncə şəhəri) və məhəllərdə [yerlərdə] xəzinə yerləri mübəssirləri, qəza qaimməqamları, Cavad, Şamaxı, Göyçay, Quba, Gəncə, Ərəş, Cavanşir, Zəngəzur, Qazax, Qaryagin, Şəki və Şuşa qəzalarında məntəqə pristavları dəftərxanalarında.

*Ziraət naziri vəzifəsini ifa edən:*
*H. Sultanov*
*Nəzaətin Torpaq şöbəsi müdiri:*
*Şpitalski*
*36*

**Drama**
**Axşam Tamaşası**
**Azərbaycan Hökumətinin Teatrosunda**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşlarının Müdiriyyəti cümə günü cəmadiyələvvəl ayının 13-ündə 1337 sənəsi (fevralın 14-ündə 1919-cu ildə) təntənəli bir surətdə bu mövsümdə əvvəlinci dəfə olaraq mövqeyi-tamaşaya qoyulacaqdır məşhur tarixi faciə

**Ağaməhəmməd şah Qacar**
8 pərdədə
Əsər: **Əbdürrəhim bəy Haqverdiyev**

**Ağaməhəmməd şah Qacar** rolunu ifa edəcəkdir məşhur artist **Hüseyn Ərəblinski**.

İştirak edən əşxaslar [şəxslər] müfəssələn [ətraflı olaraq] məramnamədən [proqramdan] məlum olunar.

Biletlər imdidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

Rejissor: Abbas Mirzə Şərifov;
Müavin: Hacıbaba Şərifov;
Məsul: Xəlil Hüseynov;
Mübaşir [icraçı müdir]: Rövşən bəy Əfəndiyev;
Müdir: Zülfüqar bəy Hacıbəyli.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və inna ileyhi raciun**

səh. 169.

"Tverskoy": Bakıda, İçəri şəhərdə indiki Mirzə Mənsur küçəsi.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 176. "Bu firqələr camaat üçün nə yapmışlardır?": bu cümlədən sonra bir neçə söz silinmişdir, oxunmur.

səh. 177. "Əgər firqələr o köylərə, xalq içinə getmiş oralarda çalışmış və xalqa anlatmış olsaydılar yəqin ki, xalq quldurları, qatilləri gəlib hökumət qulluqçusu olmağa qoymazdı.": qəzetdə "oralarda" yerinə "ordular"; "xalqa" yerinə "xalqı" getmişdir.

"əliksir": sehrli xassələrə malik olduğuna inanılan məhlul, iksir.

"kün fəyəkün": "Quran"ın müxtəlif ayələrində işlədilən ifadə: "[Allah] Ol [deyər] və [istədiyi şey dərhal] olar".

"...o dərəcə kamalda deyilsə...": güman ki, "o dərəcə kamil də deyilsə" olmalı idi.

səh. 178. "...xarici məmləkətlərə satmalıdı.": qəzetdə "xarici" yerinə "daxili" getmişdir.

**Qəzetələrdən**

səh. 179. "...Mərkəzi hökumət nümayəndələrinin...": Birinci Dünya müharibəsinin tərəflərindən biri olan İttifaq Dövlətlərinin (Almaniya, Avstriya-Macarıstan, Osmanlı İmperiyası, Bolqarıstan) nümayəndələri nəzərdə tutulur.

"Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

**Nəzarətlərdə**

səh. 180. "...Mirbağırov cənablarını oraya göndərmişdir.": Mirabbas Mirbağırzadə nəzərdə tutulur.

**Bakı xəbərləri**

səh. 182. "dər xanə kəs əst, yek hərf bəs əst": (farsca) "evdə kim var, bir söz bəsdir".

Verxni-Priyutski: Bakıda, indiki Şamil Əzizbəyov küçəsi.

**Teatro və musiqi**

səh. 183. "Ağaməhəmməd şah Qacar": Əbdürrəhim bəy Haqverdiyevin dram əsəri nəzərdə tutulur.





**Cümə axşamı, 13 fevral 1919-cu il, nömrə 113**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 12 cəmadiyələvvəl sənə 1337. 13 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

**Abbas bəy Vəlibəyov** özünün mehriban və istəkli olan qardaşı **İmamqulu bəy Vəlibəyovun** Bərdədə vəfat etdiyini öz dost və qövm-əqrəbalarına kamali-hüzn və ələmlə xəbər verir.

Mərhumun pəsməzarı [yas mərasimi] özünün Nijni Təzəpir küçəsində vaqe 74 nömrəli evindədir.

## BAŞLANIR!

Erməni quldurlarının, istər Andranik olsun, istər onu göndərənlər olsun, hərəkati-şeytaniyyəsindən dolayı Qarabağ üzərində əmələ gəlmiş olan şəraiti-fövqəladə nəticəsi olaraq Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl uyezdlərindən ibarət olan Qarabağı xüsusi bir general-qubernatorluq halına salıb, bu ağır məmuriyyəti Xosrov bəy Sultanov cənablarına tapşırdıq. Bizim bu əməlimiz – ki daxili işlərimizə aid bir əmrdir [işdir] və heç bir kəsə dəxl və təsərrüfü [aidiyyəyi] yoxdur – Ararat Hökumətini deyindirdi. Ararat Hökuməti həmişəki adəti üzrə haqsız olaraq deyindi. Lakin hökumətimizdən haqq və sabit bir cavabi-şafi [kafi cavab] alıb hələlik rəsmən kiriməyə məcbur oldu.

Fəqət Ararat Hökuməti ağzını yumdusa da, əvəzində qeyri-rəsmi ağzını açdı. O ağız, paytaxtımızda çıxan və üzərimizə bilaməhabə və biduni-həya [çəkinmədən və həyasızca] söyüşlər göndərmək cürətində bulunan daşnakların "Vperyod" adlı qəzetə adlandırdıqları küçə vərəqələridir.

Bu qəzetə, Qarabağa general-qubernator təyinindən bəhslə "Başı" (İbtida) sərlövhəli bir məqalə yazıb ortaya fitnə və şeytənət [şeytanlıq] yumağı atıb, Qarabağ ermənilərini bu sözlə Azərbaycana qarşı iğtişaşa dəvət edir:

*"Qarabağda Azərbaycan general-qubernatorunun peyda olması, yerli əhalinin hissiyyati-xüsumət-pərvəranəsini mövcib olmaya bilməz [düşmənçilik duyğularını əmələ gətirməyə bilməz]."*

*"Müxtəsər, yerli əhali tərəfindən tanınmaq istənilməyən bu yeni hökumət, Qarabağ ermənilərinin ona qarşı müsəlləh [silahlı] üsyanı üçün asan bir fitnə olacaqdır."*

*"Azərbaycan Hökumətinin böylə imperializm məqsədinin nəticəsi, ancaq qan tökülməsinə və mümkündür ki, Qarabağ*

*ermənilərinin hürriyyət yolundakı mübarizəsinə kömək etmək istəyən Erməni Hökuməti ilə Azərbaycan Hökuməti arasında müharibə müsadimələrinə müncər olar [toqquşmaları ilə nəticələnər]."*

Bu sözlərdən aşkardır ki, daşnaklar, qəzetələri vasitəsilə Qarabağ ermənilərini Azərbaycana qarşı müsəlləh üsyana təşviq və təhrik edirlər. Və deyirlər ki, qorxmayın, siz üsyan başladıqdan sonra Erməni Hökuməti bəhanə tapıb sizə köməyə gələr.

Bu üsyanın müsəlləh olacağına da qəzetə əmindir, çünki Qarabağ ermənilərinin daşnaklar tərəfindən mükəmməl surətdə silahlanmalarını gözəlcə bilirlər. Bəli, bunu biz də bilirik və burasını da yaxşıca bilirik ki, madam ki, erməni milləti içində daşnak partiyası mövcuddur, nəinki Qarabağda, bəlkə ümum Qafqazda müsəlləh iğtişaş davam edəcəkdir. Millətinin gözlərini, daşnakların siyasətini görməmək dərəcədə örtmüş olan bu partiya, erməni millətini tamam və kamal məhv və nabud [yox] etdirməyincə şeytənətindən əl çəkməyəcəkdir.

Bizim öz yerlərimizə sahib olmaq əməlimizi daşnaklar "imperializm məqsədi" deyə adlandırırlar. Çünki Pənah xanın, İbrahim xanın, Mehdiqulu xanın yerləri ermənilərin yeri imiş! Və o qədər mübahisəli imiş ki, onun həllini Paris Konfransından gözləmək lazım gəlirmiş!

Lakin Qarabağ məsələsinin həllini Paris Sülh Konfransından gözləmək icab etdiyini, safdərunlər [sadəlövhlər] nəzərində "sülhcuyanə" [sülhpərvər] görünmək qəsdilə ortaya atan daşnaklar bizi inandıra bilməzlər ki, o konfransın hökmünə tabe olub da bir kərəlik kiriyəcəkdirlər.

Azərbaycanı Azərbaycan türklərinə tapşırmış və erməni quldurlarını Azərbaycan torpağı olan Qarabağdan qovdurmuş olan general Tomson və Milnlərin sözlərinə qulaq asmaq və nəzəri-etinaya almaq istəməyən daşnaklar, əminik ki, Paris Konfransının da haqq və doğru olacağını ümid etdiyimiz hökm və qərardadlarını pəsənd etməyib [bəyənməyib] bizləri, ümumi Qafqazı və bəlkə bütün dünyanı müsəlləh üsyanlarla daim təciz [narahat] etmək qəsdində olacaqdırlar. Özgənin iki gözünü çıxartmaq üçün özünün bir gözünü qurban etmək politikası yolunu tutmuş olan daşnaklardan, nəticəsi hər vaxt erməni millətini fəlakətdən fəlakətə salan "müsəlləh üsyan"lardan başqa özgə bir qabiliyyət gözləmək üçün cahil və qafil olmaq lazım gəlir.

Pəs, başlanır!

Daşnaklar Qarabağ ermənilərini bizə qarşı üsyana dəvət edirlər. Bu üsyanın açıq-açığına qəzetə vasitəsilə elanı daşnakların bihəyalığını sübut edən aşkar dəlillərdən birisidir. Paytaxtımızda bizimlə diz-dizə oturan daşnakların bihəyalığı bu dərəcə olduğu halda, özgə yerlərdə və öz yerlərində oturanlarınkı nə dərəcədə olacağını təsəvvürə gətirmək olar...

Gözlərimizi dörd açmalıyıq. Ermənilərə etibar yoxdur, çünki "millət xadimi" olan daşnaklar, bu milləti etibarsız bir dərəcəyə çatdırdılar. "Müsəlləh üsyanlar" törətmək və müharibəyə səbəb olmaq üçün bunlar aşkara və gizlin işlər görüb bizi qafil edə bilərlər. Bu qəflətin nəticəsində başımıza bəlalar gələ bilər. Müsəlləh üsyanlar çıxartmaq işində çoxdan bəri təcrübə hasil etməklə "ustad" olmuş daşnakların hər bir əməlinə şübhə ilə baxıb, zəif yerlərimizi qüvvətləndirmək, ümum bədənimizi xainanə zərbələrə qarşı zirehpuş etmək [zirehlə örtmək] işində möhkəm durmalıyıq.

Lənət başlayana gəlsin!

*Hacıbəyli Üzeyir*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**10-uncu iclas**

(Keçən nömrədən mabəd)

**Hacı Kərim Sanıyev** - Sorğunun bir qismi neft barəsində idi. Ticarət naziri buna cavab verərkən nerəyə, nə qədər neft getmiş və gedəcək olduğunu deməli idi. Fəqət bunun əvəzində kimdən rəhn [girov] aldıqları və kimə icazə verdiklərini deməklə izahatını bitirdi. Halbuki, hökumət bina olunandan və türklər dövründə və ondan sonra ta bu vaxtadək neftin nerəyə getdiyini bilmək lazımdır. Onu bilməlisiniz ki, Bakı nefti tamamilə gedir Qazaxa. Qazax, Azərbaycanının qapısı, daha doğrusu birjası olmuşdur. Bütün dəmiryolları düşmüşdür möhtəkirlərin əllərinə, hər kəsin mayası çoxdur, yaxud qövm-əqrəbalarından iş başında duranı var, istədiyi qədər neft alış-verişi edə bilir. Bu surətlə çox pulsuzlar, cibində altı şahısı olmayanlar şimdi milyonçu olmuşlar, milyonluq mülklər almışlar. İstasyonlardan [stansiyalardan] məlumat toplasanız görərsiniz ki, Qazaxdan bəriki istasyonlar[d]a camaat ehtiyacı üçün lazım olan neft tapılmır, çünki oralara neft getmir, ya pək az gedir. Bəzən icazənamə Tavus [Tovuz] mövqifinə [stansiyasına] alınır, lakin neft yenə Ağstafaya gedir, çünki İrəvana Ağstafa təriqi [yolu] ilə göndərilir. Bizdə olan məlumata görə, dekabrın 15-dək Ağstafaya 62 vaqon neft aparılmışdır. Hətta mən özüm oradan keçərkən 21 vaqon hazır durduğunu gördüm. Bunun həpsi Qazax qəzasından Dilicana keçmişdir.

Gürcüstan hüduduna gedən neftin hesabı var. Əgər Nəzarət [Nazirlik] arzu etsə, müfəssəl [təfsilatlı] hesab ala bilər. O vaxt məlum olar ki, məmurlarımız möhtəkirlərlə əlbir olub nə qədər yolsuzluqlar yapırlar. Hətta hər kəs məmur ilə şərik olmasa, neft keçirə bilməz. Yoldaşımız [Ağamalıoğlu] Səməd ağanı həyəcana gətirən həmin bu əhvalatdır. Bunu sübut edəcək dəlillərimiz dəxi var. Səməd ağanın işarə etdiyi tacirin əhvalatını mən müfəssəl söyləyim: Həman tacir əvvəlcə burada polismeyster olan Muradovun dəlaləti ilə Ermənistana aparmaq üçün 4 vaqon neftə icazə alır. Yolda neftin bir vaqonu qeyb olur. Neft sərhəddə 70, Karvansarada 200, İrəvanda 600 manat qərarı ilə baha qiymətə satılaraq cənab polismeysterin payına yarım milyon manat mənfəət düşür. Fəqət bu mənfəətdən həman qeyb olan vaqonun zərərinin 48 200 manatını çıxmaq istəyir. Muradov buna razı olmayaraq hər işin, həmçinin əxzi-əsgər [əsgərliyə çağırış] məsələsinin bunların əlində olduğundan taciri hədələməyə başlayır. Tacir qorxudan Tiflisə qaçır.

Mən Tiflisdə ikən ərizə verməsini təklif etdi[m]. Tacir cavabımda söylədi ki, hər kəsə ərizə versəm axırda yenə Murado-

va göndəriləcəkdir. Ona görə bir fayda olmayacaqdır.

Digər bir dəfə Muradov xəstə ikən öz təhti-idarəsində [idarəsi altında] olan strajniklər əli ilə bir vaqon nefti 11 arabaya yığaraq Tiflisə göndərir. Müavini həman arabaları tutub qaytarır. Bunun üstündə naçalniklə müavini arasında soyuqluq düşür. Amma nəticədə müavin müqəssir tutularaq qulluqdan çıxarılır, amma Muradov öz yerində qalır. Camaat öylə təngə gəlmişdir ki, bundan sonra gecələr yolu kəsib aparılan nefti tutacaqdır, çünki neft gecələr daşınır.

Bir dəfə də 57 dəvə yükü neft aparılarkən əsgərlərimiz tərəfindən tutulmuşdur. Digər bir dəfə yenə əsgərlər neft arabası tuturlar. Strajniklər neftin pristava məxsus olduğunu bildirirlər. Əsgərlər qulaq asmayıb nefti qaytarmaq istəyirlər. Pristava xəbər verilir. Özü gəlib əsgərlərə 1800 manat verərək nefti keçirir.

Gecələr neft daşınan yolun ağzındakı kəndin yüzbaşısı xəbər verir ki, oradan gizli neft aparırlar. Əmr olunur, tutsun. Bir dəfə tutur. Məlum olur ki, pristavın əmisi oğlunun. Pristav deyir, bu dəfə burax, sonra tut. Digər dəfə tutur. Muradovun strajniki olur. Xülasə böylə-böylə. Şu surətlə möhtəkirlərin həpsi Daxiliyyə və Ədliyyə Nəzarəti qulluğunda olan adamlardır ki, Ermənistanda, Gürcüstanda milyonlar qazanıb ev alır, mülk tikdirirlər. Türklər zamanında nökərçiliklə dolananlar, şimdi dövlətli, milyonçu olmuşlardır. Qəribədir ki, əski və hazırki hökumət dövründə bu işləri görənlər yenə öz yerlərində dururlar. Hökumət bu beş həftədə bu işlərin qabağını almamışdır. Halbuki yenə bir qədər iş görmək mümkün idi.

Ərzaq işinə gəldikdə, Daxiliyyə naziri gərək deməyəydi türklər ərzağı atıb getdilər və üşrdən xəbərimiz yoxdur. Əvvəla, türklər atıb getməmişlərdir və gedərkən ərzağı bizim məmurlarımıza tapşırmışlardır. Satan da, dağıdan da öz məmurlarımızdır.

Nazir bizə deməliydi ki, filan yerdə filan qədər, filan yerdə filan qədər buğda var, qorxmayın, itməyib, xəbərimiz var. Bir də Ərzaq Nəzarəti Gəncə ərzaq vəkilinə milyon yarım pul buraxmışdır ki, Azərbaycan əsgərlərinə heyvan alsın. Heyvan alınmış, amma pul ilə deyil, zorla qəzadan yığılmışdır. Sənədlərlə isbat edəriz ki, pul verməmişlərdir.

Bez məsələsinə gəldikdə, Nəzarət hesab verərək deyir filankəsə filan qədər, filan yerə filan qədər vermişik, fəqət, bunlar camaata vüsul olmayır [çatmır]. Məsələn, bizim tərəfə göndərilən bez xalqa çatmayıb, yavaşca Tiflisə keçir. Ağstafada bir nəfər 5 min arşın bez satırdı. (17, 18, 20 rubləyə satılırdı.) Yanaşdım, haradan aldığını soruşdum. Dedi 11 min arşındır, satıram. Bilməlisiniz ki, ətrafda füqəra 17-20 rubləyə bez ala bilməyib ölənləri əksərən öz libasında dəfn edirlər. Bu hallar həman davam edəcəkmi? Bu işə diqqət edilməzsə axırı fəna olar.

Bir də Məhəmməd Əmin türklərin gəlməsindən bəhslə dedi onları "Müsavat" gətirdi. Doğrudur, sağ olsunlar, əgər onlar 60 min qoşunumuz var...

(**Məlik-Yeqanov**: Biz demədik, deyənlər utansınlar!

**Abbasqulu [Kazımzadə]**: Biz dedik gəlib burada düzəldəcəyiz!)

Əgər o vaxt türklər gəlib bizi xilas etdilərsə, şimdi yenə ətrafımızı qara buludlar alır. Bu dəfə kim xilas edəcəkdir? Qafqaziyadakı cümhuriyyətlərin həpsinin ordusu var, yaxşı da saxlanır. Amma biz hamıdan zəngin olduğumuz halda əsgərlərimiz necə saxlanır? Hətta bir çoxu çörəyi öz evində yeyir. Bəs necə oldu pullar, kimin cibinə girir ki, əsgərlərimizə çatmır? Bunu bilmək, düzəltmək hökumətin borcudur. Döşünə döyən firqə çıxıb əsgərlərimizin bu halını da müdafiə etsin, biz də görək həqiqətən o firqə çalışırmış. Burada dedilər ki, neftdən başlayaraq qaradavoy və fəhlə məsələsində durdular.

(**Şəfi bəy**: Fəhlə sözü olmadı.

**Məhəmməd Əmin**: Demoqoji üçün lazım idi ki, desin.

**Sədr**: Mən təsdiq edirəm ki, fəhlə sözü olmadı.)

Bir də dedilər ki, məmləkətdə doğru adam yoxdur. Hərgah buna inansaq, gərək indidən dağılıb gedək. Əgər doğru adam yox isə, yəqin onu deyən natiqin öz dairəsində yoxdur. Sair dairələrdə isə düz adam çox tapılar.

Bununla bərabər ümidvar oluruz ki, yeni hökumət bu nöqsanları rəf edər [aradan qaldırar]. Bir az da gözləriz. Əgər bir şey çıxmasa onda biz danışarız.

*Yenə var*

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

**8 şubat 1919-cu sənə**

* Maliyyə nazirinin mövcud gildilərin [gildiyaların] qiymətini iki dəfə artırmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinin məruzəsini təsvib etməklə [bəyənməklə] tapşırılsın ki, Məclisi-Məbusana idxal etmək üçün bir qanun layihəsi hazırlasın.

* Maliyyə nazirinin gömrük təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsvib edilsin və Nəzarətə tapşırılsın ki, Məclisi-Məbusana idxal edilmək üçün bir qanun layihəsi hazırlansın.

* Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri həzrətlərinin Azərbaycan dəmiryollarında tarifəni artırmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Türüq və Məabir naziri həzrətlərinin məruzəsi təsvib edilsin və tapşırılsın ki, böylə qanun layihəsi təsdiqdən ötrü Məclisi-Məbusana idxal edilsin.

**Məsai Nəzarətində**

Məsai Nəzarəti [Əmək Nazirliyi] Bakı telefon xətti cəmiyyəti "Bierinq" və Baş Fabriçni müfəttişə bir böylə məktub göndərmişdir:

Şubatın 11-ində başlanmış telefon xətti tətilini bərtərəf etmək [aradan qaldırmaq] üçün xidmətçilər tərəfindən təqdim edilmiş olan məvacib rəqəmlərini üç ayadək qəbul etməlisiniz. Hərgah üç ayadək ərzaq və mühimmat qiyməti artırılıb-əksilməzsə o qədər qalacaqdır.

Xidmətçiləri qəbul və əzl etmək [işdən çıxarmaq] məsələsi Məsai Nəzarətinin 26 kanuni-sanidəki [yanvardakı] əmrincə olmalıdır.

**ERMƏNİSTAN HÖKUMƏTİNƏ NOTA**

Azərbaycan Cümhuriyyəti Xariciyyə naziri Ermənistan Hökumətinə bu məzmunda bir nota göndərmişdir:

İrəvan - Ermənistan Cümhuriyyəti Xariciyyə nazirinə.

Son günlərdə Azərbaycan Hökumətinin aldığı məlumatından anlaşılır ki, erməni dəstələri başda afiserlər olmaq üzrə Göyçə gölü yanında Azərbaycan torpağına keçərək bu yaxınlarda Qızılvəng, Subatan, Zağalı, Şahab və sair kəndləri dağıtmışlardır. Məzkur [adı çəkilən] kəndlərin kişilərinin bir hissəsi qətl edilib, bir hissəsi isə qaçmaqla qurtarmışdır. Bir çox arvadlara təcavüz edilmişdir. Həman məlumat bu sözlərlə qurtarır ki, onu da olduğu kimi təfsilən bildirirəm:

Şahab kəndi sakinlərindən bir arvad bir çox təcavüzlərə məruz qaldıqdan sonra xəbər vermişdir ki, Şahab kəndində bütün kişilər qətl edilib, uşaqları isə təndirə salıb yandırmışlardır. Sonra kənddən 8 arvad çıxarıb onların namusuna təcavüz etdikdən sonra buraxmışlardır.

Göyçədə vaqe olan bu dəhşətlər barəsində müxtəlif yerlərdən gələn xəbərlər yek-digərinə müvafiqət edir [bir-birini təsdiqləyir]. Ona görə bu işlərin vaqe olduğuna heç şübhə yeri qalmayır. Azərbaycan torpağında müntəzəmən erməni qitəatı [hərbi hissələri] tərəfindən bu cür hərəkətlərin icrası və dincliklə yaşayan müsəlman başına bu qədər fəlakətlərin gəldiyi bizim hökuməti müşkül və çıxılmaz bir hala salır. Millətin artıq səbr kasası dolmuş. Bizim camaat hökumət ünvanına kinayələr atıb deyirlər ki, bu cür vəhşətlərin, zülümlərin qarşısına çıxmağa hökumətdə güc yoxdur və hökumət yalnız protesto teleqrafları ilə iktifa edir [kifayətlənir]. Hökumətimiz ehtiyat edir ki, öylə bir zaman yetişər ki, ehtirasat ilə əsaslanmış və gün-gündən kəsbi-şiddət etməkdə [şiddətlənməkdə] olan xalq həyəcanının qabağını ala bilməz və bu həyəcan fitnəkarlıqla alovlandırılaraq qabağına gələn hər şeyi məhv edər. Hərgah Ermənistan Hökuməti qeyri-məsul şəxslər tərəfindən deyil, məsul erməni qoşunları tərəfindən müsəlmanlara rəva görünən bu qədər zülümlərin qabağını almaq üçün tədbirlər ittixaz etməzsə [tədbirlər görməzsə] və Azərbaycan hüququna vurulan bu zərbələrin önü alınmazsa və bu işləri görən müqəssirləri cəzasına çatdırmazsa, o zaman bizim hökumətimiz məcbur olacaqdır ki, bu işdən çıxacaq məsuliyyəti öhdəsindən atsın. Bu notanın surəti eyni zamanda Qafqaziyadakı Müttəfiqlər Komandanlığına verilmişdir.

*Xariciyyə naziri əvəzinə:*
*Adil xan Ziyadxanov*

**SÜLH ƏTRAFINDA**

**(Royter acentəliyindən)**

* Paris mətbuatı konfransda veriləcək səs məsələsini və böyük dövlətlərlə xırda dövlətlərin bərabər səsə malik olmasına dair verilən protestonu müzakirə edərək deyir ki, bu cür konfranslarda məsələlər səs verməklə həll ediləmməz. Konfrans camaat parlamanı deyil, kabinələr parlamanıdır və bu kabinələr parlamanı kabinələr üsulunu təqib edəcəkdir. Kabinələrdə məsələlər səslə deyil, liderlər tərəfindən həll edilir. Sülh Konfransı beş böyük dövlət nümayəndələri tərəfindən aparılıb, konfransın hər bir əməlinə kontrolluq etməlidirlər və onlar bütün cahan qarşısında məsuldurlar. Böyük dövlətlər ümum mənafeləri müdafiə edərək bu cür məsələlərin səslə həllini qeyri-mümkün hesab edir. Burası mümkün deyil. Zira İngiltərə çoxdan bəri bəslədiyi amalını, yəni dənizlərin açıq olmasını konfransa təklif eyləmişdir. Təbiidir ki, konfrans nümayəndələrinin əksəri bu məsələyə zidd olması ilə İngiltərə bu amalını məhv edə bilməyəcəkdir. Hakəza [habelə] İtaliya ilə Fransa Elzas-Loren və Trentino məsələlərinin səslə həll edilməsinə razı olmazlar. Ona görə də hər bir məsələnin həllində beş böyük dövlətin razılığı lazımdır. Beş böyük dövlətin nümayəndələri bütün cələsələrdə [iclaslarda] iştirak etdikləri zamanda ikinci dərəcə dövlətlərin nümayəndələri, məsələn İngiltərənin Hindistan və sair müstəmləkələri nümayəndələri məclisdə ancaq o zaman iştirak edəcəklərdir ki, onlar dəvət olunalar. Deməli, hər kəsi maraqlandıran dənizlərin azad edilməsi məsələsi müzakirə edilərkən bütün nümayəndələr, o cümlədən İngiltərənin müstəmləkə nümayəndələri də iştirak edəcəklərdir.

**Klemansonun bəyanatı**

"Havas" agentəliyi xəbər verir ki, Klemanso Fransa Məclisi-Məbusanına məruzə verdiyi zaman demişdir ki, konfrans rəyində ixtilaf təbiidir. Hərgah ixtilaf olmasaydı o cür şuranın dəvətinə də məhəl [ehtiyac] qalmazdı. Klemanso əlavə eyləmiş ki, hərçənd Sülh Konfransında olan mübahisatın elan edilməsinə əsasən razı isə də, fəqət bir maddə gərək gizli ola. O da budur ki, bir hökumətin konfransa etdiyi bir təklifə sair bir dövlət rəisi razı olmaya. Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsinə keçərək Klemanso deyir ki, hərgah konfransda Cəmiyyəti-Əqvam məsələsinin bir həqiqət olaraq meydana çıxmasına hamı alışmasa, o zaman Cəmiyyəti-Əqvam məsələsi bir xam xəyaldan ibarət olub qalacaqdır. Fransanın məqsədlərindən birisi də budur ki, mədəni millətlər arasında tam etilaf [uzlaşma] əmələ gəlib, istiqbalda [gələcəkdə] hərb təxribatı önü alınsın.

* Dünən Parisdə Romaniyanın ərazi barəsindəki tələbatını müzakirə edəcək komissiyanın birinci iclası vaqe olmuşdur. Məclisin sədrliyinə Tirdiem, müavinliyinə isə de-Matino intixab edilmişdir.

**Cəmiyyəti-Əqvam**

Cəmiyyəti-Əqvam məsələsini müzakirə üçün yekşənbə [bazar] günü Quan, Leon Burjua, lord Robert Sesil və Venizelosun iştirakı ilə iclas əqd edilmiş [baş tutmuş]. Bu iclas konfransa Cəmiyyəti-Əqvam məsələsi barəsində bir məruzə verəcəkdir. Məzkur [deyilən] məruzə mümkündür ki, Cəmiyyəti-Əqvam təşkilinə bir zəmin hazırlasın. Bu layihə komissiyada təshih edildikdən sonra hər bir nümayəndə öz hökumətinə də təqdim edəcəkdir. Hərgah layihə böyük təbəddülata [dəyişikliyə] uğramazsa, o zaman Sülh Konfransında təsdiq ediləcəkdir. Bu məsələ Vilsonun Amerikaya getməsindən qabaq, yəni fevralın 18-dən əvvəl həll edilməlidir.

* Parisdə Sülh Konfransında yanvarın 25-də dənizlər, nəhirlər, dəmiryollar və yeni təşkil edilmiş dövlətlər məsələsi müzakirə edilmişdir. Macarıstana dənizə çıxmağa müsaidə veriləcəkdir. Səlanik azad iskələ [liman] olmalıdır. Hakəza [habelə] Dardanel ilə Bosfor da azad olmalıdır. Bir neçə dəmiryolların, o cümlədən Bağdad dəmiryolunun, Don və Reyn nəhirlərinin beynəlmiləl olması dəxi həman məclisdə müzakirə edilmişdir. Əsasən qət edilmişdir [qərara alınmışdır] ki, bir neçə millətin mənfəətdar olduğu dəmiryollar beynəlmiləl kontrol altına alınsın.

## TELEQRAF XƏBƏRLƏRİ

## ("Royter" acentəliyindən)

**Almaniyadan ötrü şərait [şərtlər]**

Berlindən xəbər verirlər ki, təzələnmiş olan mütarikə şəraitinə [atəşkəs şərtlərinə] bu tələbatlar daxil edilmişdir:

1) Fevralın 1-nə qədər Almaniya 57 min kənd və fəllahət [əkinçilik] maşinaları verməlidir;

2) Hərbi əsirlərlə fəna müamilədə [pis rəftarda] bulunanların hamısı cəzaya giriftar edilməlidirlər;

3) Reyn nəhrinin sağ tərəfindəki istehkamat təşkil edən Strasburq qalası xəttinin zəbt edilməsi ixtiyarı Müttəfiq dövlətlər əlində qalır.

**Polyaklar Poznanda**

Berlindən verilən teleqrafda deyilir ki, Poznanda olan Polyak Milli Şurası Hökuməti xəbərdar etmişdir ki, asayiş bərpa edilməsi qəsdi ilə Milli Şura Poznan əyalətinin idarəsini öz öhdəsinə almışdır.

**Spartaklıların güllələnməsi**

Berlindən xəbər verirlər ki, Şpandauda həbs edilən Spartak başçılarından 4 nəfəri qaçmaq istərkən güllələnmişlərdir.

**Bolşevik Rusiyada yatalaq**

Petroqraddan verilən xəbərlərə nəzərən bolşevik qəzetələri Petroqradda, Moskva və Saratovda gündən-günə artmaqda olan səpmə yatalağın intişarından [yayılmasından] vahiməyə düşmüşlərdir. Qəzetənin rəvayətinə görə, yalnız bir xəstəxanada 12 həkimlə, 40 nəfər şəfqət bacıları həlak olmuşlardır. Ölüm o qədər artıqdır ki, tabut hazırlamaq imkan xaricindədir.

**Ukrayna Hökumətinə müavinət**

Odessada olan Müttəfiqlər komandası qərar qoymuşdur ki, bolşeviklərlə mübarizə edən ukraynalılara hər cür ləvazimi-hərbiyyə [hərbi ləvazimat] ilə kömək edəcəkdir.

**Vyanada iğtişaş**

Yanvarın 29-da axşam vaxtı işsiz əmələlərin [fəhlələrin] böyük cələsələri [iclasları] vaqe olmuşdur. Bu əmələlər hər gün özlərinə 15 kron miqdarında maaş verilməyi tələb edirmişlər. Əmələlər bir ağızdan təhdiddə bulunaraq demişlər ki, hərgah onlara maaş verilməsə özləri çarəsini taparlar.

* Parisdə ruslar tərəfindən könüllü qoşun dəstəsi təşkil ediləcəkdir. Bu dəstə Rusiyada general Denikin qoşunlarına mülhəq olub [birləşib] iş görəcəkdirlər.

* Stokholm qəzetələri bəyan yazırlar ki, bir neçə böyük Amerika şəhərində Rusiyada olduğu kimi Əmələ Vəkilləri Şurası [Əsgər Deputatları Soveti] təşkil edilmişdir.

## QƏZETƏLƏRDƏN

**Şimali Rusiyada bolşeviklərlə müharibə**

Tiflis qəzetələri Sxinvalidən, Cənubi Osetin Milli Şurasından böylə bir teleqraf almışlardır:

Voyenni Osetin yolu [Hərbi Osetin yolu] ilə alınan məlumata görə bu axır günlərdə Şimali Osetiya rayonunda bolşeviklərlə müharibələr vaqe olmuşdur. İnadlı müqavimətdən sonra Alagir, Yeralaqar, Biraqzanq, Kadqaron və qeyri kəndlər qarət edilmişdir. Əhali meşələrə qaçmışdır. Bu yaxınlarda öz ailəsi Alagirə getmiş olan Cənubi Osetiya Milli Şurası üzvü polkovnik Pliyev müharibə əsnasında qəflətən qətl edilmişdir.

**Milyukov**

Rusiya əhvalı haqqında Fransa və İngiltərə hökumət dairələrinə məlumat verməkdən ötrü Parisə və Londona gedən Milyukov və qeyriləri haqqında böylə xəbər verirlər:

Milyukov Parisdə böyük müvəffəqiyətsizliyə düçar olmuşdur. Milyukovu nəinki qəbul etməkdən imtina etmişlərdir, hətta üç günün müddətində Parisdən çıxmağı belə təklif etmişlərdir. Milyukov bu tələbatı qəbul ilə Parisdən çıxıb, Londona getmişdir. Burada Milyukov İngiltərə Hökuməti nümayəndələri tərəfindən hüsn-təvəccöhlə qəbul edilmişdir. Sonradan Milyukov dübarə Parisə gəlib Klemanso sədarəti altında Rusiya işlərinə baxan xüsusi komissiya heyətinə daxil edilmişdir.

**Türkiyədə rusların mühafizəsi**

İtaliya Hökuməti əcnəbi və Cənubi Rusiyada olan xüsusi heyət naçalniki xəbər verir ki, Rusiya ilə Türkiyə arasında müharibə başladığı zaman Türkiyədə olan rusların mənafeyini mühafizə etməyi öhdəsinə alan İtaliya Hökuməti Rusiya ilə Türkiyə arasında rəsmi münasibat başlanana qədər yenə də Türkiyədə olan rusların mənafeyini mühafizə etməkdə davam edəcəkdir.

**Moskvaya hücum**

Qəzetələrin məlumatına nəzərən könüllü dəstələri Müttəfiqlərlə birlikdə Moskva üzərinə yürüş etməyə hazırlaşırlar. Tərtib edilmiş olan ümumi planla zənn edilir ki, may ayınadək bolşeviklər əleyhinə olan müharibə qurtaracaqdır.

**Kolçak ordusu**

Amiral Kolçakın qoşunları Perm şəhərini işğal etdikdən sonra Vyatka və Samara üzərinə yürüş edirlər. Sibirya qoşunlarının Arxangelskdə Müttəfiq qoşunlarla birləşməsi ehtimal olunur.

## BAKI XƏBƏRLƏRİ

**Cəmiyyəti-Xeyriyyədə**

Şənbə günü şubat [fevral] ayının 8-ində, 1919-cu ildə, Bakı Bələdiyyə İdarəsində Qasım Qasımov cənablarının təhti-

sədarətində [sədrliyi altında] Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi İdarəsinin birinci iclası vaqe oldu. Məclisdə hazır idilər: Şeyxülislam axund Molla Ağa Ağaəlizadə, müftü Mustafa əfəndi Əfəndizadə, Bakı qazısı Hacı axund Əbdürrəhim Hadizadə, axund Mirməhəmmədkərim Hacı Mircəfərzadə, Abbas Eyvazov, Mirzə Əsədullayev, Əsədulla Əhmədov, Ağa Qəni Məhəmmədov, Musa bəy Əmircanov, İsmayıl bəy Səfərəliyev, Hacı Yusif Mehdiyev, Mehdi bəy Hacınski. Müttəfiqülqövl [yekdilliklə] Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi İdarəsi sədarətinə Qasım Qasımov, müavini-sədrliyə Əbdüləli bəy Əmircanov, xəzinədarlığa Musa bəy Əmircanov, katibliyə Mehdi bəy Hacınski intixab olundular. Müvəqqət kargüzarlığa Mirabbas Seyidəlizadə məmur olundu.

İdarə üçün mənzil tutmaq məsələsi barəsində müzakirə olunduqda üzvlərdən Abbas Eyvazova tapşırıldı ki, Məhəmmədhənifə Tağıyevdən kirayə ilə üç otaq tutsun və bu barədə bir heyət seçildi ki, "İsmailiyyə" mənzilinə baxıb orada mümkün olduqca yaxın zamanda bir neçə mənzil təmir olunsun. Bu heyətə İsmayıl bəy Səfərəliyev, Əsədulla Əhmədov, Abbasəli Kərimov intixab olundular. Bununla bərabər bunlara mühəvvəl olundu [tapşırıldı] ki, əhli-xibrədən [mütəxəssislərdən] kimi lazım bilərlərsə dəvət etsinlər. İdarənin işləməyi barəsində qət olundu ki, həftədə bir gün cümə axşamılar axşam saat 6-da idarənin iclası vaqe olsun.

Cəmiyyətin varidatına gəldikdə, bəzi rəylər meydana çıxdı. İdarə qət etdi ki, cəmiyyətin varidatını artırmaq üçün müvəqqət bir heyət intixab olunsun. Bu heyət öz fikrini əvvəlinci iclasadək bir layihə şəklində təqdim etsin. Heyətə Ağa Məhəmmədov, Musa bəy Əmircanov, Abbas Eyvazov, müftü əfəndi, şeyxülislam, İsmayıl bəy Səfərəliyev, Əsədulla Əhmədov seçildilər.

Bakı Ünas [Qadınlar] Müsəlman Cəmiyyəti-Xeyriyyəsi təhti-idarəsində olan darüleytam (priyut) [yetimxana] barəsində Mehdi bəy Hacınski bəyanat verdi və bu barədə sədr və katibə idarə vəkalət verdi ki, Ünas Müsəlman Cəmiyyəti-Xeyriyyəsi İdarəsi ilə müzakirədə bulunub, bəzi məsələləri həll edəndən sonra darüleytamı Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi öz öhdəsinə götürsün. Sədr Qasım Qasımov öz anasının vəfatı münasibəti ilə 5 min manat, Həsən Ağayev və Əliabbas Sultanov birər min manat cəmiyyətə ianə verdiklərini Şeyx həzrətləri idarəyə elan etdikdə idarə qət etdi ki, ianə sahibi Qasımov və qeyrilərinə qəzetə mövcibincə izhari-təşəkkür olunsun.

**Mədən və zavod qulluqçularının həmkarlar ittifaqı**

Bazar günü fevralın 16-da səhər saat 10-da Balaxanı krujokunda mədən və zavod qulluqçuları həmkarlar ittifaqının Balaxanı şöbəsi idarəsi tərəfindən ümumi iclası təyin edilmişdir. Müzakirə ediləcək məsələlər bunlardır:

1) İdarənin məruzəsi,

2) Üzvülük haqqının miqdarı təəyyünü,

3) Sülh komissiyası,

4) Konfrans haqqında məruzə,

5) İclasda qaldırılacaq məsələlər.

İttifaq üzvlərinin hamısının gəlməsi lazımdır.





**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsinin 12 şubat 1919-cu sənə tarixli iclasında Bələdiyyə İdarəsi və Məkatib [Məktəblər] şöbəsi üzvü Orucəli Orucəliyevin xalq məktəbləri müəllimlərini müsri [yoluxucu] xəstəliklərlə mübarizə etmək üçün fəaliyyətə cəlb etmək barəsindəki məruzəsini istema etdikdən [dinlədikdən] sonra qət edilmişdir ki, 14 şubatda olacaq müəllimlər iclasına bir nəfər doktor göndərilsin ki, müsri xəstəliklər barəsində məlumat versin.

* Daxiliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, keçən kanuni-saninin [yanvarın] 29-dakı hökumət iclası qət etmişdir ki, Bələdiyyə Məclisi intixabatına [seçkilərinə] dair qanun layihəsi hazırlansın. Bununla Bələdiyyə İdarəsinə məlum edilmişdir ki, Bələdiyyə Məclisindən üç üzv və Bakı işlərində fəaliyyətdə bulunan camaat xadimlərindən üç üzv həman qanun layihəsi hazırlayacaq xüsusi komisyona göndərilsin. Nəzarət rica etmişdir ki, göstərilən zəvatın əsamisi [şəxslərin adları] məlum edilsin.

## ƏRZAQ İŞLƏRİ

Ərzaq Nəzarəti Hökumət İşləri müdirinə yazır ki, İran tacirlərindən həcz edilən 12 min put quru meyvənin (çərəzin) qaytarılması üçün İran konsulunun istidası [xahişi] münasibəti ilə sizə xəbər verirəm ki, konsul tərəfindən İran tacirlərinin siyahısı təqdim edilmədiyinə görə cavab verilməsi təxirə düşmüşdür. Ərzaq Nəzarəti siyahısız bu işi aşkar etmək və bu işlə aşina olmaq imkanından məhrum olmuşdur. Konsulun bu istidası Azərbaycan Hökuməti təşkil edilənə qədər sabiq ərzaq təşkilatları tərəfindən qaldırılan ümumi məsələlərin həlli ilə əlaqədardır. Bu məsələ xeyli mühüm olduğuna görə Vükəla Şurasında [Nazirlər Kabinetində] həll edilməsi üçün bu yaxın günlərdə Ərzaq Nəzarəti tərəfindən Şurayi-Vükəla rəisinə göndəriləcəkdir. Burasını dəxi qeyd etməlidir ki, bu barədə konsul dəxi xəbərdar edilmişdir.

* Ərzaq Nəzarəti Dəmiryol Nəzarətinə yazır ki, Ərzaq Nəzarətinin ərzaq şeyləri alıb, hazırlayıb və göndərən vəkilləri Azərbaycan dəmir yollarında qatarlarda sərnişin çox olduğuna görə hər dəfə böyük müşkülata düçar olurlar. Buna görə Dəmiryol Nəzarətindən xahiş olunur ki, Ərzaq Nəzarəti vəkillərin halını nəzərə alıb bundan belə onlar üçün xüsusi bir xidmətçi vaqonu vagüzar edilsin [ayrılsın].

* Qazax uyezdi Xanlıqlar kəndi əhli Əhməd bəy Dilbazov Ərzaq Nəzarətinə müraciətlə Azərbaycan dairəsindən Gürcüstana Borçalı uyezdinə dəyirman üçün bir və ya iki dinamo maşın ilə bir dənə neftə mator aparılması üçün icazə verilməsi xahişində bulunmuşdur. Bunun əvəzində məzkur [adı çəkilən] Əhməd bəy Gürcüstandan Bakıya Ərzaq Nəzarəti namına [adına] aparacağı şeylərin qiyməti bərabərində lobu və tənbəki gətirməyi vəd edir. Ərzaq Nəzarəti Əhməd bəyin bu istidasını [xahişini] Ticarət və Sənaət Nəzarətinə yazıb, Ticarət və Sənaət Nəzarəti tərəfindən məzkur maşinaların Azərbaycandan aparılması üçün icazə verilib-verilməyəcəyini və etiraz olmadığı zaman müşarünileyhlə [adı çəkilən şəxslə]

şərait əqd edilməsinə [şərtnamə imzalanmasına] cavab verilməsini xahiş etmişdir.

* Ərzaq Nəzarəti Qafqaziya ordusu ərkani-hərb [qərargah] qulluqçu və zabitlərinin Tağıyev fabrikasından manufaktura buraxılması istidanamələrini [xahişlərini, ərizələrini] və siyahısını Ticarət və Sənaət Nəzarətinə göndərib, bu barədə binagüzarlıqda bulunmağı [sərəncam verməyi] xahiş etmişdir.

* Ərzaq naziri Hökumət Kontroluna yazır ki, Nəzarətin [Nazirliyin] yanvarın 25-də olan əmrinə görə Ərzaq Nəzarəti anbarlarına varid olan [gələn] malların nə cür mal olduğunu müəyyən və qəbul etməkdən ötrü xüsusi bir komissiya təşkil edilmişdir. Hökumət Kontrolu nümayəndəsinin bu komissiyada iştirak etməsi daimi surətdə lazım olduğundan, bir nəfər nümayəndə göndərilməsi xahiş olunur.

* Ərzaq Nəzarətinin mal alıcı şöbəsi mal təqsim edici [paylayan] şöbədən xahiş edir ki, şöbəyə məxsus çörəkçi dükkanından ötrü Skobelev qardaşları dəyirmanından 20 kisə buğda unu buraxılması üçün order yazsın.

## AZƏRBAYCANDA

### Azərbaycan Parlamanında erməni məbusları

Bakı Erməni Milli Şurası Azərbaycan Hökumətinin binagüzarlığı [təşəbbüsü] ilə Azərbaycan Parlamanına Erməni Milli Şurası tərəfindən zeyldəki [aşağıdakı] şəxsləri nümayəndə intixab etmişlərdir [seçmişlər]:

1) S. S. Taqianosov (Birja komitəsinin sədri);
2) Arşak Paronyan;
3) Y. Taqianosov;
4) P. X. Çubar[yan].

Bu günlərdə Gəncədən ermənilər tərəfindən dəxi 4 nəfər erməni nümayəndəsi gələcəkdir və bunlar Azərbaycan Parlamanında erməni fraksiyonu təşkil edəcəkdirlər.

### Dəmiryolunda

Fevralın 5-ində və 7-nci gecəsində Bakıya əzimət edən [gedən] poçta qatarı Hacıqabul mövqifini [stansiyasını] keçdikdən sonra dəf'ətən [birdən-birə] çöldə dayanar, vaqon altına iki kisə yüklü olan bir at düşər. İngilis və Azərbaycan qaravulları bu kisələrə baxıb, kisələrin birində patron, digərində isə tüfəng olduğunu kəşf etmişlərdir. Bu yerdən bir nəfər qaçdığı üçün qaravullar həman adama atəş açıb onu yaralamışlar. Sonra müxtəlif tərəflərə güllə ataraq və bu təriq [yol] ilə həman yaralının yoldaşını tapmaq istəmişlərdir. Bu güllələrdən müqabil tərəfdən də atəş açılıb, nəhayət hər iki tərəfdən atışma başlanmış və nəticəsi olaraq konduktorun dediyinə görə sərnişinlərdən bir nəfər ölüb, iki nəfər də yaralanmışdır. Yaralıları qatara aldıqdan sonra Bakıya mütəvəccihən [tərəf] hərəkət eyləmişdir.

### Lənkərandan

(Xüsusi müxbirimizdən)

Bizim bədbəxt şəhərimizdə səpmə yatalaq naxoşluğu şiddətlə hökmrandır. Hər gündə 20 adamdan ziyadə tələfat verərək şəhərin səkənəsi ədədinə [əhalisinin sayına] xeyli bir zərbə vurulur. Şəhərin müsəlman hissələrində isə mollaların tədfini [dəfn etməyi] bacarammadığı qədər ziyadə [adam] ölməklə, buna əsaslı bir tədbir ittixaz edilmədiyi [tədbir görülmədiyi] təqdirdə şəhəri əhalisiz bir xarabazara mübəddəl etməklə [çevirməklə] təhdid edir. Bundan başqa, köylərdə yatalaq, qızılca, çiçək və difterit [difteriya] kimi uşaq naxoşluqları hər gün bir çox canları alır. Bütün bunlara rəğmən kəndini rəsmi "Muğan Cümhuriyyəti" adlandıran məhəlli [yerli] hökumət yalnız köylərin deyil, hətta şəhərin bu müğayiri-hifzüssihhə [antisanitariya] hallarını dəyişməyə bir etina dəxi etməyib, kəndinin camaat işlərində nə qədər bacarıqsız olduğunu bilfeil [əməli surətdə] göstərir. Bundan başqa hər gələri bir zaman idarəni kəndi əllərinə alıb fəqət cib mənafelərini təmin etməyə məşğuldurlar. Vətənimizin qanını sovuran bu məşum və ləim [alçaq] xunxarlardan [qaniçənlərdən] məmləkətimiz nə vaxt azad olacaq?!

*Teymur bəy Bayraməlibəyov*

### Qazaxdan

Qazax qəzasının Tavus [Tovuz] daxiliyyəsində qara qüvvələrin hərəkatı müşahidə edilməkdədir. Oğurluq, adam öldürmək genə işə düşməkdədir. Böylə ki, Tavusda millət xadimi və füqəra pənahgahı olan Abbas Hacızadə fevralın 4-də həman qara qüvvələrin xəyali-bədfalının [bədniyyət fikirlərinin] qurbanı olmuşdur. Mərhum Tavusda siyasi və ictimai fəal bir camaat xadimi olduğundan bu hadiseyi-əlimə bütün tavusluların hüznünə bais olmuşdur. Səbəbi-qətl məlum deyildir. Hər halda bu işlərin qabağı alınmaz isə arzu olmayan nəticələr verəcəyi aşkardır.

*Tavuslu*

## GÜRCÜSTANDA

### Axıskada hərəkati-hərbiyyə

General Mazniyev hökumətə xəbər verir ki, Parexi kəndi əsgərlərimiz tərəfindən zəbt edilmişdir. Başqa kəndlərə təklif edilmişdir ki, silahlarını rayon komissarlarına təslim etsinlər. Bundan əlavə, türk zabitlərinin və əsgərlərinin uyezddən kənar edilmələri təklifi dəxi olunmuşdur. Əks surətdə onlar əleyhinə silahla iş görüləcəkdir.

### Tilavda hərbi hərəkatlar

Tilavdan general-qubernator [Şalva] Maqlakelidzeyə teleqraf edirlər ki, milissionerlər və qvardiya əsgərləri Ləzgi kəndini bilaixtilaf [toqquşmasız] tərk-silah etmişlərdir. Quldurlar təqib edildikdə atışmaq vaqe olub, bir nəfər ölüb, biri yaralanıb, iki nəfər tutulmuşdur. Eyni zamanda digər tərəfdən Orbitubani komissarı məşhur quldurun dəstəsini təqib etdikdə dəstəbaşı öldürülüb, beş nəfər tutulmuşdur.

### Soçidə ermənilər

Erməni Milli Şurası Soçi nahiyəsində yerli erməni əhalisi tərəfindən Gürcüstan əsgərləri əleyhinə çıxışlar vaqe olduğu xəbərini alar-almaz dərhal qərara almışdır: Soçi Milli Şurasına teleqrafla təklif etsin ki, əhalinin sakit edilməsi üçün tədbirlər ittixaz edilsin [tədbirlər görülsün]. Eyni zamanda qərara alınmışdır ki, Gürcü Hökumətindən xahiş edilsin ki, Soçiyə göndəriləcək komissiyaya Erməni Milli Şurası tərəfindən də bir nəfər nümayəndə daxil edilsin.

**Həbslər**

Tiflisdə həbs edilən zabitlər arasında general Kumilov və qeyriləri həbs edilmişlərdir.

**İstehzari-əsgəriyyə [Hərbi çağırış]**

Gürcüstan Hökumətinin əmrinə görə Kutais quberniyası ilə Suxum nahiyəsində 27-28 yaşında olanlar əsgərliyə alınırlar.

**İdareyi-örfiyyeyi-əsgəriyyə elanı**

Suxum və Qaqra nahiyələri Gürcüstan Hökuməti tərəfindən idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında elan edilmişlərdir. General Gedevanişvili general-qubernator təyin edilmişdir.

**General Milnin əziməti**

Müttəfiq ordusunun Baş komandanı General Miln Tiflisdən Batuma əzimət edib [gedib], oradan da İstanbula azim olmuşdur [yola düşmüşdür].

**Buğda**

Fevralın 5-də Novorossiyskdən Potiyə 20 min put buğda gətirilmişdir. Fevralın 9-unda bu buğda Tiflisə gətiriləcəkmiş.

**Gürcüstan ilə Könüllü ordu müharibəsi**

Gürcüstan Xariciyyə naziri Soçidən alınan əhvalatları Tiflisdə olan İngiltərə heyətinə xəbər vermişdir. İngiltərə heyəti dərhal Könüllü ordu komandanına teleqraf vurub hərəkati-hərbiyyənin tezliklə dayandırılmasını tələb etmişdir. Gürcüstan Xariciyyə naziri Tiflisdə olan İngiltərə heyətinə böylə bir nota ilə müraciət etmişdir:

*"Sizə məlumdur ki, Soçi nahiyəsi Müttəfiq dövlət komandanlığının razılığı və təkidi ilə gürcü əsgərləri tərəfindən zəbt edilmiş idi. Buna görə Gürcü Hökuməti ümidvar idi ki, bu iş heç bir tərəfin ixtilafına bais olmaz. Yanvarın 9-unda Soçi nahiyəsində Könüllü ordu dəstələrinin cəm edilməsini sizə xəbər verib, məzkur [adı çəkilən] dəstələrin Gürcüstan mənafeyi əleyhinə cəm edilib-edilməməsi haqqında məlumat verilməsini xahiş etmişdim. Buna cavab olaraq yanvarın 31-ində və fevralın 1-ində siz yenə xəbər verdiniz ki, İngiltərə Hökuməti general Denikinə xəbər vermişdir Gürcüstanın tamamiyyəti-mülkiyyəsini [ərazi bütövlüyünü] mühafizə ilə Gürcüstanın daxili işlərinə qarışmasın. Sizin bu notanız Gürcüstan Hökumətinə kafi dərəcədə təminat verdi ki, məzkur nahiyəyə cəm edilən Könüllü ordu dəstələri Gürcüstanı təhdid etməyir. Bununla belə, aldığımız rəsmi məlumata görə, Könüllü ordu dəstələri fevralın 6-sında əhdşikənanə [xaincə] bir surətdə Soçi nahiyəsində olan əsgəri dəstələrimiz üzərinə hücum edib, həman günün axşamı isə Könüllü ordu generalı Bruneviç tərəfindən Soçi nahiyəsində olan əsgəri dəstələrimiz komandanı general Konevə ultimatum verilmişdir. Könüllü ordunun bu tövr əhdşikənanə bir surətdə hücumu sizin verdiyiniz təminatı xələldar etdiyinə görə Gürcüstan Hökumətinin Könüllü ordu hücumu əleyhinə qəti surətdə prostesto etdiyini sizə xəbər verib, əlavə edirəm ki, Gürcüstan Hökuməti öz mənafeyini mühafizə etmək üçün tədbirlər görüb, Gürcüstan Cümhuriyyətinin məsuniyyətini [toxunulmazlığını] və əhalisinin hüquq və mənafeyini əldə silah olaraq müdafiə edəcəkdir.*

*Xariciyyə naziri Gegeçkori"*

**Dükan satılır**

Krasnovodski küçədə 10 nömrəli evdə olan Bünyatovun baqqal dükanı satılır. Xahiş edənlər saat 9-dan 2-yədək məzkur [adı çəkilən] dükana müraciət edə bilər.

*2688*

**"Azərbaycan" qəzetəsi idarəsindən**

Əmələ və xidmətkarların məvacibi artırılmağa binaən [görə] və şəhərimizdə intişar olan [nəşr edilən] qəzetələrin qiyməti artmağa müvafiq olaraq bu gündən biz də qəzetəmizin hər nüsxəsini 70 qəpikdən 80 qəpiyədək artırmağa məcbur olduğumuzu möhtərəm qare və qariyələrə [kişi və qadın oxuculara] elan ediriz.

*İdarə*
*b.*

**Bakı Müsəlman Ünas Cəmiyyəti-Xeyriyyəsi**

13 şubat (fevral) 1335 (1919) ildə
Obşestvennı Sobraniyanın
[Bakı İctimai Yığıncağının]
yay mənzilində
"BİR FİNCAN ÇAY"
təşkil edir. Salona dəvətnaməsi olmayanlar buraxılmayacaq. Binaənileyh [buna görə] dəvətnamə almayan zəvati-möhtərəmdən [möhtərən şəxslərdən] rica olunur ki, hərgah arzu etsələr, həman gün 13 şubat saat 12-dən 8-dək klubda müsamirə müdirlərindən dəvətnamə ala bilər.

*İdarə*
*38*

**Qızıl və gümüş sənətkarlarının qənaət cəmiyyəti idarəsi**

Ümum üzvlərə elan edir ki, cümə günü fevralın 14-ündə səhər saat 10-da Balaxanski küçədə 61 nömrəli Şirvanovun evində cəmiyyətin ümumi iclası vaqe olacaqdır.

Baxılacaq məsələlər:

1) 1918-inci il hesabatının müzakirə və təsdiqi;
2) Yeni idarə intixabı [seçkisi];
3) Cari məsələlər.

Saat 10-da qanuna müvafiq miqdarda üzvlər gəlməzsə, iclas saat 11-də qanuni olaraq açılacaqdır.

*2687*

**Doktor Larionovun cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həmə-vəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Контора Агентуры и Комиссии "И. Фани и Ко."** Баку, Церковная 70. Телеф. N 22-28. Почт. ящ. N 13.

**Agentura və komisyon kantoru İ. Fani və kompaniyası.** Bakı, Serkovnı küçədə 70 nömrəli evdə. Telefon nömrəsi 22-28. Poçta yeşiki 13.

Kimdə nə mal varsa və kimə nə mal lazımsa bizim kantora müraciət etmələri təvəqqe olunur. Hər cür malların satışını qəbul və qəbul edilən mallar üçün qabaqca pul (ssdua) buraxırız. Sair şəhərlərdəki komisyon və agenturalardan öz mənfəətləri xatirlərinə ünvanlarını göndərmələri mətlubdur [tələb edilir]. Kantorumuz hər gün səhər saat 8-dən 2-yədək, axşam 4-dən 7-yədək açıqdır.

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə “Azərbaycan” qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Ziraət və Əmlak naziri tərəfindən**

Bununla ümuma elan edilir ki, Bakı quberniyası, Cavad qəzası, Muğan düzündə, Orta Muğan kanalı və Aşağı Muğan kanalının cənub-şərqi dairəsindəki suvarılan yerlər müzayidə (torq) ilə icarəyə verilir. Hər kəs orada 1919-uncu il yazlıq, 1919 və 1920-nci il payızlıq, 1920-nci il yazlıq əkin əkmək istəsə, həman yerlərdən icarəyə götürə bilər. Bunu da bilməlidir ki, icarənin vaxtı son məhsul yığıldıqdan iki həftə sonra bitir.

Məzkur [adı keçən] yerlər Cavad qəzası, Qalaqayın (Petropavlovka) kəndində xəzinə yerləri mübəssiri [nəzarətçisi] Yuryevin təhtisədarətində [sədrliyi altında] bulunan xüsusi komisyon tərəfindən yeni qayda mart ayının 1-indən 7-sinədək bir həftə zərfində [ərzində] icarəyə veriləcəkdir. İcarə şəraiti [şərtləri] konditsiyalarda [müqavilənamələrdə] müfəssələn [ətraflı] yazılmışlardır. Şəraiti bilmək olar: Ziraət Nəzarətinin Torpaq şöbəsində (Vodovoznı küçə, nömrə 8). Yenə həman Nəzarətin Su şöbəsi və Əkin və fəllahət [kənd təsərrüfatı] şöbəsində (Telefonnı küçə, nömrə 6), Gəncə Ziraət şöbəsində (Gəncə şəhəri) və məhəllərdə [yerlərdə] xəzinə yerləri mübəssirləri, qəza qaimməqamları, Cavad, Şamaxı, Göyçay, Quba, Gəncə, Ərəş, Cavanşir, Zəngəzur, Qazax, Qaryagin, Şəki və Şuşa qəzalarında məntəqə pristavları dəftərxanalarında.

*Ziraət naziri vəzifəsini ifa edən:*
*H. Sultanov*
*Nəzaətin Torpaq şöbəsi müdiri:*
*Şpitalski*
*36*

**Drama**
**Axşam Tamaşası**
**Azərbaycan Hökumətinin Teatrosunda**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşlarının Müdiriyyəti cümə günü cəmadiyələvvəl ayının 13-ündə 1337 sənəsi (fevralın 14-ündə 1919-cu ildə) təntənəli bir surətdə bu mövsümdə əvvəlinci dəfə olaraq mövqeyi-tamaşaya qoyulacaqdır məşhur tarixi faciə

**Ağaməhəmməd şah Qacar**
8 pərdədə
Əsər: **Əbdürrəhim bəy Haqverdiyev**

**Ağaməhəmməd şah Qacar** rolunu ifa edəcəkdir məşhur artist **Hüseyn Ərəblinski**.

İştirak edən əşxaslar [şəxslər] müfəssələn [ətraflı olaraq] məramnamədən [proqramdan] məlum olunar.

Biletlər imdidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

Rejissor: Abbas Mirzə Şərifov;
Müavin: Hacıbaba Şərifov;
Məsul: Xəlil Hüseynov;
Mübaşir [icraçı müdir]: Rövşən bəy Əfəndiyev;
Müdir: Zülfüqar bəy Hacıbəyli.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***





## QEYD VƏ ŞƏRHLƏR

**Başlanır!**

səh. 187. “...Qarabağa general-qubernator təyinindən...”: “təyinindən” yerinə qəzetdə “təəyyünündən” getmişdir.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 189. “Karvansara”: Qərbi Azərbaycanda (indiki Ermənistan ərazisində) indiki İcevan şəhəri nəzərdə tutulur.

səh. 190. “strajnik”: kəndlərdəki polis nəfərləri yaxud keşikçilər.

**Vükəla Şurasında**

səh. 191. “...gildilərin qiymətini iki dəfə artırmaq...”: burada söhbət mədən şəhadətnamələrinin tariflərinin artırılmasından gedir.

**Teleqraf xəbərləri**

səh. 194. “kron”: bir sıra Avropa ölkələrində pul vahidi olmuşdur.

**Bakı xəbərləri**

səh. 196. “Şeyxülislam Axund Molla Ağa Ağaəlizadə”: qəzetdə “Ağaəlizadə” yerinə “Axundzadə” getmişdir.

“idarə vəkalət verdi ki...”: qəzetdə “idarə vəkalət verdikcə” getmişdir.

**Ərzaq işləri**

səh. 197. “Qazax uyezdi Xanlıqlar kəndi...”: qəzetdə kəndin adı təhrif edilmiş olaraq verilmişdir.

**Azərbaycanda**

səh. 198. “S. S. Taqianosov”: qəzetdə “İs. S. Taqianosov” getmişdir.

“Y. Taqianosov”: qəzetdə “S. Taqianosov” getmişdir.

**Dükan satılır**

səh. 201. “Krasnovodski küçə”: Bakıda, indiki Səməd Vurğun küçəsi.

**Qızıl və gümüş sənətkarlarının...**

səh. 201. Balaxanski küçə: Bakıda, indiki Füzuli küçəsi.



*"Azərbaycan" qəzetinin 114-cü nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 14 fevral 1919-cu il, nömrə 114**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 13 cəmadiyələvvəl sənə 1337. 14 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 10-uncu iclas

### Üçüncü gün

**[Xudadad bəy] Məlikaslanov** (Türüq və Məabir naziri) - Möhtərəm məbuslar! Dün möhtərəm məbus Sanıyev nitqlərində xətti-hüdudda [sərhəddə] neft məsələsi ətrafında böyük fənalıqlar olduğunu qeyd etdilər. Bu şeylərin çoxu oktyabr aylarında həqiqətən olmuşdur. Sizə məlumdur ki, o zaman türklər gedərkən bu yolda çox şuluqluq olmuşdur. Böylə şeylər yalnız Azərbaycanda deyil, hər bir məmləkətdə öylə halda bulunduğu zaman olur. Öylə halda bəzi adamlar yolsuzluqdan istifadə edərək öz nəfləri [qazancları] üçün çox zərərlər yetirirlər. Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] bu işləri nəzərə alaraq onları təftiş və həman işlərə baxmaq üçün bir komisyon təyin etmişdir. Məzkur [deyilən] komisyonda hər Nəzarətdən bir nümayəndə var. Komisyon yolsuzluqları meydana çıxararaq bir neçə adamı qulluqdan qovmuş, məhkəməyə vermişdir. Bunların içində dəmiryol məmurlarından da var. Bundan sonra olan işlər bizə məlum deyildir. Hökumət lazım gələn tədbiri görmüşdür, gələcəkdə də görəcəkdir.

Neft barəsində hökumət tərəfindən bir neçə söz söyləmək istəyirəm. Məlumdur ki, bizim məmləkətimizi ehya edən [canlandıran] və hətta bir çox düşmən qazandıran bir sərvətimiz var: neft. İldə 500 milyon [put] neft hasil olur. Əvvəlləri bu miqdarın az bir hissəsi Batuma, yerdə qalanı Rusiyaya göndərilirdi. Batuma dəmiryolu ilə 1917-ci ildə 40 milyon, digər illər hər il 50-60 milyon put getmişdir. Şimdi Batuma o qədər neft göndərmək mümkün deyildir, çünki dəmiryolu ancaq 20 milyon [put] apara bilir, əlavə neftpravodu [neft kəməri] ilə də 50 milyon put sövq edilir. Qalan neft ya gərək burada qalsın, yainki Rusiyaya göndərilsin. Amma yol yoxluğundan Rusiyaya neft göndərmək mümkün deyildir. Bu surətlə nefti sata bilmiriz, burada da az işlənir.

Ona görə hökumət çalışır ki, bir növ ilə bu neftdən çox xeyir alsın. Bu xüsusda bir çox mülahizə var. Biri deyir ki, neft inhisar altına alınsın, fəqət, bu mümkün deyil, çünki bunu İngiltərə, Amerika və sair böyük və müntəzəm hökumətlər

güclə tətbiq edə bilirlər, biz isə yeni bir hökumət olduğumuzdan bunu tətbiq etməyi bacarmarıq. Bilxassə bunun üçün müntəzəm yeni idarələr, bir çox təşkilat və külli miqdarda məmur lazımdır.

Bir tərəfdən də bizə təklif edirlər ki, neft satışı sərbəst elan edilsin. Fəqət, bunun bir məhzuru [çəkiniləsi tərəfi] var ki, neft nerəyə aparılsa əvəzində kağız pul gətiriləcəkdir. Kağız pul isə xeyirsiz və heç şeyə lazım olmayan bir şeydir. Ona görə kağız puldan isə cövhərimizin məmləkətimizdə qalması faydalıdır. Almanlar burada olan zaman bizə ümid vermişdilər ki, Batumdan bizim neftimizi öz gəmilərində Ukrayna və sair məmləkətlərə daşıyacaqlardır. Paraxodlar da hazırlanmışdı. Fəqət çox çəkmədi övzayi-siyasiyyə [siyasi vəziyyət] dəyişdi, o ümidlər də pozuldu. Şimdi vəziyyəti-siyasiyyəyə görə bizim cövhərimizi aparacaq olan ingilis və fransız gəmiləri Dardaneldən o yanadır. Digər tərəfdən məlumunuzdur ki, bizim dəmiryolumuz xarab, nizamdan düşmüş, maşınlar yanmış, neftpravod pozulmuşdu. Şimdi çox çalışaraq bunları bir qədər islah edib Batuma neft çıxarmağa müvəffəq olduq. Eyni zamanda əcnəbi məmləkətlərə neft göndərmək qəsdi ilə hamıdan əvvəl Ukrayna ilə bir iş düzəltməyə çalışdıq, müvəffəq də olduq. Şimdi ingilislər bizə söz vermişlər ki, neftimizi daşımaq üçün paraxod versinlər. Fəqət, burada da işimiz fənalaşdı, çünki biz müqavilənamə bağlayan kimi Ukraynada hökumət dəyişdi, iğtişaş başlandı. Hər şəhərdə bir cərəyan, bir hökumət var, bilmirsən kimlə danışasan.

Hal-hazırda neftpravod gündə 75 min olmaq üzrə ayda iki milyon puta qədər neft çəkir. Bu günlərdə bir milyon 200 min puta qədər də artacaqdır. Deməli, Batuma ayda 3 milyon put neft göndəriləcəkdir.

Bu mülahizələrlədir ki, Ticarət və Sənaye Nəzarəti məzkur iki çarənin heç birinə təvəssül [müraciət] etməyərək orta yol ilə getmişdir. Çünki, dedim ki, inhisar mümkün deyil, tam sərbəstlik dəxi büsbütün mümkün olmur. Mədənçilər nefti sata bilmədiklərindən hökumət onlara, əmələyə [işçiyə] məvacib verə bilmək üçün külli miqdarda pul buraxır. Şimdi hökumət çalışmalıdır ki, çox neft satılsın, tainki verdiyi 30-40 milyon paranı geri ala bilsin, mənfəət də hasil etsin. Hökumətin zehni böylə dərin məsələlərlə məşğuldur. Türüq və Məabir Nəzarətinin politikası da bundadır. Bir tərəfdən neft lazımi qədər getmir, o biri tərəfdən sərbəst satış elan edilsə, çıxarılan neftin əvəzinə mal gəlmir. Ona görədir ki, bu işləri nizama salmaq üçün iki həftə bundan əvvəl bir komisyon təşkil edilmişdir ki, neft işlərinə baxıb ingilis və sairlərlə müzakirata girişsin, sonra hökumətə neft alış-verişi haqqında bir layihə təqdim etsin. Hökumətin ixtiyarı olsa, o vaxt layihəni özü qəbul edər, olmazsa, Parlamana təqdim olunar, bu bir. Digər tərəfdən işlər ona görə ləngə düşürdü ki, bizimlə Batum arasında başqa bir dövlət vardır. Neftin Batuma ucuz çıxmasına bu iş mane olur. Neft məsələsinə məhəlli deyil, cahan nöqteyi-nəzərindən baxmaq lazımdır. Çünki Azərbaycandan başqa, Amerika, İngiltərə və Rumıniyada 3 milyard tondan ziyadə neft hasil olur. Buna görə, neft bazarında bir rəqabət, bir mübarizə başlanacaqdır. Hər kəs çalışır ki, nefti ucuz çıxsın.





Çalışmalıdır ki, mübarizə meydanında Amerika nefti Bakı neftinə qalib gələ bilməsin. Məsələn, Marselə Amerika nefti də gəlir, Bakı nefti də. Bunlardan hangi ucuz olsa, əlbəttə onu alacaqlar. Təbii, Bakı nefti Marselə gedincə neçə məmləkət keçdiyindən ayrı-ayrı gömrüklər verərək Amerika neftindən baha çıxır. Ona görə ilk əvvəl bu barədə Gürcüstanla müqavilənaməmiz olmalı idi. Uzun müzakirat nəticəsində nəhayət, şimdi bir tranzit müqavilənaməsi bağlamışıq ki, Gürcüstan bizim neftimizdən vergi almayacaqdır, biz də onlara nefti ucuz buraxacağız. Bu həm bizim üçün xeyirli, həm Gürcüstana faydalıdır. Bu barədə yaxın zamanda bir layihə təqdim ediləcəkdir.

Məlumdur ki, iş müəyyən bir adam, ya bir heyət əlində olmayanda müşkülləşir. Bilxassə əhvalımız öylədir ki, adi bir məsələni başa gətirmək üçün bir neçə qeyri idarələrə müraciət etmək lazım gəlir. Bu səbəblərdən bir günə qurtarmalı iş üç həftə çəkir. Hal-hazırda neft işlərində hökumət məzkur məsələyə baxmaq [üçün] komisyonun işini gözləyir. Bu günlərdə komisyon öz rəyini hökumətə bildirəcəkdir. Komisyonun layihəsinə mütəxəssislər iştirakı ilə baxılacaq, hökumət ya özü təsdiq edəcək yaxud təsdiq edilmək üçün Parlamana təqdim edəcəkdir. Bundan sonra böyük miqyasda neft ticarəti başlanacaqdır.

**Ağamalıoğlu** ("Hümmət") - Əvvəlki natiqlərə cavab verərək deyir ki:

Mən türk fəhlə və əkinçisinə zidd və bərəks [əksinə, əleyhinə] getmirəm, amma türklərin hökumətinə gərəkdir zidd olam. Harada istibdad varsa, biz ona ziddik. Mən dedim ki, o istibdaddan Gəncədə bir qədər də bizim hökumətimizə verildi... *(Sədr natiqi mətləbə dair danışmağa dəvət edir.)* Bəli, bu axır zamanlarda ehtikar [möhtəkirlik] başlanıb, Azərbaycanın nefti, bezi və buğdası cürbəcür yerlərə getdi, dün heç bir şeyi olmayanlar bu gün milyona malikdirlər. Bəziləri mənim dediyimi böylə başa düşdülər ki, guya biz hökuməti dəyişmək istəyiriz, əlbəttə indiki halda əgər mümkün olsaydı biz bir an dayanmazdıq. Amma şimdi iş buradadır ki, nə tövr edək bir az iş görülsün. Məlumdur ki, sorğu hökumət üçün bir dəyənək kimidir; hökuməti dəyişmək deyil, işi düzəltməkdir. İşlərimizin nə qədər müşkül olduğu məlumunuzdur. Kabinə təşkil edilərkən nazirlərin bəziləri yalvarırdılar ki, canım əl çəkin, rədd olun. Biz onları güclə vadar etdik, şimdi isə çalışmalıyız ki, yıxılmasın.

Yollar naziri dedi ki, milyonlar hesabı və əsnasında 3-4 qazan neft bir şey deyildir. Bir də sözündən bu çıxdı ki, Nəzarət orta yol ilə gedirmiş. Elə bu orta yoldur ki, xalqı dəli eyləmişdir! Sudya, müəllim, çəkməçi – hamı işini buraxıb həman orta yola düşdü, ehtikara başladı. *(Sağdan, soldan alqış.)* Bunun qabağını almaq üçün dünkü nitqimdə bir təklif etdim, həman təklifi təzədən deyirəm: gərək elə edək ki, hökumət tərpənsin. Bunun üçün şahmar lazımdır ki, bu da Ali Tribunaldan ibarətdir.

**Qarabəyov** (İttihad) - Əsas məsələyə keçmədən əvvəl türklükdən bir neçə söz söyləyəyim:

Əvvəla onu ixtar etməliyəm ki, türklük namı [adı] bizim üçün müqəddəs bir namdır, həməvəqt [heç vaxt] o nam tənqid yolu ilə çəkiləmməz. Türklər buraya

hökuməti idarə etməyə deyil, əsgər sifəti ilə gəldilər, canlarını verdilər, qanlar tökdülər, bizə səadət və istiqlal yolu açdılar. Onların böyük xidməti qarşısında ruzi-məhşərədək mədyunuz [məhşər gününə qədər borcluyuq]. Yalnız malımız, canımız deyil, hətta hüququmuzu da onlara fəda etsək, çox deyildir. Nəinki uğrumuzda canını fəda etmiş əsgərlər, hətta paşaların da siyasəti hamı üçün pis olsa da, bizim üçün yaxşılıqdan başqa bir şey etməmişlərdir. *(Alqış)* Bir çox adamlar özləri iştirak etmiş olduqlarını qorxudan gizləyərək deyirlər ki, türkləri buraya "Müsavat" gətirmişdir. Yalnız "Müsavat" tərəfindən Rəsulzadə cəsuranə bir surətdə dedi ki, bəli biz gətirmişik və buna fəxr ediriz. Həqiqətən haqları da var, zira millət yolunda böyük xidmətdir və millət qarşısında ehtirama layiqdirlər. Fəqət, məncə türkləri buraya gətirən "Müsavat" və sair bir firqə deyil, türk ruhu, islam ruhu, türk qanıdır. Mən şahidəm ki, bu gəlmək 11 il əvvəl qət edilib. İstanbulda həman Xəlillər, Nurilər, Vəhiblər birinci imkan bulduqda Qafqaziya islamlarını xilasa yüyürməyə "Qurani-şərif" hüzurunda yəmin etmişdilər. Əhməd bəy də buna şahiddir. Şimdi onların adları məmləkətdə müşahidə olunan üsulsuzluq münasibətilə çəkilir, fəqət biz təsdiq edəriz ki, bu fənalıqlara onlar bais olmamışlardır. Keçəlim mətləbə.

"İttihad" fraksiyonu tərəfindən verilmiş sorğu haqqında fikrimizi söylədik, fəqət, müzakirə əsnasında müxtəlif söhbətlər çıxdı. Hökuməti müdafiəyə qalxışan Məhəmməd Əmin həzrətləri kinayə ilə buyurdular ki, biz hökuməti dağıtmaq istəyiriz. Bu, doğru deyil. Hökumətin lehinə və əleyhinə olanları aşkar etmək üçün uzun danışıq istər.

Sorğu məsələsinə gəlincə, iki cəhətə fikir verməlidir. Biri fəlsəfə cəhətidir ki, müharibə nəticəsində anarşi olub, aləm dağılıb, sərvət gedibdir. Bu doğru. Bunu təshih üçün bizim nazirlər deyil, daha təcrübəli adamlar, hətta bütün millət çalışsa yenə çətin düzələr. Bir də Məhəmməd Əmin həzrətləri buyurdular ki, köhnə hökumətin günah və nöqsanını təzə hökumətə istinad vermək olmaz. Mən deyə bilərdim ki, təzə də köhnənin mabə'didir [davamıdır]. Amma bunu da demiriz. Fəqət, sorğu verməkdə bizim qəsdimiz hökuməti yıxmaq deyil, başqa bir məsələdir: hökumətin uçuruma doğru getdiyini görərək sual etdik. Əgər hökumət desəydi ki, filan tədbiri görmüşük, biz dəxi qənaət hasil edərdik, fəqət biz bunu görmədik. Şimdi bu Parlamandan sonki [sonrakı] hökumət barəsində bir qədər danışmaq istəyiriz. Bu söylədiklərimiz bir həqiqətdir ki, arzu edilsə sübut gətirəriz. Türklər gedəndən sonra müşkülat çıxmışdır, bunu etiraf edəriz, lakin gedərkən əsgər naminə toplanan ərzağı tulladı, demək doğru deyildir. Hər yerdə azuqə və sairələrini məmurlarımıza təslim etmişlərdir. Əhali də ərzaq şeylərini dağıtmamışdır. Alan da, toplayan da, satan da, dağıdan da məmurlarımız olmuşdur. Əcəba bundan hasil olan məbləğin 15 %-i hökumətə vüsul olmuşmu, hökumət bir təşəbbüsdə bulunaraq malın nerədə olduğunu sordumu? Xayır! Xainlər axtarılıb, müqəssirlər tapıldımı? Əski hökumət zamanında qamçı ilə camaatı sıxanlar, ehtikarla məşğul olanlar, yeni hökumət dövründə də öz işlərinə davam edirlər.





Xainlərə qarşı yeni hökumət bir tədbir gördümü, bir məmuru əzl etdimi? Eybi örtmək üçün deyirlər müsəlman arasında düz adam yoxdur. Bu yalandır, doğru isə məmləkətin dirilməsinə ümid qalmaz. Amma ümidimiz var, düz adam çoxdur, hətta birinin yerinə 5 adam da tapılar. Quba, Qazax və Gəncəni götürünüz, sabiq məmurlar yenə həman hərəkətlərində baqidirlər [davam etməkdədirlər]. Camaat arasında fitnə-fəsad davam edir. Bunu sübut edəcək dəlillərimiz var. Keçəlim siyasi məsələlərə:

Bu barədə dəxi bir çox tədbirlər görməli idi, görülməmişdir. Qonşularımızla hüsn-əlaqə peyda edilməmişdir. Daxili siyasətə gəlincə, hökumət daxili işlərdə gərək əhaliyə istinad etsin. Millət gərək hökumətə etimad və etibar etsin. Böylə olmasa hökumət etmək olmaz. Vəz [vəziyyət] və əhvalı camaata anlatmaq lazımdır. Hökumət adamları məmləkət daxilinə camaat içinə gedib vəziyyətimizi xalqa anladarsa, əhali nə halda olduğumuzu başa düşər. Hal-hazırda əsgər cəm edilir. Hökumət camaata qandırmalıdır ki, qoşunu nə üçün yığır, onda əhali xoşhallıq ilə gələr. Bu həman camaat deyilmi ki, eşalonların qabağını kəsib 30 minlərlə saldatın silahını alırdı, Bakı üzərinə müntəzəm qoşun kimi hücum edirdi, Qubanın üstünə 8000 birdən yürüyürdü? Camaatımız əsgərlikdən qaçan deyil, ancaq onlara yaxşı idarə və nizam lazımdır. Bu nizamsızlıq nəticəsidir ki, əhali nifrət edir.

Daxildə əhval necədir?

Quba mahalında bir cərəyan var ki, Quba qəzası Dağıstana qoşulsun. Zaqatalada Gürcüstana qoşulmaq barəsində bəzi danışıqlar var. Qarabağda əski fənalıqlar davam edir. Sabiq hökumət buraya pul və adam göndərməyi qərarlaşdırmışdı, amma göndərilməmişdir. Neft, bez və sairə barəsində burada çox danışıldı. Hökumət də cavabında sui-istemallar [sui-istifadələr] olduğunu etiraf etdi. Ticarət və Sənaye Nəzarəti Sovet Syezdə təklif etmişdir ki, neftin bir əldən satılması üçün bir büro təşkil edilsin və satılan neftlərin həpsi büro vasitəsilə ixrac edilsin. İlk nəzərdə zahirən bu bir gözəl təşəbbüs kimi görünür, həqiqətdə isə məzkur büro adi bir sendika olub bir neçə böyük mədənçilərin nefti büro vasitəsilə satılır, xırda neftçilərinki qəbul edilməyir. Böyük mədənçilərin biri də bizim ticarət nazirimizdir. Büro təşkilindən bəri neftin putu 10 manat 80 qəpik olmuşdur. Ondan əvvəl 5 manat idi. Deməli, bu 5 manat camaatın belinə gəlir və bundan hasil olan 4 milyon (ayda) bir neçə firmanın cibinə gedir. Maşın yağının putu 15 manatdan qaldırılmışdır 33 manata. Bu da camaatdan çıxır. Hökumətin ticarət işlərindən xəbəri yoxsa, bu işə nə üçün müdaxilə edir? Ticarət işlərini bilirsə, bunun adını nə qoyur? Mən deyirəm bu işdə bacarıqsızlıqdan başqa sui-istemal dəxi görünür.

Sair məsələlərə keçdikdə, deməliyəm ki, dövlətlilər əsgər getmirlər, rüşvət verib xilas olurlar. Kasıblar, sahibsizlər əsgər alınırlar. Bunlar da üsrətdə [çətinlik içində] yaşadıqlarından naxoşlayıb, qırılırlar. Doğrudur, heç bir hökumət yoxdur ki, məmurlarının bəziləri rüşvət almasın, amma bizim sözümüz siyasətin əsasını qoyanlar və sui-istemallara yer verənlərlədir. Böylə bir müşkül halda bu fəaliyyətsizliyin önü alınmazsa, əhval daha da fənalaşar. Bu fənalıqların önü son dərəcə

fəaliyyətlə alınmalıdır. Biz öz istiqbalımızı [gələcəyimizi] bu cür işləyənlərə verə bilmərik. Müqəddəratımız mətin və əzmkar əllərdə olmalıdır. Bu barədə bizə təminat versələr çox gözəl, verə bilməsələr desinlər özümüz tədbir görək. Bizim bu fikrimiz hökuməti yıxmağa bir suiqəsd kimi təbir edilərsə [yozularsa], cavab verəriz ki, qənaət hasil edənədək fikrimizi yeridəcəyiz. Onun üçün açıq deyiriz: qərarımızda baqi qalır və bu hökumətə bel bağlamayırız, ona inanmayırız. Əgər hökumət təminat versə ki, siyasət dəyişəcək, cinayətdə, sui-istemalda tutulan xidmətdən qovulacaq, məhkəməyə veriləcək, malı əlindən alınacaq, mühüm xəyanətdə tutulanlar hətta edam ediləcəklərdir, o halda biz hökumətə bel bağlarıq. Əks surətdə biz istiqbalımızı onlara tapşıra bilmərik və etimadımızı ona verməriz.

*(Yenə var)*

## SÜLH ƏTRAFINDA

**Cəmiyyəti-Əqvam**

Amerika Cəmahiri-Müttəfiqəsi [Amerika Birləşmiş Ştatları] məsai [əmək] haqqında beynəlmiləl qanun komisyonu nümayəndəsi, bütün cahan azad millətləri cəmiyyətinin sülh əhdnaməsinə [sazişinə] daxil edilmək üçün zeyldəki [aşağıdakı] təklifi etmişdir:

Hər bir millət Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil ola bilər. İntiqam və xəsarət vermək hissi ilə heç bir təcavüz olmamalıdır. Xırda millətlərin hüququ, onların təyini-müqəddərat haqqı qəbul edilməli, heç ərazi dəyişməməli, ümumi sülh saxlanmalı, bir əsas qəbul edilməlidir ki, insanın zəhməti alış-veriş malı deyildir. Vəkillər məhkəməsi, ictima [toplaşma], ittifaq [təşkilatlanma], kəlam və mətbuat hürriyyəti yerli əhalilərə də şamil olmalı, iş günü 8 saatdan artıq olmamalı, muzd şəraiti-həyat və mədəniyyətə [həyat və məişət şərtlərinə] müvafiq, arvadların muzdu kişilərlə bərabər olmalıdır.

Komisyon məruzələrə baxmış, ümdə məsələlər haqqında cümə günü etilaf [saziş] hasil olmuşdur. Bəzi məsələlər baş komitəyə veriləcəklərdir.

## TELEQRAF XƏBƏRLƏRİ

Gürcüstan Hərbiyyə naziri fevralın 7-sində Yekaterinodarda Könüllü qoşun ərkani-hərbinə [qərargahına] və Müttəfiqlər komandanlığına zeyldəki [aşağıdakı] teleqrafları göndərmişdir:

Fevralın 8-ində Könüllü qoşun dəstələri qəflətən Soçidə bizim qoşunlara hücum etmişlərdir. General Bornoviç bizim qitəata [hərbi hissələrə] silahlarını təslim etmək xüsusunda ultimatum vermişdir. Könüllü qoşunların bu hərəkəti Gürcüstana qarşı xainanə bir hərəkətdir. Bu axır vaxtlarda Soçi okruqu [dairəsi] ingilis komandanlığının mərifəti ilə [sayəsində] tərəfimizdən işğal edilmişdi. Fevralın 3-ündə Gürcüstan Hökuməti İstanbuldan ingilis komandanlığından məlumat almışdı ki, general Denikin tərəfindən Gürcüstan Cümhuriyyəti əleyhinə ədavətkaranə bir hərəkət olmayacaqdır.

Tələb ediriz ki, bizim qoşunlar müsəlləh [silahlı] surətdə Soçi okruqundan buraxılsınlar. Əks surətdə bütün məsuliyyət Könüllü ordusu öhdəsinə düşəcəkdir.

Gürcüstan Hökuməti, Gürcüstan Cümhuriyyətində olan Könüllü nəfəratı [əsgərləri] və bu dəstəyə mülhəq olan [qoşulan] şəxslər əleyhinə qayət şiddətli və amansız tədbirlər ittixaz edəcəkdir [tədbirlər görəcəkdir] və Gürcüstan əldə silah olaraq öz hüququnu müdafiə edəcəkdir.

Gürcüstan Hərbiyyə naziri məlumat verir ki, ingilis generalı sərhəddə olan Gürcüstan generalı Mazniyevə təklif eyləmişdir ki, Axıskada üsyançılar əleyhinə olan hərəkati-hərbiyyə tərk edilsin və qoşunlarını geri çəksin. Bu şərtlə ki, ingilis qoşunları həman sərhəd məntəqəsini tutsunlar və orada olan əhali isə öz aralarında komissar intixab [seçsinlər] və öz milislərini təyin etsinlər. Düstürüləməl [nizamnamə, təlimatnamə] məsələsi isə Gürcüstan Cümhuriyyəti Qanuni-əsasisinə məbni [konstitusiyasına əsasən] Şurayi-Vükəlada [Nazirlər Kabinetində] müzakirə edilməlidir. Bunu əhaliyə və ingilislərə bildiriniz. Hərəkati-hərbiyyə qəza sakit olandan sonra qurtaracaqdır. Sərhəd xəttini gürcü və ingilis qoşunu tutmalıdır. Silah komissarlara təslim edilməlidir.

Gürcüstan Xariciyyə naziri İngiltərə heyəti naçalnikinə [rəisinə] bu məzmunda bir nota göndərmişdir:

Sizə məlumdur ki Gürcüstan Hökuməti dəfələrlə Soçi nahiyəsinin mübahisəli bir yer olduğuna görə İngiltərə dəstələri daxil edilməklə bitərəf bir məntəqə halına salınmaq şərti ilə təxliyə etmək arzusunda olmuşdur. Gürcüstan Hökumətinin rəyincə, ancaq məsələnin bu tövr həlli ilə Gürcüstanla Könüllü ordu dəstələrinin toqquşması imkanını bərtərəf etmək [aradan qaldırmaq] olardı. Könüllü ordunun əhdşikənanə [xaincə] bir surətdə hücumu və Gürcüstan Hökuməti əleyhinə açdığı hərəkati-hərbiyyə bu rəyin əsaslı olduğunu təsdiq edir. Gürcüstan Hökuməti özünü Könüllü ordu hücumundan mühafizə etməkdən ötrü Gürcüstan sərhədinin Könüllü ordu əsgərləri tərəfindən işğal edilməsinə razı ola bilməz. Buna görə Gürcüstan Hökuməti Soçi nahiyəsinin Könüllü ordudan təmizlənməsini və bu mübahisəli məntəqə məsələsinin Ümumi Sülh Konfransında həllinə qədər həman yerə İngiltərə əsgərləri daxil edilməsilə bitərəf bir məntəqə halına salınmasını təklif edir. Fəqət buna qədər Könüllü ordu əsgərlərinin irəli hərəkət etməsini dayandırmaqdan ötrü tezliklə tədbirlər ittixaz edilməsi [tədbirlər görülməsi] lazımdır. Bizim tərəfimizdən göstərilən bu üsul, asayiş bərpa edilməsi ilə gələcəkdə toqquşma təkrarını bərtərəf etmək məqsədi ilə olduğuna görə İngiltərə komandanlığı tərəfindən hüsn-təvəccöhlə qəbul olunmalıdır.

*Xariciyyə naziri Gegeçkori*

## QƏZETƏLƏRDƏN

**Rusiyada**

Kiyev təriqi [yolu] ilə Moskvadan xəbər verirlər ki “P. Q.” qəzetəsində yazılan məqalədə deyilir ki, Kreml Hökuməti (Bolşevik Hökuməti) iki hissəyə ayrılmışdır. Bunların birinin başında Lenin, digərində isə Trotski dayanmışdır. Lenin Ukrayna Hökuməti ilə ittifaqa girmək və Müttəfiqlər əleyhinə ümumi qüvvə vücuda gətirmək

tərəfdarıdır. Trotski isə bütün Mərkəzi Rusiyanı müharibə meydanına döndürmək və Müttəfiqlər gələnə qədər Ukraynanı fəth etmək fikrindədir.

**Qardaşlaşma**

Bolşevik qəzetələri yazırlar ki, Arxangelsk cəbhəsində bolşevik əsgərləri ilə əcnəbi məmləkət əsgərləri arasında qardaşlaşma (brataniye) başlanmışdır.

**Rusiya əsirləri**

Almaniyadan övdət etməkdə [qayıtmaqda] olan rus hərbi əsirləri bilatərğib və təşviq [təbliğat və təşviqat olmadan] bolşevik ruhu ilə ruhlanıb bolşevik olmaqdadırlar.

**Vladiqafqazda müharibə**

Vladiqafqazdan gəlmiş fərarilərin [qaçqınların] rəvayətinə görə, inquşlarla Könüllü qoşunlar arasında şiddətli müharibə gedir. Fərarilər şəhərdən kənar olduqda top səsi şəhərin kənarına gəlirmiş. Yenə həman fərarilərin rəvayətlərinə nəzərən, şəhərin bazar hissəsinə Könüllülər od vurub yandırmışlardır.

**Soçinin işğalı**

Tiflisdən alınan məlumata nəzərən, Soçi şəhəri qəti surətdə Könüllü qoşunlar tərəfindən işğal edilmişdir. Şəhərin cənubi dəstələr tərəfindən işğal edildiyi zənn olunur.

**Tersk oblastında**

Müttəfiqlər komandanlığından alınan son məlumata nəzərən, Tersk oblastında əhval böylədir: Vladiqafqazda Terek nəhrinin sol kənarı Könüllü qoşunlar tərəfindən işğal edilmişdir. Şəhərin mərkəzi isə inquşların əlindədir. Hələlik onlar kazaklarla könüllüləri oraya buraxmayırlar. Bolşeviklər məğlub və pərişan olaraq İnquşistana, Bazorkinə və Narzana qaçırlar. Könüllü ordu və kazaklarla inquşlar arasında ixtilaf əmələ gəlmişdir. Fəqət hər iki tərəf güzəştə maildir [meyillidir]. Kazaklarla inquşlardan mütəşəkkil [təşkil olunmuş] müştərək hökumət barəsində bunların arasında saziş əmələ gəlir. Birbirlərinə ədavət bəsləyən tərəflər, Müttəfiqlərin vəsatətini [vasitəçiliyini] tələb edirlər.

**Almaniyanın imtinası**

Bremen və Hamburq şuraları Almaniya flotunu [donanmasını] Müttəfiqlərə təslimdən imtina etmiş və flotu partlatmaqla təhdiddə bulunmuşlardır.

**İngiltərədə tətil**

İngiltərədə vaqon inşa edən Qlazqo zavodunda 10 min əmələ [fəhlə] tətil etmişdir. Gündən-günə tətil edən əmələlərin miqdarı artır.

## MİLLİLƏŞMƏK ƏLAMƏTLƏRİNDƏN BİRİ

### II

Açıla biləcək müəllimlər kurslarına buraxılmış 30 min rublənin təqsimatı [bölünməsi] barəsində Məkatib [Məktəblər] [şöbəsi] müdiri Əlicabbar Orucəlizadə cənabından qəzetə vasitəsilə izahat istəmişdik. Cavab gəlmədi.

Əlicabbar əfəndi müəllimlik işlərində





mahir, zamanə tələbatını qarşılayan yeni ziyalılarımızın birincilərindən olduğu cəhətə güman etməyirəm ki, o cənab milliyyətə və cəmiyyətə mənsub bir sualın cavabını laubali və etinasızca buraxıb dursun. Bəlkə müsəlman qəzetələrindən müdir əfəndinin xəbəri yoxdur. Böylə bir xəyal və zənndə bulunarsaq, bu bir əfv olunmayacaq səhv və xətadır ki, bir çox ziyalılarımızın bu bəlaya mübtəla olmasını məəttəəssüf [təəssüflə] müşahidə ediriz. İstəyirəm bir az da cürətli olub bu barədə deyəm ki, rusca bilən ziyalılarımız türk qəzetələrinə biganə qalaraq ancaq rus qəzetələri ilə kifayətlənirlər. Halbuki "Azərbaycan" qəzetəsinin ruscası məmləkətimizin müxtəlif əqvamını [millətlərini] dövlətin ənvai binagüzarlığı [müxtəlif sərəncamları] ilə aşina qılmaq vəsiləsi olduğu halda, həman qəzetənin türkcəsi bir çox milli və siyasi məsələlərin həllinə çalışır. Heyfa ki, hər iki qəzetəyə bir ad qoyulmuşdur. Bu fəqərə bir çoxunu aldadır, iğfal edir [yanıldır]. Zənnimcə, qlasnılarımız da aldanıb "Azərbaycan"ın ruscasına kifayət etmişlərdir. Odur ki, 30 min rublənin təxsisatı barəsində müsəlman qlasnıları Duma iclasında bir sözlə də olsa yerlərindən qımıldamayıb müzakirəsiz və başdan salma bir səslə pulun iki yerə bölüşməsinə razı qalırlar.

Pulun iki millət arasında nə cəhətə təqsimatı barəsində Məkatib müdiri Orucəlizadə cənabından mətlub [tələb olunan] cavabı almadım, lakin onun bu barədə türk və erməni müəllim və müəllimələrinə yazdığı bir hökmü bu günlərdə "Azərbaycan"ın ruscasında oxudum. (Görəsən bu hökm türkcə yazılmışdır, yaxud rusca? Zənnimcə, rusca yazıldığı cəhətə rus qəzetində çap olunmuşdur.)

Müdir əfəndi müəllimlərə göndərdiyi xitabında böylə yazır:

*"Çünki milliləşmiş məktəblərin müəllimlərindən bəziləri ana dilinə kifayət edici qədər malik deyillər. Binaənileyh [ona görə], bununla türk və erməni müəllim və müəllimə əfəndilərdən rica edirəm Ana dili və ədəbiyyatın geniş və dərinləşməyinə artıq diqqət etsinlər. Çünki məktəblərin kamilən milliləşməsi cəhətinə lazımdır ki, müəllimlərin də məlumatı həman məktəblərin tələbatına müqabil ola bilsin. İlin axırında bu dairədə imtahan verə bilməyən müəllimlər işdən kənar olacaqlardır. Xüsusən, yeni dəvət olunmuş müəllimlərin bu məsələyə diqqətlərini cəlb edirəm. Bələdiyyə İdarəsi müəllimlərin bu ehtiyacını qarşılayaraq nöqsanlarını rəf etmək [aradan qaldırmaq] üçün xüsusi ehtiyat [hazırlıq] kursları açacaqdır. Bu kurslarda müəllim əfəndilərin davamını qəviyyən [şiddətlə] məsləhət görürəm."*

İştə müdir əfəndinin müəllimlərə göndərdiyi bu hökmündən böylə məlum olur ki, biri türk müəllimlərinə və biri də erməni müəllimlərinə olmaq şərtilə iki ehtiyat kursu açılacaqdır. Böylə olan surətdə otuz min rublənin də iki yerə təqsimi icab edir. Nə üçün böylə? Məgər kursun vəzifəsi ibtidai məktəblərə müəllim hazırlamaqdır? Böylə olarsa bu iki millətdən başqa Bakıdakı cuhud və rus məktəblərinin qisməti hanı? Məsələnin ibtidai məktəblərə təəllüqü [əlaqəsi] olsaydı, yəqin ki, sair millətlər də təsəvvürdə bulunardılar. Bundan əlavə, ibtidai məktəblərdə öylə çətin bir elm, öylə düşvar [çətin, qarışıq] bir fənn yoxdur ki, bunun türkcə təlimini müəllimlərimiz

bacarmasınlar. Zira ibtidai məktəblərin milliləşmək fəqərəsi [hadisəsi] çoxdan başlandığı cəhətə, zatən müəllimlərimiz də bu dairədə çoxdan işləyib hazırlanmışlardır. Daha bunlardan ötrü xüsusi kursun lüzumu heç yoxdur. Bəs bundan məlum olur ki, açılacaq ehtiyat kursu milliləşə biləcək vəsət [orta] məktəblərin ehtiyacı rəf'i [ehtiyacının aradan qaldırılması] üçün təsis ediləcəkdir. Böylə olarsa, yenə məsarifin yarılanmasına ehtiyac yoxdur. Zira məmləkətimizin, yəni Azərbaycanın məktəbləri milliləşsin deyə şüar və qəbul etdik. Yəni məmləkətdə yaşayan millətlərin əksəriyyətini təşkil edən Azəri türklərinin dili, məktəblərin rəsmi təlim lisanı gərək olsun.

Vətənin sair əqvamına gəldikdə, öz dillərinin ayrıca təlimi ilə bərabər proqramın tamam ülum və fününu[nu] rəsmi lisan vasitəsilə öyrənməyə məcburdurlar. Məktəblərimiz milliləşərsə, Azərbaycanın erməniləri, cuhudları və rusları həman məktəblərdə azərilərlə bərabər tamam ülumu türk lisanında təhsil etməlidirlər. Hökumət ixtiyarında bulunan məktəblərin qanunu budur. Lakin hər kəs öz dilində və öz milləti məsarifi ilə qeyri-rəsmi məktəb açmağa haqlıdır. Buna hökumət mane olammaz. Bu nöqteyi-nəzərlə Azərbaycanın ibtidailəri, gimnaziyaları və akademiyaları belə türk lisanı ilə əsaslanacaqlardır. Məmurlar məhafil və məcalisi [dairə və məclisləri] bu dilə möhtac qalacaqlardır. Bunu biz ixtira etmədik. Tamam Avropa bu üsula tabedir. İngilis milli məktəbinin təlimi yalnız ingiliscə olduğu cəhətə Misir ərəbləri və hinduları da həman hökumət məktəbinin hökumət lisanında ancaq təhsil etməyə məcburdurlar. (Özlərinə məxsus məktəbləri də vardır.)

İştə, Azərbaycan məktəbləri milliləşsin, bu ondan ibarət deyil ki, hökumət məktəblərini müxtəlif millətlər arasında paylayıb rusca, erməncə, cuhudca, gürcücə mütəəddid [bir çox] gimnaziya və akademiya yaratsınlar. Böylə olarsa, Babil qalasını tikmiş əqvami-müxtəlifənin [müxtəlif millətlərin] başına gəlmiş macəra sabahkı gün Azərbaycanın başına gələcəkdir. Gürcülər məktəblərini milliləşdirdilər, yəni gürcüləşdirdilər. Ararat güruhu məktəblərini milliləşdirdilər, yəni erməniləşdirdilər. Növbət bizə gəldikdə bizim də təklifimiz Azərbaycan məktəblərini **türkləşdirməkdir**. Özümüzdən yeni bir şey icad etməyirik ki, sairlərin müqabilində xəcalət çəkək!

Böylə olan surətdə şəhər idarəsinin buraxa biləcək 30 min rublənin türk və erməni arasında paylanmasına heç bir ehtiyac yoxdur. Bu pulun hamısı milliləşə biləcək məktəblərimizin ehtiyacı rəfinə çalışacaq ehtiyat kursu üçün gərək sərf olusun. Hələ bu da kifayət edəmməyəcəkdir. Müdir əfəndiyə öz tərəfimizdən bunu tövsiyə ediriz ki, rus əyyamındakı qlasnılarımız kimi milli məsələlərin həllində özgələrə: "xala xatirin qalmasın" məsləyi ilə məsləklənməsin [yolunu tutmasın], işlərində ciddi və cəsur olsun. Onun sandalyəsində oturmuş məşhur Ohanesyanı unutmasın.

Hələ zamanə Ohanesyan zamanı deyil. Bugünkü milli məsələlərin həll və rəvacında əğyara [qeyrilərə] "qonşu payı" veriləmməz. Gürcü və erməni məkatib rəislərindən ibrət almalıyız!

*Fərhad Ağazadə*





## AZƏRBAYCAN-GÜRCÜSTAN MÜQAVİLƏNAMƏSİ

Bakı, 26 dekabr sənə 1918.

Bir tərəfdən Azərbaycan Hökuməti-Cümhuriyyəsi namına [adına] Ticarət və Sənaye naziri Behbud xan Cavanşir və digər tərəfdən Gürcüstan Hökuməti-Cümhuriyyəsinin Azərbaycan Hökuməti nəzdindəki vəkili-siyasisi İotamoviç Kartsivadze zeyldəki [aşağıdakı] maddələri havi [ehtiva edən] işbu müqavilənaməni əqd və imza etdilər:

1) Azərbaycan dəmiryolları vasitəsilə Azərbaycan xaricindən Gürcüstana və yaxud Gürcüstandan Azərbaycanın xaricinə və hakəza [habelə] Gürcüstan dəmiryolları vasitəsilə Gürcüstan xaricindən Azərbaycana və yaxud Azərbaycandan Gürcüstan xaricinə göndəriləcək yüklər (həmulə [yük; gəmi yükü]) sərbəst tranzitə, yəni hər dürlü rüsum və təkaliffdən [şərtlərdən] azadə tranzitə tabe olacaqlar.

2) Azərbaycan Hökuməti əhali üçün neft və mazut və Gürcü dəmiryollarının ehtiyacatı üçünsə cövhər [kerosin], makina yağı göndərilməsinə rüxsət verir. Göndərilməsi lazım olan neft, mazut, cövhər və yağların miqdarı hər iki tərəfdən müsavi [bərabər] miqdarda təyin ediləcək əzadan mütəşəkkil müxtəlit [üzvlərdən təşkil olunmuş qarışıq] bir komisyon tərəfindən təyin edilməlidir. Bundan əlavə, Azərbaycan Hökuməti Gürcüstan əhalisinin ehtiyacatına sərf olunmaq üzrə miqdarı bir milyon putdan artıq olmamaq üzrə neft göndərilməsinə müsaidə eylər. Həmin müqavilənamə mövcibincə [əsasında] göndəriləcək neftlə neft məhsulatının miqdarı, müqavilənamə müddəti tamam oluncaya qədər 20 milyon putdan artıq olmamalıdır.

3) 2-ci maddə mövcibincə komisyonun qərarı ilə gürcü dəmiryollarının ehtiyacatı üçün sərf olunmaq üzrə göndəriləcək neft və neft məhsulatı hər türlü rüsum və vergi və təkalifdən azad ediləcək və miqdarı dəxi 10 milyon putdan ziyadə olmayacaqdır. Əhalinin ehtiyacatı üçün göndəriləcək neft və mazut, gömrük rüsumundan azad olunarlarsa da, lakin halhazırda mövcud olan və ya gələcəkdə Azərbaycan daxilində sərf və istehlak olunan neft və neft məhsulatı üzərinə vəz olunacaq [qoyulacaq] vergi və təkalifin cümləsinə tabe tutulacaqlardır. Gürcüstan əhalisinin ehtiyacatı üçün göndəriləcək cövhərə gəlincə, xah [istər] həm halhazırda mövcud olan və həm də gələcəkdə vəz və tərhinə [qoyulmasına, tətbiq edilməsinə] lüzum görüləcək gömrük rüsumuna və hər dürlü vergi və təkalifə tabe bulunacaqdır.

4) Miqdarı 2-ci maddədə qeyd olunub da göndərilməsinə icazə verilmiş olan neft və neft məhsulatı müsavi [bərabər] partiyalarla sövq və ixrac olunmalıdır. Binaənileyh [ona görə], Gürcüstan Hökuməti Bakı şəhərindən alıb apardığı neft və neft məhsulatının 2-ci maddədə qeyd və zikr olunan miqdarına məhsub olaraq [hesab olunaraq, sayılaraq] dəmiryolları ilə və ya neftepravodla [neft kəmərləri ilə] sövq olunan miqdarın yarısından artığını olmamaq şərti ilə Azərbaycan Hökumətindən özü üçün tələb edə bilər. Həmin maddə üzərinə icra olunan müamilatın [əməliyyatların] hesabları[nı] işbu müqavilənaməni əqd etmiş olan tə-

rəfeyn [iki tərəf] dəmiryol idarələri hər 15 gündə bir qapatmalıdırlar.

5) Gürcüstan Hökuməti isə heç bir gunə [növ] vergi və rüsum olmadan Azərbaycan dəmiryollarının ehtiyacatı üçün lazım olan daşkömürün, taxta-şalman və sairənin Azərbaycan daxilinə keçirilməsini təəhhüd eylər [vəd edir]. Bunların miqdarına gəlincə, bu da həmin müqavilənamənin 2-ci maddəsində göstərildiyi kimi, müxtəlit komisyon tərəfindən təyin olunur.

6) Həmçinin Gürcüstan Hökuməti Azərbaycan Hökumətinin rüxsəti ilə gömrük və rüsumsuz olaraq Gürcüstandan Azərbaycana (taxıl, qənd və göndən savayı) müxtəlif cinsdən hər cür məta [əmtəə, ticarət malı] və məkulat [ərzaq] göndərilməsinə rüxsət verir və bunların qiyməti-məcmuəsi [ümumi qiyməti] isə həmin müqavilənamənin 2-ci maddəsi mövcibincə [əsasında] Gürcüstana göndəriləcək neft və neft məhsulatının qiyməti-məcmuəsinin onda birisindən artıq olmaz.

7) 6-cı maddə mövcibincə sövq və ixracı lazım gələn məta və məkulatın miqdarı 2-ci [maddədə] qeyd və zikr olunan müxtəlit komisyon tərəfindən təyin və təqərrür etməlidir [təyin edilməli və qərarlaşdırılmalıdır].

8) Gürcüstan Hökuməti işbu müqavilənamə ehkamına binaən [hökmlərinə əsasən] Azərbaycan Cümhuriyyətindən özü üçün aldığı neft və neft məhsulatının Gürcüstandan xaricə çıxarılmasına rüxsət verməməyə borclu olduğu kimi, Azərbaycan Cümhuriyyəti dəxi həmçinin həmin müqavilənamənin 6-ıncı və 7-nci maddələri mövcibincə Gürcüstandan Azərbaycana gətiriləcək mal və əmtəənin Azərbaycan Cümhuriyyətindən xaricə çıxarılmasına müsaidə etməyəcəyini təəhhüd eylər.

9) Qəzara [təsadüfən] rəf və izaləsi [ardan qaldırılması və önlənməsi] mümkün olmayan bir hadisə üz göstərəcək olarsa, hər iki tərəf bu kimi hadisənin müqavilə şərtlərinin icrasına mane olduğu dərəcədə onları, yəni həman şərtləri icra etməyə bilər.

10) Dəmiryolları, neftepravod vasitəsilə göndəriləcək mallar üzərinə vəz olunan tarifə ilə həmçinin Gürcüstandan Azərbaycana və Azərbaycandan Gürcüstana nəql və sövq olunan mallar üzərinə vəz olunacaq tarifələr hər iki tərəfin rəy və etilafı [uzlaşması, razılığı] ilə deyilsə, başqa bir surətlə təbdil və təğyir olunammazlar [dəyişdirilə bilməzlər].

11) 10-uncu maddədə zikr və tədad edilən [qeyd edilən və sayılan] yüklər və malların sövqü ilə hasil olan nəqliyyat parası məzkur [adı çəkilən] yük və malların hər iki məmləkət daxilində qət edəcəyi məsafənin (verst hesabı ilə) tuluna [uzunluğuna] mütənasib bir surətdə tərəfeyn arasında təqsim olunacaqdır [bölünəcəkdir].

12) Hərgah həmin müqavilənamədə zikr və qeyd olunan komissiyada bir ixtilaf zühur edəcək olarsa, onun həll və izaləsi üçün məsələ həkəm [arbitr] komissiyasına həvalə olunacaq və onun verəcəyi hökm və qərarı hər iki tərəf qəbula məcburdur.

13) Gürcüstan dəmiryollarına lazım olan neft və neft məhsulatı ilə Azərbaycan dəmiryollarına lazım olan taxta-şalman və sairənin sövq və nəqli, məzkur yolların ehtiyacatını təmin edəcək bir dərəcədə bulunmalı və bu da bilamane [manəəsiz] icra olunmalıdır.

14) Neftepravod vasitəsilə sövq olunan neft və cövhəri gürcü dəmiryolları Salehoğlu stansiyasında Azərbaycan dəmiryollarından xüsusi siyahı üzərinə təhvil alacaq və bədəhu [sonra] məzkur neft və cövhər Azərbaycan dəmiryollarının xahişinə binaən Batum və başqa digər bir cəhətə sövq və nəql olunacaqdır. Bu malların qəbulundan sonra, əgər onların miqdarında bir nöqsan görülər və ya axar zaye olarsa, bundan hasil olacaq məsuliyyəti Gürcüstan Hökuməti kəndi öhdəsinə götürmüş olacaqdır. Fəqət adi və ya mütəvəssit [ortabab] bir dərəcədə vaqe olan axıntı və sızıntının dərəcəsinə gəlincə, bu da surəti-xüsusiyyədə [xüsusi surətdə] təşkil ed[il]əcək bir komissiya tərəfindən təyin olunmalıdır.

15) Tərəfeyndən hər birisi neftepravod və ya dəmiryolları vasitəsilə nəql və sövq olunacaq neft və neft məhsulatını kəndi məmləkətləri daxilində ziya'dan [yox olmaqdan, itib-batmaqdan] mühafizə etməlidir. Adi axıntı bundan müstəsnadır.

16) İşbu müqavilənamənin 8-inci maddəsi ehkamının [hökmlərinin] layiqi vəchilə [layiqli surətdə] icra və tətbiqinə nəzarət eyləmək üzrə Azərbaycan Cümhuriyyəti ilə Gürcüstan Cümhuriyyətinin Tutanebi stansiyasında, Poti şəhərində, Bakı şəhərində və Yalama stansiyasında xüsusi məmurları bulunacaqdır.

17) İşbu müqavilənamə şəraitinin [şərtlərinin] xaricində olaraq xüsusi mütəşəbbislər tərəfindən Gürcüstana sövq və nəql olunacaq neft, benzin, yağ və bu misilli [bu kimi] neft məhsulatının yüzdə 25-dən ziyadəsini Gürcüstan Hökumətinin həcz [müsadirə] və zəbt etməyə ixtiyarı yoxdur.

18) Bu müqavilənamə tarixi-imzasından [imzalandığı tarixdən] bir sənəyə qədər mər'i [qüvvədə] və mötəbərdir.

19) İki nüsxə üzərinə yazılmış olan müqavilənamənin bir surəti Azərbaycan Hökuməti-Cümhuriyyəsində, digər nüsxəsi isə Gürcüstan Hökuməti-Cümhuriyyəsində bulunacaqdır.

*Azərbaycan Cümhuriyyəti*
*Ticarət və Sənaye naziri:*
*Behbud xan Cavanşir.*
*Gürcüstan Cümhuriyyətinin*
*məmuri-siyasisi:*
*N. İ. Kartsivadze.*
*Şəhri-Bakı, 26 dekabr 1918*
*Əslinə mütabiqdir.*

## BAKI XƏBƏRLƏRİ

### Azərbaycan sosial-demokratlarının ümumi iclası

Cümə günü həmin şubatın 14-ündə gündüz saat 10 tamamda Parlaman dairəsində sosial-demokrat "Hümmət" firqəsinin fraksiyon odasında ümumi iclas vaqe olacaqdır. Məsələ mühüm olduğuna görə cəmi yoldaşlardan xahiş olunur vaxtında iclasa gəlsinlər.

### İttifaqi-Mütəalliminin [Tələbələr İttifaqı] idarəsi tərəfindən

Bununla idarə cümə günü fevralın 14-ündə Realnı məktəbində saat 4-də idarənin iclası vüqu bulacağını üzv arxadaşlara xəbər verir.

Rica olunur üzvlər vəqti-müəyyəndə [təyin olunmuş vaxtda] gəlsinlər. Həmçinin

nümayəndə göndərən məktəblərdən rica olunur nümayəndələrini seçib göndərsinlər.

* Qızıl və gümüş həmkarlarının "Qənaət" cəmiyyəti öz üzvlərinə məlum edir ki, bu gün saat 10-da Balaxanski küçə Şirvanovun mülkündə ilk ümumi iclas olacaqdır və həmin iclasa "Qənaət" müstəhlikin [istehlakçılar] cəmiyyətinin əzası da [üzvləri də] gələ bilər.

**Müəllimlərə məxsus mühazirə**

Məkatib [Məktəblər] şöbəsi Xariciyə naziri müavini Adil xan Ziyadxanov həzrətləri indində [nəzdində] "Azərbaycan tarixi"nə dair türk müəllimlərinə məxsus mühazirə oxumaq barəsində istidada [xahişdə] bulunmuşdu. Nazir həzrətləri bu gün saat 11-də Duma salonunda mühazirə oxuyacaqdır.

## GÜRCÜSTANDA

Gürcüstan Xariciyyə naziri İngiltərə heyəti naçalnikinə böylə bir nota göndərmişdir:

Batumda olan nümayəndəmiz polkovnik Gidevanov rəsmi surətdə xəbər verir ki, fevralın 7-sində iki təcili məsələ haqqında danışmaqdan ötrü Batum general-qubernatorunun yanına getdilər. Məsələlər budur:

1) Çoloq çayında körpünü mühafizə edən ingilis saldatlarının fevralın 6-ncı gecəsi gürcü sərhəd qaraqolxanasını [qarovulxanasını] atəşə tutub gürcü qaraqolunun yaralanması.

2) Fevralın 5-ində Mardadidi kəndində gürcü ordusu zabitlərindən Abaşidzenin qanunsuz həbs edilməsi.

Nümayəndəmiz Gidevanov bu işlər haqqında general-qubernatorla şəxsən görüşüb danışmaq istədiyini general-qubernatorun adyutantına söyləmişdirsə də, nümayəndəmiz həman gün və sabahısı dəxi qəbul edilməmişdir. Batumda olan İngiltərə məmurlarının Gürcüstanın rəsmi nümayəndəsi haqqında etdikləri bu tövr müamilatı [rəftarı] həqarətədd [hesab] edib hökumətimin sifarişinə görə bu həqarətə qarşı ciddi və qəti protesto edirəm. Burasını dəxi əlavə edirəm ki, Gürcüstan Hökuməti İngiltərə heyətindən bu barədə təminat alana qədər Batumda olan nümayəndəsi polkovnik Gidevanovu geri dəvət etmişdir.

*Xariciyyə naziri: Gegeçkori*

**Soçi hadisatı [hadisələri]**

Tiflisdən xəbər verirlər ki, general Konev Könüllü ordu və ermənilər tərəfindən mühasirə edildiyinə görə öz dəstəsi ilə mühasirədən çıxa bilməmişdir. Könüllü ordu dəstələri Dzibi çayına tərəf hərəkət etmişlərdir. Onlar Adlerə çatmışlar. Hələliyə başqa məlumat yoxdur.

Suxum sahilində qalan gürcü əsgərləri onlarla rubəru [qarşı-qarşıya] gələcəklərdir. Potidə olan İngiltərə zabiti paraxodlarla Suxuma qoşun aparmaqdan ötrü Tiflisdə olan İngiltərə heyətinin icazəsi lazım olduğunu söyləyib, gəmiləri verməkdən imtina etmişdir. Dənizdə tələtüm vardır. İngiltərə zabiti Soçiyə getmişdir.

Ozurgetdə olan qarnizon zabiti fevralın 9-unda Hərbiyyə nazirinə teleqraf edir ki, bu gün gecə saat 10-da Batum tərəfindən iki dəfə top atışması səsi eşidilmişdir.





Yarım saatdan sonra üçüncü bir səs eşidilib bu qərar üzrə davam etməkdədir.

**Səfərbərlik**

Tiflis – (8 fevral). Gürcüstan Hərbiyyə naziri Kutais, Siqnax, Suxum hərbi naçalniklərinə və Kutais quberniyasındakı 1, 2, 3-cü alayların komandirinə, sərhəddə olan qoşunlar naçalniki general Mazniyevə, ordu dəstələri[nə] teleqraflar göndərərək bildirir ki, Gürcüstan Hökuməti qərar qoymuşdur: Gürcüstan sərhədini mühafizə etmək üçün lazım gələn tədbirlər ittixaz edilsin [tədbirlər görülsün]. Binaənileyh [buna əsasən], 1891-92-ci ildə anadan olan Kutais quberniyasındakı bütün əhalini silah altına dəvət edir.

## ERMƏNİSTANDA

**Ermənistan Cümhuriyyətində müsəlmanların halı**

İrəvan quberniyasında Novo-Bayəzid mahalında vaqe 29 ədəd müsəlman kəndlərinin vəkilləri Məşhədi Talıb Rüstəm oğlu, Məşhədi İsmayıl Hacı Əli oğlu, Məşhədi Əsədulla Məşhədi Ələkbər oğlu Azərbaycan Rəisi-vükəlası Xan Xoyski cənablarına bu məzmunda bir ərizə vermişlərdir:

*"Biz aşağıda imza edən İrəvan quberniyasında vaqe 29 müsəlman kəndlərinin vəkilləri, bu 29 kənd müsəlmanlarının namından [adından] kamali-ehtiramla zati-alilərinizə Ermənistan Hökumətindən zeyldəki [aşağıdakı] şikayəti ediriz:*

*Ermənistan Cümhuriyyəti təşkil edilib də erməni başçıları işə girişdikdən sonra birinci olaraq İrəvan quberniyasında olan müsəlman kəndlərinə təcavüzə başladılar və bizə zeyldəki tələbatı verdilər:*

*A) Azərbaycan Hökumətinin binagüzarlığı ilə bütün silahları təslim etməli; təslim eylədik.*

*B) Erməni qoşunları nəfinə [xeyrinə] buğda verilməli.*

*C) Bütün atların səfərbərliyə verilməsi; verdik.*

*Ç) Səfərbərliyə alınmış atlar üçün ot istədilər, verdik.*

*D) Erməni qoşunları üçün yemək verilməli; verdik.*

*E) Bütün naloqları [vergiləri] bizdən istədilər, birə üç dəfə artıq verdik.*

*Xülasə, bu tələblərin hamısına əməl eylədik. Görünür ki, bunların həpsi kifayət etməyirmiş və böyləliklə onlar bizi doğma vətəndən çıxarmaq istəmişlərdir. Sonra müxtəlif bəhanələrlə erməniləri bizim üzərimizə saldırıb bizi öz yurdumuzdan çıxmağa vadar edirlər və onlar ümid edirlər ki, biz bütün əmlakımızı, vətənimizi və isti ocağımızı buraxıb da çöllərə düşəcəyiz və bu məqsədlə də ermənilər silahsız olan müsəlmanlara hücum edib Zağalı, Subatan, Qızılvəng və Çuxurlu nam [adlı] dörd ədəd kəndin bütün əhalisini kişi, arvad, uşaqlarını kəsdilər, sonra bu kəndləri atəşə tutdular ki, indi də onlar yanmaqdadır. Biz kamali-məmnuniyyətlə öz doğma yurdumuzu buraxıb, bütün əmlakımızı onlara tərk edib gedirdik. Fəqət iş ondadır ki, qışın böylə soyuq zamanında, qarların içində 29 ədəd böyük kəndin əhalisi dağların təpəsi ilə necə gedə bilər? Bu da əlbəttə qayət müşkül bir məsələdir. Yuxarıda ərz edilən hallara görə zati-alilərinizdən acizanə rica ediriz. İnsaniyyət naminə Ermə-*

*nistan Hökuməti qarşısında təşəbbüsdə bulunub bundan sonra bu qədər qan tökülməyin qabağını kəsdirəsiniz. Hakəza [habelə] bizim mülk və müxəlləfatımızın [ev-eşiyimizin] mühafizəsini öhdənizə alasınız və bunu da xahiş ediriz ki, bizim bu əsəfnak [acınacaqlı] halımızı Müttəfiqlər komandanı general Tomsona bildirəsiniz."*

– Mövsuq [etibarlı] mənbələrdən verilən məlumata nəzərən hökumət bu xüsusda lazım gələn iqdamatda [təşəbbüsdə] bulunmuşdur.

## İDARƏDƏN CAVABLAR

Bakıda Əbdüləhəd Mirzəzadə əfendiyə: "Məntiqimizi islah etməli" məqaləniz gecdir. "Əsgərlərimiz tələb edirlər" məqaləniz tezdir.

Bir Adam əfəndiyə: "Nə olursa olsun, Azərbaycan Cümhuriyyəti başqa əziz tutduğu vilayətlər kimi onun böyük bir vilayətini təşkil edən Qarabağı heç kimsəyə güzəşt etməyəcəkdir." Əlbəttə, ona görə də orada general-qubernatorluq təşkil etdik. Diliniz və üslubi-ifadəniz yaxşıdır. Başqa şeylər yazınız. Lakin adınızı idarəyə bildiriniz.

**"İttihad" məktəbində**

Fevral ayının 15-indən etibarən kibarlara (böyüklərə) məxsus gecə kursları açılacaqdır. Müraciət üçün adres: Qubernski caddə, nömrə 37.

*2689*

**Gəmiçilər Şurasının İttifaqı**

Bütün gəmi sahiblərini yekşənbə [bazar] günü fevralın 16-sında gündüz saat 12-də Qafqaz-Merkuri Cəmiyyətinin kantorunda vaqe olacaq ümumi iclasa dəvət edir.

*2692*

**Elan**
**"Müstəhlikin İttifaqı"**
**(Kooperativni Soyuz)**

Müstəhlikin cəmiyyəti idarəsi bununla elan edir ki, bazar günü fevralın 16-sında səhər saat 11-də Stanislavski küçə Sənaət məktəbi binasında cəmiyyət əzalarının [üzvlərinin] iclasi-ümumisi [ümumi iclası] təyin edilmişdir. Müzakirə olunacaq məsələlər:

1) İdarənin məruzəsi və 1917-ci il məhsubatı [hesabatı];
2) Cəmiyyətin 1918-ci il fəaliyyəti haqqında müxtəsər məlumat;
3) İdarə intixabı [seçkisi];
4) Təftiş komissiyası seçkisi;
5) İclasda qalxa biləcək məsələlər.

Bu iclas ikinci dəfə çağırıldığına görə, nə qədər əza yığılsa da, iclas qanuni ədd [hesab] olunacaqdır.

*İdarə*
*2691*

**Контора Агентуры и Комиссии**
**"И. Фани и Ко."** Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
**Agentura və komisyon kantoru**
**İ. Fani və kompaniyası.** Bakı, Serkovnı küçədə 70 nömrəli evdə.
Telefon nömrəsi 22-28.
Poçta yeşiki 13.

Kimdə nə mal varsa və kimə nə mal lazımsa bizim kantora müraciət etmələri təvəqqe olunur. Hər cür malların satışını qəbul və qəbul edilən mallar üçün qabaqca pul (ssdua) buraxırız. Sair şəhərlərdəki komisyon və agenturalardan öz mənfəətləri xatirlərinə ünvanlarını göndərmələri mətlubdur [tələb edilir]. Kantorumuz hər gün səhər saat 8-dən 2-yədək, axşam 4-dən 7-yədək açıqdır.

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Ziraət və Əmlak naziri tərəfindən**

Bununla ümuma elan edilir ki, Bakı quberniyası, Cavad qəzası, Muğan düzündə, Orta Muğan kanalı və Aşağı Muğan kanalının cənub-şərqi dairəsindəki suvarılan yerlər müzayidə (torq) ilə icarəyə verilir. Hər kəs orada 1919-uncu il yazlıq, 1919 və 1920-nci il payızlıq, 1920-nci il yazlıq əkin əkmək istəsə, həman yerlərdən icarəyə götürə bilər. Bunu da bilməlidir ki, icarənin vaxtı son məhsul yığıldıqdan iki həftə sonra bitir.

Məzkur [adı keçən] yerlər Cavad qəzası, Qalaqayın (Petropavlovka) kəndində xəzinə yerləri mübəssiri [nəzarətçisi] Yuryevin təhtisədarətində [sədrliyi altında] bulunan xüsusi komisyon tərəfindən yeni qayda mart ayının 1-indən 7-sinədək bir həftə zərfində [ərzində] icarəyə veriləcəkdir. İcarə şəraiti [şərtləri] konditsiyalarda [müqavilənamələrdə] müfəssələn [ətraflı] yazılmışlardır. Şəraiti bilmək olar: Ziraət Nəzarətinin Torpaq şöbəsində (Vodovoznı küçə, nömrə 8). Yenə həman Nəzarətin Su şöbəsi və Əkin və fəllahət [kənd təsərrüfatı] şöbəsində (Telefonnı küçə, nömrə 6), Gəncə Ziraət şöbəsində (Gəncə şəhəri) və məhəllərdə [yerlərdə] xəzinə yerləri mübəssirləri, qəza qaimməqamları, Cavad, Şamaxı, Göyçay, Quba, Gəncə, Ərəş, Cavanşir, Zəngəzur, Qazax, Qaryagin, Şəki və Şuşa qəzalarında məntəqə pristavları dəftərxanalarında.

*Ziraət naziri vəzifəsini ifa edən:*
*H. Sultanov*
*Nəzaətin Torpaq şöbəsi müdiri:*
*Şpitalski*
*36*

**Drama**
**Axşam Tamaşası**
**Azərbaycan Hökumətinin Teatrosunda**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşlarının Müdiriyyəti cümə günü cəmadiyələvvəl ayının 13-ündə 1337 sənəsi (fevralın 14-ündə 1919-cu ildə) təntənəli bir surətdə bu mövsümdə əvvəlinci dəfə olaraq mövqeyi-tamaşaya qoyulacaqdır məşhur tarixi faciə

**Ağaməhəmməd şah Qacar**
8 pərdədə
Əsər: **Əbdürrəhim bəy Haqverdiyev**

**Ağaməhəmməd şah Qacar** rolunu ifa edəcəkdir məşhur artist **Hüseyn Ərəblinski**.

İştirak edən əşxaslar [şəxslər] müfəssələn [ətraflı olaraq] məramnamədən [proqramdan] məlum olunar.

Biletlər imdidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

Rejissor: Abbas Mirzə Şərifov;
Müavin: Hacıbaba Şərifov;
Məsul: Xəlil Hüseynov;
Mübaşir [icraçı müdir]: Rövşən bəy Əfəndiyev;
Müdir: Zülfüqar bəy Hacıbəyli.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 207. "...hökumət ya özü təsdiq edəcək yaxud təsdiq edilmək üçün Parlamana təqdim edəcəkdir.": qəzetdə "Parlamana" yerinə səhvən "hökumətə" getmişdir.

səh. 208. "Xəlillər, Nurilər, Vəhiblər": Osmanlı dövlətinin hərbi xadimi, Qafqaz İslam Ordusu ilə birgə Bakıya daxil olan Xəlil paşa (soyadı: Qut), Qafqaz İslam Ordusunun komandanı Nuri paşa (soyadı: Killigil) və Qafqaz İslam Ordusunun da tabe olduğu Şərq Ordular Qrupunun komandanı Məhməd Vəhib paşa (soyadı: Kaçı) nəzərdə tutulur.

səh. 209. "Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

səh. 209. "...sui-istemal dəxi görünür": qəzetdə "sui-istemal" [sui-istifadə] yerinə "sui-əməl" [pis əməl] getmişdir.

**Teleqraf xəbərləri**

səh. 211. "...amansız tədbirlər ittixaz edəcəkdir...": qəzetdə "edəcəkdir" yerinə "ediləcəkdir" getmişdir.

**Qəzetələrdən**

səh. 211. "P. Q.": "Proletarskiy qolos" qəzeti nəzərdə tutulur.

**Millliləşmək əlmaətlərindən biri**

səh. 214. "...məsarifin yarılanmasına ehtiyac yoxdur": qəzetdə "yarılanmasına" yerinə "yaralanmasına" getmişdir.

"...Babil qalasını tikmiş əqvami-müxtəlifənin başına gəlmiş macəra...": əfsanəyə görə, Babil qalasını tikən insanlar müxtəlif dillərdə danışmağa başlamış və bir-birini başa düşmədikləri üçün məqsədlərinə çata bilməmişdilər.

"türkləşdirməkdir" sözü tünd hərflərlə yığılmışdır.

**Azərbaycan-Gürcüstan Müqavilənaməsi**

səh. 217. "...zaye olarsa...": qəzetdə "sənaye olarsa" getmişdir.

"...bir sənəyə qədər mər'i...": qəzetdə "bir" yerinə "bu" getmişdir.

**Gürcüstanda**

səh. 218. "Çoloq çayında": güman ki, Çorox çayı olmalıdır.

səh. 219. "...üçüncü bir səs...": qəzetdə "üçüncü bu səs" getmişdir.

**Ermənistanda**

səh. 219. "...bizə zeyldəki tələbatı verdilər...": buradakı maddələr qəzetdə a, b, v, q, d, y kimi (Kiril əlifbasının hərf sırasına uyğun olaraq) işarələnmişdir.

"...atlar üçün ot istədilər...": qəzetdə "ot" yerinə "yemək" getmişdir.

"...qoşunları üçün yemək verilməli...": qəzetdə "yemək" yerinə "ot" getmişdir.

**"İttihad" məktəbində**

səh. 220. "Qubernski caddə": Bakıda, indiki Nizami küçəsi.

**Elan: Müstəhlikin İttifaqı**

səh. 220. "Stanislavski küçə": Bakıda, indiki Azadlıq prospekti.





**Bazar ertəsi, 17 fevral 1919-cu il, nömrə 115**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 16 cəmadiyələvvəl sənə 1337. 17 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

### ELAN

Səşənbə [çərşənbə axşamı] günü 1919 sənəsi fevral ayının 18-ində gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusan [Parlament] iclası olacağı elan edilir.

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyəsi İdarəsindən:**

**-I-**

Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsi dəftərdarı [mühasibi] Muradəli Qasımzadə 11 şubat [fevral] 1919 tarixi ilə idarəyə istefanamə təqdim etmiş və İdareyi-Məşixət dəxi məzkurun [adı çəkilən şəxsin] istefanaməsini qəbul edərək balada məzkur [yuxarıda göstərilən] tarixdən etibarən müşarünileyhin [adı çəkilən şəxsin] xidmətdən azad edilməsini qərara almışdır.

**-II-**

İşbu 1919 sənəsinin fevralın 1-indən etibarən Şərəfəddin Hacı Veysəl oğlu layiq və münasib görülərək Azərbaycan Məşixəti-İslamiyyə İdarəsi kargüzarlığına nəsb və təyin edilmişdir.

*Məşixəti-İslamiyyə İdarəsi sədrləri:*
*Əfəndizadə və Ağaəlizadə*

### BU GÜNÜN MƏSƏLƏSİ

Bakı əfkari-ümumiyyəsi [ictimaiyyəti], bilxassə [xüsusilə] şəhərin türk qismi əndişələr içindədir.

Biçeraxovun otryadı buraxıldıqdan sonra hər kəs düşünürdü ki, artıq bu məmləkət şübhəli qüvvətlərdən xilas olacaq.

Fəqət öylə olmayır. Biçeraxov əvəzinə Prjevalski oturur. Bir yandan "likvidatsiya" [ləğvetmə] gedirsə də, digər yandan "zapis" [qeydiyyata götürmə] gedir. "Dobrovolçeski armiya"ya [Könüllü orduya] könüllü yazılırlar. Könüllü yazılanlar da əksərən ermənilərdir. Bu könüllülər, şəhərin mərkəzində, meydanlarında məşq edirlər. Bu surətlə xalq arasına həyəcan düşür, hər kəsi əndişələr götürür. Haqlı olaraq "Yarın nə olacaq?" - deyə düşünürlər.

Bir tərəfdən də Denikin ordusunun nümayəndəsi şəhərimizə gəlir. Nə yapır,

nə yapmayır, bilməyiriz. Bu qədər bilməyiriz ki, Denikin ordusu bolşeviklərlə mübarizəni unudub da "asi" Qafqaziya millətləri üzərinə çökmək niyyətindədir. Gürcüstan təhdid olunur. Dağıstana qarşı hərəkət başlanır.

Böylə bir zamanda əcəba, Azərbaycanın paytaxtında toplanan bu qüvvətlər nədir? – deyə hər kəs pək haqlı olaraq düşünməzmi? Əlbəttə, düşünər. Hər kəs böylə təbii olmayan bir hərəkət qarşısında təlaş edər.

Bir zamanda ki, ingilis komandanlığı Azərbaycanda yeganə bir hökumət olaraq ancaq Azərbaycan Hökumətini tanımışdır, öylə bir zamanda burada başqa, bizi tanımayan və bizə düşmənanə bir fikir bəsləyən qüvvətlərin toplanması, əlbəttə ki, təbii görüləmməz!

Bir zamanda ki, bütün firqələrlə bərabər Erməni Milli Komitəsi dəxi Azərbaycanın haqqını tanıyaraq Məclisi-Məbusana [Parlamentə] nümayəndələrini və hökumətə vəzirlərini [nazirlərini] göndərmək üzrədir.

Bir zamanda ki, Ermənistan ilə Azərbaycan arasında münasibati-siyasiyyə [siyasi əlaqələr] başlayır, erməni əsgərlərinin təkrar könüllü yazılmaları və bir taqım əsgəri qitələr [hərbi hissələr] təşkil edib də şəhərimizdə mövcud kazarmaları tutmaları son dərəcədə qeyri-təbii bir haldır. Bu halın qeyri-təbii olduğunu daşnaksaqanların qəzetəsi olan "Vperyod" qəzetəsi dəxi etiraf edir. O, öz yanında zavallı işsiz qalan erməni əmələlərinin gününə ağlayır, deyir ki, onları "başqa yola göndərirlər". Anladır ki, işsiz erməni əmələləri iş bulammayır, evlərinə gedə bilməyirlər, çarəsiz qalıb da bir parça çörək üçün könüllü yazılırlar. "Kim bilər harada, bəlkə bolşeviklərlə, bəlkə də dağıstanlılarla olacaq müharibədə öləcəklərdir."

Deməк ki, erməni məhfilləri [dairələri] də bu halın qeyri-təbii olduğunu dərk və etiraf edirlər, fəqət dəlilləri başqadır. Köhnə dəlil və sübutlardır.

Fəqət mən zənn etməyirəm ki, Azərbaycan Hökuməti erməni işsizlərini kəndi paytaxtından təmizləmək üçün lazım gələn tədbir[i] görməkdən imtina eyləsin. Və zənn etməyirəm ki, "Amazasp" kimi general "işsizlər" cərgəsində hesab ol[un]sun.

Dəlil və sübutlar əskidir. Əcəba, köhnə tarix təkrar edilməsin!...

Hökumət bu xüsusda göz-qulaq olub bəsirətlə [uzaqgörənliklə] hərəkət etməlidir. Bir an əvvəl evlərinə gedəcək erməniləri yola salmalıdır. Və hər növ bəhanələrini kəsmək üçün nə etmək lazım isə etməlidir. Eyni zamanda da ingilis komandanlığından tələb etməlidir ki, bizə qəti və ciddi təminat versinlər, görək bu toplanan könüllülər kimdir, nə üçündür. İstəməlidir ki, burada, Azərbaycanın paytaxtında Azərbaycana sadiq olmayan heç bir qüvvət bulunmasın. Qərib[ə]dir, Azərbaycan paytaxtında Azərbaycan əsgərindən başqa hər növ əsgər vardır. Buna bir intəha [nəhayət, son] vermək lazım.

Böylə bir təbii tələb qarşısında bitərəf ingilis komandanlığı da bir söz deməz.

Bir an əvvəl Azərbaycan əsgəri şəhərimizə daxil olmalıdır. Bu xüsusda hökumətin əsas etibarilə qərarı olduğunu biliriz.

Fəqət camaat dörd gözlə gözləyir.

Nerədə əsgərlərimiz!

Qoy hökumət bir tərəfdən öz qüvvətimizi buraya gətirsin, bir tərəfdən işsiz adamları şəhərdən azaltsın, bir tərəfdən də işsizlərə bir növ "iş" tələsi olan könüllü əsgər təşkilatının təhəmmül olunmaz [dözülməz] bir hal olduğunu isbat ilə lazım gələn tədbirlərdə bulunsun.

Əfkari-ümumiyyə bunu istəyir. Əhalinin əmniyyət və qəlb rahatlığını istəyən qüvvətlər isə hər şeydən əvvəl bu tələbə etina etməlidirlər.

İştə bugünün həll olunacaq məsələsi!

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 10-uncu iclas

### Üçüncü gün

*(Keçən nömrədən mabə'd)*

**Əbilov İbrahim** (sosialist) - Möhtərəm məbus əfəndilər! Bəhs olunan sorğu məsələsində, necə ki xatirinizdədir, dün yoldaşımız [Ağamalıoğlu] Səməd ağanın işlətdiyi bir neçə sözü mübahisəni dəyişib başqa bir rəngə saldı. Yoldaşımızın sözü anlaşılmadan və əsl məsələnin ruhuna vaqif olmadan, onun işlətdiyi yalnız bir kəlmə türk sözünü alıb natiqlər şiddətli nitqlər söylədilər. Bu gün yoldaşımızın təkrar kürsüyi-xitabətə gəlib türklər haqqındakı fikrini vazeh [açıq] bir surətdə söylədikdən sonra mən ümid edərdim ki, artıq bu xüsusda fəzlə danışılmayacaqdır. Çünki anlaşıldı ki, sosialist firqəsi türk sözünə, türk millətinə nə düşməndir, nə də onun əleyhinə danışan. Türkdən məqsəd türk üsuli-idarəsi, istibdadı və hökumət siyasətidir ki, bizim hökumətə də o ruhu vermiş olduğunu yoldaşımız söylədi. Zənn edərdim artıq bu barədə danışmaq lazım gəlməz. Fəqət, [Qarabəyli] Qara bəy cənabları türklər haqqında məddahlıq edərək "türk milləti müqəddəsdir" - deyə yenə uzun bir nitq söylədi. Bəli, əfəndilər! Türk milləti, türk füqərayi-kasibəsi [proletariatı] bizcə müqəddəsdir və heç kəs böylə olduğunu inkar etməz. Fəqət bizim tənqid etdiyimiz türk millətini zirizəminlərdə [yer altında, zirzəmilərdə] saxlayan hökumətdir ki, onu yıxmaq üçün Türkiyə füqərayi-kasibəsi ilə birləşib bərabər mübarizə etməyə hazırız. *(Soldan alqış)* Bundan anlaşılır ki, sosialistlər türklərə düşmən deyildirlər. *(Sədr: Natiq əfəndi, sosialistlərin düşmən olduğunu heç kəs söyləmədi.)*

Bəli, türk mübahisəsini buraxalım. Keçəlim əsl məsələyə. Bu məsələlər gərək sorğudan əvvəl müzakirə ediləydi. Bu sorğu barəsində, o yerlərə gedib işləri eyni ilə görmüş olan yoldaşlarımızın bəzilərinin bəyanatı, sübutları daha da qüvvətləndirir. Demək, sorğuda göstərilən nöqsanlar doğrudan da vardır. Hətta hökumət də öz cavabında bu nöqsanları rədd etmədi. Biz etiraf ediriz ki, nöqsan var, fəqət, zaman, məkan və əhval nəzərə alındıqda görülür ki, hökumətin dəyişməsi ilə bu nöqsanlar rəf olmaz [aradan qalxmaz]. Əgər rəf ediləcək olsaydı, əski hökumət dövründəki nöqsanlar şimdi yeni hökumət zamanda daha çox olmazdı. Bu surətlə heç kəs təmin edəmməz ki, bir yenisi gəlsə bundan daha fəna olmayacaqdır. Biz sosialsitlər şəxsi deyil, hökumətin əsas quruluşunu

dəyişmək istəriz. Ona görə bizcə tezliklə Məclisi-Müəssisan çağırılmalıdır ki, əsasən bir əsl demokratik hökumət qurulsun. Fənalıqların qabağını ancaq bununla almaq olar. Bu hökumətin əsası puçdur. Kəndlərdə çox böyük zülümlər olur. Bir yoldaşımız dediyi kimi, məmurlar quldurları yanlarına alaraq füqərayi-kasibəni soyub talayırlar. Bir də Məhəmməd Əmin Rəsulzadə cənabları yoldaşımız Səməd ağanın "Müsavat"a bir balaca toxunmasına cavabən söylədiyi nitqində "Müsavat"ı müdafiə etməklə bərabər onun demokratik bir firqə olduğunu sübuta qalxışdılar və dedilər ki, kəndlərdə siyasi firqələr şöbələri açaraq bu vasitə ilə nöqsanların önünü almaq lazımdır. Şöbə açılsın, amma məzkur şöbə əzasının [deyilən şöbə üzvlərinin] hər gecə birisinin quldurlar vasitəsilə boğulub öldürülməyəcəyinə əmindirmi? Məhəmməd Əmin əsl demokrat olsaydı deməliydi ki, bu yolsuzluqların önünü almaq üçün o yerlərdə idarələr dəyişib demokratik üsulla zemstvolar [yerli özünüidarə təşkilatları] açılsın və camaatın idarə və milisləri özlərinin inandıqları, tanıdıqları adamlardan olsun, indiki camaatı soyanlar tutulsunlar. O halda haqsızlıqların önü alınmış olardı. Lakin bunu demədi.

Mən sözümü qurtarmaq üzrə deyirəm ki, sorğu məsələsində nazirlərin cavabı bizi qane etmirsə də yenə biz böhran çıxarmaq tərəfdarı deyiliz. Ancaq təzə bir əsas düzəltmək lazımdır ki, onu da yalnız Məclisi-Müəssisan qura bilər. Ona görə Məclisi-Müəssisan dəvətinədək Parlamanda bu işlərə baxmaq, nəzarət etmək üçün bir komisyon təşkil edilsin. *(Soldan alqış)*

*(5 dəqiqə tənəffüs elan olunur)*

*Tənəffüsdən sonra*

**Murtuza Axundov** — Quba şəhəri üzvü sifəti ilə ərz edirəm ki, natiqlərdən birisi buyurdu ki, Quba şimdiki halda xanlıqdır. Buna cavabən deyirəm ki, Quba xanlıq isə nə üçün Quba qəzası Azərbaycan Parlamanına 3 məbus göndərmişdir. *(Alqış)* Bakı Azərbaycanın paytaxtı olduğu halda, burada üçrəngli bayraqdan ancaq bir dənə görürəm, halbuki Qubada kasıb, dövlətli hər kəsin ipək parçadan tikilmiş üçrəngli bayrağı var, hər cümə günü şəhəri təzyin edirlər [bəzəyirlər]. Lakin nədənsə bunu Bakıda görməyirəm. *(Alqış)* Sonra buyurdular ki, Qubada məmurlar öz cinayətlərini örtməkdən ötrü özləri üçün dəstə düzəldərək "filan" məsələni ortalığa salmışlardır. Az qalmışdır ki, nə qədər adam tələf olsun. Mən bu məsələnin nədən ibarət olduğunu belə söyləməkdən həya edirəm. Amma burasını sizə deyirəm ki, Qubada böylə şey yoxdur və olmaz da. *(Alqış)*

Bir də buyurdular ki, Quba qəzası Qəçrəş və Küpçal kəndlərində yığılan zəkat buğda nə olmuşdur. Mən deyə bilərəm ki, o buğda heç yerə getməyib, kənd vəkillərinin ixtiyarında, kənd anbarlarında öz yerində durur. Mən bu barədə Quba qəza qaimməqamı [qəza rəisi] ilə sual-cavabda bulundum. Qaimməqam cavab verdi ki, buğda cəm edildiyi zaman, mən Bakıda olmuşam, mənim müavinim Azərbaycan Hökumətinin Ərzaq nazirinin teleqrafına görə buğda cəm edibdir. Mən qayıdandan sonra bu əhvalatı mənə söyləmişdir. Cavabında mən demişəm ki, Azərbaycan Hökumətində zəkat adı ilə buğda yığmaq qanunu yoxdur.





Sonra buyurdular ki, 15 vaqon buğda nə yerə getmişdir? Əvvəla 15 vaqon deyil, 18 vaqondur. Bu barədə sənədlər vardır. Bunlardan 2 vaqon qubernatorun əmri ilə Bakıya gətirilib, putu 40 manatdan qubernatora təhvil verilmişdir. Bir vaqon arpa ilə buğda da türklər gedən zaman ingilislərin vürudu [gəlişi] əsnasında qubernatorun əmrinə görə, Bakıya gələn pristavlarla strajniklər üçün gətirilib, hələ pulu da vüsul olmamışdır [çatmamışdır]. Bundan əlavə, 8 vaqon da qubernatorun əmri ilə Bakıya gətirilərək Bələdiyyə İdarəsi vəkili Klenevskiyə təhvil verilib, pulu alınmışdır. Məzkur [deyilən] pul dəxi putu 40 manat hesabı ilə buğda alınan əhaliyə paylanmaqdadır. Buğdanın bir vaqonu da hal-hazırda Xaçmaz mövqifindədir [stansiyasındadır] ki, hələ təhvil alınmamışdır. Qalan 6 vaqonunu da türklər Dağıstandan qayıdarkən özləri ilə aparmışlardır. Bu barədə noyabrın 29-da Vükəla Şurası [Nazirlər Kabineti] Daxiliyyə və Ərzaq nazirləri və qubernator namına [adına] böylə bir teleqraf göndərilmişdir:

*"Qubernatorun əmrinə görə, Xaçmaz mövqifində cəm edilmiş arpa və buğdanı Dağıstandan gəlib keçən türk əsgərləri güclə vaqonlara dolduraraq aparırlar. Camaat pulunu almamışdır. Təvəqqe edirəm camaat mənafeyini müdafiə edib, türklər tərəfindən aparılan arpa, buğdanı Biləcəri mövqifində saxlatdırasınız.*

*Uyezd naçalniki Xoyski"*

Bir də doğrudur, uyezdni naçalnik Xoyskidən qabaq putu 10 manatdan buğda cəm edilmişdir, pulu da əhaliyə verilməmişdi. Ona görə bu buğda putu 10 manatdan olaraq məvacib almayan qulluqçulara paylanıb, hasil olan məbləğ buğda sahiblərinə qaytarılmışdır. Hətta bir dəfə teleqraf məmurlarından birisi şikayət etdi ki, buğdadan ona çatmamışdır. Mən təklif edərdim ki, hər fraksiydan bir nümayəndə olmaq üzrə bir komissiya göndərib bu işləri yerində təhqiq edəsiniz, tainki həmin komissiya məhəllində [yerində] təhqiqat yapıb bu barədə Parlamana məlumat versin.

**Əhməd Cövdət [Pepinov]** - Möhtərəm əfəndilər! İki gündən bəri mövzuyibəhs [mübahisə mövzusu] olan məsələ haqqında mənə bir neçə dəqiqə söyləməyə müsaidə veriniz, çünki burada sol firqələri bir növ türklərin əleyhinə getməkdə ittiham etdilər. Təəccübdür ki, sosialist firqələrini töhmətləndirib türk demokratiyasının müdafiəsini başqaları boyunlarına götürürlər. Məhəmməd Əmin əfəndi söylədilər ki, bizim firqəmiz türk firqəsidir. Əfəndilər, siz türkçü isəniz biz də deyiriz ki, biz də türküz, firqəmiz də türk firqəsidir. *(Soldan və mərkəzdən alqış)* Fəqət, bizimlə sizin aramızda böyük fərq var. *(Məhəmməd Əmin: Doğrudur, var!)* Bizim firqəmiz türk füqərayi-kasibəsi, türk xalqı, türk demokratiyasının hüququnu müdafiə edən bir türk firqəsidir. *(Soldan alqış)* Biz kim olur-olsun, türk olsun, müsəlman olsun, deyənlərdən deyiliz. Görürsünüz millətin paşası ilə əkinçisini bir dərəcədə tutan firqələrin ardınca gedənlər səhvlərini anlamağa başlamışlardır. Türk xalqı da kəndi-kəndini idarə etmək arzusu bəsləyir və istəməz ki, onun zəif əlləri ilə hasil edilən sərvət yalnız bir neçə şəxsə qismət olub qalsın. Məlumunuzdur ki, Azərbaycan xalqı üçün türk sözü yeni bir şeydir və türk olduğunu yenicə anlamışdır.

Odur ki, türkləri böyük intizarla gözləyirdilər. Qara bəy [Qarabəyli] cənabları buyurdular ki, türklər haqqında ehtiramdan başqa bir söz söyləməməli. Bu doğrudur. Fəqət, türklər burada ikən bir qaç zabitanın [bir neçə zabitin] ədəbsizliyi xalqımızı dönməyə, hətta söyməyə belə məcbur etmişdi. Biz istəməyiriz ki, böylə fəna hərəkətlər Osmanlı türklərinə qarşı Azərbaycan türklərində nifrət oyatsın. Bunu burada olan bir qaç paşa yapdı; biz o paşa ilə düşməniz. Bizim firqəmiz həm Osmanlı xalqının, həm də Azərbaycan demokratiyasının hüququnu müdafiə üçün həmin paşalarla mübarizə edəcəkdir.

Əvət! Bunu təsdiq ediriz ki, türk demokratiyası müqəddəsdir, ehtiramlara layiqdir. Fəqət, əfəndilər, burada türk-türk deyə döşünə döyənlər, məgər türklər gələndə paşaların ayaqlarına sərildikləri halda, ingilislər gəlincə onlara sıxılıb türk tərəfdarı olduqlarını danaraq ingilis xidmətinə girməyə çalışmadılarmı? *(Mərkəzdən və soldan alqış)* O vaxt Azərbaycan xalqının hüququnu hamıya qarşı müdafiə edən bizim firqəmiz olmadımı? Burada yoldaşımız dedi ki, osmanlılar gəldilər, puç olan əsasi-idarələri bizimkilərə də təsir etdi. Məgər həqiqətən Osmanlı Hökumətinin əsası puç deyilmi? Əgər Osmanlı məmləkətini gəzmiş olsanız, yazıq türk əkinçilərinin nə qədər zəlil olduğunu görərsiniz. Buna da səbəb sultanlar və həmin paşalardır. *(Soldan: Doğrudur!)* Mən dediklərimi, Osmanlı xalqının ruhunu hər kəsdən artıq bilən, onun dili ilə söyləyən, onun sazını çalan türk şairi Məhməd Əmin bəyin sözləri ilə sübut etmək istərəm. Şair türk hökumətinin istibdadını təsvirlə deyir ki:

*Şu istibdad hökuməti, Türkiyəyə təhlükə!*
*Baxın, məsud etmək üçün hər şey olan bir ölkə,*
*Hər qüvvəti məqsədinə ram eyləyən bir ümmət,*
*Üç qitədə cahangircə hökm sürən bir dövlət*
*Şu saatda bir qaranlıq uçurumun üstündə.*

Əfəndilər bunu edənlər, bu istibdadı quranlar kəndiləri müsəlman və türk deyillərmi? *(Məhəmməd Əmin: Çox vaxt deyillər!)* Mən deyə bilərəm ki, əgər Osmanlı xalqı və əkinçilərini Avropa sərmayədarları əzirlərsə də, onlardan daha əvvəl əzən həman paşalardır. Daima bunlara qarşı üsyan edən şair türk əkinçilərinin halını təsvir edərək deyir ki:

***Bu yazıqlar***
*Şu zavallı millət üçün Məşrutiyyət xəyanət*
*Ədaləti düşünən baş əzilir,*
*Müsavatı söyləyən dil kəsilir,*
*Hürriyyətlə çırpınan qəlb xaindir...*
*Zindanlarda bu məzluma zəncirlər,*
*Biçarəyə qızdırılmış dəmirlər,*
*Biçarəyə soyuq sular, tomruqlar,*
*Murdar sözlər, yumruqlar,*
*Biçarəyə Mərmərədə qanlı-qanlı ölümlər,*
*Biçarəyə heç bir yerdə yapılmayan zülümlər.*

Kəndləri və əyalətləri təsvir edərkən şair deyir ki:

*İştə sizə taşralar ki, hər bucağı bir xaraba, bir məzar,*
*Köylərində iniltili qülübələr, örümcəkli boş xanələr,*
*Dağlarında dönməz olmuş dəyirmanlar; soyğun vermiş karvanlar;*
*Hər yerində yanğın, yağma, zülüm var.*

Məgər, bunları edən idarənin əleyhinə danışmaq olmazmı? Bir şair bütün qəlbi ilə bunlara qarşı tüğyan edərkən, siyasi bir firqənin tüğyan etməyə haqqı yoxmu? Məlumunuzdur ki, əfəndilər, burada Qafqaziya içərisində kəndi qardaşlarını xilas etmək kimi müqəddəs işlərə çalışan Məhmədciklərlə bərabər bir çox fənalıqlar yapan ədəbsiz zabitan da [zabitlər də] olmuşdur. Bunların ədəbsizlikləri zavallı Məhmədciyin boynuna atılacaqdır. Burada ingilislərin bir kontrol komisyonu var ki, müharibədən nəşət edən [qaynaqlanan] və birə on qat artıq göstərilən zərərləri hesab edir ki, canını fəda edən yazıq türk Məhmədciklərinin boynuna yükləsin. Hətta bir çox vicdansız müsəlmanlar dəxi var ki, oraya yazılı ərizələr vermişlərdir. Bunlar əleyhinə ilk əvvəl etiraz edən yenə bizim sosialistlər qəzetəsi olmadımı? Artıq türk barəsində danışmayıb, əleyhimizə əsaslı sübutlarla çıxsınlar.

Sorğuya gəldikdə, bu barədə deyərdim ki, danışılan bir çox sözlərin doğrusu varsa da, bir çoxlarının da doğru olduğunu etiraf etmək qeyri-mümkündür.

Məhəmməd Əmin həzrətləri buyurdular ki, hökumət məsələsində iki hal ola bilər. Biri Parlamandan qabaq, digəri sonra və Parlamandan qabaqkı hökumətin nöqsanını təzəyə isnad etmək olmaz. Hökuməti tənqid edərkən daxili və xarici düşmənləri, vaxtın az olmasını nəzərə almağı da tövsiyə etdilər. Bu az vaxtda işləri tamamlə düzəltmək qeyri-mümkün olduğunu da əlavə etdilər. Burası doğru, biz də etiraf edəriz. Fəqət, sabiq hökumət ilə yenisi arasında bir təfavüt olmalı idi. Beş həftə zərfində hökumət bari heç olmazsa bir iş görəydi, tədbir görüldü deyəydi, fəqət, mütəəssifanə [təəssüf ki], bir tədbir ittixaz edilməmişdir [tədbir görülməmişdir]. [Qarabəyli] Qara bəyin "Hökumət gözlədiyimizi vermədiyinə görə etimad etməyiriz" – deməsinə qarşı yoldaşımız Əbilov söylədi ki, hökuməti düşürməklə dərdə çarə olmaz. Hər bir işimizi Parlaman həll etməlidir. Fəqət, dövlət, məmləkət və əkinçinin hüququnu müdafiə edəcək iqdamatı [addımları] bu Parlamandan gözləmək əbəsdir. Lakin ümidvarız ki, bu yaxında dəvət olunacaq Azərbaycan Məclisi-Müəssisanına həqiqi xalq nümayəndələri cəlb olunacaq və onlar vasitəsilə əsaslı bir xalq hökuməti qurulub Azərbaycan yaşayacaqdır. O vaxtadək demokratik bir hökumət təsəvvürü qeyri-mümkündür. Lakin yenə dərdimizə bir çarə etmək üçün firqəmiz qərar qoydu ki, hökumətlə bərabər Parlamanda dəxi işləyib öylə fövqəladə tədbirlər görsün ki, hökumətə bir kömək olsun.

Hökumət namından [adından] Daxiliyyə naziri buyurdu ki, rüşvət alan xain məmurlar məhkəməyə verilib cəzalanacaqlardır. Fəqət, bu vaxtadək bir məmurun həbs edilərək cəzalandığını görmədik. Deməli, hazırda mövcud olan məhkəmə qanunları kifayət etməyir. Ona görə bir Ali Məhkəmə (Tribunal) qurulmalı ki, bütün möhtəkirlər, xainlər bu Ali Məhkəməyə verilərək cəzalansınlar, hətta lazım görülsə, bütün əmlakını da əlindən almağa səlahiyyətdar olsun. Yoxsa, şimdiki məhkəmələrə veriləcək olsalar, xainlər Azərbaycandan çıxıb Gürcüstan, Ermənistan və sair məmləkətlərə gedərək qanundan qaça bilərlər. Bunun önünü ancaq o Ali Tribunal vasitəsi ilə almaq mümkündür ki, bu da yalnız bizdə deyil, başqa məmləkətlərdə də var. Bütün bu işləri ət-

raflıca təftiş etmək üçün ikinci Parlaman komisyonu dəxi təşkil olunmalıdır. İştə bu surətlədir ki, tamamilə də olmasa əhval bir qədər bəlkə düzəlib Azərbaycan xalqı və kəndlisi üçün rahatlıq ola. *(Soldan alqış)*

**Aslan bəy Qardaşov** (Əhrar) - Bizim dünkü sözlərimizdə hökumətin izahatını kafi görmədiyimiz, bizim hökuməti yıxmaq arzusunda olduğumuzdan nəşət etməyib, verilən izahatın doğrudan-doğruya kafi olmamasından irəli gəlmişdir və bir də hökumət əzaları ilə bizim qərəzi-şəxsimiz [şəxsi qərəzimiz] olmadığı ilə bərabər kabinəyə bu halda daxil olmaq arzusunu dəxi etməyiriz.

Fəqət, biz onu istəyiriz ki, hökumətimizin əsası ədalət, haqqaniyyət üzrə təsis edilsin. Bu əsassızlıq üzündəndir ki, hökumət idarələrində böyük səhv və xətalar və xəyanətlər sadir olmaqdadır [baş verməkdədir]. Biz çox şad olardıq ki, hökumət özü sorğudan əvvəl bu xəyanətlərin önünü alaydı.

Bu qədər xəyanətlərə hökumətin göz yumması, barmaq arasından baxması təəccüb olunacaq bir şeydir.

Bir para natiqlər bu cür xəyanətlərin önünü almaq üçün tez bir zamanda Məclisi-Müəssisan çağırılması təklifatında bulundular.

Cavab olaraq mən onu demək istəyirəm ki, hal böylə davam edərsə, Məclisi-Müəssisanın çağırılması da mümkün olmaz. Biz xəyanət ismini, doğruluğu ilə məşhur olan Yollar nazirinin ağzından bu gün eşitdik. "Müsavat" fraksiyasının rəisi Rəsulzadə cənabları dünkü qaynar nitqində "Hökumətin səhv və xətaları olmaq mümkündür" deyir. Əcəba, nə cür səhv və xətadır ki, uzun bir müddət davam edir. Nə tühəf bir səhvdir ki, Bakı milyonçusuna, İran konsuluna 10 minlərlə verilən bezin bir arşını da olsun möhtacinə [ehtiyacı olanlara, möhtaclara] verilməyir. "Müsavat" rəisi nə üçün bu kimi şeylərə xəyanət deməyib səhv ismi verir?

Hökumətin verdiyi bəyanat bizi razı salmadı, zənn edirəm bu bəyanat "Müsavat"ı dəxi razı sala bilməz.

Biz "Əhrar" fraksiyası əvvəlki etimadımızı geri almırıq. Mahəza [bununla bərabər] fövqəladə bir komisyonun təşəkkülündə, sosialist fraksiyalarına iştirak edəriz ki, bəlkə işlər bir növ yolunda gedər.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

* Tərtərdən Rəisi-vükəla [Baş nazir] namına işbu məzmunda bir teleqram gəlmişdir:

*"Cavanşir qəzası əhalisi yeni təyin edilmiş general-qubernatoru məmnuniyyətlə pişvaz edərək [qarşılayaraq] öz hökumətlərinə millət uğrunda çalışmaqlarından dolayı rizaməndlik izhar edir [razılığını bildirir]. Əhali öz gənc cümhuriyyəti uğrunda lazım gələ biləcək bütün fədaiyyətdən [fədakarlıqdan] çəkinməyəcəklərini izhar edirlər.*

*Nümayəndələr:*
*İsmayılov, Muradxanov,*
*Qayıbov, Hacıyev"*

* Ağdamdan Rəisi-vükəla namına alınan teleqramın surəti:

Yeni general-qubernatorun təyini əhali tərəfindən məmnuniyyət və rizaməndliklə qarşılanmışdır. Yevlaxdan Ağdamadək bütün yolda Məclisi-Məbusan və Hökumət şərəfinə nümayiş olmuşdur. Yüzlərlə süvarilər bizim arabalarımızı yol uzaq edirdi [müşayiət edirdi]. Cümə günü Şuşa şəhərində qəza qaimməqamları [qəza rəisləri] və millət xadimləri müşavirəsi dəvət edilmişdir. Burada idarə barəsində müzakiratda bulun[ul]muşdur. Əlbəttə ki, müşavirə nəticəsi xüsusi hökumət deklarasiyasında elam ediləcəkdir [bildiriləcəkdir].

* [Rəisi-vükəlanın, süvari qoşunları nizamnaməsinin] türk lisanında olmasının təsdiqi haqqındakı məruzəsindən sonra qət edilmişdir: Komandanın [əmrlərin] türkcə olması təsdiq olunsun.

* Rəisi-vükəlanın Azərbaycan ordusu uniforması haqqındakı məruzəsindən sonra qət edilmişdir: Hərbiyyə Nəzarəti tərəfindən pişnihad [təqdim] edilən Azərbaycan ordusu uniforması təsdiq edilsin.

* Maliyyə Nəzarətinin aparılacaq çiyid gömrüyünü azaltmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir: Ticarət və Sənaye Nəzarətinə tapşırılsın ki, Maliyyə Nəzarəti ilə bərabər Gəncə yağ zavodunun qüvveyi-istehsaliyyəsini və habelə ehtiyat miqdarını və artıq qalacaq toxumun miqdarını müəyyən etsinlər.

* Şuşa general-qubernatorundan işbu məzmunda bir teleqraf alınmışdır:

*"Bu gün 12 şubatda [fevralda] Şuşa şəhərinə varid olub [gəlib] öz vəzifəm ifasına şüru etdim [başladım].*

*Gəncə quberniyası müvəqqəti*
*general-qubernatoru: Sultanov"*

* Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri müavininin beynəddəvair [idarələrarası] bir komisyon təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir: Maliyyə Nəzarətinə tapşırılsın ki, bütün dövləti idarələrdən birər nümayəndə olmaq üzrə bir beynəddəvair komisyon təşkilinə başlasın. Komisyon iki həftəyədək komisyona olan nəzəriyyatını hökumətə bəyan və təqdim etməlidir.

* Daxiliyyə nazirinin təhti-idarəsində [idarəsi altında] olan qulluqçuların məvaciblərini artırmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir: Nazirin məruzəsi təsvib edilir [bəyənilir] və tapşırılır ki, təsdiq edilmək üçün Parlamana idxal edilsin.

## SÜLH ƏTRAFINDA

*(Royter acentəliyindən)*

**Vilsonun əziməti**

Rəisi-cümhur Vilson fevralın 14-də axşam Parisi tərklə Amerikaya əzimət edəcəkmiş [gedəcəkmiş].

**Suriya istiqlaliyyəti**

Sülh Konfransı komitəsi Suriyanın tələbatı haqqında Çakri Qanemin məruzəsini dinləmişdir. Çakri Qanem ətraf ərəb tayfaları üçün Suriya istiqlaliyyəti tələb edir. Suriyanın istiqlaliyyəti etiraf [qəbul] edildiyi təqdirdə, Suriya öz nəşvü-nümasının [tərəqqisinin] əla dərəcədə olmasına baxmayaraq istibdad altından azad edildiyi zamanda mehriban və dostluq müavinətinə möhtac olacaqdır. Çakri Qanem Sülh Konfransından xahiş etmişdir ki, Suriyanın qeydini öz öhdəsinə alıb müavinət göstərsin.

* Paris - Hicaz kralının oğlu əmir Faysal Hicaz krallığı tərəfindən Sülh Konfransına nümayəndə təyini barəsində atasından dəsturüləməl [təlimat] gözləyir. Acudan [adyutant] sifətilə əmiri müşayiət edən polkovnik Laurens zənn edir ki, əmir Faysal özü krallıq tərəfindən birinci nümayəndə olacaqdır ki, Böyük Ərəb Federasyonu Dövləti layihəsi tərtib versin. Layihə konfransa idxal ediləcəkdir.

**Cəmiyyəti-Əqvam**

Sesil Müttəfiqlər mətbuatına xəbər verir ki, Almaniya, Avstriya, Bolqariya və Türkiyə hal-hazırda Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] buraxıla bilməzlər. Bütün cahan millətləri cərgəsinə girməyə ləyaqətlərini ibraz [nümayiş etdirdikdən] və etimada məzhər [nail] olduqlarını göstərdikdən sonra bunlar da Cəmiyyəti-Əqvama buraxılacaqdırlar. Almaniyada hal-hazırda davam edən başsızlıq bərtərəf edilməyincə [aradan qaldırılmayınca] və həqiqi hökumət görünməyincə və öz əqidəsini dəyişmədikcə etibara məzhər olammaz. O ki qaldı Avstriyaya, o da etibara məzhər olan hökumət təşkil etməlidir; olarsa onları Cəmiyyəti-Əqvama buraxmamağa heç bir əsas qalmaz. Türkiyənin ərazi məsələsi konfransda həll edilməyincə, Türkiyənin iclasa buraxılması müşkül məsələdir. Bolqariya Balkaniya tamahından əl çəkəcəyi təqdirdə Cəmiyyəti-Əqvama buraxılacaqdır.

* "Tayms" qəzetəsinə Berndən verilən xəbərlərə nəzərən, qraf Rantsau və Şeydeman Ümumi Süh Konfransına Almaniya tərəfindən nümayəndə göndəriləcəkdirlər.

## TELEQRAF XƏBƏRLƏRİ

**Alman sualtı qayıqları**

Alman sualtı qayıqları Birja acentəliyinin teleqrafına görə fevralın 7-sində Kildən Harviçə gəlmişlərdir. Almanlar izhar etmişlər ki, burada sualtı qayıqlarından ikisi qərq edilmişdir.

**Almaniyada tətil**

Mulhaymda olan dəmiryol mövqifi [stansiyası] Spartak əsgərləri tərəfindən işğal edildiyinə görə, poçta və dəmiryol xidmətçiləri tətil etmişlərdir.

**Berlində**

Berlində asayişi müdafiə edən qvardiya firqəsi iğtişaşı yatırmaq üçün hər cür tədbirlər ittixaz etməkdədir [tədbirlər görməktədir]. Küçələrdə və meydanlarda əsgərlər qoyulmuşdur. Fabrika və zavodlar açıq olub dövlət əsgərləri tərəfindən mühafizə edilməkdədirlər.

* Bremen şəhəri hal-hazırda dövlət əsgərləri tərəfindən zəbt edilmişdir. Şəhər xarabazar halındadır. Birja artıq dərəcədə xəsarətlənmişdir.

**Radekin həbsi**

"Volf" acentəliyi xəbər verir ki, fevralın 7-sində Radek öz evində həbs edilmişdir. Burada Radek bütün Almaniyaya təşviqat nəşr edirmiş. Külli miqdarda para və mühüm sənədlər müsadirə edilmişdir.

**Axıskada**

Tiflisdə müntəşir [nəşr olunan] "Borba" qəzetəsi yazır: Mövsuq [mötəbər] mənbədən xəbər verilir ki, Axıska mahalında Gürcüstan Hökumətinə qarşı iki alay müntəzəm qoşun çıxış yapmışdır. Saldatlar arasında bir çox əsgərlər vardır. Bu qüvvələri türk zabitləri idarə edir. Bundan maəda [başqa], onların cərgəsində ruslar və erməni afiserləri də vardır.

## QƏZETƏLƏRDƏN

**Kizlyar rayonunda müharibələr**

Hal-hazırda Tersk bolşevik qüvvələri Kizlyar və ətrafına cəm olunmaqdadırlar. Ələləlümdə [başlıca olaraq] 11 və 12-nci Qırmızı ordu əsgərlərinin qalanı cəm olmuşlardır. Kizlyar özü müdafiəyə hazırlanır. Çünki Könüllü ordu dəstələrinin hücumu gəldikcə şiddət etməkdədir. Kizlyar rayonu bolşeviklərdən ötrü xeyli mühümdür. Çünki Həştərxan vasitəsilə Kaspi dəryası [Xəzər dənizi] Rusiya ilə tək bir münasibat [əlaqə] yoludur. Həştərxandan bolşeviklər canlı qüvvə və mühimmat [silah-sursat] almaqdadırlar. Kaspi dəryası Bakı donanması tərəfindən mühafizə edilirsə də bu donanmanın o qədər qüvvəti yoxdur ki, Kaspi sahilini mühafizə edə bilsin. Bu yaxınlarda bolşeviklər bir böyük sihhiyyə paraxodunda öz yaralı və naxoş əsgərlərini Həştərxana göndərmək istəmişlər. Lakin bu paraxod Bakı donanması tərəfindən tutulub Şamilqalaya (Petrovsk) gətirilmişdir.

* Bir dəstə vladiqafqazlılar Vladiqafqaz tərəfdə nələr vaqe olduğunu bilməkdən ötrü Kazbekə avtomobil göndərmişlər. Yollarda böyük qar olduğuna görə avtomobil Mletdən qayıtmışdır.

**Müharibələrin dayandırılması tədbirləri**

Gürcüstan Hökuməti nəzdində olan Dağıstan Hökuməti nümayəndəsinin verdiyi məlumata görə, İngiltərə komandanlığı Tersk oblastında müharibələrin dayanması üçün bir çox tədbirlər görməkdədir. Yenə həman məlumata görə, hal-hazırda Dağıstan Hökuməti ilə Könüllü ordu komandanlığı arasında münasibat bərpa edilmişdir.

**Soçinin işğalı haqqında**

Tiflisdə alınan məlumata görə, Soçi nahiyəsinin general Bruneviç dəstələri tərəfindən işğalı xudsəranə [özbaşına] bir surətdə olmuşdur. Çünki bu hücum Könüllü ordu Baş komandanlığından bixəbər edilmişdir. Hər halda əvvəlcədən sabiq vəziyyəti bərpa etmək üçün Soçi nahiyəsinə gürcü əsgərləri göndərilmişdir. İngiltərə heyəti nümayəndəsi Uayt bu barədə müəyyən iqdamatda [təşəbbüsdə] bulunmaqdadır.

## TƏTİL GÜNLƏRİNİN MÜHÜM XƏBƏRLƏRİ

**İsveçrədə üsyan**

İsveçrənin bir neçə şəhərində aclıqdan üsyan əmələ gəlmişdir. Bir neçə mağazalar qarət edilmişdir.

**Vəhib paşa və Hüseyin Cahidin edamı**

İstanbul - Qulluq işlərində xəyanət etdikləri üçün Qafqaziyada olan Türk qoşunlarının sabiq komandanı Vəhib paşa ilə "Tənin" qəzetəsinin müdiri "İttihad-Tərəqqi" firqəsinin başçısı və Türkiyə

Məclisi-Məbusanının üzvü Hüseyin Cahid atılmaqla edam edilmişlərdir.

**Könüllü ordunun inquşlara ultimatumu**

Yekşənbə [bazar] günü axşam saat 9-da Qazıbəydən xətti-müstəqimlə [birbaşa] xəbər verilir ki, Könüllü ordu dəstəsi Beslan mövqifinin [stansiyasının] 10 verstliyində olan inquşların Dolaqovo adlı kəndinə yaxınlaşıb İnquş Milli Şurasına bu məzmunda bir ultimatum təqdim etmişlərdir:

1) İnquş əhalisi tərk-silahla bütün silahlarını Könüllü dəstələrə verməlidir.

2) Şura Hökuməti tərəfdarları və Qırmızı qoşun cərgəsində iştirak edən inquşlar Könüllü qoşun ixtiyarına verilməlidir.

3) Könüllü ordu İnquşistan torpağından Qroznıya bilamümaniət [maneəsiz] buraxılmalıdırlar.

4) İnqilab zamanında kazaklara verilən bütün xəsarəti inquş milləti verməlidir.

5) İnquş milləti 18 yaşından 40 sinninədək [yaşınadək] adamların səfərbərliyə dəvət edilib də içəri Rusiyaya bolşeviklərlə mübarizədən ötrü [göndərilməsinə] razı olmalıdır.

6) İnquş milləti Tersk oblasta kazakdan general-qubernator təyin edilməsinə riza verməlidir.

Ultimatum üçün 10 saat vaxt qoyulmuşdur. İnquş Milli Şurası bu utimatumu müzakirə etdikdən sonra qəti surətdə rədd eyləmişdir. Nəhayət Könüllü ordu kəndə hücum eyləmiş, fəqət müvəffəqiyyəti olmamışdır. Üç dəfə təkrar edən bu hücumda hər iki tərəfdən külli tələfat verilmişdir. Axırda kənd Könüllülər tərəfindən mühasirə edilib od vurulmuşdur. Hal-hazırda müharibə davam edir.

**Fransada bolşeviklər**

Paris - Bir çox fransız saldat və afiserlərindən bolşevik intibahnamələri və kitabçaları tapılmışdır. Hökumət bu işdən artıq dərəcə həyəcana düşmüşdür. Hətta, bolşeviklikdə ittiham edilən bir neçə şübhəli alaylar qaravul altına alınmışlardır.

**Könüllü ordunun ricəti [geri çəkilməsi]**

Tiflis - Gürcüstan Hərbiyyə nazirinin məlumati-rəsmiyyəsi [rəsmi məlumatı]: Qvardiya ərkani-hərb [qərargah] naçalniki böylə məlumat verir:

Könüllü qoşunlar Adlerdən sübh vaxtı hərəkət etmişlərdir. Bizim səngərdə olan ermənilər düşmənlərimizin tərəfinə keçib bizimlə müharibə edirlər. Bizimlə düşmən süvarisi arasında müharibə gedir. Yalnız bir at gəbərmişdir. Könüllü dəstəsi məğlub olub Batum tərəfə qaçır.

## BAKI XƏBƏRLƏRİ

**Üskü münasibətilə**

Novruz baramı yaxlaşır. Üskülər gəlir. Bu münasibətlə adəta hər il və həmişə şəşənbə [çərşənbə axşamı] günləri müsəlmanlar güllə atarlar. Əlbət ki, bu bir adətdir. Bayram axşamları atarlar. Fəqət bu saat hamı bilir ki, adi zamanlar deyildir. Adəti şeyləri adi zamanlarda edirlər. Şimdiki adi zaman deyil. Müsəlman qardaşlara təklif olunur ki, üskü axşamları güllə atıb xalqı narahat etməsinlər. Əgər güllə atılsa, hökumət dəxi şiddətli tədbirlər





görməyə məcbur olar. Camaat bilməlidir ki, bədxahlar adətən böylə hərəkətlərdən istifadə edirlər. Camaatımız bu işlərə məhəl [yer, imkan] verməməlidir.

**Güllə atanların həbsi**

Məlum olduğu üzrə hər gecə şəhərin müxtəlif yerlərində güllələr atılır. Şəhərdə böylə şeylər qadağan olduğundan güllə atanlar təqib edilib, 10 nəfərədək tutulub məhkəməyə verilmiş və hərəsi iki il həbsə məhkum edilmişdir. Məhbusların içərisində bir neçəsi milis nəfəratındandır.

**Müsəlman ziyalılarının yığıncağı**

Şənbə günü fevralın 15-ində axşam Bələdiyyə Məclisinin zalında Bakı və ətrafı müsəlman ziyalılarının yığıncağı vaqe oldu. Yığıncaqda təqribən 200-dək adam var idi. Bu cümlədən bir çox müsəlman xanımları hazır idilər. Məclis saat 7 radələrində açılıb əksəriyyəti-ara [səs çoxluğu] ilə sədarətə Mehdi bəy Hacıbababəyov, katibliyə Ağalar bəy Mahmudbəyov seçilirlər. Sədr bugünkü yığıncaqdan məqsəd nə olduğunu müxtəsərən söyləyib Bakı və ətrafının müsəlman ziyalılarını ittihada [birliyə] dəvət edərək heyəti-mütəşəbbisə [təşəbbüskarlar heyəti] tərəfindən nizamnaməsi tərtib edilmiş olan "Bakı müsəlman zəhmətkeş ziyalılarının ittifaqı"nın təşkil edilməsini təklif edir. Sədrdən sonra heyəti-mütəşəbbisə əzasından [üzvlərindən] Cəmil bəy Vəzirov ittifaqın məqsəd və amalı haqqında bəyanat verərək Azərbaycanın keçirməkdə olduğu təhlükəli vaxtlara məclisin diqqətini cəlb edir. Hökumətin və Məclisi-Məbusanın fəaliyyətindən danışaraq məruzəçi əfəndi istər məclis və istərsə hökumətdə, vəzifəsini düşünüb onu lazımi dərəcədə ifa edən üzvlər olmadığını qeydlə ümum müsəlman ziyalılarını fəaliyyətə dəvət edərək təşkilat yapmaqla Azərbaycan istiqlaliyyəti uğrunda çalışmaq və ona xidmət edib ətrafdan gələn hər dürlü xətrədən [təhlükədən] müdafiə etməyi vacib bilir.

Məruzədən sonra ittifaqın məramnaməsi oxunur. İttifaqın ümdə məqsədi məktəb, müzəxana [muzey] açmaq, kurslar, mühazirələr tərtib etmək, sənaət [sənaye] və ticarətə xidmət edərək bunun üçün lazımi təşəbbüsatda bulunmaq və ələlxüsus Qafqaziya millətləri arasında münasibati-dostanə peyda və bərqərar [etmək] olduğu anlaşılır.

Məclis, ittifaqın – "Bakı və ətrafı müsəlman zəhmətkeş ziyalılarının ittifaqı" adlanmasına qərar verir. Məramnamə maddəbəmaddə oxunub qəbul olduqdan sonra seçkilərə şüru olunur [başlanır].

Heyəti-mütəşəbbisə siyahısı üzərinə 12 adam heyəti-idarəyə (şuraya) və 6 nəfər onlara namizəd seçilirlər.

Ələlümum seçilənlər bunlardır:

1) Ağalar bəy Mahmudbəyov;
2) Camo bəy Cəbrayılbəyov;
3) Mehdi bəy Hacıbababəyov;
4) Axundov Rəhim;
5) Ağa Axundov;
6) Əli Seyidov;
7) Əhmədəli Xasov;
8) Lətif Mahmudbəyov;
9) Sadiq Hüseynov;
10) Vəzirov Cəmil bəy;
11) Əliməhəmməd Mustafayev;
12) Qayıbov Məhəmmədağa.

Namizədliyə:
1) Əhmədbəyov Zivər bəy;
2) Əhmədbəyov Kərim bəy;
3) Bayraməlibəyov Teymur bəy;
4) Qədir Heydərov;
5) Baba bəy Səfərəlibəyov;
6) Abdulla bəy Abaşidze.

## ƏRZAQ İŞLƏRİ

- Ərzaq Nəzarəti Məsai [Əmək] Nəzarətinə yazır ki, məvaciblərin artması ilə əlaqədar olaraq birinci zəruri şeylərin bahalanması ilə mübarizə etməkdən ötrü Ərzaq Nəzarəti sizin təsəvvüratınıza şərik olaraq birinci zəruri şeylərin bazarda kifayət qədəri olmasından əlavə qiymətlərin azalmasına çalışmaqdadır. Bundan ötrü də ucuz qiymətlə bazara şey çıxarmalıdır. Ərzaq Nəzarəti buna nail olmaqdan ötrü hər cür tədbirlər ittixaz edib [tədbirlər görüb], mal gətirilməsindən ötrü bir çox adamlarla müqavilənamə bağlayıb və bağlamaqdadır. Bundan əlavə, Ərzaq Nəzarəti birinci zəruri şeylər almaqdan ötrü Kubana və cənubi Rusiyaya öz vəkillərini göndərməkdədir. Lakin hal-hazırda dəmiryolda nəqliyyat işləri qeyri-müntəzəm olduğundan bu tədbirlər iki-üç aydan tez olmaz. Su nəqliyyatı da büsbütün Müttəfiq komandanlığı əlində olduğundan, başqa müəssisə və şəxslər ixtiyarına verilmir. Bunlardan əlavə, gətiriləcək malların təzə təşkil olunmuş dövlətlərdən keçirilib gətirilməsi təxirə düşüb bəzən bilkülliyyə buraxılmır. Burasını da nəzərə almalıdır ki, Ərzaq Nəzarəti ancaq həqiqi bir surətdə bu il yanvar ayından davam etməyə başlamışdır. Hər halda Ərzaq Nəzarəti məmləkətin kasıb əhalisini ucuz qiymətlə külli miqdarda birinci zəruri şeylərdən təmin etməyə ciddi surətdə çalışmaqdadır.

- Ərzaq Nəzarəti İran konsuluna yazmışdır ki, konsulxana tərəfindən göstərilən adres ilə kəşf edilmiş dəri malların siyahısı üçün Ərzaq Nəzarəti tərəfindən acentə göndərilmişdir. Lakin bu mallar acentə tərəfindən siyahı edilməmişdir. Çünki, aşkar olmuşdur ki, göstərilən anbar A. S. Yefimova mütəəlliqdir [məxsusdur] və anbarda olan malları saldat çəkməsi tikməkdən ötrü Qafqaziya ordusu anbarından almaqdadır. Konsulxana bu malların nə cür vasitə ilə həman anbarda olmasını bilavasitə Qafqaziya ordusu idarəsindən xəbər almalıdır.

- Ərzaq Nəzarəti dəmiryol mövqifi [stansiyası] naçalnikindən xahiş edir binagüzarlıq [sərəncam] verilsin ki, Çornı-qorodda "Yakor və Vira" zavodundan təcili surətdə 7 vaqon neft çxarılıb Gürcüstan təriqi [yolu] ilə Azərbaycan Ərzaq Nəzarəti adına Batuma göndərilsin.

- Ərzaq Nəzarəti Azərbaycan dəmiryolları naçalnikindən üçüncü dəfə xahiş edir, binagüzarlıq edilsin ki, Çornı-qorodda "Yakor və Vira" zavoduna tezliklə 15 dənə örtülü vaqon verilsin.

- Batuma aparılan neftləri müşayiət etməkdən ötrü Ərzaq Nəzarəti tərəfindən S. S. Vonsoviç göndərilir.

- Ərzaq Nəzarətinin ümumi şöbə müdiri Vasili Sergeyeviç Popov Azərbaycan Hökumət idarələri xidmətçilərinin məvacibləri artması məsələsinə baxacaq beynəddəvair [idarələrarası] komisyona Ərzaq Nəzarəti tərəfindən nümayəndə göndərilir.





- Ərzaq Nəzarəti Daxiliyyə Nəzarətinə yazır ki, əhalinin kasıb sinfinə əlverişli qiymətlə lazımi ərzaq şeyləri buraxmaqdan ötrü Ərzaq Nəzarəti tərəfindən Bakı şəhərində dükanlar açılır. Bu dükanlar üçün Ərzaq Nəzarəti 5-inci Qanlıtəpə və Stanislav küçələri küncündə Atabəyovun 88-inci nömrəli və Şamaxı yolunda Hacıyevin evində olan yerləri nəzərə almışdır. Buna görə, Ərzaq Nəzarəti sizdən xahiş edir ki, həman dükanların həcz [müsadirə] edilməsi üçün binagüzarlıqda bulunasınız [sərəncam verəsiniz].

- Ərzaq Nəzarəti Səhhəti-Ümumiyyə Nəzarətinə [Səhiyyə Nazirliyinə] yazır ki: Hökumət müəssisələrində olan xidmətçilər üçün "Kooperatsiya" istehlak cəmiyyətindən kooperatsiya qiyməti ilə şeylər və mallar almaq imkanı vardır. Bu şeylər hamısı Nəzarət hesabına alınıb xidmətçilərə paylandıqdan sonra qiyməti məvaciblərdən saxlanacaqdır. Ərzaq Nəzarəti kooperatsiyada olan şeylərin surətini Səhhəti-Ümumiyyə Nəzarətinə göndərib Nəzarətdə olan xidmətçilərin siyahısını və istədikləri şeyin nə miqdarda olmasını yazıb göstərməyi xahiş edir.

- Ərzaq Nəzarəti, Müttəfiq dövlət polisəsi komissarı Kokerellə yazır ki, Skobelev qardaşları dəyirmanı anbarlarından biri İngiltərə komandanlığı ehtiyacı üçün tərəfinizdən zəbt edilmişdir. Bu bina əvvəlcədən Biçeraxovun partizan dəstəsinin qarajı üçün zəbt edilmiş idi. Hal-hazırda bu yer Biçeraxov tərəfindən boşa[l]dılmışdır. Skobelev qardaşları dəyirmanı Ərzaq Nəzarətinin ehtiyacatı üçün işlədiyindən və bu dəyirman anbarlarında Ərzaq Nəzarətinə mütəəlliq [məxsus] bir çox buğda və un olduğundan, Ərzaq Nəzarəti həman yerin tərəfinizdən zəbt edilməməsini xahiş edir.

## AZƏRBAYCANDA

**Göyçaydan**

Azərbaycan Cümhuriyyətinin elanından sonra xalq demokratiya sinfi bir az nəfəs almağa başladılar, çobansız sürü kimi olmadıqlarını anladılar. Hampaların [qoluzorluların] əllərindən bizar olan uyezdin [qəzanın] füqəra əkinçiləri lazım gələn yerlərə müraciət edib haqlarında rəva görülən bunca müsibəti qarət və yəğmaçıların haqqında qanunən icra ediləcəyini ümid eylədilər. Lakin minlərlə put buğdaların, türklər zamanında toplanan azuqənin satıldığını və bir-iki nəfərin cibinə girdiyini görən əhali fəğanlar içində qaldığı kimi, gedən komisyonlar dəxi bütün təhqiqatı yapma içində saxlayırlar.

Ərzaq idarələrində olan sui-istemal [sui-istifadələr] məlum olduğu halda, Ərzaq Nəzarəti tərəfindən bu xüsusda tədbir hələ yoxdur. Bu ilki qarqaşalıq nəticəsi olaraq dağılmış, məhv olmuş Göyçay uyezdinin bir hissəsinin vəkili bir aydan çoxdur ki, çılpaq camaata bez və çit almaq üçün Bakıya gəldiyi halda hənuz bir şeyə müvəffəq olmadığını bildirir. Səbəbi-təəccübdür [təəccüb səbəbidir] ki, həqiqi camaat vəkilləri aylarca Bakıda yatırlar, xərcləyirlər, heç bir şeyə müvəffəq olmayırlar. Ancaq möhtərəm Şamaxı vəkili Əfəndiyev Şamaxı üçün on beş gün zərfində bez alıb həman bezi də Göyçayda satmağa müvəffəq olur. Bu bir sirrdir ki, bilməyə çarə yoxdur.

Yollarımız inqilabdan sonra bərbad bir

haldadır. Neçə dəfələr lazım gələn yerlərə müraciət edilmişsə də, hələ heç bir nəticə verməmişdir.

Camaat arasında xəstəlik hökmfərmadır [hökm sürməkdədir]. Əlac [dərman] tapılmayır, doktor isə hakəza [habelə].

Kəndlərdəki məktəblər qapanmış, kənd və şəhər məktəblərinin müəllimləri isə maaşsız keçinirlər. Beş yüz manat alan bir müəllimdən nə gözlənir. Bir ailə beş yüz manatla keç[in]ərmi!

Polisə təşkilatı təzədən düzəlmişdir. Fəal Xankişi bəy gəlmişdir. Əvvəldən olan üsulsuzluğu bərhəm edəcəyini [düzəldəcəyini] ümid edirik. Posta və teleqraf idarələri isə, yuxarıda ərz etdiyim kimi, yolun xarab olmasından qaydaya düşməmişdir. Göyçayda əvvəlcə təşkil edilmiş bir neçə kooperatif şirkətlərində əzalardan [üzvlərdən] bəziləri tərəfindən fürsətdən bilistifadə sui-istemalat [sui-istifadələr] olmuşdur. Bu xüsusda qələyan edən [qaynayan] camaatın haqqını təmin etməyi təzə naçalnikimizdən gözləriz.

Hökumətimizdən təkidlə təvəqqe edirik ki, ayaq altında qalmış olan camaatımız ehtiyacı üçün bir çareyi-acil [təcili çarə] olaraq bir heyəti-sihhiyyə ilə [səhiyyə heyəti ilə] əlac [dərman] və sairə göndərmək surəti ilə bir az təsəlli versinlər.

*M. Şünasi*

## GÜRCÜSTANDA

### General Şatilovun vəfatı

Sabiq Tiflis sərdarının müavini və Şurayi-Dövlət üzvü general [Nikolay Pavloviç] Şatilov fevralın 9-unda Tiflisdə fəciətən [faciəvi surətdə] vəfat etmişdir.

### İngilis əsgərləri

Fevralın 10-unda Tiflisdən Naxçıvana topxana ilə külli miqdarda ingilis əsgərləri yola düşmüşdür.

### General-qubernatorun əmri

Tiflisdə birinci zəruri şeylərin məzənnədən yuxarı satılması qadağan edilir. General-qubernatorun bu barədə verdiyi icbari qərardadını xələldar edənlər 1 il 6 ay həbsxanaya [salınacaq] və ya 10 min manat cərimə ediləcəklər.

### Batumda

* Fevralın 5-ində Kobuletidə böyük mitinq vaqe olub, muxtariyyətli bir surətdə Gürcüstana yapışmaq arzusu izhar edilmişdir. Bu ədalətli tələbatı müdafiə etməkdən ötrü həmin təkliflə acaralılara müraciət edilmişdir. Gürcüstan Hökuməti nümayəndəsi Paqava Batuma varid olmuşdur [gəlmişdir]. Müşarunileyhə [adı çəkilən şəxsə] həvalə olunmuşdur ki, Gürcü Milli Şurasının qərarına görə Batumda gürcü gimnaziyası açsın. Dərslərin bu həftə başlanacağı ümid olunur. Gürcü və gürcü müsəlmanları cəmiyyəti-xeyriyyələri birləşib “Müsəlman Gürcüstanın Cəmiyyəti-Xeyriyyəsi” təşkil etmişlərdir. Cəmiyyəti-xeyriyyə idarəsinə 3 gürcü və 6 gürcü müsəlman daxil olmuşdur.

* İngiltərə konsulu Stivens Batuma varid olmuşdur. Fon Kress başda olmaq üzrə Gürcüstandan övdət edən [qayıdan] Almaniya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] beş gündür ki, Batumdadır. Həmin heyət ingilislər tərəfindən İstanbul təriqi [yolu] ilə yola salınacaqdır. Bundan ötrü də gəmi intizarındadırlar [gözləyirlər].





## AÇIQ MƏKTUB

### Balakənd nahiyəsi əhalisinə

Nahiyənizdə oğurluq, soyğun və quldurluq kimi bəd əməllərin peyda olduğunu və bundan qayət bizar olduğunuzu bildirən teleqrafınızı təsirlə oxudum.

Həqiqətən islam qardaşlarının yayın qızmar günlərində, toz-duman içərisində, qışın adam dondurucu boranlarında min cürə zəhmət və məşəqqətlə qazandıqları halal mallarını əllərində saxlaya bilməmələri, əhli-əyalın və özünün daima qorxu içində bulunmaları hər bir əhli-insafa fəna təsir edəcək bir işdir.

Mən sizi inandırıram, Zaqatala vilayəti, bilxassə [xüsusilə] nahiyəniz haqqında hökumət ciddi tədbirlər görmüşdür. Tez bir zamanda sizi narahat edən bədəfkarlar [canilər] əlindən xilas olub da rifahi-hal üzrə yaşamağınızı və istədiyiniz kimi sərbəst və əmin olaraq gəzə biləcəyinizi təbşir edirəm [muştuluqlayıram].

Kəndli islam qardaşlarımın hər bir cəhətdən işləri düzgün olub rahat yaşamaları arzusunda bulunduğumdan və onların dərdi öz dərdim olduğundan hər bir vaxtda ehtiyacınızı bildirməniz niyaz olunur.

*Zaqatala məbusu: Bayram Niyazi [Kiçikxanov]*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Контора Агентуры и Комиссии**
**"И. Фани и Ко."** Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
**Agentura və komisyon kantoru**
**İ. Fani və kompaniyası.** Bakı, Serkovnı küçədə 70 nömrəli evdə.
Telefon nömrəsi 22-28.
Poçta yeşiki 13.

Kimdə nə mal varsa və kimə nə mal lazımsa bizim kantora müraciət etmələri təvəqqe olunur. Hər cür malların satışını qəbul və qəbul edilən mallar üçün qabaqca pul (ssdua) buraxırız. Sair şəhərlərdəki komisyon və agenturalardan öz mənfəətləri xatirlərinə ünvanlarını göndərmələri mətlubdur [tələb edilir]. Kantorumuz hər gün səhər saat 8-dən 2-yədək, axşam 4-dən 7-yədək açıqdır.

**Diş həkimi İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Bu günün məsələsi**

səh. 224. "Amazasp": "Daşnaksutyum" partiyasının liderlərindən, erməni qatil və terrorist Hamazasp Srvandzyan nəzərdə tutulur.

səh. 225. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 226. "Qəçrəş": qəzetdə "Qəşrəş" getmişdir.

səh. 227. "...putu 10 manatdan olaraq...": qəzetdə "olaraq" yerinə "olan" getmişdir.

səh. 228. "türk şairi Məhməd Əmin bəyin": türk şairi Məhməd Əmin Yurdaqul nəzərdə tutulur.

"Şu istibdad hökuməti...": misralar Məhməd Əmin Yurdaqulun "Vətən təhlükədə" adlı şeirindəndir.

"Şu zavallı millət üçün Məşrutiyyət xəyanət...": misralar Məhməd Əmin Yurdaqulun "Vətən təhlükədə" adlı şeirindəndir.

"Məşrutiyyət": konstitusiyalı monarxiya.

"tomruq": məhkumun əllərinə və ayaqlarına keçirilib bağlanan iki kötükdən ibarət işgəncə aləti, kündə.

"İştə sizə taşralar ki...": misralar Məhməd Əmin Yurdaqulun "Vətən təhlükədə" adlı şeirindəndir.

"qülübə": daxma; koma.

**Vükəla Şurasında**

səh. 230. "...lazım gələ biləcək bütün fədaiyyətdən çəkinməyəcəklərini...": qəzetdə "fədaiyyət" yerinə "füduiyyət" getmişdir.

səh. 231. "[Rəisi-vükəlanın, süvari qoşunları nizamnaməsinin] türk lisanında olmasının təsdiqi haqqındakı...": Bu xəbər qəzetdə, baş tərəfi əskik olaraq və özündən əvvəlki xəbərə bitişdirilərək verilmişdir (güman ki, arada bir sətir düşmüşdür); bərpa etdik.

**Sülh ətrafında**

səh. 232. "qraf Rantsau": 1919-cu ildə Almaniyanın Xarici İşlər naziri olan Ulrix fon Brokdorf-Rantsau nəzərdə tutulur.

**Teleqraf xəbərləri**

səh. 232. "Harviç": qəzetdə rusca tələffüzünə uyğun olaraq "Qarviç" kimi getmişdir.

"Spartak": 1916-1918-ci illərdə Almaniyada fəaliyyət göstərən marksist təşkilat. Ümumdünya proletar inqilabı tərəfdarı idi. Təsisçiləri arasında Roza Lüksemburq, Karl Libknext və başqaları yer alırdı.

**Tətil günlərinin mühüm xəbərləri:**
**Vəhib paşa və Hüseyn Cahidin edamı**

səh. 233. Bu xəbər həqiqəti əks etdirmir.

**Ərzaq işləri**

səh. 237. "5-inci Qanlıtəpə": Bakıda, indiki Vladislav Plotnikov küçəsi.

"Stanislav küçəsi": Bakıda, indiki Azadlıq prospekti.

"Bu bina əvvəlcədən Biçeraxovun partizan dəstəsinin qarajı üçün...": qəzetdə "bu bina" yerinə "buna binaən" getmişdir.



*"Azərbaycan" qəzetinin 116-cı nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə axşamı, 18 fevral 1919-cu il, nömrə 116**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 17 cəmadiyələvvəl sənə 1337. 18 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## BAKI MÜSƏLMAN CƏMİYYƏTİ-XEYRİYYƏSİ TƏRƏFİNDƏN BAKI ƏHALİSİNƏ XİTAB

Möhtərəm əhali! Tarixi-bəşərdə misli görünməmiş və heç bir zihəyatın [canlının] ağıl və zehninə gəlməyən və beş ildən bəri bütün dəhşət və şiddəti ilə davam edən qanlı Avropa müharibəsinin aləmi-bəşəriyyətə vurduğu zərbələr, dağıtdığı xanimanlar, yıxdığı evlər, viran etdiyi vilayətlər hər bir kəsə məlum və aşkardır. Çünki hər kəs tam beş sənə bu cigərsuz [ciyər yandıran, qəmli] hadisələrin şahidi-güvahı [canlı şahidi] olmuş və bir nəfər tapılmaz ki, bu ümumi müsibətdən yaxasını qurtarıb, bu bəlaya giriftar olmasın. Müharibənin törətdiyi fənalıqlar və bu müharibənin nəticəsi olaraq bu günə kimi müşahidə etdiyimiz vaqeələr, əlbəttə, tarixi-aləmin ən qaranlıq səhifəsini işğal edəcəkdir. Bu müharibə və bu inqilabi-əzim [böyük inqilab] vətənimizin əhvalına təsirsiz qalmadı. Keçən il mart ayında şahid olduğumuz hadiseyi-əlimə [kədərli hadisə], neçə minlərlə müsəlmanların fəlakəti, bir çox evlərin dağılması, imarəti-Xeyriyyənin [Xeyriyyə binasının] yanması, bəzi şəhərlərin və bir çox kəndlərin atəşlə viran və xarabazar olması, bir çox əhali ailələrini arxasına alıb da diyari-qürbətə düşməsi xatirdədir. Minlərlə əhali soyuğun, aclığın və mərəzin dəhşətindən həlak oldular. Şimdi müharibə qurtarmış, lakin vətənimizdə topsuz, tüfəngsiz aclıq, qəhətlik və mərəz müharibəsi başlanmışdır. Bu qədər çəkmiş olduğumuz ümumi bəlalardan bir qədər nəfəs almaq istərkən yenə həman müharibənin nəticəsi olaraq aclıq və qəhətlik bəlasına da düçar olduq. Nə qədər insanlar yatalaq xəstəliyindən fövt [məhv] olur. Şübhə yoxdur ki, bu kimi mərəzlərin intişarına [yayılmasına] həman qəhətlik səbəbdir. İnanınız ki, şəhərimizdə, yəni bu neft mənbəyində bu qədər sahibi-sərvətlərin [varlıların] olduğu məkanda acından həlak olanlar vardır. Biliniz ki, naz və nemət içində bəslənmiş olan bir çox ailələr bu gün quru çörəyə belə möhtacdırlar. Şahid olunuz ki, həyasından əl açmağı özlərinə həqarət bilən insanlar aclıqdan həlak olurlar. Böylə zamanda, böylə ağır günlərdə millətin sərvətli qismi öz ac və fəlakətzədələrinə müavinət [kömək] etməlidirlər. Hərgah, millətin böylə düşkün və böylə pərişan zamanında səxavət əlləri onlara tərəf uzadılmasa, böyük mü-

sibətlərə təkrarən düçar olmamız mümkündür. Böylə ümumi bəla intişar tapdığı bir vaxtda hər kəs öz iqtidarına görə həmiyyət edib də öz aclarının, öz düşkünlərinin halına qalmalıdırlar. İştə, mart hadiseyi-əliməsindən sonra fəaliyyətini tərkə məcbur olan Müsəlman Cəmiyyəti-Xeyriyyəsi yenidən işə başlayır. İqtidarı yetdiyi qədər füqəranın dərdinə qalacaqdır. Düşkünlərin siyahısını tutmaqdan ötrü lazımi tədbirlər ittixaz olunur [tədbirlər görülür]. Cəmiyyəti-Xeyriyyə işə başlarkən, əlbəttə sahibi-sərvətlərin, sahibi-xeyratların və camaatın həmiyyətinə güvənir. Camaat! Fəqirlər amangahı olan bu cəmiyyətə müavinət edilməsə, cəmiyyətin əlindən bir şey gəlməz. Ona görə də cəmiyyət işbu xitabnamə ilə möhtərəm əhaliyə müraciət edərək, düşkünlərə və acizlərə müavinət edən bu cəmiyyətə həmiyyət əlini uzatmalarını tövsiyə edir.

Haydi, vətəndaşlar, həmiyyət günüdür! Füqəraya, düşkünlərə, məsum tifillərə böylə ağır günlərdə müavinət ediniz.

*Sədri-məclis [Məclis sədri]:*
*Qasım Qasımov.*
*Əza [üzvlər]: Müftüyi-Azərbaycan [Azərbaycan müftüsü] Mustafa əfəndi [Əfəndizadə]; Şeyxülislam axund Molla Ağa Ağaəlizadə; Bakı qazısı axund molla Əbdürrəhim Hadizadə; Axund Mirməhəmmədkərim Mircəfərzadə; İsmayıl bəy Səfərəliyev; Əsədulla Əhmədov; Mirzə Əsədullayev; Qəni Məhəmmədov; Musa bəy Əmircanov; Yusif Mehdiyev; Abbas Eyvazov.*
*Katib: Mehdi bəy Hacınski.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 10-uncu iclas

*(Keçən nömrədən maba’d)*

**Məlikaslanov [Xudadad bəy]** (Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri) - Ticarət və Sənaye naziri burada olmadığından bir məsələ haqqında mən bir qədər məlumat vermək istərəm. Qara bəy [Qarabəyli] yeni təşəkkül etmiş olan bürodan bəhs etdi. Onun sözündən belə çıxır ki, guya məzkur [adı keçən] büro heç bir işə lazım deyilmiş və onun mənfəəti yoxmuş. Fəqət, natiq bu məsələyə birtərəfli baxır. Amma mən ərz edirəm ki, büronun mənfəəti vardı. Vardır da; ancaq bu mənfəəti xalq hiss etməyir, görməyir. Məzkur büronu Neft Mədənçiləri Sovet Syezdi təşkil etmişdir və hökumət bunu bilir, özü də razı olmuşdur. Onun təşkilindən məqsəd budur ki, bütün neft bir yol ilə, bir qayda ilə, bir əldən satılsın. Çünki satış sərbəst olub neft ixracı üçün hamıya izin verilsə, o halda işlər düz getməz. Söz burasındadır ki, hal-hazırda Bakıda neft çox-çoxdur və mədənçilərin pula çox ehtiyacı var. Hətta o qədər ehtiyac var ki, bu saat hökumət onlara pul ilə kömək edir; etməsə heç biri mədəni işlədə bilməz, fəhləyə maaş verə bilməz. Bundan dolayıdır ki, əgər neft satışında sərbəstlik olsa görərsən bir mədənçinin pula ehtiyacı oldu, gətirdi neftin qiyməti 5-6 manat ikən o satdı üçdən bir qiymətə. Bu surətdə ucuz qiymətlə külli miqdarda neft satılsa, məmləkətin sərvəti hədər olar. Digər tərəfdən sizə bildirməliyəm ki, o neftin həpsi mədənçilərin deyil, üçdən bir hissəsi hökumətindir. Ona görə hökumət neftin dağılmasına heç vaxt razı ola bilməz. İştə böylə şeyləri mülahizə edərək hökumət büronun təşkilinə razı olmağa məcbur idi. Fəqət, bununla bərabər hökumətin fikri var, büronu bir qədər dəyişsin, qiymət və sairəyi islah etsin. Çünki neft işində bəzi qeyri-məmul [arzuedilməz] şeylər olur.

**Rəsulzadə M. Əmin** - Bir məsələ üzərində çox mübahisələr edildi. Mən də istər-istəməz nitqimi o məsələyə qaytarmağa və cüzi də olsa ondan təkrar bəhs etməyə lüzum görürəm. Çünki arada bəzi sui-təfəhhüm [yanlış anlaşılma] vardır; onları izah etmək məcburiyyətindəyəm, Ağamalıoğlu türklər haqqındakı danışığında “Müsavat”ı da əlaqədar tutdu. Keçən nitqimdə mən, sosialistlər türklərin düşmənidir deməmişdim, mənim sözlərimdən böylə bir məna da çıxarılmazdı. Fəqət, möhtərəm Əhməd Pepinov cənabları kəndi nitqlərində uzun-uzadı bu xüsusdan bəhs edərək hətta alicənab türk şairi Məhməd Əmin bəy [Yurdaqul] cənablarının qəlbinin tərcümanı olaraq ən dərin guşələrindən qopub gələn hissiyyatlarını misal gətirib, o möhtərəm şairin sərih [təmiz] vicdanına sığınaraq kəndilərini [özlərini] müdafiəyə qalxışdı. Fəqət, buna hacət belə yoxdu. Çünki sosialistlər xalq tərəfdarı olduqları üçün heç bir millətə düşmən olmadıqları kimi türklərə də düşmən olmazlar. Zatən böylə olmasaydı, sosialist də olmazdılar; bütün dünya beynəlmiləliyyətini müdafiə etməzlərdi. İştə bu nöqteyi-nəzərdən əfkar və səmimiyyətlərinə bütün mövcudiyyətimlə qətiyyən inandığım sosialistləri bu fikirdə təsvir etməzdim. Fəqət, ortada bir yanlışlıq görülür ki, bu da türklərin dəvət edilməsi məsələsindədir.

Əvət, bir millət müşkül vəziyyətdə qaldıqda bir qonşusuna müraciət edər; yardım, imdad istər. O qüvvə, təbii o millətin fəhlə və əkinçiləri deyil, mütəşəkkil və müntəzəm əsgəri olacaqdır. Bu surətlə bir qüvvə tələb edilərsə, ərz etdiyim vəch üzrə o qüvvə türk millətinin əkinçi və yaxud başqa bir sinfi deyil, ancaq o millətin hökumət və müntəzəm qüvveyi-əsgəriyyəsini [ordusunu] çağırmaqdan bəhs edilir deməkdir. Əvvəla türk qüvvəsini buraya cəlb üçün hökumətə təhrirən [yazılı olaraq] müraciət olunduqda [ancaq] “Müsavat” deyil, sosialistlərdən Əhməd Cövdət də mənimlə bərabər həman kağızı imza etmişdir. Ağamalıoğlunun dili topuq çalaçala söylədiyi yanlış nitqinə görə deyil, “Hümmət” firqəsinin Tiflisdə nəşr olunan “Probujdeniye” qəzetəsində türklərin Azərbaycana çağırılmasını “Müsavat” tərəfindən bir xəyanət kimi tələqqi edərək [qiymətləndirərək] durmasından dolayı bu örtülü məsələnin birdəfəlik üstünü açmağa məcbur olduq. Çünki vaxt gəlmişdir, biz bu vaxtı qaçırmayaraq üzərində xəyal ilə oynanılan əfkarımızı və nöqteyinəzərimizi xalqa, Azərbaycan əhalisinə, hətta bütün dünyaya elam edəlim [bildirəlim] ki, əvət türkləri Azərbaycana biz çağırdıq, bu fikrimizlə də millətimizə fayda təmin etdik və bu çağırmaqlığımızdan qətiyyən peşman deyiliz. Hətta heç bəyənmədiyiniz “İttihad və Tərəqqi” hökuməti idarəsindəki qüvvəni çağırdıq. Lakin Türkiyəyə sultan hökumətimi, cümhuriyyətmi yaxud başqa bir tərzi-idarəmi lazımdır? Burası əsaslı bir məsələdir. Biz

hələ iki yarım quberniyalıq Azərbaycanı idarə etməkdən aciz ikən böyük aləmşümul [ümumdünya miqyaslı] bir məsələdən bəhs etməyin nə məkanıdır, nə zamanı. Əhməd bəy cənablarının buyurduğu və şeirini sübut gətirdiyi Məhəmməd Əmin bəy cənabları düşkün [bədbəxt] türk millətinin kəndlərinin halına ağlamaqla bərabər, kəndisi də eyni zamanda Məclisi-Məbusan əzasından [üzvlərindən] biridir və lazım bilsəydim ərz edərdim ki, Əhməd bəyin oxuduğu şeirləri də şimdiki hökumətə deyil, Əbdülhəmid istibdadı əleyhinə yazmışdır və Əhməd bəyin bəyənmədiyi hökumətin icraatını təsvib edir [bəyənir].

Keçəlim sorğu məsələsinə: Əlaqədar bulunduğumuz məsələ bizə aydındır. Buraya gələn türk əsgərlərinin hərəkatı tənqid edilməz. Zira onlar əsgər halında gəlmişlərdir, idarə üçün deyil, dedilər. Əvət, bulunduğumuz Türkiyə mərkəzlərindən heç birində heç bir türk siyasisinin [siyasətçisinin] ağzından "Biz oraya idarə məqsədi ilə gəlmək istəyiriz" – deyə bir söz eşitmədik. Biz bunu əlbəttə bilirdik ki, türklər buranı idarə etmək və Bakını İstanbula qoşmaq istəməyirlərdi. Fəqət burada bizim öz bəylərimiz və paşalarımız vardı ki, nə surətlə olsa da türkləri böylə bir siyasi xətaya sövq edir, onları iğfal eyləyirlərdi [yoldan çıxarırdılar]. İştə bu cərəyana qarşı idi ki, "Müsavat" mübarizə edirdi. *(Alqış)*

Əvət, türklər vaxtında gəlmiş, bizi ümumi qırğından xilas etmişlərdir. Onların Azərbaycana nisbətən xidmətinə qarşı azərbaycanlıların ürəyində minnətdarlıq hissi o qədər ülvi, o qədər böyükdür ki, necə ki, Bolqariyaya hürriyyət verən, bolqarları xilas edən rus əsgərlərinə qarşı bolqarların hissi alidir. Biz onların bu xidmətini əbədilik xatirimizdə saxlamaq üçün məmləkətin çox yerində abidələr qoymalıyız. Fəqət, bu o demək deyildir ki, türklər hər bir xətadan mübərraddırlar [arıdırlar, təmizdirlər] və onları tənqid etmək olmaz. Böylə bir ehtiram üsulu əski zamanların bütpərəstlərinə məxsus bir ehtiramdır. Müasir bir iş deyildir. Türklərdən bəzilərinin işlədiyi xətaları tənqid etməsək, uğrumuzda canını fəda etmiş türk qəhrəmanlarına səmimi bir ehtiram bəslədiyimiz təsəvvür olunmasın. O fədailər böylə mürai [riyakar, ikiüzlü] ehtiramlara düşkün [aludə] deyildirlər. *(Alqış)*

Əvət, təbiidir ki, heç bir firqə böylə tənqidin əleyhinə olmaz. Fəqət, buna da heç kəs razı olmaz ki, imdad əlin[i] vaxtında bizə yetirmiş olan fədakar insanlar tənqid əvəzinə təhqir edilsinlər. Qara bəy əfəndi türklərin bu fədakarlığını hamıdan daha əvvəl bildiklərini söylədilər ki, hələ 11 il bundan əvvəl Tələt paşa, Ənvər paşa və sairləri mənim yanımda Qafqaziyaya gəlməyə and içmişlərdi. Bu ola bilər. Ehtimal ki, doktor Qara bəy xəbəri tezliklə yetirmək üçün dəxi yolunu yarımçıq kəsib tezliklə Qafqaziyaya qayıtdı. *(Alqış)*

Sonra natiqlər burada bizə bir şeyi isnad etdilər. O barədə də fikrinizi təshih etmək [düzəltmək] istərəm. Deyirlər ki, "Müsavat", hökuməti müdafiə edir. "Müsavat" hökumət firqəsidir. Bunu bilməlisiniz ki, bizim bütün qüvvəmizlə müdafiə edəcəyimiz, bəzən hətta bilaşərt və qeyd [qeydsiz-şərtsiz] tabe olacağımız hökumət, yalnız tamamilə müsavatçılardan təşəkkül edəcək hökumətdir. Zamani ki hökumət tamamilə müsavatçılardan deyil və bu saat koalisyondur (müştərək), böylə hökumətə biz bəzi şərtlərlə tabe olub, onu müdafiə ediriz. Siz bilirsiniz ki, "Müsavat" Parlamanda əksəriyyət təşkil edən bir mərkəz deyildir. Hökumət hamı firqələrdən təşəkkül etmişdir. Ona görə heç vaxt "Müsavat" firqəsi hökumət icraatının bütün məsuliyyətini yalnız öz öhdəsinə götürməz. Parlamentarizm və müştərəklik əsası ilə qurulmuş bir hökumətdə də "Müsavat" əksəriyyət təşkil etmir; nəinki əksəriyyət, hətta məsuliyyətini öhdəsinə götürəcək dərəcədə məsuliyyətli surətdə belə iştirak etməyir. Açıq söyləyəlim: hökumətin Baş vəzirini [naziri-ni] biz vermədik, hətta biz nazir verərkən o, ya bu Nəzarəti [Nazirliyi] istəyirik deyə israr etmədik. Əgər hal-hazırda hökumət daxilində bizim nazirlərimiz varsa, onlar da istər-istəməz qalmışlardır. Ona görə deyirəm ki, bizim müdafiə etdiyimiz hökumət deyil, hökumət fikri, məmləkətdarlıq fikridir. Müsavatçılar bilirlər ki, hökumət olmasa əhval pərişan, vəziyyət fəna olar, məmləkət dağılar. İştə bu mülahizələrlədir ki, müsavatçılar qabaqca ölçər, biçər, etimad edər və bir kərə etimad etdikdən sonra onu yarımçıq geri alıb hökuməti düşürərək məmləkəti başsız qoymaz. *(Alqış)*

Bizə burada dedilər ki, Quba qəzasında Dağıstana meyl olduğu müşahidə edilir. Mən bunu kamali-məmnuniyyətlə qeyd edirəm ki, bu xəbərləri tamamilə təkzib edərək qəzanın bu barədə nə qədər münfəil [təsirlənmiş, həyəcanlanmış] olduğunu Quba nümayəndəsi söylədi. Zaqatala nümayəndəsinin dəxi borcu idi bu kürsiyi-müəlladən [uca kürsüdən] Rəsulzadəni tənqid etmək əvəzinə bəyan edəydi ki, Zaqatalada qətiyyən Gürcüstana meyl edən bir firqə yoxdur. *(Alqış)*

O bunu unutdusa, mən cəsarətlə deyirəm ki, zaqatalalılar haqqında denilən bu söz qətiyyən yalandır və onlarda böylə təmayül olammaz.

Burada sosialist natiqlərdən Əbilov onlar ilə bizim aramızda olan fərqi isbata çalışaraq dedi ki, Rəsulzadə dünkü nitqində quldurlara qarşı tədbir görməkdən bəhs edərkən kəndlərdə firqə şöbələri açmağı təklif etdi, fəqət demədi ki, kəndlərdə zemstvo [yerli özünüidarə orqanı] qurmaq lazımdır; onlar isə zemstvo tələb edirlər. Natiq bununla isbat etmək istəyir ki, guya biz kafi dərəcə demokrat deyilmişiz. Çünki zemstvodan əvvəl firqə təşkilatı tələb etdik. Fəqət bilməlidir ki, zemstvolar, bələdiyyə idarələri və sair ümum camaat müəssisələri imanı kamil, etiqadı dürüst siyasi məslək xadimlərinin tərvic etdikləri [rəvac verdikləri] fikirlə əmələ gələ bilərlər. Əgər firqə təşkilatı, fədakar xadimlər və demokratik fikir mürəvvicləri [demokratik fikirlərə rəvac verənlər, onları yayanlar] köylərə getməmiş, xalq içinə varmamış, onları anlatmamışlarsa, demokratik müəssisələr təşkil edilsə belə həqiqi demokratik olmaz və böylə olan surətdə məqsəd ələ gəlməz. Demokratik firqələrin fikri bir mayadır. Maya vurmadan qatıq gözləməməlidir. Odur ki, xalq ruhuna bu mayanı vurmalı, sonra demokratik müəssisə təşkilini gözləməlidir.

Əhməd bəy türklükdən bəhslə deyir ki, biz də türküz, bu doğru. Amma türklüklə türkçülük arasında böyük fərq vardır. O fərq nədir? Türkiyəni bizə misal gətirirlər, deyirlər ki, orada demokratik fir-

qə yoxmuş və o bəlalar onun üçün onların başına gəlirmiş. Lakin mən deyirəm, millətdə milli ruh, milli idrak, etirafi-milliyyə [milliyyətini dərk və qəbul etmə], şəxsiyyəti-milliyyə lazımdır. Biz millətə bunu verməyə çalışırız, sosialistlər ancaq proqram üzərinə danışırlar, iştə onlar ilə bizim fərqimiz budur! Əkinçiyə torpaq, fəhləyə iş vermək şüarı hamı demokratik firqələrin proqramında var. Fəqət sosialistlərlə bizim fərqimiz budur ki, onlar beynəlmiləliyyətçidirlər, biz isə demokratik-millətçi. Millətçi-demokratlığın nə qədər camaata faydalı, zamanın tələbinə müvafiq olduğunu Qarfqaziya təcrübəsi ilə göstərərək, isbat edərək göstərə bilərəm ki, məsələn, gürcü sosial-demokratiyası camaata nicat vermək üçün nasional-demokratlıq üsulundan başqa bir çarə tapmadı. O da artıq bu yola girdi. *(Soldan: Yalandır.)*

Əfəndilər! İştə bu dövləti nöqteyi-nəzərdən məmləkətin əhvalını [ölçüb]-biçərək, sorulan məsələləri ölçüyə vəz edərək [tərəziyə qoyaraq] tələb edərdik ki, bütün firqələr hökuməti tənqid edərkən zaman və məkan xaricində deyil, zamanın, məkanın daxilində olaraq tələbatlarını [tələblərini] verməlidirlər. Müəyyən bir sorğu varsa, əvvəldən bu sorğunu, mətləbdən uzaqlaşmayaraq məhdud bir vəziyyətdə müdafiə və müzakirə etməlidir. Məsələn, Nəzarətdən bəhs edərkən ümumi siyasətə keçmək və hər şeyə qulp qoymaq; yemək, içmək, yandırmaq şeylərindən bəhs edərkən Maarif Nəzarətini araya soxmaq səhih [doğru] olammaz. Necə ki, dün neftdən, bezdən bəhs olunarkən, gəlib qaradavoylarda durdular. Bizim söylədiyimiz də bu üsulu tənqiddir. Bu hallarla biz pək irəli gedə bilmərəz.

Qara bəy bizi dünkü nitqində sindikat [həmkarlar ittifaqı] ilə də qorxutdu. Bu xüsusda nazir də bəyanat verdi. Ticarət və Sənaət [Sənaye] Nəzarətində üsulsuzluq daha çoxdur. Biz onların üstünü örtmək istəməyiriz. Biliriz ki, birisinə məsələn bir şərtlə, digərinə də ayrı bir şərtlə icazələr verilmişdir. Qüvvətli bir tacir asanlıqla, digər bir tacir isə pək güclüklə [çətinliklə] icazə almağa müvəffəq olur. Siz bu üsulu dəyişə bilərsiniz, əlinizdə ixtiyar vardır və mümkündür. Xüsusi bir komissiya intixab edərsiniz [seçərsiniz], hətta əmr edə bilərsiniz ki, şimdiyə qədər verilmiş olan icazələr həman bu dəqiqə dayandırılsınlar. Böylə ixtiyar və imkan varkən, hərçi bada bad [necə olursa-olsun] hökuməti düşürəlim, etimad etməyiriz, deməklə hökumət dəyişdirilərsə, hətta bu hökumət istefa versə – ki onlar arzu belə edirlər – gələcək hökumət daha yaxşımı olacaq? Və bunların yerində lazım olan bir hökumət bulundura biləcəkmisiniz, buna etiqadınız varmı [inanırsınızmı]? Madam ki, gələcək hökumətin bunlardan daha fəna olacağını özünüz də etiraf edirsiniz, o halda hökumətə ehtiram etməlidir. Biz etimadını ciblərində saxlayan "İttihad"ı söyləyiriz. Hərçənd onlar belə Zaqatala yolları haqqında formul verərkən və qəbul etdirərkən kəndiləri [özləri] bilmədən etimadlarını ciblərindən çıxarıb bir kərə hökumətə bəyani-etimad etmiş oldular. Fəqət, onlar etimadlarını ciblərində saxlaya bilərlər. Amma əvvəldən etimad etmiş olan firqələr o vaxt etimadlarını geri götürə bilərlər ki, ortada mühüm bir təbəddülat [dəyişiklik] olsun. Yəni deyə bilsinlər ki, etimad verərkən filan şey vardı, şimdi yoxdur, yaxud o vaxt yoxdu, şimdi var.

İştə, məsələyə böylə hökumət və dövlət nöqteyi-nəzərindən baxıb bizlər əvvəldən olduğu kimi şimdi də hökumətə etimadımızda baqi [dəyişməz] qalırız. Ticarət və Sənaye Nəzarətindəki bəzi yolsuzluqlar [qeyri-qanuni hallar] haqqında isə onların rəf'i [aradan qaldırılması] çarəsinə baxılmalı və bu xüsusda hökumətə yolu ilə [münasib bir şəkildə] ixtaratda bulunmalıdır [xəbərdarlıq edilməlidir].

Kürsüdən düşmədən əvvəl Aslan bəy Qardaşovun bir sözü haqqında bir neçə kəlmə danışmaq istəyirəm. Aslan bəy söylədi ki, nə üçün "Müsavat" "xəyanət" sözünü işlətməyir. "Müsavat" firqəsi namına [adına] söz söyləyənlər pək əla bilirlər ki, hangi sözü nə vaxt söyləmək olar və nə vaxt olmaz. "Müsavat" söz söylərkən, söylədiyi sözü əvvəla vəzn edərək ölçər, biçər, danışar. "Müsavat" xəyanət dedimi, sözünü həman isbata qalxar və isbat edər. "Müsavat" bilir ki, məbusluq sözü və kürsüsü mötəbərdir; məbus söylədiyi sözdən məsul deyildir, hər şeyi söyləyə bilər. Fəqət, maddətən məsul deyilsə də mənəvi məsuliyyəti vardır. Bu etibarla xəyanət sözündən bəhs etdikdə onu havaya tullamayır, məsuliyyəti düşünərək sözlərimizi boşuna sərf etməyiz və bunu məbusana [məbuslara] dəxi tövsiyə etməyiz. *(Mərkəzdən alqış)*

*(Mabədi var)*

## GENƏ O MƏSƏLƏ

İngilis qoşununun paytaxtımızda görünməsi, küçələrində dəstə-dəstə, silahlı-silahsız, ora-bura gəzməsi bizi cüzi də olsun rahatsız etməyir. Nədən ötrü? Əvvəla, ingilislərin paytaxtımıza gəlməsinə biz qabaqca razılıq vermişdik və saniyən [ikincisi] mədəni ingilislərin bizim istiqlalımız haqqında qeyri-məmul [arzuedilməz] hərəkətlər göstərməyəcəklərinə əmin idik və bu gün dəxi əminik və salisən [üçüncüsü] ingilislərlə bizim münasibatımız bu yoldadır ki, biz də və sair Qafqaz cümhuriyyətləri də ingilislərə bugünkü siyasi vəziyyətin pasibanı [qoruyucusu] və hamisi nəzəri ilə baxırıq və onları özümüz üçün şikayət yeri bilib, bir şey olarsa şikayət üçün onların üstünə yüyürürük. Buna görədir ki, paytaxtımız küçələrində ingilis saldatlarının görünüşü bizi nəinki xorlandırmayır [qorxutmur, çəkindirmir], biləks [əksinə] bu fövqəladə halda bir dərəcəyə qədər təskinülqəlb edir [qəlbimizə təskinlik verir].

Lakin rus əsgərlərinin və baxüsus [xüsusilə] erməni-rus əsgərlərinin şəhərimiz küçələrini "təzyin" etməsi ["bəzəməsi"] nəinki xoşumuza gəlməyir, bəlkə can və ruhumuzu belə incidir. Bu qoşunun paytaxtımızda görünməyi istiqlal heysiyyətimizə toxunmaq, dövləti şərəfimizi sındırmaq, şanımızı kəsr etməkdən [azaltmaqdan] hasil olan acılıqdan əlavə, bizi böyük bir təhlükə təşviş və əndişəsi ilə də müztəribülhal qılır [bizə iztirab verir].

Və necə də qılmasın ki, qəddar əlləri müsəlman qanı ilə boyanmış olan Amazasplar biz əsirlik düşkünü olan vaxtlarda Bakımızda bizə qarşı qoşunlar düzəltdiyi kimi, bu gün dəxi eyni asudəliklə paytaxtımızda əyləşib də qoşun düzəldir. Andraniklər gedir, Amazasplar gəlir. Biçeraxovlar gedir, Prjevalskilər gəlir. Kazarmalarımız özgələr qoşununa yer olur. Evlərimizi özgə qoşunu üçün rekvizit edirlər.

Paytaxtımız qoşun keçidi meydanına dönür. Əcəba, biz bu işlərə razılıq vermişikmi?

Verməmişiksə, nə üçün bizə etina etməyib də paytaxtımızda qoşun düzəldirlər? O qoşun ki, qafqazlılar istiqlalına düşmən olduğunu Soçi hadisəsi ilə aşkar etdi.

Əcəba, o qoşuna yazılan ermənilər hansı dövlətin təbəəsidirlər? Əgər Azərbaycan təbəəsi deyildirlərsə, onların burada nə işləri vardır?

Və nədən ötrü biz bu işlərə bu gunə [bu cür] laqeydanə nəzərlə baxırıq? Nəyə ümidvarıq? Nədir bizi sükuta məcbur edir? Əcəba, bu məsələ bez məsələsindən əhəmiyyətsizdirmi ki, Parlamanımız bu xüsusda sükut ixtiyar edib, nəzəri-etinaya almayır? Bu şərəfsizlik, bu heysiyyət[siz]lik, bilaxirə [nəhayət] bu təhlükə biz əhalinin diqqətini cəlb etdiyi halda, Parlaman əzalarının hissiyyatına toxunmayırmı ki, bu xüsusda bir təşəbbüs etməyirlər? Bəs, bizim həyəcanımızı kim sakit edəcəkdir? Bunu ya gərək hökumət etsin, ya Parlaman. Halbuki, nə onun tədbirlərindən xəbərdarıq, nə bunun təşəbbüsünü görürük.

Bu gün biz Azərbaycan türklərinin istədiyi odur ki, Parlamanımız bu xüsusda təcili və fövqəladə bir iclas qurub, bu xüsusda məsələ qalxızıb və bu qeyri-təbii hadisəni rəf ilə [aradan qaldırmaqla] istiqlalımızın şan və şərəfini bərqərar və içimizdəki müdhiş təhlükə əlamətlərini bərtərəf etmək yolunu hökumətə göstərib sərəncamını tələb etsinlər.

*M. H-zadə*

**İdarədən:** Bu xüsusda hökumət tərəfindən lazımi olan tədbirlərə təvəssül [müraciət] edildiyi bizə məlumdur. Hər halda məsələ getdikcə böyük bir şəkil aldığı üçün Parlamanımızın dəxi diqqətini mövcib olarsa [cəlb edərsə], təşviş və əndişələrimiz bizi bir bu qədər iztiraba salmaz, zənn edirik.

**B. T.** Bu məqalə çapa verildikdən sonra həman xüsusda aşağıda yazdığımız mövsuq [etibarlı] xəbəri aldıq:

### YABANÇI ƏSGƏRLƏRİNİN GEDƏCƏKLƏRİ HAQQINDA

Dünkü türkcə "Azərbaycan"da və yeni nəşr olunan "Müsavat" firqəsi naşiri-əfkarı [nəşr orqanı] bulunan rusca "Naş put" qəzetəsində "Bu günün məsələsi" ünvanında yazılan məqalələrdə şəhərimizdə təşəkkül etməkdə olan Dobrovolçeski ordusu qitəatının [Könüllü ordu hissələrinin] əhali üzərində sui-təsir icra eyləməkdə olduğu və ələlümum [ümumiyyətlə] bu kimi Azərbaycanı tanımayan əsgəri qüvvətlərin Azərbaycan Cümhuriyyəti daxilində qalmalarının qeyri-təbii olduğu nəzərə alınaraq tələb olunurdu ki, bir an bu xüsusda tədbirlər görülüb məzkur qitəati-əsgəriyyənin [adı çəkilən hərbi hissələrin] Bakıdan ixracına baxılsın.

Aldığımız məlumata görə, "Naş put" idarəsini təmin eyləmişlərdir ki, hökumətin gördüyü tədbirlər və aldığı qəti təminlərə görə, yaxın günlərin içində paytaxtımız hər növ bizə yabançı olan əsgərlərdən təmizlənəcək, Dobrovolçeski armiyaya könüllü qeydləri mən' [qadağan] olunacaq və bu əsgərlər tərəfindən tutulan dövləti və xüsusi binalar həman [dərhal] boşadılacaqdır.





Bundan sonra dəxi Azərbaycan əsgəri ilə Müttəfiq ordu qitəatı xaricində heç bir əsgəri qüvvətə hökumətin müsaidəsi olmadan Azərbaycan daxilində bulunmaq imkan və müsaidəsi verilməyəcəkdir.

### VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Ticarət və Sənaye nazirinin əcnəbi dövlətlərlə mal mübadiləsi əlaqəsinə girişməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Nazir tərəfindən əcnəbi məmləkətlərin müəyyən yerləri ilə mal mübadiləsi əlaqəsinə girişmə haqqındakı məruzəsini təsdiq etməli, 20 milyonluq fonddan birinci dəfəliyə 10 min rublə işbu iş üçün buraxmalıdır.

* Maliyyə nazirinin Maliyyat və iqtisadiyyat komisyonu təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə, Ticarət və Sənaye, Ərzaq və Türüq [və] Məabir [Nəqliyyat və Rabitə] nazirlərindən mütəşəkkil [ibarət] bir Maliyyat və iqtisadiyyat komisyonu təşkil edilsin. Bunlardan əlavə, komisyona şəxsi olaraq Maarif naziri və Dövləti Müfəttiş həzrətləri də daxil olacaqlar. Komisyon Şurayi-Vükəlaya idxaldan əvvəl maliyyat və iqtisadiyyat məsələlərini müzakirə edəcəkdir.

* Ərazi nazirinin xidmətçilərə gündəlik muzd verilmək barəsindəki məruzəsindən sonra qət edilmişdir:

İşbu məsələ Beynəddəvair komisyonuna [İdarələrarası komissiyaya] verilsin.

### NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

Tağıyev Məsai [Əmək] Nəzarətindən rica etmişdir ki, fabrikanı bağlamaq üçün ona izin verilsin. Zira fabrikadakı 1215 makinadan fəqət 300-ü işləməkdədir. Başqaları isə xarab olduqlarından işləməyirlər. Tağıyev məlum etmişdir ki, böylə iş davam edərsə bir neçə vaxtdan sonra onlar da xarab olacaqdır.

**Hökumət Müfəttişi Nəzarətində**

Hökumət müfəttişinin təftişatı haqqında 1918-ci sənəsi oktyabrın 23-də hökumət tərəfindən təsdiq edilmiş qanun əsasınca 1919-cu sənəsi yanvarın 1-dən Bakı rayonunda təftişat başlanır. Yanvar ayı ərzində təhqiq olunmaqdan ötrü Hökumət kontroluna 18 milyon 845 min manatlıq 585 təxsisat [ödəniş; pul ayırma] vərəqəsi təqdim edilmişdir. Bunlardan 2 milyon 586 min manatı təsdiq edilib, 15 milyon 834 min manat təftiş olunmaq üçün qaldırılmışdır. 425 min manat təsdiq edilməmişdir. 15 milyon 834 min manatlıq təxsisat vərəqələrinin təsdiq edilməməsi bununla bəyan edilir ki, həman vərəqələrlə kifayət qədəri təhqiqat sənədləri təqdim edilməmişdir. Hətta bir para müəssisələrdə qanuni qədər ştab və maliyyə smetası yoxdur. Bu barədə həman vərəqələri təqdim edən müəssisələrdən lazimi sənədlər tələb edilmişdir. Bununla bərabər, Hökumət müfəttişi tərəfindən tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür] ki, hamı müəssisələr əvvəlcədən təftiş edilməkdən ötrü öz təxsisat vərəqələrini Hökumət müfəttişi-

nə təqdim etsinlər. Əks surətdə sənədsiz təqdim edilən təxsisat vərəqələri ilə pul buraxılmayacaqdır.

## PARLAMAN ƏTRAFINDA

### Parlaman iclası

Bu gün fevralın 18-də Parlaman iclası təyin edilmişdir. Ruznameyi-müzakirata [müzakirə gündəliyinə] bu məsələlər daxil edilmişdir:

1) Parlaman mühafizəsi haqqındakı qanun layihəsi;

2) Parlaman məxarici smetası;

3) Parlaman nizamnaməsi;

4) Dəmiryol tarifəsinin artırılması layihəsi.

### Torpaq komissiyasının iclası

Çaharşənbə [çərşənbə] günü fevralın 19-da torpaq komissiyasının iclası təyin edilmişdir.

### Məclisi-Müəssisan seçki komissiyası işləri

Məclisi-Müəssisan [Təsisçilər Məclisi] seçkiləri hazırlayan komissiyanın işləri bu günlərdə bitmək üzrədir. Komissiyanın hər bir işləri müzakirə olunmaqdan ötrü Parlamana daxil ediləcəkdir.

## SÜLH ƏTRAFINDA

### Müsəlmanlar Sülh Konfransında

Sülh Konfransında müsəlman xalqının nümayəndəsi kim olacağı haqqında general Sulkeviç zənn edir ki, nümayəndəlik Qafqaziya millət xadimləri dəstəsi üzərinə qoyulmuşdur. Rusiya müsəlmanlarının ümumi tələbatı federasyon – Rusiyada müsəlmanların milli, mədəni muxtariyyətindən ibarətdir.

* Londonda müntəşir [nəşr olunan] “Morninq post” qəzetəsinə xəbər verilir ki, Arxangelskdə qubernator Vilson tərəfindən bolşeviklərin Sülh Konfransına dəvət edilməsi məsələsinin intişarına [yayılmasına] mane olur. Böylə xəbərlərin əhaliyə yaman təsir edəcəyini qubernator zənn edir.

* Luqano - “Sokolo” qəzetəsinin müxbiri xəbər verir ki, Müttəfiqlərlə Romaniya arasında ittifaq kəskinləşir. Buna da səbəb odur ki, Müttəfiqlər Banatı Romaniyaya verməyirlər. Romaniya mükafat qəbilindən olaraq Dobriçanı alır, Bolqariya Makedoniyası Serbiyaya keçir. Bu qətnamə Romaniya hökumət məhafilində [dairələrində] böyük narazılığa səbəb olmuşdur.

## TELEQRAF XƏBƏRLƏRİ

- İngiltərənin Fələstin komitəsinin qəzetəsi xəbər verir ki, Fransa Fələstində öz idarəsini yürüdür. Buna hər nə qədər ingilislər protesto edirlərsə də, bununla bərabər fransızlar öz inadlarında davam edirlər. Amerikada dəxi fransızlar bu yolda təbliğatda bulunurlar.

- Müstəqil “F. Q.” qəzetəsi xəbər verir ki, marşal Hindenburq qərargahında açıqaçığına monarxizm təbliğatı davam edir.

- Elzasda aclıqdan dolayı üsyan əmələ gəlmişdir. Polis və saldatlar 100 nəfəri həbs eyləmişdir. Elzas qəzetələri fransız hökumətindən tələb edirlər ki, oraya işsizlər üçün ərzaq yetirsin.

- Peştədən xəbər verilir ki, Ali fransız komandanlığı qərar qoymuşdur ki, Salanikdə bolşevik iğtişaşında iştirak edən şəxslər fransız Sudanına təbid [sürgün] edil- sinlər.

- Romaniyada get-gedə bolşevizm intişar edir [yayılır]. Bükreş [Buxarest] qoşunlarının iclasında saldatlar saldat şurası təşkilini tələb edirlər. Brailovda saldatlar öz alaylarının komandanlarını dəyişmişlərdir.

- “Forverts” qəzetəsinin son məlumatına görə, Romaniya ordusunda getdikcə bolşevizm artır.

### Fransada inqilab hərəkatı

Bu günlərdə Parisdə Fransa əmələlərinin [fəhlələrinin] böyük nümayişi gözlənir. Bunlar fransız hökumətinin qəsbkaranə siyasətinə qarşı protesto edəcəklərdir.

- Hollanda bürosu xəbər verir ki, Belfastda Fransededer əmələləri hökuməti əllərinə alaraq ancaq öz şuralarına itaət edirlər.

- Harbindən xəbər verildiyinə görə, Yaponiya qoşunları Sibiryanı təxliyə edib, Mançuriyadakı əvvəlki qərargahlarına qayıdırlar.

- Amerika komandanlığı nümayəndəsi Straus xəbər verir ki, fransız cəbhəsindən heç bir Amerika qoşunları Rusiyaya göndərilməyəcikdirlər.

- Radomda Polşa bolşevikləri hökuməti əllərinə almışlardır. Bunlarla mübarizədən ötrü qoşun dəstələri göndərilmişdir.

- Köniqsberqdən xəbər verilirdi ki, guya bolşeviklərin milyon qüvvəsi Almaniya üzərinə hücum edir. Bu xəbər həddindən artıq mübaliğəlidir. Riqa-Dvinsk-Vilna xəttindən ancaq 50 min bolşevik qüvvəsi keçmişdir.

### Üsyan

Ufa - (8 fevral) Novobayazit kəndi dairəsində iki alay “Milli ordu” üsyan qalxızmışlardır. Üsyançıları sakit etmək üçün iki zirehli qatar göndərilmişdir. Yenisey quberniyasında əmələ və kəndçilərin üsyanı artır, Nijni-Odinsk mahal və İrkutsk quberniyasına da keçir.

## QƏZETƏLƏRDƏN

### Klemansonun nitqi

Fransa mətbuatının verdiyi məlumata görə, Klemanso Parisdə nəşr olunan “A. P.” qəzetəsinin müxbirinə xeyli maraqlı bəyanat vermişdir. Klemanso demişdir ki:

*“Mən söylədim ki, müharibə qazanılmışdır. Daha doğrusunu söyləməlidir ki, indi tufan əsnasında sakitlik hesab edirəm. Bu yaxınlardakı kəşfiyyat Prussiyanın əsgəri hökmranlıq amalından yaxşı, düşmənin niyyəti ilə aşina olmaq imkanını verdi. Bu niyyət Fransanı sənaye və ticarət, həmçinin əsgəri nöqteyi-nəzərdən məhv etmək qəsdindən ibarət olub, müfəssəl surətdə hazırlanmış bir sui-qəsddir. Alman bankirləri və sənayekarları bu məqsədə nail olmaq təsəvvüründə idilər. Doktor Muelonun Krupp zavodları haqqında yazdıqları və Kurt Eysnerin Berndə sosialist konfransında söylədikləri bunu isbat etməkdədir. Bu iş almanların bizim üçün indiyə qədər anlaşılmaz olan təxri-*

*bat hərəkətlərini şərh edir. Almanların bu çalışmaları nəticəsiz qalmamışdır. Belə ki, Fransanın sənaye həyatı o dərəcə xəláldar edilmişdir ki, təcdidi [bərpası] xeyli müşküldür. Bununla belə, Almaniya təslim olmuşsa da, öz zavodlarını salamat saxlamışdır ki, tezliklə işə başlamağa hazırdırlar. Fransa ilə Prussiya arasında əsgəri nöqteyi-nəzərdən qalibiyyət Prussiyanın olmuşdur. Almaniyanın Fransadan ötrü təhlükəli olan bir qədər mövcudatı qalmışdır. Doğrudur, Müttəfiqlər alman donanmasına sahib oldular və düşmənin külli miqdarda silahını əlindən aldılar. Lakin bərbad, ancaq məhsuldar Rusiya qalmışdır ki, almanlar ələlxüsus İngiltərə əsgərlərinin tərxisi və Amerika əsgərlərinin vətənə övdətlərinə [qayıtmalarına] görə Rusiyadan bir çox müavinət [yardım] ələ gətirə bilərlər. Deməli, Fransanın tək qalmasından Almaniya tərəfindən müharibə hərəkatının təcdid edilməsi təhlükəsi ola bilərdi. Rəisi-cümhur Vilsonun Məclisi-Məbusanda bizi ruhlandıran vədləri olmasaydı, müşkül bir hala məruz olacaqdıq. Əlbəttə ki, Amerikanın və Fransanın daxil olacağı Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] böyük əhəmiyyəti olacaqdır. Bu cəmiyyətdə iştirak edən millətlər gərək təraddüdatlarından və ənənəvi xüsusiyyatlarından imtina edib, sülh zamanında və müharibə təzyiqatı altında olduğu kimi öz milli qüvvələrini öz sərhədlərindən kənara qoymağa razı olmalıdırlar."*

Klemanso axırda demişdir ki, [Fransa] bu məsələləri ifa etməyə və qorxusuz, məzəmmətsiz qalmağa hazırdır.

* London - "Deyli nyus" qəzetəsinin Paris müxbiri xəbər verir: İngiltərənin siyasi dairələri bu etiqaddadırlar ki, müharibə zamanında əqd edilən [bağlanan] gizli əhdnamələr [müqavilələr] əsasından təbdil edilməlidir [dəyişdirilməlidir]. Buna da Amerikanın müharibəyə müdaxiləsi səbəb olmuşdur. Qəzetə müxabiri deyir ki, İran dövləti ilə Xita [Çin] dövləti arasında olan əhdnamə ləğv edilir və Yaponiya ilə Müttəfiqlər arasında yeni əhdnamə bağlanmışdır. Bu əhdnamə ilə Karolin və Marşall cəzirələri [adaları] Yaponiyaya verilir. Avstraliya bu etilafa [uzlaşmaya] ciddi surətdə protesto edir.

* Berlin – (3 fevral) "Fossişe çaytunq" qəzetəsi xəbər verir ki, Königsberqdə matroslarla spartaklar yenidən hökumət müəssisələrini əllərinə keçirmişlərdir. Hökumət qoşunları tərəfindən bunlara heç bir mümaniət [maneçilik] edilməmişdir. Berlin qəzetələri spartakların yeni çıxışlarından ehtiyat edirlər. Şəhərdə əhval həyəcanlıdır. Bağlanmış olan "Rotofane" adlı spartak qəzetəsi bu gün nəşrə başlamışdır. Qəzetə əvvəlki kimi Şeydeman, Ebert və Noske əleyhinə şiddətli və kəskin məqalələr yazır.

**Almaniya Cümhuriyyətinin Məşrutəsi [Konstitusiyası]**

Berlin - Almaniyanın yeni dövləti təşkilat layihəsi əsasən dörd maddədən ibarətdir. Üsuli-idarə bu surətlə təklif edilir: Almaniya indiki müttəfiq dövlətlərdən və muxtariyyətə layiq olan əyalətlərdən ibarət bir vahid təşkil edir. Yeni ştatlar təşkili barəsində camaata ixtiyar verilməli, yeni təşkil edilən ştatların əhalisi iki milyondan əskik olmamalıdır. Bir ştatın digər ştata mülhəq olmasına [birləşdirilməsinə] müsaidə edilir. Yeni ştat təşkil edildikdə yaxud ştatlar yek-digərinə [bir-birinə] mülhəq olduqda, rəyi-amm sormaq [əhalinin rəyini soruşmaq, referendum] lazımdır. Rəisi-cümhur dövlət başçısı olaraq və müharibə zamanında xarici işlər siyasətini də idarə edəcəkdir. Rəisi-cümhur 7 il müddətinə seçilir. Dəfəatla [dəfələrlə] seçilməyə də ixtiyarı olur. Hökumət kansler və nazirlərdən ibarət olaraq Reyxstaqın rizası ilə Rəisi-cümhur tərəfindən təyin edilir. Hər bir nazir öz fəaliyyətində məsuldur.

**İrlandanın İngiltərədən ayrılması**

Amerikanın hamı diplomat, senator məbusları İrlandiya Hökuməti Agentliyindən böylə məlumat almışlardır:

Kamali-ehtiramla zati-alilərinizə məlum ediriz ki, təyini-müqəddərat hüququ[un]a malik olmaları əsası ilə 1918-ci sənə dekabrın 18-dən etibarən İrlanda İngiltərə ilə siyasi münasibatını [əlaqələrini] kəsmişdir. Buna görə irlandalılar ingilis kralını İrlanda Krallığına qəbul etməyirlər. İngiltərə və İrlanda krallıqlarının ittihadı [birliyi] artıq yoxdur. İrlanda Cümhuriyyəti İrlandadan əcnəbi dövlətlərin haqqi-imtiyazlarını qəbul etməyir və bu gündən etibarən İrlanda, İngilis Hökuməti ilə danışığa girir.

**Yapon əsgərləri**

Sibiryada olan Yaponiya qoşunlarının əksəri Yaponiyaya dəvət edilir. Bunun səbəbi hələlik məlum deyildir. Yaponiya qoşunlarının bir hissəsi yenə orada qalmaqdadır. Yalnız burası məlumdur ki, bu saat sülh işləri böhranlıdır və mümkündür nagəhani [gözlənilməz] işlər əmələ gəlsin.

* Nauen – (8 fevral) Spada mütarikə komissiyasında olan Almaniya nümayəndələri fevralın 5-də Baltik səvahili [sahilləri] barəsində Müttəfiqlərin nümayəndələrinə bir nota vermişlərdir. Bolşevizmlə mübarizə xüsusunda notada denilir:

*"Baltikdə olan Könüllü qoşunların halı fənalaşır. Bolşeviklər yenidən bir neçə iskələləri [limanları] əllərinə keçirmişlərdir. Müttəfiqlər müavinət [kömək] edəcəkləri təqdirdə bolşevikləri məğlub etmək mümkün olacaqdır. Bu münasibətlə dəfəatla [dəfələrlə] Almaniya hərbi gəmilərin təslih edilməsini [silahlandırılmasını] Müttəfiqlərə təklif eyləmişsə də, hər dəfə rədd cavabını almışdır. İndi Müttəfiqlər ciddiyyən bu işə müdaxilə edib də müsəlləh [silahlı] surətdə bolşeviklərin qarşısına çıxmalıdırlar."*

**İstanbulda həbslər**

"İttihad və Tərəqqi" komitəsinin məşhur üzvlərinin həbs edildiyi, İstanbuldan xəbər verilir. Bunlar İzzət paşanın mərifəti ilə [sayəsində] fevralın əvvəllərində həbs edilmişlərdir. Həbs edilənlər 25 nəfərdir ki, bunlar polis departamentində saxlanırlar. Bunlardan əlavə, hökumət tərəfindən "İttihad və Tərəqqi" üzvü olan bir neçə zabit həbsə alınmışlardır. Məhbuslar arasında Mahmud Kamil paşa, [Məhməd] Vəhib paşa, Cavad bəy də vardır. Ənvər paşanın dayısı Xəlil paşa, Seyfi bəy, Şərif bəy, Midhət Şükrü bəy dəxi həbsə alınanlar cümləsində vardır.

**Türkiyə demokratları**

İstanbulda yeni təşkil edilmiş olan Türk Sosial-Demokrat Komitəsi bu yaxın-

larda komitə tərəfindən sultan həzrətlərinə bir müxtirə [nota] təqdim edəcəkdir.

**Almaniya Rəisi-cümhuru**

Almaniya Cümhuriyyəti rəisliyinə Ebert intixab edilmişdir [seçilmişdir].

## BAKI XƏBƏRLƏRİ

**Türk Araz Hökumətinin Xariciyyə naziri**

Dünən fevralın 17-də Türk Araz Hökumətinin Xariciyyə naziri Bəhram xan Naxçıvanski Bakıya varid olmuşdur [gəlmişdir].

**Bələdiyyə İdarəsində**

* Elektrik işığı qiymətlərini artırmaq üçün verilən tələbatdan sonra bir komisyon intixab edilmişdi [seçilmişdi] əhvalın nə şəkildə olduğunu məlum etsin. Komisyon öz işini bitirmişdir. Ən yaxın zamanda bu barədə məlumat verəcəkdir.

* Bələdiyyə rəisi bütün mərkəzdəki ev sahiblərinə məlum etmişdir ki, ən yaxın zamanda səkiləri təmir etsinlər. Zira axır vaxtlarda səkilər uçub dağıldıqlarından əhali üçün gediş-gəlişə böyük mümaniət [maneçilik] etməkdədir.

* Şubatın 15-nə İkinci Ünas [qızlar] gimnaziyasında edadi məktəbləri valideyn şurasının mərkəzi komitəsinin birinci iclası təyin edilmişdi. İclasda 15 məktəbdən fəqət 8 məktəbin valideyn şurası nümayəndələri isbati-vücut [iştirak] etməkdə idi. Başqaları isə gəlməmişdilər. İclasda qət edilmişdi [qərara alınmışdı] ikinci dəfə olaraq 22 şubatda təyin edilmiş iclasa nümayəndələr göndərilsin.

* Beşinci dairə ev təşkilatları Bələdiyyə İdarəsinə məlum etmişlər ki, şəhərdə hökmfərma olan [hökm sürən] sari [yoluxucu] xəstəliklərə baxmayaraq həman dairədə heç bir xəstəlik qarşısını ala biləcək təşəbbüsat və iqdamatda bulun[ul]mamışdır [təşəbbüs göstərilməmiş və addım atılmamışdır]. Küçələrdə və həyətlərdə şimdi də zibillik qoxusundan dolanmaq mümkün deyildir.

* Sumqayıt mövqifi [stansiyası] müdiri Bələdiyyə İdarəsinə xəbər vermişdir ki, türklər oradan getdikdən sonra bir çox naməlum bədəfkarlar [cinayətkarlar] baş qalxızıb, əhalini və gedib-gələnləri soymağa başlamışlardır. Bələdiyyə İdarəsi həman kağızı qubernator hüzuruna göndərib rica etmişdir ki, oraya mühafizə dəstəsi təyin edilsin. Lazım gələcək mənzil mövqifdə bulunmazsa, mövqif yaxınlığında olan qışlanı [kazarmanı] onlar üçün təmir etməyi Bələdiyyə İdarəsi öz öhdəsinə qəbul edir.

**Sayad Xızı camaatının iclası**

Quba uyezdi Sayad Xızı kəndinin camaatı Bakı qubernatoruna ərizə və öz vəkilləri vasitəsi ilə müraciətən rica edir ki, onların kəndi Quba uyezdi Dəvəçi uçastokundan ayrılıb, Bakı uyezdi 7-nci polis uçastokuna mülhəq edilsin [birləşdirilsin]. Məzkur [adı çəkilən] kənd camaatı öz ərizələrində həmin uçastokun yaxın olduğunu və camaatdan bir çoxunun Bakı şəhərində sükunət etdiyini [yaşadığını] göstərirlər.

**Hadisat**

Fevralın 13-ündə, axşam saat 7-də Balaxanı kəndinin əhli Balahüseyn Məşhədi Hümmət oğlunun evində naməlum səbəbdən patlayış vaqe olub, evin divarları və mətbəxi ilə evin arasında olan divar və üstü dağılmışdır. Balahüseynin oğlu 11 yaşında Qulamhüseyn daşın altında qalıb yaralanmışdır.

**Oğurluq**

- Fevralın 11-ində Bülbülə kəndində Kərəm Kazım oğlunun evində naməlum bədəfkarlar [canilər] qıfılı sındırıb üç min manatlıq ev müxəlləfatı [əşyası] oğurlamışlardır. Müxəlləfatın bir hissəsi tapılıb sahibinə qaytarılmışdır.
- Zabratda Bakı Neft Cəmiyyətinin 49 nömrəli mədənində naməlum şəxslər tərəfindən İran rəiyyəti Məhəmməd Əli oğlu öldürülmüşdür. İran rəiyyəti Qənbər Hüseyn oğlu müttəhim edilərək tövqif [həbs] edilmişdir.
- Fevralın 14-də postda dayanan milis Abdullabəyov gecə saat 12-də Ramanıda Rus Neft Cəmiyyətinin 21-inci nömrə mədənində qızınmaqdan ötrü kantora daxil olub, orada qəflətən tüfəng açılıb, telefon xidmətçisi Aqulin Ankudinovu öldürmüşdür. Abdullabəyov tövqif edilmişdir.

**Bakı quberniyasında**

**Müfəttin** - Quba qəza qaimməqamı [qəza rəisi] Bakı qubernatoruna məlum edir ki, axır vaxtlar Quba şəhərində müfəttinlər [fitnəkarlar] tərəfindən bəzi yalan şayiələr buraxılır. Bu günlərdə böylə müfəttinlərdən Hüseyn Kərbəlayi Məhəmməd oğlu tövqif və həbs edilmişdir. Məzkur [adı çəkilən] müfəttin bolşeviklərin Qubaya gəlməsi barəsində yalan xəbərlər buraxırmış.

**Öldürmək** - Şamaxı uyezd naçalniki Bakı qubernatoruna məlum edir ki, Kür çayının kənarında Cavad kəndinin sakinəsi Aliyə Əjdərova tüfəng gülləsi ilə öldürülmüşdür. Güllə Cavad uyezdi, Petropavlovka kəndi tərəfindən atılmışdır.

* Əngilan kəndinin əhli Əmirəli Kərəmət oğlu Quba uyezd naçalnikinə məlum etmişdir ki, bir gün bundan əqdəm [qabaq] öz həmkəndliləri Zal Həmdulla oğlu, Cahangir Ağakişi oğlu, Budaq Əziz oğlu müsəlləh [silahlı] olaraq onun evinə hücum edib, 10 kisə buğdasını oğurlamışlardır. Oğruları tövqif etməkdən ötrü lazımi tədbirlər ittixaz edilmişdir.

## KƏNDÇİLƏR İTTİFAQI

31 yanvar 1918 sənədə 32 kəndlərin nümayəndələrinin intixabı [seçkisi] ilə bir Kəndçilər İttifaqı təşkil olunmuşdu. O zaman Bakıda hökmfərma olan [hökm sürən] "demokratik" idarələr demokratiyanın qismi-əzəmi [böyük hissəsi] olan yüz min nüfusa [əhaliyə] malik zavallı Bakı kəndçilərinin halını yaxşılatmaq üçün heç səy və təlaş etməyirdilər. Kəndçilərin halını nəzərə alaraq bir neçə həmiyyətli zat [şəxs] tərəfindən yuxarıda göstərilmiş İttifaq təşkil edilmişdi. İki ay İttifaq ömr edəndən sonra qanlı Mart hadisatı [Mart hadisələri] baş verdi. O zaman Bakıda dövran sürən bolşeviklər tərəfindən İttifaq qapadıldı. Daha doğrusu, İttifaqın idarəsi bütün şeyləri ilə bərabər yaxıldı və üzvlərindən bir neçə fəal kəslər qətl olundu. Bu minval İttifaq məcburən qapandı. Sonradan şəhərimiz Azərbaycan Hökuməti idarəsinə keçdikdə, zavallı kəndçilərin halının yaxşılaşması gözlənirdi. Əf-

sus olsun ki, kəndçilər əski hallarında qalıb, məktəbsiz, azuqəsiz, həkim və dərmansız, səfalətlə hal keçirirlər.

Bu halı nəzərə alaraq İttifaqın sədri Hacıağa Abbasov yenidən İttifaqın işə başlaması üçün bir neçə möhtərəm şəxslərlə məsləhətləşib və bu barədə rus[ca] "Azərbaycan" qəzetəsində elan verdi. Bir neçə gün elandan keçmiş Ərzaq Nəzarəti tərəfindən Ərzaq İdarəsinə İttifaq sədri dəvət olunub, Ərzaq naziri vəkili Yusifəli Əliyev ilə müsahibədə bulunmuşdur. Ərzaq naziri vəkili sədrə məlum etmişdir ki, qəzetəyə verilən İttifaq barəsindəki elanı oxuyub və nazir cənablarına dəxi bu barədə bəyan etmişdir. Çünki İttifaqın məqsədi İttifaq sədri verdiyi bəyanatdan anlaşılan kəndçilər ərzaq işlərini asanladıb, onları zalım möhtəkirlərin çəngəllərindən [pəncələrindən] qurtarmaqdır, ona görə vəkil özü və Ərzaq naziri ona söz verdilər ki, İttifaqa əllərindən gələn maddi yardımı edəcəklər və Ərzaq [naziri] vəkili Yusifəli cənabları özünün nə dərəcədə fəqir kəndçilər tərəfdarı olduğunu sədrə bəyan edib tezliklə [işə] başlamalarını rica etmişdir. Deməli, bu günlərdə İttifaq idarəsi işə başlayacaqdır.

## GÜRCÜSTANDA

**Qənd şirəsi**

Borjomdan xəbər verirlər ki, Borjom meşələrində külli miqdarda qənd şirəsi cəm edilməyə başlanmışdır. Bu şirədən qənd qayırılacaqdır.

**Poçta-teleqraf münasibatı**

Gürcüstan Daxiliyyə naziri Ermənistan sülh heyətinə xəbər vermişdir ki, fevralın 15-indən etibarən Ermənistanla Gürcüstan arasında poçta-teleqraf münasibatı [əlaqələri] bərpa ediləcəkdir.

**Gürcü-Erməni Konfransı**

Gürcü-Erməni Sülh Konfransı tərəfindən qəbul edilən şəraiti [şərtləri] texnika tərəfindən hazırlamaqdan ötrü hər iki Cümhuriyyət nümayəndələrindən ibarət xüsusi bir komissiya təşkil edilmişdir.

**Tiflis Rus Milli Şurası sədrinin həbsi**

Zaqafqaziya Rus Milli Şurası sədri Lebedev fevralın 11-də Tiflisdə həbs edilmişdir.

## İDARƏYƏ MƏKTUBLAR

**- I -**

**Doktor Qarabəyova cavab**

Möhtərəm müdir əfəndi!

Mübarək qəzetənizin sütununda bu yazdıqlarıma bir yer versəniz, xeyli minnətdar olaram.

Qəzetənizdə oxuduğuma görə Parlamanımız əzalarından [üzvlərindən] doktor Qara bəy cənabları hökuməti tənqid edərkən, bəndəni də quldur deyə adlandırmışdır. Bu töhməti üzərimdən rədd etmək üçün tərcümeyi-həyatım xüsusunda bir məlumat ərz etmək istərəm.

1913-cü ildə Nikolay hökuməti, düşmənlərimin tərəfindən verilən danoslara istinadən məni Gəncədən beş il müddətlə nəfy [sürgün] etməyə, İrana göndərməyə qərar verdi. İki ay sonra işim təhqiq edildikdə Qafqaz canişini məni günahsız bildiyindən əfv etdi. Həman tarixdən etibarən mən hökumətin Yevlax ilə Tovuz arasında bulunan əsgəri mənzil müfəttişliyinə arpa və ot verirdim. Bu təəhhüddə [öhdəlikdə] mənim yoldaşım Abbas bəy Vəlibəyov idi.

Hürriyyətdən sonra Gəncə və həvalisi [ətrafı] anarxiya tufanı içində ikən millətim mənə müraciət etdi. Öhdəmə şəhərin mühafizəsi kimi ağır bir vəzifəni tövdi etdi [tapşırdı]. Hər kəs ticarətə və maddi mənfəətə məşğul olduqda mən bütün xüsusi mənfəətlərimi buraxıb inqilabın sonuna qədər vəzifəmi hüsn-istemal etdiyimə [yaxşı yerinə yetirdiyimə] minlərcə doğru şahidlərim vardır.

Fəqət doktor cənablarının fəaliyyəti haqqında da "Ədil" kimi millət lisanı olan qəzetələrdə bizə az-çox məlumat verilmişdir.

Millətimiz, həmd olsun, hər şeyi iyi görür və təqdir edir və kimin kim olduğunu da pək əla bilir.

*Sarı İmamqulu oğlu Ələkbər*

**- II -**

Hörmətli müdir əfəndi!

Mübarək cəridənizin [qəzetinizin] bir sütununda yer verməк üçün bu sətirləri sizə göndərdim. Dərc edərsəniz təşəkkür edərəm.

Bu günlərdə Parlaman əzasından doktor Qarabəyov cənabları iclasda məni quldur deyə qələmə vermişdir. Mən rus hökuməti vaxtında Nikolay qulluqçularının zülmündən qaçmışdım. Ona görə mənə Qaçaq Qənbər deyilir.

Qaçaq olmaqla bərabər, mən heç bir vaxt öz millətimə və dindaşıma fənalıq eyləmədim və hürriyyətdən sonra mən kimsədən qaçmadım. Yenə gəlib millətimlə yaşadım və əlimdən gəldiyi qədər millətimə müavinət [köməklik] eylədim.

Gəncə vilayəti anarxiya tufanı içərisində yandığı vaxt millətim məni şəhərin və dəmiryolun ətrafının mühafizəsinə məmur etdi. O gündən etibarən millətimin sadiq bir qulu olmaqdan başqa bir şey tanımadım. Quldur olsaydım, o vaxtlarda mənim qüvvətli dəstəm heç bir şeydən qorxmadığı günlərdə mən də quldurluğuma məşğul olardım. Zəyəm ilə Yevlax arasında bir çox erməni və müsəlman pambıq fabrikaları vardır. O cümlədən Gəncə ermənilərindən Arzumanovun pambıq zavodu vardır ki, mən onun bir neçə milyona baliğ olan [çatan] malını saxladım, sahibinə təslim etdim. Bunu hamı bilir.

Dəfələrlə öz dəstəmlə bərabər bolşeviklərə qarşı çıxıb cəbhədə bir neçə qurbanlar verdim.

Bunların hamısını mən millətimin səadəti üçün etdim. Amma Qara bəy cənablarının bu işləri nə üçün etmiş olduğuna ağlımız erməyir [dərk etmirik].

Doktor cənabları bilmiş olsunlar ki, mən həqiqətən quldur olsam da, millətimin düşmənlərinə qarşı quldur olmuşam. Heç bir vaxt millətə fənalıq etməmişəm. Biləks [əksinə] vətən və millətimə qarşı dərin bir məhəbbətim vardır.

*Tağı oğlu Qənbər*

## İDARƏDƏN CAVAB

**Mütəəllim [tələbə] M. F. Əlizadə əfəndiyə:** Maarif naziri ilə görüşüb istə-

diyiniz mətləb barəsində danışmaq sizin arzunuza və nazir həzrətlərinin müsaidəsinə bağlıdır. Lakin qəzetə vasitəsi ilə rəsmən Maarif nazirinə müraciət etmək mütəallimə [tələbəyə] müsaidə ediləcək şeylərdən deyildir və yaraşmaz. Rəsmiyyətə qalarsa siz genə bilavasitə əlaqədar olan müəllimlərinizə müraciət etməlisiniz.

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şürü etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəallimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 244. "Neft Mədənçiləri Sovet Syezdi": Bakı Neft Sənayeçiləri Qurultayının Şurası.

**Sülh ətrafında**

səh. 252. "Banat": Mərkəzi Avropada tarixi vilayət. Hal-hazırda Serbiya, Rumıniya və Macaristan arasında bölünmüşdür.

**Teleqraf xəbərləri**

səh. 252. "Hindenburq": qəzetdə "Qindenburq" getmişdir.

**Qəzetələrdən**

səh. 253. "A. P." qəzetəsi: "Assoşieyted press" qəzeti nəzərdə tutulur.

"Bu yaxınlardakı kəşfiyyat Prussiyanın əsgəri hökmranlıq amalından yaxşı, düşmənin niyyəti ilə aşina olmaq imkanını verdi.": Cümlə belə başa düşülməlidir: "Bu yaxınlardakı kəşfiyyat məlumatları, düşmənin niyyəti haqqında daha yaxşı tanış olmaq imkanını bizə verdi; halbuki bu vaxta qədər ancaq Prussiyanın hərbi hökmranlıq xülyasından xəbərdar idik."

səh. 254. "Rotofane": Spartak İttifaqının yayın orqanı olan və 1918-ci ildən etibarən nəşrə başlayan "Di rote fahne" [Die Rote Fahne] qəzeti nəzərdə tutulur. Qəzetin adı "Qırmızı bayraq" mənasını verir. 1919-1945-ci illərdə Almaniya Kommunist Partiyasının əsas yayın orqanı olmuşdur.

"Almaniya indiki müttəfiq dövlətlərdən və muxtariyyətə layiq olan əyalətlərdən ibarət bir vahid təşkil edir.": Qəzetdə bu cümlədə "indiki" yerinə "xarici" (güman ki, xəbər mətninin rus dilindən tərcüməsində "нынешних" sözünün "внешних" kimi

anlaşılması səbəbindən), "əyalətlərdən" yerinə isə "fəaliyyətlərdən" getmişdir. "Muxtariyyətə layiq olan" sözləri "öz müqəddəratını təyin etmə hüququna malik olan" kimi başa düşülməlidir.

səh. 255. "...Almaniya hərbi gəmilərin təslih edilməsini...": qəzetdə "təslih" [silahlandırma] yerinə səhvən "təslim" getmişdir.

"Cavad bəy": Türkiyənin siyasi və hərbi xadimi İsmayıl Cavad Çobanlı nəzərdə tutulur.

"Ənvər paşanın dayısı Xəlil paşa": Xəlil Qut nəzərdə tutulur. Xəlil paşa Ənvər paşanın əmisi idi.

**Bakı xəbərləri**

səh. 256. "edadi məktəbləri": təhsildə universitetdən əvvəlki mərhələ – indiki lisey yaxud gimnaziyalar kimi başa düşülməlidir.





**Çərşənbə, 19 fevral 1919-cu il, nömrə 117**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 18 cəmadiyələvvəl sənə 1337. 19 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əliheydər Babayev, Xaliq, Ələsgər və Əliməhəmməd Lütfəliyevlər əvvəlincisinin dayısı oğlu və axırıncıların qardaşı **Ələkbər Lütfəliyev**in vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Starı poçtovı küçədə 15-inci dalan 3 nömrəli evdə.

Dəfn günü əlahiddə elan olunacaqdır.

## QİSMİ-RƏSMİ

**Qubernatorun əmri**

Bakı qubernatoru Rəşid bəy Axundzadə cənabları tərəfindən Bakı quberniyasına zeyldəki [aşağıdakı] əmrnamə sadir olmuşdur [verilmişdir]:

*Bakı qubernatoru vəzifəsini ifaya başladıqda mən hər şeydən əvvəl şəhərin və Balaxanı-Sabunçu dairəsinin əhvalı ilə aşina olmaq və təhti-idarəmdə [idarəm altında] olan quberniyada və ələlxüsus [xüsusilə] Bakı şəhərində davam edən və get-gedə artmaqda olan cinayət və qətl-qarətin səbəblərini bilmək istədim və bildim ki, bu səbəblərdən birincisi qaradavoylar tərəfindən post qulluğunun nəhayətdə pis bir sayaqda aparılması və çox vaxt heç olmamasıdır. Bir çox yerlərdə qaradavoy yoxdur. Olan yerlərdə də onlar qanuna görə küçənin ortasında deyil, səkilərdə və çayxanalarda dururlar. Okolotoçniklər [polis sahə rəisləri] qaradavoyların postlarını təftiş etməyirlər. Bu isə mühafizə nöqteyi-nəzərindən birinci dərəcədə əhəmiyyətli vəzifədir.*

*Buna binaən [əsasən] fevralın 7-sində verilən əmrə əlavə olaraq Bakı qalabəyisinə təklif edirəm: Bu gündən etibarən küçələrin ortasında qaradavoyların post qulluğunu təyin etsin. Bu isə məmurların təhqiq etmək vəzifəsini asanlaşdırıb və əhaliyə zərurət vaxtında kömək tapmağa imkan verər. Qaradavoylar üçün təyin edilmiş olan formanın hazırlanmasına və okolotoçniklərin indidən postlarda və nəzarət və təhqiqata başlamalarına pristavlar tərəfindən əmr verilməlidir.*

*Bunlardan əlavə, hangi uçastokda şiddətli dərəcədə cinayət və qətl-qarət davam etməsini bilməkdən ötrü Bakı və*

*Balaxanı-Sabunçu qalabəylərinə təklif edirəm ki, bundan sonra hər uçastokda nə qədər böylə ittifaqlar [hadisələr] olduğu barəsində hər gün mənə məlumat versinlər ki, tezliklə həman uçastoka gecələr səyyar dəstələr göndərmək və postların miqdarını artırmaq mümkün olsun.*

*Bakı qalabəyinə təklif edirəm ki, Nikolayevski və Velikoknyajeski küçələrin küncündə "Metropol" mehmanxanası yanında okolotoçniklərdən ibarət növbətçi post qulluğu təyin etsin.*

*Balaxanı-Sabunçu qalabəyisi [polismeysteri] Lütfəli bəy Əmircanova və onun müavinlərinə və bütün məmurlara Balaxanı-Sabunçu mədən dairəsində nizam və asayiş bərpa edib və polis qulluğunu tərtibə salmaqla sakitlik vücuda gətirməsindən dolayı vəzifə naminə təşəküratımı izhar edirəm. Böylə nizam və asayişi kəndim görüb və yəqin hasil etdim.*

*Bakı təhərri [axtarış] polisinin fəaliyyəti lazımi dərəcə deyildir. Onun öhdəsində olan vəzifə istənildiyi sayaqda ifa edilməyir. Bir qədər ciddi surətdə diqqət və etina edilərsə, bundan daha böyük faydalar hasil etmək olar. Binaənileyh, təhərri polisi naçalnikinə təklif edirəm ki, xəfiyyə işlərini tənzim etmək barəsində öz nəzəriyyatını tezliklə mənə təqdim etsin. Xəfiyyə işlərinin davamı, tövqif [həbs] edilən canilər, tapılan şeylərin müqəddəratı və onları tövqif edən və tapan məmurlar barəsində hər həftə mənə məlumat təqdim edilməlidir.*

*Bakı qubernatoru:*
*Rəşid bəy Axundzadə*
*16 fevral 1919*



## HƏR SÖZƏ ALDANMAYALIM

Parlaman iclaslarında danışılan sözlər hələ küçələrdə davam etdirilir. Əhali arasına min cürə həvadis [xəbər, şayiə] yayır, min ara qarışdırıcı sözlər söyləyirlər.

Keçirməkdə olduğumuz bu kimi zamanlarda, bir zamanda ki, Parlaman və hökumət ənvai [cürbəcür] müşkülat içindədirlər, bir zamanda ki, hökumətimiz, istiqlalımız var deyə ciddən xatircəm olmaq halında olmadığımızı ağlı şey kəsən məktəb şagirdləri belə təsəvvür edə bilərlər, bir zamanda ki, xalq içərisindən çıxma həmiyyətmənd bir piri-salxordənin [qocanın] dediyi kimi "südün üzü hələ qaymaq tutmaqdadır", bir zamanda ki, bir dosta müqabil min düşmən qarşısındayız, bir zamanda ki, yeni qurulmaqda olan dövlətlər deyil, əsrlərdən bəri böyük bir dövlət həyatı ilə yaşamış olan dövlətlər, millətlər belə zamanın taqətfərsa [dözülməz] ağırlıqları altında inildəyirlər, böylə bir zamanda həmiyyəti, qeyrəti və bunlardan əvvəl hiss və idrakı olan bir azərbaycanlı hər sözə aldanmamalı, hər eşitdiyinə inanmamalıdır.

Neçə gündən bəridir şəhərə bir küy salmışlar, hər kəsdə hökumətə, vəziyyətə qarşı bir şübhə və etimadsızlıq hissi oyatmışlardır. Xalqı yerindən oynadaraq nümayişlər etməyə belə meyl etdirənlər, təhrik edənlər olmuşdur.

Burada başqa qoşunlar yığışır, ermənilər könüllü yazılır, kazarmaları, evləri tuturlar. Buna da hökumət etina etməyir, göz qoymayırmış.

Bizi satırlar, evimizi yıxırlar, Mart günləri gəlir, həp yatırlarmış.

Yüngül əllərdən gövşək ağızlara atılan bu sözlər gündə bir rəng və bir əlavə ilə ortaya çıxır, xalqı həyəcana verir.

Fəqət xalq düşünməlidir. Bilməlidir ki, şübhə hər həqiqətin anası olsa da, daima kəndi etimadkərdələrini [etimad edilmiş şəxslərini], müqəddəratını tapşırmış olduğu heyəti, adamları sui-zənn altına almaq, onlara inanmamaq da doğru bir hərəkət deyildir.

Zənn edilirmi ki, küçənin qeyri-məsul adamları və yaxud tənqidlərini qayət fəna bir şəkildə küçələrə çıxaran bəzi "millət dadxahları" [millətin "imdadına çatanlar"] tənqid eylədikləri, bəyənmədikləri dövlət adamlarından, millət vəkillərindən daha ürək yanan, daha bəsirətli və daha iş bilən olsunlar?!..

Küçə münəqqidləri [tənqidçiləri] ilə camaat küyləyən əfəndilər, əksərən cəsur və durbin [uzaqgörən] olmaqdan ziyadə, qorxaq və kutəhbin [dargörüşlü] olanlardır.

Ruslarda bir təbir var ki, ona "obıvatelşina" deyərlər.

Türkcə ədəbiyyatda bunu "amiyanə" [avam] deyə tərcümə etmək gərək. Amiyanə düşünənlərcə bir çox şeylər var ki, insan onları görərkən yerindən olmaya bilməz. Fəqət bir az diqqət olununca baxarsınız ki, pək də xoflanacaq bir hal yoxdur.

Bizim keçirməkdə olduğumuz kimi müşkül zamanlarda nöqsan gördüyümüz camaat işlərində hökumətə zor gəlmək kimi həm faydalı, həm də zərərli bir hal təsəvvür etməyiniz!

Öylə zamanlar var ki, hökumətin əfkari-ümumiyyə [ictimaiyyət] tərəfindən təzyiq edilməsi mətlubdur [arzuedilən-dir]. Bu təzyiq hökumətin bəsirətini açar, görəcəyi təşəbbüslərdə kəndisinə xidmət edər. Bu şərtlə ki, bu təzyiq hüsnniyyətlə, hökuməti irşad [aydınlatmaq] qəsdi ilə olsun. Yoxsa öylə bir təzyiq də var ki, hökuməti rüsvay etmək, düşürmək üçün olur. Yerinə görə, zamanına görə bunun da bəlkə faydası ola bilər. Fəqət keçirdiyimiz zaman kimi vaxtlarda bu ikinci tədbirin hər zaman fəlakətlərlə nəticələndiyi təcrübələrlə görülmüşdür.

Bir kərə Mart hadisələrini xatırlayınız. Martdan əvvəl bolşeviklərlə daşnakların hərəkatı o zamanki müsəlman idarələri, müsəlman firqələri, "Müsavat"la sair müəssisələrə məlum deyilmiydi?...

Əlbəttə ki, məlum idi. Məmafih [bununla belə], onlar sikkənin o biri üzünə də aşina olduqlarından, həqiqi qüvvətlərin tənasübünü ölçmək imkanında olduqlarından, təbiri-məxsusla [necə deyərlər], idareyi-məsləhət edir [vəziyyəti pis-yaxşı idarə edir], müsaid bir günün gəlməsini gözləyərək bir növlə müdara və rəftar edirlərdi [səbr edirdilər, dözürdülər].

Halbuki əmmamələrini əllərinə götürüb küçəyə çıxanlar, məntiqə deyil, boğazlarına güc verənlər, milli idarələrin tövsiyəsinə, "Müsavat"ın iltimas və ricasına, onların sükun və etidala dəvət edici bəyannamələrinə baxmayaraq məhud [məlum, hamının bildiyi] "ultimatum"u yazdırdılar. Sonra da zəbtü rəbtdən [nəzarətdən] çıxmış camaatı saxlaya bilmədilər. Olan oldu, istənilməyən nəticə alındı.

Bu təcrübəni xatirdə saxlamalıyız. Hər zaman hissiyyatımız cuş edərkən [coşarkən], cuşa gələn hissiyyatımızı boşuna sərf etməyib, kəndimizi zəbt etməliyiz. Həyə-

can, qələyan [coşma] və üsyanımızı daima müntəzəm bir surətdə işlətməliyiz. Bu intizamı isə bizə yalnız bir şey verə bilər: hər eşitdiyimizə inanmayıb, hər rəhbər ardından getməmək!

Qailə deyil, qövlə bax; yəni danışana deyil, danışığa bax – deyə siyasətdən başqa hər xüsusda qayət doğru bir düstur vardır. Fəqət siyasətdə, yəni dövlət və camaat işində isə yalnız danışığın ürəyə sinən olduğu bəs deyildir. Lazımdır ki, danışanın etibarı, həmiyyəti, qeyrəti və hər şeydən əvvəl keçmişi bəlli olsun.

Nəticəsi şəxsə deyil, bütün millətə, xeyri və ya zərəri bir dəstəyə deyil, böyük bir camaata, bir millət və ya dövlətə toxunacaq işlər üçün "qailə deyil, qövlə bax" düsturundan ziyadə "qövlə də, qailə də bax" [sözə də bax, onu deyənə də] düsturu daha doğru və daha salim [sağlam, salamat] bir düsturdur.

Əvət, vətəndaşlar, müşkül bir mövqedəyiz. Mövqemizin müşküllüyü yalnız əngəllərimizin çoxluğunda deyildir. Bizi hidayət edənlər, bizə yol göstərənlərin çoxluğu da müşkülatımızın böyüyünü təşkil etməkdədir.

Bilsəniz ki, bu zavallı məmləkət nə qədər intriqalara, nə qədər propaqanlara məruzdur. Bu propaqanlardan hangisinin məmləkət faydası və millət dərdi ilə söyləndiyi, hangisinin qərəz və mərəzlə ərz olunduğunu bilmək, seçmək gərək. Onun üçün də yalnız danışığa deyil, danışana da diqqət etməli, həm qövlə, həm də qailə baxmalıdır! Çunki "söyləyəni" deyil, "söylədiyini" tövsiyə etmişlərsə də, haqq sözlə batil məqsəd örtənləri də göstərmişlərdir.

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 10-cu iclas

### Üçüncü gün

*(Keçən nömrənin axırı)*

**Fətəli Xan Xoyski** (Baş vəzir) - Möhtərəm məbuslar! O günlər ki, siz neçə dəfələrlə mənə müraciətən [müraciət edərək] bu hökumətin təşkilinə məni vadar etdiniz, mən birinci bəyannamədə sizə demişdim, inşallah yadınızdan çıxmamışdır, mən o vaxt sizə dedim ki, böylə xətrəli [təhlükəli] bir zamanda heç kəs cəsarət edib zimami-hökuməti [hökumət yüyənini] əlinə almaz. Bununla bərabər, əgər biz o vəzifəni öhdəmizə götürürsək, ancaq sizin sidqi-dil [təmiz ürək] ilə hökumətin dalında durub kömək edəcəyinizə ümid oluruz. Buna inanıram, əgər görsəm ki, sədaqət yoxdur, bir dəqiqə hökumət başında durmaram. Bunu mən o vaxt dedim və bu sözlər yaddan çıxmazlar. Əlbəttə, mən bilirəm ki, hökumətə kömək cürbəcür olar. Sorğu vermək özü də bu cür köməkdir. Bəzi vaxt öylə məqam olur ki, bəzi şeylər barəsində tədbir görmək yaddan çıxır, bəlkə hətta hökumətin bəzi şeydən xəbəri olmur. Öylə ittifaqlarda [hallarda] gərək məbuslar sorğu vasitəsi ilə əhvalı hökumətə bildirsinlər, borcludurlar soruşsunlar, məsələn, filan kənddə buğda yığırlar, hökumətə məlumdurmu, filan iş niyə böylə olur, hökumət buna bir çarə edirmi? Böylə sorğular Parlaman tərəfindən hökumətə bir köməkdir. Heç hökumət böylə sorğudan inciməz. Əgər bir əsas düz deyilsə, Parlaman sorğu versin, düzəlməsini tələb etsin. Biz sorğunu həmişə artıq dərəcə məmnuniyyətlə qəbul edəriz. Amma, möhtərəm məbuslar, sorğu da var, sorğu da var. Bir sorğu var ki, atanın oğluna verdiyi nəsihət kimidir. Bir sorğu da var ki, zəhərli, bədxahlıq sorğusudur. Zənn edirəm, bu ikinci kimi sorğularla heç vaxt iş qabağa getməz. Böylə sorğu Parlaman ilə hökumət arasında süpürüşmə və oyuncaq meydanı olar. Bu sorğu hökumətə badalaq vurmaq, biz soxmaq deməkdir. Aya [görəsən], bu o zamandır ki, hökumətə badalaq vurulsun? Aya, Azərbaycanın halı öylədirmi ki, hökumətlə süpürüşülsün? Belə də sorğu olar?

Bu öylə bir zamandır ki, gərək hökumətlə məhəbbət dili ilə danışasan. Hökumətə deyəsən filan işdə səhv var, gəl biz də sənə kömək edək, düzəldək, bunu belə eyləmək lazımdır. Hökumətlə bu dil ilə danışmaq gərəkdir. Böylə olsa hökumət üçün köməkdir. Mən belə bilirəm ki, heç hökumətlə özgə dil ilə danışmaq olmaz və hökumət qəbul etməz ki, danışılsın. Mənim yoldaşlarım burada puldan ötrümü, yaxud yox olan ixtiyardan ötrümü əyləşmişlərdir? Aya, bu müqəssirlər skamyasıdır ki, hərə gəlib bir söz desin, bir ləkə yapışdırsın? Aya, bizim tərəfimizdən böyük fədakarlıq, millətə böyük xidmət deyilmi ki, öz səlamətliyimizi, bu saat bazarlarda danışılan təmiz adımızı və rahatlığımızı millətə fəda edərək bu skamyalarda əyləşiriz, hərə bir söz deyir, hətta ixtiyarımız yoxdur onlardan bir qədər ehtiramla davranmağı tələb edək?

Doğrudur, çox şeylər olub, Nəzarətlərdə [Nazirliklərdə] çox qüsurlar var, məmurlar rüşvətlər almışlardır, bəzi üsulsuzluqlar olur, bunların heç birini gizlədən, pərdələyən yoxdur. Hökumət bunu bilir, əlindən gələn işləri eyləyir və eyləyəcəkdir də. Müqəssirlərin təqsirini aydınlaşdırmaq üçün istintaq edilir, sonra məhkəməyə veriləcəklərdir. Bu barədə nazirlər bəyanat verdilər. Ancaq mən bunu da deməliyəm ki, bununla bərabər hökumət bir fövqəladə istintaq komisyonu da təşkil edir ki, bu işlərə baxsın. Çünki adi istintaq və məhkəmələr kifayət etməyirlər. Fövqəladə komissiya lazımdır.

Hökumətin borcudur bu işləri görsün, görəcəkdir də. Mənim fikrim bunları göstərmək deyil, əsl mətləb sorğunun mahiyyətindədir. Bu sorğu adəti deyil, heç Parlamanda böylə sorğu görülməmişdir. Adət böylədir ki, hökumətə sorğu verəndə əvvəlcə deyərlər ki, filan yerdə filan şey olubdur. Filankəs filan işi görübdür; bu, hökumətə məlumdurmu və nə tədbir görür? Sorğu böylə olar. Yoxsa heç bir şey göstərmədən sorğu verəsən, hökumətdən cavab aldıqdan sonra başlayasan ki, xeyr, böylə deyildir, filan-filan olubdur. Bu sorğu deyil, dalında yumruq, cibində daş gizlətməkdir ki, hökuməti qəflətən vurasan. Böylə sorğuya nə cavab vermək olar? Parlamanda heç böylə adət yoxdur və bu hökumət dili deyildir ki, hökumətlə bu dil ilə danışırlar. Hər şeyin xasiyyətinə fikir vermək lazımdır. Siz gərək həmişə nəzərdə tutasınız, hökumət ki, bu övzada [vəziyyətdə] dolanır, bu nə aləmdir, nə övzadır, bunu siz bilirsiniz. Çünki mümkün deyil Parlamanda oturanlar bilməsinlər. Siz bunu bilirsiniz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükədədir. Biliniz, indi

öylə bir vaxtdır ki, nəinki bez və çit, hətta öylə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlalımız gedər. Böylə mühüm zamanlarda hökumət işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olarmı? Bu məqamda, bu cür ki, sorğu verilir, aşkardır ki, bu xeyirxahlıq fikri ilə verilmiş xeyirxahanə sorğu deyildir. Bilirsiniz ki, hökumətin həftədə 5-6 iclası olur, gecə saat ikiyədək otururuz, lakin bu neçə vaxtda iş o qədər olmuşdur ki, sıradakı məsələlərə keçmək mümkün olmamışdır. Xarici siyasət o qədər hücum edir ki, bu halda mümkündürmü hökumət gedib sənin bezlərini ölçsün? Azərbaycanın başına bir bəla gələrsə, onda bez nəyə gərək, çit və neft nəyə gərək olar?

Gərək öylə etməyəsiniz ki, hökumətin səbr kasası dolsun. Böylə olsa, Azərbaycan üçün çox xətalar çıxar. Hökumət dəyişməklə bir qarışıqlıq çıxarsa, onda bütün millətə deyirəm: qoy millətin günahı və xətanın məsuliyyəti tamamilə hökuməti yıxanların öhdəsinə düşsün. Qabaqda bu məsələ ayrı cür idi, şimdi dil bir az dəyişibdir. Dün hökumətə hamı bir təpik vururdu. Eybi yoxdur, bu da keçər. Sanki bizə bir savab, mərhəmət etmişlər, öylə bil biz öz kefimizlə buraya gəlmişik. Sanki bizə deyirlər bu dəfə təqsirinizdən keçib sizi dəyişməyiriz, gələn səfər belə qələt etsəniz görərsiniz nə edərik!

Aya, bu olar? Aya, hökumətlə bu dillərlə danışarlar? Mənim qulağıma yetişdiyinə görə Parlaman üzvlərindən birisi digərinə deyibdir ki, hətta Biçeraxov və Denikin köməyi ilə də olsa bu hökuməti yıxacağam. *(Mərkəzdən və soldan: Eyib olsun, eyib olsun!)* Lazım gəlsə o adamın adını da deyə bilərəm. Aya, bilirsiniz, Biçeraxov kimdir, Denikin kimdir? Bunlar o adamlardır ki, Azərbaycanın adını da çəkməyə qoymazlar. Aya, hökumətlə süpürüşmək istəyən bu cür adamlar Parlamanda otura bilərmi? Xayır! *(Mərkəzdən, soldan alqış)* Hökumətlə Parlaman arasında qeylü-qal çıxarmaq vaxtı deyil.

Möhtərəm məbuslar! Fikirləşin, bu məqam nə məqamdır, bu məsuliyyət nə məsuliyyətdir? Gördüyünüz işləri düşünmək, fikirləşmək lazımdır. Əgər düşünülsə, əminəm bir adam tapılmaz ki, deməsin, bu danışılan dil hökumətlə danışmaq dili deyildir. Böylə qorxulu zamanda dalğalar arasında bulunan qayığımız[ı] bir tövr salamata çıxaraq ki, məqsədlərimizə müvəffəqiyyətlə nail ola bilək! *(Mərkəzdən, soldan alqış*)

Bu nitqdən sonra zeyldəki [aşağıdakı] üç formula (təklif) varid olur [meydana gəlir]:

**Sosialistlərin təklifi**

*"Bizim sənayemizin ən qiymətli məhsulatının alış-verişi və camaat içərisində təqsimi [bölünməsi] barəsində verilən sorğulara hökumətin verdiyi izahatını dinləyib Azərbaycan Məclisi-Məbusanı bu məsələnin əhali və Cümhuriyyət üçün böyük əhəmiyyəti olduğunu və bunun lazımi surətdə qaydaya qoyulmasını qeyd edərək, əhvali-fövqəladədən dolayı məmurların xidmətlərində göstərdikləri sui-istemalları[n] [sui-istifadələrin] və həmçinin möhtəkirlik və əksinqilab hərəkətlərinin şiddətli qanunlarla önünü almaq lazım olduğunu nəzərə alıb qət edir [qərara alır] ki:*

*1. Sui-istemallar və ehtikar [möhtəkirlik] işlərini müəyyən və istintaq etmək üçün bir Fövqəladə Parlaman Komisyonu intixab etməli [seçməli] və;*

*2. Məmurların xidmətlərindəki sui-istemalları, möhtəkirliyi və əksinqilab işlərini mühakimə üçün təşkil ediləcək Ali Tribunalın qanun layihəsini düzəltmək üçün bir komisyon intixab etməli. Və bununla növbədəki məsələlərə keçir."*

**"Müsavat"ın təklifi**

*"1. Vaqe olan sorğuya qarşı hökumətin verdiyi bəyanatı kafi görərək Məclisi-Məbusan növbədəki məsələlərin müzakirəsinə keçir.*

*2. Eyni zamanda məmləkət hasilatının eyi bir surətdə idarəsi və ərzaq işinin müvafiq surətdə idarəsi üçün lazım gələn tədbirləri görmək məqsədi ilə Parlaman komisyonunun təşkilinə lüzum görür."*

**Ağa Aşurovun təklifi**

*"Hökumətin sorğulara olan cavabını eşidərək, Məclisi-Məbusan hökumət rəisinin göstərmiş olduğu tədbirlərin tezliklə görülməsi arzusunu izhar edərək və hökumətin bəyanını kafi görərək növbədəki məsələlərin müzakirəsinə keçir."*

Təkliflər səsə qonulduqda "Müsavat" kəndi təklifinin birinci qismini Aşurovun təklifinə dəyişərək, yarısı Aşurov, yarısı "Müsavat" təklifindən ibarət olmaq üzrə aşağıdakı qərarnamə qəbul edilir:

*"Hökumətin sorğulara olan cavabını eşidərək Məclisi-Məbusan hökumət rəisinin göstərmiş olduğu tədbirlərin tezliklə görülməsi arzusunu izhar edərək və hökumətin bəyanını kafi görərək növbədəki məsələlərə keçir.*

*Eyni zamanda məmləkət hasilatının eyi bir surətdə idarəsi və ərzaq işinin müvafiq bir surətdə idarəsi üçün lazım gələn tədbirləri görmək məqsədi ilə Parlaman komisyonunun təşkilinə lüzum görür."*

## PARLAMANIN 6 FEVRAL İCLASINA DAİR

"İttihad" fraksiyasının bez, neft və ərzaq haqqında hökumətdən etdiyi sorğusu gurultulu bir surətdə üç gün davam etdi. Fevralın 6-sında olan axırkı iclasda hökumətin fəaliyyətsizliyinin isbatı əsnalarında "İttihad" fraksiyası rəisi Qarabəyov cənabları: *"Hökumətin üsuli-idarəsi bu tövr davam edərsə, Azərbaycan dağılar"* dedi. Buna dəlil olaraq Quba qəzasının Dağıstana, Zaqatala vilayətinin də Gürcüstana qoşulmaq arzusunda olduqlarını dərmiyan etdi [meydana atdı]. Qarabəyovdan sonra kürsiyi-xitabətə [xitabət kürsüsünə] çıxan Quba məbusu Qarabəyovun Quba haqqındakı sözlərini tamamilə təkzib etdi. Bundan sonra söyləmək növbəti Zaqatala məbusu Aslan bəy Qardaşov cənablarına yetişdi. Zaqatala haqqında hökumətə rəsmi surətdə məlumat verildiyindən, həm də mövzui-bəhs [mübahisə mövzusu] olan sorğu dairəsindən çıxmamaq qəsdi ilə olsa gərək Qardaşov Zaqatala haqqında bir söz söyləməzdən, sorğu barəsində söyləməyə girişdi. Qardaşov sözünün əsnasında:

– "Müsavat" rəisi Rəsulzadə cənabları dünkü qaynar nitqində *"Hökumətin səhv və xətaları olmaq mümkündür"* deyir. Əcəba nə cür səhv və xətadır ki, uzun bir müddət davam edir? Nə tühəf bir səhvdir ki, Bakı milyonçusuna, İran kon-

suluna 10 minlərlə verilən bezin bir arşını da olsun möhtacinə [möhtaclara] verilməyir? "Müsavat" fraksiyasının rəisi nə üçün bu kimi şeylərə xəyanət deməyib, səhv adlandırır? – dedi.

Qardaşovun əqəbində [ardından] növbəti olaraq kürsiyi-xitabətə qalxan Rəsulzadə cənabları:

– Zaqatala məbusu Arslan bəy Qardaşov cənabları "Müsavat" fraksiyasının rəisini tənqid edəcəyi yerdə, Quba məbusu kimi Zaqatala[nın] Gürcüstana qoşulmaq arzusunda olduğunu bu müqəddəs minbərdən təkzib etməli idi. Mən cəsarətlə qəyur [qeyrətli] zaqatalalılar namına [adından] bu minbəri-alidən [bu uca minbərdən] elan edirəm ki, zaqatalalılar qətiyyən Gürcüstana qoşulmaq istəməyirlər. *"Gürcüstana qoşulmaq arzusundadırlar"* sözü zaqatalalıların heysiyyətlərinə toxunar bir yalandır. Zaqatala Azərbaycanın ayrılmaz bir cüzü [hissəsi] olduğu bədihiyyatdandır [açıq-aşkardır]. Bunu hər kəs düşünməlidir. – deyir.

Qardaşov cənabları hər nə qədər sözə izin istədisə də, natiqlər siyahısı bitdiyindən sədr tərəfindən müsaidə edilmədi. Binaənileyh [buna görə], bu haqda mətbuat vasitəsilə bir neçə söz söyləməyi kəndimə borc bilirəm.

Rusiyanın o mənhus istibdadının münhəll olub [əriyib, məhv olub], hürriyyət günəşi tülu edən [çıxan] günlərdən etibarən zaqatalalılar da hər millətin müqəddəratının həlli kəndi qüvvəsi ilə, kəndi əli ilə həll ediləcək vaxtı gəldiyini duydu. Bunun üçün kəndlərimizdə olan Türkiyə zabitlərindən, türk nəfərlərindən [əsgərlərindən] bilistifadə [istifadə edərək] hər kənddə 20-dən 35 yaşına qədər bütün gənclərimiz əsgəri təlimat altına alındı və bunlara tüfəng və fişəng alınıb verilməsi varlılarımıza məcburi qılındı. Hər kənd adətən bir qışla [kazarma] şəklini almışdı. Zaqatala qalasından vətənlərinə ricət etmək [qayıtmaq] istəyən rus əsakirindən [əsgərlərindən] bütün ləvazimati-əsgəriyyəni [hərbi sursatı] qan tökməksizin camaat kəndi ixtiyarına aldı və kəndlərimizdə təlim alan gənclərimizdən 300 nəfəri gətirilib qalaya mühafizəçi qonuldu. Tif-lisdən ləvazimati-əsgəriyyə almaq bəha-nəsi ilə rəsmi surətdə "Ləzgi alayı" ismin- də bir alay təşkil edilib, Tiflisdən xeyli ləvazimat da gətirildi. Bir yandan əsgəri təşkilatımız tənzim, digər tərəfdən buların iaşələri ifa və tərtib edilirdi. Kəndlərdən vaqonlarla ərzaq, yüzlərlə ayaqlı mallar ianə təriqi [yolu] ilə hər gün gəlməkdə idi.

Vilayət daxilindəki işlərimiz xeyli nizama salınmışdı. Qafqazın başqa yerlərində anarşiya bütün dəhşəti ilə hökmfərma olduğu [hökm sürdüyü] bir vaxtda bizdə hər nahiyənin əsgəri üç günlük azuqəsi ilə Şeyx Şamil həzrətləri ilə rusların müharibə etdiyi Zaqatala qalası düzünə milli bayraqla manevrə yapmaq üçün gəlirdi.

28 iyunda Azərbaycana ilhaq etdiyimizi [birləşdiyimizi] Baş vəzirə teleqrafla bildirdik. Bakını düşmən əlindən xilas etmək üçün həman günü alayımızı da yola saldıq.

Böylə bir zamanda milli vəzifəmiz, dini hissiyatımız bir alayın kifayət etməyəcəyini zəbani-hal [hal dili] ilə anlatdı. Bakıda hücumda bulunan ordumuzun arxasını təmin, daxili anarşiyanı təskin etmək [yatırmaq] qəsdi ilə bütün cihazıyla





[təchizatıyla] bir min (1000) nəfərdən ibarət süvari əsgəri təşkil edildi. Bu atlı əsgərlərin 4 milyondan fəzlə məsarifatını bu gün məhcur edilmiş [yaddan çıxarılmış, tərk edilmiş] yazıq kəndlilər alın təri ilə qazandığı pullardan vermişdilər.

Bunlardan əlavə, qanun üzrə toplanmış əsgərlərimizə də əhali yabançı qalmadı. Cümleyi-mötərizə olaraq onu da ərz edəyim ki, "hər şeyi hökumətdən gözləmək yaramayan bir iş olduğunu, dövlət işində əhalinin də öhdələrinə düşən vəzifələri çox-çox olduğunu" zaqatalalılar artıq düşünmüşlərdir. Bunun üçün də qanun üzrə alınmış əsgərlərinə yabançı qalammazdı.

Bu gün əlli qaryolalıq [yataqlı] bir xəstəxana təsisi üçün Gəncə Bələdiyyə İdarəsinə 450 000 manat, 300 qaryolalıq bir xəstəxana üçün Bakı Şəhəri İdarəsinə 2 200 000 manat dövlət xəzinəsindən borc pul buraxılması hamıya məlumdur.

50 qaryolalıq bir xəstəxana düzəltmək üçün əcəba zaqatalalılar nə yapmışlardır? Onlar da dövlət xəzinəsindən paramı istiqraz etdilər [borc aldılar]? Xeyr. zaqatalalılar bir "Hilali-əhmər [Qırmızı Aypara] cəmiyyəti" təsis edərək açdıqları 50 qaryolalıq "Hilali-əhmər xəstəxanası"nı bu cəmiyyətə ianə təriqi ilə toplanmış paralarla idarə edirlər.

Hal-hazırda Zaqatalada mövcud əsgərlərimizin üst əlbisələrini [paltarlarını] ləzgi şalından həman cəmiyyət tikdirmişdi.

Bu gün Zaqatalaya təşrif aparan zəvat [şəxslər] Zaqatala əsgərlərini başqa bir ruhda, başqa bir şövqdə görəcəkdir. Bunlar da Müsüslü yataqlarında, Bakı ətrafında, Qarabağ dağlarında vətən üçün qan tökən dini, millətini müdafiə yolunda şəhid olan zaqatala[lı] gənclərimizin qardaşlarıdır.

Fövqdə məzkur sifətlərlə müttəsif [yuxarıda deyilən xüsusiyyətləri daşıyan] zaqatalalılar haqqında bu gün Parlamanda qulağım nələr eşidir, kim bilsin daha nələr eşidəcəkdir. Zira Azərbaycana ilhaq olub da bu qədər fədakarlıqda bulunan zaqatalalılara hökumətimiz az da olsun iltifat etməli idi.

Tif və ispanka xəstəliyindən minlərlə binəva kəndlilər əlacsız, dərmansız tələf oldu. Pulsuzluqdan məhsullarını bir yerə çıxarammayırlar. Dün Azərbaycan daxilini və Bakını düşməndən xilas etmək yolunda yeddi-səkkiz milyon sərfiyyatda bulunan və gənclərini qurban verən Zaqatala kəndlilərinin bu gün dərdlərinə, ehtiyaclarına nədənsə baxılmayır, etina edilməyir.

Vilayət məhkəməsi sədrinə ayda 400 manat, həman məhkəmənin qapıçısına 550 manat maaş verilməsinin səbəbini düşünəmməyiriz. Vilayət daxilində oğurluq, soyğun, cana suiqəsd kimi cinayətlər adət sırasına keçmişdir. Bu haqda hökumət qapılarına dəfəatla [dəfələrlə] getdik, "Hər işə tez əncam çəkiləcəkdir" sözlərini eşidib əncamların intizarında durmuşuq.

Zaqatalada gürcülər pul ilə propaqanda yapdırdığını Bakıda eşitməyənimiz yoxdur, fəqət bu haqda nə kimi tədbirlər görüldü?

Möhtərəm Məhəmməd Əmin həzrətləri! Milliyyət, qövmiyyət məğzlərini kamalınca düşünən və anlayan zaqatalalılar, min dürlü propaqandalar olsa da, milyardlar təklif edilsə də, son nəfəslərinə qədər Gürcüstana qətiyyən qoşulma-

yacaqlarını təbşir etməklə [muştuluqlamaqla] bərabər, Parlaman minbərindən Zaqatala haqqında silsiləli cümleyi-müshəfələrin iradı ilə [uzun və qəliz cümlələr söyləməklə] kifayətdə bulunmağınız müqtəzayi-hala [zamanın tələblərinə] bir o qədər mütabiq olmasın gərək zənn edirəm. Çünki fədakarlığı ilə mərufunuz olan [tanıdığınız] zaqatalalılar haqqında füccətən [birdən-birə] "Zaqatala Gürcüstana qoşulmaq arzusundadır" sözünü eşitdiyinizdə, Zaqatala məbuslarına bunun təkzibini təklif edəcək yerdə, həman məbuslardan məzkur [deyilən] cümlənin nədən və nə üçün nəşət etdiyini [meydana çıxdığını] sorsanız, məqsədinizə daha yaxınlaşmış olardınız.

10 yanvardakı xüsusi müsahibəmiz xatirinizdədir, zənn edirəm.

Yoxsa Zaqatala haqqında gürcülərə, məlumunuz olan cavabı yazan və Zaqatala Azərbaycanın layənfək [ayrılmaz] bir cüzü olmasına çalışan bir ovuc zaqatalalılar Gürcüstana qoşulmaq arzusundadır cümləsini təkzib etməkdən başqa, "Səyeyi-şahanədə [Hökmdarın sayəsində, kölgəsində] asayiş bərkamaldır" sözünü əlavə olaraq söyləməyə qadir olardı[nız].

Möhtərəm bəyim! Azərbaycan istiqlaliyyətinin, Azərbaycan Cümhuriyyətinin həqiqi aşiqisiniz. Vaqeən buna imanım bərkamaldır və Zaqatala Azərbaycanın bir cüzi-layənfəkliyində əbədi olaraq qalmasını görmək istəyirsəniz, zaqatalalıların dərd və ehtiyaclarını nəzəriyyatla deyil, əməli surətdə gördürməyə var qüvvənizlə çalışmalısınız.

Artıq bu qədər əfəndim.

*Zaqatala məbusu:*
*Bayram Niyazi [Kiçikxanov]*

## DABRAVOLLARIN BUGÜNKÜ KÖMƏKÇİLƏRİ

İngilis komandası paytaxtımıza daxil olduğu əsnada, bunun ardınca şəhərimizə bir çox güruhlar daxil olmuşlardır. Bunlar kol dibindən qaçan arvad-uşaqlarını ayaqlar altında tapdalayıb, öz canlarını həlakətdən [ölümdən] qurtarmağa çalışan "igidlərdir" ki, ciblərində pul, kisələrində çörək, camədanlarında [çamadanlarında] faxir [bahalı] libas və əllərində də tüfəng özlərini güc-bəla ilə paraxodlara atıb, Kaspi dənizinin hər cəhətinə, düşməndən qorxusuz yerlərə qaçdılar. Qaçıb da öz nəfslərini ölümdən qurtardılar. Zor və cəbrlə yetimlərin əllərindən aldıqları zəxirəni [ərzağı] kamali-asudəliklə yeyərək, Lənkərandakı əlsiz və ayaqsızlara köhnə "igidliklərini" göstərməyə qurşandılar. Bakıda başlı-başına buraxılmış və ac-susuz qalmış dul arvadların, yetim uşaqların, əlil qocaların ah və nalələri bir kənara öz nəfslərini qaçırtmış "əli tüfənglilərin" ürəklərini əsla incitmədi. Girvənkəsi 20 manata çörək yeyənlərin fə-qanları, bunların qulaqlarına çatmadı.

Bunlar kim idi?

Bunlar – Andranik və Amazasp kimi bir saatda və bəlkə bir dəqiqədə daşnak boyaqxana küplərində general boyağı ilə boyanmış dığaların tərəfdarları idi ki, bunların xasiyyətləri müsəlləh [silahlı] qüvvə qarşısından qaçmaq və əslihəsiz [silahsız], köməksiz biçarələri də qırmaqdır. Bunun sübuta ehtiyacı yoxdur.

Bakının Mart hadisatı [hadisələri], Şamaxının qətliamı, Qarabağ və Naxçıvan tarümarı və daha nələr nələr... Bunlar kimi yüzlərcə daşnak fəsadının hangi birini söyləyim? Bunların rəşadəti mərdanəliklə deyil, bəlkə hiylə, saxta və riyakarlıq kimi insaniyyətə yaxışmayan hərəkətlərlə aralığa atılmaq, güclülərin meydanından qaçmaq, gücsüzlərin qanını içmək onların tarixi bir sifətləridir ki, boyunlarındaki xaçla bərabər həman sifətləri də daşıyırlar.

Bunlar nə istəyirlər?

Yek kəlmə: Qafqaz qitəsinin tamamına ağa və sahib olmaq. Gürcüstanın Tiflisi, Azərbaycanın Bakısı daşnakların əli ilə bunların tapdağı olmuşdu. İnqilab gəldi, hər kəs malına sahib durdu, özgə şəhərlərində ağalıq edən daşnakları Tiflisdən və Bakıdan Ararat dağına qədər qavdılar. Lakin bu bihəyalar, üzlərindəki maskanı dəyişib, bu dəfə ayrı bir üsul ilə işə girdilər. Ayıq gürcülər bunların ənvai [cürbəcür] hiylələrinə aldanmadılar. Açıq müharibədən başqa daşnakların çarələri qalmadı. Odur ki, xüsusi bir bəhanə ilə Tiflisi dərdəst etmək [ələ keçirmək] üçün Sanain yolundan soxuldular, atışdılar, vuruşdular, Tiflisi ala bilmədilər. Qəyur [qeyrətli] və rəşid [rəşadətli] gürcülər bunları qarşılayıb yenə öz yuvalarına qaytardılar. Daşnaklar susdular. Gürcüstan ətrafında riyakarlığa, gürcüləri iğfal etməyə [aldatmağa] qurşandılar. Bir ay çəkmədi ki, Soçi ətrafında rusların dabravol [könüllü] dəstəsinə qoşularaq meydana yenə bir fitnə dağarcığı atdılar. Şükürlər olsun ki, bu dəfə də daşnak fəsadı alovlanmadı.

Görək bundan sonra daşnak güruhu sakit dayanacaqlarmı? Yəqin ki dayanmayacaqlar. Çünki fitnəçilik bunların qədim bir peşələridir. Amma bunu bilməlidirlər ki, bundan sonra nə qədər hiylə və dami-təzvir [tələ] qursalar, həqqaniyyət toxmağı öz başlarında çatlayacaqdır. Tiflisi daha bir də Xatisovlar görə bilməzlər. Bəlkə gürcü milləti tamamən qırılıb qurtara, bəlkə Kür çayı üzü yuxarı axa ki, bir də ermənilər Gürcüstanın paytaxtına malik ola bilsinlər. Heyhat!

İndi öz paytaxtımız Bakının tarixinə keçək. Rus qoşunu Qafqaz qitəsini tərk edib evlərinə qayıdırdı. Yəni, inqilabın zəlzələsi Daşkovların Tiflisdəki bargahikəsralarını [padşah saraylarını] dağıdıb xarabalara döndərməkdə idi. Ehtimal ki, bu bargahların [sarayların] təpələrindən Qafqaz millətlərinə hökmranlıq etmiş Xatisovlar vaxtında qoyub qaçmasaydılar, yəqin ki, bunların xarabaları altında basdırılıb qalardılar. Daşnaklar Tiflisi məcburən əldən buraxaraq məyus qalıb Qafqazın sair mərkəzlərinə mütəvəccih oldular [üz tutdular]. Tiflisdə itirdikləri nüfuzu Bakıda qazanmaq, Azərbaycanın paytaxtına malik olmaq istədilər. Demokrat maskasını geyib, o vaxtdakı inqilab cərəyanlarına qoşuldular. Ümuri-siyasiyyənin [siyasi işlərin, idarənin] bolşeviklər əlinə düşəcəyini duyaraq hamısı dərhal bolşevik dəstəsinə maraqlandılar. Daşnakların bolşeviklər kimi füqərayi-kasibənin mənafeyinə çalışan və demokrat əsası ilə işləyən bir partiya olduğunu qırmızı yalanları ilə isbat etdilər. Bakıdakı minlərcə rus füqərasının meylini özlərinə rağibləndirdilər. Odur ki, erməni qanı və daşnak xəmirəsi [mayası] ilə yoğrulmuş zalım Şaumyan Bakıdakı tamam bolşeviklərin sərkərdəsi və dəstəbaşısı intixab olundu [seçildi]. Dildə bolşevik, ürəkdə daşnak fikirli Şaumyan bu iki firqənin arasında qardaşlıq siğəsini oxuyub ikisindən bir fövc [küt-

lə], bir qaragüruh yapdı. Bundan sonra Bakı ermənilərinin qocası, cavanı hətta gimnaziya şagirdlərinə qədər hamısı bolşevik dəstələrinə könüllü əsgər sifəti ilə daxil oldular. Cəbhədən qaçıb Bakıda və mədənlərdə gizlənmiş minlərcə erməni fərariləri kamali-məmnuniyyətlə boşlevik dəstələrinə böyükcə məvaciblərlə qəbul olunurdu. Bolşevik nüfuzu getdikcə erməni vasitəsi ilə kəsbi-şiddət edirdi [artırdı]. Müəssisələrdə ermənilər, milis və polis əfradı [nəfərləri] ermənilər, əsgər və zabitlər ermənilərdən qoyulduğu cəhətə, Bakı şəhəri zahirən daha erməni şəhərinə oxşayırdı. Şaumyan Bakını udulmuş loxmalardan hesab edərək azərbaycanlılara qurduğu duzaqların [tələlərin] üstünü pərdələmək üçün ilanın quyruğunu hələ tapdalamaq istəmədi. Onun təsəvvürüncə, ermənilərin Tiflisdə itirdikləri nüfuzu yenə sabiqki qərar üzrə özlərinə qaytarılmazsa, Bakıda qazanıldığı etibara da ümid bağlamaq olmaz. Odur ki, demokrat amalı ilə və bolşevik bayrağı altında özünü bir dəfə Tiflisə atdı. Lakin gürcü demokratları bunun ürəyindəki məsləki çoxdan duymuşdular. Hökümət Şaumyanın Tiflisə vürudunu [gəlməsini] xəbər alar-almaz, onun dərdəst olunmasına [ələ keçirilməsinə] çalışır. Avlabar erməniləri Şaumyanı aralarında gizlətməsəydilər, yəqin ki, gürcülər onu tutub xırpalayacaqdılar [əzişdirəcəkdilər].

Şaumyan bir müddət Tiflisdə gizləndi, məqsədinə nail ola bilmədi. Cəbhədən qayıdan rus eşelonlarına qoşularaq yenə Bakıya qayıtdı. Bu dəfə gürcülərin acığını türklərdən almaq istədi. Odur ki, Yevlax istasyonuna çatar-çatmaz bunun təhriki ilə rus saldatları Yevlaxdakı biçarə əhli-kəsəbəni [zəhmətkeş xalqı] gülləbaran etdilər. Qətl olunmuş füqəranın həddi-hesabı yox idi. Yevlax körpüsünün üstündən salamat keçərək Qarxun qəryəsini [kəndini] topa, atəşə tutdular. Bu həman Qarxun kəndidir ki, Yevlax körpüsünün xidmətçiləri qoyub qaçdıqları bir halda qarxunlular əllərində tüfəng, gecə-gündüz məccanən [qarşılıqsız] həman körpünün qarovulunu çəkmişdilər. Qarxunlular olmasaydı, Yevlax körpüsünü bədəfkarlar [terroristlər] çoxdan dağıdıb, rus saldatlarının da evə qayıtmaq məsələsinə böyük xələl [ziyan] yetirə bilərdilər. Bakının bugünkü bol azuqələri həman körpünün davamı sayəsindədir ki, bunun müqabilində izhari-təşəkkür əvəzinə biçarə Qarxun camaatı şaumyanların işarəsi ilə atəşə tutuldu.

Rus cəbhəxanalarına top-tüfəngləri, pulemyotla bərabər tamamən sahib duran şaumyanlar Şəmkir macərasını fitnə sərlövhəsi ittixaz edərək [sayaraq], rus saldatları ilə müsəlmanların arasına ədavət tumu saçırdılar. İş bu məqama gəldi ki, Parapetlərdə rus arvadları, saldatları intiqama dəvət edirdilər. Bunun nəticəsi olaraq Mart hadisati-əliməsi [faciəli Mart hadisələri] ortalığa atıldı. Quzu dərisinə girmiş qurdlar Şaumyan və Lalayan təhti-komandası ilə [komandası altında] daşnak canavarları tamam vəhşi və yırtıcı bir firqə olduqlarını hərəkati-vəhşiyanələri [vəhşicə hərəkətləri] ilə tamam aləmə bildirdilər. Əlil qocaları, xəstə arvadları, məzlum çocuqları qılıncdan keçirdilər. Xanimanlar yandırıldı. Hər kəsin evində, cibində nəyi vardısa, zorən alındı. Mallar qarət, canlar da güllələrə hədəf olundu. Bakı və Abşeron ətrafında müsəlmanların qiyaməti qopdu. Yetimlərin fəryadı, məzlumların şikayəti şaumyanların qulağına girmədi. Tamam 6 ay Bakı ətrafında müsəlmanların nahaq qanı töküldü. Halal malları əllərindən alındı. Erməni qarətçiləri, saldatları milyonçu oldular. Ayağı çarıqlı dilənçilərin ciblərindən yüz minlərcə Nikolay pulu çıxırdı.

Avtomobillərdə keyflər yapılırdı. Şampanskilər sel kimi axırdı ki, bu halda Azərbaycanın qəyur cavanları türklərlə bərabər məzlum qardaşlarının imdadına çatdılar. Əhvalın təhlükəli olduğunu duymuş daşnaklar yüz min milyonlarca müsəlman əhlindən aldıqları pul və cəvahiratı paraxodlara yığıb səhih və salimcə [sağ-salamat] qaçıb qurtula bildilər. Bir müddət orada-burada daldalandılar. Axırda "qoçaq pəhləvanlar" ingilislərin ardınca yenə Bakıya qayıtdılar, müsəlmanlardan aldıqları qarətləri gizlədib bərəks [əksinə] türklərin hücumu əsnasında özlərinin zərər və ziyana düçar olduqlarını iddia etdilər. Həqiqəti birə-on, birə-yüz artıraraq yüz min milyonların siyahılarını ingilis komandasına təqdim etdilər. Sentyabr zərərdidələrinə [zərərçəkənlərinə] ümid verildiyi halda, mart zərərdidələrinə heç məhəl qoyan da olmadı. Böylə neyçün? Məgər müsəlmanların şikayətini dinləyən bir məmur, bir məkan tapılmadı? Zənnimcə müsəlmanlar haqlarını müdafiəyə qaxışmadılar. Halbuki müsəlmanların ziyanları ermənilərinkindən birə-on, birə-yüz qat artıq idi. Böylə olan surətdə bu insafdan kənar bir işdir ki, cüzi bir zərər sahibinin halına yanılsın, külli zərər sahibinin əhvalı isə heç də nəzərə alınmasın. Böylə bir ədalətsizliyə daşnaklar heyfa ki [təəssüf ki], nail oldular. Nail olub da cürətləndilər, sair fasid [araqarışdıran] məramlarına əl qatdılar.

Bunların axırkı fitnələri Dabravol dəstələri ilə aralığa bir pozğunluq salmaqdır. Gürcüstanda məramlarına nail olmadılar. Azərbaycanda da laşəkk və laşübhə [şəksiz-şübhəsiz] nail olmayacaqlar. Bu həmən Azərbaycan türkləridir ki, Gəncə, Qarabağ, Qazax, Zaqatala, Şəki ətrafından minlərcə gəlib paytaxtını düşmən əlindən rəşidanə [rəşadətli] bir surətdə geri aldılar. Hökumətlərini, Parlamanlarını təsis etdilər, yerlərinə qayıtdılar. Yenə vətən uğrunda fədakarlıq lazım olarsa, yüz minlərcə Bakının nicatına gələcəklər. Bunu daşnaklar düşünsünlər ki, Azərbaycan Hökuməti Bakıda qoşun saxlamayırsa, məhz ingilis komandasının verdiyi yəminlərinə [andlarına, vədlərinə] istinad edir. Lazım olduğu halda qoşun da gələcəkdir. Burası təəccübdür ki, Qarabağdakı "zərgər Amazasp" bu gün "general Amazasp" ləqəbi ilə şöhrət tapmışdır. Andranik kimi quldura, Amazasp kimi zərgərə ingilis komandası qapıları, yəqin ki, açılmayacaqdır. Lakin böylə səfillər başlı-başına buraxılarsa, Şaumyan kimi asayişə xələl qatıb yenə bir fəsad törədə bilərlər. Bunu ingilis komandası bir an əvvəl bilib də, böylələrini şəhərdən kənara çıxarmalıdır. Hürriyyətimizdən istifadə edən bir çox əşqiya güruhu [quldur dəstəsi] bu gün bolşevik olar, sabah dabravol olar, o biri gün üçüncü bir dona girəcək, məqamı gəldikcə nizamı, asayişi pozacaqdır. Əcəba, ingilis komandası böylə əhəmiyyətli məsələni etinasızcamı buraxacaqdır?

Hər divar dibindən qaçmışlar Bakıya təşrif gətirmişdir. Bunların başburtlarına [pasportlarına] baxılsın, məşğuliyyətsiz

gəzənləri vilayətlərinə qaytarsınlar.

Bu nə Dabravol dəstəsidir ki, paytaxtın küçələrində gəzirlər? Bir çox oğurluqda tutulmuş Biçeraxov kazakları qoyub getdilər, əvəzində Prjevalski dəstəsi ixtira olundu. Bunun qarşımıza bəslədiyi məqsədi əcəba nədən ibarətdir? Bunların hərəkatından əhali həyəcana gəlir. Yenə azuqə azalır, ərzaq gətirilməyir, qiymətlər qalxır. Yenə zabastovkalar [tətillər], yenə tətillər başlayacaqsa, füqəranın işi daha müşkülə düşəcəkdir. Xülasə, əhalinin əmin-amanlığına çalışan ingilislər Dabravol məsələsinə xitam verməlidirlər. Daşnakların riyakarlığı onları iğfal etməsin [aldatmasın], sonra peşmanlıq çəkərlər. Lənkəran məsələsinə baxılsın, ədalətlə həll olunsun. Muğanlıların qanını şişəyə tutan [muğanlıların qanını içən, onlara çox zülmlər edən] rus atryadı [dəstəsi] oradan qovulsun. Daşnaklar bilsinlər ki, Kür çayı üzü yuxarı axar, amma Bakını Azərbaycandan ayırmaq heç bir vəchlə mümkün olmaz. İndi özləri bilsin!

*F. A.*

## MƏTBUAT

Son zamanlar siyasət dairəsində mühüm mövqelər tutan bir çox zəvat [şəxslər] "Müsavat" firqəsindən [partiyasından] çıxmışdır. Məzkur [adı çəkilən] firqənin türkcə "İstiqlal" qəzetəsi firqədən çıxanların kim olduğunu və nə üçün çıxdıqlarını bəyanla yazır ki:

*"Sultanovlar, Cavanşirlər və digərləri firqədən gedərkən kəndiləri ilə bir qisim xalqı, müəyyən bir sinif və məslək əhlini təmsil edirlər. Vahid Rusiya və Zaqafqaziya siyasət keşməkeşlərində firqə proqramı bu adamlar üçün milli bir ideal ikən, şimdi bunlar Azərbaycan istiqlalı bir fəaliyyət almağa başlarkən, artıq "Müsavat"dakı yerlərini həm soyuq, həm də tikanlı görməyə başlamışlardı. Çünki, firqənin xarici proqramını qurtarıb yavaş-yavaş daxili proqramı tətbiq edilmək lazım gəlirdi. Xalqın haqqını tanımaq sırası idi. Sözdə deyil, işdə tanımaq vaxtı gəlmişdi. Ona görə bunlar firqədən fərar edirlər. Çünki onlara bir qəlib, yalnız bir zahir lazım idi. Halbuki, "Müsavat"ın ruhunu dərk etmiş olan firqəçilərə yalnız qəlib deyil, ruh dəxi lazım idi.*

*Biz istiqlalı, muxtariyyəti, millətin hürriyyətini, yalnız bir ad üçün və yaxud qüvvət sahiblərini məsud qılmaq üçün istəməyirdik. Bizim məqsudumuz türk demokratiyasının xilası, Azərbaycan xalqının hürriyyəti idi. Bizim üçün proqramımızın bütün maddələri bir dərəcədə əziz və müqəddəs idi.*

*Biz xalq firqəsi olduğumuza, mənzilimaqsuda [hədəfə, niyyətdə tutulan məqsədə] dəxi həqiqi xalqçılarla bərabər olaraq gedəcəyimizə hər zaman inanmışız. Bu imanımız hər zaman bizə rəhbər olmuş. Bu rəhbərlik sayəsindədir ki, türk demokratiyası "Müsavat"ı bir dost kimi tələqqi [qəbul] etmişdir.*

*Bizdən gedirlər onlar ki, demokratiya ilə yaxın bir dostluqda bulunmaq təbiətlərinə uymaz. Bizdən gedirlər onlar ki, səflərimizdə bulunmaları firqəyə "xan və bəy firqəsi" dedirtməyə səbəb təşkil edirdi.*

*Mühafizəkar burjua ilə mürtəce feodallar, "Müsavat" radikalizmi ilə demokratizmini əlbəttə ki, çəkəmməzlərdi. Onlar ya gərək firqəni özlərinə çəkəydilər, yainki firqədən gedəydilər. Təbiidir ki, ikinciyə nail olacaqlardı; oldular."*





## TELEQRAF XƏBƏRLƏRİ

### Almaniyada əsgərlər tərxisi

"Royter" acentəliyinə xəbər verirlər ki, Almaniya əsgərləri tərxis edilmişlərdir. Ancaq şərq cəbhəsində üç yüz min əsgər qalmışdır. Təcrübəli saldatlardan üç yüz min nəfərdən ibarət könüllü ordu təşkil edilməkdədir.

### İngilis kralının nitqi

Parlamanın rəsmi-güşadı [açılış mərasimi] münasibətilə İngilis kralı Gevorq bir nitq irad edərək İngiltərənin azad müstəmləkələrinin və Hindistanın bu dava zamanında ümumi işdən ötrü göstərdikləri fədakarlıqları, canfəşanlıqları təqdir eyləmişdir. O, ümidvar olur ki, Hindistan məşrutəsi [konstitusiyası] layihəsinə baxan komitənin dakladı [məruzəsi] bu yaxınlarda Parlamana idxal ediləcək və bundan sonra da qanun tərtib veriləcəkdir. Kral hər iki kameraya təklif eyləmişdir ki, bu günün təhəmmül qəbul etməz [dözülməz] məsələləri olan bir çox ictimai və iqtisadi məsələlər əcalətən [təcili] həll edilsin. Buna görə də Parlamana təklif ediləcəkdir ki, məsələ təxirə düşməməkdən ötrü bu məsələlərin təhririat [rəsmiyyət] işi tezliklə qurtarsın.

- İngiltərənin muxtariyyətli müstəmləkələrinin Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil olmaq barəsindəki iddialarına Sülh Konfransı baxacaqdır. Bunlar azad olan millətlər sifəti ilə Cəmiyyəti-Əqvama buraxılmalarını xahiş edəcəklərdir. Hindistan və bu kimi muxtariyyətli müstəmləkələr daxili ümuri-idarələrində [işlərində] sərbəst olmalıdırlar. İngiltərə isə onun yalnız xarici siyasətlərini təftiş edə biləcəkdir. Kanada, Avstraliya, Yeni Zellanda, Cənubi Afrika tələb edirlər ki, Belçika və sair ikinci dərəcədə olan millətlər kimi bunlar da Cəmiyyəti-Əqvama buraxılsınlar.

### Axıska və Azğurun süqutu

Mövsuq mənabedən [mötəbər mənbələrdən] erməni "Naşe vremya" qəzetəsinə xəbər verirlər ki, Axıska cəbhəsində acaralılar gürcü qoşunlarına böyük bir zərbə endirib onları qova-qova Axıskanı və Azğuru işğal etmişlərdir. Gürcü qoşunları içində, qəzetənin yazdığına görə, pozğunluq varmış və özləri də cəbhədən qaçırmışlar. Vəziyyət çox ciddi olduğundan Jordaniya cəbhəyə getmişdir.

## BAKI XƏBƏRLƏRİ

### Fəhlə həyatından

Pəncşənbə [cümə axşamı] günü fevralın 20-sində, axşam saat 4-də Binəqədidə "Narodnı dom"da [Xalq evində] Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə əhvali-hazirəyə [hazırkı vəziyyətə] dair mühazirə oxuyacaqdır. Ümum fəhlə və kəndlilərin mühazirəyə gəlmələri rica olunur.

* Şənbə günü fevralın 22-sində Tağıyev fabrikasında teatro binasında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə cənabları "Qafqaziya millətləri və Könüllü ordu" mövzusunda mühazirə (leksiya) oxuyacaqdır.

Ümum fəhlə və kəndlilərin mühazirəyə gəlmələri rica olunur. Mühazirə axşam saat 4 tamamda başlanacaqdır.

**Şayiat**

Şəhərdə ciddi surətdə şayiələr dəvəran edir [gəzir] ki, guya Zakaspi nahiyəsində Mərv şəhəri ətrafında bolşeviklər, ingilis və menşevik qoşunlarına yenidən böyük zərbə endirmişlər və guya bu münasibətlə ingilislər Mərv şəhərini təxliyə edib, Aşqabada tərəf geri çəkilmişlərdir.

**Salarüddövlənin həbsi ətrafında**

Bakıdakı İran şəhbəndərliyinə [konsulluğuna] yaxın olan bir zat [şəxs] mühərririmizə söyləmişdir ki, sabiq İran şahı Məhəmmədəlinin qardaşı Salarüddövlənin həbsi İran dövləti və Bakı konsulunun təklifi ilə İngiltərə komandanlığı tərəfindən icra edilmişdir. Həman zatın dediyinə görə, Salarüddövlə İstanbuldan gəlib Astrabada gedərkən Krasnovodsk şəhərində dərdəst edilmiş [tutulmuş] və Bakı həbsxanasına göndərilmiş. Mumaileyhin [onun] həbs edilməsinə səbəb, yenidən İrana keçib türkmanlar vasitəsilə ixtilal və irtica qaldırmaq məqsədi olmuşdur.

**Diş həkimi İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*





**Arvad diş həkimi Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Larionovun cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həmə-vəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Bakı İkinci İstiqrazi-Mütəqabilə Cəmiyyəti**

Bununla öz üzvlərinə elam edir [bildirir] ki, Cəmiyyətin növbəti iclasi-ümumisi [ümumi iclası] bazar günü mart ayının 2-si səhər saat 10-da təyin edilmişdir. İclas bankın binasında (Mixaylovski və Baryatinski küçələrin küncündə Dadaşovun mülkündə) vaqe olacaqdır.

Müzakirə ediləcək məsələlər:

1) Cəmiyyət işləri haqqında şura, idarə və təftiş komissiyasının məruzəsi.

2) 1918-ci il məhsubatının [hesabatının] müzakirə və təsdiqi.

3) 1919-cu il smetasının müzakirə və təsdiqi.

4) Növbətə görə çıxmış olan idarə üzvü Əlibala Əliyevin Şura üzvü intixabı [seçilməsi].

5) Növbətə görə çıxmış olan Şura əzası [üzvü] Hüseynov və vəfat etmiş Popovun yerlərinə yenidən beş nəfər Şura əzası intixabı.

6) Təftiş komissiyasına üç üzv və üç namizəd seçilməsi.

*2694*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və inna ileyhi raciun**

səh. 263. "Starı poçtovı": Bakıda, indiki Süleyman Tağızadə küçəsi.

**Qismi-rəsmi:**
**Qubernatorun əmri**

səh. 264. "Nikolayevski": Bakıda, indiki İstiqlaliyyət küçəsi.

"Velikoknyajeski": Bakıda, indiki Məhəmməd Əmin Rəsulzadə küçəsi.

**Parlamanın 6 fevral iclasına dair**

səh. 271. "ləzgi şalı": toxunma şal parça növü.

**Dabravolların bugünkü köməkçiləri**

səh. 273. "Tiflisi bir də Xatisovlar görə bilməzlər.": 1918-1920-ci illərdə Ermənistan Respublikasının Səhiyyə, Daxili İşlər, Xarici İşlər naziri kimi yüksək vəzifələr tutan, habelə bir ilə yaxı müddətdə Baş nazir olan Aleksandr İvanoviç Xatisov nəzərdə tutulur. Xatisov Tiflisdə anadan olmuş, Tiflis Şəhər Dumasının üzvü, 1910-1917-ci illərdə Tiflis şəhərinin bələdiyyə başçısı vəzifələrini tutmuşdur.

"Yəni, inqilabın zəlzələsi Daşkovların Tiflisdəki bargahi-kisralarını dağıdıb xarabalara döndərməkdə idi.": Daşkovlar deyərkən 1905-1915-ci illərdə Qafqazın canişini olan İllarion İvanoviç Vorontsov-Daşkov nəzərdə tutulur. "Kisra" Sasani hökmdarı Xosrovun adından əmələ gəlmiş, Sasani hökmdarları haqqında, eləcə də ümumiyyətlə "hökmdar" mənasında işlədilmişdir.

səh. 274. Avlabar (yaxud Avlabari): Tiflis şəhərinin ən qədim rayonlarından biri.

"Qarxun qəryəsi": Azərbaycan eyniadlı bir neçə kənd mövcuddur. Burada adı çəkilən isə hal-hazırda Yevlax rayonu ərazisindəki Yuxarı Qarxun kəndidir.

səh. 275. "general Amazasp": Hamazasp Srvandzyan nəzərdə tutulur.

səh. 276. "F. A.": bu imza Fərhad Ağazadəyə məxsusdur.

**Mətbuat**

səh. 276. "Sultanovlar, Cavanşirlər və digərləri firqədən gedərkən…": Xosrov bəy Sultanov, Behbud xan Cavanşir nəzərdə tutulur.

**Teleqraf xəbərləri**

səh. 277. "İngilis kralı Gevorq": 1910-1936-cı illərdə Böyük Britaniya kralı olan V Corc [George V] nəzərdə tutulur.

"…hər iki kameraya…": Britaniya Parlamentinin iki palatası (Lordlar Palatası və İcmalar Palatası) nəzərdə tutulur.

**Bakı xəbərləri**

səh. 278. "Astrabad": İranın şimalında bugünkü Gürgan (yaxud Qorqan) şəhərinin keçmiş adı.

**Bakı İkinci İstiqrazi-Mütəqabilə Cəmiyyəti**

səh. 279. "Mixaylovski və Baryatinski küçələrin küncündə…": Mixaylovski Bakıda indiki Əziz Əliyev, Baryatinski isə indiki Əbdülkərim Əlizadə küçəsidir.





**Cümə axşamı, 20 fevral 1919-cu il, nömrə 118**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 19 cəmadiyələvvəl sənə 1337. 20 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rubledir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əliheydər, Əliağa və Əliabbas Babayevlər öz dayısı oğlu **Ələkbər Lütfəliyevin** mərasimi-dəfni bu gün fevralın 20-sində saat 9-un yarısında özünün Starı poçtovı küçədə 15-inci dalan 3 nömrəli evindən olacağını öz qövm-əqrəbalarına elam verirlər [bildirirlər].

*2698*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ələsgər, Əliməhəmməd, Vahab, Xaliq Lütfəliyevlər öz qardaşı **Ələkbər Lütfəliyevin** vəfatını kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəbalarına məlum edirlər. Mərasimi-dəfni bu gün fevralın 20-sində saat 9-un yarısında öz evindən Starı poçtovı küçədə 15-inci dalan 3 nömrəli evdən olacağını öz qövm-əqrəbalarına elan edirlər.

*2677*

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Qubernatorun binagüzarlığı**

Bakı qubernatoru Rəşid bəy Axundzadə cənabları Bakı və Balaxanı-Sabunçu qalabəylərinə [polismeysterlərinə] xitabən zeyldəki [aşağıdakı] binagüzarlığı [sərəncamı] vermişdir:

Fevralın 10-da mənim təhti-sədarətimdə [sədrliyim altında] vüqu bulmuş iclasın qərardadına görə, Bakı və Balaxanı-Sabunçu qalabəylərinə əmr edirəm ki, qaradovoylara məxsus forma tərtib etsin. Bu formanın çiynində qırmızı parçanın üzərində rus və türk dillərində Bakı üçün "B. P." və Balaxanı-Sabunçu üçün "S. P." hərfləri yazılmalıdır. Qaradovoyların döşündə nömrəsi və nə yerdə, hangi qalabəyi dairəsinə qulluq etməsi göstərilməlidir. Hər qaradovoyun fiti olmalıdır. Tapanca olmadığından hələlik qaradovoylar tüfənglərlə müsəlləh edilirlər [silahlandırılırlar]. Okolotoçniklər [polis sahə rəisləri] və pristavlar əvvəlki formalarında qalırlar.

* Bakı qubernatoru Rəşid bəy Axundzadə Ədliyyə nazirinə müraciətən rica etmişdir ki, Bakıdakı bütün müstəntiqlərin mənzillərinə telefon qoyulsun.

* Bakı qubernatoru dəftərxanası qulluqçularının nizam üzrə xidmətlərini ifa

edib və vaxtında işə başlamalarını tövsiyə ilə qubernator tərəfindən bu barədə binagüzarlıq [sərəncam] və təlimat sadir olub [verilib], bütün qulluqçular tərəfindən oxunmuş və imza edilmişdir.

## MÜRACİƏTNAMƏ

**"Bakı və Ətrafı Müsəlman Zəhmətkeş Ziyalılar Cəmiyyəti" tərəfindən**

Əhaliyə məlumdur ki, Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərində bəzi para müfəttinlər [fitnəkarlar] tərəfindən cürbəcür fitnələr törənir. Bunlardan birisi də axşam olduqda şəhərin bəzi tərəflərində atışmalar olmasıdır.

Hamıya məlumdur ki, böylə fitnəçilərin məqsədi şəhərə şuluqluq salmaqdan savayı bir şey deyil. Hökumətimiz bu barədə çox çalışır və bu işə mübaşir olanlar da [girişənlər də] cəzalarına çatırlar. Ancaq iş burasındadır ki, bir hökumət məmurlarının bu yolda çalışması ilə biz gərək kifayətlənməyək. Biz müsəlman camaatı hamımız gərək bu işdə gözətçi olaq və böylə ağır dəqiqələr keçirdiyimiz halda var qüvvəmizlə çalışaq ki, bu işi kökündən qət edək [kəsək]. Bunu da əlavə edirik ki, qədim qaydalara görə, müsəlman camaatı "üskü"lərdə [Novruz çərşənbələrində] atəşbazlıq edir. Ancaq bu il, bu qayda bilmərrə [tamamən] biz müsəlman camaatının arasından götürülməlidir. Çünki, çox ola bilər ki, biz böylə hərəkətimizlə hökumətə xain olan şəxslərə və bəzi fitnəçilərə geniş bir meydan verək və onlar da bu "üskü" atışmalarından istifadə edib bəzi hərəkətlərdə ola bilsinlər və şəhərimizə böyük bir şuluqluq sala bilsinlər.

"Bakı və Ətrafı Müsəlman Zəhmətkeş Ziyalılar Cəmiyyəti" hamı müsəlman qardaşlardan rica edir ki, gələn "üskü" günlərində güllə atmasınlar ki, bu da qeyrilərin əlində dəstaviz [bəhanə] olub yenə bizi cürbəcür məzəmmət etməsinlər.

Hökumətin sərəncamına görə, hər kəs güllə atmış olsa tutulub böyük cəzalar veriləcək. Hər bir işdə biz hökumətimizin sərəncamına əməl etməliyiz.

## NƏ İLƏ SAKİT OLA BİLƏRİK

Şəhərimizdə, bizdən biizin [icazəsiz] və bizim rizamız olmadığı halda təşkil edilməkdə olan rus-erməni könüllü qoşun məsələsi haqqında qəzetəmizin keçən nömrəsində hökumət tərəfindən tədbirlər görüldüyü yazılmışdı. Parlamanımızın səşənbə [çərşənbə axşamı] günü iclasında bu tədbirlər xüsusunda hökumətin ağzından daha geniş məlumat aldıq. Baş vəzir [nazir] Fətəli xan cənabları bu barədə gördüyü tədbirləri və əhvalın çegunələyini [necə olduğunu] Parlamana bildirdi. Əvvələ məlum oldu ki, Azərbaycan paytaxtında yabançı qoşun təşkilatı təşəbbüsləri, general Tomsonca dəxi [Tomsona görə də] qeyri-təbii görünən bir vəqədir və saniyən [ikincisi] bunu bildik ki, İçəri şəhərdə, Təzəpir yanında və Salyan qışlalarındakı [kazarmalarındakı] qoşun mənzillərini tutmaq kimi cəsarətdə bulunmuş könüllülər, hökumətimizin əmrinə görə həman yerləri beş gün ərzində boşaltmağa söz veribdirlər. Bu dəxi bizə məlum oldu ki, Könüllü qoşun mütəşəbbislərinin Bakıda heç olmasa bir yüz, iki yüz qeyrinizami qoşun saxlamaq ricasına da hökumətimiz razı olmayıbdır.

*"Lakin bununla sakit olub da başımızı yastığa qoyub arxayın olmamalıyıq!"* sözlərini Fətəli xan həzrətləri əlavə etdi.

Bu qəbul! Əlbəttə, əhali də, Parlaman da bu gündən belə əhval və övzanın [vəziyyətin] ciddiliyinə daha artıq əhəmiyyət verib və lazımınca diqqət yetirib hər bir barədə ayıq olmalıdırlar. Lakin bu ayıqlıq vəzifəsi, təbiidir ki, hamıdan artıq hökumət üzərinə tərəttüb edir [düşür]. Hökumət əhalidən daha artıq ayıq və hüşyar [ayıq-sayıq] olmalıdır ki, həngami-zərurətdə [zərurət halında] hay-huy salıb yastığa baş qoymuş olanları oyatsın. Bu axırkıların da vəzifəsi odur ki, oyanan kimi biduni-həyəcanü təşviş [həyəcan və təşvişə yer vermədən], kamali-etidali-dəmlə [soyuqqanlılıqla] amadə [hazır] olub hökumət əmrlərini və binagüzarlıqlarını yerinə yetirmək üçün hazırlaşsınlar.

Lakin Fətəli xan həzrətlərinin srağagünkü sözlərindən sonra bizi heyrət və təəccübə gətirən dünənki "Znamya truda" qəzetəsində Könüllü ordu komandanı Prjevalskinin rəyi haqqındakı sözlərdir. Bu generalın dediyinə görə, Kaspi flotunun üssülhərəkə mövqeyi [bazası] Bakıda olacaqdır. Əlavə, general bəyan etmişdir ki, Qafqaz cümhuriyyətlərindən Dağıstan ilə Azərbaycan hökumətləri, rus qüvveyi-müsəlləhəsinin [silahlı qüvvələrinin] bu cümhuriyyətlər torpağında qalmasına və buralarda Könüllü ordu təşkilinə mane deyilmişlər...

Şübhəsiz, general Prjevalskinin bu sözləri, bizim gözümüz önündə təşkil edilən yabançı qoşunları görə-görə indiyə qədər kiriyib durmağımızdan irəli gələn təbii bir toxdaqlıq və arxayınlıqdır. Prjevalski[nin] buraya qoşun düzəltməkdən ötrü gəldiyini biz bilirdik. Bainhəmə [bununla belə] onun paytaxtımıza ayaq basmasına mane olmadıq: nə xəbər verdik ki, gəlməsin, nə də gələndən sonra həbs etdik. Prjevalski buraya gəlib Könüllü qoşunu təşkil etmək üçün müsaid bir zəmin gördü. Əlaltından işləyənlər – ki biz onları nədənsə görmürük, görsək də nədənsə görməməzliyə vururuq – Prjevalski üçün bir çox ləvazimat hazır etmişdilər. Deməli, Prjevalski binası qoyulmuş işi itmama [tamama] yetirmək təşəbbüsünə girdi və heç bir tərəfdən mümaniət [maneçilik] görməyib getdikcə cəsarətini artırdı və qoşunu üçün evlərimizi də rekvizit etməyə başladı və şəhərin şövqülceyşcə [strateji baxımdan] mühüm olan nöqtələrini bilaməhabə [çətinlik çəkmədən] işğal etdi və əminik ki, əgər Soçi əhvalatı bizi şübhə və əndişələrə salmasa idi, biz axıra qədər kirimiş qalardıq və o "axır" bundan ibarət olacaqdı ki, şəhərimiz prjevalskilər əlinə keçib Azərbaycan Hökuməti yerinə yenə rus hökuməti əyləşəcəkdi və ingilis komandası da "əmri-vaqe" [fakt] qarşısında sükut ixtiyar edib [susub] heç bir söz deməyəcəkdi. Ancaq ola bilər səy edəcəkdi ki, şuluqluq olmasın.

Fəqət genə də şükürlər olsun ki, biz bir az gec də olsa, bir balaca tərpəndik və bu işlərin xoşumuza gəlmədiyini lazım olan yerlərinə bəyan etdik. Bizə söz verdilər ki, bir də bu cürə işlər olmayacaqdır, olan iş dayandırılacaqdır və tutulmuş evlərimiz boşaldılacaqdır. Beş gün möhlət istəyibdirlər. Nə etməli? Möhlət vermişik, ancaq günləri sayacağıq ki, beş gündən artıq çəkməsin.

Lakin "başımızı yastığa qoyub" bir o

qədər arxayın olmamalıyıq.

Əvvəla, bunu nəzərdə tutmalıdır ki, istiqlalımızın düşmənləri bizim qəflətimizdən istifadə edərək şəhərimizdə kök salıbdırlar və bu kök o qədər bərkiyibdir ki, onu yerindən qopartmaq üçün mərdanə hümmət lazımdır. Əgər bütün kökü birdən-birə qopartmaq mümkün deyilsə, rişələrini parça-parça çıxartmaq əmə- liyyatına məşğul olmalıdır.

Ən əvvəl lazım olan budur ki, tez bir zamanda öz qoşunumuzdan heç olmasa bir-iki polk şəhərimizə daxil edilib, lazım olan mövqelərdə yerləşdirilsin. Ancaq qoşun tez gəlsin. Hökumət bu qoşunun tezliklə gələcəyini vəd etdi. Lakin "tez" sözü nisbi bir təbirdir [ifadədir]. Üç günə də "tez" demək olar, bir ilə də! Biz istərdik ki, bu "tez" üç günlük "tez"lərdən olsun. Vəilla [yoxsa] iş o məqama çatar ki, "tez" dönüb, "gec" olar. Zatən Tomson həzrətlərinin "Azərbaycanda Azərbaycan Hökuməti məşru [leqal] bir hökumətdir" sözlərindən sonra bizim qoşunumuz burada olmalı idi. Zira bu sözdən sonra daha daxili işlərimizdə ondan-bundan "izin"lər almağa ehtiyac yox idi. Tomsonun bu sözlərindən kamalınca istifadə etmək lazım idi. Bu sözlərdən istifadə edib də Qarabağa general-qubernator təyin etməyimiz şayani-təqdir və təhsin [təqdirə və alqışlanmağa layiq] bir təşəbbüs isə, həman sözlərdən sonra paytaxtımıza qoşunumuzu gətirməmək və mərkəzimizə yabançı generallar buraxmaq işimiz, dedikcə [olduqca] şayani-təəssüf [təəssüfə layiq] bir hadisədir...

Hər halda qəflətimizin fəna nəticələrini rəf etmək [aradan qaldırmaq] üçün əcələ ilə işə girişməliyik və mümkün olduğu qədər tezliklə qoşunumuzu paytaxtımıza gətirməliyik.

İkinci olaraq, şəhərimizi yabançılardan təmizləməliyik. Daha vaxtdır ki, biz də Gürcüstan kimi məsələni "köndələn" qoyub bizi tanımaq istəməyənlərə iki şey təklif edək: ya bizi tanımaq və ya paytaxtımızı boşaltmaq. Bu iki şeydən birini qəbul etdirməliyik! Vəilla iş o məqama çatar ki, bizim özümüzə iki şeydən birini təklif etməyə başlayarlar. Məsələn, şəhərimizdə asudəliklə əlaltınca işlər görməkdə olan Rus Milli Komitəsinin naşiri-əfkarı [mətbuat orqanı] "Yedinaya Rossiya" qəzetəsi dünənki baş məqaləsində bizə təklif edir ki, ya bolşevikləri qəbul edək, ya denikinləri. Və özü də öz yanından məsləhət görür ki, qəbulluq üçün denikinləri seçək, çünki bunlar bolşeviklərdən daha məsləhətdirlər.

Nə qədər acınacaq əhval! Gürcüstan Hökuməti, Rus Milli Komitəsini ləğv edib sədrini həbsə alır, amma biz bu komitənin "məsləhət"lərini dinləmək kimi şərəfsiz bir hala düşmüşük! Halbuki nə müharibə etmişik ki, basılmış olaq, nə də özümüzü o hala salmışıq ki, "məsləhətçi"lərə möhtac qalaq. Fəqət Rus Milli Komitəsinin bu sözləri bir o qədər "məsləhət" deyil, nə qədər ki, təhdiddir! Bizim "mehmannəvazlığımız" [qonaqpərvərliyimiz] və "nəvazişkarlığımız" yabançılar tərəfindən deyil ki, təqdir edilməyir, bəlkə bu xasiyyətlərimizi şüursuzluq və cəbunluğumuza [qorxaqlığımıza] isnad edib bizi hədələməyə və bizə "məsləhətamiz" təkliflər qəbul etdirmək təşəbbüsünə cəsarət edirlər...

Tələsmək, tələsmək lazımdır! Vəilla özgələrin bizi qabaqlamaq təhlükəsi əlamətləri görünməkdədir:

Səre çeşmə bayəd gereftən bebil,
Ço por şod nəbaşad qozəştən bepil!

Ümumi tədbir olaraq, biz özümüzü hücum qarşısında müdafiədə bulunmaq vəziyyətinə salmalıyıq. Bizə qarşı müxtəlif hücumlar hazırlanır. Bu vəqə – ki vüqu olacağı [gerçəkləşəcəyi] şübhəsizdir – qorxuludur. Lakin biz müdafiə və mühafizəyə hazır olsaq, o halda qorxu yoxdur.

"Əlaci vaqiə piş əz vüqu bayəd kərd" deyibdirlər. Özümüzü hər bir barədə müdafiə halına salıb bizimlə həmməslək olan həmcivar [həmsərhəd] qonşularımızla da möhkəm surətdə əlbir olmalıyıq. Türklüyümüzə məxsus cəsarətimiz və islamlığımıza müxtəss [xas] şücaətimiz düşmənlərimizə qarşı dağıdılmaz bir səngər hökmündə olduğu hər kəsə əyandır. Lakin içimiz və çölümüz dəxi texnik cəhətincə möhkəm olarsa, düşmənlərimiz səngərlərimizin qeyri-qabili-fəth [fəth edilməsi mümkün olmayan] bir halda olduğunu görüb də kor və peşman olub, ola bilsin ki, əbədilik bir surətdə bizdən əl çəkərlər.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Parisdə tətil**

Nəqliyyat işləri fəhlələrinin tətili davam edir. Elektrik istasyonu fəhlələri bir çox tələbat təqdim etmişlərdir. Tramvay saldatların mühafizəsi altında işləyir.

**Romaniyada bolşevizm hərəkatı**

Teleqrafların verdikləri xəbərlərə görə, Romaniyada bolşevizm hərəkatı artmaqdadır. Bir çox iğtişaşlar vaqe olmaqdadır. Hərəkat Bükreşdən başqa yerlərə sirayət etməkdədir. Kral və kraliça Yassıdan qaçmaq istəmişlərdir.

**Fransada fəhlə və saldat şuraları**

Parisdən xəbər verirlər ki, cənubi Fransada fəhlə və saldat şuraları gizlincə işləməyə başlamışlar. Marseldə və Lionda böyük nümayişlər olmuşdur.

**İngiltərədə tətil**

Londonda iki milyona qədər nəqliyyat, çörəkçi, maşinist və qeyri fəhlələrin tətili gözlənir.

**Bolşeviklərin nəfyi [sürgün edilməsi]**

Vyanadan verilən xəbərlərə görə, hərbi əsirlər işlərinə baxan rus heyəti hökumət məmurlarının təzyiqi altında Vyanadan əzimət etmişlər [getmişlər]. Bu axır vaxt məzkur [adı çəkilən] heyətin fəaliyyəti bolşevizm təşviqatından ibarət olmuşdur.

Müttəfiq dövlət komandanlarının tələbatı ilə heyət başçılarından bir neçələri Peştdə və Praqada həbs edilmişlərdir.

## SÜLH ƏTRAFINDA

**Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] layihəsi**

(Əvvəlinci beş maddə alınmamışdır)

6) Milli ordular milləti xətrədən [təhlükədən] saxlaya biləcək ən az miqdaradək endirməlidir.

7) İcra komitəsi kifayət qədəri və lazım olan miqdarda təslihat və ləvazimati-hərbiyyə [silah və hərbi sursat] qət və

təyin etməlidir.

8) Hərbi və bəhri [donanmaya məxsus] məramnamə barəsində açıq surətdə məlumat mübadilə edilməlidir.

9) Cəmiyyəti-Əqvama məsləhət vermək üçün daimi bir komissiya təşkil edilməlidir.

10) Etilafa [uzlaşmaya] gəlmiş olan tərəflər məcburdurlar ki, Cəmiyyəti-Əqvam üzvlərini torpaq və siyasət cəhətindən hücumlardan müdafiə etsinlər.

11) Etilafa gəlmiş olan tərəflərdən birisini bilavasitə təhdid edən müharibə yaxud hərb təhlükəsi Cəmiyyəti-Əqvamda müzakirə ediləcək və Cəmiyyəti-Əqvam sülhü saxlamaq üçün lazım gələn tədbirlər ittixaz edəcəkdir [tədbirlər görəcəkdir].

12) Etilafa gəlmiş olan tərəflər şərt edirlər ki, onların arasında ixtilaf əmələ gələrsə və diplomasi təriqiylə [yoluyla] həll edilə bilməzsə, icra komitəsinə lazım gələn məlumatı verədikdən və bu iş təhqiq edilmədən müharibə başlaya bilməz.

13) Etilafa gəlmiş olan tərəflər şərt edirlər ki, onların arasında ixtilaf əmələ gələrsə və diplomasi təriqiylə bu ixtilaf həll edilməzsə, bu məsələ həkəm [arbitr] məhkəməsinə verilməlidir. Həkəmlər tərəfeyn [tərəflərin] özü tərəfindən yaxud mövcud müahidə [saziş] üzrə seçilirlər.

14) İcra komitəsi Beynəlmiləl Tribunal təşkili barəsində plan hazırlayır və etilaf bağlayan tərəflər lazım gördüyü məsələləri bu tribunalın müzakirə və həllinə verirlər.

15) Həkəm məhkəməsinə verilməyən məsələlər İcra Komitəsinə verilərək orada həll edilirlər. Etilaf edən tərəflər Cəmiyyəti-Əqvam qərardadına əməl edən tərəflə müharibə etməməlidirlər. Hərgah bir tərəf Cəmiyyəti-Əqvam qərardadını icradan imtina edərsə, o zaman İcra Komitəsi bu qərardadın icrasına tədbirlər ittixaz edər.

16) Hərgah etilafa gələn tərəflərdən birisi bu layihənin 12-ci maddəsini xələldar edərsə, o zaman Cəmiyyəti-Əqvamın bütün üzvlərinə müharibə açmış hesab olur. Cəmiyyəti-Əqvam həman tərəflə münasibati-ticariyyə və maliyyəsini [mali və ticarət əlaqələrini] kəsər. Cəmiyyəti-Əqvam üzvlərinin müdafiədən ötrü hanginin nə kimi bəhri [donanma] və hərbi qüvvə qoyacaqlarını İcra Komitəsi təyin edər.

17) Cəmiyyəti-Əqvama daxil olan dövlətlə qeyri-üzv olan dövlət arasında, yaxud Cəmiyyəti-Əqvama daxil olmayan iki dövlət arasında ixtilaf əmələ gələrsə, Cəmiyyəti-Əqvama daxil olmayan dövlətlər bu cür ixtilafların Cəmiyyəti-Əqvamda həllini qəbul etməli və qərarlarına tabe olmalıdır. Cəmiyyəti-Əqvam məramına müxalifət edən tərəflə münasibati-maliyyə və ticariyyə kəsiləcəkdir.

18) Ümumun mənafeyini tələb edən yerlərdə silah və ləvazimati-hərbiyyə satışı işlərini Cəmiyyəti-Əqvam kontrol edəcəkdir.

## QƏZETƏLƏRDƏN

### Dağıstan Cümhuriyyətində

Teymurxanşura müxbirimiz yazır ki, inquş xalqının nümayəndəsi və Dağıstan Hökuməti tərəfindən inquş və çeçen xalqından ibarət təşkil edilmiş başıpozuq atlı dəstəsi Teymurxanşuraya varid olub, inquş nümayəndəsi İnquşistan barəsində başıpozuq atlı dəstəsi tərəfindən Vladiqafqazın alınması haqqında böylə bəyanat vermişlərdir:

*“Verilən məlumata görə, Vladiqafqaz şəhəri inadlı müharibədən sonra, başıpozuq dəstəsi tərəfindən işğal edilmişdir. Bolşeviklər pərakəndə edilib Qırmızı ordu əsgərlərinin demək olar ki, hamısı əsir olmaqla bərabər, silahları əllərindən alınmışdır. Bolşevik başçıları həbs edilmişlərdir. Başıpozuq dəstəsinin əlinə bir çox mühimmati-hərbiyyə [hərbi ləvazimat] keçmişdir.”*

Dağıstan Hökumətinin nizami əsgərləri Qroznıya daxil olmuşlardır. Verilən məlumatda general Denikinin hərəkətləri anlaşılmaz bir surətdədir. Vladiqafqaz şəhəri başıpozuq dəstəsi tərəfindən işğal edildikdən sonra, general Denikin öz elçisi vasitəsilə inquş xalqına ultimatum göndərmişdir. Bu ultimatuma cavab verilmək üçün iki saat vaxt verilmişdir. Denikinə böylə bir cavab göndərilmişdir:

*“Biz Dağıstan Cümhuriyyəti vətəndaşları öz hökumətimizin binagüzarlığına [sərəncamına] görə Müttəfiqlərlə əqd edilən şərait mövcibincə [imzalanan şərtlərə görə] sizinlə münasibat [əlaqələr] bərpa edilməsindən ötrü bolşevikləri çıxarıb qovduq. Hökumətimiz tərəfindən binagüzarlıq almayana qədər sizi öz torpağımıza buraxmayaraq sizdən xahiş edirik ki, işğal etdiyiniz cəbhə xəttində dayanasınız.”*

Denikin tərəfindən buna böylə cavab göndərilmişdir:

*“Mən heç bir cümhuriyyət-zad tanımıram. Mən vahid Rusiya tərəfdarıyam. Mənim tələbatımı əmələ gətirmək üçün sizə 10 dəqiqə vaxt verirəm.”*

Yenə Denikinə böylə cavab göndərilmişdir:

*“Biz bila-şərtü qeyd [qeydsiz-şərtsiz] öz hökumətimizə tabeyiz. Bizi boğub dağlara qovan və bizi ancaq qul hesab edən köhnə Rusiya fikrində olduğunuza görə, bir inquş diri qalana qədər sizi öz yanımıza buraxmarıq. Qul olmaqdan ölüm yaxşıdır. Qoy, Müttəfiqlər qarşısında müharibə hərəkatının məsuliyyəti sizin öhdənizə düşsün.”*

Bu cavabdan sonra Denikin müharibə hərəkatı başlamışdır. Denikin əsgərləri üç dəfə Kantışevo və Dolakov kəndlərinə hücum etmişlərsə də, qüvvətli əks-hücumla pərakəndə edilib geri qaytarılmışlardır. Nümayəndənin dediyinə görə, halhazırda cəbhə xətti Vayenni-Qruzinski yol [Hərbi Gürcüstan yolu] ilə Popov kəndindən başlayıb Axuşkov[o], Bazorkino, Kantışevo, Dolakov, Keskemə qədər uzanır.

Nümayəndə deyir ki, qorxuruq Müttəfiqlər bizim öz əlimizlə bizim boynumuza qul zəncirini keçirsinlər. Biz Müttəfiqlərin tələbatını müvəffəqiyyətli bir surətdə əmələ gətirib Denikinlə münasibat bərpa etdik. Denikin ordusunda Dağıstan Cümhuriyyətinin oğulları iştirak etdiyinə görə, Denikin Proxladnı altında qalib gəldi. Hərgah, Denikin özü qüvvətli olsaydı bir ay bundan əvvəl bolşeviklərə qalib gələrdi. Lakin, gücu yox idi. Biz Müttəfiq komandanlığı tələbatının hər bir maddəsinə əməl etmişik. İndi isə növbət Denikinindir.

* 8 nəfərdən ibarət Parlaman heyəti Parlaman sədri ilə bərabər sürət qatarı ilə

Vladiqafqaza azim olmuşlardır [yola düşmüşlər]. Ümid var ki, bu ixtilaf Müttəfiqlərin köməyi ilə bərtərəf edilsin [aradan qaldırılsın].

**Dağıstan və Könüllü ordu**

* Gürcüstan Hökuməti nəzdində olan Dağıstan Hökuməti nümayəndəsinin dəftərxanasından xəbər verirlər ki, Dağıstan Hökumətinin Qafqaziyada olan Müttəfiq dövlət komandanlığı tərəfindən təsdiq edilmiş tələbatına görə, Könüllü ordu dəstələrinin hamısı Dağıstan məmləkəti dairəsindən çıxarılmalıdırlar. Dağıstan Hökuməti inquşların Dağıstan Hökuməti binagüzarlıqlarına [sərəncamlarına] tabe olmaları əmrini vermişdir. Dağıstan Hökuməti nümayəndələri fevralın 9-unda Vladiqafqaza azim olmuşlardır [yola düşmüşlər]. İnquşlar tərəfindən tutulmuş olan Tersk komissarları Dağıstan Hökumətinin tələbatına görə qaytarılmalıdırlar.

* Qafqaziyada olan Müttəfiq dövlət baş komandanlığı tərəfindən ciddi surətdə müdafiə edilən Dağıstan Hökumətinin tələbatına görə, Könüllü ordu dəstələri Dağıstan dairəsini boşaltmaqdadırlar.

* Fevralın 12-sində axşam xətti-müstəqim ilə [birbaşa] Kazbekdən xəbər verirlər ki, Vladiqafqaz şəhəri fevralın 10-unda Könüllü ordu tərəfindən zəbt edilmişdir. Nazran nahiyə inquşları ilə Könüllü ordu arasında saziş hüsula gəlmişdir. Fəqət bu saziş Könüllü ordu tərəfindən inquş xalqına verilən ultimatum tələbatı əsasında olmamışdır. İnquşlar öz yerlərinə çəkilmişlərdir.

**Türkiyədə**

Cenevədən xəbər verirlər ki, bu yaxınlarda Cenevədə Türk hürriyyətpərvərləri [liberalları] iclasında sədarət [sədrlik] edən Şərif paşa Müttəfiq dövlət siyasi dairələrində bu aşağıdakı tələbatı müdafiə etmək üçün Parisə əzimət etmişdir:

1) Türkiyə Hökumətinin paytaxtı İstanbul ilə bərabər özündə saxlanması, etnoqrafi cəhətdən əksəriyyət türklərdə olan hamı mübahisəli əyalətlərin ... məmləkət cümləsinə daxil edilməsi.

2) Türkiyənin salamatlığını və hökmranlığını bərpa etməkdən ötrü Rəisi-cümhur Vilsonun məramnaməsinin 2-nci maddəsinin tətbiq edilməsi.

3) Türkiyədə məskun əqəliyyət [azlıq] təşkil edən yerlərə təminat bəxşişi.

Şərif paşa Parisə varid olan [çatan] kimi bir neçə nüfuzlu şəxslərlə və həmçinin Sülh Konfransında olan müəzzəm [böyük] dövlət nümayəndələri ilə görüşməyə müvəffəq olmuşdur.

**İstanbulda həbslər ətrafında**

"İttihad-Tərəqqi" firqəsinə yaxın olan bir çox zatların [şəxslərin] həbs edilmələri İstanbula artıq sui-təsir bağışlayıb. Bütün qəzetələr tərəfindən bu məsələ müzakirə edilməkdədir. Daxiliyyə naziri İzzət bəy bəyan eyləyir ki, məhbuslar məhkəmədə mühakimə edilənədək həbsdə qalacaqlardır.

* Ermənistan nümayəndələri İstanbulda fransız lisanında bir qəzetə nəşr edirlər. Bu qəzetə Gürcüstan və Azərbaycan əleyhinə ciddi təbliğat icra edir.

**Rusiyada**

* Helsinqforsdan [Helsinkidən] verilən teleqraf xəbərlərinə görə, Petroqradda təzə iğtişaşlar başlanmışdır. Bir çox tətillər elan edilmişdir. Hərbi zavodlar işləməyirlər. Nümayişlər silah gücü ilə pərakəndə edilmişlər. Camaat dəstəsi Smolnını zəbt etmək istəmişsə də, Latış dəstəsinin atəşi ilə qovulmuşdur. Bir çox adamlar həbs edilmişdir.

* Londondan xəbər verirlər ki, Arxangelskdə əməliyyatda bulunan ordu, bolşevikləri Şenkurskdan çıxarıb şəhəri zəbt eyləmişlərdir.

* Etkandan cənub-şərqə tərəf Vilno [Vilnüs] yolunda Litva əsgərləri bolşevikləri geri atmışlardır. Vilno üzərinə edilən hücum müvəffəqiyyətli bir surətdə davam edir.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

- Daxiliyyə nazirinin Salyan qışlaları (kazarma) təmiratı üçün 585690 rubləlik istiqraz açmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

20 milyonluq fonddan Daxiliyyə Nəzarətinə Salyan qışlaları təmiri üçün peşin olaraq 500 min rublə buraxılsın. Nazirə tapşırılsın ki, böylə qanun layihəsi Məclisi-Məbusana təsdiqdən ötrü idxal edilsin.

- Rəisi-vükəla [Baş nazir] həzrətlərinin piyada qitəatın [hissələrin] türkcə komanda edilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Rəisi-vükəla tərəfindən təqdim edilən türkcə komandanı təsdiq etməli.

- Rəisi-vükəlanın hökumətin adi iclasları təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumətin adi iclasları düşənbə [bazar ertəsi], çaharşənbə [çərşənbə] günlərində axşam saat 7-də, cümə günü isə səhər saat 11-də iniqad edəcəkdir [başlayacaqdır].

- Rəisi-vükəlanın Mavərayi-Bəhri-Xəzər Hökuməti tərəfindən müzakirata girişmək haqqında aldığı məlumatı dinlədikdən sonra qət edilmişdir:

Mavərayi-Bəhri-Xəzər Hökuməti tərəfindən qaldırılan məsələlər üçün müzakirata girişilməsi əsas etibarı ilə müxalif bir şey olmadığına görə, onlarla müzakirata girişilsin. Fəqət nazirlərə tapşırılsın, müzakirat barəsində Vükəla Şurasına məlumat versinlər.

- Maarif nazirinin fəqir mütəallimlərə [kasıb tələbələrə] maaş vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maarif Nəzarətinə tapşırılsın, xəsarətdidə [zərərçəkən] qulluqçulara verilmək üçün və buraxılan istiqrazdan ehtiyac miqdarında fəqir şagirdlərə birdəfəlik olaraq maaş verilsin. Fəqət veriləcək maaş təfrit [minimal] dərəcədə olmalıdır.

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin Gürcüstanla dəmiryolu etilafı [razılaşması] barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Nazir tərəfindən pişnihad [təqdim] edilən layihəni təsvib etməklə [bəyənməklə] tapşırılsın ki, layihəni Ədliyyə komisyonundan keçirərək təsdiqdən ötrü Vükəla Şurasına idxal etsin.

**İRTİCA HÜCUMLARI**

Rusiyada mübariz hökumətlər arasında ən qorxunc və mürtəce bir həyula olan Denikinin ordusudur. Bu ordu ki, noyabr demokrat inqilabı ilə tərd [qovulmuş], dəf edilmiş və inqilabdan da, demokratiyadan da ruyi-əbus [pis üz] görmüş, narazı qalan müstəbid və mürtəcelərdən törəmişdir.

O ordu ki, liberal Kuban hökuməti ilə belə anlaşammamış və hali-hərbə [müharibəyə] girmişdir.

İştə şimdi bu ordu sabiq Rusiyanın bugünkü müstəqil və hürr demokratiyasına qarşı düşmənçilik, fitnə və fəsadçılığa başlayaraq həm demokratiyanı, həm də demokratiyanın qanı, malı bahasına əldə edilmiş istiqlal və hürriyyəti yıxmaq, qoparmaq qövl və feilinə [söz və əməlinə] meydan bulmuşdur.

Denikin Könüllülər ordusu hücuma bir tərəfdən Şimali Qafqaziyadan, digər tərəfdən də Qərbi Qafqaziyanın Gürcüstana tabe Soçi [şəhərin]dən başlamışdır.

Daha bu ordu Soçiyə bəzi qitəatı [birlikləri] ilə daxil olduğu zaman Soçi demokratiyası əndişəyə düşərək Gürcüstan Hökumətindən, ingilis qüvayi-əsgəriyyəsindən [hərbi qüvvələrindən] imdad tələb etmişdi. Gürcüstan Hökuməti nəzdində bulunan ingilis misyonu [missiyası] Könüllülər ordusuna Gürcüstana qarşı hücum və təcavüz etməyə əsla müsaidə edilməyəcəyini bəyan və təmin edərək cavab vermişsə də, iki-üç gündən bəri alınan xəbərlərin bunun əksinə olduğu görülmüşdür. Bu vəqə Qafqaziyanın cümhuri hökumətləri namına [adına] şayani-əhəmiyyət və diqqətdir [əhəmiyyətə və diqqətə layiqdir].

İngilis misyonlarının Qafqaziya cümhuriyyətlərinə verdikləri bəyanat və təminat Denikinlər üçün əhəmiyyətsiz qalmaqdadır. Çünki, ingilislərdən bunlar silah, ərzaq, paltar almaqla ingilis planı, ingilis tərzi-hərəkətini də alıb öyrənmədilər.

Denikin ordusunun Qafqaziyada işsiz və boş keçinən agentləri Gürcüstanda, Ermənistan və Azərbaycanda və Qərbi Qafqaziyada nələr etmək istəməyirlər?

İngilis qüvayi-əsgəriyyəsinin daha Qafqaziyaya ilk addımı ilə Gürcüstan və Ermənistan arasında müharibə və müxasimənin [düşmənçiliyin] başlamasına daşnaklarla bu güruhun səbəbiyyət vermədiyini kim iddia edə bilər?

Batum, Qars və Ərdahandakı vəziyyəti də bir dəfə mütaliə edəlim [qiymətləndirəlim]! Qarsda erməni, Batumda rus mürtəcelər hökumətinin təşkilinə vəsilə olan əllər həp bildiyimiz o yadigarlar [ədəbsizlər] deyilmidirlər?

Qars oblastı 330 000 islam əhalidən ibarət olduğu və Batum oblastı 130 000 müsəlman əksəriyyətini təşkil etdiyi halda, hüquqi-ümumiyyəyə süni bir xətti-bütlan çizərək [ümumi hüququn üstündən süni bir xətt çəkərək, ümumi hüququ tanımayaraq] iki müxtəlif hökumətin təşkili də irtica əlamətlərinin bariz birər nümunəsidir. Macəracu [avantürist] professor Qolovinin Batumda girişib də müvəffəqiyyətsizliyə uğradığı plan və nəhayət ingilis hakimiyyəti tərəfindən də düçari-həbs olması yenə o qaranlıq məqsədlərin birər təzahüratıdır. Denikin macərapərəstləri nə isə, Qolovinlərin də o ki, Qafqaziyada yaşayan millətlər arasına qurnazlıqla bir fitnə və fəsad soxmaq, bulanıq suda balıq ovlamaqdır. Qərbi Zaqafqaziyada digər tərəfdən də bəzi macəracu əllərin gürcülər və islamlar arasında toqquşmağa səbəbiyyət verdiklərini də görürüz. Batumun şimal-şərqi cəhətində bulunan Pontxo və Axalsıxda vuruşmalar başladı. Gürcülər Axalsıx xaini-vətənlərinə [vətən xainlərinə] (?!) qarşı hərb gurultusu ilə ortaya çıxır və könüllü əsgər və zabitlər yığışdırırlar! Türkiyə Hökuməti tərəfindən Batum müahidəsi [sazişi] ilə ilhaq edilən Axalsıx uyezdi yenə Türkiyə Hökuməti tərəfindən altı ay əvvəl gürcülərə tərk edildikdən sonra burada xaini-vətən deyə məhəlli islamlara [yerli müsəlmanlara] qarşı bir siyasət oyunu oynamaq və bunun amil və müsəbbibləri [icraçıları və səbəbkarları] olaraq camaat xadimlərini Metex həbsxanasında çürütmək gürcü demokratiyası, gürcü hürriyyətpərvərləri üçün nə eyib şey və bəlkə də mürtəcelərə bilmədən uymaqdır!

Bütün bu əhval irtica hücumları nəticəsidir. Fəqət digər tərəfdən Qafqaziya millətləri üçün də mövcibi-ibrətdir [ibrət alınmalı şeydir]. İbrətdir, çünki görürüz ki, milli və ərazi ixtilafları çıxarmaqla Qafqaziya millət və ərazisi ilə heç bir əlaqəsi bulunmayan kimsələr istifadə edirlər.

Soçidə milli bir dairədə ixtilaf çıxmışdı: gürcülər və ermənilər arasında bir təhrikat başlamış və bu təhrikat vuruşmağa qədər dayanmışdır [çatmışdır]. Nəticədə isə denikinlər müdaxilə edərək Gürcüstana bir ultimatumla hərb [elan] edilmişdir.

Hökumətimizin Qafqaziyada törəyən bu ümumi vəziyyət haqqında nə yolda tədabirə [tədbirlərə] girişdiyini bilməyiriz. Ancaq bu əhvalın Azərbaycan Cümhuriyyətinə təsiri bulunduğunu və hökumətcə lazım gələn tədbirlərin alınması cümhuriyyətin ciddi mənafeyindən olduğunu görürüz.

*Qaraağazadə Əhməd Həmdi*

**MƏTBUAT**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi mərkəzi komitəsinin mürəvvici-əfkarı [nəşriyyat orqanı] olmaq üzrə "Naş put" adlı rusca yeni bir qəzetə intişara [nəşrə] başlamışdır. Qəzetə birinci nömrəsində firqənin sağdan və soldan hücumlara məruz qaldığını və bunun əksəriyyən firqə məsləkindən bixəbərlikdən nəşət etdiyini [irəli gəldiyini] və istibdad dövründəki "mütəəssib müsəlmanlar" sözünün şimdi də "əksinqilabçı müsavatçılar" sözünə mübəddəl olaraq [çevrilərək] firqənin hər bir təşəbbüsü, amali-milliyyə [milli amal] yolunda hər bir qədəmi hücumlarla qarşılandığını qeydlə yazır ki, xalqın hüququnu tanımaq istəməyənlər, həyati məsləklərə təcavüz edənlər, Azərbaycan həyatında böyük dəhşətlər saçanlar məqsədlərini ancaq dağıtmaqda görürlər. Biz isə tam hazır olaraq, istiqlalımızın, demokratiyamızın mənafeyi keşiyində durmuşuz və dururuz.

Sonra firqənin nə uğurda və nə surətlə çalışacağını göstərərək, ümum demokratiya ilə əlbir gedəcəyini təsvir edir, deyir ki:

*"Bir an geri durmadan firqə proqramımızda elan edilmiş əsasların həyata tətbiqi və həqiqət olaraq çıxmasına çalışar, hürriyyət və azadlığımızı zəncirləyən zəncirlərdən bizi xilas etmiş cahan inqilabı fütuhatının [nailiyyətlərinin] möhkəmləşməsinə səy edərkən, biz hamıdan əvvəl xətti-hüdudumuz [sərhədimiz] xaricindəki dost məmləkətlərdə onların bizimlə bərabər istibdad boyunduruğu altında bulunmuş və bizimlə bərabər istiqlala qoşmuş demokratiyası arasında dostlar, yoldaşlar arayacağız. Amalımızın feilən hüsulunda [əmələ gəlməsində] biz Rusiya inqilabının elan etmiş olduğu şüarların qalib gələcəyinə heç şübhə etməyərək, rus demokratiyasının yaxşı qismi ilə sıxı yoldaşlıqla da kəndimizi təqviyə edəcəyiz [gücləndirəcəyik]."*

Qəzetədə milli həyata aid bir neçə sair məqalələr dəxi vardır. Ümumiyyətlə, məzkur [adı çəkilən] qəzetə çox zəngin və səliqəli çıxmışdır. Yeni rəfiqimizi təbrik və müvəffəq olmasını arzu edəriz.

## BAKI XƏBƏRLƏRİ

**"Müsavat" əzalarının nəzəri-diqqətinə**

Bu gün axşam saat 6-da Məclisi-Məbusan binasında, fraksiyon mənzilində "Müsavat" fraksiyonunun iclası təyin olunmuşdur. Bütün fraksiya əzasının [üzvlərinin] vaxtında hazır olmaları rica olunur.

**İcbari qərardad**

Bakıda müsri [yoluxucu] xəstəliklərlə mübarizə edən şura tərəfindən sadir olub [verilib], Bakı şəhəri və ətrafında əhalini həmin xəstəlikdən qorumaq üçün tərtib və təsdiq edilmişdir:

1) Zibilləri küçəyə tullamaqdan ötrü əvvəlcə verilmiş olan binagüzarlıq [sərəncam] bununla ləğv edilir.

2) Həyətlərdən küçəyə zibil tullamaq qəti surətdə qadağan olunur.

3) Dvorniklər [dalandarlar] hər gün iki dəfə, axşam və səhər küçələri süpürüb təmizləməli və cəm etdikləri zibili bir yerə yığıb toplamalıdırlar.

4) Həyətləri təmiz saxlamalıdır.

5) Həmin qərardadı pozan ev sahibləri, evlər və anbarların icarədarları, fabrika, zavod və mədən müdirləri 5 fevral 1919-cu ildə Bakıda müsri xəstəliklərlə mübarizə edən şura tərəfindən verilmiş qərardad mövcibincə [qərardada əsasən] cərimə ediləcəkdirlər.

Həmin qərardad sadir olan gündən 1919-cu il 18 fevraldan qanun gücü alır.

**Səhiyyə işləri**

Fevralın 18-ində Bakı qubernatorunun təhti-sədarətində vaqe olan [sədrliyi altında baş tutan] şurada şəhərin nəhayət dərəcədə natəmiz olduğunu və bundan sonra havalar istiləşdiyindən müsri xəstəliklərin şiddət edəcək ehtimalı nəzərə alınaraq böylə qərardad edilmişdir:

Bələdiyyə İdarəsi ilə bərabər, şəhərin təmizlənməsinə ciddi surətdə əhəmiyyət verilib küçələrin və həyətlərin təmizlənməsindən ötrü lazımi tədbirlər ittixaz edilsin [tədbirlər görülsün].

Şurada iştirak etmiş olan şəhər nümayəndəsinin dediyinə nəzərən, şəhər arabaları üçün indi at tapmaq mümkün olmayacaqdır və buna görə də başqa yerlərdən at axtarmaq lazım gələcəkdir.





Qubernator təklif etmişdir ki, at almaqdan ötrü qəzalara müraciət etməlidir. Şura həmin təklifi qəbul edərək qərar qoymuşdur ki, Şamaxı qəzasından 10 və Quba qəzasından 20 və Göyçay qəzasından 15, cümlətanı 60 rəs [baş] at alınsın. Qubernator tərəfindən bu barədə qəza qaimməqamlarına [qəza rəislərinə] telefon vasitəsilə binagüzarlıq edilmişdir [sərəncam verilmişdir].

**Odun**

Mərkəzi Ev Komitəsi tərəfindən camaat və dövlət müəssisələrinə və həmçinin xüsusi şəxslərə Çornı qorodda anbarda sajeni 1500 manatdan odun buraxılır. Xüsusi şəxslərə yarım sajendən artıq buraxılmayır. İstəyənlər Çelyayevski küçədə Mərkəzi Ev Komitəsinin Ərzaq şöbəsinə müraciət etsinlər.

**Ucuz çörək**

- Mərkəzi Ev Komitəsi ümum əhaliyə elan edir ki, çörəyin qiyməti artmayacaq və biləks [əksinə], sifariş olunmuş taxıl və qeyri ərzaq şeylərini təhvil aldıqda qiymətləri daha da əksiləcəkdir. Şəhərlər İttifaqının çörəkçixanalarını öz ixtiyarına alana qədər hər adama 5 girvənkə miqdarında buraxılacaqdır (ağ çörək 4 manat, qara çörək 2 manat 75 qəpik).

- Mərkəzi Ev Komitəsi camaatdan rica edir ki, çörəyi alıb baha qiymətə satmaq sui-istemalını [sui-istifadəsini] kəşf etdikdə [gördükdə], Komitəyə məlum etsinlər. Böylə hərəkətdə bulunanlar təhti-məsuliyyətə [məsuliyyət altına] alınacaqlardır.

**İclas**

Cümə günü 21 fevralda saat 5-də Birinci Realnı məktəbin binasında müsəlman student və kursis[t]kalarının [oğlan və qız tələbələrinin] ümumi iclası təyin edilmişdir. Təvəqqe olunur ki, məsələ son dərəcə mühüm olduğuna görə üzvlər təxir etməsinlər.

**Hadisat**

- Fevralın 15-ində, gündüz saat 12 radələrində Qanlıtəpə və Remeslenni küçələrin küncündə bir nəfər yaralanmış naməlum şəxs tapılmışdır. Yaralı Mixaylov xəstəxanasına göndərilib və canini axtarmaqdan ötrü tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Təhqiqat davam edir.

- Fevralın 14-ündə Üçüncü Çornıqorod və Zavodski küçələrin küncündə naməlum bir şəxsin meyiti tapılmışdır. Güclə öldürmək əlaməti yoxdur. Təhqiqat davam edir.

- Fevralın 15-ində gecə naməlum bədəfkarlar [canilər] Milyutinski küçədə 3 nömrəli evdə Tağızadənin pambıqtəmizləyən zavodunda kantorun qıfılını sındırıb qonşudakı Aleksandr Stepanovun mağazasına keçib 100 000 manatlıq bez malı oğurlamışlardır. Oğurlanan malı və bədəfkarları axtarmaqdan ötrü ciddi tədbirlər ittixaz edilmişdir.

**Şimali Qafqaziya dəmiryolu**

Xəbər verildiyi üzrə, Şimali Qafqaziya dəmiryolu açılıb bir qatar dəxi yola düşmüşdür.

**Bələdiyyə İdarəsində**

* Şəhərlər İttifaqından Ərzaq Nəzarətinə keçmiş şəhər çörəkçi dükanları Bələdiyyə İdarəsinə verilmişdir. Bələdiyyə İdarəsi hal-hazırda Mərkəzi Ev Komitəsi

ilə müzakirata girişmişdir ki, çörəkçi dükanlarını ona versin. Bələdiyyə İdarəsi bələdiyyə müəssisələrinə çörək verilmək üçün çalışmaqdadır.

* Bələdiyyə İdarəsində şəhərdə konkalar hərəkatının təcdidi [bərpası] haqqında bir fikir oyanmışdır. Bələdiyyə rəisi Bələdiyyə İdarəsi katibinə tapşırmışdır ki, bu xüsusda lazımi materialları cəm və təqdim etsin.

* Konka parkı texniki, Bələdiyyə İdarəsinə məlum etmişdir ki, orada qoşun nəfərləri [əsgərlər] konka materiallarını oğurlamaqda davam edirlər. Bələdiyyə rəisi general Prjevalskiyə müraciətən böylə hərəkatın önünü[n] alınması barəsində lazımi iqdamatda bulunmasını [addımlar atmasını] rica etmişdir.

**BAKI MÜSƏLMAN AKTYORLARI İTTİFAQINDA**

Fevralın 18-ində Hacıağa Abbasov cənablarının təhti-sədarətində [sədrliyi altında] "Bakı Müsəlman Aktyorları İttifaqı"nın ümumi iclası vaqe olmuşdur.

Aktyorlar İttifaqı sədri Abbas Şərifov ittifaqın keçən illərdəki fəaliyyətindən müfəssəl surətdə bəyanat verib, Mart hadiseyi-əliməsindəki [faciəli Mart hadisələrindəki] Aktyorlar İttifaqı idarəsinin hər bir əmvalının [mallarının] Cəmiyyəti-Xeyriyyə mülkündə sair təşkilatlarla bərabər yanıb məhv olmasını və İttifaq kassasında olan paradan müavinət təriqi ilə [müavinət kimi] verilmiş 759 manat 68 qəpiyin İttifaq üzvlərində olduğunu söyləmişdir. Bundan əlavə, Aktyorlar İttifaqının xəzinədarı mərhum Hacınskidə 638 manat nəğd para qaldığını iclasa xəbər vermişdir. Sonra Aktyorlar İttifaqının aktyorlardan ötrü mənfəətli olduğunu bəyanla 1917-ci ildə bir illik müddətinə intixab olunmuş [seçilmiş] şəxslərin müddəti-intixabı 1918-ci il noyabr ayında bitdiyindən, onların əvəzinə təzə adamlar intixabını təklif etmişdir.

Şərifovun bu bəyanatından sonra iclas İttifaq üzvlərinə müavinət təriqi ilə verilən paraların alınmasını və mərhum Hacınskidə qalan paranın mərhumun dəfn-kəfnində xərc edildiyi üçün geri alınmamasını qərara almışdır. Sonra seçki başlanıb zeyldəki [aşağıdakı] şəxslər intixab edilmişdir:

Sədrliyə Abbas Şərifov, müavin Hacıağa Abbasov, xəzinədar Müslüm bəy Maqomayev, katib Məhəmmədəli Sidqi, idarəyə Sarablı, Ərəbli, Darablı, [İbrahim] Atakişizadə və Xanım Tanailidi.

Bunlara namizəd Əhməd Ağdamski, Camal Paşazadə, Məğfurə xanım və Qəmər xanım.

Təftiş komissiyasına Xəlil Hüseynov, Ələkbər Səhəbli, Sadiqbəyov. Onlara namizəd: Kazımovski və Sürəyya xanım.

Sonra ümumi iclas qərar qoymuşdur ki, heyəti-idarə Aktyorlar İttifaqının məramnaməsini bir qədər təshih etdikdən sonra dübarə ümumi iclasa təqdim etsin.

**KOOPERATİV NƏ OLDU?**

Hərbin insana bəxş etdiyi yadigarlıqlardan [yaramazlıqlardan] biri də bahalıq idi. İştə bunun qarşısını almaq üçün Yevropada olduğu kimi, bizim də vilayətdə kooperativ sistemi moda düşdü. Deməli,





bahalığa qarşı bir növ sədd çəkmək istədilər. Cüzi də olsa müvəffəq oldular. Lakin burada hər kəs öz "ocağı" başına yığıldığı üçün kim ki, təşkil olunan kooperativə yaxın idi, iştə o daha çox fayda apardı və aparır nəinki üzvlər, alıcılar...

İştə, Dağlı məhəlləsinin bir qaç nəfər qeydkeşləri heçdənsə gec də olsa deyərək 17-nci sənəsi oktyabr ayında Dağlı məhəlləsində "Dağlılar" adında bir camaat dükanı açmaq üçün icazə aldılar. Fəqir Dağlı camaatı ucuz mal alacaq deyə ufaq bir Dağlı məhəlləsində səkkiz min manata qədər para topladılar.

Tühəf burası idi ki, bahalıqdan cana gəlmiş Dağlı camaatı ucuz mal almaq həvəsi ilə qonşudan geri qalmayım deyə pulu olmayan da müamilə [faiz] ilə pul borc eyləyib dükana üzv olmağa çalışırdı. Fəqət bu qədər həvəslə açılmış camaat dükanı bir neçə nəfər tamahkarın qurbanı olaraq bir ildən artıq yaşaya bilmədi. Əlbət ki, yaşaya da bilməzdi. Çünki, camaat dükanı namına [adına] alınan ərzaq özlərini heyəti-idarə içinə soxmuş bir qaç kişinin mərifəti ilə [əli ilə] bazardan yuxarı gəlməyib, oralarda yerləşdirilirdi və bir qədərdən sonra bazar məzənnəsi ilə ağır bahaya satılıb öz aralarında təqsim olunurdu [bölünürdü].

Əlavə bunu da ərz edəyim ki, mənim heç bir kəslə qərəzi-şəxsim və ya ədavətim olmayıb və olmamışdır. Fəqət məni işbu həqiqətləri söyləməyə məcbur edən yalnız zavallı Dağlı camaatının ah-naləsi, borc edib həman dükana qoyduğu paranı bu vaxta qədər ala bilməməsi olmuşdur.

Ah, həpsi ala bilməsəydi yenə də dərd yarı idi. Lakin təsir edəcək burasıdır ki, kim ki, zorlu, əqrəbalıdır, o, manata-manat faydası ilə qabaqca almış idi. Amma borc edib üzv olanlar parasını almaq üçün kimə müraciət edəcəyini bilməyir. Nasıl da müraciət etsin ki, zavallı danışarsa, ağzını qanı ilə dolu görəcəyini yəqin etmişdir.

*Dağlı*

**GÜRCÜSTANDA**

**Gürcüstan Hökumətinin Baş ərkani-hərbindən [Baş qərargahından]**

Qara dəniz sahilində İngiltərə komandanlığı vəsatəti [vasitəçiliyi] ilə hər iki tərəfdən müharibə hərəkatı dayandırılmışdır. Bizim əsgərlərimiz Bambi çayında dayanmışlar.

Axıska uyezdində [qəzasında] fevralın 11-də bizim əsgərlərimiz üsyan edən əhalinin külli qüvvəsinin təzyiqi ilə və arxadan müsəlman kəndləri tərəfindən mühasirəyə salınmaq təhdidi ilə geri çəkilməyə məcbur olmuşlardır. Axıska şəhəri camaat tərəfindən işğal edilmişdir.

**Gürcüstan Parlamanının iclası**

Fevralın 18-ində Gürcüstan Parlamanının fövqəladə iclası dəvət edilmişdir. İclas fövqəladə siyasi məsələləri müzakirə edəcəkdir.

**Rus Milli Şurasında**

Tiflisdə olan Rus Milli Şurası müvəqqəti qapanmışdır.

**Dağıstan Hökuməti rəisi**

Dağıstan Hökuməti rəisinin bu günlərdə Tiflisə vürudu [gəlməsi] gözlənir.

**Həbslər**

Gürcüstan Hökuməti məmurlarının binagüzarlığı ilə podpolkovnik Şneyderman həbs edilmişdir.

**Potidə ingilis zabiti**

Potidən Suxuma gürcü əsgəri dəstələrinin göndərilməsi haqqında Potidə olan gürcü məmurlarının verdiyi binagüzarlığa [sərəncama] İngiltərə zabitinin müdaxilə etməsi münasibətilə Gürcüstan Xariciyyə naziri xəbər verir ki, bu ixtilaf bilkülliyyə [tamamilə] bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Tiflisdə olan İngiltərə heyəti İngiltərə zabitinin bu hərəkətindən xəbərdar olan kimi, gürcü əsgərlərinə mane olmamaq və bundan belə gürcü məmurlarının binagüzarlığına müdaxilə etməmək əmrini vermişdir.

**Həbslər**

Tiflisdə olan general Maksimov, Kozlovski və praporşik Tunqusov həbs edilib Metex qalasına salınmışlardır.

**Borçalı uyezdinə komissar təyini**

Xüsusi vəkalətlə A. F. Apakidze Borçalı uyezdinə komissar təyin edilmişdir. Bu münasibətlə Tiflis general-qubernatorunun əmrinə görə, Borçalı uyezdi və ətrafı məhəlli [yerli] idarəyə münasibəti olan məsələlər haqqında bilavasitə komissar Apakidzeyə müraciət etməlidir.

**Gürcüstan və Könüllü ordu**

**Gürcüstan Hökumətinin şəraiti [şərtləri]**

Sülh şəraiti hazırlamaqdan ötrü İngiltərə zabiti Qara dəniz sahilində hərəkati-hərbiyyənin dayandırılması təklifini etmişdir. Gürcüstan Hökuməti məhəllində [yerində] olan gürcü məmurlarına xəbər vermişdir ki, Gürcüstan Hökumətindən ötrü ancaq bu tövr şərait əlverişli ola bilər:

Soçi nahiyəsinin Könüllü ordu tərəfindən təmizlənməsi və məzkur [adı çəkilən] nahiyənin müqəddəratı Sülh Konfransında həll ediləne qədər İngiltərə əsgərləri tərəfindən zəbt edilib bitərəf bir məntəqə halına salınması. Gürcü əsgərləri Qaqra şimalında Gürcüstanın təbii sərhədini işğal edəcəklərdir.

**Biçeraxov dəstəsi**

Gürcüstan Xariciyyə nazirinin sualına cavab olaraq Cənubi Qafqaziyada olan İngiltərə əsgərləri komandanı Xariciyyə nazirinə xəbər vermişdir ki, hal-hazırda Bakıdan gələn Biçeraxov dəstəsi Gürcüstanla Könüllü ordu arasında müharibə hərəkatı rəf ediləne [aradan qaldırılana] qədər Batumda saxlanacaqdır. Biçeraxov dəstəsi Gürcüstan əleyhinə müharibə hərəkatında iştirak etməyəcəkdir. Soçidə olan Gürcüstan hökumətinin ərzaq şeyləri və ya mühimmati-hərbiyyəsi [hərbi ləvazimatı] Könüllü ordu tərəfindən zəbt edildiyi təqdirdə, Biçeraxov dəstəsinə məxsus şeylərdən həman miqdarda Gürcüstan Hökumətinə qaytarılacaqdır.

## İDARƏDƏN CAVABLAR

Dərbənddə **Hadi əfəndiyə:** Vüquat və hadisat qəbilindən və ya hökumət işlərindən şayani-diqqət [diqqətəlayiq] əhvallar yazınız. Daha gözəl olar.

Şəkidə **M. Hacızadə əfəndiyə:** Hissiyyatınız şayani-təhsindir [alqışa layiqdir]. Lakin “ayaq bir-bir qoyarlar nərdivana”.

**“Bir şamaxılı” əfəndiyə:** Yazdıqlarınız hələ qalsın. Mövqeyi gələndə çap edərik.

Qubada **Rüstəmzadə Əbülqasım əfəndiyə:** Qubada vaqe olan işlərdən Məclisi-Məbusan əzasının [üzvlərinin] vüqufları [xəbərləri] vardır.

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə “Azərbaycan” qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**“Müsavat”da**

Balaxanı mədənlər mərkəzi Müsavat şöbə idarəsi Sabunçu, Ramana, Balaxanı mə-

dənlərində çalışan bütün müsəlman işçilərinə elan edir:

İşbu fevral ayının 22-də, şənbə günü saat 2-də Balaxanski krujokda [Balaxanı dərnəyində] yoldaşımız doktor Qənizadə cənabları mühazirə (leksiya) oxuyub siyasəti-hazirə [hazırkı siyasət] cərəyanlarına dair məlumat verəcək. Müqtəziyyati-zamana [dövrün tələblərinə] müvafiq xətti-hərəkət təyin etmək xüsusunda tövzihat [izahat] veriləcək. Binaənaleyh [ona görə], yuxarıda yazılan məntəqələrdə çalışan işçi qardaşlarımızın göstərilən vaxtda gəlmələri xahiş olunur.

*Balaxanı mədənlər mərkəzi*
*"Müsavat" idarəsi*
*Sədr: Mirzəağa Kərimzadə*
*Katib: [Əbdürrəhim] Yusifzadə*
*39*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və inna ileyhi raciun**

səh. 281. "Starı poçtovı": Bakıda, indiki Süleyman Tağızadə küçəsi.

**Nə ilə sakit ola bilərik?**

səh. 285. "Səre çeşmə bayəd gereftən bebil, / Ço por nəbaşad qozəştən bepil": (farsca) "Çeşmənin gözünü bel ilə tutmaq lazımdır, / Elə ki doldu, fil ilə də keçmək olmaz."

"Əlaci vaqiə piş əz vüqu bayəd kərd": (farsca) "Hadisənin əlacını onun baş verməsindən öncə etmək lazımdır."

**Teleqraf xəbərləri**

səh. 285. "Kral və kraliça Yassıdan qaçmaq istəmişlərdir.": 1914-1927-ci illərdə Rumıniya kralı olan I Ferdinand və arvadı Mariya Aleksandra nəzərdə tutulur.

**Sülh ətrafında: Cəmiyyəti-Əqvam layihəsi**

səh. 286. "...bəhri və hərbi qüvvə...": "bəhri" yerinə qəzetdə "təhərri" getmişdir.

**Qəzetələrdən**

səh. 288. "mübahisəli əyalətlərin ... məmləkət cümləsinə": aradan bir söz silinmişdir, oxunmur.

"Daxiliyyə naziri İzzət bəy": Əhməd İzzət paşa (Furqaç) nəzərdə tutulur.

səh. 289. "Latış dəstəsinin atəşi ilə...": Burada söhbət latış atıcılarından gedir. Latış atıcıları dəstəsi Rusiya imperiyasının Kurlandiya və Liflandiya quberniyalarının müdafiəsi məqsədi ilə yaradılmışdı. Rusiyada 1917-ci il inqilabından sonra latış atıcılarının əksəriyyəti bolşevklərin tərəfinə keçmişdi.





**Vükəla Şurasında**

səh. 289. "Mavərayi-Bəhri-Xəzər Hökuməti": 1918-ci ilin ortalarında Aşqabadda fəhlə üsyanı nəticəsində qurulan eser-menşevik hökuməti olan Zakaspiysk Müvəqqəti Hökuməti nəzərdə tutulur.

**İrtica hücumları**

səh. 290. "ruyi-əbus": qəzetdə səhvən "ruyi-əbəs" getmişdir.

səh. 291. "Metex həbsxanası": qəzetdə səhvən "Mext" kimi getmişdir. Metex, Tiflisdə qədim qala olub, XIX əsrin əvvəllərindən etibarən həbsxana kimi istifadə edilmişdir.

**Mətbuat**

səh. 292. "...bizimlə bərabər istiqlala qoşmuş...": güman ki, "qoşmuş" yerinə "qovuşmuş" olmalıdır; qəzetdə "qoşmuş" getmişdir.

**Bakı xəbərləri**

səh. 292. "...evlər və anbarların icarədarları...": qəzetdə "evli və anbarların icarədarları" getmişdir.

səh. 293. "...və Göyçay qəzasından 15...": belə olmalıdır: "...Cavad və Göyçay qəzalarının hərəsindən 15..."

"Sajen" yaxud "sajın": metrik sistemdən əvvəl işlədilən təxminən 2,13 metrə bərabər uzunluq ölçüsü.

"Çelyayevski küçə": Bakıda, indiki Mirvarid Dilbazi küçəsi.

"Qanlıtəpə və Remeslenni küçələrin küncündə": Qanlıtəpə Bakıda, indiki Dağıstan küçəsi, Remeslenni isə indiki Mirəli Qaşqay küçəsidir.

"Üçüncü Çornı-qorod və Zavodski küçələrin küncündə...": Bakıda bir neçə Zavod (Zavodski) küçəsi olmuşdur. Burada, Üçüncü Qaraşəhər küçəsi ilə kəsişən Birinci Zavod (indiki Afiyəddin Cəlilov), İkinci Zavod (indiki Firuz Qəmbərov) yaxud Üçüncü Zavod (indiki Sabit Orucov) küçələrindən biri nəzərdə tutulmuşdur.

"Milyutinski küçədə": Bakıda, indiki Tərlan Əliyarbəyov küçəsi.

**"Müsavat"da**

səh. 298. "...yoldaşımız doktor Qənizadə...": çox güman ki, Əbdülhəmid bəy Qənizadə nəzərdə tutulmuşdur.


جمعه ۳۰ جمادی‌الاول سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیسی — ۲۱ شباط ۱۹۱۹ سنه نومرو ۱۱۹

آذربایجان

آذربایجان مجلس مبعوثانده

*"Azərbaycan" qəzetinin 119-cu nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 21 fevral 1919-cu il, nömrə 119**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 20 cəmadiyələvvəl sənə 1337. 21 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### Birinci dövri-ictima [sessiya]

### 11-inci iclas

18 fevral 1919, saat 2-dən 15 dəqiqə işləmiş açılır.

Sədr: Həsən bəy Ağayev

Katib: Əhməd Cövdət Pepinov

**Sədr** - Parlamanın iclası açılır. Divani-rəyasət ruznameyi-müzakiratı [müzakirə gündəliyini] bu qərar ilə tərtib etmişdir:

1) Parlamanın mühafizəsi haqqındakı qanun layihəsi;

2) Parlaman binasının məxaric smetası;

3) Dəmiryol tarifəsinin təzyidi [artırılması] haqqındakı qanun layihəsi;

4) İki komisyon intixabı [seçkisi]:Ləvaehi-qanuniyyə [qanun layihələri] komisyonu və məmləkətin hasilatını hüsn-idarə və ərzaq işlərini yaxşılaşdırmaq işlərinə baxan komissiya;

5) Varid [daxil] olmuş kağızlar, o cümlədən, məzuniyyət barəsində ərizələr, məbusların çıxması barəsindəki kağızlar və "Əhrar" firqəsinin bir təklifi və sairə.

Hərgah bu tərtibə etiraz edən yoxsa, qəbul olunur. Söz Aslan bəy Qardaşovundur.

**Qardaşov** - Əvvəla, bütün qanun layihələri müzakirə edilmədən əvvəl birər surətləri ümum fraksiyalara göndərilməlidir ki, fraksiyalar mövqeyi-müzakirəyə qonulacaq olan məsələlərlə qabaqca tanış olsunlar, tainki qanun müzakirə edilən zaman hər fraksiya öz fikrini söyləməyə imkan bulsun. Saniyən [ikinci olaraq] "Əhrar" fraksiyasının təklifi Məclisi-Məbusanın ümumi iclasında baxılmaq üçün verilməmişdir. Heyəti-rəyasətə vermişik, ya qəbul, yaxud rədd edər.

**Sədr** - Deməli, siz təklifinizin Parlamanda müzakirə edilməsini münasib görmürsünüz.

**Qardaşov** - Xayır!

**Sədr** - Mən özümə borc bilirəm, ərz edəyim ki, "Əhrar" fraksiyası Parlaman tərəfindən Şəki və Zaqatala mahallarına bir heyət göndərilməsini təklif edir. Lakin heyəti-rəyasət Parlamanın xəbəri olmadan bu məsələni yalnız başına həll edəmməz. Binaənileyh [ona görə], heyət göndərilməsi məsələsini Məclisi-Məbusanda müzakirəyə qoymağı münasib bildi. Madam ki, fraksiya özü məsələnin müza-

kirəsini arzu etməyir, o halda o məsələ qalsın. Keçəlim ikinci məsələyə. Qardaşov cənabları təklif edirlər ki, Parlamana idxal olunan bütün qanun layihələri müzakirə edilmək üçün qabaqca fraksiyalara göndərilsinlər. Hərgah bu təklifə etiraz yoxsa, qəbul olunur. Deməli qəbula keçir.

Bunu da ərz etməliyəm ki, ruznameyi-müzakirata daxil olanlardan başqa iki layihə varid olmuşdur. Birincisi qonşumuz Cibaliyyun [Dağlılar] Hökumətinə 10 milyon manat qərz [borc] buraxılması, ikincisi zavodlardan buraxılan ispirtoların “aksiz” altına alınması. Razı olsanız, bu məsələləri də ruznameyi-müzakirata daxil edəriz.

**Səslər** - Qəbuldur, qəbuldur!

**Sədr** — Bir də mən özümə borc bilirəm, məbuslara məlum edim ki, bu gün Parlamana Azərbaycan əhalisinin erməni qismindən də məbuslar gəlmişlərdir. Hələlik 5 məbus gəlmişdir. *(Soldan alqış)* Söz Maliyyə komissiyasının sədri Abuzər bəy Rzayevindir.

**Abuzər bəy Rzayev** - Məclisi-Məbusanın keçən iclaslarından birisində qət edilmişdi [qərara alınmışdı] ki, Parlamanın mühafizəsi üçün bir qorucu bölüyü təşkil olunsun. Məzkur [deyilən] qorucu bölüyün məxaric smetasını tərtib verərək Divani-rəyasət Maliyyə komisyonuna həvalə etmişdi. Şimdi komissiya büdcəni müzakirə etdikdən sonra iclas[a] təqdim edir. Bölüyün mövcudu 200 nəfərdən ibarətdir. Bunlardan 8-i baş nəfər, 192-si əsgər. Bundan əlavə, bölüyün bir komandanı, iki də müavini olur. İstərsənsiz bunların maaş xərclərini də ayrı-ayrı oxuyalım. *(Oxuyur)*

**Azərbaycan Məclisi-Məbusanı xassə [xüsusi] qorucu bölüyünün təşkili layihəsi:**

Parlamanın kəndinə məxsus qorucu bölüyü olmadığından, indiyədək bu yüksək idarənin mühafizəsi şəhər polis nəfərləri vasitəsilə icra olunurdu. Bu gün dəxi onların təhti-mühafizəsindədir [mühafizəsi altındadır]. Bu hal şəhərin inzibatını azaltmaqla bərabər, şübhəsiz şəhərin mühafizəsi işlərinə dəxi sui-təsir edir. Bu sui-təsirin önünü almaq üçün və Məclisi-Məbusanın heysiyyətini nəzərə alıb, onun şərəfini mətlub [tələb olunan] bir dərəcədə saxlamaq üçün Azərbaycan Məclisi-Məbusanınının öz təhti-idarəsində [idarəsi altında] bulunacaq bir qorucu təşkilatı yapılması lüzumu bədihi [açıq-aşkar] bir məsələ dərəcəsindədir. Divani-rəyasətin zənnincə, bu qorucu təşkilatı ibtidada [başlanğıcda] 200 nəfərdən əskik olmamaq şərti ilə yapılmalıdır. İki yüz vücudları sağlam, qeyrətli və əqidəli könüllülərdən mütəşəkkil bu bölük tamamilə Divani-rəyasət təhti-idarəsində olmaqla bərabər, əsgəri cəhətdən bilkülliyyə [tamamən] əsgəri komandanlarına itaət edib, onların tabeiyyətində [tabeçiliyində] və nəzarətində bulunacaqlardır. Bölüyün bütün məsarifi [xərcləri] Məclisi-Məbusan tərəfindən təmin edildiyi üçün bu təşkilat Məclisi-Məbusana məxsus bir əsgəri bölük şəklini alaraq "Məclisi-Məbusan xassə qorucu bölüyü” ismi ilə təsmiyə bulunur [adlanır]. Bir komandan ilə iki onun müavinindən başqa bölük nəfərləri əlbisələrini, yatacaq ləvazimatı ilə yeyəcək və içəcəklərini, əslihə və qeyri mayəhtaclarını [silahlarını və ehtiyacları olan digər əşyaları] hökumət xəzinəsindən alacaqlardır. Bölüyün daxili nizamı ilə





başqa vəzifələrinin tərtibatını Divani-rəyasətin öhdəsinə buraxaraq, yalnız bölük nəfərlərinin əlbisələri üçün birdəfəlik mətlub məxariclə bərabər, onların bir sənəlik təəyyüşü məsarifi [iaşə xərcləri] və başqa məxaricin surətini bəyan etməyə keçəlim.

Məclisi-Məbusan bu bölük təşkilatını qəbul edərsə, yuxarıda zikr olan məxaricin rəf’i [ödənilməsi] üçün iki milyon iki yüz doxsan altı min rublə təxsis etməlidir [ayrılmalıdır].

**Məxaric surəti**

1) Bölük komandanı: ayda 2000 manat; onun iki müavini: hərəsinə ayda 1500 manat; baş nəfər [feldfebel] (8) hərəsi ayda 250 manat; adi nəfər (192) hərəsi ayda 200 manat; yekunu ildə 544 800 manat.

2) Hər əsgərə gündə: girvənkə yarım çörək, 8 misqal şəkər, yarım misqal çay, 3/4 ət, 5 manatlıq yağ və sair xörək ləvazimi; hər əsgərə əlbisə üçün ildə 2000 manat. Yekunu 1 333 700 manat.

3) Bölüyün yatacaq, mənzil və sair ləvazimatı:

1 - İyirmi odadan [otaqdan] ibarət bir mənzil. Otaqların biri dəftərxanaya, biri komandan dairəsinə, biri yemək odası, biri mətbəx, mütəbaqisi [qalanı] bölük üçün: iyirmi min manat;

2 - İşıq və yanacaq: iyirmi min manat;

3 - İki yüz dənə döşək, iki yüz üzü ilə 5000 manat, döşəyin otu 1800 manat;

4 - Altı yüz balış 4950 manat;

5 - Sap və zəhmət haqqı 1200 manat;

6 - Balışın otu 600 manat;

7 - Mərəfə altı yüz dənə 15 000 manat;

8 - Yun yorğan 40 000 manat;

9 - Məhrəba iki yüz dənə 1 100 manat.

Mətbəx ləvazimi: cümlətanı 178 383 manat 33 qəpik.

Məzkur büdcələrdə mülahizə olunmamış xərclərin unudulmasını nəzərə alaraq və fiatların günbəgün tərəqqisini dəxi hesaba alsaq, fövqəlzikr [yuxarıda deyilən] miqdarı iki milyon yarım manata iblağ etmək [çatdırmaq] lazım gəlir.

İştə iki yüz nəfərlə [əsgərlə] zabitanın [zabitlərin] bir sənəlik bütün məsarifi bu qərar ilədir:

Maaşları – 544 800 manat,

Təəyyüşləri – 1 610 200 manat,

Mənzil və mənzil ləvazimatı – 178 383 manat 33 qəpik.

Nəzərə alınmayan məsarif – 165 616 manat 67 qəpik.

Yekunu – 2 500 000 manat.

Əgər iki yüz nəfərin bir yüzü süvari olmasına Məclisi-Məbusan qərar versə, o vaxt fövqəlzikr məsarifə zeyldəki [aşağıdakı] məsarif dəxi əlavə olunmalıdır:

1 - Yüz at – 400 000 manat;

2 - Yüz yəhər – 150 000 manat;

3 - Yüz noxta və yüz çul – 15 000 manat;

4 - Yüz qılınc və yüz xəncər – 40 000 manat;

5 - Ot – 36 000 manat;

6 - Saman – 360 000 manat;

7 - Arpa – 360 000 manat;

8 - Dörd araba, dörd at – 20 000 manat;

9 - Araba atı xərci – 43 020 manat;

10 - Qaşov və sair mayəhtac — 20 000 manat.

Yekunu – 1 768 200 manat.

Maliyyə büdcəsi komisyonunun 17 fevral 1919 tarixli bəratülqövlündən [pro-

tokolundan] iqtibas:

Məclisi-Məbusan Divani-rəyasəti tərəfindən təqdim olunan Məclisi-Məbusan xassə qorucu bölüyünün təşkili xüsusundakı qanun layihəsi müzakirə olunaraq atidəki [aşağıdakı] təshih ilə qəbul olunması qət edilir [qərara alınır]:

1 - Çörəyin girvənkəsi 3 rublə şərti ilə bölüyün bir sənəlik xörək xərci 330 000 manat;

2 - Ətin putu 150 manat şərti ilə bölüyün bir sənəlik xərci 202 500 manat;

3 - Bölüyün bir sənəlik təəyyüş [iaşə] məsarifi 1 333 700 manat;

4 - Çəngəl-bıçaq üçün 14 000 manat;

5 - Çay içməyə qab üçün 600 manat;

6 - Kağız və qeyri dəftərxana ləvazimi üçün 6 000 manat;

7 - Bölüyün yanacaq, mənzil, mətbəx və sair ləvazimat məxarici 138 103 manat;

8 - Bölüyünün bir yüzünün süvari olması qəbul edilməyir. Fəqət, bölüyün ehtiyacı üçün iki araba ilə iki at lazım görülür. Bunların alınması və saxlanması xüsusunda aşağıdakı məxaric qəbul olunur:

1) İki araba, iki at – 10 000 manat;

2) Atlar üçün bir sənəlik yem xərci 21 600 manat;

3) Vedrə və qeyri ləvazim 400 manat.

Yekunu – 32 000 manat.

9 - Binaənileyh, bölük nəfəratı və komandalarına veriləcək maaş 544 800 manat; bölüyün bir sənəlik təəyyüş məsarifi 1 333 700 manat; mənzil, yatacaq və sairə 138 103 manat 33 qəpik; iki araba, iki at və onların saxlanılması məsarifi 32 000 manat və nəzərə alınmayan məsarif 151 396 manat 67 qəpik olmaq üzrə bölüyün bir sənəlik məxaricinin yekunu iki milyon iki yüz min manat (2 200 000) olmalıdır.

**Sədr** - Söz istəyən varsa, buyursun. *(Sükut)* Bu barədə danışmaq istəyən yox isə... *(Qara bəy yerindən: Var, var.)* Söz Qara bəyindir.

**Qara bəy [Qarabəyli]** ("İttihad") - Layihə müfəssələn oxundu. Diqqət ediniz: komandana ayda 2000; müavinlərinə ayda 1500 manat təyin edilmişdir. Biz bu maaşı az hesab ediriz. Çünki onlara məvacibdən başqa bir şey verilməyir. O məvaciblə xidmət edilməz. Bunların maaşlarını artırıb, yaşayışlarını təmin etməlisiniz. Biz təklif ediriz komandana ayda 3000 və müavinlərinə 2400 manat maaş təyin edilsin.

**[Abbasqulu] Kazımzadə** - "Müsavat" tərəfindən buna etiraz yoxdur.

**Sədr** - Söz istəyən yoxsa, axırıncı söz məruzəçinindir.

**Abuzər bəy** - Mən də təklif edərdim ki, komandana 3000, müavinlərinə 2400 manat maaş təyin edilsin.

**Sədr** - Deməli məruzəçi özü də etiraz etməyir. Şimdi maddəbəmaddə oxuyalım.

**Katib** - *(Birinci maddəni oxuyur)*

**Məhəmməd Əmin** *(yerindən)* - Bəzi istilah [terminlər] barəsində bir neçə söz söyləmək istərdim.

**Sədr** - İstilah barəsindəmi?

**M. Ə.** *(yerindən)* - Əvət, əvət, istilah barəsində.

**Sədr** - Buyurunuz!

**Məhəmməd Əmin** - Bu alayın məxsusi ismi Parlamanda qəbul edilib qoruqçu bölüyü təsmiyə edildi. İndi isə Parlaman xassə fövcü [xüsusi dəstəsi] oxundu. Təklif edərdim Parlamanın əvvəlcə qəbul etmiş olduğu qoruqçu bölüyü sözü qalıb, xassə sözü atılsın.

**Sədr** - Deməli, siz xassə sözünə etiraz edirsiniz?

**M. Ə.** - Əvət, həm xassə sözünə, həm də fövc olmasın.

**Sədr** - Fövc sözü yoxdur, qoruqçudur.

**M. Ə.** - Mən fövc eşitdim.

**Sədr** - Xayır, fövc deyil. Birinci maddəni kim qəbul edirsə əlini qaldırsın.

**M. Ə.** - Sözüm var.

**Sədr** - Nə barədə?

**M. Ə.** - Bu maddə haqqında.

**Sədr** - Buyurun.

**M. Ə.** - Təklif edərdim bölüyün məxsusi ismi ki, Parlaman qəbul etmişdi – "Qoruçu bölüyü" layihənin hər yerində bu adla yazılsın. Bu oxunan maddədə dəxi xass fövcü bölüyü nəqsdir [nöqsanlıqdır, qüsurdur]. Hər yerdə "Qorucu bölüyü" əvəz edildiyi kimi bu maddədə də əvəz edilməlidir.

**[Səməd ağa] Ağamalıoğlu** *(yerindən)* - Doğrudur!

**Sədr** - Birinci maddəni eşitdiniz. Mən onu səsə qoyuram. Hər kəs etiraz etməyirsə, əlini qaldırsın. *(Əllər qalxırlar)* Etiraz yoxdur. Deməli, müttəhidülqövl [yekdilliklə] qəbul olunur.

**Katib** - *(İkinci maddəni oxuyur)*

**Sədr** - Hər kəs ikinci maddəni qəbul edir əlin[i] qaldırsın. *(Əllər qalxır)* Deməli, ikinci maddə ittifaqi-ara [səs birliyi] ilə qəbul olunur.

**Katib** - *(Üçüncü maddəni oxuyur)*

**Sədr** - Xahiş edirəm etiraz edən varsa, əlini qaldırsın. *(Əl qaldıran yoxdur)* Deməli, etiraz edən yoxdur. Müttəhidülrəy [yekdilliklə] qəbul olunur.

**Katib** - *(Dördüncü maddəni oxuyur)*

**Səslər** - Komandan ilə müavinlərinin maaşını artırdıq. Ona görə bu məbləği də artırmalıdır.

**Abuzər bəy** - Bu smeta bir illikdir. Bir ilin də iki ayı getmişdir. O iki ayın pulu bunun üstünə gələrsə, smetanı artırmaq lazım gəlməz.

**Sədr** - Onda nə qədər təvafüt edər?

**Abuzər bəy** - 302 600 manat.

**Sədr** - Axırıncı maddə deməli böylə qəbul olunur: Smeta yekunu 2 200 000 manat, bu şərtlə ki, komandana ayda 3 000, müavinlərin hərəsinə 2 500 manat verilsin. Hər kim bunu qəbula razı deyilsə, əlini qaldırsın. *(Etiraz edən yoxdur)* Deməli, qəbul olunur. Şimdi qanunu tamamən səsə qoyuram. Hər kim bu qanuna etiraz edirsə, əlin[i] qaldırsın. *(Əl qaldıran yoxdur)* Deməli, etiraz yoxdur. Qanun müttəhidülrəy qəbul olunur. Qəbul olunan layiheyi-qanuniyyə budur:

1) Azərbaycan Məclisi-Məbusanının mühafizəsi üçün iki yüz nəfərdən mütəşəkkil bir qorucu bölüyü təşkil olunur.

2) Qorucu bölüyü Məclisi-Məbusan Divani-Rəyasəti təhti-idarəsində bulunacaqdır.

3) Qorucu bölüyünə komandanlar və nəfərlər dəvəti rəyasət ixtiyarındadır.

4) Qorucu bölüyünün məsarifi üçün bu layihəyə əlavə olunan məsarif surəti üzrə sənədə 2 200 000 manat dövlət xəzinəsindən buraxılır.

**Sədr** - Növbədəki məsələ Parlaman mülkünün məxaric smetasıdır. Söz Büdcə-maliyyə komisyonu sədri Abuzər bəy Rzayevindir.

**Abuzər bəy** - *(oxuyur)*:

1. Məclisi-Məbusan nəzarətçisi (1) ayda 1000 manat, nəzarətçi müavini (1) ayda 800 manat, qapıçı (3) ayda 550 ma-

nat; xidmətçi (4) ayda 550 manat; sil-süpürüçü ayda 550 manat; dalandar (2) ayda 550 manat.

2. 1919-cu il müddətinə lazım olan yanacaq: 5 ay müddətinə 34 soba üçün: neft - 9946 manat, kaburetka (yağlı) 520 manat.

3. Mənzillərin işığı 13000 manat;

4. Zənglərin tərtibi 4800 manat;

5. 8 telefon və 5 əlavəsi 6500 manat;

6. Təmirati-cariyyə [cari təmir işləri] 6000 manat;

7. Su pulu və qapı, pəncərə və sairənin təmizlənməsi 18 000 manat;

8. Dəftərxana üçün qənd, çay - ildə 8000 manat;

9. Səndalyə [kürsü] və sair ləvazim 100 000 manat;

10. Xüsusi ittifaqlarda [hallarda] müavinəti-nəqdiyyə [pul yardımı] 12 000 manat.

Cümlətan yekunu – 286 566 manat.

Maliyyə komisyonu bu layihəyə baxaraq bəzi yerlərini təshih etmişdir. İştə bəratülqövl [protokol]:

Məclisi-Məbusana ləvazim heyəti tərəfindən Parlaman mülkünün və onun xədəmə [xadimə, xidmətçi] və məmurlarının məxarici haqqında təqdim olunan smeta müzakirə edilərək atidəki [aşağıdakı] təshihlə qəbul olunur:

1. Birinci maddə 4-üncü fəsil: 4 xidmətçi əvəzinə 2 olmalıdır.

2. Üçüncü maddədəki işıq xərci 3000 manat olmalıdır.

3. Beşinci maddə telefon xərci 3000 manat olmalıdır.

4. Altıncı maddədə göstərilən xərc 3000 manat olmalıdır.

5. Yeddinci maddədəki xərc 1000 manat olmalıdır.

6. Səkkizinci maddədən qəndi çıxarmalı və xərc 6000 manat olmalıdır.

7. Onuncu maddədəki xərc 253 216 manat olmalıdır.

**Sədr** - Bu barədə danışmaq istəyən varsa, buyursun. Parlaman etiraz etməyirsə, səsə qoyuram. *(Ruscaya tərcümə edir)* Parlaman binasının məxarici 1918 dekabr ayı ilə bərabər 13 ay müddətinə Maliyyə komisyonu tərəfindən 253 216 manat qəbul olunur. Təfsilatı eşitdiniz. Hər kəs bunu qəbul edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Deməli müttəhidülrəy qəbul olunur.

*(yenə var)*

## SÜLH ƏTRAFINDA

### Vilsonun nitqi

Düşənbə [bazar ertəsi] günü Avamlar Kamerasında [İcmalar Palatasında] Amerika Rəisi-cümhuru [Prezidenti] bir nitq irad edərkən [söylərkən] demişdir:

*"Bu axırıncı dörd ildə öylə işlər vüqubuldu ki, Reynin ətrafında olan dövlətləri, yəni Almaniya, Polşa, Asiya, Rusiyanı əhatə edən və birləşdirən azad bir ittifaq şəklinin lüzumunu anlatmışdır. Bəzi açıq məsələlər vardır ki, imdilikdə onlara cavab vermək münkün deyildir. Fransa hal-hazırda qorxulu və açıq məsələlər qarşısındadır. Hərgah Fransa tənha qalarsa, o zaman daimi surətdə müsəlləh [silahlı] olmağa məcbur olacaqdır. Bu da Fransa üçün, təbii, ağır olacaqdır. Bu isə yalnız Fransa üçün deyil, sairləri üçün də təhəmmül qəbul etməz [dözülməz] bir işdir. Bu halda isə onlar daima hər bir ehtimala qarşı müsəlləh olmalıdırlar.*

*Bu da inkar edilməz bir həqiqətdir ki, cahan hökmranları ancaq öz dərdində olub millətləri yadlarından çıxarmışlardır. Onlar isə camaat dərdinə qalıb da onları hər bir afətdən müdaifə etməlidirlər. Şimdi onlar bilirlər ki, buna nail olmaq üçün yeganə yol bütün cahanın Fransanı, xətrədə [təhlükədə] olan sair məmləkəti xilas etməyə hazır olmalarıdır."*

* Parisdən xəbər verirlər ki, beş böyük dövlətlərin nümayəndələri Almaniya və Amerika müstəmləkələri barəsində məşvərət və mübadileyi-əfkarda [fikir mübadiləsində] bulunmuşlardır. Muxtariyyətli müstəmləkə nümayəndələri və Fransanın müstəmləkə vəziri markiz Salvaqo Raqqi məşvərətdə isbati-vücud [iştirak] etmişlərdir. Asiyada türklərdən alınan yerlər və müstəmləkələrin idarəsi barəsində etilaf [razılaşma] əmələ gəlmişdir. Nahardan sonra olan şurada isə Belçika nümayəndəsi Orta hazır olub Konqo barəsində Belçikanın rəyini bildirmişdir. Sonra qət olunmuşdur Versaldakı Müttəfiqlərin hərbi nümayəndələrinə təklif edilsin ki, Türkiyə imperiyasına sülh və müsalimət [əmin-amanlıq] bərpasından ötrü göndəriləcək qüvvə Müttəfiqlər arasında təqsim edilsin [bölünsün].

* Mövsuq [etibarlı] mənbələrdən xəbər verilir ki, Almaniya tərəfindən təslim edilən 31 ədəd sualtı qayıqları bu qərarla təqsim edilmişdir: Fransaya 10, İtaliyaya 10, Yaponiyaya 7, Amerikaya 4.

### Cəmiyyəti-Əqvam planı

Paris - Bu gün konfransa Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] barəsində zeyldəki [aşağıdakı] plan idxal eyləmişdir.

A maddəsi: Cahan müvazinəsini müdafiə etmək və bunu qövldən feilə [sözdən əmələ] gətirmək qəsdi ilə cahan müvazinəsini saxlamaq üçün Cəmiyyəti-Əqvam təşkil etmək lazımdır. Cəmiyyəti-Əqvam beynəlmiləl himayə altında olmalı və tədbirlər ittixaz etməlidir [tədbirlər görməlidir] ki, yeni müharibə bir daha təkərrür etməsin.

B maddəsi: Cəmiyyəti-Əqvam sülh müahidənaməsinin [sazişinin] toplayıcı qismini təşkil edərək qapısı bütün mədəni millətlər üçün açıq olmalıdır.

C maddəsi: Cəmiyyəti-Əqvam üzvləri tez-tez konfranslar qurub görüşə bilərlər. Lakin daimi bir müəssisəsi olmalıdır. Bu müəssisə Cəmiyyəti-Əqvam işlərini idarə edəcəkdir.

Bundan əlavə, konfrans Müttəfiq dövlətlər nümayəndələrindən ibarət xüsusi bir komitə təşkil etməlidir. Bu komitə Cəmiyyəti-Əqvamın müharibə qanunlarının pozulmasına aid olan qismini tərtib verir. Beş böyük dövlətlərin ikişər nümayəndələrindən ibarət bir komitə təşkil edilməli və bunlar zeyldəki [aşağıdakı] məsələlərə baxmalıdırlar:

1) Müharibə başlayanların məsuliyyəti.

2) Müharibə qanunlarının xələldar edilməsinə [pozulmasına] aid məsələlər. Almaniya və onun müttəfiqlərinin quru, hava və dəniz müharibələrində işlətdikləri üsullar.

3) Düşmən qüvvələrinin xüsusi vahidləri tərəfindən, o cümlədən, Almaniya ərkani-hərb [qərargah] üzvləri tərəfindən edilən təhqirlərin məsuliyyəti.

4) Təhqir edilən şəxslərin mühakiməsindən ötrü tribunal təşkili.

5) Böyük dövlətlərin üçər, Belçika, Yunanıstan, Lehistan [Polşa], Romanya və Serbiyanın ikişər nümayəndəsindən ibarət bir komissiya təşkili: a) Bu komissiyanın görəcəyi işlər, təvizat [kompensasiyalar] olmaq üzrə düşmənlər tərəfindən veriləcək məbləğin təxmini; b) Onların nə qədər məbləğ verə biləcəyini təyin eyləmək; bu pulların alınmasına möhlət.

O ki, qaldı əmələ [fəhlə] və ticarət məsələsinə, bunun üçün də böyük dövlətlərin ikişər nümayəndələrindən ibarət bir komitə təşkil edilməlidir. Bu komitəyə ikinci dərəcə dövlətlərin ümumundan 5 nümayəndə verilməlidir. Bu komitə beynəlmiləl nöqteyi-nəzəri ilə zəhmət şəraitini [əmək şərtlərini] müzakirə, zəhmət şəraitini asanlaşdırmaq üçün beynəlmiləl tədbirlər ittixaz edəcəkdirlər.

## TELEQRAF XƏBƏRLƏRİ

### Bolşeviklərin təslimi

Tiflis - 18 fevral, Hərbiyyə Nəzarəti xəbər verir:

1919-cu sənə fevralının 10-da Vladiqafqaz işğalından sonra Könüllü qoşunlar bolşevikləri təqib etdiklərindən dolayı bolşeviklər Vladiqafqazın səkkiz verstliyində möhkəm səngər işğal edərək gürcülərin Qazıbəy sərhədinə qarşı qüvvə yeridirlər. Dava fevralın 11-dən başlanıb, tam bir gün çəkmişdir. Fevralın 12-dən bizim qoşunların rəisi yanına bolşeviklər tərəfindən bir heyət gələrək, bolşeviklərin gürcü torpağına buraxılmalarını xahiş etmişdirlər. Buna da səbəb Vladiqafqaz tərəfindən Könüllülərin hücumda bulunduqlarıdır. Naçalnik bolşeviklərin bu ricasını rədd etmişdir. Fevralın 12-də gecə bolşeviklər ciddi surətdə Gürcüstan sərhədində olan qoşunlara hücum edib, şiddətli top atəşi açırlar. Bizim səngərlərə yaxınlaşmaqda olan bolşeviklərin kəşfiyyatçı dəstələri tüfəng və pulemyot atəşi ilə püskürdülmüşlərdir. Bizim qoşunların naçalniki bolşeviklərə qarşı əks-hücum başlayıb, bolşeviklərlə qayət dəhşətli müharibə gedir. Əks-hücuma keçən qoşunlarımız bolşevikləri böyük tələfatla geri oturtmuşlardır. Bu əhvaldan sonra bolşeviklər arasında qarqaşalıq başlanır və bizə təslim olmağa məcbur olurlar. 3000 nəfərdən ibarət olan bolşeviklər tərksilah etdirilib dərhal Qazıbəyə göndərilirlər. Sonra 500 nəfərdən ibarət olan bir dəstə Voyenni Gürcüstan Yolu [Hərbi Gürcüstan Yolu] ilə Mesxetə göndərilmişlərdir. Fevralın 13-də saat 10-da sərhədimizə Könüllü qoşunların nümayəndəsi gəlib, bolşeviklərin sərhəddən keçdikləri barəsində danışığa girişmişlər. Bizim cavabımızdan məmnun qalan Könüllü ordu heyəti Könüllülərlə Gürcüstan əlaqəsinin gözəl olacağına ümidlər vermişlərdir.

### Şeydemanın məramnaməsi

Tiflis – (İngilis mətbuatı). Şeydeman yeni Almaniya Hökumətinin Baş nazirliyinə təyin edilmişdir. Şeydeman Almaniya Milli Məclisinə müraciət edərək demişdir ki, yaxın gələcəyin məsələləri bundan ibarət olmalıdır: bütün dövlət hissələrinin vahidliyini güclü mərkəzi hökumət sayəsində müdafiə etmək, bilatəxir [dərhal] sülh əqdi, Vilson məramnaməsinə mülhəq olmaq [qoşulmaq], hər növ təcavüz və müsəlləh [silahlı] sülhdən imtina etmək, Almaniya müstəmləkələrinin torpaqlarının iadəsi [qaytarılması], Almaniyanın Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] idxalı və Almaniya Cəmiyyəti-Əqvamda sair millətlər kimi həmhüquq olmalı, ümumi tərksilah, məşrut hakəm [Konstitusional Arbitr] təyini, gizli diploma[tiyanın] ləğvi və sairə.

## VİLSONUN NİTQİ

Parisdən xəbər verirlər ki, Rəisi-cümhur Vilson Sülh Konfransında böylə bir nitq irad etmişdir [söyləmişdir]:

*“Cənab sədr, zənnimcə bu Sülh Konfransında Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsini azadə bir surətdə müzakirə etmək ixtiyarına malik olmaq böyük bir imtiyazdır.*

*Biz bura iki məqsəd üçün gəldik. Əvvəla, iqtizasınca [lazımi surətdə] möhkəm əsaslar bərpa etmək üçün və saniyən [ikinci olaraq] bütün cahan sülhünü təmin etmək üçün nəinki qərarlar çıxarmaqla, bəlkə bu sülhü həmişəlik mühafizə edici şərait vücuda gətirmək üçün.*

*Zənnimcə, bu ümumi məqsədlərə nail olmaq üçün Cəmiyyəti-Əqvam lazımdır. Həmin qərardadlarla əlaqədar olan bir çox məsələlər ola bilər ki, ultimatum qərarı kimi qəti surətdə hazır olmasınlar. Məndən ötrü aşkardır ki, bu qərarlardan bir çoxları gələcəkdə müzakirə olunmağa möhtac olacaqlardır. Biz çıxardığımız qərarlardan bir çoxları bir para təbəddülata [dəyişikliyə] möhtac olacaqdır. Çünki bu məsələlərdən bir paraları mənim öz təcrübəmə görə hal-hazırda müzakirə edilməyə əlverişli deyildirlər. Buna görə, biz öylə bir aparat bərpa etməliyik ki, bunun köməyi ilə konfransın fəaliyyətindən bir nəticə hasil olsun.*

*Biz buraya hal-hazırda lazım olan qanunlar qoymaqdan artıq, daha böyük məqsədlər üçün cəm olmuşuq. Mən mübaliğəsiz deyə bilərəm ki, biz hökumət və xalq nümayəndələri hesab olunuruq. Hökumət dairələrini təmin etmək kifayət etməz. İnsaniyyət amalını təmin etmək lazımdır. Bu aləmşümul [bütün dünyanı əhatə edən] müharibənin ağırlığı müharibəyə girişmiş bütün məmləkət əhlinin hamısını xariqüladə bir qüvvə ilə əzmişdir. Müharibə ağırlığının qocaları, arvad və uşaqları və bütün insanları nə qədər təzyiq altına almasını dübarə burada təsvir etməyə hacət yoxdur. İndi bu millətlər bizə müraciətlə onları mühafizə edici bir sülhlə dübarə bu müharibə ağırlığını görməməyi xahiş edirlər.*

*Mən bunu təsdiq edirəm ki, bu millətlər ancaq müharibədən sonra öz nümayəndələrinin cəm olacaqları və bu qurbanlara bir nəhayət verilməsi üçün əllərindən gəldiyi qədər çalışacaqları ümidi ilə müharibə ağırlığına tabavər olmuşlardır [dözmüşlər]. Buna görə bizim ən ali vəzifəmiz sülhün davamı və ədalətin hökmfərma [hakim] olması üçün daimi şərait bərpa etməkdən ibarətdir. Bizim buraya cəm olmağımızdan ən ümdə məqsəd budur.*

*Sülh Konfransının qərarları sonradan dəyişmək üçün müvəqqəti də ola bilər. Lakin sülh və ədalət mənafeyi haqqında millətlər hərəkatı möhkəm olmalıdır. Buna görə biz bunun nə qədər mümkün ol-*

*duğu üçün sülh xəritəsini təsəvvürə almalıyız.*

*Məgər dəhşətli deyildir ki, indiki elmi ixtiraatlar* [ixtiralar] *ancaq mədəniyyəti xarabazara döndürmək üçün tətbiq edilir? Qalib gəldiyimiz düşmənin əlində bir neçə mühüm ixtiralar var idi ki, bunu da mükəmməl və təcili təxribat üçün sərf etmişdir. Ancaq daimi və sıxı köməkliklə elm kimi müsəlləh qüvvələrin də mədəniyyət sərhədində dayanmalarını təqib etməliyik. Amerika Hökuməti bu məsələdə burada isbati-vücud* [iştirak] *edən başqa hökumətlərdən az maraqlıdır. Bəhri-mühit* [Sakit okean] *sayəsində Amerika Hökuməti hücuma az məruz olmuşdur. Buna baxmayaraq Amerika Hökumətinin iştirakı qorxudan deyil, bu müharibə məqsədi olan amaldan vücuda gəlmişdir. Amerika Hökuməti müharibəyə girişdikdə Yevropa, Asiya və başqa məmləkət siyasətinə müdaxilə etmək niyyətində olmamışdır.*

*Bütün dünya hiss etdiyi kimi, Amerika Hökuməti də bu fikirdə idi ki, müharibənin gedişindən asılı ancaq bir məqsəd vardır. Bu məqsəd də bütün aləmi-bəşəriyyətin azadəlik və ədalətə nail olmalarından ibarətdir. Buna görə, hərgah bu müharibənin qəti surətdə həlli ancaq bir tək Yevropa məsələlərinin həlli ilə məhdud edilsəydi, o zaman Amerikanın bu müharibədə iştirakı yersiz olardı və hərgah bu təminatlar bütün cahan sülhünə daimi nəzarət etməkdən ibarət olmasaydı, Amerika bu qərarların təminatında iştirak etməzdi. Buna görə, zənnimcə, biz Cəmiyyəti-Əqvamı quru bir rəsmiyyət deyil, həyata müstəid* [yaşamağa qadir] *bir müəssisə kimi vücuda gətirməliyik.*

*Cəmiyyəti-Əqvamın həyata müstəid olması bir müşkilatı həll etmək deyil, hamı millətlərin mənafeyini mühafizə etməkdən ibarət olmalıdır. Cəmiyyəti-Əqvam millətlərin gözü mənziləsində* [yerində] *olub millətlərin mənafeyini diqqətli bir surətdə mühafizə etməlidir. Hərgah biz Cəmiyyəti-Əqvamı bu tövr bir həyata müstəid hala gətirməzsək, hamı millətlərin etibarını itirmiş olarıq. Bəhri-mühiti adlayıb bura gələndən indiyə qədər bu millətlərdən bir çoxlarının məmləkətini gəzib, hər dəfə onların Cəmiyyəti-Əqvama ümidvar olduqları səsini eşitmişəm.*

*Həzərat! Bəşəriyyətin mümtaz* [seçilmiş] *sinifləri artıq hökmran deyildirlər. Bəşəriyyətin müqəddəratı bütün cahanın sadə xalqı əlindədir. Onları təmin etməklə onların qazanmış olduğunuz etibarını həqiqətə çıxarmış olarsınız. Hərgah bunu ifa etməsəniz, o zaman heç bir şey bütün cahan sülhünü bərpa və ya möhkəm edə bilməz.*

*Zənnimcə, Cəmiyyəti-Əqvamın bu ali layihəsinin Amerika nümayəndələri tərəfindən nə məqsədlə müdafiə olunmasını siz hamınız anlayırsınız. Biz bu layihəyə bu müharibədə olan amal və məqsədimizi ibraz edən* [göstərən] *məsələlərin açarı kimi baxırıq. Bu layihəni Müttəfiq millətlər öz qərarlarına əsas kimi qəbul etmişlərdir. Hərgah biz bu layihənin vücuda gəlməsi üçün çalışmayıb və vətənimizə qayıdarsaq, vətəndaşlarımız tərəfindən narazılığa düçar olarız. Çünki onlar əsl demokrat olduqlarına görə tələb edirlər ki, onların nümayəndələri öz fikirlərini deyil, onların amalını ibraz etməlidirlər. Onlar tələb edirlər ki, onların nümayəndələri onlara xidmət etmiş olsunlar. Onların özgə bir sözləri yoxdur. Biz onların əmrini yerinə yetirməliyik. Odur ki, biz də bu əmri böyük məmnuniyyət və ruh yüksəkliyi ilə ifa edirik. Çünki bu binanın hər bir hissəsinə sərfi-qeyrət etdiyimiz qədər bütün binanın əsasına da qüvvəmizi sərf etmişik. Biz bu binanın heç bir hissəsini qopara bilmərik. Çünki bizim əsasımız bütün cahan sülhündən və ədalətli surətdə bunu düşünməkdən ibarətdir ki, biz burada millətlərin hökmranı ədd* [hesab] *olunmayıb, ancaq bunu təqib etməliyik ki, bütün cahan millətləri biz göstərdiyimiz kimi deyil, özləri özlərini idarə etsinlər.*

*Biz buraya cəm olmaqla bu müharibə səbəblərinin məhv olmasını təqib etməliyiz. Bu səbəblər mülki və əsgəri* [hərbi] *balaca bir dəstə hökmranların xüsusi işləri olmuşdur ki, böyük dövlətlər kiçik dövlətlər üzərinə hücum etmişlərdir.*

*Bu səbəblər sülh gücünə tabe olmayan məmləkətləri öz əllərində saxlayırdılar. Bu səbəblər öz arzularını əmələ gətirməkdən ötrü az bir dəstə adamlar tərəfindən tətbiq edilmişdir. Sülh ancaq bu səbəblərin məhv və bərtərəf edilməsi* [aradan qaldırılması] *ilə əqd oluna* [bağlana] *bilər. Buna görə Amerika hökuməti bu səbəblərin aradan qaldırılması üçün ittixaz ediləcək* [müracət ediləcək] *yollara mümaniət* [maneçilik] *göstərməyir. Amerika Hökuməti öz hərəkatı binasına təbəddülatsız əsaslar* [bünövrəsinə dəyişməz prinsiplər] *qoymuşdur və Allaha şükür olsun ki, bu əsaslar bu işə iştirak edən hamı adamlar tərəfindən qərarlar binası kimi qəbul edilmişdir.*

*Cənab sədr! Mən ümidvaram ki, bizim əsaslarımızın həqiqətdə tətbiq edildiyi aşkar olduğu zaman bütün cahan xalqının ürəyində olan ağırlığı qaldırmış olarıq. Biz bu saat xüsusi bir haldayıq. Mən küçədə getdiyim zaman hər yerdə Amerika libasında olanlara rast gəlirəm. Bu adamlar, biz öz məqsədimizi ibraz etdikdən və məqsədimizə çatmaqdan ötrü müharibəyə dəvət etdiyim adamlardır. Onlar buraya müharibəni deyil, işi qazanmaqdan ötrü hadi* [doğru yola dəvət edən şəxs] *olaraq gəlmişlərdir. Mən onların qarşısında məsulam. Çünki nail olmaqdan ötrü ibraz etdiyim məqsəd üçün onları müharibəyə dəvət etmişəm. Mən də onlar kimi hadi olub, onların mübarizə etdikləri işin vücuda gəlməsi üçün hər nə olmuş olsa da əlimdən gəldiyi qədər çalışmalıyam.*

*Mən bu amalın bir tək biz deyil, gün-gündən hər yerdə mübarizi olduğuna inandıqca kəndimi xoşbəxt ədd* [hesab] *edirəm. Hərçənd biz Yevropa və Şərq siyasətlərinə qatışmayırız, amma bununla bərabər mən bu sözləri onun üçün deyirəm ki, siz biləsiniz nə üçün bizə danışmaq ixtiyarı verilir, hər işin açarı nədən ibarətdir və nə üçün bu xüsusda müzakirə açmağı sədr mənə mühəvvəl etmişdir* [tapşırmışdır]*. Bu ona görə deyil ki, bir tək biz bu amalın tərəfdarı idik, bəlkə sizə icrayi-təsir etməkdir. Mən ancaq bəşəriyyətin hüsn-təvəccöhü olan öz məsərrətimizi* [sevincimizi] *sizə izhar etməyə çalışdım. Zənnimcə, bu amal üçün bütün dünya nəbzinin atması hiss edilməkdədir."*

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

Ərzaq Nəzarəti Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum

etmişdir ki, "Kooperatsiya" cəmiyyəti dövləti xidmətçilərə öz qiyməti ilə ərzaq buraxacaqdır. Nəzarət Məsai Nəzarətinə xidmətçilərə lazım olacaq ərzağın siyahısını Məsai Nəzarətinə göndərmişdir.

**Təftiş Nəzarətində**

Dövlət Müfəttişi naziri Əliağa Həsənov tərəfindən Parlaman və Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] təqdim edilmək üçün Dövlət Müfəttişi Nəzarəti Şurası təsisi barəsində qanun layihəsi tərtib edilməkdədir. Şuranın nə yolda hərəkət etməsi üçün nizamnamə dəxi tərtib ediləcəkdir.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Maştağa kəndindəki Mərkəzi Ev Komitəsi təqsim [paylama] məntəqələrinə fəqirlərə paylamaq üçün 90 put buğda, 285 put arpa göndərmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Mərkəzi Ev Komitəsinə iaşə məntəqələrinə xərc olunmaq üçün 100 min rublə vermişdir.

- Ümuri-Xeyriyyə və Nafiə naziri həzrətləri Gəncəyə azim olmuşdur [getmişdir]. Nazir İrəvan quberniyasından Gədəbəy kəndinə cəm olmuş qaçqınların əhvalını məhəllində [yerində] öyrənib müavinət [yardım] etmək üçün iqdamatda [təşəbbüsdə] bulunacaqdır.

**Məsai Nəzarətində**

Ərzaq Nəzarəti, Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] tərəfindən aldığı əlaqəni [rəsmi məktubu] Məsai Nəzarətinə göndərmişdir. Kəsbkarlar İttifaqı Nəzarətdən sual etmişdir ki, İttifaq Nəzarət və hökumət xidmətlərində olan xidmətçilərin işlərinə müdaxilə edə biləcəklərmi və ya yox?

**Dövlət Müfəttişi Nəzarətində**

- Dövlət Müfəttişliyi Nəzarəti müdiri Ə[li] A[ğa] Həsənov cənablarının binagüzarlığına [sərəncamına] görə Ərzaq Nəzarətinə müfəttişlər göndərilmişdir ki, müvazinə, aktiv, passiv və sairlərini təftiş etsin.

- Hökumətin 29 dekabr tarixli qərardadı əsası ilə Dövlət Müfəttişliyi müdiri Həsənovun binagüzarlığı ilə Hərbiyyə Nəzarəti və onun təhti-idarəsində [idarəsi altında] bulunan müəssisələrdə işləri aydınlaşdırmaq üçün Gəncə şəhərinə məmurlar göndərilmişdir. İşlər aydınlaşdırılaraq məruzə verildikdən sonra Dövlət Müfəttişliyi İdarəsi müdiri tərəfindən Hərbiyyə Nəzarəti hesabatını təhqiq üçün bir şöbə açılması haqqındakı layihəni Müfəttişlik müdiri təsdiq etmişdir. Şöbə müdirinə təklif edilmişdir təcili surətdə bu şöbə üçün dəsturüləməl [nizamnamə] və qanun layihəsi tərtib verib Dövlət Müfəttişinə təsdiq üçün təqdim etsin.

## BAKI XƏBƏRLƏRİ

**Siyasi nümayəndənin ziməti**

Dünən sürət qatarı ilə Ermənistan Cümhuriyyəti hökumətinə təyin edilmiş olan Məhəmməd xan Təkinski İrəvana hərəkət və əzimət eyləmişdir [yola düşmüşdür]. Nümayəndəni istasyonda Bakı qubernatoru Rəşid bəy Axundzadə, qalabəyi [polismeyster] Yadigarov, vitse-qubernator Axıcanov və qeyri hökumət məmurları müşayiət etmişlərdir.





**Cəbbəxananın təhvil verilməsi**

Dünən Bayılov cəbbəxanası yük avtomobilləri ilə daşınaraq Azərbaycan Hökumətinə təhvil verilirdi. Təfsilat sonra.

**Yeni qalabəyi müavini**

İstefaya çıxmış olan Bakı qalabəyisi müavini Malışevin yerinə Göyçay uyezd naçalniki [qəza rəisi] müavini kapitan Əziz bəy Bayrambəyov təyin olunur. Bayrambəyov bu günlərdə öz vəzifəsini ifaya şüru edəcəkdir [başlayacaqdır].

**Bələdiyyə İdarəsində**

- Bələdiyyə İdarəsi Bakı polismeysterinə müraciətən məlum etmişdir ki, hal-hazırda Bələdiyyə İdarəsindən izinsiz Balaxanı şossesi yanındakı sabiq vəba qəbristanında meyitlər basdırılmaqdadır. Bu isə səhiyyə nöqteyi-nəzərindən zərərdir. Bələdiyyə İdarəsi rica etmişdir ki, işbu işin önü alınmaq üçün lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Bələdiyyə İdarəsi məlum etmişdir ki, konka həyətindəki Biçeraxov qoşunları tərəfindən oğurlanan şəhər əmlakının miqdarı 156 981 rublə təxmin edilməkdədir.

**Ziyalılar ittifaqında**

Fevralın 17-də Parlaman binasında yeni təşkil edilmiş olan "Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqı"nın birinci iclası vaqe olmuşdur. İclasda İttifaqın heyəti-rəyasəti seçilməsi məsələsi müzakirə edilmiş və əksəriyyəti-ara [səs çoxluğu] ilə zeyldəki [aşağıdakı] şəxslər seçilmişlərdir:

Doktor Seyidəli Seyidov sədr, mühəndis Ağa Axundov və Cəmil bəy Vəzirov müavinlər, Ağalar bəy Mahmudbəyov xəzinədar, Camo bəy Cəbrayılov katib.

Seçkidən sonra iclas zeyldəki [aşağıdakı] məsələləri müzakirə və həll etmişdir:

1) İdarə üçün mənzil hələlik "Nicat" maarif cəmiyyətinin mənzilində bina olunur.

2) İdarə üçün dəftərxana və başqa ləvazimat almaq katibə həvalə olunur.

3) İdarə iclası hər həftə düşənbə [bazar ertəsi] günləri təyin edilir.

4) Namizədlər hər iclasda hazır olmalıdırlar.

5) İttifaqın tarixi bəlli olmaq üçün hamı üzvlər qəzetələrdə İttifaqa dair məqalat və əxbarat [məqalələr və xəbərlər] təsadüf etdikdə həman qəzetəni alıb saxlamalıdırlar.

6) İttifaq tərəfindən heyətlər intixabı [seçilməsi] məsələsi müzakirə edilib və zeyldəki şəxslər intixab edilmişlərdir:

**Texnika heyəti**: Zivər bəy Əhmədbəyov, Kərim bəy Alxasov, Ağalar bəy Mahmudbəyov, Sadiq Hüseynov, Ələsgər bəy Bəylərbəyov, Mahmud bəy Axundzadə, Ağa Əminzadə.

**İstixbarat [Mətbuat] heyətinə**: Cəmil bəy Vəzirov, Mehdi bəy Hacıbababəyov, Teymur bəy Bayraməlibəyov, Yaqub bəy Vəzirov və Nəsir Cavanşirov.

**Maliyyə və iqtisad heyətinə**: Ağa Axundov, Cəfər bəy Cəfərbəyov, Yaqub bəy Vəzirov, Cəfər Qasımov, Cahangir Qayıbov.

**Tibb-səhiyyə heyətinə:** Doktor Lətif bəy Mahmudbəyov, Allahverdiyev Əliheydər, Mir Əsədulla Mirqasımov, Əbülfəz Qarayev, Əliyev Muxtar.

7) Bayramlar münasibəti ilə "üskü

[Novruz çərşənbələri] atəşləri" olmasın deyə iclas bu barədə mətbuat vasitəsi ilə əhaliyə müraciət edilməsini qərara alır.

8) Ümumi Sülh Konfransına gedən Azərbaycan mürəxxəslərinin [nümayəndələrinin] İstanbulda təxirə uğradıqları barəsində Əli bəyin bəyanatı müzakirə edilib, bu barədə mətbuat vasitəsi ilə bütün cahan demokratiyasına müraciət olunması qərara alınıb, istixbarat heyətinə həvalə olunur.

**"İttihad" məktəbində gecə kursları**

"İttihad" məktəbinin Müsəlman Müəllimləri İttifaqı tərəfindən kübarlara (böyüklərə) məxsus türki [türk dili], farisi [fars dili], rusi [rus dili], hesab tədris olunmaq üçün gecə kursları açılmışdır. Oxumaq arzusunda bulunan zəvat [şəxslər] məzkur [adı çəkilən] məktəbdə (Qubernski nömrə 137) Hacı müəllimə müraciət edə bilərlər.

*"İttihad" məktəbinin Müsəlman Müəllimləri İttifaqı*

**Mütəallim və mütəallimələr ictiması**
**[Oğlan və qız tələbələrin yığıncağı]**

Fevralın 21-ində saat 5-də Birinci Realnı məktəbində Bakıda mövcud müsəlman student və kursis[t]kalarının [oğlan və qız tələbələrinin] ümumi iclası təyin edilmişdir. Məclisdə fövqəladə mühüm məsələlər müzakirə edilməli olduğundan üzvlərin iclasa gəlmələri xahiş olunur.

**Mühazirə**

Müsəlman müəllimləri üçün Xariciyyə naziri tərəfindən oxunacaq mühazirə təxir edilmişdir. Bu gün, cümə günü saat 11-də Duma salonunda nazir həzrətləri mühazirəni oxuyacaqdır. Müəllimlərin vaxtında gəlməsi mütəmənnadır [xahiş olunur].

**Çarpayı tapılmışdır**

Srağagün fevralın 19-unda Krasnokrestovski küçədə bir hammal bir dənə çarpayı gətirib bir qarabağlıya məxsus olduğunu və sahibini itirdiyini xəbər verərək soraq edirdi. Hammala 8 manat muzd verərək çarpayını saxlayırız. Sahibi "Azərbaycan" qəzetəsi idarəsində Xəlil İbrahim əfəndiyə yaxud Krasnokrestovski küçədə 39 nömrəli evə müraciət edə bilər.

**Hadisat**
**Qatilin tövqif [həbs] edilməsi**

İki ay bundan əqdəm [qabaq] Təzəpir küçəsində, 7-inci nömrə dalanda, 14 nömrəli evdə sükunət edən [yaşayan] İran rəiyyəti Əsəd Xəlil oğlu öz yeznəsi Məhəmmədsadiq Haqverdi oğlu tərəfindən öldürülmüş və həman evin tövləsində yerə basdırılmış imiş. Üçüncü məntəqə pristavı bu barədə məlumat alaraq tövləni axtardıqda, üç arşın dərinlikdə basdırılmış Əsədin meyiti tapılmışdır. Təhqiqatdan məlum olmuşdur ki, Məhəmmədsadiq İran rəiyyəti imiş. Rəsul oğlu ilə bahəm Əsədi öldürüb və basdırmışdır. Qatillərin hər ikisi tövqif [həbs] edilib, təhqiqat davam edir.

**Oğurluq**

Fevralın 16-sında gündüz saat 4-də Mariinski küçədə Qukasovun mağazasının qıfılı sındırılıb 200 min manatlıq bəzzaz malı [parça] oğurlanmışdır. Oğurlayanların tövqif edilməsindən ötrü ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].





**ERMƏNİSTANDA**

Tiflisə gəlmiş olan Ermənistan Parlamanı sədri [Avetik] Saakyan "Zakavkazskoye slovo" qəzetəsinin mühərriri ilə etdiyi müsahibə əsnasında Ermənistan əhvalından bəhs edərək demişdir ki:

*"Ermənistanın çörəyi yoxdur. Adamlar acından qırılır. Hərgah kənardan kömək olmasa, Ermənistan xalqı bütün qırılıb məhv olacaqdır. Gürcüstan paytaxtına gəlməkdən qəsdim Ermənistanın bu aclıq məsələsini həll etməkdir. Tiflisdə olan Müttəfiq dövlət nümayəndələri Ermənistan xalqına bu barədə müavinət göstərmək vəd etmişlərdir. Ümidvar oluram ki, Müttəfiq heyət nümayəndələri Ermənistanı bu tövr bədbəxtlikdən xilas edərlər."*

Sonra Saakyan Ermənistanda hökmfərma olan [hökm sürən] səpmə yatalaq və qeyri müsri [yoluxucu] xəstəliklərdən bəhs edib deyir ki, bu tövr xəstəliklər geniş bir surətdə Ermənistanı bürümüşdür. Xəstəliklərlə mübarizə etməkdən ötrü Ermənistanın dava-dərmana, həkimə və qeyri lazım gələn şeylərə böyük ehtiyacı vardır.

Saakyan erməni qaçqınları haqqında deyir ki:

*"Ermənistan qaçqınları Sərdarabad, Sürməli və qeyri rayonlarda yerləşdirilmişlərdir. Bu qaçqınların doğma yurdları xarabazara döndərildiyindən, qeyri yerlərdə qalmağa məcbur olmuşlardır.*

*Ermənistan Hökuməti ətrafla qəti-ələqədədir [ələqəsini kəsmişdir]. Dəmiryol, teleqraf münasibatı [ələqələri] yoxdur. Odur ki, Ermənistanın ərzaq işləri bərbad bir haldadır. Bu işlər ancaq o vaxt bərtərəf olar [aradan qaldırılar] ki, qonşu dostlarımız üsrət [çətinlik] çəkən qardaşlarının halını anlayarlar."*

Saakyan sözünün axırında demişdir ki, hər halda bu saat Ermənistandan ötrü çörək, çörək, çörək lazımdır.

**BƏYANİ-TƏŞƏKKÜR**

Müdiri-möhtərəm! Bu təşəkkürnaməmin qəzetənizdə dərcini rica edərim.

Üçüncü İbtidai qız məktəbinin Müəllimələr Şurası dün həmin məktəbə təşrif gətirərək yoxsul qızlar nəfinə [xeyrinə] 200 manat ianə vermiş olan müəllim Haşim əfəndiyə qəzetəniz vasitəsi ilə səmimi təşəkkürünü ərz edir.

*Müəllimələr Şurası*

**İDARƏDƏN CAVABLAR**

- Dərbənddə **Mahmud Əfəndizadə** əfəndiyə: "Bəsirət" qəzetəsinin "Əbu Hüreyrə" haqqındakı yanlışı bizcə dəxi şayani-təəssüf bir keyfiyyətdir. Zənn edirəm "Bəsirət" özü dəxi bu yanlışı iqrar edib təshihini lazım bilər. Çünki, əminik ki, bu yanlış, məlumatsızlıq nəticəsi olaraq meydana gəlmişdir. Yoxsa başqa bir sui-fikir olmasa gərəkdir.

- Bülbülədə **Baqqal** əfəndiyə: Evdə bikar qalanda qəzetə oxumağa və qulaq asanlara qandırmağa başlasanız davadalaşma olmaz və ürəyiniz də qısılmaz.

- **Məzlum** əfəndiyə: "Məzlum, zalımdır"! Hərçənd bu sözlərin sizin məqalənizə dəxli yoxdur. Ancaq xatirimizə düşdü

yazdıq. Hər halda nahaq qanların çarəsi dar ağacında deyildir.

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Arvad diş həkimi**
**Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur.

Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*





**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**“Müsavat”da**

Balaxanı mədənlər mərkəzi Müsavat şöbə idarəsi Sabunçu, Ramana, Balaxanı mədənlərində çalışan bütün müsəlman işçilərinə elan edir:

İşbu fevral ayının 22-də, şənbə günü saat 2-də Balaxanski krujokda [Balaxanı dərnəyində] yoldaşımız doktor Qənizadə cənabları mühazirə (leksiya) oxuyub siyasəti-hazirə [hazırkı siyasət] cərəyanlarına dair məlumat verəcək. Müqtəziyyati-zamana [dövrün tələblərinə] müvafiq xətti-hərəkət təyin etmək xüsusunda tövzihat [izahat] veriləcək. Binaənaleyh [ona görə], yuxarıda yazılan məntəqələrdə çalışan işçi qardaşlarımızın göstərilən vaxtda gəlmələri xahiş olunur.

*Balaxanı mədənlər mərkəzi*
*“Müsavat” idarəsi*
*Sədr: Mirzəağa Kərimzadə*
*Katib: [Əbdürrəhim] Yusifzadə*
*39*

**Ərzaq Nəzarətindən**
**Elan**

Ərzaq Nəzarəti bununla Bakıdan Azərbaycan Cümhuriyyətinin sair şəhərlər və qəsəbələrinə biduni-icazə [icazəsiz] hər növ mal və yüklərin aparılmasına müsaidə edir. Yalnız qənd, pesok, çay, papiros, ispiçka, spirt, yağ, manufaktura, lobya, düyü, buğda və un məhsulu istisna edilir.

Gəncədən və Zaqatala quberniyasından taxıl çıxartmaq qadağan edilir.

Qeyd 1: Hər növ ərzaq şeylərinin və yüklərinin Bakıdan Bakı qradonaçalstvasındakı kəndlərə icazəsiz aparmağa müsaidə edilir.

Qeyd 2: Neft şeyləri, dəmir və bu cür şeylərin aparılması işlərinə Ticarət və Sənaye Nəzarəti baxır.

*Ərzaq naziri: K. Lizqar*
*Kançelyariya müdiri əvəzi: [Abbasəli bəy] Makinski*
*42*

**Fəhlə Konfransı**

Fabrika, mədən, zavod, kantor və gəmi komitələrinin və Həmkarlar İttifaqı nümayəndələri konfransının mabədi [ardı] bazar günü, fevralın 23-də, səhər saat 10-da, Fəhlə Klubunun binasında vaqe olacaq. Müzakirə ediləcək məsələlər:

1) Krasnovodskdan gəlmiş vəkillərin məruzəsi.
2) Fəhlə Klubunun bayramı.
3) Fəhlələrin münfərid [fərdi] çıxışları.
4) Sülh komissiyasının məruzəsi.
5) Fəhlə Vəkilləri Şurası haqqında.
6) Şəhər İdarəsi barəsində.
7) Ərzaq məsələsi.
8) Bəyanat.

Zavod komitələrinin və Həmkarlar İttifaqı sədrlərinin imzası və möhürü ilə təsdiq olunmuş etibarnamə ilə iclasa gəlməlidir.

Ev komitələrinin imzası ilə verilmiş etibarnamələr batildir [etibarsızdır].

*Həmkarlar İttifaqı Şurası*
*40*

**Opera**
Axşam tamaşası
Hökumət teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşlarının müdiriyyəti
Cümə günü cəmadiyələvvəl ayının 20-sində 1337 sənəsi (fevralın 21-ində 1919) bu mövsümdə ikinci dəfə olaraq təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəy Hacıbəylinin
yazmış olduğu məşhur
**“Əsli və Kərəm”**
operası 6 pərdədə.
Bu dəfə isə oyun təzə artistlər iştirakıyla olub, təfsilat proqramda olacaqdır.
Kərəm atəş üzərində yanacaqdır.
Balet, bir dəstə qızlar və
oğlanlar xoru olacaqdır.
Biletlər imdidən teatronun kasasında satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

*41*

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 302. “qorucu”: bu söz qəzetdə gah “qorucu”, gah “qoruqçu” kimi getmişdir.

səh. 303. “misqal”: 4,266 qrama bərabər çəki vahidi olmuşdur.

səh. 305. “Məclisi-Məbusan nəzarətçisi (1) ayda 1000 manat…”: mötərizə içindəki rəqəmlər işçilərin sayını göstərir.

**Sülh ətrafında**

səh. 307. “C maddəsi”: qəzetdə “V maddəsi” kimi getmişdir.

**Vilsonun nitqi**

səh. 309. “…müharibəyə girişmiş bütün məmləkət əhlinin...”: “əhlinin” yerinə qəzetdə “əhalinin” getmişdir.

səh. 310. “Hərgah bunu ifa etməsəniz…”: qəzetdə “hərgah bunu ifa etsəniz…” getmişdir.

**Bakı xəbərləri**

səh. 314. “Qubernski”: Bakıda, indiki Nizami küçəsi.

“Krasnokrestovski”: Bakıda, indiki Şeyx Şamil küçəsi.

“Təzəpir”: Bakıda, indiki Mirzə Fətəli küçəsi.

“Mariinski”: Bakıda, indiki Rəsul Rza küçəsi.

**Ermənistanda**

səh. 315. “Zakavkazskoye slovo”: Tiflisdə 1919-1921-ci illərdə nəşr edilən gündəlik qəzet. Erməni burjuaziyasının maraqlarına xidmət edən “Kavkazskoye slovo” qəzeti erməni-gürcü müharibəsi günlərində Gürcüstan hökuməti tərəfindən bağlandıqdan sonra, bu adla çıxmağa başlamışdır.

**İdarədən cavablar**

səh. 315. “Əbu Hüreyrə” (? - 678): səhabə.





**Bazar, 23 fevral 1919-cu il, nömrə 120**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 22 cəmadiyələvvəl sənə 1337. 23 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rubldədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabəd)*

**Dəmiryol tarifəsi**

**Sədr** - Növbədəki məsələ dəmiryol tarifələrinin təzayüdü [artırılması] haqqındakı layihədir. Söz Maliyyə-büdcə komissiyası sədri Abuzər bəy Rzayevindir.

**Rzayev** - Məlumdur ki, axır zamanlar dəmiryol xidmətçi və zəhmətkeşlərinin məvacibi artırılmışdır. Ondan bəri dövlət hər ay dəmiryolundan 8 milyon manat zərər çəkir. Bu zərəri azaltmaq qəsdilə Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri tarifələrin artması haqqında bir layihə hazırlayıb təqdim etmişdir. Büdcə komissiyası məzkur [deyilən] qanun layihəsini müzakirə və bir qədər təshihdən sonra Parlamana təqdim edir.

Layihədə birinci klas qiymətinin 1917-nci il qiymətlərinə nisbətən 10 dəfə artırılması təsəvvür olunurdu. Biz isə 15 dəfə artırırız. İkinci klas Nəzarət [Nazirlik] layihəsində 8 dəfə artırılmışdır; biz 12 qat artırırız. Üçüncü klas 6 dəfə artırılmışdı; biz 10 dəfə artırdıq. Bir də kasıbları nəzərə alaraq dördüncü klas vaqon buraxılır. Bunun bileti üçüncü klasın yarı qiymətində olacaqdır.

Müəllimlər bileti qiyməti əvvəlki qərar üzrə qalır.

Bakı-Sabunçu-Suraxanı yolunda vaqonlar əksəriyyən fəhlə üçün olduqlarından qiymətləri artırılmayır. Hər bir yük vaqonu konduktorunun məvacibi 10 qat artırılmışdır. Baqaj və sərnişin sürətilə aparılan yüklərin kirayəsi köhnə qiymətə qarşı 24 və Seym rəqəmlərinə nisbətən iki qat artırılır. Böyük və kiçik sürətlə göndərilən mallara 16 (Seymə nisbətən 2 qat) artırılır. Malların mühafizəsi üçün alınan 1/5 qəpik vergi şimdi 5 qəpiyədək artırılır. Komisyon vergiləri 5 qat artırılır. Vaqon komitəsi məsarifi üçün neft vaqonları da daxil olaraq hər vaqondan alınan vergi 5 manat artırılır. Əsgəri və xüsusi yüngül şəraitli tarifə ləğv edilir. Stasyon məxarici 6 qat artırılır. Malı yükləmək və vaqondan düşürmək xərci 9 qat artırılır. Qapan xərci 9 dəfə artır. Mövqiflərdə [stansiyalarda] yükləri saxlamaq üçün alınan vergi 25 qat artırılır.

Bu layihə üzrə artırılmış tarifə müvəqqətən [müvəqqəti olaraq] daxildə tətbiq ediləcəkdir. Beynəlmiləl nəqliyyat haqqında Gürcüstan ilə Azərbaycan arasında

əqd edilmiş [bağlanmış] olan tranzit müqavilənaməsinin 10-uncu maddəsi mövcibincə [maddəsinə əsasən] bu tarifələrin beynəlmiləl bir miqyasda tətbiqi üçün Gürcüstan Hökuməti ilə saziş hüsulu lazımdır. Bu barədə müzakirat davam edir. Maliyyə-büdcə komisyonu bu tarifə layihəsinin qəbulunu təklif edir.

**Sədr** - Söz Türüq və Məabir naziri Xudadad bəy Məlikaslanovundur.

**Məlikaslanov** - Hökumətin layihəsi ilə Büdcə komisyonu layihəsi arasında bir qədər təfavüt var. Məsələn, biz birinci və ikinci klas biletini 12 dəfə artırmışdıq; komissiya 15 dəfə artırmışdır. Fəqət, hökumət tərəfindən bu təshihlərə mümaniət [maneə] yoxdur. Burada bir iş var ki, Gürcüstan Hökuməti ilə bizim aramızda olan tranzit müqavilənaməsinin 10-uncu maddəsi mövcibincə Azərbaycanla Gürcüstan arasında biri-birinə göndərilən yüklər tarifəsinin artırılması hər iki tərəfin rizası ilə olmalıdır. Ona görə də layihənin axırında bu xüsus qeyd edilmişdir. Əgər gürcülər bu layihəni tamamilə qəbul etməsələr, yenidən müzakirat başlamalı olacaqdır. Fəqət, tarifələrdən bir neçəsi var ki, Gürcüstan qəbul etmişdir və bu barədə danışığa məhəl [yer] yoxdur. Biz isə müvəqqət[i] layihəni tamamilə qəbul edib, daxildə tamamilə də tətbiq edə bilərik. Amma beynəlmiləl münasibatda onlarsız qəbul etmək olmaz.

**Sədr** - Söz Mustafa Mahmudovundur. *(Danışmaq istəmir.)* İbrahim Əbilov!

**İbrahim Əbilov** (sosialist) - Dəmiryol qulluqçularının məvacibləri artırılarkən tarifələrin də artırılması barəsində danışıq olmuşdu. Biz demişdik ki, kirayələrin artırılması ilə ərzaq şeyləri də bahalanacaqdır. Biz o vaxt dedik ki, kirayə artırılmasın! Çünki burası fəhlələrin yeni tələbatına bais olar. Ona görə ərzaq şeylərinin ucuzlaşması üçün tədbir görülsün. Lakin görürsünüz ki, fəhlələrə verilən məvacib onları təmin etmədiyi bir halda kirayələrin artırılması ilə şeylər daha da bahalanacaqdır. Biz keçən dəfə də dedik ki, kirayə bir manat artırılsa, alış-verişçilər bir manat əvəzinə əşyanın üstünə 5-10 manat gələcəklərdir. Malların qiymətini bahalandıranlar əleyhinə hökumət heç bir tədbir görməyir. Möhtəkirlərin iştahasına bir sədd çəkilməyir. Bu layihəni qəbul etməklə onların iştahasını daha da artırmış olarız. Layihə Maliyyə-büdcə komissiyasında müzakirə edilərkən bizim fraksiyamızın nümayəndəsi iştirak edib, səs verməmişdir. Bir də məzkur layihə heç fraksiyalarda müzakirə edilməmişdir. Neçə dəfə burada danışılmışdır ki, Parlamana təqdim olunan layihələr əvvəlcə fraksiyalara göndərilsin, tainki hər fraksiya öz rəyini deyə bilsin. Bir dəfə burada oxumaqla işdən xəbərdar olmaq mümkün olmadığından fraksiyamız tərəfindən təklif edirəm həm bu layihə, həm də bundan sonra idxal olunacaq ümum layihələrin surəti əvvəlcə fraksiyalara göndərilsin. Bizim fraksiyamız əsasən tarifələrin artırılmasına ziddir.

**Sədr** - Söz hökumət üzvü Məlikaslanovundur.

**Məlikaslanov** - Biz bu qanunu hələ çox ləngə salmışıq. Səbəbi də budur ki, Gürcüstanla bağladığımız şərtnaməyə görə biz gərək dəmiryolu tarifəsi haqqındakı tədbirlərimizi bir-birimizin rizası ilə görək. Bu cür bir qanun çoxdan gərək qəbul edilmiş olaydı. Çünki, siz bilirsiniz ki,





hər şey bahalanmışdır. Məvaciblər artırılmışdır. Hətta dəmiryoluna lazım olan şeylər 100-200 dəfə bahalanmışlardır. Halbuki biz tarifəni 6-7-8 qat artırmışıq. Dəmiryol əmələ [fəhlə] və xidmətçilərinin məvacibini artırarkən biz fikir etmişdik ki, tarifəni də artıraq. Lakin Gürcüstanla bağladığımız şərtnamə dolayısı ilə bu vaxtadək gecikmişdir. Bu gecikməyə görə gündə bizim 60, 70, 80 min manata qədər zərərimiz olur. Ona görə də bu qanunu müstəsna tutaraq təcili surətdə qəbul etməniz təvəqqe olunur. Əgər indi bu qanunu qəbul etməsəniz, zərərimiz get-gedə artar. Zənnimcə, bu məsələni fraksiyalara versəniz də heç bir şey dəyişə bilməz. Çünki, Büdcə-maliyyə komissiyasında bütün firqələrin nümayəndələri olduğu halda qəbul olunmuşdur. Mən xahiş edirəm, bu gün məsələyə baxıb qurtarasınız ki, xəzinəyə zərər dəyməsin.

Möhtərəm məbuslar! Siz bilirsiniz ki, Azərbaycanın mədaxil mənbəyi ancaq neft ilə dəmiryoludur. Hal-hazırda vətənimizdən istədiyimiz qədər neft ixrac edəmməyiriz. Dəmiryollarımız da bu halda bunca zərər verilir. Vəhalonki [halbuki] Rusiyanın ən mədaxilli yollarından biri də Qafqaziya dəmiryolu idi. Əgər işlər böylə gedərsə, xəzinə əlbəttə çox zərər çəkər. Tək kağız pul kəsməklə bir nəticə əldə ediləmməz. Kağız pul nə qədər artıq çıxsa, qiyməti o qədər əskilər və hər şey o nisbətdə bahalaşar. Bunun müqabilinə öylə tədbir görməlidir ki, əhalidən bir şey çıxarıb zərərimizi onunla bir qədər yüngülləşdirək.

**Sədr** - Daha söz istəyən yoxdur ki? Söz doktor [Musa bəy] Rəfiyevindir.

**Rəfiyev** - Əbilov cənablarının söylədikləri doğrudur. Hər bir qanun Parlamanın ümumi iclasında müzakirə edilmədən əvvəl fraksiyalara göndərilməlidir ki, fraksiyalar onunla aşina olsunlar ki, qanunu səsə qoyanda nəyə səs verdiklərini bilsinlər. Amma bu layihə təcilidir. Türüq və Məabir naziri söylədi ki, Qafqaziya dəmiryolu həmişə xəzinəyə mənfəət gətirən bir yoldur. Şimdi siz bu yolun mədaxilinə baxsanız görərsiniz ki, dekabr ayında 5 milyon mədaxil vermişdir. Yanvarda da bu miqdardan artıq olmamışdır. Amma yanvardan bəri məvaciblər artırılmış olduğundan məxaric 13 milyona qalxmışdır. Görürsünüz ki, bu surətlə ayda 8 milyon manat zərər hasil olur. Şimdi əgər bu tarifələr artırılmasa, o halda dəmiryolu həmişə mənfəət gətirmiş olduğu halda indi hər ay 8 milyon olmaq üzrə ildə 96, bəlkə 100 milyon manat zərər verəcəkdir. Azərbaycanın cəmi məxarici ayda 600 milyondur. Bunun da beşdən bir hissəsi dəmiryoluna düşür. Heç bir xəzinə buna dayanmaz. Öylə isə tədbir görməlidir ki, barı bu vaxtadək, əsasən mənfəət verməkdə olan müəssisələr heç olmasa, mənfəət gətirməsə də, zərər də verməsinlər. Binaənileyh [ona görə], mən təklif edərdim Türüq və Məabir Nəzarətinin bu layihəsi qəbul edilsin ki, tezliklə tətbiq oluna bilsin.

**Sədr** - Söz İbrahim Əbilovundur.

**Əbilov** - Mən məsələnin əsası üstündə danışmaq istədim. Yalnız dedim ki, layihə fraksiyalara verilmiş olsaydı, bəlkə dəmiryolu mədaxilinin artması barəsində ayrı yollar tapmaq olar, bu surətlə də xəzinənin zərəri qapadılardı. Şimdi biz dəmiryolunun sair mədaxillərini bilməyiriz ki, fikrimizi bəyan edək. Doktor Rəfi-

yev layihənin fraksiyalara verilməsi əleyhinə olaraq deyir ki, qanun təcilidir.

Möhtərəm məbuslar! Xatirinizdə varmı ki, keçən iclasın birində də yenə bir qanun layihəsi təqdim olunduqda təcilidir deyə təsdiq etdirildi. Hər dəfə də böylə ola bilər. Ona görə təklif edirik, qanun layihələri bir həftə qabaq fraksiyalara göndərilsin ki, fraksiyalar qabaqca öz arasında müzakirə edib Parlamanda da məsələyə baxıldıqda nəyə səs verdiklərini bilsinlər. Bir də dedilər qanun fraksiyaya verilsə gecikəcəkdir. Bir qanun nə qədər təcili olsa da bir həftə təxirlə gec olmaz. Halbuki tədqiq olunmadan qəbul edilsə, nəticəsi yaxşı çıxmaz. Deyirlər dəmiryolu zərər verir. Bəli, verir. Lakin gərək sair mədaxil yollarını da düşünək. Məsələn, bilet məsələsindən başqa qeyri işləri dəyişdirmək, vaqonları artırmaq və daha nə kimi yolları varsa, ətraflıca düşünərək tapmaqla işi dəxi də yaxşı düzəltmək olar. Heç düşünməyiriz ki, bilet qiymətlərini artırmaqdan hasil olan kardan [qazancdan] daha böyük zərər qaçaq surəti ilə biletsiz gedənlərdən hasil olar. Bu qiymətlərin artırılması ilə bəlkə bir paraların mədaxili daha da artacaqdır. Qeyri bir çox şeylər də var ki, onlardan mədaxili artırmaq olar, nəinki yalnız malların tarifəsini artırmaqla. Bununla zərər qapanmaz. Tutalım ki, biz tarifəni artırdıq, həman dəm alış-verişçilər bundan istifadə edib, siz bir manat artıranda, onlar 5-10 manat artıracaqlar. Genə fəhlə bahalıqdan dolayı məvaciblərinin artırılmasını tələb edəcəkdir, sonra da biz yığışıb deyəcəyiz bu fəhlələrə baxın, dünən məvaciblərini artırmışıq, bu gün genə də tələb edirlər, bu insafsızlıqdır, deyəcəyiz.

Layihəyə keçərək deyiriz ki, nə dəmiryolundan xəbərimiz var, nə də qanundan. Ona görə təklif ediriz, bu qanunlar qabaqca fraksiyalara verilsinlər, sonra Parlaman müzakirəsinə qoyulsunlar. Nə qədər təcili olsa da fraksiyaya göndərmək lazımdır.

**Sədr** - Söz Türüq və Məabir naziri Məlikaslanovundur.

**Məlikaslanov** - Mən bu layihə xüsusunda bir qədər məlumat vermək istəyirəm. Məbuslardan Əbilov öylə deyir ki, guya bu qanun havadan dəlib buraya düşübdür. Bilməlisiniz bu layihə gəlib buraya çıxınca bir neçə komissiyadan keçmişdir. Dəmiryol tarifələrinin artırılmasından başqa hər cür mədaxil yolları da, vaqonun artırılması da həp nəzərə alınmışlardır. Tarifənin artırılmasından hasil olan 3 milyon manat, yenə də 8 milyonluq zərəri qapamayır. Hərgah biz bütün zərərləri çıxarmaq üçün yalnız tarifələri artırmaqla kifayət edib dəmiryolunun başqa işlərini düzəltməyə və mədaxilin çoxalmasına çalışmasaydıq, o vaxt tarifəni 8 qat artırmaq lazım gələrdi. Vəhalonki biz ancaq birdən ikiyə qədər qat artırmışıq. Vaqonların çoxalmasına da çalışırıq ki, mədaxil artsın. Bunların həpsi nəzərə alındıqdan sonra layihə təqdim edilmişdir. Yenə təkrar edirəm ki, dəmiryolları hər gün 70-80 min manat zərər verirlər. Ona görə rica edirəm, layihəni təxirə salmayıb, bu gün qəbul edəsiniz.

**Sədr** - Söz Əhməd Cövdət [Pepinov] əfəndinindir.

**Əhməd Cövdət** (sosialist) - Əfəndilər! Necə ki, nazir əfəndi söylədi, doğrudan da yolların və xəzinənin zərəri o qədər çoxdur ki, bunun qabağını almaq lazımdır. Məlumdur ki, Zaqafqaziya dəmiryolu Rusiya yollarının ən mənfəətlisi idi. İndi isə ayda 8 milyon zərər verir. Bunca zərərə təhəmmül edilməməz, lakin Dəmiryol naziri burada bizə müəyyən bir rəqəm göstərmədi. Dedilər ki, dekabr ayı hesabı ilə yolun zərəri ayda 8 milyondur. Bu doğrudur, amma ayların arasında təfavüt var. O zaman türklər Bakıdan gedirlərdi, vaqonlar onların əlində idi. Oktyabr ayı ondan da fəna idi. Fəqət, o vaxt əhval qeyri-təbii idi. Amma yanvar ayında böylə deyildir. İrəliki aylara nisbətən əhval yaxşılaşmışdır. Nazir həzrətləri yanvar haqqında bizə məlumat verməliydi görək yolun mədaxili, məxarici nədir. Bəlkə 8 milyon deyil, azdır. Təəssüf ki, bu barədə məlumat verilmədi. İndi biz burada dekabr ayını ölçü götürürüz, amma bu düz olammaz. Zira dekabr ayında zərər artıq idi, yanvar ayında isə zərər ola bilər ki, az olmuş ola. Hər halda zərəri qapamaq lazımdır. Bunun üçün bilet ilə kirayənin artırılmasını təklif edirlər və deyirlər ki, qanun qəbul olunmadıqça gündə 70-80 min manat zərər var. Yoldaşımız Əbilov dediyi kimi tarifə artdıqda malların qiyməti də artacaq. Bu da əhali və fəhlə üzərinə gələcək, pul isə möhtəkirlərin cibinə girəcəkdir. Yoldaşımız deyən kimi əgər bilsək ki, bu gün tarifələri artırmaqla işlər tamamilə düzələcək və 100 milyon zərər olmayacaqdır, o vaxt layihəni qəbul edərdik. Fəqət, biz biliriz ki, böylə olmayacaqdır. Tarifənin artması ilə mallar bahalanacaq, fəhlə də məvacibinin artırılması barəsində tələbat verəcəkdir. Nazir gəlib yenidən tarifələrin artması haqqında layihə təqdim edəcəkdir. Bu surətlə onlar artıracaq, biz artıracağız. Bunların həpsi əsasın düz olmamasındandır. Hökumət çalışıb bahalığın qabağını almalıdır. Bu barədə keçən dəfə burada üç gün danışdıq. Bu qədər danışığın bir nəticəsi olub-olmadığını bilməyiriz. Hərgah hökumət bu barədə bir tədbir görmüş olsaydı nəticəsini görərdik. Mərkəzi Ev Komitəsi kimi bir müəssisənin tədbiri ilə çörəyi ucuzlaşdırmaq mümkün isə, onun sayəsində bazarda malın qiyməti düşərsə, Sentrodomun [Mərkəzi Ev Komitəsinin] qüvvəti çatan bir şeyə, Hökumətin qüvvəti çatmazmı? Hökumət də qənd, çay və sair şeyləri özgə yerdən alıb gətirsin, ucuz qiymətlə əhaliyə satsın və bu surətlə bazarda malın ucuzlaşmasına səbəb olsun. Vəilla [yoxsa] həman stanok [dəzgah] yenə işləyib bilaaram [dayanmadan] pul çıxaracaqdır və bahalığın qabağını almaq mümkün olmayacaqdır. Zənnimcə, Dəmiryol Nəzarəti çalışıb yol ilə gedən ingilis və Könüllü əsgərindən para alsa və yoldakı bir para hərəkətlər rəf edilib [aradan qaldırılıb] işlər nizama salınsa, dəmiryolunun zərəri 3-4 milyondan da əskik olar ki, buna da hökumətimiz təhəmmül edə bilər. Məlumunuzdur ki, oktyabr və noyabr aylarında dəmiryolunun mədaxili yox idi, zərəri vardı. Bu zərər o vaxt təhəmmül olunurdu. İndi isə mədaxilimiz də var. Fəqət, burasını da nəzərə almalıdır ki, dəmiryolunda vəziyyət sabiq Rusiya zamanındakı kimi deyildir. Ona görə nə tövr olsa da indi zərər çıxaracaqdır. Bu zərərə də təhəmmül etməliyiz.

Məlum olduğu üzrə bizimki kimi Gürcüstan dəmiryolları da zərər verdiyindən Gürcüstan Türüq və Məabir naziri də tarifənin artırılması haqqında Parlamana bir layihə təqdim etmişdi. Fəqət, Parlaman tarifələrin artırılmasını qəbul etmə-

yib, yolun nizama salınması və bahalığın önünün alınması üçün tədbirlər görülməsini təklif etdi və bir müddət də zərərə dözməyi təhti-qərara aldı. Biz dəxi bu zərərə hələlik təhəmmül etməliyiz. Bu layihə Büdcə komisyonunda müzakirə olunan zaman bizim fraksiyanın nümayəndəsi biletlərin artırılması əleyhinə səs vermişdir. Bir də layihədə birinci və ikinci klas biletlərinin qiymətinin 50 faiz, amma üçüncü klasın 60 faiz artırılması təklif olunur. Halbuki bu klas ilə gedənlər kasıblardır. Ona görə üçüncü klasın biletini az bahalandırmalıdır ki, kasıbların gücü çatsın. Əlavə, hökumət o nöqteyi-nəzərdə olmamalıdır ki, hər yerdə qiymət artır, bizdə də artsın. Hökumət ancaq mədaxili artırmaq üçün qəti tədbirlər görməlidir. Bizim fraksiyamız bu rəydədir ki, tarifənin artması ilə bu zərərlərin önünü almaq olmaz.

Məsələnin digər cəhətinə gəldikdə deyirlər ki, bu layihə təcilidir. Məlum olduğu üzrə keçənlərdə də bir təcili layihə vardı, şimdi Büdcə komissiyasında yenə bir təcili layihə var. Ola bilər ki, sonralar da olsun. Keçənlərdə dediyimiz kimi yenə təklif ediriz ki, qanun layihələri Parlaman müzakirəsinə təqdim olunmaqdan əvvəl fraksiyalara verilsin ki, onlar layihəni müzakirə edərək rəylərini deyə bilsinlər.

**M. Ə. Rəsulzadə** (Müsavat) - Müzakirə edilən məsələdə iki əsas var. Biri budur ki, qanun müzakirə olunmaqdan əvvəl fraksiyalara verilsin. Əvət, fraksiyalara qanunları əvvəlcə göndərməlidir ki, məbuslar layihənin məzmunundan xəbərdar olsunlar və Parlamanda müzakirə olunarkən idrakla rəy versinlər. Bu məsələ o qədər sərih və aşkardır ki, əleyhində olmaq qeyri-mümkündür. Bu təklif Parlaman tərəfindən ilk dəfə vaqe olmayır. Keçəndə də bir qanun barəsində müzakirə vaxtı qanunların qabaqca fraksiyalara göndərilmələri haqqında bir qərar qət olunmuşdu. Fəqət, aparatın xarablığındamı, ya nədənsə qanunlar daima təcili olurlar. Şimdi yenə təcilidir, denilir. Deməli, bu da o surətlə təcili qəbul olunsa, bir daha təcili qanun təklif edilər və bu surətlə arxası heç zaman kəsilməz. Sosialistlərin bu xüsusdakı fikirlərinə tamamilə iştirak edərəm. Mümkün olduğu qədər Parlamanı təcili qanunlardan xilas etməlidir. Ona görə, şimdi təcili surətdə təklif olunan qanunun "təcili" gəlməsində "eyn" hərfini "əlif"ə əvəz etməklə təcili qanunu təcil etsək [təxirə salsaq] daha müvafiq olar.

Məsələnin ikinci cəhəti budur ki, Sosialist fraksiyası biletlərin qiymətinin artırılması əleyhinədirlər. Öylə təsəvvür edirlər ki, bu surətlə bahalığa səbəb olunar və nəticədə təkrar əmələlərin məvacibinin artırılmasını mövcib olaraq [artırılmasına səbəb olaraq] pul kəsən makina [maşın] daha ziyadə işləyəcəkdir. Bu öylə bir məsələdir ki, ona artıq dərəcədə ehtiyatla yaxınlaşmalıdır. Fəqət mənə öylə gəlir ki, vaqe olan təkliflə pul makinası daha çox işləyə bilər. Çünki əgər məvaciblərin artırılması gəlirdən deyil, xəzinədən veriləcək olarsa, o zaman makina daha çox işləyəcək. Kağız pulun miqdarı çoxalacaq, eyni zamanda qiyməti də əskilərək, şeylər daha da bahalanacaqdır. Burada deyirlər ki, biletlərin qiyməti artırılmaqla, bahalıq da artar. Bu doğru deyildir.

Əlbəttə, mümkündür ki, başqa vasitələr və yollarla bu zərərin önü alına bilsin. Dəmiryolunun xərci yalnız 8 milyon deyil, bəlkə daha fəzlədir. Burada yalnız biletin qiymətini on dəfə artırmaqla 100 qat artmış məsarifi ödəmək olmaz, məsələyə diqqətlə yanaşmalıdır. Əsas etibarı ilə biletlərin artırılması həyatı zərərləndirirsə, kağız pul miqdarının artması daha da zərərdir.

Fəqət, bununla bərabər qanun layihəsinin fraksiyalara verilməsi haqqındakı təklifə israr edən olarsa, biz də iştirak edəriz.

**Sədr** - Söz Yusif Əhmədovundur.

**Əhmədov** (bitərəf) - Zənnimcə, məcburuz bu layihəni qəbul edək. Ona görə ki, buyurdular ki, gündə 80 min manat zərər var. Qanun nə qədər gec qəbul edilsə, zərər o qədər artıq olacaqdır. Lakin onu çox saxlamaqla yenə də bahalığa bir çarə edilməz. Bahalığın şiddət etməsinin səbəbi burada deyildir, başqa cəhətlərdədir və bu səbəbləri əskiltmək, baha şeyləri ucuz etmək, zənnimcə, Türüq və Məabir nazirinə deyil, Ərzaq Nəzarətinə aid bir məsələdir. Bu bir azardır ki, illət harasında olmağı tapmaq qəzetələrdə də çox yazılır, cəmi Yevropa ağıllıları və tacirləri də bundan acizdirlər. Bu bir çətin məsələdir. O vaxt ki, mal olmadı, əlbəttə bahalanacaqdır. Mal olsa, təbii, özü-özlüyündən ucuzlaşacaqdır. Malların məmləkətə idxalı məsələsində də Türüq və Məabir nazirinin əlində bir çarə varsa, o da yolların yaxşılaşdırılması və ərzaq gətirməyin asanlaşdırılmasıdır. Bahalığa qarşı tədbirləri gərək Ərzaq naziri görsün. Əhli-xibrədən [mütəxəssislərdən] lazım olan adamları çağırsın, işləsin. Odur ki, mən keçən dəfə də söyləmişdim ki, Ticarət Nəzarəti indində [nəzdində] tacirlərdən ibarət bir komisyon olsun. O komisyon təşkil edilsə, əlbəttə, nazirin işi asan olar. Mən sizi inandırıram ki, xəstənin həkimə nə qədər ehtiyacı varsa, ərzaq işlərinin də tacirlərə o qədər ehtiyacı var. Mən özüm tacirlər nümayəndəsi olduğum üçün təkrar Parlamana təklif edirəm, bu məsələlərə baxmaq üçün bir komisyon təşkil olunsun və məsələ ətraflıca müzakirə edilsin. O vaxt bahalığın önü alınar. Mən yenə təklif edirəm ki, Türüq və Məabir Nəzarətindən varid [daxil] olmuş qanun layihəsini Parlaman tamamilə qəbul etməsə də bari Gürcüstan Hökumətinin qəbul etmiş olduğu maddələri qəbul etsin. Çünki məzkur [deyilən] maddələri gürcülər fevralın birindən etibarən daxildə tətbiq edirlər və beynəlmiləl tətbiqi üçün bizim qərardadımıza məəttəldilər.

## VİLSONUN NİTQİ MÜNASİBƏTİLƏ

Hərbi-ümumidən sülhi-ümumiyə keçən aləmi-bəşəriyyət şimdi Parisdə, o başdan-başa qanlı bir inqilabın mərkəzi, Yevropa mədəniyyət və siyasətinin mənbəyi Fransanın paytaxtında qurulan Sülhi-Ümumi Konfransına ənzari-diqqətini [diqqət nəzərlərini] dikmiş, bir həyəcani-istiqbal [gələcək həyəcanı] ilə oradan çıxacaq qərarları bəkləyir. Sülhi-ümumi, o müsalimət [əmin-amanlıq] və səadətlərdən biridir ki, yıxılan şəhərlər, sönən və məhv olan xanimanlar, qeyb olan mədəniyyət və irfanlar, tökülən qanları təlafi [kompensasiya] edəcək, təlafisi güc bir afəti-ümumiyyəni dəf eyləyəcəkdir. Hərbi-

ümumi imperialistlər tərəfindən mütəqabil və mütabiq [qarşılıqlı və bir-birinə uyğun] bir haləti-ruhiyyədən doğdu. Sülhi-ümumi də yenə imperialistlərin ahəngdar bir haləti-zehniyyəsi ilə südur edir [əmələ gəlir].

Hərbi-ümumidə sərtab [inadkar] siyasilərin cəvvaliyyəti [hərəkətliliyi], millətlərin həyəcanı amil oldu. Sülhi-ümumidə təcrübədidə [təcrübəli] diplomatların zəkası ilə rəyi-amm [ictimaiyyətin fikri] etilaf edərək [uzlaşaraq] nafiz olur [nüfuz edir, təsir göstərir].

Hər ikisi də, hərb və sülh də aşağı-yuxarı qüdrət və qüvvətlərin uyuşması nəticəsində təzahür edən bir keyifiyyət olduğu bir dəfə daha təəyyün edir [özünü göstərir].

Hərbi-ümumidə qalib dövlət və millətlərin avazi-mədəniyyət və təhəkkümləri eşidilirdi. Sülhi-ümumidə məğlubların xüsranları [ziyanları] görülür. Sülhi-ümumidə qaliblərin hökm və əmrnamələri hərbi-ümumidəki zə'fiyyət və məqhuriyyəti-əsgəriyyəni [zəiflik və hərbi məğlubiyyətləri] təlafi edir!

*Lənət sənə, ey sabiqeyi-qeyrət!*
*Bir gündə məhv olan min illik şöhrət!*

Bu aralıq dünyanın ötəki ucunda hərbi-ümumiyə müəyyən və əsaslı bir prinsiplə daxil olan Amerika, imperializmin acı təcrübələrindən bütün bəşəriyyəti təxlis [xilas] etmək üzrə Vilson prinsiplərini müdafiə edir. Öylə bir müdafiə ki, qüvvətlərin müvazinəsi ilə sülh və hərb riyazəti vücuda gətirmək etiyadında [vərdişində] bulunan Yevropa dövlətləri bunu bir istehzayi-müqəddərat [taleyin istehzası] olaraq məğlublara eşitdirmək surətilə qalibiyyətin vicdani məsərrətindən [sevincindən] şərəflənir.

Müsyö Vilson bir amerikalı olmaq və Yevropanın imtiyazlı həyat və tikanlı siyasətlərindən təcərrüd etmiş [təcrid edilmiş] bulunmaq etibarilə Amerikanın dəmir və çəlik həyat və siyasətilə amil olur [əməl edir]. Siyasət bəsit, fəqət cahanbəha: bütün millətlərə həqqi-hürriyyət və müsavat, yaxud da: və ma həkəmtüm beynənnas ən təhkümü bil-ədl.

Vilsonun üç gün əvvəl Parisdə ümumi bir surətdə açılan Sülh Konfransında irad etdiyi [söylədiyi] nitq başdan-aşağı radikal bir dövlət adı ilə radikal bir demokrat fərdinə yaxışacaq bir tərzdədir.

Rəisi-cümhur, təcrübələrindən bəhs edir, gördüklərindən anlatır. Yevropa və Asiyada sülh nə əsasda qurula biləcəyini izah edir və həp o Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] bütün millətlər üçün siyasi, milli bir iksiri-ali olduğunu isbat edir. Fəqət, muşarileyh [adı çəkilən şəxs] bu xüsusda az-çox örtülü bir əndişə ima edir.

*"Cəmiyyəti-əqvam canlı bir qabiliyyətlə olmalı, adi bir şəkliyyətdən çıxmalıdır. Cəmiyyəti-əqvamın həyatı, bəzi müşkülatı həll etməklə təhdid [məhdud] edilməməli, bütün millətlərin mənafeyi-ümumiyyələrini də müdafiə etməlidir. O müqəyyəd və ehtimamlı [muğayat olan və narahat] gözlərini qapamayan bir millətlər başı olaraq təzahür etməlidir. Biz onu canlı bir əhliyyət və istedad halına gətirməzsək, bütün millətlərin əmniyyət və etimadlarını iğfal [puç] etmiş olarız."*

Vilson bu sözləri ilə Yevropa düvəli-müəzzəməsi [böyük dövlətləri] ilə Amerika Cəmahiri-Müttəfiqəsi [Birləşmiş Ştatları] arasında nasıl bir siyasəti-ruhiyyə ayrılığı bulunduğunu göstərir. İttifaq etmiş bir dövlət olmaq etibarilə Amerika bir ixtilaf surətində deyil, fəqət bir ixtari-mükərrər [təkrarlanan xəbərdarlıq] şəklində Yevropaya sülh prinsiplərini elan edərkən şübhə yoxdur ki, 88 milyonluq radikal və liberal Amerika demokratiyasının mənafeyi-həqiqiyyəsini millətlərin məzhəri-hürriyyət və hakimiyyət [hürriyyət və hakimiyyətə nail] olmasında görür.

Qərib[ə]dir ki, Vilson nitqlərini ikmal etdikdən [başa vurduqdan] sonra Yevropa dövlətləri "Cəmiyyəti-Əqvam" üçün müqabil [qarşı] bir planla fəaliyyətlərinə davam edirlər. Vilson bütün millətlərin eyni dərəcədə məzhəri-haqq olmalarını tələb edərkən, Yevropa dövlətləri qalib dövlət və millətlərlə bir "Cəmiyyəti-əqvam" təməlini qurmaq istəyir.

Vilson Yevropa və Asiya millətlərinin hal-hazırdakı quruluşlarına bir xətti-bütlan cızarkən [Avropa və Asiya millətlərinin hal-hazırkı quruluşlarının üstündən xətt çəkərkən, onları etibarsız sayarkən] Lloyd Corc soyuqqanlılıqla qalib dövlət və millətlərin haqqi-inkişaf və həyatını müdafiə edir.

Vilson bütün bəşəriyyətin inlədiyini və Bəhri-mühitdən [Sakit okeandan] Asiyaya qədər bütün kiçik millətlərin haqqi-həyat və hakimiyyəti-siyasiyyə tələbində bulunduğunu söyləyir. Lloyd Corc alman-fransız hərbinin xatirə və abideyi-xunininə [qanlı abidəsinə] misal olaraq Fransa torpağındakı xarabazarları göstərir. Sülh, fəqət hər şeydən əvvəl bir ingilis, bir fransız sülhü demək istəyir.

İştə, əsrlərcə bir təcrübeyi-siyasiyyə keçirmiş Yevropa sülhü ilə qızıl və dəmir yaradan Amerika sülhi-ümumisi arasındakı fərq!

Sülhi-Ümumi Konfransında əcəba bu fərq yalnız Lloyd Corc və Klemansonun bir başqa təklifi ilə Vilsonun ümumi tələb və prinsiplərini söyləməsindənmi ibarət qalacaq?

Xayır! Çünki Vilson prinsipləri yalnız kiçik millətlərin deyil, məğlub millətlərin belə tətbiqini istədiyi bir prinsipdir. Çünki, burada bütün bəşəriyyətin ruh və fikri də bərabərdir.

Avropa itirdiyi bir müvazineyi-qüvasını [qüvvələr müvazinətini] Asiyada, Türkiyədə və Şərqdə təlafi etmək istədikcə, Amerika nə itirmək, nə də qazanmaq əndişəsini gözətləmədən kiçik, məhkum, qalib və məğlub millətlərin təvəccöh və səmimiyyəti ilə tələb və təklifində baqi [sabit] qalacaqdır.

Lloyd Corc və Klemansolar sülhi-ümumini bir intiqami-siyasi və mənəvi ilə vəz və rəkz etməyə [meydana qoymağa və dikəltməyə] həsri-məsai edərkən [əmək sərf edərkən], Amerika buna heç də yaxınlaşmaq istəməyir.

Əcəba, bu müqabil və məkus cərəyan, mötəlif [uzlaşmış] və müttəhid [birləşmiş] bir mənzumeyi-siyasiyyə ətrafında toplana biləcəkmi?

Əcəba, qalib və məğlublar arasında insaniyyətpərvəranə bir xətti-vəsl [birləşmə xətti] çəkilə biləcəkmi?

Ümid edəlim!

"Ümmid ilədir cahanda hər hal!" deyəlim!

*Qaraağazadə Əhməd Həmdi*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

**Klemansonun yaralanması**

Paris - Fransanın Baş naziri və Sülh Konfransının sədri Klemanso avtomobilə əyləşmək istədiyi zaman beş güllə atılmışdır. Mumaileyh [həmin şəxs] çiynindən və arxasından yaralanmışdır. Lakin görünür ki, yarası qorxulu deyildir. Klemanso yaralansa da piyada olaraq evinə qayıda bilmişdir. Güllələr avtomobilin damına dəyib, birisi isə qoca nazirə dəymişdir. Güllə Klemansonun çiynindən o tərəfdən çıxmışdır. Kimsəni yanına buraxmayırlar.

* Sülh Konfransının sədri, Fransa Baş naziri Klemansonun yaralanması barəsində böylə xüsusi xəbər alınmışdır:

Konfransda Klemansonun təhti-sədarətində [sədrliyi altında] sülh müzakiratı [müzakirələri] davam etdiyi vaxtda camaatdan bir nəfər beş güllə atmışdır. Klemanso iki güllə ilə yaralanmışdır. Mumaileyhin əhvalı xətrəlidir [təhlükəlidir].

Tiflis - 20 fevral. Klemansonun canına sui-qəsd edildikdən sonra demişdir ki, bu vaxta qədər qurtarmamış məsələlərin həllində iştirak edəcək. Sair dövlət nümayəndələri üçün bu əhvalın bir dərsi-ibrət olacağına ümid edir. Komissiyalarda işlər davam edəcəkdir. Zəhmət [iş şərtləri] barəsində qanun tərtib edən komissiya Klemansoya edilən sui-qəsddən dolayı böylə qərar vermişdir:

*"Fransa Baş nazirinə həyasızcasına edilən sui-qəsddən dolayı həyəcanını bəyan edir və nazirin səhhətyab olacağına [sağalacağına] ümidvar olur."*

**Rusiyaya kömək tədbirləri**

Vilson Amerika Hərbiyyə nazirinə xəbər vermişdir ki, Ali Hərbi Şura Şimali Rusiyada olan Müttəfiqlərin hərbi halının yaxşılaşması üçün tədbirlər görməkdədir.

**Amerika ordusu**

Vaşinqton Vəkillər palatası 540 min daimi ordu saxlanması haqqında olan qanun layihəsini rədd eylədikdən sonra bir milyon dollar hərbi istiqraz qanununu qəbul etmişdir. Bu qanun üzrə sülh zamanında 175 min nəfər könüllü cəm etmək olar. Xidmət müddəti bir il olacaqdır.

**Müharibə məsuliyyəti**

Berndən teleqraf edirlər ki, Sosialist Konfransı hal-hazırda müharibə məsuliyyəti məsələsini təhqiq etməyi qərara almışdır. Fransız nümayəndələri Mistral, Renodel və Toma müharibə məsuliyyətinin Almaniya öhdəsinə düşdüyünü bir neçə həqiqətlərlə isbat edib alman sosialistlərinin oynadıqları rolları qeyd etmişlərdir. Alman nümayəndəsi Vels tək bir Rusiyanın müqəssir olduğunu isbat etmişdir. Vels dəniz mühasirəsi dəhşətlərindən söyləyib vəd etmişdir ki, Almaniyanın əski üsulu heç vaxt bərpa edilməyəcəkdir.

**İngiltərə və Avstraliyada zökəm xəstəliyi**

Bu axır vaxtda İngiltərə və Avstraliyada zökəm xəstəliyi şiddətlənməkdədir. Edinburqda 138 nəfər həlak olmuşdur. Bunların 90 nəfəri bu xəstəliyə mübtəla olanlardır. Qlazqoda isə 262 nəfər həlak olmuşdur.

Sidneydən göndərilən teleqrafda deyilir ki, bu xəstəlik bütün Avstraliyanın həyatına sui-təsir eyləmişdir. 50 min nəfər adam işləməyir. Melburnda və Sidneydə mağazalar və küçələr boş qalır. Xəstəxanalar dolu olduğundan yeni xəstələri qəbuldan imtina edirlər.





**İngiltərədə əsgər cəmi**

London - Çörçil irad etdiyi [söylədiyi] nitqində demişdir: Hal-hazırda İngiltərədə 2 və 3 il müddətlə yeni orduya qoşun cəm edilir. Hər gün mindən ziyadə yazılanlar vardır. Reyndə müntəzəm qoşun saxlamaq vacibdir. Ta ki, onun sayəsində Almaniyanı tərksilah etdirib intiqam almaq mümkün olsun.

**Müttəfiqlərin tələfatı**

Bu Avropa müharibəsində Fransanın tələfatı böylədir: 4 torpedo, 4 silahlı kruvazer [kreyser], 1 kruvazer, 4 böyük torpedo, 8 minonos, 14 sualtı qayığı, 62 müsəlləh gəmi, 17 başqa gəmilər. Ələlümum, Fransanın 110 min ton gəmisi qərq edilmişdir.

İngiltərənin 550 min ton, Almaniyanın 350 min, İtaliyanın 76 min, Avstriyanın 65 min, Amerikanın 17 min tonluq gəmiləri qərq edilmişdir. Fransanın 31 yanvaradək 7 milyard 280 milyon lirə müharibə xərci olmuşdur. Bu məbləğin 720 milyonu naloqlardan [vergilərdən] alınıb, 6 milyard 500 milyon isə borc alınmışdır.

**Müxtəlif xəbərlər**

Berlin - Poznanda bütün cəbhələrdə nemeslərlə polyaklar arasında ciddi müharibə davam edir.

Amsterdam - İspaniyanın cənubi qitələrində [hissələrində] əmələ [fəhlə] hərəkatı gündən-günə artır. Sevildə [Sevilyada] mədən əmələlərinin ümumi tətili başlanmışdır. Turində əmələlər arasında həyəcan vardır.

## QƏZETƏLƏRDƏN

**Vladiqafqaz əhvalı**

Vladiqafqaz haqqında verilən xəbərlərə görə, şəhər tamamilə Könüllü ordu komandanlığı əlinə keçmişdir. Adi həyat bərpası üçün komandanlıq tərəfindən tədbirlər görülür. Müharibə əsnasında şəhərdən qonşu kəndlərə qaçanlar tədriclə şəhərə övdət edirlər [qayıdırlar]. Könüllü ordu ilə inquşlar arasında olan müharibədə hər iki tərəf, ələlxüsus inquşlar böyük tələfata düçar olmuşdur. Kantışevo, Bazorkino kəndləri tamamilə yandırılmışdır. Hal-hazırda Vladiqafqaz yolu açılıb bolşeviklərin hökmranlığı əsnasında Gürcüstanda olan adamlar vətənlərinə qayıtmaqdadırlar. Vladiqafqazdan 1600 nəfərə kimi qaçan bolşeviklərin müqəddəratı məlum deyil. Rəvayətə görə, onlar İnquşistandadırlar. Bunlar Gürcüstana getmək üçün tədbirlər görməkdədirlər. Dağıstan Hökuməti İngiltərə komandanlığının razılığı ilə Könüllü ordu ilə sazişə girmişdir. Keçən günlərdə Tiflisdən Vladiqafqaza qaçanlar ilə bir neçə avtomobil yola düşmüşdür. Bolşeviklər Vladiqafqazda ağalıq etdiyi zaman Vladiqafqaz şəhərinin Tiflisdə olan Bələdiyyə idarəsi heyəti bu günlərdə Vladiqafqaza əzimət edəcəkdir [gedəcəkdir].

**Şimali Qafqaziyada bolşeviklər**

Tiflisdə olan İngiltərə heyəti xəbər ve-

rir ki, Könüllü ordu tərəfindən təqib edilməkdə olan bolşeviklər Şimali Qafqaziyada geri çəkilməkdədir. Kizlyar Könüllü ordu tərəfindən işğal ediləndən sonra bolşeviklər Baqili və Aleksandrovsku boşaltmışlardır.

**Zaqafqaziya və Amerika**

"İskra" qəzetəsi yazır ki, Batumda alınan xəbərlərə görə, Müttəfiqlər Zaqafqaziyaya Amerikanın məntəqeyi-mənafeyi [maraq dairəsi] altında bulunan bir ölkə kimi baxırlar.

**İngilislərin general Denikinə əmri**

Tiflisdən xəbər verirlər ki, orada olan İngiltərə heyəti ingilis məmurlarının aşağıdakı rəsmi məlumatını dərc etməyi xahiş etmişdir: Könüllü ordu İngiltərə heyətinə verdiyi təminatına baxmayaraq Soçi nahiyəsinə hücum etdiyinə görə, İngiltərə Hökuməti general Denikinə əmr etmişdir ki, öz əsgərlərini məzkur [adı çəkilən] nahiyədən çıxarsın.

## TÜRKİYƏDƏ

**Türkiyədə təzə firqələr**

Türkiyədə Sosial-Demokrat firqəsi misalı "Zəhmətkeş firqəsi" təşkil edilmişdir. "Demokrat firqəsi" dəxi vücuda gəlmişdir ki, bunun da başçısı İbrahim bəy Kamil paşa kabinəsi düşəndən sonra Romaniyaya qaçmışdı. Hal-hazırda isə İstanbula qayıtmışdır.

**Albaniyanın tələbatı**

İstanbulda Alban komitəsi təşkil edilmişdir. Bu komitənin məqsədi 1913-cü ildə London Konfransında qoyulmuş olan Albaniya sərhədinin genişlənməsi və Albaniyanın müstəqil olmasını təbliğ etməkdir. Məzkur [adı çəkilən] komitə öz tələbatını Vilsonun maddələri ilə əsaslandırır. Bu məqsədlə bir müxtirə [nota] hazırlanıb İngiltərə, Fransa, Amerika və İtaliya nümayəndələrinə verilmişdir.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

Helsinqfors [Helsinki] - Petroqraddan gəlmiş olan fərarilər xəbər verirlər ki, Petroqradda olan köhnə Rusiya saldatları arasında üsyan əmələ gəlmişdir və bunun nəticəsi olaraq Petroqradda pulemyotla atışma başlanmışdır. Kronştadt topxanası Petroqradı bombardman edir. Petroqrad küçələrində bir çox yığılmamış meyitlər vardır.

**İtaliyanın tələbi**

Paris – Bu günlərdə Afrikadakı müstəmləkə sərhədlərinin dəyişəcəyi gözlənildiyindən, İtaliya nümayəndələri Trablus sərhədinin düzəlməsini tələb etmişlərdir. Türkiyə-İtaliya müharibəsi zamanında bağlanan əhdnamə ilə Fransa və İngiltərəyə keçmiş olan yerlərin şimdi İtaliyaya verilməsini İtaliya nümayəndələri tələb edirlər. Bundan əlavə, İtaliya nümayəndələri tələb edirlər ki, Cibuti və İngiltərəyə mütəalliq [məxsus] Somalilanda da İtaliyaya verilsin. Hərgah, Beynənnəhreyn ilə Suriya İngiltərə və Fransaya keçəcək olarsa, o zaman İtaliya da [Kiçik] Asiyada Adalya [Antalya] vilayətini tələb edəcəkdir.





**Böyükadada şura**

Prinsef [Prins adaları] - Böyükadada olan şura müəyyən bir mahiyyət alır. Qət olunmuşdur [qərara alınmışdır] ki, bolşevik və ən sağ monarxistlərdən başqa hamı firqələr bu şurada iştirak edəcəklərdir.

Rusiyada olan hərbi qüvvələrin və sabiq Rusiya əyalətləri[nin] (yəni təzə təşkil olunmuş cümhuriyyətlər) hamı nümayəndələri iştirak edəcəklər. Şuranın qəsdi odur ki, Paris təbiri ilə Rusiya məsələsində vahid bir cəbhə əmələ gətirsinlər və bu vaxta qədər Rusiyada vuruşmaqda olan müxtəlif firqələr barışsınlar.

**Almaniya qayıqlarının tələfatı**

Rəsmi surətdə indi anlaşılır ki, bütün müharibə zamanında Almaniya sualtı qayıqları tərəfindən 15 063 786 tonluq ticarət gəmiləri qərq edilmişdir. Müharibədən qabaq olan paraxodlar isə 10 811 584 ton əskilmişdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] öz məmurunu Salyana göndərmişdir ki, oradan fəqir əhali üçün buğda və başqa ərzaq alsın. Aldığımız məlumata görə, məmur orada bir neçə min put hələlik buğda almışdır.

- Parlaman tərəfindən Qarabağ qaçqınları və ora əhvalına dair məlumat cəm etmək üçün göndərilən xüsusi komisyon övdət etmişdir [qayıtmışdır]. Komisyon bu yaxın zamanda Qarabağ əhvalı barəsində məlumat verəcəkdir.

**Dövləti Müfəttişlikdə**

- Hökumət qətnaməsinə görə, dövlət müfəttişi [Əliağa] Həsənov həzrətləri tərəfindən Tiflisdəki Azərbaycan siyasi mürəxxəsliyi [nümayəndəliyi] fəaliyyətini təftiş etmək qəsdi ilə idarə baş müdiri oraya göndərilmişdir.

## ERMƏNİ HÖKUMƏTİN[İN] CAVABI

Məlum olduğu üzrə Azərbaycan Xariciyyə naziri Ermənistan Cümhuriyyətinə bir nota göndərərək Göyçə mahalında olan bir çox müsəlman kəndlərinin əhalisinə ermənilər tərəfindən edilən təcavüzlərə qarşı protesto və bu işlərin bilatəxir [dərhal] önü alınması və müqəssirlərin layiqi cəzalara çatdırılması[nı] tələb eyləmişdi. Şimdi həman notaya Ermənistan Cümhuriyyəti Xariciyyə naziri bu məzmunda cavab göndərmişdir:

*"Bakı, Azərbaycan Cümhuriyyəti Xariciyyə nazirinə.*

*Sizin 14 nömrəli teleqrafınızı aldım. Kəndlərin adları təğlit [təhrif] edilmişdir. Zənn edirəm ki, yanvarın axırında Basarkeçər mahalında vaqe olan hadisə nəzərdə tutulur. Basarkeçər mahalında olan cinayətlərdə Ermənistan qoşunları və afserləri iştirak etmişlərdir. Hökumət bu cinayətlərin qətiyyən bərtəraf edilməsi [qəti surətdə aradan qaldırılması] üçün ciddi tədbirlər ittixaz eyləmişdir [görmüşdür]. Müqəssirlər ciddi surətdə məsuliyyətə cəlb ediləcəkdirlər.*

*Ermənistan Cümhuriyyəti Xariciyyə naziri: Tiqranyan."*

**II**

*"Bakı, Azərbaycan Cümhuriyyəti Xariciyyə nazirinə.*

*Basarkeçər cinayəti barəsində göndərdiyim teleqrafa əlavə olaraq bəyan edirəm ki, hökumət tərəfindən ittixaz edilən tədbirlər sayəsində və qoşunların müavinəti [yardımı] ilə müsəlmanlar öz kəndlərinə yerləşdirilmişlərdir. Onlardan qarət edilən şeylər yenə özlərinə qaytarılmışdır. Müqəssirlər məsuliyyətə cəlb edilirlər.*

*Ermənistan Cümhuriyyəti Xariciyyə naziri: Tiqranyan."*

## GÖZÜMÜZÜ DÖRD AÇALIM!

Bundan bir neçə gün əvvəl, yəni 25 yanvar tarixli "Yedinaya Rossiya" qəzetəsinin baş məqaləsində 25 yanvar yeni hökumətin 48 gün zərfində 7 iclas... və fəaliyyəti məzmunlu məqaləsini oxuduq.

Əlbəttə, o acı istehzaları dodaq və barmaq ısırmadan [dişləmədən] oxuyub keçmək olmaz. Gərək istehza ilə olsun, gərək ciddiyyətlə bizi qamçılayırlar və bir dərəcə də haqlıdırlar. Bu qissələrdən bir hissə çıxarıb özlərinə haqq qazana bilərlər. Zira millət iki vəxim [qorxulu] vəziyyət qarşısında bulunur: biri bahalıq, onun nəticəsi olaraq aclıq; ikincisi isə əmniyyətsizlik. İnsan qansız, zəif olarsa, vücuduna xəstəlik mikrobu olan müzirr [zərərli] mikroblar girib fəaliyyətə gələr. Ciyərlər və sair əzanın [orqanların] təxribatına çalışar. Nəhayət məzara qədər sürüklər. Millət kisəsindən, hətta həyatından tam mənası ilə əmin deyil ikən nasıl olur da aramızda olan müzirr mikroblara saheyi-fəaliyyət açılmasın?

Nasıl olur da Nikolay zamanına həsrət çəkənlər bizim istifadə edəmmədiyimiz hürriyyətdən müstəfid olmasınlar [istifadə etməsinlər]? Gözümüz qabağında cərəyan edən haqsızlıqlar və becəriksizlik, yaxud laqeydliyimizdən misallarla, dəlillər isbat etməsinlər? Biz Müttəfiqlərin gülər üzlə tatlı sözlərinə, ümidbəxş vədələrinə etimad edib ciddiyyətsiz olmayalım. Əgər şimdi keçirməkdə olduğumuz əhval eyni şəraitlə cərəyan etməyə davam edərsə və bu cərəyanın önünü almaya müqtədir olammaz isək, istiqlalımızı baltalamaq istəyən xarici vətəndaşlarımız Sülh Konfransında rollarını kamali-müvəffəqiyyət və əmniyyətlə ifa edəcəkləri bədihidir [aşkardır]. O vaxt Müttəfiqlər də "Siz daha sinni-rüşdə vasil olmamış [yetkinlik yaşına çatmamış] bir millət imişsiniz, kəndinizi kəndiniz idarə edəmməzsiniz. Sizə bir vəsi [sizin yerinizə sizi idarə edəcək birini, canişin] təyin edəlim" deyərlərsə...

*Əgər xüday nəbaşəd zebəndəgan xoşnud*

*Şəfaəte həmə peyğəmbəran nədarəd sud.*

Biz o zaman Müttəfiqlərə qarşı yalnız məhcubmu oluruz?

İştə biz müqəddəratımızı şimdidən təyin etmək üçün eyi və fəna cəhətlərini dərin-dərin düşünəlim və ona görə xəttihərəkətimizi təqib edəlim. Gözlərimizi dörd deyil, mümkünsə səkkiz açalım. Əski zehniyyətləri tərk edəlim. Müsəlman türklərdə təbiəti-sani [ikinci xarakter] olmuş bir etiyad [vərdiş] var ki, o da qismicühəlamız [cahil qismimiz] hər işi, bütün idareyi-xüsusiyyə və ümumiyyəmizi [bütün xüsusi və ümumi işlərimizi] Allaha həvalə edəriz. Allah düzəltsin, Allah düzəldər, inşallah, maşallahlarla kəndimizi aldadırız. Allah da böylə zümreyi-layəfləhun və layəqilundan bıqmışdır, usanmışdır, zənn edirəm. İkinci, münəvvər [ziyalı] gənclərimiz isə hər şeyi hökumətə yükləriz, hökumətin borcudur, hökumət yapmalı deyə seyirci vəziyyətini alanlar aramızda az deyildir. Halbuki, hökumət və millət bir cüzi-layənfəkdir [bir-birindən ayrılmaz hissələrdir]. Nasıl ki, balıq susuz yaşayammazsa, hökumət də ümum millətin və ələlxüsus gənclərin müavinətinə və rəhbərliyinə müftəqirdir [möhtacdır]. Onsuz yaşayammaz. Yaşasa belə, müvəqqətdir.

Biz də insanız, bizim də azad yaşamağa haqqımız var. Sair həmcinslərimiz kimi milli bayrağımızın altında hürr və məsud yaşamalıyız! Bu barədə hər əfradi-millət [millətin hər fərdi], bilxassə münəvvər təbəqəmiz, öhdələrinə düşən vəzifeyi-milliyyə və insaniyyələrini [milli və insani vəzifələrini] haqqı ilə ifa etdikləri təqdirdə istiqbalımızdan yüzdə yüz əmin ola bilərik. Məəttəəssüf [təəssüf ki], millətimizin əksəri (möhtəkirlərdən sərfinəzər) fəhlələr və kasıb və kəndlilərimiz oxuyub-yazmaq nemətindən məhrum bir halda olduqlarından nə deyərlərsə, nə işlərlərsə məzurdurlar [üzrlü sayılırlar]. Çünki öz mənafeyi-həyatiyyələrini[n] hangi şeyə bağlı olduğunu bilməkdən acizdirlər.

Bundan dolayı, azəri gənclərinin ən mühüm vəzifələri yalnız qəzetələrlə propaqanda etmək, yaxud bir-birləri ilə danışıb-qonuşmaq, fəaliyyətlərini məhdud bir sahədə yürüdüb boş sözlə vaxt zaye etmək deyil. Bütün millətin ruhuna nüfuz edərək hər cür zəhmətlərə qatlanıb millətə vətən sevgisi, millət və insaniyyət hisləri nəfx etmək [üfürmək, nəfəslə ötürmək], hürriyyət, istiqlal, vətəndaşlıq vəzifələrini ətrafı ilə anlatmaq və hər xüsusda mənən və maddətən hökumətə kömək etmək üçün təqib edəcək yollarını öyrətmək və eyni zamanda onların övladlarının təlim və tərbiyəsi və maarifin[in] təmini üçün ciddi təşəbbüsatda bulunmaq əhəmm vəzaifdəndir [ən mühüm vəzifələrdəndir] zənnindəyəm. Dünənki qəzetələrdə oxuduğumuz "Yövmülhesab" [hesab günü] məqaleyi-xabidəsi [ağızdan-ağıza gəzən məqaləsi] qəzetə qarelərinə məlumdur. İştə, biz o dedikləri qiyamətin siratilmüstəqimi üzərindən keçməkdəyiz. Yeddi yaşından yetmiş yaşlılarımıza qədər eyi biliriz ki, o sirat (yəni bizim keçmək məcburiyyətində olduğumuz) siratilmüstəqim qıldan incə, qılıncdan kəskindir. Biz gözümüzü açmayıb yanlış bir hərəkət edərsək, kəndimizi əsfəli-safilində görürüz.

Təbii, günah və savabımız mizana çəkilmədən sirata ayaq basmaq olarmı, deyəcəksiniz. Deyə bilərəm ki, bizim günah və savabımız çəkilmişdir və çəkilmiş kimidir. Çünki "nameyi-ə'mal"ımızı Miln həzrətləri sağ əlimizə vermişdir. Ancaq o mənhus körpüdən keçməyə, firdovsi-istiqlal və hürriyyətə [istiqlal və hürriyyət cənnətinə] daxil olmağa çalışalım. Təkrar edirəm, gözümüzü dörd açalım, çalışalım!

*Hür-əndişiyan*

## BAKI XƏBƏRLƏRİ

**Hökumət müəssisələri məmurlarının ittifaqında**

Necə ki, məlumdur məşhur Rusiya inqilabından sonra ittifaqlar zühuru ilə bərabər, o cümlədən Bakıda hökumət müəssisələri məmurlarının ittifaqı da təşkil olundu. Bakı Mart hadisələrində isə məzkur [adı çəkilən] ittifaqa iki dəfə böyük zərbə vurulduğu üçün bu günə qədər fəaliyyət edəmməyirdi. Bu halı nəzərə alıb ittifaqın əski işləyənlərindən bir neçəsi ittifaq idarəsi intixabı [seçkisi] və bu yavuqda [yaxında] artırılacaq maaşlar məsələsini həll etmək üçün fevral ayının 21-ində Hökumət Palatası zalında hər müəssisədən bir neçə nümayəndə iştirakı ilə bir iclas yapdılar.

İclasda 30 müəssisədən 95 nümayəndə hazır idi. Azərbaycan Cümhuriyyəsi Hökumətində bu qədər nümayəndə içində ancaq dörd nəfər müsəlman nümayəndə olduğu şayani-diqqət [diqqətəlayiq] idi.

Bir qədər ittifaqın keçmiş fəaliyyətindən və kassasında ancaq 60-70 manat pul qalması bəyan edildi. Sonra idarəyə 15 üzv və 7 nəfər də namizəd intixab edilir.

Müsəlmanlardan isə idarəyə ancaq bircə Camal Paşazadə Parlaman müəssisəsi tərəfindən namizəd daxil oldu.

**Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi**

Bununla elan edir ki, fevralın 24-ündə saat 9 tamamda Balaxanı mədən dairəsində Benkendorf küçəsində Qəni Əlimərdanzadənin mülkündə şöbə açılacaqdır. Ümum müsəlman fəhlə yoldaşlardan təvəqqe olunur vaxtın əhəmiyyətini nəzərə alıb həmin iclasa təşrif gətirsinlər.

**Bələdiyyə İdarəsində**

Ticarət və Sənaye İttifaqı haqqında alınan məlumata görə, Rılski Cəmiyyəti Ərzaq Nəzarətinə məlum etmişdir ki, Bakı üçün 600 min put buğda verə biləcəkdir. Fəqət bunun əvəzində Ukrayna və Lehistana [Polşaya] aparılmaq üçün həman buğda qiyməti miqdarında neft buraxılmalıdır.

**Yeni möhtəkirlər**

Hal-hazırda yeni ehtikar [möhtəkirlik] kəşf edilmişdir. Bir çox əşxas [şəxslər] kəndləri gəzərək cırıq və köhnə bonları (bon) ucuz qiymətə alıb banklarda hesabati-cariyyəyə yazdırırdılar. Banklar müdiriyyətləri bundan xəbərdar olub lazımi tədabir ittixazına şüru etmişdirsə də [tədbirlər görməyə başlamışsa da], yenə yeni möhtəkirlər öz işlərindən əl çəkmək istəməyirlər.

**Qafqaziya Müsəlman [Mütəəllim]lərinin Mərkəzi Komitəsindən**

Səşənbə [çərşənbə axşamı] günü fevralın 25-ində Birinci Realnı məktəbində axşam saat 6-da Qafqaziya Müsəlman Mütəəllimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsinin, martın 4-ündə Hökumət Teatrosunda teatro və müsamirə tərtib verici komitənin iclası olacaqdır. Həman gün saat 5-də isə Mərkəzi Komitənin iclası vaqe olacaqdır.





**Rus Milli Komitəsində**

Rus Milli Komitəsinin 21 şubat iclasında qət edilmişdir [qərara alınmışdır] 9 nəfərdən ibarət bir komisyon intixab edilsin [seçilsin] ki, komitənin gələcək fəaliyyəti layihəsi və nizamnaməsini tərtib versin. Komisyona 5 kadet, 3 ictimaiyyuni-inqilabiyyun [sosialist-inqilabçı] (?), bir nəfər də zəhmətkeş [Əmək partiyası üzvü] intixab edilmişdir.

## BƏYANİ-TƏŞƏKKÜR

Möhtərəm müdir əfəndi!

Qafqaziya Mütəəllimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsi nəfinə [xeyrinə] 2, 4, 5 və 12-ci ianə vərəqələri ilə ianə cəm edən Sürəyya xanım Vəzirov[a], Gövhər xanım Qazızadə, A. Pşeniçnoy və Dostu xanım Səfərov[a] cənablarına qəzetəmiz vasitəsilə məzkur [adı çəkilən] Komitə namından [adından] təşəkküratımızı izhar etməyə müsaidənizi rica edərim. 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10 və 13-üncü ianə vərəqələri Mart hadisələrində itdiyinə görə batil [etibarsız] hesab olunur.

*Komitə sədri: Həmid Məhəmmədzadə*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur.

Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Ərzaq Nəzarətindən**
**Elan**

Ərzaq Nəzarəti bununla Bakıdan Azərbaycan Cümhuriyyətinin sair şəhərlər və qəsəbələrinə biduni-icazə [icazəsiz] hər növ mal və yüklərin aparılmasına müsaidə edir. Yalnız qənd, pesok, çay, papiros, ispiçka, spirt, yağ, manufaktura, lobya, düyü, buğda və un məhsulu istisna edilir.

Gəncədən və Zaqatala quberniyasından taxıl çıxartmaq qadağan edilir.

Qeyd 1: Hər növ ərzaq şeylərinin və yüklərinin Bakıdan Bakı qradonaçalstvasındakı kəndlərə icazəsiz aparmağa müsaidə edilir.

Qeyd 2: Neft şeyləri, dəmir və bu cür şeylərin aparılması işlərinə Ticarət və Sənaye Nəzarəti baxır.

*Ərzaq naziri: K. Lizqar*
*Kançelyariya müdiri əvəzi: [Abbasəli bəy] Makinski*
*42*

**Bakı "Obşestvenni Sobraniya"**
**[İctimai Yığıncağı]**

Bu gün fevralın 23-ündə bazar günü Bakı "Obşestvenni sobraniya"sının iclasında təyin olunan namizədlərin siyahısı səsə qoyulacaq.

Təyin olunmuş namizədlərin cəmiyyətin məramnaməsinin 14-üncü maddəsinə binaən [əsasən] iclasa gəlmələri qadağandır.

*44*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***





## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 302. "qorucu": bu söz qəzetdə gah "qorucu", gah "qoruqçu" kimi getmişdir.

səh. 303. "misqal": 4,26

səh. 319. "Vaqon komitəsi": söhbət, dəmiryolunda vaqon paylayıcı komitədən gedir. Qəzetdə səhvən "Rayon komitəsi" yazılmışdır.

səh. 321. "Azərbaycanın cəmi məxarici ayda 600 milyondur.": belə başa düşülür ki, "ayda" yerinə "ildə" olmalıdır.

səh. 324. "...təcili qanunu təcil etsək": hər ikisi ərəb dilindən alınma söz olan "təcil" تعجيل (ikinci hərfi eyn) "tələsdirmək", تأجيل "təcil" (ikinci hərfi əlif) "təxirə salmaq" mənası verir.

"Fəqət mənə öylə gəlir ki, vaqe olan təkliflə...": söhbət Sosialistlərin təklifindən, yəni dəmiryolu tariflərinin artırılmamasından gedir.

**Vilsonun nitqi münasibətilə**

səh. 326. "Lənət sənə ey...": misralar türk şairi Əbdülhaq Hamid Tarhanın "Tezer" adlı əsərindəndir.

"Və ma həkəmtüm beynən-nas ən təhkümü bil-ədl": (ərəbcə) "İnsanlar arasında hökm edəndə ədalətlə hökm edin."

səh. 327. "Ümmid ilədir cahanda hər hal": Türk şairi Müəllim Nacinin "Quzu" şeirindən götürülmüşdür.

**Teleqraf xəbərləri**

səh. 328. "Vaşinqton Vəkillər Palatası": ABŞ Konqresinin aşağı palatası olan Nümayəndələr Palatası nəzərdə tutulur.

"Toma": Fransız sosialistlərindən, 1916-cı ildə Fransanın Silahlanma naziri təyin edilən Albert Tomas [Albert Thomas; 1878-1932] nəzərdə tutulur.

"Sidneydən göndərilən teleqrafda...": qəzetdə Sidney şəhərinin adı təhrif edilmişdir.

**Qəzetələrdən**

səh. 330. "məntəqeyi-mənafeyi": qəzetdə "münqəteyi-mənafeyi" getmişdir.

**Türkiyədə**

səh. 330. "Zəhmətkeş firqəsi": 1919-cu ildə İstanbulda qurulan Osmanlı Məsai Firqəsi nəzərdə tutulur.

"İbrahim bəy": Osmanlı Demokrat Firqəsinin qurucusu İbrahim Temo nəzərdə tutulur.

**Gözümüzü dörd açalım!**

səh. 332. "...oxuyub keçmək olmaz...": qəzetdə "...oxuyub keçməmək olmaz..." getmişdir.

"Əgər xüday nəbaşəd zebəndəgan xoşnud / Şəfaəte həmə peyğəmbəran nədarəd sud": (farsca) "Əgər Tanrı bəndələrdən xoşlanmasa / Bütün peyğəmbərlərin şəfaətinin xeyri yoxdur."

səh. 333. "zümreyi-layəfləhun və layəqilun": iflah olmayanlar (nicat tapmayanlar) və ağlını işlətməyənlər (dərk etməyənlər) zümrəsi. "Quran"da bir çox yerdə onlardan bəhs edilmişdir.

"İştə, biz o dedikləri qiyamətin siratil-müstəqimi üzərindən keçməkdəyiz.": "Doğru yol; həqiqətə aparan yol" mənasına gələn "siratülmüstəqim" ifadəsi "Quran"da dəfələrlə işlədilmişdir. "Sirat" isə dini etiqada görə, cəhənnəmin üzərində qurulacaq körpünün adıdır ki, günahkarlar bu körpüdən keçə bilməyərək cəhənnəmə vasil olacaqlar.

"əsfəli-safilin": aşağıların ən aşağısı; cəhənnəmin dibi, ən aşağı təbəqəsi.

"Çünki nameyi-ə'malımızı Miln həzrətləri sağ əlimizə vermişdir.": dini inanışa görə, "nameyi-ə'mal" insanların bu dünyadakı etiqadlarının və əməllərinin yazıldığı dəftərin adıdır (əməllər dəftəri). Hesab günündə

əməl dəftəri cənnətliklərin sağ əlinə, cəhənnəmliklərin sol əlinə veriləcəkdir.

**Bakı xəbərləri**

səh. 335. “kadet”: Kadet partiyası (Konstitusion-Demokratik Partiya) üzvü. Kadet partiyası XIX əsrin əvvəllərində Rusiyada fəaliyyət göstərmiş siyasi partiya olmuşdur. 1905-ci ildə qurulan partiya, 1917-ci ilin axırlarında bolşeviklər tərəfindən qadağan edildikdən sonra da bir müddət gizli olaraq öz fəaliyyətini davam etdirmiş, ağqvardiyaçılar hərəkatını müdafiə etmişdir.





**Bazar ertəsi, 24 fevral 1919-cu il, nömrə 121**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 23 cəmadiyələvvəl sənə 1337. 24 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**ELAN**

Səşənbə [çərşənbə axşamı] günü 1919 sənəsi fevral ayının 25-ində gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**11-inci iclas**

*(keçən nömrədən mabəd)*

**Sədr** - Bu barədə danışmaq istəyən varmı? Söz Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri [Xudadad bəy] Məlikaslanovundur.

**Məlikaslanov** - Əhməd [Cövdət] bəy həzrətləri dedilər ki, bu məsələ komisyonda müzakirə olunarkən nazir bizə lazımınca məlumat vermədi. Doğrudan da müfəssəl məlumat verilməmişdir. Səbəbi də budur ki, yanvar ayının mədaxil və məxaricinə baxılıb tamamilə təhqiq edilməmişdir. Bir də deyirlər ki, ölçü olmaq üzrə dekabr əvəzinə yanvar ayını götürməlidir. Amma mən deyirəm ki, dekabrı götürmək lazımdır. Doğrudur, ola bilər ki, burada bir qədər artıq-əskik olsun, fəqət böylə səhvlərin islahı pək asandır. Deyirlər ki, tarifə artsa, şeylərin qiyməti də bahalanacaq, bu da məxaricin artmasına bais olacaqdır. Hər halda bunu nəzərə almalıdır. Fəqət qiymətlərin artması haqqında bunu deyə bilərəm ki, məsələn, putu 120-150 manat olan taxılın kirayəsi bir manat artmaqla məzənnəsinə təfavüt edə bilməz. Qiymətlərin artması üçün başqa tədbirlər görmək lazımdır.

Bir də, Gürcüstan Hökuməti bu qanunun bir para yerlərini qəbul etmişdir. Onların məmurları bizimkilərdən iki qat az məvacib alırlar. Əlbəttə, görünür ki, işin yola getməsi üçün böylə güzəştlərdə bulunmalıdır. Maliyyat barəsində çox məlumat vermək olardı. Fəqət mən bunu qeyd etməliyəm ki, doğrudur, kağız pul kəsilir, bununla da pulun qiyməti azalır, mal bahalanır. Bunu danışmaq asandır, amma bunu da nəzərdə tutmalıdır ki, məmləkətin əhvali-maliyyəsi [maliyyə vəziyəti] pək ağırdır. Bizim ümidimiz tək neftdir ki, bunu da hal-hazırda lazım olan qədər ixrac edə bilməyiriz. Rusiya yolları bağlıdır. Nefti ancaq Batum tərəfə göndərə bilirdik. O da bu axır vaxtlarda Soçi tərəfdə olan hadisələrdən dolayı ümidi-

mizi azaltdı. Biz mümkün olana qədər mədaxilimizin artmasına çalışmalıyız. Bu tarifələrin bahalığa o qədər təsiri ola bilməz. Ona görə mən təklif edərdim, hər gün 70-80 min manat zərərə razı olmayıb bu layihəni təsdiq edəsiniz. Hərgah tamamilə təsdiq etməli olmasanız, təvəqqe edərdim laməhalə [heç olmazsa] Gürcüstan Hökuməti qəbul etdiyi maddələrə baxıb, siz də təsdiq edəydiniz. Çünki məzkur [deyilən] maddələr Gürcüstanda fevralın 1-indən etibarən tətbiq olunurlar. Mən yenə təkrar təvəqqe edirəm layihənin tamamilə qəbulu mümkün olmasa da, barı böyük və kiçik sürətli yüklər və sairlərin sabiq qiymətə nisbətlə iki qat artırılması haqqındakı maddəni qəbul edəsiniz, qalanları isə hələlik qəbul etməyərək yenidən baxılmaq üçün fraksiyalara verə bilərsiniz.

**Sədr** - Bu barədə daha söz istəyən yoxmu? Yox isə son söz məruzəçinindir.

**Rzayev** - Mən də onun tərəfdarıyam ki, layihə qabaqca mətbu [çap edilmiş] surətdə fraksiyalara göndərilsin. Fəqət, ayda 8 milyondan dəmiryolu iki ayda 16 milyon manat zərər etmişdir. Ona görə təklif edirəm bu layihəni bu dəfəlik qəbul edəsiniz. Bundan sonrakı layihələri qabaqca fraksiyalarda baxıb sonra ümumi iclasda müzakirəyə qoyarıq. Burada Əhməd [Cövdət] bəy dedi ki, Gürcüstan dəmiryolları tarifəsinin artırılması layihəsini Gürcü Parlamanı qəbul etməmişdir. Amma nazir həzrətləri buyurdular ki, bəzi maddələri gürcülər qəbul etmişlərdir. Bir də nazir buyurdu ki, hökumət təklifi ilə komissiyanın rəyi arasında o qədər təfavüt yoxdur. Məbuslardan da Əbilov cənabları buyurdular ki, tarifənin artması ilə mallar bahalanacaqdır. Amma məncə putu 160 manat olan şeyin kirayəsinin bir manat artması onun qiymətinə təfavüt edəmməz. Bir də bir şey fikrimdən çıxdı, bunu deməliyəm ki, sərnişin biletlərinin artması kasıblara təfavüt etməz. Çünki füqəranın halı nəzərə alınaraq kasıblar üçün dördüncü klas vaqonu buraxılacaqdır. Bunun da qiyməti üçüncü klas biletinin əvvəlki qiymətindən də ucuz olacaqdır. Bu tarifələri qəbul etsək, yenə ayda 4-5 milyon manat zərərimiz olacaqdır. Ona görə mən yenə təklif edirəm layihəni təxirə salmayıb tamamilə qəbul edəsiniz.

**Sədr** - Layihəni dinlədiniz. Müəyyən etiraz və müəyyən təklif olunmadı. Ancaq Türüq və Məabir naziri təklif etdi ki, layihəni[n] tamamilə də olmasa, Gürcüstanda qəbula keçmiş qismi təsdiq edilsin. Büdcə-Maliyyə Komissiyası isə layihənin tamamilə qəbulunu təklif edir.

**Səslər** - *(Soldan)* Komissiyanın sədri deyir.

**Sədr** - Burada məruzəçi komissiya tərəfindən danışdığına görə, təklifini də komissiya adından səsə qoyacağam. Ola bilər ki, komissiyada əzadan [üzvlərdən] bəzisi səs verməmişdir. Fəqət əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunduğundan, yenə komissiya adından olur. Komisyonun təklifi əsaslı olduğundan mən əvvəlcə onu səsə qoyuram. Əbilov! Bu barədə? Buyurun.

**Əbilov** - Biz müəyyən bir təklif etdik ki, qanun layihəsi fraksiyalara verilsin. Bu təklif üzərində israr edib dururuz.

**Sədr** - Şıxəlibəyov, buyurun!

**Şıxəlibəyov** - Bizim fraksiyadan da təklif olundu ki, layihə fraksiyalara verilsin. Və bu təklif birinci olduğu üçün qabaqca onu səsə qoymaq lazımdır.

**Sədr** - Təklif olundu ki, ələlümum layihələr fraksiyalara verilsinlər. Bu təklifin bugünkü layihəyə dəxi şamil olduğunu mən bilmədim. Öylə isə mən səsə qoyuram. Əgər bu qəbul olunmazsa, onda məruzəçinin təklifini səsə qoyaram. İndi hər kəs təqdim və müzakirə olunmuş layihənin növbədən götürülərək fraksiyalara köçürülməsi tərəfdardır, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır.)* Deməli, əksəriyyətlə qəbul olunur. Söz hökumət üzvü [Xudadad bəy] Məlikaslanovundur.

**Məlikaslanov** - Mən onu demək istəyirəm ki, bu barədə gündə bizə çox zərər dəyir. Ona görə təvəqqe edərdim fraksiyalarda məsələyə tez baxılsın. Mən beş gün möhlət təklif edirəm. *(Səs: Yaxşı, yaxşı.)*

**M. Ə. Rəsulzadə** *(yerindən)* - Ondan da tez baxarıx.

**Sədr** - Beş gün tezdir. Süni [praktik] cəhətdən beş gün mümkün olmayacaqdır. Çünki ruscası makina ilə tez yazılır. Amma türkcəsi əl ilə yazıldığından tez mümkün deyildir. *(Səslər: Ruscasını göndərin.)*

**Sədr** - 5 dəqiqə tənəffüs elan etmək istəyirəm. Fəqət tənəffüsdən qabaq növbədən xaric söz verilir Məhəmməd Əmin Rəsulzadəyə.

**Rəsulzadə Məhəmməd Əmin** - Növbədən xaric olaraq söz almağımın səbəbi bu gün əcnəbi dövlətlər nümayəndələrinə məxsus olan lojada möhtərəm müsafirimiz olan Şərif əfəndi oturduğudur. *(Lojaya mütəvəccihən [loja istiqamətində] şiddətli alqış)*

Mumaileyh [həmin şəxs] böyük türk elinin evlərindən birini təşkil edən Başqırdıstan Hökumətinin nümayəndəsidir. Başqırdıstan sözü ehtimal ki, bir çoxlarımızdan ötrü bir proqram məsələsidir. *(Alqış)*

"Müsavat" Rusiyada yaşayan bütün türk qövmlərinə muxtariyyət tələb edən bir firqədir. Proqramlarında Azərbaycan, Türküstan, Qırğızıstan qövmlərinə muxtariyyət tələb etdiyi kimi, eyni zamanda Başqırdıstan Hökumətinin də muxtariyyətini elan etmişdir. İştə bu gün Yevropa Sülh Konfransına iştirak etmək üzrə müstəqil Azərbaycan paytaxtında müsafir sifəti ilə bulunan Başqırdıstan nümayəndəsini görməyi böyük şərəf hesab ediriz. Və zənn edərsəm, muxtariyyət əsasını qəbul etmiş olan digər firqələrimizdən ötrü də burası ümumi bir məsələdir. Binaənileyh [ona görə], yaşasın Başqırdıstan Hökuməti və Başqırd türk milləti! Bu gün onların nümayəndəsini alqışlamaqla müftəxir oluruz [iftixar edirik]. Eyni zamanda millətlərin hürriyyətləri təmin edilmək surətilə Cəmiyyəti-Əqvamda [Millətlər Cəmiyyətində] türk qövmlərinin bir mövqe tutacağına qane olmaqla bir daha təbrik və təkrar-təkrar alqışlayırız. *(Hər tərəfdən lojaya mütəvəccihən gurultulu alqış)*

**Sədr** - Şimdi 5 dəqiqə tənəffüs elan edilir.

*(Tənəffüsdən sonra)*

**Sədr** - İclasa davam ediriz. Növbədən xaric olaraq söz Rəisi-vükəla [Baş nazir] həzrətlərinə verilir.

**Son hadisələr haqqında**

**Xan Xoyski** - Möhtərəm məbuslar! Hökumət özünü borclu bilir bu axır günlərdə Parlaman və camaat arasında həyəcanla danışılan işlər haqqında sizə bir qədər məlumat versin. O da bu barədə-

dir ki, axırıncı günlər Bakıda bəzi əhvalat vaqe olmuşdur ki, camaatı qorxu və təşvişə salmışdır. General Prjevalski özünə Könüllü ordu komandanı adı verib Bakıda olan məşhur Hamazasp ilə guya könüllü əsgər toplayırlar. General Prjevalski sabiq Rusiya əsgərlərinə, Hamazasp da ermənilərə silah verirlər. Bunlar İçəri şəhərdəki və Təzəpir yanındakı qışlaları [kazarmaları], Salyan kazarmasını tutublar. Bu əhvalat əhalini təşvişə salmışdır. Hökumət bunu əvvəl gündən bilib, bu əhvalatı təhqiq etmək və bunların kim və mənzurlarının [məqsədlərinin] nə olduğunu kəşf etməyə çalışmışdır. Hökumət tədbir görənə qədər mən bu əhvalatı ingilis komandanlığına da bildirməyi lazım gördüm. Çünki neçə vaxtdır Müttəfiqlər komandanlığı buradadır. Mən istədim böylə mühüm əhvalat onların xəbəri ilə olsun. Ona görə öz tərəfimdən bu əhvalat barəsində general Tomsona bir məktub yazdım və öz nöqteyi-nəzərimi bildirdim. Cavab da gəldi. Mən məktubu Tomsona rusca yazmışdım, izin verin rusca oxuyum.

**Səslər** – Buyurun, buyurun!

**Fətəli xan** - Məktubun məzmunu bu idi:

*“Bakıda Müttəfiqlər qüvvələri komandanı Tomson həzrətlərinə! Hökumətin binagüzarlığında [sərəncamında] bulunan məlumata görə, son günlər burada, Bakıda, dövlət mənafeyi və hökumət heysiyyəti nöqteyi-nəzərindən qeyri-məqbul hadisələr vaqe olur. Könüllü ordu nümayəndələri general Prjevalski və general Erdeli Bakıda və ətrafında qoşun yığıb silah paylayırlar, məşq verirlər. Bir kəlmə, ciddi surətdə qoşun hazırlanır. Digər tərəfdən erməni fəalları və əzancümlə [o cümlədən] bütün sabiq fəaliyyəti Azərbaycanın müsəlman əhalisi ilə mübarizə və talandan ibarət olan Hamazasp, həmçinin silah daşımağa qadir olan ermənilərin siyahısını tutub toplayır, silah verir və qoşun qitəatı [hissələri] təşkil edir. Qarışıq erməni-rus qitəatı Duma meydanından İçəri şəhərə gedən qapının ağzında tamamilə müsəlmanlarla məskun olan yerdə bir qışlanı işğal etmişlərdir. Bakı şəhəri müsəlman əhalisi arasında nəhayət dərəcədə həyəcan var. Burası haqlı olaraq camaat və Parlaman tərəfindən hökuməti məzəmmətə və narazılığa bais olur ki, öz paytaxtımızda nəinki dövlətin hüququnu xələldar edən, hətta dövlətin, onun əsasını təşkil edən müsəlman əhalisinin varlığı əleyhinə olan bu cür işlərə imkan verir. Əminəm ki, böylə işlərin hökumətcə qeyri-qabili-təhəmmül [dözülməz] olduğuna zati-aliləriniz də mənimlə iştirak edərsiniz. Heç bir dövlətdə və məmləkətdə böylə şey yoxdur ki, dövlətin və hökumətin bədxahı və onlara yabançı olan təşkilat məmləkətin paytaxtında hökumətin gözü qabağında bunca azad binagüzarlıq edib [fəaliyyət göstərib], açıqdan-açığa müsəlləh [silahlı] qüvvələr təşkil etsinlər, hansı ki, dövlətin əsası əleyhinə sövq edilə bilər.*

*Fövqəlzikr [yuxarıda söylənən] mülahizələrlə hökumət namından [adından] zati-alilərinizə müraciət edərək bilatəxir [dərhal] müxtəlif könüllü və erməni qoşunu yığılıb təşkil olunmasına xitam verilməsində və hər dürlü [hər cür] könüllü təşkilatı və Hamazasp ilə yoldaşlarının Azərbaycandan çıxarılmasına müzahirətdə bulunmanızı [kömək etmənizi] israrla təvəqqe edirəm. Hökumət əmindir ki, zati-aliləriniz bu mülahizələrin haqlı olduğunu etirafla [qəbul edərək], təcili surətdə lazımi tədbirlər görərsiniz. Vəilla [yoxsa] hökumət məcbur olacaqdır bu kimi qeyri-təbii və nəhayət dərəcə təhlükəli işlərə xitam çəkmək üçün ixtiyarında olan var qüvvəni işlətsin. Zati-alilərinizə qarşı ehtiramımın qəbulunu rica edirəm.*

*Baş vəzir: F. Xoyski.”*

Bu kağızı mən Tomsona fevralın 15-ində yazmışdım. Sabahı cavab gəldi. Mən özüm də Parlaman sədri cənabı ilə bir yerdə general Tomson ilə görüşdüm. Məktubunun məzmununu bizə dil cavabı da bəyan etdi. Cavab budur: *(Oxuyur)*

*"Alişan [şanı uca], Azərbaycan Baş vəzirinə. Dünkü 32 nömrəli məktubunuzu aldım. Mənim müəyyən məlumatım var ki, rus qoşunu səfərbərliyi icra edilməyir. Ola bilər ki, general Denikin qoşununda xidmət etmək üçün zabitlər yazılması əsgər təcəmmösü [yığılması] təsiri bağışlamışdır. Bu zabitlər dərhal Bakıdan gedirlər və bilmərrə [qətiyyən] əsgəri məşq verilməyir və silah paylanmayır.*

*Hamazaspın fəaliyyəti sabiq Rusiya qoşunundakı erməni əsgərlərinin siyahısını tutub yaxın zamanda Ermənistana göndərmək məqsədi ilə məhdud bir işdir. Bunlar heç vəchlə təslih və təşkil edilməyəcəklərdir [silahlandırılmayacak və təşkilatlandırılmayacaqlar].*

*Mən sizin xahişinizə görə, məktubunuzda göstərilən hər dürlü qeyri-məmul [arzuolunmaz] hadisənin önü alınması üçün iqdamatda bulunmuşam [addımlar atmışam].*

*Sizə səmimi ehtiramı olan Tomson.*
*Bakı, 16 fevral 1919.”*

Kağızdan əlavə Tomson dil cavabı da dedi ki, heç vaxt razı olmaz ki, bizi tanımayan təşkilatlar özbaşlarına əsgər yığsınlar. Bu mümkün deyildir. Mən də sizin fikrinizə şərikəm. Onlar qəti surətdə buradan çıxıb getməlidirlər. Mən cavabında dedim ki, hər nə ki mümkündür edib var qüvvəmizlə qoymayacağız böylə şeylər Bakıda olsun. Guya Könüllü ordunun fikri var ki, onlar nizami əsgər sifəti ilə deyil, xidmətçi sifəti ilə Bakıda 200 nəfərlik bir dəstə saxlasınlar. Hökumət bunu müzakirə edib mümkün olmayacağını təhtiqərara almışdır. Təzədən bir də qəti surətdə məlum etmişəm ki, bundan sonra heç kəs bizdən izinsiz bir şey etməsin və Bakıda nə qədər qüvvə varsa, tamamilə buradan çıxarılsınlar. Ümidvaram ki, ingilis komandanı da bizə köməkdir. O ki, qaldı İçəri şəhərdə və Təzəpir yanındakı evlər: söz vermişlər oradan da bu gün, ya sabah çıxacaqlardır. Salyan kazarması məsələsinə gəldikdə, general Prjevalski özü mənim yanıma gəlib oranı boşaltmaq üçün 5 gün möhlət istədi. Mən dedim ki, 5 gündən artıq möhlət verə bilmərəm. Çünki ora bizim öz əsgərlərimiz üçündür. Ümidvaram ki, qoşunlarımız bu yaxında Bakıya gələr, onda camaatın əhvalı başqa cür olar. Mən bununla demək istəməyirəm ki, başınızın altına yastıq qoyasanız. Bizim üçün hər bir dəqiqə qorxu ola bilər. Mən əvvəlcə də demişəm ki, Hökumət və Parlaman bir dəqiqə mürgüləsə də fəna işlər olar. Hökumətin nə qədər imkanı var çalışır ki, xəta yetirən təşkilatlar buradan rədd olsunlar və heç kəsin ixtiyarı olmasın bizdən izinsiz burada öz başına işlər görsün. Hökumət bu barədə tədbirlər görür və görəcəkdir. İnşal-

lah, bu günlərdə əsgərlərimiz gələr, əhali də rahat olar.

Hamazaspın əsgər yığması məsələsinə gəldikdə, aldığımız məlumata görə əhvalat böylə imiş: Hamazasp köhnə rus qoşununda olub da qalmış və vətənlərinə getmək istəyən erməni əsgərlərini siyahı edirmiş. Biz buna mane deyiliz. Hər kəs istəsə, vətənə gedə bilər. Bu barədə mümaniət [maneçilik] ola bilməz. Amma Hamazaspın özünün burada qalması dürüst deyildir. Bu barədə Tomsona yazdığım məktubda qeyd etmişdim ki, Hamazasp buradan çıxıb getsin.

**Səslər** *(Mərkəzdən)* - Qarabağamı?

**Xoyski** - Mən sizə bu məlumatı vermək istəyirdim. *(Ümumi alqış)*

*(yenə var)*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Bolşevik acentəliyindən)*

* Londondan xəbər verirlər ki, "Deyli xronikl" qəzetəsinin yazdığına görə, Türkiyə Hökuməti İstanbulu tərk etmişdir. Müttəfiqlər öz əsgərlərini İstanbula çıxarmışlardır. Şəhərin idarəsi Müttəfiq dövlət kontrolları altında olacaqdır.

* Fevralın 12-sində Varşavadan xəbər verirlər ki, bu gün Belostokda Polşa komissarı ilə məhəlli [yerli] alman məmurları arasında Belostokun polyaklara verilməsi haqqında müqavilənamə əqd edilmişdir [imzalanmışdır]. Varşavada Seymin iclası başlanmışdır. Xəbər verilir ki, Polşa ordusu Brest-Litovsku işğal etmişdir.

* Zürixdən xəbər verirlər ki, Müttəfiqlər təzə mütarikə şəraitinə [atəşkəs şərtlərinə] Almaniya ordusunun 30 firqəyə [diviziyaya] qədər ixtisar edildiyi və bütün topxananın təslimi tələbatını daxil etmişlərdir.

**Klemansonun yaralanması ətrafında**

* Lion - 19 fevral. Bu gün Fransa Baş naziri Klemansoya sui-qəsd edilmişdir. Bir neçə güllə ilə Klemanso yaralanmışdır. Sui-qəsdçi tövqif [həbs] edilmişdir. Onun familiyası Kottindir.

* Amerika Xariciyyə naziri Lansinq bu gün səhər Klemansonun yanına gəlib Amerika milləti namından [adından] Klemansoya yaralanmağı münasibəti ilə həkəza [eləcə də] Sülh Konfransında olan Amerika nümayəndələri namından bəyani-təəssüf eyləmişdir.

* Tiflis - 21 fevral. Klemanso canına olan sui-qəsd Fransa Palatasında böyük həyəcana səbəb olmuşdur. Palatanın sədri böyük bir hüzün və ələm içində Fransa namından Klemansoya Palatanın arzusunu bəyanla demişdir ki, bütün vətən tezliklə Fransa Hökumətinin görkəmli başçısı canına edilən sui-qəsdin ağırlığını hiss edər. Klemanso səhhətinin xətrəli [təhlükəli] olmadığını bildikdə millətin həyəcanı da əskilər. Biz Palata namından Klemansoya bəyan ediriz ki, Palata tezliklə onun səhhətyab olub [sağalıb] da, yenə iş başına keçməsini arzu edir. Sosialist firqəsinə mənsub olan Renodel demişdir ki, o da Palatanın arzusuna şərik olur. Hərçənd, biz burada Klemanso siyasətinin düşməniyiz amma bununla bərabər deyiriz ki, biz də Klemansonun tezliklə sağalmasını istəyiriz.





**Vilson nitqinin Almaniyaya təsiri**

Tiflis - (Almaniya mətbuatı). Vilson nitqinin Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] aid olan cümləleri Almaniyada artıq dərəcə sui-təsir bağışlamışdır. Almaniya mətbuatı bu məsələni müzakirə edərkən, bunu Vilsonun öz məramnaməsindən vaz keçməsi kimi tələqqi edirlər [qiymətləndirirlər]. Vilson tərəfindən Almaniyanın müstəmləkələrə olan hüququnun inkar edilməsi ağır və nagəhani [gözlənilməz] bir əmrdir [işdir]. Halbuki, bu vaxta qədər bu cür rəy və mülahizələr ingilis dövlət ricalı [adamları] tərəfindən meydana atılırdı. Tərksilah məsələsi haqqında Almaniya tənqidatı Vilson tərəfindən 1918-ci il payız fəslindəki vəziyyəti-coğrafiyyənin nəzərdə tutulmasına böyük diqqət və əhəmiyyət verir. Hətta, Lloyd Corc Almaniya mövqeyi-coğrafisindən dolayı Fransa ilə Rusiya arasında qayət güclü bir qüvvə saxlamasını lazım görür. İki axırıncı qərinələrdə Almaniya əlddəvam [davamlı surətdə] Fransanın təcavüzatına məruz qalmışdır. İndiki müharibə qurtardıqdan sonra Rusiya və Fransa tərəfindən Almaniya üçün təhdid mövcuddur. Halbuki, Fransa üçün Almaniya təhdidi keçmiş bir işdir.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransının iclası**

Sülh Konfransının pəncşənbə [cümə axşamı] gününə təyin edilmiş olan iclası cüməyə təxir edilmişdir. Fransa nümayəndələri Pişon və Tardyö olacaqdır. Məclisə Amerika nümayəndəsi Lansinq sədarət edəcəkdir. İclasda bu məsələlər müzakirə ediləcəklərdir:

1) Transilvaniyada işğal edilməyəcək olan məntəqə haqqında;

2) Lehistan [Polşa] məsələsi;

3) Albaniya mürəxxəsləri [nümayəndələri] sədri Turxan paşanın məruzəsi;

4) Ərzaq Komissiyası hesabatı, bitərəf məmləkətlərdə ticarət siyasəti, Müttəfiqlərin münasibati-iqtisadiyyəsi [iqtisadi əlaqələri].

Tiflis - (Fransa mətbuatı yazır) Bunu qeyd etməli ki, mütarikənin təcdidi [atəşkəsin yenilənməsi] müvəqqətidir. Bu müvəqqəti təcdiddən sonra qəti etilaf [razılaşma] olmalıdır. Bu da qəti sülh bağlananadək gücdə qalacaqdır. Almaniyaya silah altında 250 min qoşun saxlamağa müsaidə veriləcəkdir. Almanların kəndisinə verilən mühimmati-hərbiyyədən [hərbi ləvazimatdan] başqa və hərbi zavodlar Müttəfiqlərin kontrolluğu altında olacaqdır. Qəti surətdə mütarikə şəraitini təcdidə müvəzzəf edilən [atəşkəs şərtlərini yeniləmək vəzifəsi tapşırılan] səkkiz nəfərdən ibarət komissiya öz işini qurtarmışdır. Bu yaxınlarda böyük dövlətlərin səvabdidinə mühəvvəl ediləcəkdir [təsdiqinə veriləcəkdir].

Tiflis - (Almaniya mətbuatı) Polyaklar mütarikə şəraitini xələldar etdiklərindən Almaniya mətbuatı qəti surətdə tələb edir ki, Müttəfiqlər mütarikədə göstərildiyi vəchlə polyakları Almaniya sərhədini keçməyə qoymasınlar.

**Şeydemanın rəyi**

Tiflis - (Almaniya mətbuatı) Almaniya Milli Məclisində dünən müzakirat davam

etdikdə Şeydeman demişdir: Mənim üçün də fürsət gəlmişdir ki, düşmənlərin ağır tələblərinə "yox" cavabı verim.

* Polyak siyasilərindən birisi istatistik hesabına istinadən deyir ki, bu müharibə zamanında Polşa dövlətinə və xüsusi şəxslərə 25 milyard zərər dəymişdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Daxiliyyə naziri həzrətlərinin Bakı Bələdiyyə İdarəsinin mənzil vergisi vaxtını uzatmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Bələdiyyə İdarəsinin təşəbbüsatını rədd etmək.

* Rəisi-vükəla [Baş nazir] həzrətlərinin Nəzarətlərdəki [Nazirliklərdəki] yuris-konsullarına [hüquq məsləhətçilərinə] dair məruzəsindən sonra qət edilmişdir:

Bir nəfər yuris-konsul iki Nəzarətdən artıq öz öhdəsinə götürə bilməz. İşbu məlumatı bütün Nəzarətlərə göndərib məlum etməli.

* Səhhəti-Ümumiyyə Nəzarətinin [Səhiyyə Nazirliyinin] Mart hadisatında xəsarətdidə olan yetim çocuqları təmin etmək barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Səhhəti-Ümumiyyə Nəzarətinə tapşırılsın ki, öz nəzəriyyatını bu barədə Hökumətə təqdim etsin.

* Daxiliyyə naziri həzrətlərinin Bakı Bələdiyyəsinə bir milyon pul buraxmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Bələdiyyə İdarəsinə 20 milyon fonddan həman məbləğ verilsin. Fəqət işbu məbləğ Parlaman tərəfindən təsdiq edildikdən sonra veriləcəkdir.

## ƏRZAQ NƏZARƏTİNDƏ [ƏRZAQ NAZİRLİYİNDƏ]

Fevralın 14-də Ərzaq Nəzarəti şöbələrinin müdirləri Ərzaq nazirinə böylə bir ərizə vermişlərdir:

*"Siz Ərzaq naziri olanda biz aşağıda imza edənlər var qüvvəmizlə çalışırdıq ki, Nəzarətin fəaliyyəti məhsuldar olub, ictimaiyyət və camaatı birinci zəruri şeylərdən həqiqətən təmin yolu ilə getsin. Fəqət hər gün arzu və məqsədlərimizi kökündən puç edən şeylərə rast gəliriz. Son günlər vaqe olan əmrlər [baş verən işlər] isə bizi qəti surətdə inandırdı ki, bizim səyimizə nəinki siz müzahirət [kömək] etməyirsiniz, hətta bundan sonra Nəzarətdə işləmək vəzifəsi bizim üçün qeyri-mümkün olur. Ona görə sizdən acizanə təvəqqe ediriz bizim istefamızı qəbul ilə ən yaxın zamanda işləri və Nəzarətdəki vəzifəmizi təhvil götürmək üçün adamlar təyin edəsiniz."*

İmza edənlər: Maliyyə şöbəsi müdiri Matseyevski, Ümumi şöbə müdiri Popov, Təqsim [Bölgü] şöbəsi müdiri Banoviç, Təqsim şöbəsi müavini-müdiri Dobrovolskaya, Kontrol-dəsturüləməl [nizamnamə] şöbəsi müdiri Ketsxeveli, Ümum anbarlar müdiri Naşatir, Ərzaq naziri vəkili Smirnov, vəkili-müavini Lyubimov, Xırıd [satış] şöbəsi müdiri Çurikov və hesabdar Vasilyev.

Görürsünüz, qarelər [oxucular], bu həzərat "var qüvvələri ilə çalışmışlar..." indi də istefa "verirlər". (?) Çünki nazirin "hərəkəti onların çalışmasını qeyri-mümkün" edirmiş. (?)

Bunlar kimlərdir və nə üçün "istefa" verirlər? Ən mövsuq [mötəbər] mənbədən aldığımız məlumat əsası ilə bu suallara cavab verəlim:

Bunlar sabiq Bələdiyyə İdarəsi Ərzaq şöbəsinin baş xidmətçiləridir ki, məzkur [deyilən] şöbə Nəzarətin ixtiyarına keçdikdə bunlar da Nəzarət xidmətinə keçmişlərdi. Hətta Smirnov öylə bir mövqe tutmuşdur ki, nazir müvəkkili təyin edilməklə bərabər, qanunun birinci qisim, beşinci kitabının hökmünə görə bütün Nəzarət Maliyyə şöbəsi ilə bərabər, nazir dəftərxanası [dəftərxana] direktorunun əlinin altında olduğu halda, nazirin 14 yanvar tarixli bir əmri ilə bu ixtiyarlar direktordan alınıb həman Smirnova verilmişdi. Görürsünüz ki, nazirin hərəkəti bunlara mane olmamışdır. Bəs [deməli], səbəbləri başqa yerdədir. İş daha aydın olmaq üçün bir az uzaqdan başlayalım.

Lizqar nazir olandan bir az sonra bütün Nəzarət baş qulluqçularının ümumi bir iclası vaqe olaraq, qət edilmişdi ki, bundan sonra Nəzarətə gələn və oradan gedən kağızların həpsi direktorun nəzərindən keçsin. Bu qərardadı nazir də təsdiq etmişdir. Fəqət "ərzaqçı" ağalar bu qərardaddan narazı qalır və buna əməl etmək istəməyirlər. Özbaşlarına işi keçirməkdə davam edirlər. Neçə müddət aradan keçir. Aydın görünür ki, bir dəstə baş qulluqçu "ittifaq" düzəldib öz keyifləri istədiyi kimi işləyirlər. Bir çox işlər direktordan bixəbər olur. Xidmətçiyə bir söz dedikdə "Mən Smirnova tabeyəm, özgə adam tanımıram" deyə cavab verir. Məsələn, ən mühüm olan Təqsimat şöbəsində müdir "dərə xəlvət" eyləyir. Külli miqdarlı şeylər nazirdən, direktordan bixəbər Smirnovun "əmri ilə" buraxılır. Xırda-para şeylər isə müdirin öz keyfindən asılıdır. Bu şöbənin də müdiri həman Banoviçdir.

Bunların hərəkətlərindən bəzi şeylər göstərəlim. Sklad [anbar] müdiri gedib neçə min kisə alır. Biri 18 manatdan yuxarı. (!) Bu nədir?

Bir də bir vaxt Nəzarətdə xidmətçilərə manufaktura verilirdi. Bəziləri almamışlardır. Gəlib direktordan və nazirdən istəyirlər. Onlar razı olmayırlar. Sabah məlum olur ki, manufakturanı almışlardır. Nasıl olmuşdur? Pək asan: Smirnov kağız vermiş, sklad müdiri də buraxmışdır. Daha böyük bir iş. Ərzaq Nəzarəti tərəfindən əqd edilib də bütün qəzetələrdə, camaat dairələrində gurultunu mövcib olan [gurultu yaradan] müqavilənamə məsələsində də bu ağalar "çalışmamış" deyilmişlərdir.

Maliyyə şöbəsi də "bonsuz" qalmamışdır. Məsələn, kassadan 19 min manat əskikdir. Bunun 10 min manatı sabiq məmur vaxtında "yox" olmuşdur. "Bu işi" Smirnov açmayırmış. Fəqət sonradan açılıb müddəiyi-ümumiyə [prokurora] verilmişdir. Yerdə qalan 9 min manatı da yeni məmur vaxtında "qeyb" olmuşdur. Fəqət işin üstü açılmaqla bərabər, hələ bu vaxtadək nə pul yerinə qayıtmışdır, nə də müqəssir məhkəməyə verilmişdir. Əlbəttə bu işlər açıldıqdan sonra nazir artıq bu ağalara "müzahirət" [kömək] edə bilməyərək fevralın 13-ündə iki əmr verir. Əvvəla, bundan sonra kassa və Maliyyə şö-

bəsi tamamilə direktorun ixtiyarına tapşırılsın və 2[ncisi] – bundan böylə Nəzarətə daxil və oradan xaric olan ümum kağızlar direktorun nəzərindən keçsin.

Zahirən burada təzə bir şey yoxdur. Direktorun əlindən alınmış hüququ özünə qaytarılır. Həqiqəti-hal isə böylə deyildir. Doğrudur, direktor özü yükünün yüngülləşməsi üçün riza vermişdisə də, lakin bu məsələ [Abbasəli bəy] Makinski cənablarının hüququnu pozmaq və Smirnova həddən ziyadə iltifat idi.

Şimdi açıldı ki, Smirnov və kompaniyası böylə etibara layiq deyildilər. Odur ki, nazirin ikinci əmrləri Smirnova ədəmi-etimad [etimadsızlıq] idi. Həm özü də böylə yaxşıca anlamışdır. Ona görədir ki, ədəmi-etimad izharını [etimadsızlıq göstərilməsini] özünə eyib hesab edərək nazirin yanına gedib təvəqqe edir ki, əmr verməsin. O özü ayın 15-ində istefa verər.

Digər tərəfdən anbarlar müdiri Banoviçə əmr olunur ki, bundan böylə Makinskinin hökmü olmasa bir şey buraxmasın. O da narazılıq edir: Yox, böylə ola bilməz; əgər mənə inanmayırsanız, mən qulluqdan çıxaram.

Təəccüb! Əgər bu ağalar düz-doğru adam isələr nə üçün Smirnovun "kontroluna" razı olurlar amma Makinskiyə yox? Çünki aşağıda görəcəksiniz. Bunlar özləri də boyunlarına aldıqları üzrə həman ağalar Nəzarətdə özlərini "bir ailə" hesab edirmişlər ki, bu ailə əzası [üzvləri] öz arasında hər şey edə bilərmiş. Lakin başqaları onlara göz yetirməməli imiş!

Əvət, bu əhvalatdan sonra "əngələ" düşmüş həzərat nazirin və direktorun xəbəri olmadan və sair qulluqçu yoldaşlarına bildirmədən fevralın 14-də bir iclas quraraq həman başda yazdığım məktub məzmununda bir ərizə yazıb istefa verməyi təhti-qərara alırlar.

Smirnov və Banoviçlərin məsələyə nə nəzərlə baxdıqlarını bilməyirəm. Ancaq məncə onların bu hərəkəti qanunu pozmaqdır. Çünki, qanuna görə, qulluqçular dəstə ilə istefa vermək ixtiyarına malik deyildirlər.

Keçəlim mətləbə. Maliyyə naziri bu işləri təhqiq etməyi baş müvəkkil Şuljenkoya həvalə etmişdir. Fəqət yenə ixtilafı bir növ mülayimətlə keçirmək istəmişlərdir. Lakin "səy edən" həriflər işin artıq keçmiş olduğunu hiss edirlər. Məsələn, yuris-konsult [hüquq məsləhətçisi] ilə müvəkkil Yusifəli Əliyev bunlara müraciətlə həman yazdıqları məktubu göstərərək deyirlər ki, burada biz də sizinlə bərabər xidmət ediriz. Bir iş varsa hamımız bilməliyiz. Məktubda ki, yazırsınız "...bu şərait altında...". Bizə deyin görək o hangi şəraitdir? Bəlkə öylə şeylər var ki, biz dəxi Nəzarət qulluğunda qala bilməriz və siz gedəndən sonra burası bizim üçün ləkə olar ki, siz qəbul edə bilmədiyiniz şəraiti biz qəbul ediriz və xidmətdə baqi qalırız. Bu bizə eyib gətirər bəlkə. Bunun cavabında demişlər ki, biz bu işi aça bilməriz. Bu bizim "ailəvi" işimizdir. Bu barədə məlumat almaq istəsəniz Matseyevskiyə müraciət ediniz.

Əlbəttə ki, Maliyyə şöbəsi müdiri Matseyevski dəxi bunlara öylə tutalqalı bir cavab verə bilməmişdir. Xülasə, bu tərəf ixtilafı məhrəmanə bir surətdə həll etmək istəmişsə də, müvəffəq olmamışdır. Nəhayət, həman ərizə verənlərin istefası qəbul edilmiş və hələlik Smirnovun vəzifəsi olan nazir müvəkkili vəzifəsi Yusifəli Əliyevə təhvil verilmişdir.

Bu surətlə görülür ki, o adamlar öz başlarına deyil, məcbur olmuşlar istefa verməyə.

Ümidvar oluruz ki, bundan böylə də Azərbaycan Hökuməti qulluğunda olanların həpsinin xəyanəti açılaraq həpsi "istefa verəcəklər".

Şimdi düz, doğru, namuskar, vətənini, millətini əziz tutan müsəlmanlar lazımdır ki, Nəzarətlərdə xain qulluqçuların yerini tutub göstərsinlər ki, özümüz öz işimizi aparmağa qadirik. Əgər müsəlman qardaşlar vətən və millət mənfəətini cib mənfəətlərindən yuxarı tuta bilsələr, böylə xəyanətkarlar, həm də Azərbaycanın adını belə eşitmək istəməyən xainlər gəlib Nəzarətin başına keçə bilməzlər.

Burayadək yazdıqlarımız bu xainlərin qulluqdakı xəyanətini açır. Amma dərin diqqət edilsə görülər ki, bunlar "ittifaq" düzəldib həm milyonlar yemək, həm də Azərbaycanın nazirini yıxmağa çalışırlar. Qoy, müsəlmanlar ibrət alsınlar!

*X. İ.*

B. T. Dünkü rusca qəzetələrdə bir xəbər vardı ki, Ərzaq naziri Lizqar xidmətdən çıxarılıb, onun yerinə Mərkəzi Ev Komitəsi sədri Leontyeviç təyin edilmişdir. Əvvəla, Leontyeviç Rus Milli Komitəsinin üzvü olmaq həsəbi [səbəbi] ilə və həman komitə Azərbaycan Hökumət və Parlamanında iştirak etmədiyindən, nazir təyin edilə bilməz. Saniyən [ikincisi] Ərzaq Nəzarətində məsuliyyətli bir mövqe tutan şəxsdən aldığımız məlumata görə, qəzetənin təkidinə rəğmən Leontyeviç nazir təyin edilməmişdir və böylə bir fikir yoxdur da. Lizqar cənabları nazirlikdə qalırlar.

*X. İ.*

## MƏTBUAT

"İttihad" firqəsinin naşiri-əfkarı [fikirlərini yayan orqanı] olmaq üzrə bu cümə günündən etibarən rus dilində və "İttihad" adında həftəlik bir qəzetə çıxmağa başlamışdır.

Qəzetənin birinci nömrəsində başdan bəyani-məram edən bir sərməqalə [baş məqalə] dərc edilmişdir. Fəqət qəzetənin naşiri-əfkarı bulunduğu firqənin məramnaməsi həman məqalə kimi isə bir qədər "doldurmaq" və ciddiləşdirməyi tövsiyə edərdik.

Sonra gələn məqalələrlə məzkur [adı çəkilən] firqə Hökumətə, "Müsavat" firqəsinə, hətta "Azərbaycan" mühərrirlərinə elani-hərb və daha çox iftiralar deyib ancaq qəzetənin axırındakı "Bakıda Könüllülər haqqında" sərlövhəli məqaləsi bir qədər ciddi bir mühərrir və siyasi firqə məqaləsinə oxşayır.

Bir firqənin naşiri-əfkarından biz ciddiyyət və taktika gözlərdik. Ümidimiz gələcəyədir.

## BAKI XƏBƏRLƏRİ

Cümə günü fevral ayının 28-də, gündüz saat 2-də, 4-üncü Paralelni küçədə, Kərbəlayi Atababa Orucovun evində "Novxanı" Müstəhliklər [İstehlakçılar] Kooperativ Cəmiyyətinin ümumi iclası vaqe olacaq. Cəmi üzvlərdən xahiş olunur ki, vəq-

ti-müəyyəndə [təyin edilmiş vaxtda] təşrif gətirsinlər.

*Müstəhliklər Cəmiyyəti "Novxanı"*

**Qalabəyinin istefası**

Bakı qalabəyisi [komendantı] rotmistr Yadigarov ərizəsinə görə öz vəzifəsindən əzl [azad] edilir. Qalabəyinin vəzifəsini ifa etməyə müvəqqəti olaraq Balaxanı-Sabunçu qalabəyisi Lütfəli bəy Əmircanov, onun yerinə isə müavini Qulyakoviç və axırıncının vəzifəsini ifa etməyə 5-inci uçastokun [sahənin] pristavı Sultan bəy Əhmədbəyov təyin edilmişlərdir.

**Ərzaq işləri**

Sabunçu el dükanına 4 put 27 girvənkə çay buraxılmışdır ki, adam başına 1/8 və bir ailəyə 1/2 girvənkədən artıq olmamaq şərti ilə paylansın. Bu barədə Balaxanı-Sabunçu qalabəyisinə də məlumat verilmişdir.

**Kəndçilər İttifaqında**

Cümə günü, fevral ayının 21-də Bakı Mahal Kəndçilər İttifaqının iclası vaqe oldu. İclasda sədr cənabları Hacıağa Abbasovdan xahiş etdilər ki, tezliklə Ərzaq nazirinə və onun vəkili Yusifəli Əliyevə məktub yazıb Ərzaq Nəzarətinə gələn kəndçiləri[n] və onların nümayəndələrini[n] İttifaq idarəsinə göndərilməsini xahiş etsin və İttifaq öz öhdəsinə alır ki, kəndçilərə veriləcək şeyləri (un, buğda, şəkər və ağ şeylərini) kəndlərə adam göndərib özü təqsim etdirsin [paylasın] tainki möhtəkirlər mümkün tapıb, şeyləri satıb ciblərinə qoya bilməsinlər. Sədr Abbasov cənabları idarənin qərardadına görə fevralın 22-də şənbə günü yuxarıda zikr olunmuş şəxslərə təcili kağız göndərib xahiş etmişdir ki, bu tezliklə Ərzaq Nəzarəti İttifaqla bir yerdə işə şüru etsin [başlasın] və fevral ayının 23-də İttifaq Maliyyə Nəzarətinə bir məktub yazıb göndərmişdir. Məktubun məzmunu: Çoxdan bəri Bakı kəndlərində qəbih bir adət davam etməkdədir. Böylə ki, kəndçilər ehtiyac məqamında "kənd ağalarına" müraciət edib, onlardan 60-70 fazilə pul alıb, axırda gücləri çatmadığından biçarə kəndçilər öz evlərini, əşyalarını satıb "kənd ağalarına" pul əvəzinə verirlər. Bu minval görərsən ki, bir az vaxtdan sonra kənd ağaları sərvət sahibi olurlar. Amma kəndçilər yoxsullaşıb, küçələrə düşüb dilənirlər. Bu bihəyalıq neçə sənələrdir adət olub Bakı kəndlərində cərəyan edir və kimsə də buna baxmayır. Buna binaən [buna görə] Bakı Mahal Kəndçilər İttifaqı Maliyyə Nəzarətindən xahiş və təmənna edir ki, bu tezliklə kəndlərdə kiçik istiqraz cəmiyyətləri açıb, kəndçilərə az bir faizlə pul verməklə onları kənd ağalarının zalım çəngallarından [caynaqlarından] qurtarsın. Bu günlərdə İttifaq Mart hadisatında zərərdidə olan kəndçilərin siyahısını və ölənləri və malları qarət olanları yazıb Azərbaycan Hökumətinə təqdim edəcəkdir.

**Fəhlə həyatından**

**Susuzluq**

Bakı Şollar su yolunun Binəqədi mədən dairəsindəki xətti xarab olduğundan istər mədən əmələləri, istərsə Binəqədi kəndi əhalisi susuz qalmışlardır.

Bundan dolayı bu günlərdə Binəqədidə vüqu bulmuş əmələlər [fəhlələr] və kəndlilərin ümumi iclasında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın mərkəzi komitəsinə müraciətlə məzkur [adı çəkilən] mədən dairəsinə tezliklə xəttin təmir edilib su buraxılması barəsində təşəbbüsatda bulunmasını istida [xahiş] etməyi təhti-qərara almışlardır. Bundan əlavə, həman iclasda mədən dairəsinə bir təbib və ya feldşer təyin edilməsi üçün təşəbbüsatda bulun[ul]ması haqqında dəxi qətnamə qəbul edilmişdir.

Eşitdiyimizə görə, həmin xüsusda "Müsavat" firqəsinin Bakı komitəsi ciddi təşəbbüsatda bulunub, lazımi yerlərə müraciət eyləmişdir. Bu günlərdə məzkur su yolunun açılması gözlənir.

**Aptek açılması**

Binəqədi kəndi camaatı öz vəkilləri vasitəsilə Azərbaycan Cümhuriyyətinin Səhhəti-Ümumiyyə [Səhiyyə] nazirinə müraciətən [müraciət edərək] məzkur [adı çəkilən] kənddə camaatın xərci ilə olaraq dərmanxana (aptek) açılmasına icazə verilməsini rica etmişdir.

**"Müsavat"ın şöbələri**

Binəqədidə bu günlərdə bütün mədən dairəsi əmələlərinin ümumi iclası vaqe olub, bəzi mühüm məsələlər müzakirə edildikdən sonra Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın şöbəsi açılmış, sədarətə [sədrliyə] İshaq əfəndi Axçura oğlu və müavinliyə Axundzadə seçilmişdir.

**Dəmiryolunda**

Bizdən rica edirlər xəbər verək ki, Bakı ilə Biləcəri arasında və ələlümum Bakıdan Gəncəyə qədər Azərbaycan dəmiryol sərnişin qatarlarında biletləri təhqiq edən kontrollar yoxdur. Biletsiz sərnişinlərdən konduktorlar minlərlə manat para alıb, əvəzində isə qəbz dəxi verməyirlər və aldıqları pulları özləri üçün sərf edirlər. Sərnişinlərdən bir çoxunun aldığı biletlər Bakıya qədər təhqiq edilməyərək cibində qalır. Nəzarətin diqqətini bu xüsusa cəlb ediriz.

**Hadisat**

* Fevralın 17-sində Ramana kəndində Məşhədi Şükur Murad oğlunun mənzilindən naməlum bədəfkarlar [cinayətkarlar] qıfılı sındırıb 2000 manatlıq əlbisə oğurlamışlardır. Bədəfkarlar tövqif [həbs] edilmişlərdir.

* Binəqədi kəndində sükunət edən [yaşayan] İran rəiyyəti Məşədi Abbas Abdulla oğlunun tövləsindən fevralın 16-sında gecə 2700 manatlıq bir atı oğurlanmışdır. Şübhə üzrə nökəri Eyni Əhməd oğlu tövqif edilib və istintaqda göstərmişdir ki, atı Koxanı kəndi əhli Paşa Abbas oğlu oğurlamışdır.

* Əvvəlinci Paralelni küçədə, 8 nömrəli evdə sükunət edən Əlinağı Həsənovun evindən qıfılı sındırılıb, 12 900 manatlıq müxəlləfat [ev əşyası] oğurlanmışdır. Şübhə üzrə Ağababa Dadaş oğlu tövqif edilmişdir. Təhqiqat davam edir.

* Arşak Ağacanov polisəyə məlum etmişdir ki, naməlum bədəfkarlar onun Malakanski küçədə olan mağazasını sındırıb, 152 000 manatlıq mal oğurlamışlardır. Bədəfkarları tövqif etməkdən ötrü tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

* Bakı əhli Nəcəf Kərbəlayi Məhəmməd oğlu öz oğlu Kazım ilə fevralın 22-sində, axşam saat 6-da evə qayıtdıqda üç

nəfər naməlum bədəfkar onlara hücum edib, Kazımın əlində 26000 manat pul kisəsini alıb qaçmışlardır. Nəcəfin qışqırığına üçüncü çastın [bölmənin] polis məmurları pristavla gəlib bədəfkarları təqib etməyə başladıqda, onlar güllə atdıqları halda müxtəlif səmtlərə qaçmağa başlamışlarsa da nəhayət polis nəfəratı [nəfərləri] tərəfindən tövqif edilmişlərdir. Bədəfkarlar Aleksandr Yeqorov, İlya Novakovski və Sergey Semyonov olub, özlərini sabiq Biçeraxov, şimdi isə Könüllü ordu afserləri adlandırmışlardır. Nəcəf onları tanımışdır. Atışma vaxtında təhərri [axtarış] polis acenti Ananov yaralanmışdır və sonra ölmüşdür.

## AZƏRBAYCANDA

**Zaqataladan**

(xüsusi müxbirimizdən)

Hökumətimiz Zaqatala vilayətinə mütəəlliq [məxsus] övraqi-rəsmiyyə və sənədati-tarixiyyəni [rəsmi və tarixi sənədləri] tələb edib də Gürcü Hökuməti bu tələbi rədd etməsi və bu münasibətlə "Qruziya" qəzetəsi kəndi hökumətinin bu işini təqdir etməsi və Zaqatala vilayəti Gürcüstanın ayrılmaz bir cüzü [hissəsi] olduğunu iddiada bulunması xəbərləri Zaqatala əhalisini həyəcana saldı. Bu xəbər əhalini öylə bir hərəkətə gətirdi ki, böyük hadisələrin baş vermək qorxusu var idi. Bunu görən və duyan başçılarımız bir ictima [yığıncaq] yaparaq Zaqatala hüququnu müdafiə və Gürcüstanla olan əski hüdudu iadə etmək üçün bir komisyon təşkil etdi. Komisyon Zaqatalada gürcülərin heç bir cəhətincə haqq və hüquqları olmadığını mətbuat meydanında tarixlə isbat edəcəkdir. Bundan əlavə, Zaqatala əhalisinin dərd və ehtiyaclarını hər bir vaxt mərkəzə və Parlaman vəkillərinə bildirəcəkdir.

* * *

Bu günlərdə Zaqatala məmurları böyük bir ictima yaparaq məkulat və məlbusat [ərzaq və geyim] qisminin fiyatı günü-gündən ziyadələşdiyindən və indiki maaşları qayət az olduğundan kifayə etmədiyini, hətta çox məmurların ailələri fəna bir halda yaşamalarını nəzəri-etibara alıb, maaşlarının artırılması haqqında hökumətə müraciət etmələrini qət etdilər. Həman məclisdə Kabinə rəisi Fətəli xan Xoyski həzrətlərinə, kopyası Parlaman əzalarından [üzvlərindən] Aslan bəy Qardaşov cənablarına göndərilmək üzrə teleqraf da yazıldı.

* * *

Zaqatalada oğurluq, soyğun, yol kəsmək, adam öldürmək kimi işlərin çoxalmasını vaxtında xəbər vermişdik. Həman bu bəlalardan kəndilərini mühafizə etmək qəsdi ilə Balakənd nahiyəsi əhalisi öz aralarından nahiyə müdürlüyünə fəal bir adam seçmək istəmişlərsə də, vali razı olmamışdı. Ona görə, bu nahiyə adamları tərəfindən Bakıya Parlaman əzalarından [Kiçikxanov] Bayram Niyazi əfəndiyə teleqrafla xəbər verib məhud [öhdələrinə götürdükləri] məqsədlərini əldə etmək üçün məhəllinə [yerinə] müraciət edərək təşəbbüsatda bulunmasını rica etmişlərdir.

*Həqşünas*





**Lənkərandan**

(xüsusi müxbirimizdən)

Lənkəran müsəlmanlarının kəndlərdə işləri fənalaşırsa, şəhərdəki müsəlmanların halı gün-gündən daha betər olur. Erməni əsgərləri ya ki xaxollar gecələr müsəlman məhəllələrinə dağılıb qarət etməyə başlayırlar. Şubatın [fevralın] 3-ündə Makarovun erməni əsgərləri tərəfindən dörd nəfər gecə saat 9-da Şeyx Kərbəlayi Hüseyn Kərbəlayi İbrahim oğlunun evinə girib, onu tüfənglə hədələyib 500 manat nəğd pulunu, ailəsinin qızıl gərdənbəndini [boyunbağını] və üzüklərini, ipək libaslarını, bəzi ev şeylərini götürüb gediblər. Zərər 20 min manatadəkdir. Sabahı gecəsi yenə də gəlib həman biçarədən 5 min manat nəğd pul istəmişlər. Şeyx Kərbəlayi Hüseyn sabah saat 8 radələrində pul verəcəyini vəd edir. Onlar da buna razı olub gedirlər. Səhər tezdən Şeyx Hüseyn hökumətə məlum edir. Orada hökumət tərəfindən keşikçi qurulur. Səhər saat 8-də həman erməni əsgəri gəlib pul istərkən tutulub həbs edilir.

Nə etməli? Əfsus. Bu tövr işlərdə bəzi vaxtlarda saldatlar tutulursa da, az bir zamandan sonra azad olurlar. Hökumətin kifayətsizliyini, müsamihəsini [səhlənkarlığını] görüb əsgərlər daha da cürətlənib müsəlmanları qarət və məzaliməyə [zülm etməyə] davam edirlər.

*T. Bayraməlibəyzadə*

## GÜRCÜSTANDA

**Axıskadan geri çəkilmək ətrafında**

Axıskadan gürcü əsgərlərinin geri çəkilməsi əhvalını təftiş etməkdən ötrü Axıska cəbhəsinə getmiş olan Gürcüstan Hərbiyyə nazirinin binagüzarlığına [sərəncamına] görə bir çox əsgəri məmurlar xidmətlərindən kənar edilmişlərdir. O cümlədən, 4-cü alay komandanı general Gelovani və onun müavini polkovnik Maçabili, 4-cü alayın 3, 6, 7 və 9-cu bölük komandanları Çixveli kəndindən ricət etdiklərinə [geri çəkildiklərinə] görə xidmətlərindən kənar edilib məhkəməyə verilmişlərdir. Bundan əlavə, Hərbiyyə naziri əmr etmişdir ki, 2-ci firqə [diviziya] ərkani-hərbində [qərargahında] olan zabitlərdən Mamulaşvili, Plavski və Kandilaki müharibə əsnasında əmrə əməl etmədiklərinə görə həbsə alınsınlar.

* Axıskadan geri çəkilən zaman tələfat bu qərar üzrədir: 6 zabit ölüb, 7-si yaralanmışdır. 10 nəfər zabit xəbərsiz itmişdir. 62 saldat ölüb, 41-i yaralanıb, 259 nəfəri xəbərsiz itmişdir.

**İngiltərə heyətinin təkzibi**

Qəzetələrdə yazılmışdı ki, İngiltərə heyəti Batuma getməyə mümaniət [maneçilik] göstərir. Şimdi İngiltərə heyəti Gürcüstan Mətbuat Bürosu vasitəsi ilə bu xəbəri təkzib edib deyir ki, Batuma getmək üçün ingilislərdən icazə almaq tələb olunmayır.

**Ermənistanla dəmiryol münasibatı**

Tiflisdən Ermənistana dəmiryol qatarı göndərməkdən ötrü indiyə qədər İngiltərə heyətinə müraciət etmək lazım gəlirdi. İndi isə Gürcüstanla Ermənistan arasında dəmiryol əhdnaməsi yazılmışdır ki, bu günlərdə hər iki tərəfdən imza ediləcəkdir. Əhdnamə imza edildikdən sonra

həftədə üç dəfə İrəvanla Tiflis arasında dəmiryol qatarı işləyəcəkdir. Fevralın 20-sində Tiflisdən Ermənistana gedən qatarla növbəyə yazılmış adamlardan 143 nəfəri göndəriləcəkdir. Sərnişinlərə özləri ilə bərabər ancaq 15-20 girvənkə miqdarında əl baqajı aparmağa icazə verilir.

### Şüləverdə

"Mşak" qəzetəsinin yazdığına görə Şüləver rayonunda olan gürcü əsgərləri övdət etməkdədirlər [qayıdırlar]. Şüləverdən və Bolnis-Xaçından qaçan erməni əhalisi öz kəndlərinə qayıdırlar.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Diş həkimi İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Yeni təbdən çıxıb satışa qoyulmuşdur**
**"Qanqal"**

Bu kitab Əbdürrəhman Dai tərəfindən təlif edilmiş [yazılmış] və bir çox məzhəkə əşarı havidir [satirik şeirlərdən ibarətdir]. Hər kəscə oxunması mətlub olan [arzuedilən] işbu kitabın fiyatı yalnız 2 rublədir. Külli surətdə alanlara adi güzəşt ediləcəkdir. Bakıda bütün kitabxanalarda satılmaqdadır. Xahiş edənlər Birjevoy küçədə, Skobelevin 17 nömrəli evindəki Hökumət mətbəəsinə, müəllifin özünə müraciət edə bilərlər.

*5697*

**Elan**

Cümə günü, fevral ayının 28-də, gündüz saat 2-də, 4-cü Paralelni küçədə Kərbəlayi Atababa Orucovun evində "Novxanı" Müstəhliklər Kooperativ Cəmiyyətinin ümumi iclası vaqe olacaq. Cəmi üzvlərdən xahiş olunur ki, vəqti-müəyyəndə təşrif gətirsinlər.

*Müstəhliklər Cəmiyyəti "Novxanı"*
*2700*

**Elan**

Azərbaycan Posta və Teleqraf Nəzarəti elan edir ki, bu şubatın 24-ündə düşənbə [bazar ertəsi] günündən etibarən Posta və teleqraf məktəbi açılır. Məktəbə daxil olmağa ərizə verənlərin həmin gündə, saat 5-də 1-ci Baş Postaxanaya gəlmələri dəvət olunurlar. Məktəbə girmək üçün veriləcək ərizələrin qəbulu Posta və Teleqraf Nəzarətinin Ümuri-xüsusiyyə [xüsusi işlər] məmuru tərəfindən davam edir.

*Dəftərxana baş müdiri: Blajevski*
*Kargüzar: D. Rəhimli*
*45*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həmə-vəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 341. "Şərif əfəndi": çox güman ki, Başqırd milli hərəkatının liderlərindən biri olan Şərif Manatov nəzərdə tutulur.

"Başqırdıstan sözü ehtimal ki, bir çoxlarımızdan ötrü bir proqram məsələsidir.": Bu cümlə belə olmalıdır: "Başqırdıstan sözü ehtimal ki, bir çoxlarımızdan ötrü yenidir, amma "Müsavat"dan ötrü bir proqram məsələsidir." Belə başa düşülür ki, burada bir sətir düşmüşdür.

**Teleqraf xəbərləri**

səh. 344. "Renodel": qəzetdə "Renobel" kimi getmişdir; fransız sosialistlərindən, Parlamentin üzvü Pyer Renodel nəzərdə tutulur.

**Ərzaq Nəzarətində**

səh. 348. "baş müvəkkil Şuljenkoya": qəzetdə "Şuljenko" yerinə "Şurjenko" getmişdir.

səh. 349. "X. İ.": bu imza Xəlil İbrahimə (İbrahimov Xəlilə) məxsusdur.

"B. T.": "Bə'dəttəhrir" yəni "yazdıqdan sonra", "P.S."

"...Ərzaq Nəzarətində məsuliyyətli bir mövqe tutan şəxsdən...": "məsuliyyətli" sözünün əvvəli qəzetdə silinmişdir; bu şəkildə bərpa etdik.

**Mətbuat**

səh. 349. "İttihad": "İttihad" partiyasının orqanı olan, Azərbaycan və rus dillərində nəşr edilən qəzet. 1917-19120-ci illərdə fasilələrlə çıxmışdır.

**Bakı xəbərləri**

səh. 349. "4-üncü Paralelni": Bakıda, indiki Sübhi Salayev küçəsi.

səh. 351. "Əvvəlinci Paralelni": Bakıda, indiki Əli bəy Hüseynzadə küçəsi.

"Malakanski": Bakıda, indiki Xaqani küçəsi.

**Gürcüstanda**

səh. 354. "Mşak": 1872-1920-ci illərdə Tiflisdə erməni dilində nəşr edilən gündəlik qəzet.

**Elan**

səh. 355. "Blajevski": qəzetdə "Mlajevski" getmişdir.





**Çərşənbə axşamı, 25 fevral 1919-cu il, nömrə 122**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 24 cəmadiyələvvəl sənə 1337. 25 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 11-inci iclas

*(keçən nömrədən mabəd)*

**Sədr** - Növbədəki məsələ Parlamanın keçən iclasında qəbul edilmiş olan iki komissiya təşkilidir ki, bunlardan birisi məmləkətin bütün hasilatını lazımi qaydaya qoyaraq bəhəqq [düzgün] istifadə etmək və ərzaq məsələlərini yoluna salaraq bahalığın önünü almaq işlərinə baxan, digəri ləvaehi-qanuniyyə [qanun layihələri] komissiyasıdır. Rica edir[əm] bu komissiyalara namizədlər göstərəsiniz və namizədlərin siyahılarını yazıb verəsiniz.

**Rəsulzadə** - *(yerindən)* Mənə söz veriniz.

**Sədr** - Buyurun!

**Rəsulzadə** - Mən məsələnin şəklinə aid bir neçə söz söyləmək istərdim. "Müsavat" firqəsi tərəfindən Məclisi-Məbusan əzasından [Parlament üzvlərindən] iclasa gəlməyən yoldaşların əvəzinə yeni bir siyahı təqdim edilmişdir. Məzkur [deyilən] siyahı bu gün müzakirə və qəbul edilməli idi ki, şimdi təklif olunan komissiyalara o adamlardan namizəd verəydik. Siz onların üzvlüyünü təklif etmədən namizəd istəyirsiniz ki, bu da şimdilik bizdə yoxdur.

**Sədr** - Namizədləri göstərməkdən əvvəl, digər məsələlərə keçiriz. *(Katibə: Oxu!)*

**Əhməd Cövdət** - *(Oxuyur)*

**Sədr** - Məlumunuz olduğu üzərə keçən iclaslardan birisində ədəmi-ictima [eyni vaxtda bir neçə vəzifə daşımağın yolverilməzliyi] qanunu qəbul edilmişdi. Bu münasibətlə Divani-rəyasət öz tərəfindən Gürcüstan Hökuməti nəzdində Azərbaycan siyasi nümayəndəsi Məhəmməd Yusif Cəfərov cənablarına teleqraf çəkərək təklif etmişdi ki, o da məmurluqdamı, ya məbusluqdamı qaldığını xəbər versin. Şimdi onun cavabını eşitdiniz. Anlaşıldığına görə, Məhəmməd Yusif mütəxəssis hesab edərək eyni zamanda həm məbus, həm də məmurluqda qalmağı özü üçün mümkünədd [hesab] edir. Söz Məhəmməd Əmin Rəsulzadənindir.

**Rəsulzadə** - Qəbul etdiyimiz qanunun məzmunu olduqca aşkardır və uzun təfsirə ehtiyacı yoxdur. Səfiri qanunda qeyd edilmiş mütəxəssislərdən hesab etmək olmaz. Səfir, bir siyasi məmur və hö-

kumət tərəfindən təyin olunduğu üçün vəzifəsində məsuldur. Madam ki, hökumət ümum daxili və xarici işlərində Məclisi-Məbusan hüzurunda məsuldur və madam ki, qubernatorlar məmur bulunduğu mühitdə məsuldur, əlbəttə səfir dəxi xaricdəki vəzifəsində məsuldur. Xariciyyə naziri hökumət və Parlaman hüzurunda məsul isə, səfir də ona tabedir, daha mütəxəssis deyildir. Buna görə də bu xüsusda çox danışmaq belə lazım deyildir. Məktubda çox əsaslar var ki, azacıq tənqidə belə təhəmmül etməz [dözməz]. Məsələn, məktubda deyilir ki, xaricdə olan nümayəndələrə də on gün möhlət verilmişdir. Halbuki, Parisdə ya Londonda səfirimiz olsaydı, 10 günə cavab verə bilməzlərdi.

Məlumdur ki, biz qanun yazanda gözümüzü yumaraq kağız üzərinə nə gəlmişsə yazmamışıq, zaman və məkanı nəzərə almışıq. Bilmişik ki, Parisdə və Londonda səfirimiz yoxdur. Ancaq Tiflisdə bir səfirimiz var ki, on gün deyil, beş gündə də cavab verə bilər. Tənqidə təhəmmül etməyən şeylərdən birisi də məktub[un] Q[osudarstvennı] Dumaya aid qismidir. Məktubda denilir ki, Duma əzası [üzvləri] Qafqaziyaya komissar gəldikdə, eyni zamanda Duma üzvlüyündə baqi qalmışdılar. Bu başqa bir vəziyyətdir, çünki inqilab vaxtı Q[osudarstvennı] Duma öz içərisindən bir inqilab komitəsi seçmişdi; o da yoldaşlarını hər yana göndərirdi; o cümlədən Qafqaziyaya da göndərmişdir. Bunlar yəqin etmişdilər ki, bir daha Q[osudarstvennı] Dumaya qayıtmayacaq və onun hüzurunda məsul olmayacaqlardır. Çünki, qabaqda ancaq Məclisi-Məbusan gözlənirdi. O, bir inqilab dövrü idi. Biz artıq inqilab dövründən çıxmaq istəyiriz. Bir də Gürcüstanı misal gətirərək, gürcü səfirlərinin eyni zamanda məbus olaraq qaldıqlarını göstərir. Gürcü Məclisi-Məbusanının da qanunu bizim üçün timsal ola bilməz. Bizim qəbul etdiyimiz qanunu onlar qəbul etməmişdilər. Səfir öz nüfuzunu artırmaq üçün deyir səfir gərək məbus olsun. Bu da düz deyildir. Çünki, məbusluq onun istedadını artırmaz, ya Parlamandan çıxmaq əskildə bilməz. Bu bir sənətdir... Hökumət ona etimad etmişdir. Artıq məbus olub-olmamağın fərqi yoxdur. Qanundan xaric olan bu hüququ Cəfərova və ya başqasına müstəsna olaraq vermək mənasızdır. O dəlil və sübutlar ki, burada gətirilmişdir, tənqidə təhəmmül etməyirlər. Ona görə də mən təklif edirəm ki, bu barədə də Məhəmməd Yusifin izahatı qəbul edilməyib, ancaq qanun qərarına görə ya məbusluqda qalsın, ya səfirlikdə.

**Sədr** - Daha danışmaq istəyən yoxmu? Onda səsə qoyuram.

Qanun Xariciyyə Nəzarəti məmurluğunda bulunan zatlara da şamildir ya yox? Hər kəs şamil ədd [hesab] edirsə, əlini qaldırsın. *(Rusca)* Deməli, əksəriyyətlə qəbul olunur. Keçəlim növbədəki məsələyə. Məclisi-Məbusan əzasından doktor Cəmil bəy Lənbəranski Səhhəti-Ümumiyyə Nəzarətində [Səhiyyə Nazirliyində] məmurluq aldığından məbusluqdan imtina edir. *(Katib: ərizəsini oxuyur.)* Növbədəki məsələ məbusluqdan çıxanları əvəz etməkdir. "Müsavat" ilə Milli Komitənin tərtib etmiş olduğu 10 nömrəli siyahı tərəfindən yeni namizədlər göstərilir: Mustafa Vəkilov, Ağa Əminov, Yusifəli Əliyev, [Məhəmmədbağır] Şeyxzamanov, Məhəmmədəli Rəsulzadə, Behbud xan Cavanşir, Bəhram bəy Axundov, Əbdüləli bəy Əmircanov.

**[Heybətqulu] Məhəmmədbəyov** (İttihad) - *(yerindən)* Etibarnamə komissiyasına verilsin.

**Sədr** - Məclisi-Məbusanın qəbul etdiyi qanuna görə, Parlamandan çıxmış adamların əvəzinə mənsub olduqları firqə yaxud təşkilat tərəfindən namizədlər verilir. Bu məsələ müzakirə edilməməz və Etibarnamə komissiyasına verilməsinə ehtiyac yoxdur.

**Məhəmmədbəyov** *(yerindən)* - İcazə veriniz.

**Sədr** - Buyurun!

**Məhəmmədbəyov** - 10-uncu nömrə siyahısı yalnız "Müsavat" tərəfindən deyil, Zaqafqaziya Milli Komitəsi də iştirak etmişdir. Şimdi bu 8 nəfərin namizəd göstərilməsinə həman Mərkəzi Komitə dəxi iştirak etmişdirmi ya yox? Hal-hazırda o komitə yoxdur. Bu məsələ xeyli əsaslı bir şey olduğundan fraksiyamız tərəfindən də deyirəm ki, Etibarnamə komissiyasına verilsin.

**Sədr** - Söz Rəsulzadənindir.

**Rəsulzadə** - Əgər namizədlər siyahısının Etibarnamə komissiyasına verilməsi bundan ötrü təklif edilirsə ki, Zaqafqaziya Mərkəzi Milli Komitəsi iştirak edib, ya yox, o zaman Etibarnamə komissiyasına verilməsinə ehtiyac yoxdur. Bunu burada müzakirə və həll etməlidir. Söyləsinlər burada cavab verəlim. Bu surətlə bizim qabağımıza çıxmaq istəyirlərsə başqa şeylə çıxsınlar, yoxsa bu imza filanındır, onu təhqiq üçün zərrəbin [lupa] qoymaq, Etibarnamə komissiyasına vermək lazımdır, deməkdən bir şey çıxmaz. Hamıya bəllidir ki, hal-hazırda Zaqafqaziya Milli Komitəsi yoxdur. Odur ki, komitə bu siyahıya iştirak edib-etməyib sözləri gülüncdür. Bu söz tənqidə belə dayanammaz. Fəqət diqqət etsəydiniz görərdiniz ki, bu siyahı "Müsavat" və Mərkəzi Milli Komitə tərəfindən deyil, 10-uncu nömrə siyahı ilə keçən namizədlər tərəfindən tərtib verilmişdir. Ona görə, müsaidənizlə məsələni izah edəyim.

Məlumdur ki, Rusiya Məclisi-Müəssisanı seçkisində bir neçə müsəlman siyahısı çıxarılmışdı. O cümlədən 10-uncu nömrə siyahı iki mərkəzi komitə tərəfindən çıxarılmışdı ki, birisi "Müsavat" Mərkəzi Komitəsi, digəri Zaqafqaziya Mərkəzi Milli Komitəsi idi. Sonra zamanın gedişi ilə Zaqafqaziya Mərkəzi Milli Komitəsi münhəll oldu [buraxıldı] və onun bütün səlahiyyəti Azərbaycan istiqlalı elanından qabaq Seymdə olan müsəlman nümayəndələrinə verilmişdi. Bu qərarla Seymdə olan müsəlman nümayəndələri o komitənin hər bir hüququna varis olmuşdu. Seym dağılıb, Azərbaycan istiqlalı elan olunandan sonra Seymin həman Müsəlman fraksiyası Azərbaycan Şurayi-Millisi şəklini almışdı. Zaqafqaziya Mərkəzi Milli Komitəsi bu namizədlər siyahısı tərtib edilən zaman vardı ya yoxdu, lakin imdi arada yalnız "Müsavat" firqəsi vardır. Tutalım ki, arada bir şərikli mal var, şərikin biri meydanda yoxdur, ortada ancaq ikinci şərik qalmışdır. Bu da deməyir ki, mala bir tək mən sahibəm. O fəqət deyir ki, bu iki şərikin hüsula gətirdiyi diri adamlar vardır. O əzalar da Parlamana daxil olmuşlardır. Onlar da hüquqən keçmiş 30 nəfərdir və bu hazırda onların haqqı var ki, 10-uncu nömrə siyahı ilə

Parlamana keçmiş məbusların çıxanlarını əvəz etsinlər və Parlamanın qəbul etdiyi qanuna görə çıxmış üzvləri əvəz etmək üçün 10-uncu nömrə əzasının iki iclası olaraq məsələ ətraflıca müzakirədən sonra ikinci iclasda çıxmış üzvlərinə nümayəndə verməyə özlərini yeganə mümməssil [nümayəndə]ədd [hesab] və səkkiz nəfəri namizəd təyin etdilər. Başqa bir surətdə də olammazdı. Hər surətlə baxsanız görərsiniz ki, böylə də olmalı idi. Bu səkkiz nəfər də yalnız "Müsavat" firqəsinin namizədləri deyil, müsavatçı və qismən də bitərəflərdəndirlər ki, ümumiyyətlə 10-uncu siyahı adamları tərəfindən təklif edilmişlərdir.

**Sədr** - Heybətqulu Məhəmmədbəyov.

**Məhəmmədbəyov** (İttihad) - Məhəmməd Əmin cənabları buyurdular ki, Seymdə olan müsəlman üzvlərinə keçmiş Zaqafqaziya Milli Komitəsi ixtiyarat vermişdir. Necə ola bilər? Seym Tiflisdə, Zaqafqaziya Milli Komitəsi Bakıda. Zaqafqaziya Milli Komitəsi də bu ixtiyaratı hangi vəkalətnamə ilə Seym fraksiyasına verdi? Burada deyirlər şərikli mal var. Bir şərik yoxdur. Yəni Milli Komitə yoxdur. Milli Komitələr olmayan surətdə bunların adından nə cür səkkiz nümayəndə seçilir? "Müsavat" deyir ki, Milli Komitənin varisi bizik. Əcəba, hansı mirovoy və okrujnoy sudlar [sülh və nahiyə məhkəmələri] sizi vərəsə təyin etdi? *(Gülüş)* Həqiqətihal böylədir: "Müsavat" Milli Komitə ilə bir yerdə 10-uncu nömrə siyahını tərtib vermişdir, bu işin bir istoriyası [tarixi] var. "Müsavat" Qafqaziyada olan Milli Komitələrlə o vaxt siyahı tərtib etdiyindən, şimdi də o haqq yalnız "Müsavat"ın olmayıb, ümum Zaqafqaziya müsəlman milli komitələrinə aiddir. O vaxt Sultan Məcid [Qənizadə] də etiraz etdi ki, sizin ixtiyarınız yoxdur Milli Komitə əvəzinə adam seçəsiniz. Onları mahallar seçə bilərlər. Qabaqkı seçkidə "Müsavat" 20 yer götürüb, sair təşkilatlara 10 yer vermişdir. Şimdi də həman 10 yerə "Müsavat" öz nümayəndələrini seçir. Halbuki, lazımdır cəmi mahallara, uyezdlərə [qəzalara] teleqraf vurulsun və o yerlər mahallar nümayəndələrinə verilsin. Fəqət görürüz ki, həman 10 yeri də "Müsavat" öz nümayəndələrinə məxsus edir. Burada buyurdular ki, guya bu barədə iki iclas olmuşdur. Biz bilməyiriz ki, bu iclası kim çağırıb və hangi qəzetələrdə elan edilmişdir. Burası bizə məlum deyildir. Biz təklif ediriz ki, bu məsələ ya Etibarnamə komissiyasına verilsin, yaxud fraksiyalara göndərilsin. Bu ixtiyaratı yalnız "Müsavat"a vermək olmaz.

**Sədr** - Söz Yusif Əhmədovundur.

**Əhmədov** (Bitərəf) - Qabaqdakı məsələlər barəsində danışmıram, lakin bunu demək istəyirəm ki, Parlaman bir qanun düzəltmişdir, onunla da idarə olunur. Onu da gərək saxlayaq. Yadımdadır ki, bu Parlaman bir qanun qəbul edibdir ki, hangi fraksiyadan adam çıxmışsa, çıxan üzvlərin yerinə o fraksiya təzə nümayəndə intixab etsin [seçsin]. Əgər şəxslərdən bəhs edilirsə, Parlamanın ixtiyarı yoxdur şəxsi tənqid eyləsin. Əsas böylədir ki, hər fraksiya öz nümayəndəsini təklif etməlidir. Bu işin qanuna müvafiq olduğunu isbat üçün bildirirəm ki, bitərəflərdən məmurluq dolayısı ilə xaric olan məbusların əvəzinə də Bitərəflər fraksiyası tərəfindən bu siyahıya 3 namizəd daxil edilmişdir. Parlamanda qəbul olunmuş məsələlərdən təkrar-təkrar bəhs etmək olmaz. Ona görə təklif edirəm bu siyahı qəbul olunsun.

**Sədr** - Söz Əhməd Cövdətindir.

**Əhməd Cövdət** [Pepinov] - Doğrudan da qəbul etdiyimiz qanun aşkardır. Parlamandan çıxmış üzvlər mənsub olduqları fraksiya namizədləri ilə əvəz olunurlar. Lakin 10-uncu nömrə siyahı haqqında bir az danışmaq lazım gəlir. Məlum olduğu üzrə 10 nömrəli siyahı "Müsavat" və Milli Komitə tərəfindən tərtib edilmişdi. Mən burada firqəmiz tərəfindən deyil, şəxsən öz rəyimi izhar edirəm. Məhəmməd Əmin əfəndi deyir ki, Mərkəzi Zaqafqasiya Milli Komitəsi öz hüququnu Seymin 44 nəfərlik müsəlman fraksiyasına vermişdi. Buna görədir ki, 10-uncu nömrə siyahı "Müsavat" və Mərkəzi Milli Komitə tərəfindən, yəni Seymin sabiq 44 əzası tərəfindən təkmil edilməlidir [tamamlanmalıdır]. Binaənileyh [ona görə] mən təklif edərdim "Müsavat" öz hissəsinə düşən yerlərə özü namizədlərini versin, qalan yerlərə isə Seymin sabiq 44 əzası, yəni Zaqafqaziya Milli Komitəsi namizəd versin.

**Sədr** - Sultan Məcid Qənizadə.

**Qənizadə** - Bu səkkiz nəfər ki, adı oxundu, bunlara etiraz ola bilməz. Doğrudan da layiqli adamlardır. Yoldaşlardan biri danışarkən adımı çəkdiyinə görə bir neçə kəlmə danışmalıyam. Məclisi-Müəssisan seçkilərinə siyahı tərtib verilərkən, müsəlmanların ancaq bir siyahıları vardı. Sonradan o siyahıya kim yazılsın məsələsi üstündə müsəlman təşkilatları arasında ixtilaf düşdü. O vaxt müsəlmanlıq, ya "İttihad" firqəsi yox idi. Sonradan araya çıxıb, ayrıca siyahı çıxarmağı lazım gördü. Aşkar şeydir ki, "Müsavat" firqəsi ilə Mərkəzi Milli Komitənin bir yerdə verdiyi siyahı tam müsəlmanlar tərəfindən olduğundan, millət onun tərəfdarı olacaqdır. Böylə də oldu. Sonra Məclisi-Müəssisana seçilmiş əza üç qat artırılıb 42 nəfər olmaq üzrə Seymə getdilər və orada bir fraksiya təşkil etdilər. Bu fraksiya Bakıda olan Mərkəzi Müsəlman Milli Komitəsinin də vəzifəsini ifa edirdi. İndi deyirlər Mərkəzi Milli Komitə yoxdur. Hazırda ancaq "Müsavat" firqəsi var. Amma mən deyirəm xeyr, həman 42 nəfər ki, əvvəl binası 14 nəfər idi, Milli Komitə o özüdür, hansı ki, indi 120 nəfərə çevrilib Parlaman adı almışdır. Yəni bu 10-uncu nömrənin ixtiyarına bütün Parlaman şərikdir və 10-uncu nömrədən çıxan əzanın əvəzinə "Müsavat" deyil, Parlaman özü namizəd verməlidir. Çünki, Parlaman həman 14 nəfərdir ki, sifətini dəyişib Parlaman şəkli almışdır.

*(yenə var)*

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

* Post və Teleqraf nazirinin Gürcüstanla müxabirat [rabitə] barəsindəki məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Post və Teleqraf naziri tərəfindən təqdim edilən Gürcüstanla müxabirat üçün əqd ediləcək [imzalanacaq] müqavilənaməni təsvib edərək [bəyənərək], həman öylə bir qanun layihəsinin təsdiqi üçün Məclisi-Məbusana idxal etməli.

* Xariciyyə nazirinin Emənistan Cümhuriyyəti Azərbaycan nümayəndəliyi haqqındakı məruzəsindən sonra qət eyləmişdir:

Ermənistan Hökuməti tərəfindən göstərilən Bekzadyanın namizədliyini məqbul hesab etməlidir.

* Xariciyyə nazirinin müvəqqəti Mavərayi-Bəhri-Xəzər Hökuməti Azərbaycan nümayəndəliyi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Qnesini Azərbaycan Hökuməti nəzdində müvəqqəti Mavərayi-Bəhri-Xəzər Hökuməti konsulu qəbul etməlidir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində [Əmək Nazirliyində]**

Bakı və Dairəsi Dərmanxanaçılar İttifaqı, Məsai Nəzarətinə müraciətən [müraciət edərək] məlum etmişdir ki, dərmanxana işləri öz qaydasına düşməkdədir. Binaənileyh [ona görə], onlar rica etmişlər ki, bir nəfər nümayəndəsi Səhhəti-Ümumiyyə Nəzarətindən [Səhiyyə Nazirliyindən] Fabriçnı müfəttiş ixtiyaratı ilə dərmanxana xidmətçilərilə onların miyanındakı [arasındakı] işlərinə sərkeşlik [başçılıq] etsin.

**Xariciyyə Nəzarətində**

"Yedinaya Rossiya" nam [adlı] qəzetədə bir böylə şey dərc edilmişdi:

"Ermənistan və Gürcüstanla posta və teleqraf müqavilənamələri əqd etmiş Azərbaycan Hökuməti Mavərayi-Bəhri-Xəzər Hökumətinə müraciətən, onunla da müqavilə əqdinə çalışırdı. Mavərayi-Bəhri-Xəzər Hökuməti məlum etmişdi ki, Azərbaycanı müstəqil hökumət tanımadığı üçün heç bir müqavilə əqd edə bilməz."

Azərbaycan Xariciyyə Nəzarətindən aldığımız məlumata görə, heç bir böylə və yaxud buna oxşayan şey olmamışdır. Mavərayi-Bəhri-Xəzər Hökuməti Azərbaycan Hökumətinə müraciətən rica etmişdi ki, onun Qnesin nam nümayəndəsini Azərbaycan Hökuməti nəzdində konsulluğa qəbul etsin. Qnesin müvəqqəti olaraq qəbul edilmişdir.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən**

Həyati-siyasiyyə içrə camaat, müharibə və hərc-mərcliyin minlərcə nahaq qurbanlarını yadlarından çıxarmışdır. Evsiz, ac və naxoş qaçqınlar Azərbaycanın hər yerinə dağılmışlardır. Bir tək Qarabağda arvad, uşaq və qocalar üzərinə hücum edən quldur dəstələrinin xainanə əli ilə 119 müsəlman kəndi xarabazara döndərilmişdir və 50 mindən ziyadə bu kəndlərin qaçqınları Qarabağın düzlərində və çöllərində ah-zar edirlər. Onların arasında səpmə yatalaq azarı dəhşətli bir surətdə hökmfərma olub [hökm sürüb], üsrətdən [çətinlikdən, sıxıntıdan] və qəmqüssədən özünü itirmiş insanları amansız bir surətdə biçməkdədir.

Bundan əlavə, arvad və uşaqları tanınmaz bir hala salmış olan aclıq və bir köynəklə bədənləri göyərmiş balaca uşaqları titrətməkdə olan soyuq daha amansız bir surətdə hökmfərmadır.

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən Qarabağ qaçqınlarının ehtiyacını öyrənmək və onlara müavinət etməkdən ötrü təşkilatlar düzəltməyə göndərilən xüsusi komissiya bir çox arvad və uşaqların ac və çılpaq qaldığını görmüşdür. Bir tək Qarabağda 50 min nəfər qaçqın vardır. Bunlardan əlavə Şamaxıda, Lənkəranda və İrəvan quberniyasından Gəncəyə, Qazağa gələn nə qədər qaçqınlar vardır. Bu bədbəxtlər Azərbaycanın hər yerində soyuqdan, aclıqdan və xəstəlikdən məhv olurlar.

Bu biçarələri ölümdən xilas etməkdən ötrü təcili surətdə pul, paltar və ərzaq şeyləri ilə geniş bir dairədə müavinət [köməklik] lazımdır. Bunun üçün böyük pul lazımdır. Hökumət camaatın köməyi olmadan bu qaçqınları lazımi qədər təmin etmək iqtidarında deyildir.

Buna görə, hökumət Azərbaycan vətəndaşlarına müraciətlə bu qaçqın qardaşlara müavinət göstərməyə dəvət edir. Sizin köməyiniz gözlənir. İsti evdə qarnı tox, salamat və aclıq, soyuqluq dəhşətini görməyənlər qulaqlarını tutmamalıdırlar. Öz uşaqlarınıza baxaraq çörəksiz, paltarsız, soyuqda titrəyən bədbəxt yetimləri yadınıza salınız! Hər kəs öz qüvvəsinə görə pul və paltarla müavinət etsin. Bir qəpiyə də utanmayınız. Dama-dama göl olar deyirlər. Yüz minlərcə öz qardaşlarınızı amansız əcəldən xilas etməkdən ötrü hər kəs öz payını versin. İanələr qəbul olunur. Pul vermək istəyənlər Naberejnı küçədə 33 nömrəli evdə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin Qaçqınlar şöbəsinə, şey vermək istəyənlər Nikolayevski küçədə Parlaman binası altında "İsmailiyyə" binası tərəfindən Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin mərkəzi anbarına müraciət etməlidirlər.

## QƏZETƏLƏRDƏN

**Qahirə və Kəlküttə arasında hava münasibatı [rabitəsi]**

"Havas" acentəliyi xəbər verir ki, bu yay fəslində hər həftə Qahirə ilə Kəlküttə arasında hava münasibatı olacaqdır. Hindistanla ümdə hava yolu Greydon, Brüssel, Köln, Moskva, Kaspi dənizi, Qəndəhar və Sultan olacaqdır.

**İngiltərə Sənaət Konfransı**

Rəsmi surətdə xəbər verilir ki, fevralın 27-sində ingilis iş sahibləri ilə xidmətçilərindən ibarət İngiltərə Milli Sənaət [Sənaye] Konfransı cəm olacaqdır. Burada zəhmət haqqı məsələləri, məsai [əmək] şəraiti, həmçinin mənfəətlər müzakirə ediləcəkdir. Konfrans iclasları aşkar olacaqdır. Bu konfrans haqqındakı xəbər hətta ifrat dairələrdə məmnuniyyətlə qarşılanmışdır.

**Amerika nümayəndələrinin planı**

Fransa "Ticarət qəzetəsi" xəbər verir ki, hal-hazırda Yevropada olan Amerika maliyyat [maliyyə] və ticarət nümayəndələri Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] şəraitini [şərtlərini] gözləməyən millətlər əleyhinə iqtisadi boykot edilməsi planı hazırlayırlar.

**Bolşeviklərin məğlubiyyəti**

Cənubi Rusiyada bolşeviklərlə müharibə edən müsəlləh [silahlı] qüvvə baş komandanının ərkani-hərbindən [qərargahından] Şimali Qafqaziyada bolşeviklərin həziməti [məğlubiyyəti] haqqında verilən rəsmi məlumatda deyilir ki, Qroznı işğalında 23 paravoz, bir çox vaqon və 268

neft vaqonu ələ keçmişdir. Bolşeviklər şəhərdə 10 min yaralı və naxoş Qırmızı ordu əsgərləri buraxmışlardır.

Rojdestvenski mövqifi [stansiyası] yanında qaçıb gizlənə bilməyən Qroznı Şurası üzvlərinin hamısı tutulmuşdur. Karqalinski, Dubovski və Borozdinovski yanında olan müharibələrdən sonra yanvarın 23-ündə Kizlyar şəhəri işğal edilmişdir. Bryanskiyə və Çornı-rınoka tərəf hərəkət edən dəstələr Kaspi dənizi sahilinə çatmışlar. Bir neçə min miqdarında Kizlyar tərəfdə qalıb hərəkət etməkdə olan bolşevik əsgərlərinin hamısı əsir edilmişdir. Zirehli qatar və bir çox top və pulemyot ələ keçmişdir.

Bundan əlavə, Staro-Kladkovski mövqifindən Kizlyara qədər 30 verst məsafəsində olan dəmiryol xətti vaqonlarla doludur. Bu vaqonların bir çoxu mühimmati-hərbiyyə [hərbi ləvazimat] ilə yüklüdür.

Bunlardan əlavə, bir çox vaqonlar top, pulemyot və qeyri şeylərlə doludur. Kizlyar tərəfdə olan axırıncı əməliyyat əsnasında general Pokrovskinin Kuban kazakları 12 gün müddətində düşməni təqib edib 30 minə yaxın bolşevik əsgərlərini əsir etmişlərdir.

Bundan əlavə, 100 top, bir neçə yüz pulemyot, 7 zirehli qatar, 2 simsiz teleqraf və hədsiz mühimmati-hərbiyyə qənimət alınmışdır.

**Bessarabiya Direktoriyası**

Bessarabiyada Xalq Cümhuriyyəti Direktoriyası təşkil edilməsi haqqında Direktoriya namına [adına] böylə bir simsiz teleqraf alınmışdır. Teleqrafda deyilir ki, Bessarabiya xalqı romaniyalıların [rumınların] boyunduruğunu atıb Direktoriya təşkil etməklə özünü azad elan etmişdir. Bessarabiyanın hansı hökumətlərlə federasiyaya daxil olması Bessarabiya xalqının bu günlərdə dəvət ediləcək Məsai [Əmək] Konqresindən asılıdır.

Sonra teleqrafda deyilir ki, Bessarabiya Direktoriyası Bessarabiya xalqının xürucunu [ayrılmasını] Amerika, Fransa, İngiltərə və qeyri hökumətlərə xəbər vermişdir. Teleqrafda Bessarabiya Direktoriyası Ukrayna Xalq Cümhuriyyəti Direktoriyasından xahiş edir ki, bu barədə başqa hökumətləri də xəbərdar etsin.

Eyni zamanda Bessarabiyanı azad edən Bessarabiya Radası teleqraf edir ki, Bessarabiya Direktoriyası namı ilə ancaq üsyançılar arasında narazılıq salan bir dəstə naməlum adamlar əməliyyatda bulunurlar.

Məlumatlı mənbələrdən verilən xəbərlərə görə, Bessarabiya cümhuri qoşunlarının başında rotmistr Mayevski dayanmışdır. Bessarabiya əsgərləri baş komandanının ərkani-hərbi [baş qərargahı] Dnestr nəhrinin o biri tərəfindən Moqilyov-Podolski rayonundadır. Üsyançıların əlində külli miqdarda silah, mühimmati-hərbiyyə və ərzaq şeyləri vardır.

- Bessarabiya Şurası Bessarabiyada olan ukraynalıların Kiyev Şurası və Bessarabiya Cümhuriyyəti əsgərlərinin baş komandanı Ukrayna Xalq Cümhuriyyətinin Baş nazirinə və Xariciyyə nazirinə böylə bir telqraf göndərmişlərdir:

*"Bessarabiya üsyanına heç bir əlaqələri olmayan naməlum adamlar dəstəsi heç kəsə məlum olmayan Bessarabiya Direktoriyası namından siyasi notalar göndərməyə cəsarət edirlər. Biz buna üsyançılar dəstələri arasına ixtilaf salmaq qəsdilə buraxılmış fitnəkarlıq kimi baxırıq."*





**VƏTƏN YOLUNDA**

İnsanın doğulduğu və böyüdüyü yerə, məmləkətə vətən deyilir. Vətəni sevmək hər kəsin borcudur. Necə ki, Rəsuli-əkrəm həzrətləri "Hübbül-vətən min-əliman" buyurmuşlardır. Yəni, "Vətəni sevmək imandandır". Vətən sevməyimiz, mədəniyyətimizin təkmil [kamilləşməsinə] və təkamülünə çalışmağımızladır. Böylə ki, bu vətəndə həm mülkə, mala, elmə sahib olmaqla mədəni məhsub [hesab] olarıq. Deməli, millət gərək düşünsün ki, vətəndə bu üç şeyi olmazsa, vətən vətən olmaz: Vətənin hifzi [qorunması] nə ilədir? Onu da ağlı və vicdanı ilə təməyyüz verib [seçilib] düşüncəli olsun ki, hökmən bu üç şeyin, yəni mülk, mal, elmin davamı, əldə qalmağı başqa üç şeyə mövquf [bağlı] buyurublar. Böylə ki, mülk siyasətsiz, mal ticarətsiz, elm bəhssiz [mübahisəsiz] qalmaz, əldən gedər buyurmuşlar. İndi biz Qafqaz Azərbaycan türkləri hicrətin 14-üncü əsrinin aləmşümul [bütün dünyanı əhatə edən] inqilabının hər növ həvadisinə [hadisələrinə, təsirlərinə] məruz qalarkən "Ən-nasu niyam fəiza matu intəbəhu" yəni "Xəlaiq [məxluqat, canlılar; camaat, insanlar] yatıbdır, vaxt olar ayılarlar" məzmununca bu inqilab bəhri-mühitinin [okeanının] böyük-böyük dalğaları arasından təəssüflü zayiat [itkilər] və nəhayətsiz müşkülatla özümüzü sahili-nicata çıxarmışıq və dünyada mədəniyyətli insanlar cərgəsində olmaq istəyib də elani-istiqlal etmişik və bu münasibətlə bu böyük inqilabın ali sülh məhfilinə [yığıncağına] mədəni bir millət olmağımızı isbat və hüququmuzu əda etmək üçün nümayəndələr yola salmışıq. Bilməliyiz ki, biz gərək iddia etdiyimiz mədəniyyətin təkmil və təkamülünə kamali-ciddiyyət və aramsızlıqla çalışaq. Bununla bərabər, biz öz vətənimizi hər bir düşməndən hifz etməyə qabil bir millət olduğumuzu da aləmə isbat etməliyik. Mədəni bir millət və cəsur bir əsgər olduğumuzu da bilməyənlərə bildirməliyik. Vətən və istiqlalımızın hər dəfə müdafiəsinə hazır olduğumuzu bildirsək, hər kəs bizə hörmətlə baxar. Böylə olduqda əcəba, bəs nə üçün övladımızı vətən yolunda əsgəri təlimə verməyib, evlərdə qadınlar cərgəsində saxlayırıq? Təəccüb olsun o ailə sahibi olan zatlara ki, öz gənclərini vətən yolunda əsgərliyə verməməkdən ötrü cəlayivətən etdirirlər [vətəndən didərgin salırlar]. Eyib olsun o cavanlara ki, yaşlarını ruhani dəftərində zaid və naqis etdirirlər [artırıb-əskildirlər].

Ey müsəlmanlar, ey dindaşlar! Bu gün vətənpərvərlik qanunundan qaçdınız. Yarın namuslarınızı nə ilə mühafizə edəcəksiniz? Hangi və hansı millətə etibarınız var!! İştə çalışınız, vətən yolunda müdafiə əməlini öyrəniniz, vəilla [yoxsa] vətən əldən getsə, siz də əldən gedərsiniz...

*Müəllim Mirzə Hüseyn*
*Axund Nəsir oğlu*

**BİR DƏRSİ-İBRƏT**

Möhtərəm "Al bayraq" qəzetəsinin sayı 5 və 8 fevral tarixli nömrəsində "Əksinqilabçılar" ünvanlı bir məqaləyə təsa-

düf etdik. Həman məqalədə mühərrir əfəndinin iğfal olduğunu [aldandığını] dərklə təkrar iğfal olmasın deyə bu bir neçə sətirləri qaralamağa məcbur olduq. Mühərrir əfəndi kəndiləri də həqirlərin mənsub olduğu sosialist partiyasından olmağına görə, mühərrir əfəndinin yazdığı mətləb sosialist partiyasına bütün ziddir. Və əlavə, partiyamızı ümum [bütün] xalqın nəzərindən salır. Binaənileyh [ona görə], bizim sosialist yoldaşlarımıza və mühərrir qardaşlarımıza lazımdır ki, diqqətli olsunlar. Hər alçaq, hər qoyun dərisi örtmüş canavarlara bizim o müqəddəs partiyamızda yer verməsinlər; vəilla [yoxsa] səsim çox olsun deyib hər bədəxlaqa [əxlaqsıza] sosialist adı verməк olmaz. Axırda ümum xalqın nəzərindən düşər. Yüz nəfər bədəxlaq adamdan bir nəfər xoşəxlaq adam lazımdır. Odur ki, alçaqlar özlərinə sosialist adı qoyub həqiqi sosialistləri də iğfal edirlər. Necə ki, "Al bayraq" cərideyi-möhtərəməsində [möhtərəm "Al bayraq" qəzetində] "Əksinqilabçılar" ünvanlı məqalə yuxarıdan bəri zikr etdiklərimizin cümləsini təyid edir [təsdiqləyir].

Keçəlim mətləbə: Mühərrir əfəndi yazır ki, türklərin qoşunu Azərbaycana gəldikdən sonra ki bəylər hökuməti Gəncədə quruldu, ta ilx. intiqam dövrü yetişdi. Cənab bəylər rəiyyət tərəfdarı və rəiyyətin bəsirətliləri [uzaqgörənləri] və müəllimləri olan sosialist tovuzlu Müseyib Əliyev ilə qovlarsarılı Səlim Əliyev, bir də zəyəmli Məhəmmədəli Hacı Əhməd oğlunu tutdu və qoydu qazamata və filan...

Əvvəla, mühərrir əfəndi yəqin ki, bu məzkur [adı çəkilən] adamları tanımır. Əgər tanısaydı, yəqin ki, o cür qan tökənlərə, quldurlara, insaniyyət və islamiyyət düşmənlərinə nə sosialistlik adını və nə də müəllimlik sənətini verib bizim əkinçi və fəhlə yoldaşlarımızı təşvişə salmazdı. Ona binaəndir [ona görədir] ki, mühərrir əfəndiyə məzkur adamları mübarək "Azərbaycan" qəzetəsi vasitəsilə tanıtmağı lazım bildik. Çünki, mübarək "Al bayrağ"ın mühərrirləri və müdiri ümumən sosialist və biz əkinçi və fəhlələrin tərəfdarı olduqlarına görə, biz də razı ola bilmərik ki, millət xainləri bizim yoldaşlarımızı və tərəfdarlarımızı iğfal etsinlər.

Əvvəla, Müseyib Əliyev bizim sakin olduğumuz Tovuz mahalının Öysüzlü qəryəsindən [kəndindən] olub Nikolay hökumətinin bürclərindən olan Gədəbəyin pristavı idi. Neçə sənələr pristavlıq edib, o pristavlıq vaxtında nə qədər rüşvətlər alıb, nə qədər haqları nahaq, nahaqları haqq eyləyib, axırda Nikolayın o cinayətkar hökuməti də bunun bihəyalıqlarını qəbul etmədi, qulluğundan əzl etdi. Amma rüşvətdən böyük sərvətə malik olan hərif başladı quldurluq və oğruluğa. Başına bir dəstə düzəltdi, gecələr o dəstə əli ilə fəqir-füqəranın malını, camışını, atını oğurlatdırdı. Bütün camaatın nifrətini qazandı. Keçən sənəki hökumətsizlik vaxtında bir ayrı fikrə düşdü. Başladı Qazaxdan, Qovlarsarıdan və Zəyəmdən özü kimi quldurbaşıları yığdı, gətirdi Tovuza. Şura, məsləhət, məşvərət etdilər. Axırda hökumət qurmaq fikrinə düşdülər. İstədilər ki, bir "Şəmsəddin" hökuməti təşkil etsinlər. Müseyib padişah, Səlim Əliyev baş vəzir, Məhəmmədəli və 4 nəfər zəyəmlilər və 3 nəfər də qazaxlılar, o biri vəzirlər, müxtəsər bunlar bu fikirdə ikən türklərin gəlmək xəbəri gün-gündən şaye oldu [yayıldı]. Müseyib təşvişə düşdü. Qazaxdan, Zəyəmdən və Qovlardan yoldaşlarını telefonla çağırdı, yığdı başına. Böyük şuralardan sonra Gürcüstan Hökumətinə tabe olmağı qərara aldılar. Özləri yalandan camaatın dilindən mirski priqavorlar [camaat qərarı] düzəltdilər, Gürcü Hökumətinin yanına getdilər. "Bizim camaat nə Türk Hökumətini istəmir və nə də Azərbaycan Hökumətini, biz sizə tabe oluruq", dedilər. Müxtəsər edirəm, vəilla əgər bunların millət və vətən haqqında, camaat haqqında eylədikləri zülümlər, xəyanətləri tamamən yazsaq bir divan əmələ gələr.

Ümum dünyaya məlumdur ki, bəylər biz əkinçi və rəncbərlərə nə qədər zülümlər edibdirlər. Amma Allah özü şahiddir ki, biz Tovuz mahalı və Zəyəm mahalı camaatı o sitəmlər, zülümlər ki, müseyiblərdən və səlimlərdən və o biri yoldaşlarından görmüşük, nə bəylərdən və nə müstəbid Nikolay hökumətindən bunların zülümlərinin yüzdə birini görməmişik. İndi mülahizə buyurunuz, böylə millət və vətən xainlərinə sosialist adı verməк rəvamıdır? Belə canilərə, belə alçaqlara müəllim adı verməк insafdırmı? Hərgah bizim sözümüzə inanmasanız, əlaltından bir adam göndəriniz, Gəncədən ta Qazaxa qədər ümum kəndlərdə fəqir əkinçi camaatından sual etsin. Görünüz doğrudurmu? Və bir də biz aşağıda adları yazılan əkinçi və fəhlələr siz sosialist qardaşlarımızdan acizanə rica edirik necə ki, bizi bəylərin əlindən xilas etdiniz, indi də çalışın bizi həman bu məzkur canavarların əlindən xilas edin! Bəlkə biz də bir asudə nəfəs alaq.

Haydi, yoldaşlar, bizi unutmayınız! Hökumətimizə, Parlamanımıza bizim dərdimizi deyiniz! Bizi bu zalımların əlindən də xilas ediniz! Haydi, Allah köməyiniz olsun!

25 manat verib bunu yazdırmışıq.

*Rza Qulu oğlu - əkinçi; Məhəmməd Həsən oğlu - rəncbər; Talıb Nəsib oğlu - rəncbər; Yusif Hüseyn oğlu - fəhlə; Qənbər Əli oğlu; Səməd Nəbi oğlu.*

## FƏRHAD AĞAZADƏ CƏNABLARINA MÜXTƏSƏR CAVAB

"Azərbaycan" qəzetəsində müəllimlərin kursları haqqında yazdığınız məqaləni oxudum. Qabaqda da bir məqaləniz var imiş, onu ittifaqən [təsadüfən] keçirmişəm. Bunu siz uzun-uzadı qələmə çəkib bəzi fikirlər edirsiniz. Əmin olunuz, mən rusca ilə bərabər türk qəzetələri də oxuyuram. Bu vaxta qədər cavabın təxirinə məşğələmin çoxluğu və son vaxtlarda vücuduma ariz olan [üz verən] xəstəlik səbəb olmuşdur.

İşin həqiqətinə gəlincə: Əskidən bəri şəhərimizdə iki qisim milli ibtidai məktəb mövcud idi ki, birisi müsəlmanlara, o birisi ermənilərə məxsus idi. İstibdad dövründə bu məktəblər rus lisanında idi. Hürriyyət və istiqlaliyyət dövründə isə hər millətin ibtidai milli məktəbləri öz ana lisanında olacağı qəbul olduğundan, ümum dərslər hər millətin öz dilində oxunması lazımdır. Bu xüsusda Azərbaycan Hökumətinin qəti surətdə hökmü yəqin ki, cənabınıza da məlumdur. Fəqət türk məktəblərindən başqasında hökumətimizin

rəsmi lisanı olan türk dilinin oxunması dəxi məcburidir. Necə ki, istibdad dövründə məktəblərimizin bu şəkildə olması üçün həmişə çalışırdıq, indi də bu hürriyyət və müsavat dövründə və demokrat hökumətimizin zamanında başqa millətlər haqqında istibdad dövrünü yaşatmaq hürr və vicdanlı hökumətimizin məsləkinə ziddir.

Açılan kursların ümdə məqsədi, müəllimlərimizə ana dilini və ədəbiyyatını mükəmməl surətdə öyrətməkdir. Bundan əlavə, türk müəllimlərinin kursunda ülum və fünuna [elmlərə və fənlərə] dair istilahat [terminlər] dəxi oxunulacaq. (Onu da bilmək lazım gəlir ki, Bakıda olan türk məktəblərimizdə köhnə müəllimlərdən azı qalıb, əksəri cavan müəllimlərdir.) Bu məqsədlə Bələdiyyə türk müəllimlərinin kursuna 15 min rublə və erməni müəllimlərinin kursuna dəxi 15 min rublə buraxmışdı. Bu izahatdan sonra möhtərəm Fərhad cənabları da mənim fikrimə şərik olub erməni müəllimləri üçün kurs açılmasına etiraz etməz, zənn edirəm.

Müəllimlərə göndərdiyim məktubların rus lisanında yazılmasına etiraz edirsiniz. Haqqınız var, lakin bu etirazınız mənə deyil, Bələdiyyə İdarəsinə aiddir. Zira ki, Bələdiyyədə cəmi məktublar rus lisanında yazılır. Bu məsələni özünüz daha gözəl bilirsiniz. Şübhəsiz Bələdiyyədə məktubat [yazışmalar] türk lisanında olsaydı, daha gözəl olardı. Bu isə mənim qüsurum deyil.

Əfəndim! "Ohanesyanlardan ibrət alınız" deyə etdiyiniz tövsiyəyə əfsus ki, əməl edə bilməyəcəyəm. Zira ki, mən ohanesyanların məsləkinə əskidən müxalif olduğumu şübhəsiz özünüz çox gözəl bilirsiniz. Mən isə Xatisov və Vermişevlərdən ibrət almağı sizə məsləhət görməyirəm.

*Bələdiyyə Məkatib [Məktəblər]*
*şöbəsinin müdiri:*
*Ə[li] C[abbar] Orucəlizadə*

## FÜQƏRA HALINDAN

Hal-hazırda şəhərimizdə kasıbların çətinliklə dolandığı hamıya məlumdur. Binəva kasıblar əvvəl aclığa mübtəla olub, sonra xəstə düşürlər. Naxoş olan kasıblardan çoxu ac-susuz ölüb canını qurtarır. Bunun önünü almaqdan ötrü həkimlər təyin edilmişdir ki, naxoş kasıblara pulsuz baxsınlar. Bir də iaşə məntəqəsi açdılar, kasıblara pulsuz xörək verilsin.

Üç gün bundan əqdəm [qabaq] Verxni-Naqornı küçədə, Hacı Hacıbaba məscidində 7-inci iaşə məntəqəsinə yolum düşdü. Gördüm pəncərənin qabağında neçə nəfər durub 50 qəpiyə xörək alırlar. Bəzi iki manat verib dörd adamın payını alır. Bir də gördüyüm bir qadın əlindəki kağızı mənə uzadıb gözünün yaşını tökə-tökə ay qardaş mənə xörək verməyirlər, pulum da yoxdur, deyə fəryad etdi. Mən kağıza baxıb gördüm Starı poçtovı küçədə ev komitəsi sədri Ağaverdi Nəcəfzadə tərəfindən bu şəhadətnamə verilmiş. Şəhadətnamənin dalında "Podrayon [məhəllə] komitəsi" bu qadının 6 baş kasıb ailəsi olduğunu təsdiq eyləmişdir.

Kağız əlimdə orada alış-veriş edən xanıma dedim niyə bu qadına xörək verməyirsiniz, bu da şəhadətamə, bunun kasıb olduğunu sübut edir. "Yox biz buna xörək verə bilmərik. Gərək kontrol qol çəkə" – deyib kağızı mənə verdi.

Bu qadını rədd edən xanım cərgə ilə hammalları oturdub olara doyuncan xörək satır. Hansı ki, doyunca xörək yeyən hammallar gündə 40-50 manat pul işləyə bilir, çörəyi 6 manata da alıb yeyə bilər.

Məlum olur ki, bura "Pitatelni punkt" [iaşə məntəqəsi] deyil, bəlkə bir ticarətxana açılmışdır. Ümidvarız bundan sonra ev komitəsindən şəhadətnaməsi olmayanlar pul ilə və ya pulsuz, kasıbların payına şərik olmaqdan ümidlərini kəsələr.

*Əliverdi Nəcəfzadə*

## BAKI XƏBƏRLƏRİ

- Bələdiyyə İdarəsi xidmətçiləri Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdirlər ki, hər yerdə müştərək müqavilənamə [kollektiv müqavilə] təcdid edildiyi [yeniləndiyi] halda, hələlik Bələdiyyə İdarəsində təcdid edilməmişdir. Xidmətçilər rica etmişdirlər ki, Bələdiyyə Məclisinin ən yaxınındakı iclasına işbu məsələ idxal [daxil] edilsin.

- Bələdiyyə İdarəsinin 9 şubatdakı [fevraldakı] iclasında miri əqdnamələr [vətəndaşlıq aktları] bağlamaq məsələsi müzakirəsi nəticəsində qərar verilmişdir:

Bələdiyyə İdarəsinin Ədyan Nəzarətinin [Dini Etiqad Nazirliyinin] sualına qarşı cavaba məbni [əsasən] ki, denilmişdi yeni qanun layihəsi çıxanadək qayda əvvəlki kimi qalacaqdır, Bələdiyyə İdarəsi öz əsas etibarı ilə indiki qətnaməsinə bunu əlavə edir:

1) Yenidən hökumətə müraciətən rica etmək; miriyyə əqdlər vəzifəsini Bələdiyyə İdarəsindən alıb Nəzarətə köçürmək.

2) Şöbə müdiriyyəti müavinlik vəzifəsini ləğv etmək, hökumətdən cavab alanadək müdiri öz vəzifəsində saxlamalı.

3) Şöbə hökumət dairəsində fəaliyyətdə bulunduğu üçün dövləti əhəmiyyəti haizdir [daşıyır]. Bələdiyyə İdarəsi cənbində [nəzdində] qalmasını hökumət lazım görərsə, hər ayda 2000 rublə məxaricat təxsis etməlidir [ayırmalıdır].

4) Məsələ həll olunanadək şöbə müdiri müavinini başqa şöbəyə köçür-mək.

- Bələdiyyə İdarəsi Tiflisdəki Bələdiyyə İdarəsi cənbindəki Ərzaq şöbəsindən məlumat almışdır ki, Tiflisdə Gürcüstan Cümhuriyyəti şəhərlərinin ərzaq şöbələri qurultayı vaqe olacaqdır. Şöbə Bələdiyyə İdarəsindən Zaqafqaziya şəhərlərini işbu təşəbbüsata cəlb etmək barəsində onun nəzəriyyatını isticvabda bulunmuşdur [mövqeyini soruşmuşdur].

## FƏHLƏ KONFRANSINDA

Nədənsə bu konfransda Binəqədi fəhlə nümayəndələrindən bir nəfər də olsun üzv yoxdur. Burası yəqin ki, təəssüf ediləcək bir məsələdir. Zira Binəqədi müsəlman mərkəzi olduğu üçün konfransda səs verməkdən məhrum qalmışlardır.

Sədr Çurayev növbədən xaric olaraq konqreyə məlum edir ki, İngiltərə generalı Tomson Bakıdakı bütün sosialist qə-

zetələri idarələrinə kağız göndərib məlum etmişdir ki, yazdıqlarına bir qədər fikir versinlər. Onlara hürriyyəti-mətbuat verilibsə də, bu dərəcədə sui-istifadə ixtiyarı verilməmişdir. Kağızda general Tomson məlum etmişdir ki, kağız elam [elan] edilməyərək gizli saxlanılmalıdır. Çurayev kağızı oxuyur. Buna baxmayaraq kağızı elan etmişlər ki, Bakı füqərayi-kasibəsi [proletariatı] mətbuatı cilovlamaq iqdamatını [təşəbbüsünü] bilsin və nəzəri-etibara alsın.

Çurayevin nitqi Əbilov tərəfindən türkçəyə tərcümə edilir.

Bundan sonra ruznameyi-müzakirata [müzakirə gündəliyinə] keçilir. Birinci olaraq Tiflisdən övdət etmiş [qayıtmış] Parlaman üzvü [Əliheydər] Qarayev ora əh-valı barəsində məlumat verir və deyir ki:

14 şubatda [fevralda] bütün Tiflis fəhlələri çıxış yapmaq istəyirdilər. Bunların məqsədi nümayişkaranə bir surətdə hökumət dairəsinə cəm olaraq Zaqafqaziyada ingilislər tərəfindən yürüdülən siyasət barəsində məlumat istəməkmiş. Bu işdən xəbərdar olmuş ingilis komandanlığı hökumətə müraciətən məlum etmişdir ki, onlar Zaqafqaziyanın daxili işlərinə müdaxilə etmək xəyalında deyillər. Bundan sonra ingilislər Tiflisdə qüvvələnməyə başlamışlardır. Tiflisdəki kəsbkarlar [həmkarlar] ittifaqları bu işdən dolayı qət etmişlər ki, etiraz olaraq bir gün siyasi tətil elan etsinlər.

Bundan sonra Tazəşəhərə (Krasnovodsk) göndərilən komisyon üzvü ora əhvalı barəsində məlumat verərək deyir ki, hal-hazırda Aşqabadda beş nəfərdən ibarət bir Direktoriya təşkil edilmişdir ki, bütün nahiyəni idarə etməkdədir. Oraya göndərilmiş komisyonun məqsədi Aşqabadda həbsdə oturan sabiq Bakı komissarları (Caparidze, Şaumyan və qeyrilərinin) ailələrinin əhvalını məhəllində [yerində] təhqiq etmək və ümumiyyətlə ora kəsbkarları və fəhlələri haqqında məlumat toplamaq idi. Komisyon Krasnovodskda məhəlli [yerli] İngiltərə komandanlığı tərəfindən təqib edilməkdə imiş. Axirüləmr [nəhayət] Bakıdan general Tomsondan məlumat alınmışdır ki, komisyon Krasnovodskan başqa yerə buraxılmasın. Binaənileyh [ona görə] komisyon Bakıya qayıtmağa məcbur olmuşdur.

Çurayev məlum edir ki, bu günlərdə general Tomsonla bir neçə məsələdən dolayı müzakirata girişmişdi. Məsələlər cümləsindən birincisi Aşqabad məhbəsində oturan sabiq komissarlar ailələri barəsində idi. General məlum etmişdir ki, Məvərayi-Bəhri-Xəzər Hökuməti barəsində heç bir məlumatı yoxdur. Sonra general məlum etmişdir ki, Hacı-Tərxanda [Astraxanda] ingilis heyəti bolşeviklər əlində əsirdirlər. Müyəssər olarsa, onları ailələri ilə mübadilə etsinlər. "Əliəsgər" nam vaporun xidmətçilərinin azad edilməsi barəsindəki təklifimizə cavabən general məlum etdi ki, onları və Aşqabaddakı ailələri də Hacı-Tərxandakı heyətə mübadilə etmək istəyirlər.

Sonra Çurayev Caparidzenin qadınından gürcü lisanında alınmış məktubu göstərərək məlumat verir ki, qadın diqq [vərəm] xəstəliyinə mübtəla olduğunu məlum etməklə, heç olmazsa dərman göndərilməsini rica etmişdir.

Bakıdakı əhval barəsində məlumat verilərək bəyan edilir ki, Mirzayanın evində təftiş icra edilmişdir. Təftişi iki nəfər ingilis saldatı, 12 nəfər də Azərbaycan polisi icra etmişdir. Təftiş nəticəsində bir qədər kitab, bir ədəd Marksın əksi, 3840 rublə də para kəşf edilmişdir. Bunu Tomsona xəbər vermişsələr də Tomson bəyan etmişdir ki, bu işdən əsla xəbəri yoxdur. (Nitq Qarayev tərəfindən türkcəyə tərcümə edilir.)

**Qənizadə** - Yoldaşlar! Burada biri "Muxtarnamə" oxuduqda, digəri "İsgəndərnamə" oxuyur. Təklif edirəm ki, məruzəçilər öz məruzələrini kütah [qısa] söyləsinlər, zira vaxtımız bahadır.

Təklif qəbul edilir.

Bədəhu [sonra], Petrovsk-Dərbənd barəsində oraya göndərilmiş nümayəndə məlumat verir. Məruzədən ora kəsbkarlarının da fəna halda olduğu anlaşılır.

Məlik-Yeqanov məruzəçidən sorur ki, şimaldan yürüyən Denikinə onlar nə nəzərlə baxırlar? Məruzəçi deyir ki, biz Denikini inqilabçı hesab etsəydik, onun yanına gedərdik. Onu əks-inqilabçı hesab etdiyimizdən, sizdən ona qarşı müavinət [kömək] diləyiriz.

Əbilov məsələni aydınlaşdırmaq qəsdilə məlum edir ki, Petrovskda adam öldürənlər dağıstanlılar deyil, bolşeviklərdən qaçmış kazaklardır. Bunun doğruluğunu Çurayev də təsdiq edir.

Roxlin ən yaxın zamanlarda Qafqaziya Kəsbkarları Qurultayı çağrılacağını bəyanla təklif edir:

1) İngilis, Dağıstan və Məvərayi-Bəhri-Xəzər hökumətlərindən ora əhvalını nəzərə alıb lazımi tədabir ittixazı [tədbirlər görülməsi] tələb edilsin. Əks surətdə tətil kimi tədabiri xidmətçilər özləri ittixaz edəcəklər. Bu iş heyəti-rüəsaya mühəvvəl edilsin [rəyasət heyətinə tapşırılsın].

2) Aşqabaddakı sabiq komissarlar ailələri və "Əliəsgər" vaporu xidmətçilərinin Bakıya gətirilməsini heyəti-rüəsa Tomsondan rica etməlidir.

3) Mətbuat məsələsindən ötrü bir komisyon intixab edilərək [seçilərək] Tomsonun yanına göndərilməlidir. Komisyon Tomsona hürriyyəti-mətbuatın müdafiə olunmasını bildirməlidir.

Çurayev Suraxanı kəndindəki quldurlar barəsində danışaraq məlum edir ki, orada adamlar itməyə başlamışdır. Məsələn, bir nəfər fəhləni döyüb sonra quyuya salmışlar. Fəhlə şimdi xəstəxanada yatır. Çurayev bunu da dərmiyan edir [meydana atır] ki, Suraxanıda milli ədavət yoxdur. Zira ki, müsəlmanlar da buna etiraz etməkdədirlər. Fəqət orada bir quldur dəstəsi vardır ki, fənalıqlar yapır.

Konqre qət edir ki, Azərbaycan Hökuməti bunu nəzərə alsın. Sonra məlum olunur ki, konqre heyəti-rüəsası [rəyasət heyəti] iki nəfər qalmışdır, iki nəfər də intixab edilməlidir. Mübadileyi-əfkardan [fikir mübadiləsindən] sonra namizədlər səsə qoyulur. Qənizadə 133 səs, Anaşkin 174, Əbilov 166 səs alırlar. Çurayevin təklifi ilə bunların üçü də qəbul edilərək heyəti-rüəsa beş nəfər olur ki, onlardan ikisi Əbilov (Hümmət), Qənizadə (Müsavat) müsəlmandırlar.

Bundan sonra böylə bir təklif ümumiyyətlə qəbul edilir: "Fəhlə konfransı Krasnovodsk, Petrovsk və Dərbəndə göndərilmiş nümayəndələrin məruzələrini istema etdikdən [dinlədikdən] sonra işbu qətnaməni qəbul edir:

1) Sabiq komissarların ailələri azad

edilsinlər.

2) Heyəti-rüəsa İngiltərə, Dağıstan və Məvərayi-Bəhri-Xəzər hökumətlərinə müraciətən fəhlələrin əhvalını yaxşılaşdırmaq üçün lazımi tədabirin ittixazını tələb etsin.

3) Konqre heyəti-rüəsaya bu məsələlərin həlli üçün bir həftə vaxt verir. Qəbul edilmədiyi sırada heyəti-rüəsa qövldən feilə [sözdən işə] gətirilmək üçün gələcək konfransa tədabir [tədbirlər] layihəsi təqdim etsin.”

Fəhlə şurası məsələsindən dolayı konfransda yenə mübahisə başlandı. Qoqeberidze məlumat verir ki, ruslar cəm olub qətnamə çıxarmaq istədikdə müsəlmanlar müsavatçıların təhriki ilə işə xələl qatırlar. Polis də mitinqləri dağıdır. *(Müsəlmanlar miyanında [arasında] səs, etiraz qalxır.)*

**Məlik-Yeqanov** – Yoldaşlar! Biz 1917-inci sənədə fəhlə şurasının tərəfdarı olduğumuzu birinci olaraq bəyan etdik. Fəqət biz tələb edirik ki, intixabat [seçki] demokratik əsaslarla icra edilsin. Nə çıxdı? Saldatları şuraya cəm edib martda müsəlmanları qırdılar. Biz müsəlmanlar bunları gördüyümüz üçün şura tərəfdarı olmarız. *(Müsəlmanlar yerlərindən: Olmarız, olmarız!)*

Salonda küy qalxır. Müsəlmanlarla mübahisə başlanır.

**Qənizadə** - Yoldaşlar! Küy salmayınız, mətanətlə dinləyiniz! Qoyunuz düşmənlərimiz nə deyəcəklərsə desinlər. Biz öz məsələmizi yürütməliyiz.

**Məlik-Yeqanov** – Yoldaşlar! Şura əleyhinə bir biz deyiliz. Menşeviklər də bizimlə bərabər şura əleyhinədirlər.

Salonda yenə səs-küy qalxır. Müsəlmanlar yerbəyerdən Qoqeberidzeyə “Müsavat”a iftira dediyi üçün hücum edirlər və deyirlər: “Az danış! Yoxsa səni götürüb tullarıq bayıra.”

Heyəti-rüəsa güc-zor ilə aranı sakit edir. Müzakirə qət edilir [kəsilir].

**Vələdzadə** - Biz müsəlmanlar heç vaxt fəhlə şurasına razı olmayacağız. Biz deyiriz, hərgah şura olacaqsa bizi buraya heç zəhmət çəkib çağırmasınlar. *(Müsəlmanlar gurultulu alqış yapırlar.)*

Çurayev aranı sakit edir. Bundan sonra müzakirə gələn iclasa təxir edilərək o vaxtadək məhəllərindən [yerlərindən] məzbətələr [protokollar] gətirilmək qəbul edilir.

## TEATRO VƏ MUSİQİ

Mart ayının 4-ündə (yeni üsul ilə) Qafqaziya Müsəlman Mütəallimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsi teatro və müsamirə qoyacaqdır. Hacıbəyli cənablarının təhti-idarəsində [idarəsi altında] “O olmasın, bu olsun” operettası mövqeyi-tamaşaya qoyulacaqdır. Müsamirədə şərqi və qərbi rəqslər, köşək, kabare, sazəndə və başqa tərtibat olacaqdır.

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.





**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

### Arvad diş həkimləri
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həmə-vəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Elan**

Mən Möhsün Xəlilov, Məşhədi Xəlil Hacıağa oğlu Xəlilova verdiyim etibarnaməni məhv edirəm.

*Möhsün Xəlilov*
*5698*

**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**

Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru “Fani və kompaniya”, Bakı.
Telefon nömrəsi 22-28.
Poçta qutusu nömrə 13.

Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantora müraciət etmələri təvəqqe olunur.

Satılır: məftul, sabun, un, min meşok arpa, saman, kömür, fındıq hərəsindən iki vaqon.

*2693*

**Gəmi Sahibləri Cəmiyyətinin Şurası**

Cəmi gəmi sahiblərini ümumi iclasa dəvət edir. İclas “Velikobritaniya transportu” komissiyasına vəkil seçmək üçün səşənbə [çər-şənbə axşamı] günü 25 fevral saat 12-də “Qafqaz-Merkuri” cəmiyyətinin kantorunda vaqe olacaq.

*5699*

**Ərzaq Nəzarətindən**
**Elan**

Ərzaq Nəzarəti bununla Bakıdan Azərbaycan Cümhuriyyətinin sair şəhərlər və qəsəbələrinə biduni-icazə [icazəsiz] hər növ mal və yüklərin aparılmasına müsaidə edir. Yalnız qənd, pesok, çay, papiros, ispiçka, spirt, yağ, manufaktura, lobya, düyü, buğda və un məhsulu istisna edilir.

Gəncədən və Zaqatala quberniyasından taxıl çıxartmaq qadağan edilir.

Qeyd 1: Hər növ ərzaq şeylərinin və yüklərinin Bakıdan Bakı qradonaçalstvasındakı kəndlərə icazəsiz aparmağa müsaidə edilir.

Qeyd 2: Neft şeyləri, dəmir və bu cür şeylərin aparılması işlərinə Ticarət və Sənaye Nəzarəti baxır.

*Ərzaq naziri: K. Lizqar*
*Kançelyariya müdiri əvəzi: [Abbasəli bəy] Makinski*
*42*

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 358. “Q[osudarstvennı] Duma”: Rusiya imperiyasının Dövlət Duması nəzərdə tutulur.

“Daha danışmaq istəyən yoxmu?”: qəzetdə “istəyən” yerinə “istəməyən” getmişdir.

**Vükəla Şurasında**

səh. 361. “Post və Teleqraf nazirinin...”: qəzetdə “Post və Teleqraf nazirlərinin” getmişdir.

səh. 362. “Məvərayi-Bəhri-Xəzər Hökuməti”: 1918-ci ilin ortalarında Aşqabadda fəhlə üsyanı nəticəsində qurulan eser-menşevik hökuməti – Zakaspiysk Müvəqqəti Hökuməti nəzərdə tutulur.

“Qnesin”: bu ad qəzetdə təhrif edilmiş formada verilmişdir. F. Qnesin Zakaspiysk Müvəqqəti Hökumətinin Bakıdakı hərbi nümayəndəsi idi.

**Nəzarətlərdə**

səh. 362. “Fabriçnı müfəttiş”: Fabrik müfəttişləri sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin nümayəndələri idi. Fabrik Müfəttişliyi Rusiya imperiyasında sənayenin inkişafına bağlı olaraq XIX əsrin axırlarına doğru yaradılan, sənaye müəssisələrində əmək şəraitinin qanunlara uyğun olmasına nəzarət edən dövlət qurumu idi. Bakı quberniyasının Fabrik Müfəttişliyinin heyəti Baş Fabrik müfəttişindən və sahə müfəttişlərindən ibarət idi.

səh. 363. “Naberejnı küçə”: Bakıda, indiki Neftçilər prospekti.

“Nikolayevski küçə”: Bakıda, indiki İstiqlaliyyət küçəsi.

**Qəzetələrdən**

səh. 363. “Sultan”: güman ki, Hindistanın şərqində, Uttar-Pradeş əyalətinin mərkəzi olan Sultanpur şəhəri nəzərdə tutulur.

**Vətən yolunda**

səh. 365. “Hübbül-vətən min-əl-iman”: hədis; “Vətəni sevmək imandandır”.

“Ən-nasu niyam fəiza matu intəbəhu”: hədis; mənası: “İnsanlar yuxudadır, öldükləri vaxt oyanacaqlar.”

**Fərhad Ağazadə cənablarına**
**müxtəsər cavab**

səh. 368. “...Xatisov və Vermişevlərdən ibrət almağı...”: “Daşnaksutyun” partiyasının üzvü, müxtəlif vaxtlarda Ermənistanın Baş naziri, Səhiyyə, Daxili İşlər və Xarici İşlər naziri olan Aleksandr İvanoviç Xatisov və Bakıda rus dilində nəşr olunan “Baku” qəzetinin redaktoru olmuş erməni Xristofor Avvakumoviç Vermişev nəzərdə tutulur.

**Füqəra halından**

səh. 368. “Verxni-Naqornı”: Bakıda, indiki Abdulla Şaiq küçəsi.

“Starı poçtovı”: Bakıda, indiki Süleyman Tağızadə küçəsi.

**Bakı xəbərləri**

səh. 369. “...miri əqdnamələr...”: nikah, boşanma, övladlığa götürmə və s. kimi vətəndaşlıq aktları nəzərdə tutulur.

**Fəhlə konfransında**

səh. 370. “Tazəşəhər”: indiki Türkmənbaşı şəhəri.

səh. 371. “...Marksın əksi...”: Alman filosofu, iqtisadçısı və sosioloqu Karl Marks nəzərdə tutulur. Qəzetdə “Marksın” yerinə “Markın” getmişdir.

“Burada biri ‘Muxtarnamə’ oxuduqda, digəri ‘İsgəndərnamə’ oxuyur.”: “Muxtarnamə” Kərbəla hadisəsindən sonra Muxtar Səqəfinin Əhli-beyt düşmənləri ilə mübarizəsindən bəhs edən əsərlərin ortaq adıdır. Belə əsərlərdən birini – Ətaullah Hirəvinin “Muxtarnamə”sini Əliabbas Müznib fars dilindən tərcümə edərək 1912-ci ildə çap etdirmişdi. “İsgəndərnamə” isə Makedoniyalı İsgəndərin həyatından bəhs edən əsərlərin ortaq adıdır. Şərq ədəbiyyatında Firdovsinin və Nizaminin “İsgəndərnamə”ləri məşhurdur. Qənizadə bu sözlə, konfransda söz alanların uzun danışdıqlarını demək istəmişdir.

“Denikini inqilabçı hesab etsəydik...”: qəzetdə “etsəydik” yerinə “etmişdik” getmişdir.



*"Azərbaycan" qəzetinin 123-cü nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə, 26 fevral 1919-cu il, nömrə 123**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 25 cəmadiyələvvəl sənə 1337. 26 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 11-inci iclas

*(keçən nömrədən mabə'd)*

**Sədr** - Daha söz istəyən yoxmu? Məhəmməd Əmin Rəsulzadə.

**Rəsulzadə** - Möhtərəm Sultan Məcid [Qənizadə] əfəndi söylədilər ki, aşkardır onuncu nömrə siyahı Mərkəzi Komitə tərəfindən tərtib edildiyindən, hamı müsəlmanlar ona səs verəcəkdilər. Amma məsələ o qədər də aşkar deyildir. Əgər məsələ Sultan Məcid əfəndinin buyurduğu kimi aşkar olsaydı, meydana 11, 14 və qeyri nömrəli müsəlman siyahıları çıxmazdı. Camaat 5-6 müsəlman siyahısı üzərində düşündü və səsini, rəyini müdafiə etmək istədiyi yerə verdi. Bu məsələnin bir cəhəti. Bir də təklif olunur ki, "Müsavat" öz hissəsinə düşən namizədini versin, yerdə qalan namizədləri 42 nəfər versin. Biz buna etiraz etməzdik, çünki "Müsavat" həman 42 [nəfər] arasında əksəriyyət təşkil etdiyindən mexanik hərəkət etsəydi, istədiyi qədər adam keçirə bilərdi. Fəqət, biz mexanik səsə qoymaqla əksəriyyətimizdən istifadə etmək istəmədik. Lakin milli komitələr içində bir vəziyyət var ki, onu nəzərə almalıdır. Çünki siyahı məsələsində bunu böylə düşünmək olmaz. Hərçənd Milli Komitənin səlahiyyəti 42 nəfərə verilmişdi, fəqət, böylə düşünmək şəklən düz olsa da, mənən düz olmaz. Əgər bu səlahiyyəti Parlaman qəbul etsə, yenə "Müsavat" bir şey qeyb etməz. Lakin bir tənasüb əsası var ki, biz onu pozmuş olarız. Seymdə də olduğu kimi, çıxmış üzvlər yerinə mənsub olduğu firqə namizəd göstərməlidir. Biz bu əsası pozmaq istəmədik və on nömrəli siyahı daxilində qalmış üzvlər, çıxanların yerinə yeni namizəd qoymaq istədilər. Buna şəklən irad olsa da, mənən ola bilməz. Çünki müəyyən bir qisim əhali on nömrəli siyahıda olan müəyyən adamlara səs vermiş, demək o adamlara etibar etmişdir. Seçiləcək namizədlər də camaatın qismi-müəzzəminin [böyük hissəsinin] rəğbətini qazanmış olan adamların fikrinə uyğun və onları təmsil edəcək adamlar olmaq üçün, həmin siyahının üzvləri tərəfindən intixab olunmalıdırlar [seçilməlidirlər]. Şimdi o adamların yarısı yoxsa,

onu təmsil edəcək və yerlərinə nümayəndə verəcək bir mərkəz varsa, o da həman onuncu nömrəyə səs verən əhalinin etibarını qazanmış on nömrəli siyahıda olan başqa nümayəndələrdir. Siz bu haqqı onların əlindən almaqla əhalinin hüququna təcavüz etmiş olursunuz. Biz də buna mötərizik [etiraz edirik].

**Sədr** - Söz Qənizadənindir.

[Sultan Məcid] Qənizadə - Mən genə deyirəm o 8 nəfər Parlaman əzalığına [üzvlüyünə] geçəcək və biz də onlara etibar edəcəyiz. Ancaq biz burada əsasdan danışırdıq, düzdür onuncu nömrə "Müsavat"dan və Milli Komitədən ibarətdir. Bu da doğrudur ki, "Müsavat" var, amma Milli Komitə dönüb Parlaman olmuşdur. Deməli, o Milli Komitə var, mövcuddur. O vaxt 44 nəfər idi. *(Səslər: 42 idi.)* Şimdi həştad olmuşdur. İndi o həştad nəfərin ixtiyaratını "Müsavat"a vermək olmaz.

**Sədr** - Təklif var ki, müzakirat qət olunsun [kəsilsin]. Əhməd bəy, təklifinizmi var?

**Əhməd Cövdət** [Pepinov] - Təklif edərdik, o 8 adamın siyahısı verilsin 42 nəfərin səvabdidinə [təsdiqinə].

**Sədr** - Onuncu nömrə siyahının barəsində böylə bir təklif var: Parlamandan xaric olan üzvlərin yerinə bu adamlar namizəd göstərilirlər: Mustafa Vəkilov, Ağa Əminov, Yusifəli Əliyev, Məhəmmədbağır Şeyxzamanov, Məhəmməd Əli Rəsulzadə, Behbud ağa Cavanşir, Bəhram bəy Axundov və Əbdüləli bəy Əmircanov. Mən bu siyahını səsə qoyuram. Hər kim bu siyahıya razı isə əlini qaldırsın - 19, kim əleyhinə isə əlini qaldırsın - 15, kim səs verməmişsə əlini qaldırsın - 2. Deməli, məsələ qəbul olunur.

**Cəmo bəy** [Hacınski] - Kvorum yoxdur.

**Səslər** - Var, var!

**Sədr** - Mən təsdiq edirəm ki, var və keçirəm növbədəki məsələyə. Oxuyun.

**Katib** - Göyçay nümayəndəsi Hacı Hüseyn Əfəndizadənin 5 günlük, Qarabağ vəkili Qara bəy Əliverdiyevin bir aylıq, Zaqatala nümayəndəsi Bayram Niyazi Kiçikxanovun 20 günlük və Cavad bəy Məlik-Yeqanovun 10 günlük məzuniyyət haqqındakı ərizələrini oxuyur. Cavad bəy ərizəsini geri götürür. Yerdə qalanların məzuniyyəti qəbul olunur.

**Sədr** - Keçirəm növbədəki məsələyə. Söz Abuzər bəy Rzayevindir.

**Abuzər bəy Rzayev** - Dağıstan Hökuməti bizdən 10 milyon manat faizsiz borc istəyir. Hökumət bu borcun verilməsinə razıdır. Əgər Parlaman təsdiq edərsə, verəriz. Pul təcili surətdə istənildiyindən Parlaman baxıb təsdiq edənədək hökumət Senoren Konventin [Ağsaqqallar Şurasının] rizası ilə 3 milyon manat buraxmışdır. Parlaman təsdiq etdikdən sonra qalanını da verəcəkdir. Dağıstan Hökuməti bu borcu iki ilə qaytarmalıdır. Bundan əlavə, Dağıstan Hökuməti bizim hökumətimiz tərəfindən Şimali Qafqaziyada alınmış olan 90 vaqon buğda və sair ərzaq şeylərini xərcsiz buraxmağı vəd etmişdir. Əgər Parlaman qəbul edərsə, Maliyyə nazirinə tapşırılsın bu xüsusda Dağıstan Hökuməti ilə müqavilənamə bağlansın. Büdcə-maliyyə komissiyası tərəfindən borcun verilməsinə mümaniət [maneçilik] yoxdur və təklif olunur ki, Parlaman təsdiq etsin.

**Sədr** - Bu barədə kim danışmaq istəyir?

**Səslər** - Heç kəs; səsə qoyunuz.

**Sədr** - Danışan yoxdur. Səsə qoyuram. Hər kəs Cibaliyyun Hökuməti-Cümhuriyyəsinə [Dağlılar Respublikası Hökumətinə] 10 milyon manat borc verilməsinə razı isə rica edərim əlin[i] qaldırsın. Deməli, əksəriyyətlə qəbul olunur. Növbədəki məsələ spirtolara aksiz qoymaq haqqındakı qanun layihəsidir.

**Səslər** - Qalsın sonraya.

**Sədr** - Təklif var ki, bu məsələ sonraya qalsın. Məsələ gələn iclasa qalır. Komisyonlara təklif olunan namizədlər bunlardır: Ləvaehi-qanuniyyə [Qanun layihələri] komissiyasına: [Arşak] Malxazyan (erməni), [Qazi Əhməd] Məhəmmədbəyov (İttihad), [Vasili Mixayloviç] Kujim ( ) və [Abdulla əfəndi] Qəbulzadə (Müsavat). Ərzaq və məmləkət məhsulatı işlərini hüsn-idarə üçün Parlaman komissiyasına...

**Məhəmməd Əmin** (yerindən) - Komissiyalar haqqında mənim bir əsas mülahizəm var.

**Sədr** - Buyurun!

**M. Ə. Rəsulzadə** - İndiyə qədər Parlamanda komissiyalar təşkil edildikdə fraksiya hesabı ilə, yəni hər fraksiyadan birər üzvdən ibarət olurdu. Halbuki komissiya Parlamanın rəyini təmsil etməlidir. Bu mülahizə ilə paritet əsası ilə qurmaq düz deyildir. Zira Parlamanda fraksiya qüvvələri müxtəlifdir. Öylə fraksiya var 4 nəfərdən ibarətdir, öyləsi var 20-dən də ziyadədir. Ona görə də bu əsas ədalətsiz olur. Doğrudur, komisyon öz başına heç bir məsələni həll etməyib Parlamana verir, fəqət bununla bərabər komisyonun rəyinin böyük təsiri olur. Bu mülahizə ilə bu fraksiya başı (paritet) hesabının əleyhindəyiz. Doğrudur, Parlamanın bu xüsusda müəyyən bir qanunu yoxdur və nizamnamə bu günlərdə müzakirə ediləcəkdir. Nizamnamə bu məsələni aydınlaşdırar. Lakin o vaxtadək biz təklif edərdik komissiyaların doğru əsas üzərinə qurulması üçün indilik hər komissiyaya firqələr öz üzvlərinin miqdarı nisbətində nümayəndə versinlər. Ona görə biz təklif ediriz nizamnamə qəbulunadək hələlik hər 10 məbusdan bir nümayəndə hesabı ilə təşkil olunsun. Yarıdan ziyadənin də bir nümayəndəyə ixtiyarı olsun. Bu surətlə 10-24 əzadan ibarət fraksiya iki nümayəndə 25-dən 30-adək 3 nümayəndə versin. Bu əsas üzərinə 23 əzadan ibarət olan "Müsavat" fraksiyasına komissiyada 2 nümayəndə yeri verilsin.

**[Səməd ağa] Ağamalıoğlu** (yerindən) - Evinizi Allah yıxsın, görəsən bizə də bir şey düşdümü?

**Sədr** - Təklif barəsində danışan varmı?

**Səslər** - Kvorum yoxdur!

**Sədr** - Rica edirəm sakit olasınız. Deyirsiniz kvorum yoxdur. Bir neçə qanun var ki, onlara baxacaq komisyon yoxdur. Yoldaşlarınızı buraxmayınız çıxıb getsinlər. Papiros çəkmək bəhanəsi ilə dişarı çıxıb gedirlər, işlər də qalır. Heybətqulu əfəndi, danışmaq istəyirsiniz buyurun!

**[Heybətqulu] Məhəmmədbəyov** - Cənab sədr buyurdu bir neçə komissiya təşkili lazımdır. Bir para layihə var ki, onlara baxmaq lazım gəlir. Sədrin buyur-

duğuna görə, komissiyalar təcili olduğundan mən təklif edərdim bu komissiyalar bu saat köhnə əsas ilə intixab edilsinlər [seçilsinlər]. Nizamnamə Parlamana gəldikdən sonra təzə əsasla intixab edərik.

**Sədr** - İclasda 35 adam var. Kvorum olmadığından iclası qapamağa məcburam. Rica edirəm, gələn iclasın vaxtını təyin edəsiniz.

**Səslər** - Divani-Rəyasət təyin etsin.

**Sədr** - İclası qapanmış elan edirəm.

İclas saat 5-ə 20 dəqiqə qalmış qapanır.

**Hökumətin istefası**

Məclisi-Məbusanın 25 fevral iclasında Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski həzrətlərinin istefa məktubu oxunaraq qərar verilmişdir: Bu Kabinənin istefası qəbul edilərək yeni kabinə təşkili üçün namizəd tapmaq Məclisi-Məbusan sədrinə mühəvvəl edilsin [tapşırılsın] və yeni kabinə təşkilinədək məmləkətin idarəsi sabiq Kabinəyə tapşırılsın.

## SÜLH ƏTRAFINDA

**Azərbaycan heyəti-mürəxxəsəsinin Parisə əziməti**

İstanbuldan alınan xəbərlərə görə, Azərbaycan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] İstanbuldan çıxaraq Parisə mütəvəccihən əzimət etmişdir [Paris istiqamətində yola düşmüşdür].

**Böyükada müşavirəsi**

Parisdən xəbər verirlər ki, estonlar, latışlar, litvalılar və ukraynalılar Böyükada müşavirəsinə gəlmək üçün Müttəfiqlərin dəvətini qəbul eyləmişlərdir.

## TELEQRAF XƏBƏRLƏRİ

Kiyev, 18 fevral - Şura qoşunları Kiyevi işğal etdikdən sonra burada icra komitəsi təşkil edilmişdir. Komitə rus, yəhudi və ukrayna dilində bir qəzetə nəşrinə qərar vermişdir. Kiyevdə olan fabrikaçıları bolşeviklər 200 milyon manat hərbi naloq verməyə məcbur etmişlərdir. Bu xüsusda fabrikaçıların bir neçə iclasları olmuş, müxtəlif dəstələr arasında naloq təqsim edildikdə [böləndükdə] ixtilaf əmələ gəlmişdir.

**Çerniqov** - Kiyev qəzetələri xəbər verirlər ki, Odessa, Nikolayev və Xersonda aclıq üsyanı başlanmışdır.

**İrlandiyada iğdişaş yoxmuş**

Qafqaziyada olan İngiltərə heyəti İrlandiyada iğtişaş olmadığını xəbər verir.

## QƏZETƏLƏRDƏN

- Türklər Qarsdan çıxmışlardır və tədricən Qars mahalından da çıxırlar.

- “S. R.” qəzetəsinin məlumatına nəzərən [görə], Ənzəlidə iranlılar Lianozovun mədənini işğal və bütün əmələləri [fəhlələri] həbs etmişlərdir. Rusiya səfarətxanası mədən məsələlərinin həllini təxirə saldığı üçün bu hallar meydana gəlmişdir. Ənzəlidə olan ruslar bu münasibətlə həyəcana düşüb bu barədə general Prjevalskiyə müraciət etmişlər.





**General Baratov**

İrandakı rus qolordusunun [korpusunun] sabiq komandanı general Baratov Hindistandan Batuma qayıtmışdır. Oradan Tiflisə, Tiflisdən də Bakıya gələcəkdir.

* Kiyevdə məişət adi halına düşür. Hökumət idarələri işə başlayırlar. Kiyev, Şura qoşunları tərəfindən işğal edildiyi üçün Odessada böyük həyəcan vardır. Bir çoxları Odessanın Şura qoşunları tərəfindən işğalını zənn etdiklərindən Odessadan çıxırlar.

* Şura qoşunları Kiyevi işğal etdikdən əvvəl hökumət banklarında bulunan 4 milyard paranı alıb özləri ilə bərabər aparmışlar.

**İstanbulda yunan qoşunları**

Bern, (13 fevral) - Atina acentəliyinin məlumatına görə, yunan qoşunları İstanbula daxil olmuşlardır.

Vilna, (18 fevral) - Şərqi Prussiyadan övdət edən [qayıdan] Rusiya hərbi əsirləri saxlanılıb cəbrən [zorla] Könüllü nəfərləri cərgəsinə alınırlar və onları sərhədi saxlamağa məcbur edirlər.

* Havas acentəliyi xəbər verir ki, mayda həftədə bir dəfə Qahirə ilə Kəlküttə (Hindistandadır) arasında təyyarə işləyəcəkdir.

## NƏZARƏTLƏRDƏ

**Azərbaycan və Dağıstan müqavilənaməsi**

Bakı, 29 noyabr 1918. Bir tərəfdən Azərbaycan Hökuməti-Cümhuriyyəsi namına [adına] Ticarət və Sənaye naziri vəkili Behbud xan Cavanşir və Maliyyə naziri Məhəmmədhəsən Hacınski hökumətin noyabrın 28-indəki qərarı mövcibincə [əsasında] və digər tərəfdən Dağıstan Hökuməti-Cümhuriyyəsi vəkilləri Bahadır bəy Mallaçı-xan və İbrahim bəy Heydərov zeyldəki maddələri havi [aşağıdakı maddələrdən ibarət] işbu müqavilənaməni əqd və imza etdilər [bağladılar və imzaladılar]:

1) Dağıstan Hökuməti noyabrın 1-indən başlayaraq iki illik müddətinə faizsiz olaraq Azərbaycan Hökumətindən 10 milyon borc alır.

2) Əkinçilik rayonlarında Dağıstan Hökumətinin məmuriyyəti vücuda gətirildiyi təqdirdə həmin cümhuriyyət aşağıdakı 3-4-cü maddələr mövcibincə öz borcunu taxıl ilə ödəməyə borclu olur.

3) Hər iki cümhuriyyət birər şəxs təyin edirlər. Bunlar da öz aralarındakı etilafa [razılığa] görə üçüncü bir şəxs intixab edib [seçib], hər üçü bir komissiya təşkil edirlər.

4) Müqavilənamənin 3-üncü maddəsində göstərilən qərar üzrə təşkil edilən komissiya, 2-ci maddə qərarı ilə Azərbaycan Hökumətinə veriləcək taxılın verilməsi müddətini, miqdarını və cinsini müəyyən edir.

5) Azərbaycan Hökumətinin ixtiyarı vardır ki, Dağıstan Cümhuriyyətinin hər bir yerində Dağıstan Hökuməti nümayəndələrinin iştirakı ilə məzənnə qiyməti ilə olaraq öz acentələri vasitəsilə taxıl alsın.

Bu qərarla alınan taxılın Azərbaycana gətirilməsi üçün Dağıstan Hökuməti tərəfindən heç bir mümaniət [maneçilik]

göstərilməyir.

6) Həman 10 milyon hesabına olaraq Dağıstan Hökuməti həmin il noyabrın 28-inə qədər müxtəlif vaxtlarda 3 milyon manat almışdır.

Qalan 7 milyon isə dekabr ayı ərzində hissə-hissə verilməlidir.

Həmin müqavilənamə Bakı şəhərində hər iki tərəfin imzası ilə iki nüsxə yazılmalıdır.

Əlavə maddə: Dağıstan Hökuməti Gürcüstan Hökuməti ilə bir yerdə kağız pullar kəsmək sazişinə girişsə, məzkur [deyilən] borc həmin kağız pullar buraxıldığı gündən altı ay müddətindən gec olmamaq şərti ilə əda edilməlidir [qaytarılmalıdır].

Azərbaycan Hökuməti vəkilləri: Məhəmmədhəsən Hacınski, Behbud xan Cavanşir.

Dağıstan Hökuməti vəkilləri: Bahadır Mallaçı-xan, İbrahim bəy Heydərov.

*(Əslinə mütabiqdir)*

## TÜRKCƏ DƏFTƏRDARLIQ
## [MÜHASİBAT]

Hər mülkün, hər xırda bir imarətin tərtibi memar, dülgər, bənna, daşçı, dəmirçi kimi bir çox sənətkarların iştirakı ilə əncama gəlir. Bunlardan bir neçəsi, hətta təkcə biri işdən boyun qaçırarsa, mətlub [tələb olunan] təmirat yarımçılıq qalar, bəlkə heç də düzəlməz. Bu bir balaca təşbeh və timsaldır ki, bunu dövlət və millət maraqlıları heç vaxt gərək unutmasınlar. Zira dövlətin təşkilatı, onun ağırlığı örfən [ənənəyə əsasən], ədəbən, elmən; tüccar, əmələ və əkinçi kimi bir çox əsnafın iştirakı ilə həll və rəf olunar. Hər sinif və bəlkə hər əfradi-millət [vətəndaş] özünə məxsus vəzifəsini bitirdiyi əsnada mənfəəti-şəxsiyyəsindən [şəxsi mənfəətindən] artıq mənfəəti-milliyyəsini [millətin mənfəətini] düşünməlidir. Mənfəəti-milliyyə mülahizə olunmazsa, hər kəs öz güzaranı üçün çalışarsa, hər sinif məhz cibinin dolmağına səcdə edərsə, qəyur [qeyrətli] cavanlarımızın, vətən şühədamızın [şəhidlərimizin] tökülmüş qanı ilə qazanılmış hakimiyyətimiz yenə əlimizdən çıxar, yenə özgələrə möhtac, yenə özgələrə əsir olarıq. Bir dəfə düşünülsün ki, zalımların boyunduruğu altında qalmaq, qasiblərin [qəsbkarların, işğalçıların] ayaqları ucunda sürünmək öylə bir ağır hallardır ki, öylə bir rəzalətdir ki, bugünkü vəhşilərin ən dəniləri [alçaqları] bunu qəbul etmək istəməyir. Bakının altı aylıq əsarəti unudulmasın. Türk qeyrəti və müsəlman namusu olan bir şəxs bunu unuda biləcəkdirmi ki? Bakı xalqının məhkumiyyəti əsnasında ruhanilərdən kimi güllələndi, tacirlərin mədənləri, paraxodları əllərindən alındı, özləri müflis qaldı. Varlılar yoxsul oldu. Yoxsullar çörəksiz qaldı. İşlilər işsiz, fəhlələr ac, əkinçilər çılpaq, imdad istəyənə ölüm, çörək istəyənə daş verildi. Müsəlmanlardan hangi bir sinifə ehtiram göstərildi? Ürəfayamı [ziyalılaramı], tacirlərəmi, füqərayamı? Ziyalılarımız bolşevik əlindən qaçıb gizləndi. Tacirlərimizin ali saraylarını meyxanalara yaxud tövlələrə döndərdilər. "Cümlə cahan füqərası birləşin" deyib bağıran "ağalar" müsəlman füqərasının qanını içirdi. Miskin fəhlə və hamballar yüzlərcə





öldürülürdü. Meyitləri də quyulara doldurulurdu. Bumu füqəraya nicat, bumu demokratlara imdad?

Həzərat! Keçmiş günləri fəramuş etməyin [unutmayın]. Bugünkü hakimliyin, bugünkü nemətin qədrini bilin!

Milləti-hakimə [hakimiyyət qazanmış millət] olduğunuzu düşünüb də başınızın üstündə asılmış məhkumiyyətin hədə toxmağını nəzərdə tutun ki, məbada bir gün yenə başınıza taqqıldamasın!! Öylə olarsa, məhşərnizə, qiyamətinizə bir də bu dünyada hazırlaşın!

Öylə zənn olunmasın ki, "Türkcə dəftərdarlıq" ünvanının bu fəğanlara heç də dəxli yoxdur! İrad olunmasın ki, tacirlərin mənfəəti-şəxsiyyəsinə xidmət edən dəftərdarlığın millətlə heç də əlaqəsi yoxdur! Bərəks [əksinə] millət və hökumət təsisatının ehtiyacı bircə ürəfa və ziyalılarımıza deyil, bəlkə əhalimizin ənvai təbəqatına [müxtəlif təbəqələrinə], hətta dərviş və hambalına qədər hamının iştirakı, hamının ictihadı ilə əsas tapacaqdır.

Aya [bəs], millətin əsası nədən ibarətdir? Millətin əsası zəki üləmanın [alimlərin] elmi ilə, ürəfanın mərifəti ilə, ərbabi-fənnin hünəri ilə, zənginlərin malı ilə, əmələnin zəhməti ilə, əkinçinin əməyi ilə və tamam əhalinin də canı və fədakarlığı ilə sabit və bərqərar olar.

İştə hər zəhmətkeş, hər sənətkar özünə məxsus kəsbkarlığı dalınca gedərkən məşğuliyyətindən millətinə xeyir və ya zərər yetişə biləcəyini qabaqca düşünməlidir. Tacirlərimiz düşünsünlər ki, bahalığın ağırlığı millətin füqərası üçün böyük bir cəhənnəm qapısıdır. Bugünkü müsri [yoluxucu] naxoşluqlar ki, həm varlıları, həm də yoxsulları bərabərcə qırıbçatır, bahalığın bəlası deyilmi? Məmurların rüşvətxorluğu hökumətin əsasına böyük bir sədəmədir [zərbədir]. Bunu rüşvət alanlarla bərabər rüşvət verənlər də düşünsünlər. Əkinçilər, fəhlələr anlasınlar ki, onların zəhməti və hümməti ilə vətənin övladı yaşayır, aclığın qabağı alınır. Bəs zəhmətlərini, hümmətlərini birəbeş, birə-on artırsınlar. Bir vaxt Qarabağ kandravatçıları [qaçaqmalçıları] Rusiyadan minlərcə tüfənglər gətirib əğyara, millətin düşməninə böyük qiymətlərə satdılar. Axırda nə oldu? Həman tüfənglərlə yüzlərcə müsəlman əhalisi qətl olundu. Bəlkə, kandravatçıların öz əmiləri, dayıları, hətta özləri tələf olundu. Bu fəqərə [hadisə] "Be mən çe?" deyib axırını mülahizə etməyənlərə ibrət dərsi olsun. Oğruları, quldurları, qatilləri gizlədib hökumətə verməyənlər bilsinlər ki, böylə hərəkətlərlə millətə uçurumlar hazır edirlər ki, həman uçurumlara millətlə bərabər özləri də yıxılacaqlar. Rum tayfası kimi qədim millətlərin tarixi nəzərdən kənar olunmasın. Onların qəza və qədəri bizim də başımıza gələ bilər. Əlhasil, bugünkü mənfəəti-şəxsiyyə gözümüzə pərdə çəkməsin.

Milyonçuların ehsanına darüləcəzələr [qocalar evi], darüşşəfalar [xəstəxanalar], üniversələr [universitetlər] təsis olunacaqdır. Buna iman və etiqad edənlərdənəm. Lakin zənginlərin hümmət və qeyrəti ehsanla deyil, bu gün ən xırdaca şeylərdən, məsələn türkcə dəftərdarlıq kimi məsələlərdən başlanmalıdır.

Hökuməti-müstəbidənin [istibdad hökumətinin] məcburiyyəti ilə müsəlman ticarətxanalarında müamilati-ticariyyə [ticarət əməliyyatları] siyahıları, yəni ticarət

dəftərləri rusca saxlanılmalı idi. Türkcə saxlanılmış dəftərlər rus məhkəmələrində qəbul olunmayırdı. Zənn edirəm ki, bu gün bu məcburiyyətə daha ehtiyac qalmamışdır. Tacirlərimiz qeyrətə gəlsinlər. Dəftərdarlarından tələb etsinlər ki, bundan sonra dəftərləri türkcə yazsınlar. Bu bir çətin məsələ deyil. Osmanlı türklərində "türkcə dəftərdarlıq" üsulu mövcuddur. Bunu rusca hifz etmiş zəvat [öyrənmiş şəxslər] türkcəsini də on beş günün ərzində öyrənə bilərlər. Buna dair hətta dəftərdarlıq kursu da açmaq heç də çətin işlərdən deyil. Türkcə dəftərdarlığı təlim edə biləcək müəllimlərimiz də Bakıda mövcuddur. Bunu istəyənlər, arzuməndlər [arzu edənlər] tapılarsa, əlbəttə onlar üçün bir kurs da açılar.

Ticarət dəftərləri türkcə saxlanarsa, bunun millətə faydası çox olar:

1) Ticarətxanalarımız türkləşər, milliləşər.

2) Bir çox müsəlman dəftərdarları [mühasibləri] iş başına dəvət olunub, çörək və güzəran sahibi olarlar.

3) Bu olarsa, məhkəmələr də mürurizamanla [vaxt ötdükcə] milliləşməyə məcbur olarlar.

İştə, tacirlərimiz il başından istifadə edərək fədakarlıq deyil, cüzi bir təşəbbüsat ilə, balaca bir hümmətlə vətənin bünövrəsinə bir daş qoysunlar. Sübut etsinlər ki, ehtiyaclarımızın rəfinə [aradan qaldırılmasına] hamı ilə bərabər onlar da çalışırlar. Rusca deyil, türkcə dəftərdarlığın maraqlı[sı] olduqlarını sübut etsinlər. Tacirlərə yadavərlik etdik [yadlarına saldıq]. Tacirlərin ittifaqı vardırsa, yəqin ki, iş bir az da sürətlə yapılar. Kim əvvəl başlayacaqsa, mətbuat vasitəsi ilə bildirsə, gözəl olardı. Zira bunun intizarını çəkən çoxdur. Bəlkə dəftərdarlar da öz mülahizələrini bildirəcəklər. Buyursunlar. Xülasə, bunun müştaqında və intizarında davam ediriz!

*Fərhad Ağazadə*

## POSTA VƏ TELEQRAF MƏKTƏBİ

Azərbaycan posta və teleqraf işlərinin müşkülatlara, maneələrə giriftar olmasına birinci və baş səbəb posta və teleqraf müəssisələrimizdə öz xalqımızdan həqiqi məmurlarımızın yoxluğudur. Digər səbəbi isə, Azərbaycanda mövcud posta və teleqraf müxabirat və münasibatının [rabitə və əlaqəsinin] məmləkətin tələb etdiyi ehtiyacı üzrə təsis edilməməsidir. Zatən Rusiyada posta və teleqraf işləri xəzinəyə milyonlara baliğ [çatan] mədaxillər gətirmiş, fəqət yenə məmləkətin və əhalinin tələbinə və ehtiyacına riayətən təsis edilmədiyindən çox mənfəətlərdən məhrum qalmış, baxüsus [xüsusilə] Qafqaziyada düz və həqiqi posta işçiləri olmadığından daha da fəna məhsul vermişdir. Bu cəhətləri Azərbaycan Hökuməti nəzəri-diqqətə alaraq Azərbaycandakı posta və teleqraf işlərinin və müəssisələrinin tənzimatına və təkmilatına [nizama salınmasına] iqdam etmişdir [başlamışdır]. Əlbəttə, əgər məmləkətin posta və teleqraf işləri birinci mədəni damar mənziləsində [yerində, mövqeyində] görülərsə, onun nəşvü-nüması [inkişafı] xüsusunda hər bir tənzimatın nə qədər vacib və mühüm olduğu təbiidir.

Binaənileyh [ona görə], tənzimatın birinci və baş rüknü [ünsürü] əlbəttə Nəzarət tərəfindən açılan posta və teleqraf məktəbidir ki, buradan yerli, həqiqi məmurlar, işçilər çıxacaq. Kəza [eyni zamanda] həmin məktəb məmləkətimizin həyatına, təbiətinə, ehtiyacına, ruhuna, lisanına aşina, ixlaslı [səmimi, sədaqətli], elmli məmurlar buraxmaqla müəssisələrimizdə bulunan əski tərbiyəli, [əski] əxlaqlılara yer qalmayacaqdır.

Posta və teleqraf məktəbini bitirəcək olanlar məmləkətin hər bir nöqtəsinə dağılıb, az bir zamanda hər yerin postaya olan ehtiyacını, onun əhvalını dərk edib lüzum görüləcək şeyləri yapıb, həm də müəssisələrdə mənsəbdarlıqla [vəzifə tutmaqla] məşğul olan, toza batmış, ruhu sönmüşlərə həyat bəxş edəcəklərdir. Bu təzə qüvvələr hökumətə posta və teleqraf nöqsanlarının tənzimi və təshihi [nizamlanması və düzəldilməsi] yolunda çalışıb, lazımi ləvazimatın verilməsinə, yəni məmləkətdə posta və teleqraf müəssisələrinin çoxalmasına və baxüsus [xüsusilə] məmləkətimizdə təzəcə başlamış telsiz teleqraf (radio) işlərini[n] – ki ona dəniz hərəkatı işlərində, məhəlli [yerli] ticarət, vapor işlərində böyük ehtiyac görülməkdədir – təkmil olunmasına [kamilləşməsinə] müsaidət edəcəkdir. Radio müxabiratının mükəmməl bir vəchlə təsis olunması üçün ayrıca şöbə açılacaqdır.

Bu açılan posta və teleqraf məktəbinin məqsədi birinci növbətdə posta və teleqraf məmurlarını, teleqraf işlərinin icrasına texniklər, mexaniklər hazırlamaqdır. Məktəbdə təhsil zamanı üç dövrə, kursa ayrılır və bütün təhsil zamanı bir sənə olacaqdır. Hər kursa dair ayrı-ayrı proqrammalar hazırlanmışdır. Dərs oxumaqdan savayı təcrübə üçün postaxanalarda, teleqraflarda, karxanalarda və teleqraf xətlərində lazımi təcrübələr və səyahətlər olacaqdır.

Məktəbə hər bir türkcə və rusca savadlı olan şəxslər daxil olarlar. Müsəlmanlara türkcəni bilmək vacib və ruscadan da az savadlı olmaq, qeyri-müsəlmanlara isə rusca savadlı və türkcə danışığını mükəmməlcəsinə bilmək lazımdır.

O şəxslər ki, onların savadları və bilikləri edadi məktəblərin beş klasından artıqdır, onlar posta və teleqraf işlərini gözəlcə bildikdə, tezcə bir kursdan digər kursa keçmək ixtiyarı verilir. Məktəbi bitirdikləri zaman da dərhal onları hökumət Azərbaycandakı posta və teleqrafxana müəssisələrində xidmətə təyin edəcəkdir. Dərs haqqı az miqdardadır. Məktəbin idarələnməsi Posta və Teleqraf Nəzarətindədir.

Fövqəlzikr [yuxarıda adı keçən] posta və teleqraf məktəbi haqqında bir qədər olsa da müxtəsər məlumatın verilməyindən məqsudum həmin məktəbin bizcə nə qədər mühüm və nə qədər faydalı olacağıdır. Gərək Azərbaycan türk əhalisi posta və teleqraf məmurlarına olan ehtiyacımızı düşünüb təhsilini itmama yetirməmiş [tamamlamamış] çocuqlarını, yəni sinni-rüşdə [həddi-büluğa] yetmiş övladlarını həmin məktəbə verməli. Unutmamalıdırlar ki, hazırda müəssisələrimizdə bulunan posta və teleqraf məmurlarımızın içində çox az və bəlkə də yüzdə beş faizi müsəlmanlardandır.

Posta və teleqraf işlərinin bütün məsuliyyətli və mühüm məmuriyyətləri qeyrilərin əlindədir və bu üzdən məxfi teleqraf müxabirələrimiz bəzən bədxahlarımızın əllərinə yetişir. Bu cəhətləri Pos-

ta və Teleqraf naziri hәzrәtlәri nәzәrә alaraq hәmin bu mәktәbi zatәn Azәri türklәri vә müsәlmanlar üçün açdırdı ki, oradan hәqiqi vәtәnini vә millәtini sevәn, doğru vә sadiq mәmurlar çıxsın da mәmlәkәtinә canü dil ilә qulluq etsin ki, bәdxah xaricilәrә möhtac qalmayaq.

*Posta vә Teleqraf Nәzarәti kargüzarı: D. Rәhimli*

**İŞLӘMӘK ZAMANIDIR**

Biz müsәlman millәtinin şimdiyә qәdәr nә qәdәr әsarәt vә mәzәllәtlә [zәlilliklә] acı günlәr vә zamanlar keçirdiyimiz hәr kәsә mәlumdur. Şu mәtlәbi inkar edәcәk cavabın fәqәt bir müxtәsәr dәlili biz millәtin elmsizlik üzündәn cәhalәtdә qalmağımızdır. Ona görәdir ki, yeni parlamış Azәrbaycan nam [adlı] istiqlaliyәtimizin kәndi millәtinin gәnclәrindәn, әfradlarından [fәrdlәrindәn] kәndisinә bu gün dә imdad edәrәk baqi [diri; әbәdi] qalması yolunda elmlә çalışacaq hәr kimsәsi varsa, bir an rahat vә asudә olmayıb, bir neçә vaxtlar millәti uğrunda zәhmәt çәkib çalışmaları lazımdır.

Mәsәldir, deyәrlәr ki, özgә özgәnin sifarişini lәlә boyatısı ilә söylәr. Bizim bu qәdәr qan töküb tapdığımız istiqlaliyyәtimizin aparatı özgәlәr әlindә olub, axıra qәdәr davam edәrmi? Aya, görәn bizim istiqlalımızda lazım olan qәdәr öz kömәkçimiz var ya yox? Әlbәttә var. Nә qәdәr olmasa, arxadan gәlәn kömәk yetişәnә qәdәr çatar. Bәs onlar hanı?

Әfsuslar olsun ki, onlar bu saat mәnfәәt yolunda ciddәn can fәda etmәkdәdirlәr. Şimdiyә qәdәr cürbәcür işlәrdә çalışan ziyalılarımız “mәvacib mәni görmür, Azәrbaycan Hökumәti verәn mәvacib mәni dolandırmır” – deyә düşüblәr çöllәrә. Nә var, ticarәt edәcәyik ki, biz dә milyoner olaq! Dәxi çәkdiyimiz zәhmәt bәsdir.

Doğrudan bu hal şayani-tәәccübdür [tәәccübә layiqdir]. İndiyә qәdәr rus xidmәtindә bulunub o vaxt da mәişәti tәng [çәtin] keçәn ziyalılarımızdan soruşduqda ki, balam, niyә bir peşәyә getmirsәn? Bu mәvacib axır sәni dolandırmır? Cavab verirdi ki, nә edim, millәti buraxmaq olmaz. Çalışaq görәk bir tәhәr müsәlman uşaqların ali mәktәblәrә zada qәbul etdirә bilirikmi? Bilmirәm o vaxt niyә öylә idi. İndi hamısı milyoner olmaq istәyir!

Bir tәrәfdәn dә istudentlәrimiz, tәlәbәlәrimiz, ali mәktәb qurtaran gәnclәrimiz nә tövr çalışırlar? Tamam dәmiryolda kontrolyor, vaqon nazirlәri [müfәttişi] olublar. Görәndә deyirsәn, canım, niyә gedib ayrı qulluqda işlәmәyirsiniz? Nazirlәrimiz xüsusi işlәrin özgә millәtlәr әlinә verir, niyә gedib oralarda olmursunuz? Yaxşı da mәvacib verirlәr. Deyirlәr, yox, bura yaxşıdır. Çünki burada bir balaca “xüsusi” mәnfәәt var. Bir tәrәfdәn sәrnişinlәrdәn para alırlar, bir tәrәfdәn dә gürcülәr sәrhәdindәn Bakıya, Bakıdan oraya lazım olan şeylәri aparıb mәnfәәt edirlәr.

Görürsәn bir tәlәbә ki, diplom almağa bir az vaxtı var, gәlir әrzaq şöbәlәrindә anbar mәmuru olur. Halbuki o vәzifәni kәnd mәktәbi ikmal etmiş [bitirmiş] bir uşaq da idarә edә bilәr. Çünki anbar mәmurluğunda bir “yuridiçeski vopros” [hüquqi mәsәlә] vә politika işi yoxdur.

Bu saat atalar az qalıb uşaqlarını mәktәblәrdәn dә götürüb ticarәtә göndәrәlәr. Necә ki, mәnim kәndi arxadaşlarımdan bir nәfәri ki, ali mәktәbin axırıncı sinfindәdir, bu saat ticarәtlә mәşğuldur. Qardaşım, bәs işlәmәk böylәdirmi? Tamam Azәrbaycan mәmlәkәti bir ticarәtxana olub, siyasi işlәr buraxılmışdır. Mәnim zәnnimcә, böylә olsa, gözәl mәmlәkәtimizi vә istiqlaliyyәtimizi fәna hala uğradacaq olarız. Qızıl teşt hazırladığımız halda, içindә qan qusarıq.

*Bәşir Sәfәrzadә*

**CӘNUB-QӘRBİ ZAQAFQAZİYA HÖKUMӘTİ**

Batum oblastı dәxi daxil olduğu halda Qars vә Әrdahan vilayәtlәrindәn ibarәt olmaq üzrә Cәnub-Qәrbi Zaqafqaziya Müvәqqәti İslam Hökumәti tәşәkkül etmişdir.

Mәzkur [adı keçәn] hökumәt әhaliyә müraciәtәn böylә bir bәyannamә nәşr etmişdir:

1335 kanuni-sani 18-dә Qarsda ictima edәn [toplaşan] qәrbiyi-cәnubi [cәnub-qәrbi] Qafqaziya müsәlmanlarının mürәxxәslәri [nümayәndәlәri] Qarsda bilictima [toplaşaraq] beavni-tәala [Allah taalanın kömәyi ilә] Mәclisi-Mәbusanı tәsis vә güşad eylәdik [açdıq]. Bu mәclisә bilaxirә [daha sonra] qeyri-müslüm әzaların da [müsәlman olmayan üzvlәrin dә] qәbul edilәcәyinә qәrar verdik. Atidәki [aşağıdakı] bәyannamәnin nәşrinә müttәfiqәn [hamılıqla] qәrar verdik:

*Qars hökumәti-müvәqqәtәsi [müvәqqәti hökumәti] vә Mәclisi-Mәbusanı qәrbiyi-cәnubi Qafqaziya müsәlmanlarının әfkar vә amal vә müqәddәrati-milliyyәlәrini tövhid eylәmәk [fikirlәrini, arzularını vә milli müqәddәratlarını birlәşdirmәk] mәqsәdindә olduğunu bәyan edәrәk, burada sakin [yaşayan] bilumum [bütün] qardaşlarına xitab edir ki, bu mәmlәkәtlәrin xilas vә sәadәti ancaq ittihaddadır [birlikdәdir]. Dağınıq vә bir ittifaqa müstәnid olmayan [söykәnmәyәn] ufaq mövcudiyyәtlәr daima qonşularını tәhris [iştaha gәtirәr] vә onların meyli-tәcavüzlәrini tәzyid eylәr [tәcavüz meyillәrini artırar]. Nәhayәt düçari-inqisam olar [parçalanar], yutular [udular], boğular, mәhv olar gedәr.*

*Qarsda ingilis valiyi-әsgәrisi [hәrbi valisi] müttәhid vә ixtilafdan azadә yaşamaq әzmindә bulunan hökumәti-müvәqqәtәmizlә daima bәrabәr çalışa bilәcәklәrini vә müzahirәtdә [yardımda] bulunacaqlarını söylәdi. Şimdi bir milyon üç yüz әlli min mövcudunda bulunan qәrbiyi-cәnubi Qafqaziya müsәlmanlarının önündә ancaq bir rahi-sәlamәt vә tәrәqqi [xilas vә tәrәqqi yolu] vardır ki, o da birlәşmәk, bir iman vә bir vicdanla yek-digәrә mәrbut [bir-birinә bağlı] olmaqdır. Vәtәnimizi,* mövcudiyyәtimizi, *әnәnatımızı [әnәnәlәrimizi], müqәddәsatımızı ancaq bu surәtlә himayә vә siyanәt edә [qoruya] bilәriz. Övladlarımızı bugünkü dövreyi-zülmәtdәn, istiqbalın ağuşi-pәrtövi-ürfan vә rifahına [gәlәcәyin ürfan vә rifahla dolu işıqlı qucağına] ancaq bu surәtlә tәslim edә bilәriz. Rәhbәrimiz istiqamәt [doğruluq, düzgünlük], istinadgahımız kәndi haqqımızdır. Hürriyyәti-milliyyәmizi kәndi әlimizdә bulundurmaq istәdiyi-*

*mizdən, cahanda bütün böyük və kiçik hər millətin əsarətdən qurtulduğu şu həngamda [vaxtda] bizlər yenidən əsir olmaq və müqəddəsatımızı çiynətmək [tapdalatmaq] və məmləkətimizin bu surətlə istiqbalına [gələcəyinə] ihanət etmək arzu etmədiyimizdən, xaricdən mənfəətpərəst heç bir qüvvətin müdaxiləsinə möhtac və razı deyiliz. Bu gün tarixi-aləmin [dünya tarixinin] ən gurultulu və qarışıq zamanını yaşayırız. Bizim kimi bir çox millətlər də haqq və həyat istəyir və istiqlalını təxlisə [xilas etməyə] çalışır. Artıq təraddüd, bəkləmək zamanı keçmişdir. Biz bir millət, həm əsrlərdən bəri tanılmış bir millətiz... Bizim qüvvətimiz, gözəl məmləkətlərimiz və qabiliyyətimiz... binaənileyh [ona görə də] həqqi-həyat və hürriyyətimiz vardır. Bizim ittihadımız sarsılmaz bir qüvvətdir. Müinimiz [köməkçimiz] də Həzrəti-Allahdır. Yaşasın qərbiyi-cənubi Qafqaziya hökuməti-müvəqqətəsi! Yaşasın müsəlman ittifaqı! Yaşasın Məclisi-Məbusan!*

## MƏTBUAT

Məlum olduğu üzrə, fevralın 18-indən etibarən erməni məbusları dəxi Azərbaycan Məclisi-Məbusanına iştirak edirlər. Bunlar məclisdə sol cinah, yəni sosialistlər cərgəsində əyləşmişlərdir.

“Daşnaksutyun” firqəsi naşiri-əfkarı [mətbuat orqanı] olan “Vperyod” qəzetəsi bunların Parlamana hangi proqramla gəldiklərini yazarkən, əvvəlcə “Daşnak” firqəsinin az qala sosialist olduğunu (?!) və onillərdən bəri erməni burjuaziyası və müsəlman xan və ağaları müqabilinə mübarizə etdiyini, həm də mübarizədə erməni demokratiyası ilə bərabər müsəlman füqərayi-kasibəsinin də [proletariatının da] mənafeyini müdafiə etdiyini qeydlə şikayət edir ki:

*“Bu vaxtadək “Daşnaksutyun” firqəsinin türk və erməni demokratiyasının zəhmətindən bərabərcə sui-istifadə edən müsəlman dərəbəyləri müqabilinə etdiyi sırf inqilabçı mübarizəni müsəlman demokratiyası siyasi və sinfi cəhalətinə görə milli ədavət hesab etmişdir.”*

1905-ci ildən bəri Zəngəzur, Şuşa, Şamaxı və xüsusən Şərur, İğdır, Qars, Axalkələk və sair uyezdlərində qanı tökülən bütün müsəlmanların xan və hətta knyaz olduğunu təsdiq və həman əli qabarlıların, xüsusən arvad və uşaqların başı kəsilməsini “Daşnaksutyun” istilahınca [təbirincə] “inqilab” adlandırmağa biz də razı olardıq amma başdan-ayağa sərvətdar və mütəəssib millətçilərdən mütəşəkkil “Daşnaksutyun” firqəsi erməni burjuaziyası ilə də mübarizədə bulunduğunu iddia etdikdə istəyirdik deyək: “Kirvə, xoruzun quyruğu görünür”.

Bəli! Bu “inqilabçı” firqə müsəlman demokratiyasının cəhalətdə qaldığını qeyd və müsəlman sosialistlərinin vəzifəsinin ağır olduğunu bəyanla sosialist firqələrimizə mütəvəccihən [üz tutub] naz ilə bir göz vuraraq onlara köməyini vəd edir, deyir ki:

*“Cavan türk sosialistlərinin öhdəsinə ağır vəzifə düşür və şübhəsiz onlar bu müqəddəs və ağır mübarizə qarşısında zəifdirlər.”*

Ona görə bütün demokrat və sosialist firqələr Azərbaycan sosialistlərinə kömək etməli imişlər.

*“Xüsusən müsəlman arasında inqilabçı və demokrat firqələr görməyə çoxdan həris olan “Daşnaksutyun” firqəsi müsəlman zəhmətkeşlərinin arasında sinif ayıqlığına kömək etməyə bilməz. Bu kömək təşriiyyə müəssisəsi [qanunverici orqan] olan Parlamanda türk sosialistləri ilə bahəm çalışmaqla bir həqiqi forma alar.”*

İltifatınıza qarşı təşəkkür edəriz, qəyyum əfəndilər. Fəqət qəyyuma ehtiyacımız olmadığını bəyanla təvəqqe edərdik, qabaqca binəva erməni millətinin öz pənceyi-qəddarənənizdən xilas olmaq qədər tərəqqisinə çalışaydınız. Qarın qardaşdan irəlidir.

Məqalənin axırında erməni məbuslarının nasıl işləyəcəklərini bəyanla qəzetə yazır ki:

*“Bizim nümayəndələrimiz Azərbaycan Parlamanına onun üçün getməyirlər ki, irticai hökumətin camaat ixtiyarını qəsb etməsini təsdiq eyləsinlər. Biləks [əksinə], gedirlər ki, hökumətin demokratizmə müğayir [zidd] siyasəti ilə mübarizə və mümkün olan qədər türk demokratiyasında sinif hissi oyanmasına müzahirət [kömək] etsinlər.”*

Bu məqsədlə də erməni məbusları Azərbaycan sosialistləri ilə müttəfiqən;

*“Həmişə zəhmətkeş əhali mənafeyinin keşiyində durub Azərbaycan ərazisində hüquq, qanun paydar [bərqərar] olmasına çalışacaq. Qafqaziya millətləri arasında dostluq ideyası intişarına [yayılmasına] səy edəcək, təcavüzkar hökumətin cahangirlik [imperializm] xəyalı ilə mübarizədə bulunacaq və nəhayət “Müsavat”dan solda oturan ümum firqələrlə həm azlıqda qalan millətlərin, xüsusən erməni demokratiyasının hüququnu mühafizə və müdafiə edəcəklərdir.”*

Müsaidənizlə, tovariş “Ye. Mir” Azərbaycan sosialistləri Şaumyan-Suxartsev tiplərindən olmadıqlarından ittifaqa girmək üçün firqə seçməkdə də onlardan fərqlidirlər. Amma bunca işvə və naz ilə “İttihad” firqəsinin sağ böyrünə keçsəydiniz, daha artıq müvəffəqiyyətlə “uxajivat” edərdiniz [qulluq edər, yaltaqlanardınız].

## BAKI XƏBƏRLƏRİ

### Mühərrirlər Cəmiyyətində

Eşitdiyimizə görə, Bakı Türk Mühərrir [yazıçı] və Ədibləri Cəmiyyəti heyətiidarəsi bugünlərdə fövqəladə bir iclasiümumi dəvət edəcəkdir. Birinci növbədə heyəti-idarənin istefası müzakirə olunacaqdır.

### Hərarətli şeirlər

Məşhur şairlərimizdən Əbdüssəlimzadə Məhəmməd Hadi əfəndinin “Hərarətli şeirlər” sərlövhəli yeni bir mənzum əsəri dəxi təb’dən [çapdan] çıxıb məhəllifürüşa [satışa] qonulmuşdur. Bu əsər türk şairlərindən Səməd Mənsur əfəndiyə ithaf edilmişdir. Qarelərimizə bu əsəri oxumağı tövsiyə ediriz.

### Hadisat [Hadisələr]

- Fevralın 12-sində Saray uçastoku, Qala kəndinin sakini Əsəd Adıgözəl oğlu öldürülmüşdür. Təhqiqatdan məlum olmuşdur ki, onu öz oğlu Oruc öldürmüşdür. Oruc tövqif [həbs] edilib, istintaq vaxtında məlum etmişdir ki, o öz atasını ögey qızı ilə feli-şənidə [biyabırçı işdə] bulunmasında müqəssir hesab edərək öldürmüşdür.

- Fevralın 19-u səhər saat 7-də Binəqədidə Rozinovun mədənində işləyən Kürdəxanılı Məhəmməd Əmirhüseyn oğlu "Arşalvis" mədənindən ştanq apardığında Binəqədi şirkəti mədəninin yanında atlar arabanı yıxıb, Məhəmməd altında əzilmiş və bir qədərdən sonra vəfat etmişdir.

- Ramanada "Kaspi-Qara dəniz" şirkətinin idarəsi polisəyə məlum etmişdir ki, fevralın 21-də məzkur [adı çəkilən] mədəndə 131-94 nömrəli buruqlardan 5 min manatlıq rezin qayışı oğurlanmışdır. Oğurluqda Əbdülqədir Ağabala oğlu, Ağababa Ağabala oğlu və Seyfulla Həmşəri oğlu ittihamla tövqif [həbs] edilmişlərdir.

- Sabunçu kəndində sükunət edən [yaşayan] Əjdər bəy Əlixanov evdə olmadığı halda 6 min manatlıq əlbisəsi oğurlanmışdır. Oğurluqda məzkur kəndin sakini Hacı İmam Nəzər oğlu ittiham və tövqif edilmişdir.

- Zabratda "Rus cəmiyyəti"nin neft mədənindən naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən 20 min manatlıq məftul oğurlanmışdır. Polisə tərəfindən ittixaz edilən [görülən] tədbirlər sayəsində məftul Bəşir İbrahimovun buruğundan tapılıb sahibinə qaytarılmışdır.

**Hərbiyyə Məhkəməsində**

1919-uncu sənəsi fevralın 4, 11 və 14-də Hərbiyyə Məhkəməsi bu aşağıda yazılanları cəzaya düçar etmişdir:

Mixail Yevgeniyeviç Miklaşevski sərxoş halda küçədə tapanca atdığına görə məhkəmə tərəfindən altı ayın müddətinə həbsə alınmışdır.

Arakel Karapetoviç Babayev öz dükanında silah saxladığına görə müqəssir hesab edilib iki ilin müddətinə həbsə salınmışdır.

Ağabala Almaz oğlu, Mirəli Miribrahimoğlu və Ağamalı Məhəmmədqulu oğlu hər üçü müsəlləh qarətgərliqdə müttəhim edildiklərinə görə iki ilin müddətinə cinayətkarlara məxsus həbsxanaya salınmışlar.

Konstantin Koçerenko tüfənglə adam öldürmək istədiyinə görə güllə atdığından müqəssirədd [hesab] edilib beş ilin müddətinə həbsə alınmışdır.

Məhkəmənin bu qərarları general Tomson tərəfindən təsdiq edilmişdir.

Əliqulu tapança atdığına görə iki ilin müddətinə həbs edilmişdir. Məhkəmənin qərarı təsdiq edilmişdirsə də, məzkur Əliqulu general Tomson tərəfindən azad edilmişdir.

Fyodor Konovalov və Vasili Pripotnı at oğurlamaq istədiklərinə görə hər biri beş ilin müddətinə həbsə alınmışlardır. General Tomson bunların hər birinin ancaq bir il həbsə alınmalarına qərar vermişdir.

## MÜRACİƏTNAMƏ

Yeni təşkil olunmuş "Bakı Ziyalılar İttifaqı"nın bir çox xüsuslarda çalışmaq qayəsi var. Vətənimizin bu ağır günlərində əhalinin ehtiyacatına göz yetirmək və qeydinə qalmaq Bakı Ziyalılar İttifaqının müqəddəs əməlidir. Möhtərəm əhali isə şu cəmiyyətin tövsiyələrini etinasız buraxmaz zənn edirik. Bir zamanda ki hökumətimiz xarici və daxili ən mühüm məsələlərlə məşğuldur, bir çox dərdlərimiz və ehtiyacatımız da var ki, onları görməmək və onların qeydinə qalmamaq olmaz. Bir tərəfdən bahalıq, bir tərəfdən ümumən məmləkətimizdə və xüsusən şəhərimizdə hökm sürməkdə olan müsri [yoluxucu] naxoşluqlar və qeyri işlər bu gün həyatımızı və diriliyimizi pək çətin və xətərli [təhlükəli] bir hala salmışdırlar. Bütün bu müşkülatı rəf etmək [aradan qaldırmaq] və bu işlərdə əhaliyə bir xidmət etmək və yol göstərməyə Bakı Ziyalılar İttifaqı var qüvvəsi ilə çalışacaqdır.

Şübhəsiz, böylə çətin günlərdə ən əziyyət çəkən və ən çox müşkülata uğrayan əhalinin füqəra qismidir. Onların halını nəzərə almamaq qeyri-qabildir. İstər bahalığa qarşı və ya istər səhiyyə işlərini yoluna salmaq üçün böyük fədakarlıq lazımdır. Məlumdur ki, şəhərimizdə bu işlərdə çalışan və bir çox işlərdə əhaliyə, xüsusən füqara qisminə müavinətlər göstərən idarə ev komitələri olmalıdır. Ucuzluğa çalışmaq və müsri xəstəliklərə qarşı səhiyyə işlərində lazımi təşəbbüsatlarda bulunmaq və şəhərin müxtəlif məhəllərində füqəraya iaşə məntəqələri açmaq həmin ev komitələrinin borcudur. Ona görə, bu komitələrə lazımdır ki, kömək etmək, ələlxüsus seçki zamanlarında ev komitəsinə, mərkəzi komitəyə müsəlmanlardan öylə adamlar seçmək lazımdır ki, səmimiyyətlə çalışan və vuruşan və müsəlman füqərasına xidmət etməkdən çəkinməyən olsunlar. Həmin fevral ayının 28-ində saat 4-də Bələdiyyə İdarəsində 3-üncü dairə komitəsinə seçki olacaq. İştə bu münasibətlə Bakı Ziyalılar İttifaqı 3-üncü dairədə yaşayan müsəlmanlardan xahiş edir ki, həman gün seçkidə iştirak etsinlər və böylə mühüm işləri etinasız buraxmasınlar və öylə adamlar intixab etmək [seçmək] gərək ki, istər dairə komitəsində və ya istər mərkəzi komitədə bulunub da səmimiyyətlə əhali mənafeyini nəzərdə tutaraq çalışan adamlar olsun. Zira ehtiyac böyük və zaman əhəmiyyətlidir.

*Ayn. Allahverdiyev*

## ƏRZAQ İŞLƏRİ

Ərzaq Nəzarəti Dağıstan Hökumətinin Ərzaq nazirinə yazmışdır ki, nəzarət tərəfindən Tutunanqovdan alınmış olan 10 vaqon buğda Petrovsk anbarlarındadır. Bundan əlavə, 50 vaqon da alınacaqdır. Bu yükləri tezliklə göndərmək lazım olduğuna görə xahiş olunur ki, bizim acentəmiz Levinə icazə verilmiş 90 vaqon dəxi göndərilməsinə icazə verəsiniz.

- Ərzaq Nəzarəti Hökumət İşləri İdarəsinə xəbər verir ki, Dağıstan Hökuməti Baş nazirinin teleqrafı münasibətilə məlum edilir ki, hal-hazırda Yalama mövqifindən [stansiyasından] Dağıstan Hökuməti daxilinə odun aparmaq işi qaydaya salınmışdır və bundan belə aparılmasına da mümaniət [maneçilik] yoxdur. Burası da əlavə olunur ki, həman odunların mühafizəsi üçün Ərazi Nəzarəti tərəfindən tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

- Hacıxanov Ərzaq Nəzarəti ilə əqd etdiyi [bağladığı] müqavilənaməyə görə, ancaq Ərzaq Nəzarəti adına göndərməyə borclu olmuşdur.

- Ərzaq Nəzarəti "Yedinaya" istehlak cəmiyyətinə icazə vermişdir ki, Dağıstan

Hökuməti ilə Azərbaycan Hökuməti arasında əqd edilən müqavilənamənin 2-nci maddəsi mövcibincə [maddəsinə əsasən] Dağıstandan Azərbaycana gətiriləcək 90 vaqon taxıl hesabına olaraq 5 vaqon buğda gətirsin.

- Borno Andreyeviç Miller Quba uyezdində odun hazırlamaqda olan müdirin müavini təyin edilib, Yalama stasyonuna göndərilmişdir.

- Aleksandr Timofeyeviç Kuroçkin Ərzaq Nəzarətinin əmri mövcibincə [əmrinə əsasən] fevralın 1-indən etibarən Ərzaq Nəzarətinin xəzinədarı (kassiri) təyin edilmişdir.

## BAKI QUBERNİYASINDA

Şamaxı uyezd naçalniki Bakı qubernatoruna məlum etmişdir ki, fevralın 16-sında gecə Gürcüvan kəndində keşiş Atvum Pirverdiyan, arvadı Yelizaveta Poqosovna, qızları Siranuş və Asanit, keşişin qardaşı Suren və onun arvadı Anniske naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən öldürülmüşlərdir. Bədəfkarları tövqif [həbs] etməkdən ötrü naçalnik tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir.

- Zərdab yüzbaşısı Göyçay uyezd naçalnikinə məlum etmişdir ki, fevralın 1-ində Girli kəndinin əhli Mirzə Mirağa oğlu, Tapdıq Xasməhəmməd oğluna rast gəldikdə tüfəngdən atdığı güllə ilə onu yaralamışdır. Yaralı iki saatdan sonra vəfat etmişdir.

### Qız götürüb qaçmaq

Xıllı kəndxudası Cavad uyezd naçalnikinə məlum etmişdir ki, Aşağı Surra kəndinin əhli İmamqulu Məhəmmədqulu oğlu öz yoldaşları ilə bərabər Məhəmmədağa Məşhədi Haşim oğlunun qızı Sona xanımı zorla götürüb qaçmışdırlar. Naçalnik tərəfindən ittixaz edilən [görülən] tədbirlər sayəsində qız və bədəfkarlar [cinayətkarlar] tövqif edilmiş [tutulmuş] və istintaqda məlum olmuşdur ki, onlar qızın namusuna təcavüz etməmişlərdir. Bədəfkarların silahı və oğurladıqları 5200 manat pul zəbt olunmuşdur.

## AZƏRBAYCANDA

### Zindəganlığın dəhşəti

Məlum olduğu üzrə, ingilislər fərarilərin [qaçqınların] işlərini də islah etmək fikrinə də düşmüşlərdir. Müsəlman kəndlərinə göndərilmiş olan ingilis nümayəndəsi Steqlandlitdel ingilis komandanlığına zeyldəki [aşağıdakı] məlumatı verir:

*"Verğus dərəsində mən 18 müsəlman kəndini gəzdim. Bəzi yerlərdə müsəlman fərarilərinin yüz faizi həlak olur. Fərarilərin hamısı yarı geyinmiş və acdırlar. Bunlar karvansaralarda peyinlik içində yaşayırlar. Hifzüsihhə [gigiyena] şəraiti dəhşətlidir. Bütün mahalda iki həkim vardır. Bunlar Gorusda otururlar. Bunların da birisi general Andranikin doktorudur. Dərman qətiyyən yoxdur. Beş arşın uzunu, iki arşın eni bir palçıqdan qayrılmış komada 15 arvad-uşaq gördüm ki, bunun da dörd nəfəri xəstə idi. Mən fərarilərin bir çox vəkilləri ilə görüşüb qonuşdum. Onların öz kəndlərinə getmək üçün təminata ehtiyacları vardır. Hərgah öz yerlərinə getməsələr əkinsiz qalacaqdırlar. Birinci zəruri əkinləri üçün hər cür material lazımdır."*





### Cavanşir uyezdindən

İbrahim bəy Cavanşir cənablarına teleqraf gəlibdir ki, Cavanşir uyezdindəki Xan Qərvəndində quldurlar Əhməd bəy Məhəmmədbəyovun evi üstünə töküləb, məzkuru [adı çəkilən şəxsi] öldürüb, mal və dövlətini də qarət edibdirlər. Böylə işlərdən naşi [işlərə görə] o tərəfin əhalisi böyük bir həyəcan və qorxudadır. Əcəba Cavanşir qəza qaimməqamı (uyezd naçalniki) nəyə məşğuldur ki, onun uyezdində quldurlar özlərini asudə görüb bildiklərini etməklə əhalini qorxuya salırlar?

Ümidvarıq ki, Daxiliyyə Nəzarəti böylə təhlükəli hadisələrə nəzər yetirib də bu işin təhqiqatı xüsusunda lazım olan yerlərdən məlumat tələb edib, müqəssirlərin tutulub da cəzalandırılmaları ilə bərabər, bu işdə səhlənkarlıq edən hökumət məmurlarını da təhti-məsuliyyətə [məsuliyyət altına] cəlb edər.

## GÜRCÜSTANDA

### Gürcüstan Parlamanında

Fevralın 20-də Gürcüstan Parlamanında vaqe olan müzakiratdan sonra hökumətin son hadisat [hadisələr] barəsində verdiyi bəyanatına müqabil Sosial-demokrat fraksiyonu tərəfindən təklif edilən zeyldəki [aşağıdakı] qərar qəbul edilmişdir: Parlaman iqrar edir [təsdiq edir] ki, Axıska mahalında bəylərin və türk mühacirlərinin üsyanı və Soçi mahalında Könüllü qoşunlarının xürucu [çıxışı, hərəkatı] Gürcüstan istiqlalına, onun demokratik təşkilatına bir hücumdur. Parlaman inanır ki, Gürcüstanın və onun demokratik təşkilatının mühafizəsindən ötrü dəvət edilmiş demokratik ordu ilə milli qvardiya indi də cümhuriyyətə, demokratiyaya itaətən vəzifələrini hüsn-ifada qüsur göstərməzlər. Parlaman gərək daxili və gərək xarici siyasətində hökumətin fəaliyyətini təqdir edir [bəyənir] və ümidvar olur ki, Gürcüstan istiqlaliyyəti üçün əvvəlki kimi ciddi surətdə fəaliyyət göstərəcək və bir də ümid edir ki, hökumət qonşu cümhuriyyətlər və İngiltərə və onun müttəfiqləri ilə sıxı bir ittifaqda bulunacaqdır.

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Diş həkimi İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həmə-vəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Arvad diş həkimi**
**Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyəti**

Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyətinin idarəsi bununla məlum edir ki, cəmiyyətin ümumi iclası mart ayının 23-ündə səhər saat 10-da Cəmiyyətin binasında təyin olunub.

Müzakirə ediləcək məsələlər:

1) Şura idarəsinin məruzəsi.

2) Təftiş komissiyasının məruzəsi.

3) 1918-ci il məhsubatının [hesabatının] müzakirə və təsdiqi.

4) 1919-cu il smetasının müzakirə və təsdiqi.

5) Sabiq sədr Eyvazovun yerinə təzə sədr intixabı [seçilməsi].

6) İdarəyə 1918-ci ilə kimi üzv Səfərəliyev İsa bəy və növbətlə çıxmış Ter-Stepanyanın yerinə təzə üzvlər intixabı.

7) Növbətlə çıxmış şura üzvü Əhmədovun yerinə təzə üzv intixabı.

8) Təftiş komissiyasına 3 üzv və 3 namizəd seçilməsi.

9) Mirzəxanovun külfətinə "pensiya" vermək barəsində.

10) İclasda müzakirə ediləcək məsələlər barəsində.

*İdarə*
*46*

**Elan**

Ticarət kantorumuzda putla və boçka ilə neft cövhəri [kerosin] satılır. Bundan əlavə, orada satılır hər qisim iri-narın duz, ot, saman, arpa, buğda, kömür və qeyriləri. Ünvan: Armyanski və Sisyanovski küçələrin küncündə, 25 nömrəli evdə.

*Qənbər Sadiqzadə*
*5700*

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 379. "Kujim": Qəzetdə "Kumin" getmişdir. Soyadının yanında mötərizə içində, mənsub olduğu partiya yaxud fraksiyanın adı yazılmalı idi, fəqət qəzetdə boşluq buraxılmışdır. Kujim Bakı Ukraynalıları Radası tərəfindən seçilmiş və Parlamentdə Milli azlıqlar fraksiyasının üzvü olmuşdur.

**Türkcə dəftərdarlıq**

səh. 383. "Be mən çe?": (farsca) "Mənə nə?"

"Rum tayfası": Qədim romalılar nəzərdə tutulur.

**Cənub-Qərbi**
**Zaqafqaziya Hökuməti**

səh. 387. "1335 kanuni-sani 18": burada tarix rumi təqvimlə verilmişdir; miladi təqvimlə 18 yanvar 1919-cu ilə uyğundur.

**Mətbuat**

səh. 389. "Biləks, gedirlər ki…": qəzetdə "gedirlər" yerinə "görürlər" getmişdir.

**Bakı xəbərləri**

səh. 389. "Hərarətli şeirlər": Məhəmməd Hadinin "Hərarətli şeir və yaxud qızdırmalı halımda saçmalarım" adlı şeiri nəzərdə tutulur.

**Azərbaycanda**

səh. 392. "Birinci zəruri əkinləri üçün…": qəzetdə "əkinləri" getmişdir; "əginləri" [əyinləri] olmaq ehtimalı da var.

**Bakı İstiqrazi-Mütəqabilə**
**Cəmiyyəti**

səh. 395. "1919-cu il smetasının…": qəzetdə "1918-ci il smetasının" getmişdir.



*“Azərbaycan” qəzetinin 124-cü nömrəsinin 1-ci səhifəsi*





**Cümə axşamı, 27 fevral 1919-cu il, nömrə 124**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 26 cəmadiyələvvəl sənə 1337. 27 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsindən:

İşbu 1919 sənəsinin fevral 13-ündən etibarən Şamaxı şəhəri sakinlərindən Əbülqasım əfəndi Əminzadə cənabları əlində mövcud əfəndilik attestatına və ləyaqəti-elmiyyəsinə nəzərən münhəll [boş] olan Şamaxı uyezdinin sünni məzhəb qazılığına nəsb və təyin edilmişdir.

*Məşixət sədrləri: [Axund Ağa] Ağaəlizadə və [Mustafa] Əfəndizadə*

## ÜMURİ-XEYRİYYƏ VƏ NAFİƏ NƏZARƏTİNDƏN

Həyati-siyasiyyə içrə camaat müharibə və hərc-mərcliyin minlərcə nahaq qurbanlarını yadlarından çıxarmışdır. Evsiz, ac və naxoş qaçqınlar Azərbaycanın hər yerinə dağılmışlardır. Bir tək Qarabağda arvad, uşaq və qocalar üzərinə hücum edən quldur dəstələrinin xainanə əli ilə 119 müsəlman kəndi xarabazara döndərilmişdir və 50 mindən ziyadə bu kəndlərin qaçqınları Qarabağın düzlərində və çöllərində ah-zar edirlər. Onların arasında səpmə yatalaq azarı dəhşətli bir surətdə hökmfərma olub [hökm sürüb], üsrətdən [çətinliklərdən] və qəm-qüssədən özünü itirmiş insanları amansız bir surətdə biçməkdədir. Bundan əlavə, arvad və uşaqları tanınmaz bir hala salmış olan aclıq və bir köynək ilə bədənləri göyərmiş balaca uşaqları titrətməkdə olan soyuq daha amansız bir surətdə hökmfərmadır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən Qarabağ qaçqınlarının ehtiyacını öyrənmək və onlara müavinət etməkdən ötrü təşkilatlar düzəltməyə göndərilən xüsusi komissiya bir çox arvad və uşaqların ac və çılpaq qaldığını görmüşdür. Bir tək Qarabağda 50 min nəfər qaçqın vardır. Bunlardan əlavə, Şamaxıda, Lənkəranda və İrəvan quberniyasından Gəncəyə, Qazaxa gələn nə qədər qaçqınlar vardır. Bu bədbəxtlər Azərbaycanın hər yerində soyuqdan, aclıqdan və xəstəlikdən məhv olurlar. Bu biçarələri ölümdən xilas etməkdən ötrü təcili surətdə pul, paltar və ərzaq şeyləri ilə geniş bir dairədə müavinət [kömək] lazımdır. Bunun üçün böyük

pul lazımdır. Hökumət, camaatın köməyi olmadan bu qaçqınları lazımi qədər təmin etmək iqtidarında deyildir. Buna görə hökumət, Azərbaycan vətəndaşlarına müraciətlə bu qaçqın qardaşlara müavinət göstərməyə dəvət edir. Sizin köməyiniz gözlənir. İsti evdə qarnı tox, salamat və aclıq, soyuqluq dəhşətini görməyənlər qulaqlarını tutmamalıdırlar. Öz uşaqlarınıza baxaraq çörəksiz, paltarsız, soyuqda titrəyən bədbəxt yetimləri yadınıza salınız! Hər kəs öz qüvvəsinə görə pul və paltarla müavinət etsin. Bir qəpiyə də utanmayınız. Dama-dama göl olar, deyirlər. Yüz minlərcə öz qardaşlarınızı amansız əcəldən xilas etməkdən ötrü hər kəs öz payını versin. İanələr qəbul olunur. Pul vermək istəyənlər Naberejnı küçədə 33 nömrəli evdə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin Qaçqınlar şöbəsinə, şey vermək istəyənlər Nikolayevski küçədə Parlaman binası altında "İsmailiyyə" binası tərəfindən Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin mərkəzi anbarına müraciət etməlidirlər.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 16-ncı iclas

### 25 fevral

Bu gün mühüm məsələ müzakirəsi gözlənildiyi hiss olunur. Parlaman Divani-Rəyasət əzası [üzvləri] tam heyətlə; camaat həmişəkindən çox ziyadə, böyük intizar, sükut və diqqət hökmfərmadır [hökm sürməkdədir].

**Sədr** - Həsən bəy Ağayev.

**Katib** - Əhməd Cövdət.

İclas açılır saat 11-ə 5 dəqiqə işləmiş.

**Sədr** - Parlamanın iclası açılır. Bugünkü iclasın ruznameyi-müzakiratı [müzakirə gündəliyi] Divani-Rəyasət tərəfindən bu qərar ilə tərtib verilmişdir:

1) Varid olmuş [daxil olan] məktublar. O cümlədən istefa haqqında Rəisi-vükəlanın [Baş nazirin] göndərmiş olduğu məktub; "Müsavat" fraksiyonunun komisyonlar intixabı [seçkisi] haqqında təklifi; bəzi üzvlərə məzuniyyət: o cümlədən Asəf bəy Şıxəlibəyova, Abdulla bəy Əfəndiyevə və Bəhram bəy Vəzirova.

2) Keçən səfərdən natamam qalmış iki komisyona əza intixabı.

3) Bir neçə qanun layihələri:

a) Hərbiyyə Nəzarətinin qanun layihəsi;

b) Bakı Bələdiyyə İdarəsinə 4 milyon istiqraz haqqında qanun layihəsi;

c) Dəmiryol tarifəsinin təzayüdü [artırılması] haqqında qanun layihəsi;

d) Alkol vergisi (aksiz) layihəsi;

e) Tənbəki və spirto vergisi (patent) layihəsi;

4) Məclisi-Məbusan nizamnaməsi.

Hərgah bu cür tərtib olunmuş müzakirati-yövmiyyəyə [gündəlik müzakirələrə] etiraz yoxsa, qəbul olunur.

**[Heybətqulu] Məhəmmədbəyov** - *(yerindən)* Müsaidə veriniz.

**Sədr** - Buyurunuz!

**Məhəmmədbəyov** (İttihad) - Mən təklif edərdim ki, Məclisi-Məbusan nizamnaməsi məsələsi ikinci növbəyə qoyulsun. Qaldı ki, "Müsavat" fraksiyonunun təklifi üçüncü məsələ olsun. Əvvəlcə nizamnaməyə baxılsın, sonra komisyonlar intixabı təklifinə.

**Sədr** - Söz Cavad bəy Məlik-Yeqanovundur.

**Məlik-Yeqanov** - "Müsavat" fraksiyonu tərəfindən təklif olunur ruznameyi-müzakirat tərtib olunduğu qərar üzrə qalsın.

**Sədr** - "İttihad" fraksiyonu növbeyi-müzakiratı dəyişməyi təklif edir. Hər kəs ruznameyi-müzakiratı, elan edildiyi tərtiblə qəbul edirsə, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır.)* Deməli, əksəriyyətlə qəbul olunur.

**Katib** - *(Fətəli xanın məktubunu oxuyur.)*

**Sədr** - Bu məktub bərayi-məlumat [məlumat üçün] oxundu. Bu barədə müzakirə ola bilməz. Malik olduğum haqqa istinadən bu barədə Parlaman rəisi tərəfindən lazımi tədbirlər olacaqdır. *(Dərin sükut)* Müəyyən təklif ola bilər.

**Rəsulzadə** - Müsaidə buyurunuz.

**Sədr** - Söz Rəsulzadə Məhəmməd Əminindir.

**Rəsulzadə** - Böylə mühüm bir zamanda Rəisi-vükəla [Baş nazir], əsəblərinin yorğun və xəstə olub dövlət işlərindən ötrü lazımi qədər işləməyə təhəmmül etmədiyindən dolayı [dözmədiyi üçün] istefa verir. Bu barədə yalnız təəssüf etməlidir ki, böylə mühüm zamanda məmləkətin siyasəti-ümumiyyəsi pərişan bir halda ikən Rəisi-vükəla səhhətinin pozulmasından dolayı istefa verir ki, bizcə Məclisi-Məbusan bu motivi qəbul etməyə bilməz. Adətən, Məclisi-Məbusan bildiyiniz kimi bir namizəd dəvət edib kabinə təşkilini ona tapşırmasını kəndi rəisinə mühəvvəl etməlidir [tapşırmalıdır].

**Sədr** - Hərgah başqa bir təklif yoxsa, "Müsavat" tərəfindən edilən təklif qəbul olunur. Keçək növbədəki məsələyə.

**Rəsulzadə** - *(yerindən)* Müsaidə veriniz: əlbəttə, yeni hökumət təşkilinə qədər indiki hökumət iş başında qalmalıdır.

**Sədr** - Üzr istəyirəm, ruznameyi-müzakiratı elan edərkən bir şeyi unutdum, Parlamanda iştirak edən Erməni fraksiyası tərəfindən bəyannamə (deklarasiya) oxunacaqdır. Ona görə növbədən xaric olaraq Erməni fraksiyonu üzvü Malxazyana söz verilir.

**Erməni fraksiyasının bəyannaməsi**

**Malxazyan** - Şu bəyannaməni oxuyur:

Biz Gəncə və Bakı şəhərləri erməni milli şuraları nümayəndələri, Azərbaycan Cümhuriyyətinin Ali Müəssiseyi-Təşriiyyəsinə [Ali Qanunverici Orqanına] daxil olaraq siz məbus cənabları və sizin şəxsinizdə kəndi müqəddəratını kəndi əlinə almış olan türk millətini təbrik ediriz. *(Şiddətli alqış)*

Biz Parlamana gəldikdə gərək türk millətinin və gərək Azərbaycan Cümhuriyyəti daxilində yaşayan ümum sair millətlərin mənfəəti üçün səmimi surətdə çalışmaq arzusu ilə gəldik. Bu məqsədə çatmaq üçün biz Cümhuriyyət həyatında ciddi və doğru bir surətdə sarsılmaz etirafi-hüquq və nizam-asayiş əsasları yürütməyi lazım biliriz; həm də Azərbaycan daxilində bütün vətəndaşlar qanun hüzurunda tam mənası ilə və şübhəsiz müsavati-hüquqa [hüquq bərabərliyinə] malik olmalıdırlar. Bizcə bu intizam və hüquq ancaq o vaxt olar ki, Azərbaycan daxilində əqəliyyət [azlıq] təşkil edən ümum millətlərə türk milləti ilə bərabər milli, mədəni məsələlərdə təyini-müqəddərat ixtiyarı verilsin.

Biz var qüvvəmizlə gərək Cümhuriyyət daxilində və gərək onun xaricində hər dürlü təməssül [assimilyasiya], cahangirlik [imperializm] və qəsbkarlıq arzusu ilə mübarizə edəcəyiz. Böylə arzuları bu həqiqi demokratik-hüquqi dövlət fikrinə müğayir [zidd] və cümhuriyyətin mövcudiyyəti üçün təhlükəli hesab ediriz.

Biz dərin bir etiqad ilə inanırız ki, gərək təşəkkül etmiş cümhuriyyətlər daxilində və gərəksə onların xaricində Zaqafqaziya millətləri biri-biri ilə sülh ilə yaşayıb, sıxı və səmimi bir surətdə birləşməsələr nə sakitlik ola bilər, nə də doğru sülh. Sakitlik və möhkəm sülh olmadıqca nahiyənin mədəni tərəqqi və təalisi [ucalması] və əhalinin rifah və səadəti mümkün olmaz. Halbuki, hər bir hökumət buna çalışmalıdır. Ona görə biz var qüvvəmizlə Zaqafqaziya millətləri arasında hüquq və ədalət əsası ilə birlik və müvafiqət [həmrəylik] hüsuluna çalışacağız. Çünki, nə qədər Zaqafqaziya millətlərindən vələvinki bir qisminin belə [bir qisminin belə olsa da] qanuni hüquq və tələbatına əməl edilməsə və hissiyyati-milliyyəsi mühəqqər [alçaldılmış] olsa, nə sakitlik ola bilər, nə möhkəm sülh və Zaqafqaziya daima bir beynəlmiləl münaqişə, ədavət və müsadimə [toqquşma] meydanı olar.

Binaənileyh [ona görə], biz var qüvvəmizlə ayrı-ayrı milətlərin, sair cümhuriyyətlər zərərinə olaraq özü üçün xüsusi və faiq [üstün] bir mövqe hüsuluna [əldə edilməsinə] çalışması müqabilinə və qonşu millətlərin və yeni cümhuriyyətlər daxilində azlıqda qalan millətlərin hüququna hər dürlü təcavüz əleyhinə mübarizə edəcəyiz.

Biz, təcavüzkaranə xarici siyasət əleyhdarı olaraq biz Azərbaycan Hökuməti ilə qonşu millətlər arasında olan ümum ixtilaflı məsələlərin ədalət üzərinə sülh təriqi [yolu] ilə həllinə çalışacağız.

Böylə ixtilaflı məsələlər cümləsinə biz əsasi Qarabağ məsələsini də daxil ediriz. *(**Mərkəzdən:** İxtilaflı deyil! Məhəmməd* ***Əmin:*** *Həll olunmuş məsələdir!)* Ki buraya eyni zamanda Ermənistan Hökuməti də həqqi-hakimiyyət elan edir, Azərbaycan Hökuməti də və bu məsələ hər bir sair ixtilaflı məsələlər kimi, inanırız ki, istəsək sülh təriqi ilə həll edilə bilər.

Ümumiyyətlə, cari işlərimizdə biz cahan demokratiyasına azadlıq gətirmiş olan idealları rəhbər tutacağız. Geniş zəhmətkeş əhali mənafeyi nöqteyi-nəzərində duraraq biz həmişə Azərbaycan Cümhuriyyəti millətlərinin iqtisadi və mədəni tərəqqisinə bais olacaq ümum tədabiri-qanuniyyəni [bütün qanuni tədbirləri] müdafiə edəcəyiz. Fəhlə və torpaq haqqındakı qanunlar məsələsində zəhmətin tamamilə azadi və torpağın zəhmətkeş əkinçilərə verilməsinə və həqiqi xalq hakimiyyətinə səy edəcəyiz.

Bu Parlamanı müvəqqət bir müəssisə hesab edərək biz, camaat ixtiyarına kənar təzyiqləri qeyri-mümkün edən və azad surətdə arzusunu söyləməyə imkan verən əsaslarla çağırılmış Cümhuriyyət Məclisi-Müəssisanı vasitəsilə camaatın həqiqi arzusunun bəyanına nail olmağa çalışaçağız.

İştə, məbus əfəndilər, biz bu əsasları rəhbər tutacağız. Nəhayət, bunu da əlavə etməyi lazım biliriz ki, Azərbaycan millətlərinin həqiqi mənfəətlərinə səmimi bir surətdə çalışaraq, biz erməni məbusları Azərbaycan Parlamanına girərkən, erməni parlamanına girsəydik hiss edəcək olduğumuz qədər şimdidə, gələcəkdə dövləti vəzayif və məqasid [dövlətə məxsus vəzifə və məqsədlər] və dövlət quruluşu məsələlərində öhdəmizə düşən məsuliyyəti hiss edərək giririz. *(Gurultulu alqış)*

**Sədr** - Növbədəki məsələ "Müsavat" fraksiyonu təklifidir. Məzmunu da budur: *(Oxuyur)*

Şimdiyə qədər əksər komisyonların təşkilində qəbul olunan hər fraksiyondan bir nümayəndə vermək üsulu əvəzinə, Məclisi-Məbusan komisyonlarının aşağıdakı tərtiblə təşkilini təklif ediriz: 10-a qədər əzası [üzvü] olan fraksiyon bir nümayəndə verib, 10-dan yuxarı əzaya malik olan fraksiyonlar isə 5-dən yuxarı olan küsurun [qalığın] tamam 10 kimi hesab edilməsi şərti ilə hər on adama bir nümayəndə verirlər. Bundan sonra təşkil olunacaq komisyonlar bu üsulla təşkil olunduğu kimi, bundan əvvəl təşkil olunmuşlar dəxi bu tərtiblə təkmil olunmalıdırlar [tamamlanmalıdırlar].

**Sədr** - Bu barədə kim danışmaq istəyir, buyursun.

**Mahmudov Mustafa** - *(yerindən)* Tərcümə ediniz.

**Sədr** - Söz Aslan bəy Qardaşovundur.

**Qardaşov** (Əhrar) - Parlamanda baxılmaq üçün bir nakaz [təlimat] təklif olunacaqdır. Bu nakazda komisyonların surəti-təşkili barəsində izahat vardır. Nə cür təşkil olunacağı göstərilmişdir. Bu layihəni qəbul etsək, nakaza ehtiyac qalmayır. Mahmudbəyovun sözünə mən də şərikəm. Əvvəl nakaza baxılsın, ondan sonra "Müsavat"ın təklifinə.

**Sədr** - Söz Əhmədzadə Yusifindir.

**Yusif Əhmədzadə** (bitərəf) - "Müsavat" firqəsi tərəfindən təklif edilən layihənin müzakirəsi bizim Bitərəflər fraksiyası lazım bilir ki, saxlanılsın, ta ki nakazdan sonra baxılsın.

**Sədr** - Mahmudov Mustafa.

**Mahmudov** (Müsavat) - "Müsavat"ın təklifi ki, komissiyalara verilən üzvlərin ədədi nəzərə alınsın, bu, fraksiya tərəfindən havayı bir xahiş deyildir. Biz görürüz ki, hər fraksiya komissiyaya bir adam verəndə az mövcudlu fraksiyaların adamları üç-dörd komisyonda üzv bulunurlar və məzkur komissiyaların bütün iclaslarında isbati-vücud [iştirak] edəmməyirlər. O səbəblə də komissiyaların iclası kvorum yoxluğundan qalır. Burada deyirlər ki, nakazda komissiya haqqında düsturüləməl [nizamnamə] göstəriləcəkdir. Fəqət, mən o komissiyanın katibi olduğum üçün ərz edərim ki, orada böylə şey yoxdur. Əgər öylə bir iş olsa da, nakaz ruznameyi-müzakiratın axırında olduğundan, ola bilər ki, heç bu gün müzakirə edilməsin, gələcək iclasa qalsın. Bu surətlə də komissiyaların iclasları təxirə düşəcəkdir. Halbuki vaxt təng [dar], iş çoxdur. Gündən-günə komissiyaların işi daha da artır. Binaənileyh, mən fraksiyon tərəfindən təklif edərdim ki, "Müsavat" firqəsinin təklifi bu gün müzakirə və qəbul olunsun. Çoxüzvlü fraksiyalar az ədədlilərin yerini doldurmaq surəti ilə komisyonların əza miqdarını təkmil etsin.

**Sədr** - Söz Qardaşov Aslan bəyindir.

**Qardaşov** - Mən məsələnin eyni mətləbini danışmayıram. Bircə onu deyirəm ki, bu məsələ "Müsavat" deyən kimi nakazda olmalı bir maddədir. Hərgah bu üsul göstərilsə, nakazdakı maddələr bir az təbdil ediləcək [dəyişdiriləcək] olarsa,

eyni məsələ hasil olar. Mən təklif edirəm, əvvəl nakaza baxılsın.

**Sədr** - Söz istəyən yoxsa məsələni bitmiş hesab edərək səsə qoyuram.

**Rəfiyev** - *(yerindən)* Mənə söz veriniz.

**Sədr** - Söz Musa bəy Rəfiyevindir.

**Rəfiyev** (Müsavat) - Hərgah "Müsavat"ın təklif etdiyi məsələ nakazda olsaydı, biz də Aslan bəyin sözünə şərik olardıq. Məəttəəssüf [təəssüf ki], nakazda bu məsələyə dair bir şey yoxdur. Parlaman üzvləri bilirlər ki, komissiyalar nə cür işləyirlər, ələlxüsus büdcə komissiyasından 8 əza var. Əlbəttə, cənab sədr bu gün təklif edəcək ki, bu miqdar iki dəfə artsın. *(Sədr - Var, var.)* Nə üsul ilə olur-olsun, biz təklif ediriz nakaza baxılanadək bu təklif qəbul olunsun. Nə vaxt nakaza baxılsa, o gün bu da nakaza daxil olar.

**Sədr** - Söz istəyən yoxsa səsə qoyuram. Hər kəs "Müsavat"ın təklifini qəbul edirsə, əlini qaldırsın – 18, kim əleyhinədir əlini qaldırsın – 9, hər kəs səs verməyir rica edirəm əlini qaldırsın. Deməli, məsələ keçir.

Bərayi-məlumat [məlumat üçün] ərz etmək istəyirəm ki, fraksiyaların üzvləri bu miqdardır: "Müsavat" – 23, "İttihad" – 11, "Əhrar" – 8, "Hümmət" – 4, Sosialistlər İttifaqı – 7, Bitərəflər 12, Rus-slavyan – 5, Erməni – 6, iki üzv də heç bir firqəyə daxil deyildir. Bu münasibətlə təvəqqe edirəm onlar hangi fraksiyaya daxil olduqlarını bildirsinlər. Hacı Kərim Sanıyevdən təvəqqe edirəm hangi fraksiyadan olduğunu bildirsin. Adı bitərəflər siyahısında var.

**Sanıyev** - Mən "Hümmət"dənəm.

**Sədr** - Əşrəf Tağıyev hangi fraksiyadandır?

**Tağıyev** - "Əhrar"dan.

**Sədr** - Əfəndiyev Mirzə Muxtar hangi fraksiyadandır?

**Əfəndiyev** - "Əhrar!", "Əhrar!"

**Sədr** - Ağa Aşurov hangi fraksiyaya mənsubdur?

**Aşurov** - Mən heç bir fraksiyaya mənsub deyiləm.

**Səslər** - Dikidir *(Ümumi gülüş)*.

**Sədr** - Tağıyev Ağazeynal bir aydan ziyadədir ki, gedib və heç bir məlumat verməmişdir. Parlamanda qəbul edilmiş qanuna görə mümaileyh [adı keçən şəxs] Parlaman üzvlüyündən xaric hesab edilir. Bələdiyyə İdarəsindən rica edərdim onun əvəzinə başqa bir adam göndərsin. Erməni fraksiyasından komissiyalara bu qərar ilə nümayəndə verilir:

Ləvazim komisyonuna – [Xoren] Amaspur, Nizamnamə - [Abqar] Papyan, Torpaq - Arşak Malxazyan, Maliyyə-büdcə - S. Taqianasov; Fəhlə komisyonuna – [Poqos] Çubaryan; Mandat – [Abqar] Papyan; Məclisi-Müəssisan dəvəti komisyonuna Yervand Taqianasov, Sorğu komisyonuna – Yervand Taqianasov. Etiraz yoxsa qəbul olunur.

Keçən səfər iki komissiyaya adam seçilirdi: Ləvayihi-qanuniyyə və Məmləkətin hasilatını hüsn-istifadə komissiyalarına.

Seçki tamam olmadı. Rica edirəm şimdi əza göstərəsiniz. Şimdiyə qədər göstərilənlər bunlardır: Ləvaehi-qanuniyyə komisyonuna: Malxazyan, [Qazı Əhməd] Məhəmmədbəyov, [Abqar] Papyan, Kujim Vasili, Ağa Əminov, Abdulla əfəndi Qəbulov, Vanseviç, [Əhməd bəy] Pepinov, [Qasım bəy] Camalbəyov.

Məmləkətin məhsulatını hüsn-istifadə komisyonuna: Tsaxakaya, Vəzirov Zeynal bəy, [Mixail] Vinoqradov, Əhmədov Yusif, [Arşak] Paronyan, Əliyev Yusifəli və Qardaşov Aslan bəy.

Bu miqdara daha əza əlavə edirmisiniz? Buyurun, Aslan bəy Qardaşov.

**Qardaşov** - Bir sualım var, nə səbəbə mənim təklifim səsə qoyulmadı, ona görə...

**Sədr** - Bağışlayın, məsələ qəbul olunub keçib. Bitərəflər fraksiyonundan komissiyalara bu məbuslar təklif olunurlar:

Etibarnamə komisyonuna - doktor Bəhram bəy Axundov, nizamnamə komisyonuna Əbdüləli bəy Əmircanov, Məclisi-Məbusan seçkiləri komisyonuna Behbud xan Cavanşir. Etiraz yoxsa, qəbul olunur. Növbədə məzuniyyətlər məsələsidir.

**Katib** - Asəf bəy Şıxəlibəyovun iki həftə, Abdulla bəy Əfəndiyevin üç həftə, Bəhram bəy Vəzirovun bir ay məzuniyyət haqqındakı ərizələrini oxuyur.

**Sədr** - Bu üç ərizəyə etiraz yoxsa, qəbul olunur. Söz Əliheydər Qarayevindir.

**Qarayev** (Hümmət) - Əfəndilər! Bu vaxtadək bizim komissiyalar işləyə bilməyirlər, çünki üzvləri gedirlər. Budur, üç üzv məzuniyyət istəyir. Mən təklif edərdim ancaq ikisinə birər həftə məzuniyyət verilsin.

**Sədr** - Daha kim danışmaq istəyir? Təklif var ki, ikisinə bir həftə məzuniyyət verilsin. Halbuki üçdürlər. Hangisinə verilsin?

**Səslər** - Üçünə də birər həftə!

**Sədr** - Söz Bəhram bəy Vəzirovundur.

**Vəzirov** (İttihad) - Həzərat! Məzuniyyət istəyənlərin biri mənəm. Mən Cəbrayıl uyezdi Qaryaginə gedəcəyəm. Dörd gün faytonla ora getmək və dörd gün gəlmək, bu 8 gün eylər. Bir həftə məzuniyyət mümkün olarmı? Məzuniyyət verirsiniz bir ay verin, verməyirsiniz heç verməyin!

**Səslər** - Doğrudur.

**Sədr** - Söz Qasım bəy Camalbəyovundur.

**Camalbəyov** - Şəxsi işləri üçün məzuniyyətə getmək istəyənlərə yoldaşım bir həftə məzuniyyət verilməsini təklif etdi. Fəqət, bu bir həftə məzuniyyətlə heç bir iş görmək olmaz, yoldaşımızın təklifi səhvdir. Məzuniyyətə gedənlərə – iki həftə istəyir iki həftə, bir ay istəyir bir ay məzuniyyət verilsin. Bu təklifi mən firqə tərəfindən edirəm.

**Sədr** - Təklif var ki, məzuniyyət istəyənlərə istədikləri müddətə məzuniyyət verilsin. Etiraz yoxsa, qəbul olunur. Keçəlim növbədəki məsələyə.

**Katib** *(oxuyur)* - Məclisi-Məbusan Divani-Rəyasətinə:

İşlərin çoxluğunu və mühümlüyünü nəzərə alaraq Maliyyə və büdcə komisyonu 19 fevral iclasında kəndi əzası [üzvləri] miqdarının iki qat artırılmasını qət etmişdir [qərara almışdır]. Binaənileyh [ona görə], bu barədə lazımi təşəbbüsatda bulunmağı Məclisi-Məbusan Divani-Rəyasətindən rica olunur.

Maliyyə-büdcə komisyonu rəisi əvəzinə: Musa bəy Rəfiyev.

**Sədr** – Söz Musa bəy Rəfiyevindir.

**Rəfiyev** - Həqiqətən, Büdcə komisyonuna mühüm layihələr gəlir və komisyonun işi çoxdur. Büdcə komisyonu 8 əzadan ibarət olduğundan xeyli azdır. Bir də nəzərdə tutulmuşdur ki, Büdcə-maliyyə komissiyasında iştirak edən üzvlər, sair komisyonlarda da olduqlarından komissiya iclasına gələ bilməyirlər. Ona görə də

layihələr haqqında öz fraksiyalarına xəbər verə bilməyirlər. Odur ki, Parlamana bir layihə təqdim olunanda və layihə təcili olduqda fraksiyalar xəbərdar olmadıqlarından məsələni təxirə salmağı təklif edirlər. Bundan dolayı biz təklif ediriz Maliyyə komisyonu 8 nəfər əvəzinə 20 və ya 21 olsun. Hər xırda fraksiyadan 2 və böyük fraksiyadan 3-4 üzv verilməsini təklif ediriz.

**Sədr** - Etiraz yoxsa, qəbul olunur. Rica edirəm iclasın axırınadək namizədlərinizi göstərəsiniz.

**Rəfiyev** - *(yerindən)* Namizədlər bu gün qəbul olunan üsul ilə təklif edilsinlər.

**Sədr** - Əvət! Keçəlim növbədəki məsələyə. Divani-Rəyasətə bir neçə layiheyi-qanuniyyə verilmişdir:

Maarif Nəzarətindən - Orucov mətbəəsinin qiymətinin özünə verilməsi haqqında.

Türüq və Məabir Nəzarətindən [Nəqliyyat və Rabitə Nazirliyindən] - Şose yollarının təmiratının Nəzarət ixtiyarına verilməsi haqqında.

Maliyyə Nəzarətindən - Quberniya mədən vergisi idarəsi təşkili haqqında.

Yenə Maliyyə Nəzarətindən - Quberniya və uçastok [sahə] gəlir vergisi idarələrinə üzvlər intixabı [seçilməsi] haqqında.

Yenə həman Nəzarətdən - Vergilər şikayətinə baxmaq üçün Şurayi-Ali [Ali Şura] İdarəsi təsisi haqqında.

Maliyyə Nəzarətinin Vergi şöbəsindən - konyak, üzüm və tut spirtolarına vergi təyini haqqında.

Post-Teleqraf Nəzarətindən - Post-teleqraf qanununun bəzi maddələrinin dəyişməsi haqqında.

Divani-Rəyasət bu layihələrin həpsinin Ləvaehi-qanuniyyə komisyasına verilməsi təklif edir.

*(yenə var)*

## TELEQRAF XƏBƏRLƏRİ

Klemanso cümə günü 40 nəfər yanına gələn şəxsləri qəbul eyləmişsə də, gecə əbədən [əsla] yata bilməmişdir. Şimdi Klemansoya danışmaq büsbütün qadağan edilmişdir. Xəstənin əhvalı barəsində verilən son məlumat böylədir: Fransa Rəisi-cümhuru Puankare, mümaileyh ilə [adı keçən şəxslə] uzun-uzadı müsahibədə bulunmuşdur. Klemanso daima səndəli [söykənəcəkli və qoltuqlu stul] üzərində yatır. Zira uzandığı halda çox öskürür. Ümumiyyətcə əhvalı yaxşı imiş. Bütün dünyanın hər bir tərəfindən Klemansoya teleqraflar göndərilərək tezliklə kəsbi-səhhət etməsini [sağalmasını] arzu edirlər.

### Almaniyada

- Berlindən çəkilən teleqrafdan anlaşılır ki, 35 min nəfərlik hökumət qoşunları rus oblastına yaxınlaşırlar. Spartaklar Mulhaymda olan dövlət qızıllarını əllərinə keçirmişlərdir.

- Münxendə Bavariya Baş vəziri Eysner Parlamana gedərkən qətl edilmişdir. Bu əhvaldan sonra Daxiliyyə naziri Parlamanda Baş nazirin qətl edildiyini xəbər verdikdə, camaatdan bir nəfər bir neçə güllə atıb Daxiliyyə naziri və bir məbus qətl edilib, iki nəfər digər məbus yaralanmışdır.

- Bavariyada məşhur olan bir qatil əfradı [nəfəri] Bavariya Baş nazirini qətl eyləmişdir. Görünür ki, bu qətl irticakaranə bir məqsədlə icra edilmişdir. Münxendə adi həyat dəyişib, şəhərdə vətəndaş müharibəsi başlanmışdır. Bu saat şəhərdə olan mağazaları dağıdırlar. Orada idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan və əlavə şura təşkil edilmişdir. Bu şuraya bolşeviklər də daxil olmuşlardır.

- Bavariya Baş naziri Eysner piyada olaraq Məclisi-Məbusana (Landtaqa) gedərkən student qraf Arko tərəfindən qətl edilmişdir. Qatil tövqif edilib [tutulub] dərhal matroslar tərəfindən güllələnmişdir. Eysneri müşayiət edən digər bir nazir də yaralanmışdır.

- Bavariya Parlamanının iclası təxirə salınmışdır. Eysnerin 52 yaşı var. Özü əslən Berlin əhlindən olub, vaxtilə "Frankfurt[er] çaytunq" qəzetəsinin müdiri imiş. Sonra uzun müddət sosialistlərin "Forverts" qəzetəsində işləmişdir.

- Almaniyanın ticarət flotuna nəzarət üçün Fransanın xüsusi heyəti Hamburqa varid olmuşdur [gəlmişdir].

- Paris, Vyana və Peştə arasında dəmiryol qatarı hərəkatı başlanmışdır.

### Hindenburqun bəyanatı

Feldmarşal Hindenburq bəyan eyləmişdir ki, qərb cəbhəsində qoşunların tərxis edilməsinə razı olar, fəqət şərqdən bolşeviklərin və polyakların hədəsi olduğundan buna cəsarət edə bilməyir. Vətən qarşısında vəzifəsini icradan ötrü qulluğunda qalmağı əfzəl [vacib] bilir. Müşarileyh [adı keçən şəxs] bəyan eyləyir ki, şərq cəbhəsində əhval xətrəlidir [təhlükəlidir]. Buna da səbəb orada müntəzəm qoşun olmadığıdır. Hindenburqla zabitan [zabitlər] əksinqilabçı monarxistlik əleyhinədir. Baş ərkani-hərbdə [qərargahda] əksinqilab hərəkatı var deyə şaye olan [yayılan] xəbərlər doğru deyildir.

## DAĞISTAN NÜMAYƏNDƏSİLƏ MÜSAHİBƏ

Bu son günlərdə Könüllü ordu ilə Dağıstan Cümhuriyyəti arasında vaqe olan ixtilaf könüllülərin inquşlara ultimatum təqdimi, Könüllü qoşunların Dağıstan Cümhuriyyətinə icra etdiyi təzyiqi qəzetələrdə yazılmaqda və ümumi diqqəti cəlb eyləməkdədir.

Bu münasibətlə Dağıstan nümayəndəsi Kantemirov cənabları ilə "Azərbaycan" mühərriri fövqəlzikr [yuxarıda deyilən] məsələ haqqında müsahibədə bulunmuş və bu xüsusda nümayəndə cənabları böylə məlumat vermişlərdir:

Dağıstanın Könüllü ordu ilə münasibatı böylədir: İngilislər Bakıya gəldikdən sonra bizim hökumət Çermoyev başda olmaq üzrə ingilislərlə danışıqda bulunmaqdan ötrü Bakıya gəlmişlərdi. İngilislərlə olan əhdnamə maddələrinə ingilis ərkani-hərbi [qərargahı] bu maddəni də idxal etdi: Bolşeviklərlə mübarizədən ötrü biz ingilislərə müavinət [kömək] etməli və Denikin ilə əlaqədə bulunub da onun bolşeviklərlə olacaq mübarizəsinə mümaniət [maneçilik] etməmələrini. Biz cavabında dedik ki, Müttəfiqlərin bu təkliflərinin qəbulu mümkündür. Zira Denikini Etilaf [Antanta] dövlətlərinin müttəfiqi olan Rusiyanın və Rusiya ordusunun nümayəndəsi hesab edirdik. Biz Denikini ingilislərin müttəfiqi hesab edirdik və nə qədər ki, Denikin Müttəfiqlərlə hüsnmünasibatda bulunarsa, bizim də Deni-

kinə münasibatımız o dərəcədə olmalıdır. Denikin təcavüzkarlıqda bulunarsa, bizim də buna cavabən əlaqəmiz dəyişəcəkdir. Tomson demişdi ki, Denikin sizin torpağa girməyəcəkdir. Amma Denikin şimdi bizim torpağa yürüşə başlamışdır.

Denikin Yekatrinodarda iş görərkən bizi xofa salmışdı. Vaqe olan hadisələr bizim xofumuzun əsaslı olduğunu göstərdi. Denikin ordusu ibtida Çernomor quberniyasına, sonra Qabarda torpağına yürüş etdilər. Hasili, o şərqə tərəf hücum etdikcə, bizi boğmaq istədiyinə şübhəmiz qalmadı.

Qafqaziyada Qafqaziya əhalisi namına [adına] Denikinin sadir etdiyi [yaydığı] əmrnaməsi onun nə məqsədlə Qafqaziyaya gəldiyini bizə göstərdi. Bu əmrnamədə "vahid Rusiyadan", oradakı nizam, asayiş və qanundan bəhs edilərkən sair siyasi məsələlər sükutla keçilirdi. Bizim istiqlalımızdan, Qafqaziyanın müqəddəratından, Qafqaziyanın Rusiya ilə əlaqəsindən bir kəlmə də olsun danışılmayırdı. Denikin öylə mülahizə edirdi ki, Rusiyada vüqu bulan bu qədər hadisələri silah gücü ilə bərtərəf etmək [aradan qaldırmaq] olar. Lakin bizə böylə gəlir ki, bu mülahizə bir o qədər də doğru deyildir. Denikin siyasətcə Müttəfiqlərə müavinət etməyə borclu ikən, özü də müavinətə möhtacdır. Əks surətdə Denikin öhdəsinə aldığı işdə müvəffəq olmaz. Denikinin bu hərəkətlərindən nəinki Qafqaziya istiqlalçıları, hətta ruslar özləri belə xoşlanmayırlar.

Denikin ilə dağıstanlılar arasında olan hadisəni biz müsadimə [toqquşma] hesab ediriz. (Tələfat da çoxdur, inquşlardan 400, könüllülərdən isə bir qədər artıqdır.) Bu müsadimə isə bir sui-təfəhhüm [yanlış anlaşılma] və yaxud Müttəfiqlər komandanlığı ilə Denikin arasında etilaf [razılıq] olmadığı nəticəsidir. Biz Müttəfiqlərə olan etimadımızdan naşi [ötrü] bu qədər tələfatı qəbul etdik. Şimdi Müttəfiqlər komandanlığı Qafqaziya ilə Könüllü ordu arasına saziş verməlidir. Müttəfiqlər bizə yazdıqları məktubda bizi inandırırdılar ki, bizim istiqlalımız əmri-vaqe [fakt] olaraq qəbul edilir və bu məsələ qəti surətdə Sülh Konfransında həll ediləcəkdir. Konfrans bizim məsələyə keçmədən, bizim istiqlalımıza mühlik [öldürücü] zərbə endirildi.

Dağıstan istiqlaliyyəti məsələsi köhnə bir məsələdir.

Krım müharibəsindən sonra, 1856-cı ildə, Paris Konfransında İngiltərə dağıstanlılara istiqlaliyyət verilməsi məsələsini təklif eyləmişdi. Fəqət, təəssüf ki, III Napoleon ilə Rusiya bu alicənabanə təklifə zidd oldular. O zamandan sonra bir çox təbədüllat [dəyişiklik] əmələ gəlmişdir. Dağıstanlılar siyasətən o dərəcəyə yetişmişlər ki, öz istiqlaliyyətləri yolunda Şeyx Şamil dövründən əskik mübarizədə bulunmayacaqlardır. Biz zənn ediriz ki, nəcib rus milləti və həqiqi siyasət xadimləri, ələddavam [davamlı olaraq] bizim tərəfimizdə olacaqdır. Çar Rusiyası dağıstanlılara böyük zərbə endirmişdir. Şimdi inqilabçı Rusiyanın vəzifəsi o səhvləri düzəltməkdir. Biz zənn ediriz ki, hərgah Könüllü ordu Qafqaziya əhalisinə qarşı təcavüzkaranə siyasət yürütsə, bununla Qafqaziya əhalisindən artıq öz məqsədlərinə zərbə vurmuş olacaqdır.

Mərkəzi bolşevik şurası cənubi komissarı Orconikidze vasitəsilə bizə xəbər verilir ki, şura mükəmmələn Dağıstan istiqlalına razıdırlar. Hərgah, Denikin təcavüzkaranə siyasətdə bulunarsa, o zaman camaatın şura təklifinə nə nəzərlə baxacağı özü-özündən anlaşılır.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

* Post və Teleqraf nazirlərinin neft istehsalatının Nəzarətə lazım əşya ilə mübadiləsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Post və Teleqraf Nəzarətinin məruzəsini təsvib [təsdiq] etməklə ona tapşırmalı ki, neft istehsalatı qiyməti müəyyən edildikdən sonra Ticarət və Sənayə Nəzarəti ilə etilafa girsin [razılığa gəlsin]. Bununla da bərabər Gürcüstanla tranzit məsələsini nəzərdə tutmalıdır.

* Hərbiyyə nazirinin ərzaq ehtiyatını Nəzarət ixtiyarına vermək barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Türklər tərəfindən ordu üçün cəm edilən bütün ərzaq və mühimmat Hərbiyyə Nəzarəti ixtiyarına verilməlidir. Fəqət Zəngəzur, Cavanşir, Şuşa və Cəbrayıl qəzalarındakı buraya daxil deyildir. Bütün anbarlar da Hərbiyyə Nəzarətinə verilməlidir. Daxiliyyə və Ərzaq Nəzarətinə tapşırılsın ki, Hərbiyyə Nəzarətinə müavinətdə bulunsunlar.

* Xariciyyə nazirinin Ermənistanla post-teleqraf əlaqəsi vaxtı artırılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Post və Teleqraf Nəzarətinə tapşırılsın ki, xüsusi qərardadadək Ermənistanla post və teleqraf əlaqəsi [müddəti] artırılsın.

* Rəisi-vükəla [Baş nazir] həzrətlərinin general Əfəndizadənin ailəsinə maaş vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Öz vəzifəsi ifasında vəfat etmiş general-mayor Əfəndizadənin qadını və üç övladına qanun layihəsi surətində təsdiq edilənədək bütün məvacibi və yemək xərci verilsin. İşbu xərc Hərbiyyə Nəzarəti məxaricatına artırılacaqdır.

## TƏƏSSÜFLÜ BİR ZİYA' [İTKİ]

Bir qara xəbər daha eşidiriz! Və eşitdiyimiz qara xəbərlər nasıl qəlbimizi sızlatdı, fikir və zehnimizi tırmaladı isə, bu da öylə gələcəyə məxsus ümidlərimizə qara buludlar açır: Süleyman bəy Əfəndiyev ölmüş!

Bütün həyatını millətə xidmət, millət yolunda, haqq yolunda qeyrət etməklə Zaqafqaziya islamları arasında tanınmış, bilinmiş olan polkovnik Süleyman bəy Əfəndiyev ölmüş!

İsti yay aylarında, qışın soyuq günlərində Ağdamda, Tərtərdə və Qarabağın sair yerlərində vətənin hüdudlarını mühafizə edərək düşmən qarşısında ər kişilərə məxsus bir qəhrəmanlıqla çalışıb-çabalayan o aliqiymət əsgər, kiçik bir dövreyi-istirahətə nail olammadan və Azərbaycanın müşkül və zəhmətli şu zamanında həyata vida etdi!

Mərhumu yaxından tanıyanlar onun nasıl bir ənmuzəci-fəzail [fəzilətlər mücəssəməsi] olduğunu hörmətlə bilirlər. Bu zat geniş bir qəlbə malik idi. Öylə bir qəlb ki, orada lirik bir hiss, bir səmimiyyət bəlli

olurdu. Qəlbi kimi fikri də səlim [sağlam] idi. Ən incə düşüncələrində, hətta hərarətli tənqidlərində belə cahanşümul bir səmimiyyət göstərirdi. Danışmaqdan heç də xoşlanmaz və iş tərəfini iltizam edərdi [öhdəsinə götürərdi, özünə borc bilərdi].

Bu zaye [itki] çox müəssifdir [kədərlidir]. Zavallı, həyatında oğlunun Batumda intihar etdiyindən də xəbərdar olmamışdı.

Bəradəri [qardaşı], Batumda camaat xadimliyi ilə bilinmiş Azərbaycan Hökumətinin Batum konsolosu doktor Mahmud bəy Əfəndiyev şübhəsiz bu bütün ailənin böyüyü olmaq etibarı ilə çox mütəəssir olacaqdır.

Biz bütün ailəsilə bərabər hörmətli Mahmud bəyə təziyət edir və səbr təmənni ediriz.

*Ə. Həmdi*

## BAKI XƏBƏRLƏRİ

**"Ərdahan" gəmisinin tərksilahı**

Portdan verilən xəbərlərə görə, bugünlərdə İngiltərə komandanlığının əmri ilə "Ərdahan" gəmisi doka daxil edilmişdir. Əvvəlcə İngiltərə müxribləri [destroyerləri] "Ərdahan"a yaxınlaşıb bir neçə dəfə "Ərdahan"ın ətrafında dövr vurmuşlardır.

**Çörək qiymətləri**

İngiltərə ərkani-hərb [qərargah] idarəsinin mərkəzi ərzaq heyəti əhaliyə məlum edir ki, çörək zeyldəki [aşağıdakı] qiymətlərlə satılır:

1. "Sentrodom"un dükanlarında 10 faiz buğda və 90 faiz arpa - girvənkəsi 2 manat 75 qəpik.

2. "Kooperasiya" cəmiyyətinin dükanlarında 25 faiz arpa unu qarışıq - 2 manat 75 qəpik. Xalis buğda unundan - 3 manat, mədən-zavod dairəsində xalis arpa unundan - 1 manat 75 qəpik, 1 manat 85 qəpik.

3. Dəmiryol kooperativ dükanlarında 75 faiz buğda, 25 faiz arpa unundan ancaq dəmiryol qulluqçularına 2 manat.

*İngiltərə Ərzaq komissarı mayor Kenisq*

**Bakı-Şamaxı post və teleqraf müxabiratı [əlaqəsi]**

Maliyyə Nəzarəti Bakı qubernatoruna müraciətən rica etmişdir ki, tezliklə Bakı ilə Şamaxı arasında post-teleqraf müxabiratının təcdidi [yenilənməsi] üçün lazımi binagüzarlıqda [sərəncamda] bulunsun. Məzkur [deyilən] şəhərlər arasında post münasibatı yoxluğundan bəzi hökumət işlərinin vaxtında əməl edilməsi təxirə uğrayır.

**"Müsavat" şöbələrində**

* Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Suraxanı mədən dairəsi şöbəsi bununla elan edir: Suraxanıda vağzal qabağında "Müsavat" şöbəsində fevral ayının 27-də olan iclasa hər 50 nəfərdən bir nəfər nümayəndə təyin edib göndərsinlər. Müsəlman işçi qardaşlardan rica olunur bu barədə səhlənkarlıq etməsinlər.

* Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Balaxanı mədən dairəsi şöbəsi bununla elan edir: Sabunçu, Ramana, Zabrat, Balaxanı mədənlərində işləyən müsəlman işçilərinə. Hər 50 nəfərdən bir nümayəndə təyin edib fevralın 27-də pəncşənbə [cümə axşamı] günü saat 2 tamamda "Müsavat" şöbəsinin iclasına göndərsinlər. Vacibli və lazımlı məsələlər müzakirə olunacaqdır. Yoldaşların gəlmələri artıq dərəcədə rica olunur.

**Balaxanı kooperativ klubunda (Balaxanı krujoku)**

Cümə günü, şubatın (fevralın) 28-də saat 1 tamamda yoldaş Ələkbər Heydərov (Buzovnalı) türk dilində kooperativə dair leksiya oxuyacaqdır. Leksiya pulsuzdur.

**Hadisat**

Fevralın 22-də Məşqət [Maştağa] kəndinin əhli Qədiməli Sultan oğlu Məşqət pristavına məlum etmişdir ki, fevralın 20-də axşam saat 5-də məzkur [adı çəkilən] kəndin əhli Abbasqulu Məhəmməd oğlunun evinin yanında üç nəfər həmkəndliləri Abbasqulu, Xanəli, Pirəli Xəlil oğlanları ona hücum edib 983 manat pulunu və tapancasını almışlardır. Müqəssirlərdən Xanəli tövqif edilib [tutulub], qeyrilərini tutmaqdan ötrü tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Məhbusların qaçması**

Bakı həbsxana naçalniki [rəisi] qubernatora məlum etmişdir ki, fevralın 23-də həbsxanadan Həsən Cəbrayılov, İvan Samoylov və Əli Qulam oğlu Qulamov nam [adlı] üç məhbus pəncərənin dəmirlərini sındırıb qaçmışlardır. İkinci günü məzkur məhbuslardan Həsən Cəbrayılov həbsxana naçalniki yanına gəlib yenidən həbsə alınmasını rica və məlum etmişdir ki, onun qaçmasına ölümlə hədələnməsi səbəb olmuşdur.

**Dəmiryolunda**

Sanqaçal mövqifi [stansiyası] yaxınlığında xarab olmuş dəmiryol xətti təmir edilərək yenidən qatarlar hərəkatı başlanmışdır.

Sanqaçal mövqifində, fevralın 22-də su qatarı yol dəyişmədiyindən yoldan çıxıb paravoz və iki dənə vaqon əzilmişdir. İnsan tələfatı yoxdur. Dəmiryol cüzi surətdə xarab olmuşsa da, qatarlar hərəkatı təxirə uğramamışdır.

**Bakı quberniyasında**

- Quba qəza qaimməqamı [qəza rəisi] qubernatora məlum edir ki, fevralın 17-də İmamqulu kəndi əhilləri Mirzə Məhəmməd Hacı Salah oğlu və Mənuçöhr Əmir Ziya oğlu ilə öz kəndliləri olan 12 yaşında Heydər bəy Bayram oğlunu tüfəng gülləsi ilə yaralamışlardır.

- Quba qəzası Dəvəçi uçastoku Eynibulaq kəndinin əhlləri Bakı qubernatoruna müraciətən məzkur [adı çəkilən] kəndin yüzbaşısı Nəcməddin İsmayıl oğlundan şikayət edirlər. Məzkur kəndxuda bəzi şeyləri bəhanə edərək əhalidən külli miqdarda rüşvət alırmış, onları döyüb incidirmiş. Hökumət tərəfindən əsgər yığılması təxir edildiyinə baxmayaraq, bir çox adamları əsgərliyə çağırıb öz mənfəətinə olaraq pul aldıqdan sonra yenə buraxırmış. Və bir çox qeyri sui-istemallarda [sui-istifadələrdə] bulunur.

**Müfəttinlər**

Quba uyezd naçalniki Bakı qubernatoruna məlum edir ki, Alpan kəndinin əhlləri Molla İslam Hacı Əbdürrəhim oğlu, Ağagül Şeyx Məhəmməd və Meydan Süleyman oğlu əhali arasında bir çox ya-

lan şayiələr buraxıb hökumətə əsgər verməməyə dəvət edir və camaatı Azərbaycan deyil, Dağıstan Hökumətinə tabe olmağa tərğib [təşviq] edirlər. Müfəttinlərdən [fitnəkarlardan] iki nəfəri tövqif edilib [tutulub], qalan bir nəfəri Molla İslam isə gizlənmişdir. Naçalnik məzkur xainlərə cəza verilməsini qubernatordan rica edir.

## ƏRZAQ İŞLƏRİ

**Qarabağ bezləri**

Ərzaq Nəzarətinin Qarabağ general-qubernatorluğunda olan vəkili Ərzaq Nəzarətinə yazır ki, Qarabağ general-qubernatorluğuna buraxılan bezləri təhqiq etməyə başladım. Birinci növbədə məhəlli uyezdnı naçalniklərə [yerli qəza rəislərinə] və ictimai müəssisələrə təmimnamələr [təlimatlar] göndərib nə zaman, nə qayda ilə və harada əhali ehtiyacı üçün alınmış manufakturlar haqqında məlumat verilməsini istədim. İndiyə qədər üç ittifaq [hadisə] kəşf edilmişdir ki, Ticarət və Sənaye Nəzarətinin icazəsilə buraxılan bezlər gedib yerinə çatmamışdır. Birincisi 25 min arşın bezdir ki, Şuşa şəhər ərzaq komitəsi və onun sədri Məhəmməd Tağıyev ixtiyarına buraxılmışdır. İkincisi 10 min arşın bez və ağ Malıbəyli kənd camaatının vəkili Mirmehdi Ağamirzadəyə buraxılmışdır. Bundan ancaq Malıbəyliyə min arşın bez və 400 arşın ağ gəlib çatmışdır. Üçüncüsü Zəngəzur uyezdi “Müsəlmanlar” kənd camaatına 4 min arşın buraxılan bezdir. Bu hər üç ittifaqda xəyanət edən şəxslər general-qubernator cənabları tərəfindən qanuni məsuliyyətə cəlb edilmişlərdir.

## AZƏRBAYCANDA

**Sayad Xızıdan bizə yazırlar:**

Quba qəzası Dəvəçi dairəsində Bakı qəzası ilə sərhəd olan Sayad Xızı icması ibarət on səkkiz para kəndlərdən inqilabın əvvəlinci günlərindən etibarən Quba qəzasından ayrılıb Bakı qəzasına mülhəq olmaq [birləşmək] üçün sabiq Rusiya müvəqqəti hökumətinə ərizə verilmişdir.

Bunları bu təşəbbüsə vadar edən Bakıya nisbətən, Qubaya gediş-gəliş əlverişli olmamasıdır. Məsələn, bir kəndli bu obşestvanın hangi kəndindən olursa-olsun Qubaya iş düşdüyü zaman əvvəlcə Dəvəçi istasyonuna, oradan Xaçmaz mövqifinə [stansiyasına], sonra Xaçmazdan parası varsa faytonla, yoxsa Qubaya qədər piyada getmək məcburiyyətində idi. Bu da əhalinin son dərəcə məşəqqətinə və yaxud artıq məxaric sərf olmasına səbəb olurdu. Fəqət Bakı qəzası ilə həmsərhəd olan Sayad Xızı icması Bakı qəzası üstünə yazılacaq olarsa, o zaman böylə məşəqqətlərə meydan verilməmiş olardı.

Sayad Xızı icması Giləzi istasyonuna yaxın olduğu üçün (4 verst) asudə dəmiryolu ilə Bakıya gəlmək olur. Keçmiş hərcmərclikdən dolayı bu vaxta qədər məzkur icma ilhaqı haqqında olan təşəbbüsləri bisəmərə qalmışdı. Nəhayət bugünlərdə Sayad Xızı icmasından Bakıya 50-yə qədər vəkil gəlib öz tərəflərindən, öz əhalisi[ndən] olan tələbə, mühəndis (student, texnik) Rzaqulu Həsənzadə və Ağabəy Abdulla bəy əfəndiləri intixab edib [seçib] bu işi onlara həvalə etmişlərdi.

İsimləri balada [yuxarıda] yazılan əfəndilərin çalışması ilə hökumət Bakı vilayəti valisi vasitəsilə Sayad Xızı icmasını Quba qəzasından ayırıb Bakı qəzasına mülhəq etdilər.

Axırüləmr [axırda] bu zavallı kəndlilər qırx ildən bəri etdikləri arzusuna nail olmaqla bərabər, ilhaq əmrini başqa hökumətdən deyil, öz hökumətlərindən eşitdilər. Kəndlilər şad-xürrəm olub vətənə qayıtdılar.

Bu yaxın günlərdə Balaxanı-Sabunçu qalabəyisi [Lütfəli bəy] Əmircanov cənabları məzkur icmanın kəndlərində hökumət tikmək üçün məmur göndərməyi vəd etmişdir.

Sayad Xızı icması nümayəndələri: 1) Hüseynqulu Şahbaz oğlu; 2) Hacı Mənaf Məhəmməd oğlu; 3) Soltan Ağagül oğlu; 4) Camal Hacı Molla Əhməd oğlu; 5) Məşhədi Əyyub Əsgər oğlu; 6) Şahbaz Abbas oğlu; 7) Məhəmmədcavad Cavad oğlu; 8) Molla Pənah Həsən oğlu; 9) Molla Məhəmmədəşrəf Axund Məhəmmədəli oğlu.

## GÜRCÜSTANDA

**Pul buraxılması**

Təzə bon buraxılması Aəzrbaycan Hökumətindən indiyə qədər razılıq alınmadığına görə təxirə düşmüşdür. Ermənistan Hökuməti 240 milyon rublə buraxılmasına razılıq vermişdir. Bu pulun üç cümhuriyyət arasında təqsim olunması [bölünməsi] təsəvvür edilir.

**Azərbaycana getmək**

Gürcüstan Hökuməti nəzdində olan Azərbaycan siyasi nümayəndəsi xəbər verir ki, bu axır vaxt Bakıya və Azərbaycanın qeyri yerlərinə gedənlərin icazəsi olmadığından, sərhəddə bir çox ixtilaflar vücuda gəlir. Bu cür ixtilafları bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü Azərbaycan Hökumətinin siyasi nümayəndəsi Gürcüstandan Azərbaycana gedənlərə xəbər verir ki, Gürcüstan Hökumətindən aldıqları icazədən başqa Azərbaycan siyasi nümayəndəsindən də icazə vəsiqəsi almalıdırlar.

## ERMƏNİSTANDA

**Hökumət heyətində təbəddülat [dəyişiklik]**

Ermənistan Hökumətində bəzi vəzirlər [nazirlər] dəyişmişlərdir. Daxiliyyə nazirliyinə Xatisov təyin edilmişdir. Hökumət rəisi orada mövcud olmadıqda, Xatisov onun vəzifəsini ifa edəcəkdir. X[ristofor] A[vvakumoviç] Vermişev Ərzaq naziri, Torosyan Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirliyinə təyin edilmişdir. Mühəndis Oqanesov Ermənistan Dəmiryolları naçalniki [rəisi] təyin edilmişdir.

**Kaçaznuni**

Ermənistan Hökuməti Baş vəziri Kaçaznuni Parisə və Amerikaya getməkdədir. Kaçaznuninin qəsdi tezliklə Ermənistana ərzaq və birinci zəruri şeyləri göndərməklə bərabər, Müttəfiqlərdən borc almaq üçün zəmin hazırlamaqdır.

**Qoxtan Cümhuriyyəti**

- İrəvanda alınan xəbərlərə görə, Qoxtan müsəlman və erməni kəndləri (Əylis rayonunda) müvəqqət bir cümhuriyyət təşkil edib ingilislər gələnə qədər asayiş və nizam saxlamaq üçün hökumət düzəltmişlərdir.

- Əylisdə cümhuriyyət elan edilmişdir. Hökumət başında Qayk Soqomonyan və Məlik-Mosyan durmuşlardır.

- Ordubadda xanlıq elan edilmişdir. Orada ingilis əsgərləri yoxdur.

**Camalyan**

Gürcüstan Hökuməti nəzdində olan sabiq siyasi nümayəndə Arşak Camalyan şayiata [şayiələrə] görə İstanbula səfir təyin ediləcəkmiş. Rəsmi vəkalət hələ yoxdur.

**Qars oblastında**

Qars oblastı İngiltərə general-qubernatoru Tamberleyn tərəfindən idarə olunmaqdadır. Mülkiyyə xidmətləri ifası üçün sabiq rus zabitləri xidmətə dəvət edilirlər. Sabiq jandarma polkovniki mühafizə naçalniki təyin edilmişdir.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi!

Məhəlli [yerli] qəzetələrdə Cavad mahalında yaşayan naməlum kəndçilər tərəfindən və savadsız olduğundan barmaq basılmaqla iktifa edən [kifayətlənən] bir məktub dərc edilmişdir. Halbuki həmin kəndçilərin imzalarını öz ərizələrini yazdırmış olduqları [və] şikayətçilərin adlarını gizlətmiş olan savadlı şəxs qeyd edə bilərdi.

Bu cür məktub[un] qəzetə sütunlarında çap edilməsi zənnimizcə mümkün olan şeylərdən deyil. Zira adlarını gizlətmiş olan şəxslər bu yolla danosda bulunub kiminsə təmiz adına ləkə vururlar. Mən qəti surətdə elan edirəm ki, bu məktubda həqiqətə müvafiq bir şey yoxdur və təsdiq edirəm ki, Cavad mahalında camaat barəsində heç bir xəyanətə yol verməmişəm və var qüvvəmlə bu yolda çalışmışam.

Əvət, məhəlli camaat xadimi Ağa Mirəşrəf cənablarının təşəbbüsü ilə məhəlli tacirlər və zavodçular öz xahişlərilə ianə qəsdilə Realnı məktəbi nəfinə [xeyrinə] Bakıya göndərilən mallara vergi təyin etmişlərdi və ümdə məqsəd də bu yol ilə yeganə olan xəstəxananı saxlamaq idi. O xəstəxana ki, kimsə onun fikrində olmayırdı. Camaat da qətiyyən ondan mənfəətbərdar olammayırdı. Bu həqiqətən də mənim razılığımla olmuşdu. Çünki xəstəxananı saxlamaq üçün başqa çarə də yox idi. Mənim tərəfimdən mahalda könüllülərdən sərhəd mühafizəçi dəstəsi təşkil edilmişdir. Bunlar mahalı şahsevənlərin hücumundan müdafiə edirlər, əhali də bu işdə mənə müavinət [kömək] edir. Ancaq bu yolla qəhətlik, naxoşluq və Şahsevən bəlalarından mahalı mühafizə etmək mümkün olmuşdur. Mən təvəqqe edərdim ki, Cavad mahalına Parlaman tərəfindən istintaq komissiyası göndərilib də, bu işləri təhqiq etsin və işin həqiqətinə vaqif olsun və bilsinlər ki, o məktubu yazanlar kəndçilər olmayıb, mənim şəxsi düşmənlərimdən bir dəstədir.

*Kamali-ehtiram ilə Cavad naçalniki:*
*Əliheydər Yusifov*

## TEATRO VƏ MUSİQİ

Üzeyir bəy Hacıbəyli tərəfindən digər bir balet rəqsi yazılıbdır ki, bunun da adı "Azərbaycan"dır. Keçən günlərdə yazmış olduğu "Dağıstan" baleti "ləzginka" səyağında olduğu halda bu yeni "Azərbaycan" baleti də "tərəkəmə" səbkindədir [üslubundadır]. Hər iki oyun Hacıbəyli Bəradərləri Müdiriyyəti tərəfindən səhnə üçün hazırlanmaqdadır.

**İtibdir**

Fevralın 25-ində Tatarski küçədə bumajnik içində 2 dənə gümüş manat və bir açar itibdir. Onu tapan müsəlmandan çox xahiş edirəm ki, gətirib 50 manat bəxşişlə "Azərbaycan" qəzetəsi kantoruna versin.

*5703 1-4*

Ağa Əmirqulu oğlunun Balaxanı 4-cü uçastokundan aldığı 5 illik pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5704 1-4*

Rzaqulu Ağabala oğlu Şirvanlı 17 yaşında, əynində qolsuz köhnə pencək, başında qara papaq, uzun boylu. 10 gündür itibdir. Onun barəsində məlumat bilənlərdən acizanə rica edirəm ki, gəlib anası Məşhədi Səyyarə Əliəsgər qızına xəbər versinlər. Ünvan: Persidski küçə, 6-cı dalan, nömrə 1.

*5705 1-4*

**Arvad həkimi Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək.

Cümə günləri fəqirləri pulsuz qəqbul edir.

Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Tələbə (kursistka)**

Ali-ibtidai məktəbini qurtarmış, ali-ibtidai məktəbinin hər bir siniflərinə şagirdlər hazır edir. Ünvan: Sisyanovski küçə nömrə 7, Qubernskinin küncündə, diş həkimi Lyubinin mənzilində.

*5706 1-4*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Elan**

Azərbaycan Posta və Teleqraf Nəzarəti elan edir ki, bu şubatın 24-dən etibarən Bakıda böyük posta və teleqraf məktəbi açılır. Dərs axşam saat 5-də başlanır. Ərizə Posta və Teleqraf Nəzarətində qəbul olunur.

Adres: Mirbabayevin evində 3-cü mərtəbədə, Naberejni küçədə.

*Dəftərxana baş müdiri: Blajevski*
*Kargüzar: D. Rəhimli*
*45 3-4*

**Агентурно-комиссionно-торговая Контора "И. Фани и Ко."**

Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru “Fani və kompaniya”, Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantora müraciət etmələri təvəqqe olunur.

Satılır: məftul, sabun, un, min meşok arpa, saman, kömür, fındıq hərəsindən iki vaqon.

*2693*

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən**

səh. 398. “Naberejni”: Bakıda, indiki Neftçilər prospekti.

“Nikolayevski”: Bakıda, indiki İstiqlaliyyət küçəsi.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 398. “Bir neçə qanun layihələri”: bu maddənin bəndləri ərəb əlifbasının hərf sırasına uyğun olaraq “əlif, be, te…” kimi işarələnmişdir.

səh. 402. “Dikidir”: “diki” rusca “adamdan qaçan; vəhşi; yabanı” kimi mənalara gəlir; burada zarafatyana işlənmişdir.

**Teleqraf xəbərləri**

səh. 405. “Qatil tövqif edilib dərhal matroslar tərəfindən güllələnmişdir.”: Kurt Eysnerin qatili Arko auf Valley, Eysnerin cangüdənləri tərəfindən yaralanmış, fəqət ölməmişdir. Ölüm cəzasına məhkum edilmiş, sonra cəzası ömürlük həbsə dəyişdirilmiş, 1924-cü ildə azadlığa buraxılmışdır. Arko avtomobil qəzası nəticəsində ölmüşdür.

“Frankfurter çaytunq” [Frankfurter Zeitung]: Frankfurtda 1856-1943-cü illərdə nəşr edilən gündəlik qəzet.

“Forverts” [Vorwärts]: Almaniya Sosial-Demokrat Partiyasının orqanı idi.

Hindenburq: qəzetdə “Gindenburq” kimi getmişdir. Almaniyanın hərbi və siyasi xadimi Paul fon Hindenburq nəzərdə tutulur.

**Vükəla Şurasında**

səh. 407. “…general Əfəndizadənin ailəsinə…”: Azərbaycan Cümhuriyyəti ordusunun generalı Süleyman bəy Əfəndizadə nəzərdə tutulur.





**Təəssüflü bir zıya**

səh. 407. “…polkovnik Süleyman bəy Əfəndiyev…”: Süleyman bəy Əfəndizadə (Əfəndiyev) polkovnik rütbəsini 1912-ci ildə çar ordusunda almışdır. Azərbaycan Cümhuriyyəti dövründə (29 dekabr 1918-ci ildə) Süleyman bəyə general-mayor rütbəsi verilmişdi.

səh. 408. “Ə. Həmdi”: bu imza Əhməd Həmdi Qaraağazadəyə məxsusdur.

**Azərbaycanda**

səh. 410. “Sayad Xızı icması”: mətnin bəzi yerlərində “Sayad Xızı ictiması” kimi getmişdir.

“…ibarət on səkkiz para kəndlərdən…”: güman belə olmalıdır: “…ibarət olan səkkiz para kəndlərdən…”

**Ermənistanda**

səh. 411. Qoxtan: Ermənilərin Ordubad rayonunun bir qisminə verdikləri ad.

**İdarəyə məktub**

səh. 412. “Halbuki həmin kəndçilərin imzalarını…”: bu cümlə qəzetdə müəyyən səhvlərlə getmişdir.



*"Azərbaycan" qəzetinin 125-ci nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 28 fevral 1919-cu il, nömrə 125**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 27 cəmadiyələvvəl sənə 1337. 28 şubat sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 80 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Hüseynqulu Rzayev Sarabski (artist) öz zövcəsi **Əzizə xanımın** vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir. Cənazə bu gün səhər saat 1-də Çənbərəkənd küçəsində (3-üncü ispuskda) özünün 8-inci nömrəli evindən qaldırılıb məscidə aparılacaqdır.

*48*

## YENİ BÖHRAN

"İttihad" firqəsinin [partiyasının] Fətəli xan kabinəsinə qarşı çıxışına rəğmən Parlaman məzkur [deyilən] kabinəyə etimad göstərməklə bu kabinənin fəaliyyətindən məmnun qaldığını bildirdi. Lakin Azərbaycan Hökuməti təşəkkülü günündən bəri bir bu qədər ağır zəhmətlərə qatlaşmış olan Fətəli xan həzrətləri bunun üstündən bir də cürbəcür dedi-qodular arasında qalmaqla, canının bilkülliyyə [tamamən] istirahətdən düşüb də əsəbi bir hal peyda etməsilə bədəninin yorunuq almağa böyük bir ehtiyacı olduğunu hiss edib, zimami-hökuməti [hökumət cilovunu] özgə bir ələ ötürməyə qərar verdi.

Yeni vücuda gəlmiş olan Azərbaycan Hökumətinin birinci Rəisi-vüzərası [Baş naziri] olmaqla, Azərbaycan tarixində mühüm bir mövqe tutmuş olan Fətəli xan həzrətləri, bu yeni dövlətin vəziyyətini taxta-parələrdən əmələ gəlmiş bir gəmiyə təşbeh edirdi [bənzədirdi] ki, bu kimi fırtınalı bir gündə dərya üzərində hər saat və hər an dağa-daşa çırpılıb dağıla bilmək təhlükəsi qarşısında qalmış, bütün ümidini gəmiçinin ustadlıq və məharətinə bağlamışdı.

Vaqiən [doğrudan da] gənc dövlətimizin halını bu şəbahət [oxşarlıq] təsviri ilə göstərməyə Fətəli xanın haqqı vardı. Daxili rabiteyi-inzibatiyyələri [inzibati bağları] bərkidilməmiş dövlətimiz taxta-parələrdən əmələ gəlmiş bir gəmi; mühitimizdə hökmfərma olan [hökm sürən] anarşi bir dəniz fırtınası; içimizdə və çölümüzdə pusquda duran düşmənlərimiz isə dağlar və daşlar və sıldırımlar.

Pəs, bu zəif gəmini bu fırtınalı gündə bu dağın, bu daşın arasından salamat keçirmək və sahili-nicata çıxartmaq gəmiçiliyini Fətəli xan həzrətləri öz boynuna götürməyi qəbul etdi və qəbul edib də gəmisini kamali-ehtiyat və ehtimam [diq-

qət] ilə aparıb hələ sahili-nicata çıxartmadısa da, fırtına sakit olana qədər dağa və daşa vurmayıb bunların arasından keçirtdi və bu ustadlığında böyük bir məharət göstərdi.

Bu gün gəmimiz hələ dənizdədir. Lakin dənizin fırtınası sakit olubdur və qorxulu dağlar və daşlarda[n] dəxi salamatlıqla keçirilibdir. Doğrudur, fırtına genə təzədən qalxa bilər və sualtı və suüstü dağlara və daşlara təkrar toxunmaq təhlükəsi də gələcəkdə genə meydan ala bilər. Fəqət, təkrar edirik ki, bu halda dəniz əvvəlki halına nisbətən sakitdir. Ondan əlavə, gəmimizin taxta-parələri, yəni daxili rabitələrimiz bir-birinə möhkəmləşibdir və əlavə dağa-daşa çırpılmağa qarşı da gəmimizi qoruyacaq xüsusi bir sipərimiz vardır. Deməli, əvvəlki iztirab və təşvişə məhəl [yer] yoxdur.

Pəs, gəmimizi bu hala qədər salamat gətirmiş olan gəmiçimiz bir bu qədər çəkmiş olduğu zəhmət və əziyyətlərdən dolayı canının istirahətə möhtac olduğunu hiss edərək sükanı özgəsinə tapşırmaq istədi.

Yorulmuş bir can üçün istirahət lüzumu o qədər vazeh [açıq-aşkar] bir əmrdir [işdir] ki, bu lüzumiyyəti nəzərə al[ma]maq istirahətə möhtac olan canın bədxahı olmaq deməkdir. Halbuki Fətəli xan həzrətlərinin bədxahı olmağa heç bir haqq və səlahiyyətimiz yoxdur və olsaq da naşükürlük töhməti üzərimizdə layiq görünər.

Xan həzrətlərinə istirahət üçün fürsət verib də istirahət bə’dində [istirahətdən sonra] bərkimiş və rahatlanmış qüvvələrlə təkrar vətən və millət yolunda mühüm işlər görəcək ümid və təsəllisi ilə, idareyi-ümuri-dövləti [dövlət işlərinin idarəsini] başqa bir ələ tapşırmaqlığımız lazım gələcəkdir.

“Başqa bir əl” seçmək vəzifəsi Parlaman sədrinin üzərindədir. Onu təsdiq etmək isə Parlamanın səvabdidinə [razılığına] bağlıdır.

Hər halda, Fətəli xanın yerinə oturacaq bir şəxsi seçərkən iki mühüm şərt var ki, onları daima nəzərdə tutmalıdır. Əvvəla budur ki, seçilən zat, müqtədir olsun və bunun bu iqtidarından heç olmasa Parlaman əksəriyyətinin – peşin olaraq [qabaqcadan] – vüqufu və ittilaatı [bələdliyi və xəbəri] olsun. Vəilla [yoxsa] hərçi badabad [nə olur-olsun] bir adam seçmək və “Görək bu necə işləyəcək?” - deyə bərayi-imtahan [imtahan üçün] məqami-rəyasətə mindirmək və bu səhlkarlıqla [səhlənkarlıqla] millət və vətən başında “imtahan meydanı” açmaq əməlini, hal və övzaya [vəziyyətə] yaraşan hərəkətlərdənədd [hesab] etmək olmaz. Seçilən adam, təkrar edirik, bacarıq və candil ilə iş görmək ləyaqətincə Parlaman əksəriyyəti tərəfindən şayani-etibar və etimad [etibar və etimada layiq] olmalıdır.

İkinci şərt olaraq bunu nəzərdə tutmalıdır ki, seçilən adam bacarıq və işgörənlikdən əlavə bir də sahibi-təcrübə olmalıdır. Böylə ki, iş başına keçən kimi, işin nerədə və nə məqamda dayandırılmış olduğunu dərk edib də toxtalmış işin davamına şüru etsin [girişsin], nəinki əhvalatdan bixəbər olub da, bir də təzədən başlamaq məcburiyyətində qalsın. Təzədən ancaq o iş başlanar ki, hələ indiyə qədər başlanmayıbdır. Başlanmış işlər isə nöqsanatı rəf edilmək [aradan qaldırılmaq] şərtilə davam etdirilməlidir.

Bu iki şərt üzrə seçilmiş olacaq zat isə burasını nəzərdə tutmalıdır ki, fırtına içindən və daşlar arasından Fətəli xan həzrətləri tərəfindən salamatlıqla keçirilmiş olan gəmimiz bu gün nisbət etibarı ilə sükun [sakit] bir dəniz içində üzməkdə olmaqla bugün-sabah təkrar qopmaq ehtimalı meydanda olan fırtına qorxusundan tamamilə təmin edilmiş deyildir. Ona görə, bu sakitlikdən əcələ ilə layiqincə istifadə edib də gəmimizi bir hala salmalıdır ki, dedikcə möhkəm və mətin olub, fırtına dalğalarının hücumlarından və suiçi daşlarına toxunmaq təhlükəsindən əsla qorxmasın. Böylə ki, gəmi əhlinin – ki vətən övladından muraddır – idarəni sahibi-iqtidar və təcrübəkar bir əldə görüb də Sədi əleyhirrəhmənin ağzı ilə:

“Çe bak əz möuce bəhr anra
Ke darəd Nuh kəştiban!”

- deyəcək qədər etimad və əmniyyəti olsun.

*Hacıbəyli Üzeyir*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**12-inci iclas**

*(keçən nömrədən mabə’d)*

**Sədr** - Növbədəki məsələ Hərbiyyə Nəzarətinin məvaqeyi-məmuriyyətlərinə [ştatlarına] verilən isimlər barəsindəki qanun layihəsidir.

Söz Qara bəy Qarabəyovundur. Bir də ərz etməliyəm ki, Hərbiyyə nazirimiz həyatının qismi-ə’zəmini [böyük hissəsini] Rusiya daxilində keçirdiyindən və məruzədə bir çox xüsusi is[ti]lahlar [terminlər] olduğundan, onları türkcə deməyə qadir deyildir. Ona görə özü rica edir, mən də öz tərəfimizdən təvəqqe edirəm bugünlüyə istisna olaraq izin verəsiniz mətləbini rusca söyləsin. Çünki mətləb əhəmiyyətlidir və türk dilində mühüm mətləbləri izah edəmməyəcəkdir.

**Səslər** - Qəbuldur, qəbuldur!

**Qarabəyov** (İttihad) - Bir neçə gündən bəri Hərbiyyə Nəzarətinin büdcəsinə Müdafieyi-milliyyə komissiyasında hər bir təfsilatı ilə baxılmışdır. Lakin burada hər bir məsələ söylənilməz; çünki əsgərə dair məsələlər açıq məclisdə müzakirə edilməz. Yalnız nümunə olaraq dəvairdəki [şöbələrdəki] qulluqçuların miqdarı ilə alacaqları maaş söylənə bilər. *(Oxuyur)*

Azərbaycan Cümhuriyyəsi Hərbiyyə müdiriyyəti dairələr və əsgəri kütlələr təşkilatı layihəsinə cədvəl

1) Hərbiyyə Nəzarəti və Ordu dairəsi rəisi (general-kvartirmeyster) dairəsi heyəti;

2) Ordu dairəsində təhərri [axtarış] və tədqiqat şöbəsi;

3) Ərkani-hərbiyyeyi-ümumiyyə rəisi dairəsi heyəti;

4) Ərkani-hərbiyeyyi-ümumiyyədə müxabirat [rabitə] şöbəsi;

5) Hərbiyyə Nəzarətində idarə və ləvazim [təsərrüfat] müdriyəti;

6) Hərbiyyə Nəzarətində mühümmat və cəbbəxana dairəsi;

7) Ərkani-hərbiyyədə istehkam şöbəsi;

8) Ərkani-hərbiyyədə topoqrafiya şöbəsi;

9) Hərbiyyə Nəzarətində Divani-hərb

[Hərbi məhkəmə] heyəti;

10) Azərbaycan Divani-hərbi heyəti və onun Müddəiyi-Ümumi nəzarəti [Prokurorluq nəzarəti];

11) Azərbaycan Cümhuriyyətinin Sihhiyyeyi-hərbiyyə şöbəsi;

12) Gəncədə Hərbiyyə xəstəxanası heyəti;

13) Hərbiyyə baytariyyə şöbəsi;

14) Dəmiryollar və sular üzərində əsgərlər sövq edici müdiriyyət heyəti;

15) Gəncədə Məktəbi-hərbiyyə heyəti;

16) Mərkəz komandanlığın heyəti (məhəlli briqada);

17) Zirehli qatar heyəti;

18) Gəncədə mərkəz komandanlığı heyəti;

19) Süvari firqə qərargahı heyəti (süvari diviziya);

20) Azərbaycan dörd yüzlü süvari alayının heyəti;

21) Mühümmati-nariyyə və carihə [odlu və soyuq silahlar] emalatxanası heyəti;

22) Mühümmati-nariyyə və carihə deposu heyəti;

23) Topçu briqada müdiriyyəti heyəti (Qolordu);

24) Xəfif üç batareyalı və obus (qalubiç) iki batareyalı topçu firqəsi [diviziyası] heyəti;

25) Üç batareyalı cəbəl firqəsi [dağ diviziyası] heyəti;

26) İki batareyalı süvari topçu firqəsi heyəti;

27) Dörd toplu xəfif batareya heyəti;

28) Dörd toplu obus batareya heyəti;

29) Dörd toplu cəbəl batareyası heyəti;

30) Dörd toplu süvari batareyası heyəti;

31) Topçu firqəsi parkı heyəti;

32) Xəfif topçu parkı heyəti;

33) Dörd toplu cəbəl batareyası parkı heyəti;

34) Piyada firqə ərkanının [piyada diviziyası qərargahının] heyəti;

35) Azərbaycanda üçüncü qisimdən iaşə deposu heyəti;

36) Azərbaycanda üçüncü qisimdən iaşə maqazini heyəti;

37) Avtoqisim şöbəsi;

38) Üç taborlu piyada alayı heyəti.

İmzalar: Komisyon sədri general-leytenant Şıxlınski. Üzvlər: general-mayor Qacar, general-mayor Tlexas, miralay [polkovnik] Ağalarov, miralay Qacar, minbaşı [mayor] Vəkilov.

Komisyonda iştirak edənlər: miralay Səlimov, miralay Serebrenikov, ərkanihərb [qərargah] rəisi: Səlimov.

(Məmurların miqdarı və maaşları dəxi oxunmuşdur.) Bunların həpsini nümunə üçün söylədim. Çünki qədərini söyləmək lazım deyildir. Ancaq idarələri zikr etdim. Bizim komissiya təklif edir ki, Hərbiyyə Nəzarətinin büdcəsi böyləcə qəbul edilsin. (Çünki Nəzarətin büdcəsinə hökumət və komissiya əlavə olaraq bir çox məmurların maaşını daha artıq təyin etməyi lazım bilmişdir.) Bu idarələr gözəlcəsinə tərtib verilmişdir. Artıq adam və artıq xərc yoxdur. Əsgəri iş mühüm bir işdir. Bu xüsusda biz fədakarlıq edib xərcdən qaçmamalıyız. İnşallah, işimiz gəldikcə yaxşı olar. Komissiyamız bu layihənin qəbulunu təklif edir.

**Sədr** - Söz Hərbiyyə naziri Səməd bəy Mehmandarovundur.





**Mehmandarov** - *(Ümumi, şiddətli və sürəkli alqışlarla istiqbal olunaraq [qarşılanaraq] kürsüyi-xitabətə gəlir və rus dilində şu nitqi irad edir. Nitqi gələcək nömrədə veriləcəkdir.)*

**Sədr** – Söz Musa bəy Rəfiyevindir.

**Rəfiyev** (Müsavat) - Möhtərəm məbuslar! Mən Müdafieyi-Milliyyə komissiyası [Milli Müdafiə komissiyası] sədri olmaq həsəbi [səbəbi] ilə bu barədə bir neçə söz demək istəyirəm. Sizə məlumdur ki, biz Azərbaycan türkləri əsgəri vəzifədən kənarda qalmışıq. İndi övza [vəziyyət] bizi əsgəri işə qarışmağa və əsgər düzəltməyə məcbur etdi və məlumdur ki, bu işə nə qədər pis bir zamanda başladıq. Hər tərəfdə vuruşma, pozğunluq, hərc-mərc, əlbəttə, böylə zamanda çox nöqsanlar olar. Əsgər işini biz əvvəlcə türk qardaşlarımıza həvalə etmişdik ki, bizim üçün əsgəri qüvvə təşkil etsinlər. Biz heç vaxt türklərin xidmətini unutmarız və təşəkkür ediriz. Hərgah, asudə bir zaman olsaydı, bu işləri müntəzəm bir surətdə əmələ gətirmək mümkün idi. Deyirlər ki, türklər gedərkən hər bir şeyi başına buraxıb getdilər. Məlumdur ki, 10-15 il müddətində evindən ayrı düşmüş əsgər yerindən tərpəndiyi zaman böylə şeylər gözləmək olar. Türklərin bu nöqsanları bizim onlara olan təşəkküratımızı azalda bilməz. *(Mərkəzdən alqış)* Bir də onu deyirəm ki, müfəttinlər [fitnəkarlar] ara qarışdırıb xələl qatmaq məqsədilə hərbiyyə işlərimiz barəsində danışırlar ki, guya komanda türk dilində deyil, rus dilindədir, əsgərlərə pis baxırlar və sairə. Bunların hamısı iftiradır.

Komanda türk dilindədir. Əsgəri işlərimiz öz yolu ilə gedir. Bu iş bizdə təzə olduğuna görə təcrübəmizin azlığından, əlbəttə, nöqsan olacaqdır. Amma yenə təkrar edirəm ki, əsgəri işlərimiz düz yol ilə gedir və gedəcəkdir. Əminiz ki, az bir zamanda özümüzü daxildə və xaricdə müdafiə və mühafizə etmək üçün lazımi qədər əsgəri qüvvəmiz olacaqdır. *(Alqış)*

**Sədr** - Söz Aslan bəy Səfikürdlünündür.

**Səfikürdlü** (sosialist) - Həzərat! Bilirsiniz ki, hər bir yerdə, hər bir əhali arasında yeni ordu təşkil edildikdə qüsurlar olubdur. Köhnə hökumət dövründə əsgəri işlərimizdə nöqsanımız olduğu doğrudur. Fəqət, Hərbiyyə naziri iş başına gələndən sonra o qüsurları rədd etmişdir. Gündən-günə əsgərlərimizin eyni açıldı. Əsgəri işlərimizin fəna bir halda olduğunu nazirimiz əhalidən gizlətməyir. Heç bir millətdə görünməmişdir ki, əsgərlikdən qaçanlar öz başları ilə geri qayıdaraq orduya daxil olsunlar. Amma bizdə əsgərlikdən qaçanların ədədi azalmaqla bərabər, qaçanlar da qayıtmaqdadırlar. Bu, öz hüququnu anlamaq məsələsidir. Doğrudur, irəli [qabaqlar] əsgər arasında aclıq var idi. İndi isə çörək, çay və qənd verilir, hətta nazir həzrətləri buyurdular ki, xəstəlik olmamaq üçün qızdırmalı yerlərdə qənd payları artırılmışdır. Camaat bunları görüb anlayır. Əhali anlamışdır ki, öz hüququnu ancaq silahla saxlaya bilər. Odur ki, əsgərlikdən qaçanı döyüb əzirlər. Bir millət öz cümhuriyyət və istiqlaliyyətini müdafiə üçün cidası (süngüsü), cavan əsgərləri, inqilabçıları olmalıdır, nəinki tək bir əsgərlər, bəlkə istiqlalını müdafiə etmək istəyən bütün millət silaha sarılmalıdır. Ələlxüsus, indiki zamanda ki, nəinki xaricdən, nəinki denikinlər, hətta içimizdə də qara qüvvələr var ki, bizi hər zaman

yıxıb, puç etmək istəyirlər. *(Soldan və mərkəzdən alqış. Səslər - Doğrudur, qəhr olsunlar, rədd olsun xainlər!)* Əsgəri işlərimiz haqqında təqdim olunan layihədə komissiya dediyi kimi artıq bir şey yoxdur. Əsgəri məmurlara lazımi miqdarda məvacib verməlidir. Artıq da vermək lazım gəlsə, verməlidir. Veriləcəkdir də. Bunların həpsinə razıyız, amma bir təvəqqemiz var. Bu pullar millət xəzinəsində millətdən məşəqqətlə qəpik-qəpik yığılmış pullardır. Bu pulları da millətin öz oğullarına sərf etməlidirlər. Kəndçilərdən qəpik-qəpik yığılmış pulları sərf etdikdə qənaət etməlidir.

Sosialistlər fraksiyası tərəfindən deyirəm ki, namuslu, qeyrətli və şücaətli zabit və əsgərlərimizdən ötrü hər nə lazım olsa, verəcəyiz. *(Şiddətli alqışlar)*

**Səslər** *(Mərkəzdən)* - Yaşasın sosialistlərimiz!

Layihə səsə qoyularaq müttəhidülrəy [yekdilliklə] qəbul olunur və Hərbiyyə naziri həzrətləri salondan getdikdə gurultulu alqışla təşyi olunur [yola salınır].

*(bitdi)*

## SÜLH ƏTRAFINDA

**Böyükada müşavirəsi**

Havas acentəliyi təsdiq edir ki, Amerika heyəti Böyükada konfransı haqqındakı Vilson təklifinin mə'qul [ağlabatan] olduğuna əmindir.

Böyükada konfransının dəvət edilməsi səbəblərindən biri də Müttəfiqlər tərəfindən Rusiyaya verilən və qaytarılması bolşeviklər tərəfindən rədd edilən böyük məbləğlərin geri alınmasını təmin etmək arzusudur. Rusiyanın borcunu boynuna almaq müzakirə ediləcək məsələlərdən ümdəsidir.

**Gürcü heyəti-mürəxxəsəsi**

Tiflisdə olan İngiltərə heyəti Gürcüstan Hökumətinin Xariciyyə nazirinə böylə məlumat göndərmişdir: *"Parisə Sülh Konfransına gedən Gürcüstan heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] halhazırda harada olması barəsindəki sualınıza xəbər verirəm ki, [Nikolay] Çxeidze və [İrakli] Sereteli İstanbuldan Parisə azimət etmişlərdir [yola düşmüşlər]. Heyəti-mürəxxəsənin qalan hissəsi hələ İstanbuldadır."*

**İran ermənilərinin heyəti-mürəxxəsəsi**

Paris Sülh Konfransına İran erməniləri tərəfindən Avanes-xan Masbalyan və Mikael Varandiyan intixab edilmişlərdir [seçilmişdir].

**Sülh Konfransı komissiyalarında**

"Tayms" qəzetəsinin siyasi müxabiri [müxbiri] Parisdən xəbər verir ki, Sülh Konfransının heyəti-rüəsası [rəyasət heyəti] Sülh Konfransı komissarları işinin mümkün qədəri tezliklə irəli getməsi məsələsi ilə məşğuldur. Ancaq bir tək Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] komissiyası öz vəzifəsini ifa etmişdir. Fəhlə məsələsinə baxan komissiya Brays tərəfindən təqdim olunan layihəyə baxmamışdır. Liman, su yolları və müharibə məsuliyyətinə baxan komissiya başqa komissiyalar təşkil etməklə məşğuldur.





**Lloyd Corc**

Klemansonun indiki halına görə Lloyd Corc təcili surətdə Parisə dəvət edilmişdir. Bu günlərdə Lloyd Corc Londondan əzimət edəcəkdir [yola düşəcəkdir]. Klemansonun bilmərrə [tamamilə] konfrans işlərindən əl çəkməyəcəyinə ümid vardır. Konfransı idarə etmək İngiltərə nazirinə tapşırılacaq olarsa da Klemanso rəxtxabda da [yorğan-döşəkdə də] olsa, konfrans işlərində bir qədər iştirak edəcəkdir.

## TELEQRAF XƏBƏRLƏRİ

**Amerikanın Almaniyaya borc verməsi**

Berlin qəzetələri yazırlar ki, Parisdə nəşr olan "Tan" qəzetəsinin məlumatına görə, Amerika Hökuməti Almaniyanın Amerikada müsadirə edilmiş əmvalı rəhnində [mallarının girovunda] olaraq Almaniyaya ərzaq şeyləri və xammallar almaq üçün milyardlarca borc verə biləcəyi təklifini etmişdir. Fransa qəzetəsi Amerikanın bu təklifinə Fransa mənafeyinə xələl və Müttəfiqlərin qalibiyyətini təhdid kimi baxır.

**Ukraynada**

Fevralın 23-ündə Çerniqovdan xəbər verirlər ki, Ukrayna əsgərləri Korosteni işğal etdiklərinə görə, Volınsk quberniyasında kəndlilərin və fəhlələrin üsyanı gəldikcə şiddət etməkdədir. Petlyura tərəfindən göndərilən cəza dəstələri üsyanı daha da şiddətləndirirlər. Petlyura dəstələri kəndliləri qarət edib nizamsızlığa bais olurlar.

**Poznan hadisələri**

General Düpon Berlindən Varşavaya varid olub Varşavada olan Almaniya heyətinə Poznan hadisələri haqqında məlumat vermişdir. General Düpon sərhəd qoyulmasından ötrü mütarikə şəraitinin [atəşkəs şərtlərinin] ifasına nəzarət yetirmək üçün müvəqqətən Poznanda olacaqdır. Bu sərhəddən Almaniya əsgərləri keçməməlidirlər. Lakin Polşadan verilən məlumatlarda almanların bu tərəfdən hücum etdiyi göstərilir.

**Qafqaziyada**

Bolşevik Mətbuat Bürosu xəbər verir ki, Pyatiqorskdan gələn bir nəfər bolşevikin rəvayətinə görə, kazaklar min nəfərlik bir əsgəri dəstəyə və bir dənə uzaqvuran topa malikdirlər. Svyatoy Krestdən qətiəlaqə etmiş [əlaqəsi kəsilmiş] və dörd günlük azuqəsi olan bolşevik qoşunları Proxladnı istasyonuna qədər geri çəkilməyə məcbur olmuşdur. Petrovskda səpmə yatalaq və ispanka xəstəliyi hökmfərmadır [hökm sürməkdədir]. Əsirlərin rəvayətinə görə, kazak ordusu çılpaq, ac və müharibədən yorulmuşlardır.

**Klemansonun səhhətinə dair**

- Həkimlər deyirlər ki, hərçənd Klemansonun yarası çox xətrəli [təhlükəli] idi isə də, fəqət əhvalı yaxşıdır. Şimdi anlaşılır ki, güllə ürəyinin yuxarı hissəsinə toxunmuşdur.

- Klemansonun yaralanması münasibətilə göndərilən teleqraflar cümləsində ingilis sosialistlərinin teleqrafı da vardır. Bundan əlavə, İtaliya kralı Klemansoya bu məzmunda bir teleqraf göndərmişdir:

*"Zati-alilərinizə edilən sui-qəsddən dolayı fövqəladə mütəəssir oldum. Tez-*

*liklə səhhətyab olmanızı [sağalmanızı] arzu edirəm."*

**Eysnerin qətlinə dair**

Eysnerin qətli Münxendə böyük həyəcana səbəb olmuşdur. Bu münasibətlə böyük qəzetə idarələri qarşısında nümayişlər qurulmuşdur. Eysner Berndə qayət cəsarətli bir nitq söylədikdən sonra böylə faciəli surətdə qətl ediləcəyini gözləyirdi. O Almaniyada Müttəfiqlər əsirləri ilə fəna müamilə edildiyini söyləyərək, Almaniyanı məsul hesab eyləmişdir. Eysner nitqinin axrında demişdi: "Mən bu nitqi irad etməklə özümə edam cəzasını imza eyləmişəm." Eysnerin qətli ilə Almaniyanın bir çox yerlərində həyəcan artır və anarxistlərə bolşeviklərlə bir yerdə çalışmağa meydan açılır.

- Peştdə polis ilə bolşeviklər arasında müsadimə [toqquşma] vaqe olmuşdur. 4 nəfər ölmüş və 20 nəfər yaralanmışdır. Bütün əhali həyəcan içindədir. Bolşeviklər Parlamana hücum edərək hökuməti istefaya məcbur etmək fikrində olmuşlardır. Parlamana gedən küçələr qoşun və polis nəfəratı ilə işğal edilmişdir.

- Almaniya Məclisi-Müəssisanı iclasında Şeydeman məlum eyləmişdir ki, Münxendə qanlı vətəndaş müharibəsi gedir.

**Leninin əmri**

Petroqrad qəzetələri Leninin bəyannaməsini elan edirlər. Lenin Almaniya, Avstriya, Lehistan [Polşa] və Finlanda bolşeviklərinə müraciətlə onları gələcəkdə in'iqad edəcək [keçiriləcək] bolşevik qurultayına dəvət edir.

- Petroqradda olan bütün Çin bolşeviklərinin başçısı və onların diktatoru bir çox cinayətlərdə ittihamla qətl edilmişdir.

**Bükreşdə bolşevizm**

Bükreşdə olan işsiz əmələ [fəhlə] və bolşeviklərin iclasında qərar verilmişdir ki, bilatəxir [dərhal] bütün əmələlər silahlandırılsınlar. Bu qətnamədən sonra 300 bolşevik idarəyə gəlib də oranı talan etmək istəmişlərdir. Bu kütləni polis və qoşunlar qarşılamışlardır. Evlərdən atılan güllə ilə iki polis nəfəri qətl edilmişdir. Hökumət qoşunları pulemyot atəşi açıb, sonra iş ciddi müsadiməyə müncər olmuşdur [toqquşmaya çevrilmişdir]. 4 polis nəfəri ölüb, 17 nəfər də yaralanmışdır. Nümayişçilərdən 68 adam yaralanmışdır. Bolşeviklər ümumiyyətlə həbsə alınırlar.

**Almaniyada**

Almaniya Avstriya Xariciyyə naziri Bauer fevralın 22-sində Vyanadan Veymara varid olmuşdur [getmişdir] ki, Avstriyanın Almaniyaya mülhəq olması [birləşməsi] barəsində qəti surətdə danışıqda bulunsun. Qəzetələr yazırlar ki, Avstriyanın almanlarla məskun qismi siyasi cəhətdən Almaniya ilə birləşdikdən sonra bu iki qitə bir böyük hail [sədd, maneə] rolu oynayacaqdır.

## QƏZETƏLƏRDƏN

**Vladiqafqazda**

Vladiqafqazda zabitlər və 45 yaşına qədər hamı əsgəri xidmətçilər xidmətə dəvət edilirlər. Hər bir xidmətə gələn, müharibə zamanında harada xidmət etdiyi və inqilab əsnasında nə ilə məşğul olduğu barəsində məlumat verməlidir.

**Dar ağacları**

Tersk oblastından gələnlərin rəvayətinə görə, Könüllü ordu dəstələri işğal etdikləri osetin kəndlərində bir çox bolşevikləri və bolşeviklərə həddən [artıq] rəğbət göstərənləri asmışlardır. Vladiqafqaz meydanında dar ağacı qurulmuşdur. Vladiqafqaz şəhərinin sabiq komissarı Sorokin asılmışdır. Vladiqafqazda axtarış və həbs davam edir.

**Bryanskinin işğalı**

Kaspiyski dəniz kənarında vaqe Bryanski şəhəri general Denikin ordusu tərəfindən işğal edilmişdir. Bolşevik qüvvələri qətiyyən [qəti surətdə] pərişan edilmişlərdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Ticarət və Sənaye nazirinin təcili məxaricat üçün 200000 rublə təxsisi [ayrılması] barəsindəki məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Hökumət ixtiyarındakı 20 milyon fonddan Ticarət və Sənaye Nəzarətinə 200000 rublə buraxılsın. Fəqət işbu məbləğ hökumətin əvvəl şubat qərardadı üzrə sərf edilməlidir.

- Xariciyyə Nəzarətinin miralay [polkovnik] Qarqaletelini Azərbaycan Hökuməti nəzdində Gürcüstan nümayəndə[si] (ataşe) qəbulu haqqındakı məruzəsindən sonra qət edilmişdir ki:

Mümaileyh Qarqaletelini Gürcüstan nümayəndəsi indində [nəzdində] hərbi attaşeliyə qəbul etməli.

- Rəisi-vükəla[nın] [Baş nazirin] Gürcüstan və Ermənistanla bərabər Zaqafqaziya bonu buraxmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə Nəzarətinə tapşırılsın ki, bu barədə öz nəzəriyyatını Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] təqdim etsin.

- Hərbiyyə nazirinin əsgərliyə alınacaq olan əşxas [şəxslər] barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə nazirinin layihəsini təsvib etməklə [bəyənməklə] ona tapşırılsın ki, qanun layihəsi[ni] surəti ilə Məclisi-Məbusana idxal etsin.

- Hərbiyyə nazirinin təsis ediləcək hərbiyyə müəssisələri və onun xidmətçiləri barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Hərbiyyə nazirinin məruzəsini təsvib etməklə ona tapşırmalı ki, lazım olacaq təbəddülat [dəyişiklik] ilə təsdiq üçün Məclisi-Məbusana təqdim etsin.

- Hərbiyyə nazirinin at səfərbərliyi barəsindəki məruzəsindən sonra qət edilmişdir: Hərbiyyə nazirinə tapşırılsın ki, at yığmaq qanununu təcdid etdirsin [yeniləsin].

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

Məsai [Əmək] Nəzarəti Tağıyev fabrikası müdirlərinə müraciətən məlum etmişdir ki, Nəzarətdə alınan məlumata

görə, fabrika müdiriyyəti fəhlələri külliyyətli surətdə xidmətdən əzl [kənar] edir. Nəzarət müdiriyyətə elam etmişdir [bildirmişdir] ki, fabrikanın halı xüsusi sənaye komisyonu tərəfindən təhqiq edilməyənədək fəhlələri çıxarmaq olmayacaqdır.

**Dövləti Müfəttişlikdə**

Dövləti Müfəttiş Həsənzadə həzrətlərinin məlumatına görə, Ərzaq Nəzarəti ilə İran, Orta Asiya ilə ticarət və sənaye müəssisəsi miyanında əqd edilən [arasında bağlanan] müqavilənamələr rüsum vergisi qaydası ilə aparılmışdır. Habelə, Azovski-Donski Kommerçeski Bank ilə də əlaqə də müşahidə olunmuşdur. Dövləti Müfəttiş bu barədə Maliyyə Nəzarətinə məlumat vermişdir.

**Dövlət Müfəttişliyində**

Dövlət Müfəttişliyi Nəzarətini idarə edən Əliağa Həsənzadə cənabları Maliyyə Nəzarətinə müraciətlə təvəqqe etmişdir ümumi təqaüd nizamnaməsi ilə bərabər, eyni zamanda Cümhuriyyətin hökumət müəssisələrində xidmətdən çıxan əşxas [şəxslər] üçün təqaüd müavinəti haqqında da müvəqqət qanunlar hazırlayaraq təsdiq üçün hökumət və Məclisi-Məbusana idxal etsin.

- Dövləti Müfəttişlik naziri Həsənzadə həzrətləri Məclisi-Məbusana idxal edilmək üçün müfəttişlik və təftişata dair qanun layihələri tərtibi ilə məşğuldur.

- Dövləti Müfəttiş əmri mövcibincə [əmrinə əsasən] Ərzaq Nəzarətinin hesabat, nəqdiyyə, ərzaq, mühimmat və qeyrə əhvalını təhqiq etmək üçün göndərilən komissiya öz işini bitirmişdir. Ən yaxın zamanda komissiya məruzə verəcəkdir.

**Məsai Nəzarətində**

Baş Fabrika müfəttişi Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, halhazırda yeni müştərək [kollektiv] müqavilənamə tərtibinə başlanmışdır. Bundan ötrü Müfəttişlik nümayəndələrinə Məsai Nəzarətinin fəhlə məsələsindən ötrü məlumat lazımdır. Müfəttiş Nəzarətdən isticvabda bulunmuşdur [soruşmuşdur] ki, Nəzarət Ticarət və Sənaye Nəzarəti ilə bərabər Müfəttişlik nümayəndələrinin müşavirəsini dəvət etmək fikri varmı?

- Məsai Nəzarəti Ərzaq Nəzarətinə müraciətən məlum etmişdir ki, Tağıyev fabrikası qulluqçuları Məsai Nəzarətinə müraciətən özlərindən ötrü bəzzaziyyə malı [arşın malı, parça] istəmişdir. Nazir həzrətləri özünün fabrikaya səfəri əsnasında fəhlələrin fəna halını gördüyünü daha məlum etmişdir. Nəzarət rica etmişdir ki, fəhlələrə mal buraxılsın.

## XƏSARƏTİMİZİ KİM GÖSTƏRƏCƏKDİR?

Qəzetələrdən məlum olduğu üzrə, Lehistan (Polşa) əhalisinə müharibədən 25 milyard zərər və ziyan dəymişdir. Bu məlumatı dürüst və müəyyən qılmaq üçün Lehistanın yeni hökuməti artıq zəhmətlər sərf edib, mətlub [tələb olunan] vaxtdan da bir az irəli hazır edə bilmişdir. Mətlub vaxt indi Parijdə davam edən Sülh Konfransının in'iqadı [yığışdığı, baş tutduğu] günlərindən ibarətdir. Əcəba Lehistan xəsarəti ilə Sülh Konfransının nə əlaqə və rabitəsi ola biləcəkdir?

Siyasi məsələlərlə əlaqədar olan zəvat [şəxslər] bunu anlamışlar ki, Sülh Konfransında millətlərin hesabına baxılacaqdır, kimin alacaqlı və kimin verəcəkli olduğu aşkar ediləcəkdir. Bunu hamıdan artıq sabiq Rusiya imperatorluğundan ayrılıb da bu gün özlərinə istiqlaliyyət kəsb edə [qazana] bilmiş millətlər düşünürlər ki, bir atanın övladı yek-digərindən [bir-birindən] ayrıldığı əsnada atanın tamam varidatı ilə bərabər, ümum məsarifi və borcuna da varisdirlər. Hər kəsin öhdəsinə bir qədər vərəsə düşəcəkdirsə, bir qədəq də borc ədası düşəcəkdir. Odur ki, qoçaq lehlər bunu hamıdan qabaq anlamışlar ki, Rusiyadan ayrıldıqları üçün Rusiyanın köhnə illərdə yaxud müharibə əsnasında Yevropadan aldığı düyuniümumiyyədən [ümumi borcdan] bir pay da Lehistana düşəcəkdir. Bu payın miqdarını Sülh Konfransı müəyyən qılacaqdır. Hərgah burada olmasa, Rusiyadan ayrılmış hamı qardaşlar bir gün sair bir məkanda məcburən hesaba oturub da kimin nə qədər alacaqlı və verəcəkli düşəlgəsini müəyyən qılmalıdır. İştə həman bu düşəlgə fəqərəsi [məsələsi] Lehistan siyasiyyununu [siyasətçilərini] hamıdan qabaq təşvişə salmışdır. Bunlar düşündülər ki, Lehistanın verəcəyi müqabilində bir alacağı da vardır. Bu alacaq lehlilərin müharibə əsnasındakı düçar olduqları xəsarət və ziyanlardan ibarətdir ki, bunun da mükəmməl siyahıları tutulub ortalığa çıxmışdır.

Bu siyahıları kim başladı, tərtibinə haçan şüru olundu [başlandı]? Hangi üsul ilə başladılar ki, bu az bir zamanda mətləb hasil ola bilmişdir? Heyfa ki, bu sualların cavabını qəzetələrdə görmədik. Lakin böylə məlum olur ki, bu işə mübaşir olanlar [girişənlər] konfrans günlərini nəzərdə tutaraq kamali-sürətlə işləyib, siyahıları vaxtından da bir qədər irəli hazır edə bilmişlər. Xəsarətin miqdarı 25 milyard olmuşdur. Konfransa gedən Lehistan vəkilləri bu siyahıları ciblərinə qoyub kamali-təmkinlə Fransaya azim olmuşlardır [yola düşmüşlər]. Söz yoxdur ki, konfransda Lehistan məsələsi müzakirə olunduğu halda həman siyahılar ciblərdən çıxarılıb məclisə təqdim ediləcəkdir. Bizim də vəkillərimiz konfransa göndərilmişdir. Amma çifayda [təəssüf ki] Azərbaycan məsələsi müzakirəyə qonulduğu əsnada vəkillərimizin ciblərindən xəsarət siyahıları çıxmayacaqdır. Zira bunların tərtibi üçün heç də tədarük görülməmişdir. Əcəba müharibə əsnasında yaxud bolşeviklər[in] bizə qarşı qiyamından Azərbaycan əhalisi xəsarətə məruz olmamışdırmı? Bakının Mart hadisatı, Şirvanın tarümarı, Qarabağ kəndlərinin məhv və nabud [yox] olması, Lənkəranın indiyə qədər davam edən zəlaləti kim bilir neçə milyardlıq bir xəsarətdir? Bunu bizim vəkillərdən soruşan olarsa, nə cavab verəcəklər əcəba? Təxminən cavab versələr qəbul olacaqdırmı? Cavab verməyib də sakitcə dayansalar bu da gülünc bir haldır ki, dərdimizə çarə yapmayacaqdır. İştə bu məlumata vaxtında diqqət olunmadı. Vəkillərimizin də buna dair deyə biləcək bir şeyləri varsa, o da ümumi ibarələrdən məxuzdur [götürülmüşdür]. Lakin bununla öhdəmizə düşə biləcək borclardan özümüzü kənara çəkə bilməyəcəyiz. Bizdən hesab istəyəcəklər. Rus borcunun bir qədərini, bəlkə ən böyüyünü də Zaqafqaz cümhuriyyətləri arasında Azərbaycana həvalə edəcəklər.

Bundan əlavə, bəzi rusların təsəvvü-

rüncə sabiq rus hökumətinin Azərbaycanda buraxdığı bir çox şeyləri, əmlaki-mütəhərrikəni [daşınan əmlakı] rus hökumətinə qaytarmalıdır. Söz yoxdur ki, rusların bu təklifi bizdən əlavə gürcü və erməni qonşularımızın da boynuna gəlir. Bunun müqabilində bizim də ruslardan bir şey tələb etməyə haqqımız vardırmı? Əlbəttə vardır. İngilis komandası Bakıya daxil olar-olmaz dəf'ətən [dərhal] bir kontrol idarəsi tərtib etdi ki, türklərin Bakıya hücumu əsnasında əhalinin nə kimi xəsarətə düçar olduqlarını və bunun miqdarını müəyyən etsin. Bu idarə ciddi çalışıb vəzifəsini bitirməkdədir. Əcəba bu xəsarətin müqabili kimdən alınıb sahiblərinə veriləcəkdir? Komandanın verdiyi izahatdan anlaşılır ki, bu zərərlərin hamısı Osmanlı hökumətindən tələb olunacaqdır. Böylə olan surətdə ədalət bunu tələb edir ki, Mart hadisatının da xəsarəti indiki rus hökuməti bolşeviklərdən tələb olunsun. Zira sentyabr zərərlərini Osmanlı qoşunu törətdiyi kimi, mart xəsarətini də bolşevik qoşunu törətmişdir. Osmanlı hökuməti dəyişdi, "İttihad və Tərəqqi" ləğv olundu, yeni fikirli yeni bir hökumət gəldi. Bainhəmə [bununla belə] tələbat ləğv olunmayır, yeni hökumətdən tələb olunur – ki böylə olarsa – qoy Rusiyanın bugünkü bolşevik hökuməti dəyişsin yaxud dəyişməsin, bizim də tələbat ləğv oluna bilməz. Zərərdidələrin haqqı özgələrininki kimi özlərinə çatsın.

Xülasə, bundan artıq sübuta ehtiyac yoxdur ki, borc məsələsində bizi də məhşər ayağına çəkəcəklər. Bunun müqabilində bizə də kimlərin borclu qalmasını indidən dəlil və sübutla müəyyən edəlim, məhşər günü hesab verəlim. Zənnimcə, Azərbaycan Hökuməti bu məsələni başlı-başına buraxmayıb, gec də olsa işə şüru etməlidir [başlamalıdır]. Tamam Azərbaycanda zərərdidələrin siyahıları düzgüncə bir üsul ilə tutulsun, hazır olsun, alacaqlı qapımızı döydüyü halda onun bizə verəcəyini də göstərəlim. Bəlkə borcumuzun bir qədərindən azad ola bilək.

*Fərhad Ağazadə*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

Daxiliyyə naziri Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, Bakıda əxzi-əsgər rəyasəti [əsgərliyə çağırış idarəsi] olmadığından əxzi-əsgər işləri bir qədər layiqincə getməmişdir. Buna görə də müvəqqəti bir əxzi-əsgərlik təşkil etməlidir ki, müvəqqəti olaraq əxzi-əsgər rəyasəti qanunlarına tabe olsun. İşbu rəyasət sədarət[in]ə [sədrliyinə] müvəqqəti olaraq Daxiliyyə naziri həzrətləri Baş ərkanihərb [Baş qərargah] zabiti Kalosovskini təyin etmişdir. Əzalığa [üzvlüyə] isə Nəzarət tərəfindən bunlar göstərilmişlər: Bələdiyyə İdarəsi nümayəndəsi, Bakı qəza əxzi-əsgər rəisi və Müfəttişlik nümayəndəsi.

Dəftərxana xidmətçiliyinə Bələdiyyə İdarəsindən və yaxud başqa sabiq idarələrindən qeyri-rəsmi surətdə dəvət etmək mümkün olacaqdır. İşbu məsələdən ötrü hələlik peşin [nəğd; qabaqcadan] surəti ilə 5 min rublə Bələdiyyə rəisinə göndərilmişdir.





**Fəhlələrin halı**

Bu günlərdə Azərbaycan Parlamanı Fəhlə komissiyası üzvü Cavad bəy Məlik-Yeqanov Balaxanı mədən dairəsini gəzmiş və fəhlələrin halını zeyldəki [aşağıdakı] qərar üzrə təsvir edir:

1) Şüşələri sağlam bir kazarmaya mədən dairəsində təsadüf olunmaz.

2) Xəstədən xali [içində xəstə olmayan] bir kazarma yox.

3) Doktor yox kimidir, bulunursa da xəstələri doktora aparacaq bir vəsailinəqliyyə [nəqliyyat vasitəsi] yoxdur. Mədən sahibləri araba saxlamayırlar. Naxoşları yoldaşları arxalarına alıb doktora aparırlar. Xəstəxanada qətiyyən dərman, əlac olmadığından bu zəhmət də səmərəsiz qalır. Su yoxdur. Borular patladığından fəhlələr buğ (par) suyu içirlər. Bu su çirkli fıçılarda (boçkalarda) saxlandığı üçün onsuz da şiddətli hökmfərma olan [hökm sürən] müsri [yoluxucu] xəstəliyin daha da güclənmə[sinə] səbəb olacağı şübhəsizdir. Bu hallara Məsai Nəzarətinin [Əmək Nazirliyinin] nəzərini cəlb edib, tezliklə bir çarə edilməsini arzu ediriz.

**İran müsamirəsi**

Şənbə günü martın 1-ində Bakı klubunun yay binasında Bakıdakı İran konsulu Məhəmməd xan Səidülvüzəra cənablarının təşəbbüsü ilə "İttihad" mədrəsəsinin biçiz mütəallimləri nəfinə [kasıb tələbələri xeyrinə] olaraq İran müsamirəsi [tamaşası, konserti] tərtib ediləcəkdir. Müsamirə axşam saat 8 tamamda başlanacaqdır.

**Mühazirə**

Bu gün fevral[ın] 28-i axşam saat 5-də Binəqədi "Narodnı domu"nda [Xalq evində] Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə cənabları zavod, mədən komitələri və fəhlə konfransı mövzusunda mühazirə oxuyacaqdır. Ümum əmələ [fəhlə] yoldaşların gəlmələri rica olunur.

**Tələbələr iclası**

Azərbaycanın Bakıdakı müsəlman tələbələri komitəsi öz yoldaşları olan ümum tələbələrə, edadiyyə məzunlarına (abituriyent) elan edir ki, keçən iclasın mabə'di [davamı] olaraq həmin cümə günü şubatın 28-i axşam saat 5-də Realnı məktəbin binasında ikinci iclası təyin edilmişdir. Yoldaşlardan rica olunur vaxtında gəlsinlər.

**Məhbusların şikayəti**

Bakı İstinaf [Apellyasiya] Məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] qubernatora məlum etmişdir ki, məhəlli [yerli] həbsxanalarda məhbuslar onlara verilən xörəklərdən narazıdırlar. Təqsim [bölgü] üzrə aldıqları bir girvənkə çörək onlara kifayət edəcək qədər də deyildir. Bundan əlavə, həmin çörək və xörəklər yaxşı deyildir. Müddəiyi-ümumi bugünlərdə özü həbsxanaları gəzdikdə məhbusların şikayətinə baxmış və onları haqlı görmüşdür. Böylə qanunsuzluqdan dolayı həbsxana naçalniki müqəssir edilir. Müddəiyi-ümumi qubernatora müraciətən həbsxanada nizamsızlıq olmasın deyə indidən naçalnikin əzl [işdən kənar] edilməsini rica etmişdir.

- Cümə günü cəmadiyüləvvəl ayının 28-ində 1338 sənəsi (fevralın 28-ində

1919-cu ildə) Hökumət Teatrosunda Hacıbəyli qardaşları müdiriyyətinin aktyorları tərəfindən bu mövsümdə ikinci dəfə olaraq təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Zülfüqar bəy Hacıbəylinin yazmış olduğu məşhur "Aşıq Qərib" operası 8 pərdədə.

## ƏRZAQ İŞLƏRİ

- Bakı Mahal Kəndçilər İttifaqı Ərzaq Nəzarətinə bir məktub göndərərək deyir ki, Bakı uyezdində [qəzasında] olan biçiz [yoxsul] kəndlilərin ərzaq cəhətdən əhvalını yaxşılaşdırmaq və onları kənd möhtəkirlərinin əlindən xilas etməkdən ötrü Bakı Mahal Kəndçilər İttifaqı fevralın 1-dən işə başlamışdır. Buna görə İttifaq İdarəsi Ərzaq Nəzarətindən xahiş edir ki, kəndlərdə nə qədər nüfus [əhali] olduğunu məhəllində [yerində] təhqiq etməkdən ötrü axrıncı dəfə yazılan nüfus siyahısının surətini İttifaq İdarəsinə versin. Ərzaq şeyləri buraxılmasından ötrü kəndlərdən göndərilmiş olan mirski priqavorlar [camaat hökmü] təhqiq edilməkdən ötrü Kəndçilər İttifaqına göndərilsin və İttifaq tərəfindən bu barədə şəhadətnaməsi olmayana heç bir şey buraxılmasın. Bundan əlavə, kənd əhalisinə paylanmaqdan ötrü Kəndçilər İttifaqına müəyyən miqdarda ərzaq şeyləri buraxılsın. Bununla belə Kəndçilər İttifaqı vəd edir ki, ərzaq şeylərini kənd əhalisi arasında öz müfəttişi iştirakı ilə təqsim etsin.

- Balıq Vətəgələri İdarəsi Maliyyə Nəzarətinin gömrük şöbəsinə müraciətlə Azərbaycan daxilindən kənara təzə balıq çıxarmaqdan ötrü vətəgə icarədarlarının hər dəfə icazə almaq üçün Bakıya gəlməkdə nə qədər müşkülat, məxaric və vaxt sərf edildiyini, bununla bərabər balıqların xarab olduğunu təsvir ilə bundan belə məzkur [deyilən] icarədarlara icazəsiz olaraq balıq çıxarılmasına izin verilməsini xahiş etmişdir. Maliyyə Nəzarətinin gömrük şöbəsi Vətəgə İdarəsinin bu məktubu mövcibincə [əsasında] Ərzaq Nəzarətinə müraciət edib məzkur idarənin bu istidasının [xahişinin] qəbul olunmasını xahiş etmişdir. Gömrük şöbəsi burasını da əlavə etmişdir ki, Azərbaycan daxilində hasil olan balıq Azərbaycan əhalisi üçün kifayət qədərdir.

- Ərzaq Nəzarəti Şimali Qafqaziyaya neft verib, əvəzində başqa mallar almaq və Şimali Qafqaziyadan Azərbaycana göndərilən malların qaydaya salınması şəraitini həll etməyi dava vəkili A. K. Yanovskiyə həvalə etmişdir. Bununla belə Yanovskiyə təklif edilmişdir ki, əqəllən [ən azı] həftədə bir dəfə ona vagüzar olunan [tapşırılan] işlər haqqında Ərzaq Nəzarətinə məlumat versin.

## GÜRCÜSTANDA

### Gürcüstanda Müsəlman Şurayi-Millisi

Şurayi-Milli [Milli Şura] sədri Əbdürrəhim bəy Haqverdiyev Tiflisdən getdiyinə görə, şura fevralın axırlarında heyəti-rüəsa intixab etmişdir [rəyasət heyəti seçmişdir]. Ə. M. Nərimanov, müavinləri Ə. H. Qarayev və Ə. B. Bayramov intixab olunmuşlardır. Fevralın 22-də vaqe olan iclasda Gürcüstan müsəlmanlarının ruhani işləri haqqında çoxdan bəri qaldırılmış olan ən mühüm məsələ müzakirə





edilmişdir. Uzun müzakiratdan sonra Şurayi-Milli xüsusi bir Ruhani Komissiyası intixab edib, Gürcüstan müsəlmanlarının ruhani işləri haqqında Şurayi-Milli tərəfindən hazırlanan layiheyi-qanuniyyə [qanun layihəsi] Gürcüstan Hökuməti tərəfindən təsdiq edilənə qədər Azərbaycan paytaxtına köçürülmüş olan sabiq Zaqafqaziya ruhani idarələrinin haqq və ixtiyarını məzkur [deyilən] komissiyaya həvalə etmişdir. Xüsusi Ruhani Komissiyasına Axund Molla Məhəmmədhəsən Mövlazadə, Molla Neman əfəndi Terequlov, Mirzə Şərif bəy Mirzəyev, doktor Mirzə Saleh Muxtarov, müəllim Sübhanqulov intixab edilmişlərdir.

### Axıska cəbhəsində

Axıska cəbhəsində hərəkət edən Xalq qvardiyasının bütün müsəlləh [silahlı] qüvvələrinin Baş ərkani-hərb [Baş qərargah] komandanı general Axmetelov təyin edilmişdir.

### İngiltərə ərkani-hərbində

Mayor Sonders Qafqaziyada olan İngiltərə komandanlığının baş ərkani-hərbi namından [adından] "Borba" qəzetəsi idarəsinə böylə bir məktub göndərmişdir:

*"Tiflis mətbuatında bu yaxınlarda bir xəbər yazılmışdır ki, Gürcüstan Hökuməti İngiltərə heyətinin rəyi ilə Vladiqafqaz qaçqınlarının Gürcüstana daxil olmasına icazə vermişdir. Biz vəkil edilmişik xəbər verək ki, bu xəbər doğru deyildir. Bu münasibətlə Gürcüstan Hökuməti tərəfindən isticvab olunmuş [sorğuya çəkilmiş] İngiltərə Baş ərkanı xəbər vermişdir ki, İngiltərə məmurlarına dəxli olan işlər dairəsində Gürcüstan Hökuməti tərəfindən təklif edilən plan əleyhinə, yani Mesxetdən qaçanların tərksilah edilmələrinə etiraz yoxdur. Bu adamların Gürcüstana gəlmələri, onlara nəzarət etmək və onları saxlamaq məsuliyyəti ancaq Gürcüstan Hökuməti öhdəsinə düşür."*

### Gürcüstan Parlamanı vəkilləri general Forester-Volker nəzdində

"Borba" qəzetəsi yazır ki, Gürcüstan Parlamanının qərarına görə fevralın 21-ində Parlaman heyəti Takaişvili başda olmaq üzrə İngiltərə heyəti sədri Forester-Volkerin yanına gedib Denikinin Gürcüstan üzərinə hücum etməsi münasibətilə İngiltərə Hökuməti göndərdiyi axırıncı teleqrafına görə Gürcüstan Parlamanı namından [adından] İngiltərə hökumətinə razılıq izhar etmişlərdir. İngiltərə generalı buna cavab olaraq söyləmişdir ki: *"Mən Gürcüstan Parlamanı heyətini qəbul etməklə çox şadam. Sizin etdiyiniz hissiyyata məmnunam. Mən məmnuniyyətimi azaltmaq istəməyərək burasını da söyləməliyəm ki, bu axır vaxt məhəlli [yerli] mətbuatda məəttəəssüf [təəssüf ki], İngiltərə haqqında nalayiq məqalələr yazılmaqdadır. Mən ümidvaram siz anlayırsınız ki, hərgah gürcü milləti hər beş dəqiqədə İngiltərə hökumətinə olan münasibatını dəyişsə, o zaman Gürcüstanla İngiltərə arasında dostluq işi bərpa edilməz. Burasını da sizə deməliyəm ki, mən sizə leksiya oxumuram. Lakin münasibati-vaxtdan istifadə edib öz hissiyyatımı sizə söyləyirəm. Hətta bilirəm ki, siz Gürcüstan Parlamanının nümayəndələrisiniz. Gürcü millətinə təlim verəcəksiniz ki, İngiltərə Hökuməti hərgah gürcü millətinə*

*münasibəti olan siyasəti xələldar etmişsə də, həmişə gürcü millətinin mənfəəti üçün siyasətini islah etməyə hazırdır. Burasını da lazım bilirəm sizə xəbər verim ki, heç kəs cənab generalların hərəkətlərinə zəmanət edə bilməz. Generallar xeyli xətrəli [təhlükəli] tayfadır. Onları asanlıqla ağıllandırmaq olmaz. Zənn edirəm ki, gürcü ordusu da bu cür günahlardan arı deyildir. Yenə də təkrar edirəm ki, sizin bu ziyarətiniz məni artıq dərəcədə məmnun etdi."*

## TEATRO VƏ MUSİQİ

Bu gün cümə günü fevralın 28-də Hökumət Teatrosunda (sabiq Mailov) Hacıbəyov Qardaşları müdiriyyəti tərəfindən Zülfüqar bəy Hacıbəylinin şöhrət qazanmış "Aşıq Qərib" operası təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır. Oğlan və qız böyük xor dəstəsi vardır. Biletlər teatrın kassasında satılmaqdadır. Tamaşa axşam saat 8-in yarısında başlanacaqdır.

**Daşkəndli Xalid Səid əfəndiyə!**

Ünvanınızı Nuxada "Bilik" kitabxanasına bildirməyiniz mütəmənnadır [xahiş olunur].

*Daşkəndli tələbələr*

*5709 1-4*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Arvad həkimi Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək.

Cümə günləri fəqirləri pulsuz qəqbul edir.

Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Elan**

Azərbaycan Posta və Teleqraf Nəzarəti elan edir ki, bu şubatın 24-dən etibarən Bakıda böyük posta və teleqraf məktəbi açılır. Dərs axşam saat 5-də başlanır. Ərizə Posta və Teleqraf Nəzarətində qəbul olunur.

Adres: Mirbabayevin evində 3-cü mərtəbədə, Naberejni küçədə.

*Dəftərxana baş müdiri: Blajevski*

*Kargüzar: D. Rəhimli*

*45 3-4*

**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**

Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru
"Fani və kompaniya", Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Ucuz qiymət ilən qeyri şəhərlərə mal göndərmək vəzifəsini, hər cürə vağzal işlərini öz öhdəmizə götürürük. Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantorumuza müraciət etmələri təvəqqe olunur. Satılır: məftul, sabun, matorlar, remenlər, sarı kağız və qeyri mallar külli miqdarda. Kantor açıqdır: səhər saat 8-1, axşam saat 4-7.

*5792*

**Elan**

Qəbul ediriz komissiya ilə hər növ mal satmağı və hər cürə mal göndərməyə dəmiryol ilə Zaqafqaziyanın hər bir şəhərlərinə baqaj balşoy skorost və malıy skorost ilə. Müştərilərimizin məmnun qalacağına əminiz.

Ünvan: Bazar caddəsində 5 nömrəli evdə. Telefon 47-73

Kamali-ehtiramla: Ağazeynal Zeynalov, İsgəndər Şərifov və Ağasəməd Ağayev.

*5708 1-4*

**Opera**
Axşam tamaşası
Hökumət teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Qardaşlarının müdiriyyəti
Cümə günü cəmadiyələvvəl ayının 27-sində 1337 sənəsi (fevralın 28-ində 1919-cu ildə) Hökumət teatrosunda Müdiriyyətin aktyorları tərəfindən bu mövsümdə ikinci dəfə olaraq təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Zülfüqar bəy Hacıbəylinin yazmış olduğu məşhur
**“Aşıq Qərib”**
operası, 8 pərdədə.
Balet, bir dəstə qızlar və oğlanlar xoru olacaqdır. Biletlər teatrın kasasında satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

*5709*

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Yeni böhran**

səh. 419. “Sədi əleyhirrəhmənin”: “Sədinin – ona rəhmət olsun”. XIII əsrdə yaşamış fars şairi Sədi Şirazi nəzərdə tutulur.

“Çe bak əz möuce bəhr anra / Ke darəd Nuh kəştiban!”: (farsca) “Gəmiçisi Nuh olanın / Dəniz dalğasından nə qorxusu!”

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 419. “2) Ordu dairəsində təhərri və tədqiqat şöbəsi”: Əks-kəşfiyyat şöbəsi nəzərdə tutulur.

səh. 420. “6) Hərbiyyə Nəzarətində mühümmat və cəbbəxana dairəsi”: Artilleriya şöbəsi nəzərdə tutulur.

“21) Mühümmati-nariyyə və carihə emalatxanası heyəti”: Artilleriya emalatxanası ştatı nəzərdə tutulur.

“22) Mühümmati-nariyyə və carihə deposu heyəti”: Artilleriya ambarı ştatı nəzərdə tutulur.

“obus (qalubiç)”: “obus” yaxud “qaubitsa” qısalüləli top növüdür; qəzetdəki “qalubiç” sözü “qaubitsa”nın təhrif edilmiş formasıdır.

“29) Dörd toplu cəbəl batareyası heyəti”: səhra-dağ batareyası nəzərdə tutulur.

“37) Avtoqisim şöbəsi”: “avtoqisim” sözü rusca “авточасть” (avtoçast) sözünün hərfi “tərcüməsidir”; burada bir hərbi bölmə olaraq avtomobil bölməsi nəzərdə tutulur.

“Miralay Qacar”: Məhəmməd Mirzə Qacar nəzərdə tutulur.

səh. 421. “Nitqi gələcək nömrədə veriləcəkdir.”: Mehmandarovun nitqi “Azərbaycan” qəzetinin 7 mart 1919-cu il tarixli 131-ci nömrəsində verilmişdir.

**Teleqraf xəbərləri**

səh. 423. “Tan”: 1861-1942-ci illərdə





nəşr edilən gündəlik “Le Temps” qəzeti nəzərdə tutulur.

**Nəzarətlərdə**

səh. 426. “Azovski-Donski Kommerçeski Bank”: Əsası 1871-ci ildə qoyulan və Rusiyanın ən böyük kommersiya banklarından olan Azov-Don Kommersiya Bankı 1916-cı ildə Bakıda öz şöbəsini açmışdı.

**Bakı xəbərləri**

səh. 429. “edadiyyə”: edadiyyə yaxud edadi məktəbləri təhsil sistemində orta təhsilin son mərhələsini, universitetdən əvvəlki mərhələni təşkil edirdi.

**Daşkəndli Xalid Səid əfəndiyə!**

səh. 432. “Ünvanınızı Nuxada ‘Bilik’ kitabxanasına bildirməyiniz mütəmənnadır.”: qəzetdə “mütəmənnadır” yerinə “mümtazdır” getmişdir.

# ADLAR GÖSTƏRİCİSİ


Abaşidze: Gürcü ordusunun zabiti olmuşdur. 218.

Abaşidze, Abdulla bəy 236.

Abaşidze, Məhəmməd bəy (yaxud Məmməd Abaşidze; Sancaqbəyzadə; 1873-1937): Gürcüstanın ictimai-siyasi xadimi, publisist və yazıçı. Müsəlman gürcülər icmasının lideri, "İslam Gürcüstanı" qəzetinin redaktoru olmuşdur. 1937-ci ildə güllələnmişdir. 36, 87, 93.

Abbas Abdulla oğlu: Binəqədidə yaşayan İran təbəəsi. 351.

Abbasqulu Xəlil oğlu 409.

Abbasqulu Məhəmməd oğlu: Maştağa sakini. 409.

Abbasqulu Murtuza oğlu 36.

Abbasov, Hacıağa: bax. Abbaszadə, Hacıağa.

Abbaszadə, Hacıağa (yaxud Hacıağa Abbasov; 1888-1975): Azərbaycan aktyoru. 258, 294, 350.

Abdulla Molla Xanməhəmməd oğlu: Qusar sakini. 113.

Abdulla Molla Məhəmməd oğlu: Qusar sakini. 113.

Abdulla Şaiq (1881-1959): Azərbaycanlı şair, yazıçı və pedaqoq. 73.

Abdullabəyov: Ramanıda milis nəfəri olmuşdur. 257.

Abdullah Mənsur: bax. Mənsur, Abdullah.

Abdullah Səffah: bax. Səffah, Abdullah.

Abdullayev, Süleyman 37, 96.

Adil Giray: 1720-1725-ci illərdə Tarki şamxalı olmuşdur. 105.

Ağa Mirəşrəf: Cavad mahalında camaat xadimi olmuşdur. 412.

Ağababa Ağabala oğlu 390.

Ağababa Dadaş oğlu: Bakı sakini. 351.

Ağabala Almaz oğlu 390

Ağabəy Abdulla bəy oğlu: Sayad Xızı camaatının vəkili olmuşdur. 410.

Ağabəyov, Sadiq bəy (yaxud Məhəmməd Sadiq Ağabəyzadə; 1865-1944): Azərbaycanın general-mayoru. Sankt-Peterburqda hərbi məktəbi, eyni zamanda Şərq Dilləri İnstitutunu bitirmişdir. Azərbaycan Parlamentinin üzvü, Daxili İşlər nazirinin müavini olmuşdur. Cümhuriyyətin süqutunda sonra mühacirətdə yaşamışdır. 82.

Ağacanov, Arşak: Bakıda, Malakanski (indiki Xaqani) küçəsində mağazası olmuşdur. 351.

Ağaəlizadə, Axund Ağa (1871-1954): Azərbaycanın dini xadimi. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin, 1944-1954-cü illərdə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuşdur. 147, 150, 196, 203, 223, 244, 397.

Ağagül Şeyx Məhəmməd oğlu: Alpan kəndinin (Quba rayonu) sakini. 409.

Ağakişi Kərimxan oğlu: Qusar sakini. 113.

Ağalarov: Azərbaycanın hərbi xadimi; polkovnik. 420.

Ağamalı Məhəmmədqulu oğlu: Bakıda oğurluq üstündə tutulmuşdur. 390.

Ağamalıoğlu, Səməd ağa (yaxud Ağamalızadə; Ağamalıyev; Ağamalov 1867-1930): Azərbaycanın və Sovet İttifaqının dövlət xadimi. Zaqafqaziya Seyminin və Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan Cümhuriyyəti Parlamentində Sosialistlər fraksiyasını təmsil etmişdir. Sovet dövründə Azərbaycanın Kənd Təsərrüfatı xalq komissarı vəzifəsini tutmuş, Azərbaycan Sovet Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olmuşdur. 139, 142, 143, 151, 159, 172, 173, 189, 207, 225, 245, 305, 379, 435.

Ağamalıyev, Səməd ağa: bax. Ağamalıoğlu, Səməd ağa.

Ağamalızadə: bax. Ağamalıoğlu Səməd ağa.

Ağamalov: bax. Ağamalıoğlu, Səməd ağa.

Ağamirzadə, Mirmehdi: Malıbəyli kəndinin (Şuşa) camaat vəkili olmuşdur. 410.

Ağasıbəyov, Rza: Azərbaycan Parlamentində İdarə müdirini əvəz etmiş, daha sonra Daxili İşlər Nazirliyində Dəftərxana müdirinin müavini olmuşdur. 42, 59.

Ağayev, Ağasəməd 433.

Ağayev, Fərhad bəy Məşhədi Rəhim oğlu: bax. Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu.

Ağayev, Həsən bəy (1875-1920): Azərbaycanın görkəmli dövlət xadimi. Moskva Universitetinin Tibb fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli iclası (Azərbaycanın müstəqilliyinin elan edildiyi iclas) Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmişdir. Azərbaycan Parlamenti sədrinin birinci müavini olmuş və Parlamentin sədri Topçubaşov Bakıda olmadığından, Həsən bəy faktiki olaraq Parlamentə rəhbərlik etmişdir. Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilmişdir. 42, 81, 150, 196, 301, 398.

Ağayev, Tofiq Nurəddin: “Azərbaycan” qəzetində imza. 68

Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu (1880-1931): Azərbaycanın görkəmli pedaqoqu və publisisti. Şuşada anadan olmuş, Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Məktəblilər üçün “İkinci il” dərsliyinin müəlliflərindəndir. Dövri mətbuatda çıxış etmiş, həmçinin “Azərbaycan” qəzetinin ən fəal müəlliflərindən olmuşdur. 11, 56, 109, 214, 276, 280, 367, 375, 384, 428

Ağdamlı, Əhməd (yaxud Əhməd Ağdamski; 1884-1954): Azərbaycanın opera müğənnisi, teatr və kino aktyoru. Teatr səhnəsində qadın rollarının mahir ifaçısı kimi tanınmışdır. 149, 294.

Ağdamski, Əhməd: bax. Ağdamlı, Əhməd.

Axıcanov, Müseyib bəy (1892-1920): Azərbaycanın dövlət xadimi. Kiyevdə Müqəddəs Vladimir Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı qubernatorunun müavini, Bakı qubernatoru, Azərbaycan Parlamentinin üzvü olmuşdur. Bolşeviklər tərəfindən güllələnmişdir. 82, 170, 313.

Axmetelov: Gürcüstanın hərbi xadimi; general. 431.

Axundov, Ağa 235, 313.

Axundov, Bərham bəy (1861-1932): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 359, 378, 403.

Axundov, Əhməd 36.

Axundov, Fətəli: Tiflisdə Müsəlman Milli Şurasının üzvü olmuşdur. 35.

Axundov, Murtuza (1877-1920): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Parlamentin üzvü olmuşdur. 226.

Axundov, Rəhim 235.

Axundov, Yunis 36.

Axundzadə: “Müsavat” partiyasının Binəqədi mədən dairəsi şöbəsi sədrinin müavini olmuşdur. 351.

Axundzadə, Hacı Mirzə Səlim Mirzə İsmayıl Qasir oğlu (1872-1930): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Aprel işğalından sonra İrana mühacirətə getmişdir. 36.

Axundzadə, Mahmud bəy: Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. 147, 313.

Axundzadə, Rəşid bəy Hacı Əbdüssalam oğlu (1880-1940): Azərbaycanın ictimai-siyasi xadimi. 1895-1907-ci illərdə Qafqaz müsəlmanlarının Şeyxülislamı olan Axund Hacı Əbdüssalamın oğlu olmuşdur. Kiyevdə hüquq təhsili almışdır. Salyandan Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 1919-cu ilin fevralından avqustunadək Bakının valisi (qubernatoru) vəzifəsini tutmuşdur. Sovet hakimiyyəti dövründə Sibirə sürgün edilmiş və sürgündə ölmüşdür. 82, 159, 263, 264, 281, 312.

Alxasov, Kərim bəy: Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqının üzvü olmuşdur. 313.

Allahverdi Oruc oğlu: Göyçə mahalının Qaraiman kəndinin sakini. 131, 132, 164.

Allahverdiyev, Ayn.: Bakı Ziyalılar İttifaqının üzvü olmuşdur. 391.

Allahverdiyev, Əliheydər (1888-1972): Bakıda fəaliyyət göstərmiş həkim. 17, 37, 58, 78, 313.

Allahverdiyev, Surxay: Azərbaycan aktyoru. 41, 77, 78, 149.

Amaspur, Xoren: “Daşnaksutyun” partiyasının üzvü; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 402.

Amazasp: bax. Srvandzyan, Hamazasp.

Amintayov, D.: Qazax camaatının vəkili olmuşdur. 132.

Amiraqo, Pavel İvanoviç (yaxud Pavel İvanoviç Amiraqov; 1879-1945): Opera və operetta artisti, tenor. Tiflisdə anadan olmuş, Tiflis, Moskva, Peterburq, Xarkov, Daşkənd, Varşava və digər şəhərlərin opera teatrlarında işləmişdir. Bakıda Mailov Teatrı, Rus Opera Teatrı və Bakı Dövlət Opera və Balet Teatrında rəhbər vəzifələrdə işləmişdir. 74

Ananov: Bakıda axtarış polisi olmuşdur. 352.

Anaşkin: Bakıda fəhlə hərəkatının fəal iştirakçısı olmuşdur. 161, 371.

Andranik: bax. Ozanyan, Andranik.

Andriyevski, Afanasi Mixayloviç (1878-1955): Ukraynanın siyasi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının üzvü olmuşdur. Mühacirətə getmişdir. 103.

Arko auf Valley, Anton fon [Anton Graf von Arco auf Valley; 1897-1945]: Alman monarxisti. Bavariyanın Baş naziri Kurt Eysneri sui-qəsd nəticəsində öldürmüşdür. 405, 414.

Arzuman Şahbaz oğlu: Qusar sakini. 113.

Aşurov, Ağa (1880-1936): Azərbaycanın dövlət xadimi. Bakıda anadan olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə Ticarət və Sənaye naziri, Ərzaq naziri, Poçt və Teleqraf naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra Rostova köçmüş, orada vəfat etmişdir. 5, 6, 172, 175, 176, 269, 402.

Aşurovlu: bax. Aşurov, Ağa.

Atakişiyev, İbrahim: bax. Atakişizadə, İbrahim.

Atakişizadə, İbrahim (yaxud İbrahim Azəri; 1898-1969): Aktyor. “Müsavat” partiyasının üzvü olmuşdur. Sovet hakimiyyəti illərində həbs və sürgün edilmişdir. 294.

Atayans, İshaq Avetisoviç: həkim. 18, 58, 97, 134, 166, 240, 278, 316, 354, 394, 432.

Ayn.: “Azərbaycan” qəzetindəki imzalardan biri. 76.

Azay Hacı Mürsəl oğlu: Qusarın camaat vəkili olmuşdur. 112.

B. M. əfəndi: “Azərbaycan” qəzetinə məktub göndərmişdir. 96.

Baba bəy: Azərbaycanın maarif xadimi. 130.

Babayev, Arakel Karapetoviç 390.

Babayev, Əliabbas 281.

Babayev, Əliağa 281.

Babayev, Əliheydər 263, 281.

Bababzadə, Əliheydər (1890 - ?): mühəndis. Bakıda anadan olmuşdur. 52.

Baden-Pauel, Robert [Robert Baden-Powell; 1857-1941]: Britaniya generalı. Hindistanda və Afrikada xidmət etmişdir. 67, 68.

Baxış Molla Ağakişi oğlu: Qusar sakini. 113.

Bakıxanzadə, Şeys bəy: “Müsavat” partiyasının Bülbülə şöbəsinin katibi olmuşdur. 109.

Baqqal əfəndi: Bülbülədən “Azərbaycan” qəzetinə məktub yazmışdır. 315.

Balahüseyn Məşədi Hümmət oğlu: Balaxanı kəndinin sakini olmuşdur. 256, 257.

Balaqədeş Kərbəlayı Seyidəli oğlu 113.

Balaş Baxşəli oğlu: Qobu kənd sakini. 111.

Banoviç: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyində şöbə müdiri olmuşdur. 346, 347, 348.

Baratov, Nikolay Nikolayeviç (1865-1932): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsi dövründə İranda xidmət edən Birinci Qafqaz süvari korpusunun komandiri olmuşdur. Oktyabr inqilabından sonra ağqvardiyaçılar hərəkatına qoşulmuş, Gürcüstan hökuməti yanında Denikinin nümayəndəsi olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 381.

Bayrambəyov, Əziz bəy: kapitan; Göyçay qəza rəisinin müavini, Bakı polismeysterinin müavini kimi vəzifələrdə işləmişdir. 313.

Bayraməlibəyov, Teymur bəy (yaxud Bayraməlibəyzadə, 1862-1937): Azərbaycanın ictimai-siyasi xadimi, maarifçisi və tarihçisi. Qori müəllimlər seminariyasını bitirmiş, Lənkəranda müəllim işləmişdir. “Müsavat” partiyasının Lənkəran şöbəsinin səri olmuşdur. 36, 133, 199, 236, 313, 353.

Bayramov, Əli: Tiflisdə Müsəlman Milli Şurasının üzvü olmuşdur. 35.

Bekoviç-Çerkasski, Aleksandr (yaxud Dövlət Girey Mirzə; ? - 1717): Kabardin knyazlarının nəslindən idi. 105.

Bəylərbəyov, Ələsgər bəy: Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqının üzvü olmuşdur. 313.

Biçeraxov, Lazar Fyodoroviç (1882-1952): Rusiyanın hərbi xadimi. İran-dakı Rusiya korpusunda xidmət edərkən, təxminən 1000 nəfərlik bir dəstə yaratmış, ingilislərlə əməkdaşlıq etmişdir. Bakı Komissarları da Qafqaz İslam Ordusuna qarşı Biçeraxovun yardımına müraciət etmişdilər, ancaq daha sonra bolşeviklərlə Biçeraxov arasında ixtilaf meydana gəldi və Biçeraxov öz dəstəsi ilə birgə Dağıstana çəkildi. Sentrokaspi Diktaturası Xəzər dənizindəki hərbi donanmanı Biçeraxovun əmrinə vermişdi. 34, 39, 103, 156, 223, 237, 241, 249, 268, 276, 296, 313, 352.

“Bir Adam”: “Azərbaycan” qəzetinə məqalə göndərmişdir. 220.

“Bir Çəmbərəkəndli”: “Azərbaycan” qəzetinə məktub yazmışdır. 54.

“Bir şamaxılı”: “Azərbaycan” qəzetindəki imzalardan. 297

Blajevski, V. F.: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyi dəftərxanasının müdiri olmuşdur. 355, 356, 414, 433.

Bleda, Midhət Şükrü (1874-1956): Türkiyənin siyasi xadimi. “İttihad və Tərəqqi” cəmiyyətinin qurucularından olmuşdur. 255.

Bolboçan, Pyotr Fyodoroviç (1883-1919): Rusiyanın və Ukraynanın hərbi xadimi. Ukrayna Xalq Respublikası ordusunun polkovniki olmuşdur. 42, 59.

Bornoviç: Könüllü ordu generalı. 210.

Böyükağa bəy Mirəlibəy oğlu: Lənkəran camaatının vəkili olmuşdur. 36, 133.

Brays, Ceyms [James Bryce; 1838-1922]: Britaniyanın dövlət xadimi; Millətlər Cəmiyyətinin (Millətlər İttifaqının) yaradılmasının təşəbbüskarlarından olmuşdur. 422.

Brokdorf-Rantsau, Ulrix fon [Ulrich von Brockdorff-Rantzau; 1869-1928]: Almaniyanın diplomatı. 1919-cu ildə Xarici İşlər naziri olmuşdur. 232, 241.

Budaq Əziz oğlu: Əngilan kəndinin sakini olmuşdur. 257.

Bulqakov, Sergey Alekseyeviç (?-1824): Rusiyanın hərbi xadimi, general. 107.

Burjua, Leon [Léon Bourgeois; 1861-1925]: Fransanın dövlət xadimi. Baş Nazir, Senatın Sədri, Xarici İşlər naziri kimi vəzifələr tutmuşdur. 25, 43, 193.

Cahangir Ağakişi oğlu: Əngilan kəndinin sakini olmuşdur. 257.

Cahangirzadə, Rəhim bəy: “Müsavat” partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin idarə heyəti sədrinin müavini olmuşdur. 146.





Camal Hacı Molla Əhməd oğlu: Sayad Xızı icmasının nümayəndəsi. 411.

Camalbəyov, Qasım bəy (1881-1938): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. “Hümmət” partiyasının üzvü idi. Azərbaycan Parlamentinin üzvü olmuşdur. 402, 403.

Camalyan, Arşak (1882-1940): Erməni siyasi xadimi. Almaniyada təhsil almışdır. Qafqaza qayıtdıqdan sonra jurnalistlik və müəllimliklə məşğul olmuşdur. Ermənistanın Gürcüstandakı səfiri olmuşdur. Daşnaksutyun partiyasının üzvü idi. Ermənistanın sovetləşməsindən sonra mühacirətə getmişdir. 412.

Caparidze, Prokofi (1880-1918): Bakı Xalq Komissarları Sovetinin rəhbərlərindən biri. Daxili işlər və Ərzaq komissarı olmuşdur. 1918-ci ilin martında Bakıda bolşevik və daşnak quldurlarının türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımda fəal iştirak etmişdir. Bakı komissarları sırasında güllələnmişdir. 370.

Cavad: “Azərbaycan” qəzetindəki imzalardan biri; bax. Əhməd Cavad.

Cavad bəy: bax. Çobanlı, İsmayıl Cavad.

Cavanşir, Behbud xan (1886-1921): Azərbaycanın dövlət xadimi. Almaniyada Frayberq Dağ-Mədən Akademiyasını bitirmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Daxili İşlər naziri, Ticarət və Sənaye naziri kimi vəzifələr tutmuşdur. İstanbulda erməni terrorçusu Torlakyan tərəfindən odlu silahla vurularaq öldürülmüşdür. 215, 217, 280, 359, 378, 381, 382, 403.

Cavanşir, İbrahim bəy 393

Cavanşirov, Nəsir 313

Cəbrayılbəyov, Camo bəy 235, 313

Cəbrayılov, Camo bəy: bax. Cəbrayılbəyov, Camo bəy

Cəbrayılov, Həsən: Bakı həbsxanasında məhkum olmuşdur. 409

Cəfərbəyov, Cəfər bəy: Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqının üzvü olmuşdur. 313.

Cəfərov, Məmməd (yaxud Məhəmməd) Yusif (1885-1938): Azərbaycanın dövlət xadimi. Ali hüquq təhsili almışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə müxtəlif tarixlərdə Sənaye və Ticarət naziri, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. 26, 82, 83, 124, 357, 358

Cəlal: “Azərbaycan” qəzetində imza. 72.

Corc V [George V; 1865-1936]: Böyük Britaniya kralı; 1910-1936-cı illərdə hakimiyyətdə olmuşdur. 277, 280.

Çaykovski, Nikolay Vasilyeviç (1851-1926): Rus inqilabçı. Sankt-Peterburq Universitetini bitirmişdir. Sosialist İnqilabçılar Partiyasına qoşulmuşdur. 1874-1907-ci illərdə Amerika və Avropada yaşamışdır. Bolşeviklərin hakimiyyəti ələ keçirməsinə etiraz etmiş, Ümumrusiya Müvəqqəti Hökumətinin üzvü, Şimal Vilayəti Müvəqqəti Hökumətinin sədri olmuşdur. 144

Çexovski, Vladimir Moiseyeviç (1876-1937): Ukraynanın siyasi xadimi. 1918-ci ilin dekabrından 1919-cu ilin fevralına qədər Ukrayna Xalq Respublikası Nazirlər Sovetinin sədri və Xarici İşlər naziri olmuşdur. 44

Çermoyev, Əbdülməcid Tapa (1882-1936): Şimali Qafqaz dağlılarının siyasi xadimi, azadlıq hərəkatı liderlərindən biri, milliyətcə çeçendir. Birinci Dünya müharibəsi illərində “Vəhşi diviziya”nın çeçen alayında xidmət etmişdir. Şimali Qafqaz Dağlı Xalqları İttifaqının qurucularından biri və Dağlılar Respublikasının başçısı olmuşdur. 405.

Çxeidze, Nikolay Semyonoviç (1864-1926): Rusiyanın və Gürcüstanın siyasi xadimi. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Zaqafqaziya Seyminin və Gürcüstan Müəssislər Məclisinin sədri olmuşdur. Gürcüstanın sovetləşməsindən sonra mühacirətə getmişdir. 422.

Çxikvadze: keşiş (Acarıstanda) 88.

Çiçerin, Georgi Vasilyeviç (1872-1936): Rusiyanın siyasi xadimi və diplomatı. 1918-1923-cü illərdə Rusiyanın, 1923-1930-cu illərdə SSRİ-nin Xarici İşlər xalq komissarı olmuşdur. 44, 155.

Çobanlı, İsmayıl Cavad (1870-1938): Türkiyənin siyasi və hərbi xadimi; ordu generalı. Trablusqərb müharibəsində, Balkan müharibələrində, Birinci Dünya müharibəsində, Qurtuluş müharibəsində iştirak etmişdir. 255, 262.

Çörçill, Uinston [Winston Churchill; 1874-1965]: Britaniyanın görkəmli dövlət xadimi. 329

Çubaryan, Poqos: Daşnaksutyun partiyasının və Bakıdakı Erməni Milli Şurasının, həmçinin Azərbaycan Parlamentinin üzvü olmuşdur. 198, 402.

Çurayev, Andrey Yemelyanoviç [1881 - ?]: Fəhlə, menşevik. Bakıda inqilabi fəaliyyətlə məşğul olmuşdur. 1917-ci ildə Bakı Şəhər Dumasının üzvü, 1920-ci ildə qısa müddət Azərbaycan Fövqəladə Komissiyasının sədri olmuşdur. 160, 162, 369, 370, 371, 372.

Çurikov: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyində şöbə müdiri olmuşdur. 346.

“Dağlı”: “Azərbaycan” qəzetində imza. 148, 295.

Darablı, Rza (yaxud Rza Darablinski, Rza Hüseynov; 1883-1942): Azərbaycanın teatr aktyoru. “Nicat”, “Səfa”, “Hacıbəyov qardaşları müdiriyyəti” truppalarında çıxış etmişdir. Moskvada teatr texnikumunu bitirmişdir. 294.

Darablinski: bax. Darablı.

Daşkəndli Xalid Səid: bax. Xocayev, Xalid Səid

Dellepiani, Luis [Dellepiane, Luis; 1865-1941]: Argentinanın hərbi və siyasi xadimi; general. 1919-cu ilin yanvar ayında Argentinada baş vermiş iğtişaşlar əsnasında nizam-intizamı bərpa etmək məqsədi ilə federal polis təşkilatının rəhbəri təyin edilmişdi. 43.

De-Matino 193.

Demosfen (e. ə. IV əsr): qədim yunan natiqi; eyni zamanda dövlət adamı. 47

Demosten: bax. Demosfen.

Denikin, Anton İvanoviç (1872-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Ağ qvardiyanın rəhbərlərindən olmuşdur. Birinci Dünya müharibəsində Qərb cəbhəsinin (may-iyul 1917) və Cənub-qərb cəbhəsinin (avqust 1917), Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun (aprel 1918 - yanvar 1919) və Cənubi Rusiya Silahlı Qüvvələrinin (yanvar 1919 - aprel 1920) komandiri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 8, 25, 64, 114, 162, 163, 181, 194, 200, 210, 223, 224, 268, 287, 290, 291, 330, 343, 371, 375, 405, 406, 407, 421, 425, 431.

Denstervil, Lionel [Lionel Duns-terville; 1865-1946]: İngiltərənin hərbi xadimi. Birinci Dünya müharibəsində Almaniya və Türkiyənin Hindistana ehtimal olunan hücumunun qarşısını almaq vəzifəsini daşıyan Britaniya hərbi hissələrinin komandiri olmuşdur. 1918-ci ilin avqust ayının ortalarından sentyabrın ortalarına qədər Bakıdakı Britaniya hərbi hissələrinin komandiri olmuşdur. Qafqaz İslam Ordusunun təzyiqi qarşısında Bakını tərk etmişdir. 75.

Derbişir: İngiltərənin Qafqazdakı zabitlərindən, kapitan. 127.

Dilbazov, Əhməd bəy: Qazaxın Xanlıqlar kəndinin sakini. 197.

Dobrovolskaya: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyində şöbə müdirinin müavini olmuşdur. 346.

Dorrez: Türküstan Hökumətinin Ədliyyə naziri olmuşdur. 156.

Dot (general) 144.

Durdı Möhtaci oğlu: Türkmən şairi. 158.

Dursun: Ağdərədə erməni quldur dəstəsinin başçısı olmuşdur. 149.

Düpon, Çarlz Cozef [Charles Joseph Dupont; 1863-1935]: Fransanın hərbi xadimi; general-leytenant. Polşadakı fransız missiyasının başçısı və Almaniya-Polşa sərhədinin delimitiasiyası ilə məşğul olan komissiyanın sədri olmuşdur. 423.

Dyakonov: Batumi Ərzaq idarəsində işləmişdir. 113.

Ebert, Fridrix [Friedrich Ebert; 1871-1925]: Almaniyanın siyasi xadimi; sosial demokrat. 1918-ci ilin noyabrından 1919-cu ilin fevralına qədər Almaniyanın Baş naziri, 1919-cu ilin fevralından 1925-ci ilin fevralına qədər Almaniya Prezidenti olmuşdur. 254, 256.

Exkordn 144.

Enno, Emil: Fransız ordusunun zabiti. 1918-1919-cu illərdə Fransanın Kiyev və Odessada konsulu olmuşdur. 43, 90.

Eristov, Elizbar: podpolkovnik; Rusiyanın Qafqazdakı ordularının Baş komandanı Pavel Sisianovun yavəri. 106.

Esxin (e. ə. IV əsr): qədim yunan natiqi; eyni zamanda dövlət adamı. 47

Eşrus: Rusiyadakı fransız zabitlərindən, polkovnik. 124.

Eyni Əhməd oğlu: Binəqədidə yaşayan İran təbəəsi. 351.

Eysiroviç 45

Eysner, Kurt [Kurt Eisner; 1867-1919]: Almaniyanın siyasi xadimi. Almaniya Müstəqil Sosial-Demokrat Partiyasının üzvü olmuşdur. 8 noyabr 1918 – 21 fevral 1919-cu illərdə Bavariyanın Baş naziri vəzifəsini tutmuşdur. 253, 404, 405, 414, 424.

Eyvaz oğlu: Qusar sakini. 113.

Eyvazov: Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyətinin idarə heyətinin sədri olmuşdur. 395.

Eyvazov, Abbas: bax. Eyvazzadə, Abbas.

Eyvazzadə, Abbas: Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 147, 196, 244.

Ə. H.: bax. Qaraağazadə, Əhməd Həmdi

Əbdülhəmid II [1842, 1918]: Osmanlı sultanı; 1876-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 246.

Əbdülqədir Ağabala oğlu 390

Əbdülsəlimzadə, Məhəmməd Hadi: bax. Hadi, Məhəmməd.

Əbilov, İbrahim (1881-1923): Azərbaycanın siyasi xadimi, inqilabçı və diplomat. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Azərbaycan Sovet Sosialist Respublikasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri vəzifəsini tutmuşdur. 45, 225, 229, 247, 320, 321, 322, 323, 340, 370, 371.

Əbu Hüreyrə (? - 678): səhabə. 315.

Əbubəkr: Dörd xəlifədən birincisi. 79, 168.

Əfəndiyev: Şamaxı camaatının vəkili olmuşdur. 237.

Əfəndiyev, Abdullah bəy: bax. Əfəndizadə, Abdulla bəy.

Əfəndiyev, Hacı Hüseyn: bax. Əfəndizadə, Hacı Hüseyn.

Əfəndiyev, Mahmud bəy: Azərbaycanın diplomatı, ali təhsilli həkim. Azərbaycan Cümhuriyyətinin Batum konsulu olmuşdur. 408

Əfəndiyev, Muxtar: bax. Əfəndizadə, Muxtar.

Əfəndiyev, Rövşən bəy 185, 202, 221.

Əfəndiyev, Süleyman bəy: bax. Əfəndizadə, Süleyman bəy.

Əfəndizadə, Abdulla bəy İsmayıl əfəndi oğlu (yaxud Əfəndiyev; 1875-1928): Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra şəhərlərində müəllimlik etmiş, Şəkidə müəllim kursları və məktəblər açdırmışdır. Şəki Şəhər Bankının və Şəki Şəhər Dumasının sədri olmuşdur. Şəkidən Azərbaycan Parlamentinə üzv seçilmişdir. 398, 403.

Əfəndizadə, Hacı Hüseyn (yaxud Əfəndiyev; 1887-1920): Göyçay qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdir. 82, 378.

Əfəndizadə, M.: “Azərbaycan” qəzetinə məktub göndərmişdir. 96.

Əfəndizadə, Mahmud: Dərbənddən “Azərbaycan” qəzetinə məktub yazmışdır. 315

Əfəndizadə, Muxtar (1880-1975): Azərbaycanın elm xadimi, şərqşünas. Maarif sahəsində böyük xidmətləri olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 402.

Əfəndizadə, Mustafa: Qafqazın müftüsü. 147, 196, 223, 244, 397.

Əfəndizadə, Süleyman bəy (1864-1919): Azərbaycan Cümhuriyyətinin hərbi xadimi; general. Ağdamda xidmət əsnasında səpmə yatalaq xəstəliyindən vəfat etmişdir. 407, 414, 415.

Əhməd Cavad (1892-1937): Azərbaycanlı şair və ictimai xadim. Azərbaycan Respublikasının Dövlət Himninin sözləri Əhməd Cavada məxsusdur. 31, 39.

Əhməd İzzət paşa (yaxud Əhməd İzzət Furqaç; 1864-1937): Türkiyənin hərbi və siyasi xadimi. Alman ordusunda təlim keçmişdir. Birinci Dünya müharibəsində Şərq Ordular Qrupunun tərkibindəki İkinci Ordunun komandanı olmuşdur. 14 oktyabr – 8 noyabr 1918-ci ildə Osmanlı dövlətinin Sədrəzəmi (Baş Naziri) olmuşdur. Türk Qurtuluş Savaşında iştirak etmişdir. Türkiyədə soyadları haqqında qanun çıxdıqdan sonra “Furqaç” soyadını qəbul etmişdir. 288, 298.

Əhməd Tofiq paşa (Okday; 1845-1936): Osmanlı dövlət xadimi. 1909-cu ildə, 1918-1919-cu illərdə və 1920-1922-ci illərdə Baş nazir olmuşdur. Eyni zamanda Osmanlı dövlətinin axırıncı Baş naziri idi. Soyadı qanunu çıxdıqdan sonra “Okday” soyadını qəbul etmişdir. 90, 144.

Əhmədbəyov, Kərim bəy 236.

Əhmədbəyov, Sultan bəy: Bakıda sahə pristavı olmuşdur. 350.

Əhmədbəyov, Zivər bəy (1875-1925): Azərbaycanlı memar. Azərbaycan Cümhuriyyəti dövründə Bakı şəhərinin baş memarı təyin edilmiş və bu vəzifədə 1922-ci ilə qədər işləmişdir. 236, 318.

Əhmədov, Abbasqulu xan: Tiflisdə Müsəlman Milli Şurası idarə heyətinin üzvü olmuşdur. 35.

Əhmədov, Əsədulla Əhməd oğlu (1867-1941): Azərbaycanın ictimai-siyasi xadimi, xeyriyyəçi. Nəşri-Maarif Cəmiyyətinin təsisçilərindən biri idi. Bakı Bələdiyyə Məclisinin, Azərbaycan Cümhuriyyəti Parlamentinin və Müsavat partiyasının üzvü olmuşdur. 147, 196, 244.

Əhmədov, Məlikməhəmməd 61

Əhmədov, Yusif (? - 1919) 61

Əhmədov, Yusif (yaxud Yusifəli Əhmədov; ? - 1938): Ticarət və Sənaye İttifaqının sədri olmuşdur. Azərbaycan Parlamentinin üzvü idi. 147, 325, 360, 401, 403.

Əhmədzadə, Əsədulla: bax. Əhmədov, Əsədulla.

Əhmədzadə, Yusif: bax. Əhmədov, Yusif.

Əjdərova, Aliyə: Cavad kəndinin sakini olmuşdur. 257.

Əkbərov, Hacı İbad: Lənkəran sakini, tacir. 34.

Ələkbər Sarı İmamqulu oğlu: Gəncə sakini. 259.

Əli bəy 137, 153.

Əli Xas (Məşhədi Əli Xas): Balaxanı kəndinin kəndxudası olmuşdur. 75.

Əli ibn Əbu Talib (601-661): İslam xəlifəsi, Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni. 79, 142, 168.

Əli Rüfət bəy: Türk zabiti. 101

Əli Yusif: bax. Yusifzadə, Əli.

Əlibəyov, Salman bəy (? - 1919): Qarabağda inqilabi fəaliyyətlə məşğul olmuşdur. 48, 60.

Əlihəsən Cabbar oğlu: “Azərbaycan” qəzetinə yazı göndərmişdir. 184.

Əlixanov, Əjdər bəy: Sabunçu kəndinin sakini. 390.

Əliqulu: Bakıda tapançadan atəş etdiyi üçün həbs edilmişdir. 390.

Əlimurad Əziz oğlu: Qusar sakini. 113.





Əliverdibəyov, Qara bəy (1879-1929): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 82, 378.

Əliverdiyev, Qara bəy: bax. Əliverdibəyov, Qara bəy.

Əliyev, Əlibala: Göyçay qəzasının sakini. 111.

Əliyev, Əlibala: Bakı İkinci İstiqrazı-Mütəqabilə Cəmiyyətinin Şura üzvü olmuşdur. 279.

Əliyev, Mirzəağa: Ərzaq Nazirliyində işləmişdir. 57.

Əliyev, Mirzəağa: bax. Əlizadə, Mirzəağa.

Əliyev, Muxtar 313.

Əliyev, Müseyib: sosialist; Tovuzun Öysüzlü kəndinin sakini. 366.

Əliyev, Səlim: sosialist; Qovlarsarı sakini. 366.

Əliyev, Yusifəli 36, 57, 119, 133, 258, 348, 349, 350, 358, 378, 403.

Əlizadə, M. F.: tələbə. 259.

Əlizadə, Mirzəağa (1883-1954): Azərbaycanlı aktyor. “Həmiyyət”, “Nicat” truppalarında çıxış etmişdir. 1924-cü ildən etibarən Azərbaycan Dövlət Dram Teatrında çalışmış, 1949-cu ildə Xalq artisti adına layiq görülmüşdür. 38.

Əminov, Ağa Məşhədi Kərim oğlu (1888-1921): “Müsavat” partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 358, 378, 402.

Əminzadə, Ağa 313.

Əminzadə, Əbülqasım: Şamaxı qazısı olmuşdur. 397.

Əmircanov, Əbdüləli bəy (1870-1948): Azərbaycanın ictimai-siyasi xadimi. Tiflisdə Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra yerlərində müəllim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə naziri, Dövlət Nəzarəti naziri vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra Türkiyəyə mühacirətə getmişdir. 196, 359, 378, 403.

Əmircanov, Lütfəli bəy: Balaxanı-Sabunçu dairəsinin, sonra Bakının polis müdiri (komendantı) olmuşdur. 146, 264, 350, 411.

Əmircanzadə, Musa bəy: Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 196, 244.

Əmirəli Kəramət oğlu: Əngilan kəndinin sakini olmuşdur. 257.

Əmirxan Bədirxan oğlu: Qusar sakini. 113.

Ənvər paşa (1881-1922): Osmanlı dövlətinin hərbi və siyasi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən idi. 1914-1918-ci illərdə Osmanlı dövlətinin Hərbi naziri, Baş Qərargah rəisi olmuşdur. Türk xalqlarını birləşdirmək uğrunda mübarizə aparmışdır. 255, 262.

Ərəbli, Hüseyn (yaxud Hüseyn Ərəblinski; Xələfov; 1881-1919): Azərbaycanın teatr aktyoru və rejissoru. “Nicat”, “Səfa”, Hacıbəyli Qardaşları müdiriyyəti truppalarında çıxış etmişdir. 185, 202, 221, 294.

Əsəd Adıgözəl oğlu: Bakı ətrafında Qala kəndinin sakini. 389.

Əsəd Xəlil oğlu: Bakıda yaşayan İran təbəələrindən. 314.

Əsədulla Məşhədi Ələkbər oğlu: Novo-Bayəzid mahalı müsəlman kəndlərinin vəkili olmuşdur. 219.

Əsədullayev, Mirzə (1875-1936): Azərbaycanlı sahibkar, ictimai-siyasi xadim. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Azərbaycanın Ticarət və Sənaye naziri olmuşdur. 98, 147, 196, 244.

Əsədullazadə, Mirzə: bax. Əsədullayev, Mirzə

Əsgər Hacı Dəmir oğlu: Qusarın camaat vəkili olmuşdur. 112.

Əyyub Əsgər oğlu (Məşhədi Əyyub): Sayad Xızı icmasının nümayəndəsi. 411.

Əzizə xanım: Hüseynqulu Sarabskinin həyat yoldaşı. 417.

Faysal I (1885-1933): Hicaz kralı Şərif Hüseynin oğlu idi. 1920-ci ildə Suriya kralı,

1921-1933-cü illərdə İraq kralı olmuşdur. 232.

Ferdinand I [Ferdinand I; 1865-1927]: Rumıniya kralı. 1914-1927-ci illərdə taxtda olmuşdur. 298.

Fətəli şah (1771-1834): Qacar sülaləsindən İran şahı; 1797-1834-cü illərdə hakimiyyətdə olmuşdur. 106.

Fikrət, Tofiq: bax. Tofiq Fikrət.

fon-Qvinner: bax. Qvinner, Artur fon

Forester-Volker, Corc [George Forestier-Walker; 1866-1939]: Britaniya ordusunun general-mayoru. 101, 156, 163, 165, 179, 431.

Frolov: Bakıda fəhlə hərəkatının fəal üzvlərindən olmuşdur. 45

Fukidid (e. ə. V əsr): qədim yunan tarixçisi. 47

Gegeçkori, Yevgeni Petroviç (1881-1954): Gürcüstanın dövlət xadimi. Menşevik. Hüquq təhsili almışdır. Zaqafqaziya Komissarlığının sədri seçilmişdi. Gürcüstan müstəqilliyini elan etdikdən sonra Xarici İşlər naziri, 1921-ci ildə isə Ədliyyə naziri oldu. Gürcüstanın sovetləşməsinin ardından mühacirət etdi. 131, 201, 211, 218.

Gelovani: general; Gürcüstan ordusunda xidmət etmişdir. 353.

Gidevanov: polkovnik; Gürcüstan Hökumətinin Batumidəki nümayəndəsi olmuşdur. 218.

Gövhər xanım: mama. 278, 316, 355, 394, 432.

Güləli Seyidəhməd oğlu: Qusar sakini. 113.

"H. Bürhanəddin": "Azərbaycan" qəzetində imza. 34.

Hacı Osman Mustafa oğlu: Qusar sakini. 113.

Hacı Mənaf Məhəmməd oğlu: Sayad Xızı icmasının nümayəndəsi. 411.

Hacıbababəyov, Mehdi bəy (1871-1925): Azərbaycanın ictimai-siyasi xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 7, 235, 313.

Hacıbala Rəsul oğlu: Göyçə mahalının Daşkənd kəndinin camaat vəkili. 125.

Hacıbəyli, Üzeyir (1885-1948): Azərbaycanlı bəstəkar, musiqişünas, publisist, pedaqoq və ictimai xadim. Azərbaycanın müasir peşəkar musiqi sənətinin və milli operanın banisi. Dövrünün bir sıra qəzet və jurnallarında, o cümlədən "Azərbaycan" qəzetində məqalə, felyeton, hekayə və miniatürlərlə çıxış etmişdir. "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. Sovet dövründə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Azərbaycan SSR-in və Azərbaycan Respublikasının Dövlət himnlərinin musiqisinin müəllifidir. 18, 35, 38, 41, 59, 79, 98, 115, 134, 143, 149, 151, 167, 172, 185, 189, 202, 221, 240, 261, 279, 285, 298, 318, 336, 355, 372, 374, 395, 412, 414, 419, 434.

Hacıbəyli, Zülfüqar (1884-1950): Azərbaycanlı bəstəkar. Üzeyir Hacıbəylinin böyük qardaşıdır. 38, 41, 115, 132, 149, 151, 185, 202, 221, 318, 430, 432, 434.

Hacıəlizadə, Səməd bəy: Azərbaycanın maarif xadimi. 129, 130, 131.

Hacıxanov 391

Hacıqulu Əhməd oğlu: Qusar sakini. 113.

Hacınski: Bakı Müsəlman Aktyorları İttifaqının xəzinədarı olmuşdur. 294.

Hacınski, Camo bəy (1888-1942): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuş, Poçt və Teleqraf naziri vəzifəsini tutmuşdur. 1938-ci ildə sürgün edilmiş, həbs düşərgəsində ölmüşdür. 82, 378.

Hacınski, Mehdi bəy: Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyində idarə müdürü olmuşdur. 147, 196.

Hacınski, Məhəmmədhəsən (1875-1931): Azərbaycanın dövlət xadimi. Peterburq Texnologiya İnstitutunu bitirmişdir. Cümhuriyyətdən əvvəl Bakının abadlaşdırılmasında xidmətləri olmuşdur. Zaqafqaziya Seyminin üzvü idi. Zaqafqaziya Demokratik Federativ Respublikasında Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. Azərbaycan Milli Şurasının üzvü idi. Azərbaycan Cümhuriyyəti Hökumətində Xarici İşlər naziri, Dövlət Nəzarəti naziri, Maliyyə naziri, Daxili İşlər naziri, Ticarət, Sənaye və Ərzaq naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra repressiyaya məruz qalmışdır. 381, 382.

Hacıyev: Tərtər camaatının nümayəndəsi olmuşdur. 230.

Hacıyev, Yəhya 36, 57, 87.

Hacızadə, Abbas: Tovuz sakini. 199.

Hacızadə, M.: Şəkidən "Azərbaycan" qəzetinə məktub yazmışdır. 297.

Hadi, Məhəmməd (Əbdülsəlimzadə; 1879-1920): Azərbaycanlı şair və jurnalist. 389, 395.

Hadizadə, Əbdürrəhim: Bakı qazısı olmuşdur. 147, 196, 244.

Haqverdiyev, Əbdürrəhim bəy (1870-1933): Azərbaycanın yazıçısı və dramaturqu, ədəbiyyatşünası və teatr xadimi. 35, 185, 186, 202, 221, 430.

Hamazasp: bax. Srvandzyan, Hamazasp.

Hamburq, S. M.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 239, 260, 278, 297, 316, 335, 354, 372, 393, 413, 432.

Hamid, Əbdülhaq (Tarhan, 1852-1937): Türk şairi və dramaturqu; eyni zamanda diplomatik fəaliyyəti də olmuşdur. 337.

Herodot (e. ə. V əsr): qədim yunan tarixçisi. 47

Heybətzadə, Əbdülhüseyn: "Müsavat" partiyasının Əmirhacıyan şöbəsinin katibi olmuşdur.

Heydər bəy Bayram oğlu: İmamqulukənd (Qusar rayonu) sakini. 409.

Heydərov, Ələkbər (Buzovnalı) 409.

Heydərov, İbrahim bəy (1879-1949): Azərbaycanın və Dağıstanın ictimai-siyasi xadimi. Sankt-Peterburq Rabitə İnstitutunu qurtarmışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Bakı Bələdiyyə İdarəsi Təsərrüfat şöbəsinin rəisi olmuşdur. Bakıda neft şirkətlərinin və bəzi maarif-xeyriyyə cəmiyyətlərinin idarə heyətində təmsil olunmuşdur. 1918-1919-cu illərdə Dağlılar Respublikasının birinci hökumətində Daxili İşlər naziri, ikinci hökumətində isə Rabitə, Poçt və Teleqraf naziri vəzifəsini tutmuşdur. 1920-ci ildən etibarən mühacirətdə yaşamış, Türkiyədə vəfat etmişdir. 381, 382.

Heydərov, Qədir: bax. Heydərzadə, Qədir.

Heydərzadə, Qədir: Azərbaycan jurnalisti. 236.

Həqşünas: "Azərbaycan" qəzetində imza. Zaqatala-Balakən bölgəsi haqqında yazmışdır. 352.

Həmədani, İbn əl-Fəqih: IX əsrin sonu – X əsrin əvvəllərində yaşamış coğrafiyaşünas; "Kitabül-buldan" əsərinin müəllifi. 45, 59.

Həsənbəy Qəmbər oğlu: Qusar sakini. 113.

Həsənəli Mansur oğlu: Qusar sakini. 113.

Həsənov, Əliağa (1871-1933): Azərbaycanın ictimai-siyasi xadimi; Cümhuriyyət dövründə Maliyyə naziri, Dövlət Müfəttişi, Azərbaycan Parlamentinin üzvü olmuşdur. "Nəşri-maarif" cəmiyyətinin yaradılmasında və fəaliyyətində yaxından iştirak etmiş, Bakı Şəhər Dumasının üzvü olduğu dövrdə Şollar su kəmərinin çəkilişi və şəhərdəki digər quruculuq-abadlıq işlərində xüsusilə böyük xidməti olmuşdur. 82, 146, 312, 331, 426.

Həsənov, Əlinağı: Bakı sakini. 351.

Həsəntuki: bax. Yessentuki.

Həsənzadə, Əliağa: bax. Həsənov, Əliağa.

Həsənzadə, Hüseyn (Mirzə Hüseyn Həsənzadə): Tiflisdə Müsəlman Milli Şurasının üzvü olmuşdur. 35.

Həsənzadə, Rzaqulu: Sayad Xızı camaatının vəkili olmuşdur. 410.

Hindenburq, Paul fon (Paul von Hinden-

burg, 1847-1934): Almaniyanın hərbi və siyasi xadimi, Birinci Dünya müharibəsinin ən məşhur sərkərdələrindən biri. 1925-1934-cü illərdə Almaniya prezidenti olmuşdur. 252, 261, 405, 414.
Hiperid (e. ə. IV əsr): qədim yunan natiqi. 47
Hirəvi, Ətaullah: XVI əsr müəlliflərindən. 375.
Homer (e. ə. VIII-VII əsrlər): qədim yunan şairi; "İliada" və "Odisseya" poemalarının müəllifi. 47
Hür-əndişiyan: "Azəbaycan" qəzetində imza. 333.
Hüseyn Cahid (Yalçın; 1875-1957): Türk yazıçısı, publisisti və siyasətçisi. Bir müddət Türkiyənin məşhur ədəbiyyat və incəsənət jurnalı olan "Sərvəti-fünun"un redaktoru olmuş, daha sonra "Tənin" qəzetini qurmuşdur. Birinci Dünya müharibəsindən sonra ingilislər tərəfindən Malta adasına sürgün edilmişdir. Türkiyə Böyük Millət Məclisinin deputatı olmuşdur. Soyadı qanunu çıxdıqdan sonra "Yalçın" soyadunı qəbul etmişdir. 234.
Hüseyn İbrahim oğlu (Kərbəlayi Hüseyn Kərbəlayi İbrahim oğlu): Lənkəran sakini. 353.
Hüseyn Kərbəlayi Məhəmməd oğlu: Quba sakini. 257.
Hüseynqulu xan (1774-1845): Bakı xanı; 1792-1806-cı illərdə hakimiyyətdə olmuşdur. 106, 107.
Hüseynqulu Şahbaz oğlu: Sayad Xızı icmasının nümayəndəsi. 411.
Hüseynov: Bakı İkinci İstiqrazı-Mütəqabilə Cəmiyyətinin Şura üzvü olmuşdur. 279.
Hüseynov, Xəlil: bax. Hüseynzadə, Xəlil.
Hüseynov, Rəhim 180.
Hüseynov, Rza: bax. Darablı, Rza.
Hüseynov, Sadiq 235, 313.
Hüseynzadə, Əbil: Qusarın camaat vəkili olmuşdur. 112.
Hüseynzadə, Ələkbər (1887-1967): teatr və kino aktyoru. Azərbaycan SSR Əməkdar artisti idi. 152.
Hüseynzadə, Xəlil: teatr aktyoru. 185, 202, 221, 294.
Hüseynzadə, Məzahir: "Müsavat" partiyasının Zabrat şöbəsinin sədri olmuşdur. 91.
Hüseynzadə, Yusif: Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. 147.
"X. İ.": bax. İbrahimov, Xəlil.
Xaçatur: Ağdərədə erməni quldur dəstəsinin başçısı olmuşdur. 149.
Xalid Səid: bax. Xocayev, Xalid Səid.
Xamişaşvili, Camal 87, 88.
Xanbaba Ağası oğlu: Qusar sakini. 113.
Xanbaba Vəlixan oğlu: Qusar sakini. 113.
Xanəli Xəlil oğlu: Maştağa sakini. 409.
Xanəli Nurəli oğlu: Qusar sakini. 113.
Xasməmmədov, Xəlil bəy (yaxud Xasməhəmmədov; 1873-1947): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya Dövlət Dumasının, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Ədliyyə naziri, Daxili İşlər naziri kimi vəzifələr tutmuşdur. Azərbaycanın Türkiyədə səfiri təyin edilmiş, Cümhuriyyətin süqutundan sonra Azərbaycana qayıtmamışdır. Siyasi fəaliyyətini mühacirətdə də davam etdirmişdir. 99.
Xatisov, Aleksandr İvanoviç (1874-1945): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun" partiyasının üzvü idi. Müxtəlif dövrlərdə Ermənistanın Baş Naziri, Səhiyyə, Daxili İşlər və Xarici İşlər naziri olmuşdur. Ermənistanın sovetləşməsindən sonra Fransa və Portuqaliyada mühacirətdə yaşamışdır. 273, 280, 368, 375, 411.
Xəlil İbrahim: bax. İbrahimov, Xəlil.
Xəlil paşa: Xəlil Qut (1882-1957). Osmanlı İmperiyasının hərbi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin üzvü olmuşdur. Ənvər paşanın əmisi (Ənvər paşadan 1 yaş kiçik idi), eyni zamanda Hərbi Akademiyada Mustafa Kamalın (Atatürk) sinif yoldaşı olmuşdur. Birinci Dünya müharibəsində İraq cəbhəsində böyük müvəffəqiyyət qazanmış, Qafqaz İslam Ordusu ilə birgə Bakıya daxil olmuş, Türk Qurtuluş Savaşında iştirak etmişdir. 208, 222, 255, 262.
Xəlilov, İsmayıl: Tiflisdə Müsəlman Milli Şurasının müsahibi olmuşdur. 35.
Xəlilov, Məşhədi Xəlil Hacıağa oğlu 373.
Xəlilov, Möhsün 373.
Xocayev, Xalid Səid (1888-1937): özbək əsilli türkoloq. İstanbul Universitetində oxumuş, Azərbaycanda işləmişdir. 1937-ci ildə güllələnmişdir. 432, 435.
Xoşxəvərov Hurəndişan: "Azərbaycan" qəzetində imza. 14
Xoyski, Əmir xan (1888-1954): Azərbaycanın ictimai-siyasi xadimi, milli istiqlal hərəkatının iştirakçısı. Bakı qubernatorunun müavini, eləcə də bir sıra yerlərdə qəza rəisi olmuşdur. 227.
Xoyski, Fətəli xan (1875-1920): Azərbaycan Cümhuriyyətinin qurucularından biri, görkəmli dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının sədri (1917-1918), Zaqafqaziya Seyminin üzvü və Zaqafqaziya Federativ Respublikasının Xalq Maarifi naziri (1918) olmuşdur. Azərbaycan Cümhuriyyətinin ilk hökumətinin sədri seçilmiş, Cümhuriyyət dövründə bir neçə dəfə Baş Nazir, eləcə də Daxili İşlər naziri, Ədliyyə naziri, Xarici İşlər naziri vəzifələrini icra etmişdir. Bolşevik işğalından sonra Tiflisə mühacirət etmiş və orada erməni daşnakları tərəfindən şəhid edilmişdir. 83, 117, 118, 124, 138, 143, 174, 219, 266, 282, 283, 341, 343, 344, 352, 380, 399, 417, 418.
İbrahim Azəri: bax. Atakişizadə, İbrahim.
İbrahim xan (yaxud İbrahim Xəlil xan; 1732-1806): Qarabağ xanı. 188.
İbrahim Məhəmmədrəhim oğlu 96.
İbrahimov, Ağaməhəmməd: bax. İbrahimzadə, Ağaməhəmməd.
İbrahimov, Bəşir 390.
İbrahimov, Xəlil (Xəlil İbrahim; Xəlil İbrahimzadə; 1892-1938): Azərbaycanlı müəllim, publisist və tənqidçi. Şuşada anadan olmuşdur. Bakıda müəllim işləmiş, müxtəlif qəzet və jurnallarda, o cümlədən "Azərbaycan" qəzetində yazılar dərc etdirmiş, bir müddət "Azərbaycan" qəzetinin "müvəqqəti müdiri" olmuşdur. 1938-ci ildə həbs edilərək güllələnmişdir. 128, 134, 314, 349, 356.
İbrahimov, Şəfi 37, 58, 78, 97, 114, 133, 150, 166, 184, 239, 260, 279, 297, 317, 335, 354, 373.
İbrahimzadə, Ağaməhəmməd 96.
İdaşkina, M. S. 133, 167, 184, 239, 278, 316, 354, 394, 432.
İlyas Turqud: "Azərbaycan" qəzetinə məktub göndərmişdir. 184.
İmam Nəzər oğlu: Sabunçu kəndinin sakini. 390.
İmamqulu Məhəmmədqulu oğlu: Aşağı Surra kəndinin sakini. 392.
İsfəndiyar Məhəmmədşah oğlu 109.
İsgəndər Döndər oğlu: Qusar sakini. 113.
İskəndər (yaxud Makedoniyalı İskəndər) 375.
İslam Hacı Əbdürrəhim oğlu (Molla İslam): Alpan kəndinin (Quba rayonu) sakini. 409, 410.
İsmayıl Hacı Əli oğlu: Novo-Bayəzid mahalı müsəlman kəndlərinin vəkili olmuşdur. 219.
İsmayılov: Tərtər camaatının nümayəndəsi olmuşdur. 230.
Kaçaznuni, Hovanes (1868-1938): Ermənistanın siyasi və dövlət xadimi. Daşnaksutyun Partiyasının, Erməni Milli Şurasının üzvü olmuşdur. Ermənistan Respublikasının ilk hökumətində Baş Nazir vəzifəsini tutmuşdur. Ermənistanın sovetləşməsindən sonra mühacirətdə qalmış, Daşnaksutyun Partiyasından istefa edərək Sovet Ermənistanına qayıtmışdır. 1937-ci ildə həbs edilmiş, həbsxanada ölmüşdür. 165, 411.
Kaçı, Məhməd Vəhib: bax. Məhməd Və-

hib paşa.
Kalosovski 428.
Kandilaki: Gürcüstan ordusu zabitlərindən. 353.
Kantemirov, Əlixan Qadoyeviç (1889-1963): Dağlılar Respublikasının siyasi xadimi və diplomatı. Milliyyətcə osetindir. Peterburq və Kiyev Universitetlərində təhsil almışdır. Zaqafqaziya Seyminin üzvü, Dağlılar Respublikasının Azərbaycandakı diplomatik nümayəndəsi olmuşdur. 405.
Kartsivadze, Nikolay İotamoviç (1884-1937). Gürcüstanın ictimai xadimi və diplomatı. Ali hüquq təhsili almışdır. Menşeviklərin Gürcüstandakı rəhbərlərindən biri idi. Gürcüstanın Azərbaycan Cümhuriyyətindəki siyasi nümayəndəsi təyin edilmişdi. 1937-ci ildə Sovet rejimi tərəfindən həbs edilərək güllələnmişdir. 215, 217.
Kazım Nəcəf oğlu: Bakı sakini. 351, 352.
Kazımi, Mirmahmud (yaxud Mirmahmud Kazımlı; Mirmahmud Kazımovski; 1882-1940): Azərbaycan aktyor, rejissor və dramaturqu. 294.
Kazımov: Əmək Nazirliyi dəftərxanasının katibi olmuşdur. 104.
Kazımov, Ağahüseyn (1882-1937): Bakıda fəaliyyət göstərmiş həkim. Azərbaycan SSR-in ilk Səhiyyə komissarı olmuşdur. Stalin rejimi tərəfindən güllələnmişdir. 17, 37, 58, 78, 97, 114, 133, 150, 166, 184, 239, 260, 279, 297, 317, 335, 354, 373
Kazımzadə, Abbasqulu (1882-1947): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 36, 37, 140, 190, 304.
Kazımzadə, Səməd Mənsur (yaxud Kazımov; 1879-1927): Azərbaycan şairi. 389.
Kenisq: Azərbaycandakı ingilis ordusunun zabiti; mayor. Ərzaq komissarı olmuşdur. 408.
Ketsxeveli: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyində şöbə müdiri olmuşdur. 346.
Kərəm Kazım oğlu: Bülbülə kəndinin sakini olmuşdur. 257
Kərim Teymur oğlu: Qusar sakini. 113.
Kərimov, Abbasəli: bax. Kərimzadə, Abbasəli
Kərimzadə, Abbasəli: Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. 147, 196.
Kərimzadə, Mirzəağa: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin idarə heyətinin sədri olmuşdur. 298, 317.
Kiçikxanov, Bayram Niyazi oğlu (yaxud Kiçikxanlı; 1889-1922): Azərbaycanın siyasi xadimi. Zaqatalada maarif müfəttişi işləmişdir. Zaqataladan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, eyni zamanda Parlamentin katibi olmuşdur. "Əhrar" partiyasının üzvü idi. 49, 82, 239, 272, 352, 378.
Killigil, Nuri: bax. Nuri paşa.
Klemanso, Jorj [Georges Clemenceau; 1841-1929]: Fransanın dövlət xadimi. 1906-1909 və 1917-1920-ci illərdə Baş Nazir olmuşdur. 43, 156, 193, 195, 253, 254, 327, 328, 344, 404, 423.
Klenevski, Viktor Viktoroviç (1883 - ?): Milliyyətcə polyak olan Klenevski Slavyan-Rus Cəmiyyətindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, 1919-cu ilin mart-dekabr aylarında Sosial Təminat naziri olmuşdur. 227.
Koçerenko Konstantin 390.
Kokerell, F. P.: Antanta dövlətlərinin Bakıdakı polis müdiri olmuşdur. 237.
Kolber, Peter 144
Kolçak, Aleksandr Vasilyeviç (1874-1920): Rusiyanın hərbi və siyasi xadimi; admiral. Ağqvardiyaçılar hərəkatının başçısı, Rusiyanın Ali rəhbəri (noyabr 1918 – fevral 1920) və Rus ordusunun Ali Baş komandanı (noyabr 1918 – yanvar 1920) olmuşdur. 43, 64, 65, 66, 102, 179, 195,
Kolesnikov, İvan Nikiforoviç (1860-1920): Rusiyanın hərbi xadimi; general-mayor. Birinci Dünya müharibəsində iştirak etmiş,





1918-ci ildə Könüllü orduya daxil olmuş, Terek kazaklarının komandiri təyin edilmişdir. 144
Konde 46
Konev (general) 200, 218.
Konovalov, Fyodor 390.
Kopelioviç, Samuil İzrailoviç: Bakıda fəaliyyət göstərmiş həkim. 17, 37, 58, 78, 97, 114, 133, 150, 166, 240, 260, 278, 297, 316, 335, 354, 373.
Kotsev, Pşemaxo Tamaşeviç (1884-1962): Şimali Qafqazın siyasi xadimi; Dağlılar Respublikasının Baş naziri olmuşdur. 33, 66, 67, 124.
Kozlovski: hərbi xadim. 296.
Köçərli, Firidun bəy (1863-1920): Azərbaycanın görkəmli maarif xadimi, ədəbiyyatşünası və yazıçısı. Qori Müəllimlər Seminariyasını bitirmişdir. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək müstəqil bir seminariyaya çevirmiş və bu seminariyanın direktoru olmuşdur. Azərbaycan Milli Şurasının üzvü kimi İstiqlal Bəyannaməsini imzalayanlar arasında yer alan Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixinə dair əsərləri xüsusilə dəyərlidir. Bolşeviklər tərəfindən güllələnmişdir. 82.
Krasnov, Pyotr Nikolayeviç (1869-1947): Rusiyanın hərbi xadimi, general. Don kazaklarının atamanı olmuşdur. 50, 60.
Kress, fon: bax. Kressenşteyn.
Kressenşteyn, Kress fon [Kreß von Kressenstein] (1870-1948): Almaniyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsində Osmanlı ordusunda xidmət etmiş, 1918-ci ildə Gürcüstana ezam edilmişdir. Müharibədən sonra Almaniya ordusunda xidmətini 1929-cu ilə qədər davam etdirmişdir. 238.
Krılov, İvan Andreyeviç (1769-1844): əsasən təmsilləri ilə məşhur olan rus şairi. 141.
Kruten: Türküstan Hökumətinin Hərbi naziri olmuşdur. 156.
Ksenofon (e. ə. V-IV əsrlər): qədim yunan tarixçisi və yazıçısı. 47
Kujim, Vasili Mixayloviç: Bakı ukraynalıları Radası tərəfindən Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdir. 82, 379, 395, 402.
Kumilov (general) 200.
Kuroçkin, Aleksandr Timofeyeviç 392.
Kuropatkin (general) 25
Qacar: Azərbaycanın hərbi xadimi; general-mayor. 420.
Qacar, Məhəmməd Mirzə (1872-1920): Azərbaycanın hərbi xadimi, general-mayor. Azərbaycan Cümhuriyyəti ordusunda polkovnik rütbəsi ilə xidmət etməyə başlamış, 1919-cu ilin iyun ayında general-mayor rütbəsi almışdır. 420, 434.
Qaçaq Ələkbər: Gəncədə qaçaqlıq etmişdir. 120.
Qaçaq Qəmbər: Gəncədə qaçaqlıq etmişdir. 120.
Qaçaq Qənbər: bax. Qənbər Tağı oğlu.
Qaçaq Yunis: Cümhuriyyət dövründə Azərbaycanın cənub bölgələrində fəaliyyət göstərmiş qaçaq. 36, 39.
"Qaf. Əlif. Qaf.": "Azərbaycan" qəzetində imza. 57.
Qambaşidze, David (? - 1946): Gürcüstanın siyasi xadimi və diplomatı. 1918-ci ilin noyabrından 1921-ci ilin fevralına qədər Gürcüstanın İngiltərədə diplomatik nümayəndəsi olmuşdur. 131.
Qanem, Çakri 231.
Qaplanov, Rəşid xan (1883-1937): Azərbaycanın və Dağıstanın siyasi xadimi. Kumık əsillidir. Sorbon Universitetinin (Paris) Hüquq fakültəsini bitirmişdir. İstanbulda müxtəlif təhsil qurumlarında, o cümlədən İstanbul Universitetində dərs demişdir. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Dağlılar Respublikasının Daxili İşlər naziri olmuşdur. Dağıstan Denikin qoşunları tərəfindən işğal edildikdən sonra Azərbaycana gəlmiş, əvvəlcə Maarif və Dini Etiqad

(aprel-dekabr 1919), sonra Maliyyə (dekabr 1919 – aprel 1920) naziri olmuşdur. 1937-ci ildə güllələnmişdir. 66

Qaraağazadə, Əhməd Həmdi (1893-1928): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 35, 89, 291, 327, 408, 415.

Qarabəyli, Qara bəy (1873-1953): Azərbaycanın ictimai-siyasi xadimi, eyni zamanda həkim və jurnalist; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü. "Difai" partiyasının rəhbərlərindən, "İttihad" partiyasının sədri olmuşdur. "Həyat", "İrşad", "Kaspi" kimi bir sıra nəşrlərlə əməkdaşlıq etmişdir. 3, 83, 117, 118, 142, 143, 207, 225, 228, 229, 244, 246, 258, 259, 269, 304, 419.

Qaraxanov (general) 95.

Qarayev, Əbülfəz (1885-1952): Azərbaycanlı həkim. Odessada Novorossiya Universitetini bitirmişdir. Bakıda müxtəlif xəstəxanalarda uşaq xəstəlikləri mütəxəssisi kimi çalışmış, eləcə də elmi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 313

Qarayev, Əliheydər (1896-1938): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonar Bakı Sovetinin sədri, Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi Dəniz İşləri xalq komissarı, Əmək xalq komissarı və Ədliyyə xalq komissarı olmuş, bir sıra digər vəzifələrdə işləmişdir. 1937-ci ildə həbs edilmiş, 1938-ci ildə güllələnmişdir. 6, 158, 370, 371, 403, 430.

Qardaşov, Aslan bəy (1866-1920): Azərbaycan Cümhuriyyətinin dövlət xadimi. "Əhrar" partiyasının liderlərindən biri, Milli Şuranın və Parlamentin üzvü, Əkinçilik və Dövlət Əmlakı naziri olmuşdur. 5, 120, 230, 249, 269, 270, 301, 302, 352, 401, 403.

Qarxunlu Əşrəf bəy: bax. Tağıyev, Əşrəf bəy.

Qarqaleteli (polkovnik) 425.

Qasım (Məşhədi Qasım): Göyçə mahalının Daşkənd kəndinin sakini. 29.

Qasım Qəmbər oğlu: Gəncə sakini. 96.

Qasımov, Cəfər: Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqının üzvü olmuşdur. 313.

Qasımov, Hacı İbrahim: bax. Qasımzadə, Hacı İbrahim.

Qasımov, Qasım: bax. Qasımzadə, Qasım.

Qasımzadə, Hacı: Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 147.

Qasımzadə, Hacı İbrahim: "Bəsirət" qəzetinin baş redaktoru olmuşdur. 51.

Qasımzadə, Qasım (yaxud Qasım Qasımov; 1889-1959): Azərbaycanın ictimai xadimi. Bakı Şəhər Bələdiyyəsinin və "Nicat" cəmiyyətinin sədri olmuşdur. Aprel işğalından sonra mühacirətə getmişdir. 146, 147, 150, 195, 196, 244.

Qasımzadə, M. Ə.: bax. Qasımzadə, Muradəli.

Qasımzadə, Muradəli: Azərbaycan Şeyxülislamlıq İdarəsinin müsahibi olmuşdur. 147, 223.

Qaşiyev, F.: Qusarın Həzrə dairəsində pristav müavini olmuşdur. 112.

Qayıb Xanşərif oğlu: Qusar sakini. 113.

Qayıbov: Tərtər camaatının nümayəndəsi olmuşdur. 230.

Qayıbov, Cahangir: Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqının üzvü olmuşdur. 313.

Qayıbov, Məhəmmədağa 235

Qazızadə, Gövhər xanım 335.

Qəbulov, Abdulla əfəndi (yaxud Qəbulzadə; 1853-1943): Zaqatala nahiyəsindən Azərbaycan Parlamentinin üzvü olmuşdur. 82, 379, 402.

Qədiməli Sultan oğlu: Maştağa sakini. 409.

Qədirzadə, Ağa: Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 147.

Qəhrəman əfəndi: Axısxanın ictimai xadimi. 93.

Qəmər xanım: aktrisa. 294.

Qənbər Əli oğlu: "Azərbaycan" qəzetinə Tovuz-Qazax zonasından məktub yazmışdır. 367.

Qənbər Hüseyn oğlu: İran təbəəsi; Bakı Nef Cəmiyyətinin mədənlərində işləmişdir. 257.

Qənbər Tağı oğlu: Gəncə sakini; Qaçaq Qənbər kimi tanınmışdır. 259.

Qənizadə (doktor) 298, 317, 372, 378.

Qənizadə, Əbdülhəmid bəy (yaxud Həmid bəy Qənizadə): Azərbaycanlı həkim. Ağdamda işləmişdir. Azərbaycan Hökuməti tərəfindən Naxçıvan və Şərur-Dərələyəz qəzalarındakı qaçqınlara yardım etmək üçün göndərilmişdir. 299.

Qənizadə, Sultanməcid Murtuzəli oğlu (1866-1938): Azərbaycanın ictimai-siyasi xadimi; yazıçı, pedaqoq və publisisti. Tiflis Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 6, 141, 162, 361, 371, 375, 377.

Qəribov, Yusif: Lənkəran camaatının vəkili olmuşdur. 36, 133.

Qirişqori, Y. A.: həkim. 413, 432.

Qlazenap, Qroqori İvanoviç (1751-1819): Rusiyanın hərbi xadimi, general-leytenant. 106, 107.

Qnesin, F: Zakaspiysk Müvəqqəti Hökumətinin Bakıdakı hərbi nümayəndəsi. 362, 374.

Qolden, Edvard: ingilis maliyyəçisi. 24, 89.

Qolovin: Ufa Hökumətinin nümayəndəsi olmuşdur. 290.

Qrodzinski: Türküstan Hökumətinin Daxili İşlər naziri olmuşdur. 156.

Quan 193.

Quba 4, 100, 105, 106, 107, 109, 112, 113, 119, 120, 162, 176, 185, 202, 209, 221, 226, 247, 256, 257, 269, 270, 293, 297, 392, 409, 410.

Qudoviç, İvan Vasilyeviç (1741-1820): Rusiyanın hərbi xadimi; general-feldmarşal. 107.

Qukasov: Bakıda Mariinski (indiki Rəsul Rza) küçəsində dükanı olmuşdur. 314.

Qulamhüseyn Balahüseyn oğlu: Balaxanı kəndinin sakini olmuşdur. 257.

Qulamov, Əli Qulam oğlu: Bakı həbsxanasında məhkum olmuşdur. 409.

Quliyev, İmamqulu 96.

Qulyakoviç: Bakıda, Balaxanı-Sabunçu dairəsinin polis müdiri olmuşdur. 350.

Qurban Allahverdi oğlu: Tərtər sakini. 149.

Qurbanzadə, Səfər: "Müsavat" partiyasının Tağıyev fabrikindəki şöbəsinin sədri olmuşdur. 109.

Qvardjaladze, Konstantin Yeqoroviç (1883-1969): Gürcüstanın siyasi xadimi; Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. 131.

Qvinner, Artur fon [Arthur von Gwinner; 1865-1931]: Almaniyanın siyasi xadimi və bankiri. 24

Larionov, Pavel Averyanoviç: Bakıda işləmiş həkim. 167, 201, 260, 279, 355, 373, 394, 433.

Laurens, Tomas Edvard [Thomas Edward Lawrence; 1888-1935]: Britaniyalı arxeoloq, casus və diplomat. 232.

Lenin, Vladimir İliç (1870-1924): Rus inqilabçı və marksist. Əsl soyadı Ulyanov idi. Rusiyada 1917-ci il Oktyabr inqilabının təşkilatçısı və rəhbəri, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) qurucusu və SSRİ Nazirlər Sovetinin ilk sədri olmuşdur. 65, 66, 211, 424.

Leontyeviç, Aleksandr Konstantinoviç (? - 1920): Cümhuriyyətdən əvvəl Bakı Şəhər Dumasının üzvü; Mərkəzi Ev Komitəsinin təsisçilərindən biri və rəhbəri olmuşdur. 1920-ci ildə bolşeviklər tərəfindən güllələnmişdir. 349.

Ləmbəranski, Cəmil bəy: bax. Lənbəranski, Cəmil bəy.

Lənbəranski, Cəmil bəy (1884-1959): Azərbaycanın ictimai-siyasi xadimi; həkim. Kiyevdə tibb təhsili almış, Azərbaycanın müxtəlif yerlərində həkim kimi işləmişdir. Cavad qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 82, 358.

Libava: bax. Liepaya.

Libknext, Karl [Karl Liebknecht; 1871-1919]: Almaniya və beynəlxalq fəhlə hərəkatının fəal iştirakçısı, Almaniya Kommunist Partiyasının banilərindən biri. 241.

Lizqar, Konstantin Nikolayeviç: Slavyan-Rus Cəmiyyətinin üzvü; Azərbaycan Cümhuriyyətinin Ərzaq naziri olmuşdur. 317, 336, 347, 349, 374.

Lloyd Corc, Devid [David Lloyd George; 1863-1945]: Britaniyalı siyasətçi. 1905-1908-ci illərdə Ticarət naziri, 1908-1915-ci illərdə Maliyyə naziri, 1915-1916-cı illərdə Hərbi nazir olmuşdur. 6 dekabr 1916 – 19 oktyabr 1922 tarixləri arasında Britaniyanın Baş Naziri vəzifəsini tutmuşdur. 102, 327, 345, 423.

Lodj, Henri Kebot [Henry Cabot Lodge, 1850-1924]: Amerikanın siyasət xadimi. 144, 152.

Lopatinski: Türküstan Hökumətinin Dövlət Müfəttişi olmuşdur. 156.

Lope de Veqa [Lope de Vega; 1562-1635]: ispan dramaturqu, yazıçısı və şairi. 46

Lüksemburq, Roza [Rosa Luxemburg; 1871-1919]: Almaniyanın polyak əsilli filosofu, iqtisadçısı və publisisti; marksizm nəzəriyyəçisi. 241.

Lütfəli Fətəli oğlu: Qusar sakini. 113.

Lütfəliyev, Ələkbər 263, 281.

Lütfəliyev, Ələsgər 263, 281.

Lütfəliyev, Əliməhəmməd 263, 281.

Lütfəliyev, Xaliq 263, 281.

Lütfəliyev, Vahab 281.

Lvov, Georgi Yevgenyeviç (1861-1925): Rusiyanın siyasi xadimi. 1917-ci ilin mart-iyul aylarında Müvəqqəti Hökumətin başçısı olmuşdur. 123.

Lyubimov: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyində işləmişdir. 346.

"M. Ə.": "Azərbaycan" qəzetində imza; bax. Rəsulzadə, Məhəmməd Əmin.

"M. H-zadə": "Azərbaycan" qəzetindəki imzalardan. 250.

Maçabili: polkovnik; Gürcüstan ordusunda xidmət etmişdir. 353.

Mahmud Kamil paşa (1880-1920): Osmanlı dövlətinin hərbi xadimi. Balkan müharibələrində, Birinci Dünya müharibəsində iştirak etmişdir. 255.

Mahmud Məhəmməd oğlu 109.

Mahmud Salman oğlu: "Müsavat" partiyasının Tağıyev fabrikindəki şöbəsinin katibi olmuşdur. 109.

Mahmudbəyov, Ağalar bəy 235, 313.

Mahmudbəyov, Həbib bəy (1864-1928): Azərbaycan maarifçisi. Şamaxıda anadan olmuş, Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Bakıda pedaqoji fəaliyyətlə məşğul olmuş, bir müddət Sosial Təminat Nazirliyində işləmişdir. 16, 51, 130, 135.

Mahmudbəyov, Lətif: doktor. 235, 313.

Mahmudov, Mustafa (1878-1937): Azərbaycanın siyasi xadimi. Qori seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. Rusiya II Dövlət Dumasının, Azərbaycan Milli Şurasının və Parlamentinin üzvü olmuşdur. Sovet rejimi tərəfindən repressiyaya məruz qalmış, güllələnmişdir. 320, 401.

Mahmudzadə, İsmayıl 37, 59, 79, 98, 134, 167.

Makarenko, Andriy Qavriloviç (1885-1963): Ukraynanın siyasi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının üzvü olmuşdur. Mühacirətə getmişdir. 103.

Makarov: Lənkəranda ermənilərdən ibarət hərbi dəstənin başçısı olmuşdur. 34, 353.

Makayev, Avel Qavriloviç (yaxud Makaşvili; 1860-1920): Rusiyanın, Gürcüstanın və Azərbaycanın hərbi xadimi; general-mayor.





Gürcü zadəganları nəslinə mənsub idi. Birinci Dünya müharibəsində rus ordusunun zabiti kimi iştirak etmiş, Oktyabr inqilabından sonra istefaya çıxmışdır. 1918-ci ildən Gürcüstan ordusunda xidmət etməyə başlamış, 1919-cu ilin avqust ayından Azərbaycan Cümhuriyyətinin ordusunda xidmətə qəbul edilmişdir. 125.

Makinski, Abbasəli bəy (1888-1938): Azərbaycanlı hüquqşünas. Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Cümhuriyyət dövründə müxtəlif dövlət qurumlarında hüquq məsləhətçisi və xüsusi tapşırıqlar üzrə məmur kimi fəaliyyət göstərmişdir. 1938-ci ildə güllələnmişdir. 317, 336, 348, 374.

Makinski, Teymur bəy (1874-?): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Bir müddət Ədliyyə naziri vəzifəsini tutmuş, daha sonra Ermənistan Hökuməti yanında Azərbaycanın diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 82

Maklakov, Vasili Alekseyeviç (1869-1957): Rusiyanın siyasi xadimi. Dövlət Dumasının üzvü olmuşdur. Müvəqqəti Hökumət tərəfindən Parisə səfir təyin edilmiş, fəqət vəzifəsini ifa etməyə başlaya bilməmişdir. Mühacirətə getmişdir. 156.

Maksimov (general) 296.

Maqomayev, Müslüm (1885-1937): Azərbaycanlı bəstəkar və ictimai xadim. Milli musiqinin inkişafında müstəsna xidmətləri olmuşdur. 38, 115, 151, 294.

Malxazyan, Arşak İoanesoviç (yaxud Malxazov): "Daşnaksutyun" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 379, 399, 402.

Malışev: Bakıda polismeyster müavini olmuşdur. 313.

Mallaçı-xan, Bahadır bəy: Azərbaycanın və Dağıstanın ictimai-siyasi xadimi. 1913-cü ildə Bakıda Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri olmuşdur. Dağlılar Respublikası Hökumətində Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. 181, 381, 382.

Mamulaşvili: Gürcüstan ordusu zabitlərindən. 353.

Manatov, Şərif (1887-1936): Başqırd ictimai-siyasi xadimi; Başqırd milli hərəkatının liderlərindən; şərqşünas. 1917-ci ilin iyul və avqust aylarında keçirilən I və II Ümumbaşqırd qurultaylarında milli hərəkata rəhbərlik etmək məqsədi ilə təsis edilən Başqırd Mərkəzi Şurasının sədri olmuşdur. 1918-ci ildən bolşeviklərə qoşulmuş, Türkiyə Kommunist Partiyasının qurulmasına yardım etmək məqsədi ilə bu ölkəyə ezam edilmişdir. 341, 356.

Manukyan, Aram (yaxud Sərkis Ovanesyan; Serj Ovanesyan; 1879-1919): Ermənistanın siyasi xadimi, Daşnaksutyun partiyasının üzvü. Türkiyə ərazisindəki erməni üsyanlarının rəhbərlərindən biri olmuşdur. Ermənistan Respublikasının ilk Daxili İşlər naziri, sonrakı dövrdə Əmək naziri və Müdafiə naziri olmuşdur. 77.

Marağayi, Məhəmməd Səidülvüzəra: İranın Azərbaycandakı konsulu olmuşdur. 429.

Mariya Aleksandra [Marie Alexandra; 1875-1938]: 1914-1927-ci illərdə Rumıniya kraliçası olmuşdur; Rumıniya kralı I Ferdinandın arvadı idi. 298.

Marks, Karl (1818-1883): Alman filosofu, iqtisadçısı və sosioloqu. 371, 375.

Martınov, Pyotr İvanoviç (1867 - ?): polkovnik; 1909-1916-cı illərdə Bakının Bələdiyyə sədri olmuşdur. 53.

Masbalyan, Avanes-xan: İran ermənilərindən. 422.

Maslov: Batumidəki Rus Milli Şurasının sədri olmuşdur. 87, 113.

Matseyevski: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyində Maliyyə şöbəsinin

müfəttişi olmuşdur. 346, 348.
Matyuşkin, Mixail Afanasyeviç (1676-1737): Rusiyanın hərbi xadimi; general. 105.
Mazniaşvili, Georgi İvanoviç (1872-1937): Gürcüstanın hərbi xadimi, general. Abxaziyanın, daha sonra Tiflisin general-qubernatoru olmuş, Ermənistanla müharibədə Gürcüstan qoşunlarının baş komandanı təyin edilmişdir. Gürcüstan Respublikasının süqutundan sonra həbs edilmiş, mühacirətə getmiş, ancaq yenidən vətəninə qayıtmış və 1937-ci ildə güllələnmişdir. 179, 199, 211, 219.
Mazniyev, Georgi İvanoviç: bax. Mazniaşvili, Georgi İvanoviç.
Mazurenko, Semyon Petroviç (1868-1937): Rusiyanın siyasi xadimi və diplomatı. 44.
Mdivani, Simon Qurgenoviç (1876-1937): Gürcüstanın siyasi xadimi, diplomat. Gürcüstan Təsisçilər Məclisinin, Milli Şurasının və Parlamentinin üzvü olmuşdur. Gürcüstanın Ermənistandakı ilk siyasi nümayəndəsi (səfiri) təyin edilmişdir. 163.
Mehdiqulu xan Cavanşir (1763-1845): İbrahimxəlil xan Cavanşirin oğlu, Qarabağ xanlığının sonuncu xanı olmuşdur. 188.
Mehdiyev, Abdulla 169.
Mehdiyev, Hacı Nağı 169.
Mehdiyev, Kəlbəli Hacı Nağı oğlu 169.
Mehdiyev, Mehdi 169.
Mehdiyev, Yusif 169, 196, 244.
Mehdizadə, Atamalı: “Müsavat” partiyasının Zabrat şöbəsinin katibi olmuşdur. 93.
Mehdizadə, Yusif: Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 147.
Mehmandarov, Səməd bəy (1856-1931): Azərbaycanın hərbi xadimi. Peterburqda hərbi məktəb bitirmiş, Çar Rusiyası ordusunda xidmət etmiş, Rusiya-Yaponiya müharibəsində göstərdiyi şücaətlərə görə mükafatlandırılmış, Birinci Dünya müharibəsində iştirak etmişdir. 1917-ci ilin fevral inqilabından sonra Rusiya ordusundan istefa vermişdir. Cümhuriyyət dövründə Azərbaycanın Hərbi naziri olmuş, ordu quruculuğu sahəsində böyük işlər görmüşdür. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən həbs edilmiş, azadlığa çıxdıqdan sonra müxtəlif vəzifələrdə işləmişdir. 420, 421, 434.
Meydan Süleyman oğlu: Alpan kəndinin (Quba rayonu) sakini. 409.
Meyson, Monq: İngiltərənin Qafqazdakı zabitlərindən, mayor. 127.
Məğfurə xanım (yaxud Mariya Frolovna Yermakova; 1901-1982): Azərbaycan teatr səhnəsinin ilk aktrisalarından biri olmuşdur. Əsl adı “Mariya” olsa da, səhnədə “Məğfurə” adıyla çıxış etmişdir. 294.
Məhəmməd Əli oğlu: İran təbəəsi; Bakı Neft Cəmiyyətinin mədənlərində işləmişdir. 257.
Məhəmməd Əmirhüseyn oğlu 390.
Məhəmməd Hacı Salah oğlu (Mirzə Məhəmməd): İmamqulukənd (Qusar rayonu) sakini. 409.
Məhəmməd Həsən oğlu: “Azərbaycan” qəzetinə Tovuz-Qazax zonasından məktub yazmışdır. 367.
Məhəmməd Peyğəmbər 79, 168, 365.
Məhəmməd Vəli oğlu (Məşhədi Məhəmməd Vəli oğlu): Gəncə qəzasının Dəllər kəndinin sakini. 16, 17
Məhəmmədağa Məşhədi Haşim oğlu: Aşağı Surra kəndinin sakini. 392.
Məhəmmədbəyov, Əhməd bəy: Xan Qərvəndi kəndinin sakini. 393.
Məhəmmədbəyov, Heybətqulu (yaxud Heybətqulu Məhəmmədbəyli; Məmmədbəyov; 1888-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin dekabrından 1920-ci ilin aprel ayına qədər Dövlət Nəzarəti naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən həbs edilmiş və güllələnmişdir. 359, 360, 379, 398.





Məhəmmədbəyov, Qazi Əhməd (1890-1937): Azərbaycanın siyasi xadimi. Novorossiya Universitetinin Hüquq fakültəsini bitirmişdir. Zaqafqaziya Seyminin, Milli Şuranın və Parlamentin üzvü olmuşdur. Repressiya qurbanı olmuşdur. 379, 402.
Məhəmmədcavad Cavad oğlu: Sayad Xızı icmasının nümayəndəsi. 411.
Məhəmmədəli Hacı Əhməd oğlu: sosialist; Zəyəm sakini. 366.
Məhəmmədəli Sidqi: bax. Sidqi, Məhəmmədəli.
Məhəmmədəli şah Qacar (1872-1925): Qacarlar sülaləsindən İran şahı; 1907-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 278.
Məhəmmədəmin Hacı Mənaf oğlu: Qusar sakini. 113.
Məhəmmədəşrəf Axund Məhəmmədəli oğlu (Molla Məhəmmədəşrəf): Sayad Xızı icmasının nümayəndəsi. 411.
Məhəmmədov, Ağa: Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsinin üzvü olmuşdur. 196.
Məhəmmədov, Ağa Qəni: Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsinin üzvü olmuşdur. 196, 244.
Məhəmmədov, Ağadadaş 137, 153.
Məhəmmədov, Ələkbər 137, 153.
Məhəmmədov, Hacıəli 36.
Məhəmmədov, Nəcəfqulu: “Şərq-Qafqaz Neft Ticarəti” şirkətinin müdiri olmuşdur. 137, 138, 153, 154, 183.
Məhəmmədova, Mina xanım: Nəcəfqulu Məhəmmədovun həyat yoldaşı olmuşdur. 137, 154.
Məhəmmədrəsul Hacı Qurban oğlu: Qusar sakini. 113.
Məhəmmədsadiq Haqverdi oğlu: Bakıda yaşayan İran təbəələrindən. 314.
Məhəmmədyar Xəlil oğlu: Qobu kənd sakini. 111.
Məhəmmədzadə, Həmid: Birinci Oğlanlar gimnaziyasının tələbəsi, Müsəlman Tələbələri İttifaqı Mərkəzi Komitəsinin sədri olmuşdur. 114, 335.
Məhəmmədzadə, Qəni: bax. Məmmədov, Qəni.
Məhəmmədzadə, Zülfüqar: Bakıda fəhlə təşkilatlarının işində fəal iştirak etmişdir. 161.
Məhməd Əmin (Soyadı qanunundan sonra “Yurdaqul” soyadını qəbul etmişdir; 1869-1944): Osmanlı Məclisi-Məbusanının və Türkiyə Böyük Millət Məclisinin üzvü olmuşdur. 228, 241.
Məhməd Səbahəddin: bax. Prins Səbahəddin.
Məhməd Şərif paşa (1865-1951): Osmanlı dövlətinin siyasi xadimi və diplomatı. 288.
Məhməd Vəhib paşa (Kaçı; 1877-1940): Türkiyənin hərbi xadimi; general. Qafqaz İslam Ordusunun da tabe olduğu Şərq Ordular Qrupunun komandanı idi. Türkiyədə soyadı qanunu çıxdıqdan sonra “Kaçı” soyadını almışdır. 208, 222, 233, 255.
Məlik-Mosyan 412.
Məlik-Yeqanov, Cavad bəy (1878-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin avqustundan 1920-ci ilin aprel ayına qədər Lənkəranın general-qubernatoru olmuşdur. 1930-cu ildə Sovet rejimi tərəfindən həbs edilmiş, 1937-ci ildə güllələnmişdir. 162, 190, 371, 372, 378, 399, 429.
Məlikabbasov, Bəhram bəy: Cavanşir və Gəncə qəzalarında qəza rəisi olmuşdur. 149.
Məlikaslanov, Xudadad bəy (1879-1935): Azərbaycanın dövlət xadimi. Peterburqda mühəndislik təhsili almışdır. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti hökumətində Nəqliyyat və Rabitə naziri, Poçt və Teleqraf naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra da bir sıra vəzifələrdə işləmişdir. Repressiyaya məruz qalmış və həbs düşərgəsində vəfat etmişdir. 84, 180, 205, 244, 320, 322, 339, 341.

Məmmədov, Qəni (yaxud Məhəmmədzadə): Azərbaycanlı xeyriyyəçi; pambıq ticarəti və gəmi nəqliyyatı ilə məşğul olmuşdur. 147.

Mənsur, Abdullah (714-775): Abbasi xəlifəsi; 754-775-ci illərdə hakimiyyətdə olmuşdur. 45

Mənuçöhr Əmir Ziya oğlu: İmamqulukənd (Qusar rayonu) sakini. 409.

Məsumzadə, Nəsrəddin: "Azərbaycan" qəzetində imza. 149.

Məzlum əfəndi: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 315.

Midhət Şükrü bəy: bax. Bleda, Midhət Şükrü.

Miklaşevski, Mixail Yevgeniyeviç 390

Miller, Borno Andreyeviç 392.

Miln, Corc [George Milne; 1866-1948]: Britaniyanın hərbi xadimi; feldmarşal. Birinci Dünya müharibəsindən dərhal sonra Balkanlarda və Qara dəniz regionunda Britaniya ordularının baş komandanı olmuşdur. 48, 93, 143, 188, 200, 333, 337.

Milyukov, Pavel Nikolayeviç (1859-1943): Rusiya siyasi xadimi, eyni zamanda tarixçi və publisist. Konstitusion-Demokratik Partiyanın (Kadetlər partiyası) liderlərindən biri idi. Müvəqqəti Hökumətdə (Rusiya) Xarici İşlər naziri olmuşdur. 3, 14, 195.

Mirbağırov, Mirabbas: bax. Mirbağırzadə, Mirabbas.

Mirbağırzadə, Mirabbas: Azərbaycanın publisisti və ictimai xadimi; eyni zamanda İrəvanda və Bakıda kitab ticarəti ilə məşğul olmuşdur. Dövrünün mətbuatında çoxsaylı yazılarla çıxış etmişdir. Əsasən tarix mövzusunda olmaqla bir neçə kitabın müəllifidir. Başçılıq etdiyi heyət Azərbaycan Cümhuriyyəti Hökumətinin Naxçıvanın problemləri ilə tanış olması və bu problemləri aradan qaldırmaq istiqamətində adımlar atılması baxımından çox önəmli rol oynamışdır. 30, 180, 186.

Mircəfərzadə, Axund Mirməhəmmədkərim 147, 196, 244.

Mirəli Miribrahim oğlu 390

Mirqasımov, Mir Əsədulla (1883-1958): cərrah. Odessada Novorossiya Universitetini bitirmişdir. Bakıda müxtəlif xəstəxanalarda işləmişdir. Azərbaycanda müasir tibb təhsilinin və elminin əsasını qoyanlardan biri kimi qəbul edilir. Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti olmuşdur. 167, 201, 260, 279, 313, 355, 373, 394, 433.

Mirməcid: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 77.

Mirmöhsün Mirqədir oğlu: Qaraməryəm kəndinin sakini. 111.

Mirzayans: bolşevik; Bakıda fəhlə hərəkatının fəal iştirakçısı olmuşdur. 162.

Mirzə Ələkbər: Birinci Oğlanlar gimnaziyasının müəllimi olmuşdur. 114.

Mirzə Hüseyn Axund Nəsir oğlu: müəllim. 365.

Mirzə Məsihi: Birinci Oğlanlar gimnaziyasının müəllimi olmuşdur. 114.

Mirzə Mirağa oğlu: Girli kənd sakini. 392.

Mirzəyev, Mirzə Şərif bəy: Azərbaycanlı müəllim, publisist, alim və ictimai xadim. Tiflisdə yaşayıb-yaratmışdır. 431.

Mirzəzadə, Əbdüləhəd: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 220.

Mitrofanov, Vasili Qriqoryeviç (1864 - ?): Bakıda işləmiş həkim. 167, 201, 260, 279, 355, 373, 394, 433.

Molla Nuri: Axısxanın ictimai xadimi. 93.

Molla Səid: Axısxanın ictimai xadimi. 93.

Molla Sibqətulla Şeyx Kərim oğlu: Qusarın camaat vəkili olmuşdur. 112.

Mövlazadə, Axund Məhəmmədhəsən (1843-1932): Azərbaycanlı din alimi. 1908-1909-cu illərdə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuşdur. 431.

Muelon 253.

Muxtar Səqəfi (622-687): Kərbəla hadisəsinin intiqamını almaq məqsədi ilə Əməvi xilafətinə qarşı üsyan qaldırmışdır. 375.

Muxtarov, Mirzə Saleh: həkim. Tiflisdə





Müsəlman Milli Şurası tərəfindən yaradılan Ruhani Komissiyasının üzvü olmuşdur. 431.

Muradxan Əhmədxan oğlu: Qusar sakini. 113.

Muradxanov: Tərtər camaatının nümayəndəsi olmuşdur. 230.

Muradov (polismeyster) 189, 190.

Musa əl-Hadi (764-786): Abbasi xəlifəsi; 785-786-cı illərdə hakimiyyətdə olmuşdur. 45

Mustafa əfəndi: Qafqazın müftüsü. Bax. Əfəndizadə, Mustafa.

Mustafa xan (1768-1844): sonuncu Şamaxı xanı. 106.

Müəllim Naci (1849-1893): Türk şair və yazıçısı; "Lüğəti-Naci" adlı osmanlıca lüğətinin müəllifi. 337.

Mürsəlzadə, Piri: "Müsavat" üzvü. 109, 277, 429.

Müznib, Əliabbas (Mütəllibzadə; 1883-1938): Azərbaycan yazıçısı və jurnalisti. Eyni zamanda ədəbiyyatşünas və tərcüməçi kimi də fəaliyyət göstərmişdir. 47, 375.

Nağıbəyov, Hacıbaba bəy: Şəki şəhərinin camaat nümayəndəsi olmuşdur. 26

Naşatir: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyi anbarlarının müdiri olmuşdur. 346.

Naurski 144.

Nazaryans: "Daşnaksutyun" partiyası Mərkəzi Komitəsinin üzvü olmuşdur. 102.

Nemanzadə, Ömər Faiq (1872-1937): Azərbaycanın publisist və pedaqoqu; ictimai-siyasi xadimi. Milliyyətcə Axıska türküdür. 30, 31, 39, 91, 93, 125, 126, 134.

Nəcəf Kərbəlayi Məhəmməd oğlu: Bakı sakini. 351.

Nəcəfzadə, Ağaverdi: Bakıda ev komitəsi səri olmuşdur. 368.

Nəcəfzadə, Əliverdi: "Azərbaycan" qəzetindəki imzalardan. 369.

Nəcməddin əfəndi 32.

Nəcməddin İsmayıl oğlu: Eynibulaq kəndinin (Siyəzən rayonu) kəndxudası olmuşdur. 409.

Nərimanbəyov, Haşım bəy Nəriman bəy oğlu (yaxud Nərimanbəyli; 1863-1942): Azərbaycanın maarif xadimi. Qori Seminariyasını bitirmiş, İrəvanda və Şuşada müəllim işləmişdir. Azərbaycan məktəbləri üçün başqa müəlliflərlə birgə tərtib etdiyi "Ana dili" kitabı İrəvanda və Tiflisdə çap edilmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü və Dövlət Nəzarəti naziri Nəriman bəy Nərimanbəyovun atasıdır. 131, 135.

Nərimanov, Əlimirzə: Tiflisdə Müsəlman Milli Şurası rəyasət heyətinin üzvü olmuşdur. 35.

Nərimanov, Nəriman (1870-1925): Azərbaycanın ictimai-siyasi xadimi və dövlət adamı; eyni zamanda yazıçı, publisist və həkim. 139

Nikolay II (1868-1918): Rusiya imperatoru; 1894-1917-ci illərdə hakimiyyətdə olmuşdur. 50, 54, 140, 258, 259, 332, 366, 367.

Nizami Gəncəvi (1141-1209): Dahi Azərbaycan şairi. 375.

Noske, Qustav [Gustav Noske; 1868-1946]: Almaniyanın siyasi xadimi; sosial-demokrat. 1919-1920-ci illərdə Müdafiə naziri olmuşdur. 254.

Novakovski, İlya: Bakıda cinayət üstündə tutulmuşdur. 352.

Nuri paşa (Killigil; 1889-1949): Osmanlı ordusunun general-leytenantı. Qafqaz İslam Ordusunun komandanı olmuşdur. 50, 140, 208, 222.

Nyu-York: Amerika Birləşmiş Ştatlarının ən böyük şəhərlərindən biri. 43, 144

Ohanesyan 214, 368.

Okinşeviç, Aleksandr İsidoroviç (1869 - ?): Bakıda işləmiş həkim. 167, 201, 260, 279, 355, 373, 394, 433.

Oqanesov: mühəndis; Ermənistan Dəmiryolları İdarəsinin rəisi olmuşdur. 411.

Olleqren, Vladimir Konstantinoviç (1867-1943): Bakıdakı Slavyan-Rus Cəmiyyətinin üzvü, 1916-1917-ci illərdə Bakı Bələdiyyəsi

sədrinin müavini olmuşdur. 82.
Orconikidze, Serqo (Qriqori Konstantinoviç; 1886-1937): gürcü inqilabçısı, bolşevik. 406.
Orta: Belçika nümayəndə heyətinin üzvü kimi Paris Sülh Konfransında iştirak etmişdir. 307.
Oruc Əsəd oğlu: Bakı ətrafında Qala kəndinin sakini. 5, 389.
Orucəliyev, Əlicabbar: Azərbaycanın maarif xadimi. Bakı Bələdiyyəsinin Məktəblər şöbəsinin sədri olmuşdur. 10, 129, 130, 212, 368.
Orucəlizadə, Əlicabbar: bax. Orucəliyev, Əlicabbar
Orucov, Atababa: Bakı sakini. 349, 355.
Orucov, Oruc (1878-1954): Azərbaycanlı publisist və naşir. "Həqiqət", "Günəş", "Yeni Həqiqət" qəzetlərinin naşiri olmuşdur. 1906-cı ildə qardaşları ilə birgə "Orucov qardaşları" mətbəəsini təsis etmişdir. 103, 404.
Osetski, Aleksandr Viktoroviç (1873-1936): Rusiya və Ukraynanın hərbi xadimi; general-mayor. Ukrayna Baş qərargahının rəisi olmuşdur. 180.
Osman: Dörd xəlifədən üçüncüsü. 79, 168.
Osman Qədir oğlu: Qusar sakini. 113.
Osman Nuri əfəndi: "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 183.
Ovsyaniko-Kulikovski, Dmitri Lvoviç: 1910-cu illərdə Bakı Bələdiyyə İdarəsinin üzvü, Bələdiyyənin Torpaq şöbəsinin rəisi olmuşdur. 53, 60.
Ozanyan, Andranik (1865-1927): Erməni hərbçi. Daşnaksutyun partiya-sının üzvü idi. Başçılıq etdiyi silahlı dəstələr Qarabağda, Zəngəzurdə və Türkiyənin şərqində dinc əhaliyə qarşı törədilən qırğınlarda xüsusilə fəal iştirak etmişdir. 48, 95, 187, 249, 272, 392.
Ömər: Dörd xəlifədən ikincisi. 79, 168.
Ömər Faiq: bax. Nemanzadə, Ömər Faiq.
Övliya Çələbi (1611-1684): məşhur türk səyyahı. Səyahətləri əsnasında gördüklərini on cildlik "Səyahətnamə"sində qələmə almışdır. 104.
Paderevski, İqnatsi Yan [Ignacy Jan Paderewski; 1860-1941]: Polşanın ictimai-siyasi xadimi və diplomatı; bəstəkar və pianoçu. 1919-cu ilin yanvar-noyabr aylarında Baş nazir olmuşdur. 9
Papyan, Abqar İvanoviç: "Daşnaksutyun" partiyasının üzvü; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 402.
Paronyan, Arşak: Erməni Milli Şurasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 198, 403.
Paşa Abbas oğlu: Koxanı kəndinin sakini. 351.
Paşazadə, Camal: Aktyorlar İttifaqının üzvü. 294, 334.
Pepinov, Əhməd bəy (yaxud Əhməd Cövdət Pepinov; 1893-1937): Azərbaycanın ictimai-siyasi xadimi; Azərbaycan Parlamentinin üzvü olmuş, Əmək və Əkinçilik naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir. 5, 6, 7, 82, 139, 158, 227, 245, 246, 247, 301, 322, 339, 340, 357, 361, 378, 398, 402.
Petlyura, Simon Vasilyeviç (1879-1926): Ukraynanın siyasi və hərbi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olmuşdur. 59, 103, 179, 180, 423.
Petro I: bax. Pyotr I.
Pənah Həsən oğlu (Molla Pənah): Sayad Xızı icmasının nümayəndəsi. 411.
Pənah xan (yaxud Pənahəli xan; 1693-1763): Qarabağ xanı. 1747-ci ildə Qarabağ xanlığının əsasını qoymuşdur. 188.
Pilsudski, Yuzef [Józef Piłsudski; 1867-1935]: Polşanın hərbi və siyasi xadimi; marşal. 14 noyabr 1918 – 9 dekabr 1922-ci il tarixlərində Polşa Respublikasının Sədri olmuşdur. 9
Pindar (e. ə. VI-V əsrlər): qədim yunan şairi. 47
Pirəli Xəlil oğlu: Maştağa sakini. 409.





Pirverdiyan, Anniske: Gürcüstan kəndinin sakini. 392
Pirverdiyan, Asanit: Gürcüstan kəndinin sakini. 392.
Pirverdiyan, Atvum: Gürcüstan kəndinin sakini. 392.
Pirverdiyan, Siranuş: Gürcüstan kəndinin sakini. 392.
Pirverdiyan, Suren: Gürcüstan kəndinin sakini. 392.
Pirverdiyan, Yelizaveta Poqosovna: Gürcüstan kəndinin sakini. 392.
Pişon, Stefan [Stéphen Pichon; 1857-1933]: Fransanın siyasi xadimi. 1906-1911-ci illərdə Xarici İşlər naziri olmuşdur. Birinci Dünya müharibəsinin sonlarında və Paris Sülh Konfransı dövründə aktiv fəaliyyəti ilə diqqəti cəlb etmişdir. 43, 345.
Platonova: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 18, 58, 97, 133, 166, 240, 279, 316, 355, 394.
Plavski: Gürcüstan ordusu zabitlərindən. 353.
Pliyev, Əbubəkir: inquşların camaat nümayəndəsi olmuşdur. 181, 195.
Pokrovski, Viktor Leonidoviç (1889-1922): Rusiyanın hərbi xadimi, general-leytenant. Birinci Dünya müharibəsinin və Rusiyada Vətəndaş müharibəsinin iştirakçısı olmuşdur. 25, 143, 364.
Polad Əlimurad oğlu: Qusar sakini. 113.
Popov, Vasili Sergeyeviç: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyində işləmişdir. 236, 346.
Prins Səbahəddin (Məhməd Səbahəddin; 1879-1948): Türkiyənin siyasi xadimi. Anası Osmanlı sultanı Əbdülməcidin qızı idi. 179.
Pripotnı, Vasili 390.
Prjevalski, Mixail Alekseyeviç (1859-1934): Rusiyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsi dövründə, 1917-ci ilin iyun-dekabr aylarında Qafqaz cəbhəsinin komandiri olmuş, daha sonra ağqvardiyaçılar hərəkatına qoşulmuşdur. 103, 223, 249, 276, 283, 294, 342, 343, 380.
Pşeniçnoy, A. 335
Pua-de-Bar: Fransanın Qafqazdakı hərbi nümayəndələrindən; kapitan. 77, 95.
Puankare, Raymon [Raymond Poincaré; 1860-1934]: Fransanın dövlət xadimi. 1912-1913-cü illərdə Baş nazir və Xarici İşlər naziri, 1913-1920-ci illərdə Prezident, 1922-1924-cü illərdə yenidən Baş nazir və Xarici İşlər naziri olmuşdur. 404.
Puşkin, Matvey Stepanoviç (1630-1706): dvoryan; müxtəlif yerlərdə namestnik və voyevoda olmuşdur. 116.
Pyotr I (1672-1725): Rusiya hökmdarı; 1682-1725-ci illərdə hakimiyyətdə olmuşdur. 105.
Radek, Karl (əsl adı Karol Sobelson; 1885-1939): siyasi xadim, publisist və diplomat; beynəlxalq sosial-demokratiya və kommunizm hərəkatının fəal üzvü olmuşdur. 232.
Radokini: Batumi Ərzaq idarəsində işləmişdir. 113.
Raqqi, Salvaqo 307.
Razin, Stepan (1630-1671): Don kazaklarının üsyançı rəhbəri. 104, 105.
Renodel, Pyer [Pierre Renaudel; 1871-1935]: Fransız sosalistlərindən. "L'Humanité" qəzetinin redaktoru, Parlamentin üzvü olmuşdur. 344, 356.
Rəhimxan Kərimxan oğlu: Qusar sakini. 113.
Rəhimli, D.: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyində karügzar işləmişdir. 355, 386, 414, 433.
Rəsul Baba oğlu: Qusar sakini. 113.
Rəsulzadə, Məhəmməd Əli (1884-1982): Azərbaycan Cümhuriyyətinin ictimai-siyasi xadimi, Parlamentin üzvü. Məhəmməd Əmin Rəsulzadənin əmisi oğlu idi. 1922-ci ildə mühacirətə getmişdir. 359.
Rəsulzadə, Məhəmməd Əmin (1884-1955): Azərbaycanın görkəmli dövlət xadimi, Cümhuriyyətin qurucularından biri. Azərbaycan Milli Şurasının və "Müsavat" partiyasının

sədri; eyni zamanda jurnalist və publisist. 2, 3, 6, 24, 64, 73, 107, 118, 134, 139, 140, 142, 151, 172, 184, 190, 191, 208, 225, 226, 227, 228, 229, 230, 241, 245, 246, 247, 266, 269, 271, 304, 305, 324, 341, 357, 361, 377, 378, 379, 399, 400.

Roxlin, Abram Veniaminoviç (1881-1941): Menşeviklərin Bakı komitəsinin üzvü, Sentrokaspi Diktaturasının Ərzaq komissarı, Bakı Şəhər Bələdiyyə Şurasının üzvü. Sovet dövründə Bakıda kommunal təsərrüfatı sahəsində işləmişdir. Casusluqda təqsirləndiriləərək 1939-cu ildə həbs edilmiş, 1941-ci ildə güllələnmişdir. 45, 161, 162, 371.

Romanko-Romanovski, Boris Stefanoviç (1870-1941): Rusiyanın hərbi xadimi; general-mayor. 1909-1916-cı illərdə Batum vilayətinin hərbi qubernatoru olmuşdur. Mühacirətə getmişdir. 88.

Ruxadze, Levan Porfiryeviç (1884-1937): Gürcüstanın siyasi xadimi. Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. 1937-ci ildə sovet rejimi tərəfindən güllələnmişdir. 93, 125, 126, 134.

Rüstəm Məşhədi Hüseyn oğlu: Göyçə mahalının Qaraiman kəndinin sakini. 131, 132, 164.

Rüstəmbəyli, Şəfi bəy (1893-1960): Azərbaycanın ictimai-siyasi xadimi. Kiyev Universitetinin Hüquq fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, “Azərbaycan” qəzetinin redaktorlarından biri olmuşdur. 5, 191.

Rüstəmzadə, Əbülqasım: “Müsavat” partiyasının Quba şöbəsinin sədri olmuşdur. 109, 297.

Ryabuşinski, Vladimir Pavloviç (1873-1955): Rusiyanın ictimai-siyasi xadimi, tacir və bankir. Ağqvardiyaçılar hərəkatını dəstəkləmiş, bolşeviklərə qarşı mübarizə aparmaq məqsədi ilə təşkil edilən bəzi diplomatik görüşlərdə iştirak etmişdir. 44, 59.

Rza Qulu oğlu: “Azərbaycan” qəzetinə Tovuz-Qazax zonasından məktub yazmışdır. 367.

Rzayev, Abuzər bəy Əliəsgər bəy oğlu (1876-1920): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Moskva Ali Texniki Məktəbini bitirmiş, Azərbaycanda neft mədənlərində mühəndis kimi işləmişdir. Gəncədən Azərbaycan Parlamentinə üzv seçilmişdir. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 302, 304, 305, 319, 340, 378.

Rzayev, Hüseynqulu: bax. Sarabski, Hüseynqulu.

Rzazadə, Süleyman: “Müsavat” partiyasının Əmirhacıyan şöbəsinin sədri olmuşdur. 109.

Saakyan, Avetik İvanoviç (1863-1933): Erməni siyasətçisi. “Daşnaksutyun” partiyasının ən fəal üzvlərindən biri olmuşdur. 1918-ci ilin avqustundan 1919-cu ilin avqustuna qədər Erməni Milli Şurasının sədri vəzifəsini tutmuşdur. Eləcə də Ermənistan Respublikası Parlamentinin sədri olmuşdur. 165, 315.

Saakyan, Sako: Sosialist-inqilabçı; Sentrokaspi Hökuməti İcraiyyə Komitəsinin üzvü, Bakı Sovetinin sədri olmuşdur. 5, 34.

Sadıqzadə, Hüseyn: bax. Seyid Hüseyn Sadiq.

Sadiq, Seyid Hüseyn: bax. Seyid Hüseyn Sadiq.

Sadiqbəyov: aktyor. 294.

Sadiqzadə, Əbdülcəlil: Qusarın camaat vəkili olmuşdur. 112.

Sadiqzadə, Qənbər 395.

Salahov 121.

Salarüddövlə: İran şahzadəsi. 183, 278.

Salehzadə, Məhəmmədəli: Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 147.

Samborus: Lənkərandakı dəstə başçılarından. 34

Samoylov, İvan: Bakıda küçədə güllə atdığı üçün həbs edilmişdir. 409.







Sanılı, Hacı Kərim (yaxud Sanıyev; 1878-1937): Azərbaycanın ictimai-siyasi xadimi, şair. Qori Seminariyasında təhsil almış, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Azərbaycan Parlamentinin üzvü olmuşdur. Repressiyaya məruz qalmışdır. 132, 135, 189, 205, 402.

Sarabski, Hüseynqulu (yaxud Sarablı; Hüseynqulu Rzayev; 1879-1945): Azərbaycan aktyoru. Azərbaycan Cümhuriyyətinin mədəni həyatında fəal iştirak edən Sarablının, Azərbaycan teatrının, eləcə də musiqisinin inkişafında misilsiz xidmətləri olmuşdur. 149, 294, 417.

Sazonov, Sergey Dmitriyeviç (1860-1927): Rusiyanın diplomatı. Bir sıra ölkələrdə səfir kimi işləmiş, 1910-1916-cı illərdə Xarici İşlər naziri olmuşdur. Rusiyanın cənubunda Xüsusi Şura Hökumətinin tərkibində yer almışdır. Mühacirətdə ölmüşdür. 43, 44, 179.

Semyonov, Sergey: Bakıda cinayət üstündə tutulmuşdur. 352.

Serebrenikov: Azərbaycanın hərbi xadimi; polkovnik. 420.

Sereteli, İrakli Georgiyeviç (1881-1959): Rusiya və Gürcüstanın siyasi xadimi. Rusiya imperiyası II Dövlət Dumasının üzvü olmuşdur. Gürcüstanın müstəqillik atkını imzalayanlardan biri idi. Gürcüstan Demokratik Respublikasının və Gürcüstan Sosial-Demokrat Partiyasının liderləri arasında yer almışdır. 1921-ci ildən mühacirətdə yaşamışdır. 422.

Serxalyev, Dmitr: Zaqafqaziya Sosialist-inqilabçılar komitəsinin Bakı nümayəndəsi. 5.

Servantes, Migel de [Miguel de Cervantes; 1547-1616]: ispan yazıçısı; məşhur “Don Kixot” romanının müəllifi. 46

Sesil, Robert [Robert Cecil; 1864-1958]: Britaniyanın ictimai-siyasi xadimi. Millətlər İttifaqının ideoloqlarından biri olmuşdur. Millətlər İttifaqının həyata keçirilməsindəki xidmətlərinə görə 1937-ci ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. 102, 193, 232.

Seyfi bəy: Türkiyənin hərbi xadimi. Baş Ştabın Kəşfiyyat şöbəsinin müdiri olmuşdur. 255.

Seyfulla Cabbar oğlu 36.

Seyfulla Həmşəri oğlu 390.

Seyid Hüseyn Sadiq (1887-1938): Azərbaycan yazıçısı, müəllimi, jurnalisti və naşiri. Sovet rejimi tərəfindən güllələnmişdir. 73.

Seyidəlizadə, Mirabbas: Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsinin kargüzarı olmuşdur. 196.

Seyidov, Əli 235

Seyidov, Mirhidayət bəy (1887-1919): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 139

Seyidov, Seyidəli: doktor; Bakı və Ətrafının Müsəlman Ziyalıları İttifaqının sədri olmuşdur. 313

Sədi Şirazi: XIII əsrdə yaşamış fars şairi. 151, 419, 434.

Səfərəlibəyov, Baba bəy 236.

Səfərəliyev, İsa bəy: Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 395.

Səfərəliyev, İsmayıl bəy (yaxud Səfərəlizadə): Azərbaycanlı xeyriyyəçi; Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. 147, 150, 196, 244.

Səfərəlizadə, İsmayıl bəy: bax. Səfərəliyev, İsmayıl bəy.

Səfərova, Dostu xanım 335.

Səfərzadə, Bəşir: “Azərbaycan” qəzetində imza. 387.

Səffah, Abdullah (722-754): Abbasi xəlifəsi; 750-754-cü illərdə hakimiyyətdə olmuşdur. 45

Səfikürdski, Aslan bəy (1881-1937): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuş, 3-cü hökumət kabinəsində Poçt-Teleqraf və Əmək

naziri, 4-cü kabinədə Ədliyyə və Əmək naziri vəzifələrini tutmuşdur. 421.
Səhəbli, Ələkbər: aktyor. 294.
Səlimov: Azərbaycanın hərbi xadimi; qərargah rəisi. 420.
Səlimov: Azərbaycanın hərbi xadimi; polkovnik. 420.
Sibiroviç, İ. Q.: Bakıda fəaliyyət göstərmiş həkim. 18, 37, 58, 78, 97.
Sidqi, Məhəmmədəli: Azərbaycan ziyalısı. 294.
Simonides (yaxud Keoslu Simonid; e. ə. VI-V əsrlər): qədim yunan şairi. 47
Simson: bax. Spayser-Simson, Ceffri.
Sinadze 93.
Sisianov, Pavel Dmitriyeviç (1754-1806): Rusiyanın hərbi xadimi, general. Gürcü əsilli idi. Rusiyanın Qafqazdakı ordularının Baş komandanı olmuşdur. 105, 106, 107, 116.
Smets, Yan Xristian [Jan Christiaan Smuts; 1870-1950]: Cənubi Afrikanın dövlət xadimi. Millətlər Cəmiyyətinin nizamnaməsinin hazırlanması prosesində iştirak etmişdir. 24, 102.
Smirnov, Vladimir Vasilyeviç: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyinin vəkili olmuşdur. 346, 347, 348.
Sokolov: Könüllü ordunun nümayəndəsi. 163.
Soqomonyan, Qayk 412.
Solon (e. ə. VII-VI əsrlər): qədim yunan siyasətçisi və şairi; qanunlar müəllifi. 47
Soltan Ağagül oğlu: Sayad Xızı icmasının nümayəndəsi. 411.
Sona xanım 137, 153.
Sona Məhəmmədağa qızı: Aşağı Surra kəndinin sakini. 392.
Sorokin: Vladiqafqazın hərbi komissarı olmuşdur. 425.
Spayser-Simson, Ceffri [Spicer-Simson, Geoffrey; 1876-1947]: Britaniya donanmasının zabiti. Paris Sülh Konfransında iştirak etmişdir. 8.
Srvandzyan, Hamazasp (1873-1921): “Daşnaksutyun” partiyasının liderlərindən, erməni qatil və terrorist. Türkiyənin Van şəhərində anadan olmuşdur. Gəncə, Şuşa, Quba, Bakı və başqa yerlərdə dinc Azərbaycanlı əhaliyə divan tutmuş, minlərlə dinc sakini qətl etmişdir. Bolşeviklər tərəfindən İrəvanda həbs edilmiş, həbsxanada öldürülmüşdür. 224, 241, 249, 272, 275, 280, 342, 343, 344.
Steqlandlitdel: İngiltərənin Qafqazdakı hərbi nümayəndələrindən. 392.
Stepanov: Türküstan Hökumətinin Dəmiryol naziri olmuşdur. 156.
Stepanov, Aleksandr: Bakıda, Milyutinski (indiki Tərlan Əliyarbəyov) küçəsində mağazası olmuşdur. 293.
Stivens: İngiltərə konsulu. 238.
Stolıpin, Pyotr Arkadyeviç (1862-1911): Rusiyanın dövlət xadimi. 1906-1911-ci illərdə Baş nazir və Daxili İşlər naziri olmuşdur. 14
Stuart: polkovnik; Antantanın Qafqazdakı nümayəndələrindən biri. 163.
Suxartsev, İvan Alekseyeviç (1881-1931): Bakı Kommunasında Nəqliyyat, Poçt və Teleqraf komissarı olmuşdur. 389.
Sultan Mahmud: Qaytaq xanı. 105.
Sultanov, Əliabbas 150, 196.
Sultanov, H.: Əkinçilik Nazirliyində işləmişdir. 185, 202, 221.
Sultanov, Xosrov bəy (1879-1943): Azərbaycan Cümhuriyyətinin siyasi və hərbi xadimi. Azərbaycanın İstiqlal Bəyannaməsini imzalayanlardan biri olan Xosrov bəy Sultanov Cümhuriyyət dövründə Hərbiyyə naziri, Kənd Təsərrüfatı naziri, Qarabağ general-qubernatoru kimi vəzifələr daşımışdır. Sovet işğalından sonra mühacirət etmişdir. 126, 127, 128, 187, 231, 276, 280.
Sübhanqulov: müəllim. Tiflisdə Müsəlman Milli Şurası tərəfindən yaradılan Ruhani Komissiyasının üzvü olmuşdur. 431.
Sürəyya xanım: aktrisa. 294.
Şaban Qurban oğlu: Axısxanın ictimai xadimi. 93.
Şahbaz Abbas oğlu: Sayad Xızı icmasının nümayəndəsi. 411.
Şahnəzərov: həkim. 336, 354, 393.
Şahtaxtınski, Həmid bəy (1880-1944): Azərbaycan Cümhuriyyətinin dövlət xadimi. Hüquq təhsili almış, maarif və məhkəmə sistemində işləmişdir. Maarif nazirinin müavini, Maarif naziri, Parlamentin üzvü olmuşdur. Repressiyaya məruz qalmış, sürgündə ölmüşdür. 82.
Şahvələdov, Hüseyn: “Azərbaycan” qəzetinə məktub yazmışdır. 96.
Şaiq, Abdulla: bax. Abdulla Şaiq.
Şamil (Şeyx Şamil; 1797-1871): Qafqaz dağlılarının rəhbəri, Şimali Qafqazda milli-azadlıq hərəkatının lideri. 32, 91, 270, 406.
Şatilov, Nikolay Pavloviç (1849-1919): Rusiyanın hərbi və siyasi xadimi; general. Qafqaz canişini Vorontsov-Daşkovun hərbi məsələlər üzrə köməkçisi vəzifəsini tutmuşdur. Rusiya Dövlət Şurasının üzvü olmuşdur. 238.
Şatilov, Vladimir Pavloviç (1855-1928): Rusiyanın hərbi xadimi, general. Könüllü ordunun Gürcüstandakı nümayəndəsi olmuşdur. Mühacirətə getmişdir. 179.
Şaumyan, Stepan (1878-1918): Erməni əsilli bolşevik, Bakı Kommunasının lideri. Bolşeviklərin və daşnakların 1918-ci ilin mart ayında Bakıda dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımına rəhbərlik etmişdir. 273, 274, 275, 370, 389.
Şexter, Z. A.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 115, 134, 150, 166, 184, 239, 260, 279, 297, 317, 335, 354, 373, 394, 413.
Şeydeman, Filipp [Philipp Heinrich Scheidemann] (1865-1939): alman sosial-demokrat, 1919-cu ilin fevral-iyun aylarında Veymar Respublikasının Baş naziri olmuşdur. 90, 232, 254, 308, 345, 346, 424.
Şeyxzamanov, Məhəmmədbağır: bax: Şeyxzamanzadə, Məhəmmədbağır.
Şeyxzamanzadə, Məhəmmədbağır bəy Saleh bəy oğlu (1880-1920): “Müsavat” partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 358, 378.
Şərəfəddin Hacı Veysəl oğlu: Azərbaycan Şeyxülislamlıq İdarəsinin karügzarı olmuşdur. 223.
Şərif bəy 255.
Şərif paşa: bax. Məhməd Şərif paşa.
Şərifov, Abbas: bax. Şərifzadə, Abbas Mirzə.
Şərifov, Hacıbaba: bax. Şərifzadə, Hacıbaba.
Şərifov, İsgəndər 433.
Şərifyan 165.
Şərifzadə, Abbas Mirzə (1893-1938): Azərbaycan aktyoru. “Səfa” və “Nicat” cəmiyyətlərinin truppalarında çıxış etmiş, “Hacıbəyli qardaşları müdiriyyəti”nə rejissor kimi dəvət edilmişdir. Azərbaycan teatr sənətinin inkişafında böyük xidmətləri olmuşdur. Sovet rejimi tərəfindən repressiyaya məruz qalmış, güllələnmişdir. 185, 202, 221, 294.
Şərifzadə, Hacıbaba (yaxud Hacıbaba Şərifov; 1895-1920): Azərbaycanın teatr aktyoru və rejissoru. 185, 202, 221.
Şərifzadə, İzzətulla: “Müsavat” partiyasının Bülbülə şöbəsinin sədri olmuşdur. 109.
Şıxəlibəyov, Asəf bəy: Azərbaycan Parlamentinin üzvü olmuşdur. 340, 398, 403.
Şıxlinski, Əliağa (1863-1943): Azərbaycanın hərbi xadimi. Rusiya imperiyası ordusunda general-leytenant rütbəsinə yüksəlmişdi. Azərbaycan Cümhuriyyəti ordusunun qurulmasında böyük xidmətləri olmuşdur. Azərbaycan Hərbi nazirinin müavini vəzifəsini tutmuşdur. 420.
Şibayev (mühəndis) 45
Şneyderman: hərbçi, podpolkovnik. 296.
Şpitalski: Azərbaycan Cümhuriyyəti Kənd Təsərrüfatı Nazirliyinin Torpaq Şöbəsinin müdiri olmuşdur. 185, 202, 221.
Şternin, Boris Moiseyeviç: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 17, 58, 97.

Şuljenko, Nikolay Nikolayeviç: Azərbaycan Cümhuriyyəti Ərzaq nazirinin vəkili olmuşdur. 348, 356.

Şükür Murad oğlu: Ramana kəndinin sakini. 351.

Şünasi, M.: "Azərbaycan" qəzetinə Göyçaydan yazı göndərmişdir. 238.

Şvets, Fyodor Petroviç (1882-1940): Rusiyanın və Ukraynanın ictimai-siyasi xadimi; geoloq. Kiyev Universitetinin professoru, Ukrayna Xalq Respublikası Direktoriyasının üzvü olmuşdur. Mühavirətdə elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 103.

Tağıyev, Ağazeynal: bax. Tağıyev, Zeynal.

Tağıyev, Əşrəf bəy (yaxud Qarxunlu Əşrəf bəy; 1867-1930): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 139, 402.

Tağıyev, Zeynalabdin: Azərbaycanlı milyonçu və xeyriyyəçi. 3, 4, 7, 27, 36, 57, 75, 82, 92, 109, 120, 121, 143, 147, 178, 180, 198, 251, 268, 277, 425, 426.

Tağıyev, Məhəmməd: Şuşa şəhər ərzaq komitəsinin sədri olmuşdur. 410.

Tağıyev, Məhəmmədhənifə 196

Taqianosov, Stepan Sergeyeviç: Bakı Birja Komitəsinin sədr, Bakıdakı Erməni Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuşdur. 198, 203, 402.

Taqianosov, Yervand: Daşnaksutyun partiyasının və Bakıdakı Erməni Milli Şurasının, həmçinin Azərbaycan Parlamentinin üzvü olmuşdur. 198, 203, 402.

Talıb Nəsib oğlu: "Azərbaycan" qəzetinə Tovuz-Qazax zonasından məktub yazmışdır. 367.

Talıb Rüstəm oğlu: Novo-Bayəzid mahalı müsəlman kəndlərinin vəkili olmuşdur. 219

Talışxanov, Mirhüseyn 36.

Tanailidi, Panfiliya (1891-1937): aktrisa. Milliyyətcə yunan olmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir. 294.

Tapdıq Xasməhəmməd oğlu: Girli kənd sakini. 392.

Tardyö, Andre [André Tardieu; 1876-1945]: Fransanın dövlət xadimi. Paris Konfransında iştirak etmişdir. Daha sonrakı dövrdə bir neçə dəfə Fransanın Baş Naziri olmuşdur. 345.

Tarhan, Əbdülhaq Hamid: bax. Hamid, Əbdülhaq.

Tarşteynbaum, İ. S.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 18, 58, 97, 133, 166, 240, 278, 316, 355, 373, 393, 432.

"Tavuslu": "Azərbaycan" qəzetinə Qazax-Tovuz zonasından xəbərlər yazmışdır. 199.

Temo, İbrahim (1865-1945): Türkiyənin siyasi xadimi. Osmanlı Demokrat Firqəsinin qurucusu olmuşdur. 330, 337.

Ter-Bağdasarov, A. A.: baytar. 167, 184, 239, 260, 279, 297, 316, 335, 354, 373, 394, 413, 433.

Ter-Stepanyan: Bakı İstiqrazi-Mütəqabilə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 395.

Terequlov, Neman əfəndi: Tiflisdə Müsəlman Milli Şurası tərəfindən yaradılan Ruhani Komissiyasının üzvü olmuşdur. 431.

Teymurxanov, Zübeyr (1868-1952): Şimali Qafqaz Dağlılar Respublikası Şurasının sədri olmuş, Şimali Qafqaz heyətinin tərkibində Paris Sülh Konfransında iştirak etmişdir. 1930-cu illərdə repressiyalara məruz qalmışdır. 32, 81.

Təkinski, Hüseyn xan 26

Təkinski, Məhəmməd xan 83, 312

Tiqranyan, Sirakan Tatesoviç (1875-1947): Ermənistanın siyasi xadimi. Daşnaksutyun partiyasının üzvü. Rusiya imperiyası II Dövlət Dumasının deputatı olmuşdur. 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinə qədər Ermənistan Respublikasının Xarici İşlər naziri vəzifəsini tutmuşdur. Sonrakı dövrdə Maarif naziri, Maarif və Mədəniyyət naziri olmuşdur. 1938-ci ildə həbs edilmiş, sürgündə ölmüşdür. 27, 331, 332.

Tirdiem 193.

Tislenko 120.





Tlexas, Murad Gəray bəy (1873-1920): Azərbaycan Cümhuriyyəti ordusunun general-mayoru. 420.

Tofiq Fikrət (1867-1915): məşhur türk şairi. Türkiyənin ədəbiyyat və incəsənətinə böyük təsiri olan "Sərvəti-fünun" ("Fənnlərin sərvəti") jurnalının baş redaktoru olmuşdur. 19, 73, 80.

Tomas, Albert [Albert Thomas; 1878-1932]: Fransanın siyasi xadimi, sosialist. 1916-cı ildə Fransanın Silahlanma naziri təyin edilmişdi. 337.

Tomson, Vilyam Montqomeri [William Montgomerie Thomson; 1877-1963]: Britaniya generalı. Bakının general-qubernatoru olmuşdur. 48, 74, 75, 110, 111, 143, 166, 181, 188, 220, 282, 284, 342, 343, 344, 369, 370, 371, 390, 406.

Torosyan: Ermənistanın Sosial Təminat naziri olmuşdur. 411.

Trotski, Lev Davidoviç (1879-1930): Rus inqilabçı, dövlət xadimi. Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti icraiyyə komitəsinin sədri, Sovet Rusiya-sının Xarici İşlər naziri, Rusiya və SSRİ-nin Hərbi İnqilab Sovetinin sədri və Hərbi Komissarı olmuşdur. 211, 212.

Tsaxakaya, Qriqori İvanoviç: Gürcü Milli Şurasından Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmişdir. 402.

Tunqusov: hərbçi, praporşik. 296.

Turxan paşa 345.

Uayt: Rusiyadakı ingilis zabitlərindən. 163, 179, 233.

Umanski: Bakı Müvəqqəti İcraiyyə Komitəsinin üzvü. 5

Umanski: Türküstan Hökumətinin Maliyyə naziri olmuşdur. 156

Usnitsev 45

Üsamə bin Məqəl: ərəb ədəbiyyatşünası. 45

Vahab Hacı Nəcəf oğlu (Məşhədi Vahab): Bakının Çəmbərəkənd məhəlləsinin sakini. 52.

Vanseviç, Stanislav: bax. Vonsoviç, Stanislav.

Varandiyan, Mikael: İran ermənilərindən. 422.

Vasilyev: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyinin hesabdarı olmuşdur. 346.

Venizelos, Elefterios (1864-1936): Yunanıstanın siyasi xadimi. 1910-cu ildən 1933-cü ilə qədər dəfələrlə (o cümlədən 1917-1920-ci illərdə) Baş nazir vəzifəsini tutmuşdur. 101, 193.

Vermişev, Xristofor Avvakumoviç (yaxud Vermişyants; 1863-1933): erməni ictimai xadimi. Tiflis Bələdiyyə İdarəsində bir sıra vəzifələr tutmuşdur. Bakıda rus dilində nəşr olunan "Baku" qəzetinin redaktoru olmuşdur. Ermənistanın Ərzaq naziri olmuşdur. 365, 375, 411.

Vəkilov, Məhəmməd ağa (qubernator) 139

Vəkilov, Məhəmmədrza ağa (1864-1944): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi, həkim. 83

Vəkilov, Mustafa ağa Məmməd ağa oğlu (1899-1943): Azərbaycan Cümhuriyyətinin Tiflisdəki nümayəndəliyində çalışmış, Parlamentin qərarı ilə ali təhsil almaq üçün xaricə göndərilmiş, Sarbonna Universitetinin Hüquq fakültəsini bitirmişdir. Sovet dövründə repressiyaya məruz qalmış, sürgündə vəfat etmişdir. 358, 378

Vələdzadə: Bakıda fəhlə hərəkatının iştirakçısı. 372.

Vəlibəyov 121.

Vəlibəyov, Abbas bəy 187, 259.

Vəlibəyov, İmamqulu bəy 187.

Vəzirxan Duraxan oğlu: Qusar sakini. 113.

Vəzirov, Cəmil bəy 235, 313.

Vəzirov, Yaqub: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyinin Mərkəzi Ərzaq Bürosunun vəkili olmuşdur. 313.

Vəzirov, Zeynal bəy (1854-1933): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 432.

Vəzirova, Sürəyya xanım 335.
Vilson, Vudro (Woodrow Wilson; 1856-1924): ABŞ-ın 28-ci prezidenti (1913-1921). I Dünya müharibəsinə son qoymaq üçün sülh müqaviləsi layihəsini (Vilson prinsiplərini) işləyib hazırlamışdır. 25, 64, 101, 102, 144, 193, 231, 252, 254, 288, 306, 308, 309, 318, 325, 326, 327, 328, 330, 337, 345, 422.
Vilyeqas, Antonio de [Antonio de Villegas; 1522-1551]: ispan yazıçısı və şairi. 46
Vinniçenko, Vladimir Kirilloviç (1880-1951): Ukraynanın ictimai-siyasi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olmuşdur. 103.
Vinoqradov, Mixail: Slavyan-Rus Cəmiyyətindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmişdir. 403.
Volınski, Artemi Petroviç (1689-1740): Rusiyanın dövlət xadimi və diplomatı. 105.
Vonsoviç, S. S.: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyində işləmişdir. 236, 402.
Vorontsov-Daşkov, İllarion İvanoviç (1837-1916): Rusiyanın dövlət xadimi. 1905-1915-ci illərdə Qafqaz canişini olmuşdur. Ermənilərə xüsusi rəğbəti ilə seçilmişdir. 273, 280.
Yadigarov: Bakıda polismeyster olmuş, bir müddət Bakı qalabəyisi (komendantı) vəzifəsini tutmuşdur. 312, 350.
Yalçın, Hüseyn Cahid: bax. Hüseyn Cahid Yalçın.
Yanovski, A. K. 430.
Yanuşaytis: bax. Yanuşaytis-Jeqota, Marian.
Yanuşaytis-Jeqota, Marian [Marian Januszajtis-Żegota; 1889-1973]: Polşanın hərbi xadimi; general-mayor. 1919-cu ilin yanvarında hərbi çevrilişə cəhd etmişdir. 9
Yefimov, A. S. 236.
Yekaterina II (1729-1796): Rusiya imperatriçası; 1762-1796-cı illərdə hakimiyyətdə olmuşdur. 105.
Yeqorov, Aleksandr 352.
Yermakova, Mariya Frolovna: bax. Məğfurə xanım.
Yevanqulov, Xristofor: Sosialist İnqilabçılar Partiyasının Bakı komitəsinin sədri. 5
Yurdaqul, Məhməd Əmin: bax. Məhməd Əmin.
Yuryev: Kənd Təsərrüfatı Nazirliyində işləmişdir. 185, 202, 221.
Yusif Hüseyn oğlu: “Azərbaycan” qəzetinə Tovuz-Qazax zonasından məktub yazmışdır. 367.
Yusifbəyli, Nəsib bəy (1881-1920): Azərbaycanın dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin qurucularından biri. Odessa Universitetinin Hüquq fakültəsində təhsil almışdır. 1917-ci ildə Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını qurmuşdur. Zaqafqaziya Seyminin yaradılmasında yaxından iştirak etmiş, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətində Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə və Xalq Maarifi naziri, Xalq Maarifi və Dini Etiqad naziri, Daxili İşlər naziri və Baş Nazir vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra qətlə yetirilmişdir. 21
Yusifxanlı, Həsənağa: bax. Yusifxanov, Həsənağa.
Yusifxanov, Həsənağa (yaxud Yusifxanlı): Maliyyə Nazirliyinin dəftərxanasında işləmiş, Bakı qazısının katibi olmuşdur. 182.
Yusifov, Əliheydər: Cavad qəzasının rəisi olmuşdur. 412.
Yusifzadə, Əbdürrəhim: “Müsavat” partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin katibi olmuşdur. 146, 298, 317.
Yusifzadə, Əli (1900-1937): Azərbaycanlı şair, publisist və mütəfəkkir. Şuşada doğulmuşdur. Cümhuriyyət Hökuməti tərəfindən xaricə təhsilə göndərilmişdir. 1937-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 21, 28, 51, 73, 78.
Zal Həmdulla oğlu: Əngilan kəndinin sakini olmuşdur. 257.
Zanqiyev: Qusarın pristavı olmuşdur. 113.
Zavalişin, İrinarx İvanoviç (1770-1821): Rusiyanın hərbi xadimi; eyni zamanda şair və yazıçı. 1805-1806-cı illərdə Rusların Xəzər yürüşünə başçılıq etmişdir. 105, 106.
Zavriyev, Akop (yaxud Yakov): Erməni siyasi xadimi. Petroqradda Hərbi Tibb Akademiyasını bitirmişdir. Xüsusi Zaqafqaziya Komitəsinin heyətinə daxil idi. Daşnaksutyun partiyasının fəal üzvlərindən idi. Rusiyadakı Erməni Milli Komitəsi adından Avropaya, oradakı erməni komitələri ilə əlaqə yaratmaq məqsədi ilə göndərilmişdi. 102.
Zeydan, Corci [1861-1914]: ərəb yazıçısı və publisisti. 46
Zeynal Xaspolad oğlu: Qusar sakini. 113.
Zeynalov, Ağazeynal 115, 133, 143.
Zimin: Türküstan Hökumətinin Xarici İşlər naziri olmuşdur. 156.
Ziya paşa (Əbdülhəmid Ziyaəddin; 1829-1880): Osmanlı imperiyasının dövlət xadimi, mütəfəkkir, şair və yazıçı. 20
Ziyadxanov, Adil xan (yaxud Ədil xan; 1877-1957): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Xarici İşlər nazirliyində işləmiş, Azərbaycanın İranda diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra bir müddət İranda, daha sonra Türkiyədə yaşamışdır. 10, 82, 192, 218.
Zizikski, Əli bəy (1876-1929): Azərbaycanın ictimai-siyasi xadimi. Bakı qubernatorunun müavini olmuş, Quba qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 82.
Zubov, Valerian Aleksandroviç (1771-1804): Rusiyanın hərbi xadimi, general. 105.

Korrektor: Azad Ağaoğlu
Kitab üzlüyü və tərtib: Fikrət Məlikov

**Nəşriyyat direktoru:** Rəhilə Soltanqızı
**Mətbəənin direktoru:** Zöhrab Vəlibəyli
**Texniki redaktor:** Ruslan Mahmudov

Çapa imzalanmışdır: 23.12.2022
Formatı 70x100 $^{1}/_{16}$. F.ç.v 30.5
Ofset kağızı, Ofset çapı. Səhifə sayı: 484
Tiraj: 300, Bakı-2022

**Hazır materiallar əsasında**
**Çaşıoğlu Eİ-MMC**
**mətbəəsində çap edilmişdir.**

ÇAŞIOĞLU

Bakı ş,. Mikayıl Müşfiq küç. 2A

ISBN 978-9952-8425-9-3

9 789952 842593

# AZƏRBAYCAN

QƏZETİ

1918-1920

*Müasir Azərbaycan dövlətçiliyinin bünövrəsinin qoyulduğu Cümhuriyyət illərində (1918-1920) nəşr edilən "Azərbaycan" qəzeti mətbuat tariximizdə müstəsna rol oynamışdır. Qəzetin səhifələrində dərc olunan rəsmi məlumatlar, yerli və xarici xəbərlər, dövrün qabaqcıl ziyalılarının məqalələri tariximizin bu zəngin səhifəsini əks etdirmək baxımından əvəzsizdir.*

*"Azərbaycan" qəzetinin ilk sayı 15 sentyabr 1918-ci ildə Gəncədə işıq üzü görmüş, 5-ci nömrədən etibarən qəzet Bakıda nəşr edilmişdir. Qəzetin sonuncu – 443-cü nömrəsi 28 aprel 1920-ci ildə çıxmışdır. "Azərbaycan"ın redaktorları Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim olmuşlar.*

*Cümhuriyyət dövrünün canlı şahidi olan "Azərbaycan" qəzetinin tam külliyyatının ilk dəfə olaraq ərəb əlifbasından latın qrafikalı müasir Azərbaycan əlifbasına çevrilməsini və çoxcildlik nəşrini ADA Universiteti həyata keçirir.*

**V cild**

(Fevral 1919)

UNİVERSİTET ° UNIVERSITY
ADA